Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi

Azərbaycan Respublikasının Diplomatiya Tarixi

II cild

Baş redaktor:
Azərbaycan Respublikasının Xarici işlər naziri,
tarix elmləri namizədi E.M.Məmmədyarov

Redaksiya heyəti:
Xarici İşlər Nazirliyinin məsul əməkdaşları:
tarix elmləri namizədi C.İ.Məmmədov,
tarix elmləri namizədi C.M.Vəkilov,
hüquq elmləri namizədi Ə.Q.Əskərov,
tarix elmləri namizədi C.Ə.Axundov

Cəmil Həsənli

Sovet dövründə Azərbaycanın Xarici Siyasəti (1920-1939)

10942
Azərbaycan Respublikası Prezidentinin
PREZİDENT KİTABXANASI

ADİLOĞLU
Bakı – 2012

ISBN 978-9952-25-135-7

C.P.Həsənli. Sovet Dövründə Azərbaycanın Xarici Siyasəti (1920-1939). Bakı, "ADİLOĞLU" nəşriyyatı - 2012, - 656 səh.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin qərarı ilə "Azərbaycan Respublikasının diplomatiya tarixi" seriyasından hazırlanan ikinci kitab ötən əsrin 20-30-cu illərinin xarici siyasətini əhatə edir. Tarix elmləri doktoru, professor C.Həsənli tərəfindən hazırlanmış bu kitabda 1920-1939-cu illərdə Azərbaycan diplomatiyasının keçdiyi çətin və maraqlı yol araşdırılmışdır. Müəllif Azərbaycan, Rusiya, Gürcüstan, Türkiyə, ABŞ, Fransa, Böyük Britaniya və digər ölkələrin nadir arxiv materiallarına əsasən, ötən əsrin 20-30-cu illərini əhatə edən Azərbaycan diplomatiya tarixinin maraqlı mənzərəsini yarada bilmişdir.

Sovet Azərbaycanının və respublikanın xarici ölkələrdə fəaliyyət göstərən mühacir təşkilatlarının siyasi-diplomatik fəaliyyətini əhatə edən bu kitabda Azərbaycan SSR-in ilk xarici siyasət addımları, respublikanın ərazi bütövlüyü uğrunda diplomatik mübarizəsi, Rusiya, İran, Türkiyə, Gürcüstan və Ermənistan kimi qonşu dövlətlərlə münasibətlər, Azərbaycan mühacirlərinin Paris və İstanbul mərkəzlərinin fəaliyyəti, onların Polşa siyasi dairələri ilə əlaqələri haqqında oxuculara geniş məlumat verilir. Kitabda Azərbaycan Sovet Respublikasının aidiyyəti olduğu Moskva, iştirak etdiyi Qars və Genuya konfransları, Azərbaycan mühacirətinin maraq göstərdiyi London, Spa, Kann, Genuya və Haaqa, Lozanna konfransları, Brüssel və Varşava müşavirələri haqqında, habelə, Azərbaycan mühacir hökumətinin Millətlər Cəmiyyəti ilə əlaqələri barədə maraqlı məqamlar vardır.

Kitab diplomatlar, beynəlxalq münasibətlər tarixi ilə məşğul olan mütəxəssislər, bu ixtisas üzrə təhsil alan tələbələr və yaxın keçmişimizin diplomatiya tarixi ilə maraqlanan geniş oxucu dairəsi üçün nəzərdə tutulur.

4722110018
121 - 2012 qrifli nəşr

© C.P.Həsənli, 2012
© Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi 2012
© "Adiloğlu", 2012

Giriş

1920-ci ilin aprel ayında Azərbaycanın sovetləşməsi ilə ölkənin həyatında yeni bir dövr başlandı. 70 illik böyük bir tarixi mərhələni əhatə edən bu dövrün səciyyəvi xüsusiyyətləri real müstəqilliyin itirilməsi, respublikanın sovet-sosialist inzibati idarəçilik sisteminə daxil olmasından ibarətdir. Ötən əsrin 20-ci illərində şimaldan gələn totalitar bolşevik rejimi tədricən ölkənin siyasi həyatında Stalinin terrora dayanan diktaturasının qurulması və sonrakı dövrdə inzibati amirlik üsullarının, partiya aparatı hökmranlığının bərqərar olunması ilə nəticələndi. Azərbaycan SSR digər sovet respublikaları ilə yanaşı, içində yaşadığı bu sistemin bütün mərhələlərindən keçdi, ağrılarını yaşadı və imkanlarından istifadə etdi. Ölkə öz siyasi həyatı, iqtisadi zənginliyi, mədəni rəngarəngliyi ilə SSRİ adlı ittifaq dövlətinin tərkib hissəsinə çevrildi.

Anadoluya getmək adı ilə Azərbaycana daxil olan XI Qırmızı Ordu ölkənin paytaxtı olan Bakı şəhərində və bölgələrdə bolşevik süngüsünə dayanan tam bir işğal rejimi yaratdı. Bakı işğal edildikdən az sonra qısa müddətdə bütün Azərbaycanın sovetləşdirilməsi, yerlərdə zor gücünə inzibati-idarəçilik sisteminin dəyişdirilməsi, yeni sistemin cəza orqanı kimi, inqilab komitələrinin tətbiq edilməsi həyata keçirildi. 1920-ci ilin may ayından başlayaraq, bolşevik işğalı və zorakılığına qarşı ölkəni antisovet üsyanlar dalğası bürüdü. Gəncə, Qarabağ, Tərtər, Zaqatala, Şəki, Lənkəran və digər yerlərdə başlanmış xalq üsyanları 1920-1921-ci illər ərzində amansızlıqla yatırıldı. Yalnız əlavə hərbi qüvvələr cəlb edilməklə yerlərdə dağıdılmış sovet orqanlarını bərpa etmək mümkün oldu. Azərbaycanda antisovet hərəkatın ən parlaq nümunəsi 1920-ci ilin may ayında baş vermiş Gəncə üsyanı idi. Respublikanın müstəqilliyi və istiqlaliyyəti uğrunda milli ordu hissələrinin ölüm-dirim savaşı kimi başlamış Gəncə üsyanı ümumşəhər xarakteri almaqla, milli ideya yolunda insanların necə böyük fədakarlıqla öz canlarını qurban verməsinin son dərəcə nadir bir örnəyinə çevrildi. Yalnız on mindən artıq insanı süngüyə keçirmək, şəhəri tamamilə dağıtmaq hesabına Gəncədə antisovet üsyan yatırıldı. Gəncə hadisələri Azərbaycanda

Sovet hakimiyyətinin dinc yolla qurulması haqqında bolşevik illüziyalarına son qoydu və yeni rejim ölkədə öz yerini uzun müddət üçün süngü üzərində müəyyən etdi. Böyük qurbanlar verilsə də, sovetləşməyə qarşı genişlənən milli müqavimət hərəkatı ciddi bir nəticə vermədi. Haqlı olaraq, M.Ə.Rəsulzadə sovetlərin əhəmiyyətli böhranını əyalətlərdə deyil, mərkəzdə axtarırdı. Qafqaz respublikalarında tez-tez baş verən və amansızlıqla yatırılan antisovet üsyanları təhlil edərək, o, yazırdı: "Nə qədər ki, Rusiya hər hansı ciddi bir müharibəyə cəlb olunmayıb və ya Rusiyada ciddi bir ağırlaşma baş verməyib, heç bir silahlı çıxışla məqsədə çatmaq mümkün olmayacaq".[1] M.Ə.Rəsulzadənin 1924-cü ildə gəldiyi bu qənaət özünü doğrultdu və 70 ildən artıq bir müddət keçdikdən sonra, ötən əsrin 80-90-cı illərində Sovet İttifaqını bürümüş qlobal böhran, bütövlükdə, onun dağılması, milli respublikaların müstəqillik qazanması ilə nəticələndi.

Müstəqil Azərbaycan dövləti 1920-ci ildə dünya birliyi tərəfindən tanındığı, geniş beynəlxalq əlaqələrə girdiyi, beynəlxalq münasibətlərin və beynəlxalq hüququn subyektinə çevirildiyi bir dövdə Sovet Rusiyası tərəfindən işğal edildi. Milli hökumət dövründə çətinliklə əldə edilmiş beynəlxalq etimad itirilməyə başladı. 1918-1920-ci illərdə mövcud olmuş ölkənin müstəqil xarici siyasət xətti bütövlükdə bolşevik Rusiyasının maraqlarına tabe edildi. Sovet Azərbaycanı kommunist ideyalarının Şərq ölkələrinə yayılması üçün başlıca əməliyyat meydanına çevirildi. Sovet Rusiyasının Şərqdə Britaniya əleyhinə mübarizəsində, İran və Türkiyənin bolşevik ekspermentlərinin sınaq meydanına çevrilməsində Azərbaycan mühüm əhəmiyyət kəsb etməyə başladı. 1920-ci ilin sentyabr ayında Bakıda Şərq Xalqlarının I qurultayının keçirilməsi sovet planlarında Azərbaycanı anti-imperialist mübarizənin mərkəzinə çevirmişdi. Moskva, məhz, Azərbaycan və Mərkəzi Asiya müsəlmanları vasitəsilə Böyük Britaniyanın Yaxın Şərqdə nüfuzuna ağır zərbə vurmaq, Avropa dövlətlərini bu regiondan çıxarmaq, Bakı və Daşkəndin təzyiqi ilə Londonu Sovet şərtlərinə məcbur etmək istəyirdi. Sovet hökumətinin başçısı V.Lenin 1921-ci ildə İngiltərə ilə müqavilə ərəfəsində Şərq xalqlarını Britaniyaya qarşı səfərbər etmək üçün gizli şəkildə sovet diplomatik aparatına belə bir təlimat verirdi: " Yaza qədər qoşunları Xorasan Sovet Respublikasının yaradılması bir vəzifə olaraq Sokolnikova tapşırılsın. Bakı və Daşkəndə xüsusi tapşırıqlarla səfirlər göndərilsin, onlara tapşırılsın ki, bizim adımızdan deyil, məhz, Azərbaycan və Buxara-

[1] А.М.Топчибашы и М.Э.Расулзаде: Переписка. 1923-1926 гг. Сост., предисл. и прим. С.М.Исхаков. Москва, 2012, с.53

nın adından Britaniya imperiyasına daha güclü şəkildə hücum etsinlər, nota və məktublarda heç vaxt bu barədə *(bu işin arxasında Sovet Rusiyasının durduğu barədə -C.H.)* söhbət açmasınlar...Yazılı formada deyil, yalnız, şifahi formada bütün Şərq xalqları xəbərdar edilsin ki, biz İngiltərəyə kələk gələcəyik".[2] Beynəlxalq imperializmə qarşı səfərbər edilən Şərqin "məzlum zəhmətkeşləri" bolşevik işğalından sonra müstəqilliyi ilə bərabər, milli varlığı və maddi sərvətləri də əlindən alınmış Azərbaycandan nicat gözləyirdi. Lakin sosialist dəyişikliyi zəminində Şərqin qapısında mayak olacağı iddia edilən Azərbaycan sovetləşmənin ilk günlərindən başlayaraq, öz çırağını yandırmağa neft tapa bilmirdi. Hətta, Sovet Rusiyasının Xalq Xarici İşlər Komissarlığı 1921-ci ilin avqustunda RK(b)P MK Siyasi Bürosuna göndərdiyi məlumatda açıq şəkildə etiraf edirdi ki, Qırmızı Ordunun komanda heyəti yerli hökumətlə tamamilə hesablaşmır və Azərbaycanda sözün tam mənasında müstəmləkəçilik siyasəti həyata keçirilir.[3] Bütün bunları nəzərə alaraq, M.Ə.Rəsulzadə İ.Stalin başda olmaqla, Sovetlərin yeritdiyi milli siyasətin, Çar Rusiyasının müstəmləkəçilik siyasətindən fərqlənmədiyini və xalqların hüquqlarına münasibətdə "Ağ Rusiya ilə Qırmızı Rusiya arasında" heç bir mahiyyət fərqi olmadığını bildirirdi.[4]

1920-ci ildə Azərbaycanda sistem dəyişikliyi baş verdi. Azad siyasi, iqtisadi və sosial münasibətləri proletar diktaturası adı altında bolşevik qaydaları əvəzlədi. Xüsusi mülkiyyət qanundankənar elan edildi, on minlərlə xırda və orta mülkiyyətçi bolşevik talanlarına məruz qaldı. Neft sənayesi və ölkənin digər sərvətləri inqilabi dekretlər vasitəsilə Sovet Rusiyasının nəzarətinə verildi. N.Nərimanovun sözləri ilə desək: "Sovet Azərbaycanı özü könüllü olaraq neftin Sovet Rusiyası zəhmətkeşlərinə mənsub olduğunu elan etmişdi, lakin Sovet respublikasında başda "kral" Serebrovski olmaqla, "monarxiya" yaratmaq" nəyə lazım idi, o, indiyə qədər elə bilir ki, azərbaycanlıları aypara və ulduzla aldadır.[5] Neft sənayesinin mərkəzdən müəyyən olunan repressiv üsullarla idarə edilməsi on illər boyunca ölkənin

[2] İngiltərə ilə müqavilə bağlamağın əsasları haqqında V.Leninin tezisləri. 1921.// Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi (RDSSTA), f.2, s.2, i.1292, v.1-2

[3] RSFSR Xalq Xarici İşlər Komissarlığının RK(b)P MK Siyasi Bürosuna məlumatı. 04.08.1921.// Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİ SSA), f.1, s.1, i.2a, v.22

[4] İstanbulun gündəlik "Yeni Şark" qəzetinin əməkdaşı ilə Rəsulzadənin söhbətinin yazıya alınmış mətni. 06.02.1923.// RDSSTA, f.558, s.11, i.746, v.26

[5] N.Nərimanov.Ucqarlarda inqilabımızın tarixinə dair Mərkəzi Komitəyə, İ.Stalinə məktub. Surəti L.Trotskiyə, K. Radekə. Bakı, 1992, s.35; N.Nərimanov. Məktublar və Qarabağ məsələsinə dair sənədlər. Bakı, 2002, s.39-40

iqtisadi və sosial həyatında aparıcı rol oynayan iri kapital nümayəndələrini bolşevik terrorunun qurbanına çevirildi. İdarəçilik sisteminin pozulması, minlərlə mütəxəssislərin məhv edilməsi, ardı-arası kəsilməyən bolşevik müsadirələri ölkənin iqtisadi həyatının pozulması ilə nəticələndi. Sovet hakimiyyətinin ilk aylarında Bakı şəhərində yetmiş min adam burjua adı ilə bolşevizmin düşməni elan edildi və "əməkçi fəhlə sinfinə" məxsus olmadıqlarından onlar nəinki, bütün siyasi hüquqlardan, eyni zanada minimum çörək normasından belə, məhrum edildilər.[6]

Vətəndaş müharibəsində dağıdılmış Sovet Rusiyasının iqtisadi həyatının bərpası üçün neftin kustar üsullarla çıxarılması Bakı neft sənayesinin vəhşicəsinə talan olunmasına gətirib çıxardı. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda neft istehsalı ən aşağı səviyyəyə endi. 1920-ci ildə Bakıda cəmisi 176,6 milyon pud neft çıxarılmışdı ki, bu, nəinki 1913-cü il, hətta, 1888-ci il səviyyəsindən də aşağı göstərici idi.[7] 1921-ci ildə Bakıya gəlib, mədənlərin vəhşicəsinə istismarını və ölkənin fəlakətli dərəcədə yoxsulluğunu görən məşhur Amerika qazmaçı-mühəndisi Morris haqlı olaraq demişdi: "Siz qızıl üzərində oturub, acından ölən yoxsul dilənçisiniz".[8] Bütün bunlarla yanaşı, "neft diplomatiyası" Sovet Azərbaycanının xarici siyasətinin başlıca istiqamətlərindən biri idi və ötən əsrin 20-ci illərində keçirilmiş Genuya, Haaqa kimi beynəlxalq konfranslar, əsasən, Bakı neftinin müzakirəsi üzərində qurulmuşdu. Bu konfransların və bütövlükdə dünya siyasətini idarə edən böyük şirkətlərin Azərbaycan nefti, Abşeron yarımadasının neftli torpaqlarında, konsessiya almaq uğrunda gərgin mübarizəsi başlanmışdı.

Bolşevik işğalının ilk illərində ölkənin bütün həyatına sirayət etmiş hərc-mərclik Azərbaycanın xarici əlaqələrini də iflic etdi. Rusiya Sovet hökumətinin təlimatı ilə xarici diplomatların, Avropa dövlətləri hərbi və biznes dairələrinin bir sıra nümayəndələrinin Bakıda həbs edilməsi ciddi beynəlxalq qalmaqala səbəb oldu. Sovet Azərbaycanının beynəlxalq hüquqa zidd olan bu addımından Moskva öz diplomatik maraqları üçün istifadə

[6] Bax: Г.Спойер. Политический доклад о большевистском движении в Азербайджане. Конфиденциальный отчет. 29.07.1920.// Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. Составитель Н.А.Максвелл. Баку, 2011, с.569

[7] Bax: Azərbaycan tarixinə dair materiallar. Azərbaycan tarixi muzeyinin əsərləri. II cild. Bakı, 1957, s.309

[8] Б.М.Шпотов. Использование опыта США в реконструкции советской нефтяной промышленности в 1920-30-е гг.// Российский журнал менеджмента. Том 4, 2006, № 1, с.164

edir, Sovet Rusiyasına edilən müəyyən güzəştlər müqabilində xarici diplomatlar dəstə-dəstə Bakı təcridxanalarından azad edilirdi. Lakin belə zərərli diplomatik gedişlər yeni formalaşan Azərbaycan sovet diplomatiyası üçün uğursuz nümunələrə çevrilir, ölkənin beynəlxalq nüfuzuna ağır zərbə vurur, dünyanın siyasi xəritəsində yeni görünməyə başlamış gənc bir dövlətə münasibətdə siyasi və diplomatik etimadı azaldırdı.

Sovet Azərbaycanının xarici siyasəti 1920-ci ilin aprel çevrilişindən sonra Cənubi Qafqazın qonşu dövlətləri tərəfindən Azərbaycana qarşı həyata keçirilən təcavüz aktına cavab olaraq, ilk diplomatik addımların atılması ilə başladı. 1920-ci ilin aprel çevrilişi ərəfəsində Moskva ilə separat sövdələşməyə girmiş erməni daşnakları və gürcü menşevikləri Azərbaycanın işğalında göstərdikləri xidmətlərə görə, mərkəzi bolşevik hökumətindən pay umurdular. Sovet hakimiyyətinin ilk aylarında Azərbaycanın ərazi bütövlüyünün şübhə altına alınması, Xalq Cümhuriyyəti dövründə ona məxsus olan mübahisəsiz ərazilərin mübahisə obyektinə çevrilməsi, min illər boyu müsəlmanlara məxsus olan torpaqların hərraca qoyulması, Sovetlərin Cənubi Qafqazda formalaşan yeni diplomatiyasının çıxış nöqtəsini təşkil edirdi. Sovet Rusiyası regionda daşnak Ermənistanı və menşevik Gürcüstanı ilə dostluq siyasətini Sovet Azərbaycanı ərazilərinin onlara "güzəşt" edilməsi hesabına qurmaq istəyirdi. 1920-ci ilin may ayının 7-də Sovet Rusiyası ilə Gürcüstan Respublikası arasında Moskvada bağlanmış müqavilə və mayın 12-də bu müqaviləyə əlavə olaraq imzalanmış saziş belə siyasətin aydın ifadəsi idi. Bu siyasət respublikanın Zaqatala, Qarabağ, Zəngəzur, Naxçıvan, Şərur-Dərələyəz bölgələrinin diplomatik oyunların obyektinə çevirilməsi ilə nəticələndi. Cənubi Qafqazın bolşevik fəthində mühüm rol oynamış S.Kirov və Q.Orconikidze kimi nüfuzlu kommunistlər Azərbaycana qarşı yönəlmiş bu siyasəti "zaqatalaçılıq" kimi səciyyələndirir, belə diplomatik oyunların arxasında mərkəzdəki ermənilərin dayandığını yazırdılar. Lakin 1921-ci ilin yayında Cənubi Qafqaz respublikalarının daxili sərhədlərinin nizamlanması üzrə Tiflisdə keçirilmiş konfransın gedişində əldə olunmuş razılaşmalar və noyabr ayının 15-də iki ölkə arasında imzalanmış saziş əsasında Gürcüstan Sovet Respublikası Zaqatala dairəsinə qarşı irəli sürdüyü bütün iddialardan imtina etdi.

Sovet diplomatiyasının Azərbaycanda süni ərazi mübahisələri yaradıb, Cənubi Qafqazı idarə etmək cəhdləri respublikaya baha başa gəldi. Azərbaycanın ərazi bütövlüyü məsələsi təhlükə altına düşməyə başladı.

Ötən əsrin 20-ci illərində Cənubi Qafqazda baş verən məhəlli böhranlardan Azərbaycan torpaqları hesabına çıxılması sovet siyasətinin ənənəsinə çevrildi. 1920-ci ilin sentyabr ayında başlanan Türkiyə-Ermənistan müharibəsi həmin ilin noyabrında daşnakların tam məğlubiyyəti ilə nəticələndi. Lakin Sovet Rusiyasının planı üzrə bu məğlubiyyətin zərərini Azərbaycan ödəməli oldu. 1918-ci il hadisələrinin təkrar olunmasından ehtiyatlanan Rusiya diplomatiyası, türklərin Bakıya yolunu bağlamaqdan çıxış yolunu tarixən Azərbaycana məxsus olan Zəngəzur torpaqlarının bir hissəsini məğlub Ermənistana verilməsində tapdı. Sovet hökumətinin Qafqaz siyasətində mühüm rol oynayan Q.Orconikidze və İ.Stalinin təklifi ilə Moskva Türkiyə ilə Azərbaycan arasında birbaşa əlaqələri kəsmək üçün Zəngəzurun Ermənistana verilməsini başa çatdırdı. Başdan-başa Azərbaycan türklərinin yaşadığı Dərələyəz Cənubi Qafqazda sovet siyasətinin ilk qurbanına çevrildi. Naxçıvan üçün ciddi təhlükə yarandı. Yalnız türk diplomatiyasının regiondakı fəaliyyəti və Moskva danışıqlarında sərt mövqeyi nəticəsində Naxçıvanı xilas etmək mümkün oldu. 1921-ci ilin Moskva və Qars müqavilələri ilə Naxçıvanın əbədi olaraq Azərbaycanın himayəsində saxlanılması siyasi cəhətdən təsdiqləndi və beynəlxalq status aldı. Lakin Moskva müqaviləsi imzalanana qədər dağı və aranı ilə birlikdə Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab edən bolşeviklər 1921-ci ilin yazından etibarən bölgənin dağlıq hissəsinin Ermənistana verilməsi haqqında müxtəlif təhlükəli diplomatik gedişlərə əl atdılar. Bunun ən aydın ifadəsi 1921-ci ilin iyun ayının 3-də keçirilmiş RK(b)P MK Qafqaz Bürosunun iclasında tamamilə məxfi formada Qarabağın dağlıq hissəsinin Ermənistana məxsusluğa haqqında gizli qərarın qəbul olunmasında öz əksini tapdı. Yalnız, Azərbaycan İnqilab Komitəsi və respublika Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun kəskin müqaviməti nəticəsində Ermənistan Qafqaz Bürosunun Azərbaycan SSR-in ərazi bütövlüyünə qarşı yönəlmiş bu gizli qərarını gerçəkləşdirə bilmədi. Məhz, bundan sonra Qarabağla bağlı Moskvadan qidalanan gizli diplomatik gedişlər açıq qarşıdurma müstəvisinə keçirildi. 1921-ci ilin iyul ayında Qafqaz Bürosunun Tiflisdə keçirilən plenumunda Qarabağın dağlıq hissəsinin Azərbaycandan alınıb, Ermənistana verilməsinə ciddi cəhdlər olsa da, Nəriman Nərimanovun sərt bəyanatı qarşısında RK(b)P MK Qafqaz Bürosu öz səhv qərarından geri çəkildi və Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması, bilavasitə, Azərbaycanın hüdudlarında bu əraziyə muxtar vilayət statusu verilməsi haqqında qərar qəbul etdi. Qarabağın siyasi

həyatında və respublikanın milli taleyində ağır sarsıntılarla müşayiət edilən bu uğursuz proseslər 1923-cü ildə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ilə növbəti mərhələyə qədəm qoydu.

Sovet Azərbaycanın daxili və xarici siyasətində N.Nərimanov əsas sima hesab edilirdi. Azərbaycanın sovetləşməsi prosesində onun adından və nüfuzundan geniş istifadə edildi. Lakin aprel çevrilişindən sonra Bakıya gələn N.Nərimanov Azərbaycanın sağa-sola talan edilməsi barədə öz tərəfdarlarının həyəcanlı məlumatları ilə qarşılaşdı. Onun respublikada milli kommunizm zəminində yerli sovet hakimiyyəti yaratmaq, ölkənin idarəçiliyində həlledici fiqura çevrilmək cəhdləri uğursuzluğa düçar oldu. 1920-ci ilin noyabr ayının sonlarında Ermənistanda Sovet hakimiyyətinin elan edilməsi münasibətilə Azərbaycan İnqilab Komitəsinin sədri kimi N.Nərimanovun respublikanın bir sıra əraziləri ilə bağlı noyabr ayının 30-da səsləndirdiyi bəyanat onun siyasi karyerasının ciddi diplomatik uğursuzluğu idi. Moskvanın Qafqazdakı nümayəndəsi Q.Orconikidzenin təzyiqilə onun belə bir vəd verməsi Nərimanov başda olmaqla, Azərbaycan rəhbərliyini öz səhvlərinin girovuna çevirdi.[9]

Sovet qruculuğunun bir sıra köklü məsələlərinə, respublikanın daxili və xarici siyasətinə münasibətdə N.Nərimanovla Moskvanın nümayəndələri, aprel çevrilişinin ilk günlərində Bakıda həlledici vəzifələri ələ keçirmiş yadelli bolşeviklər, onların təsirində olan bir sıra yerli müsəlman kommunistləri arasında ciddi fikir ayrılıqları yarandı. V.Lenin və İ.Stalinə Q.Orconikidze yazırdı ki, partiyada təmizləmə işi ilə bağlı nərimanovçu dəstə əhatəyə alınmışdır, onların əleyhinə ifşaedici materiallar toplanır.[10] Nərimanovun 1922-ci ilin yazından etibarən, əvvəlcə Tiflisə, sonra isə Moskvaya rəhbər işə aparılması bu fikir ayrılıqlarının nəticəsi olub, onun respublikadan uzaqlaşdırılmasına xidmət edirdi. Ümumiyyətlə, N.Nərimanov Sovet rəhbərliyi üçün kim idi? Bu sualın ən aydın cavabını G.Çiçerinə məktubunda İ.Stalin verirdi. O, qeyd edirdi ki, Nərmanov bizim üçün siyasət yeritməyə görə deyil, bayraq, dekorasiya kimi lazımdır.[11] Lakin Nərimanov dekorasiya olmaq istəmədikdə, onu, özünün etiraf etdiyi kimi, müxtəlif yüksək vəzifələrə irəli çəkməklə Azərbaycandan uzaqlaşdırdılar və respublikanı başsız qoydular. Doktor Nərimanov Azərbaycanın simasızlaşdırılmasına yönəlmiş belə

[9] Йорг Баберовски. Враг есть везде. Сталинизм на Кавказе. М., 2010, с.237

[10] Q.Orconikidzedən V.Lenin və İ.Stalinə gizli teleqramı. 02.11.1921.// ARPİİ SSA, f.1, s.2,i.24a, v.26

[11] İ.Stalinin G.Çiçerinə məktubu. 16.08.1919.// RDSSTA, f.558, s.11, i.824, v.4

siyasətə etiraz etdikdə, 1923-cü ilin iyununda siyasi əleyhdarları onun Sovet siyasətinə qarşı çıxışlarının İstanbulda M.Ə.Rəsulzadənin SSRİ-yə qarşı başladığı "barışmaz təbliğat kampaniyası" ilə eyni vaxta düşməsini təsadüfü hesab etmirdilər.[12]

Xarici siyasət məsələlərində N.Nərimanovun Moskva, xüsusilə, Sovet Rusiyasının Xarici işlər komissarı G.Çiçerinlə fikir ayrılıqları Şərq siyasətinə, əsasən İran və Türkiyəyə münasibətlə bağlı idi. İran və Türkiyədə inqilabi hərəkatla bağlı Nərimanov Çiçerinin fikirlərini tamamilə səhv hesab edirdi və açıq şəkildə yazırdı ki, "Çiçerin ingilislərə aldanıb, bizim əlimizlə İranın inqilab çırağını söndürdü."[13] Nərimanovun fikrincə, İran inqilabına Çiçerinin belə münasibəti onun Qərb ölkələri ilə əlaqələrə həddindən artıq aludə olması ilə bağlı idi. Əslində, N.Nərimanov özü də etiraf edirdi ki, onun və G.Çiçerinin məqsədi Avropada daha tez sosial inqilab yaratmaq idi, lakin Nərimanov Şərqdən keçərək, Qərbdə sosial partlayış törətmək, Çiçerin isə "təbliğat və Avropa kapitalına yaxınlaşmaq yolu ilə Qərbi inqilab atəşilə alovlandırmaq istəyirdi". [14] Bu fikir ayrılıqları Sovet Azərbaycanının yeni formalaşan sosialist diplomatiyasına da öz təsirini göstərir, bir sıra məsələlərə münasibətdə respublika xarici siyasət idarəsi Nərimanovun göstərişləri ilə Çiçerinin təlimatları arasında tərəddüd edirdi. İran inqilabı Nərimanovun təbirincə, ona görə məğlub olmuşdu ki, ilk növbədə, "Lloyd Corca belə lazım idi".[15] Eyni mövqeyi Nərimanov kamalçı hərəkata münasibətdə də sərgiləyirdi. 1920-ci ilin dekabrında keçirilmiş VIII Sovetlər qurultayındakı çıxışında V.Lenin kamalçıları "türk oktyabrçıları" adlandırsa da, Sovet Rusiyasının Türkiyəyə münasibəti birmənalı deyildi.[16] N.Nərimanov yazırdı ki, "əgər... biz İranda və Türkiyədə azadlıq hərəkatına real, qəti siyasətlə rəhbərlik etsəydik, indi mübaliğəsiz deyə bilərdik: biz Antantaya hökmlə diktə edərdik. İki ən mühüm məntəqə - körfəzlər və Hindistana açılan qapılar birbaşa bizim nüfuzumuz altında olardı... Bax, bu o Şərq məsələsidir

[12] N.Nərmanovun məruzəsi və bəyanatının araşdırılması üzrə keçirilən iclasın protokolu. 13.06.1923.// RDSSTA, f.588, s.2, i.176, v.81

[13] N.Nərimanovun İ.Əbilova məktubu.// ARPİİ SSA, f.609, s.1, i.92, v.116

[14] N.Nərimanov.Ucqarlarda inqilabımızın tarixinə dair Mərkəzi Komitəyə, İ. Stalinə məktub. Surəti L.Trotskiyə, K. Radekə.Bakı, 1992, s.13; N.Nərimanov. Məktublar və Qarabağ məsələsinə dair sənədlər. Bakı, 2002, s.6

[15] N.Nərimanov.Ucqarlarda inqilabımızın tarixinə dair Mərkəzi Komitəyə, İ. Stalinə məktub. Surəti L.Trotskiyə, K. Radekə.Bakı, 1992, s.13

[16] Bax: Mirsəid Sultan-Qaliyev. Mən kiməm? Avtobioqrafik oçerk. RK(b)P MK üzvülərinə məktub. Surəti İ.V.Stalin və L.D.Trotskiyə. 23.05.1923 .// RDSSTA, f.82, s.2, i.269, v.63

ki, mən həmişə onun barəsində danışmışam".[17] Sovet rəhbərliyinə qarşı ilk müxalifətçilik mövqeyindən çıxış edən türk-müsəlman xalqlarının nümayəndələrindən biri kimi, M.Sultan-Qaliyev də Şərq siyasətində N.Nərimanovun fikirlərini bölüşürdü. O, haqlı olaraq yazırdı ki, Sovet Rusiyasının Türkiyəyə münasibətdə vahid siyasi xətti yoxdur, "Türkiyədə kimə istinad etmək seçimində Moskva Mustafa Kamalla Ənvər paşa və ya "sol" ənvərçilər arasında tərəddüd edirdi".[18] Bütün bunlara baxmayaraq, Sovet Rusiyasının 1921-ci ilin fevral ayında İranla, mart ayında Türkiyə ilə bağladığı müqavilələr, yalnız Moskvanın deyil, Cənubi Qafqazın yeni sovet respublikalarının da qonşu Şərq ölkələri ilə münasibətlərində inqilabi pafosa son qoydu. 1921-ci ilin sentyabr-oktyabr aylarında keçirilmiş Qars konfransında bağlanmış müqavilə Cənubi Qafqaz respublikaları nümayəndələrinin imzaladığı ilk çoxtərəfli beynəlxalq sənəd idi. Sovet Rusiyasının iştirakı ilə Bakı, Tiflis və İrəvanın Türkiyə ilə dövlətlərarası müqavilə imzalaması onların beynəlxalq nüfuzuna müsbət təsir göstərdi. Ermənistan Sovet Respublikası Qars müqaviləsini imzalamaqla, 1921-ci ilin mart ayında Sovet Rusiyası ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsini təsdiq etdi və bununla da, XIX əsrin ikinci yarısından beynəlxalq müzakirələrə çevrilmiş "Erməni məsələsinə" son qoyuldu. Moskva və Qars müqavilələrinə, Naxçıvanın Azərbaycanın himayəsində saxlanması barədə xüsusi maddənin daxil edilməsi, Cənubi Qafqazda formalaşan geosiyasi reallıqların ən əhəmiyyətli yekunu idi.

Sovet Azərbaycanının xarici siyasətində qonşu Qafqaz respublikaları və Sovet Rusiyası ilə münasibətlər xüsusi yer tuturdu. Sovet respublikalarının RSFSR ilə diplomatik münasibətlərinin hansı formada qurulması və onların öz aralarında qarşılıqlı münasibətlərinin necə olması barədə uzunuzadı müzakirələr getsə də, 1922-ci ilin yayına qədər milli sovet respublikaları arasında formal diplomatik münasibətlər saxlanıldı. Lakin 1921-ci ilin yayından başlayaraq, Cənubi Qafqaz respublikaları arasında müxtəlif təsərrüfat orqanlarının birləşdirilməsi, bir il sonra bu respublikalarda xarici işlər komissarlıqlarının ləğv edilməsi, onların yerinə xarici əlaqələr üzrə katibliyin yaradılması ilə başa çatdı. 1921-ci ilin dekabr ayının 30-da RSFSR Xarici İşlər Kommissarlığı kollegiyasının qərarı ilə milli sovet respublikala-

[17] N.Nərimanov.Ucqarlarda inqilabımızın tarixinə dair Mərkəzi Komitəyə, İ. Stalinə məktub. Surəti L.Trotskiyə, K. Radekə.Bakı, 1992, s.46

[18] Mirsəid Sultan-Qaliyev. Mən kiməm? Avtobioqrafik oçerk. RK(b)P MK üzvülərinə məktub. Surəti İ.V.Stalin və L.D.Trotskiyə. 23.05.1923 .// RDSSTA, f.82, s.2, i.269, v.63

rının xaricdəki nümayəndəliklərinin səlahiyyətlərinin məhdudlaşdırılması, az sonra onların ləğvi ilə nəticələndi. Əvvəlcə Cənubi Qafqaz Sovet respublikalarının bir-birilərində olan diplomatik nümyəndəlikləri, növbəti mərhələdə isə, onların İran və Türkiyədə yeni yaradılmış diplomatik idarələri öz fəaliyyətlərini dayandırdılar. 1922-ci ilin iyun-iyul aylarında Cənubi Qafqaz respubliklarının xarici siyasət fəaliyyətlərinin birləşdirilməsi prosesi başa çatdırıldı və həmin ilin dekabrında SSRİ-nin yaradılması ilə müttəfiq respublikalarının xarici siyasət funksiyası, bütövlükdə, İttifaq dövlətinə verildi.

Bundan sonrakı dövrdə Azərbaycanın xarici siyasətini yeritmək, onun diplomatik maraqlarını müdafiə etmək daha cox respublikanın milli mühacir hökumətinin üzərinə düşür. Aprel işğalından sonra Avropda Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparan respublikanın Paris sülh konfransındakı nümayəndə heyəti, onun başçısı Ə.M.Topçubaşovun bolşevik işğalına qarşı mübarizəsi Azərbaycan diplomatiya tarixinin ən maraqlı səhifələri sayıla bilər. Ölkənin istiqlalının bərpa edilməsi uğrunda mübarizidə Azərbaycan nümayəndə heyəti beynəlxalq konfranslar zamanı müttəfiq dövlətlərin başçılarına, London, Spa, Genuya, Haaqa konfranslarının sədrlərinə, Kann müşavirəsinin iştirakçılarına ardıcıl müraciətlər etdi. Bilavastə, Bakı nefti üzərində qurulmuş Genuya müzakirələrinin nəticəsiz qalması, bir sıra məsələlərlə yanaşı, eyni zamanda, Azərbaycan mühacirət diplomatiyasının fəal siyasi addımları ilə bağlı idi. Versal Ali Şurası tərəfindən de-fakto tanınmış Azərbaycanın Millətlər Cəmiyyətinin üzvlüyünə qəbul edilməsi uğrunda Ə.M.Topçubaşov və onun rəhbərlik etdiyi nümayəndə heyəti böyük bir mübarizə yolu keçdi. Lakin Fransada yerləşən Azərbaycan mühacir hökuməti təmsil etdiyi ölkənin ərazilərinə nəzarət etmədiyindən Millətlər Cəmiyyətinin üzvlüyünə qəbulu mümkün olmadı.

1922-ci ilin sonlarında M.Ə.Rəsulzadənin Türkiyəyə gəlişi ilə Azərbaycanın xaricdə ikinci bir mühacirət mərkəzi formalaşdı. Müsavat Partiyasının Xarici Bürosunun yaradılması, Azərbaycan Milli Mərkəzinin təsis edilməsi bolşevizmə qarşı mübarizəyə əməli xarakter verdi. Türkiyədə nəşr edilən "Yeni Kafkasiya", "Azəri Türk", "Odlu Yurd" jurnalları Azərbaycan istiqlal mübarizəsinin tribunasına çevrildi. Bu jurnallar ətrafında birləşən siyasi mühacirlər ötən əsrin 20-ci illərində Azərbaycan Milli Mərkəzini yaratmaqla istiqlal uğrunda mübarizə prosesinə yeni ruh verdilər. Azərbaycan siyasi mühacirətinin Paris mərkəzi ilə yanaşı, İstanbul mərkəzinin formalaş-

ması müstəqillik uğrunda mübarizənin diplomatik cəbhəsinin güclənməsində əhəmiyyətli hadisə oldu.

Qafqaz Birliyinin yaradılması Azərbaycan mühacir diplomatiyasının çıxış nöqtəsini yəşkil edirdi. Hələ, 1921-ci ilin iyun ayının 10-da Ə.M.Topçubaşovun rəhbərliyi ilə dörd Qafqaz respublikasının (Azərbaycan, Gürcüstan, Şimali Qafqaz Respublikası və Ermənistan) Paris bəyannaməsini imzalamsı Qərb müttəfiqlərinin Qafqaza olan marağını artırdı. Siyasi-diplomatik baxımdan, məhz, bu bünövrə üzərində 1934-cü ilin iyulunda Brüssel Paktı imzalandı və üç Qafqaz respublikasını birləşdirən Qafqaz Konfederasiya Şurası yaradıldı. Qafqaz Konfederasiya Paktının yaradılması bu ideyanın bünövrəsini qoyan Ə.M.Topçubaşovun siyasi-diplomatik fəaliyyətinin yekunu, M.Ə.Rəsulzadənin isə, bolşevizmə qarşı mübarizədə qüvvələri birləşdirmək ideyasının qələbəsi idi. Şuranın və onun Rəyasət Heyətinin işində Azərbaycan mühacir xadimləri həlledici rol oynayırdılar.

II Dünya müharibəsi ərəfəsində beynəlxalq aləmdə yaranan yeni geosiyasi mənzərə Azərbaycan mühacirət dairələrindən yeni taktiki addımlar tələb edirdi. Almaniyada faşizmin hakimiyyət başına gəlməsi, İspaniyada vətəndaş müharibəsinin başlanması, Avropa ölkələrinin bir-birinin ardınca istila edilməsi və s. məsələlərə münasibətdə Azərbaycan mühacirət diplomatiyası çevik mövqe nümayiş etdirə bildi. Alman faşizminin işğalçı siyasətini dəyərləndirərkən, Azərbaycan və Gürcüstan mühacirət liderlərinin, "müstəqil dövlətləri istila edən Almaniya bizə müstəqllik verə bilməz" fikri faşizmdən nicat gözləyən bir sıra Sovet xalqlarını düzgün siyasi istiqamətə yönəltdi.

Ötən əsrin 30-cu illərində Azərbaycan Prometey hərəkatının mərkəzində dayanırdı. Arxasında Y.Pilsudski başda olmaqla, Polşa hökumət dairələrinin dayandığı Prometey hərəkatı Sovet İttifaqına qarşı geniş cəbhənin yaradılmasını nəzərdə tuturdu. Qafqaz respublikaları ilə yanaşı Türküstan, Ukrayna, Krım mühacir təşkilatları da Prometey blokunda təmsil edilirdilər. II Dünya müharibəsi ərəfəsində Prometey hərəkatı qeyri-rus xalqların SSRİ-yə qarşı antisovet mübarizəsinin başlıca mərkəzinə çevrilmişdi. Sovet İttifaqı ilə Almaniya arasında 1939-cu ilin avqust ayının 23-də imzalanmış müqaviləyə əsasən Polşa II Dünya müharibəsinin ilk hədəfinə çevrildiyindən, ötən əsrin 20-30-cu illərində Varşavanın Prometey hərəkatını himayə etməsi prosesi başa çatdı. 1939-cu ilin sentyabrında II Dünya müharibəsinin başlanması ilə bütün dünya, o cümlədən Sovet Azərbaycanı və respublikanın xarici

ölkələrdəki mühacir mərkəzləri siyasi-diplomatik baxımdan yeni mərhələyə daxil oldu.

Azərbaycan xarici siyasətinin 1920-1939-cu illərini əhatə edən bu araşdırmanın hazırlanmasında mənbə və tarixi ədəbiyyatın geniş dairəsindən istifadə edilmişdir. Müxtəlif ölkələrin çoxsaylı arxiv fondlarından əldə edilib, elmi tədqiqata cəlb edilən sənəd və materialların təhlili Azərbaycan diplomatiya tarixinin, Sovet Azərbaycanının xarici siyasətinin bir sıra maraqlı məqamlarını aydınlaşdırmağa imkan vermişdir. Bu araşdırmanın hazırlanması zamanı Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Azərbaycan Respublikası Dövlət Arxivi, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivi, Fransanın Rusiya, Qafqaz və Mərkəzi Avropa tədqiqat mərkəzində yerləşən Əli Mərdan bəy Topçibaşinin Arxivi, Rusiya Federasiyası Xarici Siyasət Arxivi, Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi, Rusiya Federasiyası Dövlət Arxivi, Rusiya Dövlət Ən Yeni Tarix Arxivi, Rusiya Dövlət Hərbi Tarix Arxivi, Fransa Xarici İşlər Nazirliyinin Diplomatik Arxivi, ABŞ Milli Arxivi və Sənədlər İdarəsi, Corc Vaşinqton Universiteti yanında Milli Təhlükəsizlik Arxivi, Birləşmiş Krallığın Milli Arxivi, Gürcüstan Dövlət Tarix Arxivi, Gürcüstan Daxili İşlər Nazirliyinin Arxivi və digər arxivlərin zəngin fondlarından geniş istifadə edilmişdir. Tədqiqata cəlb edilən arxiv sənədlərinin böyük bir hissəsi ilk dəfə olaraq, məhz, bu araşdırmada elmi dövriyyəyə gətirilmişdir.

Eyni zamanda tədqiqat prosesində müxtəlif dövrlərdə nəşr edilmiş sənəd və material toplularına da müraciət edilmişdir. Bu nəşrlərdə yer alan müxtəlif arxiv sənədləri Sovet Azərbaycanı diplomatiya tarixinin daha ətraflı əhatə olunmasına, ötən əsrin 20-30-cu illərinə aid bir sıra xarici siyasət məsələlərinin müqayisəli təhlilinə imkan yaratmışdır. Nəşr olunmuş sənəd toplularının bir hissəsi Azərbaycan xarici siyasətində mühüm yer tutan Qarabağ məsələsi, onun tarixi keçmişi və ötən əsrin 20-ci illərində bu mövzu ətrafında aparılan diplomatik çəkişmələr barəsindədir.[19]

[19] Mirzə Camal Cavanşir Qarabağı. Qarabağ tarixi. Qarabağnamələr. I kitab. Bakı, 1989; Мирза Джамал Джеваншир Карабаги. История Гарабага. Баку, 1959; Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Издан под редакциею председателя комиссии А.Д.Берже. Томь II. Тифлис, 1868, Томь III. Тифлис, 1869, Томь VII. Тифлис, 1878; Описание Карабахской провинции, составленное в 1823 году, по распоряжению главноуправляющего в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым 2-м. Тифлис, 1866; К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. Документы и материалы. Баку, 1989

Müxtəlif ölkələrdə nəşr olunmuş sənəd və materialların digər bir hissəsi Azərbaycanın sovetləşməsindən sonra SSRİ-nin yaranmasına qədərki dövrü əhatə edir. Bu nəşrlərdə Azərbaycan SSR-in İran və Türkiyə ilə münasibətlərinə, həmin illərdə keçirilmiş beynəlxalq və regional konfranslarda Azərbaycanın iştirakına dair maraqlı məqamlar vardır.[20] Nəşr olunmuş sənəd toplularının müəyyən bir hissəsində ötən əsrin 20-30-cu illərində Azərbaycan mühacirətinin Avropa ölkələri və Türkiyədəki siyasi-diplomatik fəaliyyəti və s. məsələlər əhatə olunur. Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin mühacirət dövründə yazdığı bir sıra əsərlər, məktub və müxtəlif ünvanlara göndərdikləri nota və müraciətlər ötən əsrin 20-ci illərində Azərbaycan SSR xarici siyasətini, diplomatiya tarixini öyrənmək üçün qiymətli mənbə rolunu oynayır. Mühacirət liderlərinin müxtəlif nəşrlərdə yer almış yazışmaları, Millətlər Cəmiyyətinə, bir sıra beynəlxalq konfransların təşkilatçılarına, ayrı-ayrı Avropa ölkələrinin başçılarına və ABŞ rəsmilərinə ünvanladıqları nota və müraciətlər Sovet Azərbaycanına münasibətdə beynəlxalq vəziyyətdə baş verən dəyişiklikləri izləməyə imkan verir.[21]

Eyni zamanda, qeyd edilən xronoloji çərçivədə Sovet Azərbaycanına rəhbərlik etmiş şəxslərin nəşr edilmiş məruzə, çıxış, məktub və müraciətləri

10942

[20] Первый съезд народов Востока. Стенографической отчет. Баку, 1-7 сентября 1920 г. Петроград, 1920; Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. Составитель Н.А.Максвелл. Баку, 2011; Персидский фронт мировой революции. Документы о советском вторжении в Гилян (1920-1921). Москва, 2009; Советско-иранские отношения в договорах, конвенциях и соглашениях. МИД СССР. М., 1946; Советско-турецкие отношения. Сб. документов. 1917-1926 гг. М., 1947; Документы внешней политики СССР. Т. II. М.: Госполитиздат, 1958; Документы внешней политики СССР. Т. III. М.: Госполитиздат, 1959; Документы внешней политики СССР. Т. IV, М.: Госполитиздат, 1960; Документы внешней политики СССР. Т. V, М.: Госполитиздат, 1962; Материалы Генуэзской конференции. (Подготовка. Отчёты заседаний, работы комиссии, дипломатическая переписка и др.). Москва, 1922; Гаагская конференция июнь – июль 1922 г. Полный стенографический отчёт. Москва, 1922; Первый Закавказский съезд Советов. Тифлис, 1923; İsmail Soysal. Türkiy'enin Siyasal Antlaşmaları. I Cilt (1920-1945). Ankara, 1989; Türkiye Böyük Millet Meclisinin Gizli Celese Zabıtları. Devre: I. C. II. Ankara, 1985; Papers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938

[21] A.M.Topçibaşı и M.Ə.Rəsulzadə: Переписка. 1923-1926 гг. Сост., предисл. и прим. С.М.Исхаков. Москва, 2012; M.Ə.Rəsulzadə. Сборник произведений и писем. Сост., предисл. и прим. С.М.Исхаков. Москва, 2010; Из истории азербайджанской эмиграции. Сборник документов, произведений и писем. М., 2011; Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения «Прометей». Сборник документов. Сост., пред., пер,, прим. Г.Г.Мамулиа. М.,2012; M.Ə.Rəsulzadə. Azərbaycan cümhuriyyəti. Bakı, 1990; M.Ə.Rəsulzadə. Bolşeviklərin Şərq siyasəti. Bakı, 1994

İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

mövzunu öyrənmək üçün qiymətli mənbələr sırasına daxil edilə bilər. Belə mənbələr sırasına Sovet hakimiyyətinin ilk illərində Azərbaycan İnqilab Komitəsinə və respublika Xalq Komissarları Sovetinə rəhbərlik etmiş Nəriman Nərimanovun müxtəlif illərdə nəşr olunmuş əsərlərini aid etmək olar.[22] N.Nərimanovun "Ucqarlarda inqilabımızın tarixinə dair" Mərkəzi Komitəyə, İ.Stalin, L.Trotski və K.Radekə göndərdiyi məxfi məktub Sovet Rusiyasının və eyni zamanda, Azərbaycan SSR-in Şərq siyasətini öyrənmək üçün müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan xarici siyasətinin 1920-1939-cr illər tarixini öyrənərkən indiyə qədər müxtəlif dillərdə, ayrı-ayrı ölkələrdə nəşr edilmiş elmi ədəbiyyatın geniş dairəsindən istifadə edilmişdir. Müraciət edilən elmi ədəbiyyat bütövlükdə bu tarixi xronologiyanı əhatə etməsə də, lakin bir sıra əsərlərdə Sovet Azərbaycanının xarici siyasətinin ayrı-ayrı tərəflərinə toxunulmuşdur.[23] Belə əsərlərlə yanaşı, son illərdə Azərbaycan xarici siyasətinin 1920-1922-ci illərini əhatə edən bir sıra maraqlı tədqiqat işləri nəşr olunmuşdur. Bu əsərlərdə Sovet Azərbaycanının qonşu dövlətlərlə münasibətlərinə, Rusiya ilə diplomatik əlaqələrin yaradılmasına geniş yer verilmiş, Avropa dövlətləri ilə qarşılıqlı münasibətlərin tənəzzülü əhatə edilmişdir. Tarixşünaslıq təhlili baxımından bu əsərlərin elmi dəyəri ötən əsrin 20-ci illərində Sovet Azərbaycanının İran və Türkiyə ilə siyasi, iqtisadi, diplomatik və mədəni əlaqələrinin geniş mənzərəsini yaratmaqdan ibarətdir. Azərbaycan SSR-in beynəlxalq və regionlar konfranslarda iştirakının bəzi məqamlarına da qeyd edilən əsərlərdə toxunulmuşdur. [24] Son illərdə nəşr olunmuş bir

[22] Н.Нариманов. Избранные произведения. Том 2. Баку, 1989; N.Nərimanov.Ucqarlarda inqilabımızın tarixinə dair Mərkəzi Komitəyə, İ.Stalinə məktub. Surəti L.Trotskiyə, K. Radekə. Bakı, 1992; N.Nərimanov. Məktublar və Qarabağ məsələsinə dair sənədlər. Bakı, 2002; Н.Нариманов. К истории нашей революции в окраинах (Письмо И.В.Сталину). Баку, 1990

[23] T.Svyatoçovski. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Xəzər Universitəsi, 2000; M.Qasımlı, E.Hüseynova. Azərbaycanın xarici işlər nazirləri. Bakı, 2003; F.Ohmədova. Nəriman Nərimanov – ideal və gerçəklik. Bakı, 1998; H.Həsənov. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı, 2005; Йорг Баберовски. Враг есть везде. Сталинизм на Кавказе. Москва, 2010; Дж.Б.Гулиев. К истории образования Второй республики Азербайджана. Баку, 1997; И.Нифталиев. Азербайджанская ССР в экспансионистских планах армян (20-е годы XX века). Баку, 2010; T.Swietochowski. Russian Azerbaijan. 1905-1920. The Shaping of National identity in a Muslim community. Cambridge University Press, 1985; F.Kazemzadeh. The Struggle for Transcaucasus (1917-1921). New-York, 1951

[24] V.Qafarov. Türkiyə - Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, 2011; M.Qasımov. Xarici dövlətlər və Azərbaycan. Aprel işğalından SSRİ yaradılana

sıra əsərlərdə Azərbaycan mühacirətinin fəaliyyəti, onun Paris və İstanbul mərkəzlərinin bolşevik istilasına qarşı apardığı mübarizə və həmin mərkəzlərə rəhbərlik edən liderlərin diplomatik addımları araşdırılmışdır. Bu əsərlərdə Sovet İttifaqı dağıldıqdan sonra açıqlanan yeni arxiv materialları, mühacirət nəşrləri və Qərb ölkələrinin dövlət orqanları ilə yazışmalar və s. məsələlər dövriyyəyə gətirilmişdir.[25] Azərbaycanda və xaricdə nəşr olunmuş bir sıra əsərlərdə neftin dünya siyasətində rolu, ötən əsrin 20-ci illərində Azərbaycan nefti uğrunda başlanmış diplomatik mübarizə, Bakı neftinin beynəlxalq münasibətlərə təsiri kimi məsələlər əhatə edilmişdir.[26] Bu illərdə Türkiyə Respublikasının Qafqaz siyasəti, Ankaranın Moskva ilə münasibətləri, Gümrü, Moskva və Qars konfransları haqqında Türkiyə və bir sıra xarici ölkələrdə maraqlı araşdırmalar nəşr edilmişdir. Bu məsələlərlə

qədərki dövrdə diplomatik-siyasi münasibətlər. Bakı, 1998; M.Qasımov. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il – dekabr 1922-ci il). Bakı, 1998; M.Sofiyev. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936). Bakı, 2000; İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996; İ.Musayev. Azərbaycanın xarici siyasəti. İkinci hissə. 1920-1991. Bakı, 2010; S.Rüstəmova – Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919 – 1943. Bakı, 2002; Ə.Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, 2005; C.M.Vəkilov. Azərbaycan respublikası və İran: 40-cı illər (mədəni əlaqələr). Bakı, 1991; V.Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan, 2006; Ю.А.Багиров. Из истории советско-турецких отношений в 1920-1922. Баку, 1965; P.Мустафа-заде. Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг. М., 2006; В.Генис. Красная Персия. Большевики в Гиляне. 1920-1921. Москва, 2000; М.А.Персиц. Застенчивая интервенция. О *советском вторжении в Иран* и Бухару в 1920-1921 гг. Москва, 1999

[25] X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996; N.Yaqublu. Azərbaycan-Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu. Bakı, 2007; Mühlen Patrik fon Zur. Camali Haç ile Kızıl Yıldız Arasında. Ankara, 1984; S.Şimşir. Mehmet Emin Resulzade'nin Türkiye'deki Hayatı, Faaliyetleri ve Çalışmaları. Ankara, 1995; V.İmanov. Ali Merdan Topçibaşı. Lider bir aydın ve Bağımsız Azerbaycan Cumhuriyeti'nin Temsili. Istanbul, 2003; G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009; P.Абуталыбов. Годы и встречи в Париже. Москва, 2006; P.Абуталыбов. Мамед Амин Расулзаде и Кавказская Конфедерация. М., 2011

[26] İ.H.Əliyev. Azərbaycan nefti dünya siyasətində. 3 cilddə. II cild. Bakı, 1997; M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994; Ə.P.Əliyev. Sovet hakimiyyəti illərində Azərbaycanda neft sənayesi. Bakı, 1957; Ş.Səlimov. Azərbaycan nefti beynəlxalq münasibətlərdə (1920-1922-ci illər). Bakı, 2005; А.И.Алиев. История борьбы против капиталистических нефтяных монополий и выхода советской нефти на мировой рынок (1920-1937). Автореф. дисс. д.и.н. Баку, 1960; Э.А.Гользиневский. Русская нефть на мировом рынке. М., 1924; Ф.Джаббаров. Бакинская нефть в политике Советской России (1917-1922 гг.). Баку, 2009

bağlı Azərbaycan xarici siyasətinin bir sıra maraqlı səhifələrini aydınlaşdırmaq üçün həmin əsərlərə tez-tez müraciət edilmişdir.[27]

Ötən əsrin 20-ci illərində Azərbaycanın xarici siyasətində Qarabağ ətrafında müzakirələr genişləndiyindən, respublika diplomatiyasında bu məsələnin yeri və rolu tarixi ardıcıllıqla araşdırılmış, hadisələr müqayisəli formada təhlil edilmiş və problemin müxtəlif məqamlarını özündə əks etdirən çoxlu sayda ədəbiyyata müraciət edilmişdir. Tədqiqatın gedişində müraciət edilən bu əsərlər Qarabağ xanlığından tutmuş, bolşevik işğalının ilk illərində Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına qədərki dövrdə bölgə ətrafında cərəyan edən xarici amilləri öyrənməyə imkan vermişdir. [28]

Mövzunun araşdırılması zamanı həmin dövrdə fəaliyyət göstərmiş ayrı-ayrı dövlət xadimləri, diplomatlar və hərbçilərin müxtəlif illərdə nəşr olunmuş xatirə və gündəliklərindən geniş istifadə edilmişdir. Hadisələrin iştirakçısı olan bir sıra tanınmış siyasətçi və diplomatların xatirələri bəzən rəsmi sənədlərdə öz əksini tapmayan ayrı-ayrı gizli məqamlara aydınlıq gətirir.[29]

[27] Betül Aslan. Türkiye-Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004; Yavuz Aslan. Birinci Doğu Halkları Kurultayı (1-7 Eylül 1920 - Bakü). İstanbul, Kaynak yayınları, 2007; İ.E.Atnur. Osmanlı Yönetiminden Sovyet Yönetimine Kadar Nahçivan (1918-1921). Ankara, 2001; A.N.Kurat. Türkiye ve Rusiya. Ankara, 1990; Kamuran Gürün. Türkiye-Sovyet İlişkileri (1920-1953). Ankara, 1991; Serpil Sürmeli. Türk-gürcü ilişkileri (1918-1921). Ankara, 2001; Stefanos Yerasimos. Türk – Sovyet ilişkileri Ekim Devriminden "Milli mücadele"ye. Birinci Baskı, İstanbul, 1979; Stefanos Yerasimos. Kurtuluş Savaşı'nda Türk-Sovet ilişkileri 1917-1923. İstanbul, 2000; Candan Azer. Babadan Oğula Güney Kafkasiya. Türkiye-Güney Kafkasiya ilişkileri. İstanbul, Truva yayınları, 2011; Selami Kılıç. Türk-Sovyet ilişkilerinin Doğuşu. İstanbul, 1998; Taylan Sorgun. Halil Paşa. İttihad ve Terakki'den Cumhuriyet'e Bitmeyen Savaş. 6. Baskı. Destek Yayınevi, İstanbul, 2010; Nurcan Toksoy. Revan'da son günler. Türk yönetiminden ermeni yönetimine. Orion Yayınevi, Ankara, 2007; J. H. M. Cornwall. The Russo-Turkish Boundary and the Territory of Nakhchivan // The Geographical Journal, Vol. 61, No. 6, (Jun., 1923); Kaya Tuncer Çağlayan. British Policy Towards Transcaucasia, 1917-1921. Istanbul, 2004

[28] T.Köçərli. Qarabağ: yalan və həqiqət. Bakı, 1998; J. Hasanli. Karabakh: Looking into the the past in search of the truth.// Caucasus and Globalization, 2011, Vol. 4, №3-4; J. Hasanli. How the Caucasus Bureau of the C.C. R.C.P. (b) discussed the Karabakh issue in 1920-1923 // Caucasus and Globalization, 2011, Vol. 5, №1-2; J. Hasanli. Nagorno-Karabakh: old delusions and new interpretations.// Caucasus and Globalization, 2011, Vol. 5, №3-4; От Майендорфа до Астаны: принципиальные аспекты Армяно-Азербайджанского Нагорно-Карабахского конфликта. Под ред. Г.М.Алексеева. М., 2010

[29] Н.Жордания. Моя жизнь. Stanford, 1968; Н.Жордания. Наши разногласия. Париж, 1928; З.Авалов. Независимость Грузии в международной политике. Париж, 1924; А.Иоффе. Генуэзская конференция. Москва, 1922; В.Рагснау. Генуя и Канны. Москва, 1923; Richard Child. A Diplomat Looks at Europe. New York, 1925; Kazım Karabekir. İstiklal Harbimiz. Çilt I-II, İstanbul, 2006; Ali Fuad Cebesoy. Moskova Hatiraları. İstanbul, 1955; Yusuf Kemal Tengirşenk. Vatan Hizmetinde. İstanbul, 1967; Dr. Rıza Nur'un Moskova/ Sakarya Hatıraları. İstanbul, 1991; Halil Paşa. Bitmeyen savaş. İstanbul, 1997; İ.Aralov. Bir Soviet diplomatının Türkiye Hatıraları. İstanbul, 1967; Əziz Alpoud. Həyatımın hekayələri. Bakı, 2011.

Dövrün müxtəlif tarixi hadisələrini özündə əks etdirən mətbuat materiallarından geniş istifadə edilməsi mövzunun xronoloji baxımdan əhatə olunmasında əhəmiyyətli rol oynamışdır.

Lakin mövzunun belə geniş tarixşünaslıq bazasının olmasına baxmayaraq, 1920-1939-cu illəri əhatə edən tarixi çərçivədə Sovet Azərbaycanının xarici siyasəti, onun diplomatik addımları, beynəlxalq müzakirələrdə Azərbaycan məsələsinin təkamül prosesi ilə bağlı bütün məsələlərin elmi həllini tapdığını iddia etmək olmaz. Fikrimizcə, müxtəlif ölkələrin, xüsusilə, Rusiya Federasiyasının, bəzi Qərb dövlətlərinin arxivlərində mövzunun ayrı-ayrı tərəflərini özündə əks etdirən bir sıra qiymətli sənədlər qapalı fondlarda saxlanıldığından və digər səbəblərdən araşdırmadan kənarda qalmışdır. Gələcək tədqiqatların gedişində belə sənədlərin elmi araşdırmaya cəlb edilməsi Azərbaycan xarici siyasətinin daha dolğun mənzərəsini yaratmağa imkan verəcəkdir.

Müəllif bu monoqrafiyanın hazırlanmasında ona yardım göstərmiş bütün arxiv işçilərinə, əsərlərindən yararlandığı bütün müəlliflərə, faydalı məsləhətlərinə görə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin elmi redaksiya heyətinin üzvlərinə, Fransa Respublikasının arxivlərində işləməyə imkan yaratmış Humanitar elmlər üzrə Maison Fonduna (Fondation Maison des Sciences de l'Homme), bir sıra sənəd və materialların əldə olunmasında göstərdikləri yardımlarına görə doktor Georgi Mamuliya, Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin direktor müavini Valeri Şepelyev, tarix elmləri namizədləri Eldar Abbasov, Altay Göyüşov, Emil və Emin Kərimovlara, jurnalist Azər Cahangirov, Azərbaycan mühacirət liderlərinin irsinin toplanmasında və nəşrində böyük əməyi olan Ramiz Abutalıbova öz dərin təşəkkürünü bildirir.

I FƏSİL

APREL İŞĞALINDAN SONRA AZƏRBAYCANIN DAXİLİ VƏ BEYNƏLXALQ VƏZİYYƏTİ

§1. Aprel işğalından sonra Azərbaycanda siyasi vəziyyət və antisovet üsyanlar

1920-ci ilin aprel işğalı Azərbaycana böyük fəlakətlər gətirdi. İki ilin müstəqillik davası bolşevik təcavüzü ilə sona yetdi. Beynəlxalq hüququn subyekti və beynəlxalq münasibətlərin iştirakçısı olan bir dövlət xarici təcavüz nəticəsində devrildi. Versal sisteminin təminatçısı olan böyük dövlətlər bolşevik işğalına biganə qaldılar. Rusiyanın 1914-cü il hüdudlarında bərpa olunmaq cəhdləri tarixin təkərini geri çevirdi. Kiçik zaman fərqi ilə digər Cənubi Qafqaz respublikaları: 1920-ci ilin noyabr ayının 29-da Ermənistan, 1921-ci ilin fevral ayının 25-də Gürcüstan da işğal olundu. Ötən əsrin 20-ci illərinin əvvəllərindən başlayaraq, regionun siyasi həyatında yeni bir mərhələ başladı. 1918-1920-ci illərdə yeridilən siyasi xəttdən kəskin şəkildə fərqlənən yeni şərait qısa müddət ərzində müstəqilliyin itirilməsi ilə nəticələndi.

1920-ci ilin aprel ayının 28-də Müvəqqəti İnqilab Komitəsi Azərbaycanda Sovet hakimiyyətinin ilk hökumətini formalaşdırdı. Yeni yaradılan Azərbaycan SSR Xalq Komissarları Sovetinin ilk sədri N.Nərimanov təsdiq edildi. eyni zamanda, o, xalq xarici işlər komissarı vəzifəsini də aparmalı idi. Yeni hökumətdə xalq hərbi dəniz işləri komissarı vəzifəsini Ç.İldırım, xalq daxili işlər komissarı vəzifəsini H.Sultanov, xalq əmək və ədliyyə komissarı vəzifəsini Ə.Qarayev, xalq əkinçilik, ticarət, sənaye və ərzaq komissarı vəzifəsini Q.Musabəyov, xalq maliyyə komissarı vəzifəsini M.D.Hüseynov, xalq maarif və dövlət nəzarəti komissarı vəzifəsini D.Bünyadzadə, xalq poçt, teleqraf və yollar komissarı vəzifəsini C.Vəzirov, xalq səhiyyə və himayəçilik komissarı vəzifəsini isə A.Əlimov tutdu.

Yeni hökumətin başçısı N.Nərimanov Qafqazda və sovet rəhbər dairələrində kifayət qədər tanınan adam idi. O, böyük həyat yolu keçmiş, XX əsrin əvvəllərindən başlayaraq, Azərbaycanın ictimai-siyasi və mədəni həyatında fəal rol oynamışdı. Öz siyasi baxışlarına görə daha çox sosial-demokrat dəyərlərə önəm verən N.Nərimanov 1917-ci ilin Rusiya inqilabından sonra bolşevizmin cazibəsinə düşmüş və Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyasi tərəfindən devrilməsində, ondan bir vasitə kimi istifadə edilmişdi.

Sovet rəhbərlərinin gizli yazışmalarında Azərbaycanın sovetləşdirilməsində Nərimanovdan bir simvol kimi yararlanmaq, lakin ona real siyasi hakimiyyət verməmək məsələsi açıq şəkildə göstərilirdi. Hələ, 1919-cu ildə Sovet Rusiyasının Şərq siyasətində N.Nərimanovun rolunun yüksəldilməsi məsələsi meydana çıxanda xalq xarici işlər komissarı G.Çiçerinin sorğusuna cavab olaraq İ.Stalin yazırdı ki, "bizim şərq siyasətimizə Xarici İşlər Komissarlığı sistemində yeganə "Şərq adamı" olan milliyyətcə erməni L.Karaxanın rəhbərlik etməsi şayiələrin yayılmasına və bizim şərq siyasətimizdə harmoniyanın pozulmasına, bizim siyasətimizin Şərq xalqlarının, ilk növbədə isə, müsəlmanların gözündə nüfuzdan düşməsinə gətirib çıxarır. Bu mülahizələrdən çıxış edərək, mən yoldaş Leninə təklif etdim ki, Mərkəzi Komitədə Karaxanın, heç olmasa, orta partiya hazırlığı olan hansısa bir müsəlmanla əvəz edilməsi haqqında məsələ qaldırsın. N.Nərimanov mənim üçün bu işə uyğun gələn çoxsaylı müsəlmanlardan biridir. Onun geniş siyasi perspektivinin olmaması elə bir faciə deyildir. Axı, siyasəti o deyil, Mərkəzi Komitə və Xarici İşlər Komissarlığı həyata keçirəcək. Nərimanov bayraq kimi vacibdir. Belə dəyişiklik görüntüsü yaratmaq və ya hər ehtimala qarşı Şərq məsələləri ilə bağlı Karaxanı kölgədə saxlamağı, ön səhnəyə müsəlmanın irəli çəkilməsini mən tamamilə zəruri hesab edirəm. Əgər bu maraq kəsb edirsə, məlumat verə bilərəm ki, yoldaş Lenin bu məsələyə tamamilə öz razılığını bildirib. Belə dəyişiklik tezliklə müsəlmanlar tərəfindən nəzərə alınardı, onlar arasında bizim siyasi xəttimizi yüksəldərdi, bir sıra müsbət nəticələr verərdi. Nərimanovun Uzaq Şərqi tanımaması, onun yaşlı olması və məsələləri gec mənimsəməsi kimi fikirlərə etiraz edirəm. Mənim üçün bunların heç bir həlledici əhəmiyyəti yoxdur, çünki mən heç vaxt fikirləşmirəm ki, Nərimanov Şərq siyasətinə rəhbərlik edəcək, təkrar edirəm o, mənim

üçün yalnız bayraqdır, dekorasiyadır."[1] Təəssüf ki, tək Şərq siyasətində deyil, Azərbaycanın sovetləşməsi məsələsində də N.Nərimanov Sovet Rusiyasının əlində bayrağa, əməlində isə dekorasiyaya çevrildi.

Aprel işğalı ərəfəsində Moskvaya göndərilən teleqramlarda Nərimanovun Bakıda həddindən çox gərəkli olduğunu yazanlar, bu işğaldan bir həftə sonra V.Leninə vurulan teleqramda Azərbaycanı idarə etmək üçün ona vəkalət verilməməsini tövsiyə edirdilər.[2] Əslində, N.Nərimanovun aprel ayının 28-də yaradılmış Azərbaycan SSR XKS-nin tərkibində xarici işlər komissarı vəzifəsində cəmi 4-5 gün qalması və hələ özü Bakıya gəlməzdən əvvəl bu vəzifədən uzaqlaşdırılması belə "tövsiyələr"lə bağlı idi. Halbuki, N.Nərimanov digərləri ilə müqayisədə xarici siyasət sahəsində az-çox təcrübə qazanmış siyasi xadimlərdən idi və 1919-cu ilin ortalarından etibarən Sovet Rusiyasının Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin müdiri vəzifəsində işləmiş, milli işlər komissarının müavini vəzifəsində çalışmışdı. O, çox məsələlərdə Rusiya xarici siyasətinə rəhbərlik edən G.Çiçerinlə üz-üzə gəlmiş, Şərq ölkələrinə münasibətdə onun siyasətini kəskin şəkildə tənqid etmişdi. Xüsusilə, Şərq xalqlarının müstəqilliyi ilə bağlı məsələlərdə Komissarlığın rəhbərliyi ilə Nərimanov arasında ciddi fikir ayrılıqları yaranmışdı və bu fikir ayrılıqları sonralar böyüyərək, barışmaz ixtilaflara çevrilmişdi. Hələ, 1919-cu ilin payızında Buxaranın müstəqilliyi ilə bağlı Moskvadakı Əfqanıstan səfiri ilə xarici işlər komissarının müavini L.Karaxan arasında mübahisə yarananda N.Nərimanov V.Leninə yazırdı: "Dünən mənim razılığım olmadan Karaxan, görünür yoldaş Çiçerinin tapşırığı ilə Əfqanıstan səfiri ilə danışıqlar aparıb və yeri gəlmişkən, deyib: "Biz Buxaranı müstəqil dövlət kimi tanımırıq". Əfqanıstan səfiri mənimlə söhbətdə bununla bağlı dedi: "Mən indi bilmirəm kimə inanaq: müsəlman dövlətlərinə öz müraciətində fəhlə-kəndli hökumətinin bu dövlətlərə münasibətini açıq və aydın ifadə edən yoldaş Leninəmi? Yaxud bütün bunları inkar edən rəsmi şəxs kimi Karaxanamı? Mən məcburam ki, təcili olaraq bütün bunlar haqqında öz hökumətimi məlumatlandırım. Bu məlumatların hansı təəssüratlar yaradacağını deyə bilmərəm..." Səfirin sözlərindən mən belə başa düşdüm ki, indiki halda onu Buxara məsələsindən daha çox, ümumiyyətlə, bizim bütün rəsmi bəyanatlarımızda nə qədər səmimi olmağımız məsələsi

[1] İ.Stalin. Yoldaş Çiçerinə cavab. Surəti MK üçün y. Leninə göndərilib. 16.08.1919.//Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi (bundan sonra RDSSTA), f.558, s.11, i.824, v.3-4

[2] Q.Orconikidze və S.Kirovun V.Leninə teleqramı. 04.05.1920.//RDSSTA, f.85, s.13, i.12, v.101

maraqlandırır". Mən öz tərəfimdən səfiri sakitləşdirdim və dedim: "Siz rəsmi kağız əsasında deyil, yoldaş Karaxanın şifahi bəyanatı əsasında öz hökumətinizə nə istəsəniz, yaza bilərsiniz". O mənimlə razılaşdı. Əziz Vladimir İliç! Mən bir daha Sizdən xahiş edirəm, "Əfqanıstan məsələsinə dair" mənim məruzəmlə və təcili şəkildə həllini gözləyən məsələlərlə tanış olun. Əgər siz indi bunu etməyi mümkün hesab etmirsinizsə, onda xahiş edirəm, məni Müsəlman Yaxın Şərqi şöbəsinin müdiri vəzifəsindən azad edin, belə vəziyyətdə mən Müsəlman Şərqi siyasətinə görə məsul ola bilmərəm".[3] Nəriman Nərimanovun bolşevik bioqrafiyası və Moskva həyatı beynəlxalq əhəmiyyətli belə ixtilaflarla zəngin olduğundan, onu Sovet Azərbaycanının xarici işlər komissarı vəzifəsindən tez azad etmək lazım gəldi və may ayının 2-də bu vəzifəyə İ.Stalinin bir siyasətçi kimi, o qədər də inanmadığı, "az təcrübəli və yüngül çəkili" hesab etdiyi Mirzə Davud Hüseynov təyin edildi.[4]

M.D.Hüseynov 1894-cü ildə Bakı şəhərində anadan olmuş, 1913-cü ildə Bakı realnı məktəbini bitirmiş, Moskva Kommersiya İnstitutunun İqtisadiyyat fakültəsində oxumuşdu. 1917-ci ildə Bakıya dönən M.D.Hüseynov müsəlman tələbələri arasında sosialist ideyalarının yayılmasında fəallıq göstərmiş, az sonra Hümmət partiyasının rəhbərliyində təmsil olunmuşdu. 1920-ci ilin fevralında Azərbaycan Kommunist Partiyasının yaranmasında yaxından iştirak edən M.D.Hüseynov taleyini bu partiya ilə bağlamış, elə gizli şəkildə keçirilən I qurultayda AK(b)P MK-nın Rəyasət Heyətinə və büro üzvlüyünə seçilmiş, qurultaydan sonra keçirilən ilk plenumda AK(b)P MK Rəyasət Heyətinin sədri təsdiq edilmişdi. M.D.Hüseynov 1920-ci ilin aprel ayının 26-da yaradılmış Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin üzvlərindən biri idi. 1920-ci ilin aprelin 28-də formalaşan sovet hökumətində M.D.Hüseynov XKS sədrinin müavini və maliyyə komissarı vəzifəsini tutmuş və N.Nərimanov Bakıya gələnə qədər hökumətin fəaliyyətinə rəhbərlik etmişdir.

1920-ci ilin may ayının 2-dən Azərbaycan SSR-in Xarici İşlər Komissarı kimi fəaliyyətə başlayan M.D.Hüseynov bir sıra diplomatik danışıqların və dövlətlərarası münasibətlərin tənzimlənməsinin iştirakçısı olsa da, müstəqil dövlətin mühüm atributlarından biri kimi, Xarici İşlər Komissarlığının işi tədricən zəifləmiş, Azərbaycanın xarici ölkələrdə olan diplomatik

[3] L.M.Karaxanın Əfqanıstan səfiri ilə söhbəti barədə N.Nərimanovun V.İ.Leninə məktubu. 13.11.1919.//RDSSTA, f.5, s.1, i.1218, v.1-2

[4] İ.Stalinin G.Çiçerinə xatırlatması. 10.09.1921.//RDSSTA, f.558, s.11, i.824, v.11

nümayəndəlikləri bir-birinin ardınca öz fəaliyyətini dayandırmış, Bakıda olan diplomatik missiyalar Azərbaycanı tərk etməli olmuşdu. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti dövründə qurulmuş Qərb ölkələri ilə əlaqələrdən imtina etdilər. Aprel işğalından az sonra Sovet Azərbaycanının xarici siyasəti ilə bağlı verilmiş təkliflərdə göstərilirdi ki, Xarici İşlər Kpmissarlığının başlıca vəzifələrindən biri müsəlman Şərqi ilə əlaqələri möhkəmləndirmək olduğundan, Sovet Rusiyası və Avropa bölmələrinin ləğv edilməsi və onların əvəzində Şərq bölməsinin yaradılması nəzərdə tutulurdu.[5] Bütün bunların nəticəsi kimi, 1922-ci ilin may ayının ortalarından etibarən, Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığının fəaliyyəti dayandırılmış və 1944-cü ilin ortalarına qədər digər Sovet respublikalarında olduğu kimi, Azərbaycan SSR-də də dövlətin müstəqilliyinin mühüm göstəricisi olan xarici siyasət institutu fəaliyyət göstərməmişdir.[6]

Yeni hökumətin başçısı olan N.Nərimanov 1920-ci ilin may ayının 16-da Bakıya gəldi. O, Bakıya gələnə qədər Naxçıvan istisna olmaqla, demək olar ki, bütün Azərbaycanda Sovet hakimiyyəti qurulmuşdu. Bolşevizmin bütün cəza və repressiya üsulları tam gücü ilə işə salınmış, XI Ordunun xüsusi şöbəsi Azərbaycanda siyasi prosesləri tənzimləyən başlıca terror təşkilatına çevrilmişdi. XI Qırmızı Ordunun timsalında bolşevizm süngüsü Azərbaycanın qəzalarında yalnız Sovet hakimiyyətini deyil, sinfi ayrıntılar zəminində Mərkəzi Rusiyada artıq sınaqdan keçirilmiş cəza, təqib, terror və zorakılıq üsullarını da həyata keçirirdi. Təsadüfi deyildir ki, N.Nərimanov Azərbaycana ayaq basan kimi, eşitdiyi "doktor, Azərbaycan enino-uzununa talan edilir, sağa-sola güllələyirlər" ifadəsi sovetləşmənin qısa siyasi mənzərəsi idi.[7] N.Nərimanov bu azğınlığın qarşısını almağa cəhdlər göstərsə də, bütövlükdə siyasi terrorun qarşısını almaq mümkün olmazdı. Sovetləşmənin ilk günlərində yaradılan Fövqəladə Komissiya və Ali İnqilabi Tribunal başlıca cəza aparatına çevrildilər. Bakıda olan xaricilərin müşahidəsinə görə, sovet rejiminin ən pis təzahürü olan Föqələdə Komissiyadan "əhali dəhşətli dərəcədə qorxurdu".[8] Həmin vaxt Bakıda olmuş Britaniya zabiti 1920-ci ilin iyul ayında Londona göndərdiyi siyasi məruzədə

[5] Bax: M.Qasımov. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998, s.34

[6] Bax: M.Qasımlı, E.Hüseynova. Azərbaycanın xarici işlər nazirləri. Bakı, 2003, s.60-67

[7] Bax: Тетради по истории рабочего и революционного движения. Москва, 2006, с.127

[8] Aleksandr Bodrero. Bakıya səfər haqqında hesabat. 18.09.1920.// Archives d'Ali Mardanbey Toptchibachi, carton n° 1. Le Centre d'études des mondes russe, caucasien et centre-européen (CERCEC), l'École des hautes études en sciences sociales (EHESS, Paris), p.9

yazırdı ki, "evlərin müsadirə edilməsi, gəmilərlə Rusiyaya göndərilən mebellərin müsadirə edilməsi ilə müşayət edilirdi. İyulun əvvəlindən evlərin və ofislərin müsadirəsi, demək olar ki, mövcud olan hər şeyin alınması ilə başa çatırdı. Hər kəsin bir dəstdən artıq paltar saxlamasını qadağan edən yeni qanun vardır, heç kəsə icazə verilmir ki, ərzaq ehtiyatı saxlasın. Bunun üçün evlərdə axtarışlar edilir. Bakının bədbəxt əhalisinin hansı vəziyyətə salındığın təsəvvür etmək çətindir. Mən yola düşənə qədər *(17 iyul 1920-ci il – C.H.)* yataq dəstlərini müsadirə etdilər".[9] H.Spoyer yazırdı ki, müsadirə olunan ərzaq məhsulları birinci gəmilərlə göndərildi və mənə dedilər ki, Moskvanın rəsmi qəzetlərinin məlumatına görə bu "Bakı şəhərinin xeyirxah əhalisinin hədiyyəsi" idi.[10] Bunu iyul ayında Bakıda həbsdən azad olmuş Fransa konsul agenti P.Duroy da təsdiq edir. O, Fransanın Qafqazdakı nümayəndəsi de Martel ilə söhbətində bildirirdi ki, "azərbaycanlıların ruslara münasibətdə düşmənçiliyi artır. Əhali getdikcə daha aydın şəkildə anlayır ki, bolşeviklər Şərqə xüsusi planla gəlmişlər. Komissarlar Azərbaycanda axtarış zamanı əllərinə keçən bütün ehtiyatları Rusiyaya göndərirlər. Neftdən başqa dəmir yolu ilə mal-qara, ərzaq məhsulları, hətta, mebel də yola salırlar".[11] Bu hadisələrin şahidi kimi Ə. Alpoud xatirələrində yazırdı: "Məmləkəti işğal edən 11-ci Qırmızı Ordu əməlli-başlı oturuşmuşdu. Artıq açıq-aşkar soyğunçuluq edirdi. Öz ciblərini doldurduqdan sonar, indi də Rusiyaya daşınıb aparmaq üçün bəhanə tapılmışdı. Ələ keçirilən sərvət – ev əşyaları, xalılar, zinət əşyaları, yəni əllərinə keçən, pula gedən hər nə varsa, hamısı qatarlara, gəmilərə yüklənir və çapoulçuluqlarını gizlətmək üçün də üstünə şüarlar asılırdı: "Sovet Azərbaycanının Rusiyaya ərməğanı!"...Neft ölkəsi olan Azərbaycanda, fəhləsi, kəndlisi evində yandırdığı lampasına neft tapa bilmirdi. Hamısı qatarlara yüklənib, gəmilərə doldurulub, Rusiyaya daşınırdı...İndi yavaş-yavaş rusların "sosializm", "qardaşlıq" sözlərini başa düşən, onların xidmətində olanlar da, nə etdiklərini anlamağa başlamışdılar." [12]1920-ci ilin sentyabr-oktyabr aylarında Bakıda olmuş Qərb ölkələrinin etibarlı bir agenti dekabr ayında Fransanın Qafqazdakı Ali Ko-

[9] Г.Спойер. Политический доклад о большевистском движении в Азербайджане. Конфиденциальный отчет. 29.07.1920.// Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. Составитель Н.А.Максвелл. Баку, 2011, с.568

[10] Yenə orada, s.569

[11] Télégramme de Martel Tiflis par Constantinople, le 26 juillet 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 140

[12] Əziz Alpoud. Həyatımın hekayələri. Bakı, 2011, s.179

missarı A.Şevalyeyə bildirmişdi ki, altı ay ərzində bolşeviklər bir vaxtlar Şərqin ən çiçəklənən şəhəri olan Bakını, demək olar ki, məhv edə bilmişlər. O. qeyd etmişdi ki, "əgər bolşeviklərin hakimiyyəti bir neçə ay da davam etsə, Azərbaycan səhraya dönəcək".[13]

Müsadirə və düşmən axtarışı prosesində XI Qırmızı Ordunun komandanlığının və onun xüsusi şöbəsinin rəisi V.Pankratovun istənilən qərarı sorğu-sualsız icra olunurdu. M.Ə.Rəsulzadə haqlı olaraq yazırdı ki, Azərbaycanın həqiqi diktatoru Pankratov idi və heç kəs onun göstərişlərinə etiraz edə bilməzdi.[14] Bütövlükdə, 1920-ci ilin aprelindən 1921-ci ilin avqustuna qədər siyasi mülahizələrə görə, Azərbaycanda 48 min adam güllələndi.[15] Bolşevik təcavüzündən sonra Bakıdan çıxa bilmiş baş nazir Nəsib bəy Usubbəyov Kürdəmir yolunda faciəli şəkildə qətlə yetrildi. Aprel işğalından sonra Tiflisə gedə bilmiş Azərbaycan Cümhuriyyətinin ilk baş naziri Fətəli xan Xoyski 1920-ci ilin iyun ayının 19-da erməni terrorçuları tərəfindən güllələndi. Azərbaycan parlamentinin bütün iclaslarına sədrlik etmiş Həsən bəy Ağayev də Fətəli xan kimi, eyni taleyi yaşadı və Tiflisdə ermənilər tərəfindən güllələndi. Azərbaycanın işğalından sonra bir müddət Lahıcda gizlənə bilmiş M.Ə.Rəsulzadə 1920-ci ilin avqust ayının 17-də Göyçay qəzasının Qaraməryəm yaşayış məntəqəsində həbs olunub Bakıya gətirildi. Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinə qarşı amansız bir terror siyasəti həyata keçirilirdi. Aprel ayının 27-si axşamı hakimiyyətin dinc yolla müsəlman kommunistlərinə təhvil verilməsi haqqında sənəddə yeni yaradılan bolşevik hökumətinin Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti üzvülərinin həyat və mülkiyyətinin toxunulmazlığına təminat verməsinə baxmayaraq, cümhuriyyət liderlərinin taleyi bundan bir həftə əvvəl həll edilmişdi. Belə ki, 1920-ci ilin aprel ayının 21-də gecə saat 03:30-da Petrovskdan Qafqaz ordusunun komandanı Tuxaçevskinin, Hərbi İnqilab Şurasının üzvü Orconikidzenin və Baş Qərargah rəisi Zaxarovun XI Qızıl Ordunun komandanlığına göndərdikləri teleqramda Bakı ələ keçirilən zaman bir sıra tədbirlərin həyata keçirilməsinin zəruriliyi tapşırılırdı. Teleqramda göstərilirdi: "Bakı işğal edilən zaman Azərbaycanın indiki hökumət üzvlərinin *(AXC hökuməti üzvlərinin – C.H.)* tutulması mütləq

[13] Monsieur A.Chevalley Haut Commissaire de la République au Caucase à Monsieur le Président du Conseil Ministre des Affaires Etrangères Tiflis, le 17 décembre 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 188

[14] Bax: N.Yaqublu. Müsavat Partiyasının tarixi. Bakı, 1997, s.128

[15] F.Əhmədova. Nəriman Nərimanov – ideal və gerçəklik. Bakı, 1998, s.53

zəruridir. Onun *(hökumətin – C.H.)* Yelizavetpola qaçacağını qabaqlayaraq, onu *(hökuməti – C.H.)* dəmiryolunun Kürdəmir stansiyasına qədər tutmaq zəruridir".[16]

Sovetləşməyə qarşı göstərilən müqavimətin bütün təzahürləri qan içərisində boğulurdu. Bunun aydın nümunəsi 1920-ci ilin may ayının 28-də başlanmış Gəncə üsyanı idi. Ordunun yenidən təşkili adı altında Gəncə hərbi hissələrində Azərbaycan ordusunda xidmət edən təcrübəli zabitlərin bolşevik komandirlərlə əvəz edilməsi güclü etiraz dalğası doğurdu. May ayının 28-dən 29-na keçən gecə başlanmış Gəncə qarnizonunun üsyanı sovetləşməyə qarşı ümumşəhər müqavimətinə çevrildi. Bir həftə davam edən küçə döyüşlərindən sonra üsyan amansızlıqla yatırıldı. May ayının 12-də həbs edilib Bakıya gətirilən Gəncə qubernatoru Xudadat bəy Rəfibəyli və üsyan başlanandan bir gün sonra həbs olunmuş Milli Ordunun 76 nəfər yüksək rütbəli zabiti dərhal Nargin adasında güllələndilər.[17] Gəncə hadisələri barədə iyun ayının 2-də Moskvaya göndərdiyi həyəcanlı teleqramda Q.Orconikidze yazırdı: "Gəncə üsyanı yatırıldı, lakin quberniyada üsyan davam edir. 18-ci Qafqaz diviziyası 20-ci diviziya ilə birlikdə Gəncədə üsyanı yatırdı, indi isə quberniyanı təmizləməklə məşğuldur. 28-ci diviziya Bakını və ətrafını nəzarətdə saxlayır və onun iştirakı ilə tam qayda-qanun təmin edilir. 20-ci və 32-ci diviziyalar ikisi birlikdə 4.000 süngüdən azdır. 7-ci Qafqaz diviziyası bütün dövr ərzində Şamaxı-Nuxa-Zaqatalanı nəzarətdə saxlayır, hələ ki, onları oradan çıxarmaq olmaz. 28-ci və 18-ci diviziyaları buradan aparacağımız təqdirdə, bütün ordunu Yelizavetpol quberniyasından çıxarmaq və onları Bakıya toplamaq lazım gələcək. Bu halda bizim əlimizdə bütün tərəflərdən mühasirəyə alınmış və mən hesab edirəm, saxlanılması qətiyyən mümkün olmayacaq ancaq Abşeron yarımadası qalacaq... Əksinqilabçılar şayiə yayırlar ki, bizim bütün ordumuz çəkiləcək. Diviziyaların çıxarılması sanki bunun təsdiqi olardı və bir sıra ağırlaşmalara gətirib çıxarardı. Bütün əhali başdan-başa silahlanıb. Azərbaycan ordusu yenidən qurulmayıb və hər an bizə zərbə endirə bilər. Qəti təminat yalnız bütün XI Ordunun iştirakındadır, hərbi hissələri hələlik buradan çıxarmadan Bakı üçün arxayın olmaq olar. Əks təqdirdə, bəyan edirəm ki, Bakını itirə biləcəyimiz, Dağıs-

[16] Tuxaçevski, Orconikidze və Zaxarovun XI ordunun komandanlığına teleqramı. 21.04.1920.// RDSSTA, f.85, s.8, i.1, v.79

[17] T.Svyatoçevski. Azərbaycanın sərhədyanı bölgəsi keçid dövründə. Xəzər Universiteti, 2000, s.138

tan və Şimali Qafqazda bəzi böyük fəsadlar olacağı istisnalıq təşkil etmir".[18] Q.Orconikidzenin Gəncə üsyanından dərhal sonra Moskvaya göndərdiyi bu teleqram Azərbaycanda sovetləşmənin necə həyata keçirilməsinin və hansı qüvvə hesabına saxlanmasının aydın bir nümunəsidir.

Gəncə üsyanının ümumxalq müqavimət hərəkatına çevrildiyini bu üsyanın qan içində boğulmasının əsas təşkilatçılarından biri olan XI Ordunun müfəttişi Melnikov Q.Orconikidzenin adına hazırladığı məruzədə belə təsvir edir: "Üsyan etmiş kontingent, demək olar ki, bütün müsəlman əhalisindən ibarət idi. Hətta, qadınların tüfənglərdən atəş açdığı hallara təsadüf edilir. Üsyan yatırılandan sonra aparılan axtarış zamanı bir sıra qadınların donlarının balağından tapançalar tapılmışdır. Bir qırmızı əsgər mənə nəql edirdi ki, hətta, birini damda pulemyotun arxasında tapıblar". Baş verən hadisələrə ermənilərin münasibətilə bağlı Melnikov yazırdı: "tatarların *(azərbaycanlıların – C.H.)* çıxışına cavab olaraq, ermənilər kiçik silahlı dəstələrlə dağlardan enməyə başladılar və öz xidmətlərini bizə təklif etdilər. Üç-dörd min döyüşçüdən ibarət bütün kəndlər *(erməni kəndləri – C.H.)* öz köməklərini bizə təklif etdilər, lakin tüfəngləri olmadıqlarından onlardan imtina etmək lazım gəldi... Ermənilər bizdən çəkinərək, qırğın törədə bilmədilər və yalnız müsəlmanları həbs edib bizə təhvil verdilər".[19] Gəncədə törədilmiş qanlı hadisələrin əsl mahiyyətini öyrənmək üçün Türkiyə Kommunist Təşkilatları Mərkəzi Bürosunun sədri M.Sübhinin iyun ayının 9-da AK(b) P MK-ya, Azərbaycan İnqilab Komitəsinə və Q.Orconikidzeyə göndərdiyi "Gəncəyə səfərin nəticələri haqqında məruzə"si müstəsna əhəmiyyətə malikdir. M.Sübhi üsyanın başlanmasında keçmiş Gəncə qubernatoru X. Rəfibəyovun həbs olunması haqqında yayılan söz-söhbətin az rol oynamadığını bildirirdi. Azərbaycan SSR xarici işlər komissarı M.D.Hüseynov da bu faktı etiraf edirdi. O, sovetləşmənin ilk aylarında Azərbaycanda yaranmış vəziyyət haqqında hazırladığı xüsusi məruzədə qeyd edirdi ki, Gəncə qubernatorunun həbsi əhalidə böyük narazılıq yaratmışdı. Onun həbsindən sonra bir sıra yoldaşlar Bakıya gəlib onun azad olunması haqqında məsələ qaldırdılar. Bunun lazım olmadığı yoldaşlara çətinliklə başa salındı.[20] X.Rəfibəyovun həbsindən sonra üsyanın genişlənməsi ilə bağlı M. Sübhi

[18] Q.Orconikidzenin V.Leninə və L.Trotskiyə teleqramı. 02.06.1920.//RDSSTA, f.85, s.13, i.31, v.1-2

[19] Gəncə hadisələri barədə XI Ordunun müfəttişi Melnikovun Qafqaz cəbhəsi hərbi-inqilab şurasının üzvü Q.Orconikidzeyə göndərdiyi məruzə. 07.06.1920.//RDSSTA, f.298, s.1, i.112, v.2-3

[20] Azərbaycanda vəziyyət haqqında məruzə. 1920. //RDSSTA, f.17, s.86, i.125, v.8

yazırdı: "Bizim *(bolşeviklərin – C.H.)* hissələrin qəhrəmancasına cəhdlərinə baxmayaraq şəhər üç dəfə təhvil verilib, vağzal əldən-ələ keçib. Əsgər hissələri əllərinə keçən hər şeyi dağıdıb, mağazaları qarət ediblər. Əsgər hissələrinin altı-səkkiz topu olduğu halda, bizim hissələr şəhərə əllərində olan bütün iyirmi beş topdan atəş açmaq məcburiyyətində qalıblar. Şəhər böyük ziyan çəkib, xüsusilə, şəhərin vağzal hissəsində olan dükanlar tamamilə dağıdılıb. Şəhərin müsəlman hissəsi də eyni ilə ziyan çəkib. Belə ki, bizim hərbi dəstələrin çoxu şəhərin erməni hissəsində yerləşdiyindən və əsgərlərin oranı tutmaq üçün həmlələrini dəf etdiklərindən şəhərin bu hissəsi az ziyan çəkib. Döyüşlər 6 gün davam edib. Yeddinci gün bizim hissələr şəhəri tutublar. Şəhərə soxulan qırmızı əsgərlər əhali ilə çox sərt rəftar etmişlər. Öz komandirlərinin gözü qarşısında onlar özbaşına axtarışlar aparmış və müsadirələr həyata keçirmişlər. Əsgər hissələrindən salamat qalmış dükanlar onlar tərəfindən silib-süpürülüblər. Komandanlıq onlarla mübarizədə gücsüz olub. Qırmızı Ordunu ermənilərdən təcrid etmək üçün şəhərin müsəlman hissəsini erməni hissəsindən ayıran körpüdə mühafizə dəstəsi qoyulsa da, ermənilərin inadkar fədakarlığı öz işini görüb. Onlar digər sahilə üzüb keçərək bizim hissələr arasında güclü təşviqat aparmışlar. Onlara guya, burjuaların evlərini nişan vermiş, ümumiyyətlə, odun üzərinə yağ tökmüş, aydındır ki, təkcə burjuaziya deyil, yoxsullar da zərər çəkmişlər. Dinc əhalidən (qadınlar və uşaqlar, yaralılara rast gəlinmir) ölənlərin sayı 3.500-dən 4.000-ə qədərdir. Bütün meyitlərin böyük bir hissəsi bağlardan, evlərin içərisindən və zirzəmilərdən tapılır. Bu onunla izah olunur ki, qırmızı əsgərlərin şəhərə daxil olmasından sonra əhali kim harada gəldi, bağlarda, evlərdə və zirzəmilərdə gizlənibler. Bəziləri təsdiq edir ki, bu ermənilərin işinin, digərlərinin fikrincə, qırmızı əsgərlərin əməllərinin nəticəsidir".[21] M.Sübhi öz məruzəsində bolşeviklər tərəfindən 1.500-ə qədər ölən və yaralanın, yerli əhalidən 12.000 nəfərin həbs olunduğunu bildirirdi. O, həbs olunanların içərisində general Stankeviçin, üsyan zamanı qubernator təyin edilmiş İsrafilbəyovun, qənimət komissiyasının sədri Adil bəy Zülqədərovun, keçmiş şeyxülislam Axund Pişnamazzadənin olduğunu yazırdı.[22] Qafqazdakı Fransa missiyası da Gəncə hadisələri barədə Parisə göndərdiyi gizli məlumatda faciənin geniş xarakter aldığını qeyd edir. Orada göstərilir ki,

[21] M.Sübhi. Gəncəyə səfərin nəticələri haqqında məruzə. 09.06.1920.//RDSSTA, f.85, s.13, i.34, v.1-2

[22] Yenə orada, v.3

"şəhərin müsəlmanlar yaşayan hissəsi tamamilə dağıdılmışdır. Oldürülənlər arasında 2-3 yaşlı uşaqlar var. Zorakılıq hərəkətlərinə məruz qalanların içərisində 8 yaşında qız uşağını da gördük. Nəhayət, müsəlmanların insan itikisinin 10 min nəfər olduğunu demək olar".[23]

Gəncə hadisələri yeni hökumətin mahiyyətini ortaya qoymaqla yanaşı, adamların öz milli hökumətləri uğrunda necə əzmkarlıqla vuruşduğunun canlı mənzərəsi idi. 1937-ci ildə Avstriyada alman dilində nəşr olunub tezliklə bütün Avropanı fəth edən "Əli və Nino" əsərində Gəncə hadisələri belə təsvir edilirdi: "Səhər açıldı və şəhər silah anbarını xatırladırdı. Kəndlilər hər yandan axışıb gəlir və gizli saxladıqları pulemyot və sursatı özləri ilə gətirirdilər. Çayın o biri sahilində, erməni məhəllələrində tək-tük atəş açılırdı. O üz, demək olar, Rusiya idi. Qırmızıların süvari qoşunu axıb ölkəyə yayılmışdı... rus batalyonları Gəncəyə doğru yürüş edirdi və şəhər Bakıdan gələn qaçqınlarla dolmuşdu. Onlar güllələnmiş nazirlərdən, həbs olunmuş deputatlardan və daşa bağlanıb Xəzər dənizinin dərinliklərinə atılan cəsədlərdən danışırdılar".[24] Bu əsər azərbaycanlıların öz milli respublikasına necə ürəkdən bağlı olduğunun, onun uğrunda necə vuruşduqlarının, milli ideya uğrunda necə fədakarlıqla canlarından keçdiklərinin bütün dünyaya yayılmış tarixi-bədii salnaməsidir. Avropalılar üçün bu əsər şirin bir məhəbbət dastanı olsa da, azərbaycanlılar üçün "Əli və Nino" həm də cümhuriyyət sevdasını ruhuna hopdurmuş Əli xan Şirvanşirin, sevgilisi Ninonun qucağında Tiflisə yola saldığı bir yaşlı körpəsi ilə iki yaşlı cümhuriyyəti arasında seçim məqamı idi. Bu seçimi Əli xan ikincinin xeyrinə etdi. Əslində bu minlərin, on minlərin seçimi idi. Təkcə Gəncədə Sovet hakimiyyətinə qarşı üsyan edənlərin sayı 10 minləri ötmüşdü.[25]

Gəncə üsyanı ilə eyni vaxtda Qarabağı da antisovet hərəkat bürümüşdü. Qarabağ üsyanı 1920-ci ilin iyun ayının ilk günlərində Azərbaycan ordusunun süvari və piyada alayının çıxışı ilə başladı və tezliklə Şuşa, Ağdam və Bərdəni bürüdü. Yalnız əlavə qüvvələr yeritdikdən sonra, 1920-ci ilin iyun ayının ortalarında üsyanı amansızlıqla yatırmaq mümkün oldu. Azərbaycanın bəzi qəzalarında sovetləşməyə qarşı müqavimət hərəkatı daha uzun müddətli oldu. Məsələn, Lənkəran qəzasında 1920-ci ilin ma-

[23] Récit de la tragédie d'Elisabetpol Par une personnalité politique rentrée d'Azerbaïdjan. Tiflis, le 11 juin 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 109-111

[24] Qurban Səid. Əli və Nino. Bakı, 2006, s.245-246

[25] F.İbrahimli. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı, 1996, s.45

yında başlayan antisovet hərəkat 1921-ci ilin payızına qədər davam etdi. Həmin vaxt Zaqatalada başlanan antisovet üsyan 2 həftəyə yaxın davam etdi. Əhali arasında belə şayiə yayılmışdı ki, Moskvada imzalanmış 7 may 1920-ci il Rusiya-Gürcüstan müqaviləsinə əsasən, guya, Zaqatala dairəsi Gürcüstana verilib və bu şayiələr üsyanın kütləvi xarakter almasında mühüm rol oynamışdı. Lakin az sonra məlum oldu ki, bu şayiə deyil, həqiqətən sənəddə əks olunmuş reallıqdır. Qırmızı Ordu komandirləri öz hesabatlarında bildirirdilər ki, Qarabağdakı üsyan zamanı olduğu kimi, Zaqatalada da üsyan amansızlıqla yatırıldı və tərksilah zamanı əhalidən 6 mindən çox xarici və rus tüfəngi, 8 pulemyot və çoxlu sayda tapança və digər döyüş sursatı müsadirə edildi.[26] İyun ayının 18-də üsyan yatırıldıqdan bir gün sonra Sovet Rusiyasının xarici işlər komissarı G.Çiçerin Q.Orconikidzeyə göndərdiyi təlimatda Qırmızı Ordu tərəfindən işğal olunan Azərbaycan torpaqlarına Sovet Rusiyasının münasibətini belə açıqlayırdı: "Əgər Zaqatala dairəsində əksinqilabi mərkəz yaranıbsa, bu, Gürcüstanla imzaladığımız müqaviləyə ziddir və Tiflisdəki nümayəndəmiz onu ləğv etməlidir, lakin biz ora yeni ordu hissələri göndərməməliyik. Qarabağ, Zəngəzur, Şuşa, Naxçıvan, Culfa nə Ermənistana, nə də Azərbaycana birləşdirilməməlidir, yerli sovetlər yaradılmaqla Rusiya işğal ordusunun əlində qalmalıdır, əks təqdirdə digər qərarlar bizim ümumi vəziyyətin tələb etdiyi sülh siyasətimizi pozardı."[27]

Əslində, Zaqatala dairəsinə münasibətdə Qafqazda fəaliyyət göstərən bolşeviklərlə Sovet Rusiyası Xarici İşlər Komissarlığı arasında ciddi ziddiyyətlər var idi. Azərbaycanın işğal olunmuş vəziyyətindən istifadə edərək, müavini L.Karaxanın tövsiyəsi ilə G.Çiçerin bu əraziləri Gürcüstana verməyə meylli idi. Bu meyli hiss edən Gürcüstan isə qarışıqlıqdan istifadə edərək, Zaqatala dairəsinə qoşun yeritmək istəyirdi. Moskva müqaviləsinə görə, Zaqatala dairəsinin Gürcüstana verildiyi barədə məlumatlar alan Q.Orconikidze və S.Kirov may ayının 10-da V.Leninə yazırdılar: "Gürcüstana verilən Zaqatala dairəsi mübahisəsiz Azərbaycan və müsəlman ərazisidir. İndiyə qədər Gürcüstanın oraya iddiası olmamışdır. Əhali gürcü işğalçıları əleyhinə ayağa qalxıb. Bizim bu işğalı tanımağımız Azərbaycanda Sovet hakimiyyətinin sonu olardı. Gürcüstanla müqayisədə yüz dəfədən də artıq əhəmiyyətli olan Azərbaycana belə münasibət nə ilə izah olunur?.. Sizin qarşınızda bu məsələ dayanır: ya Gürcüstanla müqaviləyə yenidən baxın,

[26] Bax: Azərbaycan tarixi. Yeddi cilddə. Altıncı cild. Bakı, 2001, s.49

[27] G.Çiçerin – S.Orconikidzeyə. 19.06.1920.//RDSSTA, f.85, s.2s, i.4, v.5

ya da bizi geri çağırın, əks təqdirdə biz Qafqaz məsələsində Xarici İşlər Komissarlığının nadanlığının əvəzini ödəmək niyyətində deyilik... Bir daha sizin diqqətinizə çatdırmaq istəyirik ki, 1918-ci ildə neft məsələsinin bizim üçün fəlakətli nəticələri kimi, indi də Karaxanın nadanlığı bizi milli qırğının dəhşətli təhlükəsi ilə üz-üzə qoya bilər."[28] Qafqaz bolşeviklərinin bu məzmunlu müraciətlərindən əsəbləşən G.Çiçerin isə öz növbəsində onları hədələyərək bildirirdi ki, "bizim siyasətimiz dünya siyasətidir və yalnız Qafqazla məhdudlaşmır. Siz bütün məlumatlarınızda bizim dünya maraqlarımıza etinasızlıq göstərirsiniz. Siz bizim dünya siyasətimizə dəhşətli dərəcədə ziyan vurursunuz. İngiltərə ilə münasibətlərdə biz prosesləri sürətləndirə bilmərik, bizim Gürcüstanla imzaladığımız sülh Çörçill qrupunun siyasətini çətinləşdirmək üçün İngiltərədə müstəsna effekt verməlidir və bütün dünyada bizim nüfuzumuzu artırmalıdır. İndiki anda bizə orada dayaq məntəqəsi yaratmaq lazımdır. Siz hər necə olursa-olsun, yoldaşları təxribatdan çəkindirməlisiniz. Bu və ya digər dərəyə görə, əsas sayılan dünya maraqlarından geri çəkilmək olmaz. Lakin sizin sadaladığınız dərələr Gürcüstana verilməyib. Siz səhv edirsiniz. Sərhədləri Hərbi İnqilabi Şurası Qafqaz cəbhəsi ilə birlikdə müəyyən edib. Buradakı gürcülər Zaqatala dairəsinin onlara məxsus olduğunu təsdiq edirlər. Lakin sizin etirazımızı nəzərə alaraq, biz təsir etdik ki, gürcü ordusu ora buraxılmasın. Bütün mübahisəli məsələlərin həlli son nəticədə bizim əlimizdə olacaqdır."[29] Sovet hakimiyyətinin ilk günlərində G.Çiçerin və L.Karaxan tərəfindən həyata keçirilən bu siyasət diplomatik yazışmalarda "zaqatalaçılıq" kimi dəyərləndirilməyə başladı.

1920-ci ilin aprel ayının 28-dən başlayaraq Azərbaycanın sovetləşdirilməsi prosesi yeni formalaşan milli kadrların kütləvi şəkildə məhv edilməsi və əksinqilab adı altında bolşevik terrorunun qurbanına çevrilməsi ilə nəticələnirdi.[30] On minlərlə adam, o cümlədən, cümhuriyyət quruculuğunda fəal iştirak etmiş yüzlərlə tanınmış dövlət xadimləri, yerlərdə milli hökumətin təmsilçiləri, xalq cümhuriyyəti dövründə dövlət quruculuğuna cəlb edilmiş minlərlə vətənpərvərlər siyasi mülahizələrlə həbs edilmişdilər. N.Nərimanovun şəxsən tanıdığı siyasi xadimləri xilas etmək cəhdləri çox az halda müsbət nəticələr verirdi. Gəncə üsyanından dərhal sonra iyun ayının

[28] Q.Orconikidze və S.Kirovun V.Leninə xatırlatmaları. 10.05.1920.//RDSSTA, f.85, s.2s, i.1, v.5

[29] G.Çiçerinin Q.Orconikidzeyə şifroqramı. 11.05.1920.//RDSSTA, f.85, s.2s, i.4, v.4

[30] Daha ətraflı məlumat üçün bax: F.İbrahimli. Aprel işğalı: Azərbaycanda siyasi və milli təqiblər. //Azərbaycan Xalq Cümhuriyyəti tarixinin problemləri. Bakı, 2003, s.19-26

4-də həbs edilmiş Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin hərbi naziri general S.Mehmandarov və onun müavini Ə.Şıxlinski ilə bağlı N.Nərimanov V.Leninə yazırdı: "Gəncə üsyanı zamanı köhnə Azərbaycan ordusunun bütün zabitləri həbs edildilər. Bu məktubu sizə təqdim edən məşhur generallar – Mehmandarov və Şıxlinski də onların arasında idi. Əsaslı şəkildə təhqiqatdan sonra məlum oldu ki, bu generalların üsyanla əlaqəsi yoxdur, lakin bununla belə, vəziyyətimiz möhkəmlənənə qədər və ümumi işimizə kömək etmək məqsədilə biz qərara gəldik ki, qərargahda işləmək üçün onları sizin sərəncamınıza göndərək. Belə ki, onlar hərbi mütəxəssislər kimi əvəzsizdirlər. Onlardan biri – Şıxlinski Nikolay ordusunda "artilleriya allahı" hesab edilirdi. Polşa cəbhəsi qurtarana qədər *(Polşa ilə müharibə nəzərdə tutulur – C.H.)* qoy onlar Moskvada işləsinlər, sonra isə bizim hissələrin təşkili üçün onların bizə göndərilməsini sizdən xahiş edəcəyik. Bu müddət ərzində onların bir az qayğısına qalmaq zəruridir." N.Nərimanov V.Leninі inandırmaq üçün milli hökumətin hərbi naziri və onun müavini haqqında məktuba əlavə edirdi ki, "onlar müsavatçılara nifrət edirlər, Sovet Rusiyası olmadan Azərbaycanın mövcud ola bilməyəcəyinə əmindirlər, İngiltərənin düşmənləridirlər və Rusiyanı sevirlər."[31] Bu məzmunda məktubdan sonra general S.Mehmandarov və general Ə.Şıxlinski bolşevik terrorundan xilas olan çox az cümhuriyyət liderlərindən idilər. Elə onların nəzarətdə saxlanılması üçün Moskvaya göndərildiyi 1920-ci ildə, Azərbaycanı nəzarətdə saxlamaq üçün V.Leninlə İ.Stalin arasında yazışmalar gedirdi. İ.Stalin V.Leninə xatırlatmasında bildirirdi: "Belə hesab edirəm ki, gündə 5 eşelon hesabı ilə Azərbaycana cəmisi beş və ya altı yeni diviziya göndərməklə kifayətlənmək olar." V.Lenin bu xatırlatmanın üzərinə qeyd qoyurdu ki, o altı diviziya göndərilməsinə tərəfdardır.[32]

Bu diviziyalar və onların himayə etdiyi qeyri-azərbaycanlılar özlərini Azərbaycanda əsl müstəmləkəçilər kimi aparırdılar. Hətta, iş gəlib o yerə çatmışdı ki, RSFSR Xalq Xarici İşlər Komissarlığı qırmızı komandirlərin Azərbaycandakı azğınlığının qarşısını almaq üçün 1920-ci ilin avqust ayının 4-də RK(b)P MK-nın Siyasi Bürosuna müraciət etməli olmuşdu. Siyasi Büroya məktubunda Xarici İşlər Komissarlığı yazırdı: "Bakıdan gəlmiş Azərbaycan Sovet hökumətinin səlahiyyətli nümayəndəsi yoldaş Şahtaxtinski Sovet Azərbaycanının ağır və qeyri-müəyyən vəziyyəti haqqında özü ilə

[31] N.Nərimanovun V.Leninə məktubu. 01.08.1920.//ARPİİ SSA, f.609, s.1, i.21, v.1

[32] İ.Stalinin V.Leninə xatırlatması. 03.12.1920.//ARPİİ SSA, f.1, s.44, i.118, v.41

zəngin material gətirmişdir. Bizim Qızıl Ordu hissələrinin yerli komandirləri Azərbaycan hökuməti ilə tamamilə hesablaşmırlar, özbaşına və istədikləri kimi hərəkət edirlər və onların havadarlığı ilə xalis müstəmləkəçilik siyasəti yeridilir. Sovet Rusiyasından gələn hər hansı müvəkkil istədiyi kimi, əmr verir, yerli rus əhalisi özünü müstəmləkəçi kimi aparır və rusların Orta Asiyada etdiyinə bənzər formada müsəlman əhalisini hər cür təzyiqlərə və haqsızlıqlara məruz qoyur."[33] Bolşevik rəsmilərinin etiraf etdiyi bu acınacaqlı vəziyyət müstəqil Sovet Azərbaycanı ideyasının deklarativ xarakter daşıdığının əyani təzahürü idi.

Tiflisdəki Amerika konsulu Çarlz K.Mouzer Azərbaycanın bolşeviklər tərəfindən işğalı ilə bağlı Dövlət Departamentinə yazırdı: "Bakı Zaqafqaziyanın digər şəhərləri ilə müqayisədə daha çox ziyan çəkdi. 1920-ci ilin aprelindən başlayaraq bolşeviklərin orada bütövlükdə 30.000 adamı edam etməsi barədə yerli dəyərləndirmələr həqiqətə yaxın görünür. Həyat şəraiti indi bir az düzəlib, lakin az əvvəl tamamilə dözülməz idi. 1920-ci ilin iyulunda bolşevik hökuməti düşünülmüş şəkildə "soyğunçuluq həftəsi" təşkil etdi. Şəhər 700 sahəyə bölündü və yeddi günlük soyğunçuluğu həyata keçirmək üçün bu sahələrin hər birinə əsgər dəstələri ayrıldı. Əsgərlər evlərə soxuldular və heç nəyə fərq qoymadan sakinlərdən tələb etdilər ki, hər nələri varsa, ortaya töksünlər. Sonra onlar qiymətli nə varsa, hamısını aldılar, adamlar üçün isə ən zəruri olan geyimləri qoydular. Sənət əsərləri, büllurlar, daş-qaşlar, qadın donları, silah, mebel – bütün nə varsa, hamısını əsgərlər arasında bölüşdürmək və ya Rusiyaya göndərmək üçün daşıyıb aparırdılar. Əlbəttə, talanan şeylərin böyük bir hissəsi korlandı və bir şeyə yaramadı. Bu, bolşevik rejiminin cahilliyini və nadanlığını səciyyələndirir."[34]

Bolşevik ordusu qəzalara irəlilədikcə Bakıda baş verən terror və soyğunçuluq hərəkətləri əyalətlərdə də təkrar olunurdu. Məsələn, 1920-ci ilin mayın 29-da Şuşadan verilən məlumatda daşnakların 30 müsəlman kəndini yandırdığı, çoxlu uşaq və qadınların öldürüldüyü bildirilirdi. 1920-ci ilin iyun ayının 3-də Göyçaydan verilən məlumatda əksinqilabçıların həbs olunması üçün tədbirlər görüldüyü bildirilirdi. İyunun 2-də Yevlaxdan verilən məlumatda deyilirdi: Qırmızı hissələr kəndlərin yanından keçərkən mülki hakimiyyətə tamamilə məhəl qoymur, ərzaq və atlara görə birbaşa əhaliyə

[33] RSFSR-in Xalq Xarici İşlər Komissarlığı – RK(b)P MK-nın Siyasi Bürosuna. 04.08.1920.// ARPİİ SSA, f.1, s.44, i.118, v.29

[34] Чарлз К.Моузер. Записки о Закавказье. Политическая условия в Закавказье. //«Литературная Грузия», 2003, № 9, с.184

müraciət edirlər, gözlərinə dəyən hər nə varsa, onların əlindən alırlar. Belə hərəkətlərin nəticəsində Bərdədə qırmızılara qarşı cəbhə açılmış və kəndlilər Qırmızı Ordunu öz ərazilərinə buraxmaqdan imtina etmişlər." Hacıqabuldan iyunun 7-də verilən məlumatda qeyd edilirdi ki, dəstələrində çoxlu erməni olduğundan müsəlman əhalisi Qırmızı Orduya müstəsna dərəcədə qəzəbli münasibət bəsləyir. İyunun 16-da Quba qəzasından gələn məlumatda 100 nəfərin həbs edildiyi, onlardan 12-nin güllələndiyi bildirilirdi.[35] Bu məzmunda olan məlumatlar demək olar ki, Azərbaycanın hər yerindən gəlirdi. N.Nərimanov Moskvaya səlahiyyətli nümayəndə təyin olunmuş B.Şahtaxtinskiyə yazırdı: "Mən məruzəçiləri gözlərində yaşla qəbul edirəm. Kəndlilərin, demək olar ki, nəyi varsa, əllərindən alıblar, lakin əvəzində heç nə verə bilmirik. Qırmızı ordu yerlərdə mənəvi baxımdan pozulmaqdadır və ən sonuncu nə varsa, hamısını zorla mənimsəyir, Qırmızı ordusuz isə biz indiki anda gücsüzük... Sən yoldaş Stalinə de ki, əgər vəziyyət belə davam etsə, ya gərək mən gedəm, ya da xahiş et ki, məni Qafqaz cəbhəsinin üzvü təyin etsinlər. Ola bilsin, bu bizə imkan verər ki, hərbi hakimiyyətlə münasibətlərimizi tənzimləyək. Ayrı çıxış yolu yoxdur."[36]

Əslində, Azərbaycana gəlişindən sonra N.Nərimanovla Qırmızı Ordu komandirləri və Mərkəzdən gələn sovet işçiləri arasında ilk narazılıqlar, məhz, bu özbaşınalıqlar və soyğunçuluqlar üstündə olmuşdu. N.Nərimanov kütləvi şəkildə Bakının müsəlman məhəllələrində axtarışlar aparılmasının əleyhinə olduğunu bildirdi. O, müəyyən vasitələrlə bu qanunsuzluqların qarşısını almağa çalışsa da, Bakı Partiya Komitəsində toplanmış qeyri-azərbaycanlılar onun bu hərəkətlərini burjuaziyanın müdafiəsi kimi təqdim edib, bundan ona qarşı istifadə etməyə cəhd göstərdilər. N.Nərimanov təkid edirdi ki, müsadirə zamanı sinfi mənsubiyyətindən asılı olmayaraq, adamların ailə həyatına müdaxilə etmək olmaz. O, qeyd edirdi ki, dürüst məlumat olmadan adamların yaşadığı evlərin üzərinə yürüş təşkil etmək Sovet hakimiyyətini əhalinin nəzərində nüfuzdan salmaqdan başqa bir şey deyildir. 1921-ci ilin payızında V.Leninə göndərdiyi "Azərbaycanda Sovet quruculuğunun yekunları" adlı məruzəsində N.Nərimanov yazırdı ki, "keçmiş daşnak tələbə, sonra isə qatı kommunistə çevrilən Mikoyan Azərbaycanda bir vaxtlar Şaumyanın oynadığı rolu oynamağa çalışır. O, deyirdi ki, Nərimanovun təsirindən qorxmağa ehtiyac yoxdur, fəhlələr bizim

[35] ARPİİ SSA, f.1, s.123, i.13, v.80-96

[36] N.Nərimanovun B.Şahtaxtinskiyə məktubu. Avqust 1920.// RDSSTA, f.85, s.2c, i.3, v.59-60

əlimizdə olacaq, o, yalnız görüntü üçündür. Mikoyanı mərkəz geri çağıranda o, öz yerinə etibarlı varis kimi Sarkisi saxladı. Heç kim Bakı fəhləsinin əxlaqını Eçmiədzin daşnak seminariyasının yetirməsi olan bu "möhkəm" kommunist kimi pozmamışdı. O və onun agentləri... fəhlələrə deyirdilər ki, yoldaş fəhlələr, komissarlar avtomobildə fırlanır, yaxşı geyinir və daha yaxşı qidalanırlar, siz isə ac və lütsünüz. Biz istəyirik, sizi geyindirək, burjuaziyanın əmlakı ilə varlandıraq, lakin Nərimanovun simasında Azrevkom buna imkan vermir." Ucdantutma axtarışların əleyhinə olan Nərimanov isə axtarışların məlum ünvanlarında aparılmasını tələb edirdi. N.Nərimanov yazırdı: "Mən bilavasitə bu axtarışlar zamanı necə biabırçılıqlar baş verdiyini qabaqcadan görürdüm."[37] Eyni zanada 1920-ci ildə B.Şahtaxtinskiyə göndərdiyi məktubda o, baş verən qanunsuzluqlar qarşısında öz gücsüzlüyünü də etiraf edirdi və yazırdı: "Məlum şəxslər qrupu (Mikoyan, Qoqoberadze, Lominadze və digərləri) qeyri-inqilabi addımlar ataraq, evlərə soxulmağı, heç bir araşdırma aparmadan müsəlman qadınlarının alt paltarında briliant axtarmağı, müsəlman qadınların qulağlarından sırğalarını və digər əşyaları qopartmağı lazım bilirlər... Məsələ, tərkibi sənə bəlli olan Bakı şəhər İcraiyyə komitəsinə keçiriləndə mənim əmrimi ləğv edib, güzəştsiz toplamaq *(qiymətli daş-qaş – C.H.)* haqqında qərar qəbul edirlər".[38]

N.Nərimanov Qafqazı yaxşı tanıyan Orconikidze, Stalin və digərlərinə xatırladırdı ki, Azərbaycanda 1918-ci ilin səhvləri təkrar olunur. O yazırdı: "Burjuaziyanın qulağından sırğanı dartıb qoparmağı inqilabi akt hesab etmək ən azı yelbeyinlikdir."[39] Bütün bu narazılıqlar N.Nərimanovun az sonra İ.Stalinə ünvanladığı "Ucqarlarda inqilabımızın tarixinə dair" geniş məktubunda daha kəskin şəkildə qoyulmuşdu. O, qeyd edirdi ki, Şərqə pəncərə olacaq müstəqil sovet respublikası qurmaq niyyəti ilə Qafqaza yola düşməzdən qabaq yol. Lenin məni qəbul etdi və yuxarıda göstərilmiş layihəmi bəyəndi, xeyir-dua verdi... Biləcəridə məni bəzi yoldaşlar qarşıladılar və görünür, mənim gəlişimə çox sevinirdilər. "Bəlkə sizə qədər olan biabırçılıqlara son qoyulacaqdır". Onlar belə dedilər... "Azərbaycanı başdan-başa qarət edirlər, sağa və sola güllələyirlər". Bəzi yoldaşlar məni ...bu sözlərlə qarşılamışdılar."[40]

[37] N.Nərimanovun "Azərbaycanda Sovet quruculuğunun yekunları" haqqında V.Leninə göndərdiyi məruzə. 15.09.1921.//RDSSTA, f.5, s.1, i.1219, v.6-7

[38] N.Nərimanovun B.Şahtaxtinskiyə məktubu. 1920.// RDSSTA, f.85, s.2c, i.3, v.62

[39] Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə, surəti Q.Orconikidzeyə // RDSSTA, f.85, s.13, i.100, v.5

[40] N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair İ.Stalinə məktub. 1923.//RDSSTA, f.588, s.2, i.176, v.7-8

Kütləvi müsadirələrlə, bu müsadirələr zamanı mənimsəmələrlə bağlı N.Nərimanov İ.Stalinə məktubunda daha geniş yer verir, bütün baş verənləri qanunsuz qarət hesab edirdi və bu qarətlərin bütün Azərbaycanı bürüdüyünü bildirirdi. O, qeyd edirdi ki, "müsadirə zamanı əldə olunmuş qənimətlərin bölüşdürülməsi nəzarətsiz aparıldığından, bu işin əsas ilhamvericilərindən olan Sarkisin himayədarlığı altında bəzi şeylərin itməsi də müşahidə edilmişdir."[41] Moskvaya səlahiyyətli nümayəndə təyin edilmiş B.Şahtaxtinskiyə məktubunda N.Nərimanov yazırdı ki, "Sarkis aranı qızışdırmağından qalmır, qurultayda bir sıra fırıldaq əməllərinin üstü açıldı, Onun buradan uzaqlaşdırılması məsələsini qəti şəkildə qoymaq lazımdır".[42]

N.Nərimanov Bakıya müstəqil Sovet Azərbaycanı qurmaq niyyəti ilə gəlmişdi, lakin az sonra onun arzuladığı müstəqillikdən əsər-əlamət qalmadığı barədə, müstəqil Azərbaycanın devrilməsində fəal rol oynamış İ.Stalinə geniş məktublar yazmağa başladı. O, xatırlayırdı ki, Q.Orconikidze Azərbaycanı işğal etmək üçün yola düşməzdən əvvəl Mərkəzi Komitədə belə bir məsələ qoymuşdu: "Azərbaycan Respublikası müstəqil yaşamalı, yaxud Sovet Rusiyasının tərkibinə daxil olmalıdır?" Maraqlıdır ki, Ə.Qarayev və M.D.Hüseynov kimi gənc kommunistlər bildirmişdilər ki, heç bir müstəqillik bizə lazım deyil, biz Azərbaycanı Rusiyaya birləşdirməliyik. Q.Orconikidze bu məsələdə N.Nərimanovun fikrinin əhəmiyyətli olduğunu bildirdikdə, Nərimanov cavab vermişdi ki, "Azərbaycan Respublikası Gürcüstan və Ermənistanın sovetləşdirilənədək müstəqil olmalıdır, sonrasına isə baxarıq".[43]

Lakin N.Nərimanov Bakıya gələndə, hətta, müvəqqəti hesab etdiyi müstəqillikdən belə əsər-əlamət olmadığını başa düşdü. Rəsmən Azərbaycanda Xalq Komissarları Soveti fəaliyyət göstərsə də, əslində, real hakimiyyət artıq Nərimanov gələnə qədər formalaşdırılmış Azərbaycan Kommunist Partiyası Bakı Komitəsinin əlində idi. O, etiraf edirdi ki, Bakı Komitəsi Azərbaycanda hər şey deməkdir. N.Nərimanov hələ Bakıya yola düşən zaman Q.Orconikidze Moskvaya gizli teleqramlar vururdu ki, Azərbaycanı idarə etmək üçün Nərimanova heç bir vəkalət verilməsin.[44]

[41] Yenə orada, v.19

[42] N.Nərimanovun B.Şahtaxtinskiyə məktubu. 1920.// RDSSTA, f.85, s.2c, i.3, v.58

[43] N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair İ.Stalinə məktub. 1923.//RDSSTA, f.588, s.2, i.176, v.8

[44] Q.K.Orconikidze və S.M.Kirovun V.İ.Leninə teleqramı. 04.05.1920.//RDSSTA, f.85, s.13, i.12, v.10

A.Mikoyan isə öz əlaltılarını başa salırdı ki, Azərbaycanı idarə etmək üçün Bakı Komitəsini ələ keçirmək lazımdır. 1917-ci ilin bolşevik inqilabından sonra Bakıda eser S.Saakyanla bolşevik S.Şaumyan çox məharətlə hakimiyyəti bir-birlərinə ötürdüyü kimi, 1920-ci ildə də Bakı Komitəsini ələ keçirən A.Mikoyan onu böyük ustalıqla Sarkisə, Sarkis isə Mirzoyana ötürə bilmişdi. Bütün bunları müşahidə edən N.Nərimanov yazırdı: "Mikoyandan sonra BEKA-nın katibi Sarkis olur, Sarkisdən sonra isə Mirzoyan. Çox güman ki, Mirzoyandan sonra Kasparov olacaq və i.a."[45] Ona görə N.Nərimanov Moskvada Azərbaycanın səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskiyə yazırdı ki, "bütün Azərbaycanın taktiki hərəkətlərdə bu gün burda, sabah Ermənistanda olan məsuliyyətsiz şəxslərə deyil, bizə tabe olması zəruridir".[46] Lakin bunun üçün Nərimanov yetərli gücə malik deyildi. 1920-ci ilin sentyabrında Bakıya gələn Türkiyədəki İtaliya missiyasının nümayəndəsi Azərbaycanda siyasi prosesləri və N.Nərimanovun vəziyyətini müşahidə edərək yazırdı: "Azərbaycan hökumətinin başında yaşlı və milliyyətcə tatar olan Nərimanov dayanır. Demək olar ki... Böyük zəhmət hesabına bu adam əvvəlcə kənd müəllimi, sonra isə, xüsusilə, qeyri-adi sayılan həkim diplomu ala bilmişdi. Lakin o, tutduğu vəzifədə zəruri olan kifayət qədər xarakter və iradəyə malik deyildir. Hətta, ona bəzən böyük idealistə baxan kimi baxırlar". [47] Bu fikirləri 20-ci illərdə Nərimanovun başçılıq etdiyi "milli təmayülçülər", və ya, "milli komunizm" ideyasının tərəfdarı olan Ə.Əhmədov da, həbs olunduqdan sonra 1927-ci ildə Azərbaycan Siyasi İdarəsinə verdiyi ifadələrdə təsdiq edir. O yazırdı: dövlət xadimi kimi Nərimanov xüsusi istedada malik deyildi, belə adamlar üçün vacib olan möhkəm iradədən, geniş dünyagörüşdən, aydın və dəqiq siyasi xəttdən məhrum idi, müəyyən bir platforması yox idi, əmr etmək, öz fikrində təkid etmək və ona nail olmaq bacarığında deyildi. O, xəyalpərvərliyə meyl edən yumuşaq və xeyirxah adam idi, tər-təmiz bir idealist idi".[48]

Azərbaycan Xalq Cümhuriyyəti dövründə yeni formalaşan azərbaycanlı kadrlar idarə və müəssisələrdən qovulmuş, dövlət idarələri,

[45] N.Nərimanov. Uçqarlarda inqilabımızın tarixinə dair İ.Stalinə məktub. 1923.//RDSSTA, f.588, s.2, i.176, v.22

[46] N.Nərimanov B.Şahtaxtinskiyə məktubu. 08.09.1920.// RDSSTA, f.85, s.2c, i.3, v.63

[47] Aleksandr Bodrero. Bakıya səfər haqqında hesabat. 18.09.1920.// Archives d'Ali Mardanbey Toptchibachi, carton n° 1. Le Centre d'études des mondes russe, caucasien et centre-européen (CERCEC), l'École des hautes études en sciences sociales (EHESS, Paris), p.6-7

[48] Ə.Əhmədov. Azərbaycanda milli hərəkat. 22.12.1927.// ARPİİ SSA, f.12, s.1, i.152, v.22

təhsil, mədəniyyət müəssisələri bolşevik hakimiyyətinin ilk aylarında əsasən qeyri-azərbaycanlıların əlinə keçmişdi. Müstəqil Sovet Azərbaycanı qurmaq arzusunda olan N.Nərimanovun idarə və müəssisələrdəki işçilərin milli tərkibinə dair statistik məlumatlar toplamaqdan başqa əlində elə bir şey qalmamışdı. İndi o yazırdı ki, Bakı Sovetinin 10 rəhbər işçisindən 2-si, İşlər İdarəsinin 26 işçisindən 4-ü, şəhər təsərrüfatının 45 işçisindən 20-i, torpaq şöbəsinin 33 işçisindən 3-4-ü, su təchizatı şöbəsinin 100 işçisindən 1-i, səhiyyə şöbəsinin 45 işçisindən 2-si, təhsil şöbəsinin 60 işçisindən vurtut 5-7-si türkdür. N.Nərimanov qeyd edirdi ki, Bakıda fəaliyyət göstərən 17 texniki peşə məktəbində 1.192 rus təhsil aldığı halda, türk uşaqlarının sayı 26 nəfərdən artıq deyildir. Hətta, uşaq evlərinə qəbul edilən 3.773 uşaqdan cəmisi 527 uşağın türk ailələrinə məxsus olduğu N.Nərimanovun diqqətindən yayınmamışdı.[49] Acı da olsa, Azərbaycanda bolşevik hakimiyyətinin real mənzərəsi bundan ibarət idi. Sovetləşmənin ilk illərində Azərbaycanın məruz qaldığı maddi-mənəvi, ərazi və torpaq itkilərinin ən böyük səbəbi onunla bağlı idi ki, Nərimanovun dili ilə desək, "Azərbaycanı yadlar idarə edirdi."[50] N.Nərimanov Moskvada olan B.Şahtaxtinskiyə tapşırıq verirdi ki, "sən Pankratovun uzaqlaşdırılması və Xüsusi Şöbənin işinin məhdudlaşdırılması məsələsini qəti şəkildə qoymalısan. Ümumiyyətlə, İliçə *(Leninə - C.H.)* demək lazımdır ki, ÜFK *(Ümumrusiya Fövqəladə Komissiyası – C.H.)* hakimiyyət həddini aşmasın. Indiyə qədər Ksenofontov Azərbaycan Respublikasına Rusiyanın Bakı quberniyası kimi baxır".[51] N.Nərimanov Şahtaxtinskiyə tapşırırdı ki, V.Lenin və G.Çiçerinlə görüşsün və onların qarşısında məsələ qoysun ki, "əgər onlar Bakını saxlamaq haqqında fikirləşirlərsə, bizim səsimizə qulaq asmalıdırlar".[52]

Aprel çevrilişindən sonra Azərbaycana rəhbər işə göndərilmiş N.Solovyov V.Leninə göndərdiyi "Çevrilişdən sonrakı iki ay ərzində bizim Azərbaycanda siyasətimiz" adlı məruzədə haqlı olaraq, yazırdı ki, çevrilişə qədər, hətta, azərbaycanlı ziyalılar arasında da Sovet hakimiyyətinə rəğbət bəsləyənlər var idi. Məlumdur ki, Azərbaycan hökuməti azərbaycanlılardan təşkil olunmuşdur. Bu yaxşıdır, lakin heç kimə sirr deyildir ki, Azərbaycan

[49] N.Nərimanov. Uçqarlarda inqilabımızın tarixinə dair İ.Stalinə məktub. 1923.//RDSSTA, f.588, s.2, i.176, v.45-47

[50] N.Nərimanovun "Azərbaycanda Sovet quruculuğunun yekunları haqqında" V.Leninə göndərdiyi məruzə 15.09.1921.//RDSSTA, f.5, s.1, i.1219, v.10

[51] N.Nərimanovun B.Şahtaxtinskiyə məktubu. 1920.// RDSSTA, f.85, s.2c, i.3, v.58

[52] N.Nərimanovun B.Şahtaxtinskiyə məktubu. 08.09.1920.// RDSSTA, f.85, s.2c, i.3, v.63

İnqilab Komitəsinin üzərində də bir hakimiyyət mövcuddur. O, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin hakimiyyətidir. Partiya rəhbərliyi isə əsasən erməni və gürcülərin əlindədir. Müsəlman əhalisinin yalnız ermənilərə deyil, gürcülərə də etimadlarının olmadığını nəzərə alsaq, bu pis idi... Həbs olunan və güllələnən burjuaziya və ziyalılar istisna olaraq, yalnız müsəlmanlardan ibarətdirlər... Həbs olunan müsəlmanların dəstə ilə küçələrlə aparılması ermənilərdə açıq-aşkar bədxah sevinc doğururdu. 1918-ci ildə bolşeviklərin dövründə müsəlmanlar ermənilər tərəfindən qətlə yetirildilər, sonra türklərin gəlişi dövründə əksinə oldu. Belə təəssürat yaranırdı ki, indi növbə yenidən müsəlmanlarındır. Nəticədə müsəlman millətçilərinin (müsavatçıların) qabaqcadan xəbərdarlıq etdikləri belə bir fikir özünü doğruldurdu ki, Sovet hakimiyyətinin təntənəsi, müsəlmanların düşmənlərinin təntənəsidir, ümummilli fəlakətdir."[53] N.Solovyovun bu fikrini həmin vaxt Bakıda olan Britaniya dairə komandanı H.Spoyer də təsdiq edirdi. O yazırdı: "yüksək vəzifələr həmin vaxt tatarlar *(azərbaycanlılar – C.H.)* tərəfindən tutulsa da, bununla yanaşı, çox hallarda əmrlərin icrası ermənilərin əlində idi".[54] N.Solovyov etiraf edirdi ki, Bakıdan qaçan müsavat başçılarının rəhbərliyi ilə Gəncədə qaldırılmış üsyan ermənilərin köməyi ilə Qızıl Ordu tərəfindən yatırıldı. O, yazırdı ki, üsyanın yatırılmasında "Gəncə ermənilərinin kömək göstərməsi Qızıl Ordu əsgərlərində onlara rəğbət oyadırdı. Erməni millətçiləri və sadəcə olaraq, yaramazlar bundan istifadə edərək, Qızıl Ordu əsgərlərini qarətçiliyə və müsəlmanlara qarşı hər cür zorakılığa uğurla təhrik etməyə başlamışdılar. XI Ordunun bir sıra dəstələri də elə bu yöndə fəaliyyət göstərir, ordunun yerləşdiyi rayonlarda işğalçılıq metodu ilə ərzaq tədarük edirdilər." N.Solovyovun fikrincə, "ən kədərli təs'ir bağışlayan məsələlərdən biri də Ermənistanla sərhəd rayonlarında yaşayan müsəlman əhalisinin silahlarının yığılması idi. Bu, müsəlmanların ermənilər tərəfindən qırğına məhkum edilməsi demək idi. Ermənistan Respublikası yaradılan vaxt onun hüdudlarında 250 müsəlman kəndləri var idi. Onlar hamısı o zaman "ləğv edilib", indi orada bir nəfər də müsəlman qalmayıb."[55] Sovetləşmənin ilk aylarında baş alıb gedən özbaşnalığın və zorakılığın qarşısında çarəsiz qalan müsəlman əhalisinin hər gün N.Nərimanova müraciətlərinə toxunan N.Solovyov Moskvaya göndərdiyi məlumatlarda yazırdı: "Azərbaycan İnqilab Komitəsinin sədri Nərimanovun yanına hər gün dəstə-dəstə müsəlman qadınları şikayətə gəlir, göz yaşı tökürdülər, lakin Nərimanovun işə əncam çəkmək təşəbbüsü ona millətçi və "sağ ünsür" damğası vurulması ilə nəticələndi."[56] 1920-ci ilin sentyabr ayının 20-də Q.Orconikidzenin Leninə məktubu N.Solovyovun fikrinin bilavasitə təsdiqi idi. O yazırdı: "Mən bir aya yaxındır ki, Azərbaycanda deyiləm. Kirov məlumat veririr ki, bu müddət ərzində Nərimanov çox güclü şəkildə millətçilik girdabına yuvarlanıb. Açıq demək lazımdır ki, qoca *(N.Nərimanov – C.H.)* heç nəyə yaramır. Onun millətçiliyinin heç bir qorxusu yoxdur, o əhəmiyyətsiz bir vücuddur". [57]

Bütün bunlara görə, M.Ə.Rəsulzadə kommunist Azərbaycanında hakimiyyətin, bütövlükdə, yadellilərin əlində olduğuna və müsəlman bolşeviklərinin Azərbaycanın müstəqilliyinin devrilməsində məşum rol oynadığını toxunaraq, "Azərbaycan Cümhuriyyəti" əsərində qeyd edirdi ki, aprel işğalının bütün ağırlığını öz çiyinlərində daşıyan Azərbaycan xalqı "istiqlaldan bir ay sonra artıq, bütün Azərbaycan məmləkətinin müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərk etmişdi."[58]

§2. Sovet Rusiyasının Cənubi Qafqazda regional siyasəti və Azərbaycan

Bolşeviklərin gəlişinin ilk günlərindən Azərbaycanın tarixi əraziləri şübhə altına alınmağa başladı. Az əvvəl Azərbaycan Xalq Cümhuriyyəti dövründə mübahisəsiz şəkildə Azərbaycana məxsus olan torpaqlar indi mübahisə mövzusuna çevrilir və həmin ərazilərdə Qırmızı Ordu hissələri işğal rejimi yaradılırdı. Sovet Rusiyası bu mübahisələrdə arbitr rolu oynayaraq, Sovet Azərbaycanının torpaqlarını, hələ sovetləşməmiş Ermənistana ötürməklə, özünün beynəlxalq nüfuzunu möhkəmləndirməyə çalışırdı.

İlk dövrlərdə N.Nərimanov və Qafqazda fəaliyyət göstərən bir sıra nüfuzlu bolşeviklər Azərbaycanda aprel çevrilişinin "uğurlarından" vəcdə gələrək, Qırmızı Ordunun yürüşlərinin Gürcüstan və Ermənistan

[53] N.İ.Solovyovun V.İ.Leninə məlumatı. "Çevrilişdən sonrakı iki ay ərzində bizim Azərbaycanda siyasətimiz". 1920. //RDSSTA, f.17, s.84, i.58, v.13-14

[54] Bax: Г.Спойер. Политический доклад о большевистском движении в Азербайджане. Конфиденциальный отчет. 29.07.1920.// Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. Составитель Н.А.Максвелл. Баку, 2011, с.575

[55] N.İ.Solovyovun V.İ.Leninə məlumatı. "Çevrilişdən sonrakı iki ay ərzində bizim Azərbaycanda siyasətimiz". 1920. //RDSSTA, f.17, s.84, i.58, v.14-15

[56] Yenə orada, v.14 arx.

[57] Q.Orconikidzenin V. Leninə məktubu. 20.09.1920.// RDSSTA, f.85, s.5/c, i.4, v.11

[58] M.Ə.Rəsulzadə. Azərbaycan cümhuriyyəti. Bakı, 1990, s.69-70

istiqamətində davam etdirilməsinə tərəfdar idilər. May ayının 4-də V.Leninə göndərdikləri teleqramda Q.Orconikidze və S.Kirov məlumat verirdilər ki, ən yaxın zamanlarda Azərbaycanda baş verənlər, eynilə Gürcüstanda da təkrarlanacaq. Ona görə, Sovet Rusiyasının Qafqazdakı emissarları bolşevik liderinə tövsiyə edirdilər ki, Gürcüstanla heç bir danışıqlar aparılmasın.[59] Üç gün sonra V.Leninə, İ.Stalinə və G.Çiçerinə göndərdikləri teleqramda onlar yenidən bu məsələyə qayıdır və yazırdılar ki, gürcü qüvvələrinin menşevik hökumətinə qarşı mübarizə apardığı indiki şərait bizim müdaxiləmiz üçün çox əlverişlidir. Teleqramda deyilirdi: "Azərbaycanda baş verənlər kiçik dəyişikliklərlə burada da təkrar olunacaqdır. Bundan əlavə, Gürcüstan ələ keçirilməsə, Azərbaycanın işğalı müsəlmanlarda çox qəzəb doğura bilər, halbuki, köhnə Azərbaycan hökuməti bütün mümkün güzəştlərlə sülh bağlamağa hazır idi."[60] Lakin bütün bunlara baxmayaraq, Qərb ölkələrində sosialist inqilablarına bəslənilən ümidlər boşa çıxdıqdan sonra öz vücudunu beynəlxalq əməkdaşlığa uyğunlaşdırmağa çalışan və Azərbaycanın işğalının doğuracağı beynəlxalq həyəcanı yumşaltmağa çalışan mərkəzi bolşevik hökuməti elə həmin gün – may ayının 7-də Moskvada Gürcüstanla müqavilə bağlamağa üstünlük verdi.

Azərbaycanın sovetləşməsini strateji baxımdan öz planlarına daxil edən bolşevik Rusiyası ilk növbədə, 1919-cu ilin iyunundan Azərbaycanla hərbi ittifaqda olan Gürcüstanı müqavilə öhdəliyini yerinə yetirməkdən çəkindirməyə çalışırdı. Bu məqsədlə Gürcüstana müəyyən siyasi və iqtisadi vədlər verilmişdi. Azərbaycana hücum planı təsdiq olunan zaman, 1920-ci ilin mart ayının 21-də L.Trotski İ.Stalinə xəbərdarlıq edirdi ki, "Azərbaycana Gürcüstan tərəfindən kömək göstərilməsinin mümkünlüyünü nəzərə alın. Bunu əlavə edirəm ki, Gürcüstanın toxunulmazlığına tam təminat verməklə və neft vəd etməklə, yaxşı olar ki, onlarla razılığa gəlinsin."[61]

Azərbaycana hücum ərəfəsində bu vədlər Rusiyada fəaliyyət göstərən. Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü olan gürcü kommunistlərinin biri vasitəsi ilə Gürcüstan hökumətinin başçısı Noy Jordaniyaya çatdırılmışdı. Ona təklif edilmişdi ki, Gürcüstan hökumətinin etibarlı nümayəndələrindən biri danışıqlar aparılması üçün Moskvaya göndərilsin

[59] Q.Orconikidze və S.Kirovun V.Leninə teleqramı. 04.05.1920.//RDSSTA, f.85, s.13, i.12, v.100

[60] Q.Orconikidze və S.Kirovun V.Leninə, İ.Stalinə və G.Çiçerinə teleqramı. 07.05.1920.// RDSSTA, f.5, s.1, i.245, v.1

[61] Б.Краснов, В.Дейнес. Неизвестный Троцкий. Красный Бонопарт. М., 2000, с.366-367

və Sovet hökumətinin başçısı V.Lenin Gürcüstanın müstəqilliyinin tanınmasına razılıq verəcəkdir. N.Jordaniya öz xatirələrində yazırdı: "Versal konfransı başa çatmışdı, lakin bizi tanımamışdılar *(de yure nəzərdə tutulur – C.H.)*. Aydın oldu ki, hətta, zəif olsa da, Rusiya ilə hesablaşırdılar və onu parçalamaq istəmirdilər. Görünür, bu məsələyə digər tərəfdən başqa cür yanaşmaq lazım idi. Belə ki, birbaşa danışıqlar və təbliğatla heç nə əldə edilmədi, mən qərara gəldim ki, bu işi Rusiya ilə başlayım. Mən fikirləşirdim ki, əgər Moskva bizi tanısa, əgər o bizim müstəqilliyimizi təsdiq etsə, onda biz bu qəbzlə Avropa divanxanasının qarşısında dayana bilərik və bununla biz öz məqsədimizə çata bilərik. Mən qərara gəldim ki, Moskvaya adam göndərim. Bu adam şəxsən Leninin və onun qərargahının tanıdığı sosial-demokrat olmalı idi. Mən Qrişa Uratadzenin üzərində dayandım. O, Stokholm və London qurultaylarında olmuşdu. Hamı ilə tanış idi. Mən onunla danışdım. Onu əzabli və çətin səfər gözləməsinə baxmayaraq, həmin dəqiqə razılıq verdi. Onun razılığından sonra mən xarici işlər nazirinin yanına getdim, Yevgeni Geqeçkori ilə görüşdüm və öz fikirlərimi onunla bölüşdüm. O dedi: "Bax, artıq bir aydır ki, bir gürcü kommunisti bizim bir adamımızı onunla birlikdə Moskvaya göndərmək üçün mənə yalvarır və vəd edir ki, Lenin Gürcüstanın tanınmasına öz razılığını verəcək. Bu gürcü kommunisti Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü idi. O, razılaşdı və iki həftədən sonra Qrişa ilə birlikdə Qara dənizlə Rusiyaya yola düşdülər. Bu missiyanın uğuru üçün başlıca məsələ sirri saxlamaq idi. Belə ki, gürcü kommunistləri heç bir halda bundan xəbər tutmamalı idilər, əks təqdirdə onlar işi poza bilərdilər. Qrişanın Moskvaya göndərilməsi barədə Gürcüstanda heç kəs məlumatlı deyildi. Mən indi də təəccüb edirəm ki, nə üçün Moskva Tiflisdəki öz həmfikirlərinin rəyini soruşmamışdı. Bizə lazım idi ki, Moskva Gürcüstanın müstəqilliyini və onun sərhədlərini tanısın. Qalan bütün şərtlər bizim üçün ikinci dərəcəli idi və biz onları sonra da müzakirə edə bilərdik. Belə təlimatla da mən Qrişa Uratadzeni Moskvaya göndərdim. Danışıqların uğuruna mən elə də böyük ümid bəsləmirdim."[62] Sonra N.Jordaniya yazır ki, "apreldə Moskvadan – Q.Uratadzedən məlumat gəldi. O, danışıqların gedişi və müqavilənin layihəsi barədə məlumat verdi. Bizim başlıca tələbimiz qəbul edilmişdi. Xırda şeylər mübahisəli idi, xüsusilə, Gürcüstan ərazisində xarici qoşunların olmaması maddəsi. Biz tələb etdik ki, bu bənd çıxarılsın, ona görə ki, biz öz ərazi məsələmizdə suveren idik. Q.Uratadze birbaşa xətlə

[62] Н.Жордания. Моя жизнь. Stanford, 1968, с.105-106

bizə məlumat verdi ki, Moskva bu bəndi çıxarmır, onlar belə hesab edirdilər ki, gələcəkdə biz ərazimizdən Sovetlərə qarşı xarici baza kimi düşmənçilik məqsədilə istifadə edə bilərik. Y.Geqeçkori bunun əleyhinə idi və deyirdi ki, əgər bizim işlərimizə müdaxilə edəcəklərsə, onların tanımağını istəmirik. Lakin mənim üçün əsas o idi ki, onlar bizi hüquqi cəhətdən tanısınlar və bu digər dövlətlərin də bizi de yure cəhətdən tanımasına gətirib çıxara bilərdi. Mən Q.Uratadzeyə razılıq verdim ki, müqaviləni imzalasın."[63] N.Jordaniya öz hərəkətlərini onunla izah edir ki, Azərbaycanın işğalından sonra Rusiyadan böyük qorxu var idi. Onun fikrincə, həmin vaxt Gürcüstana münasibətdə Moskvada iki xətt vardı: biri siyasi, qonşuluq siyasəti idi ki, bu xəttə Lenin başçılıq edirdi, ikincisi isə imperialist xətt idi ki, buna da Stalin və Trotski başçılıq edirdilər. O yazır: "Trotski və Stalin Azərbaycanda yerləşən orduya əmr verdilər ki, Gürcüstana hərəkət edib, oranı tutsunlar. Onlar fikirləşirdilər ki, bu asan olacaq. Lakin güclü əks zərbə aldılar. Lenin gördü ki, qanlı müharibəsiz keçinmək mümkün olmayacaqdır. O, qərara gəldi ki, bizimlə müqavilə bağlasın. Vahid Zaqafqaziyanın dağılmasının bütün nəticələri indi aydın olur. Azərbaycan Türkiyəyə meyllənib, türk oriyentasiyasını qəbul etmişdi. Ermənistanda rusların arzusunda olub deyirdilər: "Ancaq onlar bizi türklərdən xilas edə bilər". Gürcüstan tək qalmışdı. Yalnız tək Gürcüstan müstəqillik arzusunda idi, öz zəif qüvvəsi ilə tənha olaraq."[64] Lakin indi sənədlər açıqlanandan sonra Gürcüstan menşevik hökumətinin başçısı N.Jordaniyanın bir çox fikirləri elə də inandırıcı görünmür. Gürcüstan hökumətinin ittifaqda olduğu Azərbaycanı bolşevik təcavüzündən birlikdə müdafiə etmək əvəzinə, Moskva ilə separat danışıqlara getməsi Azərbaycanın işğalını asanlaşdırdı və az sonra Gürcüstan özü də bu səhv siyasətin qurbanı oldu.

N.Jordaniyanın xeyir-duasından sonra 1920-ci ilin may ayının 7-də Moskvada Sovet Rusiyası ilə Gürcüstan arasında müqavilə imzalandı. 16 maddədən ibarət olan müqaviləni Rusiya tərəfindən Xalq Xarici İşlər komissarının müavini L.Karaxan, Gürcüstan tərəfindən isə Müəssislər Məclisinin üzvü Q.Uratadze imzaladılar.[65] Müqavilənin birinci bəndinə görə, Sovet Rusiyası Gürcüstan dövlətinin müstəqilliyini tanıyır, ikinci maddəyə görə, onun daxili işlərinə hər hansı müdaxilədən imtina edirdi.

[63] Yenə orada, s.107-108

[64] Yenə orada, s.109

[65] Bax.: Traité entre la Géorgie et la Russie. Le 7 mai 1920 // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 172–176

Üçüncü maddədə Rusiya ilə Gürcüstanın sərhədləri müəyyən edilir, dördüncü maddəyə görə, birgə sərhəd komissiyası yaradılırdı. eyni zamanda, bu maddəyə görə, Rusiya keçmiş Rusiya imperiyasının Tiflis, Kutaisi quberniyalarını, Batumu bütün qəzaları və dairələri ilə birlikdə, eyni zamanda, Gürcüstanla digər *(Azərbaycan nəzərdə tutulur – C.H.)* dövlətlər arasında qarşılıqlı münasibətlərin aydınlaşmasının nəticəsi olaraq, Zaqatala və Suxumi dairələrini Gürcüstanın tərkib hissəsi kimi tanıyırdı. Beşinci maddə Gürcüstanın ərazisində Sovet Rusiyasına qarşı yönəlmiş və Gürcüstanın müstəqilliyini təhdid edən hər hansı xarici qüvvənin olmasını qadağan edirdi. Altıncı maddəyə görə, Sovet Rusiyası öz ərazisində Gürcüstan hökumətinə qarşı mübarizə aparan hər hansı qurumun və təşkilatın fəaliyyətini qadağan etməli idi. Yeddinci və səkkizinci maddələr müqavilənin 3,4,5 və 6-cı maddələrindən irəli gələn bəzi məsələləri tənzim edirdi. Doqquzuncu maddəyə görə, Rusiyada yaşayan 18 yaşına çatmış gürcülər Gürcüstanın xeyrinə, Gürcüstanda yaşayan 18 yaşına çatmış ruslar isə Rusiyanın xeyrinə təşviqat apara bilərdi. Onuncu maddə Gürcüstanda RSFSR-in və Kommunist Partiyasının xeyrinə təbliğat aparmaq üstündə həbs olunanların azad olunmasını nəzərdə tuturdu. On birinci maddədə tərəflər bayraq, gerb və digər dövlət atributlarına qarşılıqlı şəkildə hörmət edilməsini, on ikinci və on üçüncü maddələrə görə isə, iqtisadi münasibətləri təsbit edirdilər. On dördüncü maddəyə görə, tərəflər ən qısa vaxtda diplomatik və konsulluq münasibətlərini qurmalı idilər. On beşinci maddə bir sıra mülki və vətəndaşlıq aktlarına dair məsələlərin qarşılıqlı şəkildə həll edilməsini və Bakı-Batum neft kəmərindən istifadə, onun Gürcüstan ərazisindəki hissəsinin xüsusi sazişlə tənzim edilməsini nəzərdə tuturdu. On altıncı maddə müqavilənin ratifikasiya olunmadan, imzalandığı andan qüvvəyə mindiyini təsdiq edirdi.[66] Göründüyü kimi, müqavilənin 4-cü və 15-ci maddələrində söhbət Azərbaycanın ərazi bütövlüyünə açıq müdaxilədən və onun başlıca sərvəti olan neft haqqında separat sövdələşmədən gedirdi. 7 may müqaviləsindən beş gün sonra tərəflər arasında may ayının 12-də həmin müqaviləyə əlavə bir müqavilə də imzalandı ki, bu müqavilənin də ikinci maddəsi Zaqatala dairəsinin Azərbaycana məxsusluğunu şübhə altına alırdı.

Sovet Azərbaycanı ilə Gürcüstan arasında gürcü diplomatlarının həbsi üstündə başlanmış münaqişə may ayının ilk günlərində bir sıra sərhəd məntəqələrinin pozulması ilə müşayiət edilən qarşılıqlı ittihamlara çevrildi.

[66] Rusiya ilə Gürcüstan arasında müqavilə. 07.05.1920.//ARDA, f.28, s.1, i.55, v.15-21

1920-ci ilin may ayının birinci yarısında demək olar ki, Bakı ilə Tiflis arasında əsl teleqram müharibəsi başlanmışdı. Bu diplomatik yazışmalar Qazax, Poylu, Şıxlı, Qırmızı Körpü və Zaqatala dairəsinin bəzi yaşayış məntəqələrində sərhədlərin gürcü hərbi dəstələri tərəfindən pozulması ilə bağlı idi. Aprel işğalından sonra Azərbaycanda hakimiyyətsizlikdən və yeni formalaşan sovet hakimiyyətinin zəifliyindən, habelə, Azərbaycanın işğalından cəmisi bir həftə sonra Moskva ilə gizli sövdələşmədən istifadə edərək, Gürcüstan hökuməti bəzi yerlərdə sərhədləri öz xeyrinə dəyişdirmək istəyirdi. Azərbaycan Xalq Xarici işlər komissarının müavini M.D.Hüseynov may ayının 3-də Gürcüstan Xarici İşlər Nazirliyinə yazırdı ki, Azərbaycan İnqilab Komitəsi Gürcüstanın sosialist *(menşevik – C.H.)* hökuməti tərəfindən xaincəsinə hücuma məruz qaldığını bildirir, dünyanın bütün fəhlə və kəndlilərinə bəyan edir ki, azad Azərbaycanın dinc əhalisinə əsassız olaraq, silah qaldırmış mənfur düşmənə bir qarış da olsun, torpaq güzəştə getməyəcəkdir. O, əlavə edirdi ki, əgər Gürcüstan hökuməti iki qardaş xalq arasında uçurumu dərinləşdirmək istəmirsə, təcili olaraq öz qoşunlarını köhnə sərhədlərə çəkməli və günahkarları ciddi şəkildə cəzalandırmalıdır.[67] Sonralar N.Jordaniya etiraf edirdi ki, Gürcüstan ona məxsus olmayan əraziləri özünə birləşdirməklə ciddi səhvlərə yol vermişdi. Həmin illərdə buraxılmış səhvləri xatırlayaraq, sonralar o, yazırdı: "Əlbəttə, yad əhalisi olan özgə rayonların bizim respublikaya birləşdirilməsi bizim səhvimiz idi, lakin bunu sərhədlərin müdafiəsi üçün bizim strateqlər tələb edirdilər."[68]

May ayının 9-da M.D.Hüseynov Y.Geqoçkoriyə göndərdiyi teleqramda Zaqatala dairəsinin Qovaqçöl kəndinə gürcü qoşunlarının hücumunun dayandırılmasını tələb edir, eyni zamanda, bu teleqramın surətini G.Çiçerinə də göndərir,[69] may ayının 10-da isə Azərbaycan fəhlə-kəndli hökumətinin Gürcüstan fəhlə və kəndlilərinə heç vaxt hücum etmək niyyətində olmadığını, lakin gürcü fəhlə və kəndlilərini də Azərbaycanda olduğu kimi, azad görmək istədiyini, Gürcüstan hökumətini isə "zəhmətkeşlərin hökuməti" kimi görmək istədiyini bildirirdi. Bu teleqramın surəti də eyni ilə əvvəlki diplomatik sənədlər kimi, Sovet Rusiyasının Xalq Xarici işlər komissarı G.Çiçerinə göndərilmişdi.[70]

[67] "Kommunist", 1920, 5 may

[68] Н.Жордания. Моя жизнь, с.112

[69] Azərbaycan xarici işlər komissarlığının Gürcüstan Xarici İşlər Nazirliyinə notası. Surəti G.Çiçerinə. 09.05.1920.//ARDA, f.28, s.1, i.38, v.10

[70] "Kommunist", 1920, 11 may

Sovet Azərbaycanı ilə menşevik Gürcüstan arasında sərhəd münaqişəsi kəskinləşdikcə, Azərbaycanda olan mərkəzin emissarları ilə Moskvadakı bolşevik rəsmiləri arasında yazışmalar da intensiv xarakter alırdı. Demək olar ki, hər gün Bakıdan Orconikidze, Kirov və Smilqanın imzaladığı həyacanlı teleqramlar Moskvaya göndərilirdi. Nəhayət, may ayının 10-da İ.Stalindən Q.Orconikidzeyə belə bir cavab gəldi ki, "təcili olaraq məlumat verin: birincisi, Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər Azərbaycanla Gürcüstan arasında arasında müqavilə üzrə mövcud olmuş sərhədlər haqqında; ikincisi isə, sərhədlərin Sovet Azərbaycanı üçün etnoqrafik mülahizələr əsas tutulmaqla həll edilməsi arzuolunandır."[71] İ.Stalinin bu direktivindən sonra Gürcüstan Respublikasi ilə sülh müqaviləsinin bağlanmasına hazırlıq işləri başlandı.

Aprel işğalından sonra Azərbaycanda yerli sovet hakimiyyəti qurulsa da, Sovet Rusiyası Azərbaycana daha çox əyalət kimi baxır və müstəqil dövlət üçün vacib olan xarici siyasət funksiyalarını mənimsəməyə çalışırdı. İlk dövrlərdə Azərbaycanın taleyinə münasibətdə fikir ayriliqları olsa da, yalnız xarici amil onun formal baxımdan müstəqil qalmasını zəruri edirdi. Lakin bu müstəqillik görüntü xarakterinə malik idi və ciddi bir siyasi məzmun kəsb etmirdi. Yerli rəhbərlikdən xəbərsiz Azərbaycan əraziləri hesabına Sovet Rusiyasının Gürcüstan və Ermənistanla müqavilələr imzalaması, Azərbaycan torpaqlarının hərraca qoyulması ilə sovet rəhbərlərinin bolşevik dövlətinə beynəlxalq aləmdə sülhsevər imic qazandırmaq cəhdləri bunun açıq təzahürü idi. Bir sözlə, Sovet Rusiyasının iradəsindən kənar Sovet Azərbaycanının xarici siyasət xətti mövcud deyildi. 1920-ci ilin yayından başlayaraq, qonşu Qafqaz dövlətləri ilə başlanan danışıqlarda bir qayda olaraq, Azərbaycanı azərbaycanlılar təmsil etmirdilər. Qəribə olsa da, Gürcüstanla danışıqlarda Azərbaycan tərəfini gürcülər, Ermənistanla danışıqlarda isə ermənilər təmsil edirdilər. Bu formatda aparılan danışıqların və imzalanan diplomatik sənədlərin nəticələri Azərbaycanın sonrakı taleyində ağır izlər qoydu.

Sovet Rusiyasının vasitəçiliyi ilə 1920-ci ilin iyun ayının 12-də Azərbaycan Sovet Respublikası ilə Gürcüstan Demokratik Respublikası arasında Ağstafa stansiyasında imzalanmış sülh müqaviləsi Sovet Azərbaycanı xarici siyasətinin ilk uğursuz diplomatik sənədi idi. Həmin dövrdə Azərbaycan sovetləşsə də, Sovet Rusiyasına daha yaxın olsa da,

[71] İ.Stalinin Q.Orconikidzeyə teleqramı. 10.05.1920.//RDSSTA, f.85, s.2c, i.1, v.11

Moskva bu müqavilədə daha çox Gürcüstanın maraqlarını təmin etməyə çalışırdı. Rusiya ilə Gürcüstan arasında Azərbaycandan xəbərsiz imzalanmış müqvilənin Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan bəzi müddəaları bu müqavilədə açıq şəkildə əks olunmuşdur. Sülh müqaviləsini Azərbaycan tərəfindən Azərbaycan İnqilab Komitəsi sədrinin müavini, Xarici işlər komissarı Mirzə Davud Hüseynov, Gürcüstan tərəfindən isə hərbi nazir Qriqori Lordkipanidze, Gürcüstan Müəssislər Məclisi sədrinin müavini Simon Mdivani və Aleksandr Andronikov imzalamışdılar. Müqavilənin birinci maddəsində tərəflər bütün hərbi əməliyyatların dayandırıldığını, hər iki tərəfin möhkəm sülh və dostluğa əməl etməsini, hərbçilərin qarşılıqlı şəkildə əvvəlki mövqelərinə qayıtdığını təsdiq edirdilər. İkinci maddəyə görə, tərəflər arasında sərhəd xətti müəyyən edilirdi. Üçüncü maddəyə görə, Azərbaycanın Qırmızı körpü və Poylu körpüsü arasındakı, eyni zamanda, Kür çayının sol sahilindəki əraziləri bu müqavilə imzalandıqdan bir il sonrakı müddətə qədər neytral ərazi hesab edilirdi. Dördüncü maddəyə görə, həmin ərazinin inzibati işləri və idarəçiliyi Azərbaycanın əlində olsa da, Azərbaycan bu ərazidə hər hansı möhkəmlənmə işləri görə bilməz və oraya hərbi hissələr yeridə bilməzdi. Bu vəziyyəti müşahidə etmək üçün hər tərəfdən iki nəfər olmaqla, dörd nəfərdən ibarət xüsusi komissiya yaradılmalı idi. Beşinci maddəyə görə, Qırmızı körpü Gürcüstan tərəfindən gürcü mühafizə dəstəsi, Azərbaycan tərəfindən isə Azərbaycan mühafizə dəstəsi tərəfindən qorunurdu. Bununla yanaşı, Qars və Babakər dağları ilə əlaqə saxlamaq üçün Gürcüstana körpüdən azad istifadə etmək hüququ verilirdi. Altıncı maddəyə görə, Zaqatala dairəsi haqqında məsələnin həlli Rusiya Federativ Sovet Respublikası ilə Gürcüstan Demokratik Respublikası arasında 1920-ci ilin may ayının 12-də imzalanmış əlavə sazişdə nəzərdə tutulduğu kimi, arbitraj komissiyasına verilirdi. Bu məsələnin arbitraj komissiyasındakı həllinə qədər müqavilədə olan tərəflərdən heç biri Moskvada 12 may 1920-ci ildə imzalanmış əlavə sazişin ikinci maddəsinə uyğun olaraq, Zaqatala dairəsinə yeni hərbi hissələr yeritmək hüququna malik deyildilər. Müqavilənin bu bəndinin dəqiq yerinə yetirilməsini müşahidə etmək üçün hər tərəfdən iki nəfər olmaqla, dörd nəfərdən ibarət nəzarət komissiyası yaradılırdı. Müqavilənin yeddinci maddəsinə görə, tərəflər danışıqsız birbirlərinin müstəqilliyini və suverenliyini tanıyır və bir-birlərinin daxili işlərinə müdaxilə etməkdən qarşılıqlı şəkildə imtina edirdilər. Səkkizinci maddəyə görə, bayraq və gerb kimi, dövlət atributlarına tərəflər hörmətlə

yanaşmalı, doqquzuncu maddəyə görə, diplomatik və konsulluq əlaqələrini yaratmalı idilər. Müqavilənin onuncu və on birinci maddələrinə görə, tərəflər qarşılıqlı şəkildə təminat verirdilər ki, öz ərazilərində *(Azərbaycanda və Gürcüstanda)* hakimiyyətə iddialı olan şəxslərin, qurumların və təşkilatların fəaliyyətinə imkan verməsinlər və onlara hər hansı yardım göstərməsinlər. Müqavilənin on ikinci-on yeddinci maddələri ticarət-iqtisadi, tranzit, mülki, vətəndaş və hüquqi məsələləri əhatə edir, Gürcüstan ərazisində yerləşən yaylaqlardan Azərbaycan heyvandarlarının azad istifadə etmək hüququnu təsbit edirdi. On səkkizinci maddəyə görə, bu müqavilə imzalandığı andan qüvvəyə minirdi və imzalandığı tarixdən iki həftə ərzində təsdiq edilirdi.[72]

Elə həmin gün, iyun ayının 12-də Ağstafada sülh müqaviləsinə əlavə olaraq, tərəflər arasında dörd maddədən ibarət bir müqavilə də imzalandı ki, həmin əlavə müqaviləyə görə, ticarət-tranzit müqaviləsi imzalanana qədər, bir ay ərzində Azərbaycan SSR Gürcüstana bir milyon pud neft göndərməyə təminat verirdi. Gürcüstan bunun dəyərini bir-iki ay ərzində manufaktura malları və kağızla ödəməli, tərəflərin birgə xərci ilə Poylu körpüsünü təmir etməli idi.[73] Az sonra tərəflər arasında digər müqavilələr də imzalandı. 1920-ci ilin iyul ayının 28-də Bakıda imzalanan maliyyə müqaviləsi tərəflər arasında maliyyə-kredit münasibətlərini tənzim etməli idi.[74]

1920-ci il üçün hazırladığı hesabatında Azərbaycan Xalq Xarici İşlər Komissarlığı bu müqaviləni və ona əlavə olaraq imzalanmış sənədi "Avropaya açılan pəncərə" və Qara dənizə çıxış yolu kimi qiymətləndirirdi. Həmin sənəddə Ağstafa müqaviləsinin, guya, Avropa ölkələri ilə mal dövriyyəsinə müsbət təsir göstərəcəyi qeyd edilirdi. Komissarlıq öz dəyərləndirməsində eyni zamanda, iqtisadi əhəmiyyətindən başqa, bu müqavilələrin strateji bir gediş olduğunu önə çəkir və imzalanmış müqavilənin şərtlərinə uyğun olaraq, Tiflisdə yenidən qurulacaq Azərbaycan diplomatik nümayəndəliyi və Batum konsulluğu vasitəsi ilə zəngin informasiya materialı, ilk növbədə isə gürcü və Avropa mətbuatını əldə edəcəyinə ümid bəsləyirdi. Komissarlıq eyni zamanda, Ağstafa müqavilələrinə Gürcüstanda yaxınlaşmaqda olan

[72] Azərbaycan Sovet Sosialist Respublikası ilə Gürcüstan Demokratik Respublikası arasında sülh müqaviləsi. 12.06.1920. // Gürcüstan Dövlət Tarix Arxivi (bunda sonra GDTA), f.14, s.1, i.5, v.121-123

[73] Azərbaycan SSR ilə Gürcüstan Demokratik Respublikası arasında imzalanmış 12 iyul 1920-ci il tarixli sülh müqaviləsinə əlavə. 12.06.1920. //ARDA, f.28, s.1, i.55, v.7-8

[74] Azərbaycan SSR ilə Gürcüstan Respublikası arasında müqavilə. 28.07.1920. //ARDA, f.28, s.1, i.55, v.9

kommunizm ideyasının təntənəsi kimi baxır və bu müqavilələr vasitəsi ilə qonşu dövlətdə təbliğat işlərini gücləndirəcəyinə, Gürcüstanı daxildən "partladacağına" ümid bəsləyirdi.[75] Ümumdünya inqilabı haqqında pafoslu ideyalara aludə olmuş Sovet Azərbaycanı rəhbərliyi üçün məsələnin bu tərəfi ideoloji baxımdan əhəmiyyətli olsa da, Avropaya pəncərə açmağın zəruriliyi dilə gətirilsə də, əslində öz uğursuz addımları ilə onlar Azərbaycan Xalq Cümhuriyyəti dövründə Avropaya açılmış qapıları qapamış və respublikanın ərazi bütövlüyünü təhlükə altına salmışdılar. Düzdür, sonralar Arbitraj Komissiyası Zaqatala dairəsi ilə bağlı məsələni Azərbaycanın xeyrinə həll etsə də, Gürcüstanla 12 iyun 1920-ci ildə imzalanmış sülh müqaviləsi Azərbaycan Sovet hökumətinin ilk və eyni zamanda, uğursuz diplomatik sənədi idi. Bu müqaviləyə görə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə respublikanın mübahisəsiz ərazisi olan Zaqatala dairəsinin Azərbaycana məxsusluğu şübhə altına alınır və məsələnin həlli Arbitraj Komissiyasının qərarından asılı edilirdi. Halbuki, Qafqazda fəaliyyət göstərən Q.Orconikidze, S.Kirov və İ.Smilqa kimi tanınmış bolşeviklər belə, bu dairəyə Gürcüstanın heç vaxt iddiasının olmadığını etiraf edirdilər. Bu dairədə yaşayan 92.500 əhalinin 85.000 nəfəri müsəlman, yalnız 7.500 nəfəri qeyri-müsəlmanlar idi.[76] Hələ 1918-ci ilin dekabr ayında fransızların Qafqaz haqqında hazırladıqları ümumi məlumatlarda göstərilirdi ki, nəinki Zaqatalada, habelə, onunla yanaşı olan Lori və Sığnaxda əhalinin 49 min nəfəri tatar *(azərbaycanlı – C.H.)*, yalnız 4 mini gürcü dilli sakinlərdən ibarətdir.[77] Əhalinin etnik tərkibinin bu nisbətini də Qafqazda işləyən bolşeviklər yaxşı bilirdilər. eyni zamanda, sülh müqaviləsində Azərbaycanın Gürcüstanla Qazax-Borçalı sərhədlərində bir sıra ərazilərini neytral ərazi subyektinə çevirməsi, bu ərazilərə münasibətdə özünün suveren hüquqlarını şübhə altına salmasının təzahürü idi. 12 iyun müqaviləsində Gürcüstanda yaşayan azərbaycanlı əhalinin taleyi barədə

[75] Azərbaycan SSR xarici işlər üzrə Xalq Komissarlığının 1920-ci il üçün hesabatı. //ARDA, f.28, s.1, i.90, v.38-39

[76] B.Şahtaxtinskidən V.Leninə "Zaqafqaziya Respublikaları arasında mübahisə obyekti olan ərazilər haqqında." 01.03.1921.// RDSSTA, f.5, s.1, i.2796, v.4

[77] Azerbaïdjan Annexe N° 1 au rapport N° 1 du 10 décembre 1918 Considérations générales sur l'organisation du Caucase en cantons.//Ministère des Affaires Etrangères (MAE) de France (Archives Diplomatique) Correspondanse politique et commerciale, 1914-1940 Série «Z» Europe 1918-1940 Sous-Serie USSR Europe – Russie service russe d'information et d'edudes (S.R.I.E.) XLI Caucase – Azerbaidjan (1918-1920). Direction des Affaires Polotiques et Commerciales Caucase Republique d'Azerbaidjan Evenements Annees 1918-1919. Vol.832, folio 22

heç bir şey yox idi. Həmin dövrün sənədlərində Borçalı bölgəsində yaşayan azərbaycanlıların sayının (38 min), gürcü (4 min) və ermənilərin (34 min) toplam sayına bərabər olduğu göstərilirdi.[78] Qarayazıda isə bütün əhalinin 89 faizini müsəlmanlar, 11 faizini isə ruslar və digər millətlərin nümayəndələri təşkil edirdi.[79] Axalsıx bölgəsində əhalinin 73,5 faizini müsəlmanlar, 12,5 faizini ermənilər və 8,8 faizini gürcülər təşkil edirdi.[80] Siqnax qəzasına gəldikdə isə bu qəzanın qərb hissəsi başdan-başa gürcü əhalisindən, şərq hissəsi isə başdan-başa azərbaycanlılardan ibarət idi.[81]

Hadisələrin sonrakı gedişi göstərdi ki, iyun ayının 12-də Gürcüstanla bağlanmış sülh müqaviləsi və ondan irəli gələn digər diplomatik sənədlər Moskvanın təsiri ilə imzalanmışdır. Çünki iyul ayının 4-də G.Çiçerinin təqdimatı ilə RK(b)P MK-nın qəbul etdiyi "Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasına təlimat"da göstərilirdi ki, RSFSR-in Gürcüstan hökuməti ilə imzaladığı müqavilə dönməz şəkildə icra olunmalı və onun bütün maddələri həyata keçirilməlidir. Rusiya sovet hökuməti Gürcüstanla bağlı fəaliyyətini, məhz, bu müqavilə əsasında qurmalıdır. Təlimatda yazılırdı: "Yalnız Zaqatala dairəsi haqqında maddə istisnalıq təşkil edir. Müqavilədə bu dairənin Gürcüstanın hüdudlarına daxil edilməsi əvəzinə, oranın mübahisəli ərazi olduğu müəyyən edilməlidir. Onun bu və ya digər respublikaya məxsus olmasını, sədrini RSFSR-in təyin etdiyi birgə komissiya həll etməlidir. Bu barədə qərar Gürcüstanla əsas müqavilədə deyil, əlavə müqavilədə ifadə edilmişdir."[82] Təlimatda göstərilirdi ki, Gürcüstanla imzalanmış müqavilədən çıxış edərək, sovet siyasəti Gürcüstan ərazisindən ingilis və digər xarici qoşunların çıxmasına cəhd göstərməli, orada ağqvardiyaçı dəstələrin toplanmasına yol verməməli və Gürcüstanda olan denikinçi dəstələrin və onların silahlarının Rusiyaya qaytarılmasına nail olmalıdır. Bu məsələyə, eyni zamanda, Gürcüstanda kommunistlərin açıq fəaliyyət göstərməsinə Rusiya leqal vasitələrlə nail olmaq istəyirdi. Sənəddə göstərilirdi: "Müqavilənin kommunistlərin əfv olunması barədə maddəsi Gürcüstanda Kommunist Partiyasının leqallığının tanınması mənasında şərh olunmalıdır." Təlimatın

[78] B.Şahtaxtinskidən V.Leninə "Zaqafqaziya Respublikaları arasında mübahisə obyekti olan ərazilər haqqında." 01.03.1921.// RDSSTA, f.5, s.1, i.2796, v.4

[79] Yenə orada, v.4

[80] Yenə orada, v.4arxası

[81] Yenə orada, v.4

[82] Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasına Təlimat. Surəti Nərimanov, Kirov, Leqran və Eliavaya. 04.07.1920. //RDSSTA, f.17, s.3, i.94, v.6

doqquzuncu bəndində yenidən Zaqatala dairəsi ilə bağlı məsələyə qayıdılır və göstərilirdi ki, bu dairə rus hərbi hissələri tərəfindən tutulmamalı, həmin dairədə artıq yerləşdirilmiş orduların sayı artırılmamalıdır. Təlimata görə, "bu dairənin kimə məxsusluğu barədə məsələnin həlli Rusiya nümayəndəsinin sədrliyi ilə Gürcüstan-Azərbaycan birgə komissiyasına verilirdi."[83] Halbuki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin sərt mövqeyi qarşısında Gürcüstan hökuməti rəsmən bu dairəyə olan iddialarından imtina etmişdi. Q.Orconikidze və S.Kirov yazırdılar: "Müsavatçılar belə söz-söhbət yayırlar ki, Azərbaycanda qurulmuş yeni sovet hakimiyyəti artıq Zaqatala dairəsini satıb."[84]

Gürcüstan-Azərbaycan münasibətləri ilə bağlı Bakıda danışıqlar aparan Gürcüstanın Azərbaycandakı diplomatik nümayəndəsi Azərbaycan xarici işlər komissarı M.D.Hüseynova təklif etmişdi ki, əgər Azərbaycan tərəfi Tiflisdə kommunistləri müdafiə etməsə, Gürcüstan hökuməti Azərbaycanda hazırlanan əksinqilabi işlərin bütün gizli təfərrüatını Azərbaycan tərəfinə verə bilər. O, xəbərdarlıq edirdi ki, Azərbaycanda yeni çevriliş hazırlamaq planları vardır və ingilislər İran istiqamətindən Azərbaycana hücum edə bilərlər. Gürcü diplomatı xahiş edirdi ki, bu məlumatlar Nərimanovdan başqa heç kimə verilməsin. M.D.Hüseynov bu məlumatları aldıqdan sonra həmin məlumatlar əsasında Moskvaya "Azərbaycan-Gürcüstan münasibətləri haqqında" geniş məruzə hazırladı.[85]

1920-ci ilin aprel çevrilişindən sonra yeni formalaşdırılan Sovet Azərbaycanının daşnak Ermənistan ilə münasibətləri də eyni dərəcədə kəskin idi. Ermənistan və Gürcüstana münasibətdə məsələnin maraqlı tərəfi ondan ibarət idi ki, Azərbaycanın işğalı ilə bağlı müsəlman kommunistlərinin dəstəyini alan Rusiya sovet hökuməti onlara vəd vermişdi ki, məsələ Azərbaycanla yekunlaşmayacaq, Azərbaycanın sovetləşməsindən dərhal sonra Ermənistanın və Gürcüstanın sovetləşdirilməsinə başlanacaq. Q.Orconikidze və S.Kirovun Gürcüstana və Ermənistana doğru hərəkət etmək niyyətləri Moskvada əldə olunmuş bu razılaşmalarla bağlı idi. Azərbaycana gəldiyi gündən N.Nərimanov Gürcüstan və Ermənistanın sovetləşdirilməsini tələb edirdi. Azərbaycanın sovetləşməsindən sonra Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsinin Ermənistan və Gürcüstanın burjua hökumətləri ilə qarşılıqlı güzəştlər əsasında razılaşma xətti yeritməsi N.Nərimanov üçün bir qədər gözlənilməz idi. RK(b)P MK-nın iyunun 30-da rus ordusunun Ermənistana doğru irəliləməsinin dayandırılması haqqında qərar qəbul etməsi bunun aydın təzahürü oldu.[86] Bu qərardan bir gün əvvəl V.Leninə göndərdiyi məktubda G.Çiçerin yazırdı ki, "işlərin hazırkı vəziyyəti bizim Zaqafqaziya haqqında planlarımızda əks olunmalıdır və biz Orconikidze, Mdivani, Nərimanov və digərlərinin hücum planlarına münasibətdə daha ehtiyatlı olmağa məcburuq. Bu yoldaşlar əvvəlcə Sovet quruluşunu əldə silah Gürcüstana və Ermənistana aparmağa cəhd göstərirdilər, lakin MK bunu rədd etdikdə müstəsna dərəcədə məyus oldular. İndiyə qədər yoldaş Nərimanov öz teleqramlarında bütün Gürcüstanın və Ermənistanın sovetləşdirilməsinin guya, zəruri olduğu ideyasına qayıdır."[87]

Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən müqavimətsiz işğalı üçün ermənilər nə mümkünsə, hamısını etmişdilər. Azərbaycan ordusunu şimal sərhədlərindən və paytaxtdan uzaqlaşdırmaq məqsədilə Azərbaycana qarşı Ermənistan ordusunun hücumu təşkil edilmiş və bu hücumun dəf edilməsi Azərbaycan hökumətinin başlıca vəzifəsinə çevrilmişdi. Aprel işğalından sonra isə Ermənistan Azərbaycanda yaranmış hakimiyyətsizlikdən istifadə edərək, öz işğalçılıq planlarını həyata keçirmək üçün əlverişli məqam əldə etmişdi. Qazax, Qarabağ və Zəngəzur ərazilərində Drastamat Dro, Qaregin Njde və digər daşnakların başçılıq etdiyi erməni hərbi dəstələri sözün tam mənasında azğınlıq edirdilər. Şərqi Anadoluda müsəlmanların vəhşicəsinə məhv edilməsində "zəngin" təcrübə toplamış Dro (D. Kanayan), indi həmin təcrübədən Qarabağ və Zəngəzurun müsəlman əhalisinin məhv edilməsində və yaşayış məntəqələrinin talançılıqla dağıdılmasında məharətlə istifadə edirdi.[88]

Bu arzuolunmaz vəziyyətdən çıxış yolunu yeni hakimiyyət Sovet Rusiyası ilə ikitərəfli münasibətlərin qurulması və rəsmi diplomatik əlaqələrin ya-

[83] Yenə orada, v.8

[84] Q.Orconikidze və S.Kirovun V.Leninə məktubu. 12.06.1920. //RDSSTA, f.85, s.2c, i.2, v.2

[85] M.D.Hüseynovun "Azərbaycan və Gürcüstan münasibətləri haqqında" N.Krestinskiyə hesabatı. 16.09.1920. //RDSSTA, f.17, s.86, i.125, v.40-41

[86] Ermənistana doğru rus ordusunun irəliləməsinin dayandırılması haqqında RK(b)P MK Siyasi Bürosunun iclasından çıxarış. 30.06.1920. // RDSSTA, f.17, s.3, i.93, v.2

[87] V.I.Leninin adına yazılmış xatırlatmanın surəti. 29.06.1920. //ARPİİ SSA, f.1, s.1, i.2a, v.12

[88] Drastamat Kanayan (Dro) haqqında arayış. 22.11.1951.// Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin arxivi (AR MTNA), i.862, cild 3, II hissə, v.56-69; Qafqaz cəbhəsində türk əhalisinə qarşı qəddarlığı ilə ad çıxaran Dro II Nikolayın 1915-ci ildə Tiflisə səfəri zamanı onun tərəfindən "1-ci dərəcəli Anna" ordeni ilə təltif edilmişdi. Bax: Drastamat M.Kanayan (Dro) haqqında arayış. 17.07.1944. //RDSSTA, f.82, s.2, i.1090, v.132; Əlavə məlumat üçün bax: Nikita Dastakian. Il venait de la Ville Noire. Souvenirs d'un Armenien du Caucase. L'inventaire/Cres, 1998, p,70

radılmasında görürdü. Azərbaycanın işğalı başa çatdırıldıqdan sonra RK(b) P MK Siyasi Bürosu may ayının 25-də keçirilən iclasında "Azərbaycan haqqında" qərar qəbul etdi. Bu qərara görə, G.Çiçerinə tapşırıldı ki, qarşılıqlı münasibətləri müəyyən etmək üçün danışıqlara başlamaq haqqında Azərbaycan Sovet hökumətinə müraciət etsin. N.Nərimanova göndərdiyi notada G.Çiçerin qarşılıqlı münasibətlərin formasını müəyyənləşdirmək məqsədilə danışıqlara başlamaq və bu danışıqları aparmaq üçün Moskvaya nümayəndə göndərməyi təklif edirdi. O yazırdı: "Rusiya Sovet hökuməti hesab edir ki, məqsədlərimizin birliyi və fəhlə-kəndli quruluşunun həmrəyliyi təbii olaraq, hər iki qardaş respublikanı – Rusiya və Azərbaycan respublikalarını rəsmi qaydada sarsılmaz əlaqələr yaradılmasına gətirib çıxara bilər və bu əlaqələr ümumi sovet siyasəti yolunda davamlı əməkdaşlığı asanlaşdırar."[89]

İyul ayının 13-də və 15-də AKP MK bürosu xalq ədliyyə komissarı Behbud Şahtaxtinskinin fövqəladə səlahiyyətli nümayəndə kimi Sovet Rusiyasına göndərilməsi və ona verilən direktivlər haqqında geniş müzakirə keçirdi. Bu müzakirələrdən sonra Bakı rayonu fəhlə və əsgər deputatları Soveti İcraiyyə Komitəsinin üzvü Behbud Şahtaxtinski 1920-ci il iyul ayının 15-də Azərbaycan İnqilab Komitəsi tərəfindən Sovet Rusiyasına fövqəladə səlahiyyətli nümayəndə təyin edildi. Ona vəkalət verilmişdi ki, Azərbaycan hökuməti adından Sovet Rusiyası ilə siyasi və iqtisadi xarakterli bütün məsələlərə aid danışıqlar aparsın və sənədlər imzalasın.[90] Eyni zamanda, Xarici İşlər Komissarlığı tərəfindən B.Şahtaxtinskiyə verilən vəsiqədə bütün hərbi, mülki və dəmiryol idarələrinə tapşırılırdı ki, onun göstərilən məntəqəyə doğru hərəkətinə heç bir maneçilik törətməsinlər və ona hər cür yardım göstərsinlər.[91]

1920-ci ilin iyul ayının sonunda Moskvaya gələn Azərbaycan SSR xarici işlər komissarı M.D.Hüseynov və fövqəladə səlahiyyətli nümayəndə B.Şahtaxtinski V.Lenin və G.Çiçerinlə görüşdülər. Düzdür, N.Nərimanovun M.D.Hüseynova elə də inamı yox idi və onun Moskvaya səfərindən müyyən narahatçılıq hissi keçirirdi. B.Şahtaxtinskiyə məktubunda o yazırdı: "Mən bilmirəm Hüseynov Moskvada hansı siyasəti irəli aparıb, lakin

[89] G.Çiçerinin N.Nərimanova notası. İyul, 1920. //RDSSTA, f.17, s.3, i.126, v.1

[90] Azərbaycan SSR-in RSFSR-dəki fövqəladə səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskiyə verilmiş mandat. 15.07.1920. //ARPİİ SSA, f.609, s.1, i.21, v.162

[91] Azərbaycan Xalq Xarici İşlər Komissarlığının B.Şahtaxtinskiyə verdiyi vəsiqə. 15.07.1920. //ARDA, f.28, s.1, i.6, v.41

hər halda, mən açıq deməliyəm ki, indiki halda o, Azərbaycana və Şərqə münasibətdə məsuliyyətsiz şəxsdir".[92] Lakin bununla belə B.Şahtaxtinski və M.D.Hüseynovun Moskvada bir sıra görüşlərindən sonra G.Çiçerinin Azərbaycana münasibətdə baxışlarında müəyyən yumşalma hiss edilməyə başladı və bu yumşalma onun avqustun 4-də RK(b)P MK Siyasi Bürosuna göndərdiyi məktubda açıq hiss edilirdi. Lakin həmin yumşalma Azərbaycanın qonşu dövlətlərlə münasibətlərinə, onun ərazi bütövlüyünə hörmətlə yanaşılmasına aid olmayıb, daha çox Sovet Ordusu, qırmızı komandirlərin özlərini Azərbaycanda daha çox müstəmləkəçi kimi aparmasına aid idi. Bu danışıqların nəticəsi olaraq, RK(b)P MK Plenumu avqust ayının 5-də "Azərbaycan Respublikası ilə RSFSR arasında münasibətlər haqqında" qərar qəbul etdi. Həmin qərarla G.Çiçerin, K.Radek və N.Krestinskidən ibarət İran işləri üzrə komissiyaya tapşırıldı ki, Azərbaycan Respublikası ilə RSFSR arasında münasibətlərin əsaslarını da işləyib hazırlasınlar.[93]

Şübhəsiz ki, B.Şahtaxtinskinin avqust ayının 4-də V.Leninə göndərdiyi məktub da Sovet Rusiyasını Azərbaycana münasibətdə öz siyasətini müəyyənləşdirməyə sövq edirdi. Məktubun məzmunundan orada bir sıra fikirlərin N.Nərimanova aid olduğu görünür. Xüsusilə, məktubda yer almış müstəqil Sovet Azərbaycanının Sovet Rusiyası ilə federasiya ittifaqına girmək ideyası N.Nərimanova məxsus idi və o, daha çox deklarativ xarakter daşıyan bu ideyanı hələ aprel çevrilişinə qədər irəli sürmüşdü. Məktubda qeyd olunurdu ki, "hazırkı Sovet Azərbaycanı dünya kommunist ideallarını özündə əks etdirən Sovet Rusiyasının övladıdır. Azərbaycan hökuməti qərara gəldi ki, "Moskva Mərkəzi" ətrafında yaranmağa başlayan Kommunist Federasiyasına girsin, o, bu federasiyanı dünya Kommunist Federasiyasının başlanğıcı kimi görüb və görməkdə davam edir." Lakin bu təmtəraqlı sözlərdən sonra aprel çevrilişinin, xüsusilə, Azərbaycanın ərazi bütövlüyü məsələsində gözlənilməz nəticələri bu federasiyanın yaranma tarixinə mücərrəd xarakter verirdi. Ona görə B.Şahtaxtinski yazırdı: "Beynəlxalq vəziyyət imkan verən kimi, Azərbaycan "Moskva Mərkəzi" ətrafında yaranan federasiyaya daxil olmağa hazırdır." Onun fikrincə, bu federasiyaya daxil olana qədər Azərbaycan müstəqil qalmalı və Rusiya ilə ittifaq müqaviləsi bağlamalı idi. Bunu B.Şahtaxtinski daha çox Cənubi Qafqazda yaranmış siyasi vəziyyət və Sovetlərin Şərq siyasəti ilə izah edir-

[92] N.Nərimanovun B.Şahtaxtinskiyə məktubu. Avqust 1920.// RDSSTA, f.85, s.2c, i.3, v.60

[93] RK(b)P MK Plenumu iclasının 33/5 saylı protokolundan çıxarış. 05.08.1920. //ARPİİ SSA, f.1, s.1, i.2a, v.21

di. O yazırdı: "Beynəlxalq vəziyyət haqqında mülahizələrdən əlavə, indiki anda müvəqqəti olaraq, Azərbaycanın müstəqilliyi hələ də Şərq siyasəti mülahizələrindən zəruridir, o zamana qədər ki, Ermənistanın və Gürcüstanın müstəqilliyi qalır. Belə ki, indi Sovet hakimiyyətinin düşmənləri təntənəli şəkildə göstərirlər ki, Sovet Rusiyası ilə ittifaqdan imtina edən Gürcüstan və Ermənistan Antantanın köməyi ilə nəinki, özlərinin tam müstəqilliklərini saxladılar, nəinki ağır iqtisadi çətinliklərdən yaxa qurtardılar, eyni zamanda, Qırmızı Ordunun gəlişinə qədər mübahisəsiz olaraq Azərbaycana məxsus olan yeni əraziləri ələ keçirirlər." Sovet Rusiyasında diplomatik fəaliyyətə başlamış ilk Azərbaycan nümayəndəsi V.Leninə birinci məktubunda aprel çevrilişinə qədər Azərbaycana məxsus olan Zaqatala dairəsi, Qarabağ və Naxçıvan diyarının onun tərkibində saxlanmasını zəruri hesab edirdi. B.Şahtaxtinski yazırdı: "Bu ərazilər "müsavat hökuməti dövründə mübahisəsiz olaraq, Azərbaycana məxsus olub və həmişə onun ayrılmaz hissəsi olub, tarixi, etnoqrafik və iqtisadi baxımdan onunla sıx bağlı olub... Mənəvi və siyasi mülahizələrə görə, Sovet Rusiyası Sovet Azərbaycanı ərazilərinin özgəninkiləşdirilməsinə, Şərqin qapısında mövcud olan bu dövlətin, onun əhalisinin gözü qarşısında daşnaklar və gürcü menşevikləri tərəfindən tar-mar edilməsinə yol verməməlidir."[94]

Bütün bu məsələlər, xüsusilə Şərq siyasəti ilə bağlı Azərbaycan rəhbərliyinin fikir və mülahizələri B.Şahtaxtinskinin sentyabr ayının 20-də V.Leninə göndərdiyi geniş məktubda daha ətraflı şəkildə şərh olunmuşdu. Olbəttə, bu məktubun da ideya müəllifi, hətta, məktubda yer alan ayrı-ayrı ifadələrin müəllifi N.Nərimanov idi. Məktub V.Leninə ünvanlansa da, onun surəti Azərbaycana qarşı siyasətin formalaşmasında aparıcı rol oynayan xarici işlər komissarının müavini L.Karaxana da göndərilmişdi. B.Şahtaxtinski məktubun əvvəlində xəbərdarlıq edirdi ki, ümumiyyətlə, Şərqdə və xüsusilə, Azərbaycanda vəziyyət çox böhranlıdır və əgər Azərbaycana münasibətdə yeridilən siyasət dəyişməzsə, bu ağır nəticələrə gətirib çıxaracaqdır. O yazırdı: "Çevrilişə qədər Azərbaycanda xalq kütlələri arasında Rusiyaya güclü kortəbii bir meyl var idi. Belə bir meyl müsəlman ziyalıları arasında da müşahidə edilirdi. Neft sənayesinin milliləşdirilməsinin mümkünlüyü nə xalqı, nə də ziyalıları qorxutdurdu. Belə ki, iri sənayedə hər şeydən əvvəl xarici kapitalistlər, ondan sonra isə mənafeyi heç kəs üçün vacib sayılmayan

[94] B.Şahtaxtinskinin V.Leninə məktubu. 04.08.1920. //Rusiya Federasiyası Xarici Siyasət Arxivi (RFXSA), f.04, s.51, q.321a, i.54859, v.1-2, əlavə məlumat üçün bax: P.Mycrafaвaле. Две республики. c.147-148

müsəlmanların elə də böyük olmayan dəstəsi maraqlı idi." B.Şahtaxtinski xatırladırdı ki, xalqın və ziyalıların belə mövqeyinə görə Azərbaycanda çevriliş qansız ötüşdü. Nümunə olaraq, bir sıra vilayətləri göstərmək olardı ki, həmin vilayətlərdə sovet quruculuğu, demək olar ki, dinc yolla həyata keçirilə bilərdi. O yazırdı: "Təəssüf ki, yeni Sovet hakimiyyətinin işi yalnız forma etibarı ilə inqilabi imiş, lakin nəticə etibarı ilə əhalinin neytral təbəqəsini, tərəddüd edən ünsürləri və o cümlədən, kəndlilərin böyük hissəsini sağa yönəltdiyindən mürtəcedir."[95] B.Şahtaxtinski yazırdı ki, "Qızıl Ordu bütün vasitələrlə müsəlman əhalisinin, hətta, Ermənistanla sərhəddə olan vilayətlərin əhalisinin tərksilah edilməsinə nail oldu. Müsəlman əhalisi tərksilah edilir, daşnak silahlı dəstələri isə rəhmsizcəsinə müsəlman kəndlərini dağıdır və əhalini qırırlar... Kəndlilər bağları, əkinləri və ev əşyalarını qoyaraq dağlara qaçırlar." N.Nərimanov təpədən-dırnağa qədər silahlanmış daşnak ordularının hücumu şəraitində sərhəd bölgələrində yaşayan müsəlman əhalisinin tərksilah edilməsinin əleyhinə olsa da, bu məqsədlə Qırmızı Ordu komandirlərinə məktublar yazsa da, lakin bunun elə bir əhəmiyyəti olmamışdı. Bununla bağlı N.Solovyov yuxarıda qeyd olunan V.Leninə göndərdiyi məktubda Ermənistanla sərhəd rayonlarında yaşayan azərbaycanlıların tərksilah edilməsini onların ermənilər tərəfindən qırılmasına gətirib, çıxaracağını açıqcasına qeyd edirdi. B.Şahtaxtinski 20 sentyabr tarixli məktubunda göstərirdi ki, çevriliş zamanı özünü əla aparan Qızıl Ordu indi mürtəce qüvvəyə çevrilmişdir. Azərbaycan kəndlisi yalnız bir şeyi xahiş edir və yalvarır ki, nə istəyirsiniz, hamısını birdəfəlik alın, lakin hər gün evlərə soxulub, ailə ocaqlarını təhqir etməyin. O yazırdı: "Öz çörəyi ilə yaşayan Azərbaycan, indi çöröksiz qalıb, amma ac-yalavac qalan Gürcüstan və Ermənistanın indi artıqlaması ilə çörəyi var."

Məktubun əsas hissəsi Gürcüstan və Ermənistanla süni şəkildə yaradılmış ərazi mübahisələri və Sovet Rusiyasının köməyi ilə bu mübahisələrin onların xeyrinə həll edilməsi ilə bağlı idi. B.Şahtaxtinski yazırdı: "Azərbaycan əhalisi əvvəlcə fikirləşdi ki, Bakıda sovet siyasəti yerli idarəçilərin işidir, onlar Moskvaya inanırdılar, onun müdafiəsinə və köməyinə ümid bəsləyirdilər. Lakin tezliklə Gürcüstanla sülh bağlanan zaman Azərbaycanın xəbəri və razılığı olmadan başdan-ayağa müsəlman əhalisindən ibarət olan *(90 faiz müsəlman, 5 faiz gürcü və 5 faiz digər millətlər)* Zaqatala dairəsinin

[95] B.Şahtaxtinskinin V.Leninə (surəti L.Karaxana) məktubu. 20.09.1920. //RFXSA, f.04, s.51, q.321a, i.54859, v.6

Gürcüstana güzəştə gedilməsi ilə burada da məyyusluq özünü göstərdi. O şərait müsəlmanlarda daha məyusedici təəssürat yaratdı ki, Rusiya bilavasitə Azərbaycana aid olan məsələləri Ermənistanla müzakirə edir, lakin Azərbaycan hökuməti bu danışıqlar haqqında heç nə bilmir, Azərbaycan əhalisi, demək olar ki, bütün Naxçıvan diyarının Ermənistana verilməsindən heyrətə düşdü. Üç il ərzində İngiltərə, İran və Ermənistan bütün var qüvvələri ilə mühüm strateji iqtisadi və siyasi xarakterli dəmiryol xəttinin açılmasına cəhd göstərirdi, lakin bu diyarın zəhmətkeş xalqı qanlı mübarizələri ilə bu mühüm məntəqəni saxladılar və onu sovet hökumətinin düşmənlərinin əlinə vermədilər... İndi Ermənistan və Gürcüstan hökumətlərinin nüfuzu özünün ən yüksək zirvəsinə çatıb və RSFSR Xarici İşlər Komissarlığına gələn məlumatlar da təsdiq edir ki, orada inqilab haqqında, ən azı, söhbət gedə bilməz."[96] Məktubun özündə hadisələrin gedişinin çox maraqlı yekunu verilmişdi. Orada göstərilirdi: "Bizim Azərbaycanda uğursuz siyasətimiz onunla həmsərhəd olan ölkələrlə müqayisədə belə təəssürat yaratmışdır ki, Rusiya ilə ittifaq aclıq, səfalət və müstəqilliyin itirilməsi təhlükəsini doğurur."[97] Bu məktub yazılan gün, sentyabr ayının 20-də RK(b)P MK Plenumu Azərbaycanla imzalanma ərəfəsində olan müqavilənin layihəsini müzakirə etdi və sentyabr ayının 29-da onun mətni bəyənildi.

Uzun müzakirələrdən sonra Sovet Azərbaycanı ilə RSFSR arasında 1920-ci il sentyabr ayının 30-da "hərbi-iqtisadi ittifaq" haqqında müqavilə imzalandı. Müqavilənin preambulasında göstərilirdi: "Bir tərəfdən Rusiya Sosialist Federativ Sovet Respublikası hökuməti, digər tərəfdən isə Azərbaycan Sosialist Sovet Respublikası hökuməti Rusiya və Azərbaycan zəhmətkeş kütlələrinin mənafe birliyinin dərk edilməsindən çıxış edərək, yalnız hər iki respublikanın bütün qüvvələrini tam birləşdirməklə ümumi düşmənə - imperialist burjuaziyaya qarşı ağır mübarizədə onların uğur qazanmalarını təmin edə biləcəyini nəzərə alaraq, bu müqaviləni bağlamağı qərara almışlar. Bunun üçün RSFSR hökuməti xarici məsələlər üzrə xalq komissarı Georgi Vasilyeviç Çiçerini, Azərbaycan SSR hökuməti isə xalq ədliyyə komissarı Behbud Şahtaxtinskini öz müvəkkili təyin etmişdir."[98] Müqavilənin birinci maddəsində göstərilirdi ki, Rusiya və Azərbaycan öz aralarında sıx hərbi və maliyyə ittifaqı bağlayırlar. İkinci maddəyə görə,

[96] Yenə orada, v.6 arx.-7

[97] Yenə orada, v.8 arx.

[98] Hərbi-iqtisadi ittifaq haqqında Rusiya-Azərbaycan müqaviləsi. 30.09.1920. //RFXSA, f.04, s.99, q.461, i.62413, v.1

RSFSR hökuməti və Azərbaycan Respublikası hökuməti ən qısa vaxtda hərbi orqanlarını və hərbi komandanlıqlarını, xalq təsərrüfatı və xarici ticarət aparan orqanlarını, təchizat orqanlarını, dəmiryol nəqliyyatı və poçt-teleqraf orqanlarını, maliyyə orqanlarını birləşdirirdilər. Üçüncü maddəyə görə, bu birləşdirilmələr hər iki hökumətin xüsusi sazişi ilə həyata keçirilməli idi. Dördüncü maddəyə görə, bu müqavilə imzalandığı andan qüvvəyə minirdi.[99]

Bu müqaviləyə əlavə olaraq, həmin gün Moskvada altı müxtəlif saziş imzalandı. Bunlardan ən mühümü tərəflər arasında imzalanmış on bir maddədən ibarət olan hərbi-dəniz məsələləri üzrə Saziş idi. Sazişin beşinci bəndinə görə, RSFSR Xəzər dənizindəki donanmasının komandanı, eyni zamanda, Azərbaycan donanmasının da komandanı idi.[100] Tərəflər arasında imzalanmış yeddi maddədən ibarət poçt, teleqraf, telefon və radioteleqram idarələrinin birləşdirilməsi haqda sazişə görə, Rusiya poçt-teleqraf idarələri üçün qəbul olunmuş qaydalar Azərbaycana da şamil edilirdi və Azərbaycan öz ərazisindən beynəlxalq poçt-teleqraf əlaqələrini RSFSR poçt-teleqraf komissarlığının vasitəsi ilə və onun nəzarəti altında apara bilərdi.[101] Ərzaq siyasətinin birləşdirilməsi haqqında altı maddədən ibarət olan sazişin ikinci maddəsinə görə, əsas ərzaq növləri (çörək, kartof, ət, süd, yağ, yumurta və s.) üzrə Rusiya ərazisində tətbiq edilən və ediləcək dövlət inhisarı tədricən Azərbaycana da şamil edilməli idi.[102] Səkkiz maddədən ibarət maliyyə sazişinə görə, RSFSR Maliyyə Komissarlığının müvəkkili həlledici səs hüququ ilə Azərbaycan XKS-nin yanında təmsil olunmalı idi.[103] Tərəflər arasında imzalanmış vahid iqtisadi siyasət haqqında sazişə görə, Azərbaycan öz iqtisadi həyatının bir sıra vacib tərəflərini Rusiyadan asılı vəziyyətə salırdı.[104] İmzalanan sənədlər içərisində ən maraqlısı xarici ticarət məsələsi üzrə saziş idi. Bu sazişə görə, Azərbaycan, nəinki, xarici ticarət üçün, hətta, daxili ehtiyaclarını ödəmək üçün neft və neft məhsullarını, yalnız, Rusiya

[99] Yenə orada, v.1

[100] Hərbi-dəniz məsələləri üzrə RSFSR ilə Azərbaycan SSR arasında saziş. 30.09.1920. // RDSSTA, f.5, s.1, i.2021

[101] Poçt, teleqraf, telefon və radioteleqram idarələrinin birləşdirilməsi haqqında RSFSR hökuməti ilə Azərbaycan SSR hökuməti arasında saziş. 30.09.1920. //ARDA, f.28, s.1, i.61, v.26

[102] Ərzaq siyasətinin birləşdirilməsi haqqında RSFSR hökuməti ilə Azərbaycan SSR hökuməti arasında saziş. 30.09.1920. //ARDA, f.28, s.1, i.61, v.27

[103] Maliyyə məsələləri üzrə RSFSR hökuməti ilə Azərbaycan SSR hökuməti arasında saziş. 30.09.1920. //ARDA, f.28, s.1, i.61, v.28

[104] Vahid iqtisadi siyasət yetirmək haqqında RSFSR hökuməti ilə Azərbaycan SSR hökuməti arasında saziş. 30.09.1920. //ARDA, f.28, s.1, i.61, v.29

Xalq Xarici Ticarət Komissarlığı və Ali Xalq Təsərrüfatı Şurası ilə müqavilə əsasında ala bilərdi.[105]

Sentyabr ayının 30-da Moskvada imzalanmış müqavilə və sazişlərdə Azərbaycanın müstəqilliyinin tanınması, ərazi bütövlüyü və suverenliyi haqqında heç nə deyilmirdi. Əksinə, Azərbaycan müstəqil dövlətin fəaliyyəti üçün mühüm hesab edilən bir sıra vəzifələri Sovet Rusiyasına verir, ölkənin iqtisadi və sosial həyatı üçün zəruri sayılan bir sıra hüquqları Moskvaya təslim etmiş olurdu. Eyni zamanda, imzalanmış bütün sazişlər Sovet Rusiyasının onsuz da aprel işğalından sonra respublikanı idarə edən müvəkkillərinə rəsmi status verirdi. Vahid iqtisadi siyasət, xarici ticarət və ərzaq siyasəti ilə bağlı bir sıra imtiyazların Rusiyaya verilməsi Sovet Azərbaycanının, nəinki, iqtisadi müstəqilliyini şübhə altına alır, onun siyasi müstəqilliyinə də görüntü xarakteri verirdi. Azərbaycanın süni şəkildə mübahisə obyektinə çevrilmiş, Rusiya ilə Gürcüstan, Rusiya ilə Ermənistan arasında imzalanmış müqavilələrə görə, müvafiq respublikalara verilmiş ərazilərinin taleyi, xüsusilə, qeyd edilən müqavilələrin müvafiq bəndlərindən imtina edilməsi barədə Moskvada imzalanmış sənədlərdə heç bir şey yox idi. Bu sənədlərdə Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi o dərəcədə itirilmişdi ki, hətta, həmin sənədlər ölkənin kommunist rəhbərliyində belə birmənalı qarşılanmamışdı. 1921-ci ilin mayında keçirilən I Ümumazərbaycan Sovetlər qurultayında N.Nərimanovun nitqi və M.D.Hüseynovun xarici siyasət haqqında məruzəsindən sonra verilən suallar bunu açıq-aydın göstərirdi. N.Nərimanov əhali arasında geniş yayılmış "Siz hansı müstəqillikdən danışırsınız, sizin müstəqilliyiniz haradadır, neft sizin əlinizdədirmi?" sualını şərh edərkən bildirirdi: "Rusiyanı əvvəllər tanımayan ingilisləri nə məcbur etdi ki, Rusiya ilə müqavilə haqqında danışsınlar? Sözsüz ki, neft. Biz elan edəndə ki, bizim neft Sovet Rusiyasına məxsusdur, bu Sovet hakimiyyətinin əlində əsas vasitəyə çevrildi."[106] Elə həmin çıxışında N.Nərimanov etiraf edirdi ki, bu zalda sizin yerinizdə müsavatçılar otursaydılar, bunu heç vaxt etməzdilər, biz kommunistlər üçün Sovet Rusiyası neftdən daha qiymətlidir.

Lakin Rusiya ilə imzalanmış sənədlər Azərbaycan hakimiyyəti daxilində, habelə, müsəlman kommunistləri ilə gəlmə bolşeviklər arasında ixtilafları səngitmədi. Qafqazda, o cümlədən Azərbaycanda yaranmış vəziyyəti yerində araşdırmaq üçün RK(b)P MK plenumu sentyabrın axır-

[105] Xarici ticarət məsələləri üzrə RSFSR hökuməti ilə Azərbaycan SSR hökuməti arasında saziş. 30.09.1920. //ARDA, f.28, s.1, i.61, v.30

[106] Н.Нариманов. Избранные произведения. Том 2. Баку, 1989, с.489

larında İ.Stalini xüsusi tapşırıqlarla Qafqaza göndərmək haqqında qərar qəbul etdi. İ.Stalin bu səfəri bir qədər təxirə salmaq xahişi ilə Siyasi Büroya müraciət etsə də, vəziyyətin böhranlı xarakter aldığını əsas gətirilərək, onun xahişi rədd edildi.[107] Partiya rəhbərliyinin göstərişinə uyğun olaraq, İ.Stalin oktyabr ayının 16-da Şimali Qafqaza yola düşdü və noyabr ayının ilk günlərində Bakıya gəldi.

Hələ Şimali Qafqazda olarkən, müxtəlif yerlərdən aldığı məlumatlar əsasında İ.Stalin oktyabr ayının 26-da Qafqazda vəziyyət haqqında V.Leninə teleqram göndərmişdi və bu teleqramda, o, Batumda möhkəmlənən müdaxiləçilərin Bakıya yürüşə başlamaq cəhdlərinin mümkünlüyünü istisna etmirdi. Bu fikir təxminən bir ay əvvəl Ş.Eliavanın Q.Orconikidzeyə teleqramında da yer almışdı. O yazırdı: "Bakını ingilis yürüşü təhdid edir. Azərbaycanın içində də vəziyyət həyəcanlıdır."[108]

Noyabr ayının 4-də RK(b)P MK Qafqaz bürosu üzvlərinin iştirakı ilə keçirilən AK(b)P MK bürosunun iclasında İ.Stalin Azərbaycanın qonşu dövlətlərlə münasibətləri haqqında Mərkəzin baxışlarını ortaya qoydu. Respublika rəhbərliyi daxilində səngimək bilməyən ərazi mübahisələri ilə bağlı o dedi: "Əgər bilmək istəyirsinizsə, Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, sovet hökuməti olanda vermək olar."[109] Gürcüstana gəldikdə isə, İ.Stalin qeyd edirdi ki, "Gürcüstan indi çoxlu elçisi olan gənc qızın vəziyyətindədir, hamı onunla oynayır, o isə naz satır. Bir şey əldə etmək üçün, biz də, onunla zarafatlaşırıq. Burada Antanta da bizim əleyhimizə ittifaq yaratmaq istəyir."[110]

Noyabr ayının 8-də İ.Stalinin iştirakı ilə Azərbaycan K(b)P MK-nın geniş plenumu keçirildi. Plenuma RK(b)P MK-nın Qafqaz Bürosunun və Bakı Komitəsinin üzvləri də qatılmışdılar. Plenum bir sıra mühüm məsələlərə münasibətdə Azərbaycan rəhbərliyində artıq dərinləşmiş ixtilafları ortaya qoydu. Plenumda Ə.Qarayevin əhalinin meşşan hissəsinin adından dediyi fikirlər, əslində Azərbaycan rəhbərliyi içərisində yaranmış real gerçəkliyin təzahürü idi. O deyirdi: "Müsəlman kommunistlərinin arasında

[107] RK(b)P MK Siyasi Bürosunun iclasının 47 saylı protokolundan çıxarış. 06.10.1920. // RDSSTA, f.17, s.3, i.111, v.1

[108] Ş.Eliavanın G.Orconikidzeyə teleqramı. 18.09.1920. //RDSSTA, f.85, s.18, i.50, v.1

[109] AKP MK, AKP BK, RK(b)P MK Qafqaz Bürosu, Azərbaycan İnqilab komitəsinin, Bakı şəhər İcraiyyə Komitəsi, Xalq Komissarları, rayon icraiyyə komitələri və rəyasət heyətləri üzvlərinin birgə iclasının 1 saylı protokolu. 09.11.1920. //ARPİİ SSA, f.1, s.1, i.14, v.19

[110] Yenə orada, v.19

iki dəstə yaranmışdır. Onlardan biri Nərimanovun, digəri isə Ə.Qarayev və M.D.Hüseynovun dəstəsidir. İkinci dəstə Azərbaycanı Rusiyaya satıb, birinci dəstə Azərbaycanın müstəqilliyinə tərəfdardır və onu həyata keçirir... Əslində isə, doğrudan da burada gizli iclaslar təşkil edilir, onlara aid olmayan məsələləri müzakirə edilir və deyilir ki, Qarayev, Hüseynov və digərləri Azərbaycanı Rusiyaya satırlar."[111]

Plenumdakı çıxışında Azərbaycanın müstəqilliyi ilə bağlı məsələyə toxunan İ.Stalin, nəhayət ki, Azərbaycanın müstəqilliyinə münasibətdə Mərkəzin baxışlarını açıqladı. O dedi: "Könüllü şəkildə Rusiya ilə sazişə görə, müstəqil Azərbaycan vardır. Sizin bütün ətrafınız burjua dövlətləridir, onlar təşviqat aparırlar ki, "urus burda hər şeyi ələ keçirib". İndi sizə sərfəlidir ki, Azərbaycanın müstəqilliyini nümayiş etdirəsiniz. Kommunistin kommunistdən həqiqi müstəqilliyi ola bilməz... Azərbaycanın müstəqilliyini nümayiş etdirmək olar, lakin öz aranızda bilməlisiniz ki, Rusiya ilə sıx, möhkəm ittifaq vardır."[112] Noyabrın 9-da daha geniş dairədə keçirilən iclasda İ.Stalin "Azərbaycanda yaxın dövrdə partiya və sovet işi haqqında" etdiyi geniş məruzəsində müstəqilliklə bağlı öz fikirlərini, onun dekorativ xarakterini daha açıq şəkildə səsləndirdi. O, Qafqazda yaranmış vəziyyəti və bunun Azərbaycan üçün nəticələrini belə qiymətləndirirdi: "Qafqazın başı üzərini qara buludlar almışdır. Antanta hərbi əməliyyatlar meydanını Qafqazın cənubuna keçirməyə çalışır. Rusiyanı neftdən məhrum etmək üçün Vrangel Kubana geri çəkilə bilər. Türkiyənin Ermənistana hücumu vəziyyəti bir qədər mürəkkəbləşdirir. Azərbaycan, ola bilsin, öz azadlığını silahla müdafiə etmək faktı qarşısında dayansın. Biz xarici təhlükənin fırtınaya çevrilə biləcəyi dövrə keçirik." Azərbaycanın müstəqilliyi məsələsinə gəldikdə isə İ.Stalin açıq şəkildə dedi: "Mən Azərbaycanın müstəqilliyinə tərəfdar deyiləm. Kommunistlərin bir hissəsinin digərindən müstəqilliyi ola bilməz. Sovet Rusiyası Bakının yanacağı olmadan keçinə bilməz. Sovet Rusiyasının köməyi, mütəşəkkilliyi, ordusu və s. olmadan Azərbaycan da məhv olardı. Burada tam ittifaq labüddür. Bütün dövlətlər ya Sovet Rusiyasına, ya da Antantaya tərəfdar olmalıdırlar, üçüncü yol yoxdur. Mən hesab edirəm ki, bütün yoldaşlar – müsəlmanlar da, ruslar da bunu bilirlər. Bununla belə, burjuaziyanın agentləri dedi-qodu yaradırlar ki, rus gəldi Azərbaycanı uddu, onlar ziyalıları bizim əleyhimizə qaldırırlar, onların kəndlə əlaqəsi sıxdır,

[111] AK(b)P MK-nın RK(b)P MK Qafqaz Bürosu və AKP Bakı Komitəsi ilə birgə plenumunun 2 protokolu. 08.11.1920. //ARPİİ SSA, f.1, s.1, i.14, v.9

[112] Yenə orada, v.10

nəinki, bizim, onlar orada millətçilik ruhunda silahlanırlar. Bu silahı ziyalıların əlindən almaq üçün biz deməliyik ki, Azərbaycan müstəqil ölkədir və xoş məramla Rusiya ilə ittifaqa girmişdir. Bu ittifaq olmadan Rusiya zəifləyərdi, Azərbaycan Antantanın hakimiyyəti altına düşərdi. Bu zahiri müstəqillik bizim strateji siyasətimizin məsələsidir."[113]

İ.Stalin Bakıdan dönərkən, hələ Şimali Qafqazda ikən Bakı ətrafında yaranmış vəziyyətdən narahatçılıq keçirən V.Lenin noyabr ayının 13-də Bakının ətrafının möhkəmləndirilməsi ilə bağlı ciddi müdafiə tədbirlərinin görülüb-görülməməsini ondan soruşurdu. İ.Stalin isə cavabında vəziyyəti son dərəcə böhranlı təsvir edir və yazırdı: "Bakının fəal müdafiə yolu ilə təsadüflərdən qorunmasını təmin etmək üçün ən azı beş diviziya lazımdır. Şübhəsiz, düşmən elə ilk hücumdaca Yelizavetpolu tutacaq, bu isə ona 18-ci ildə olduğu kimi, Azərbaycan burjua hökuməti yaratmağa və Bakının ələ keçirilməsini təmin etməyə imkan verəcəkdir."[114] O, bu təhlükəyə qarşı dayanmaq üçün Q.Orconikidzeyə müvafiq tapşırıqlar verildiyini V.Leninin nəzərinə çatdırırdı. İ.Stalinin Bakıya səfərinin ən gözlənilməz nəticəsi 1920-ci ilin avqust ayının 17-də bolşeviklər tərəfindən həbs edilmiş və Bayıl həbsxanasına salınmış M.Ə.Rəsulzadəni həbsdən azad edib, özü ilə birlikdə Moskvaya aparması oldu. İki ilə yaxın Moskvada Millətlər Komissarlığında çalışan M.Ə.Rəsulzadə 1922-ci ilin sonlarında Sovet Rusiyasını tərk edə bilmişdi.[115]

Noyabr ayının 27-də RK(b)P MK Siyasi Bürosunun iclasında İ.Stalinin Qafqaza səfərinin yekunları barədə onun məruzəsi dinlənildi və məruzənin geniş müzakirəsi keçirildi. Məruzənin müzakirəsindən sonra Siyasi Büro qərara gəldi ki, Q.Orconikidzeyə bir vəzifə olaraq tapşırılmalıdır ki, Bakıda qalsın, Azərbaycan İnqilab Komitəsinə və fəaliyyət şurasına ümumi rəhbərliyi ələ alsın. İ.Stalinə tapşırıldı ki, Q.Orconikidzedən istifadə etməklə Qafqaz dövlətlərinin sərhədlərində daha düzgün xarici siyasət yeridilməsini təmin etmək üçün G.Çiçerinlə danışsın. Gürcüstan, Ermənistan, Türkiyə və İrana münasibətdə daha çox müharibədən qaçmağa yönəlmiş maksimum barışdırıcı siyasət yeridilsin. Nə Gürcüstana, nə Ermənistana, nə də İrana yürüş

[113] AK(b)P MK, AKP Bakı Komitəsi, RK(b)P MK Qafqaz Bürosu, Azərbaycan İnqilab Komitəsi, Bakı şəhər İcraiyyə Komitəsi, Xalq Komissarı, rayon icraiyyə komitələri və rəyasət heyəti üzvlərinin birgə iclasının 1 saylı protokolu. 09.11.1920. //ARPİİ SSA, f.1, s.1, i.14, v.16-17

[114] İ.Stalinin V.Leninə teleqramı. 16.11.1920. //ARPİİ SSA, f.1, s.74, i.36, v.1-2

[115] M.Ə.Rəsulzadənin Rusiyanı tərk etməsində Rəhim bəy Vəkilovun da rolu olmuşdu.

edilməsi qarşıya məqsəd olaraq qoyulmasın. Başlıca vəzifə Azərbaycanın qorunması, bütün Xəzər dənizinin möhkəm surətdə əldə saxlanmasından ibarət hesab edilsin. Bunun üçün ən azı 7 diviziyanın Azərbaycana atılması bütün vasitələrlə gücləndirilsin. Xalq Yollar Komissarlığına və bu sahə üzrə Ali Şuraya tapşırılsın ki, hər gün Bakıya ən azı 8 eşalon ordu göndərilməsinin yollarını araşdırsınlar. L.Trotskiyə tapşırılsın ki, bu qərarın yerinə yetirilməsinə və sürətləndirilməsinə yaxından nəzarət etsin.[116]

Beləliklə, aprel işğalından sonra Azərbaycanı Sovet Rusiyasının tam nəzarətində saxlamaq üçün ikinci dəfə Bakıya böyük sayda hərbi kontingent göndərilməsi barədə qərar qəbul edildi. Bu, özlüyündə Azərbaycanın işğalının başa çatdırılması, onun, hətta, Sovet qaydaları çərçivəsində müstəqilliyinə son qoyulması və ölkənin Sovet Rusiyasına tabe edilməsi demək idi.

İ.Stalinin Bakıya səfəri və onun yekunlarının RK(b)P MK Siyasi Bürosunda müzakirəsi Azərbaycanın müstəqilliyinə Mərkəzin münasibətinin bütün gizli tərəflərinə aydınlıq gətirdi. Mərkəz üçün Azərbaycanın müstəqilliyinin dekorasiya xarakteri müsəlman kommunistlərinə də izah edildi. İndiyə qədər Azərbaycanın müstəqilliyinə, heç olmasa, sözdə olan inam özünü doğrultmadı. Moskvanın böyük perspektivi olan səlahiyyətli nümayəndəsi Azərbaycanın müstəqilliyinin zahiri xarakter daşımasını dilə gətirməklə onun itirildiyinə bir növ rəsmi xarakter verdi.

1920-ci ilin aprel işğalı ilə bağlı hadisələrin araşdırılması belə bir nəticəyə gəlməyə əsas verir ki, hər bir ölkənin və millətin müstəqilliyinin tam təminatçısı həmin ölkənin öz xalqı və öz millətidir. Müxtəlif siyasi cərəyanlarda təmsil olunmalarına baxmayaraq, ölkədə fəaliyyət göstərən siyasi təşkilatlar müstəqilliyə münasibətdə vahid mövqedən çıxış etməlidirlər. 1920-ci ilin aprelində müsəlman kommunistlərin müstəqilliklə oynamaq cəhdləri, Azərbaycanın müstəqilliyini ölkənin içində deyil, onun sərhədlərindən kənarda axtarması tarixə acı bir nümunə verdi. M.Ə.Rəsulzadənin təbirincə desək, 1918-ci ildə böyük qurbanlar bahasına ucaldılmış istiqlal bayrağı qırmızı bir bezə dəyişdirildi. Şərqin qapısında nümunəvi bir respublika olacağı güman edilən Azərbaycan, bolşevik ordusunun süngüsü altında, nəinki, müstəqilliyini, bununla yanaşı, ərazilərini də itirməyə başladı. Bu isə onun taleyində daha sonra davam edən ağrılı hadisələrin faciəli başlanğıcı idi.

[116] RK(b)P MK Siyasi Bürosunun iclasının 66 saylı protokolu. 27.11.1920. //PDSSTA. f.17. s.3. i.125. v.1

§3. Aprel işğalından sonra Bakıda həbs edilmiş xarici diplomatlarla bağlı beynəlxalq qalmaqal

Əslində, Sovet Azərbaycanı ilə Gürcüstan arasında birinci münaqişə aprel çevrilişi zamanı Bakıda olan bütün xarici missiyalarla yanaşı, qatarla Tiflisə hərəkət edən gürcü missiyasının həbs edilməsindən başlanmışdı və Gürcüstan hökuməti aprel ayının 30-da Azərbaycan xarici işlər komissarının müavini M.D.Hüseynova göndərdiyi teleqramda bu addıma öz kəskin etirazını bildirmişdi.[117] 1920-ci ilin aprel ayının 28-də xarici missiyaların həbs olunması ideyası XI Qırmızı Ordu Biləcəriyə doğru hərəkət edən zaman A.Mikoyan tərəfindən irəli sürülmüşdü və yeni formalaşan Azərbaycan İnqilab Komitəsi bu məsələdən xəbərsiz idi. A.Mikoyan öz xatirələrində yazır: "Hələ, Xaçmazda olanda bizim əlimizə təzə Bakı qəzetləri düşdü və biz onlardan öyrəndik ki, aprel ayının 27-də axşam Azərbaycan hökuməti Bakıda xarici nümayəndələr üçün qəbul keçirib. Mən Yefrimova dedim: "Yaxşı olardı ki, biz Biləcərini tutaq və dəmir yolu vasitəsi ilə diplomatların Bakıdan çıxış yolunu bağlayaq, onlara Tiflisə qaçmağa imkan verməyək." O, saata baxdı, fikirləşdi və dedi: "Yəqin ki, yetişəcəyik. Onlar qaça bilməyəcəklər." Mən Yefrimovdan soruşdum: "Bilirsən, Bakıda olan diplomatları nə üçün saxlamaq lazımdır? Əgər onlar orada yubansalar, biz onları girov kimi həbs edərik və sonra diplomatları ingilislər tərəfindən həbs edilmiş inqilabçılara dəyişərik." Yefrimov məni müdafiə etdi. Diplomatlar Bakıdan çıxa bilmədilər və biz onları həbs etdik. Lakin bir müddət sonra onların azad edilməsi tələbi ilə Çiçerin teleqram göndərdi və biz bu teleqramı yerinə yetirməli olduq."[118]

1920-ci ilin aprel böhranı ərəfəsində Azərbaycan Respublikasının beynəlxalq aləmdən təcrid edilməsi artıq aradan qaldırılmış və onun diplomatik cəhətdən geniş tanınması dövrü başlanmışdı. Azərbaycan Respublikası Gürcüstanla (səlahiyyətli nümayəndə Fariz bəy Vəkilov), Ermənistanla (səlahiyyətli nümayəndə Əbdürrəhim bəy Haqverdiyev), İranla (diplomatik nümayəndə Adil xan Ziyadxanov), Türkiyə ilə (səlahiyyətli nümayəndə Yusif Vəzir Çəmənzəminli) rəsmi diplomatik əlaqələr saxlayırdı. Azərbaycanın Batum konsulluğuna Mahmud bəy Əfəndiyev, Türküstandakı siyasi nümayəndəliyinə Ələkbər Sadıqov başçılıq edirdi.[119]

[117] Y.Gecəçkori - M.D.Hüseynova. 30.04.1920.//ARDA. f.28. s.1. i.38. v.2

[118] A.Mikoyanın xatirələrindən. 09.03.1967.//RDSSTA. f.64. s.3. i.237. v.120-121

[119] H.Baykara. Azerbaycan İstiklal mücadilesi tarihi. İstanbul, 1975, s.284

Öz növbəsində Azərbaycanda da artıq bir çox xarici dövlətlərin diplomatik missiyaları fəaliyyət göstərirdi. İngiltərə (vitse-konsul Tevelk), Belçika (konsul Ayvazov), Yunanıstan (konsul Kusis), Ermənistan (səlahiyyətli nümayəndə U.A.Bekzadyan), Gürcüstan (səlahiyyətli nümayəndə N.S.Alişbaya), Danimarka (konsul Z.F.Bmerinq), İtaliya (konsul L.Qrikurov), Litva (konsul agenti V.İ.Miskeviç), İran (səlahiyyətli nümayəndə Səədül-Vəzir), Polşa (konsul agenti S.Rılski), ABŞ (vitse-konsul Randolf), Ukrayna (vitse-konsul Qolovan), Finlandiya (konsul agenti Beçelius), Fransa (konsul agenti Yemelyanov), İsveçrə (konsul Klettyü), İsveç (konsul Vander Pluq) diplomatik nümayəndələri artıq tam səlahiyyətlə fəaliyyətə başlamış, Yaponiya hökuməti Azərbaycanla diplomatik münasibətlər yaratmağa hazır olduğunu bildirmiş, Vatikan isə Antuan Delabus başda olmaqla, öz nümayəndələrini Bakıya göndərmişdi.[120]

Aprel çevrilişi zamanı Bakıda həbs olunan xarici diplomatların, hərbçilərin, iqtisadi və ticarət nümayəndələrinin sayı, ümumilikdə 400 nəfərə yaxın idi.[121] Həmin vaxt Tiflis-Bakı yolu ilə İstanbuldan Ənzəliyə göndərilən Britaniya dəniz qüvvələri admirallığının birinci lordu B.Frezer başda olmaqla, 32 ingilis zabiti də həbs olunanların arasında idi. Həbs olunanlar çox pis şəraitdə saxlanılırdı. 400 nəfər təxminən 110 kv. metrlik bir əraziyə yerləşdirilmişdi və bu ərazidə olan bir su kranında qadın və kişilər saatlarla növbə gözləməli olurdu. Onlara adambaşını hər gün bir funt qara çörək verilir, kənardan ərzaq gətirilməsinə icazə verilsə də, həmin ərzaq çox vaxt mühafizəçilər tərəfindən mənimsənilirdi.[122]

Britaniya hərbi missiyasının və Bakıda olan ingilis hərbi nümayəndəsi mayor Deylinin bolşeviklər tərəfindən "nəzarət altına alınması" Londonda böyük narahatçılığa səbəb olmuşdu və Parisdəki Britaniya səfirinə təlimat verilmişdi ki, Fransa Xarici İşlər Nazirliyi Bakıdakı ingilis hərbi missiyasının məsələsi həll olunana qədər Parisdəki Azərbaycan nümayəndələrinə Fransada qalmaq üçün viza verməsin.[123] Lakin Fransa Xarici İşlər Nazirliyi belə hesab edirdi ki, Britaniya hökumətinin bu xahişini yerinə yetirmək mümkün deyildir. Onlar göstərirdilər ki, Parisdəki Azərbaycan nümayəndələri müttəfiqlər tərəfindən tanınmış hökumətin təmsilçiləridirlər və onların bolşeviklərə heç bir dəxli yoxdur.[124] Britaniya hərbi missiyası Xəzər dənizinin cənubuna sıxışdırılmış Britaniya donanması və Denikin gəmiləri üçün yaranmış təhlükə ilə bağlı təcili olaraq Ənzəliyə göndərilmişdi. Müttəfiqlərin Qara dəniz ordusunun baş komandanı general Corc Miln 1921-ci ilin yanvar ayının 7-də Britaniya Hərbi Nazirliyinə göndərdiyi geniş hesabatda yazırdı ki, may ayında Bakıda Sovet hakimiyyəti qurulanda bu şəhərdə olan bütün Fransa və Britaniya rəsmi şəxsləri saxlanmışdır və həbsə atılmışdır.[125] Azərbaycan SSR Xarici İşlər Komissarlığı Siyasi Xidmət İdarəsinin rəisi həbsdə olan Bakıdakı Fransa konsulluğunun agenti P. Duroyla görüşündə məxfi şəkildə ona bildirmişdi ki, Azərbaycanı müttəfiqlərin gözündən salmaq üçün ölkədəki fransız və digər dövlətlərin diplomatlarının həbsini ruslar həyata keçirirlər.[126]

Bakıda Britaniya zabitlərinin həbsi ilə bağlı 1920-ci ilin iyun ayının 9-da admirallığın birinci lordu Lonqun Britaniya parlamentində kəskin çıxışı olmuşdu. Halbuki, Rusiyanın 1914-cü il hüdudlarında bərpası, ilk növbədə, Britaniya rəsmilərinin ideyası idi və bu istiqamətdə Sovet Rusiyasının nümayəndəsi Krasinlə ingilis Baş Naziri Lloyd Corc arasında sonradan bəlli olan gizli danışıqlar aparılmışdı. Gürcüstan Respublikası baş naziri işləmiş Noy Jordaniya sonralar Parisdə çıxan kitabında yazırdı: "Dünya üçün sirr deyildir ki, Sovet Rusiyasını Cənubi Qafqaz respublikalarının torpaqlarını işğal etməyə İngiltərə baş naziri Lloyd Corc sövq edirdi. Bu sirr Çiçerinin dilindən çıxmış və bütün dünya bu sirri hiss etmişdi."[127] Eyni zamanda, həmin dövrün ingilis baş naziri Lloyd Corc Londona gəlmiş sovet xarici ticarət komissarı Krasinə Kral hökumətinin Qafqaz işlərinə qarışmadığını bildirmişdi. Beləliklə, Sovet Rusiyası Azərbaycanın işğalına beynəlxalq təminatlar aldıqdan sonra əməli addımlara keçmişdi. İşğal dövründə Azərbaycan Cümhuriyyətini müdafiə edə biləcək bütün xarici

[120] Адрес Календарь Азербайджанской Республики, с.7-8

[121] Information Renseignements sur Bakou. Le 25 août 1920. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 158

[122] Agent consulaire de France à Bakou P.Duroy. Attitude de l'Azerbaïdjan Soviétiste à l'égard de la France. Tiflis, le 24 juillet 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 145

[123] Ambassade d'Angleterre - Ministère des Affaires Etrangère de France, le 7 mai 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 29

[124] Ministère des Affaires Etrangère de France, Note pour la Direction administrative (Surveillance des Etrangers), le 11 mai 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 37

[125] О событиях на Кавказе и в Средней Азии. Донесение генерала Джорджа Мильна. 07.01.1921 г. //Каспийский трапзит. В двух томах, т.2. Москва, 1996, с.324

[126] Agent consulaire de France à Bakou P.Duroy. Attitude de l'Azerbaïdjan Soviétiste à l'égard de la France. Tiflis, le 24 juillet 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 145

[127] Н.Жордания. Наши разногласия. Париж, 1928, с.45.

qüvvələr, demək olar ki, neytrallaşdırılmışdı. Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalına beynəlxalq aləmdə elə ciddi bir etirazın olmaması ilk növbədə bununla bağlı idi. Məhz. Krasinin Londonda apardığı danışıqların nəticəsi idi ki, Azərbaycan sovetləşəndən sonar da lord Kerzon Batum limanı vasitəsi ilə Bakıdan neft daşınmasına böyük əhəmiyyət verirdi və Britaniya neft departamenti belə hesab edirdi ki, bolşeviklərin Bakını işğal etmələrinə baxmayaraq, ticarət əlaqələri davam edəcək, hətta, onun dövriyyəsi artacaqdır.[128] Rusiyanın 1914-cü il sərhədlərində bərpasına beynəlxalq marağın artması bütün Qərb ölkələri üçün də səciyyəvi idi. Ona görə də, müraciət edilmiş Antanta ölkələri bir qayda olaraq, Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsini sükutla qarşıladılar.

Göründüyü kimi, bolşevik inqilabından sonra daxili sarsıntılar yaşayan Rusiya, ilk imkan düşən kimi, Bakı neftini və bu neftlə birlikdə Azərbaycanı əldə keçirməyə qərar verdi. Azərbaycanın köhnə sosialistlərindən olan Səməddağa Ağamalıoğlu haqlı olaraq deyirdi ki, "Azərbaycanın alın yazısını torpağın üstü deyil, altı təyin edir. Bu neft burada dayandıqca biz ona deyil, o bizə ağalıq edəcək. Çıxan neftdən bizim payımız bir idarə lampasını doldurmaq qədərdir. Amma bütün Rusiyada həyat bu neftə görə tənzimlənib. Nə çarə ki, iki məmləkətin taleyini bu qara çamur bir-birinə yapışdırmışdır! Ona görə də bizim üçün torpaq məsələsi yoxdur, neft məsələsi vardır".[129] Məhz, Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı da, onun paytaxtında Qərb ölkələrinin diplomatlarının həbsi də Bakı nefti uğrunda mübarizənin tərkib hissəsi idi.

Həbs olunan xarici diplomatlarla bağlı məlumatlar iyun ayının ortalarında dəqiqləşdirildi. Fransanın Qafqazda olan komissarı de Martel 1920-ci ilin may ayının 24-də Baş Nazir və Xarici işlər naziri Milyerana göndərdiyi məxfi məlumatda Bakıda həbs olunmuş və nəzarət altına alınmış Fransa, İngiltərə, İtaliya və Polaşa diplomatik missiyaları və Qərb vətəndaşları haqqında məlumat verirdi.[130] Azərbaycanda həbs olunmuş Qərb diplomat-

[128] Bax: Письмо из нефтяного департамента Великобритании. 14.05.1920.// Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. Составитель Н.А.Максвелл. Баку, 2011, с.675

[129] Şevket Süreyya Aydemir. Suyu arayan adam. Yirmi birinci basım. Remzi Kitabevi A.Ş., İstanbul, 2009, s.208

[130] Monsieur de Martel Commissaire français au Caucase à Son Excellence Monsieur Millerand Président du Conseil Ministre des Affaires Etrangères, le 24 mai 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 77

ları ilə bağlı danışıqlar 1920-ci ilin payızına qədər davam etdi. Azərbaycan hökuməti əvvəlcə bu həbslərə tərəfdar deyildi. Hətta, Britaniya nümayəndəsi ilə görüşdə Xarici işlər komissarı M.D.Hüseynov xahiş etmişdi ki, bolşevizm haqqında Bakıdakı xaosa görə fikir yürütməsinlər.[131] Sovet Rusiyasının Xarici işlər komissarı G.Çiçerinə avqust ayının 30-da göndərdiyi notada M.D.Hüseynov Azərbaycan hökumətinin həbs olunmuş ingilislərin İstanbulda həbs olunmuş kamalçı türklərlə dəyişdirilməsinə razı olduğunu bildirirdi.[132] Azərbaycanın Moskvadkı səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskiyə, RSFSR-in Gürcüstandakı nümayəndəsi S.Kirova və Tiflisdəki diplomatik nümayəndənin müavini Əkbərağa Sadıqova vurduğu teleqramda Azərbaycan xarici işlər komissarı M.D.Hüseynov təklif edirdi ki, Bakıda həbsdə saxlanan ingilis diplomatları və hərbçiləri İstanbulda britaniyalılar tərəfindən həbs edilmiş kamalçılara dəyişdirilsin. Britaniyalılar tərəfindən həbs olunmuş türklərin siyahısı Azərbaycan SSR Xarici İşlər Komissarlığı tərəfindən avqust ayının 28-də qeyd edilən ünvanlara göndərilmişdi. Maltaya sürgün edilənlərin sayı 58 nəfər idi və onların böyük əksəriyyəti "İttihad və Tərəqqi" partiyasının tanınmış nümayəndələri sayılırdılar.[133] Əslində, bu ideya Moskvadan gəlmişdi. 1920-ci ilin avqust ayının 16-da G.Çiçerin Bakıda həbs olunmuş ingilislərə bağlı N.Nərimanova teleqramında qeyd etmişdi ki, "siz İstanbulda həbs edilmiş müsəlman millətçilərinin azad edlməsini tələb edə bilərsiniz".[134] G.Çiçerinin teleqramından sonra bu məsələ avqust ayının 27-də Azərbaycan K(b)P MK-nın Siysi Bürosunda müzakirə edildi və M.D.Hüseynova tapşırıldı ki, həbs olunanların dəyişdirilməsi ilə bağlı ingilis hökuməti qrşısında məsələ qaldırılması G.Çiçerindən xahiş edilsin.[135] M.D.Hüseynov G.Çiçerindən xahiş edirdi ki, onun bu təklifi həbsdə olan ingilislərlə bağlı Londonda danışıqları aparan Sovet Rusiyasının nümayəndəsi M.Litvinova çatdırılsın.[136] Eyni zamanda, M.D.Hüseynov bu məsələ ilə bağlı avqust ayının sonlarında Kopenhagendə olan RSFSR xa-

[131] Bax: Г.Сюйер. Политический доклад о большевистском движении в Азербайджане. Конфиденциальный отчет. 29.07.1920.// Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. Составитель Н.А.Максвелл. Баку, 2011, с.573

[132] M.D.Hüseynovun G.Çiçerinə notası. 30.08.1920.// ARDA, f.28,s.1, i.168, v.14

[133] Bax: M.Qasımov. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998, s.94

[134] G.Çiçerinin N.Nərimanova teleqramı. 16.08.1920.// ARPİİ SSA, f.609, s.1, i.195, v.37

[135] Azərbaycan K(b)P MK Siyasi Bürosunun iclasının 1əraı. 27.08.1920.// ARPİİ SSA, f.1, s.1, i.22, v.5

[136] M.D.Hüseynovun G.Çiçerinə teleqramı. Surəti B.Şahtaxtinskiyə və Ə.Sadıqova. 1920.// RDSSTA, f.17, s.86, i.125, v.24

rici işlər komissarının müavini M.Litvinova da birbaşa nota göndərdi. Notada bir sıra digər məsələlərlə yanaşı, Bakıda saxlanılan ingilislərin "həbs olunmuş yoldaşlarla dəyişdirilməsi" məsələsi də qaldırılırdı.[137] Sentyabr ayının 6-da Tiflisdə olan Britaniya nümayəndəsi həbsdə saxlanılan ingilis vətəndaşlarının vəziyyətlərinin yaxşılaşdırılması ilə bağlı Azərbaycan Xalq Xarici İşlər Komissarlığına müraciət etmişdi. Bu müraciətə cavab olaraq, M.D.Hüseynov bildirirdi ki, Azərbaycan hökuməti Bakıda saxlanılan Britaniya vətəndaşlarının vəziyyətinin yaxşılaşdırılması ilə bağlı zəruri olan bütün tədbirləri görmüşdür. Komissar məlumat verirdi ki, onlar "Polyak evi" deyilən xüsusi yerə köçürülmüş və ərzaq məhsulları almaq, habelə, qohum və tanışları ilə görüşmək üçün Britaniya vətəndaşlarına lazımi şərait yaradılmışdır. M.D.Hüseynov yazırdı: "Sizi maraqlandıran məsələ *(məhbusların azad olunması – C.H.)* ilə bağlı Böyük Britaniya hökuməti ilə bu mövzu ətrafında danışıqlar aparan sovet nümayəndəsi M. M.Litvinova müvafiq təlimat verilmişdir."[138]

Sentyabrın 12-də M.D.Hüseynovun Tiflisdəki Britaniya nümayəndəsi H.Luke ilə bu barədə geniş söhbəti oldu. H.Luke bildirdi ki, Azərbaycanla müharibə şəraitində olmayan Britaniya vətəndaşlarının Bakıda həbsi İngiltərənin hökumət dairələrində və əhalinin bütün təbəqələrində dərin təəssüf hissi doğurmuşdur. Eyni zamanda, H.Luke Azərbaycan hökumətinin həbs olunmuş ingilisləri İstanbulda britaniyalılar tərəfindən həbs edilib, Maltaya göndərilmiş kamalçılarla dəyişdirilməsi təklifindən təəccübləndiyini bildirdi və bu təklifin hansı mülahizələrdən irəli gəldiyi ilə maraqlandı. O, izah edirdi ki, kamalçı türklər Azərbaycan vətəndaşları deyildirlər və H.Lukenin məlumatına görə, onların içərisində yalnız bir azərbaycanlı var idı. M.D.Hüseynov bildirdi ki, Azərbaycan hökumətinin bu təklifi gərək İngiltərə nümayəndəsini təəccübləndirməsin. O, misal olaraq deyirdi ki, Azərbaycanda həbs olunmuş daşnaklar bu yaxınlarda Ermənistanda həbs olunmuş kommunistlərlə dəyişdirilmişdir. Həmin daşnaklar içərisində Ermənistan təbəələri az deyildi, kommunistlərin isə hamısı Ermənistan vətəndaşları idi. Ona görə M.D.Hüseynov əsaslandırmağa çalışdı ki, bu məsələlərə münasibətdə onların öz mülahizələri vardır və heç də vətəndaşlığı əsas kimi qəbul etmirlər.

Malta sürgünlərinin vəziyyəti ilə bağlı M.D.Hüseynovun sorğusuna cavab olaraq H. Luke dedi ki, onlar bütün günü açıq havada gəzirlər,

[137] M.D.Hüseynovun M.Litvinova notası. 28.08.1920.// ARDA, f.28,s.1, i.168, v.14

[138] M.D.Hüseynovun H.Luke məktubu. 11.09.1920.//RDSSTA, f.17, s.86, i.125, v.23

məhbuslara məktub yazmaq və məktub almaq icazəsi verilib, hətta, İngiltərə hakimiyyəti onlar üçün Maltada məscid də inşa edib. H.Luke arzu edirdi ki, həbsdə olan Britaniya vətəndaşları üçün də buna bənzər şərait yaradılsın. Bunun cavabında M.D.Hüseynov ironik formada dedi: "Təəssüf ki, bizim Malta kimi adamız yoxdur. Yoxsa, biz Bakıda həbsdə saxlanılan ingilislərə britaniyalıların Maltaya sürgün etdikləri türklər üçün yaratdığı şəraitdən daha yaxşı şərait yaradardıq və onlara daha çox azadlıq verərdik."[139] Söhbətin sonunda H. Luke Bakıda saxlanılan ingilislərin vəziyyətinin yaxşılaşdırılması ilə bağlı yazılı təkliflər verdi. Bura məhbusların senzurasız yazışmaları, onların açıq havada olma saatlarının uzadılması, Bakıda həbsdə olan keçmiş Britaniya vitse-konsulu Qevelkin xüsusi evə keçirilməsi, ailəsi ilə İrandan Bakı üzərindən İngiltərəyə hərəkət edən Britaniya vətəndaşı Qreqə öz yolunu davam etdirmək icazəsi verilməsi və sairdən ibarət idi.[140] Bu deyilənlər içərisindən M.D.Hüseynov senzurasız yazışma məsələsinə razılıq vermədi, lakin bildirdi ki, onlar Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığı vasitəsi ilə yazışmalar apara bilərlər.[141]

1920-ci ilin oktyabr ayının əvvəllərində Bakıda həbs olunmuş diplomatlarla bağlı məsələ Sovet Rusiyası ilə Britaniyanın münasibətlərində böhranlı bir vəziyyət yaratmışdı. Oktyabr ayının 2-də N.Nərimanova göndərdiyi teleqramda G.Çiçerin yazırdı ki, Bakıda həbs olunmuş diplomatlarla bağlı bizim İngiltərə hökuməti ilə daimi mübahisəmiz vardır və biz sizsiz İngiltərəyə heç bir cavab verə bilmirik. O, qeyd edirdi ki, "bu əsirlərə görə, İngiltərə ilə bütün başqa danışıqlar dayandırılmışdır...İngiltərə kamalçılar məsələsindən qəti şəkildə imtina etmişdir".[142] Oktyabr ayının 9-da eyni ilə belə bir teleqramı G.Çiçerin Bakıda saxlanılan fransız diplomatları haqqında da N.Nərimanova göndərmişdi. O yazırdı: "Fransızlar Bakıdakı fransız məhbusları barədə analoji tələb irəli sürürlər.Yaranmış bu şəraitdə daha ingilis əsirlərini həbs olunmuş kamalçılarla dəyişmək mümkün deyildir. Ölverişli məqam əldən buraxılmışdır. İngilislərin əlindəki keçmiş Rusiya imperiyasının bütün hissələrindən olan əsirləri Rusiya, Ukrayna və

[139] M.D.Hüseynovun İngilis nümayəndəsi H.Luke ilə görüş. 12.09.1920.//RDSSTA, f.17, s.86, i.125, v.22-27

[140] Tiflisdəki Britaniya missiyasının başçısı H.S.Lukenin M.D.Hüseynova məktubu. 12.09.1920.//RDSSTA, f.17, s.86, i.125, v.26

[141] Azərbaycan SSR xarici işlər komissarı M.D.Hüseynovun Tiflisdəki Britaniya nümayəndəsinə məktubu. 14.09.1920.//RDSSTA, f.17, s.86, i.186, v.25

[142] G.Çiçerinin N.Nərimanova teleqramı. 02.10.1920.// ARPİİ SSA, f.609, s.1, i.195, v.39

Azərbaycandakı ingilislərə dəyişmək olar. Bir sözlə, kollektiv dəyişmək lazımdır".[143] G.Çiçerin Britaniya nümayəndələri ilə yazışmalarda əsirlərin azad edilməsinin guya Azərbaycan hökumətindən asılı olduğunu bildirdiyi üçün, Britaniya Xarici İşlər Nazirliyi, eyni zamanda, yardım üçün Parisdəki Azərbaycan nümayəndə heyətinə müraciət etmişdi. Oktyabr ayının 10-da lord Kerzona göndərdiyi məktubda Ə.M.Topçibaşov bolşevik işğalından sonra Azərbaycanın heç bir müstəqilliyinin qalmadığı, G.Çiçerinin dediklərinin ənənəvi bolşevik uydurması olduğunu qeyd etdi. Öz növbəsində, Əli Mərdan bəy bildirdi ki, britaniyalı diplomatlarının azad edilməsinə köməklik göstərməsini özünün mənəvi borcu hesab edir və bu məqsədlə o, bir neçə dəfə Azərbaycan hökumətinin Xarici İşlər Komissarlığına teleqram göndərmişdir.[144] Bu dəstəyə görə, Britaniya Xarici İşlər Nazirliyi lord Kerzonun adından noyabr ayının 1-də Ə.M. Topçibaçova təşəkkür məktubu göndərmişdi. Eyni zamanda, məktubda həbs olunmuş Britaniya vətəndaşları ilə bağlı Sovet hökuməti ilə aparılan danışıqlara da toxunulurdu.[145] Nəhayət, uzun müzakirələrdən sonra, 1920-ci ilin oktyabrında RK(b)P MK-nın Siyasi Bürosu Bakıda həbsdə saxlanan ingilis vətəndaşlarının azad edilməsi barədə G.Çiçerinin təklifi ilə razılaşdı və Bakıya müvafiq göstərişlər verildi.[146] Sovet rəhbərliyinin razılığı alındıqdan sonra Britaniya xarici işlər naziri lord Kerzon Rusiya Xarici İşlər Komissarlığına nota göndərərək Rusiya əsirlərinin Bakıdakı ingilis diplomatlarına dəyişdirilmə vaxt barədə müvafiq dairələrə göstəriş verdiyini bildirirdi.[147] Lord Kerzonun notası ilə bağlı G.Çiçerin N.Nərimanova yazırdı: "Kerzon Britaniyanın Tiflisdəki nümayəndəsinə Rusiya əsirlərinin qaytarılacağı vaxt haqqında göstəriş verəcəkdir. Ona görə, elə etmək lazımdır ki, Bakıdakı Britaniya diplomatlarının dəyişdirilməsi ilə bu məsələ eyni vaxta düşsün".[148] Xarici diplomatların həbsindən öz maraqlarına uyğun istifadə etdikdən sonra Siyasi Büronun müvafiq qərarını əsas tutaraq G.Çiçerin oktyabr ayının sonlarında N.Nərimanova bildirirdi ki,

[143] G.Çiçerinin N.Nərimanova teleqramı. 09.10.1920.// ARPİİ SSA, f.609, s.1, i.195, v.40

[144] Ə.M.Topçıbaşovun lord Kerzona məktubu. 10.10.1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 9. CERCEC, EHESS, Paris

[145] From Foreign Office to Toptchibasheff, President of the Peace Delegation of the Azerbaijan Republic. 01.11.1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 9. CERCEC, EHESS, Paris

[146] RK(b)P MK Siyasi Bürosu iclasının 50 saylı protokolundan çıxarış. 11.10.1920.// RDSSTA, f.17, s.3, i.114, v.1

[147] Bax: M.Qasımov. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998, s.97

[148] G.Çiçerinin N.Nərimanova teleqramı. Oktyabr, 1920.// ARDA, f.28, s.1, i.71, v.154

"Bir vaxtlar bu məsələni yubatmaq Antanta hökumətləri ilə danışıqlar üçün lazım idi.İndi həmin vaxt keçmişdir. Bakıdakı ingilis və fransız əsirlərinin azad edilməsinə dair Tiflisdə ingilis və fransız nümayəndələri ilə təcili razılığa gəlmək indiki siyasi şəraitdə çox vacibdir. Sizin nümayəndənizin Tiflisə getməsi, ingilis və fransız nümayəndələri ilə təcili əlaqəyə girməsi zəruridir. Kerzonun son radiqramına görə, rus əsirləri noyabrın 5-də Misir və İstanbuldan Odessaya gətirilməlidir. Bununla eyni vaxtda Bakıdakı ingilis əsirləri Tiflisdəki ingilis nümayəndəliyinə verilməlidir".[149] Son nəticədə A.Mikoyanın planı üzrə həbs olunmuş Britaniya diplomatları az sonra, 1920-ci ilin oktyabr ayının sonunda Azərbaycan SSR hökuməti tərəfindən azad edildilər. Əlbəttə, bu məsələdə ingilis xarici işlər naziri lord Kerzonun təklifi üzrə 1920-ci ilin yanvarında Versal Ali Şurası tərəfindən de fakto tanınmış Azərbaycan Respublikasının Sovet Rusiya tərəfindən işğalına Böyük Britaniyanın rəsmi dairələrinin "təmkinli" münasibəti az rol oynamadı. Yəni, Sovet hökuməti yeni dünya qaydaları quran, Versal sistemini yaradan Qərb ölkələrinin Azərbaycanın işğalı ilə bağlı heç bir əməli addım atmadıqlarına əmin olduqdan sonra, 1920-ci ilin aprel ayının 28-dən Bakıda həbsdə saxlanılan britaniyalıları azad etdi. Hətta, Azərbaycan xarici işlər komissarı həbsdən azad olunan xaricilərin öz vətənlərinə yola salınması ilə bağlı meydana çıxan bəzi inzibati məsələləri, diplomatik sənədləşdirmələri tənzim etmək üçün Tiflisə yola düşdü. Tiflisdə Azərbaycan SSR-in Xarici işlər komissarı RSFSR-in Gürcüstandakı nümayəndəliyinin məsul əməkdaşı L.Stark və Britaniyanın Cənubi Qafqazda Ali Komissarı polkovnik Stoksla görüşüb, Britaniya diplomatlarının rus əsirlərinə dəyişdirilməsi barədə protokol imzaladılar. Protokola görə, Bakıda həbsdən azad edilmiş 62 nəfər Britaniya vətəndaşları Tiflisə gətirilməli idilər.[150] Noyabr ayının 5-də Bakıda həbsdən azad edilmiş xarici diplomatlar Tiflisə göndərildi və onlar Azərbaycan Xarici işlər komissarının iştirakı ilə Gürcüstandakı ingilis və fransız nümayəndələrinə təhvil verildilər. Noyabr ayının 3-də N.Nərimanov xarici diplomatların azad edilməsi haqqında Fransa hökumətinə məlumat göndərdi.[151] Həmin dövrdə Bakıda olan Stalin də öz növbəsində G.Çiçerinə məlumat verirdi ki, "burada heç kim ingilislərin azad olunmasına qarşı israrlı şəkildə etiraz etmir. Lakin mənə qəribə gəlir ki, ingilisləri qorxutmaq üçün sizin əlinizdə onların bakılıların güllələnməsini *(26 Bakı komissarlarının*

[149] G.Çiçerinin N.Nərimanova teleqramı. 02.10.1920.// ARPİİ SSA, f.609, s.1, i.63, v.12

[150] Документы внешней политики СССР. М., 1959, т.III, с.313

[151] Bax: M.Qasımov. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998, s.99-100

güllələnməsi nəzərdə tutulur – C.H.) həyata keçirmələri haqqında dəhşətli material olduğu halda, siz ingilis casuslarının sadəcə olaraq saxlanması üçün bizim əleyhimizə təşviqat aparırsınız".[152] 1920-ci ilin payızında Bakıda həbs olunmuş xarici diplomatların azad edilməsi Sovet Azərbaycanını getdikcə dərinləşən böyük bir beynəlxalq qalmaqaldan xilas etdi.

Beləliklə, müstəqilliyi Paris Sülh konfransı tərəfindən tanınmış Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində iştirakı aprel işğalı ilə sona çatdı. Aprel işğalından sonra keçən az müddət "Müstəqil Sovet Azərbaycanı şüarı"nın yalnız deklarasiyadan ibarət olduğunu ortaya qoydu. Sovetləşməyə qarşı xalqın müqaviməti "inqilabi metodlar"adı altında qan içərisində boğuldu. 1920-ci ilin mayında başlanmış Gəncə üsyanı bunun aydın təzahürü idi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə siyasi proseslərə qoşulmuş on minlərlə vətənpərvər bolşevik süngüsündən keçirildi. Azərbaycan yenidən Rusiya tərəfindən işğal olundu və Xalq Cümhuriyyəti tərfindən əsası qoyulmuş milli dövlətçilik atributları birbirinin ardınca itirilməyə başladı. Azərbaycanın ərazi bütövlüyü aprel işğalının ilk günlərindən başlayaraq, şübhə altına alınmağa başladı. XI Qırmızı Ordu tərəfindən işğal edilən Azərbaycan əraziləri Sovet Rusiyası tərəfindən alver predmetinə çevrildi və az sonra Azərbaycan üçün faciəli nəticələr verdi. Aprel çevrilişindən sonrakı ilk aylarda Azərbaycanın daxili və beynəlxalq vəziyyətinin məntiqi yekunu M.Ə.Rəsulzadənin dili ilə desək, müstəqil Azərbaycanın yadların əlinə keçməsindən ibarət idi.

[152] İ.Stalinin G.Çiçerinə teleqramı. 07.11.1920.// RDSSTA, f.558, s.1, i.1989, v.1

II FƏSİL

SOVET RUSİYASININ ŞƏRQ SİYASƏTİ VƏ AZƏRBAYCAN

§1. Bolşeviklərin Gilan epopeyası və Azərbaycan

Azərbaycanın işğalı ilə yanaşı, 1920-ci ildə İranın şimalının bolşevikləşdirilməsi sovetlərin şərq siyasətində mühüm yer tuturdu. Bu məqsədlə hələ 1920-ci ilin yanvarında hazırlıq işləri görülməyə başlanmışdı. Əslində, Azərbaycanın işğalına bolşeviklər şərqə doğru genişlənmənin başlanğıcı kimi baxır və ona görə də, Bakının tutulması bütövlükdə şərqin fəth edilməsinin dayaq nöqtəsi kimi qiymətləndirilirdi. Xüsusilə, Qərbdə başlamış inqilabların uğursuzluqları və Avropada sosialist ideyasının məğlubiyyəti sovet siyasətində Şərqin önəmini daha da artırırdı. Almaniya, Macarıstan, Finlandiya, Avstriya və digər ölkələrdə inqilabların məğlubiyyətindən sonra bolşeviklər belə bir fikrə gəldilər ki, Avropada itirdiklərini Asiyada, ilk öncə, Yaxın və Orta Şərqdə sosialist inqilablarına təkan verməklə əvəzləsinlər. Bu baxımdan, bolşevik təliminin yayılması üçün İran və Türkiyə getdikcə əlverişli təcrübə məkanına çevirirdi. Hələ 1919-cu ilin yanvarında Həştərxanda keçirilən türk vətəndaşlarının və keçmiş hərbi əsirlərinin kommunist özəklərinin I qurultayındakı "Oktyabr inqilabının Şərq proletariatına təsiri" adlı məruzəsində N.Nərimanov deyirdi: "Əgər siz bədbəxt türk proletariatını məhv olmaqdan və kölələk təhlükəsindən xilas etmək istəyirsinizsə, Türkiyədə sosial inqilab təşkil edin və onu alovlandırın".[1]

Bolşevik eksperimentləri üçün İranın şimalının, xüsusilə, Xəzərin cənubunda yerləşən Gilan vilayətinin seçilməsi təsadüfü deyildi. 1907-ci ilin avqustunda imzalanmış ingilis-rus sazişindən sonra Rusiya təsir dairəsinə

[1] N.Nərimanov. Oktyabr inqilabının Şərq proletariatına təsiri. 07.01.1919.// RDSSTA, f.17, s.2, i.12, v.130

düşən ərazilərdə, ilk növbədə isə, Xəzər dənizinin İran sahillərindəki liman şəhərlərində rus təsiri güclənmiş, Birinci Dünya müharibəsi illərində bu vilayətlər Rusiya İmperiyası üçün strateji əhəmiyyət kəsb etməyə başlamışdı. Lakin müharibənin sonuna doğru imperiyanın zəifləməsi İranın şimalında dislokasiya olmuş rus kazak alaylarının da nizamını pozmuş, həmin alaylar tədricən rəsmi müstəmləkəçi ordudan başıpozuq hərbi birləşmələrə çevrilmişdi. Birinci Dünya müharibəsinin sonunda Bakıya doğru can atan ingilislərin Gilanda möhkəmlənməsi və Ənzəli limanı vasitəsi ilə Xəzər dənizinə nəzarət etmək cəhdləri siyasi, hərbi və diplomatik baxımdan bu vilayətlərin önəmini daha da artırmışdı.

1918-ci ildə Bakı bolşevik hökumətinin yıxılması, rus kazak alaylarının tədricən İranı tərk etməsi və Həştərxan istisna olmaqla, Xəzər dənizi hövzəsində Sovet Rusiyasının təsirinin zəifləməsi Gilanın bütövlükdə ingilislərin əlinə keçməsi ilə nəticələnmişdi. 1920-ci ilin əvvəllərində Denikin və digər ağqvardiyaçı generalların məğlubiyyəti, bolşevik həmlələri altında Cənuba doğru geri çəkilən Denikin donanmasının Ənzəliyə sığınması və Sovet Rusiyası ilə İran arasında təbii sədd funksiyasını yerinə yetirən Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsi Xəzərin cənubunda yerləşən Gilan vilayətini və bütövlükdə İranın şimalını bolşevik ekspansiyasının hədəfinə çevirdi. Cənubi Azərbaycanda genişlənən Xiyabani və Gilanda yayılan Cəngəli hərəkatlarının anti-ingilis xarakteri bolşeviklərin İranın şimalında fəaliyyəti üçün əlverişli şərait yaradırdı.[2]

Sovet Rusiyasının İran siyasətində yeni sovetləşmiş Azərbaycan mühüm yer tuturdu. Əslində, bolşevik Rusiyasının İranın şimalına ekspansiya niyyətləri Azərbaycanın işğalı planları ilə eyni vaxta təsadüf edirdi. Dünya birliyi tərəfindən de fakto tanınmış Azərbaycanın işğalına 1920-ci ilin martında qərar verildikdən sonra, "Ənzəli əməliyyatı" da sovetlərin strateji planlarına daxil edildi. Dünya sosialist inqilabının səngərlərinin Qərbdən Şərqə keçməsi Rusiya imperiyasının müsəlman xalqlarının qırmızı ekspansiyada rolunu və əhəmiyyətini daha da artırırdı. Hələ 1919-cu ilin mayında bolşevik mətbuatı rus proletariatının, məhz, "müsəlman zəhmətkeşləri" ilə əl-ələ verib İranı, Hindistanı, Əfqanıstanı və digər Şərq ölkələrini azad

[2] Əlavə məlumat üçün bax: Kuroda Takashi. A Glance into the Relation between Iran and Soviet Union in the Last period of the Jangali Movement: Presentation of the related Russian Documents.// Cultures and Historiography in Central Rurasia: Nations, Ethnicities and Societies. Sendai, 2003, p.95-104

edəcəyini bəyan edirdi.[3] Bu baxımdan İranın sovetləşdirilməsində və Gilana inqilab ixracında yeni işğal edilən Azərbaycan başlıca dayaq nöqtəsi idi.

Əslində, sovet Azərbaycanı və onun yeni lideri N.Nərimanov strateji baxımdan sosialist inqilabının İrana və Türkiyəyə yayılmasında müstəsna dərəcədə maraqlı idi. Bolşevik inqilabının Şərq cəbhəsi, onun uğurları və uğursuzluğu N.Nərimanov üçün siyasi tale məsələsi idi. Bir tərəfdən Rusiya Xalq Xarici İşlər Komissarlığında məsul vəzifələrdə çalışarkən bolşevik inqilabının qərbdən şərqə transfer etməsinin əsas təşəbbüsçülərindən biri, məhz, N.Nərimanov idi və Şərq məsələsi ətrafında hələ Moskvada işləyərkən, o, G.Çiçerin, L.Karaxan və digər nüfuzlu şəxslərlə kəskin ixtilaflara girmişdi. Məsələn, G.Çiçerinin fikrincə, Sovetlərin Şərqdə siyasəti Qərblə sazişdən asılı olmalı idi. Bunun əksinə olaraq, N.Nərimanov qərblə sazişin perspektivlərinə, xüsusilə, Avropada sosialist inqilablarının məğlubiyyətindən sonra bu sazişin hansısa bir uğur gətirəcəyinə o qədər də inanmırdı. O, belə hesab edirdi ki, ümumdünya inqilabının magistral yolu İran və Türkiyədəki azadlıq hərəkatından keçməlidir. N.Nərimanov Antantanın, ilk növbədə isə, İngiltərənin, məhz, türk boğazlarında və Hindistanın qapısında (İranda və Əfqanıstanda) diz çökdürülməsini, Qərbdəki hədəflərə Şərq vasitəsi ilə gedilməsini vacib sayırdı.[4] Şərqdən İngiltərənin çıxarılması işinə isə Nərimanov məhz, İrandan başlanılmasını təkid edirdi və İran məsələsi üzrə "gizli komissiyanın" yaradılması təklifi də ona məxsus idi. Bu komissiyanın idarə olunması məsələsində N.Nərimanov G.Çiçerininlə açıq qarşıdurmaya getməkdən belə çəkinməmişdi.[5] "Şərq vasitəsi ilə Qərbə doğru" ideyası ömrünün sonuna qədər N.Nərimanovla Mərkəz arasında ziddiyyətli məsələ olaraq qaldı.

Digər tərəfdən, tək Azərbaycanının yeni formalaşacaq sovet-sosialist coğrafiyasında yerini deyil, eyni zamanda, öz siyasi taleyini də N.Nərimanov Şərqin bolşevikləşməsində görürdü. O, yaxşı başa düşürdü ki, inqilabi cəbhənin Qərbdən Şərqə keçməsi, Azərbaycanı formalaşmasına cəhd göstərilən yeni dünyanın mərkəzi ölkələrindən birinə, onun özünü isə həmin dünyanın siyasi liderinə çevirə bilər. N.Nərimanov və onun rəhbərlik etdiyi "milli kommunist" düşərgə, hətta, Cənubi Azərbaycan

[3] Bax: Жизнь национальностей, 1919, 25 мая

[4] N.Nərimanov. Uçqarlarda inqilabımızın tarixinə dair.(İ.V.Stalinə məktub).// RDSSTA, f.588, s.2, i.176, v.37

[5] G.Çiçerinin RK(b)P MK-nın Siyasi Bürosuna məktubu. 12.11.1921.// RDSSTA, f.17, s.84, i.103, v.3

məsələsinin bu prosesdə həll olunacağını istisna etmirdilər.[6] Şübhəsiz ki, N.Nərimanovun şəxsi iddiaları və xüsusilə, "Şərqin Lenini" olmaq arzusu da bu işdə müəyyən rol oynayırdı. Bir sözlə, yeni açılan inqilab cəbhəsinin səngərləri Azərbaycandan keçirdi və N.Nərimanov bu cəbhədə həlledici söz sahibi olmaq, Şərqə inqilabın yayılmasına rəhbərlik etmək fikrində idi. Lakin G.Çiçerin başda olmaqla, Sovet Rusiyası XXİK onun nüfuzundan ehtiyat edərək, gizli şəkildə hazırlanan "İran inqilabını" müxtəlif vasitələrlə Nərimanovun nəzarətindən kənarda saxlamağa çalışırdılar. İranda inqilabı hazırlayacaq "Ədalət" partiyasının Türküstan diyar komitəsinin 1920-ci ilin aprel ayının əvvəllərində Daşkənddə partiya konfransı keçirib, N.Nərimanovun razılığı olmadan rəhbərliyi formalaşdırması bunun acıq təzahürü idi. Məsələnin belə qoyuluşu ilə razılaşmayan Nərimanov öz adamı sayılan "sınanmış köhnə İran inqilabçısı" Heydər xan Əmioğlunu Türküstana ezam etdi və Heydər xan acıq şəkildə Türküstan "ədalətçilərinə" bəyan etdi ki, Trotski Rusiyada kimdirsə, o, da İranda həmin funksiyanı yerinə yetirəcəkdir, yəni, İran inqilabının hərbi rəhbəri, məhz o, olacaqdır.[7]

1920-ci ilin yazında iki cəbhədə - Qafqazda və Türküstanda İran ərazisində fəaliyyət göstərəcək, inqilabi ordunun formalaşdırılması işinə başlandı. Qafqazda formal olaraq, bu işi Azərbaycan rəhbərliyi təşkil etməli idi. Lakin İran inqilabına yardım adı ilə Sovet Rusiyasının müvafiq dairələri bu məsələdən bolşevik işğalı fonunda siyasi oriyentasiyasına şübhə ilə yanaşdığı Azərbaycan ordusunu ölkədən uzaqlaşdırmaq məqamı kimi istifadə etməyə cəhd göstərirdi. G.Çiçerin 1920-ci ilin iyununda V.Leninin adına hazırladığı yaddaş məktubunda bu fikri artıq bir ideya kimi irəli sürmüşdü.[8] Digər tərəfdən, sovet Azərbaycanının adından İrana ordu göndərilməsi diplomatik mülahizələr baxımından Sovet Rusiyasına lazım idi. Beynəlxalq təzyiqlər fonunda Sovet Rusiyası İrana müdaxilənin onun tərəfindən deyil, məhz, Azərbaycan SSR tərəfindən həyata keçirildiyini iddia etməklə Qərbi narahat edən inqilab ixracının məsuliyyətindən yaxa qurtarmaq fikrində idi. Ona görə də, Gilana müdaxilənin başlanğıcında Sovet Rusiyasının XXİK-ın təklifi əsasına RK(b)P MK Siyasi Bürosu bolşeviklər tərəfindən may ayında

[6] Qorobçenko, Moroz, Jukov – Azərbaycan K(b)P MK-ya, yoldaş Dövlətova. Ə.Əhmədovun ifadəsi. 27.04.1928. // ARPİİ SSA, f.12, s..1, i.152, v.24-25.

[7] В.Генис. Красная Персия. Большевики в Гиляне. 1920-1921. Москва, 2000, с.124

[8] G.Çiçerinin V.Leninin adına yazdığı yaddaş məktubunun surəti. 29.06.1920. //ARPİİ SSA, f.1, s.1, i.2a, v.13

işğal olunmuş Ənzəlidə sovet donanmasını Azərbaycan bayrağı altında saxlamağa qərar verdi.[9]

Ənzəliyə hücum əməliyyatı hazırlanan vaxt, may ayının 14-də İran hökuməti Sovet Rusiyasına nota ilə müraciət etmişdi. Notanın birinci cümləsində birdirilirdi ki, İran hökuməti Azərbaycanı müstəqil dövlət kimi tanıyır və Azərbaycan sovet hökuməti, habelə, Sovet Rusiyasi ilə tezliklə müqavilə bağlamağa cəhd göstərir. Bu məqsədlə Tehrandan bir misiiyanın Bakıya, digər bir missiyanın Moskvaya yola düşdüyü bildirilirdi. Notada deyilirdi: "Azərbaycan Sovet Respublikasının elan olunması haqqında dekret İran hökumətində və İran xalqında böyük sevinc yaratmışdır. Bu dekret belə fikri bir daha təsdiq edir ki, sovet hökuməti həqiqətən kiçik xalqların azad olunmasına və onların hüquqlarının bərpa edilməsinə can atır. Ona görə, İran hökuməti dərindən inanır ki, sovet hökuməti İranın müstəqilliyi və oktyabr cevrilişinə qədər İranla imzalanmış müqavilələrin ləğv edilməsi haqqında 1918-ci ildə elan etdiyi dekreti dönmədən həyata keçirəcəkdir. Rusiya və İran arasında münasibətlərin yaxşılığa doğru dəyişəcəyi gözlənildiyi halda, əksinə olaraq, yollar bağlanmışdır. Fikirləşmək olar ki, bunun səbəbi İran sularına yollanmış gəmilərin taleyindən Azərbaycan və Rusiya sovet hökumətlərinin ehtiyatlanması ilə bağlıdır. İran hökuməti rus və Azərbaycan bayraqları altinda üzən gəmilərin Rusiya və Azərbaycan limanlarına maneəsiz qaytarılmasına təminat verir."[10] Eyni zamanda, notada İran hökuməti Azərbaycan Xalq Cümhuriyyəti ilə imzalanmış müqavilələrə Sovet Azərbaycanının münasibətini bilmək istəyirdi. Notada soruşulurdu: "Yuxarıda xatırladılan 1918-ci ildə verilmiş dekreti nəzərə alaraq, İran hökuməti bir vaxtlar Azərbaycan, Ermənistan və Gürcüstan respublikaları ilə müqavilələr imzalamışdı. Lakin hakimiyyət dəyişikliyi danışıqların gedişini dayandırdı, ona görə, İran hökuməti bilmək istəyir ki, Azərbaycan sovet hökuməti müsəlman hökuməti *(AXC hökuməti nəzərdə tutulur – C.H.)* tərəfindən imzalanmış və təsdiq edimiş həmin müqavilələri tanıyırmı, Azərbaycan sovet hökuməti həmin müqavilələrin tətbiqi ilə razıdırmı?"[11]

[9] RK(b)P MK Siyasi Bürosu iclasının 15 sayli protokolundan çıxarış. Şərq siyasəti haqqında. İran haqqında. 25.05.1920.// ARPİİ SSA, f.1, s.1, i.2a, v.8

[10] İran hökumətinin RSFSR hökumətinə notası. 14.05.1920.// RDSSTA, f.17, s.109, i.100, v.1

[11] Yenə orada, v.2; 1920-ci ilin martında İranla – Azərbaycan arasında imzalanmış sənədlər içərisindən konsulluq haqqında saziş Sovet hakimiyyətinin ilk aylarında müvəqqəti olaraq işləyirdi, bax: Louis Nettement. Le Consul de France à Son Excellence Monsieur Millerand, Président du Conseil et Ministre des Affaires Etrangères à Paris. Convention Consulaire conclue entre l'Azerbaïdjan et la Perse. Le 15 mai 1920.// Ministère des Affaires Etrangère de

Lakin bu nota Moskvaya çatan gün, mayın 18-də səhər artıq Ənzəli sovet qırmızı donanmasının gəmiləri tərəfindən bombardman edilməyə başlamışdı. Mayın 23-də G.Çiçerin İran tərəfinin notasına çavabında Azərbaycan SSR və RSFSR-ın İranla diplomatik münasibətlər yaratmasına müsbət yanaşsa da, lakin İran ərazilərinin Sovet ordusu tərəfindən işğalı faktından müxtəlif vasitələrlə yayınmağa cəhd göstərirdi. O, əsaslandırmağa çalışırdı ki, Ənzəli əməliyyatı Mərkəzi hakimiyyətin təlimatı olmadan hərbi komandanlığın həyata geçirdiyi bir aksiyadır və yalnız əməliyyat başa çatandan sonra Rusiya Sovet hokuməti onun haqqında məlumatlandırılmışdır.[12] 20-ci illərdə Azərbaycan - Rusiya münasibətləri haqqında maraqlı monoqrafiyanın müəllifi olan R. Mustafazadə haqlı olaraq qeyd edir ki, İrana münasibətdə Çiçerin bütövlükdə özünün məşhur "diplomatik tanıma hələ hökumətin tanınması demək deyildir" müddəasını gerçəkləşdirməyə çalışırdı. Bu ideyanı ilk dəfə o, 1920-ci ilin yanvar-mart aylarında demokratik Azərbaycana münasibətdə tətbiq etməyi təklif etmişdi.[13]

Bolşeviklər qısa müddətdə Ənzəlinin və Xəzər dənizinin İran sahillərini ələ keçirilməsindən xeyli dərəcədə ruhlanmışdılar. Əvvəlcə may ayının 18-də Bakıdan İrana doğru hərəkət edən F.Raskolnikov başda olmaqla, Azərbaycan və Rusiya qırmızı donanması strateji baxımdan Denikin ordusuna məxsus gəmiləri, silah və sursatı geri qaytarmaq adı altında hərbi əməliyyatlara başlamışdısa, tezliklə hadisələr İranın dəniz sahili ərazilərinin işğalı ilə müşayiət olunmağa başladı. Qırmızı donanmanın Ənzəliyə hücumu ilə eyni vaxtda Lənkəran istiqamətindən İran sərhədlərinə daxil olan atlı sovet diviziyası İran Astarasını tutub, Ənzəli limanına doğru hərəkət etdi. May ayının 20-də G.Çiçerin sovet ordusunun İranın daxili işinə qarışmaq niyyətinin olmadığını və bu ordunun ağ qvardiyaçı donanmanın əmlakı üçün Ənzəliyə gəldiyini bəyan etsə də, bir gün sonra həmin orduya komandanlıq edən F.Raskolnikov nəzərdə tutulan hərbi əmlak qaytarıldıqdan sonra da sovet donanmasının Ənzəlidə qalacağını bəyan etdi.[14] F.Raskolnikov V.Leninə göndərdiyi teleqramda göstərirdi ki, Xəzər dənizində hərbi cəhətdən qarşıda duran vəzifə artıq yerinə yetirilmişdir.[15] Ənzəlinin işğalından sonra "Pravda" qəzeti təntənəli şəkildə elan etdi ki, Xəzər dənizi artıq sovet dənizidir.[16] Ənzəli tutulduqdan sonra oradan Rusiya əmlakı hesab edilən 23 gəmi, 50 top, 20 min mərmi və digər hərbi ləvazimat Bakı limanına qaytarılmışdı. Ənzəlinin işğal olunması xəbəri alan kimi, Azərbaycan İnqilab Komitəsi F.Raskolnikova təbrik teleqramı göndərdi. Orada deyilirdi: "Azərbaycan SSR-in İnqilab Komitəsi Ənzəlinin Qırmızı donanma tərəfindən tutulması xəbərini mayın 19-da keçirdiyi iclas zamanı aldı. Sizin simanızda İranın və bütün Şərqin zəhmətkeşlərini köləlik zəncirindən azad edən qəhrəman qırmızı dənizçiləri salamlayırıq".[17] Ənzəli işğal olunan kimi, Azərbaycan İnqilab Komitəsi may ayında iclas çağırıb, keçmiş Könüllü Ordunun oraya apardığı əmlakın qaytarılması və Bakı tacirlərinə məxsus yüklərin geri alınması barədə qərar qəbul etdi.[18] Əslində, Ənzəlinin işğalı Sovet Rusiyasının Azərbaycandan başlayan Şərqə yürüşünün hərbi cəhətdən bilavasitə davamı idi. Bakının işğalı ilə Ənzəli əməliyyatı arasında vur-tut 20 gün zaman fasiləsi var idi. Azərbaycanın cənubuna doğru hərəkət edib, İran sərhədlərinə yetişən Qırmızı ordu Lənkəran qəzasından bilavasitə İran Astarasına daxil olmuş, Ənzəli və Ərdəbil istiqamətlərində hərbi əməliyyatlara başlamışdı.[19]

Ənzəlinin işğal olunması ilə eyni vaxtda Cənubi Azərbaycanda aprel ayının 7-də başlamış Təbriz üsyanı tədricən ətraf ərazilərə yayılmağa başlamış və Şeyx Məhəmməd Xiyabaninin rəhbərlik etdiyi hərəkat əməli cəhətdən antiingilis xarakteri almağa başlamışdı. May ayının 23-də Q.Orconikidze Moskvanı məlumatlandırır və təlimat tələb edirdi. O yazırdı: "Müsəlman hissələri tərəfindən Ərdəbil tutulmuşdur. Heç bir çətinlik olmadan biz bütün İran Azərbaycanını - Təbrizi alt-üst edə bilərik. Hərtərəfli hərəkət etməkdən ehtiyatlanırıq. Tərəddüdlü vəziyyət yaranıb, yenə bizi məzəmmət edəcəklər, ona görə, xahiş edirəm, dərhal cavab verin. Mənim fikrimcə, Kuçek xanın və İran kommunistlərinin köməyi ilə Sovet hakimiyyəti uğrunda mübarizəyə başlamaq və ingilisləri qovmaq lazımdır. Bu bütün Yaxın Şərqdə böyük

France, Archives Diplomatique, vol. 639, folio 43

[12] Документы внешней политики СССР. М., 1953, т.II, с.542-543

[13] Р.Мустафа-заде. Две республике, с.277

[14] F.Raskolnikovun L.Trotski və V.Leninə teleqramı. 22.05.1920.// RDSSTA, f.562, s.1, i.21, v.1

[15] М.А.Персиц. Застенчивая интервенция. О советском вторжении в Иран и Бухару в 1920-1921 гг. Москва, 1999, с.96

[16] Правда, 1920, 23 мая

[17] Azərbaycan SSR İnqilab komitəsinin F.Raskolnikova teleqramı. 20.05.1920.// RDSSTA, f.562, s.1, i.21, v. 51

[18] Bax: Azərbaycan Xalq Komissarları Soveti Rəyasət Heyəti iclasının protokolu. May, 1920.// ARPII SSA, f.1, s.45, i.210, v.101

[19] Le Gérant du Consulat de France à Tauris à M.Millerand Ministre des Affaires Etrangères. A. s. situation générale en Azerbaïdjan. Le 10 mai 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 33

təəssürat yaradacaqdır. Zahiri baxımdan hər şey tamamilə ədəbli formada ediləcəkdir".[20]

May ayının 25-də RK(b)P MK Siyasi Bürosu Q.Orconikidzenin müraciətinə və F.Raskolnikovun Ənzəlinin tutulması, habelə, Gilanda yaranmış inqilabi şərait haqqında məlumatlarına əsasən, "Şərq siyasəti haqqında" məsələni müzakirə etdi. Müzakirənin yekunu olaraq, qəbul edilmiş "İran haqqında" qərarda Şərq xalqlarının azadlıq hərəkatına yardım göstərilməsi barədə Xarici İşlər Komissarlığı tərəfindən təklif edilən ümumi siyasət bəyənildi. Qərara görə, F.Raskolnikova tapşırıldı ki, əlində olan müxtəlif vasitələrlə, təlimatçılar ayırmaqla və digər yollarla Kuçek xana zəruri olan yardımı göstərsin, sovet hissələrinin əlində olan Ənzəli və İranın digər məntəqələri onun idarəçiliyinə verilsin, həmin məntəqələrdə donanma yığışdırılsın və bəyan edilsin ki, bütün bunlar İranın daxili işlərinə heç bir halda qarışmaq istəməyən Sovet hökumətinin sərəncamı ilə edilir. Qərarın sonuncu hissəsində göstərilirdi ki, Kuçek xana daimi yardım üçün zəruri sayda olmaqla, gəmilərin bir hissəsi polis xidməti adı altında Ənzəlidə saxlanılsın, lakin Azərbaycan bayrağı altında.[21]

RK(b)P MK Siyasi bürosunun iclasından bir gün sonra may ayının 26-da İran siyasəti ilə bağlı Sovet hökumətinin direktivləri L.Trotskinin F.Raskolnikova teleqramında və may ayının 30-da L.Karaxanın Raskolnikova və Orconikidzeyə teleqramında daha aydın ifadə edilirdi. L.Trotski hərbi qaydada tərtib olunmuş direktivlərdə göstərirdi ki, Rusiya bayrağı, rus ekspedisiya korpusu adı altında hər hansı hərbi müdaxiləyə yol verilməsin, Moskvanın tələbi əsasında rus ordusunun və qırmızı donanmanın Ənzəlidən yığışdırılmasına birbaşa istinad edərək, bizim İranın daxili işlərinə müdaxilə etmədiyimizi bütün tərəfləri ilə qeyd edərək işğala can atdığımıza şübhə yeri qoymaq lazım deyildir. Bununla belə, Trotiski qeyd edirdi ki, Kuçek xana və bütövlükdə İran xalq azadlıq hərəkatına bütün vasitələrlə - könüllü təlimatçılar, pul və digər yollarla, bizim hazırda tutduğumuz əraziləri Kuçek xanın tabeçiliyinə verməklə ona yardım göstərmək lazımdır. Əgər Kuçek xanın mübarizəsinin sonrakı uğurları üçün hərbi gəmilərin iştirakı zəruridirsə, bunu gəmilərin üzərinə Azərbaycan respublikasının bayraqlarını sancmaqla etmək və Azərbaycanın adından Kuçek xana *(əsl adı Yunus idi, Azərbaycan*

[20] Q.Orconikidzenin Leninə, Stalinə, Çiçerinə teleqramı. 23.05.1920.// RDSSTA, f.85, s.2, i.38, v. 2-3.

[21] RK(b)P MK Siyasi Bürosunun iclasının 15 sayli protokolu. Şərq siyasəti haqqında. 25.05.1920.// RDSSTA, f.17, s.3, i.83, v.1

ədəbiyyatında o, Kiçik xan kimi tanınır – C.H.) kömək göstərmək lazımdır. RK(b)P MK Siyasi Bürosunun tapşırığına əsasən, belə köməyi L.Trotski İranda geniş sovet təşkilatları yaratmaqla etməyi vacib sayırdı. Ən nəhayət, İranın və bütövlükdə Şərqin daxili işlərinə sovetlərin müdaxilə etmədiyinə İngiltərə hakim dairələrinin inandırılmasını və onlara bu istiqamətdə təminat verilməsini L.Trotski zəruri sayırdı.[22] L.Karaxanın İranın sovetləşdirilməsi siyasətində ehtiyatlı olmağı özündə ehtiva edən teleqramı da təxminən bu məzmunda idi. Lakin bununla yanaşı, L.Karaxan tövsiyə edirdi ki, İranın sovetləşdirilməsi müstəsna dərəcədə ehtiyatlılıq tələb edir. O, xəbərdarlıq edirdi ki, Ənzəli, Rəşt və Azərbaycanla sərhəd rayonlarda yaşayan iranlıların əhval-ruhiyyəsinə əsasən, bütün İran haqqında mühakimə yürütmək olmaz. L.Karaxan Kuçek xanın, İran kommunistlərinin və digər demokratik qrupların səylərinin İngiltərəyə qarşı mübarizədə birləşdirilməsini mühüm hesab edirdi. XXİK-ın müavini İranda dövlət-inzibati aparatının sovetlər tipində olmasına, Sovet hökuməti formasında yeni hakimiyyətin qurulmasına etiraz etmirdi. Lakin onun fikrincə, bu sosial məzmun etibarı ilə bir qədər fərqli olmalı və zəhmətkeşlərin, burjua elementləri də daxil olmaqla, daha geniş dairəsini əhatə etməli, məhz, bu yolla ingilislərin İrandan qovulmasını özündə ehtiva edən milli vəzifəni yerinə yetirməli idi.[23]

May ayının sonlarında Mirzə Kuçek xanla keçirilən bir sıra görüşlərdə, xüsusilə, Q.Orconikidze və F.Raskolnikovun mayın 27-də onunla keçirdikləri gizli görüşdə sovet nümayəndələri qırmızı ordunun və bolşevik donanmasının müxtəlif adlar altında Gilanda qalmasına razılıq ala bildilər. Onlar Mirzə Kuçek xanı inandırdılar ki, yaxın vaxtlarda Bakıdan zirehli maşın, aeroplan, digər silah və sursatdan ibarət böyük kömək gələcəkdir. Şübhəsiz ki, bütün bu vədlər və xüsusilə, sovet qoşunları tərəfindən işğal olunmuş Ənzəli və Rəşt kimi, şəhərlərin Cəngəli hərəkatının rəhbərinə verilməsi onda sovetlərə münasibətdə böyük təəssürat yaratmışdı. İyunun 4-də məhz, bu inqilabi pafosun təəssüratının təsiri altında Mirzə Kuçek xan Rəştdə mitinqçilərin qarşısında Sovet Rusiyasının azadlıq missiyasından ağızdolusu danışmağa başladı. Partiya qərarlarına görə, Bakıya qayıtmalı olan sovet ordusu indi Kuçek xanla birlikdə İranın yaxın şəhərlərinin tutulmasında fəal iştirak edirdi. Rəşt alındıqdan sonra Bakıya göndərdiyi teleqramda sovet nümayəndələri

[22] L.Trotskinin F.Raskolnikova direktivi. 26.05.1920.// RDSSTA, f.562, s.1, i.21, v.10-12

[23] L.Karaxanın F.Raskolnikov və Q.Oriconikidzeyə teleqramı. 30.05.1920.// RDSSTA, f.562, s.1, i.21, v.17

xahiş edirdilər ki, yubanmadan Gilana silahlı canlı qüvvə, zirehli maşınlar, aeroplanlar və digər zəruri döyüş sursatı göndərilsin.[24]

Gilandakı sovet ordusunun rəsmən geri çağırılması haqqında məlumat elan edilsə də, Bakıdan, Həştərxandan və Krasnovodskdan göndərilən hərbi dəstələr hesabına təxminən 5 min nəfərdən ibarət İran qırmızı ordusunun formalaşdırılması prosesinə başlanıldı.[25] İlk dövrlərdə bu orduya Kuçek xanın yaxın adamı sayılan Ehsanulla xan rəhbərlik etsə də, lakin tezliklə İran qırmızı ordusunun komandanlığı XI ordunun qərargahına tabe edildi və bolşeviklər ora öz adamları sayılan keçmiş çar polkovniki və Azərbaycan Xalq Cümhuriyyəti ordusunun generalı Vasili (Şapur) Karqaretelini komandan göndərdilər. Şübhəsiz ki, bu inamsızlıq Mirzə Kuçek xanın, hərbi məsələlərdə onun yaxın adamları sayılan Ehsanulla xanın və Xalu Qurbanın diqqətindən yayınmadı. Ilk dövrlərdə onlar öz hərbi dəstələrinin müstəqilliyini qoruyub saxlaya bildilər.

Lakin qırmızı ordunun Gilanda uğurlu hərbi əməliyyatlarına baxmayaraq, Sovetlər İranda hadisələrin gedişinin ciddi beynəlxalq mübahisələrə gətirib çıxaracağından ehtiyatlanırdılar. İyun ayının 4-də L.Trotskinin V.Lenin, G.Çiçerin, L.Kamenev, N.Krestinski və N.Buxarinə göndərdiyi teleqram bunun aydın təzahürü idi. Trotski xəbərdarlıq edirdi ki, Xivə, İran, Buxara və Əfqanıstanda vəziyyət haqqında bütün məlumatlar onu göstərir ki, indiki anda bu ölkələrdə sovet çevrilişləri bizim üçün böyük çətinliklər yaradar. Rusiya ilə keçmiş əlaqələri və neft sənayesi olmasına baxmayaraq, hətta, Azərbaycanda sovet hakimiyyəti öz ayaqları üzərində dayana bilmir. Qərbdə vəziyyət möhkəmlənənə qədər və bizim sənaye və nəqliyyatda vəziyyətimiz düzələnə qədər Şərqə yürüş daha təhlükəlidir, nəinki, Qərbdə müharibə.[26] L.Trotskinin belə ehtiyatlı xəbərdarlığına baxmayaraq, iyun ayının 4-dən 5-nə kecən axşam Gilanda Mirzə Kuçek xanın rəhbərliyi ilə İran Müvəqqəti İnqilabi hökuməti və İran Hərbi İnqilabi Şurası yaradıldı. Kuçek xanın tərəfdarları ilə yanaşı Şuraya Gilanda inqilabi hərəkatda iştirak etmək üçün İran vətəndaşlığını qəbul etmiş iki sovet nümayəndəsi də (İ.Kojanov və B.Abukov) daxil edildi. İvan Kojanov İran vətəndaşlığına

[24] İvan (Ərdəşir) Kojanovun Bakıya, Q.Orconikidzeyə radiqramı. 04.06.1920. // RDSSTA. f.85, s.2, i.13, v.4

[25] L'Agent consulaire de France M.Duroy. Situation actuelle de l'Azerbaïdjan. Le 27 juillet 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 150

[26] Персидский фронт мировой революции. Документы о советском вторжении в Гилян (1920-1921). Москва, 2009, с.47

keçdikdən sonra Gilanda Ərdəşir adı ilə fəaliyyət göstərirdi. Gilanda yaradılmış İran Sovet respublikasının iyunun 7-də Rəştdə əhaliyə manifesti elan edildi.[27] Eyni zamanda, iyun ayının 5-də Rusiya və Azərbaycan Xəzər hərbi donanmasının komandanı F.Raskolnikovun vəkaləti ilə Müslüm İsrafilov Sovet Rusiyasının İran inqilabi hökumətinin başçısı yanında müvəqqəti işlər vəkili təyin edildi.[28] F.Raskolnikovun başqa bir vəkaləti ilə iyun ayının 5-də Andrey Pılayev İran inqilabi hökumətinin başçısı M.Kuçek xanın yanında RSFSR-in hərbi nümayəndəsi təyin edildi.[29] Artıq Gilanda olan A.Pılayevin vəkalətnaməsi ona çatdırılmaq üçün M. İsrafilova verildi. Elə həmin gün İran inqilabi hökumətinin hərbi inqilab şurasının sədri Mirzə Kuçek xan, hərbi qüvvələrin komandanı Ehsanulla xan və hərbi inqilab şurasının üzvü M.Müzəffərizadə RSFSR hərbi İnqilabi şurasının sədri L.Trotskiyə təbrik teleqramı göndərdilər. Orda deyilirdi: "İran Xalq Komissarları Sovetinin qərarı ilə yeni yaradılmış İran Respublikasının hərbi inqilab şurası Rusiyanın nəhəng Qırmızı Ordusunun yaradıcısı yoldaş Trotskinin simasında Qırmızı Orduya və Qırmızı Donanmaya öz səmimi salamlarını göndərir. Böyük çətinliklərlə və iki il ərzində bütün məhrumiyyətlərə dözərək, Siz nə az, nə çox, beynəlxalq imperializmin nökərləri olan daxili əksinqilab üzərində qələbəyə nail oldunuz. Zəhmətkeş xalqın iradəsi ilə İranda Sovet hakimiyyəti yaradılmış və İran xalqının düşmənlərini məhv etmək üçün Rusiya Qırmızı Ordusunun prinsipləri əsasında Qırmızı İran Ordusu yaradılır. Yaşasın Rusiya Qırmızı Ordusu ilə gənc İran Ordusu arasında qardaşlıq ittifaqı".[30] İyun ayının 8-də RK(b)P MK Siyasi Bürosu İrandakı vəziyyəti müzakirə edib, hələ Gilan hadisələrinə qədər Baltik donanmasına komandan təyin edilmiş F.Raskolnikovu geri çağırmaq, Abukov və Kojanovun İran vətəndaşlığına keçib könüllülər adı altında mübarizəni davam etdirmələri haqqında qərar qəbul etdi. G.Çiçerinə tapşırıldı ki, Şərqdə işləyən kommunistlərin özlərini necə aparması barədə təlimat hazırlasın.[31] Bu tapşırığa əsasən, G.Çiçerin iyun ayının 14-də "Kommunistlərin Şərqdə

[27] Gilanda İran Sovet Respublikasının manifesti. 07.06.1920.// RDSSTA, f.532, s.4, i.32,v.53-54

[28] M.İsrafilovun vəkalətnaməsi. 05.06.1920.// RDSSTA, f.562, s.1, i.21,v.31

[29] A.Pılayevin vəkalətnaməsi. 05.06.1920.// RDSSTA, f.562, s.1, i.21, v.30

[30] İran Respublikası Hərbi İnqilab Şurasının RSFSR Hərbi İnqilab Şurasının sədri L.Trotskiyə təbrik teleqramı. 05.06.1920.// RDSSTA, f.562, s.1, i.21, v.44

[31] RK(b)P MK Siyasi Bürosu iclasının 18 sayli protokolundan çıxarış. 08.06.1920. RDSSTA, f.17, s.3, i.86, v.1-4

fəaliyyət məsələsi üzrə tezislər" adlı sənəd hazırlayıb, müvafiq idarələrə göndərdi. Çiçerin belə hesab edirdi ki, təlimat ancaq ayrı-ayrı ölkələr üzrə verilə bilər. Ümumi Şərqdən söhbət gedirsə, o, bunu tezislər formasında hazırlamağı daha münasib bilirdi. G.Çiçerin öz tezislərində məsləhət görürdü ki, kommunistlərin Şərqdə fəaliyyəti heç bir halda rəsmi olaraq, Sovet hökuməti və onun nümayəndələri ilə əlaqələndirilməməlidir. Onun fikrincə, kommunistlər Şərqdə inqilabi kütləyə Sovet hökumətinin bilavasitə fəaliyyəti ilə bağlı konkret vəd vermədən, Sovet hakimiyyəti və RSFSR-in inqilabi missiyasını izah etməlidirlər. Bu halda, o, RSFSR-in müdaxiləsinə formal olaraq qərar verdiyi şəraiti istisna edir və nümunə kimi, Qafqazın mübahisəli ərazilərinin tutulmasını gətirirdi.[32] Bu ərazilər isə həmin anda bilavasitə Azərbaycana aid idi. İyun ayının sonlarına doğru İran Qırmızı ordusunu möhkəmləndirmək üçün Bakıdan "Azad İran" adlı bir zirehli avtomobil gətirdilər və Azərbaycandan rusların "Xüsusi təyinatlı tatar dəstəsi" adlandırdığı 700-800 nəfərlik şəxsi heyəti olan hərbi hissələr gətirilib, İran qırmızı ordusunun tərkibinə daxil edildi.[33]

Gilanda baş verən hadisələrə münasibət məsələsi iyun ayının 22-24-də keçirilən İran Kommunist partiyasının I qurultayında ciddi müzakirə mövzusu oldu. Əslində, F.Raskolnikov geri çağırılandan sonra sovet nümayəndələrinin Gilanda mövqelər uğrunda kəskin mübarizəsi başlanmışdı. Xüsusilə, Kommunist İnternasionalının İcraiyyə Komitəsinin üzvü Məmməd Həsən Sultanzadənin (Mikaelyan Avetis Sultanoviç) Gilandakı proseslərdə fəallaşması və onun mərkəz tərəfindən himayə edilməsi Bakıdan gələn nümayəndələrin narahatçılığına səbəb olmuşdu. Hələ "Ədalət" partiyasının 1920-ci ilin aprel ayında Daşkənddə keçirilən I Türküstan diyar konfransında N.Nərimanovun təlimatı ilə konfransa gələn Heydər Əmioğlu açıq şəkildə Sultanzadənin əleyhinə çıxmışdı və bildirmişdi ki, Məmməd Həsənə çevrilən Avetis Mikaelyan "Ədalət" diyar komitəsinə üzv seçilə bilməz.[34]

Əslində, qurultayın Bakıda keçirilməsi planlaşdırılmışdı, lakin Gilanın belə sürətlə işğalından vəcdə gələn kommunistlər onun Ənzəlidə keçirməsinə qərar verdilər. Qurultayın işində 60-a yaxın nümayəndə iştirak edirdi, onların əksəriyyəti hələ gənc yaşlarında İran Azərbaycanından

[32] G.Çiçerin. Kommunistlərin Şərqdə fəaliyyət məsələsi üzrə tezislər. 14.06.1920.// RDSSTA, f.2, s.2, i.312, v.2

[33] В.Генис. Красная Персия. Большевики в Гиляне. 1920-1921, с.102

[34] В.Генис. Красная Персия. Большевики в Гиляне. 1920-1921, с.126

çıxmış şəxslər idi. Qurultayın ilk iclasını Bakıdan getmiş Kamran Ağazadə açdı. İran kommunistlərinin I qurultayının fəxri sədrləri RSFSR XKS-nin sədri V.Lenin və Azərbaycan XKS-nin sədri N.Nərimanov, AK(b)P MK-nın üzvü, bir vaxtlar İran məşrutə hərəkatında iştirak etmiş D.Bünyadzadə və qurultay ərəfəsində Mərkəzin tapşırığı ilə Bakıdan Ənzəliyə gəlmiş AK(b)P MK katibi V.Naneyşvili seçildilər. V.Naneyşvili ilə birlikdə Bakıdan qurultaya 20 nəfər nümayəndə gəlmişdi. Bakı Sovetinin adından Mir Bəşir Qasımov qurultayı təbrik etdi. Qurultayın rəyasət heyətinə Türküstan təmsilçiləri Avetis Sultanzadə və Məmmədqulu Əlixanov, Bakı təmsilçiləri Kamran Ağazadə və Mir Cəfər Cavadzadə (Seyid Cəfər Pişəvəri) seçildilər.[35] Qurultay Mirzə Kuçek xanı müdafiə edən qətnamə qəbul etsə də, kommunistlər ondan narazı idilər və onu arzuladıqları İran sosialist inqilabının qarşısında başlıca mane hesab edirdilər. Xüsusilə, İKP MK-nın rəhbəri seçilən və solçu baxışların daşıyıcısı kimi tanınan A.Sultanzadə ilə Kuçek xan arasında qurultaydan dərhal sonra kəskin ziddiyyətlər yarandı. Mirzə Kuçek xan üçün inqilab başa çatmış və onun rəhbərliyi ilə Müvəqqəti inqilabi hökumət yaranmış, A.Sultanzadə üçün isə o yeni başlamışdı. Ona görə, qurultaydan az sonra İranda sosialist inqilabının dərinləşməsini və onun bütün Şərqə yayılmasını arzulayan kommunistlər Mirzə Kuçek xanın aradan qaldırılmasına qərar verdilər.[36]

Gilanda hakimiyyətin kommunistlər tərəfindən ələ keçirilməsi üçün iyul ayının əvvəllərində Moskvanın razılığı olmadan Azərbaycan K(b)P MK-nın rəhbərliyi altında "İran bürosu" yaradıldı. Büroya RK(b)P MK-dan N.Nərimanov və B.Mdivani, Azərbaycan K(b)P MK-dan A.Mikoyan və V.Lominadze, İran KP MK-dan D.Bünyadzadə və M.Əlixanov daxil edilmişdilər. Əslində, bu tərkib aprel çevrilişindən sonra əsasən Azərbaycan K(b)P MK-nın rəhbər heyyətində təmsil olunmuş şəxslərdən ibarət idi.[37] Rus tədqiqatçısı M.Persitsin fikrincə, Azərbaycan rəhbərliyi İranın sovetləşdirilməsində çox maraqlı idi. Onun fikrincə, məhz, bu proses İran Azərbaycanının Sovet Azərbaycanına birləşdirilməsinə şərait yarada bilərdi.[38]

[35] İran Kommunist partiyası "Ədalət"in birinci qurultayının materiallar. İyun, 1920.// RDSSTA, f.495, s.90, i.4, v.1-4

[36] Вах: С.М.Алиев. История Ирана. XX век. Москва, 2004, с.123

[37] İran bürosunun fəaliyyətinin icmalı. İyul, 1920.// RDSSTA, f.64, s.1, i.20, v.19-20

[38] М.А.Персиц. Застенчивая интервенция. О советском вторжении в Иран и Бухару в 1920-1921 гг., с.110

Bakıda "İran bürosu" yaradıldıqdan sonra Gilan inqilabına kommunist xarakteri vermək meylləri daha da gücləndi. A.Sultanzadə Kuçek xanın rəhbərlik etdiyi burjua-demokratik cərəyanlardan tamamilə kommunist hərəkatına keçməyin zəruriliyini əsaslandırmağa başladı. Əvvəllər Kuçek xanla razılaşdırılmış məsələlər kobud şəkildə pozulmağa başladı. Bakıdan ezam olunmuş B.Ağayev, B.Mdivani, Gilan hadisələrində fəal rol oynayan B.Abukov və digərləri yeni yaranmış kommunist partiyası üçün real olmayan ideyalar irəli sürməyə başladılar. Kuçek xanım V.Leninə teleqram göndərib, rus inqilabında təcrübəsi olan sovet işçilərini, ilk növbədə isə, əvvəllər İranda yaşamış B.Mdivaninin Bakıdan Gilana göndərməsini xahiş etməsi ona baha başa gəldi.[39] RK(b)P MK təşkilat bürosu Mirzə Kuçek xanın xahişini nəzərə alıb, iyulun 21-də B.Mdivaninin İrana ezam olunması haqqında qərar qəbul etdi.[40] B.Mdivani Gilan hadisələrini dəyərləndirib belə qərara gəldi ki, İran Kommunist partiyası inqilabi hərəkatın önünə keçməli və ölkədə hakim mövqe tutmalıdır. O, deyirdi: "İndiki anda Mirzə Kuçek xanın şəxsiyyətinin çəkisi yalnız Gilan miqyasındadır, əgər o, nəhəng inqilabi fiqur kimi formalaşmasa, heç şübhəsiz ki, onu uzaqlaşdırmaq lazım gələcək. Mdivani İKP-nın ehtiyat qüvvəsinin hələ uzun müddət Bakının hesabına təmin olunacağını bildirir, ona görə də, Azərbaycanda və xüsusilə, Culfada işləmək üçün hərbi və siyasi bazanın yaradılmasını zəruri sayırdı. Onun fikrincə, xarici şöbə dərhal partizan dəstələrinin, terrorçu qrupların yaradılması işinə başlamalı, terror isə, ilk növbədə, şaha, İran hökumətinə, İran inqilabının bütün düşmənlərinə və ingilis hakimiyyətinin nümayəndələrinə qarşı yönəlməli idi. Budu Mdivani partizan mübarizəsinin coğrafiayasını çox geniş təsəvvür edirdi və bu mübarizə onun təbirincə, Qəsri-Şirindən tutmuş, Kirmanşah, Həmədan, Qəzvin, Tehran və hətta, Bəsrə - Bağdad dəmiryoluna qədər gedib çıxmalı idi.[41]

Lakin iyul ayının 18-də İKP-nın əsas silahlı qüvvəsi hesab edilən Rəştdəki rus matroslarının üsyanı, onların, nəninki, cəbhəni, bütövlükdə İranı tərk edib, Rusiyaya qayıtmaq tələbləri İranda kommunist inqilabı etmək arzusunda olanların, Bəsrə - Bağdad dəmir yolunu ələ keçirmək istəyənlərin real həyatdan çox uzaq olmalarının, dünya inqilabı haqqında əsası olmayan

[39] Mirzə Kuçek xanın V.Leninə teleqramı. 17.07.1920.// RDSSTA, f.17, s.112, i.53, v.42

[40] RK(b)P MK təşkilat bürosunun iclasının 38 saylı protokolundan çıxarış. 21.07.1920.// RDSSTA, f.17, s.112, i.53, v.5

[41] B.Mdivaninin İran Bürosunun iclasında məruzəsi. 20.07.1920.// RDSSTA, f.64, s.1, i.20, v.32-35

xəyalpərvər ideyalar irəli sürmələrinin açıq ifadəsi idi. Ənzəlidə baş vermiş matros üsyanını yatırmaq üçün iyulun 20-də İran bürosunun təşəbbüsü ilə təcili şəkildə Bakıdan 1.000 nəfərlik hərbi dəstə Ənzəliyə yola salındı.[42] İyul ayının 30-da Rəştdə İKP MK-nın iclası keçirildi, iclasda Kuçek xanın və onun tərəfdarlarının devrilməsi haqqında qərar qəbul edildi. İclasda geniş məruzə ilə çıxış edən A.Mikoyan əvvəllər irəli sürülmüş belə bir ideyanı müdafiə etdi ki, İran inqilabının tarixi gedişində kommunist partiyası hakimiyyətə gəlməlidir.[43] Ümumiyyətlə, hadisələrin təhlili göstərir ki, Moskvanın İran barədə davamlı və aydın proqramı olmamışdır. Əgər Qafqaza ezam olunmuş bolşeviklər Azərbaycan K(b)P MK-nın adından çıxış edərək, İranda sosialist inqilabı etməyə qərarlı idilərsə, Mərkəzdəki bir sıra dairələr Gilan hadisələrindən daha çox İngiltərəyə təzyiq kimi istifadə etməyə meylli idilər. Məsələn, Bakıda İran bürosu tərəfindən Kuçek xanın devrilməsinə qərar verildiyi halda, L.Karaxan Q.Orconikidzeyə və N.Nərimanova göndərdiyi təcili teleqramda yazırdı: "Biz İrandakı vəziyyətdən tamamilə xəbərsizik və dolayı yollarla məlumat almışıq ki, guya, İran hökuməti Ənzəli limanının bütün gurğuları ilə birlikdə onlara verilməsini xahiş edir. Məlum deyil, hansı hökumət. Bütün bu məsələləri müzakirə etmək üçün bizim dəfələrlə Sizə teleqrafla məlumat verdiyimiz kimi, Kuçek xan öz nümayəndəsini Moskvaya göndərməlidir. Sizə məlumat verdiyimiz kimi, bizim tərəfimizdən burada *(Moskvada – C.H.)* işləyən professor Qafarovun Gilana nümayəndə təyin edilməsi arzuedilən dir. Bu təyinatlar Londonda aparılan danışıqlar baxımından xüsusi əhəmiyyət kəsb edir və bizim Britaniya qoşunlarının İrandan çıxarılması, 1919-cu il İngiltərə - İran müqaviləsinin ləğvi kimi, tələblərimiz Kuçek xanın nümayəndəsi vasitəsi ilə möhkəmləndirilməlidir.[44] Bu təlimata uyğun olaraq, Kuçek xanın nümayəndələri kimi, onun şəxsi tərcüməçisi Konstantin Qauk və M. Müzəffərizadə Moskvaya yollandılar, üç həftə ərzində orada G.Çiçerin və Karaxanla danışıqlar apardılar, lakin avqustun sonunda geri qayıdarkın B.Mdivani tərəfindən həbs olundular.[45]

[42] Rəştdə matrosların üsyanı haqqında gizli məlumat. 20.07.1920.// RDSSTA, f.495, s.90, i.15, v.9-14

[43] М.А.Персиц. Застенчивая интервенция. О советском вторжении в Иран и Бухару в 1920-1921 гг., с.117

[44] L.Karaxanın Q.Orconikze və N.Nərimanova təcili teleqramı. 23.07.1920.// RDSSTA, f.64, s.1, i.25, v.277

[45] Персидский фронт мировой революции. Документы о советском вторжении в Гиляи (1920-1921), с.129

Əslində, bolşeviklərin İranda sosialist inqilabi etmək iddialarının mənasızlığını Mirzə Kuçek xan qabaqcadan görürdü. İyulun 20-də Leninə teleqramında o, İranın sosializm uğrunda mübarizə üçün hazır olmadığını yazırdı. Kuçek xan vəd verirdi ki, İranın paytaxtı Tehran tutulduqdan sonra o, öz siyasətində sərt dəyişiklik edəcək və xalqın iradəsi ilə kapitalizmə qarşı açıq mübarizə aparacaqdır. O yazırdı: "Onda bizim kifayət qədər tərəfdarlarımız olacaq ki, ideyalarımmızın əleyhdarları ilə birdəfəlik üzlüşək." Mirzə Kuçek xan bir qədər əvvəl Azərbaycanda baş vermiş inqilabi dəyişiklikləri təqdir edir və bu dəyişikliklərin kiçik tacir zümrəsinin maraqlarına təsirindən danışaraq, şikayətlənirdi ki, iyun ayının sonunda Azərbaycan hökuməti ilə bağlanmış ticarət müqaviləsində Azərbaycan sovet hökuməti İran təbəələrərinin əmlakının toxunulmasına təminat versə də, indi bu təminat açıq şəkildə pozulur. O, ehtiyat edirdi ki, belə hallar sosial bazası əsasən xırda mülkiyyətçilərdən ibarət olan İran inqilabı və bütövlükdə Şərqdəki inqilabi proses üçün fəlakətli nəticələr versin. Teleqramın sonunda Kuçek xan Sovet Azərbaycanı və Rusiya ilə siyasi, iqtisadi və hərbi sahədə qarşılıqlı münasibətlərin əsaslarını hazırlamaq üçün İran Xalq Komissarları Sovetinin vəkaləti ilə Bakıya nümayəndələrin ezam olunacağını bildirirdi. Onun fikrincə, qeyd edilən istiqamətlərdə qarşılıqlı münasibətlərin müəyyənləşdirilməsi Şərqdə inqilabın baş verməsini, ingilislər və kapitalistlər üzərində qəti qələbəni, habelə, dünya inqilabının inkişafını sürətləndirməli idi. Mirzə Kuçek xan teleqramını həmin dövrün bolşevik yazışmalarına xas olan "kommunist salamı" ilə yekunlaşdırırdı.[46]

Mirzə Kuçek xanın belə vədlərinə baxmayaraq, iyulun 30-da İKP MK-nın Kuçek xanın hökumətində olan sol qüvvələrlə birlikdə keçirdiyi iclasda onun devrilməsinə qərar verildi və tərəfdarlarına qarşı geniş silahlı repressiya tədbirləri həyata keçirildi. Çevrilişdən sonra iyulun 31-də Gilanda yaradılan yeni hökumətə İrana ezam olunmuş bolşeviklərin təklifi ilə Ehsanulla xan rəhbərlik etməyə başladı. Elə həmin gün Gilanda kommunist çevrilişi haqqında İKP MK-nın və İran Hərbi İnqilab Şurasının üzvü Matilda Bullenin radioqramı elan edildi. Orada iyulun 31-də Kuçek xanın hakimiyyətinin devrildiyi və sol qüvvələrlə birlikdə kommunistlərin hakimiyyəti ələ aldığı, 8 nəfərdən ibarət Müvəqqəti İnqilabi Komitə yaradıldığı bəyan edilirdi.[47] Yeni hökumətin proqramına bütün istehsal vasitələrinin, ilk növbədə isə ayrı-ayrı adamlara məxsus böyük torpaq mülklərinin müsadirə edilib, kəndlilərə paylanması və sair islahatlar daxil idi. Silah gücünə həyata keçirilən bütün sosialist tədbirlər yaxın vaxtlarda Tehrana nəzərdə tutulan yürüşün həyata keçirilməsinə tabe edilmişdi.

[46] M.Kuçek xanın V.Leninə teleqramı. 20.07.1920.// RDSSTA, f.85, s.2, i.23, v.120-122

[47] Gilanda kommunist çevrilişi haqqında radioqramma. 31.07.1920.// RDSSTA, f.454, s.1, i.2, v.61

§2. Sovet Rusiyasının İran siyasətində Azərbaycanın əməliyyat meydanına çevrilməsi

Mirzə Kuçek xan iyul çevrilişindən sonra yenidən Gilan meşələrinə çəkilib, yaxın silahdaşları ilə birlikdə özünün əvvəlki qərargahı olan Fumendə məskunlaşdı. Kommunistlərin onu mühasirəyə alıb, məhv etmək planı baş tutmadı. Kommunistlərin təqibi nəticəsində Kuçek xanın 400 nəfərə yaxın tərəfdarı öldürüldü, Azərbaycandan və Rusiyadan gələn yüzlərlə döyüşçü bu mübarizədə həlak oldu.[48] Oradan V.Leninə göndərdiyi məktubda Kuçek xan bir sıra kommunistləri və Sovet Azərbaycanını günahlandırırdı. O yazırdı ki, "İran Respublikasının etirazlarına baxmayaraq, Azərbaycan hökuməti Bakıda İran təbəələrindən müsadirə etdiyi malları, verdikləri vədlərin əksinə olaraq, Qırmızı ordunun və əhalinin ehtiyacları üçün İrana buraxmadı". Kuçek xan şikayətlənirdi ki, Azərbaycan hökuməti İran təbəələrinin azad şəkildə ölkəyə qayıtmasına qadağalar qoydu və F.Raskolnikovun şifahi razılığı ilə təsdiq edilmiş Tehrandakı Sovet nümayəndəsi Bravinin rəsmi notası əsasında İrandakı rus konsessiyaları İran xalqının mülkiyyətinə verilsə də, Azərbaycan hökuməti buna müqavimət göstərdi. Bu dəlilləri əsas gətirərək, Kuçek xan, Sovet Azərbaycanının İranın daxili işlərinə qarışmaması haqqında Sovet Rusiyası nümayəndələrinin verdikləri vədlərin yerinə yetirilməsini, İran Respublikasının hüququnun və sərhədlərinin tanınmasını, Sovet Azərbaycanının hüdudlarında İran vətəndaşlarının həyatının və mülkiyyətlərinin mühafizə olunmasını, Şərq ölkəsi olaraq, İranın siyasi şəraiti nəzərə alınmaqla Kommunist Partiyasının orada fəaliyyət proqramının hazırlanmasının zəruriliyini V.Lenindən xahiş edirdi.[49] Mirzə Kuçek xanın toxunduğu İran tacirlərinin əmlakı ilə bağlı iyul ayının 13-də Azərbaycan İnqilab Komitəsi doğrudan da belə bir qətnamə qəbul edilmişdi ki, "İran tacirlərinin nəyi varsa, Azərbaycan fəhlələrinin alın təri və qanı ilə, indi fəhlə-kəndli hökumətinin mövcud olduğu Azərbaycan ərazisində

[48] Bax: S.Rüstəmova – Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919 – 1943, s.179

[49] Mirzə Kuçek xanın V.Leninə məktubu. 04.08.1920.// RDSSTA, f.2, s.2, i.361, v.6-7

toplandığından onlardan müsadirə edilən əmlak geri qaytarılmır. İran istismarçı tacirlərinin Bakıdan çıxmasına yol vermək olmaz. Onlar İrana qayıtdıqdan sonra inqilabi hərəkata qarşı əksinqilabi təbliğata başlayacaqlar və qara kütləni inqilabi hərəkata qarşı yönəldəcək, bununla da İranda inqilab işinə mane olacaqlar".[50] İran tacirlərinin müsadirə edilən əmlakının ümumi dəyəri 30 milyon qızıl manat idi.[51] Bu qətnamə 1920-ci ilin iyun ayında Azərbaycan SSR ilə İran Sovet respublikası arasında imzalanmış müqaviləyə zidd idi. Belə ki, müqavilənin birinci bəndinə görə, Sovet Azərbaycanında həbs edilmiş İran vətəndaşları azad edilməli və İran inqilabi hökumətinin sərəncamına verilməli idilər. Sənədin ikinci bəndinə görə, Azərbaycan tərəfi iran vətəndaşlarının vətənlərinə gedişin asanlaşdırmalı idi. [52] Bütün bunları nəzərə alaraq, N.Nərimanov İran tacirlərinin müsadirə olunmuş əmlakının qaytarılması haqqında akt imzalamışdı.[53]

Gilan çevrilişinin əsas ideya müəllifi və praktiki rəhbərlərindən olan İran bürosunun üzvü A.Mikoyan Gilandakı hadisələrdən dərhal sonra Bakıya dönərək avqustun 3-də Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat Bürosunda "İran haqqında" geniş məruzə ilə çıxış etdi. Məruzə əsasında qərara alındı ki, İran hökumətinin başına Heydər xan Əmioğlu gətirilsin; İrana Azərbaycan briqadası və bir zirehli avtomobil göndərilsin; B.Mdivani Azərbaycandan nümayəndə kimi, müvəkkil təyin edilsin və hərbi missiya ona tabeçiliyinə verilsin; Azərbaycan Respublikasına zərər vurmadan İrana istehlak malları göndərilsin və Sarkisə tapşırılsın ki, İrana göndəriləcək malların həcmini müəyyənləşdirsin və sair.[54] İclasda qəbul olunan qərarlardan ilk olaraq İrana Azərbaycan ordusunun göndərilməsi bəndi yerinə yetirildi və avqustun 11-də 1.200 nəfərlik şəxsi heyətdən ibarət olan Azərbaycan alayı Gilana yola düşdü.[55]

Lakin bütün bu cəhdlərə baxmayaraq, Gilan hadisəsi barədə Mərkəzi sovet hökuməti aydın təsəvvürlərə və ardıcıl proqrama malik deyildi.

[50] İran bürosu fəaliyyətinin icmalından. Sentyabr, 1920.// RDSSTA, f.64, s.1, i.20, v.28

[51] B.Şahtaxtinskinin RK(b)P MK-ya məktubu. Avqust 1923.// RDSSTA, f.85, s.2c, i.3, v.50

[52] İran Respublikası ilə Azərbaycan SSR arasında müqavilə. İyun 1920.// AR DA, f.28, s.1, i.108, v.49; Əlavə məlumat üçün bax: İran Sovet Respublikası ilə Azərbaycan SSR arasında müqavilə. İyun, 1920.// ARPİİ SSA, f.1, s.45, i.210, v.103

[53] B.Şahtaxtinskinin RK(b)P MK-ya məktubu. Avqust 1923.// RDSSTA, f.85, s.2c, i.3, v.50

[54] Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat Bürolarının birgə iclasının protokolundan çıxarış. 03.08.1920.// RDSSTA, f.64, s.1, i.20, v.45-46

[55] Персидский фронт мировой революции. Документы о советском вторжении в Гилян (1920-1921), с.153

Hadisələr bir qayda olaraq, Qafqaza ezam olunmuş bolşeviklərin özfəaliyyəti xarakteri daşıyır və daha çox Azərbaycanın sovetləşməsində fəal rol oynamış mərkəz nümayəndələrinin sosialist inqilabını Şərqə yaymaq arzuları ilə müəyyən olunurdu. Moskva isə özünün beynəlxalq siyasətində Gilan hadisələrindən daha çox İngiltərəyə təsir məqamı kimi istifadə etməkdə maraqlı idi. Məsələn, hadisələrin qaynar vaxtında Gilan avantürasının mərkəzi simalarından olan G.Çiçerin avqustun 3-də L.Kamenevə yazırdı: "Şayiələr gəzir ki, guya, Kuçek xan gizlənib, görünür ingilislərin yanına qaçıb, bunun heç bir əhəmiyyəti yoxdur, Kuçek xandan daha sol olan baş komandanı onun yerini tutub. Sovet İranı onsuz da mövcud olacaq. Kuçek tanınmış sima kimi faydalıdır, lakin, o, özünün həddindən artıq ehtiyatlılığı və astagəlliyi ilə, inqilabi siyasəti tamamilə anlamadığından, işə müəyyən qədər ziyan vurur. O, bilavasitə indi gərəkli olan cəsarətliliyi özündə tapa bilmir. Onun baş komandanı bu rolu daha yaxşı ifa edir. Ümumiyyətlə, bizim vəziyyətimiz Şərqdə getdikcə daha da yaxşılaşır. İnqilabi həyəcan döyüşkən ruhlu geniş kütlələri əhatə edir, bu o deməkdir ki, bütün mürtəce quruluş sarsılmağa başlamışdır... Güclü kömək nəticəsində İran hərəkatında dönüş yaranıb. Aydındır ki, bizim İngiltərəyə münasibətdə siyasətimizdən Şərqdə siyasətimizin sürəti və intensivliyi asılı olacaqdır. İngilislərlə söhbətlərdə qeyd etmək olar ki, əgər onlar Avropada hərbi əməliyyatlara başlasalar, kiçik bir nahiyədə azacıq sancmadan başqa bizə elə bir ciddi ziyan vura bilməyəcəklər. Bununla belə, əgər biz Şərqdə əlimizdə olan bütün imkanları hərəkətə gətirsək, İngiltərənin bütün beynəlxalq siyasətinə çox böyük sağalmaz zərər vura bilərik".[56] Avqust ayının 3-də Şərqdə inqilabın uğurlarından danışan G.Çiçerin bir gün sonra RK(b)P MK Siyasi Bürosuna məktubunda Sovet İranınında vəziyyətin son dərəcə ağır olmasından söhbət açırdı. O yazırdı: "Vəziyyət o qədər ciddidir ki, biz güman edirik, Siyasi Büro bir dəqiqə belə yubanmadan Mdivanidən daha nüfuzlu və daha geniş dünyagörüşünə malik olan bir şəxsi geniş səlahiyyət ilə İrana göndərməlidir". O belə hesab edirdi ki, bu missiyanı Şalva Eliava yerinə yetirə bilər və məhz o, İranda işləri yoluna qoya bilər.[57] Avqustun 5-də PK(b)P MK Plenumu "İranda vəziyyət haqqında" məsələni müzakirə edib, Ş.Eliavanın İrana ezam edilməsi haqqında qərar qəbul etdi və ona tapşırıldı ki, Q.Orconikidze ilə əlaqəli şəkildə

[56] G.Çiçerinin L.Kamenevə təcili diplomatik məlumatı. 03.08.1920.// RDSSTA, f.2, s.2, i.359, v.1

[57] G.Çiçerinin RK(b)P MK iyasi Bürosuna məktubu. 04.08.1920.// RDSSTA, f.2, s.2, i.361, v.9

İranda işləri qaydaya salsınlar.[58] RK(b)P MK-nın bir sıra təcili tədbirlər görməsinə baxmayaraq, İran Qırmızı ordusunun avqust ayının ortalarında Tehran üzərinə birinci yürüşü, nəinki, uğur qazanmadı, əksinə, onlar Məncil ətrafındakı döyüşlərdə ciddi məğlubiyyətə uğrayıb, geri çəkilməyə məcbur oldular. Gilana ezam edilmiş bolşeviklər bu məğlubiyyəti Rusiyadan və Qafqazdan səfərbər edilmiş daha çox lümpenlərdən ibarət olan iranlıların yararsızlığı və Azərbaycandan göndərilmiş hərbi hissələrin vuruşmaq istəməməsi ilə izah edirdilər.[59] Bu zaman Tehrana hücum əməliyyatında şəxsi heyəti 1.607 nəfər döyüşçüdən ibarət olan, Bakıdan Ənzəliyə ezam edilmiş 244-cü alay və heç bir döyüş qabiliyyəti olmayan 2-ci Azərbaycan alayı, habelə, 28-ci Rusiya diviziyası iştirak edirdi. Bu hərbi hissələr Gilana bilavasitə Q.Orconikidzenin əmri ilə göndərilmişdi.[60] Məncil və Qəzvin istiqamətində ciddi məğlubiyyətə uğrayıb, Rəşti də tərk etmək məcburiyyətində qalan sovet orqanları vəziyyətdən çıxış yolunu könüllülər adı ilə Sovet Rusiyasından 1.500 nəfərlik təlim görmüş hərbi dəstənin gətirilməsində görürdülər. Bakıdan gələn əmr əsasında Rəşt müvəqqəti olaraq geri qaytarılsa da, lakin orada möhkəmlənmək mümkün olmadı və sentyabrın 22-də İran Qırmızı ordusu vahimə içərisində şəhərdən qaçdı. Rəşt uğrunda gedən döyüşlərin gedişində şəhər əldən-ələ keçdi və Rəştin 45 min əhalisi dağıdılmış və talan edilmiş şəhəri tərk etdi. Dağlara çəkilən bir neçə min insanlar hava şəraitinin dözülməzliyi nəticəsində orada həlak oldular.[61] Ətraf şəhərlərə və kəndlərə dağılmış rəştlilər kommunistlər haqqında yerli əhaliyə mənfi məlumatlar verdilər. Rəşti tərk etmiş din xadimləri məscidlərdə çıxış edərək, əhalini bolşeviklərə qarşı "müqəddəs cihada" çağırdılar. Məncil şəhərində yerləşən ingilis qoşunları qaçqınları son dərəcə qayğı ilə qəbul edərək, onları ərzaq, paltar və nəqliyyatla təmin etdilər.[62]

Vəziyyətin ciddiliyini nəzərə alaraq, RK(b)P MK Qafqaz Bürosu avqust ayının sonlarında İranda itirilmiş mövqeləri bərpa etmək üçün bir sıra qərarlar qəbul etdi. Avqustun 21-də keçirilən iclasda Moskvadan xahiş edil-

[58] PK(b)P MK Plenumunun iclasının 5 (33) sayli protokolundan çıxarış. 05.08.1920.// RDSSTA, f.17, s.2, i.33, v.1

[59] Hərbi İnqilabi Şuranın və XI Ordunun qərargahının Qafqaz Cəbhəsi Hərbi İnqilabi Şurasının üzvü V.Trifonova məlumatından. 05.09.1920.// RDSSTA, f.85, s.8, i.23, v.277

[60] В.Генис. Красная Персия. Большевики в Гиляне. 1920-1921, с.255; М.А.Персиц. Застенчивая интервенция. О советском вторжении в Иран. 1920-1921 гг., с.133

[61] М.А.Персиц. Застенчивая интервенция. О советском вторжении в Иран. 1920-1921 гг. Москва, 1996, с.29

[62] Bax: S.Rüstəmova – Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919 – 1943, s.181

di ki, Tehrana doğru hərəkət etmək üçün 1.200 nəfər əlavə qüvvə ayırsın. Eyni zamanda, Qafqaz Bürosu İranda işləri sürətləndirmək məqsədi ilə Azərbaycanın adı altında istifadə etmək üçün 1.100 000 tümən İran pulu və 2.000 000 qızıl pul ayrılmasını xahiş edirdi. Hətta, bu işə o qədər ciddi xarakter verilirdi ki, Moskvdan pul ayrılana qədər M.D.Hüseynova təklif edilirdi ki, Azərbaycanın maliyyə nazirliyində olan qızıl ehtiyatından lazım olan məbləği İran işlərinin sürətləndirilməsi üçün buraxsın.[63] İki gün sonra Qafqaz Bürosu İranda hərbi vəziyyəti müzakirə edib qərara aldı ki, Ənzəli və Rəştin itirilməsi ilə heç cürə razılaşmaq olmaz və ona görə də cəbhəni möhkəmləndirmək üçün əlavə qüvvələrin İrana göndərilməsini zəruri sayır. Qərarda göstərilirdi ki, Gilan hökumətində faktiki olaraq, rəhbərlik RSFSR nümayəndələrinin əlindədir və İran kommunist partiyasının nümayəndələri, yalnız, hökumətin təyinatı ilə müxtəlif dövlət vəzifələrini tuta bilərlər.[64]

1920-ci ilin sentyabr ayının 9-da avqust məğlubiyyətindən sonra L.Karaxan RK(b)P MK-ya İranda sovet siyasəti haqqında geniş məktub göndərdi. O, hesab edirdi ki, "Gilan hadisələrinin gedişində buraxılan siyasi səhvlər və siyasi məzmun daşıyan kobudluq halları inqilabı etibardan salmışdır. İnqilabi hakimiyyət əhalinin, ilk növbədə isə kəndlilərin etimadını qazana bilmədi. Rusların, ermənilərin və gürcülərin xaricilər kimi inqilabda iştirakı, fəth olunmuş ölkə kimi, onların Gilanda ağalıq etməsi orada bütün əhalini bizə qarşı çevirdi, onların ingilislərə qarşı düşmən münasibətini zəiflətdi, ticarət dairələrini isə, hətta, ingilislərə doğru sürüklədi." L.Karaxan Gilan hadisələrini təhlil edərək yazırdı: "İndi İranı itirmək və onu ingilislərə vermək bizim beynəlxalq siyasətimizə (bizim zəifliyimizin göstəricisi kimi) ciddi zərbə olardı və xüsusilə, İngiltərə üçün bu onun təzahürü olardı ki, Şərqdə bizdən qorxmasın, yəni, biz heç nə edə bilmirik və kiçik uğursuzluq olan kimi, qəti şəkildə geri çəkilirik". L.Karaxan İrandan aldığı məlumatları, xüsusilə, Ş.Eliavanın məruzəsini ümumiləşdirərək, orada yeridiləcək siyasi xətti belə müəyyənləşdirirdi: "1) Bizim Tehranı tutmağımızı təmin etmək, şah hökumətini devirmək, mübarizənin sonrakı mərhələsini davam etdirmək və ingilisləri İrandan tamamilə qovmaq üçün Ənzəlidə mövcud olan qüvvələr 8-10 min nəfərlik ekspedisiya korpusu ilə möhkəmləndirilməlidir. Tehranda qeyri-kommunist, lakin milli demokratik elementləri cəlb etməklə, sovet

[63] RK(b)P MK Qafqaz Bürosunun iclasının protokolundan çıxarış. 21.08.1920.// RDSSTA, f.64, s.1, i.1, v.6

[64] PK(b)P MK Qafqaz Bürosunun iclasının protokolundan çıxarış. 23.08.1920.// RDSSTA, f.64, s.1, i.1, v.13

tipində hökumət yaradılmalıdır. Bu hökumət öz siyasətini kəndlilərə arxalanaraq, qurmalı, eyni zamanda, müəyyən vaxta qədər ticarət kapitalının maraqlarına toxunmalıdır. Bu planı həyata keçirmək üçün yoldaş Eliava hazırlanmışdır, onun sərəncamında zəruri və çoxsaylı əməkdaşlar vardır; 2) Özümüz üçün Ənzəlidə hərbi üstünlüyü təmin etməklə biz İrandan çıxırıq. Tehranın şah hökuməti ilə əlaqələrə giririk (hansı ki, biz əlaqələri kəsməmişik və son günlərə qədər yazışmadayıq) və ora diplomatik missiyamızı göndəririk və şah hökuməti ilə təşviqati-təbliğati məqsədlər güdən (çar müqavilələrindən imtina, konsessiya, imtiyazlar, talan edilmiş torpağın və qarət edilmiş əmlakın qaytarılması) dostluq müqaviləsi bağlayırıq... MK bu iki yoldan hansı ilə getməyimizi müəyyən etməlidir. Siyasi baxımdan indi birinci yol zəruridir, belə ki, həmin yol tez effekt verir və İngiltərəyə zərbə endirir, İngiltərə siyasətinin dəyişikliyinin gedişində Lloyd Corcun və Kerzonun əhvali-ruhiyyəsinə çox əlverişli təsir göstərir və sübut edir ki, biz İngiltərə üçün ciddi və bilavasitə təhlükəyik, İngiltərənin birbaşa bizə yönəlmiş siyasətindən asılı olaraq, biz Şərqə təcavüzümüzü ona qarşı qoya bilirik, zərbəyə zərbə ilə cavab veririk... MK birinci yolu bəyəndiyi halda, Eliava üçün təlimat olaraq, fəaliyyət proqramını işləyib, hazırlamaq məqsədi ilə Kominterndən, XXİK-dan və RK(b)P MK-dan ibarət komissiyanın yaradılması zəruridir".[65] Bu məktubdan bir gün sonra RK(b)P MK Qafqaz Bürosu İranda yaranmış ümumi vəziyyəti müzakirə edib, Ənzəli və Rəşti əldə saxlamaq üçün ora 1.200 nəfərlik silahlı dəstə göndərilməsini bir daha vurğuladı, Heydərxan Əmioğlunu işləmək üçün Təbrizə göndərmək, Bakıda fəaliyyət göstərən İran Bürosunu bağlayıb, bütün işləri Qafqaz bürosuna həvalə etmək, Bakıda yalnız "Şərqdə fəaliyyət və təbliğat şurası"nı saxlamaq haqqında qərar qəbul etdi, onun tərkibini formalaşdırmaq isə S.Kirov, Ş. Eliava və Y. Stasovaya tapşırıldı.[66] Bu qərar qəbul edilən zaman İran Bürosu səfərbərlik keçirərək İran Qırmızı ordusu üçün 832 nəfər könüllü toplamışdı ki, onların da 635 nəfəri Azərbaycandan idi.[67] Ayrı-ayrı yerlərdən böyük vədlər verilsə də İrana göndəriləcək könüllülərin sayı bundan artıq olmadı.

Tehrana doğru hərəkət məğlubiyyətə düçar olduğundan İrana ezam edilmiş bolşeviklər yenidən Mirzə Kuçek xanla əməkdaşlıq ideyasına qayıtdılar. Avqust ayının ikinci yarısında B.Mdivani ona göndərdiyi məktublarda

[65] L.M.Karaxanın RKP MK-ya məktubu. 09.09.1920.// RDSSTA, f.5, s.2, i.208, v.1

[66] PK(b)P MK Qafqaz Bürosunun iclasının protokolundan çıxarış. 10.09.1920.// RDSSTA, f.64, s.1, i.1, v.16

[67] İran bürosu fəaliyyətinin icmalından. Sentyabr, 1920.// RDSSTA, f.64, s.1, i.20, v.32

kommunistlərlə əlaqənin kəsilməsinin günahını Kuçek xanın üzərinə qoymağa cəhd göstərirdisə, sentyabr ayının 9-da yazdığı məktubda onunla əməkdaşlığa hazır olduğunu bildirirdi. B.Mdivani yazırdı: "Əgər sənin məqsədin doğrudan da İranın və bədbəxt İran xalqının azadlığıdırsa, əgər həqiqətən sən bunu ürəkdən deyirsənsə, bu halda mən böyük sevinclə və tam arxayınlıqla sənin yanına gələrəm. Sənlə söhbətləşərəm və biri-birimizə söz verərik, biz birlikdə işdən yapışarıq".[68] Sentyabrın 11-də yazdığı cavab məktubunda Kuçek xan bir sıra məsələlərdə özünün haqlılığını önə çəksə də, B.Mdivani ilə görüşə və sovetlərlə əməkdaşlığa hazır olduğunu bildirdi.[69] Əlbəttə, Kuçek xanın bu qərarı həm də, onunla bağlı idi ki, Sovet Rusiyasının Tehranla diplomatik danışıqlara başlaması haqqında onun məlumatı var idi. Lakin Kuçek xanla kommunistlərin əlaqələrinin bərpa edilməsi prosesi uzun çəkdi və yalnız 1921-ci ilin may ayının əvvəllərində onlar elə də möhkəm olmayan bir saziş imzaladılar.

Gilanda cərəyan edən hadisələr 1920-ci ilin sentyabr ayının 1-də Bakıda işə başlayan Şərq xalqlarının I qurultayının mərkəzi məsələlərindən idi. Kominternin Şərq xalqlarının qurultayını çağırmaq ideyası ilk dəfə 1920-ci ilin iyun ayının 18-də RKP MK Siyasi Bürosunun iclasında müzakirə edilmiş və müvafiq qərar qəbul edilmişdi. Qərarda göstərilirdi ki, III İnternasionalın Bakıda Şərq xalqlarının qurultayını çağırmaq təklifi prinsip etibarı ilə bəyənilsin və bu məsələ ilə bağlı N.Nərimanovun, İ.Stalinin fikri öyrənilsin və Siyasi Büronun növbəti iclasında müzakirə edilsin.[70] Siyasi Büronun bu qərarından bir gün sonra Komintern İcraiyyə Komitəsi Bakıda Şərq xalqlarının qurultayının çağırılması ilə bağlı məsələni geniş şəkildə müzakirə edib, Şərqdə inqilabi işin genişləndirilməsinin əhəmiyyətini əsaslandıran qərarlar qəbul etdi .[71] İyunun 22-də Siyasi Büro yenidən bu məsələyə qayıdaraq, Orconikidze və Stasovaya tapşırdı ki, əlavə edilmiş yoldaşlarla birlikdə Bakıda Şərq xalqlarının qurultayını hazırlamaq məqsədilə təşkilat bürosu yaratsınlar. G.Zinovyevə tapşırıq verildi ki, elə həmin gün qəbul edilmiş qərar barədə birbaşa xəttlə Orconikidzeyə məlumat versin.[72] Siyasi Büronun bu

[68] B.Mdivaninin Kuçek xana məktubu. 09.09.1920.// RDSSTA, f.495, s.90, i.17, v.5-6

[69] Mirzə Kuçek xanın B.Mdivaniyə məktubu. 11.09.1920.// RDSSTA, f.495, s.90, i.49, v.23

[70] RKP MK Siyasi Bürosunun iclasının 21 saylı protokolundan çıxarış. 18.06.1920.// RDSSTA, f.17, s.3, i.89, v.1

[71] Daha ətraflı məlumat üçün bax: S.Rüstəmova – Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919 - 1943, s.94-97

[72] RKP MK Siyasi Bürosunun iclasının 22 saylı protokolundan çıxarış. 22.06.1920.// RDSSTA, f.17, s.3, i.92, v.2

qərarına müvafiq olaraq Kominternin İcraiyyə Komitəsinin iclası toplandı və müzakirələrin gedişində belə qərara alındı ki, Kominternin iyul ayında keçiriləcək II konqresindən dərhal sonra Bakıda Şərq xalqlarının qurultayı keçirilsin. Qurultayı hazırlamaq üçün Təşkilat Bürosu yaradıldı, həmin büroya Q.Orconikidze sədrlik, E.Stasova isə katiblik etməli idi. Onlardan əlavə N.Nərimanov, A.Mikoyan və digərləri də Təşkilat Bürosuna daxil edilmişdilər. Bütün hazırlıq işlərinin yekunu olaraq, iyunun 26-da RKP MK Siyasi Bürosu Bakıda Şərq xalqlarının qurultayının çağırılması haqqında rəsmi qərar qəbul etdi.[73] Bakıda Şərq xalqlarının qurultayının keçirilməsi ideyasının "Moskva hökumətindən gəldiyini" 1920-ci ilin sentyabr ayında Bakıda olan Türkiyədəki İtaliya missiyasının üzvü Aleksandr Bodrero da yazırdı. O, haqlı olaraq qeyd edirdi ki, "Bolqarıstandan tutmuş Yaponiyaya qədər böyük bir ərazidə məskunlaşmış millətlərin nümayəndələri Bakı qurultayına toplansalar da, lakin, aydın idi ki, qurultay xüsusi olaraq, Kiçik Asiya və Orta Şərqin müsəlman xalqları üçün təşkil olunmuşdur".[74] Qurultaya 2 mindən çox nümayəndə dəvət edilmişdi ki, bunların da 200-dən artığı İrandan idi. Sentyabr ayının 1-də Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov Şərq xalqlarının I qurultayını açdı. Qısa nitqində o dedi: "Bizə birinci olaraq əxlaq və mədəniyyət haqqında anlayışlar vermiş qoca Şərq bu gün burada göz yaşları tökəcək, burjua ölkələrinin kapital dünyasının ona gətirdiyi bəlalar və vurduğu ağır yaralar haqqında danışacaq. Şərqin bu xalqları, onların hər biri ayrı-ayrılıqda öz həyatlarını yaşayırlar, bu kapitalın əzici təsiri, onun fəlakətləri haqqında bilməyə bilməzlər. Lakin bu gün burada onlar biri-birilərinin vəziyyətləri ilə tanış olduqca, bizim qarşımızda geniş mənzərə açılacaq və yalnız onda Şərqin bütün bu xalqları həmin kapitalın əzici və fəlakətli təsiri haqqında daha çox şey öyrənəcəklər, bu da həmin xalqları birləşməyə məcbur edəcək, onlar belə bir nəticəyə gələcəklər ki, bilavasitə qüvvələri birləşdirmək yolu ilə bu kapitalın zəncirlərini qırmaq olar".[75]

Qurultayın gündəliyində çox məsələlər var idi. Lakin bir çox məsələlərin izahında İranda cərəyan edən hadisələrə deklarativ də olsa toxunulurdu. Gilan

[73] Политбюро ЦК РКП (б) – ВКП (б). Повестки дня заседаний. Том 1. 1919-1929. Каталог. Москва, 2000, с.71

[74] Aleksandr Bodrero. Bakıya səfər haqqında hesabat. 18.09.1920.// Archives d'Ali Mardanbey Toptchibachi, carton n° 1. CERCEC, EHESS, Paris, p.9

[75] Первий съезд народов Востока. Стенографической отчет. Баку, 1-7 сентября 1920 г. Петроград, 1920, с.27-28

inqilabının əhəmiyyətini nəzərə alaraq, İrandan gəlmiş nümayəndələri sosialist ideyaları ilə silahlandırmaq üçün qurultayda edilən məruzələr və çıxışlar bir qayda olaraq fars dilinə tərcümə edilirdi. Qurultayın ilk günlərində Sovet Rusiyasının və Kominternin nümayəndəsi kimi, Şərq xalqlarının qarşısında çıxış edən G.Zinovyev və K.Radekin məruzələri daha çox təbliğatı məzmuna malik olub, anti-ingilis xarakteri daşıyırdı.[76] Qurultayda İran nümayəndələri adından əsas məruzəçi kimi H.Əmioğlu çıxış etdi. Lakin İran inqilabının gedişində yol verilmiş səhvlər, bolşeviklərin Gilanda kommunizm qurmaq cəhdlərinin uğursuzluğu, İKP MK-nın rəhbəri olaraq, A.Sultanzadənin sol qruplaşmasının əməlləri barədə onun məruzəsində heç nə deyilmədi. İran kommunistləri adından qurultayın ikinci iclasında A.Sultanzadənin deyil, H.Əmioğlunun məruzə etməsi N.Nərimanovun təkidi ilə baş tutmuşdu. Qurultayın işinə rəhbərlik edənlərdən biri kimi, K.Radek az sonra RKP MK Siyasi Bürosuna məlumat verirdi ki, Şərq xalqlarının Bakı qurultayının gedişində aydın oldu ki, "N.Nərimanov başda olmaqla, azərbaycanlı yoldaşlar A.Sultanzadənin rəhbərlik etdiyi bir qrup İranlı kommunistlə işləməkdən imtina edirlər. Bunun faktiki səbəbi yoldaş Nərimanov və digərlərinin antierməni əhval-ruhiyyəsi idi, onlar bəyan edirdilər ki, bir erməni kimi Sultanla İranda işləmək olmaz. Halbuki, Kominternin məlumatına görə, Türkiyədən fərqli olaraq İranda ermənilərə nifrət (ermənifobiya) olmayıb və yoxdur. Azərbaycanlılar Heydər xana ümid bəsləyirlər və onu gələcək inqilabi demokratik hərəkatın rəhbəri hesab edirlər. Qurultayda Heydər xan da, Sultanzadə də zahirən Kominternin intizamına tabe idilər. Qurultay başa çatdıqdan dərhal sonra Sultanzadə faktiki olaraq, Bakı işlərindən sıxışdırılıb çıxarıldı".[77] K.Radek qeyd edirdi ki, Heydər xan Azərbaycan rəhbərliyinin əhəmiyyətli yardımı ilə İran işlərində irəli çəkilir. Sovet Azərbaycanının Gilandakı hadisələrə müdaxiləsi İran tərəfinə də bəlli idi və Tiflisdəki İran konsulu Azərbaycan Xarici İşlər Komissarlığına göndərdiyi 13 sentyabr 1920-ci il tarixli notasında buna öz etirazını bildirirdi.[78]

Bakı qurultayının gedişində Heydər xan sentyabr ayının 4-də İran nümayəndələrinin yığıncağını təşkil edib Gilan hadisələrində buraxdığı səhvlərə görə İKP MK-ya qarşı bir sıra ittihamların irəli sürülməsinə nail

[76] Ətraflı məlumat üçün bax: S.Rüstəmova – Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919 - 1943, s.107-117

[77] В.Ленис. Красная Персия. Большевики в Гиляне. 1920-1921, с.272

[78] Tiflisdəki İran konsulunun Azərabaycan SSR Xarici İşlər üzrə Xalq Komissarına notası.13.09.1920.// RDSSTA, f.17, s.86, iş125, v.33

oldu. 121 nəfərin iştirak etdiyi yığıncaqda İKP MK Kuçek xanla əlaqələrin kəsilməsində, RKP-nin qərarlarının pozulmasında, milli inqilabi qüvvələrə qarşı çıxışların nəticəsi olaraq, Gilan Respublikasının xəzinəsinə vəsait axınının dayanmasında, çoxsaylı Tehran kazaklarının inqilabi qüvvələrə qarşı çevrilməsinə səbəb olmuş Həmədan dəstəsinin Rəştdə tərksilah edilməsində, Kuçek xanın irəliyə doğru hərəkətinə süni maneələr yaradılmasında, Tehran, Təbriz və Astarada əhalinin inqilabi əhval-ruhiyyəli hissəsini öz tərəfinə çəkə bilməməsində, Mazandarana uğursuz yürüşdə, MK-nın qərarlarını doğru və düzgün yerinə yetirən dövlət aparatının yaradılmamasında, kəndlilərə çox pis münasibətində, Rəştdən cinayətkarcasına qaçmaqda və digər məsələlərdə ittiham edildi.[79] İKP MK-nın köhnə tərkibini solçuluqda ittiham edən Heydər xan və onun tərəfdarları praktiki baxımdan özləri də solçuluqdan irəli getmirdilər. Heydər xan belə hesab edirdi ki, keçmiş İran beynəlmiləl dəstələri zəminində Bakıda, milli əsasda İran Qırmızı ordusunu formalaşdırıb, Təbrizi tutub, orada sovet respublikası elan etmək və sonra isə Tehrana hücum etmək lazımdır.[80]

Qurultayın sonuncu iş günü, sentyabr ayının 7-də təşkilatı məsələlərə baxılıb, Kominternin İcraiyyə Komitəsi yanında Şərq xalqlarının Təbliğat və Fəaliyyət Şurası yaradıldı. Daimi fəaliyyət göstərəcək bu orqan Şərqdə təbliğat işlərini təşkil etməli, Şərq xalqlarının dilində jurnal və digər çap materialları buraxmalı, Şərqdə kadr hazırlığını intensivləşdirmək üçün İctimai Elmlər Akademiyası açmalı idi. Şurada N.Nərimanov, Q.Orconikidze, M.Pavloviç S.Kirov, habelə, Şərq ölkələrindən bəzi nümayəndələr, o cümlədən İrandan H.Əmioğlu və A.Sultanzadə daxil idilər.[81]

Şərq xalqlarının Bakı qurultayının materiallarından aydın olur ki, siyasi və ideoloji baxımdan qurultayda hər şey Sovet Rusiyasının siyasətinə tabe edilib. Şərq xalqlarının kommunist və sol təməyyüllü təşkilatlarının bu ilk böyük toplantısından Sovet Rusiyasının İngiltərəyə qarşı istifadə etmək cəhdləri açıq-aydın görünürdü və bu meyli N.Nərimanov hələ qurultaydan əvvəl hiss etmişdi. Bakı qurultayından hələ ay yarım əvvəl, o, Lenindən soruşurdu: həqiqətənmi Şərqin əzilən çoxmilyonlu kütlələrinin mənafeyi bolşeviklər üçün belə əzizdir? "Əgər Şərq yoldaş Çiçerinin he-

[79] Şərq xalqlarının I qurultayının İranla kommunist nümayəndələr qrupunun iclasının qətnaməsi. 04.09.1920.// RDSSTA, f.495, s.90, i.5, v.7-8

[80] Bax: В.Генис. Красная Персия. Большевики в Гиляне. 1920-1921, с.278

[81] Первий съезд народов Востока. Стенографической отчет. Баку, 1-7 сентября 1920 г., с.219

sab etdiyi və əməli cəhətdən həyata keçirdiyi kimi, İngiltərəni susdurmaq məqsədilə bizim üçün müvəqqəti silahdırsa, onda başqa məsələ, bizi sakit buraxın."[82] Məhz, Şərq xalqlarının təmtəraqlı Bakı qurultayından az sonra N.Nərimanov bilavasitə G.Çiçerindən İran işlərinə müdaxilə etməmək barədə məktub almışdı və orada deyilirdi ki, İran inqilabçılarına hər hansı təsir göstərməyə son qoyun, bu bizə İngiltərə ilə əlaqələr yaratmağa mane olur. 1920-ci ilin mayında Londonda başlanmış Sovet Rusiyası ilə Britaniya arasında danışıqları aparan sovet nümayəndələri, məhz, sentyabrın 1-də Bakıda Şərq xalqlarının qurultayı işə başlayan gün Britaniya ərazisindən çıxarılmışdılar. Bakıda Şərq xalqlarının qurultayından bir ay sonra isə Britaniya xarici işlər naziri lord Kerzon Çiçerinə göndərdiyi notada bu qurultayı "Britaniya hökumətinin Asiyada mənafeyinə qarşı əsl təbliğat, fitnə-fəsad və sui-qəsd aktı" adlandırırdı.[83] Çiçerinin həmin vaxt İran hadisələrinə müdaxilə etməmək barədə Nərimanova məktubu heç şübhəsiz ki, Britaniyanın Sovet Rusiyasına təzyiqinin bilavasitə təzahürü idi. Elə bu baxımdan da Nərimanov Bakı qurultayının nəticələrindən mütəəssir olmuşdu və üç il sonra istehzalı formada yazırdı: "Biz Şərq xalqları nümayəndələrinə göstərmək istəyirdik ki, görün necə gözəl və çox danışmağı bacarırıq, bizdə fotoqrafiya işi gör necə təkmilləşib ki, natiqləri bütün pozalarda çəkirlər. Başqa heç bir şey yox idi. Lloyd Corc əllərində siyirilmiş xəncər, tapança, qılınc, bıçaq tutub Avropa kapitalına hədə-qorxu gələn Şərq xalqları nümayəndələrinin fotoşəklini alıb, yəqin ki, gülümsəmiş və yoldaş Çiçerinə yazmışdır: "Biz Sovet Rusiyası ilə ticarət əlaqələrinə dair danışıqlar aparmağa razıyıq."[84]

Gilana ezam edilmiş Ş.Eliava cəbhədə ciddi dəyişiklərə nail ola bilmədiyindən sentyabrın 14-də Moskvya göndərdiyi teleqramda Sovet Rusiyasının bundan sonra İranda siyasətinin üç formasını təklif edirdi. Birinci təklif ondan ibarət idi ki, mərkəzi Qəzvin-Tehran olmaqla, İranı tam işğal etmək və sovet qüvvələrinin mərkəzini Sovet Azərbaycanı ilə həmsərhəd olan İran Azərbaycanına keçirmək. Onun fikrincə, bu yalnız Bakının əldə saxlanması üçün deyil, həm də Kirmanşah istiqamətinə hücum etmək üçün zəruri idi. İkinci, Eliava belə hesab edirdi ki, İran hökuməti ilə formal olaraq, İngiltərə əleyhinə, lakin mahiyyət etibarı ilə ingilispərəst (anqlofil) danışıqlara başlamaq və bundan təşviqat-təbliğat işlərində istifadə edib, gələcəkdə bizim İranda maraqlarımızı təmin edən hərbi əməliyyatlara baş-

[82] В.Генис. Красная Персия. Большевики в Гиляне. 1920-1921, с.268

[83] S.Rüstəmova – Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919 – 1943, s.144

[84] N.Nərimanov. Uçqarlarda inqilabımızın tarixinə dair (I.V.Stalinə məktub). Bakı, 1992, s.13

lamaq olar. Üçüncüsü, bütün hallarda Gilanda olan hərbi hissələri və siyasi işçiləri oradan çıxarmaq və oraya Şərqdə bizim vəzifələrimizi anlayan yeni adamlar gətirmək. Eliava etiraf edirdi ki, İran Kommunist Partiyası iranlılardan ibarət deyildir.[85] Bir gün sonra Moskvaya göndərdiyi məlumatda Eliava Çiçerini inandırmağa çalışırdı ki, Xəzər dənizində Rusiyanın "qapısı" olan Ənzəli limanını əldə saxlamaq lazımdır. O, əsaslandırmağa çalışırdı ki, Ənzəli sovetlərin nəzarətində olsa, bu bir tərəfdən ingilisləri burada aviabaza yaratmaq imkanından məhrum edər və Bakı üzərinə uçuşlar təhlükəsini azaldar, digər tərəfdən isə Tehranla danışıqlar başlayacağı halda Sovet Rusiyasının əlində güclü təzyiq vasitəsinə çevrilərdi.[86]

1920-ci ilin iyulun sonunda yaradılmış Ehsanulla xan hökuməti elə də uzun ömürlü olmadı. Sentyabr ayının ortalarında hökumət kommunistlərdən təmizləndi və onun tərkibinə burjua və hətta, mülkədar nümayəndələrindən ibarət yeni adamlar daxil edildi.[87] Cəbhədəki məğlubiyyət və hökumətin tərkibindəki dəyişiklikdən sonra İKP MK öz qərargahını Rəştdən Bakıya köçürməli oldu. Sentyabr ayının 17-də N.Nərimanov, M.Pavloviç, E.Stasova və Ş.Eliavanın iştirakı ilə Bakıda "Şərq xalqlarının təbliğat və fəaliyyət şurası"nın rəyasət heyətində Gilandakı məğlubiyyətin səbəbləri geniş müzakirə edildi və göstərildi ki, İranda sovet siyasətinin nüfuzdan düşməsinin başlıca səbəbi əhali arasında heç bir dayağı, populyarlığı və real gücü olmayan "Ədalət" partiyasına arxalanaraq "sosialist respublikası" elan etmək olmuşdur. Müzakirələrin gedişində etiraf edildi ki, tələsik kommunist tədbirlərinin həyata keçirilməsi talançılıqla nəticələnib və əhalini sovet siyasətindən narazı salmışdır. Eyni zamanda, Sovet Azərbaycanında həyata keçirilən bolşevik siyasətində yol verilmiş səhvlərin kəndli üsyanları ilə müşayiət edilməsi və bu səhvlərin İrana mənfi təsir göstərdiyi müzakirələrdə qeyd olunurdu. Tam məxfi olaraq, Moskvaya göndərilən yekun sənəddə yazılırdı: "Azərbaycanda yerli rəhbərlərin özlərinin etiraflarına görə, orada Sovet hakimiyyəti müstəsna olaraq, rus süngüsü üzərində dayanır."[88] Bir

[85] Ş.Eliavanın V.Leninə, G.Çiçerinə və L.Trotskiyə teleqramı. 14.09.1920.// RDSSTA, f.670, s.1, i.51, v.121

[86] Ş.Eliavanın G.Çiçerinə teleqramı. 15.09.1920.// RDSSTA, f.670, s.1, i.51, v.122

[87] Q.S.Fridlyandın məlumat vərəqəsi. Sentyabr, 1920. // Rusiya Dövlət Hərbi Arxivi (RDHA), f.110, s.1, i.84, v.11

[88] Şərq xalqları fəaliyyət və təbliğat şurasının rəyasət heyətinin qərarı. 17.09.1920.// RDSSTA, f.64,s.1, i.20, v.58

vaxtlar Tehrana hücumun həvəsi ilə yaşayan Q.Orconikidze də İraqndakı məğlubiyyətdən bədbinliyə qapılmışdı. Sentyabrın 19-da, o, artıq Leninə yazırdı ki, "İrandan heç nə çıxmayacaq, nəinki sosialist inqilabı çıxmayacaq, ümumiyyətlə, heç nə çıxmayacaq. Mənim fikrimcə, ya orada bizim hissələri gücləndirib necə lazımsa, zərbə endirmək lazımdır, sonra isə torpağı kəndlilərə vermək zəminində hərəkatı qaldırmaq olar. Bunu indi biz edə bilmərik. Deməli, əgər mümkün olsa, İranla sülh bağlayıb, bizim qüvvələr oranı azad edənə qədər, müvəqqəti olaraq, oradan çıxmaq lazımdır."[89]

Tehran üzərinə yürüşün məğlubiyyətini İKP ilə əlaqələndirməyə güclü meyllər olduğundan sentyabr ayının 20-də İKP MK geniş izahat məktubu hazırlayıb RK(b)P MK-ya, surətini isə G.Çiçerinə və G.Zinovyevə göndərdilər. Onlar yazırdılar: "Bizi günahlandırırlar ki, biz Moskvanı məlumatlandırmadan, mərkəzlə razılaşdırmadan öz xəttimizi həyata keçirmişik. Bu ittiham əsassızdır. Qafqaz Bürosunun, onun ardınca İran bürosunun üzvləri bizə Moskva ilə birbaşa əlaqə qurmağı qadağan etmişdi... İran Bürosu öz üzvləri olan Mdivani və Mikoyan vasitəsi ilə qəti surətdə bəyan etmişdi ki, İKP MK bilavasitə İran Bürosunun rəhbərliyi altında işləməlidir və onunla hesablaşmalıdır. Müstəqilliyə hər hansı kiçicik cəhd olacağı təqdirdə, onlar bizi Azərbaycan Kommunist Partiyasının və RKP-nin bütün yardımından məhrum edəcəklərini bildirmişdilər. Buna uyğun olaraq, biz İran bürosunun göstərişlərini rəhbər tuturduq." Məktubda Kuçek xanın inqilabi hadisələrdən uzaqlaşması daha çox N.Nərimanovun İran tacirlərinin əmlakını müsadirə etməsi və B.Mdivaninin Kuçek xanı nüfuzdan salmaq üçün aqrar inqilaba başlamaq haqqında İran Bürosunun qətnaməsini Gilana gətirməsi ilə izah edilirdi. Onlar Kuçek xan hökumətinin devrilməsinin bilavasitə Mdivani və Mikoyanın rəhbərliyi altında baş verdiyini yazırdılar.[90] Bu məktub və digər mənbələrdən alınan məlumatlara əsasən, İran Bürosu bağlandıqdan az sonra A.Mikoyan, V.Lominadze, B.Mdivani "sol" qruplaşmanın digər üzvlərini İran işlərindən uzaqlaşdırıldılar. Bununla da Gilan inqilabının birinci mərhələsi Sovet Rusiyasının İranda ciddi məğlubiyyəti ilə başa çatdı.

[89] Q.Orconikidzenin V.Leninə teleqramı. 19.09.1920.// RDSSTA, f.85, s.5c, i.4, v.5

[90] İKP MK-nın RKP MK-ya məktubu. Surəti Çiçerinə və Zinovyevə. 20.09.1920.// RDSSTA, f.5, s.2, i.144, v.4

§3. İran inqilabına münasibətdə Bakı ilə Moskva arasında fikir ayrılıqları və Sovet İran müqaviləsinin imzalanması

Gilandan fərqli olaraq, Cənubi Azərbaycanda hadisələr bolşeviklərin istədiyi kimi cərəyan etmədi. 1920-ci ilin aprelində Təbrizdə baş verən üsyanı bolşeviklər öz maraqlarına yönəltmək istəsələr də, Kuçek xandan fərqli olaraq Şeyx Məhəmməd Xiyabanı bolşeviklərlə məsafə saxlamağa üstünlük verdi. Heydər Əmioğlu N.Nərimanova məktubunda yazırdı: "Əgər biz iki min tüfəng və buna uyğun sursat alsaq, mən Heydər xan sizi əmin edirəm ki, iki aydan sonra Tehranı alarıq."[91] Təbrizdə gedən prosesləri diqqətlə izləyən Azərbaycan SSR-də Fövqəladə Komissiyanın xüsusi müvəkkili Lander 1920-ci ilin iyulunda Moskvaya göndərdiyi məktubda yazırdı ki, "indi İran Azərbaycanında vəziyyət bizim üçün çox əlverişlidir və orada hərəkat o qədər güclüdür ki, İran Azərbaycanı mərkəzi Təbriz olmaqla, özünün Tehrandan müstəqilliyini elan edib".[92] Azərbaycanın sovetləşməsinin gedişində Rusiya bolşeviklərinin ölkənin müstəqilliyinə məhəl qoymaması Xiyabanini ehtiyatlı hərəkət etməyə vadar etdi. Onun fikrincə, Bakıda son söz rusların olduğu üçün və onların Azərbaycanda qəsbkar siyasət yürütdüyü üzə çıxınca Xiyabaninin rus yardımının təmənnasız olduğuna şübhələri artmağa başladı.[93] Rus bolşevikləri ilə əməkdaşlıqdan riqqətə gələn və az sonra bu əməkdaşlığın qurbanına çevrilən Mirzə Kuçek xandan fərqli olaraq, Təbriz hərəkatının lideri Ş.M.Xiyabani, ona təklif edilən yardımlardan imtina edərək, "İranı yalnız iranlı azad etməlidir" fikrinə üstünlük verdi.[94] Hadisələrin təhlili göstərir ki, hərəkatın ilkin mərhələsində kiçik hallar istisna olmaqla, Ş.M.Xiyabani bolşevizmə qarşı barışmaz mövqe tutub. Yalnız öz gücünə arxalanar Xiyabani Tehrana qarşı irəli sürdüyü tələblərdə İranda respublika elan edilməsi, Azərbaycana muxtariyyət verilməsi, İran konstitusiyasının əncümənlər (şuralar) haqqında maddəsinin həyata keçirilməsi, bütün xarici qoşunların və hərbi müşavirlərin ölkədən qovulması, Vüsuq üd-Dövlə hökumətinin istefaya göndərilməsi və 1919-cu ildə imzalanmış ingilis – iran sazişinin

[91] H.Omioğlunun N.Nərimanova məktubu. 1920.// Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.28, s.1, i.172, v.160

[92] Landerin Krestinski, Menjinski, Dzerjinsi və Leninə "Azərbaycan və İran" adlı məktubu. Iyul,1920. //RDSSTA, f.17, s.86, i.125, v.29

[93] N.Fatemi. Diplomatikc History of Persia, 1917-1923. New York, 1952, p.250

[94] T.Swietochowski. Russia and Azerbaijan. A Borderland in Transition. New York, 1995. p.97; S.Rüstəmova – Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919 – 1943. s.231

ləğv edilməsi, Rusiya hökuməti ilə diplomatik münasibətlərin qurulması və ticarət əlaqələrinin yaradılması kimi məsələlərə üstünlük verirdi.[95] Xiabani mübarizənin çıxış nöqtəsini ölkənin içərisində axtardığından Azərbaycana müraciət edərək deyirdi: "Sən zəifləmiş bir pəhləvan, gücdən düşmüş bir qəhrəmana oxşayırsan ki, onu cəsarətləndirmək, yenidən ayağa qaldırmaq üçün onun qeyrət, heysiyyət və izzət-nəfsinə təsir etməkdən güclü tədbir və vasitə ola bilməz. Hamıdan əvvəl sən özünə yardım göstərməlisən, sən özün-özünə nicat verməlisən!"[96] Şeyxin dönməz iradəsi üsyana ümummilli xarakter verdi və Tehran nümayəndələri Təbrizi tərk etməli oldu. İyunun sonunda Təbrizdə hakimiyyət Ş.M.Xiyabani başda olmaqla, milli hökumətin əlinə keçdi. Xiayabanin silahdaşlarından olan İsmayıl Əmir Xizinin təklifi ilə yeni yaranmış dövlətin adını "Azadistan" qoydular. Əmir Xizi məsləhət gördü ki, Azərbaycan məşrutə yolunda çox səylər etdiyindən və İrana azadlıq gətirdiyindən, dünyada artıq Azərbaycan adlı dövlət olduğundan milli azadlığına qovuşmuş ölkənin adını "Azadistan" qoysunlar. Xiyabanı bu fikri qəbul etdi və dedi: "Azərbaycanın adını Azadistana dəyişərək, bu gündən bu adı rəsmi ad kimi elan edirik."[97]

İlk dövrlərdə Təbrizin ictimai qüvvələrinin böyük bir hissəsi Xiyabani hökumətinin müdafiə edirdi. Demokratlar xalq təhsili sisteminin yaxşılaşmasına ciddi səy göstərirdilər. Təbrizdə aztəminatlı ailələrin uşaqları məktəb təhsili ilə əhatə olunmuşdu. Tədris doğma türk dilində aparılırdı, bir sıra məktəblərdə qızlar üçün siniflər açılmışdı. Xiyabani tez-tez xalq qarşısında çıxış edir və İran cəmiyyətinin demokratikləşməsinin, müasir dünyaya qovuşmasının zəruriliyini izah edirdi.[98]

Ş.M.Xiyabaninin Şimali Azərbaycana münasibətdə ehtiyatlı mövqeyi hərəkatın ilk dövrlərində Azərbaycan Xalq Cümhuriyyətinin ingilislərin təsirində olması, sonrakı dövrdə isə Sovet Azərbaycanının Rusiya tərəfindən işğal edilməsi ilə bağlı idi. O, istər, İngiltərə, istərsə də, Rusiya tərəfindən olsun, bütövlükdə, xarici müdaxilənin əleyhinə idi. Xiyabani bəyan etmişdi ki, əgər bolşeviklər İranın ərazisinin hər hansı hissəsini ilhaq etsələr, "onda İran Azərbaycanı sonuncu adamına qədər müdaxiləçilər əleyhinə döyüşəcəkdir."[99]

[95] T.Swietochowski. Russian Azerbaijan. 1905-1920. The Shaping of National identity a Muslim community. Cambridge University Press, 1985, p.187

[96] Ş.M.Xiyabani. Azərbaycan və Azərbaycan demokratiyası. Bakı, 1961, s.10

[97] S.Ə.Kəsrəvi. Tarix-e hijdahsale-ye Azərbaycan. Tehran, 1353/1974, s.873

[98] С.М.Алиев. История Ирана. XX век, с.111

[99] T.Swietochowski. Russian Azerbaijan. 1905-1920, p.187

Şübhəsiz ki, Xiyabani Sovet Azərbaycanda cərəyan edən hadisələrə biganə deyildi. AXC-nin devrilməsi Təbriz üsyanı ilə eyni vaxta düşdü və "Xiyabanini Bakıdakı 28 aprel çevrilişi çox ağrıtdı. O, bu çevrilişi Nərimanov rejimi ilə ticarət və diplomatik əlaqələr saxlamağa ümid bəsləyən keçmiş hümmətçilərin qələbəsi kimi qiymətləndirirdi... Lakin mayın 18-də Kuçek xana kömək məqsədilə Ənzəliyə Qızıl Ordu qüvvələrinin yeridilməsi ilə Xiyabaniyə aydın oldu ki, Azadistanı təhlükə gözləyir. Bolşevik qüvvələri, guya, Azərbaycana daxil olmaq niyyəti ilə Zəncana dönəndə, sosial bazası bazar tacirlərindən və sənətkarlardan ibarət olan Təbriz demokratları Ənzəliyə qüvvələr yeridilməsini pisladilər."[100] Digər tərəfdən, Şimali Azərbaycanda bolşevizmin öz mahiyyətini açıq şəkildə ortaya qoyması və sovet siyasətinin bilavasitə rus süngüsünə söykənməsi, sovetləşməyə qarşı müqavimətin qan içərisində boğulması Xiyabaninin Şimalın azad olacağına ümidlərini sarsıtdı. İndi artıq "Azadistan Arazın şimalında müqavimət hərəkatına qarşı edilən amansız zülmdən canını qurtarıb, qaçan azərbaycanlıların sığınacağına çevrilirdi. Qaçqınlar içərisində Gəncə üsyanında iştirak etmiş piyada polku da var idi."[101]

Şeyx Məhəmməd Xiyabani Azərbaycan demokratiyasına İranı azad edəcək qüvvə kimi baxsa da, xalqların azadlığına və müstəqilliyinə də böyük önəm verirdi. O, hər bir xalqın müstəqilliyinə xüsusi əhəmiyyət verərək deyirdi: " Bir xalqın şərəfəti üçün birinci şərt onun müstəqil olmasıdır. Müstəqil olmayan bir xalqın əzmi və hörməti yoxdur."[102]

Gilanda və Azərbaycanda cərəyan edən hadisələrin təsiri altında İranda siyasi vəziyyət getdikcə gərginləşirdi. İngilispərəst Vosuq üd-Dövle hökumətinin istefasından sonra hakimiyyətə gələn Müşir üd-Dövle hökumətinin birinci hədəfi Azərbaycan oldu. Təbrizə yeni vali təyin edilən Müxber üs-Səltənə (Mehdi-Qulu xan) narazı qüvvələri öz tərəfinə çəkərək, ilk növbədə isə, Təbriz yaxınlığında dayanmış komandanı rus olan İran kazak alayı ilə sazişə girərək, 1920-ci ilin sentyabr ayının 12-də Azadıstanın üzərinə yeridi. Xiyabaniyə sadiq olan qüvvələr həmin vaxt ölkənin şimalında yerli feodalların azğınlığına qarşı mübarizəyə cəlb olunduğundan kazak dəstələri güclü müqavimətlə qarşılaşmadı və 3 gün ərzində Təbrizi tutdular. Demokratlara və onlara rəğbət bəsləyənlərə amansız divan tutul-

[100] T.Svyatoçovski. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Xəzər Universitəsi, 2000, s.132-133

[101] Yenə orada, s.134

[102] Ş.Tağıyeva, Ə.Rəhimli, S.Bayramzadə. Güney Azərbaycan. Bakı, 2000, s.195

du, sentyabrın 13-də Şeyx Məhəmməd Xiyabanı öldürüldü. Son iki gecəni, o, yaxın dostu Hacı Şeyx Həsən xanın evində qalmışdı. Şeyx Həsən xanın Müxber üs-Səltənədən onun üçün can təhlükəsizliyi istəmək təklifinə Xiyabani belə cavab vermişdi:"Mən ölməyi təslim olmaqdan üstün tuturam. Düşmənlərin qarşısında diz çökmərəm. Mən məşrutiyyət dövrünün uşağıyam, ərəb xilafətinə baş əyməyən Babək Xürrəminin sülaləsindənəm."[103] Bununla da, Sovet Azərbaycanının açıq və gizli şəkildə diqqət mərkəzində olan İranın inqilab ocaqlarından biri söndürüldü və Təbrizdə yenidən Tehranın hakimiyyəti bərpa edildi.

Sovet Azərbaycanın rəhbərliyi, istər, Təbriz, istərsə də, Gilandakı məğlubiyyətə və xüsusilə İran Bürosunun bağlanmasına biganə qalmadı. Sentyabr ayının 8-də N.Nərimanov Azərbaycanın Moskvadakı nümayəndəsi B.Sahtaxtinskiyə məxvi məktubunda Qırmızı Ordunun Azərbaycanda azğınlığından və Mikoyan, Qoqoberidze, Lominadze dəstəsinin təxribatçı fəaliyyətindən şikayətlənir, onların ciddi cəhdlə əhali arasında Azərbaycan İnqilab Komitəsinin nüfuzunu aşağı salmağa yönəlmiş fəaliyyətini təsvir edirdi. O yazırdı: "Bədbəxtlik ondadır ki, məsuliyyətsiz adamlar inqilab adı altında əksinqilabi fəaliyyətlərinə rəvac verirlər. İran inqilabında elə həmin şey olmadımı? Elə həmin Mikoyan oradan qayıdıb, bizim hamımızı səhv yola yönəltdi. Onun məruzəsi əsasında Kuçek xan əleyhinə hərəkətlər başladı, yeri gəlmişkən, mən həmişə bundan ehtiyat edirdim. Nə oldu? İndi biz ancaq Ənzəlini əlimizdə saxlamaq barədə fikirləşirik. Mən açıq deyirəm: mənə qulaq asmadılar, bunun nəticəsində indi İran inqilabı üzərində dəfn marşı oxumaq lazım gələcək." N.Nərimanov B.Sahtaxtinskiyə bildirirdi ki, Lenin və Çiçerin qarşısında belə bir qəti sual qoymaq lazımdır: "Onlar Azərbaycan SSR hökumətinə etibar edirlərmi?" O açıq şəkildə bildirirdi ki, Şərqdə indi bizim xeyrimizə çevriliş etmək barədə düşünmək mənasızdır, belə ki, İran "işbazlarının" əməlləri nəticəsində o bizim üçün müvəqqəti ölmüşdür. N.Nərimanov xəbərdarlıq edirdi ki, "əgər onlar Bakını saxlamaq istəyirlərsə, bizim səsimizi eşitməlidirlər. Bu İran haqqında məsələyə də aiddir. Yeri gəlmişkən, Eliava İrandan qayıdıb və deyir ki, çoxlarını həbs etmək lazımdır. Mənim nöqteyinəzərim tamamilə özünü doğrultdu. Mdivani mənə qulaq asmadı, indi qalan hissələri xilas etmək barədə fikirləşmək lazımdır. Bütün bunları gördüyün zaman susa bilmirsən və mən də susmağı, şirmə olmağı arzulamıram.[104]

[103] Ali Azeri. Azadıstan devleti ve Şeyh Mühammed Hiyabani, 1918-1920. Ankara, 1994, s.266

[104] N.Nərimanovun B.Sahtaxtinskiyə məktubu. 08.09.1920.// RDSSTA, f.85, s.2c, i.3, v.61

N.Nərmanovdan belə sərt məktub aldıqdan sonra sentyabrın 20-də Azərbaycanın Moskvadakı səlahiyyətli nümayəndəsi B.Sahtaxtinski V.Leninə geniş məktubla müraciət etdi. O yazırdı: "İran hərəkatının uğurlu təşkili bizim təsir imkanlarımızı Hindistanda, Mesopotamiyada və Ərəbistanda artırardı, Sovet Rusiyasının Şərq xalqlarını həqiqətən azad və müstəqil görmək arzusunu müsəlman dünyasının gözündə təsdiq edərdi. Lakin təəssüf ki, bizim İranda bacarıqsız siyasətimiz İranın xalq kütlələrini bizim əleyhimizə çevirdi və indi onlar bizə münasibətdə düşmən mövqedə dayanırlar."[105] Vəziyyətin ciddiliyini nəzərə alaraq, B.Sahtaxtinski təklif edirdi ki, Azərbaycanda, İranda və Türkiyədə işləri elə adamlara etibar etmək lazımdır ki, onlar yerli şəraiti və şərq ölkələri xalq kütlələrinin psixologiyasını bilirlər. O yazırdı: "Yuxarıda göstərilən ölkələrdə siyasətə rəhbərlik etmək üçün ən uyğun şəxs şərqdə məşhur olan yoldaş Nərimanovdur. Əməkdaşların seçilməsində, Mərkəzin nəzarəti altında Şərqdə işin taktiki gedişlərinin həyata keçirilməsində ona hüquq vermək lazımdır. Deməyə eytiyac yoxdur ki, Nərimanov üçün, digər müsəlman kommunistləri üçün Şərqdə kommunizmin təntənəsi onların həyatlarının ali məqsədidir."[106] Onun Nərimanov haqqında təklifinin qəbul olunmayacağı təqdirdə, B.Sahtaxtinski yüksək nüfuzlu partiya işçisi kimi, Stalinin Bakıya gəlməsini və bu işlərə rəhbərlik etməsini məqsədəuyğun sayırdı.[107]

N.Nərimanovun ciddi təkidi ilə "sol" qruplaşma İran işlərindən uzaqlaşdırılsa da, lakin həmin dövrdə Şərq xalqlarının qurultayı ilə bağlı Bakıda olan Kommunist İnternasionalının İcraiyyə Komitəsinin sədri G.Zinovyev təkidlə RKP MK-nın Təşkilat Bürosuna təklif edirdi ki, A.Mikoyan, V.Lominadze və "sol" qrupun digər üzvlərinin Bakıdan geri çağırılması haqqında olan qərar ləğv edilsin. Onun fikrincə, "onların Bakıdan geri çağırılması repressiya və Nərimanov tərəfdarlarının mötədil hissəsinin siyasətinin müdafiə edilməsi kimi qiymətləndirilə bilər."[108] Düzdür, N.Nərimanov sonralar etiraf edirdi ki, A.Mikoyanın qatı əleyhdarı olsa da, lakin onu Nərimanovun iştirakı olmadan İran işlərindən uzaqlaşdırmışdılar. Onun sözlərinə görə, Mikoyanın Bakıdan geri çağırılmasına nəyin səbəb olduğunu dəqiq bilmir. O, bilmir ki, "bu onun İrandakı kommunist inqilabı ilə bağlı idi, yaxud digər səbəb var idi."[109]

[105] B.Sahtaxtinskinin V.Leninə məktubu. 20.09.1920.// AR Pİİ SSA, f.1, s.1, i.2a, v.27

[106] Yenə orada, v.28

[107] Yenə orada, v.30

[108] G.Zinovyevin RKP MK Təşkilat Bürosuna məktubu. Sentyabr, 1920.// RDSSTA, f.17, s.112, i.72, v.9

[109] RDSSTA, f.85, s.2c, i.3, v.17

Gilanda baş vermiş hadisələr İKP MK-nın oktyabr ayının 25-26-da Bakıda keçirilən iclasında geniş müzakirə edildi. İçlasda Şərq Xalqlarının Fəaliyyət və Təbliğat Şurasından N.Nərimanov, M.Pavloviç İ.Hakkı və A.Skaçko, Türkiyə kompartiyasından M.Sübhi və digərləri iştirak edirdi. Orada A.Sultanzadə və H.Əmioğlunun İranda kommunistlərin taktikası haqqında məruzələri dinlənildi. A.Sulatanzadə İrandakı məğlubiyyətdə bir sıra daxili və xarici amillərlə yanaşı, Azərbaycan K(b)P MK-nın və İrandakı Rusiya bolşevik ordusunun komandanlığının Gilan hadisələrinə müdaxiləsi ilə izah edirdi. A.Sultanzadədən fərqli olaraq, H.Əmioğlu məğlubiyyətin əsas səbəbini İKP MK-nın rəhbərliyində axtarır, Kuçek xanla əlaqələrin kəsilməsini isə bilavasitə A.Sultanzadənin günahı hesab edirdi. N.Nərimanov A.Sultanzadənin çıxışında Azərbaycan rəhbərliyinin ünvanına səsləndirilən tənqidi mülahizələrə aydınlıq gətirmək üçün ondan xahiş etdi ki, altı ay əvvəl İrana birinci dəfə yollanan zaman aralarında olan söhbətin məzmununu iclas iştirakçılarına desin. A.Sultanzadə bildirdi ki, o zaman Kuçek xandan bizim yoldaşları avantürist adlandıran məktub gəlmişdi və o, heç bir partiya ilə işləməyəcəyini bildirmişdi. Mən o zaman təklif etdim ki, aqrar inqilabı zəruri hesab edirəm və onsuz da mülkədarlar heç vaxt inqilaba tərəfdar olmayacaqlar. Mən həmişə bu nöqteyi-nəzərdə olmuşam və indi də belə hesab edirəm ki, İranda yalnız ingilislər və şah əleyhinə deyil, mülkədarlar əleyhinə də mübarizə aparmaq lazımdır. N.Nərimanov isə öz növbəsində əlavə etdi ki, "6 ay əvvəl Sultanzadə məndən məsləhət istədi, *mən ona İranda hansı yolla getməyi göstərdim*, o, *mənimlə* razılaşmadı və ayrı yolla getdi. Yalnız indi 6 aydan sonra o bildirir ki, mənim göstərdiyim yolu doğru hesab edir. Lakin, o, son 6 ayda bu yolla getmədi."[110] İclas yekunda İKP MK-nın buraxılması haqqında Fəaliyyət Şurasının qərarını doğru sayıb onun qüvvədə saxlanmasını məqsədəuyğun hesab etdi.

1920-ci ilin payızında İran kommunistləri və Bakı bolşevikləri arasında mübahisələrin kəskinləşdiyi, onların Tehrana hücumla bağlı taktiki məsələlərin müzakirəsində mübahisələri səngimək bilmədiyi bir vaxtda, Gilandakı ciddi məğlubiyyətdən özünə gələ bilməyən Moskva daha çox İran hökuməti ilə danışıqlara girib, diplomatik münasibətlər yaratmaq yoluna üstünlük verdi. L.Karaxanın 9 sentyabrda əsaslandırdığı hücum taktikasının əksinə olaraq, hələ sentyabrın 20-də RKP MK plenumu Tehranla danışıqlara başlamaq haqqında

[110] İKP MK və İranın məsul işçilərinin iclasının stenoqramından. 25-26.10.1920.// RDSSTA, f.544, s.3, i.2, v.67

qərar qəbul etmişdi. Orada deyilirdi: "Xalq Xarici İşlər Komissarlığına tapşırılsın ki, ingilislərə qarşı Ənzəlinin bizim əlimizdə qalmasını təmin etməklə şah hökuməti ilə danışıqlara başlasınlar. Eyni zamanda, Stalinə həvalə edilirdi ki, Sovet Rusiyasının Qafqazdakı və Şərqdəki siyasətini qaydaya salsın".[111]

Artıq İran tərəfindən də Moskva ilə diplomatik münasibətlər yaradılması istiqamətində bir sıra təşəbbüslər olmuşdu. 1920-ci ilin oktyabr ayında fövqəladə səfir kimi, Rusiyaya yola düşən Müşavir ül-Məmalik oktyabrın ortalarında yolüstü Bakıya gəlmiş, Sovet Azərbaycanının rəhbəri N.Nərimanov və xarici işlər komissarı M.D.Hüseynov, habelə, Moskvanın Azərbaycanda canişini rolunu oynayan Q.Orconikidze ilə görüşmüşdü. Sonuncu Moskvaya məlumat verirdi ki, səfir Sovet Rusiyası ordularının İrandan çıxarılması və Rəşt cəbhəsinin ləğv edilməsinin, Moskva ilə Tehran arasında barışığın yaradılmasının arzu edilən bir iş olduğunu bildirdi.[112] Səfirlə danışıqlarda N.Nərimanov açıq şəkildə bildirdi ki, Gilanda olan ordu və üç gün əvvəl ora göndərilən yeni qüvvələr Azərbaycana məxsusdur, ingilislər əleyhinə olan bu inqilabi ordunun köməkliyi ilə Azərbaycanın maraqları müdafiə edilir. Nərimanovun bu fikrinə istinad edərək, Orconikidze bəyan etdi ki, Sovet Rusiyasının İranda heç bir ordusu yoxdur və ona görə də, bu zəmində hər hansı barışıqdan söhbət gedə bilməz, eyni zamanda, o bildirdi ki, biz İran hökuməti ilə Azərbaycan hökuməti arasında vasitəçi olmağa hazırıq. Lakin Londondakı İran səfiri hələ sentyabrın 7-də Çiçerinə nota göndərərək, İrandakı ordu hissələrinin Sovet Rusiyasına məxsus olduğunu bildirmişdi. O yazırdı ki, İran tərəfi Gilana ordu yeridəndə M.Şutov adlı döyüşçü ələ keçirmişdir və sorğu-sual zamanı o etiraf etmişdir ki, onun xidmət etdiyi 800 nəfərlik alay ruslardan ibarətdir və komanda heyətinin hamısı ruslardır. İran səfiri təəssüf edirdi ki, belə xoşagəlməz hallar fövqəladə səfirin Moskva ilə danışıqlara başlamağa hazırlaşdığı bir vaxtda baş verib. Olbəttə, Londondakı İran səfiri Qafar xanın notası Çiçerini çıxılmaz vəziyyətdə qoyurdu. O Hərbi Dəniz Komissarlığına yazırdı, biz bəyan edirik ki, İranda ordumuz yoxdur. ora ordu göndərmirik, lakin əsirlər göstərir ki, İranda ordu var, həqiqətən qalmaqala bənzər bir şey alınır. Eyni zamanda, Çiçerin Nərimanovdan soruşurdu ki, bu qalmaqal necə baş verib? Axı Gilan hissələri könüllülər, yaxud İran ordusunda xidmət edənlər kimi hesab olunmalı idi.[113]

[111] RKP MK plenumunun qərarı. 20.09.1920.// RDSSTA, f.17, s.2, i.34, v.3

[112] М.А.Персиц. Застенчивая интервенция. О советском вторжении в Иран и Бухару в 1920-1921 гг., с.141-142

[113] Yenə orada, s. 142-143

Şərq xalqlarının Bakı qurultayından sonra İrana münasibətdə öz mövqelərini bir qədər bərpa edən N.Nərimanov ona yaxın olan Heydər xana və digər İran kommunistlərinə Kuçek xanla əlaqə yaratmağı tövsiyə edir, özü də bu əlaqənin yaradılmasına yardım göstərirdi. Şəxsi nümayəndəsini Gilana göndərməklə Nərimanov Kuçek xanla birbaşa əlaqə saxlamağa üstünlük verirdi. Kuçek xan yazdığı məktublarda Nərimanovu "Şərqdə inqilabi hərəkatın rəhbəri, dünyada ilk müsəlman siyasi partiyasının yaradıcısı, özünün tarixi əsərlərində Şərqin mənəvi dünyasının və məişətinin bütün incəliklərinə varan yazıcı" kimi qiymətləndirirdi. Kuçek xan N.Nərimanovun İran inqilabi ilə yaxınlığını əks etdirən məktubunun onda böyük təəssürat yaratdığını bildirir, Nərimanova yaxın olan Heydər xanı "əziz dost" sayır və onun İrana gəlişinin Gilan inqilabına müsbət təsir göstərəcəyini yazırdı.[114] 1920-ci ilin noyabr ayının əvvəllərində Stalinin Bakıya gəlişi zamanı İKP MK-da yaranış vəziyyət və Sovetlərin Şərq siyasəti ilə bağlı məsələlər geniş müzakirə edildi. Stalin kommunistlərin Kuçek xanla əlaqə qurmalarının əleyhinə oldu. Bununla belə, o, Kuçek xanla əlaqə qurmağın əsas tərəfdarlarından biri olan Heydər xanı müdafiə etdi. Hətta, Stalinlə Bakıda keçirilən Qafqaz Bürosunun, Azərbaycan İnqilab Komitəsinin və digər sovet təşkilatlarının birgə iclasına A.Sultanzadə deyil, məhz, Heydər xan dəvət edildi.[115] Noyabrın 16-da Leninə göndərdiyi məlumatda Stalin İKP MK-nın tərkibinin yeniləşdiyini, Sultanzdənin və digərlərinin yerinə təcrübəli İran inqilabçısı Heydər xanın və Bakıdakı iranlı fəhlələrin əlavə edildiyini, İranda inqilabi işin mərkəzinin daha çox inqilabi vilayət hesab edilən Təbrizə köçürülməsi haqqında direktiv verildiyini yazırdı. İ.Stalin İranda yalnız orta siniflərə arxalanan burjua inqilabının mümkün olduğunu və bununla bağlı İran komunistlərinə müvafiq göstərişlər verildiyini bildirirdi.[116] Noyabrın 27-də RKP MK Siyasi Bürosu Stalinin Qafqaz işləri haqqında geniş məruzəsini dinləyib, müvafiq qərarlar qəbul etdi. Siyasi Büro Stalinə tapşırırdı ki, Çiçerinlə danışıb, Qafqaz dövlətləri ilə həmsərhəd olan ölkələrə münasibətdə daha düzgün xarci siyasət yeritməyin əlavə imkanlarını müəyyən etsinlər. Siyasi Büronun qərarında deyilirdi: "Gürcüstana, Ermənistana, Türkiyəyə və İrana münasibətdə hər şeydən əvvəl müharibədən qaçmağa yönəlmiş maksimum barışdırıcı siyasət yeri-

[114] Bax: S.Rüstəmova – Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919 – 1943, s.268-269

[115] İ.Stalinin Qafqaza səfəri haqqında hesabat. Noyabr, 1920.// RDSSTA, f.5, s.3, i.258, v.3

[116] İ.Stalinin V.Leninə teleqramı. 16.11.1920.// Rusiya Federasiyası Dövlət Arxivi (RFDA), f.130, s.4, i.464, v.119

dilsin. Öz qarşılarına, Gürcüstana, Ermənistana, İrana yürüş etməyi nəzərdə tutan vəzifələr qoyulmasın. Başlıca vəzifə Azərbaycanın mühafizəsi və bütün Xəzər dənizinə qəti şəkildə sahib olmaqdan ibarət hesab edilsin."[117] Bu qərardan bir neçə gün əvvəl Siyasi Büro noyabr ayının 15-də F.Rotşteyni Sovet Rusiyasının İranda nümayəndəsi vəzifəsinə təsdiq etmişdi.[118] Onun haqqında Çiçerinin Siyasi Büroya hazırladığı əsaslandırmada Rotşteynin İngiltərənin dünya siyasətindən yaxşı baş çıxardığı, xüsusilə, İngiltərə - İran münasibətlərinə dərindən bələd olduğu, İranın müasir tarixini yaxşı bildiyi qeyd olunurdu. Çiçerin Rotşteynin qeyd edilən keyfiyyətlərini sadaladıqdan sonra bu vəzifəyə "bizim yoldaşlar içərisində ona bərabər kimsənin olmadığını" vurğulayırdı.[119] Noyabr ayının 28-də XXİK F.Rotşteynin RSFSR-in Tehrana səlahiyyətli nümayəndəsi təyin olunduğunu İran hökumətinə bildirdi. Lakin bu qərarlara və rəsmi olaraq, danışıqların başlanmasına baxmayaraq, bolşeviklərin Gilanda davam edən mübarizənin gedişinə hərbi-siyasi müdaxiləsi hələ bir müddət davam etdi. 1920-ci ilin noyabrında İrandakı sovet ordusunun komandanı dəyişdirildi. Q.Orconikidzenin əmri ilə N.Qikalo Bakıya dəvət edildi və İran ordusunun komandanı vəzifəsində Vasili Karqaretelini əvəz etdi.[120] N.Qikalo noyabr ayının 29-da İran inqilabi ordusunu qəbul etdi. Bu zaman həmin ordunun şəxsi heyəti 3 min piyada və 300 süvari döyüşçüdən ibarət idi. N.Qikalo Q.Orconikidzeyə yazırdı ki, bu ordu mənəvi cəhətdən düşkünləşib və belə ordu ilə, o, üzərinə qoyulan vəzifəni yerinə yetirə bilməz. Xüsusilə, N.Qikalo İranda olan Azərbaycan ordusundan şikayət edir, onun vuruşmaq istəmədiyini, qızıl əsgər simasını itirdiyini və cəza metodlarının gücləndirilməsinə baxmayaraq, onun sıralarında neqativ meyllərin çoxaldığını yazırdı. Nəhayət, N.Qikalo bildirirdi ki, əhali sovetlərə xoş münasibət bəsləmir və İrana ancaq rus hərbi hissələri göndərmək lazımdır.[121] Lakin N.Qikalonun bir sıra təkliflərinə baxmayaraq, İran inqilabi ordusunda vəziyyəti dəyişmək mümkün olmadı. 1921-ci ilin əvvəlləri üçün İran inqilabi ordusunda 3.500 nəfər adam xidmət edirdi. Bunun 800 nəfəri yerli əhalidən, qalanları isə Rusiya və Azərbaycan qırmızı ordusunun nümayəndələrindən ibarət idi.[122]

[117] RKP MK Siyasi Bürosunun iclasının 66 saylı protokolundan çıxarış.27.11.1920.// RDSSTA, f.17, s.3, i.125, v.1

[118] Политбюро ЦК РКП (б) – ВКП (б). Повестки дня заседаний. Том 1. 1919-1929, с.84

[119] G.Çiçerin N.Krestinskiyə.14.11.1920.// RDSSTA, f.5,s.2, i.12, v.57

[120] Q.Orconikidzenin V.Trifonova təcili teleqramı.22.11.1920.// RDSSTA, f.85, s.2, i.2, v.252

[121] N.Qikalonun Q.Orconikidzeyə raportu. 10.12.1920.// RDSSTA, f.85, s.2, i.27, v.12

[122] Azərbaycan İnqilab Komitəsinin İranda müvəkkilinin müavininin Azərbaycan SSR Xarici işlər komissarına məlumat. 14.02.1921.// AR DA, f.28, s.1, i.108, v.4

Göründüyü kimi, Nərimanovun vasitəçiliyi ilə Kuçek xanla əlaqələrin bərpası istiqamətində kiçik irəliləyişlər olsa da, 1920-ci ilin payızından başlayaraq, Sovet Rusiyası İranla danışıqlar aparmaq və diplomatik münasibətlər yaratmaq siyasətinə rəsmi xarakter verməyə başladı. 1920-ci ilin dekabr ayının əvvəllərində RKP MK Siyası Bürosu, az sonra isə MK plenumu G.Çiçerinin təklifi üzrə İngiltərə ilə imzalanacaq ticarət müqaviləsinin və İranla hazırlanan müqvilənin əsas prinsiplərini təsdiq etdi.[123] RKP MK Plenumu İranla müqavilənin mətnini təsdiq edən gün, dekabrın 7-də L.Karaxan Bakıya Ş.Eliavanın adına teleqram göndərib, sovet qoşunlarının Ənzəli və Rəştdən çıxarılma şərtlərini bildirdi. L.Karaxan yazırdı ki, Ənzəli və Rəştdən sovet ordularının çıxarılması ingilislər İran ərazisini tərk etmək haqqında qərar qəbul etdikdən dərhal sonra baş verməlidir, bu qərardan sonra bizim tərəfimizdən izahı verilməklə təntənəli şəkildə bəyan ediləcək ki, həmin ərazilər Ənzəli və Rəştdə Azərbaycana hücum etmək üçün hərbi bazaları yaradıb, onları silahlandıran ingilislərlə bağlı olduğundan, həmin ərazilər müstəsna qaydada öz sərhədlərini mühafizə etmək məqsədilə, Azərbaycan Respublikasının Qırmızı ordusu tərəfindən tutulmuşdu. L.Karaxan xəbərdarlıq edirdi ki, Ənzəlinin sovet qoşunlarından təmizlənməsi haqqında müqavilə imzalanana qədər Ehsanulla xan hökuməti dərhal ləğv edilməlidir.[124] 1921-ci ilin yanvar ayının 6-da İran hökuməti ilə danışıqların başa çatması haqqında L.Karaxan RKP MK-ya məlumat verdi. İranda fəaliyyət göstərən siyasi partiyaların leqallaşdırılması bəndindən başqa MK-nın direktivlərinin bütövlükdə yerinə yetirildiyi məlumatda göstərilirdi. İran tərəfi haqlı olaraq, siyasi partiyalar adı altında kommunist və sol partiyaların ölkədə xarici dövlətlə *(Sovet Rusiyası ilə - C.H.)* imzalanmış müqaviləyə əsasən fəaliyyət göstərməsinə ciddi müqavimət göstərirdi. Onlar yalnız fəaliyyəti İran konstitusiyasına zidd olmayan, zor gücünə dövlətin və ictimai quruluşun dəyişdirilməsinə cəhd göstərməyən siyasi partiyaların fəaliyyətini mümkün hesab edirdilər. L.Karaxan XXİK-nın adından təklif edirdi ki, sovetlərin iddia etdiyi maddənin müqaviləyə salınmasında təkid edilərsə, müqavilənin imzalanması uzanar və onu İran Məclisindən keçirmək mümkün olmaz. Ona görə, XXİK qeyd edilən maddənin İran tərəfinin təklif etdiyi məzmunda

[123] RKP MK Siyasi Bürosunun iclasının 66 saylı protokolundan çıxarış. 04.12.1920.// RDSSTA, f.17, s.3, i.126, v.1; RKP MK Plenumunun protokolundan çıxarış. 07.12.1920.// RDSSTA, f17, s.2, i.42, v.3

[124] L.Karaxanın Ş.Eliavaya teleqramı.07.12.1920.// RDSSTA, f.85, s.2, i.34, v.41

verilməsini məqbul sayırdı.[125] Bundan başqa, Sovet Rusiyasının müqaviləyə əlavə olaraq, gizli protokollar imzalanması təklifi də İran tərəfindən qəti etirazla qarşılanmışdı. Sovetlərin təbirincə, gizli protokollar müqavilə imzalayan tərəflərin ərazisində düşmən qüvvələrin fəaliyyətinin qadağan edilməsi, üçüncü ölkənin İran ərazisindən hərbi məqsədlə istifadə cəhdi olarsa, Sovet Rusiyasına öz qoşunlarını İrana yeritməyə hüquq verməsi kimi, xüsusi halları nəzərdə tutmalı idi. Lakin İran tərəfi gizli protokol imzalamağa etiraz edib qeyd edilən müddəaların əsas müqaviləyə salınmasını mümkün hesab etdi.[126]

Sovet-İran danışıqlarında ciddi mübahisəyə səbəb olan məsələlərdən biri də, İran tacirlərinin Bakıda müsadirə olunmuş əmlakının qaytarılması məsələsi idi. Dəyəri 30 milyon qızıl manata bərabər olan bu əmlakin qaytarılması haqqında N.Nərimanov AK(b)P MK və XKS ilə razılaşdırılmadan akt imzalasa da, lakin həmin əmlakın geri qaytarılması həyata keçirilməmişdi.[127] Konfransın gedişində İran nümayəndələri Azərbaycan hökumətinin başçısı Nərimanovun imzaladığı akta istinad edərək, İran vətəndaşlarının müsadirə olunmuş əmlakının geri qaytarılmasını tələb edirdilər. Danışıqların iştirakçısı olan Behbud Şahtaxtinski bu məsələnin Azərbaycanın daxili idarəçilik sitemi ilə bağlı olduğunu göstərsə də, İran nümayəndələri bununla razılaşmadılar və bildirdilər ki, "əgər hökumət başçısının imzası heç bir qüvvəyə malik deyilsə, onda bu hökumətin nümayəndəsinin imzasının onlar üçün nə əhəmiyyəti ola bilər?" Sovet-İran konfransının birinci plenar iclası bilavasitə bu məsələyə həsr edilmişdi və məhz, bu məsələ ilə bağlı razılıq əldə edilmədiyindən konfransın işində üç aylıq fasilə elan edilmişdi.[128] İran təbəələrinə münasibət məsələsi, hətta, Nərimanovla Çiçerin arasında ciddi ixtilaflara gətirib çıxarmışdı və iranlılara münasibətdə ikiüzlü siyasətinə görə, Nərimanov onunla dalaşmalı olmuşdu.[129] Bütün bu məsələlərdə ümumi razılıq əldə edildikdən sonra, 1921-ci ilin yanvar ayının 22-də L.Karaxan Müşavir ül-Məmalikə (Əli Quli xan Ənsari) xüsusi nota göndərib təklif etdi ki, Tehran nümayəndəsinin sədrliyi ilə xarici orduları (İngiltərə və Azərbaycan ordularını) İrandan çıxarmaq üçün İngiltərə-Azərbaycan birgə komissiyası yaradılsın.[130]

[125] L.Karaxanın RKP MK-ya məktubu. 06.01.1921.// RDSSTA, f.5, s.3, i.208, v.5-6

[126] Персидский фронт мировой революции. Документы о советском вторжении в Гилян (1920-1921), с.371-372

[127] B.Şahtaxtinskinin İ.Stalinə məktubu. Avqust 1923.// RDSSTA, f.85, s.2c, i.3, v.54

[128] B.Şahtaxtinskinin RK(b)P MK-ya məktubu. Avqust 1923.// RDSSTA, f.85, s.2c, i.3, v.50

[129] Н.Нариманов.Избранные произведения, том 2, с.449

[130] Документы внешней политики СССР. T.III. M., 1959, с.492

Gilanda fəaliyyət göstərən Ehsanulla xan, onun hökumətində İnqilab Komitəsinin üzvü Rza Sərxoş və İran Qırmızı ordusunun komandanı N.Qikalo fevral ayının 5-də V.Leninə təcili teleqram göndərib, şah hökuməti ilə müqavilə imzalanmasına etiraz etdilər. Onlar yazırdılar ki, şah da, atası və babası kimi, xalq tərəfindən seçilməyiblər və əsrlər boyu İranı məzarıstanlığa çevirib, xalqın azadlığa olan bütün cəhdlərini boğublar. Kiminlə olur-olsun, şah və onun hökuməti tərəfində imzalanan müqavilələr xalqa ziddir və xalq həmin müqavilələri tanıya bilməz.[131] Moskva danışıqları haqqında məlumatın yayılması, sovet silahlı qüvvələrinin İranı tərk edəcəyi reallığa cevrilməsi İran inqilabi hökumətinin ciddi narahatçılığına səbəb olmuşdu. Azərbaycan İnqilab Komitəsinin İrandakı müvəkkili fevral ayının 14-də Xarici İşlər Komissarlığına birdirirdi ki, bu məlumatlar yayıldıqdan sonra İran inqilabi hökuməti 10 gündən artıqdır ki, fasiləsiz olaraq iclaslar keçirib sovet qüvvələri İrandan çıxandan sonra necə hərəkət edəcəyinin fəaliyyət planını müzakirə edir.[132] Lakin bütün bunlara baxmayaraq, XXİK-nın təkidi ilə 1921-ci ilin fevral ayının 26-da Sovet Rusiyası ilə İran arasında müqavilə imzalandı. Həmin dövrdə Tehranda baş verən hadisələr də, öz növbəsində Sovet-İran müqaviləsinin imzalanmasını sürətləndirdi. Belə ki,1921-ci ilin fevral ayının 21-də kazak alaylarının köməyi ilə Tehranda dövlət çevrilişi həyata keçirildi və bu çevriliş nəticəsində Seyid Ziyaəddin baş nazir, kazak dəstəsinin başçısı Rza xan isə, hərbi nazir vəzifəsinə gəldi. Xarici siyasət sahəsində bu hökumətin ilk addımı Sovet Rusiyası ilə müqavilənin imzalanmasına razılıq vermək oldu.[133] Hələ həmin müqavilə imzalanmazdan bir neçə gün əvvəl, fevral ayını 21-də G.Çiçerin Q.Orconikidzeyə yazırdı ki, Krasin Londonda müqavilə imzalayana qədər İranla müqavilə bağlamaq zəruridir, lakin nə qədər ki, Ənzəlidə sovet hökuməti ləğv edilməyib, İran bizimlə müqaviləni imzalamayacaq.[134] Sovet xarici siyasət idarəsi rəhbərliyinin belə tərəddüdlərinin əksinə olaraq, fevral ayının 26-da Moskvadakı İran nümayəndəsi müqaviləni imzaladı. Onun preambulasında "İran xalqını müstəqil, çiçəklənən və azad" görmək arzusunun ifadəsi olaraq, Sovet Rusiyası Çar Rusiyasının İranla imzaladığı bütün müqavilə, saziş və

[131] Ehsanulla xan, Rza Sərxoş və N.Qikalonun V.Leninə təcili teleqramı. 05.02.1921.// RDSSTA, f.5, s.1, i.2198, v.3

[132] Azərbaycan İnqilab Komitəsinin İranda müvəkkilinin müavininin Azərbaycan SSR Xarici işlər komissarına məlumat. 14.02.1921.// AR DA, f.28, s.1, i.108, v.4

[133] M.Qasımov. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998, s.191

[134] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 21.02.1921.// RDSSTA, f.85, s.2, i.38, v.2

traktatları qüvvədən düşmüş hesab edirdi.[135] Müqavilənin birinci maddəsinə görə, RSFSR İrana münasibətdə zorakılıq siyasətindən imtina edirdi. Eyni zamanda, çar hökumətinin üçüncü dövlətlərlə İranın maraqlarının ziddinə imzaladığı müqavilələr ikinci maddəyə görə, Sovet Rusiyası tərəfindən qüvvədən düşmüş hesab edilirdi. Sovet Rusiyası İranın suverenliyini pozan və zəiflədən hər hansı sazişdə və müqavilədə iştirakdan imtina edirdi. Üçüncü maddəyə görə, Rusiya-İran sərhədləri 1881-ci il sərhəd konvensiyası ilə müəyyən olunduğu kimi qalırdı. Dördüncü maddəyə görə, tərəflər bir-birilərinin daxili işlərinə müdaxilədən imtina edirdilər. Beşinci maddəyə görə, tərəflər öz ərazilərində onlara qarşı mübarizə aparan təşkilatların, qrupların və ayrı-ayrı şəxslərin fəaliyyətinə icazə vermirdilər. Bu maddəyə görə, tərəflər müqavilədə olan digər tərəfin sərhədləri, maraqları və təhlükəsizliyi üçün qorxu törətməmək məqsədilə hər hansı üçüncü dövlətin silahlı qüvvələrinin öz ərazilərində yerləşməsinə imkan verməməli idilər. Altıncı maddəyə görə, İran ərazisindən Rusiyaya və onunla müttəfiq dövlətlərə təhlükə yarandığı təqdirdə, Rusiya Sovet hökumətinin xəbərdarlığından sonra İran öz gücü ilə onu dəf edə bilməyəcəyi halda, Rusiya özünümüdafiə məqsədilə zəruri tədbirlər görə bilərdi, yəni, İrana qoşun yeridə bilərdi. Bu təhlükə aradan qaldırıldıqdan sonra sovet ordusu təcili olaraq, İran ərazisini tərk etməli idi. Müqaviləyə bu maddənin daxil edilməsi İrana münasibətdə İngiltərəni ehtiyatlı hərəkət etməyə vadar edirdi. On birinci maddəyə görə, İranın Xəzər dənizində öz bayrağı altında donanma saxlamaq hüququ Rusiya Sovet hökuməti tərəfindən tanınırdı. Müqavilənin digər maddələri poçt-teleqraf, nəqliyyat və iqtisadi xarakterli məsələləri tənzim edirdi. 26 maddəlik Sovet-İran müqaviləsinin təxminə 7 maddəsi bu və ya digər dərəcədə Azərbaycanla bağlı idi. Bu müqaviləni şərh edən M.Ə.Rəsulzadə özünün "Bolşeviklərin Şərq siyasəti" əsərində Sovet Rusiyasının Şərqdəki "səxavətinin" Qərbdəki "rəqabətləri" ilə həmahəng olduğunu yazırdı. İran üçün bir sıra əlverişli məqamlarına baxmayaraq, 26 fevral 1921-ci il müqaviləsi iddia edildiyinin əksinə olaraq, siyasi baxımda cla də bərabər hüquqlu müqavilə deyildi. Bu sənəddə əgər bir tərəfdən çar Rusiyasının imzaladığı qeyri-bərabər müqavilələr ləğv edilirdisə, digər tərəfdən altıncı maddə ilə yeni bir qeyri-bərabər münasibətlərin əsası qoyulurdu.[136] Müddətsiz imzalanmış Sovet-İran

[135] 26 fevral 1921-ci il Sovet-İran müqviləsinin mətni üçün bax: Советско-иранские отношения в договорах, конвенциях и соглашениях. МИД СССР. М., 1946, с.74-82

[136] Bax: Дж.Гасанлы. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны (1941-1946 гг.). М., 2006, с.9

müqaviləsi 1921-ci ilin mart ayının 20-də RSFSR Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi tərəfindən təsdiq edilsə də, İran tərəfi bütün mübahisəli məsələlərin həllinə qədər onun təsdiqini yubatmalı oldu. Lakin G.Çiçerin belə hesab edirdi ki, İranda hər hansı hökumət olursa-olsun müqaviləni ratfikasiya etməli olacaqdır. Onun fikrincə, bu müqavilə ilə İranda İngiltərəyə böyük mənəvi zərbə vurulmuş, Britaniya Sovet Rusiyası ilə hesablaşmağa məcbur edilmişdi. O, İran səfirinə notasında bildirirdi ki, Britaniya öz qoşunlarını İrandan çıxaracağı halda, Azərbaycan da, öz qoşunlarını Şimali İrandan çıxara bilər. Çiçerin bu işi həyata keçirmək üçün İran nümayəndəsinin başçılığı ilə Azərbaycan-İngiltərə komissiyası təşkil etməyi təklif etdikdə, İran səfiri İngiltərənin Azərbaycanla birgə komissiya yaratmağa razı olmayacağı, Britaniyanın belə bir komissiyanı Rusiya ilə yaratmağı arzuladığını bildirmişdi.[137]

§4. Bolşeviklərin İran təcrübəsinin iflası və Şərq siyasətinə münasibətdə Bakının ümidlərinin boşa çıxması

Müqavilə imzalandıqdan sonra demək olar ki, hər gün Gilan Respublikasının ləğv edilməsi ilə bağlı Rusiya Xarici İşlər Komissarlığından Bakıya direktivlər gəlirdi. Bunları nəzərə alaraq, N.Nərimanov və M.D.Hüseynov 1921-ci ilin mart ayının 17-də Tiflisdə olan Q.Orconikidzeyə teleqram vurub bildirdilər ki, "biz Gilan Respublikasının ləğv edilməsinin əleyhinə deyilik, yalnız biz bu məsələnin təcili başlanacaq Azərbaycan – İran danışıqlarının gedişində qaldırılmasını arzu edilən sayırıq. Dünən bizim bu məsələ ilə bağlı sorğumuza əsasən, Sahtaxtinski Çiçerinin rəyini öyrənib, bu gün bizə deməlidir. Əgər siz İranla *(Azərbaycan arasında – C.H.)* danışıqların başlanmasına tərəfdarsınızsa, xahiş edirik məlumat verin."[138]

Moskvada müqavilə imzalanmasına baxmayaraq, İran tərəfi Tehrana səlahiyyətli nümayəndə təyin edilmiş F.Rotşteyni demək olar ki, Gilan Respublikası mövcud olduqca, öz ərazisinə buraxmaq istəmirdi. İranın Bakıdakı konsulu mart ayının 21-də Moskvadakı fövqəladə səlahiyyətli səfirə yazırdı ki, Moskvadan əmr olmasına baxmayaraq, nəinki, Gilan Respublikası ləğv edilməyib, hətta onun ləğvi istiqamətində heç bir addım atılmayıb.[139]

[137] G.Çiçerinin V.Koppa məktubu. 20.03.1921.// RDSSTA, f.85, s.C/Türkiyə, i.29, v.42

[138] N.Nərimanov və M.D.Hüseynovun Q.Orconikidzeyə teleqramı. 17.03.1921.// RDSSTA, f.85, s.2, i.38, v.7

[139] İranın Bakıdakı konsulunun Moskvadakı fövqəladə səlahiyyətli səfirə teleqramı. 21.03.1921.// RDSSTA, f.85, s.2, i.38, v.8

F.Rotşteyn isə G.Çiçerinə göndərdiyi gizli teleqramda İran tərəfinin onun Tehrana buraxılmasını Gilan Respublikasının ləğvi və sovet qoşunlarının İrandan çıxması ilə əlaqələndirildiyini xəbər verirdi.[140] Yalnız, aprel ayının sonlarında bütün Şimali İranı dolaşdıqdan sonra Rotşteyn Tehrana gələ bilmişdi.[141] Onun Tehrana gəlişi ərəfəsində, martın 30-da, aprelin 2-də və 7-də Orconikidzeyə teleqramlarında Çiçerin Gilan respublikasının təcili olaraq, ləğv edilməsini qəti şəkildə tələb edirdi. O yazırdı: "Qəti şəkildə təkid edirəm ki, siz dəmir əllə bizim İranda siyasətimizin pozulma cəhdlərinə son qoyasınız, bununla bizim bütün şərq siyasətimiz pozulur. Heç bir halda yeni təxribata yol verməyin. Yerli adamları İranda təxribatdan çəkindirmək üçün qəti addımlar atın. Ehsanulla xan hökuməti təcili olaraq ləğv edilməlidir. Bu şah valisinin buraxılması *(Gilana – C.H.)* demək deyildir, belə ki, Azərbaycan SSR-in işğal rejimi ingilislər və azərbaycanlılar İrandan çıxana qədər Ənzəlidə qalır. Lakin bu anı gözləmədən Gilanda sovet hakimiyyəti məhz, indi buraxılmalıdır." [142]

Sovet Azərbaycanının rəhbərliyi Moskvadan gələn bu direktivə ciddi şəkildə müqavimət göstərirdi. F.Rotşteyn missiyasının Bakıda olan üzvü İ.Levin aprel ayının 11-də G.Çiçerinə göndərdiyi teleqramda yazırdı: Q.Orconikidzenin Gilan Respublikasının ləğvini qəti şəkildə tələb edən məruzəsini dinlədikdən sonra Ə.Qarayev dedi ki, Moskva Gilan Respublikasını ləğvini elan edə bilər, lakin Azərbaycan müstəqil respublika kimi, nəinki, Gilan Respublikasını ləğv etmir, əksinə, Tehran hadisələrini nəzərə alaraq, ona canlı qüvvə və vəsait göndərməklə hərtərəfli yardım göstərir. Digər tərəfdən isə Gilan hökumətinin üzvləri öz silahlı dəstələri ilə birlikdə ləğv olunmaq istəmirlər.[143] İyun ayının 4-də keçirilən RKP MK Qafqaz Bürosunun iclasında isə Orconikidze və Nərimanova tapşırıldı ki, İranda inqilabi hərəkatın vəziyyətini ətraflı araşdırıb, ona yardım göstərsinlər.[144]

Azərbaycan rəhbərliyinin və Ehsanulla xanın ciddi müqavimətinə baxmayaraq, Moskvanın təzyiqi ilə Q.Orconikidze may ayının 6-da İran Qırmızı ordusunu və onun Hərbi İnqilabi Şurasını buraxdı. Rəşt-Ənzəli rayonunda Azərbaycan SSR və XI ordunun hərbi hissələri əsasında ayrıca atıcı briqada yaradıldı və ləğv edilmiş İran İnqilab Ordusu da ora daxil edildi. Yeni hərbi

[140] F.Rotşteynin G.Çiçerinə teleqramı. 24.03.1921.// RDSSTA, f.5,s.1, i.2198, v.9
[141] Bax: F.Rotşteynin G.Çiçerinə təcili teleqramı. 27.04.1921.// RDSSTA, f.5, s.1, i.2198, v.13
[142] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 05.04.1921.// RDSSTA, f.85, s.2, i.38, v.12
[143] İ.Levinin G.Çiçerinə teleqramı. 11.04.1921.// RDSSTA, f.5, s.1, i.2198, v.11
[144] RKP MK Qafqaz Bürosunun iclasının 7 saylı protokolundan çıxarış. 04.06.1921.// RDSSTA, f.64, s.1, i.1, v.80

birliyin idarəçiliyi Azərbaycan atıcı briqadasına verildi və N.Qikalo briqada komandir təyin edildi. Ləğv edilmiş İran İnqilab Ordusunun bütün şöbələri Bakıya, Azərbaycan Hərbi Dəniz Komissarlığının sərəncamına göndərildi. Lakin hərbi xarakterli bu dəyişikliklərə və 1921-ci ilin may ayının 6-da Heydər xan başda olmaqla, İKP MK-nın Kuçek xanla əməkdaşlıq haqqında saziş imzalamasına baxmayaraq, 1921-ci ilin yayında Tehran üzərinə ikinci hücum cəhdi də uğursuzluğa düçar oldu. Sazişdə Sovet Rusiyası, Azərbaycan və Gürcüstan hökumətləri ilə dostluq münasibətlərinin inkişaf etdirilməsi və onlardan yardım alınması nəzərdə tutulurdu.[145]

6 may sazişindən sonra müəyyən məhəlli qələbələr olsa da, bütövlükdə, məğlubiyyətdən yaxa qurtarmaq mümkün olmadı. N.Nərimanovun Ehsanulla xanın Mazandaranda qazandığı qələbə haqqında teleqramı iyulun 13-də Moskvada, "İzvestia" qəzetinin səhifələrində dərc edildikdə, İran səfiri bundan Gilana rus könüllülərinin göndərildiyini təsdiq edən fakt kimi istifadə etdi və Çiçerinə məktubunda, məhz, Nərimanovun teleqramını misal gətirdi. Səfir XXİK-ə bildirmişdi ki, Azərbaycan üçün Rusiya-İran müqaviləsi kağız üzərində qalan bir şeydir.[146] G.Çiçerinin təklifi üzrə Siyasi Büro Azərbaycan hökumətini Gilan hadisələri ilə bağlı təkzib verməyə məcbur edən qərar qəbul etdi. Bu qərara uyğun olaraq, iyulun 26-da Azərbaycan SSR Xarici işlər komissarı M.D.Hüseynov bəyanat verib bildirdi ki, Azərbaycan hökumətinin Ehsanulla xanla heç bir əlaqəsi yoxdur və ona heç bir yardım göstərmir.[147] İyulun 29-da M.D.Hüseynov "Kommunist" qəzetində gedən bu təkzib haqqında şifrəli teleqramla G.Çiçerinə məlumat verdi.[148] İrandakı Sovet səfiri Rotşteyn Çiçerinə teleqram göndərib, Azərbaycanın bu işlərə müdaxiləsinin qarşısını almağa çağırırdı. O yazırdı: "İran inqilabçılarının ağılsızlığı qarşısında allah özü də gücsüzdür, lakin azərbaycanlılar əleyhinə mühüm addımlar atmaq zəruridir."[149] F.Rotşteyn ultimativ formada surəti Leninə göndərilməklə Çiçerinə yazırdı ki, ya Bakı İrana aid olan bütün məsələlərdə qeyd-şərtsiz mənə tabe olmalıdır, ya da mən Bakıya tabe olmalıyam. İkisindən biri olmalıdır. Və əgər mən Bakıya

[145] Kommunistlərlə (Heydər xan) cəngəlilər (Kuçek xan) arasında qüvvələri birləşdirmək haqqında saziş. 06.05.1921.// RDSSTA, f.544, s.3, i.70, v.123
[146] G.Çiçerinin RKP MK Siyasi Bürosuna məktubu. 14.07.1921.// RDSSTA, f.2, s.2, i.740, v.1
[147] "Kommunist", 1920, 26 iyul
[148] M.D.Hüseynovun G.Çiçerinə teleqramı. 29.07.1921.// RDSSTA, f.85, s.2, i.18, v.1
[149] F.Rotşteynin G.Çiçerinə teleqramı. 12.07.1920.// RDSSTA, f.5, s.1, i.2198, v.30

tabe edilirəmsə, onda mən bayrağı endirib İrandan getməyə məcburam.[150] Bir neçə gün sonra o, əlavə edirdi ki, əgər siz bu ikili siyasəti bəyənirsinizsə, onda mənim burada qalmağımın heç bir mənası yoxdur.[151] Eyni məzmunlu məktublarla F.Rotşteyn Azərbaycan Xarici İşlər Komissarlığına da müraciət edirdi. M.D.Hüseynova yazdığı məktubda o bildirirdi ki, sizin İrana dair ümumdövlət mənafeyinə zidd olan sırf Bakı siyasətiniz mənim boğazıma sümük kimi dirənib və tamamilə mənim işimi pozur. Hər nə qədər Bakı ilə özlərini inqilabçı kimi qələmə verən müxtəlif xanlar arasında qeyri-rəsmi əlaqələr davam edir, Tehran ilə düzgün münasibətlər qurmaq mümkün olmayacaq.[152] F.Rotşteyn xəbərdarlıq edirdi ki, mahiyyətcə bütün bu xanları öz mövqelərindən vurub, çıxarmaq İran inqilab ordusu üçün elə bir şey deyildir və Rza xan demək olar ki, gözlərində yaşla bunun üçün mənim icazəmi istəyir.[153] Əslində, 1921-ci ilin iyununda Sovet ordularının Gilandan çıxarılmasının yubanması İranda baş vermiş hökumət dəyişikliyi ilə bağlı idi. Həmin vaxt Qəvam üs-Səltənə başda olmaqla, yaradılan yeni hökumət kabineti Britaniya meylli olduğu üçün iyun ayının ortalarında F.Rotşteyn Orconikidze və Çiçerinə göndərdiyi teleqramlarda orduların çıxarılmasının müvəqqəti olaraq dayandırılmasını məqsədəuyğun sayırdı. O yazırdı: "Gilanda cəbhənin mövcud olması indiki anda şahın yeni kabinetini qorxuya salmaq üçün lazımdır. Mən kabinetə bir neçə tələb verdim, əgər təmin olunarsa, ordunu çıxarmaq üçün Sizə siqnal verəcəyəm. eyni zamanda, xahiş edirəm İran İnqilab Komitəsini və Kuçek xanı hər hansı çıxışdan saxlayın, hələlik Tehranı təhdid edən mövqeləri həmin məqsəd üçün əldə saxlamaq lazımdır. Mənim tələblərim qəbul olunacağı və ya bizim üçün daha münasib kabinet yaranacağı təqdirdə, İnqilab Komitəsini müdafiə etməyə son qoyarsınız. Bu barədə mən işarə verəcəyəm."[154] Kuçek xana kömək etməyi özündə ehtiva edən təxminən bu məzmunlu bir məktubu Rotşteyn iyunun 19-da G.Çiçerinə də göndərmişdi.[155] F.Rotşteyn eyni zamanda, İran Xarici İşlər Nazirliyinə göndərdiyi notalarda Sovet qoşunlarının Gilandan çıxdığını bildirirdi. G.Çiçerin bu notaların məzmunu ilə ta-

[150] F.Rotşteynin G.Çiçerinə teleqramı. 11.07.1921.// RDSSTA, f.5, s.1, i.2198, v.32
[151] F.Rotşteynin G.Çiçerinə teleqramı. 12-15.07.1921.// RDSSTA, f.5, s.1, i.2198, v.35
[152] Bax: S.Rüstəmova – Tohidi. Kominternin Şərq siyasəti və İran. 1919 – 1943. s.300
[153] Персидский фронт мировой революции. Документы о советском вторжении в Гиляи (1920-1921), с.403
[154] F.Rotşteynin G.Çiçerinə təcili teleqramı. 15.06.1921.// RDSSTA, f.85, s.2, i.38, v.13
[155] Bax: F.Rotşteynin G.Çiçerinə teleqramı. 19.06.1921.// RDSSTA, f.5, s.1, i.2198, v.24

nış olduqda F.Rotşteyni töhmətləndirdi ki, niyə, o, indi Sovet qoşunlarının Gilandan çıxması məsələsindən danışır. Çiçerin yazırdı: " Bizim qoşunlar oradan hələ keçən il, Raskolnikov oranı tərk edən zaman çıxıb, orada, yalnız, Azərbaycan ordusu qalıb."[156] F.Raskolnikov İrandan geri çağırılandan sonra Çiçerin həmişə öz yazışmalarında tövsiyyə edirdi ki, İranda sovet ordusu sözünü dilə gətirməsinlər və o xatırladırdı ki, Gilanda qalan hərbi hissələr "Azərbaycan işğal ordusu"nun hissələridir.[157] Təəssüflər olsun ki, Azərbaycanın "müstəqilliyi" yalnız belə ikili oyunlar zamanı yada düşürdü.

F.Rotşteyn Baş Nazir Mirzə Əhməd Qəvamla görüşündə kabinetin tərkibində bəzi dəyişiklərin olacağına vədlər alsa da, Qəvam həmin vədləri yerinə yetirmədi. Ona görə, Sovet səfiri 1921-ci ilin oktyabrında G.Çiçerinə göndərdiyi hesabatda yazırdı ki, "Qəvam aldığı məsləhətləri yerinə yetirməyə vəd vermişdi, lakin, o, məni və mənim şəxsimdə Sovet hökumətini aldatdı."[158] Yalnız Rotşteynin xahişi üzrə hərbi nazir Rza xanın təzyiqi ilə 1921-ci ilin oktyabrında Qəvam kabinetin tərkibində müvafiq dəyişiklikləri etdi.

F.Rotşteynin Moskva və Bakı ilə teleqram müharibəsindən sonra 1921-ci ilin avqust ayının ortalarında məzuniyyətdə olan V.Lenin özü işə qarışmalı oldu. O, Rotşteyni sakitləşdirdi ki, Çiçerinin məlumatına görə, bakılıların Ehsanulla xana hər hansı köməyinə son qoyulub. Lenin Tehrana göndərdiyi məktubda İranda ilk Sovet səfirinin ehtiyatlı siyasəti ilə "deyəsən" razı olduğunu bildirirdi.[159] Avqustun 15-də RKP MK Qafqaz Bürosunun Plenumu "İranda vəziyyət haqqında" Q.Orconikidzenin məruzəsini dinləyib qərara aldı ki, Kuçek xan və Ehsanulla xanın müdafiəsindən imtina edilsin, əgər onlar razıdırlarsa, təxliyə edilsinlər, İranda Kommunist Partiyasının təşkilatı işləri gücləndirilsin.[160] Bununla da 1920-ci ilin yazında başlanan Sovetlərin Gilan avantürası başa çatmaq üzrə idi.

Beləliklə, 26 fevral 1921-ci il müqaviləsindən sonra Sovet Rusiyasının Gilandakı inqilabi hərəkatı könüllülərin vasitəsi ilə aparmaq siyasəti heç bir nəticə vermədi. Sentyabr ayının 24-də F.Rotşteynin Bakının, guya, Tehranın üzərinə yürüşə hazırlaşdığı barədə "etibarlı mənbələrdən" aldığı və təcili

[156] G.Çiçerinin F.Rotşteynə teleqramı. 11.08.1921.// RDSSTA, f.5, s.1, i.2113, v.17
[157] G.Çiçerinin Q.Orconikidzeyə təcili teleqramı.18.04.1921.// RDSSTA, f.5, s.1, i.2097, v.23
[158] F.Rotşteynin G.Çiçerinə hesabatı. 08-10.10.1921.// RDSSTA, f.5, s.1, i.2153, v.32-35
[159] V.Leninin F.Rotşteynə məktubu. 13.08.1921. // RDSSTA, f.2, s.1, i.24615, v.1
[160] RKP MK Qafqaz Bürosu Plenumunun 16 saylı protokolundan çıxarış.15.08.1921.// RDSSTA, f.64, s.1, i.1, v.138

olaraq, Moskvaya ötürdüyü məlumat özünü doğrultmadı. O, Azərbaycan Sovet "imperializminin" öz planlarını İranın hesabına möhkəmləndirmək cəhdlərindən şübhələndiyini tam məxfi və şifrli teleqramla Çiçerinə bildirirdi.[161] F.Rotşteyn, sanki, "Gilan epopeyasından" xəbərsiz kimi, bu hadisələrin günahını Bakıda axtarmağa meylli idi. 1921-ci ilin sonlarında Çiçerinə göndərdiyi başqa bir teleqramda, o, yazırdı ki, köhnə rejim dövründə İrana Çar Rusiyasının az qala, qanuni bir malikanəsi kimi baxılırdı, İngiltərənin müqaviməti sayəsində İran Rusiyanin quberniyasına və ya quberniyalarından birinə çevrilmədi. "Mən şübhələnirəm, hətta, əminəm ki, bu imperialist instinkt bizim bakılı yoldaşlarda, müəyyən dərəcədə daşkəndli yoldaşlarda yaşayır."[162] Bütün bunlar 1921-ci ilin sentyabr-oktyabr aylarında Kuçek xanla H.Əmioğlu və bütövlükdə cəngəlilərlə kommunistlər arasında ziddiyyətləri daha da kəskinləşdirdi. Bu qanlı qarşıdurma həm Kuçek xanın, həm də H. Əmioğlunun məhvi, habelə, onların çoxsaylı tərəfdarlarının mübarizə səhnəsindən çıxması ilə nəticələndi. Oktyabr ayının 3-də RKP MK "İran haqqında" məsələni müzakirə edib, Kuçek xana və digər qüvvələrə Azərbaycan tərəfindən hər hansı yardım göstərilməməsinə nəzarət etmək funksiyasını S.Kirova tapşırdı və onun bu məsələlərə görə, şəxsən məsuliyyət daşıdığı qərarda qeyd edildi.[163] Noyabrın 7-də Ehsanulla xan öz tərəfdarları ilə birlikdə Ənzəlidən Bakıya gəldi. Bununla da, 1921-ci ilin noyabr ayının 8-də Bakıdan Q.Orconikidze və S.Kirov V.Lenin və İ.Stalinə təntənəli şəkildə bildirdilər ki, "İranda hər şey qurtardı."[164] İrandan gəlmiş qüvvələr əsasında Azərbaycanda qeyri-leqal "İranın azadlıq komitəsi" yaradılması haqqında Orconikidze və Kirovun Moskvaya təklifləri Siyasi Büroda süngü ilə qarşılandı və bu istiqamətdə hər hansı addımın atılması qadağan edildi.[165]

Müqavilənin təsdiqini yubadan digər məsələ isə, İran tərəfinin müqavilənin beşinci və altıncı maddələrindən narazı qalması idi. Bu maddələrin yanlış tərtib edilməsi ilə bağlı İran hökuməti 1921-ci ilin dekabr ayının əvvəllərində Sovet hökumətinə nota verdi. Lakin dekabr ayının 12-də Tehrandakı Sovet səlahiyyətli nümayəndəsi Rotşteyn qeyd edilən maddələrlə

[161] F.Rotşteynin G.Çiçerinə şifrəli teleqramı. 27.10.1921.// RDSSTA, f.2,s.2, i.1015, v.1

[162] F.Rotşteynin G.Çiçerinə teleqeramı. 15.12.1921.// RDSSTA, f.5, s.1, i.2153, v.93

[163] RKP Mk Siyasi Bürosunun iclasının 64 saylı protokolundan çıxarış. 03.10.1921. RDSSTA, f.17, s.3, i.210, v.3

[164] Q.Orconikidze və S.Kirovun V.Lenin və İ.Stalinə teleqramı. 08.11.1921.// RDSSTA, f.2, s.2, i.999, v.1

[165] RKP MK Siyasi Bürosunun iclasının 77 saylı protokolundan çıxarış. 17.11.1921. RDSSTA, f.17, s.3, i.231, v.1

bağlı İran tərəfinə izahat verib, bildirdi ki, bu maddələrə yalnız, Rusiya-ya və Sovet Respublikalarına qarşı silahlı basqın olduğu halda müraciət edilə bilər.[166] Yalnız bütün bunlardan sonra İran məclisi Sovet Rusiyası ilə 1921-ci ilin fevral ayının 26-da Moskvada imzalanmış müqaviləni həmin il dekabr ayının 15-də yekdilliklə təsdiq etdi.[167] 1922-ci ilin ilk günlərində Azərbaycan Xarici işlər komissarının müavini Andreyev artıq məlumat verirdi ki, "Gilan tamamilə ləğv edilmişdir. Ehsanulla xan Azərbaycanda gizlənmişdir. Kuçek xan öldürülmüşdür. Rotşteyn inqilabçılara Rəşti tərk edib, Rusiyada gizlənməyi təklif etmişdir. Qəvam üs-Səltənə Kuçek xanın kəsilmiş başını meydanda qoymaq istəsə də, Rotşteynin etirazından sonra bundan imtina etmişdir".[168]

İran inqilabının məğlubiyyəti N.Nərimanovun siyasi nüfuzuna böyük zərbə idi. O, bu məğlubiyyətin ağrısını ömrünün axırına qədər çəkdi və G.Çiçerinlə barışmadı. Sonralar İran məsələsinə qayıdanda N.Nərimanov açıq şəkildə İ.Əbilova yazırdı ki, "Çiçerinin Şərq siyasətində işlətdiyi fikirlər büsbütün yanlışdır. İran bizdən bilmərrə üz çöndərdi. Çiçerin ingilislərə aldanıb, bizim əlimizlə İranın inqilab çırağını söndürdü."[169] N.Nərimanovun acı təəssüratlarından ibarət olan "Ucqarlarda inqilabımızın tarixinə dair" Stalinə məktubunun təxminən yarısı Şərqdə sovet siyasətinin uğursuzluğuna həsr edilmişdir. O, İranda başlanmış geniş iqilabi prosesin "Rotşteynin əli ilə" məhv edildiyinə toxunaraq yazırdı: "İranda azadlıq hərəkatını biz öz əlimizlə boğmuşuq, çünki, Lloyd Corc belə istəyirdi. Şərq siyasətini yoldaşlarımızın bəziləri, bax belə, başa düşürdülər."[170] N.Nərimanov G.Çiçerini İran inqilabını məhv etməkdə ittiham etdiyi üçün və onun bu ittihamları Mərkəzi Komittə, İ.Stalin, L.Trotski və K.Radekə məktubun "Şərq məsələsi" bölməsində geniş şərh edildiyi üçün G.Çiçerin həmin ittihamlara cavab verməli oldu. RK(b)P Mərkəzi Nəzarət Komissiyasının katibi Yemelyan Yaroslavskiyə *(Miney Qubelmana – C.H.)* məktubunda G.Çiçerin izahat

[166] Request for Views as to the Consistency of Certain Articles of the Soviet-İranian Treaty of February 26, 1921 with the Charter of the United Nations.// National Archives and Records Administration of the USA, RG 59, Box: 3398, NND 7600050, Doc. 761.91/2-648

[167] F.Rotşteynin G.Çiçerinə teleqramı. 15.12.1921.// RDSSTA, f.5, s.1, i.2198, v.108

[168] ARPİİ SSA, f.276, s.5, i.1, v.66-67; 1921-ci ilin fevral ayının 21-də baş nazir olmuş Seyid Ziyaəddin Təbatəbayi 1921-ci ilin may ayının 25-də Əhməd şah tərəfindən baş nazir vəzifəsindən uzaqlaşdırıldı və mayın 29-da bu vəzifəyə Mirzə Əhməd Qəvam üs-Səltənə gətirildi. Bax: С.М.Алиев. История Ирана. XX век. Москва, 2004, с.134

[169] N.Nərimanovun İ.Əbilova məktubu.// ARPİİ SSA, f.609, s.1, i.92, v.116

[170] N.Nərimanovun "Ucqarlarda inqilabımızın tarixinə dair" Stalinə məktubu, s.13

verirdi ki, Şərq siyasətində o, Mərkəzi Komitənin müəyyən etdiyi xətdən kənara çıxmayıb. O yazırdı: "Əksinə, məlum dövrdə yoldaş Nərimanovun Şərq siyasəti RKP MK-nın siyasətindən o qədər kəskin şəkildə fərqlənirdi ki, Siyasi Büro və partiyanın plenumu MK-in xəttinə riayət etməyin zəruriliyini hərdəm qafqazlı yodaşlara xatırlatmalı olurdu. Qafqazlı yoldaşlar, o cümlədən, Nərimanov Şimali İranda hər şeyi şişirdir və avantürist taktikanı müdafiə edirdilər. Hazırkı vaxtda rəhbər yoldaşlardan heç kəs şübhə etmir ki, bu şişirtmə kommunist hərəkatına və Sovet Respublikalarının beynəlxalq vəziyyətinə böyük ziyan gətirdi. Nərimanovun fikrincə, bizim öz əlimizlə məhv etdiyimiz İrandakı "inqilabi hərəkatın" başında aşağıdakı şəxslər dayanırdı: 1.Nərimanovun xüsusi şəkildə qiymətləndirdiyi Kuçek xan qatı müsəlman fanatiki idi, bir vaxtlar İngiltərənin əlinə baxırdı, nəhayət, bu əhatəyə düşmüş yeganə əsl inqilabçı olan Heydər xanı işgəncəyə məruz qoydu və öldürdü; 2.Xalu Qurban – yalnız soyğunçuluq haqqında fikirləşən adi bir kürd qulduru, son nəticədə Kuçek xanla dalaşdı və onun başını kəsdi, bundan sonra İran ordusunun polkovnikinə təslim oldu; 3.Sərdar Muxi – Tehran mənsəbpərəsti, Kərim xanın qardaşı, Tehranda əyləncə evlərinin sahibi və ingilis casusluğunun başçısı...; 4.Saad üd-Dövlə – qafqazlı yoldaşların yardımı ilə Tehrana yürüş etməyə başlamış inqilabi dəstələrin başçısı, iri şimal feodalı Sipəh-Saların oğlu, o, Tehrana gedəndə, atası Tehrandan ona yazırdı ki, "tez gəl, hər şey hazırdır", bu yürüşün arxasında feodal hiyləgərliyi gizlənmişdi, o, bundan dərhal sonra şahın tərəfinə keçdi və yüksək vəzifə aldı; 5. İsmayıl xan – pirani qoca, Şimali İranın ən zəngin torpaq sahibkarı, feodal seperatizmi bəhanəsi ilə şah hökumətinə qarşı mübarizə aparıb. Ciddi inqilabi fəaliyyətə qabiliyyəti çatmayan, tamamilə tiryək düşgünü olan inqilabi əhval-ruhiyyəli Ehsanulla xan da onunla birlikdə idi".[171] G.Çiçerin yazırdı ki, hərəkatın sonrakı mərhələsində Mərkəzi Komitə ilə Nərimanov arasında fikir ayrılıqları, məhz, bu feodallara, mənsəbpərəstlərə və adicə quldurlara yardım göstərmək məsələsi ilə bağlı idi. O yazırdı: "Əgər bizim elə hərbi qüdrətimiz olsaydı ki, bütün İran, bütün Türkiyə, bütün Əfqanıstan və ümumiyyətlə, bütün Şərqi ordularımız vasitəsilə tutmağa imkan versin, biz orada zor gücünə sovet quruluşunu tətbiq edə bilərdik. Lakin bu mümkün deyildi, biz elə ehtiyatlı hərəkət etməliyik ki, Şərq xalqlarının hərəkatını özümüzə qarşı çevirməyək. 1920-ci ildə bi-

[171] G.Çiçerinin Y.Yaroslavskıyə məktubu. 31.08.1923.// RDSSTA, f.588,s.2, i.177, v.98-98(arxası)

zim ordu Ənzəliyə girəndə, əhali onu sevinclə qarşıladı. Bir il sonra bizim ordu Ənzəldən çıxanda əhali onların gedişini daha böyük sevinclə alqışladı və onlara arxadan güllə də atdı".[172] Lakin bütün bunlar G.Çiçerinin sonrakı etirafları idi. Əslində isə, məğlubiyyətlə nəticələnmiş İran hadisləri Moskvanın inqilab ixracı siyasətinin aydın bir nümunəsi idi. 1920-1921-ci illərdə Sovet Azərbaycanının yaxından cəlb olunduğu "İran epopeyasının" dramatik məzmunu və acı nəticəsi təxminən bundan ibarət idi.

Beləliklə, Qərbdə proletar inqilablarının məğlubiyyətindən sonra Gilan hadisələrinin timsalında Şərqdə məzlumların inqilabına olan ümidlər boşa çıxdı. Azərbaycanın işğalının doğurduğu inqilab pafosu İranda uzun davam etmədi. Moskvanın Azərbaycanının vasitəsi ilə İranı sovetləşdirilmək planları məğlubiyyətə uğradı. Gilan hadisələrinə müdaxilənin Sovet Azərbaycanın adı ilə edilməsi sovetlər üçün beynəlxalq qalmaqaldan yayınmaq xarakteri daşısa da, son nəticədə baş verənlərin mahiyyətini gizlətmək mümkün olmadı. Sovet Rusiyasının Şimali İrana müdaxiləsi bilavasitə, İngiltərəyə qarşı yönəlsə də, bütövlükdə, Britaniyanı İrandan sıxışdırıb çıxarmaq mümkün olmadı. Cənubi Azərbaycanda inqilab dalğası davamlı xarakter daşımadı, Xiyabanı hərəkatının məğlubiyyəti despotizmin güclənməsi ilə müşayət olundu. İranın "inqilab çırağının" sönməsi, Sovet Azərbaycanın Şərqin qapısında mayak kimi parlamaq arzusunu da, tədricən söndürdü. Bütün bunlar Şərq siyasətinə münasibətdə N.Nərimanovla Moskva arasındakı ziddiyyətləri daha da, dərinləşdirdi. Az sonra, Gilan hadisələrinin timsalında "Şərq məğlubiyyəti" ona qarşı başlanmış kampaniyanın mərkəzi məsələsinə çevrildi və bu məğlubiyyətin acısını Nərimanov şəxsi həyatında yaşamalı oldu.

[172] Yenə orada, v.99

III FƏSİL

AZƏRBAYCAN DİPLOMATİYASI VƏ QARABAĞ: KÜRƏKÇAY MÜQAVİLƏSİNDƏN BOLŞEVİK İŞĞALINA DOĞRU

§1. Çar Rusiyasının Qarabağ xanlığını ilhaq etməsi

Azərbaycan tarixinin son iki əsirlik mərhələsində müstəsna coğrafi mövqeyə malik olan Qarabağ vilayəti, onun dağlıq hissəsində baş vermiş demoqrafik dəyişikliklər, məhz, 1920-ci ilin aprelində bolşeviklərin gəlişi ilə geniş siyasi çəkişmələr müstəvisinə keçməyə başladı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə regionda separatist meyllər baş qaldırsa da, lakin cümhuriyyət hökumətinin həyata keçirdiyi tədbirlər bu meyllərin qarşısını almış, Qarabağın dağlıq hissəsinin erməni əhalisi Azərbaycan hökumətinə tabe olmaq, onun tərkibində yaşamaq və dövlətin bu region üzərində suverenliyini tanımaq haqqında könüllü öhdəlik qəbul etmişdi. I Dünya müharibəsindən sonra yaranmış milli hökumətlər dövründə Qarabağ həmişə Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmuş, Azərbaycan hökuməti və onun nümayəndələri tərəfindən idarə olunmuşdu. Bunu həmin dövrdə Cənubi Qafqazda fəaliyyət göstərən müttəfiqlərin müxtəlif missiyaları da öz diplomatik yazışmalarında təsdiq edirdilər. Lakin Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından sonra vəziyyət tədricən dəyişməyə başladı, onun mübahisəsiz əraziləri bolşeviklərin gəlişindən sonra mübahisə subyektinə çevrildi. Bu prosesə gedən yolu müəyyənləşdirmək və ötən əsrin 20-ci illərində Azərbaycan diplomatiyasının sınaq məqamına çevrilmiş Qarabağ məsələsinin tam mənzərəsini yaratmaq üçün tarixi hadisələrin bir qədər əvvəlki axarına qayıtmaq, regionda cərayan edən siyasi və demoqrafik dəyişikliklərin ardıcıllığını izləmək əhəmiyyətli olardı. Çünki, 1920-ci ilin aprelindən başlayaraq bolşeviklərin mübahisə mövzusuna

çevirdikləri Qarrabağ məsələsinin kökləri, bilavasitə XIX əsrin əvvəllərinə, Rusiyanın regiona ayaq açdığı dövrə gedib çıxır.

1801-ci ildə Gürcüstanı qəti şəkildə istila edən Rusiya Azərbaycan sərhədlərinə yetişdi. Qafqazdakı rus qoşunlarının komandanı Pavel Sisianov 1803-cü ilin mart ayında o dövrdə Azərbaycanın ən böyük şəhəri olan Gəncəni mühasirəyə aldı. Cavad xanın başçılıq etdiyi əhalinin şiddətli müqavimətinə baxmayaraq, şəhər 1804-cü il yanvarın 3-də rus qoşunlarının əlinə keçdi. Bundan sonra Azərbaycan üzərində hökmranlığını tam bərqərar etmək niyyəti ilə Sisianov Cənubi Qafqazın ən güclü xanlıqları sayılan Şəki, Qarabağ və Şirvan xanlıqlarını hər hansı bir yolla ələ keçirməli idi, çünki, buna nail olmadan bölgəni fəth edilmiş saymaq mümkün deyildi. Bu xanlıqlar *içərisində ən güclüsü Qarabağ xanlığı idi ki*, zərurət olduqda bu xanlıq 10-15 min döyüşçü səfərbər edə bilirdi.[1] Xanlığa daxil olan hər oymağın öz atlı döyüşçü dəstələri var idi.[2]

Sisianov həmin xanlıqlarla uzun-uzadı danışıqlar zamanı onları hədələyir, Gəncədən ibrət alaraq müqavimət göstərmədən Rusiyanın hərbi qüdrəti ilə hesablaşmağa və onun himayəsi altına keçməyə təhrik edirdi. Bu zaman Sisianov İranın bölgədəki mənafelərinə toxunduğunu çox gözəl anlayır və bu səbəbdən də hadisələri bir o qədər tələsdirməməyə çalışırdı. Üstəlik, həmin xanlıqların kifayət qədər hərbi potensiala malik olduqlarını da nəzərə alırdı. Lakin daim "çəkiclə gürz arasında" olan Qarabağ xanı İbrahimxəlil xan 1805-ci ildə Rusiya ilə "Andlı öhdəlik" adlandırılan müqavilə imzalamaq qərarına gəldi ki, bu da, əslində, Rusiyanın Azərbaycanı ilhaq etməsinə dair ilk hüquqi sənəd idi.

Müqavilə *1805-ci ilin may ayının 14-də Kürəkçay hərbi düşərgəsində* imzalandığından, "Kürəkçay müqaviləsi" adlanır və 11 maddədən ibarətdir. Bu müqavilə Rusiyaya açıq-aşkar birtərəfli üstünlüklər verirdi. Müqaviləyə görə, Qarabağ xanlığı Rusiyanın himayəsi altına keçərək, onun xeyrinə hər hansı bir üçüncü ölkə ilə müstəqil beynəlxalq əlaqədən imtina edirdi. Üstəlik, Qarabağ xanlığının artıq qonşu xanlıqlarla da müstəqil əlaqələrə girmək hüququndan məhrum olduğu ayrıca vurğulanırdı. Bundan savayı, Qarabağ xanı hər il Rusiya xəzinəsinə o dövr üçün çox böyük məbləğ – 8.000 çervon qızıl (24.000 rus rublu) göndərməli və baş komandanın Tiflisdəki iqamətgahında girov saxlanan nəvəsinin də xərclərini özü çəkməli idi. Müqavilənin ən ağır

[1] Bax: Тарабаг: Кюрекчайский договор – 200. Баку, 2005, с.97

[2] Mirzə Camal Cavanşir Qarabağı. Qarabağ tarixi. Qarabağnamələr. I kitab. Bakı, 1989, s.144

şərtlərindən biri də xanlığın mərkəzində – Şuşa qalasında toplarla təchiz edilmiş 500 nəfərlik rus qoşun dəstəsinin yerləşdirilməsi barədə razılığın əldə olunması idi.

Kürəkçay müqaviləsində İbrahimxəlil xanın mənafelərini müəyyən qədər əks etdirən yeganə maddə Qarabağın daxili həyatı ilə bağlı idi. Bu sənəd imzalanandan az sonra, 1805-ci ilin iyul ayının 8-də imperator I Aleksandrın fərmanı ilə İbrahim xana general-leytenant rütbəsi verilmiş və bir general kimi, o, Qafqazda rus qoşunlarının baş komandanına tabe edilmişdi. Məhz, bu müqavilə bitkin bir diplomatik sənəd olaraq, müstəqil Qarabağ xanlığının, bilavasitə müsəlman əyaləti və dövlət qurumu olaraq, Rusiya imperiyasının protektoratlığına girməsini özündə ehtiva edirdi.[3]

Strateji baxımdan mühüm olan Qarabağ xanlığının ələ keçirilməsi, əslində, Azərbaycanın tam istilasının başlanğıcı demək idi. Bu xanlığın dağlıq hissəsi Azərbaycanın bütün qərb bölgələrinə real nəzarət etmək imkanı verirdi. Bundan sonra ölkənin işğalı Rusiya üçün o qədər də mürəkkəb bir problem deyildi. Həm də ki, özlərinin tarixi talelərini fərqli şəkildə qiymətləndirən xanlıqlar xarici təhlükəyə qarşı vahid ittifaqda çıxış edə bilmədilər. Qarabağın Rusiya tərəfindən ilhaq edilməsinin əhəmiyyətini dəyərləndirən knyaz P.Sisianov Kürəkçay müqaviləsindən bir həftə sonra, 1805-ci ilin may ayının 22-də Rusiya imperatoruna bildirirdi ki, Qarabağ öz coğrafi vəziyyətinə görə Azərbaycanın qapısıdır və Qarabağ Gürcüstanı, payızda tutulmasını güman etdiyimiz Bakı ilə yaxınlaşdırır.[4]

Kürəkçay müqaviləsinin əks-sədasından yararlanmaq istəyən Sisianov 1805-ci il mayın 21-də şəkili Səlim xanı da müvafiq müqavilə imzalamağa məcbur edə bildi. Şirvan xanına da eyni ultimatum verildi və rədd cavablı alındıqdan sonra xanlığa müharibə elan olundu. Təzyiqə duruş gətirə bilməyən Şirvan xanı Mustafa xan elə həmin il dekabrın 25-də bəzi kiçik dəyişikliklərlə (müqavilədə Şamaxıda rus qoşunu yerləşdirmək nəzərdə tutulmurdu) yenə də əvvəlki 11 maddədən ibarət Traktatı imzaladı.

[3] Трактат между Карабахским ханом и Российской империей о переходе ханства под власть России от 14 мая 1805 года.// Государственный Исторический Архив АР. ф.130, оп.1, д.14, лл.245-248; Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Томь II. Издан под редакцією председателя комиссии А.Д.Берже. Тифлис, 1868, с.705

[4] Вах: Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Томь II. Издан под редакцією председателя комиссии А.Д.Берже. Тифлис, 1868, с.698

Azərbaycan xanları birinci Rus-İran müharibəsinin (1804-1813) gedişini diqqətlə izləyib, cənub qonşularının qələbəsini həm arzulayır, həm də bundan ehtiyat edirdilər. Öz növbəsində, rus ordusu da yerli müsəlmanlara bir o qədər inanmırdı. 1806-cı ildə İran qoşunu Şuşaya həmlə edərkən, Qarabağ xanının İran tərəfinə keçəcəyindən ehtiyat edən qarnizon komandiri mayor Dmitri Lisaneviç, xanın oğlu Mehdiqulu ağa istisna olmaqla, İbrahim xanı və bütün ailəsini qətlə yetirdi. Bu hadisə çar fərmanı ilə xana general-leytenant rütbəsinin verilməsinin sırf simvolik səciyyə daşıdığını inandırıcı şəkildə sübut edirdi. Bununla belə, İbrahim xana divan tutan Rusiya xanlığın statusunu dəyişmədi və İbrahim xanın oğlu Mehdiqulu ağa atasının yerini tutdu. 1806-cı ilin sentyabrında imzalanmış imperator fərmanında deyilirdi: *"Biz, ali məqamlı və ali cəlallı, ehsanı ümumə şamil olan, Allahın mərhəmət və köməyi ilə bütün Rusiya məmləkətlərinin, habelə, başqa vilayət və ölkələrin istiqlal və rifahını təmin edən imperator Birinci Aleksandr; bildiririk: Qoy bizim şahanə lütf və qayğımıza – imperatorluq qüdrət və mərhəmətimizə ümid bağlayan Qarabağ vilayətinin bütün ali üləma, hörmətli başbilənləri, görkəmli və şərəfətli əyanları, bəyləri, sərkərdələri, kəndxudaları, ağsaqqalları və bütün rəiyyətləri bilsinlər ki, keçən il – 1220-ci (1805) ildə mərhum İbrahim xan bizim şahlıq canişinimiz olan general knyaz Sisianovla birlikdə bir "Ohdnamə" tərtib etmişlərdi və general, onu dərhal imperatorluq dərgahına çatdırmışdı. Biz həmin "Ohdnamə"nin tələb və şərtləri ilə tanış olduqdan sonra, mərhum xanın irəli sürdüyü bütün arzu və tələbləri, öz sonsuz şahanə lütf və qayğıkeşliyimizlə qarşılayıb, onu bütün Qarabağ xalqı ilə birlikdə himayəmizə alıb, onları ali Rusiya dövlətimizin qədim sədaqətli təbəələri sırasına daxil edərək, mərhum İbrahim xanı xüsusi imperatorluq Fərmanı ilə Qarabağ vilayətinin müstəqil hakimi elan etdik. Və təminat veririk ki, Qarabağın imperatorluq təbəəliyinə daxil olan bütün rəiyyətləri, mərhum xanın varisləri daima imperator tərəfindən lazımınca mühafizə olunacaq və dünya durduqca bu ocaqdan çıxan onun varisləri nəsildən-nəslə Qarabağın xanlıq taxtında oturub, müstəqil surətdə hökmranlıq etmək hüququ ilə təmin olunacaqlar. İbrahim xanın bir iğtişaş nəticəsində qətlə yetirilməsi kimi, hüznlü bir hadisədən sonra yenə sədaqətli rəiyyətlərinin məişətlərini təmin etmək sahəsində əlahəzrətin xeyirxah fikirləri və münasibəti dəyişilməmiş qalır. Əlahəzrət verdiyi sözə əməl edərək, öz şahlıq mərhəməti və qayğısı ilə yüksək rütbəli vərəsə general-mayor Mehdiqulu ağanı mərhum*

atasının yerində bərqərar edib, Qarabağ vilayətinin xanlıq taxtında oturdub və bu qərarı imperatorluq tuqrası (fərmanı) ilə təsdiq etdi. Eyni zamanda, lazım bilindi bu fərman məlumat üçün bütün Elbrus və Gürcüstan əyalətlərində şahlıq canişini olan qraf Qudoviçə göndərilsin. Ali məqam Mehdiqulu xana da bildiririk o, Qarabağ vilayətində qüdrətli Rusiya dövlətinin himayəsi və mərhəməti sayəsində xalqı möhkəm ələ alsın. Onun atası mərhum İbrahim xana verilmiş bütün xoş vədlər və şərtlərin hamısının təmini eynilə qüvvədə saxlanılsın.Belə bir mövqedə əlahəzrət imperatorun fərmanı ilə lazım görüldü ki, haman bu şahanə fərman və elamnamə vasitəsilə Qarabağ xalqının böyük üləma fazilləri, görkəmli şəxsləri, əyan-əşrəfləri, bəyləri, sərkərdələri, kəndxudaları, ağsaqqalları və başqa əhalisinin hamısı bilməlidir ki, ali məqamı general Mehdiqulu xan Əlahəzrət imperatorun mübarək fərmanı ilə xanlıq rütbəsi alıb, Qarabağ vilayətinə müstəqil hakim təyin edilmişdir. Lazımdır ki, bütün əhali ona tabe olub, baş əyərək, sözündən çıxmasın. Xanın əmrinə və hakimiyyətinə aid olan bütün qayda-qanunlara əməl etsinlər. Xalqın xeyrinə olan işlərdə ona kömək edib, zərərli hərəkət və əməllərdən uzaq olsunlar. Eyni zamanda, əmin olsunlar ki, imperatorluq öz ali mərhəməti və qayğısı ilə həmişə onlara lazım olan köməyi əsirgəməyəcəkdir.Paytaxt Peterburqda, 10 sentyabr, 1806-cı miladi ilində müvafiq hicri tarixi 1221-ci ildə rəcəbül mürəkkəb ayının 9-da yazıldı və əta olundu. Sənədin əslini Fələk Cəlallı Əlahəzrət imperator belə imzalamışdır: ALEKSANDR."[5]

Xanlığın idarə edilməsi üçün imperator fərmanı bayraq və üzəri qiymətli daşlarla bəzədilmiş qılınc çar I Aleksandr tərəfindən Mehdiqulu ağaya göndərildi.[6] Həm Kürəkçay müqaviləsində, həm də onun hüquqi davamı kimi, Mehdiqulu ağanın Qarabağ hakimi təyin edilməsi haqqında 1806-cı ilin imperator fərmanında Rusiya tərəfindən tədricən ilhaq edilən Qarabağda, onun hüdudları, dağı və aranında söhbət yalnız və yalnız Cavanşır nəslinin hakimiyyətindən gedir və əhaliyə, onun bütün zümrələrinə tövsiyə edilirdi ki, Mehduqulu ağanın idarəçiliyinə tabe olsunlar. Yeni xan

[5] Высочайшая грамота генерал-майора Мехтикули ага от сентября 1806 года.// Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Томь III. Издан под редакцией председателя комиссии А.Д.Берже. Тифлис, 1869, с.336-337 (Bu sənədin yuxarıda istifadə edilən mətni vaxtilə filologiya elmləri doktoru, mətnşünas alim Şamil Cəmşidov tərəfindən fars dilindən Azərbaycan dilinə tərcümə edilmişdir).

[6] Mirzə Camal Cavanşir Qarabağı. Qarabağ tarixi. Qarabağnamələr. I kitab. Bakı, 1989, s.147-148

iranlılara nifrətlə, ailəsini qıran ruslara münasibətdə inamsızlıq arasında qalmışdı. Lakin xan elan edilməsi onun üzərinə müəyyən təəhhüdlər qoyurdu və son nəticədə antiiran əhval-ruhiyyəsi üstün gəldi.

Rusiyanın Napoleon üzərində qələbəsi onun Şərq siyasətini daha da sərtləşdirdi. 1816-cı ildə Qafqaz canişini təyin edilən general A.P.Yermolov elə ilk gündən Azərbaycan xanlarına şübhə ilə yanaşır, onları potensial düşmən sayırdı. Məhz bu səbəbdən o, daim müstəqillik hərəkatının özəyinə çevrilə biləcək xanlıqların formal baxımından ləğvi üçün imkanlar axtarırdı. Yermolovun Şimali Azərbaycandakı valisi, milliyyətcə erməni olan general V. Q. Mədətov bu işdə ona fəal yardım göstərirdi. Onların niyyəti tədricən, lakin davamlı olaraq həyata keçirdi. 1819-cu ildə Şəki xanlığı ləğv edildi. Rus təzyiqlərinə tab gətirməyən Mehdiqulu xan İrana qaçdıqdan sonra Qarabağ xanlığı Rusiyanın əyaləti elan olundu. Qriboyedov həmin vaxt xanla birlikdə Qarabağdan üç min müsəlman ailəsinin İrana getdiyini yazırdı.[7] Bundan iki il əvvəl isə sonuncu Şirvan xanı Mustafa xan İrana qaçmışdı. Müvafiq müqavilələrin şərtlərinin ziddinə olaraq, Çar Rusiyası tərəfindən xanlıqların ləğvi prosesi XIX əsrin 20-ci illərində başa çatdırıldı.

1826-cı ildə ikinci Rusiya-İran müharibəsi başlandı. Əsas hadisələr yenə də başıbəlalı Qarabağda cərəyan edirdi. İran ordusu Şuşanı 48 gün mühasirədə saxlasa da, şəhəri ələ keçirə bilmədi. 1828-ci il fevralın 22-də (10-da) Təbriz yaxınlığındakı Türkmənçay yaşayış məntəqəsində tərəflər yeni sülh müqaviləsi imzaladılar. Bundan sonra Şimali Azərbaycanın digər xanlıqları kimi Qarabağ, həmçinin, Naxçıvan və İrəvan xanlıqları da qəti olaraq, Rusiyanın tərkibinə qatılırdı. Həmin andan etibarən Kürəkçay müqaviləsi hüquqi qüvvəsini və əhəmiyyətini itirirdi.

Cənubi Qafqazın Rusiyaya ilhaq edilməsində bəzi maraqlı məqamlar vardır. Son illərdə bir sıra erməni və rus tarixçiləri, habelə, bəzi siyasi dairələr, Qarabağın guya, erməni vilayəti olaraq Rusiyaya birləşdiyini iddia edirlər. Lakin həmin dövrün beynəlxalq hüquqi sənədlərini araşdırdıqda, nəinki, Qarabağın, eyni zamanda, hətta, hazırkı Ermənistanın özünün hansı formada Rusiyanın tərkibinə daxil olması barədə maraqlı məqamlar ortaya çıxır. Belə ki, Gürcüstan 1801-ci ildə imzalanmış Qeorqievski müqaviləsi, Şimali Azərbaycan xanlıqları isə Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Rusiyanın tərkibinə daxil olmuşdur. Onda belə bir sual yaranır: Ermənistan, və ya onun iddia olunan ərazisi hansı müqavilə, saziş və

[7] Bax: T.Köçərli.Qarabağ: yalan və həqiqət. Bakı, 1998, s.52

traktatla Rusiyanın tərkibinə daxil olmuşdur? Bu sualın cavabını Q.Qaloyan, V.Barxudaryan, V.Mikaelyan P.Muradyan, K.Xudaverdiyan və L.Xurşudyan kimi, tanınmış erməni tarixçiləri çox asanlıqla tapıblar. Onlar heç bir elmi etikaya və tarixi dəlillərə riayət etmədən, məlum tarixi həqiqətlərə məhəl qoymadan yazırlar ki, "1813-cü ildə imzalanmış Gülüstan müqaviləsi ilə başa çatmış 1804-1813-cü illərdəki Rusiya-Persia müharibəsindən sonra şimal-şərqi Ermənistanın (Lori-Pəmpək, Şəmşəddin, Zəngəzur, Qafan və Şoragöl qəzaları) əyalətləri ilə birlikdə, Gəncə və Qarabağ xanlıqları da Rusiyaya keçdi... Türkmənçay müqaviləsi ilə başa çatmış ikinci Rusiya-Persiya (1826-1828-ci illər) müharibəsindən sonra İrəvan və Naxçıvan xanlıqları və Ordubad qəzası Rusiyaya keçdi. Bununla da şərqi erməni torpaqlarının Rusiyaya birləşdirilməsi sonadək başa çatdı".[8] Bu iddiaya həqiqət donu geyindərmək üçün onlar öz fikirlərini 1869-cu ildə T. Yuzefoviçin Peterburqda nəşr etdiyi sənədlər toplusuna istinad edirlər.[9] Halbuki, onlar çox yaxşı bilirlər ki, nə Gülüstan, nə də Türkmənçay müqavilələrinin T.Yuzefoviçin toplusunda yer alan mətnlərində, istər, şərqi olsun, istər, qərbi, heç bir erməni torpaqları, xristian ərazisi ifadələrinə rast gəlinmir, burada söhbət müstəsna qaydada müsəlman xanlıqlarından, onların ərazilərindən və Rusiyaya birləşdirilmələrindən gedir. Axı Türkmənçay müqaviləsi imzalanarkən istinad edilən İrəvan xanlığının əhalisinin mütləq əksəriyyəti müsəlmanlar idi və bu reallıq həmin dövrün rus mənbələrində aydın şəkildə əks olunmuşdur. 1828-ci ildə İrəvan və Naxçıvan xanlıqlarının hüdudlarında yaradılmış "Erməni vilayətinin" əhalisinin ¾ hissəsi müsəlmanlar idi. Bunu general İvan Paskeviçin baş qərargah rəisinə göndərdiyi, 1827-ci ildə İrəvanın "müvəqqəti idarəsi"nin rəisi təyin edilmiş general Afanasi Krasovskinin və həmin idarənin üzvü təyin edilmiş arxiyepiskop Nersesin (Nerses Şahazizov Kamsaraqan) hərəkətlərindən narazılıq ifadə edən məktub açıq-aydın təsdiq edir. Paskeviç yazırdı: " Mən təsəvvür etməzdim ki, Krasovski yalnız Nersesin iradəsi ilə hərəkət edəcək, mənim ona verdiyim təlimata məhəl qoymayıb, yeni ələ keçirilmiş əyalətin idarə edilməsi qayğısına qalmayacaq, bütün əhalinin dörddə üçünü təşkil edən məhəmmədilərə *(müsəlmanlara – C.H.)* himayədarlıq etməyəcək".[10] Tez-tez məşhur rus hərb tarixçisi V.A.Pottonun

[8] Нагорный Карабах: историческая справка. Ереван, 1988, с.14-15

[9] Вах: Договоры России с Востоком, политические и торговые. Собирал и издал Т.Юзефович. СПб., 1869, с.208-214

[10] В.А.Потто. Кавказская война. Персидская война 1826–1828 гг. Том 3. Ставрополь, 1993, с.594-595

"Qafqaz müharibəsi" kitabına istinad edən erməni tarixçiləri nədənsə onun kitabında yer alan bu sözləri görməzliyə vururlar. Digər tərəfdən Qarabağ və başqa Azərbaycan xanlıqlarının tarixinə toxunun bir sıra erməni tarixçiləri, əgər bu xanlıqların tarxini ermənilləşdirmək mümkün deyilsə, onu farslaşdırmağa üstünlük verirlər. Məsələn, A.J.Ohanesyan yazır ki, "çoxlu fars xanlıqları, o cümlədən, Qarqbağ, Şəki, Şirvan, Bakı, Quba və digər tanınmış xanlıqlar rus təbəəliyini qəbul etdilər".[11]

Xanlıqların statusunun itirilməsi Azərbaycanın müstəmləkəyə çevrilməsi prosesinin başlanğıcı demək idi və bu proses uzun onilliklər boyu davam etdi. *Həmin müddət ərzində Zaqafqaziyanın inzibati bölgüsü* dəfələrlə dəyişdirildi və yalnız XIX əsrin II yarısı üçün tam formalaşdı. Xanlıqların ləğvindən sonra Şimali Azərbaycanda komendant idarə üsulu tətbiq edildi ki, bunların biri də mərkəzi Şuşa olmaqla, bütün Qarabağı əhatə edən Hərbi-müsəlman dairəsi idi. Lakin bu bölgülər yerli əhalinin etnoqrafik, tarixi, dini və məişət xüsusiyyətlərinə bəzən uyğun gəlmirdi. Demoqrafik dəyişikliklər getdikcə daha çox siyasət alətinə çevrilirdi. Hələ erməni köçünün yeni başlandığı ilk illərdə, 1811-ci ilin 19 iyulunda Rusiya daxili işlər nazirliyi üçün hazırlanmış sənəddə Qarabağ vilayətinidə 12 min ailənin yaşadığı, onun 2.500-nün erməni ailəsi, qalanlarının isə Məhəmmədin dininə iman gətirən tatarlar *(azərbaycanlılar – C.H.)* olduğu bildirilirdi.[12] 1823-cü ildə Rusiya idarəçilərinin hazırladığı və əyalətin əhali sayımını özündə ehtiva edən "Qarabağ vilayətinin təsviri" adlı statistik məlumatlar bu bölgənin etnik-dini tərkibi haqqında real mənzərəni aydın şəkildə ortaya qoyurdu. Rus idarələri tərəfindən hazırlanan və bu qiymətli mənbədə yer alan statistik məlumatlara görə, Qarabağ vilayətində həmin dövrdə 600 kənd olub ki, bunun 450-ü müsəlman, 150-si isə xristian yaşayış məntəqəsi kimi qeydə alınmışdır.[13] Bu etibarlı mənbəyə görə, 1823-cü ildə Qarabağ əyalətində 20.095 ailə yaşayırdı ki, onun da 15.729-u müsəlman, 4.366-ı (21,7 faiz) xristian ailəsi idi. Qarabağ vilayəti haqqında həqiqətlər

[11] А.Ж.Оганесян. Карабах в русских источниках (конец XVIII – начало XIX вв.).// Майендорфская декларация 2 ноября 2008 года и ситуация вокруг Нагорного Карабаха. Сборник статей. Москва, 2008, с.213

[12] Вах: Присоединение Восточной Армении к России. Ереван, 1972, с.560-561

[13] Описание Карабахской провинции, составленное в 1823 году, по распоряжению главноуправляющего в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым 2-м. Тифлис, 1866, 415 с.

XIX əsrdə Rusiyanın Qafqaz siyasətini araşdıran bir sıra rus tədqiqatçılarının əsərlərində və dövlət siyasətini müəyyən edən rəsmi nəşrlərdə də təsdiq edimişdir.[14] 1832-ci ilin kameral sayımına görə, Qarabağda ailələrin sayı 20.456-ya çatmışdı ki, bunların da 1190-nı bəy ailəsi idi. Bəy ailələri isə bir qayda olaraq, müsəlman əhalisinin sosial tərkibinin göstəricisi idi. Lakin köçürmənin birinci dalğasından sonra xristianların xüsusi çəkisi Qarabağ vilayətində artıq 31,6 faizə yüksəlmişdi.[15] Qarabağın mərkəzi sayılan Şuşada 1823-cü ildə 1.532 ailədən 1111-i müsəlman (72,5 faiz), 421-i xristian (27,5 faiz) idisə, 1832-ci il kameral sayımında gəlmə ermənilərin hesabına bu faizin 44,9-a catdığını görürük.[16] Rus hərbi tarixçisi V.Potto qeyd edir ki, Qarabağa ermənilərin ilk böyük köçü 1828-ci ildə baş verdi. Onun yazdığına görə, 1828-ci ilin mart ayının 16-da İrandan İrəvan vilayətinə qırx min erməni ailəsi yola salındı. Lakin taxıl qıtlığı səbəbindən bu insan karvanının beş min ailədən ibarət olan birinci dəstəsi uzun müddət Araz sahilində gözləməli oldu və son nəticədə Qarabağa göndərildi.[17]

Ermənilərin İranda Qarabağa doğru "hərəkət etməsi" barədə rus yazıçısı S.N.Qlinkanın maraqlı məlumatları vardır. İran ermənilərinin Rusiya tərəfindən yeni işğal olunmuş müsəlman torpaqlarına köçürülməsinin siyasi məzmunu bu köçürmə işlərində fəal rol oynayan L.Lazarevin yerli *(iranlı – C.H.)* ermənilərə müraciətindən daha aydın görsənir. Köçürməyə intensiv xarakter vermək üçün o, ermənilərə müraciətində deyirdi: "Orada siz xristianların məskunlaşdırıldığı yeni vətən əldə edəcəksiniz".[18] S.N.Qlinka yazır ki, "Türkmənçayla həmhüdud kəndlərin ermənilər Qarabağa köçdü".[19] Onun məlumatına görə, "üç ay yarım ərzində 8 min erməni ailəsi Araz çayını keçdi".[20] 1828-ci ilin yazında erməni köçü Araza doğru hərəkət edəndə, general İvan Paskeviçin "onların ən kasıblarının Qarabağda yerləşdirilməsi" haqqında verdiyi tapşırıq həmin dövrün rus ədəbiyyatında öz əksini tapmışdır.[21] Göründüyü kimi, bu köçürmələrdən sonra 1832-ci ildə Qarabağda ermənilər əhalinin sayının artıq 31,6 faizini, müsəlmanlar isə 68,4 faizini təşkil edirdi.[22]

1828-ci ildən Cənubi Qafqazın müsəlman əyalətlərinə, o cümlədən, Qarabağa ermənilərin köçürülməsinin geniş xarakter alması bilavasitə Türkmənçay müqaviləsinin XV maddəsi ilə tənzim edilirdi. Həmin maddəyə görə, İran şahı təminat verirdi ki, onun ölkəsində yaşayan məmur və sakinlərə (yəni ermənilərə) bu gündən etibarən, öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan, satlıq malına və əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan, daşınan əmlakını aparmaq və satmaq üçün onlara bir il vaxt verilirdi.[23] İkinci Rusiya-İran müharibəsi dövründə regionda demoqrafik vəziyyəti dəyişmək üçün ermənilərin İran, Türkiyə və Hindistandan Rusiyaya köçürülməsi ideyasının müəllifi arxiyepiskop Nerses idi.[24] İrəvanın ruslar tərəfindən alınması ilə İran və Türkiyədən xristian köçünün başlaması, bu hadisənin Hindistan ermənilərı arasında əks səda doğurması bunun aydın ifadəsi idi.[25]

1828-ci ilin mart ayının 21-də rus imperatoru I Nikolayın fərmanı ilə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" yaradıldı. Bu vilayətin yaradılması haqqında imperator I Nikolay fərmanında göstərilirdi: "İranla bağlanmış müqaviləyə əsasən, İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra Erməni vilayəti adlandırmağı hökm edir və öz titulumuza daxil edirik".[26] Bu fərmandan sonra gürcü knyazı, rus ordusunun generalı A.Çavçavadze Erməni vilayətinin

[14] Bax: Гражданское Управление Закавказьем от присоединения Грузии до наместничества Великого Князя Михаила Николаевича. Исторический очерк. Составитель по поручению Военно-Исторического отдела В.П.Иваненко. Тифлис, 1901, 525 с.; В.А.Потто. Кавказская война. Персидская война 1826–1828 гг. Том 3, Тифлис, 1901; Н.И.Шавров. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СП.,1911

[15] Гражданское Управление Закавказьем от присоединения Грузии до наместничества Великого Князя Михаила Николаевича. Исторический очерк,с.146

[16] T.Köçərli.Qarabağ: yalan və həqiqət. Bakı, 1998, s.100

[17] В.А.Потто. Кавказская война. Персидская война 1826–1828 гг. Том 3, Ставрополь, 1993, с.591

[18] С.Н.Глинка. Описание переселения армян Адлербиджанских в пределы России. М., 1831, с.107

[19] Yenə orada, s.48

[20] Yenə orada, s.92

[21] Yenə orada, s.90-91

[22] Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовым отношениях. Тифлис, 1836, с.267

[23] Полное собрание законов Российской Империи. Т.III , СПб., 1830, с.130

[24] Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Томь VII. Издан под редакциею председателя комиссии А.Д.Берже. Тифлис, 1878, с.560

[25] Geniş məlumat üçün bax: М.Персисян. Из истории руско-армянских отношений. Кн. I. Ереван, 1956, с.226-247

[26] Полное собрание законов Российской Империи. Т.III , СПб., 1830, с.272-273

rəisi təyin edildi.[27] Bu vilayət yaradılarkən oranın əhalisinin 74-75 faizini müsəlmanlar təşkil edirdi. Əgər Rusiya işğalları dövründə İrəvan vilayətində 49.875 nəfər müsəlman və 20.073 nəfər erməni əhalisi yaşayırdısa, "Erməni vilayəti" yaradıldıqdan dərhal sonra ora qonşu ölkələrdən 45.200 nəfər erməni köçürüldü.[28] Naxçıvan vilayətində də eyni vəziyyət idi. Rus işğalları başa çatdığı dövrdə Naxçıvanda 17.138 nəfər müsəlman, 2.690 nəfər erməni vardısa, xanlığın ləğvindən sonra qısa müddət ərzində Naxçıvana 10.670 nəfər erməni köçürülmüşdü. Naxçıvan vilayətinin Ordubad hissəsində analoji qaydada 7.247 nəfər müsəlman və 2.388 erməni vardısa, əhali nisbətini dəyişmək üçün ora 1.340 erməni köçürüldü.[29] Sənədlərə istinad edən rus müəllifi N.İ.Şavrov 1911-ci ildə nəşr edilmiş kitabında 1828-1830-cu illərdə Cənubi Qafqaza 40 min İran və 84.600 Türkiyə ermənisinin köçürülməsini və onların "erməni əhalisi yox dərəcəsində olan" Yelizavetpol və İrəvan quberniyalarında yerləşdirildiyini qeyd etmişdi. N. Şavrov yazırdı: "Hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyildir. Onları bura biz köçürüb gətirmişik".[30] Görünür, Cənubi Qafqazı tam xristianlaşdırmaq istəyi həddən artıq qüvvətli idi. Lakin şəraitin özünəməxsusluğu rusları ehtiyatlı olmağa məcbur edirdi. İrandakı rus səfiri Aleksandr Qriboyedov yazırdı: "Müsəlmanlar ehtiyat edirlər ki, onların bir dəfə buraxıldıqları torpaqlara ermənilər həmişəlik yiyələnsinlər".[31] Bu belə də oldu, Azərbaycan torpaqlarına sığınan ermənilər az sonra bu torpaqların sahibləri ilə özlərini düşmən kimi apardılar və İ.Çavçavadze haqlı olaraq Gürcüstanda məskunlaşmış ermənilərə müraciət edərək yazırdı: "Bizim öz evimizdə, bizimlə düşmən kimi rəftar etməyin".[32] Köçürülən ermənilər müsəlmanların torpaqlarında yerləşdirildikdən sonra, eyni vəziyyət Azərbaycanda da müşahidə edilməyə başladı.

[27] Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Томь VII. Издан под редакцией председателя комиссии А.Д.Берже. Тифлис, 1878, с.487

[28] Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовым отношениях,s.229

[29] Yenə orada,s.229

[30] Н.И.Шавров. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. С-Петербург, 1911, с.59-60

[31] А.С.Грибоедов. Сочинения в двух томах. Т.2.М., 1971, с.340-341

[32] И.Чавчавадзе. Армянские учение и вопиющие камни. Тифлис, 1902, с.123

§2. Regionda demoqrafik dəyişikliklər və etnik ziddiyyətlərin kəskinləşməsi

Qeyd edək ki, 10 aprel 1840-cı ildə keçirilən inzibati-hərbi islahata görə, Qarabağ əyaləti Şuşa qəzasına çevrilmiş və mərkəzi Şamaxı olmaqla, Kaspi vilayətinə, 1846-cı ildən isə yeni yaradılan Şamaxı quberniyasına daxil edilmişdi. 1859-cu ildə Şamaxı quberniyası Bakı quberniyasına çevrildikdə, Qarabağ yeni yaradılan Bakı quberniyasının tərkibinə daxil edilmişdi. Başqa sözlə, Qarabağ xanlığı və onun mərkəzi Şuşa Rusiya İmperiyasının tərkibinə müsəlman torpaqları və Azərbaycan xanlığı kimi daxil olduğundan, inzibati baxımdan, məhz, müsəlman əyalətlərinin idarəçiliyinə və ya müsəlmanları əhatə edən Kaspi vilayətinə, Şamaxı və Bakı quberniyalarına tabe edilmişdi. 1867-ci ildə isə Yelizavetpol (Gəncə) quberniyası təşkil edildikdə, Şuşa qəzası bilavasitə bu quberniyanın inzibati sərhədləri daxilində yer aldı.[33] Həmin dövrdə aparılan inzibatı-ərazi islahatlarının gedişində Şuşa qəzasının hüdudlarında Qarabağ torpaqlarında Zəngəzur, Cavanşir və Cəbrayıl qəzaları təsis edildi.

Ermənilərin Zaqafqaziyaya sonrakı güclü axınları 1877-1878-ci illərin rus-türk müharibəsi və 1893-1894-cü illərdə Türkiyədə baş verən hadisələrdən sonraya təsadüf edir. Bu axınlar artıq məqsədyönlü dövlət siyasəti şəklini alırdı. Şübhəsiz ki, bu axın Qarabağda əhalinin dini və etnik tərkibinin dəyişilməsinə də öz təsirini göstərdi. 1897-ci il əhali sayımına görə Cənubi Qafqazda erməni köçkünlərin sayı 1.100.138 nəfərə, bütün Qafqaz da isə 1.124.948 nəfərə çatmışdı.[34] Britaniyalı səyyah Linçə görə, on il əvvəl, 1886-cı il əhali sayımına görə Cənubi Qafqazın 4.186.000 nəfər əhalisinin 962,000 nəfərini *(əslində isə 939.131 nəfərini – C.H.)* ermənilər, 1.139.000 nəfərini *(əslində isə 1.139.659 nəfərini – C.H.)* azərbaycanlılar təşkil edirdi.[35] İngiltərə parlamentinin və Britaniya Kral Coğrafiya Cəmiyyətinin üzvü məşhur səyyah Linç Cənubi Qafqazda tatarların (azərbaycanlıların) açıq say üstünlüyünün əhəmiyyətini azaltmaq üçün onların regionda çoxluğundan

[33] Энциклопедический словарь. Изд. Брокгауз и Эфрон, т.XII, СПБ, 1894, с.222-223; Энциклопедический словарь. Изд. Брокгауз и Эфрон, т.XI, СПБ, 1904, с.26

[34] Кавказский календар на 1903 г. Тифлис, 1902, с.250-253

[35] Армения. Путовые очерки и этюды Х.Ф.Б.Линча. Том I. Русския провинции. Типография М.Мартиросянца, Тифлис, 1910, с.571

danışanda yazır ki, tatarlar (azərbaycanlılar) sərt dini antaqonizm zəminində sunni və şiə məzhəblərinə bölünüblər.[36] Bununla belə Linç etiraf edirdi ki, "İrəvan şəhərində tatarların *(azərbaycanlıların – C.H.)* sayı ermənilərin sayına bərabər idi" və "onların *(Cənubi Qafqaz tatarlarının (azərbaycanlıların)– C.H.)* dili indiyə qədər Qafqaz dağ silsiləsi ilə erməni yaylası *(Qars yaylası nəzərdə tutulur – C.H.)* arasındakı bütün vilayətlərdə beynəlxalq dil funksiyasını yerinə yetirir".[37] Ermənilərə gəldikdə isə Linç onların əhəmiyyətini artırmaq üçün digər yanaşmadan istifadə edir. O yazır: "Ermənilərin *(Cənubi Qafqazda – C.H.)* əhəmiyyətini qiymətləndirən zaman onların sayı ilə bağlı mülahizədən deyil, xüsusilə, onları əhatə edən xalqlarla müqayisədə erməni xalqının mütəşəkkilliyi mülahizəsindən çıxış etmək lazımdır".[38]

Çar Rusiyasının yeritdiyi siyasət nəticəsində XIX əsrin sonlarında Qarabağda etnik mənzərə xeyli dəyişmişdi. 1897-ci il əhali sayımına görə, Şuşa qəzasının 138.771 nəfər əhalisindən 62.868 nəfəri (45,3 faizi) azərbaycanlı, 73.953 nəfəri (53,1 faizi) erməni, Zəngəzur qəzasının 137.871 nəfər əhalisindən 71.216 nəfəri (52,3 faizi) azərbaycanlı, 63.622 nəfəri (46,4 faizi) erməni, Cavanşir qəzasının 72.719 nəfər əhalisindən 52.044 nəfəri (71,3 faizi) azərbaycanlı, 19.551 nəfəri (26,7 faizi) erməni, Cəbrayıl qəzasının 66.360 nəfər əhalisindən 49.189 nəfəri (74,5 faizi) azərbaycanlı, 15.746 nəfəri (23,8 faizi) erməni idi. Bütövlükdə, Gəncə quberniyasının 878.415 nəfər əhalisinin 534.086 nəfəri (60,8 faizi) azərbaycanlı, 229.188 nəfəri (26,1 faizi) erməni idi.[39] Bu rəqəmlər həmin əsrin əvvəli ilə müqayisədə Qarabağ əhalisinin milli-etnik tərkibində ciddi dəyişiklərin olduğundan xəbər verirdi. Çar Rusiyasının Cənubi Qafqazda xristian elementlərindən özünə dayaq yaratmaq məqsədilə ermənilər qonşu ölkələrdən ora köçürmək siyasəti regionun, o cümlədən, Qarabağın demoqrafik vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərmişdi. Türkmənçay müqaviləsindən sonra ermənilərin İrandan Cənubi Qafqaza köçürülməsi işlərinə rəhbərlik edən polkovnik L.Lazarevin ermənilərə müraciətlə dediyi "qısa zaman ərzində hər şeyə nail olacaqsınız, özü də həmişəlik"[40] sözləri XIX əsrin sonlarında öz təsdiqini tapmışdı. Artıq 1904-cü ildə Peterburqda buraxılmış ensiklopedik lüğətdə Qarabağın dağlıq hissəsini təşkil edən Şuşa qəzasının əhalisinin 58,2 faizinin erməni *(1897-ci il sayımına görə 53,1 faiz – C.H.)*, 41,5 faizinin *(1897-ci il sayımına görə 45,3 faiz – C.H.)* Azərbaycan tatarları *(türkləri - C.H.)*, 0,3 faizinin isə rus olduğu göstərilirdi. Qəza mərkəzi kimi Şuşa şəhərinin əhalisinin milli-etnik tərkibində də ciddi dəyişiklik baş vermişdi.[41] Hətta, ermənilərə münasibətdə xüsusi sevgisi ilə seçilən Britaniya liberalı Linç belə, etiraf edirdi ki, rus əyalətlərində ermənilərin sayı Türkiyə və İrandan köçürülənlərin hesabına güclü şəkildə artmışdır.[42] Əgər 1822-1826-cı illərdə ermənilər Cənubi Qafqazda yaşayan əhalinin 9,3 faizini təşkil edirdilərsə, 1916-cı ildə bu rəqəm 32,8 faizə çatmışdı.[43] Bunun əksinə olaraq, müasir erməni və rus müəllifləri, guya, XIX əsrdə Dağlıq Qarabağın türkləşdirildiyini iddia edirlər. V.A.Zaxarov və S.T.Sarkisyan yazırlar: "Çoxsaylı sənədlərin şəhadəti ilə demək olar ki, XIX əsrdə Dağlıq Qarabağın türkləşdirilməsi fəal aparılmışdır".[44] Lakin öz fikirlərini əsaslandırmaq üçün onlar ümumi şəkildə istinad etdikləri "çoxsaylı sənədlərdən" nümunə olaraq, heç olmasa, birini gətirə bilmirlər.

XIX əsrin 40-cı illərindən bu ərazilərin müstəmləkələşdirilməsi və ruslaşdırılması məsələsi ortaya çıxdı. Lakin elə bu zaman xristian əhalisinin yalnız, ermənilər hesabına artırılması siyasətinin arzuolunmaz nəticələri də aşkar oldu. Bu dövrdə artıq rusları məskunlaşdırmaq üçün boş torpaqlar çatışmırdı, çünki dövlət torpaq fondunun böyük, həm də ən məhsuldar hissəsi ermənilərin əlində idi.

Rus-erməni münasibətlərində ilk soyuqluq XIX əsrin 90-cı illərində yarandı. 1896-cı ildə Qafqazın canişini təyin olunan knyaz Qriqori Qolitsın ermənilərin nüfuzunun zəiflədilməsinə və müsəlmanlarla münasibətlərin yaxşılaşdırılmasına yönəldilmiş bir sıra tədbirlər gördü. O, dövlət qulluğunda olan ermənilərin xeyli hissəsini işdən çıxardı və boşalan yerlərə müsəlmanları qəbul etdi. 1903-cü ildə isə erməni kilsəsinin əmlakı müsadirə edildi. Cavabında ermənilər Rusiya imperiyası ərazisində çar məmurlarına qarşı ilk terror aktları həyata keçirməyə başladılar. Nəticədə, yaralanan Qolitsın 1903-cü ildə Qafqazı tərk etdi. Onun ardınca 1905-ci ilin may ayının 11-də Daşnak partiyasının Bakı təşkilatının Mərkəzi Komitəsinin qərarı

[36] Yenə orada, s.571

[37] Yenə orada, s.576-577

[38] Yenə orada, s.571

[39] Bax: P.Mustafa-zadə. Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг. M., 2006, c.189

[40] С.Н.Глинка. Описание переселения армян Аддербиджанских в пределы России, с.111

[41] Энциклопедический словарь. Изд. Брокгауз и Эфрон, т.XI, СПБ, 1904, с.25-26

[42] Армения. Путовые очерки и этюды Х.Ф.Б.Линча. Том 1. Русския провинции, с.576

[43] Ф.Абасов. Гарабагское ханство. Баку, 2007, с.15

[44] В.А.Захаров, С.Т.Саркисян. Азербаджано - Карабахский конфликт: истоки и современность.// Майендорфская декларация 2 ноября 2008 года и ситуация вокруг Нагорного Карабаха. Сборник статей. Москва, 2008, с.223

ilə Bakının qubernatoru M.A.Nakaşidze öldürüldü. Onun ölümə məhkum edilməsi İrəvan quberniyasında işləyərkən kilsə torpaqlarının müsadirə edilməsində iştirakı ilə bağlı idi.[45] Erməni terror təşkilatları tərəfindən Rusiya rəsmi şəxslərinə qarşı törədilən bu siyasi qətllərin yekunu kimi, erməni-müsəlman qarşıdurması alovlandı ki, "rus hakimiyyəti diyara yayılan gündən bəri Qafqazda buna bənzər bir hadisə baş verməmişdi".[46] 1905-ci ilin mayında çarın Zaqafqaziyadakı canişini təyin olunan qraf İllarion Vorontsov-Daşkov knyaz Qolitsindən fərqli olaraq, ermənilərə olan rəğbətini gizlətmir və belə hesab edirdi ki, ermənilərlə dostluq Rusiyanın Zaqafqaziyadakı hökmranlığı üçün təməl daşıdır. Vorontsov-Daşkovun canişin təyin edilməsi ilə həmin vaxt Qafqazda erməni dəstə başçıların yenidən fəallaşması diqqəti çəkir və erməni məsələsinə marağın yenidən artdığı müşahidə edilirdi. XX əsrin əvvələrində Qərbi Avropa dövlətlərində belə bir fikir dolaşmağa başlayırdı ki, "yalnız Rusiya öz siyasi niyyətlərinə nail olmaq üçün ermənilərə kömək edə bilər və Türkiyədə erməni xalqının vəziyyətini yüngülləşdirə bilər".[47]

1905-ci ildəki inqilabi hadisələr zamanı Bakıda ilk erməni-müsəlman toqquşmaları baş verdi və tezliklə bu toqquşmalar bütün Azərbaycanı, xüsusən də Qarabağı, həmçinin, İrəvanı və Tiflisi bürüdü. Hər iki tərəfdən minlərlə insan tələfatına səbəb olan bu ilk kütləvi erməni-müsəlman münaqişəsi həm də iki xalq arasında münasibətlərdə yeni qarşıdurma keçidin göstəricisi idi. Daha yaxşı silahlanan və təşkilatlanan ermənilər tez-tez terror aktları törədir, "yandırılmış torpaq" və qəfil həmlələr taktikasından istifadə edərək, azərbaycanlıları "erməni dövlətinin yerləşəcəyi ərazilərdən", ilk növbədə, İrəvan və Qarabağdan zorla qovurdular. Bu dövrdə baş vermiş erməni-müsəlman qarşıdurmasının coğrafiyasına diqqət yetirildikdə bu qarşıdurmaların daha çox planlı şəkildə baş verdiyi aydınlaşır.

Birinci Dünya müharibəsi və onun ardınca baş verən rus inqilabı Cənubi Qafqazdakı vəziyyəti kəskin şəkildə dəyişdi. Rus-türk cəbhəsindəki hərbi əməliyyatlar gələcək sarsıntılar üçün zəmin hazırlayırdı. 1914-cü ilin sentyabr ayının 17-də çar II Nikolayın erməni xalqına Bəyannaməsi elan edildi. Orada göstərilirdi ki, rus xalqı böyük iftixar hissi ilə özünün şanlı erməni övladlarını xatırlayır. Ermənilərin bir əsr boyunca rus hakimiyyətinə

[45] Erməni İnqilabi Federasiyasının Qafqaz Məsul Komitəsinin Rusiya Hökumətinin Qafqaz Adminstrasiyası üzrə əmri. 18.05.1905.// ARPİİ SSA, f.276, s.8, i.61, v. 84

[46] General L.M.Bolxovitinovun Əlahəzrət İmperatorun Qafqazda canişinin hərbi hissələr üzrə zati-aliləri köməkçisinə raportu. 11.12.1915.// Rusiya Dövlət Hərbi Tarix Arxivi (RDHTA), f.2100, s.1, i.646, v.47

[47] Yenə orada, v.47

sədaqətlə xidmət etdiyinə toxunan çar bundan sonra həmin xidmətin rus ordusunun və həqiqətin qələbəsində mühüm rol oynayacağına əmin olmaq istəyirdi. Bəyannamənin sonunda II Nikolay ermənilərə vəd verərək deyirdi: "nəhayət ki, siz azadlığın və ədalətin ləzzətini anlayacaqsınız".[48]

Çarın bu vədlərindən riqqətə gələn ermənilər təcili könüllü dəstələr yaratmaq işinə başladılar. Artıq 1914-cü ilin payızından etibarən Zaqafqaziyada formalaşdırılan erməni könüllülərindən ibarət dəstələr türklərə qarşı vuruşurdu. 1914-cü ilin payızından 1915-ci ilin fevral ayına qədər erməni könüllü dəstələrini saxlamaq üçün Rusiya hökuməti tərəfindən 520 min rubl vəsait ayrılmışdı.[49] Hətta, Daşnak partiyasının "kürdlərə qarşı mübarizə aparan" Türkiyə ermənilərı üçün 1915-ci ilin əvvəllərində Bakı ermənilərindən vəsit topladığı və hərbi dəstlərə könüllülər cəlb edilməsi haqqında gizli məlumatlar var idi.[50] Əlbəttə, bir sıra ermənilər bu hazırlıq tədbirlərinin erməni xalqını yaxşı yerə aparmayacağını anlayırıdılar. İmperator Müqəddəs Vladimir Universitetinin ordinar professoru S.A.Yeqizarov Tiflisdə çıxan "Mışak" qəzetinin redaktoru A.Arakelyana yazırdı: "Mənə belə gəlir ki, ermənilər öz işlərinə çox pis başlayıblar. Əgər onlar könüllülər kimi rus ordusunun sıralarına daxil olsaydılar, bu onların öz dövlətləri qarşısında vətəndaş borcunu yerinə yetirməsi kimi qəbul olunardı. Türkiyə müharibə elan edib və onlar öz vətənlərini qorumağa borcludurlar. Lakin ermənilər xüsusi dəstələr yaratdılar və Türkiyəni çökdürmək üçün hərəkətə keçdilər. Bundan əlavə, türk təbəələri olan ermənilər öz hökumətlərinə qarşı çıxdılar. Belə vəziyyətdə bütün dövlətlər kimi, Türkiyə də üsyançıları cəzalandırmağa başladı... Şübhəsiz ki, erməni başçıları işləri bu istiqamətə yönəltməklə öz üzərlərinə böyük məsuliyyət almış oldular".[51]Bu siyasətin faciəli sonluğu hamıya bəllidir: türklərə qarşı törədilən kütləvi qırğınlar ermənilərin Şərqi Anadoludan sürgün edilməsi ilə nəticələndi. Ermənilər bu hadisələri özlərinə qarşı soyqırımı kimi qələmə verməyə çalışsalar da, həqiqət daha mürəkkəbdir. Bir çox araşdırıcıların fikrincə, Şərqi Türkiyədə iki qaçqın axını üz-üzə gəlmişdi: erməni talanlarından canlarını qurtarmaq üçün Qafqazdan qaçan müsəlmanlarla Rusiyaya köç edən ermənilər. Oks-sədası günümüzə qədər gəlib çatan fəlakətin gizlin məqamları hələ

[48] Çarın ermənilərə Bəyannaməsi. 17.09.1914.// ARPİİ SSA, f.276, s.8, i.463, v.18

[49] Tiflis quberniyası jandarm idarəsinin rəisi polkovnik Pastryulinin Qafqaz Canişinin xüsusi şöbəsinə məruzəsi. 1915.//ARPİİ SSA, f.276, s.8, i.498, v.10

[50] Bax: Bakı rayonu şəhər rəisinin məlumat.1915.// ARPİİ SSA, f. 276, s.8, i.498, v.19

[51] S.A.Yegizarovun A.Arakelyana məktubu. 10.09.1915.// ARPİİ SSA, f.276, s.8, i. 463, v.45

çoxdur. Bu faciənin soyqırım anlamına müvafiq gəlməməsinə belə bir fakt da dəlalət edir ki, elə həmin dövrdə Türkiyənin qalan yerlərində ermənilər özlərini kifayət qədər əminlikdə hiss edirdilər. Əslində, 1915-ci ildə Şərqi Anadoluda baş verənlərin əsl mahiyyətini öyrənmək üçün Rusiyanın Qafqaz Cəbhəsinin baş qərargah rəisi general Leonid M.Bolxovitinovun çarın adına göndərdiyi gizli raportlara və rus diplomatı V.F.Mayevskinin hesabatlarına baxmaq yetərlidir.[52] L.M.Bolxovitinovun Qafqaz canişinin ordu hissələr üzrə köməkçisinə göndərdiyi və Qafqaz ordusu qərargahının kəşfiyyat şöbəsində saxlanılan "Erməni drujinaları" haqqında raportunda qeyd edilir ki, 1894-cü ilin oktyabr-noyabr aylarında Asiya Türkiyəsində alovlanıb, tədricən Trapezund, Ərzurum, Van, Bitlis, Sivas, Diyarbəkir, Xarput, Urfa, Adana və Hələb vilayətlərini burumuş qanlı qırğınların başlanmasının təşəbbüsçüləri, demək olar ki, bütün hallarda ermənilər özləri olmuşlar.[53]

1914-1915-ci illərdə "fədai" adı ilə Türkiyəyə qarşı hərbi əməliyyatlarda iştirak edən və türk əhalisini istisnasız olaraq məhv edən birinci erməni drujinasına məşhur çete başçısı Andranik Ozanyan, ikinci drujinaya rus təbəəsi olan erməni Dro (Kanayan Drastamat), üçüncü drujinaya sonralar, 1918-ci ildə Azərbaycanda ağır qanlı cinayətlər törətmiş Srvanstyan Hamazasp, dördüncü dəstəyə isə Atabək parkında Səttərxanı güllələyə tutmuş Yefrim xanın silahdaşı olmuş Keri (Qafavyan Arşak) komandanlıq edirdi.[54] Sonralar bu quldur dəstələrin başçılarının hamısı Bakı, Şamaxı, Quba, xüsusilə, Naxçıvan, Zəngəzur və Qarabağda dinc müsəlman əhalisinə divan tutulmasında fəal iştirak etdilər.[55] 1895-ci ildən Osmanlı imperatorluğunun Van

[52] Bax: General L.M.Bolxovitinovun Əlahəzrət İmperatorun Qafqazda canişinin hərbi hissələr üzrə zati-aliləri köməkçisinə raportu. 11.12.1915.// RDHTA, f.2100, s.1, i.646, v.44-75; См:Attaques des musulmans dans la region de Kars. 1915.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 9. CERCEC, EHESS, Paris; Documents sur 1915: Adjars, Sarykamis.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 9. CERCEC, EHESS, Paris; В.Ф.Маевский. Армяно-татарская смута на Кавказе как один из фазисов армянского вопроса. Тифлис, 1915;

[53] General L.M.Bolxovitinovun Əlahəzrət İmperatorun Qafqazda canişinin hərbi hissələr üzrə zati-aliləri köməkçisinə raportu. 11.12.1915.// RDHTA, f.2100, s.1, i.646, v.46

[54] Yenə orada, v.53(arxası)-54

[55] Bax: Claims of the Peace Delegation of the Republic of Caucasian Azerbaijan Presented to the Peace Conference in Paris. Paris, 1919, p.21; Le Lieutenant-Colonel Chardigny, Chef de la Mission Militaire Français au Caucase, à Monsieur le Ministre de la Guerre (Etat-Major de l'Armée, 2°Bureau). Le 15 avril 1919.// Ministère des Affaires Etrangères de France. Archives Diplomatique, vol.832, folio 55; F.Kazemzadeh. The Struggle for Transcaucasus (1917-1921). New-York, 1951, p.131; Nikita Dastakian. Il venait de la Ville Noire. Souvenirs d'un

və Ərzurum vilayətlərində Rusiyanın baş-konsulu işləmiş V.Mayevski daşnakların törətdikləri cinayətlər və uydurulmuş "erməni məsələsi" haqqında yazırdı: "Mən bir fikri, nəinki, demək, hətta, yaxşı vurğulamaq istəyirəm ki, erməni məsələsinə dair yalanın yayılması bütün erməni millətini yalan yola saldı, ola bilsin, onun ən yaxşı nümayəndələrinin ağlını korladı, yüzlərlə ermənini yoldan çıxardı, minlərlə ermənini faydalı işdən ayırıb anarxiya – Asiya Türkiyəsinin erməni kəndlilərinin məruz qaldıqları və sonra Zaqafqaziya ermənilərinin də əzab çəkdikləri sonu görünməyən fəlakətlər yaratmağa yönəltdi... Məhz, mətbuatın sayəsində erməni işlərində həqiqət elə qatı yalan dumanına büründü ki, həqiqət şüası o dumanı yara bilmədi".[56] V.Mayevski özündə cəsarət tapıb açıq şəkildə yazırdı: "Türkiyənin müxtəlif şəhərlərində ermənilərlə müsəlmanlar arasındakı toqquşmalar barədə şəxsən mənim bildiklərim məni belə qənaətə gətirir ki, qanlı işlər hər yerdə, məhz, ermənilərin özlərinin təşəbbüsü ilə başlamışdır".[57]

1915-ci ilin novruz bayramından təxminən bir ay əvvəl, fevral ayının 19-da M.Ə.Rəsulzadə Qars və Ordahanda ermənilərin törətdikləri vəhşiliklər haqqında "İqbal" qəzetinin 869-cu sayında belə yazırdı: "Bizə yetmiş xəbərlərdən anlyoruz ki, Osmanlı sərhəddində olub da, hərb meydanı təşkil edən yerlərin müsəlmanları olmazın bəlayə düçar olmuşlardır: kişilər döğranmış, arvadlar qaçırılmış, uşaqlar dağlara, meşələrə pərakəndə olmuş, vilayət bir xarabazara dönmüşdür... Qaçqınlar ac, çılpaq və möhtacdırlar, ehtiyac həddindən artıqdır... Zavallı dindaşlarımızın, bəlalı millətdaşlarımızın Qars və Ordahan dağlarında çəkdikləri qəddarlıq və zülmlər, gördükləri fəlakət və səfalətlərin mümkün olsaydı da bütün təfsilatı ilə təsvir edə

Armenien du Caucase. L'inventaire/Cres, 1998, p.69, 87-91; V.Stepakov və T.Kuprikov – Sov. İKP MK-ya. 25.06.1965. // Rusiya Dövlət Ən Yeni Tarix Arxivi (RDƏYTA), f.5, s.33, i.221, v.35; Nazirlər Şurasının sədri F.X.Xoyskinin İstanbuldakı Azərbaycan nümayəndələrinin rəhbəri M.Ə.Rəsulzadəyə təcili diplomatik məlumatı. 31.07.1918. //ARPİİ SSA, f.277, s.2, i.7, v.37-38; Dronun (D.Kanayanın) Şərqi Anadoluda və Azərbaycanda törətdiyi qanlı cinayətlər haqqında bax: Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin arxivi, i.862, cild 3, II hissə, v.56-69; Srvanstyan Hamazaspın Azərbaycanda törətdiyi qanlı cinayətlər haqqında bax: С.Рустамова-Тохиди. Март 1918 в Баку. Азербайджанские программы в документах. Баку, 2009; С.Рустамова-Тогиди. Куба. Апрель-май 1918 г. Мусульманские погромы в документах. Баку, 2010, с.75-77, 154-158 və s.

[56] В.Ф.Маевский. Армяно-татарская смута на Кавказе как один из фазисов армянского вопроса. Тифлис, 1915, с.36-38

[57] Rusiyanın Van və Ərzurumdakı baş konsulu Mayevskinin xatirələr. Bakı, 1994, s.17

bilsəydik, o zaman qarələrimiz *(oxucularımız – C.H.)* qarşıdakı bayrama deyil, haman matəmə hazırlanarlardı".[58]

Erməni hərbi birləşmələrinin törətdiyi Qars qırğınları Azərbaycanda böyük həyacan doğurmuşdu. 1915-ci ilin fevral ayının əvvəllərində Yelizavetpol şəhər idarəsinin başçısı, III Dumanın üzvü Xəlil bəy Xasməmmədov bu hadislərlə bağlı şəhər ictiamiyyətinin toplantısını keçirdi. Qısa giriş çıxışında o, dedi: "Cənablar! Mənim Sizi toplamağımın səbəbi Qars faciəsidir. Mən bu faciənin ayrı-ayrı epizodlarının bütün təfərrüatı üzərində dayanmağı lazım bilmirəm, məsələ sizə aydındı, faciənin dəhşəti sizə məlumdur. Mətbuat faciənin bütün gizlinlərini sizin qarşınızda açmışdır və mən əminəm ki, alınan acı xəbərlər artıq sizin qəlbinizdə, ürəyinizdə əks səda doğurmuşdur. Yüzlərlə yetim uşaq evsiz-eşiksiz, yeməksiz qalmışdır. Dul qadınların naləsi ürəkləri yandırır. Bizim birinci borcumuz ianə toplamaqla bu bədbəxt insanlara yardım etməkdən ibarətdir. Mən Yardım Komitəsi yaratmaq üçün lazım olan razılığı almışam. Gəlin bu komitəyə adamlar seçək və yubanmadan işə başlayaq".[59] X.Xasməmmədovun bu çıxışından sonra Gəncənin tanınmış ziyalı və tacirlərindən Ələkbər bəy Rəfibəyov, İsmayıl xan Ziyadxanov, Ələkbər bəy Xasməmmədov, Aslan bəy Səfikürdski, Hacı Mirqasım Həmzəyev, Hacı İsa bəy Şeyxzamanov, Mirzə bəy Qazıyev, Mir Cəlil Məmmədov və Hacı Həsən Rəfiyev Yardım Komitəsinə üzv seçildilər.[60]

Qarsda müsəlmanların, o cümlədən, Azərbaycan türklərinin daşnak hərbi dəstələri tərəfindən kütləvi şəkildə məvv edildiyi haqqında məlumatlar yayıldıqdan sonra Bakıdan O.M.Topçubaşov, A.Quliyev, Gəncə və İrəvan quberniyalarından tanınmış nümayəndələr Qarsa yola düşdülər. Səfərdə əsas məqsəd baş vermiş faciə haqqında məlumatlar toplayıb, onu hakimiyyət orqanlarının, "yerli müsəlman əhalisini qanlı toqquşmalara susamış ermənilərdən qorumağı" diyarın hökumət idarələrinin diqqətinə çatdırmaq idi. Qarsa səfər edən nümayəndə heyəti ermənilər tərəfindən "qətl edilmiş tatar *(azərbaycanlı – C.H.)* ailələrinə yardım toplamaq" üçün hakimiyyət orqanlarından icazə almalı idilər. Onlar Qafqaz Cəbhəsi komandanının müavini general Mışlayevski ilə görüşüb, baş vermiş hadisənin miqyasını onun diqqətinə çatdırdılar və tədbir görülməsini xahiş etdilər. General "təkəbbürlü ermənilər haqqında tədbir görüləcəyinə" söz verdi.[61]

[58] "İqbal", 1915, 19 fevral

[59] Мусульманская жизнь.// Закавказская речь, 1915, 12 февраля

[60] Bax: ARPİİ SSA, f.276, s.8, i.463, v.24 (arx.)

[61] Yelzavetpol quberniyası jandarm idarəsi rəisinin Qafqaz Canişinin jandarm idarəsinə

Göründüyü kimi, hadisələr ermənilərin iddia etdiklərindən bir qədər fərqli formada baş vermişdi və bütün bu hadisələr 1915-ci ilin aprelindən xeyli əvvəl törədilmişdi. Əslində isə, iddia edilən soyqırım hadisəsi faktlarla təsdiqlənmir və 1915-ci il hadisələrinin sənədləri ilə tanışlıq tamam ayrı mənzərəni ortaya qoyur. Məlum olur ki, soyqırımla bağlı erməni iddiaları düşünülmüş şəkildə uydurulmuş mifik hekayələr toplusudur. L. M. Bolxovitinov öz raportunda yazırdı ki, Van rayonu bizim ordular tərəfindən tutulanda erməni drujinaları burada daşı-daş üstə qoymadılar və "orada heç kimə rəhm etmədilər".[62] Fransa alimi Jorj de Malevil haqlı olaraq yazır ki, erməni irqini məhv etmək üçün cinayətkar qəsd olması barəsində tezis - Osmanlı hökumətinin ən yuxarı dairələrində hazırlanan qəsd barədə tezis, sənədlərlə tanış olarkən sabun köpüyü kimi puç olur.[63]

Qafqaz cəbhəsində döyüşən orduya komandanlıq edən və bilavasitə iddia edilən hadisələrin qaynar nöqtəsində olan rus generalları Nikolayev öz hesabatlarında yazırdı ki, Şərqi Anadoluda erməni əhalisinin başdan-başa məhv edilməsi halları ona məlum deyil. Onun izahatına görə "Vandan Tapariz istiqamətinə 50 minə yaxın qaçqın *(erməni – C.H.)* çıxdı. Onlardan 100 nəfəri kürdlər tərəfindən öldürülmüşdü. Taparizdən Berqri-qala istiqamətinə geriyə döndükdə isə xəstəlikdən ölmüş 500-ə yaxın ermənin meyidi sayıld". General Boxovitinov onu da yazır ki, bu hadisələrin başlanması ilə ermənilərin Rusiya ərazisinə sayı 200 min nəfərə çatan kütləvi köçü başlandı. Bu köçün əhatə etdiyi bir tərəfdən Van gölünün cənubundan Xoya, digər tərəfdən Iqdıra qədər uzanan yol boyunca "adamlar yorğunluqdan, aclıqdan və susuzluqdan məhv olurdular".[64]

1916-cı ildə Rusiya Xarici İşlər Nazirliyi erməni məsələsi ilə bağlı Nazirlər Şurasına geniş bir xidməti məlumat hazırladı. Bu xidməti məlumat erməni məsələsinin böyük dövlətlərin əlində Osmanlı imperiyasını zəiflətmək üçün bir vasitə olduğunu təsdiq edir. İlk növbədə Rusiya Xarici İşlər Nazirliyinin sənədində göstərilir ki, hazırkı müharibə boğazlar uğrunda müharibədir. Sənəddə qeyd edilir ki, Türkiyəni zəiflətmək məqsədinə nail olmaq üçün Rusiya Türkiyə ermənilərini müdafiə etməyi özünün

məktubu. Fevral 1915.// ARPİİ SSA, f.276, s.8, i.463, v.23-23 (arx.)

[62] General L.M.Bolxovitinovun Əlahəzrət İmperatorun Qafqazda canişinin hərbi hissələr üzrə zati-aliləri köməkçisinə raportu. 11.12.1915.// RDHTA, f.2100, s.1, i.646, v.71 (arxası)

[63] Джордж де Малевил. Армянская трагедия 1915 года. Баку, с.44-46

[64] General L.M.Bolxovitinovun Əlahəzrət İmperatorun Qafqazda canişinin hərbi hissələr üzrə zati-aliləri köməkçisinə raportu. 11.12.1915.// RDHTA, f.2100, s.1, i.646, v.74

dövləti vəzifəsi hesab edir və 1912-ci ildən başlayaraq bu istiqamətdə fəal siyasət yeridir. Sənəddə göstərilir: "Rus diplomatiyasının fəaliyyəti uğurla nəticələndi. Həlledici məqamda Türkiyənin... erməni vilayətlərinin əhəmiyyətli yardımı diqqətəlayiq oldu. Türkiyədə ermənilər nəinki türklərin tərəfində dayanmadılar, halbuki, bu onların vətəndaşlıq borcları idi, eyni zamanda, əsasən türk təbəəsi olan ermənilərdən ibarət çoxsaylı drujinalar yaratdılar. Baş vermiş hadisələrin mahiyyətini qiymətləndirərək, türk xadimlərindən biri Cövdət bəy deyirdi: "Rus əsgərinin gülləsi bizim ayağımıza, ermənilərin gülləsi isə ürəyimizə dəyir". Bu müharibədə ermənilərin bizim üçün bütün əhəmiyyətini anlamaqdan ötəri son döyüşdə həlak olmuş bir türk zabitinin gündəliyindən bir parçaya baxmaq yetərlidir. Oradan bu sətirləri tapa bilərik: Əgər bizim ermənilər bizə birləşsəydilər, biz çoxdan rusları dərmadağın edərdik". Xidməti qeydlərdə Rusiya Xarici İşlər nazirliyi təklif edirdi ki, türklərlə kürdlər və "bizim tatarlar" arasında erməni zolağının yaradılması Rusiya siyasətinin əsas vəzifəsidir.[65]

Şərqi Anadoludakı hadisələrdən sonra ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köç etməsi regionda milli-etnik münasibətlərin mürəkkəbləşməsinə və etnik ziddiyyətlərin daha da dərinləşməsinə gətirib çıxardı. Böyük knyaz Nikolay Nikolayeviç Qafqazda siyasi vəziyyət haqqında imperator II Nikolaya 1916-cı ilin sentyabrında göndərdiyi məruzədə bu ziddiyyətlərin açıq mənzərəsini təsvir edirdi.[66] Böyük knyaz çarı məlumatlandırırdı ki, "Qafqazın başlıca mərkəzi olan Tiflisdə şəhərin ictimai idarəsi bütövlükdə ermənilərin əlinə keçmişdir". Qafqazda yaşayan ruslarla ermənilərin münasibətlərinə gəldikdə isə Nikolay Nikolayeviç yazırdı: "Qafqazda yaşayan rusların böyük əksəriyyəti ermənilərə mənfi münasibət bəsləyir".[67]

1917-ci ilin fevralında Rusiyada keçmiş Romanovlar imperiyasının xalqları üçün yeni üfüqlər açan inqilab alovlandıqdan sonra Cənubi Qafqaz xalqları da öz talelərini özləri həll etmək imkanı əldə etdilər. Lakin ermənilər baş verən hadisələrdən "Böyük Ermənistan" yaratmaq məqamı kimi istifadə etmək istəyirdilər. 1918-ci ilin may ayının 28-də hakimiyyətə gələn daşnak liderləri demək olar ki, dərhal Gürcüstan və Azərbaycana qarşı ərazi iddiaları irəli sürdülər. Qeyd etmək lazımdır ki, 1917-ci ildə bu üç

[65] Б.А.Борьян. Армения международная дипломатия и СССР. Часть II. М.-Л., 1929, с.413-418

[66] Кавказ и Российская империя: проекты, идеи, иллюзии и реальность. Начало XIX - начало XX вв. СПб, 2005, с.542-552

[67] Yenə orada, s.551

xalqdan yalnız ermənilər ciddi hərbi qüvvəyə malik idilər. Həmin dövrdə rus qoşunları tərkibində Türkiyəyə qarşı vuruşan 35 minədək erməni və onlara qoşulan xeyli rus əsgər və zabiti erməni ordusunun əsasını təşkil etdi. Digər tərəfdən, ermənilər həmin vaxt sürətlə yayılan rus bolşevizminin Qafqazda dayaq məntəqəsi idi. Təəccüblü deyildir ki, 1917-ci ilin noyabrında Bakıda Sovet hakimiyyəti qurulanda bu hakimiyyətin başında növbə ilə Sako Saakyan və Stepan Şaumyan dayandırar. Bu hakimiyyətdə həlledici vəzifələri xüsusən, güc orqanlarında əsas mövqeləri ermənilər ələ keçirdilər. Hadisələrin belə gedişi 1918-ci ilin yazında Bakıda və ətraf qəzalarda böyük faciə ilə nəticələndi. Həmin ilin mart ayının üç günü ərzində yalnız Bakıda milli və dini mənsubiyyətə görə, 12 min azərbaycanlı məhv edildi.[68]

1917-ci ilin payızından Ermənistan tərəfindən Qarabağa daxil olan silahlı dəstələr onlarla müsəlman kəndini viran qoydular. Qarabağdakı azərbaycanlıların müdafiəsiz qalması daşnakların Bakı ətrafında törətdikləri qanlı əməllərin regionda təkrarlanması ilə nəticələndi. Sovet hakimiyyəti qurmaq bəhanəsi ilə Srvanstyan Hamazaspın dəstələri Şamaxı və Qubada Azərbaycan türklərinə divan tutaraq, Şamaxıda 8 minə, Qubada isə 4 minə yaxın dinc əhalini qırdı.[69] Eyni vaxtda, keçmiş İrəvan quberniyasında erməni hərbi hissələri tərəfindən Azərbaycan türklərinin kütləvi qırğınları başladı və bəzi məlumatlara görə, həmin vaxt erməni terrorunun hədəfi olmuş 150.000 müsəlman qaçqın vəziyyətinə düşmüş, bunlardan 80 mini Azərbaycana pənah gətirmişdi.[70] Yalnız 1918-ci ilin may ayının 28-də Azərbaycanın istiqlalının elan edilməsi Cənubi Qafqazın böyük bir ərazisində yaşayan türk-müsəlman əhalisini tamamilə məhv olmaqdan xilas etmişdi.

Mayın 26-da Gürcüstan, iki gün sonra isə Azərbaycan və Ermənistan öz müstəqilliklərini elan etdiyindən, Osmanlı imperatorluğu ilə Cənubi Qafqaz hökumətinin başladığı Batum danışıqlarını yeni elan edilmiş milli respublikalar davam etdirdi. İstiqlaliyyət elan edildikdən sonra yeni yaranmış dövlətin sərhədlərini müəyyən etmək zərurəti meydana çıxmışdı və Cənubi

[68] Fövqəladə İstintaq Komissiyasının üzvü A.E.Kluqenin Bakı şəhərinin müsəlman əhalisi üzərində törədilən zorakılıqlar haqqında komissiyanın sədri A.Xasməmmədova məruzəsi. İyul, 1919.// ARPİİ SSA, f.277, s.2, i.27, v.18; 1918-ci ilin martında Bakıda törədilmiş türk-müsəlman soyqırımı haqqında geniş məlumat üçün, bax: Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 9. CERCEC, EHESS, Paris; С.Рустамова-Тохиди. Март 1918 в Баку. Азербайджанские программы в документах. Баку, 2009

[69] Fövqəladə İstintaq Komissiyasının qərarı. 28.07.1919.// ARDA, f.1061, s.1, i.108, v.7

[70] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi yanında xüsusi təşviqat şöbəsinin yaradılması haqqında 04.06.1919. //ARDA, f.970, s.1, i.216, v.1

Qafqazda yaranan milli respublikalar içərisində ən çətin vəziyyətə Ermənistan düşmüşdü. Hələ müqavilə bağlanmazdan əvvəl erməni nümayəndələri yardım üçün Azərbaycan hökumətinə müraciət etmiş və xeyirxahlıq görmüşdülər. May ayının 29-da erməni Milli Şurası ilə danışıqlar barədə Nazirlər Şurasının sədri F.X.Xoyski Azərbaycan Milli Şurasının iclasına məlumat verdi. O göstərdi ki, Ermənistan Federasiyası yaratmaqdan ötrü onlara siyasi mərkəz lazımdır, Aleksandropol türklər tərəfindən tutulduqdan sonra belə bir siyasi mərkəz, ancaq İrəvan şəhəri ola bilər, ona görə bu şəhərin ermənilərə güzəştə gedilməsi labüddür. Bu məsələ barəsində X.Xasməmmədov, M.Y.Cəfərov, Ə.Şeyxülislamov, M. Məhərrəmov çıxış edərək, İrəvan şəhərinin ermənilərə güzəşt edilməsini qaçılmaz bəla kimi qiymətləndirdilər. Milli Şuranın iclası İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsi barədə öz razılığını bildirdi.[71] İki gün sonra İrəvan Milli Şurasının üzvləri Mir Hidayət Seyidov, Bağır Rzayev və Nəriman bəy Nərimanbəyov İrəvan şəhərinin Ermənistan Respublikasına güzəştə getməsinə etiraz etdilər, lakin iyun ayının 1-də keçirilən Azərbaycan Milli Şurasının iclası bu etirazı qəbul etmədi.[72] Bununla belə, Milli Şura İrəvan şəhərinin güzəşt edilməsi ilə bağlı meydana çıxan problemləri həll etmək üçün İrəvana M. Seyidov, B.Rzayev, M.Y.Cəfərovdan ibarət nümayəndə heyəti göndərməyi lazım bildi. Sonra iclas Yelizavetpol quberniyasındakı məsələni müzakirə etdi. Bu barədə Gəncədən qayıdan N. Usubbəyov və Ş.Rüstəmbəyov məlumat verdilər. İclas qərara aldı ki, Batumdakı Azərbaycan nümayəndələrini respublikadakı vəziyyətlə yaxından tanış etmək üçün N.Usubbəyovu Batuma ezam etsin.[73]

Batumda olan Azərbaycan və Ermənistan nümayəndələri arasında da sərhəd məsələləri ilə bağlı danışıqlar aparıldı və razılıq əldə edildi ki, Azərbaycan "Aleksandropol quberniyası" hüdudlarında erməni dövlətinin yaradılmasına razıdır, bunun müqabilində ermənilər isə Yelizavetpol quberniyasının bir hissəsinə (Yuxarı Qarabağa) olan iddialarından imtina edirdilər.[74] Bu fakt 1918-ci ilin oktyabr ayının 8-də Tiflisdəki Azərbaycan diplomatik nümayəndəsi M. Y. Cəfərovla Ermənistan diplomatik nümayəndəsi

[71] Azərbaycan Milli Şurasının 3 saylı iclasının protokolu. 29.05.1918. //ARDA, f.970, s.1, i.1, v.51

[72] Azərbaycan Milli Şurasının 4 saylı iclasının protokolu. 01.06.1918. //ARDA, f.970, s.1, i.1, v.53

[73] Yenə orada, v.54

[74] ARPİİ SSA, f.276, s.9, i. 1, v.47; З.Авалов. Независимость Грузии в международной политике. Париж, 1924, с.57

A.Camalyanın arasındakı danışıqlarda da xatırlanılır. Bu danışıqlar barədə A.Camalyan Ermənistan xarici işlər nazirliyinə yazırdı: "Bu gün cənab Cəfərov mənim yanıma gəlmişdi... Söhbət tezliklə Qarabağ məsələsinin üzərinə keçdi. O, Batum konfransı zamanı azərbaycanlıların bizə göstərdikləri xoş münasibəti xatırlatdı və bildirdi ki, məhz, azərbaycanlıların səyi ilə Ermənistanın müstəqilliyi tanındı, məhz İravanı o səbəbə bizə güzəştə gediblər ki, biz Qarabağ məsələsini qaldırmayacağımıza vəd vermişik".[75]

Bu dövrdə əsas hadisələr yenə Qarabağda və onun ətrafında cərəyan edirdi. 1918-ci il yayın sonunda Andranikin komandanlıq etdiyi erməni ordusu qonşu Zəngəzura hücuma keçdi və oktyabrın axırınadək 115 kəndi viran qoyub, 7.700 nəfər müsəlmanı öldürdü, 2.500 nəfəri yaraladı, 50 000 nəfəri doğma yurdundan didərgin saldı. Qarabağın dağlıq hissəsində də azərbaycanlılar əleyhinə əməliyyatlar eyni qəddarlıqla aparılırdı.[76] Hətta, Qafqazdakı fransız missiyası belə, etiraf edirdi ki, "Andronikin və yerli erməni komitəsinin tatar *(azərbaycanlı – C.H.)* əhalisinə münasibətdə hərəkətləri qərəzdən xali deyildi".[77]

Sentyab ayının sonlarında ermənilər Cənubi Qafqazdakı Almaniya nümayəndəsi fon Kressə müraciət edərək Qarabağ məsələsində onlara kömək etmələrini xahiş etdilər. Sentyab ayının 28-də Tiflisdə keçirilən görüşdə Ermənistanın Gürcüstandakı diplomatik nümayəndəsi A.Camalyan fon Kressdən xahiş etmişdi ki, türklərin bu məsələyə müdaxilə etməsinə imkan verməsin. O, fon Kressi inandırmağa çalışırdı ki, "digər yerlərin erməniləri ilə müqayisədə Qarabağ ermənilərı xüsusi hərbi qabiliyyətə malikdirlər".[78] A.Camalyanın bütün ciddi cəhdlərinə baxmayaraq, fon Kress Nuru paşa ilə münasibətləri gərginləşdiyindən ermənilərə kömək edə bilməyəcəyini bildirdi. 1918-ci ilin sentyabrın axırında Osmanlı-Azərbaycan qoşunları daşnak dəstələri üzərinə hücuma keçdi və oktyabrın 1-də Şuşanı döyüş-

[75] A.Camalyanın Ermənistan Xarici işlər nazirliyinə məktubu. 08.10.1918.// ARPİİ SSA, f.276, s.9, i.65, v.18

[76] 1918-1920-ci illərdə Ermənistanın Qarabağda həyata keçirdiyi pozuculuq əməlləri barədə ətraflı məlumat üçün bax: C.Həsənli. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı, 2009, 551 s; Дж.Гасанлы. Внешняя политика Азербайджанской Демократической Республики (1918-1920). М., Флинта и Наука, 2010, 576 с.

[77] Le Lieutenant-Colonel Chardigny, Chef de la Mission Militaire Français au Caucase, à Monsieur le Ministre de la Guerre (Etat-Major de l'Armée, 2°Bureau). Le 15 avril 1919.// Ministère des Affaires Etrangères de France, Archives Diplomatique, vol.832, folio 55

[78] A.Camalyanın Ermənistan Xarici işlər nazirliyinə məktubu. 28.09.1918.// ARPİİ SSA, f.276, s.9, i.65, v.15

süz ələ keçirdi. Daşnak dəstələri Qarabağın dağlıq yerlərinə sığındılar və bu ərazilərdə "Dağlıq Qarabağ Respublikası"nın yaradıldığını elan etdilər. Problemin siyasiləşdirilməsi yeni prinsipial mərhələyə qədəm qoydu.

Noyabrda Birinci Dünya müharibəsi qurtardı. Almaniya və onun müttəfiqləri məğlub oldular. Türkiyə qoşunları Cənubi Qafqazdan çəkildilər. İngiltərəyə ümid bəsləyən ermənilər, məhz, həmin ölkənin tələbi ilə Qarabağa hücumu dayandırdılar. Lakin daşnaklar Ermənistanın ərazisini genişləndirməyə can atırdılar. Paris konfransına qədər ərazi mübahisələri qaldırmamaq haqda öhdəliyi pozan daşnaklar oyunlarını davam etdirdilər. Demək olar ki, eyni vaxtda, 1918-ci ilin dekabr ayının əvvəlində onlar Gürcüstana və Azərbaycana hücuma keçdilər. Zəngəzurda 40-a qədər müsəlman kəndi məhv edildi. Yalnız ingilislərin qəti etirazından sonra döyüş əməliyyatları dayandırıldı.

Bir sual açıq qalır: Qarabağda sakitlik yaranmasında İngiltərənin nə kimi marağı vardı? Ehtimal etmək olar ki, xristianlara təbii rəğbətlə yanaşı, Rusiyanın əlindəki regiondakı nüfuzunu vurmaq arzusu da bu marağın yaranmasında az rol oynamamışdır. Bir məsələni də nəzərdən qaçırmaq olmaz ki, İngiltərə geosiyasi baxımdan Türkiyənin yolunda "xristian sipəri" yaratmağa ümid bəsləyirdi. Lakin başlıca səbəb Britaniyanın regiona nəzarəti ələ keçirməsi və nəzarətində olan regionda əmin-amanlıq arzusu idi. 1919-cu ilin yanvar ayının əvvəlində regiondakı müttəfiq qoşunların komandanı ingilis general-mayoru V.M.Tomson Azərbaycan hökumətinin nümayəndəsi Xosrov bəy Sultanovu general-qubernator sifətilə Qarabağ və Zəngəzura göndərilməsinə razılıq verməsi də, məhz, bununla bağlı idi.[79] Üç erməni, üç azərbaycanlı və müttəfiq missiyanın üzvü olan bir ingilisdən ibarət şura X.Sultanova və onun erməni köməkçisinə tabe etdirildi. Lakin Qarabağın daşnak liderləri bu kompromis qərar layihəsini rədd etdilər. Buna etiraz edən ermənilərə general Tomson bildirmişdi: "Məsələ bundadır ki, bəzi ermənilər Azərbaycanın Britaniya tərəfindən tutulmasından intiqam məqamı kimi istifadə edə bilmədiklərindən çox mütəəssir olmuşlar. Onlar başa düşməyə borcludurlar ki, məsələni hərbi qüvvələr deyil, Sülh konfransı həll edəcəkdir".[80] Dekabrın ilk günlərində isə general Tomson Gəncə, Qazax və Cavanşir qə-

[79] Bax: Le Lieutenant-Colonel Chardigny, Chef de la Mission Militaire Français au Caucase, à Monsieur le Ministre de la Guerre (Etat-Major de l'Armée, 2°Bureau). Le 15 avril 1919.// Ministère des Affaires Etrangères de France, Archives Diplomatique, vol.832, folio 55

[80] T.Swietochowski. Russian Azerbaijan, 1905-1920: The Shaping of National Identity in Moslem Community. Cambridge, 1985, p.143

zalarında yaşayan ermənilərin liderlərinə vurduğu teleqramda tələb edirdi ki, ermənilər qeyd edilən ərazilərdə törətdiyi qanunsuzluqlara və soyğunçuluğa son qoysunlar. O bildirirdi: "Bütün ermənilərə xəbər verilsin ki, öz evlərində sakit otursunlar. Əgər onlar bu əmri yerinə yetirməsələr, tökülən qanlar və baş verən qanunsuzluqlara görə bilavasitə cavab verməli olacaqlar.[81] 1919-20-ci illərdə Qafqazda münaqişə zonasında olmuş ingilis jurnalisti Skotland Liddel haqlı olaraq yazırdı: "Ermənistan əbədi olaraq münaqişə axtarır, nə vaxt ki, ona nail oldu, onu öz təbliğatlarında "təzyiq aləti"nə çevirir və doğrudan da, bu əməlli-başlı cəza aləti olur. Ermənistanın bədbəxtliyi ondadır ki, daşnaklar orda hakimiyyətdədirlər. Bu terrorist inqilabçı təşkilat çox illərdir ki, məqsədli şəkildə ermənilərı müsəlmanlar üzərinə hücuma təhrik edir. Müsəlmanlara əhəmiyyətli dərəcədə ziyan vuraraq, onlar bütün aləmə car çəkib, "əzabkeş ermənilərə" dünyanın rəğbətini qazandırmaq istəyirlər. Daşnaklar üçün ölmüş erməni çox qiymətlidir. Əgər ondan yetərincə istifadə etmək mümkün olsa, bu halda o təbliğat işinə çoxlu fayda gətirə bilər".[82]

Daşnakların təsiri altında olan Qarabağ erməni milli şurasının belə mövqeyindən qəzəblənən ingilislər daşnakları bu yerlərdən uzaqlaşdırmağa söz verdilər. Həmin böhranlı günlərdə Ağdam ağsaqqallarına teleqram göndərən Baş Nazir N.Usubbəyov yazırdı: "Qarabağda öz ermənilərini məhv edən daşnak intriqant yığını qoy, Araratın *(Ermənistan Respublikasının – C.H.)* ayrılmaz hissəsi hesab etdikləri Qarabağ və Naxçıvana ümid bəsləməsinlər. Ararat yalnız silah gücünə, və ya müsəlman əhalisi olmadan Qarabağda qələbəyə ümid bəsləyə bilər".[83] Azərbaycan hökumətinin iradəsi və Müttəfiqlərin sərt mövqeyi öz bəhrəsini verdi: ermənilər Azərbaycan general-qubernatorunun hakimiyyətini tanıdılar və hər iki tərəf əməkdaşlıq formasını axtarmağa başladı.

Azərbaycan hökuməti 1919-cu ilin iyun ayının 25-də mübahisəli məsələlərin həlli üçün hər iki tərəfin nümayəndələrindən ibarət, eyni zamanda, müttəfiq dövlətlərin təmsilçilərinin iştirakı ilə hökumət və parlament komissiyası yaratmağı Ermənistan rəhbərliyinə təklif etdi. Qarabağ ermənilərinin iyulun əvvəlində keçirilən 6-cı qurultayında artıq Azərbaycan parlamentinin üzvü Ş.M.Rüstəmbəyov dövlət nümayəndəsi sifəti ilə iştirak edirdi. Nəhayət, Qarabağın dağlıq hissəsində yaşayan erməni kəndlilərinin nümayəndələrinin 1919-cu ilin avqust ayının 15-də keçirilən 7-ci qurultayı-

[81] Азербайджан, 1918, 3 декабря.

[82] Skotland-Liddel. Müsəlmanlarla müharibə. Ermənilər yenidən hücuma keçirlər. 30.01.1920. //ARDA, f.894, s.10, i.81, v.9-10

[83] N.Usubbəyovun Ağdama teleqramı. 10.06.1919.// ARPİİ SSA, f.277, s.2, i.41,v.29

nın 4-cü səhər iclasında Azərbaycan hökumətinə tabe olmaq, onun tərkibində azərbaycanlı əhali ilə birgə yaşamaq haqqında qərar qəbul edilmişdi.[84] Hətta, Azərbaycan hökumətinin təlimatına əsasən, Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin sədri Ə.M.Topçubaşov 1919-cu ilin sentyabr ayının 9-da konfransın sədrinə müvafiq sənəd də təqdim etmişdi. Orada göstərilirdi: "Qarabağın erməni əhalisinin nümayəndələri bu əhalinin Azərbaycan hökumətinə tabe olması haqında qətnamə qəbul etmişdir".[85]

1918-1920-ci illərdə başı vətəndaş müharibəsinə qarışmış bolşevik Rusiyası, sanki, Azərbaycana diqqətini azaltmışdı. Bu şəraitdə Qərb ölkələri Qafqaz Respublikalarına münasibətdə daha bir neçə qətiyyətli addımlar atdılar. 1920-ci ilin yanvarında isə müttəfiq dövlətlərin Ali Şurası lord Kerzonun təklifi ilə Azərbaycan, habelə, Gürcüstan və Ermənistanın müstəqilliyini de-fakto tanımaq haqqında qərar qəbul etdi.[86] Bununla eyni vaxtda Parisdə keçirilən sülh konfransında erməni nümayəndələrinin ciddi cəhdlərinə, yalan məlumatlarına baxmayaraq, onlar Qarabağın Azərbaycandan qoparılmasına nail ola bilmədilər. Lakin bu vəziyyət uzun sürmədi. 1920-ci ilin aprelində Azərbaycan Respublikasının Sovet Rusiyası tərəfindən işğalı bu hadisədən bir ay əvvəl Qarabağda törədilən erməni qiyamı fonunda baş verdi.

§3. Azərbaycanın sovetləşməsi və Qarabağ məsələsinin diplomatik müzakirələrə daxil olması

1920-ci ilin aprel ayının 28-də sovet qoşunlarının Bakını işğal etməsindən dərhal sonra, aprel ayının 29-da Ermənistandan gəlmiş daşnak qüvvələri Qarabağda qurultay çağırıb Dağlıq Qarabağın Ermənistan Respublikasına birləşdirilməsi haqqında qərar qəbul etdilər. May ayının əvvəllərində bu qərar təcili olaraq, Moskvada Sovet Rusiyası ilə Azərbaycan əleyhinə gizli danışıqlar aparan L.Şant başda olmaqla, Ermənistan nümayəndələrinə çatdırıldı. Erməni emissarları həmin sənədi Rusiya Xarici işlər komissarı

[84] Qarabağın dağlıq hissəsi erməni əhalisinin Azərbaycan hökuməti ilə müvəqqəti sazişi. 15.08.1919. // ARPİİ SSA, f.1, s.169, i.249/II, v.13-14

85 Paris Sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun Sülh konfransının sədrinə məktubu. 09.09.1919.//ARDA, 970, s.1, i.142, v.77

[86] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace Conference. 1919, Vol. IX, US Government Printing office. Washington, 1946, p.959; Bulletin d'Information de l'Azerbaidjan. Paris, 1920, 17 Janvier, №7, P.1

G.Çiçerinə təqdim etməli idilər.[87] Lakin Azərbaycanın işğalından istifadə edərək bu qərarı tələsik həyata keçirmək mümkün olmadı. Bakının tutulmasından bir ay sonra Qarabağ da rus qoşunları tərəfindən işğal edildi və müstəqil Azərbaycan öz mövcudluğuna xitam verdi. Çox keçmədi ki, Ermənistan və Gürcüstana da növbə çatdı. Beləliklə, iki illik fasilədən sonra Cənubi Qafqaz yenidən Rusiyanın əsarətinə keçdi, bu dəfə sovet Rusiyasının.

Azərbaycanda Sovet hakimiyyətinin qurulması Qarabağ məsələsini gündəlikdən çıxarmadı. Elə sovetləşmənin ilk günlərdən bolşevik diplomatiyasının dərin qatlarında çarizmin xarici siyasətinə dönüş duyulurdu. Sovetləşmədən sonra Azərbaycanın əraziləri ciddi şəkildə azalmağa başladı və bu ərazilərin ümumi sahəsi 86,6 min kvadrat kilometrə endirildi. Halbuki, 1918-1920-ci illərdə respublikanın mübahisəsiz əraziləri 97.297,67 kvadrat kilometr, mübahisəli torpaqlarla birlikdə isə bu ərazilərin ümumi sahəsi 113.895,97 kvadrat kilometr idi.[88] Sovetləşmənin ilk illərində bu ədalətsizliyə dözməyərək, Azərbaycanın tarixi torpaqlarının mərkəzi bolşevik hökuməti tərəfindən Ermənistana verilməsinə qarşı etiraz edən N.Nərimanov V.Leninə yazırdı: "Müsavat hökuməti dövründə mübahisəsiz hesab olunan Azərbaycan əraziləri sovet hakimiyyətinin qələbəsindən sonra mübahisə subyekti olmağa başlamışdır. Şübhəsiz ki, xalq bunları görür və narazılığını ifadə edir".[89]

Aprel işğalı ilə eyni vaxtda Azərbaycana Ermənistan tərəfindən təcavüz hərəkətləri geniş xarakter aldığı üçün Bakıda formalaşan Sovet hakimiyyətinin ilk xarici siyasət addımlarından biri 1920-ci ilin aprel ayının 30-da Ermənistan hökumətinə nota verməkdən ibarət oldu. M.D.Hüseynov tərəfindən Ermənistan Respublikasının Xarici İşlər Nazirliyinə göndərilmiş notada deyilirdi: Azərbaycan Sovet Sosialist Respublikasının Fəhlə-Kəndli hökuməti İnqilab Komitəsinin simasında tələb edir: 1. Qarabağ və Zəngəzur əraziləri erməni ordulardan təmizlənsin; 2. Ermənistan orduları öz sərhədlərinə çəkilsin; 3. Milli qırğınlara son qoyulsun. Əks təqdirdə Azərbaycan Sovet Sosialist Respublikasının İnqilab Komitəsi özünü Ermənistan Respublikası hökuməti ilə müharibə vəziyyətində hesab

[87] Правда о Нагорном Карабахе. Степанакерт, 1989, с.27, 30-31

[88] Адрес-календарь Азербайджанской Республики. Под ред. А.М.Ставровского. Баку, 1920. с.50

[89] Daha ətraflı məlumat üçün bax: "Azərbaycanda sovet quruculuğunun yekunları" haqqında N.Nərimanovun V.İ.Leninə hesabatı. 15.09.1921.// RDSSTA, f.5, s.1, i.1219, v.12; N.Nərimanovun V.İ.Leninə məktubu.// ARPİİ SSA, f.609, s.1, i.71, v.41; B.Şaxtatinskinin V.İ.Leninə məktubu. 20.09.1920.// RF XSA, f.1, s.51, q. 321a, i.54859, v.6-7

edəcəkdir. Notaya cavab üç gün müddətində alınmalıdır.[90] Ermənistan tərəfi Avropa ölkələrindən dəstək almaq üçün təcili olaraq, bu notanın surətini Paris Sülh konfransında Ermənistan Respublikasının nümayəndə heyətinə rəhbərlik etmiş A.Ağaronyana göndərdi. Parisə göndərilən şifrli teleqramda göstərilirdi: "Şimali Qafqazın bolşevik komissarı Orconikidze təsdiq edir ki, Azərbaycanın tələblərindən imtina edilməsi Sovet Rusiyasına qarşı müharibə kimi qiymətləndiriləcək. Vəziyyət böhranlıdır. Haqqı sonradan ödənilməklə tüfəng, patron, hərbi sursatdan ibarət yardım alınması barədə təcili olaraq, müttəfiqlərlə görüşün".[91] 1920-ci ilin may ayının ortalarına qədər Azərbaycan SSR-lə Ermənistan Respublikası arasındakı hədələyici xarakterli notalar təxminən bu məzmunda idilər.[92] Bu hədələyici notalar haqqında öz ölkəsinə məlumat göndərən Qafqazdakı Fransa missiyası Qarabağın etnik tərkibi ilə bağlı yazırdı: "Mübahisəli Qarabağ dairəsində çoxlu sayda erməni yaşayır, lakin əhalinin böyük əksəriyyəti tatarlardır *(azərbaycanlılardır – C.H.)*".[93]

Azərbaycan xarici işlər komissarının erməni xalqına və Ermənistan hökumətinə may ayının 11-də göndərdiyi müraciətdə Naxçıvan, Şərur-Dərələyəz, Yeni Bəyazit, Eçmiədzin qəzalarında, Qars vilayətində, Qarabağ, Zəngəzur və Qazaxda 1917-ci ildən başlayaraq, erməni silahlı dəstələrinin törətdiyi zorakılıqlar sadalanır və daşnak hökumətindən qeyd edilən yerlərdə müsəlman əhalisinə qarşı terror və zorakılıq siyasətinin dayandırılması tələb edilirdi.[94] Sovetləşmənin ilk günlərində ermənilərin Qarabağda və digər yerlərdə fəallaşması, müsəlman əhalisinə qarşı zorakılıq siyasəti yeritməsi ilk növbədə, Azərbaycanın zəifləməsi, milli ordunun, ilk növbədə isə əsgər hissələrinin buraxılması ilə bağlı idi. Qafqazdakı Fransa komissarı may ayının 24-də Parisə, Xarici İşlər Nazirliyinə yazırdı ki, "yalnız Qarabağ və Zəngəzur istiqamətində erməni cəbhəsini ayıran az əhəmiyyətli sahə istisna olmaqla, demək olar ki, Azərbaycan ordusu tamamilə buraxılmışdır".[95]

[90] "Kommunist", 1920, 1 may

[91] Télégramme chiffré. Constantinople, C.A.A. à Guerre. Le 5 mai 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 27

[92] İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996, s.236

[93] Direction des Affaires politiques et commerciales. Service des Affaires Russes. Le 4 mai 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 24

[94] "Kommunist", 1920, 12 may

[95] Monsieur de Martel Commissaire français au Caucase à Son Excellence Monsieur Millerand Président du Conseil Ministre des Affaires Etrangères. Le 24 mai 1920.// Ministère des

Məhz, bu vəziyyətdən ermənilər intiqam məqamı kimi istifadə edir, ordusu tərxis edilən Azərbaycanın ərazilərini ələ keçirir, həmin ərazilərdə yaşayan müsəlman əhalisinə qəddarlıqla divan tuturdu. 1920-ci ilin iyun ayının 29-da S.Kirov G.Çiçerinə göndərdiyi teleqramda daşnakların, nəinki, müsəlmanlara, eyni zamanda, ruslara da divan tutduğunu bildirirdi. O yazırdı: "Qars vilayəttinin otuz minlik rus əhalisindən on beş mini qalmışdır, digər hissəsi ya Türkiyəyə, ya Rusiyaya qaçmış və yaxud məhv olmuşdur".[96] İyun ayının 19-da isə N.Nərimanov, M.Mdivani, A.Mikoyan və A.Nurcanyanın G.Çiçerinə göndərdikləri teleqramda daşnak ordusunun Azərbaycana qarşı hücumu davam etdirdiyi, Qazax və Gədəbəy istiqamətində uğur qazandığı bildirilirdi. Surəti Vladiqafqaza, Q.Orconikidzeyə göndərilən bu teleqramda yazılırdı: "Ermənilər faktiki olaraq, Azərbaycanla müharibə vəziyyətindədir. Artıq Sovet Azərbaycanının tərkibində olan Qarabağ və Zəngəzurun, guya, mübahisəli olduğuna gəldikdə isə, qəti şəkildə bəyan edirik ki, bu yerlər mübahisəsiz olaraq, gələcəkdə də Azərbaycanın hüdudlarında olmalıdır".[97]

1920-ci ilin aprel işğalından sonra may ayının 12-də Azərbaycan İnqilab Komitəsinin ilk dekretlərindən biri sovet hakimiyyətini möhkəmləndirmək məqsədilə Qarabağ və Zəngəzurda fövqəladə komissar vəzifəsini təsis etmək oldu. Elə həmin dekretlə Qarabağın fövqəladə komissarı vəzifəsinə D.Bünyadzadə göndərildi. A.Karakozov isə Qarabağın erməni hissəsi üzrə onun köməkçisi təyin edildi.[98] D.Bünyadzadə 1920-ci ilin avqust ayının sonlarına qədər bu vəzifədə fəaliyyət göstərdi. May ayının ortalarında Bakıya gələn N.Nərimanov may ayının 18-də Azərbaycan İnqilab Komitəsinin sədri kimi, Qarabağ Vilayət İnqilab Komitəsinin yaradılması haqqında dekreti imzaladı. Həm fövqəladə komissar vəzifəsinin təsis edilməsi, həm də, Qarabağ İnqilab Komitəsinin yaradılması ilə, əslində, Zəngəzur, Cəbrayıl, Cavanşir və Şuşa qəzalarından ibarət olan keçmiş Qarabağ general-qubernatorluğunun sərhədləri qorunub saxlanıldı.[99]

Ermənistan xarici işlər naziri Amo Ohancanyan Azərbaycan İnqilab Komitəsinə, onunla yanaşı, surətini Q.Orconikidze, V.Lenin və G.Çiçerinə göndərdiyi 1 may tarixli cavab notasında məsələni belə qoyurdu ki, guya,

Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 78

[96] S.Kirovun G.Çiçerinə teleqramı. 29.06.1920.// RDSSTA, f.5, s.1, i.2178, v.1

[97] N.Nərimanov, M.Mdivani, A.Mikoyan, A.Nurcanyanın G.Çiçerinə teleqramı. 19.06.1920. //AR DA, f.28, s.1, i.211, v.115

[98] Azərbaycan İnqilab Komitəsinin iclasının protokolu. 12.05.1920.// AR DA, f.410, s.1, i.78, v.6

[99] D.Bünyadzadənin Qarabağ və Zəngəzurun fövqəladə komissarı təyin edilməsi haqqında Azərbaycan İnqilab Komitəsinin dekreti.18.05.1920.// AR DA, f.420, s.1, i.5, v.2

Azərbaycanın müsavat hökuməti "erməni Qarabağında" əhaliyə zülm etdiyi, şəhərləri və kəndləri yandırdığı üçün Qarabağ əhalisi dəfələrlə özlərinin kəndli deputatları qurultayında Azərbaycanın tərkibinə daxil olmamaq barədə öz azad iradələrini ifadə etmişlər. Bu vilayətdə Azərbaycan ordusu ancaq bir məqsədlə yerləşdirilmişdi ki, Azərbaycanın hüdudlarında ordusu olmayan erməni əhalisinin öz müqəddəratını təyin etmək istiqamətində iradəsini qırsın. Ermənistan hökuməti Azərbaycanın yeni hökumətinə təklif edirdi ki, "öz ordularını dağlıq erməni Qarabağının hüdudlarından çıxarsınlar". Ohancanyan əlavə edirdi ki, indiki halda hədələyici notaya heç bir əsas yoxdur və əmin olduğunu bildirirdi ki, Sovet Rusiyasının fəhlə-kəndli hökuməti artıq çoxdan IV Ümumrusiya Sovetlər qurultayının qərarı və Leninin dekret ilə ermənilərin müstəqilliyini və istiqlaliyyətini tanımışdır.[100] Bu məzmunda bir teleqram may ayının 9-da özlərini Qarabağ həmyerlilərinin nümayəndəsi adlandıran Pirumov və Erzincyan tərəfindən, V.Leninə çatdırılmaq üçün Q.Orconikidzeyə də göndərilmişdi. Onlar yazırdılar ki, "aprel ayının 30-da Azərbaycan sovet hökumətinin elan etdiyi ultimatumdan belə nəticəyə gəlmək olar ki, istisnasız olaraq, erməni əhalisindən ibarət olan iki vilayət Zəngəzur və Qarabağ Azərbaycan respublikasının tərkibinə daxil edilmişdir. Belə ki, bu rayonların əhalisi özlərinin kəndli qurultaylarında Azərbaycanın tərkibinə daxil olmaqdan qəti şəkildə imtina ediblər".[101] Onlar təkcə bununla kifayətlənmədilər. Pirumov başda olmaqla, Qarabağ həmyerliləri adından bir heyəti 1920-ci ilin yayında Moskvaya yollamağı planlaşdırırdılar. Birbaşa xəttlə Kvirkeliya ilə söhbətində Q.Orconikidze soruşurdu: "nə üçün yoldaş Pirumov və digərləri Moskvaya getmək istəyirlər? Bundan ötrü Moskvaya getməyin mənası yoxdur. Zəngəzur və Qarabağda əhali ancaq ermənilərdən ibarət deyil, 17-ci ilin siyahiyə alınmasına görə, yarıbayarıdır, hətta, əgər çox *(azərbaycan əhalisi – C.H.)* deyilsə, yarıbayarıdır. Hər halda, Moskva Qarabağ məsələsi ilə məşğul olmayacaq".[102] Eyni zamanda, qeyd etmək lazımdır ki, erməni kommunistlərindən Aykuni və Katanyan Leninə ünvanladıqları məktublarında "Tiflis həmyerlilərinin" Qarabağ və Zəngəzurla bağlı müraciətlərini müdafiə edirdilər.[103]

[100] Ermənistan hökumətinin Azərbaycan İnqilab Komitəsinə notası. 01.05.1920. //ARPİİ SSA, f.1, s.169, i.249/II, v.2-3

[101] Pirumov və Erzincyanın Orconikidzeyə teleqramı. 09.05.1920.// RDSSTA, f.85, s.13, i.18, v.1

[102] Q.Orconikidzenin bir başa xətlə Kvirkeliya ilə söhbəti. 1920.// RDSSTA, f.85, s.5c, i.5, v.1

[103] И.Нифталиев. Азербайджанская ССР в экспансионистских планах армян (20-е

Əlbəttə, Ohancanyanın Qarabağın kəndli deputatları qurultayında erməni əhalisinin öz iradəsini ifadə etməsi və bu ifadənin təzahürü kimi, Azərbaycanın tərkibində olmaq istəməməsi haqqında iddiası elə də doğru deyildi. Əvvəl qeyd olunduğu kimi, Qarabağ ermənilərinin Azərbaycanın tərkibində qalmaq barədə hələ 1919-cu ilin avqust ayında qərar qəbul etmişdilər. Bir sıra erməni müəllifləri bu qərarın guya, ingilislərin təzyiqi ilə qəbul olunduğunu yazırlar.[104] 1919-cu ilin avqustun 22-də Azərbaycan hökuməti ilə Qarabağ ermənilərinin nümayəndələri arasında müvəqqəti saziş imzalandıqdan iki həftə əvvəl artıq ingilislər Azərbaycanı tərk etmişdilər. Tək müsəlman bolşevikləri deyil, Qafqazda fəaliyyət göstərən erməni, gürcü, rus, yəhudi və digər millətlərdən olan kommunistlər də etiraf edirdilər ki, Müsavat hökuməti dövründə Qarabağ dağı və aranı ilə birlikdə Azərbaycan hökumətinin tərkibində olmuşdur. RK(b)P Qafqaz Diyar Komitəsinin üzvü A.Mikoyan RK(b)P MK-ya və V.Leninə məruzəsində açıq şəkildə yazırdı ki, Qarabağ "İrəvanla heç vaxt və heç nə ilə bağlı olmayıb".[105]

Bakının və Qafqazda, ilk növbədə isə, Azərbaycanda fəaliyyət göstərən tanınmış bolşeviklərin Mərkəzin siyasətinə qarşı müqavimətindən əsəbiləşən G.Çiçerin RK(b)P MK-nın Siyasi Bürosuna 22 iyun 1920-ci il tarixli məktubunda "Bakılı yoldaşlar"ı açıq-açığına intizamsızlıqda və partiyanın siyasi xəttinə qarşı çıxmaqda ittiham edirdi. O, təklif edirdi ki, Qafqaz qrupu ilə bağlı olmayan nüfuzlu bir adamı Xalq Komissarları Sovetinin vəkaləti ilə Bakıya göndərmək lazımdır. Belə bir "nüfuzlu adam" kimi, o, Sokolnikovun adını çəkirdi.[106] Bunu G.Çiçerin onunla əlaqələndirirdi ki, "Bakılı yoldaşlar" öz hərəkətləri ilə kompromisi pozur, Mərkəzi Komitənin Ermənistanla sülh bağlamaq haqqında tələblərini rədd edirdilər. G.Çiçerin Leninə şikayətlənirdi ki, "Nərimanov Bakı tatarlarının *(azərbaycanlıların – C.H.)* hücum niyyətlərinə haqq qazandırır".[107] Onun fikrincə, Rusiya qüvvələri tərəfindən tutulmuş mübahisəli ərazilərin Azərbaycana birləşdirilməsinə təkid etmək Ermənistanla müqaviləni qeyri-mümkün edir. Görünür, 1920-ci ilin yayında Azərbaycanda olan bolşevik ordusunun yarısının Moskvanın

годы XX века). Баку, 2010, с.45

[104] Правда о Нагорном Карабахе, с.26, 29

[105] RK(b)P-nin Qafqaz Diyar Komitəsinin üzvü A.Mikoyanın RK(b)P MK-ya və V.İ.Leninə məruzəsindən.// ARPİİ SSA, f.1, s.169, i.249/II, v.1

[106] Большевистское руководство. Переписка. 1912-1927. Сборник документов. М., 1996, с.134-135

[107] G.Çiçerinin V.Leninin sorğusuna cavabı. İyun 1920.// RDSSTA, f.2, s.1, i.1451, v.2

təkidi ilə bilavasitə Qarabağ və Zəngəzurda saxlanması məhz bu zərurətdən irəli gəlirdi.[108] Bu məsələdə Çiçerinin məntiqi qəribə idi. Cəmi iki ay əvvəl mübahisəsiz olaraq, Azərbaycana məxsus olan ərazilər Sovet Rusiyasının ordusu tərəfindən işğal olunaraq, mübahisəli elan edilir və indi həmin ərazilərin Azərbaycanda "saxlanmasından" deyil, ona "birləşdirilməsindən" söhbət gedirdi. O yazırdı: "Bakılı yoldaşlar"ın bütün bu hücum siyasəti Mərkəzi Komitənin artıq müəyyən edilmiş xətti ilə köklü şəkildə ziddiyyət təşkil edir."[109] Qarabağ ətrafında yaranmış mübahisələrlə bağlı G.Çiçerin, hətta, Leninə belə yalnış məlumat verməkdən çəkinmirdi. V.Leninin sorğusuna cavab olaraq, Sovet Rusiyasının xarici siyasət idarəsinin rəhbəri özünün etiraf etdiyi kimi, "Qafqaz işlərindən az məlumatlı" olmasına baxmayaraq yazırdı: "Qarabağ qədim erməni torpağıdır, lakin ermənilər orada qırdıqdan sonra düzənlik hissədə tatarlar yerləşiblər, dağlıq hissədə isə ermənilər qalıblar. Biz indi tatarları incik salmamaq üçün həmin yerləri ermənilərə vermirik... Gürcüstanın və Ermənistanın sovetləşməsi üçün şərait yetişəndə, onda bütün bunlar aradan qalxacaq".[110] Məhz, bütün bunları nəzərdə tutaraq N.Nərimanov V.Leninə yazırdı ki, "yoldaş Çiçerinin teleqramından görünür ki, Sizin məlumatınız birtərəflidir".[111]

Lakin Çiçerinin bu oyunları və hədələri N.Nərimanovu öz mövqelərindən çəkindirə bilmədi. Qarabağın dağlıq hissəsinə Ermənistanın iddiaları gücləndirildiyindən, aprel çevrilişindən az sonra, Qafqazda nüfuzlu hesab edilən bolşeviklərdən N.Nərimanov, M. Mdivani, A.Mikoyan, B.Naneyşvili, hətta, IX Ordunun hərbi şurasının üzvləri Y.Vesnik, M.Levandovski və İ.Mixaylov birlikdə imzalayıb, məsələyə tərəddüdlü münasibət bəsləyən RK(b)P MK-ya göndərdikləri məktubda yazırdılar: "Qafqazda inqilabın mənafeyinə zidd olan, Ermənistanla aparılan bəlli danışıqlarda Qarabağ və Zəngəzur məsələləri ilə bağlı vahid fikrimizi Mərkəzi Komitəyə bildirməyi öz borcumuz hesab edirik. Müsavat hökuməti dövründə Qarabağ bütövlükdə Azərbaycanın tərkibində olmuşdur. Qarabağ və Zəngəzurun Bakı ilə qırılmaz iqtisadi və mədəni birliyi bu vilayətlərdən olan on minlərlə fəhlədən qaynaqlanır və onların İrəvanla heç bir bağlılı-

[108] Agence Consulaire de France à Bakou « Situation actuelle de l'Azerbaïdjan».Le 27 juillet 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 150

[109] Xarici işlər komissarı G.Çiçerinin RK(b)P MK Siyasi Bürosuna məktubu. 22.06.1920. // ARPİİ SSA, f.1, s.1, i.2a, v.9

[110] G.Çiçerinin V.Leninin sorğusuna cavabı. İyun 1920.// RDSSTA, f.2, s.1, i.14516, v.1

[111] N.Nərimanovun V.Leninə məktubu. 1920.// ARPİİ SSA, f.609, s.1, i.71, v.41

ğının olmaması 1919-cu ildə Qarabağın erməni əhalisinin kəndli qurultayında parlaq şəkildə öz təsdiqini tapmışdı. Müsavat rejiminin ermənilər üçün dözülməz şərait yaratmasına və Ermənistanın agentlərinin təxribatçı əməllərinə baxmayaraq, hər halda, erməni əhalisi onlara sakit həyat təminatı şərti ilə Azərbaycanla bütövlükdə bir yerdə olmağa qəti şəkildə tərəfdar oldular".[112] Məktubun sonunda qeyd olunurdu ki, müsəlman kütlələri Azərbaycanın köhnə sərhədlərdə saxlanıla bilinməməsini Sovet hakimiyyətinin xəyanəti, ermənipərəstliyi və ya zəifliyi kimi yozurlar. Onlar Mərkəzi xəbərdar edirdilər ki, Qarabağ və Zəngəzur məsələsində tərəddüd etməklə, Azərbaycanı rəzil vəziyyətə qoymasınlar.[113] Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qarabağın Azərbaycanın tərkibində olduğunu az sonra, uzun müddət Qarabağda müxtəlif rəhbər vəzifələrdə işləmiş S.Şaduns da etiraf edirdi. O yazırdı: Dağlıq Qarabağın özünün kəndlilərinin təkidi ilə bu hissə aran hissə ilə birləşdirilməli oldu və bütün Qarabağ müsavat hökumətinin hakimiyyətinə tabe edildi". S.Şaduns sözünə davam edərək bildirirdi: lakin Ermənistanda hakimiyyət "möhkəmlənən" kimi və Dronun "qəhrəman" bandası bir neçə uğurlu hərbi əməliyyat keçirdikdən sonra (Tiflisə, Zəngəzura və digər yerlərə) Qarabağda da işlər başlandı. Daşnak hökuməti yenidən öz emissarlarını böyük pul ehtiyatları ilə Dağlıq Qarabağa göndərdi və Qarabağın heç bir bağlılığı olmayan Ermənistanla birləşdirilməsi uğrunda təbliğata başladı".[114]

Ermənistanın Sovet Rusiyası tərəfindən tanınmasına rəsmi xarakter vermək üçün G.Çiçerin 1920-ci ilin iyun ayının 29-da B.Leqranın İrəvana səlahiyyətli nümayəndə təyin olunduğunu bildirdi. Onun izahına görə, səlahiyyətli nümayəndə iki ölkə arasında mehriban qonşuluq münasibətlərinin yaradılması, bütün mübahisəli məsələlərin yoluna qoyulması, ziddiyyətlərin aradan qaldırılması və Rusiya ilə Ermənistan arasında sülhün möhkəmləndirilməsi işinə xidmət etməli idi. Eyni zamanda, bu missiyanın qarşısına Rusiya ilə Ermənistan arasında müqaviləni işləyib, hazırlamaq vəzifəsi qoyulmuşdu.[115] Leqran Ermənistana səlahiyyətli nümayəndə təyin edildikdən bir gün sonra N.Nərimanov və Qafqaz bolşeviklərinin cid-

[112] Nərimanov, Mdivani, Mikoyan, Naneyşvili, Vesnik, Levandovski və Mixaylovun RK(b)P MK-ya məktubu. 10.07.1920. //ARPİİ SSA, f.1, s.44, i.118, v.25

[113] Yenə orada, v.27

[114] С.Шаумян. Карабах.// Бакинский рабочий, 1922, 21 декабря

[115] G.Çiçerinin bir başa xətlə Bekzadyana, Ohancanyana və Kirova məlumatı. 29.06.1920.// RDSSTA, f.64, s.1, i.21, v.8

di cəhdlərinə baxmayaraq, Sovet Rusiyasının rəhbərliyi G.Çiçerinin təkidi ilə 1920-ci ilin iyun ayının 30-da Qırmızı Ordunun Ermənistana doğru irəliləməsinin dayandırılması haqqında qərar qəbul etdi. RK(b)P MK Siyasi Bürosunun bu qərarını əldə rəhbər tutaraq, G.Çiçerin Azərbaycanda işlərə rəhbərlik, siyasi proseslərə nəzarət edən Mərkəzin nümayəndələrinə öz təzyiqlərini gücləndirməyə başladı. İyul ayının 2-də Orconikidzeyə göndərdiyi teleqramda o, bildirirdi ki, "türk milli mərkəzi ilə *(Mustafa Kamal hökuməti nəzərdə tutulur – C.H.)* başlanan danışıqlarda Rusiyaya birbaşa ərazi əlaqəsi zəruridir, bunun üçün isə biz Ermənistanla müqavilə bağlamalıyıq ki, onun vasitəsi ilə belə əlaqə imkanını əldə edək". G.Çiçerin yazırdı: "Onunla *(Ermənistanla - C.H.)* müqavilə Kiçik Asiya işlərinə bizim mümkün təsirimizi təmin edən yeganə vasitədir".[116] Həmin gün göndərdiyi digər bir şifrəli teleqramda G.Çiçerin Q.Orconikidzeni inandırmağa çalışırdı ki, erməni daşnak hökuməti ilə kompromis əldə edilməsi Sovet Rusiyası üçün zəruridir. O yazırdı: "Azərbaycan hökuməti, yalnız Qarabağ və Zəngəzuru deyil, Şərur-Dərələyəz qəzasını da mübahisəli elan edir. Sonuncu ərazi heç vaxt, heç bir halda mübahisəli olmayıb və hətta, Müsavat hökuməti belə oranı həmişə Ermənistan kimi tanıyıb. Şərur-Dərələyəzsiz Ermənistandan, demək olar ki, heç nə qalmır, Ermənistan sülh nümayəndə heyəti uzun müqavimətdən sonra əvvəl-axır böyük hissəsinin Ermənistana veriləcəyinə ümid bəslədikləri, Qarabağ və Zəngəzurun mübahisəli olduğu ilə razılaşsalar da, lakin onlar Şərur-Dərələyəzin mübahisəli olduğu ilə heç bir halda razılaşmırlar. Digər tərəfdən, bizim Ermənistanla müqaviləmizin Azərbaycan hökumətinin tələblərinə zidd olmadığı barədə Azərbaycan hökuməti ilə razılığa gəlməyimiz zəruridir. Sizin Bakıda çox böyük təsiriniz olduğundan, xahiş edirik, bu təsirdən istifadə edərək, Azərbaycan hökumətinin Şərur-Dərələyəzi deyil, Qarabağ və Zəngəzuru mübahisəli ərazi kimi tanınmasına nail olun."[117] Əlbəttə, Şərur-Dərələyəzlə bağlı G. Ciçerinin mülahizələri tarixi həqiqətə uyğun deyildi. Hətta, Qafqazdakı bütün fəaliyyətlərində xüsusi şəkildə öz ermənipərəstliyi ilə seçilən fransızlar 1918-ci ilin dekabrında Qafqazın etnik-milli tərkibi, inzibati quruluşu haqqında hazırladıqları məlumatlarda qeyd edirdilər ki, ermənilər bir sıra əraziləri öz tərkiblərinə daxil ediblər ki, həmin ərazilərdə onlar azlıqda qalırlar. Belə ki, Naxçıvanda 75 min, Şərur-Dərələyəzdə 57 min, İrəvanda 87 min, Sürməlidə 44 min tatar

[116] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 02.07.1920. //RDSSTA, f.85, s.3c, i.2, v.1

[117] G.Çiçerinin Q.Orconikidzeyə şifrəli teleqramı. 02.07.1920. //RDSSTA, f.85, s.3c, i.2, v.3

(azərbaycanlı – C.H.) yaşayır. Bu dairələr Ermənistanın mərkəzində demək olar ki, müsəlman kantonlarıdır".[118] *(Qeyd etmək lazımdır ki, bu sənəddə bəzi qeyri-dəqiqliyə yol verilib, 1918-ci ilin dekabrında İrəvan istisna olmaq adı çəkilən digər ərazilər Azərbaycan hökumətinin nəzarətində idi və 1918-ci ilin iyun ayının 4-də Türkiyə ilə Ermənistan Respublikası arasında imzalanmış Batum müqaviləsinə görə, Ermənistanın sərhədləri, habelə, onun hüdudlarına daxil olan ərazilər müqavilənin mətnində aydın şəkildə öz əksini tapmışdı - C.H.).*

G.Çiçerinin 2 iyul tarixli sifrli teleqramından sonra B.Leqran və A.Qabrielyanla *(A.B.Karinyanla – C.H.)* müzakirələrin yekunu kimi, Q.Orconikidze birbaşa xəttlə Moskva üçün hazırladığı cavabında bildirirdi: "Azərbaycan Qarabağ və Zəngəzurun təcili və danışıqsız birləşdirilməsində təkid edir. Mənə görə, bunu etmək zəruridir, belə ki, hər iki qəza iqtisadi baxımdan Bakıya meyllidir və xüsusilə, Bəyazid türk diviziyasının araya girdiyi indiki vaxtda bu qəzalar tamamilə İrəvandan ayrılmışlar. Bu qəzalar mübahisəli saxlanıldığı halda, onlar, sözsüz ki, türklər tərəfindən tutulacaqlar və bütün erməni əhalisi qılıncdan keçiriləcəkdir. Bunu aradan qaldırmaq üçün biz heç nə edə bilmərik. Bu qəzaların Azərbaycana birləşdirilməsi Azərbaycan kommunistlərinin əlinə güclü dəlil vermiş olardı və köçərilər üçün yolları açardı. Qabrielyanın sözlərinə görə, "erməni nümayəndəliyi sözsüz, buna gedər. Məsələnin həllinin belə gedişində Azərbaycanı məcbur etmək olar ki, qalan vilayətlərdən imtina etsin. Mənim fikrimcə, Qarabağ və Zəngəzur təcili olaraq Azərbaycana birləşdirilməlidir. Mən Azərbaycanı məcbur edəcəyəm ki, bu vilayətlərin muxtariyyətini elan etsin, lakin bu ideya Azərbaycanda gəlməlidir və heç bir halda bunu müqavilədə göstərmək olmaz."[119] V.Lenin, İ.Stalin və G.Çiçerinə birbaşa xəttlə verdiyi digər bir məlumatda Q.Orconikidze açıq şəkildə bolşevik liderlərinə bildirirdi ki, Ermənistan hökuməti düşünülmüş şəkildə sizə yalan informasiyalar verir. O deyirdi: "Bu gün Qabrielyan mənə bildirdi ki, Azərbaycan Şərur-Dərələyəzdən və Naxçıvandan imtina etsə, erməni nümayəndəliyi təxirə salınmadan Qarabağ və Zəngəzurun Azərbaycana birləşdirilməsinə razıdır. Biz onunla şərtləşdik ki, Bakıya gələndə Nərimanovla bu ruhda söhbət

[118] Azerbaïdjan Annexe N° 1 au rapport N° 1 du 10 décembre 1918 Considérations générales sur l'organisation du Caucase en cantons.//Ministère des Affaires Etrangères de France, Archives Diplomatique, vol.832, folio 23

[119] Q.Orconikidzenin birbaşa xətlə Azərbaycanla Ermənistan arasında mübahisəli ərazilər barədə Çiçerinin təcili diplomatik teleqramına cavabı. İyul, 1920. // RDSSTA, f.85, s.3c, i.2, v.6

aparaq. Gördüyünüz kimi, burada aydın və məlum olmayan bir şey yoxdur. Sizi əmin etmək istəyirəm ki, biz sülh siyasətimizi kifayət qədər aydın təsəvvür edir və həyata keçiririk. Mən əminəm və mənim dərin inamıma görə, Azərbaycanda Sovet hakimiyyətini möhkəmləndirmək və Bakını əlimizdə saxlamaq üçün Dağlıq Qarabağı - aran Qarabağ haqqında heç bir söhbət ola bilməz, o həmişə Azərbaycanın olub – Azərbaycana birləşdirmək lazımdır. Azərbaycan bu rayonun erməni əhalisinin təhlükəsizliyinə öz başı ilə təminat verir. Burada muxtariyyət elan edib, müsəlman ordu hissələrini ora buraxmadan erməni əhalisini təşkilatlandırarıq". Q.Orconikidze xəbərdarlıq edirdi ki, "bu məsələnin digər həlli bizim Azərbaycanda vəziyyətimizi dayanaqsız edir və Ermənistanda da heç nə udmuruq. Mən gözəl başa düşürəm ki, Ermənistanın məlum siyasi şəraitdə bizə gərək ola biləcəyi istisnalıq təşkil etmir. Necə lazım bilirsinizsə, elə də həll edin. Bizə nə göstəriş verilsə, biz onun hamısını həyata keçirəcəyik. Lakin icazə verin, sizin nəzərinizə çatdıraq ki, Azərbaycana belə münasibət bizi geniş kütlələrin gözündə nüfuzdan salır və bizim əleyhdarlarımızın fəaliyyəti üçün yüksək dərəcədə əlverişli zəmin yaradır".[120] 1920-ci ilin aprel çevrilişindən sonra Q.Orconikidzenin bir müddət Azərbyacan-Gürcüstan və Azərbaycan-Ermənistan münasibətlərində "Sovet Rusiyasının şərqdə ilk övladı" sayılan Azərbaycanın tərəfində dayanması Mokvada, xüsusilə, XXİK-da bəzilərini əsəbiləşdirirdi. Həmin dairələrin başında dayanan G.Çiçerin bu mövqeyinə görə, Orconikidzeni şantaj edir və hətta, onu "müsəlmanpərəst orientasiyaya gizli cəhddə" ittiham edirdi. Bütün bu atmacalara cavab olaraq, Orconikidze Çiçerinə məruzə edirdi ki, "müsəlman millətçiliyinə heç bir aidiyyətim yoxdur və olmayıb. Mənim əcdadlarım arasında bir nəfər də olsun, tatar yoxdur".[121] Eyni zamanda, iyul ayının 10-da Nərimanov, Naneyşvili, Qarayev, Bünyadzadə, Yeqorov, Mikoyan, Armenak Karakozov və Ermənistandakı Rusiya nümayəndəsi Leqranın iştirakı ilə AK(b)P MK-da Qarabağ məsələsi müzakirəyə çıxarılmışdı və Sovet Rusiyası XXİK-nın tövsiyələrinin əksinə olaraq müzakirə əsasında qərara alınmışdı ki, "erməni kəndliləri Ermənistanın tərkibinə daxil olmaq istəmirlər. Onların Rusiyaya güclü meyli vardır. Rusiyaya gedən yol isə Bakıdan keçir. Və indiki anda mərkəzin irəli sürdüyü məsələ qəribə görsənir".[122]

[120] Birbaşa xətlə V.Leninə, İ.Stalinə və G.Çiçerinə xatırlatma. İyul, 1920. // RDSSTA, f.85, s.3c, i.2, v.8-9

[121] Q.Orconikidzenin G.Çiçerinə teleqramı. 1920.// RDSSTA, f.64, s.1, i.17, v.53

[122] AKP MK bürosunun iclasının protokolu. 10.07.1920.// ARPİİ SSA, f.1, s,13, i.120. v.13

Q.Orconikidze mərkəzdə bu işlərə kimin maneçilik törətdiyini yaxşı bilirdi və ona görə də o, sonuncu məlumatla bağlı birbaşa xəttlə Xalq Komissarları Soveti aparatının işçisi N. Alliluyevadan xahiş edirdi ki, onun sonuncu məlumatının nüsxəsini əgər G.Çiçerinə verməyibsə, onun nüsxəsini oradan çıxarsın və söhbətin məzmununun V.Leninə və İ.Stalinə versin. Q.Orconikidze deyirdi: "Məni, ümumiyyətlə, bizim hamımızı bu məsələ ilə bağlı onun *(İ.Stalinin – C.H.)* fikri maraqlandırır. Heç olmasa ona *(İ.Stalinə – C.H.)* çatdırın ki, Karaxanla birlikdə Çiçerin məni yenidən burada çıxılmaz vəziyyətdə qoyur".[123] İ.Stalinin cavabını çox gözləmək lazım gəlmədi. Bir gün sonra, iyulun 8-də o, Q.Orconikidzeyə bildirdi ki, "sonsuzluğa qədər tərəflər arasında manevr etmək olmaz. Aydın şəkildə tərəflərin birini indiki halda isə, əlbəttə, Türkiyə ilə Azərbaycanı müdafiə etmək lazımdır. Mən Leninlə danışdım, o, etiraz etmir".[124] Bunun əksinə olaraq, elə iyul ayının 8-də Çiçerin Orcanikidzeyə teleqramında tamam ayrı mövqe nümayiş etdirirdi. O yazırdı: "Biz əla bilirik ki, Ermənistanın da sovetləşdirilməsi üçün zaman yetişəcək, lakin indi ona getmək tezdir. Ən başlıcası, indi nəyə nail olmaq olar, indi Qarabağ və Zəngəzuru mübahisəli yerlər elan etmək olar, bunun üçün isə Azərbaycan hökumətinin razılıq verməsi gərəkdir. Bu bizim üçün zəruridir, biz mütləq Ermənistanla müqavilə bağlamalıyıq. Bunu qəti şəkildə beynəlxalq vəziyyət tələb edir, bunun üçün isə, ən azı Qarabağ və Zəngəzuru mübahisəli elan etmək lazımdır".[125] G.Çiçerin və L.Karaxanın başçılığı ilə XXİK-in yeritdiyi Azərbaycanın hesabına Ermənistanla əməkdaşlıq siyasətinin qarşısını ala bilmədikdə iyul ayının 16-da Orconikidze, V.Leninə, İ.Stalinə və G.Çiçerinə teleqramında Azərbaycan nümayəndələri gələnə qədər Ermənistanla sülh bağlamağın dayandırılmasını mütləq mənada zəruri hesab edirdi. O yazırdı: "Azərbaycanın iştirakı olmadan Ermənistanla sülh bağlamaq buradakı yoldaşları güclü şəkildə əsəbiləşdirir".[126] Eyni mövqeyi Azərbaycan K(b)P MK-nın üzvü A.Mikoyan da müdafiə edirdi. İyun ayının 29-da o, Orconikidzeyə yazırdı: "Biz Mərkəzin Qarabağ və Zəngəzura yönəlik siyasətindən hiddətlənmişik. Siz də həmçinin bizim nöqteyi-nəzərimizi Mərkəzin qarşısında qoyun. Biz Ermənistanla sülhün əleyhinə deyilik, lakin heç bir halda bu sülh Qarabağın və Zəngəzurun

[123] Birbaşa xətlə N.Allilulyevaya xatırlatma. 07.07.1920. //RDSSTA, f.85, s.3c, i.2, v.10

[124] Q.Orconikidzenin sorğusuna İ.Stalinin cavabı. 08.07.1920.// RDSSTA, f.85, s.3c, i.2, v.11

[125] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 08.07.1920.// RDSSTA, f.64, s.1, i.17, v.60

[126] Q.Orconikidzenin V.Leninə, İ.Stalinə və G.Çiçerinə teleqramı. 16.07.1920. //RDSSTA, f.85, s.3, i.2, v.12

hesabına olmamalıdır".[127] Göründüyü kimi, Ermənistanla münasibətlərdə ən qəribəsi o idi ki, Azərbaycanın məlumatı və iştirakı olmadan Sovet Rusiyası ilə daşnak Ermənistanı onun barəsində gizli danışıqlar aparırdılar. Bir ay əvvəl, eyni ilə Gürcüstanla baş verənlər, indi Ermənistanla təkrar olunurdu. Həmin vaxt Orconikidze və Kirovun Lenin və Stalinə göndərdikləri teleqramının şifrəli yerlərində bəzi maraqlı məqamlar var idi. Gürcüstanla müqavilə bağlayarkən Azərbaycanın mövqeyinin soruşulmamasını onlar sovet siyasətini iflasa aparan addım kimi qiymətləndirirdilər və yazırdılar: "Nə üçün Gürcüstanla müqavilə bağlayaraq, biz dost Azərbaycanla müqavilədən imtina edirik. Əgər Azərbaycan məsələsi fərqli formada həll edilirsə, bizi də məlumatlandırın". Daha sonra onlar xüsusi şifrə vasitəsi ilə Mərkəzi xəbərdar edirdilər ki, bu məsələlərdə "heç bir halda şərq siyasətinin rəhbəri kimi Karaxanın adını önə çəkmək olmaz. Bütün Zaqatala qalmaqalı *(1920-ci ilin may ayının 7-də Sovet Rusiyası ilə Gürcüstan arasında imzalanmış müqaviləyə görə, Azərbaycanın məlumatı olmadan onun ərazisi olan Zaqatalanın Gürcüstana verilməsi nəzərdə tutulur – C.H.)* burada ermənilərin fırıldağı kimi başa düşülür".[128] Şübhəsiz ki, L.Karaxan Sovet Rusiyasının XXİK-da Azərbaycana qarşı yönəlmiş siyasətin formalaşmasında və həyata keçirilməsində mühüm rol oynayırdı və Orconikidze ilə Kirov da teleqramdakı şifrə vasitəsi ilə məhz, bu məqama işarə edirdilər. Qarabağ məsələsində də onun proseslərin arxasında dayandığı şifrli və şifrsiz sənədlərdən aydın sezilməkdədir. Q.Orconikidze açıq yazırdı ki, "Qarabağ bizim xarici işlər komissarlığımızın ikinci Zaqatalasıdır. Burada çox böyük təxribat gedir və bunların hamısını Moskvadakı ermənilər törədirlər".[129]

G.Çiçerin iyul ayının 19-da Leqrana göndərdiyi şifrəli teleqramda yazırdı ki, "Azərbaycanın razılaşdığı sizin təklifiniz ondan ibarətdir ki, Qarabağ Azərbaycana keçir, Zəngəzur isə mübahisəli ərazi kimi tanınır. Hər halda bütün qalanlar *(mübahisəli ərazilər nəzərdə tutulur – C.H.)* Ermənistana çatır. Belə bölgü Ermənistan nümayəndələri üçün qəbuledilməzdir. Ona görə bu məsələ Ermənistan hökuməti ilə yalnız birbaşa danışıqlar yolu ilə həll edilə bilər. Moskvadakı nümayəndəlik belə ciddi ərazi güzəştlərində özünü səlahiyyətli hesab etmir".[130] Eyni tarixdə Emənistanın Xarici işlər nazi-

[127] A.Mikoyanın Q.Orconikidzeyə teleqramı. 29.06.1920.// RDSSTA, f.64, s.1, i.17, v.134
[128] Q.Orconikidze və S.Kirovun V.Lenin və İ.Stalinə şifrəli teleqramı. 12.06.1920.// RDSSTA, f.85, s.2c, i.2, v.9-11
[129] Q.Orconikidzenin G.Çiçerinə teleqramı. 1920.// RDSSTA, f.64, s.1, i.17, v.304
[130] G.Çiçerinin B.Leqrana teleqramı. 19.07.1920.// RDSSTA, f.64, s.1, i.21, v.12

ziri Ohancanyana göndərdiyi digər bir telqramda Çiçerin erməni naziri əmin edirdi ki, "Sovet Rusiyasının Qafqazda bütün fəaliyyəti erməni xalqının əminamanlıq şəraitində inkişafına dostcasına yardım göstərmək məqsədi daşıyır". O, rus qoşunları tərəfindən tutulmuş Azərbaycanla Ermənistan arasında olan "mübahisəli torpaqlar" məsələsinin sakit və təhlükəsiz şəraitdə müzakirə ediləcəyini bildirirdi.[131] S.Kirov da öz növbəsində B.Leqranı əmin edirdi ki, "əgər ermənilər Zəngəzur və Naxçıvanın onlara verilməsi şərti ilə, bütün Qarabağdan imtina etsələr, Çiçerin işlərin belə gedişindən şad olacaqdır. Sənin vəzifən İrəvanda buna nail olmaqdır".[132] Bundan bir həftə əvvəl Kirov bu məzmunda bir teleqramı Orconikidzeyə göndərmişdi. İyul ayının 17-də o yazırdı: "Çiçerin çox xahiş edir ki, erməni məsələsində azərbaycanlı yoldaşların iddialarını azaltmağa onları inandırmaq lazımdır. Görünür, o, Qarabağ və Zəngəzuru mübahisəli kimi tanımağa, Naxçıvan qəzası və Ordubadı ermənilərə güzəştə getməyə meyllidir. Çiçerin bir neçə dəfə qeyd edib ki, bu məsələni ən qısa vaxtda həll etmək zəruridir".[133] Lakin Kirovun ciddi cəhdlərinə baxmayaraq, Azərbaycana təzyiq etmək hesabına, Azərbaycan tərəfinin mövqeyini Ermənistanla yaxınlaşdırmaq mümkün olmadı. Onun Azərbayacan xarici işlər komissarı M.D.Hüseynov və erməni nümayəndələri ilə Tiflisdə apardığı danışıqlar elə bir nəticə vermədi. Avqust ayının 6-da o, Çiçerinə yazırdı: "Bütün bunların nəticəsində azərbaycanlılardan yalnız bir şeyə nail olundu: onlar Şərur-Dərələyəz qəzasını Ermənistana güzəştə getməyə hazırdırlar, qalanlarına gəldikdə isə, yəni, Naxçıvan qəzasını, Ordubad, Culfa, Zəngəzur, Qarabağı azərbaycanlılar qəti olaraq, özlərinki hesab edirlər. Öz növbəsində Ermənistan nümayəndələri qəti olaraq, bu vilayətlərə iddia edirlər. Azərbaycanlıların əsas dəlili ondan ibarətdir ki, bu vilayətlər musavat hökuməti dövründə Azərbaycana məxsus olub və indi bu vilayətlərin güzəştə gedilməsi, onların fikrincə, sovet hakimiyyətini yalnız, Azərbaycanda deyil, İran və Türkiyədə də gözdən salacaqdır".[134]

İyulun 20-də Leqrana göndərdiyi digər bir teleqramda Çiçerin Nərimanovun narazılığını əsas gətirərək, sovet qoşunlarının Ermənistana doğru irəliləməsinin dayandırılmasının Xarici İşlər Komissarlığından deyil, Hərbi İnqilab Şurasından gəldiyini bildirirdi. Hərbi İnqilab Şurası, guya, türklərin Naxçıvanda olmasından ehtiyatlanaraq, Qırmızı Ordunun

[131] Çiçerinin Ohancanyana teleqramı. 19.07.1920.// RDSSTA, f.64, s.1, i.21, v.13
[132] S.Kirovun B.Leqrana teleqramı. 23.07.1920.// RDSSTA, f.64, s.1, i.21, v.20
[133] S.Kirovun Q.Orconikidzeyə teleqramı. 17.07.1920.// RDSSTA, f.64, s.1, i.17, v.297
[134] S.Kirovun G.Çiçerinə məktubu. 06.08.1920.// RDSSTA, f.80, s.4, i.102k, v.1-2

Ermənistana doğru hərəkətini dayandırmışdır. Nərimanovu sakitləşdirmək üçün o, Leqrana yazırdı: "yoldaş Nərimanova izah edin ki, onun arzusuna uyğun olaraq, Azərbaycanın öz hüdudlarında daşnakların hücumundan müdafiə olunmasını mən, Hərbi İnqilab Şurası qarşısında təkid edirəm".[135] Lakin N.Nərimanov G.Çiçerinin ikibaşlı oyun oynadığını yaxşı bilirdi. O, avqustun ilk günlərində Moskvaya yenicə, iyulun 31-də yetişmiş Azərbaycanın səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskiyə yazırdı: "Erməni quldur dəstələri sərhəd kəndlərini tamamilə talayıblar, son vaxtlar müharibəyə bənzər bir şey gedir, daha doğrusu, müharibə deyil, ermənilərin Azərbaycan ərazilərini sistematik ələ keçirməsi prosesi gedir. Son məlumatlar ondan xəbər verir ki, erməni nizami dəstələri artıq Gorusa gəlirlər. Yoldaş Çiçerin mənə yazır: "Biz milli qırğına yol verə bilmərik, Azərbaycan hissələri hərəkət etməməlidir" və s. Lakin nə üçün Ermənistanla bütün sərhəd boyu yerləşən müsəlman kəndlərinin ermənilər tərəfindən qırılmasına yol verilir? Məgər Çiçerin görə bilmirdi ki, mərkəzin yeritdiyi siyasətin nəticələri indi baş verənlər olacaqdır. Teleqramlarının birində yoldaş Çiçerin bəyan edir ki, mən onu bunda ittiham edirəm. Lakin əgər söhbət Çiçerinə etiraz etməkdən gedirsə, mən onda gərək onlarla etiraz bəyan edəm. Bu anlaşılmazlıqların olmaması üçün lap əvvəldən bu satqın Ermənistana münasibətdə möhkəm siyasət yeritmək lazım idi".[136]

Moskvada və İrəvanda aparılan danışıqların nəticəsi kimi, 1920-ci ilin avqust ayının 10-da tərəflər arasında altı bənddən ibarət müqavilə bağlanmışdı ki, onun dörd bəndi bilavasitə Azərbaycanla süni şəkildə yaradılmış ərazi mübahisələrinə aid idi. Müqavilənin giriş hissəsində Sovet Rusiyası Ermənistan Respublikasının istiqlaliyyətini və tam müstəqilliyini tanıyırdı. Birinci maddəyə görə, RSFSR ordusu ilə Ermənistan Respublikası ordusu arasında hərbi əməliyyatlar 1920-ci ilin avqust ayının 10-dan saat 12-dən etibarən başa çatmış hesab edilirdi. Müqavilənin ikinci maddəsində qeyd olunurdu ki, bu sazişlə müəyyən edilmiş Ermənistan qoşunlarının yerləşdiyi zolaqlar istisna olmaqla, mübahisəli vilayətlər Qarabağ, Zəngəzur qəzaları və Naxçıvan diyarı Sovet Rusiyasının qoşunları tərəfindən tutulur. Müqavilənin üçüncü bəndinə görə, Sovet Ordusu tərəfindən tutulan mübahisəli ərazilər bu ərazilərin hüquqi baxımdan Ermənistan Respublikasına və Azərbaycan SSR-ə məxsusluğunu həll etmir. Bu ərazilərin müvəqqəti tutulması

[135] G.Çiçerinin B.Leqrana teleqramı.20.07.1920.// RDSSTA, f.64, s.1. i.21, v.14

[136] N.Nərimanovun B.Şahtaxtinskiyə məktubu. Avqust, 1920.// RDSSTA, f.85, s.2c, i.3, v.59

RSFSR-lə Ermənistan arasında yaxın gələcəkdə imzalanmalı olan sülh müqaviləsi ilə müəyyən ediləcək. Müqaviləyə görə, bu addım Azərbaycanla Ermənistan arasında ərazi mübahisələrinin dinc yolla həllinə xidmət etməli idi. Müqavilənin dördüncü bəndinə görə, hərbi əməliyyatların dayandırılması ilə müqavilədə olan tərəflər həm mübahisəli ərazilərdə, həm də sərhədyanı ərazilərdə hərbi qüvvələrin toplanmasını dayandırırdılar. Beşinci maddəyə görə, qarşıda RSFSR-lə Ermənistan Respublikası arasında sülh müqaviləsi bağlanana qədər dəmir yolunun Şaxtaxtı-Culfa hissəsinin istifadəsi Ermənistan dəmiryol idarəsinə verilirdi. Lakin oradan hərbi məqsədlərlə istifadə edilə bilməzdi. Altıncı maddəyə görə, RSFSR təminat verirdi ki, Sovet Ordusu tərəfindən tutulmuş xəttin arxasında qalan Ermənistan Respublikasının bütün hərbi hissələri maneəsiz olaraq, Ermənistana buraxılacaqlar.[137] Müqaviləni RSFSR tərəfindən səlahiyyətli nümayəndə B.V.Leqran, Ermənistan tərəfindən isə A.Camalyan və A.Babalyan imzalamışdılar. Avqustun 13-də G.Çiçerin Rusiya-Ermənistan müqaviləsi haqqında RK(b) P MK Siyasi Bürosuna məlumat verdi və müqavilə bəyənildi.[138] Əslində, Rusiya ilə Ermənistan arasında müqavilənin belə tələm-tələsik bağlanması həmin tarixdə Türkiyə ilə Antanta arasında imzalanmış Sevr müqaviləsi ilə bağlı idi. Sevr müqaviləsi ermənilərə böyük imtiyazlar vəd etdiyindən rus sovet diplomatiyası ehtiyat edirdi ki, Ermənistan bütövlükdə Antantanın təsirinə düşə bilər. G.Çiçerini Ermənistanla müqavilənin bağlanmasını sürətləndirməyə vadar edən başlıca xarici amil, məhz, Sevr müqaviləsi idi. Hətta, Rusiya ilə Ermənistan arasında imzalanmış 10 avqust müqaviləsi diplomatik bir sənəd olaraq hələ imzaya hazır olmasa da, Moskvanın təkidi ilə Ermənistandakı sovet nümayəndəsi B.Leqran onu imzalamalı və Sovet Rusiyasının mübahisə obyektinə çevirdiyi Azərbaycan ərazilərini Ermənistana vəd etməli olmuşdu.

Ermənistanın rəhbər dairələri Moskvaya hazırladıqları məruzələrdə tez-tez xatırladırdılar ki, Gürcüstan və Azərbaycanla müqayisədə guya, İngiltərə Ermənistana böyük əhəmiyyət verir. Bunu ermənilər onunla əsaslandırırdılar ki, guya, bir tərəfdən Ermənistan öz coğrafi vəziyyətinə görə, Orta Şərq ölkələrində Britaniya hökmranlığını yaymaq üçün quru körpü rolunu oynayır, digər tərəfdən isə, "Ermənistan müsəlman və türk dünyası üçün müxtəlif

[137] RSFSR ilə Ermənistan Respublikası arasında müqavilə. 10.08.1920. //ARPİİ SSA, f.1, s.169, i.249/II, v.11-12

[138] RK(b)P MK Siyasi Bürosunun iclasının 24 saylı protokolundan çıxarış. 13.08.1920. // ARPİİ SSA, f.1, s.1, i.2a. v.10

məqsədlərlə istifadə oluna bilən vasitədir".[139] Sovet siyasətinə gəldikdə isə, sənəddə əsaslandırılırdı ki, əgər Antanta və onun əlaltıları "Osmanlı zülmü altında olan Türkiyənin məzlum xalqlarının azadlığı" şüarından istifadə fikrinə düşsə, Kiçik Asiyada uğur qazana bilər, " həmin halda Ermənistanın bu azadlıq təşəbbüsünü öz əlinə almaq üçün lazımdır, indiki Türkiyənin ərazisində bufer dövlət yaratması. Bu dövlət əgər təmiz sovet hökuməti olmayacaqsa da, hər halda, Sovet Rusiyasının cazibəsinə daxil olan bir dövlət ola bilər".[140]

Əslində, Rusiya-Ermənistan müqaviləsində Azərbaycanın mübahisəsiz sayılan ərazilərinin mübahisə obyektinə çevrilməsinə sovetləşmənin ilk günlərindən hazırlıq gedirdi. Bunu hiss edən Q.Orconikidze 1920-ci ilin iyun ayının 19-da V.Lenin və G.Çiçerinə göndərdiyi teleqramda məlumat verirdi ki, Qarabağ və Zəngəzurda Sovet hakimiyyəti elan edilib və adı çəkilən hər iki ərazi özünü Azərbaycanın bir hissəsi hesab edir. O xəbərdarlıq edirdi ki, "Azərbaycan Qarabağsız və Zəngəzursuz heç bir halda keçinə bilməz. Ümumiyyətlə, mənim fikrimcə, Azərbaycan nümayəndəsini Moskvaya çağırıb onunla birlikdə Azərbaycan və Ermənistana aid bütün məsələləri həll etmək lazımdır. Bunu Ermənistanla müqavilə bağlanana qədər etmək lazımdır. Ermənilərlə Zaqatalaya bənzər hadisələrin təkrar olunması bizi burada tamamilə batırar".[141]

Sovet Rusiyası ilə Ermənistan arasında Azərbaycandan xəbərsiz imzalanmış 10 avqust müqaviləsi Mərkəzi bolşevik hökumətinin, xüsusilə, Sovet Rusiyası XXİK-in Azərbaycanı gözdən salmaq siyasətinin bilavasitə nəticəsi idi. Hətta, bu müqvilədən sonra Ermənistan ərazi və sərhəd məsələlərinə aid hər hansı məsələni Azərbaycanla müzakirə etməyə ehtiyac belə duymurdu. Azərbaycan Xarici işlər komissarı M.D.Hüseynovun mübahisəli məsələləri müzakirə etmək üçün konfrans çağırmaq təklifinə cavab olaraq, avqust ayının 23-də Ermənistanın Xarici işlər naziri Ohancanyan bildirirdi ki, "Ermənistan hökuməti ilə RSFSR-in nümayəndəsi Leqran arasında imzalanmış 10 avqust 1920-ci il tarixli ilkin müqaviləyə uyğun olaraq, Ermənistanla Azərbaycan arasında ərazi mübahisələri yaxın gələcəkdə

[139] Ermənistanın əhəmiyyəti və orada Sovet hakimiyyətinin möhkəmləndirilməsi şərtləri haqqında. 20.07.1921.// RDSSTA, f.17, s.84, i.183, v.8

[140] Yenə orada, v.8-8(arxası)

[141] Q.Orconikidzenin V.Leninə və G.Çiçerinə teleqramı. 19.06.1920. //ARPİİ SSA, f.1, s.169, i.249/I, v.34

Ermənistanla Rusiya arasında bağlanacaq sülh müqaviəsi əsasında həll edilməlidir".[142] Azərbaycan tərəfinin Qazaxda keçirilməsi nəzərdə tutulan bu konfransa Azərbaycanını təmsil edəcək iki erməni (İsay Dovlatov və Anastas Mikoyan) və bir gürcüdən (Vissarion Lominadze) ibarət nümayəndə heyəti təyin edilsə də, ermənilər bu konfransda iştirak etməkdən imtina etdilər.[143] Ermənistanın belə arxayın mövqeyi onunla bağlı idi ki, 1920-ci ilin may ayında onlar Sovet Rusiyasında xahiş etmişdilər ki, Azərbaycanla olan mübahisəli məsələlərin həllində vasitəçi olsunlar, lakin L.Karaxan Sovet Rusiyasının və Azərbaycan hökumətinin adından cavab vermişdi ki, "qarşılıqlı milli qırğınlardan qaçmaq üçün mübahisəli ərazi məsələləri həll edilənə qədər, həmin mübahisəli yerlər rus Qırmızı Ordusu tərəfindən tutulacaq. Bu barədə artıq rus hərbi komandanlığına əmr verilmişdir".[144]

İki ölkə arasındakı ərazi mübahisələrində Ermənistana bəraət qazandırmaq üçün Mərkəzdə bəzi rəhbər işçilər faktları saxtalaşdırmaqdan, təxribat törətməkdən belə çəkinmirdilər. Hələ müqavilə imzalanmazdan xeyli əvvəl xarici işlər komissarı G.Çiçerin tərəfindən V.Leninin adına hazırladığı xatırlamada qeyd olunurdu ki, Azərbaycan hökuməti Qarabağa, Zəngəzura, Naxçıvanla birlikdə Şərur-Dərələyəz qəzasına iddiasını bəyan edib. Bu yerlərin böyük hissəsi faktiki olaraq, Ermənistan Respublikasının əlindədir. Azərbaycan bu əraziləri ələ keçirmək üçün öz hərbi hissələrini, yəni Sovet hakimiyyətinə qarşı dayanan əsgərlərini göndərməlidir. Tatar *(azərbaycanlı – C.H.)* hissələrini ermənilərə qarşı göndərmək tamamilə yolverilməzdir və bu böyük cinayət olardı. Qeyd edilən vilayətlərə türklərin hücum etdiyi indiki vaxtda bu xüsusilə yolverilməzdir. Əgər bu hissələr ora göndərilsə, türklər həmin dəqiqə əllərini Azərbaycanın müsəlman hissələrinə uzadacaqlar. Ümumiyyətlə, bu hissələrin məsələsi kifayət qədər mürəkkəb məsələdir. Onlar artıq üsyan qaldırır və türklərin yaxınlaşması bu meyli daha da gücləndirəcək. Ən yaxşısı, onları İrana göndərmək olardı, lakin indiki anda bunun mümkün olduğunu müəyyənləşdirmək üçün mən kifayət qədər məlumatlı deyiləm. Bütün hallarda Azərbaycan əsgərlərini, Azərbaycanın iddia elan etmək xəyalına düşdüyü, hazırda Ermənistanın əlində olan vilayətləri ermənilərin əlindən almağa göndərməkdən söhbət belə, gedə

[142] Ohancanyanın Azərbaycanın Xarici işlər komissarı Hüseynova teleqramı.23.08.1920.// AR DA, f.28, s.1.i.104, v.2

[143] N.Nərimanov. Azərbaycan və Ermənistan. Avqust 1920.// ARPİİ SSA, f.609, s.1, i.21, v.40

[144] L.Karaxanın Ermənistan Xarici İşlər Komissarına teleqramı.15.05.1920.// AR DA, f.28, s.1, i.99, v.100

bilməz". Özünün dediyi kimi, Azərbaycanın daxili siyasəti haqqında az məlumatlı olan G.Çiçerin Bakının tələblərinin təmin olunmasının çox dəhşətli bir mənzərəsini cızırdı. O yazırdı: "Digər yol bizim hərbi hissələr tərəfindən tutulmuş qeyd edilən yerlərin Azərbaycana hədiyyə edilməsidir. N.Nərimanov bilavasitə bu kombinasiyanı nəzərdə tutur. Daxili siyasəti müsəlman kütlələrinin əhəmiyyətli hissəsi ilə kəskin ixtilafa gətirib çıxarmış Bakının, Sovet hökuməti tərəfindən mübahisəli elan olunmuş yerləri kompensasiya olaraq, Azərbaycan üçün əldə etmək cəhdləri millətçi əhvalruhiyyəli dairələri öz tərəfinə çəkmək məqsədi daşıyır. Bu kombinasiyanın sovet hissələrinin əli ilə edilməsi tamamilə yolverilməzdir. Bizim rolumuz tamamilə obyektiv və müstəsna dərəcədə qərəzsiz olmalıdır. Əgər biz bir millətin əleyhinə digər millətə söykənsək, bu, bizim bütün Şərq siyasətimiz üçün faciəli səhvə gətirib çıxarar. Hər hansı əraziləri ermənilərdən alıb və bizim əlimizlə onu Azərbaycana vermək, bizim Şərqdə bütün siyasətimizə tamamilə yanlış rəng verərdi". Vəziyyəti süni şəkildə mürəkkəbləşdirən G.Çiçerin ondan çıxış yolunu Rusiya hərbi hissələri tərəfindən tutulmuş və yalnız sovetləşmədən sonra mübahisəli elan olunmuş ərazilərin Rusiya işğal rejiminə tabe edilməsində görürdü. Onun fikrincə, müvafiq əlverişli siyasi şərait yaranana qədər bu ərazilər nə Azərbaycana, nə də Ermənistana verilməli idi. G.Çiçerin məsələnin belə qoyuluşuna Ermənistanla müqavilə bağlamaq aləti kimi baxırdı. O yazırdı: "Yalnız hərbi status-kvo zəminində, bizim Zaqafqaziyada sülh siyasətimizin həyata keçirilməsinin zəruriliyi naminə Ermənistanla müqaviləyə ümid bəsləmək olar. Bununla bağlı hamı deyir ki, biz indi oralarda hazırda əlimizdə olan ərazilərdən başqa yeni ərazilər tutmaqdan imtina etməliyik. Ermənistan Respublikası ilə biz nə qədər mümkünsə, tez müqavilə bağlamağa cəhd göstərməliyik".[145]

G.Çiçerin öz təkliflərinin bir hissəsini rəsmiləşdirə bildi və Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasına göndərdiyi təlimatda o, Mərkəzi Komitə adından bildirdi ki, Ermənistanla Azərbaycan arasında mübahisəli sayılan ərazilərə heç bir Azərbaycan və ya erməni hakimiyyət orqanları buraxıla bilməz.[146] Mübahisəli elan olunan ərazilər Azərbaycan əraziləri olduğundan və Azərbaycan hakimiyyət orqanlarının nəzarətində olduğundan, bu qərar Azərbaycanın suveren hüquqlarına və ərazi bütövlüyünə kobud şəkildə

[145] V.Leninin adına yazılmış xatırlatmanın surəti. 29.06.1920. //ARPİİ SSA, f.1, s.1, i.2a, v.13-14

[146] Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasına təlimat. 04.07.1920. //RDSSTA, f.17, s.3, i.94, v.7

müdaxilə idi. Hələ bu müqavilədən 5 gün əvvəl Azərbaycan Xarici İşlər Komissarlığı "Azərbaycan Sovet Sosialist Respublikasının Ermənistan Respublikası ilə mübahisəsiz ərazilərinin sərhədlərinin təsviri" adlı sənəd hazırlayıb, Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun və xarici işlər komissarı M.D.Hüseynovun imzası ilə Moskvaya göndərmişdi. Orada göstərilirdi ki, Azərbaycanın Ermənistanla mübahisəsiz olan sərhədləri köhnə inzibati bölgü üzrə əvvəlcə Qazax və Borçalı qəzaları, sonra Qazax, Aleksandropol və Yeni Bəyazid qəzalarından Maralca dağlarına qədər uzanıb, Çubuğlu kəndindən təxminən 1,5 verst şərqə olmaqla, oradan birbaşa Göyçə gölünə enir və burada Göyçə gölünü yarıya bölməklə, onun cənub sahilindən qərb istiqamətə doğru gedir. Göycə cayının cənub sahillərində sərhədlər Zağalı və Gödək Bulaq kəndlərinin arasından başlayıb, Yarpızlı, Qızıl-Vəng və Yuxarı Alçalı kəndləri boyunca Göycə gölünün cənub sahillərindən təxminən Qızıl Xaraba və Ərmağan yüksəkliklərnə doğru yuxarı dağ rayonuna qalxır, dağlıq rayonun müsəlman əhalisini sahil böyunca yaşayan erməni kəndlərindən ayıraraq, Kiçik Ağdağdan, qərbə İrəvan və Yeni Bəyazid sərhədlərinə doğru gedir. Sonra sərhədlər Kiçik Ağdağdan şimal-qərbə, Toxmaxan gölü istiqamətinə gedib, oradan qərb istiqamətinə Təzəkənd kəndinə, sonra Gərni çayı boyunca Yuxarı Ağbaş kəndinə qədər gedib, oradan cənub-qərbə Uluxanlı kəndinə tərəf dönür və Uluxanlı kəndi ilə Uluxanlı dəmir yol stansiyasının arasından keçməklə Araz boyunca davam edib, Rəncbər kəndindən şimala çatır. Rəncbər kəndindən Araz cayı boyunca sərhədlər birbaşa qərbə gedir və burada Sürməli qəzası ilə Eçmiədzin və Qars vilayətlərinin arasında köhnə inzibati sərhəd xətti ilə üst-üstə düşür və köhnə Rusiya-Türkiyə sərhədlərində Tandurək dağlarına qədər davam edir.[147] Ermənistanla müqavilə imzalanarkən, N.Nərimanov və M.D.Hüseynov tərəfindən qabaqcadan Moskvaya göndərilmiş və tərəflər arasında sərhəd xəttini özündə ehtiva edən bu sənəd tamamilə nəzərə alınmadı.

Göründüyü kimi, Azərbaycanın yeni hakimiyyəti üçün kədərli bir vəziyyət yaranmışdı. Bir tərəfdən, sosialist inqilabı pafosunda özünü Sovet Rusiyasına yaxın hesab edir, digər tərəfdən, fəhlə-kəndli ittifaqına getdiyi Sovet Rusiyasının əli ilə özündən əvvəlki hökumət dövründə mübahisəsiz olan torpaqları itirirdi. Taleyin qəribə istehzası idi ki, müsəlman kommunistlərinin bilavasitə yardımı ilə Azərbaycanı iş-

[147] Azərbaycan Sovet Sosialist Respublikasının Ermənistan Respublikası ilə mübahisəsiz ərazilərinin sərhədlərinin təsviri. 05.08.1920.// ARPİİ SSA, f.1, s.169, i.249/II, v.15-16

ğal edən Sovet Rusiyası Azərbaycan əraziləri hesabına Cənubi Qafqazda özünə müttəfiqlər tapır, Ermənistan və Gürcüstanla ittifaq müqavilələri bağlayır və bununla Avropada özünün "sülhsevər" imicini formalaşdırırdı. Bu proseslər o qədər eybəcər formada aparılırdı ki, hətta, Moskvadan Azərbaycana ezam olunmuş bəzi sovet işçiləri bütün bunların Azərbaycana ədalətsiz münasibətin nəticəsi olduğunu dilə gətirirdilər. Bütün bu haqsızlıqları müşahidə edən Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sədri N.Solovyov V.Leninə ünvanladığı geniş məktubunda yazırdı: "Moskvaya ümidlər var idi. Lakin Gürcüstan və Ermənistanla müqavilələr və bu respublikalara Azərbaycan ərazisinin bir hissəsinin verilməsi müsəlman əhalisində əgər bu ümidləri öldürməyibsə də, ona münasibətdə tərəddüdlər yaradıb. Müsəlman kütlələrinin nəzərincə, Moskva, nəinki, Azərbaycanı işğal etdi, hətta, onun hesabına Gürcüstan və Ermənistana pay da verdi. Gürcüstanla aparılan danışıqlarda Azərbaycan tərəfini nümayəndə heyətinin tərkibində gürcünün təmsil etməsi, Ermənistanla danışıqlarda isə ermənin təmsil etməsi Azərbaycan üçün təhqirə çevrildi. Müsəlmanlar baş açа bilmirlər ki, onların iştirakı olmadan nə üçün danışıqlarda Gürcüstan tərəfini yalnız gürcülər, Ermənistan tərəfini isə yalnız ermənilər təmsil etdikləri halda, onların nümayəndələri bu danışıqlarda olmayıb. Başdan-başa müsəlman əhalisindən ibarət olan Azərbaycan ərazilərinin bir hissəsinin, böyük iqtisadi və strateji əhəmiyyətə malik olan dəmir yolunun Ermənistana verilməsini, Azərbaycanla Türkiyəni birləşdirən yeganə dəhlizin işğal edilməsini özündə ehtiva edən Ermənistanla müqavilə əhalidə xüsusilə, ağır təəssürat yaradıb. Azərbaycan KP MK-nın bir sıra üzvləri bu müqavilənin, özünü kommunist adlandıran, əslində isə, bilərəkdən, və ya, bilməyərəkdən millətçilik edən mərkəzdəki nüfuzlu ermənilərin göstərişi ilə tərtib edildiyini iddia edirlərsə, sadə müsəlman onun barəsində nə deməlidir?"[148]

Aprel işğalı ərəfəsində müsəlman kommunistləri Azərbaycan milli hökumətinin xarici siyasətinə rişxəndlə yanaşaraq, Moskvaya yazırdılar ki, "Azərbaycanın sülh konfransı tərəfindən *(Paris sülh konfransı nəzərdə tutulur – C.H.)* tanınması *(de yure – C.H.)* Azərbaycanın ərazi bütövlüyü və toxunulmazlığımı təmin edərdi. Tanınmanın xeyrinə aparılan diplomatik kompaniyanın nəticələri hələ ki, sıfıra bərabərdir."[149] İndi onlar hadisələrin

[148] N.İ.Solovyovun V.Leninə "Çevrilişdən sonrakı iki ay ərzində bizim Azərbaycanda siyasətimiz" adlı məlumatı. 1920.// RDSSTA, f.17, s.84, i.58, v.15

[149] Azərbaycanın iqtisadi və siyasi vəziyyəti haqqında məruzə. 1920.// RDSSTA, f.17, s.86, i.119, v.2

belə gedişindən son dərəcə də mütəəssir olmuşdular və Azərbaycanın başına gələnləri Mərkəzdə oturan ermənilərin əməlləri ilə izah edirdilər. Bunu onların Moskvaya yazdıqları müxtəlif məzmunlu məktublar aydın şəkildə ifadə edirdi.

Avqustun 10-da imzalanmış Rusiya-Ermənistan müqaviləsinə Azərbaycanın Moskvadakı fövqəladə və səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski etiraz etsə də, bunun elə bir əhəmiyyəti olmadı. Avqustun 13-də onun V.Leninə göndərdiyi məktubdan aydın olur ki, müqavilə haqqında o, mətbuatdan xəbər tutmuşdur və onun maddələri barədə elə də dəqiq məlumata malik deyildir. O yazırdı: "Şaxtaxtı-İrəvan və Şaxtaxtı-Culfa dəmir yolunun müvafiq nəqliyyat vasitələrinin hamısı ilə birlikdə Ermənistana verilməsi bütün Cənubi Azərbaycanın daşnakların əlinə keçməsi deməkdir və bu addım daşnakları İranda ingilis qüvvələri ilə birləşdirdiyi halda, Azərbaycanı türk inqilabı hərəkatı ilə hər cür əlaqədən məhrum edir". Məktubda B.Şahtaxtinski qeyd edirdi ki, "Naxçıvanı ələ keçirmək üçün daşnaklar ingilislərdən istifadə etdirdilər. Lakin ingilislər çıxan kimi, əhali üsyan qaldırdı və onların üzərinə göndərilən, təpədən-dırnağa qədər silahlanmış erməni ordusu darmadağın edildi. Zəhmətkeş xalqın üç illik qanlı mübarizəsindən sonra daşnaklardan azad olub, Azərbaycana birləşmiş, hazırkı vaxtda bir ermənin belə olmadığı bu diyarı daşnaklara vermək, xalqların öz müqəddəratını təyin etməsinin ümumi qəbul olunmuş prinsipinin və Sovet Azərbaycanının hüququnun açıq pozulması deməkdir".[150] Azərbaycan Xalq Xarici işlər komissarı M.D.Hüseynov N.Krestinskiyə göndərdiyi "Azərbaycanda vəziyyət haqqında məruzə"sində əhali arasında gedən söz-söhbətə istinadən belə bir acı həqiqəti etiraf edirdi ki, "rus ordu hissələri gəlib, Azərbaycanı tabe etdi və bizim respublikanın müstəqilliyi itirildi. Əhali arasında Qızıl Ordunu elə köhnə rus ordusu kimi qiymətləndirirlər".[151] Azərbaycan tərəfinin ciddi cəhdlərinə baxmayaraq, Ermənistanla müqavilə imzalanması ərəfəsində ona müqavimət göstərən Q.Orconikidze Mərkəzin açıq və gizli məzəmmətlərindən sonra avqustun 26-da G.Çiçerinə teleqram vurdu ki, 10 avqust müqaviləsinə "tamamilə riayət ediləcək".[152] Həmin gün Çiçerinə göndərdiyi ikinci teleqramda o təkrar olaraq, müqaviləyə əməl olunaca-

[150] Azərbaycanın fövqəladə səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin V.Leninə məktubu. 13.08.1920. // RDSSTA, f.5, s.1, i.2796, v.1(arxası)

[151] M.D.Hüseynovun "Azərbaycanda vəziyyət haqqında" N.Krestinskiyə məruzəsi. 16.09.1920. //RDSSTA, f.17, s.86, i.125, v.10

[152] Q.Orconikidzenin G.Çiçerinə teleqramı. 26.08.1920.// RDSSTA, f.85, s.14, i.6, v.3

ğını qeyd edib yazırdı: "Bir daha təkrar edirəm Ermənistanla imzalanmış 10 avqust 1920-ci il müqaviləsinə dəqiqliyi ilə riayət etmək lazımdır".[153] G.Çiçerinin heç nəyə məhəl qoymadan ermənilər müdafiə etməsi və hətta Ermənistana səlahiyyətli sovet nümayəndəsi təyin edilmiş B.Leqranın rəyinin əksinə olaraq, avqustun 11-də və 21-də verdiyi bəyanatlarla Ermənistanı himayə etməsi hələ ki, Tiflisdə oturan Leqranı, belə, hiddətə gətirmişdi. Avqustun 29-da o, Çiçerinə yazırdı ki, "ermənilər çəkinmədən bir sıra məsələlərdən sui istifadə edirlər. Sizin Ohancanyanın çıxışının təxribatçı xarakterini nəzərə almadan 11 və 21 avqust tarixli bəyanatlarınız nəzərdə tutulan təəssüratı yaratmadı".[154]

Azərbaycana münasibətdə Sovet Rusiyasının belə özbaşınalığı N.Nərimanovun hiddətinə səbəb olmuşdu. O, yaxşı anlayırdı ki, bütün bu oyunların əsas təşkilatçısı onun hələ 1919-cu ilin yayından Şərq siyasətinin müəyyən edilməsində kəskin ziddiyyətə girdiyi Sovet Rusiyasının xarici işlər komissarı G.Çiçerin və onun müavini L.Karaxandır. Onların hər ikisi sovetlərin xarici, xüsusilə, Şərq siyasətinin müəyyən edilməsində və onun praktiki baxımdan həyata keçirilməsində üstün mövqelərə malik idilər. Azərbaycana münasibətdə onlar mənfi mövqedə dayanır və Sovet Rusiyasının Cənubi Qafqaz siyasətini daha çox hələ sovetləşməmiş erməni və gürcü amili üzərində qurumağa üstünlük verirdilər. Əlbəttə, G.Çiçerinin Azərbaycan əleyhinə yönəlmiş ermənipərəst siyasət yeritməsində L.Karaxan mühüm rol oynasa da, lakin bu yeganə amil deyildi. Çiçerin keçmiş çar diplomatı idi və o, Rusiya imperiyasının Şərqə və xüsusilə, Qafqaz xalqlarına münasibətdə yeritdiyi ermənipərəst siyasətin içində formalaşmışdı. Ona görə də onun ermənifil baxışları keçmiş çar diplomatı ilə yeni sovet komissarının rus ənənəsinə söykənən siyasətində daha qabarıq formada ifadə olunurdu. Elə Nərimanovla onun arasındakı ziddiyyətin kökündə də, məhz, bu dünyagörüş fərqi dayanırdı. N.Nərimanov az sonra Türkiyədə Sovet Azərbaycanının səlahiyyətli nümayəndəsi İ.Əbilova yazırdı ki, "Çiçerinin Şərq siyasətində işlətdiyi fikirlər büsbütün yanlışdır...Çiçerinin Şərq siyasəti barəsində böyük bir doklad yazıb, göndərdik. Var qüvvəmizlə tənqid etdik".[155] G.Çiçerin də öz növbəsində İ.Stalinə yazırdı ki, "bizim müsəlmanlara etibar etməyimizdə bir məsələni həmişə nəzərə almaq lazımdır ki, gözəl günlərin birində bolşevizm əleyhinə meyl ingilislər əleyhinə meyldən güclü ola bilər. Mən

[153] Yenə orada, v.4(arxası)-5

[154] B.Leqranın G.Çiçerinə teleqramı. 29.08.1920.// RDSSTA, f.5, s.1, i.2178, v.8

[155] N.Nərimanovun İ.Əbilova məktubu.// ARPİİ SSA, f.276, s.5, i.1, v.107-108

birtərəfli qaydada, nümayəndəsi bizdə Nərimanov olan müsəlmanlara etibar etməkdən həmişə ehtiyat etmişəm və indi də ehtiyat edirəm".[156]

G.Çiçerinə qarşı mübarizədə çıxış yolunu N.Nərimanov sovetləşmə ərəfəsində ona çoxlu vədlər vermiş V.Leninin məsələyə müdaxiləsində görürdü. V.Leninin Azərbaycanla bağlı məsələlərdə ədalətli mövqe tutacağına hələ inamını itirməmiş N.Nərimanov iyul ayının ortalarında ona yazırdı: "Yoldaş Çiçerinin teleqramından aydın olur ki, Sizin məlumatınız birtərəflidir və ya mərkəz o adamların təsirinə düşüb ki, həmin adamlar yaxın vaxtlara qədər denikinçilərlə birlikdə Azərbaycanda Sovet hakimiyyətinin əleyhinə mübarizə aparırdılar. Əgər mərkəzə Azərbaycanı qurban verib, ancaq Bakını və nefti özündə saxlamaq, Şərq siyasətindən tamamilə imtina etmək sərfəlidirsə, qoy bunu etsin. Lakin xəbərdarlıq edirəm: gürcü menşevikləri və daşnak xəyanətkarları ilə qonşuluqda bütün Azərbaycan olmadan Bakını saxlamaq olmaz. Digər tərəfdən, mən bilmək istəyirəm: mərkəz biz müsəlmanlara necə baxır və belə vacib məsələləri bizsiz necə həll edə bilər? Mərkəz bizə etibar etməyə bilər, lakin mərkəzin qərarı ilə Orconikidze və Mdivani kimi məsul işçilər də razı deyillər. Mən açıq deyirəm, Qarabağ haqqında öz qərarı ilə mərkəz bizi tərksilah etdi və Müsavatın, guya, müsəlman kommunistlərinin Azərbaycanı Rusiyaya satması barədə həmişə dediyi təxribatı əsaslandırdı və gücləndirdi. Söhbət o Rusiyadan gedir ki, həmin Rusiya eyni zamanda, Ermənistanın və Gürcüstanın müstəqilliyini tanıyır, Sovet hakimiyyəti qurulana qədər Azərbaycanın mübahisəsiz olan vilayətlərini, nədənsə, indi mübahisəli hesab edir. Yoldaş Çiçerin mərkəzin siyasətinə tabe olmaq haqqında danışır, lakin eyni zamanda, nəzərə alırmı ki, elə həmin o mərkəz bizi şirma olmağa məcbur edir... Bizə açıq şəkildə deyirlər: siz tamamilə mübahisəsiz əraziləri Azərbaycanın əlində saxlaya bilmirsiniz, lakin bütün Şərqin azad olunmasından danışırsınız". N.Nərimanov məktubun sonunda yazırdı: "Bizim nümayəndə yola düşür, ona görə xahiş edirəm və yalvarıram Mərkəzin Azərbaycan haqqında qərarlarını müvəqqəti dayandırın".[157] V.Leninə göndərdiyi başqa bir məktubda N.Nərimanov respublikanın ərazi bütövlüyü üçün ciddi təhlükə yarandığını nəzərə alaraq Azərbaycanda dəhşətli vəziyyət yarandığından bəhs edirdi. O yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Bir tərəfdən Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini ta-

[156] Bax: P.Мустафа-заде. Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг., с.267

[157] N.Nərimanovun V.Leninə məktubu. İyul, 1920. //ARPİİ SSA, f.609, s.1, i.71, v.41-42

nıyır, digər tərəfdən, həmin Mərkəz, Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir. Əgər bu ərazilər Gürcüstana verilmiş olsaydı, əfkari-ümumiyyə ilə birtəhər mübarizə aparmaq olardı, lakin Azərbaycan ərazilərini Ermənistana, daşnaklara vermək düzəldilməsi mümkün olmayan, pis nəticələr verə biləcək səhvdir".[158] N.Nərimanovun bu məzmunda məktubları mərkəzin ona etimadını günü-gündən azaldırdı. Bakıda onun fəaliyyətini çox diqqətlə izləyən fövqəladə komissiyanın xüsusi müvəkkili Lander 1920-ci ilin iyul ayının 19-da Krestinski, Menjinski, Dzerjinski və Leninə göndərdiyi gizli teleqramda xəbərdarlıq edirdi ki, "Azərbaycanda müstəqilliyə güclü meyl vardır. Bu təhlükəli siyasət, Nərimanovun rəhbərlik etdiyi sağ millətçi qanadın siyasətidir".[159]

Azərbaycanla Ermənistan arasında yaranmış ərazi mübahisələrinin dərinləşdiyi və Ermənistanın Rusiya tərəfindən himayə edilməsi 10 avqust müqaviləsi ilə açıq müstəviyə keçdiyi bir vaxtda N.Nərimanovun təkidi ilə AK(b)P MK Siyasi Bürosu 1920-ci ilin avqust ayının 26-da Ə.Şirvaninin Qarabağ və Zəngəzur üzrə Azərbaycanın fövqəladə komissarı, A.Karakozovu isə onun müavini təyin edilməsi haqqında qərar verdi.[160] N.Nərimanov əvvəl daha təcrübəli və nüfuzlu partiya işçisi sayılan S.M.Əfəndiyevi Qarabağ və Zəngəzur üzrə fövqəladə komissar təyin etmək istəyirdi, lakin avqustun 26-da keçirilən AKP MK-nın təşkilat Bürosunun iclasında S.M.Əfəndiyevin təyinatından imtina edilmişdi.[161] N.Nərimanovun narahatçılığı onda idi ki, Qarabağı işğal edən Sovet Rusiyasının bolşevik ordusu müsəlman əhalisini başdan-başa tərksilah etdiyi halda, bölgənin erməni əhalisinin silahlanmasına göz yumurdu. Azərbaycan Daxili İşlər Komissarlığının müvəkkili kimi, Qarabağa ezam olunmuş S.Atayev Azərbaycanın Daxili İşlər Komissarı H.Sultanova yazırdı ki, fövqəladə komissar kimi Şirvaninin Şuşaya gəlişi İnqilab Komitəsinin sədrinin dəyişilməsindən başqa heç bir əhəmiyyətli dəyişikliyə gətirib çı-

[158] N.Nərimanovun V.İ.Leninə məktubu.//N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stainə məktub). Bakı, 1992, s.62

[159] Landerin Krestinski, Menjinski, Dzerjinsi və Leninə teleqramı. 19.07.1920. //RDSSTA. f.17, s.86, i.125, v.2

[160] Azərbaycan K(b)P MK-nın Siyasi Bürosunun iclasının protokolu. 26.08.1920.// ARPİİ SSA, f.1, s.1, i.22, v.2(arxası); Əlavə məlumat üçün bax: Əliheydər Şirvaninin (Mustafabəyov) şəxsi işi.// ARPİİ SSA, f.12, s.3, i.7523, v.29

[161] Azərbaycan K(b)P MK-nın Təşkilat Bürosunun iclasının protokolu. 26.08.1920.// ARPİİ SSA, f.1, s.1, i.21, v.9

xarmamışdır.[162] O yazırdı: "Partiya *(Cavanşir qəzasında – C.H.)* 900 nəfər ermənidən ibarətdir (belə təşkilat üç il ərzində heç Rusiyada da yaradılmayıb) və onlar ermənilərdən təşkil olunmuş qarovul batalyonundan silah yardım almağa qədər geniş rəğbətə malikdir. Bütün partiya silahlanıb və vilayətdə silahın saxlanılması haqqında heç bir əmrə tabe olmur. Nə vaxt ki, söhbət silahdan gedir, bu təşkilatın üzvləri "biz partiya üzvüyük" deyir. Bundan başqa, daşnak hökumətinin agentləri tərəfindən idarə olunan bütün dağlıq erməni kəndləri də silahlıdır...".[163]

N.Nərimanovun sərt mövqeyinə və bəzi məqamlarda dirəniş göstərməsinə baxmayaraq, Sovet Rusiyası Xalq Xarici İşlər Komissarlığı tərəfindən müəyyən edilən Azərbaycanın gözdən salınması siyasətinin həyata keçirilməsinə üstünlük verdi. İyulun 20-də N.Nərimanova göndərdiyi təcili diplomatik teleqramda G.Çiçerin hikkəli formada yazırdı: "İndiyə qədər nə siz, nə də oradakı kommunistlər bizə izah edə bilmirsiniz ki, nə üçün Rusiya qoşunlarının Qarabağı və Zəngəzuru tutmasının əleyhinəsiniz və nə üçün bu ərazilərin Azərbaycana birləşdirilməsini dönmədən tələb edirsiniz. Biz Ermənistanla işlərimizi qaydaya qoymalıyıq. Türkiyə bizə qarşı çevrildiyi təqdirdə, hətta, daşnak Ermənistanı belə, türk hücumuna qarşı bizim ön istehkamımız olacaqdır".[164] RKP MK Siyasi Bürosuna ünvanladığı digər bir məktubunda isə G.Çiçerin xəbərdarlıq edirdi ki, Qafqazda erməni-azərbaycanlı mübahisələrinə Türkiyənin siyasəti nöqteyi-nəzərindən yanaşmaq lazımdır. O yazırdı: "Erməni-azərbaycanlı mübahisələrinin müzakirəsində mən həmişə göstərmişəm ki, türk siyasəti Qafqazda işğalçılıq yoluna meyl etdiy halda, Ermənistan ona qarşı ön sədd olacaq və bizi müdafiə edəcəkdir".[165] Məhz, buna görə, Azərbaycan SSR XXİK-ın 1920-ci ilin avqust ayının 5-də hazırlayıb, Moskvaya göndərdiyi "Azərbaycan Sovet Sosialist Respublikasının Ermənistanla mübahisəsiz ərazilərinin hüdudlarının təsviri" adlı sənəd Ermənistanla Rusiya arasında müqavilə imzalanan zaman, ümumiyyətlə, nəzərə alınmadı. Bu sənəddə tarixi-etnoqrafik, coğrafi və inzibati dəlillərə əsasən, Sovet Azərbaycanının Ermənistanla

[162] S.Atayevin AK(b)P MK-ya məruzəsi. 12.12.1920.// ARPİİ SSA, f.1, s.1, i.141, v.24(arxası)

[163] Yenə orada, v.26(arxası)

[164] G.Çiçerinin N.Nərimanova təcili diplomatik teleqramı. 20.07.1920. //RDSSTA, f.5, s.1, i.2097, v.1

[165] G.Çiçerinin RKP MK Siyasi Bürosuna məktubu. 05.10.1920.// RFXSA, f.04, s.39, q.232, i.52987, v.40

sərhədləri təsvir edilirdi və bu təsvir kiçik istisnalarla Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistanla olan sərhədlərini özündə əks etdirirdi. 1918-1922-ci illərdəki Rusiya-Azərbaycan münasibətləri haqqında maraqlı kitabın müəllifi R.Mustafazadə haqlı olaraq yazır ki, Sovet Rusiyasının Azərbaycanda mövqeləri möhkəmləndikcə, artıq bu sovet respublikası, onun ehtiyatları və ərazilərinin hesabına Gürcüstanın və Ermənistanın burjua respublikalarını sakitləşdirən və sonuncunun sovetləşdirilməsi üçün əlverişli şəraitin yetişəcəyini gözləyən bolşeviklərin regional siyasətinin özünəməxsus "donor"una çevrilirdi.[166]

1920-ci ilin oktyabr ayının 15-də RKP MK-nın Qafqaz bürosunun Rəyasət Heyəti Gürcüstan və Ermənistana münasibətdə sülh siyasəti yeritməyin vacibliyini bir daha vurğuladı.[167] N.Nərimanovun təbirincə desək "həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik, Azərbaycanın ərazilərini almışdır. İndiyi qədər ikili siyasət aparan Gürcüstan müstəqillik əldə etmişdir. Üç respublikadan birinci olaraq Sovet Rusiyasının ağuşuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirmişdir".[168] 1920-ci ilin sentyabr ayının 23-də Leninə göndərdiyi gizli teleqramda Rusiyanın Ermənistandakı səlahiyyətli nümayəndəsi B.Leqran Azərbaycan ərazilərinə münasibətdə Sovet Rusiyasının niyyətlərini belə müəyyənləşdirirdi: "Hesab edirəm ki, Zəngəzur və Naxçıvanın Ermənistana verilməsindən ehtiyatlanmaq lazım deyil. Birincisi, "Azərbaycanda bizim hərbi və sovet qüvvələrimizin indiki vəziyyətində bu vilayətlər, bizə yaxın Türkiyədə və Təbriz istiqamətində müstəqil əməliyyat aparmaq üçün çıxış nöqtəsi kimi lazımdır fikri" təmiz utopiyadır. İkincisi, Zəngəzur həqiqətən erməni vilayətidir, indi bizim hakimiyyət orada əhaliyə düşmən münasibətdə olan işğal xarakteri daşıyır, xüsusilə, Gorus hadisələri zamanı bu özünü daha qabarıq göstərdi. Üçüncüsü, Azərbaycanın ərazi iddiaları ilə razılaşmamaq olmaz, Moskvanın obyektiv siyasi mülahizələrlə əsaslandırılmış ərazi məsələləri ilə bağlı hər hansı qərarı şübhəsiz ki, Azərbaycan üçün də uyğun olacaqdır. Qarabağa gəldikdə isə, onun Azərbaycana birləşdirilməsində təkid etmək olar".[169] 1920-ci ilin oktyabr ayının 24-də G.Çiçerinə göndərdiyi

[166] P.Мустафа-заде. Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг., с.145

[167] RKP MK-nın Qafqaz Bürosunun Rəyasət Heyətinin iclasının protokolu. 15.10.1920.// RDSSTA, f.64, s.1, i.1, v.30(arxası)

[168] N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stainə məktub). Bakı, 1992, s.62

[169] B.Leqranın V.Leninə teleqramı. 23.09.1920.// RDSSTA, f.64, s.1, i.21, v.144

digər gizli teleqramda B.Leqran ermənilərlə Azərbaycan əraziləri haqqında sövdələşmələrini belə təsvir edirdi: "Ermənilər Naxçıvan və Zəngəzurun onların ərazisi kimi tanınmasını qəti şərt olaraq qoyublar. Mən göstərdim ki, Azərbaycansız bu məsələ həll edilə bilməz və yalnız, Ermənistan Qarabağa olan iddialarından imtina etdiyi halda, biz bunu Azərbaycanın qarşısında qoya bilərik. Ermənilər razılaşdılar, uzun müzakirələrdən sonra, kiçicik şərtlərlə Qarabağdan imtina etdilər".[170]

Lakin bu imtina müvəqqəti xarakter daşıdı və 1920-ci ilin noyabr ayında Ermənistanda sovet hakimiyyətinin qurulması ilə Qarabağın dağlıq əraziləri uğrunda mübarizə yeni müstəviyə daxil oldu. Bu mübarizənin başlıca məqsədi Moskvanın yardımı ilə Qarabağın dağlıq hissəsinin Azərbaycandan alınıb Ermənistana verilməsndən ibarət idi. Lakin bu baş tutmadıqda, müəyyən fasilələrlə həmin mübarizə 1923-cü ilin iyul ayında Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılna qədər davam etdi.

[170] Leqranın Çiçerinə gizli teleqramı.24.10.1920.// RDSSTA, f.5, s.1, i.2178, v.20

IV FƏSİL

SOVET AZƏRBAYCANI DİPLOMATİYASININ QARABAĞ DÜYÜNÜ: QAFQAZ BÜROSU VƏ MUXTARİYYƏT İDEYASI

§1. Ermənistanın sovetləşdirilməsi: Mərkəzin Qarabağ və Zəngəzurla bağlı məxfi planları

1920-ci ilin noyabrında Ermənistanda sovet hakimiyyətinin qurulması Qarabağ probleminin yenidən gündəliyə gətirilməsi istiqamətində kommunistlərə əlverişli şərait yaratdı. Ermənilər "proletariatın dünya qardaşlığı" ruhunda olan hər cür inqilabi romantik bəyanatları öz xeyirlərinə yozmağı bacarırdılar. Ermənistanda sovet hakimiyyətinin elan olunması münasibəti ilə noyabrın 30-da Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov və xarici işlər üzrə xalq komissarı M.D.Hüseynov Ermənistan İnqilab Komitəsinə təbrik teleqramı göndərdilər. Bu teleqramın məzmuni ilə noyabr ayının 30-da AK(b)P MK-nın Siyasi və Təşkilat Bürosunun iclasının qərarı arasında bəzi ziddiyyətlər var idi. Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun Ermənistanda sovet hakimiyyətinin qurulması münasibəti ilə dekabr ayının 1-də Bakı Sovetinin təntənəli iclasındakı məlum çıxışı ilə onun dekabrın 1-də elan olunmuş bəyanatının məzmunu arasında da bir sıra ziddiyyətli məqamlar var idi. Bəyanatda deyilirdi: "Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın-kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan belə, heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının bölünməz hissəsidir; Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir, Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır; Sovet Azərbaycanının qoşunları isə buradan çıxarılır".[1] İlk öncə qeyd edilməlidir ki, N.Nərimanovun 1 dekabr bəyanatı AK(b)P MK-nın 4 və 30 noyabr tarixli qərarları ilə ziddiyyət təşkil edir. Çünki, AKP MK Siyasi Bürosunun Stalin və Orconikidzenin iştirakı ilə 1920-ci ilin noyabr ayının 4-də keçirilən iclasında Rusiya-Ermənistan müqaviləsi layihəsindəki müvafiq maddə müzakirə edilərkən qərara alınmışdı ki, "Naxçıvanın və Zəngəzurun Ermənistana verilməsi haqqında təklif edilən maddə nə siyasi, nə də strateji baxımdan sərfəli deyildir". Lakin Ermənistanda sovet hakimiyyətinin qələbəsi ilə bağlı noyabrın 30-da keçirilən AK(b)P MK-nın iclasında 4 noyabr qərarına zidd olaraq, Zəngəzurun Ermənistana verilməsi haqqında qərar qəbul edildi. 30 noyabr tarixli qərarda, ümumiyyətlə, Naxçıvan məsələsinə toxunulmurdu.[2] Görünür, elə bunun nəticəsidir ki, dekabr ayının 2-də B.Leqran, haqqında söhbət gedən üç ərazidən, yalnız, Zəngəzurun Ermənistanın tərkibinə keçməsinin Sovet Rusiyası tərəfindən tanındığını *bildirirdi*.[3] Lakin 30 noyabr qərarı əsasında hazırlanıb, dekabrın 1-də Nərimanov tərəfindən elan edilən bəyanatda, göründüyü kimi, Zəngəzurla yanaşı Naxçıvanın da Ermənistana verilməsi öz əksini tapmışdı.

N.Nərimanovun Bakı mətbuatında dərc edilmiş bəyanatının mətni, hələ bu bəyannamə qəzetlərdə dərc edilməzdən əvvəl Q.Orconikidze tərəfindən təhrif edilməyə başlandı. Dekabr ayının 1-də Q.Orconikidze Ermənistandakı Rusiya nümayəndəsi B.Leqrana və Q.Çiçerinə vurduğu şifrli teleqramda bildirdi ki, "Azərbaycan artıq Naxçıvan, *Zəngəzur* və *Dağlıq Qarabağı Sovet* Ermənistanına vermişdir".[4] Bu məzmunda bir məlumatı dekabrın 2-də Orconikidze Lenin və Stalinə də göndərdi. Orada göstərilirdi: "Azərbaycan dünən artıq Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Sovet Ermənistanına verildiyini bəyan etmişdir."[5] Moskvaya yetişən kimi, Orconikidzenin bu məlumatı Stalinin göstərişi ilə dekabr ayının 4-də "Pravda" qəzetində dərc edilmişdi.[6]

Belə bir sual meydana çıxır: Q.Orconikidze məsələni dəqiqliklə bilmirdi, yoxsa, bu səhvə bilərəkdən yol verilmişdir? Dilicanda sovet hakimiyyəti elan edildikdən sonra Orconikidzenin Nazaretyanla bir başa xəttlə danışığı-

[1] Коммунист, 1920, 2 декабря

[2] Bax: AKP MK Siasi və Təşkilat Bürosunun iclasının qərarı. 30.11.1920.// ARPİİ SSA, f.1, s.74, i.124, v.58-59

[3] B.Leqranın Q.Orconikidzeyə radanbioqramı.02.12.1920.// RDSSTA, f.85,s.14, i.33, v.16

[4] Q.Orconikidzenin Leqran və Çiçerinə şifrəli teleqramı. 01.12.1920.// RDSSTA, f.85, s.14. i.33, v.12

[5] Q.Orconikidzenin V.Lenin və İ.Stalinə məlumatı.02.12.1920.// RDSSTA, f.85, s.14, i.33, v.20

[6] Bax: "Правда", 1920, 4 декабря

nın mətnində məsələ Nərimanovun bəyanatında olduğu kimi göstərilir. Orconikidze deyirdi: "Bu gün Bakı Sovetin təntənəli iclası oldu və Nərimanov Azərbaycan hökumətinin bəyannaməsini oxudu. Orada göstərilirdi: bundan sonra Sovet Ermənistanı ilə Sovet Azərbaycanı arasında heç bir sərhəd yoxdur, bu gündən etibarən Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının bölünməz hissəsidir, Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir. Neft və kerosin hər iki müttəfiq respublikanın sərvətidir". Bu sözlərdən riqqətə gələrək, Nazaretyan bir başa xəttə dedi: "Əhsən, azərbaycanlılar! Mən sabahdan mətbuatda ucadan danışmağa başlayacağam".[7]

Göründüyü kimi, Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun məlum 1 dekabr 1920-ci il tarixli bəyanatı bolşeviklərin "yüngül" düzəlişinə məruz qalmışdı. Bəyanatın Bakıda nəşr olunan "Kommunist" (02.12.1920) və "Bakinskiy raboçiy" (03.12.1920) qəzetlərindəki mətnində Dağlıq Qarabağın əməkçi kəndlilərinə "öz müqəddəratını təyin etmək hüququ verilir"disə, "Pravda" qəzetinin 4 dekabr və Ermənistanda çıxan "Kommunist" qəzetinin 7 dekabr sayında dərc olunmuş mətnində Yuxarı Qarabağın "Ermənistan Sosialist Respublikasının tərkib hissəsi kimi tanınması"ndan söhbət gedirdi. Bəyanatın məzmununun belə saxtalaşdırılması həmin hadisədən bir qədər sonra N.Nərimanovun özünün də ciddi etirazına səbəb olmuşdu. O, 1921-ci ilin iyununda Tiflisdə səfərdə olan Xarici işlər komissarı M.D.Hüseynova tapşırmışdı ki, onun Dağlıq Qarabağ barədə aşağıdakı fikrini Qafqaz Bürosuna çatdırsın: "Əgər mənim bəyanatıma istinad edirlərsə orada, sözbəsöz belə deyilmişdir: Dağlıq Qarabağa öz müqəddəratını təyin etmək hüququ verilir".[8]

Ümumiyyətlə, belə bir sual ortaya çıxır: bu bəyanatın həqiqi mətni ermənistanda olubmu? Axı Q.Orconikidzenin yazışmalarından əlavə bu bəyanat N.Nərimanov və M.D.Hüseynovun imzası ilə teleqram formasında Ermənistan İnqilab Komitəsinə göndərilmişdir. Məhz, bu sənədə əsasən Ermənistan İnqilab Komitəsinin üzvü Moskvada olan erməni nümayəndəsi Ter-Qabrelyana məlumat verirdi ki, "Azərbaycan Zəngəzurun, Naxçıvanın birləşdirilməsini və Dağlıq Qarabağda referendum keçirilməsini bəyan

[7] Orconikidzenin bir başa xəttlə Nazaretyanla söhbəti. 30.11.1920.// RDSSTA, f.85, s.14, i.37. v.1

[8] К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. Документы и материалы. Баку, 1989, с.89

edib".[9] Hətta, sonralar, 1957-ci ildə Yerevanda "Böyük Oktyabr Sosialist İnqilabı və Ermənistanda Sovet hakimiyyətinin qələbəsi" adlı sənədlər toplusu buraxıldıqda, bəyanatın Ermənistan Mərkəzi Dövlət Arxivində saxlanılan doğru-düzgün mətni həmin sənədlər toplusuna daxil edilmişdi.[10] Bununla belə, ötən əsrin 80-ci illərindən başlayaraq, erməni müəllifləri həmin sənədin düz mətnini qoyub, məqsədli şəkildə, onun əsli ilə düz gəlməyən variantına üstünlük verirlər. Məsələn, bu səhvin yer aldığı Ermənistan SSR EA-nın hazırladığı "Dağlıq Qarabağ. Tarixi arayış" kitabçasının müəllifləri heyətinin bəziləri, vaxtilə yuxarıda adı çəkilən sənədlər toplusunun hazırlanmasında da iştirak etmişdilər.[11] Lakin buna baxmayaraq, onlar sənədin Ermənistan arxivində olan və 1957-ci ildə akademik nəşrdə yer alan əsl mətninə deyil, 1920-ci ilin dekabr ayının 7-də İrəvanda çıxan "Kommunist" qəzetindəki "əl gəzdirilmiş" mətninə üstünlük vermişlər. Təəssüf ki, Qarabağ tarixinin sənədləri, eləcə də, Azərbaycan tarixinin saxtalaşdırılması ilə bağlı bu əməliyyat nə birinci idi, nə də sonuncu oldu. Otuz ilə yaxın Sov.İKP MK-nın beynəlxalq şöbəsində rəhbər vəzifədə çalışan və əslən Bakıdan olan K.Brutens də 2005-ci ildə Moskvada nəşr olunmuş yenidənqurma haqqında sevgi dolu qeydlərində də eyni "səhvi" təkrar etməli oldu.[12] Maraqlıdır, az sonra K. Brutens Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun 1 dekabr bəyanatının Rusiya Dövlət Sosial-Siyasi Tarix arxivində saxlanan doğru mətninə istinad etsə də, elə həmin səhifədə yenidən bəyanatın 1920-ci ilin dekabr ayının 4-də İ.Stalin tərəfindən "Pravda" qəzetində dərc etdirilmiş saxta mətnini təkrar edir.[13]

Lakin Ermənistanda sovet hakimiyyətinin qələbəsindən "ruhlanan" Nərimanovun bəyanatında Zəngəzur və Naxçıvan qəzalarının ərazisinin Sovet Ermənistanının bir hissəsi kimi tanınması fikrinin səslənməsi ciddi səhv idi və ermənilər, habelə, Azərbaycanın ərazi bütövlüyünü şübhə altına almağa meylli olan dairələr bundan dərhal istifadə etdilər. Az sonra, 1922-ci ilin əvvələrində Leninə məktubunda Nərimanov öz səhvini etiraf edərək

[9] Ermənistan İnqilab Komitəsinin üzvündən (A.Mravyandan) Sovet Ermənistanının Moskvadakı nümayəndəsi Ter-Qabrelyana. 04.01.1921.// RFXSA. f.04, s.39, q.232, i.53001, v.14

[10] Bax: Великая Октябрьская социалистическая революция и победа Советской власти в Армении. Ереван, 1957, с.437-438

[11] Bax: Нагорный Карабах: историческая справка. Ереван, 1988, с.28-29

[12] К.Н.Брутенц. Несбывшееся. Неравнодушные заметки о перестройке. Москва, «Международные отношения», 2005, с.334

[13] Yenə orada, v.335

yazırdı: "Ermənistanın xeyrinə Azərbaycan, hətta, öz ərazilərindən imtina etdi, halbuki, həmin vaxt siyasi mülahizələrə görə bunu etmək olmazdı".[14]

Nərimanovun bəyanatından iki gün sonra, 1920-ci ilin dekabr ayının 2-də imzalanan Rusiya-Ermənistan hərbi-siyasi müqaviləsində Zəngəzur qəzasının Ermənistanın tərkibinə keçdiyi mübahisəsiz fakt kimi tanınırdı.[15] Halbuki, az əvvəl keçirilən əhali sayımına görə, Zəngəzur qəzasında 123.095 nəfər müsəlman, 99.257 nəfər erməni yaşayırdı.[16] Şübhəsiz ki, bu etnik mənzərə Zəngəzurun bir hissəsinin Azərbaycanda qalması üçün həlledici rol oynadı. Bütövlükdə, Azərbaycanın keçmiş Zəngəzur qəzasının 6742,92 kv.verst ərazisindən yarıdan çoxu, 405 min desyatin torpaq sahəsi Ermənistana verildi.[17] Zəngəzurun bir hissəsinin Ermənistana verilməsindən sonra Qarabağ və Zəngəzurun fövqəladə komissarı Ş.Mahmudbəyov dekabr ayının 24-də N.Nərimanova yazdığı və onun tapşırığı ilə surəti Q.Orconikidzeyə göndərilən məruzəsində yazırdı ki, "4 sahədən ibarət olan aşağı Zəngəzurun nümayəndələri mənim yanıma gələrək, Azərbaycan sovet hakimiyyətinin idarəçiliyində qalmaq istədiklərini qəti olaraq bildirdilər. Əgər təklifləri nəzərə alınmasa, xahiş edirlər ki, onların hara köçürüləcəyi yer göstərilsin".[18] Ş.Mahmudbəyov 1920-ci ilin dekabr ayının 30-da N.Nərimanova və H.Sultanova göndərdiyi məlumatda vəziyyətin böhranlı xarakter daşıdığını, daşnakların dinc əhaliyə hücum təhlükəsinin hər an gözlənildiyini yazırdı. O qeyd edirdi ki, əgər Mərkəz siyasi mənada bu diyarda hər şeyin uğurlu olacağına əmin olub, yüz verstlərlə sahədən orduları çıxarırsa, onda bizim özümüzə icazə verin Qarabağ və Zəngəzuru gözlənilməz hücumlardan qorumaq üçün öz qüvvələrimizi səfərbər edək. O əlavə edirdi ki, "biz bunu mümkün və zəruri hesab edirik".[19] 1921-ci ilin fevral ayının 15-də Ş.Mahmudbəyov 24 dekabr məruzəsinə əlavə olaraq N.Nərimanov, H.Sultanov və Ə.Qarayevin adına iki səhifəlik məlumat göndərmişdi. O, daşnakların daha da azğınlaşdığın yazır, Qarabağın və Zəngəzurun müsəlman əhalisini erməni talanlarından qorumaq üçün Bakıdan yardım

[14] N.Nərimanovun V.Leninə məktubu. 09.01.1922.// RDSSTA, f.5, s.1, i.1220, v.1

[15] İ.Musa. Azərbaycanın xarici siyasəti. II hissə, Bakı, 2010, s.143

[16] Zaqafqaziya respublikaları arasında mübahisə obyekti olan ərazilər.01.03.1921.// RDSSTA, f.5, s.1, i.2796, v.4

[17] Bax: ARDA, f.28, s.1, i.155, v.19-20

[18] Ş.Mahmudbəyovun N.Nərimanova məruzəsi. Surəti H.Sultanova və Ə.Qarayevə. 24.12.1920.// RDSSTA, f.85, s.13. i.177. v.2-3

[19] Ş.Mahmudbəyovun N.Nərimanova məlumatı. Surəti H.Sultanova. 30.12.1920.// AR DA, f.27, s.4. i.17, v.60

istəyirdi. Ş.Mahmudbəyov xəbərdarlıq edirdi ki, daşnaklar "Dağlıq Qarabağın düzən Qarabağla əlaqəsini tamamilə kəsmək üçün Şuşa qəzasının II Vərənd sahəsində üsyan qaldırıb, I Xankəndi sahəsi ilə birləşmək" istəyirlər. O, təklif edirdi ki, Qarabağ və Zəngəzurda müsəlman əhalisinin müdafiəsini gücləndirmək üçün bölgədə böyük nüfuzu olan Sultan bəy Sultanovun imkanlarından istifadə etmək lazımdır. Bunun yeganə yolunu isə o, az əvvəl S.Sultanovun ermənilərin təkidi ilə həbs edilmiş qardaşı, Qarabağ və Zəngəzurun general-qubernatoru olmuş, azərbaycanlı əhalinin erməni talanlarından qorunmasında müstəsna rol oynamış Xosrov bəy Sultanovun həbsdən azad olunmasında görürdü. Hətta, Ş.Mahmudbəyov məlumatın sonuna öz əl yazısı ilə əlavə etmişdi ki, "Xosrov Sultanov azad ediləcəyi təqdirdə onun loyallığı və etibarlılığına şəxsən cavabdehəm, onun bütün hərəkətləri üçün bilavasitə məsuliyyət daşıyacağam".[20] Ş.Mahmudbəyovun bu məlumatı da fevralın 28-də Xalq Komissarları Sovetinin işlər idarəsi tərəfindən Q.Orconikidzeyə göndərildi.

Ümumiyyətlə, Nərimanovun bəyanatında Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi ideyası niyə səsləndirildi? Əslində, bu ideya Moskvadan, RKP MK Siyasi Bürosundan gəlirdi və onun əsas icraçısı Q.Orconikidze idi. Bunu Almaniyanın Humbolt Universitetinin professoru Yorq Baberovski də təsdiq edir. O, yazır ki, hələ 1920-ci ilin yayında Orconikidzenin təzyiqi ilə Nəriman Nərimanov Zəngəzur, Qarabağ və Naxçıvanın Ermənistana güzəşt edilməsinə vəd vermək məcburiyyəti qarşısında qalmışdı.[21] 1920-ci ilin payızında Stalinin Qafqaza məşhur səfəri günlərində, noyabr ayının 4-də Azərbaycan K(b)P MK-nın RK(b)P MK Qafqz Bürosu ilə birgə keçirdiyi iclasda Ermənistanda vəziyyət haqqında Leqranın məruzəsi dinlənilmiş və müvafiq qərar qəbul edilmişdi. Qərarın Rusiya ilə Ermənistan arasında müzakirə edilən müqavilə ilə bağlı "b" bəndində qeyd edilirdi: "Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi haqqında müqaviləyə təklif edilən *(Moskva tərəfindən – C.H.)* bənd nə siyasi, nə də strateji baxımdan əlverişli deyildir. Bu təklif yalnız əlacsız qaldıqda həyata keçirilə bilər". Qərarın "q" bəndində isə Naxçıvan və Zəngəzur haqqında Siyasi Büronun fikrinin əsaslandırması Nərimanova tapşırılırdı.[22]

[20] Ş.Mahmudbəyovun N.Nərimanova 24 dekabr məruzəsinə əlavə. Surəti H.Sultanova və Ə.Qarayevə. 24.12.1920.// RDSSTA, f.85, s.13. i.71. v.1-1(arxası)

[21] Йорг Баберовски. Враг есть везде. Сталинизм на Кавказе. М., 2010, с.237

[22] AK(b)P MK-nın Qafqaz Bürosu ilə birgə iclasının 4 saylı protokolu. 04.11.1920.// ARPİİ SSA, f.1, s.1, i.22, v.20

Göründüyü kimi, Qarabağ məsələsi bu zaman ümumiyyətlə mövcud deyildi və müzakirələrdə də yer almamışdı. 1920-ci ilin noyabrın 20-də İrəvana gələn Sovet Rusiyasının diplomatik nümayəndəliyinin ilk addımlarından biri Gümrüdə aparılan Türkiyə-Ermənistan danışıqlarını izləmək, habelə, Ermənistanın Azərbaycana və Gürcüstana olan ərazi iddialarını araşdırmaq olmuşdu. RSFSR Xarici işlər komissarı Çiçerinə göndərilən məlumatda deyilirdi ki, "indi erməni xalqının mövcudluğu bilavasitə hərbi qüvvədən deyil, daha çox diplomatiyadan asılıdır. Partiya romantizmindən imtina edib, sərt realizmlə silahlanmaq lazımdır".[23]

Eyni zamanda, məhz, elə bolşevik liderləri içərisindən Zəngəzurun Azərbaycana məxsusluğunu ilk təsdiq edənlərdən biri də Q.Orconikidze idi. Qafqaza bələd olan rəhbər bir sovet işçisi kimi, o, yaxşı bilirdi ki, Zəngəzurun nəinki müsəlman əhalisi, eyni zamanda, qəzanın erməni əhalisi də öz varlıqlarını Azərbaycan dövlətinin içərisində görürdülər. Hələ, 1918-ci ilin payızında Azərbaycan Respublikası öz suverenliyini təsdiq etdikdən sonra Zəngəzur qəzasında yüzlərlə erməni Azərbaycan dövlət orqanlarına müraciət etmişdi ki, onları Azərbaycan vətəndaşı hesab etsinlər və tezliklə onlara Azərbaycan Respublikasının pasportlarını versinlər.[24] Bütün bunlardan məlumatlı olduğu halda, 1920-ci ilin aprel ayı ilə noyabr ayı arasındakı dövrdə nə baş verdi ki, Orconikidze öz mövqeyindən daşınmalı oldu. Bunun başlıca səbəbi 1920-ci ilin sentyabr ayında başlanmış Türkiyə-Ermənistan müharibəsində ermənilərin biabırçı şəkildə məğlub olması və türk qoşunlarının Gümrüyə gəlib çıxması ilə bağlı idi. Türklərin bu qələbəsi Orconikidze və bir sıra bolşevik liderlərində 1918-ci ilin təkrar olunması, yəni türklərin yenidən Bakını tuta biləcəyi qorxusunu doğurmuşdu. Türklərin Bakıya yolunu bağlamaq üçün müəyyən tədbirlər düşünülərkən, Orconikidzenin ilk ağlına gələn addım Zəngəzuru Ermənistana verməsi ideyası olmuşdu. O, bu təklifi təcili olraq, Bakıdan Moskvaya qayıdan və hələ yolda olan Stalinə çatdırmışdı. Noyabr ayının 23-də Postovdan Leninlə əlaqəyə girən Stalin Orconikidzenin Bakı üçün "narahatçılığını" ona bildirdi. Orconikidzenin məlumatına istinad edərək, Stalin qeyd edirdi ki, indi Bakı üçün əsas təhlükə türklərin Azərbaycanla ümumi sərhədlərə cəhd göstərmələrindən

[23] İrəvandakı Sovet Rusiyasının diplomatik nümayəndəliyindən Xarici işlər komissarı Çiçerinə. Noyabr 1920.// AR DA, f.28. s.1, i.38, v.15

[24] Zəngəzur, Tiflis və digər yerlərdə yaşayan ermənilərinin bu dövrdə Azərbaycan vətəndaşlığına qəbul olunmaq üçün respublikanın müxtəlif diplomatik və dövlət orqanlarına yazdıqları 500-dən çox müraciət haqqında geniş məlumat üçün bax: Archives d'Ali Mardanbey Toptchibachi, carton n° 6. CERCEC, EHESS, Paris

irəli gəlir və Orconikidze təklif edir ki, Zəngəzuru Ermənistana verilməklə türklərin niyyətlərinə mane olmaq lazımdır. Stalin özünün də bu təklifə tərəfdar olduğunu V.Leninə bildirirdi.[25] Məhz, 1920-ci ilin noyabr ayının 30-da Azərbaycan K(b)P MK Siyasi Bürosunun qərarı ilə Zəngəzurun Ermənistana verilməsinin arxasında duran müəmma bundan ibarət idi.

Ermənistanın sovetləşməsinin doğurduğu inqilabi pafos fonunda Zəngəzurun bir hissəsi ermənilərə verilsə də, Qarabağın İrəvana birləşdirilməsi ideyası baş tutmadı. Məhz, regionun taleyi ilə bağlı bundan sonrakı bütün mexanizm diplomatik oyun qaydaları müstəvisinə keçirildi. Azərbaycan bir-birinin ardınca RK(b)P MK Qafqaz Bürosunda qəbul edilən partiya qərarlarının əsirinə çevrildi. RK(b)P MK-nın Qafqaz Bürosu 1921-ci ilin iyun ayının 3-də Qafqaz Bürosunun üzvləri Orconikidze, Maxaradze, Nərimanov, Myasnikov, Orexalaşvili, Nazaretyan, Fiqatner və üzvlüyünə namizəd Azərbaycan KP MK-nın katibi Kaminski, habelə, Gürcüstan KP MK-nın üzvü Eliavanın iştirakı ilə keçirilən plenumunun axşam iclasının gündəliyində üç məsələ var idi. Bunların birincisi "Azərbaycan məsələsi", ikincisi "Zəngəzur məsələsi", üçüncüsü isə "Köçərilər haqqında" olan məsələ idi. Birinci və üçüncü məsələlər haqqında qəbul edilmiş qərarlar iclasın 6 saylı protokolunda əks olunsa da, ikinci məsələ ilə bağlı protokolda belə bir qeyd qoyulmuşdur: "bax: protokola əlavəyə".[26] Əslində, məsələnin elə müəmmalı tərəfi də burada idi. Birincisi, Zəngəzur məsələsi haqqında Qafqaz Bürosunun 7 bənddən ibarət qərarı "tamamilə məxfi" qrifi ilə qəbul edilmişdi. Halbuki, iclasın 6 saylı protokolunun üzərində belə bir məxfi qrif yoxdur. İkincisi, Qafqaz Bürosunun "tamamilə məxfi" qrifi altında qəbul etdiyi qərar məhz "Zəngəzur məsələsi" üzrə qəbul edilib. Lakin 7 bənddən ibarət gizli qərarın 6 bəndi bilavasitə Zəngəzura aid olsa da, onun 5-ci bəndi Zəngəzura tamamilə dəxli olmayan "Dağlıq Qarabağ" haqqında idi. Həmin 5-ci bəndində qeyd edilirdi ki, "Ermənistan hökumətinin bəyanatında Dağlıq Qarabağın Ermənistana məxsus olması haqqında göstərilsin".[27] Yəni, "tamamilə məxfi" formada Ermənistana tapşırdı ki, hökumət bəyanatı ilə çıxış edib Dağlıq Qarabağın Ermənistana məxsus olduğunu göstərsin.

[25] İ.Stalinin bir başa xəttlə V.Leninlə söhbəti. 23.11.1920.// RFXSA, f.04, s.39, q. 232, i.52987, v.47

[26] RKP MK Qafqaz Bürosu plenumunun axşam iclasının 6 saylı protokolu. 03.06.1921.// RDSSTA, f.64, s.1, i.1, v.76(arxası)

[27] RKP MK Qafqaz Bürosu plenumunun axşam iclasının 6 saylı protokoluna əlavə. 03.06.1921.// RDSSTA, f.64, s.1, i.1, v.77

Ermənilərin nəşrlərində, əvvəla, bu sənədin üzərindən məxfilik qrifi qaldırılıb, ikincisi isə, onlar ümumilikdə bu qərarın "Zəngəzur haqqında" olduğunu xatırlatmağı unudurlar.[28] Bütövlükdə isə, Qafqaz Bürosunun belə bir qərar qəbul etməyə səlahiyyəti çatmırdı. Xüsusilə, 1921-ci ilin may ayının 2-də keçirilən plenumda Qafqaz Bürosunun təşkili haqqında qəbul olunan qərarla plenumlar arasındakı dövrdə bütün işi aparmaq üçün üç nəfərdən ibarət Rəyasət Heyəti yaradılmışdı ki, ora da Orconikidze, Maxaradze və Fiqatner daxil edilmişdi.[29] Göründüyü kimi, Qafqaz Bürosu məhdud sayda adamların nəzarətində idi və Azərbaycan Rəyasət Heyətində təmsil edilmirdi.

Qafqaz Bürosunun 3 iyun qərarından az sonra, iyun ayının 12-də Ermənistan Xalq Komissarları Soveti Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi haqqında dekret qəbul etdi. Orada deyilirdi: "Azərbaycan Sovet Sosialist Respublikası İnqilab Komitəsinin bəyannaməsi, Ermənistan və Azərbaycan sosialist respublikaları arasındakı razılıq əsasında bundan sonra Dağlıq Qarabağ Ermənistan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsi elan edilir".[30] A.Myasnikov (A.Martuni) və M.Karabekyan tərəfindən iyun ayının 12-də imzalanmış bu dekret iyunun 15-də Ermənistan KP MK-da müzakirə edildikdən sonra onun elan edilməsinə qərar verildi. Orada deyilirdi: "Dağlıq Qarabağın Sovet Ermənistanına birləşdirilməsi haqqında bəyannamə dərc edilsin". Həmin iclasda 5-ci məsələ kimi, "Qarabağa nümayəndə göndərilməsi haqqında" məsələ müzakirə edilib müfafiq qərar qəbul edildi. Qərarda göstərilirdi: " Yoldaş Mravyan və onunla birlikdə Pirumov, Akop İoanisyan, Ter-Simonyan və digər yoldaşlardan ibarət qrup Qarabağa göndərilsin".[31] Bu qərara uyğun olaraq, iyunun 19-da, yəni, qəbul olunduğundan bir həftə sonra Ermənistan İnqilab Komitəsiinin Dağlıq Qarabağın "Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi" olduğunu özündə ehtiva edən dekret mətbuatda dərc edildi və Askenaz Mravyanı Dağlıq Qarabağa fövqəladə müvəkkil kimi təsdiqlədi.[32] Ermənistan İnqilab

[28] Правда о Нагорном Карабахе. Степанакерт, 1989, с.44

[29] RKP MK-nın Qafqaz Bürosunun plenumunun iclasının 2 saylı protokolu. 02.05.1921.// RDSSTA, f.64, s.1, i.1, v.57

[30] «Бакинский рабочий», 1921, 22 июня

[31] Ermənistan KP MK-nın iclasının 8 saylı protokolu. 15.06.1921.// RDSSTA, f.64, s.1. i.105, v.11(arxası)

[32] Askanaz Arutyunoviç Mravyan 1886-cı ildə Gəncədə doğulmuşdu və 1906-cı ildə İrəvan şəhərində kilsə seminariyasını bitirmişdi. 1905-ci ildən "Qnçak" partiyası ilə bağlı idi. Ermənistanın sovetləşməsindən sonra orada müxtəlif rəhbər vəzifələrdə çalışmış, Sovet Ermənistanının xarici işlər nazirliyində işləmiş və "Xorurdain Aystan" qəzetinin redaktoru

Komitəsinin dekreti mətbuatda elan olunduqdan bir gün sonra ona əməli xarakter vermək məqsədilə, habelə, Qarabağın ələ keçirilməsində Zəngəzurda möhkəmlənməyin əhəmiyyətini nəzərə alaraq, Ermənistan KP MK iyunun 20-də keçirilən iclasında "Zəngəzurda gizli işi gücləndirmək məqsədilə ora yeni işçilərin göndərilməsi haqqında qərar qəbul etdi".[33] Bu qərara uyğun olaraq, iyunun 28-də Ermənistan Təsərrüfat Şurasının sədri L.Lukaşin və ədliyə komissarı A.Karinyan Zəngəzura ezam edildi. Ermənistan KP MK-nın iyun ayının 28-də keçirilən iclasının qərarı ilə 1921-ci ilin may ayında yaradılan Ermənistan hökumətində daxili işlər komissarı fəzifəsini yutan Makinsyan Zəngəzura fövqəladə müvəkkil təyin edildi. Elə həmin hökumətdə poct-teleqraf komissarı vəzifəsini tutmuş Ter-Simonyan isə Zəngəzur İnqilab Komitəsinin sədri təyin edildi və ona tapşırıldı ki, Görusu tutmaq üçün təcili olaraq yola düşsün. AKP MK-ya və İ.Dovlatova müraciət edildi ki, A.Mravyanın sərəncamına işçilər göndərsinlər.[34] Lakin Zəngəzuru əhalinin həyacanı bürüdüyü üçün Ermənistanın hər iki komissarı avqust ayının ilk günlərində İrəvana dönməli oldular. Avqust ayının 7-də keçirilən Ermənistan KP MK-nın iclasında Makinsyan və Ter-Simonyanın MK-nın razılığı olmadan, onlara tapşırılmış vəzifələri qoyub İrəvana dönmələri yolverilməz hesab edildi və Ter-Simonyan MK-nın qərarı ilə 2 aylıq Ermənistan KP MK-nın və XKS-nin nümayəndəsi olaraq, Zəngəzura müvəkkil kimi ezam edildi.[35]

Ermənistan XKS-nin 12 iyun tarixli dekretinin mətni ilə tanışlıq maraqlı məqamları meydana çıxarır. Sənədin araşdırılması zamanı aydın olur ki, bu dekretin mətnində yazılanların əksinə olaraq, nə Azərbaycan İnqilab Komitəsinin istinad edilən bəyannaməsində Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsi var idi, nə də iki respublika arasında bu istiqamətdə hər hansı bir razılıq əldə olunmamışdu. Göründüyü kimi, bu dekretə bilavasitə Qafqaz Bürosunun Orconikidzenin sədrliyi və Fiqatnerin katibliyi ilə keçirilən 3 iyun tarixli iclasında qəbul edilən "Zəngəzur məsələsi" haqqında "tamamilə məxfi" qərarı rəvac vermişdi və nədənsə, Qafqaz Bürosunun 3 iyun tarixli qərarı Ermənistan XKS-nin 12 iyun tarixli dekretində xatırladıl-

olmuşdu. Bax: A.A.Mravyanın avtobioqrafiyası. 1923.// ARPİİ SSA, f.1, s.8, i.4020, v.13

[33] Ermənistan KP MK-nın iclasının 9 saylı protokolu. 20.06.1921.// RDSSTA, f.64, s.1. i.105, v.12(arxası)

[34] Ermənistan KP MK-nın iclasının 11 saylı protokolu. 27.06.1921.// RDSSTA, f.64, s.1. i.105, v.17(arxası)

[35] Ermənistan KP MK-nın iclasının protokolu. 07.08.1921.// RDSSTA, f.64, s.1. i.105, v.18

mırdı. Ermənistan XKS-nin 12 iyun dekretində Qafqaz Bürosunun 3 iyun qərarının xatırladılmaması ilk növbədə qərarın "tamamilə məxfi" qrifi ilə qəbul edilməsi, ikincisi isə Qafqaz Bürosunun belə bir qərar qəbul etməyə səlahiyyətli olmaması ilə bağlı idi.

Əslində, Ermənistan hökuməti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi istiqamətində ilk qanunsuz addımı hələ, 1921-ci ilin yazında atmışdı. Həmin vaxt hökumət dairələrində "Dağlıq Qarabağın Ermənistan Respublikasına birləşdirilməsi haqqında məsələ üzrə əsas mülahizələr" adlı 6 bənddən ibarət sənəd hazırlanmışdı. Orada göstərilirdi ki, Dağlıq Qarabağ düzən Qarabağdan alçaq dağ zolağından ibarət təbi sərhədlərlə ayrılır. Şübhəsiz ki, ermənilər təbi sərhəd hesab etdikləri bu dağ zolağının da qeydinə qalmışdılar və belə hesab edirdilər ki, iki səbəbə görə həmin dağ zolağı Dağlıq Qarabağa birləşdirilməlidir: birincisi, guya, bu zona faktiki olaraq erməni əhalisinin istifadəsindədir; ikincisi isə, dağlıq zolaqda istifadəyə yararlı torpaqlar az olduğundan, bu alçaq dağ zolağı az və ya çox dərəcədə dağlıq hissədə yaşayan əhalini çörəklə təmin edə bilən yeganə torpaq fondudur. Məhz bu mülahizələrə görə, Ermənistan hökuməti tərəfindən hazırlanmış arayışda deyilirdi ki, Dağlıq Qarabağ Talış, Marağalı, Kasapet, Kabarek, Boyəhmədli, Xanabad, Gülablı, Yengikənt, Kaqardin və Qacar kənd cəmiyyətlərini əhatə etməklə Ermənistanın hüdudlarına daxil olmalıdır. Sənəddə etiraf edilirdi ki, bu halda Boyəhmədli, Gülablı, Qacar kimi, bir sıra müsəlman cəmiyyətləri Dağlıq Qarabağda qalsa da, onlar bunu, guya, düzən Qarabağda erməni əhalisinə məxsusi bir sıra ərazilərin müsəlmanlarda qalması ilə izah edirdilər. Sənədin ən maraqlı hissəsi onun beşinci bəndi idi. Bu bənddə göstərilirdi: "Dağlıq Qarabağın Ermənistan Respublikasına keçməsi ilə birlikdə, Qarabağla Zəngəzur arasında ensiz dağ zolağını təşkil edən Kürdüstan deyilən ərazi də Ermənistana keçməlidir. Lakin bu rayonun özünəməxsus vəziyyəti və oranın əhalisi arasında millətçilik meyllərinin mövcud olması bu məsələdə bəzi çətinliklər doğura bilər. Bu çətinlikləri aradan qaldırmaq üçün aşağıdakı müddəaları rəhbər tutmaq zəruridir: Bu rayon Şuşa-Gorus yolundan yuxarıda yerləşir və cəmisi 27 min əhalisi olan altı kənd cəmiyyətindən ibarətdir. Bu rayondan Ermənistan Respublikasının idarəsi və ya əlacsız qaldıqda Azərbaycanın protektoratlığı altında xüsusi kanton yaradıla bilər. Kürdüstan tərəfindən Şuşa şəhəri daxil olmaqla, Malıbəylı cəmiyyətinin ona birləşdirilməsi tələbi mümkündür. Aşağıdakı səbəblərə görə bu qəbul edilə bilməz: 1.Bu kənd cəmiyyətləri

içərisindən yalnız Malıbəyli kəndi oturaq həyat tərzi keçirir və faktiki olaraq indi o da mövcud deyil, Sovet hakimiyyəti qurulduqdan sonra onun əhalisi arana enmişdir. Qalan kəndlər... köçəri həyat tərzi keçirirdi və son illərdə düzənlik hissədəki öz torpaqlarında qəti olaraq məskunlaşıblar; 2.Bu kənd cəmiyyəti *(Malıbəyli – C.H.)* ortada yerləşdiyindən, Vərəndi Xaçından ayırır və belə vəziyyətdə Şuşa qəzasının bu iki sahəsindən bir inzibati vahid yaratmaq mümkün deyildir; 3.Bu mülahizələri biz eyni ilə Şuşikənd cəmiyyətinin torpaqları və Qaybalıkənd erməni kəndi ilə tamamilə əhatə olunmuş Şuşa şəhərinə də aid edə bilərik. Şuşa şəhəri özü tarixi rayon olaraq Şuşikənd cəmiyyətinin bir hissəsidir; 4.Kürdüstan da eyni ilə Xankəndindən keçən yol vasitəsi ilə aranla birləşir".[36] Sənədin yekun hissədən ibarət olan altıncı maddəsində Ermənistan hökumətinin niyyəti daha açıq şəkildə ifadə olunurdu. Orada yazılırdı ki, "Kürdüstandan cənuba Həkəri çayı boyunca böyük hissəsi erməni əhalisindən ibarət olan Qaladərəsi və Cəmilli kənd cəmiyyətləri yerləşir. Bu həmin zolaqdır ki, oradan şose yolu keçir və bir inzibati vahid, habelə, bir idarəçilik yaratmaq üçün Dağlıq Qarabağ yalnız bu yol vasitəsi ilə Zəngəzurla birləşə bilər. Bu bağlantı olmadan Dağlıq Qarabağın Ermənistan Respublikasına birləşdirilməsinin heç bir mənası yoxdur".[37] Məhz, bu mülahizələrin təsiri altında 1921-ci ilin may ayında Ermənistan hökuməti heç bir hüquqi anlayışlara söykənmədən birtərəfli qaydada Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qərar verdi.[38] Bu qərarın təzahürü kimi, Ermənistan KP MK-nın plenumu 1921-ci ilin may ayının 23-də Akop İoannisyanı Ermənistanın Dağlıq Qarabağda müvəkkili təyin etdi. Plenumun qərarında göstərilirdi: "Akop İoannisyan Ermənistan SSR-in Dağlıq Qarabağda müvəkkili təyin edilsin və yoldaş Bekzadyandan təlimat almaq üçün o, teleqraf vasitəsi ilə Bakıdan Tiflisə çağrılsın".[39] Eyni zamanda, may ayının 23-də keçirilən plenumda Aleksandropol qəzasının İnqilab Komitəsi ilə bağlı məsələ müzakirə edilərkən D.Ter-Simonyan Dərələyəz qəzasına komissar təyin edildi. İclasda Zəngəzur komissiyasının bəyanatı haqqında Pirumovun məruzəsi dinlənildikdən sonra belə bir qərara qəbul edildi: "RKP Qafqaz Bürosunun qarşıdakı plenumunda Dağlıq Qarabağ

[36] Dağlıq Qarabağın Ermənistan Respublikasına birləşdirilməsi haqqında məsələ üzrə əsas mülahizələr. 1921.// RDSSTA, f.64, s.1, i.137, v.7-7(arxası)

[37] Yenə orada, v.7(arxası)

[38] К.Н.Брутенц. Несбывшееся. Неравнодушные заметки о перестройке, с.335

[39] Ermənistan KP MK plenumu iclasının 4 saylı protokolu.23.05.1921.//RDSSTA, f.64, s.1, i.105, v.5(arxası)

haqqında məsələ aydınlaşana qədər nota göndərilməsindən *(Azərbaycana – C.H.)* imtina edilsin".[40] Göründüyü kimi, Ermənistan artıq may ayından başlayaraq, Dağlıq Qarabağın ilhaq edilməsi istiqamətində əməli addımlara keçmişdi və digər tərəfdən RKP MK-nın Qafqaz Bürosunun iyun ayının əvvəllərində keçiriləcək plenumunda Dağlıq Qarabağ məsələsinin müzakirə ediləcəyindən məlumatlı idi. Ona görə də, onlar hüquqi baxımdan bu qanunsuz addımın gerçəkləşdirilmə yollarını axtarır və indi Qafqaz Bürosunun qərarı ilə ona qanuni don geyindirmək və Azərbaycanın müqavimətini qırmaq istəyirdilər. Qafqaz Bürosunun 3 iyun qərarı ilə Dağlıq Qarabağı mənimsəmək istiqamətində Ermənistana verdiyi "tövsiyə" də məhz bu zərurətdən irəli gəlirdi. 1921-ci ilin mayında Qarabağla bağlı Azərbaycan rəhbərliyi də təşkilatı baxımdan bir sıra qabaqlayıcı addımlar atmışdı. 1920-ci ilin mayından 1921-ci ilin yanvarına qədər Qarabağ və Zəngəzur fövqəladə komissarlığında rəhbər vəzifə tutan A.Karakozov Ermənistan Təsərrüfat Şurasındakı təxminən birillik fəaliyyətindən sonra yenidən Azərbaycana qayıtmışdı. 1921-ci ilin may ayının 3-də o, Azərbaycan İnqilab Komitəsinin dekreti ilə Qarabağ və Zəngəzura fövqəladə komissar təyin edildi.[41] Görünür, bu müddətdə Ermənistan Dağlıq Qarabağı özünün "ayrılmaz hissəsi" elan etdiyindən N.Nərimanovun təbirincə desək, Azərbaycan İnqilab Komitəsi "bir ayağı Ermənistanda, bir ayağı Azərbaycanda olan" erməni Karakozovu birinci şəxs kimi, "fövqəladə və qeyri məhdud səlahiyyətlə" Qarabağa göndərməkdən ehtiyatlandı. Ona görə də may ayının 15-də Azərbaycan İnqilab Komitəsi yeni dekretlə A.Karakozova may ayının 3-də verilmiş mandatı ləğv etdi və o, Qarabağ dairəsi üzrə fövqəladə komissarın müavini təyin edildi. Elə həmin dekretlə B.Bünyadov müvəqqəti olaraq, Qarabağ dairəsinin müvəqqəti fövqəladə komissarı təyin edildi.[42] Lakin sonralar S.Kirov Azərbaycan partiya təşkilatına rəhbərlik etməyə başlayandan sonra o, A.Karakozovun məsul şəxs kimi Qarabağa göndərilməsinə nail olmuşdu. AK(b)P MK-nın Siyasi və Təşkilat Bürosunun 5 fevral 1922-ci il tarixli iclasının qərarında göstərilirdi ki, "yoldaş Karakozov Qarabağda işləmək üçün göndərilsin. İş haqqında direktivi yoldaş Karakozov AKP MK-dan alsın". Lakin ən maraqlısı bu qərarın ikinci hissəsi idi. Orada göstərilirdi ki, "yoldaş Karakozov Azərbaycan İnqilab Komitəsinin, Ermənistan İnqilab

[40] Yenə orada, v.5(arxası)

[41] Azərbaycan İnqilab Komitəsinin 1921-ci il üçün xaric *(komitədən çıxan sənədlərin – C.H.)* dəftəri.// AR DA, f.410, s.2, i.14, v.4

[42] Yenə orada, V.7

Komitəsinin və AKP MK nümayəndəsi kimi *(Qarabağa – C.H.)* göndərilir".[43] Deməli, AKP MK öz qərarı ilə A.Karakozovu həm də Ermənistan İnqilab Komitəsinin nümayəndəsi kimi Qarabağa göndərirdi.

Qafqaz Bürosunun 3 iyun tarixli plenumunun iclasının protokolundan aydın olur ki, N.Nərimanov plenumun işində iştirak edib və iclasın birinci məsələsi kimi, plenum onun Azərbaycandakı əleyhdarlarına Sarkisa (təcili olaraq işdən azad edilməsi), Cəbiyev, Axundov, Ağamirov, Şatunovskaya və Lordkipanidzeyə (Bakı komitəsinə ziyan vermədən yerlərinin dəyişdirilməsinin Azərbaycan MK-ya təklif edilməsi) qarşı qərar qəbul edib.[44] Ola bilsin ki, Nərimanov 3 iyun iclasında tək qalacağını nəzərə alıb, Qafqaz Bürosunun qərarına münasibət bildirməyib və mübarizəni az sonra respublika orqanları vasitəsi ilə davam etdirməyə üstünlük verib. Digər tərəfdən Qafqaz Bürosunun "Zəngəzur məsələsi" haqqında gizli qərarının Y. Fiqatnerin imzası və Qafqaz Bürosunun möhürü ilə təsdiqlənmiş nüsxəsi büronun bütün üzvləri ilə yanaşı, Bakıya, Nərimanova da göndərilib.[45] Göründüyü kimi, Azərbaycan tərəfinin dərhal qeyd edilən qərara və xüsusilə, onun tərkibinə qeyri-qanuni şəkildə salınmış Qarabağla bağlı maddəyə etiraz etməməsi, az sonra ermənilərin Qarabağa iddialarının güclənməsi istiqamətindəki bir sıra əməli addımlarına rəvac verdi. Bundan əlavə, Qafqaz Bürosu plenumunun 4 iyun tarixli iclasının protokollarından aydın olur ki, Azərbaycan rəhbərliyindən həmin vaxt Azərbaycan MİK-nin sədri M.Hacıyev, Azərbaycan KP MK-nın katibləri Q.Kaminski və R.Axundov, habelə Bakı komitəsinin katibi Sarkis də Tiflisdə olub və ayın 4-də onlar plenumun işində iştirak ediblər.[46] Çünki iyun ayının 3-4-də keçirilən Qafqaz Bürosunun plenumunun gündəliyində Azərbaycanla bağlı çoxlu məsələlər var idi. Bu rəhbər işçilərin Tiflisdə olmasına baxmayaraq N.Nərimanov və Q.Kaminski istisna olmaqla, digərləri plenumun iyun ayının 3-də keçirilən axşam iclasında iştirak etməmişdilər. Halbuki, iclasın birinci məsələsi AKP MK-nın fövqəladə qurultayının keçirməsi ilə bağlı "Azərbaycan məsələsi" idi. Məsələn, Azərbaycan MİK-nin sədri M. Hacıyev iyunun 3-də keçirilən

[43] AK(b)P MK siyasi və təşkilat bürosunun iclasının protokolu. 05.02.1922.// ARPİİ SSA, f.1, s.74, i.123, v.26

[44] RKP MK Qafqaz Bürosu plenumunun axşam iclasının 6 saylı protokolu. 03.06.1921.// RDSSTA, f.64, s.1, i.1, v.76

[45] Bax: 6 saylı protokola əlavə. Tamamilə məxvi.03.06.1921.// AR DA, f.410, s.1, i.98, v.5

[46] Bax: RKP MK Qafqaz Bürosu plenumunun iclasının 7 saylı protokolu. 04.06.1921.// RDSSTA, f.64, s.1, i.1, v.80

səhər iclasında bəyanatla çıxış edib ona xüsusi qatar verilməməsindən narazılığını bildirmişdi.[47] Yaxud, plenumun iyunun 4-də keçirilən iclasında R.Axundov və Sarkis AKP MK-nın fövqəladə qurultayının çağırılması ilə bağlı geniş məruzə ilə çıxış etmişdilər.[48] N.Nərimanov və Q.Kaminski istisna olmaqla, bu rəhbər işçilər Qafqaz Bürosu plenumunun iyun ayının 3-də keçirilən axşam iclasında bilavasitə iştirak etməsələr də, həmin iclasda "Zəngəzur məsələsi"nin içərisində Dağlıq Qarabağ haqqında qəbul edilmiş qərardan məlumatlı olmadıqlarını söyləmək çətindir. Bu məsələ ilə bağlı bir amilə də diqqət yetirmək lazımdır. Belə ki, Ermənistanda və Gürcüstanda sovet hakimiyyətinin qələbəsini səbrsizliklə gözləyən Azərbaycan rəhbərliyi, xüsusilə, hələ Azərbaycanın sovetləşməsi ərəfəsində Moskvadakı danışıqlarında sovet qoşunlarının "Ermənistana hücumu haqqında"[49] təminat almış N.Nərimanov qonşu respublikalarda sosialist ideyasının oturuşması naminə böyük güzəştlərə hazır idi. Azərbaycan sovetlərinin 1921-ciilin may ayında keçirilən I qurultayında o deyirdi: "Erməni fəhləsi və yoxsul kəndlisi hiss etməlidir ki, bolşeviklərin vaxtında yaxşı yaşayırlar, nəinki daşnakların. Mən sizə, yoldaşlar, bunu bəyan edirəm və deyirəm ki, bütün bunlar bizim boynumuza düşür. Kiçik Azərbaycan həm Ermənistan, həm də Gürcüstan haqqında düşünməlidir, imkan daxilində bu iki respublikada həyatı təmin etməlidir".[50]

Qafqaz Bürosu plenumunun 1921-ci ilin iyun ayının əvvəllərində keçirilən iclaslarının daha müəmmalı bir məqamı vardır. Belə ki, iyun ayının 3-də keçirilən səhər iclasında plenum 12-ci məsələ kimi Ermənistan İnqilab Komitəsinin tərkibini təsdiq etdi. Qabaqcadan hazırlanıb iclasın təsdiqinə verilən tərkibdə Xarici işlər komissarı A.Mravyan İnqilab Komitəsinin üzvü olmalı idi. Lakin A.Mravyan Xarici işlər komissarı kimi saxlanılsa da, Ermənistan KP MK-nın qərarı ilə plenumda İnqilab Komitəsinə üzv təsdiq edilmədi.[51] Bu addımın elə həmin gün keçirilən ikinci iclasda Qarabağ haqqında qəbul edilmiş qərarla bilavasitə əlaqəsi var idi. Çünki Qafqaz Büro-

[47] Bax: RKP MK Qafqaz Bürosu plenumunun iclasının 5 saylı protokolu. 03.06.1921.// RDSSTA, f.64, s.1, i.1, v.71

[48] Bax: RKP MK Qafqaz Bürosu plenumunun iclasının 7 saylı protokolu. 04.06.1921.// RDSSTA, f.64, s.1, i.1, v.80

[49] N.Nərimanov. Azərbaycan və Ermənistan. 24.08.1920.// ARPİİ SSA, f.609, s.1, i.21, v.40

[50] К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. Документы и материалы. Баку, 1989, с.72

[51] RKP MK Qafqaz Bürosu plenumunun iclasının 5 saylı protokolu. 03.05.1921.// RDSSTA, f.85, s.18, i.58, v.6(arxası)

sunun iyun ayının 3-də Qarabağla bağlı qəbul etdiyi qərardan az sonra, iyun ayının 19-da Ermənistan İnqilab Komitəsi A.Mravyanı Dağlıq Qarabağa müvəkkil təyin edəcəkdi.

1921-ci ilin may-iyun aylarında Dağlıq Qarabağın Ermənistana verilməsi ilə bağlı Ermənistan rəhbərliyinin və RKP MK-nın Qafqaz Bürosunun belə tələsik və hüquqi baxımdan qanunsuz qərarları nə ilə bağlı idi? Bu tələsik addımlar ilk növbədə Zaqafqaziya respublikalarının sərhəd məsələlərini tənzimləyəcək, hər üç respublikanın nümayəndələrindən ibarət komissiyanın müzakirələrinin iyun ayının 15-də Tiflisdə başlanacağı ilə bağlı idi. Hələ, 1921-ci ilin may ayının 2-də keçirilən RKP MK-nın Qafqaz Bürosunun plenumunda Zaqafqaziya respublikalarının daxili sərhədlərini müəyyənləşdirmək üçün S.Kirov başda olmaqla, üç respublikanın nümayəndələrindən ibarət komissiya yaradılmışdı.[52] Ona görə də, Qafqaz Bürosu 3 iyun qərarı ilə, Ermənistan hökuməti isə 12 iyun dekreti ilə Dağlıq Qarabağı Ermənistanın tərkibinə daxil etməklə sərhəd məsələlərinin müzakirə ediləcəyi Tiflis görüşü ərəfəsində Azərbaycanı baş vermiş fakt qarşısında qoymaq istəyirdilər.

Azərbaycan XKS 1921-ci ilin may ayının 23-də keçirilən iclasında sərhəd məsələlərinin həlli ilə bağlı Tiflisə yollanacaq nümayəndəliyə xarici işlər komissarı M.D.Hüseynov və Azərbaycan MİK sədrinin müavini S.Ağamalıoğlunu daxil etdi.[53] Lakin az sonra bu məsələnin əhəmiyyətini nəzərə alaraq nümayəndə heyətinin tərkib genişləndirildi. 1921-ci ilin iyun ayının 13-də Azərbaycan XKS Zaqafqaziya respublikalarının sərhədlərinin müəyyən edilməsi ilə bağlı Zaqafqaziya respublikalarının nümayəndələrindən ibarət komissiyanın Tiflidə keçiriləcək iclasında iştirak etmək üçün Azərbaycan nümayəndə heyətinin genişləndirilmiş tərkibini təsdiq etdi. Xarici işlər komissarı M.D.Hüseynov, Azərbaycan MİK-nin sədri M.Hacıyev, onun müavini S.Ağamalıoğlu və doktor Vəkilovdan ibarət nümayəndə heyətinə vəkalət verildi ki, Azərbaycanın SSR-in Sovet Ermənistanı və Sovet Gürcüstanı ilə sərhədlərinin müəyyən edilməsi istiqamətində iyun ayının 15-də Tiflisdə işə başlayacaq konfransda Azərbaycanı təmsil etsinlər.[54] Azərbaycan XKS-nin iclasında nümayəndə

[52] RKP MK Qafqaz Bürosu plenumunun iclasının 2 saylı protokolu. 02.05.1921.// RDSSTA, f.64, s.1, i.1, v.57

[53] Azərbaycan XKS-nin iclasının protokolu. 23.05.1921.// AR DA, f.411, s.1, i.1, v.1

[54] Zaqafqaziya Respublikalarının sərhədlərinin müəyyən edilməsi ilə bağlı Zaqafqaziya Respublikalarının nümayəndələrindən ibarət komissiyanın Tiflisdə keçirilən iclasına Azərbaycan nümayəndəliyinin ezam olunması haqqında XKS-nin qərarı.13.06.1921.//

heyətinə təlimat verildi ki, respublikanın sərhədlərinin qorunub saxlanması istiqamətində aktiv fəaliyyət göstərsinlər. İyunun 14-də N.Nərimanov tərəfindən M.D.Hüseynova göndərilən telefonoqramda deyilrdi: "XKS-nin qərarı ilə Sizə təklif olunur ki, iyunun 15-də sərhəd məsələlərinə baxılacaq komissiyasının iclasında iştirak etmək üçün elə bu gün Tiflisə yola düşəsiniz. M.Hacıyev, S.Ağamalıoğlu və doktor Vəkilov Sizinlə birlikdə gedəcəklər".[55]

Azərbaycan Xalq Komissarları Sovetinin iyun ayının 26-da keçirilən iclası Ə.Qarayevin Dağlıq Qarabağ və Naxçıvan diyarına səfəri haqqında məruzəsini müzakirə etdi. Müzakirə əsasında qəbul olunmuş qərarda Ermənistanın Dağlıq Qarabağa yönəlmiş iddialarını özündə əks etdirən materialları öyrənmək və bu barədə XKS üçün geniş məruzə hazırlamaq məqsədilə üç nəfərdən (Şahtaxtinski, Vəzirov və Əliyev) ibarət bir qrup yaradılması məqsədəuyğun sayıldı. Eyni zamanda, qərara alındı ki, Orconikidze, Ermənistan İnqilab Komitəsinin sədri Myasnikov, Azərbaycan Hərbidəniz komissarlı Qarayev və Sovet Ermənistanının Qarabağa müvəkkil təyin etdiyi Mravyana teleqram göndərilməklə, Azərbaycan XKS tərəfindən bu məsələ ətraflı şəkildə araşdırılana qədər Ermənistan hökuməti tərəfindən ona *(Mravyanın – C.H.)* verilmiş vəkalət ləğv edilsin.[56] Bu qərara uyğun olaraq, iyunun 27-də Nərimanov Orconikidze və Myasnikova teleqram göndərərək bildirdi ki, Dağlıq Qarabağ haqqında məsələnin yalnız Ermənistan İnqilab Komitəsi tərəfindən həll edildiyini, Ermənistan XKS-ində onun hələ müzakirə edilmədiyini və baxılmadığını nəzərə alaraq, Azərbaycan XKS yekdilliklə Mravyan yoldaşın Ermənistanın Dağlıq Qarabağda fövqəladə müvəkkili kimi peyda olmasını misli görünməmiş siyasi və taktiki səhv hesab edir, onun dərhal geri çağırılmasını xahiş edir.[57] Ə.Qarayevin Azərbaycan XKS-nin iyunun 26-da keçirilən iclasındakı məruzəsində Dağlıq Qarabağla bağlı nə deyilmişdisə, 1921-ci il ilin iyul ayında S.Kirov Azərbaycan KP MK birinci katibi seçiləndən sonra XKS-nə məktub yazaraq bu məruzənin mətni tələb edirdi və bildirirdi ki, məruzə iyulun 29-u gündüz saat 3:00-dən

ARPİİ SSA, f.1, s.2, i.36, v.9

[55] Нариман Нариманов. Избранные произведения. Баку, 1989, с.516

[56] Azərbaycan XKS-nin iclasının protokolu. 26.06.1921.// AR DA, f.411, s.1, i.12, v.1

[57] N.Nərimanovun Q.Orconikidze və A.Myasnikova (surəti A.Mravyan və Ə.Qarayevə) teleqramı. 28.06.1921.// RDSSTA, f.85, s.13, i.98, v.1; Нариман Нариманов. Избранные произведения. Баку, 1989, с.523-524

gec olmayaraq, MK-ya göndərilsin.[58] Lakin XKS-nin işlər idarəsinin müdiri Ə.Şirvani MK-ya cavab yazdı ki, iyun ayının 26-da XKS-nin iclasında Ə.Qarayevin məruzəsi şifahi şəkildə söylənilib və məruzənin stenoqramı yazılmadığından, onun mətnini bərpa etmək mümkün deyildir.[59]

İyun ayının 27-də keçirilən AK(b)P MK Siyasi və Təşkilat Bürosunun iclasında "Azərbaycanla Ermənistan arasında sərhədlər haqqında" məsələ müzakirə edilən zaman Siyasi Büro və Təşkilat Bürosu qərara aldı ki, Dağlıq Qarabağın Azərbaycana şəksiz iqtisadi meylini nəzərə alaraq, bu məsələnin Bekzadyan tərəfindən qoyuluşunu qəbuledilməz sayır. Qərarda göstərilirdi ki, erməni və türk əhalisi yaşayan yerlərin müvafiq qaydada Ermənistana və Azərbaycana ayrılması təklifi inzibati və iqtisadi məqsədəuyğunluq baxımdan qəbul edilə bilməz; məsələnin yeganə həlli Nərimanovun bəyanatında deyildiyi kimi, kənddə erməni və müsəlman əhalisinin sovet quruculuğuna geniş cəlb edilmələri ola bilər; bu məsələnin sonrakı gedişi və müzakirəsi Tiflisdən məlumat alana qədər açıq saxlanılsın. N.Nərimanova tapşırılsın ki, siyasi və təşkilat bürosunun fikri Tiflisə çatdırılsın.[60] Hələ iclas başa çatmamış birbaşa xəttlə söhbətində Ə.H.Şirvani qərarın mətnini ilə Tiflisdə olan M.D.Hüseynovu tanış etdi. O deyirdi: "Xalq Komissarlar Soveti də, həmçinin, bu qərara qoşulur. Nərimanov yoldaş xahiş etdi, sizə bildirim ki, məsələ yalnız bu şəkildə həll olunmalıdır, əks təqdirdə, Xalq Komissarları Soveti məsuliyyəti öz üzərindən atır, əgər Sovet Ermənistanı bu aktla Ermənistanın bitərəf kütlələrinin və daşnakların məlum təəssüratını göstərməyi arzulayırsa, onda unutmaq lazım deyildir ki, həmin şəraiti, daşnaklar kimi antisovet qrupları biz də Azərbaycanda bərpa edə bilərik". Bu zaman telefona yaxınlaşan N.Nərimanov yuxarıda qəbul olunmuş qərarla bağlı M.D.Hüseynova dedi: "Siz onlara deyin ki, bu Siyasi Büronun və Təşkilat Bürosunun rəyidir. Əgər onlar mənim bəyanatıma istinad edirlərsə, orada sözbəsöz belə deyilmişdir: Dağlıq Qarabağa öz müqəddəratını sərbəst təyin etmək hüququ verilir". M.D.Hüseynov Tiflisdə cərəyan edən proseslərin təfsilatı barədə Nərimanova Bakıya gələndən sonra məlumat verəcəyini bildirdi, lakin əlavə etdi ki, "bizim qərar şübhəsiz ki, çox soyuq qarşılanacaq". M.D.Hüseynov eyni zamanda, bir gün əvvəl Q.Orconikidze ilə olan söhbətin məzmununu

[58] Azərbaycan K(b)P MK-dan Azərbaycan SSR XKS fraksiyasına. 28.07.1921.// AR DA, f.411, s.1, i.12, v.3

[59] Ə.Şirvanidən Azərbaycan KP MK-ya. 04.08.1921.// AR DA, f.411, s.1, i.12, v.4

[60] AK(b)P MK siyasi və təşkilat bürosunun iclasının 20 saylı protokolu. 27.06.1921.// ARPİİ SSA, f.1, s.74, i.1231, v.64

Nərimanova xatırladaraq dedi: "Dünən Serqo yoldaşla söhbət etmişəm, o, birbaşa dedi ki, Qarabağ məsələsi bütün Sovet respublikalarının şərəf işidir və onu elə həll etməliyik ki, bu axırıncı dəfə olsun, yəni, dünən mən sizə dediyim şəkildə həll edilməlidir". Bundan sonra Nərimanov məlumat verdi ki, "bu gün yoldaş Mravyanı Qarabağdan geri çağırmaq barədə sürəti Serqo, Myasnikov və Qarayevə ünvanlanmaqla, sizin adınıza teleqrama göndərilib". Cavabında Hüseynov vurğuladı ki, çox ağır vəziyyət yaranıb və bundan çıxış yolu tapmaq lazımdır. O dedi: "Mən belə hesab edirəm məsələni köklü şəkildə müzakirə etmək lazımdır. Ona görə ki, bir tərəfdən Ermənistan XKS bizim xəbərimiz olmadan bəyanat verir və öz fövqəladə komissarını Qarabağa göndərir. Hərçənd, erməni yoldaşlar iddia edirlər ki, bütün bunlar bizim razılığımız ilə edilir və biz bunlardan xəbərdarıq. Digər tərəfdən, biz onlara teleqram göndərib, onların qərarını ləğv edirik. Mən bilmirəm, nə edim. Mən fikirləşirəm ki, bu və ya digər dərəcədə məsələni bir daha və bir daha müzakirə etmək lazım gələcək, mən digər çıxış yolu bilmirəm. Əlbəttə, mən indi gedib, yoldaş Serqo ilə məsləhətləşəcəyəm və yola düşmək ərəfəsində bir daha Sizə məlumat verəcəyəm". N.Nərimanov M.D.Hüseynovdan xahiş etdi Serqoya desin ki, "o material ki, indi bizdə var, əgər Serqo o materialla tanış olsa, o, özü məsələnin belə qoyuluşunun əleyhinə olacaq. Bütün bu materialı siz Tiflisə aparın. Onda aydın olacaq ki, bizim erməni yoldaşlar, yoxsul erməni və müsəlman əhalisinin rifahı haqqında, inqilabın möhkəmlənməsi haqqında deyil, müstəsna olaraq, ərazi barədə fikirləşirlər".[61] Kim idi Azərbaycan rəhbərliyinin adından ermənilərə bu razılıqları verən? M.D.Hüseynov "ermənilər bütün işləri bizim razılığımızla gördüklərini iddia edirlər" deyəndə yəqin ki, burada Qafqaz Bürosunun 3 iyun iclasında məlum qərar qəbul edilərkən N.Nərimanovun susmasını nəzərdə tuturdu. Şübhəsiz ki, Nərimanovun bu hərəkəti Qarabağ məsələsinin müzakirəsində müvəqqəti olsa da, öz mənfi rolunu oynadı, lakin hadisələrin sonrakı gedişi göstərdi ki, Azərbaycan tərəfindən ermənilərə bu "anonim" razılığı verən Qafqazda real hakimiyyəti əllərində cəmləşdirmiş Q.Orconikidze ilə S.Kirov idi. Onlar Qarabağın Ermənistana verilməsinin müxtəlif yollarını axtarırdılar və həmin günlərdə A.Bekzadyan tərəfindən səsləndirilmiş Qarabağın milli-etnik əlamətlərə görə bölüşdürülməsi ideyasına iyunun 26-da Nərimanova göndərdikləri teleqramda belə ifadə edirdilər:

[61] Birbaşa xətlə Şirvaninin və Nərimanovun Hüseynovla söhbəti. 27.06.1921.// RDSSTA, f.64. s.1. i.215, v14

"Əgər bizim fikrimizlə maraqlanırsınızsa, bizim fikrimiz belədir: bütün gərginliklərin qəti şəkildə həll olunması və əsl dostluq münasibətlərinin bərqərar edilməsi mənafeyinə uyğun olaraq, Dağlıq Qarabağ haqqında məsələni həll edərkən bu prinsipləri rəhbər tutmaq zəruridir: heç bir erməni kəndi Azərbaycana birləşdirilməməlidir, eynilə buna uyğun olaraq, heç bir müsəlman kəndini də Ermənistana birləşdirmək olmaz".[62]

İyun ayının 27-də M.D.Hüseynov N.Nərimanovdan aldığı təlimatı dərhal Qafqaz Bürosunun müzakirəsinə verdi və onun məlumatından sonra qərara alındı ki, "RKP MK-nın Qafqaz Bürosunun fövqəladə plenumu çağırılsın, yoldaş Nərimanov və yoldaş Myasnikova belə bir teleqram göndərilsin: RKP MK-nın Qafqaz Bürosunun Rəyasət Heyəti təklif edir ki, bu teleqramı alan kimi, Qafqaz Bürosunun fövqəladə plenumuna gələsiniz. Gündəlikdə Respublikaların sərhədlərinin müəyyənləşdirilməsi haqqında məsələdir. Qafqaz Bürosunun 6 üzvü Tiflisdədir. Siz gəlib çıxmayacağınız halda, Qafqaz Bürosunun Tiflisdə olan 6 üzvünün qəbul etdiyi qərar məcburi *(tərəflər üçün – C.H.)* olacaqdır. Ona görə, təcili olaraq gəlməyinizi təkid edirik".[63]

İyun ayının 28-də N.Nərimanovun sədrliyi ilə Azərbaycan XKS-in yeni iclası çağırıldı və A.Myasnikovun Dağlıq Qarabağı "Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi" kimi elan edən bəyanatı rədd edildi. Eyni zamanda, həmin iclasda Azərbaycan XKS-in rəyi olmadan Dağlıq Qarabağa Ermənistanın fövqəladə nümayəndəsi təyin edilmiş A.Mravyanın geri çağırılması məsələsi qoyuldu. İclasın qərarında deyilirdi: məsələni Qafqaz Bürosunda müzakirə etmək üçün yoldaş Nərimanovun Tiflisə səfərini nəzərə alaraq, AK(b)P MK-nın Siyasi və Təşkilat bürosunun 27 iyun 1921-ci il tarixli iclasının qərarı əsas kimi qəbul edilsin.[64] Ermənistan tərəfindən Qarabağın dağlıq hissəsinə iddialar irəli sürüləndə Şuşa qəzasının icraiyyə komitəsinin sədri B.Bünyadov N.Nərimanova və daxili işlər komissarı H. Sultanova göndərdiyi "Şuşa qəzasında vəziyyət haqqında" məruzəsində yazırdı ki, Dağlıq Qarabağın erməni əhalisinin hər hansı formada Azərbaycandan ayrılmaq fikri yoxdur. Onlar gözəl başa düşürlər ki, Qarabağı aranından ayrılsalar Ermənistandan mütəmadi təlimatdan başqa bir şey ala bilməyəcəklər və aclıqdan məhv olacaqlar. Eyni zamanda, onlar anlayırlar ki, Azərbaycanın

[62] Q.Orconikidze və S.Kirovun N.Nərimanova teleqramı.26.06.1921.// RDSSTA, f.85, s.18, i.229, v.1-2

[63] RKP MK-nın Qafqaz Bürosunun Rəyasət Heyətinin iclasının 5 saylı protokolu. 27.06.1921.// RDSSTA, f.64, s.1, i.2, v.73

[64] Azərbaycan XKS-nin iclasının protokolu. 28.06.1921.// AR DA, f.379, s.3, i.9, v.10

ərazisində həmişə hər şeyi tələb edən güclü səsləri olacaq və ümidvardırlar ki, onların tələbləri birinci növbədə təmin ediləcəkdir, halbuki, onlar bunu Ermənistan SSR-dən gözləmirlər. Özlərini, guya, Azərbaycan SSR-in "ögey övladları hesab edən" erməni əhalisinin bəyanatına gəldikdə isə, Bünyatov belə halların dövlət siyasəti ilə deyil, ayrı-ayrı işçilərin yersiz hərəkətləri ilə bağlı olduğunu bildirirdi.[65] Ona görə N.Nərimanov bu fikirdə idi ki, "dünyada heç bir güvvə Dağlıq Qarabağ və Zəngəzur əhalisinə Azərbaycanın tərkibində qalmaq üçün öz rəyini ifadə etmək məsələsində bizə mane ola bilməz".[66]

§2. RK(b)P MK Qafqaz Bürosunun Qarabağın dağlıq hissəsini Ermənistana vermək cəhdləri və bunun qarşısının alınması

1921-ci il iyunun 27-də keçirilən Rusiya Kommunist Partiyası Qafqaz Bürosunun məlum toplantısında tarixi-etnoqrafik dəlilləri kənara qoyaraq, Qarabağın, məhz, iqtisadi baxımdan Azərbaycana meylli olması əsas kimi qəbul edildi. Lakin iyul ayının 4-də İ.Stalinin iştirakı ilə keçirilən Qafqaz Bürosunun plenumunda regionda ən etibarlı rus nümayəndəsi sayılan S.Kirov və Cənubi Qafqaz Sovet respublikalarına bilavasitə nəzarət edən Q.Orconikidzenin lehinə səs verməsi ilə belə bir qərar qəbul edildi: "Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə daxil edilsin, rəy sorğusu yalnız Dağlıq Qarabağda keçirilsin".[67] Plenumun işində RKP MK-nın üzvü Stalin, Qafqaz Bürosunun üzvləri Orconikidze, Maxaradze, Nərimanov, Myasnikov, Kirov, Nazaretyan, Oraxelaşvili, Fiqatner iştirak edirdilər. İclasda gündəliyə daxil edilən məsələ ilə bağlı səsvermə dörd təklif ətrafında keçirilmişdi: a) Qarabağı Azərbaycanın hüdudlarında saxlamaq (lehinə Nərimanov, Maxaradze, Nazaretyan; əleyhinə Orconikidze, Myasnikov, Kirov və Fiqatner); b) erməni və müsəlman əhalisinin iştirakı ilə bütün Qarabağda rəy sorğusu keçirmək (lehinə Nərimanov, Maxaradze); v) Qarabağın dağlıq hissəsini Ermənistanın tərkibinə daxil etmək (lehinə Orconikidze, Myasnikov, Fiqatner, Kirov); q) yalnız Dağlıq Qarabağda, yəni, ermənilər arasında rəy sorğusu

[65] Şuşa qəzası icraiyyə komitəsi sədri Bünyatovun N.Nərimanov və H.Sultanova məruzəsi.// ARPİİ SSA, f.1, s.169, i.249/II, v.31-32

[66] RDSSTA, f.64, s.2, i.5, v.80

[67] RKP MK Qafqaz Bürosu plenumunun axşam iclasının 11 saylı protokolu. 04.07.1921.// RDSSTA, f.64, s.1, i.1, v.114

keçirmək (lehinə Orconikidze, Myasnikov, Fiqatner, Kirov, Nazaretyan).[68] Protokolda belə bir qeyd var ki, Qarabağ məsələsi üzrə səsvermədə Oraxelaşvili iştirak etməmişdir. Məhz, bu təkliflər səsə qoyulanda, plenumdan az sonra Azərbaycan partiya təşkilatına rəhbərlik edəcək S.Kirov və dəfələrlə Leninə və Çiçerinə teleqramlarında Qarabağın dağı və aranı ilə birlikdə Azərbaycana məxsus olduğunu təkidlə yazan Q.Orconikidze sonuncu iki məsələnin, yəni, Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsinin lehinə səs verdilər. Bu da öz növbəsində Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş qərarın qəbul olunmasına səbəb oldu. Burada maraqlı bir sual meydana çıxır: bir neçə ay əvvəl Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanmasında təkid edən, "Azərbaycanı Qarabağsız təsəvvür etməyən" Orconikidze və Kirovun 1921-ci ilin iyun və iyul aylarından başlayaraq, Qarabağa münasibətdəki fikirlərində belə sərt dönüş nə ilə bağlı idi? Cənubi Qafqazda Moskvanın etibarlı nümayəndələri olaraq, onların ikisinin də Qafqaz Bürosunun 4 iyul iclasında Azərbaycanın əleyhinə eyni mövqedən çıxış etməsi ancaq Mərkəzdən verilən gizli təlimatla bağlı ola bilərdi. Bunu Rusiya Xarici İşlər Komissarlığının IX partiya qurultayı üçün hazırladığı hesabat aydın şəkildə ortaya qoyur. RSFSR Xalq Xarici İşlər Komissarlığının RK(b)P-nin IX qurultayına 1920-1921-ci illər üçün hazırlanmış hesabatında Dağlıq Qarabağla bağlı maraqlı bir məqam vardır. Orada göstərilir ki, "iyulda Dağlıq Qarabağın Sovet Ermənistanının tərkibinə daxil edilməsi haqqında Azərbaycanla müqavilə bağlanmışdır".[69] Bu hesabat 1921-ci ilin dekabr ayının sonlarında hazırlanmışdı və məlum olduğu kimi, həmin ilin iyulunda belə bir müqavilə imzalanmamışdı və Dağlıq Qarabağ da Sovet Ermənistanının tərkibinə verilməmişdi. Sadəcə olaraq,

[68] Yenə orada, v.114

[69] Документы внешней политики СССР. T.IV, M., 1960, c.711; Dağlıq Qarabağın Ermənistana verilməsi ilə bağlı 1960-cı ildə Sovet İttifaqının ən akademik nəşrlərindən birində belə səhvin getməsi nə ilə bağlıdır? Məlum olduğu kimi, "Документы внешней политики СССР" sənədlər seriyasını nəşr edərkən Sovet rəhbərliyi ölkədə olan milli münasibətlərə və sərhəd məsələlərinə çox ehtiyatla yanaşırdı. Sənədlər böyük həssaslıqla seçilib bu nəşrə daxil edilirdi. Görünür, Dağlıq Qarabağla bağlı bu yanlışlığın çox mötəbər bir redaksiya şurası olan nəşrdə yer alması təsadüfü olmamışdır. Məsələ burasındadır ki, istər xaricdə olan erməni təşkilatları və istərsə də Sovet İttifaqındakı bir sıra erməni birlikləri 1960-cı ildə Ermənistanda Sovet hakimiyyətinin qurulmasının 40 illiyi münasibəti ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana verilməsi məsələsini qaldırmışdılar. Dağlıq Qarabağın, guya, 1921-ci ilin iyul ayında Ermənistana verilməsi barədə səhv məlumatın qeyd edilən nəşrə daxil edilməsi bilavasitə bununla bağlı idi və bir növ məsələni təzədən yada salmaq xarakteri daşıyırdı.

Rusiya Xarici İşlər Komissarlığı 1921-ci ilin iyul ayında Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında Qafqaz Bürosuna və Mərkəzin Cənubi Qafqazdakı etibarlı siyasi fiqurlarına təlimat verdiyindən, Komissarlığın daxili sənədlərində bu öz əksini tapmışdı və hesabatı hazırlayan XXİK-nın əməkdaşı isə vəziyyətdən xəbərsiz olduğundan, həmin sənədi olduğu kimi, Komissarlığın ikiillik hesabatına daxil etmişdi.

Əslində, 1921-ci ilin iyun-iyul aylarında Dağlıq Qarabağ məsələsinin əvvəlcə gizli, sonra isə açıq şəkildə Qafqaz Bürosunun gərgin müzakirə obyektinə çevrilməsi, Dağlıq Qarabağı zorla Ermənistana vermək cəhdləri Sovet Rusiyası ilə Türkiyə arasında 1921-ci ilin mart ayının 16-da imzalanmış Moskva müqaviləsi və həmin müqaviləyə görə, Naxçıvanın Azərbaycanın tərkibində saxlanması ilə bağlı idi. Lakin bu mümkün olmadıqda, bir gün sonra, iyul ayının 5-də muxtariyyət oyunu ortalığa atıldı ki, bunu da Orconikidze son dövrlərdə xarakterində müşahidə edilən kobudluqla qəbul etdirə bildi. Ümumiyyətlə, 1921-ci ilin ortalarından başlayaraq, Q.Orconikidze özünü Qafqazın əsl sahibi kimi aparırdı. Onda özündən müştəbehlik meyli çox güclənmişdi. Cənubi Qafqaz respublikalarının yüksək partiya və sovet idarələrində səngimək bilməyən intriqalar bilavasitə onun xarakterində baş qaldırmış ədabazlıq meylləri ilə bağlı idi. N.Nərimanov sonralar yazırdı: "Genuyaya getməmişdən qabaq, bir gün yoldaş Stalin mənə dedi: Serqo korlanıb". "Yox o, korlanmayıb, onun dövlətçilik ağlını həddən artıq şişirdərək onu korlayıblar", – deyə Nərimanov cavab vermişdi.[70] Ümumiyyətlə, N.Nərimanov belə hesab edirdi: "Nə qədər ki, Serqo və Kirov Qafqazdadır, hər hansı bir işi təsəvvürə gətirmək çətindir". [71]

Qafqaz Bürosunun 4 iyul tarixli qərarı qəbul edildiyi tarixdən onun mətni və siyasi məzmunu müxtəlif yozumlara və hətta, bəzi saxtalaşdırmalara məruz qalmışdır. Akademik T.Köçərli bu qərarı şərh edərkən haqlı olaraq yazırdı ki, "erməni müəllifləri bu qərar üzərində "kiçicik" əməliyyat aparıblar: "daxil edilsin" ifadəsini "saxlanılsın" ifadəsi ilə əvəz ediblər".[72] N.Nərimanovun məsələyə dair son qərarın RK(b)P MK tərəfindən verilməsi haqqında bəyanatla çıxış etməsi iclas iştirakçılarını fakt qarşısında qoydu. O dedi: "Qarabağ məsələsinin Azərbaycan üçün əhəmiyyətini nəzərə

[70] N.Nərimanov. "Ucqarlarda inqilabımızın tarixinə dair" İ Stalinə məktub, surəti L.D.Trotskiyə və K.B.Radekə. 1923.// RDSSTA, f.85, s.2c, i.3, v.36

[71] B.Şahtaxtinskinin RKP MK-ya məktubu.1923.// RDSSTA, f.85, s.2c, i.3, v.52

[72] T.Köçərli. Qarabağ: yalan və həqiqət, s.172

alaraq, onu RKP MK-nın qəti həllinə verməyi zəruri sayıram".[73] Yalnız N.Nərimanovun qəti etirazından sonra iyulun 4-də keçirilmiş iclas belə qərara gəldi ki, "Qarabağ haqqında məsələ ciddi fikir ayrılığı doğurduğuna görə, RKP MK-nın Qafqaz Bürosu həmin məsələni RKP MK-nın qəti həllinə verməyi lazım bilir".[74] Göründüyü kimi, eyni iclasda 5-ci məsələ kimi, "Qarabağ məsələsi", 6-cı məsələ kimi, Nərimanovun bəyanatı müzakirə edildi və Nərimanovun bəyanatı ilə bağlı qəbul edilən qərar 5-ci məsələ üzrə keçirilmiş səsverməninin nəticələrini ləğv etmiş oldu. Hər halda, Nərimanovun bəyanatı ilə bağlı qərar ona görə qəbul edildi ki, plenum iştirakçılarının çoxluğu *ona səs verdi. Lakin 4 iyul qərarı RK(b)P MK-nın müzakirəsinə* verilmədi. İlk növbədə ona görə ki, Q.Orconikidze bir gün sonra özünün səhv mövqeyindən imtina etdi və o, 4 iyul iclasında Qarabağın Azərbaycanın tərkibində saxlanmasına səs vermiş A.Nazaretyanla birlikdə "Qarabağ haqqında qərara yenidən baxması haqqında məsələ qaldırdı."[75] Məhz, onların təklifi ilə Qafqaz Bürosu plenumunun iyul ayının 5-də keçirilən iclasının gündəliyində ikinci məsələ kimi müzakirə edilən "Qarabağ məsələsi" haqqında belə bir qərar qəbul edildi: "a) müsəlmanlarla ermənilər arasında milli sülhün zəruriliyini, yuxarı və aşağı Qarabağın Azərbaycanla iqtisadi bağlılığını, yuxarı Qarabağın Azərbaycanla daimi əlaqələrini nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlanılsın, inzibati mərkəzi muxtar vilayətin tərkibindəki Şuşa şəhəri olmaqla, ona geniş vilayət muxtariyyəti verilsin; b) Azərbaycan MK-ya tapşırılsın ki, muxtar vilayətin sərhədlərini müəyyən edib, təsdiq üçün RKP MK-nın Qafqaz Bürosuna təqdim etsin; v) Qafqaz Bürosu MK-nın Rəyasət Heyətinə tapşırılsın ki, Dağlıq Qarabağın Fövqəladə Komissarının namizədliyi haqqında Ermənistan MK-sı və Azərbaycan MK-sı ilə danışsın; q) Dağlıq Qarabağ vilayətinin hüdudları, vilayət statusunun dərəcəsi Azərbaycan MK-sı tərəfindən müəyyən edilsin və Qafqaz Bürosu MK-nın təsdiqinə verilsin".[76]

Erməni tərəfi tez-tez bu tarixi faktı Dağlıq Qarabağın Ermənistana verilməsi haqda qəbul olunmuş ilkin "ədalətli qərarın" ləğv edilməsini

[73] RKP MK Qafqaz Bürosu plenumunun axşam iclasının 11 saylı protokolu. 04.07.1921.// RDSSTA, f.64, s.1, i.1, v.114

[74] Yenə orada, v.118

[75] RKP MK Qafqaz Bürosunun plenumunun iclasının 12 saylı protokolu. 05.07.1921.// RDSSTA, f.64, s.1, i.1, v.122

[76] RKP MK Qafqaz Bürosunun plenumunun iclasının 12 saylı protokolu. 05.07.1921.// RDSSTA, f.64, s.1, i.1, v.122

gözlənilmədən Tiflisə gələn və azərbaycanlılara lütfkarlıq göstərən Stalinin özünəməxsus xüsusiyyətləri ilə izah etməyə çalışırlar. Niyə erməni tarixçiləri Qafqaz Bürosunun məlum sənədlərini saxtalaşdıraraq, Dağlıq Qarabağın əvvəllər olduğu kimi, 5 iyul qərarı ilə Azərbaycanın tərkibinə onların təbirincə "verilməsini", əslində isə "saxlanılmasını" Stalinlə əlaqələndirməyə üstünlük verirlər? Bu ilk növbədə SSRİ-nin dağılması prosesində Stalinin cinayətlərinin açılması və onların özlərini Stalin rejiminin qurbanları kimi qələmə verələri ilə bağlı idi. Bu siyasi müstəvidə onlar nəinki, dağılan SSRİ-də, eləcə də bu dağılmada maraqlı olan demokratik dünyada haqlılıq görüntüsü yaratmaq istəyirdilər. Dağlıq Qarabağın guya "Stalinin iradəsi" ilə Azərbaycanın tərkibinə "verildiyini" iddia edən erməni müəllifləri və siyasiləri Sovet cəmiyyətində baş vermiş "bütün müsibətləri Stalinin üstünə yıxmaq" cəhdləri fonunda ümumdünya rəğbətinə ümid bəsləyirdilər.[77] Məsələn, Moskva Dövlət Universitetinin fəlsəfə doktoru olan Q.Yepiskoposyan məsələni elə təqdim edir ki, guya, Dağlıq Qarabağ həmişə Ermənistanın tərkibində olub və yalnız, Stalinin təzyiqi ilə 1921-ci ilin iyul ayının 5-də Azərbaycana verilib.[78] Professor A.A.Karsetsinin şəxsi hesabına çap etdiyi kitabçasında bu mövzu ilə bağlı Qafqaz Bürosunun protokollarını araşdırmadan iddia edir ki, "bu zaman Nalçikdə dincələn Stalin gəldi və Nərimanovun tələbini müdafiə etdi... onun rəyi isə həlledici rol oynadı. Dağlıq Qarabağ Azərbaycana verildi".[79] 1989-cu ildə Ermənistan SSR EA tərəfindən hazırlanmış "Dağlıq Qarabağ: tarixi arayış" kitabçasında da əsas "günahkar" kimi Stalin göstərilir. Orada qeyd edilir: "5 iyul qərarı Stalinin təzyiqi ilə qəbul edildi".[80] Lakin bu nəşrin hazırlanmasında çox tanınmış erməni tarixçisi iştirak etmişdi və həmin tarixçilər yaxşı bilirdilər ki, məsələ heç də onların iddia etdikləri kimi olmamışdır. Hər şey Qafqaz Bürosu plenumunun iyulun 4-də keçirilən iclasının 11 saylı və iyulun 5-də keçirilən iclasının 12 saylı protokollarında çox aydın şəkildə əks olunmuşdur. Bu protokollardan çox açıq şəkildə görünür ki, əvvəla, Stalin plenumun hər iki iclasında iştirak edib, ikincisi, nə iyulun 4-də, nə də iyulun 5-də müzakirə edilən Qarabağ məsələsi ilə bağlı öz fikrini bildirməmişdir. Bunlardan əlavə, RK(b)P MK Qafqaz Bürosunun iyulun 2 və 3-də keçirilmiş plenumunun

[77] İqrar Əliyev. Dağlıq Qarabağ: Tarix. Faktlar. Hadisələr. Bakı, 1989, s.93

[78] Г.Епископосян. Сталин и армянский вопрос.// Коммунист, 1989, 22 января

[79] А.Карсеци. Конфликты между народами и пути их преодоления: (К проблеме Нагорного Карабаха). Ереван, Айастан, 1990, с.31

[80] Нагорный Карабах: историческая справка. Ереван, 1988, с.33

8 saylı protokoluna bir qədər diqqətlə nəzər yetirilərsə, plenum iştirakçılarının sırasında İ.Stalinin adının birinci qeyd olunduğu görünər.[81] Məhz, plenumun həmin iclasının qətnaməsinə əlavədə göstərilir ki, Azərbaycanla müqayisədə Ermənistan və Gürcüstanda millətçi "kommunist" qrupları həm say, həm də keyfiyyət baxımından daha güclüdürlər.[82] Əslində, 1921-ci ilin iyun ayının 3-də Zəngəzur məsələsinin, iyul ayının 4-5-də isə Dağlıq Qarabağ məsələsinin Qafqaz Bürosunun plenumlarının müzakirəsinə çıxarılması Naxçıvanla bağlı məsələnin 1921-ci ilin mart ayında Sovet Rusiyası ilə Türkiyə arasında imzalanmış Moskva müqaviləsində yer alması və bu fonda Ermənistanda güclənən kommunist millətçiliyi dalğasının, habelə, Mərkəzin bu dalğanı ram etmək cəhdlərinin bilavasitə nəticəsi idi. Bunun üçün, bilavasitə, Moskva danışıqlarında iştirak etmiş Ermənistan nümayəndə heyətinin başçısı, Xarici işlər komissarı A.Bekzadyanın 15 aprel 1921-ci ildə G.Çiçerinə ünvanladığı geniş etiraz məktubunun məzmununa nəzər yetirmək kifayətdir. A.Bekzadyan Sovet Rusiyasını Türkiyə ilə danışıqlarda və imzalanmış müqavilədə ermənilərin mənafeyini müdafiə etməməkdə ittiham edirdi. O yazırdı: "Erməni nümayəndəliyi bunu qeyd etməyi vacib hesab edir ki, türk nümayəndələri konfransda *(Moskva konfransı nəzərdə tutulur – C.H.)* hər zaman Zaqafqaziyanın müsəlman əhalisinin, o cümlədən Sovet Azərbaycanının mənafeyinin müdafiəçisi, himayəçisi və protektoru rolunda çıxış edirdilər".[83] Xüsusilə, Bekzadyanı narahat edən başlıca məsələ "Türkiyənin öz Şərq sərhədlərinin təhlükəsizliyi üçün çox vacib hesab etdiyi" Naxçıvanı Azərbaycanın tərkibində saxlamağa nail olması idi.[84] O, qeyd edirdi ki, "Naxçıvan və Şərur-Dərələyəz məsələlərinin həlli ilə bağlı konfransda qəbul olunmuş qərarlar Ermənistanı ona məxsus olan Zəngəzuru normal idarə etmək imkanından məhrum edir".[85] Bu məktubla bağlı Çiçerin Ermənistan Sovet hökumətinin nümayəndəsi S.Ter-Qabrelyana bildirirdi ki, Bekzadyanın konfransda iştirak edən erməni nümayəndələrini təmizə çıxarıb, bütün günahları Rusiya nümayəndələrinin üzərinə qoymaq cəhdləri

[81] Bax: RK(b)P MK Qafqaz Bürosunun plenumunun 8 saylı protokolu. 02-03.07.1921.// RDSSTA, f.64., s.1, i.1, v.87-88; RK(b)P MK-nın Qafqaz Bürosunun yerli partiya və həmkarlar təşkilatları nümayəndələrinin iştirakı ilə plenumu. 02-03.07.1921.// RDSSTA, f.85, s.18, i.58, v.12-13

[82] RK(b)P MK-nın Qafqaz Bürosunun yerli partiya və həmkarlar təşkilatları nümayəndələrinin iştirakı ilə plenumu. 02-03.07.1921.// RDSSTA, f.85, s.18, i.58, v.14

[83] A.Bekzadyanın G.Çiçerinə məktubu.15.04.1921.// RFXSA, f.04, s.39, q.232, i.53001, v.58-59

[84] Yenə orada, v.59

[85] Yenə orada, v.62

onu təəccübləndirir. Çiçerin qeyd edirdi ki, konfransın başlıca məsələsinin nədən ibarət olmasından erməni nümayəndələri yaxşı məlumatlı idilər və mənim onlarla xüsusi şəkildə daim əlaqədə olmağıma baxmayaraq, onlar qəbul edilən qərarlardan hər hansı narazılıq ifadə etməmişdilər.[86] Eyni məzmunlu bir teleqram həmin günlərdə G.Çiçerin Tiflisə, B.Leqrana da göndərmişdi. O yazırdı ki, "birincisi, erməni nümayəndələrinin günahı Rusiya nümayəndələrinin üzərinə qoymaq, ikincisi isə, faktları saxtalaşdırmaq yolu ilə özlərini mənə bəlli olmayan naməlum oxucunun, və ya, dinləyicinin qarşısında ittihamlardan xilas etmək cəhdlərindən ibarət olan Bekzadyanın fəaliyyət tərzinə etiraz edirəm".[87] Göründüyü kimi, ermənilər belə şantaj yolu ilə Moskva müqaviləsi ətrafında gedən qapalı müzakirələr fonunda Qarabağın ələ keçirilməsi üçün əlverişli məqam və Mərkəzin güclü dəstəyini əldə etməyə çalışırdılar. Moskva konfransının gedişində susub sonradan ayılan Ermənistan rəhbərliyinin Sovet Rusiyasını ittiham etmək cəhdlərinin arxasında "kompensasiya" arzuları dayanırdı və belə bir "kompensasiya subyektini" isə onlar Qarabağda görürdülər.

İyulun 5-də Dağlıq Qarabağ məsələsinin yenidən müzakirəyə çıxarılmasına gəldikdə isə, bu məsələ məhz, Orconikidze və Nazaretyanın təklifi ilə yenidən müzakirəyə çıxarılmışdı. Bir sıra erməni müəllifləri iyul ayının 5-də səhv olaraq, Nazaretyanın deyil, Orconikidze və Nərimanovun belə bir təkliflə çıxış etdiklərin yazırlar.[88] Dağlıq Qarabağın, guya, 5 iyul qərarı ilə Azərbaycana "verildiyi" kimi səhv fikri, bu yaxınlarda Moskvada nəşr olunmuş məqalələr toplusunda V.A.Zaxarov və S.T.Sarkisyan da iddia edirlər.[89] Lakin sənədlərdən aydın olur ki, Stalin iclasın ilk günündən Tiflisdə olub və onun iyulun 5-də "gözlənilməz" gəlişi barədə söz-söhbət həqiqətə uyğun gəlmir. Həm də Mərkəzin nümayəndəsi kimi, məhz, o, Ermənistanın sovetləşməsindən sonra Dağlıq Qarabağın Ermənistana verilməsinin mümkünlüyü ideyası ilə, hələ, 1920-ci ilin noyabrında Bakıda çıxış etmişdi. Bu ideyanın Dağlıq Qarabağın Ermənistana verilməsi haqda ilkin qərarın qəbul

[86] Çiçerinin Ter-Qabrelyana məktubu.21.04.1921.// RFXSA, f.04, s.39, q.232, i.53001, v.63

[87] Çiçerinin Leqrana teleqramı.22.04.1921.// RFXSA, f.04, s.39, q.232, i.53001, v.65

[88] Г.Мелик-Шахназаров. Политизация истории как источник напряжения межнациональных отношений.// Майендорфская декларация 2 ноября 2008 года и ситуация вокруг Нагорного Карабаха, с.311

[89] В.А.Захаров, С.Т.Саркисян. Азербайджано - Карабахский конфликт: истоки и современность.// Майендорфская декларация 2 ноября 2008 года и ситуация вокруг Нагорного Карабаха, с.221

edilməsində şübhəsiz ki, rolu olmuşdu. Lakin bu ilkin qərar real həqiqətdən o qədər uzaq idi ki, elə həmin gün, iyulun 4-də problemin həlli məsələsini RKP MK-nın geniş iclasına keçirmək qərara alınmışdı, yəni, 4 iyul qərarından elə qəbul olunduğu gündə imtina edilmişdi. Ən nəhayət, Stalin 1921-ci ilin iyun ayının sonlarında niyə Tiflisə gəlmişdi? Bunun səbəbi Qafqaz Bürosunun plenumu keçirilən günlərdə çağırılan Gürcüstan KP MK-nın plenumunun materiallarından aydın olur. Sənədlərdən görünür ki, məhz, iyulun 7-də, Qafqaz Bürosunun üzvlərinin iştirakı ilə (N.Nərimanov istisna olmaqla) Gürcüstan KP MK-nın plenumu keçirilmişdir. Qafqaz Bürosunun üzvlərinin iclasa saat 11-də, Stalin və Orconikidzenin isə saat 12:25-də gəlməsi haqqında protokolda qeyd vardır. İclasda ilk olaraq, Batum məsələsi müzakirə edildi və Stalindən xahiş edildi ki, bu məsələ ilə bağlı Acar nümayəndələri ilə apardığı danışıqlar barədə MK-ya məruzə etsin. İclasda müzakirə edilən 2-ci məsələ Qafqaz Bürosunun 5 iyul iclasında Gürcüstanın müsəlman əhalisi arasında işin gücləndirilməsinin zəruriliyi haqqında Nərimanovun bəyanatı ilə bağlı idi. Bu bəyanatla bağlı plenum Gürcüstan MK-ya təklif etmişdi ki, müsəlmanlar arasında işi gücləndirmək üçün Ömər Faiq Nemanzadədən istifadə etsin.[90] İyulun 7-də keçirilən Gürcüstan KP MK-nın plenumunun gündəliyinə "Gürcüstan müsəlmanları üzrə xalq komissarlığının yaradılması haqqında" məsələ salınsa da, plenum bundan yayındı və Gürcüstan müsəlmanları üzrə xüsusi qurumun yaradılması ideyasını bəyəndi, onun forma və funksiyasını müəyyən etmək üçün Kavtaradze, Kvirkelia, Tumanov və Ömər Faiq Nemanzadədən ibarət komissiya yaratdı. Bu yeni yaradılan müəssisənin başında Ömər Faiq Nemanzadənin dayanması haqqında qərar qəbul edildi və Azərbaycan KP MK-dan xahiş edildi ki, Gürcüstan müsəlmanları üzrə yaradılan orqanı təşkil etmək üçün 3-4 müsəlman kommunisti göndərsinlər.[91] Bundan sonra Gürcüstan KP MK-nın plenumu daha iki məsələni ("Mətbuat haqqında" və "Gürcüstan Fövqəladə Komissiyasının fəaliyyəti barədə") müzakirə edib, bilavasitə Stalinin Nalçikdən Tiflisə gəlişini zəruri edən Gürcüstan rəhbərliyinin dəyişdirilməsi haqqında məsələnin müzakirəsinə keçdi. İ.Stalin təklif etdi ki, Gürcüstanda ağır vəziyyətin yarandığını nəzərə alaraq, Filip Maxaradzeni Gürcüstan İnqilab Komitəsinin sədri vəzifəsindən azad edib, bu fəzifəyə Budu Mdivanini təyin

[90] RKP MK Qafqaz Bürosunun plenumunun iclasının 12 saylı protokolu. 05.07.1921.// RDSSTA, f.64, s.1, i.1, v.122(arxası)

[91] Gürcüstan KP MK-nın plenumunun iclasının protokolu. 07.07.1921.// RDSSTA, f.64, s.1, i.1, v.133

etmək lazımdır. İ.Stalinin təklifi səsə qoyuldu və B.Mdivani Gürcüstan İnqilab Komitəsinin sədri təyin edildi.[92] Uzun müddət erməni tarixçilərinin və bəzi rus tarixçilərinin 1921-ci ilin iyulunda Stalinin Nalçikdən Tiflisə qəfil gəlişində "Qarabağ izi" axtarmaları doğru deyil, bu gəlişin əsl səbəbi Gürcüstanın müəyyən məsələlərində az-çox müstəqil olan və Q.Orconikidze ilə yola getməyən Filip Maxaradzeni rəhbərlikdən azad edib, həmin vəzifəyə Moskva ilə daha sıx bağlı olan Budu Mdivanini təyin etmək idi. Hətta, həmin ilin noyabrında Q.Orconikidze F.Maxaradzenin, nəinki, Gürcüstandan, ümumiyyətlə onun Qafqazdan uzaqlaşdırılması məsələsini qoymuşdu. 1921-ci ilin noyabr ayının 2-də o, Lenin və Stalinə yazırdı ki, "Filipi təcili olaraq, Qafqazdan uzaqlaşdırmaq tamamilə zəruridir".[93]

Zəngəzurda daşnak qiyamı iyulun 13-də tamamilə yatırıldı. Bu hadisə Dağlıq Qarabağın taleyinə dərhal təsir göstərdi. 1921-ci ilin iyul ayının 16-da Ermənistan KP MK-nın Qafqaz Bürosu plenumunun yekunlarının müzakirəsinə həsr olunmuş iclası oldu. İclasda qeyd olundu ki, Qafqaz Bürosunun qərarı Ermənistanı təmin etməsə də, bu məsələni yenidən Qafqaz Bürosunda müzakirəyə çıxarmağa ehtiyac yoxdur. İclasda Qarabağın dağlıq hissəsinə veriləcək "muxtariyyətin mahiyyəti barədə növbəti iclasa konkret və tam ifadə olunmuş məsələ çıxarmaq" haqda qərar qəbul edildi.[94] Bununla yanaşı Qafqaz Bürosunun 5 iyul qərarı ilə Dağlıq Qarabağa muxtariyyət təmin etdikdən sonra, 1921-ci ilin avqust ayının ortalarında Q.Orconikidze ilə birbaşa xətlə danışığında A.Myasnikov qeyd edirdi ki, artıq "Qarabağ məsələsinə bizdə kifayət qədər loyal münasibət bəsləyirlər".[95]

Ümumiyyətlə, sovetləşmənin ilk illərində ermənilərdə belə bir fikir formalaşmışdı ki, Sovet Azərbaycanı onların bütün istəklərini təmin etməlidir. 1922-ci ilin yanvar ayında keçirilən Ermənistan Kommunist Partiyasının birinci qurultayında A.Myasnikova sual verildikdə ki, Dağlıq Qarabağ Ermənistana niyə birləşdirilmədi? O, cavab verdi ki, "əgər Qafqaz Bürosunun son iclasını xarakterizə etsək, sanki, orada Ağaronyan, Topçubaşov və Çxenkeli oturmuşdu. Azərbaycan belə deyirdi ki, əgər Ermənistan Qara-

[92] Yenə orada, v.133-133(arxası)

[93] Q.Orconikidzenin V.Leninə və İ.Stalinə teleqramı. 02.11.1921. ARPİİ SSA, f.1, s.2, i.24"a", v.26

[94] Ermənistan KP MK-nın iclasının 11 saylı protokolu. 16.07.1921.// Ermənistan Respublikası Mərkəzi Dövlət İctimai Siyasi Təşkilatların Sənədləri Arxivi (Ermənistan Respublikası MDİSTSA), f.1, s.1, i.39, v.5(arxası)

[95] A.Myasnikovun birbaşa xətlə Q.Orconikidze ilə danışığı. Avqust 1921.// RDSSTA, f.85, s.18, i.177, v.4

bağı tələb edirsə, kerosin buraxmayacağıq".[96] Əlbəttə, bu cavab Aleksandr Myasnikovun qurultay nümayəndələri qarşısında özünə bəraət qazandırmaq cəhdi idi.

Ermənistanın əksinə olaraq, Azərbaycan rəhbərliyində Qarabağın Dağlıq hissəsinə muxtariyyət verilməsindən narazı qalanlar çox idi. 1921-ci ilin iyul ayı ərzində keçirilmiş Azərbaycan KP MK-nın Siyasi və Təşkilat Bürosunun iclasları haqqında Qafqaz Bürosuna göndərilən məlumatda qeyd olunurdu ki, Dağlıq Qarabağ məsələsi ətrafında qızğın mübahisələr gedir və bu məsələ ilə bağlı Azərbaycanın KP MK-nın fikri, Ermənistan KP MK-nın fikrinin əksinədir.[97]

1921-ci ilin iyul ayının 19-da Azərbaycan MİK-nin Rəyasət Heyəti Qafqaz Bürosunun 5 iyul qərarını və ümumilikdə, N.Nərimanovun Tiflisə səfərinin yekunları barədə məruzəsini müzakirə etdi. Nərimanov bildirdi ki, Dağlıq Qarabağ Sovet Konstitusiyası çərçivəsində daxili özünüidarə hüququnda Sovet Azərbaycanının ayrılmaz hissəsi olaraq qalacaq. Məruzənin müzakirəsindən sonra qəbul olunmuş qərarda deyilirdi: "Dağlıq Qarabağ Sovet Konstitusiyası çərçivəsində başda icraiyyə komitəsi olmaqla, daxili özünüidarə hüququ verilməklə Sovet Azərbaycanının ayrılmaz hissəsi olaraq qalır".[98] Göründüyü kimi, həm məruzədə, həm də qərarda "muxtariyyət" ifadəsinin işlədilməsindən qaçılır və "özünüidarə hüququ" ifadəsindən istifadəyə üstünlüki verilir. Bununla N.Nərimanov Azərbaycan rəhbərliyində olan "muxtariyyət" əleyhdarlarını sakitləşdirmək istəyirdi. Eyni zamanda, N.Nərimanov əlavə etdi ki, "Şuşada əhəmiyyətli sayda fəhlə kütləsinin olmasını nəzərə alaraq, Vilayət İcraiyyə Komitəsindən əlavə, Şuşa Şəhər İcraiyyə Komitəsinin yaradılması haqqındakı məsələ də gündəlikdə dayanır. Eyni qayda AKP MK-nın Dağlıq Qarabağ partiya təşkilatına münasibətində də öz əksini tapmalıdır və Vilayət Partiya Komitəsinə bərabər hüquqda şəhər komitəsi də yaradılmalıdır. Vilayət və şəhər icraiyyə komitələri, habelə, eyni ilə partiya komitələri arasında qarşılıqlı münasibətlər Bakıdakı kimi *(yəni AKP MK-nın Bakı Komitəsi ilə AKP MK arasında olduğu kimi – C.H.)* olmalıdır".[99] Azərbaycan MİK-nin Rəyasət Heyətindən sonra iyulun 20-də AK(b)P MK Siyasi və Təşkilat bürosu Qarabağ haqqında

[96] Ermənistan KP I qurultayının materialları. 26-29.01.1922.// RDSSTA, f.1, s.1, i.232, v.22-23

[97] Azərbaycan KP MK-nın 1921-ci ilin iyul ayı üçün protokolları haqqında məlumat. 1921.// RDSSTA, f.64, s.1, i.90, v.173(arxası)

[98] Azərbaycan MİK-nin iclasının protokolu. 19.07.1921.// RDSSTA, f.64, s.1, i.31, v.122

[99] Нариман Нариманов. Избранные произведения. Баку, 1989, с.533-534

Ə.Qarayevin məlumatını dinləyib, yaranacaq muxtar qurumun konstitusiyasının hazırlanması üçün daxili işlər, ədliyə və xarici işlər komissarlıqlarının nümayəndələrindən ibarət komissiya yaratmağı qərara aldı. Qərardan çıxarış S.Çvanova (Xalq Ədliyə Komissarlığı), Süleymanova (Xalq Daxili İşlər Komissarlığı) və Andreyevə (Xalq Xarici İşlər Komissarlığı) göndərildi. İclasın qərarı ilə yeni müavin axtarılıb tapılana qədər S.Adıgözəlov Kommunist Partiyası Şuşa qəza komitəsinin katibi saxlanıldı.[100]

RKP MK Qafqaz Bürosunun Qarabağın Azərbaycanın tərkibində saxlanması haqqında 5 iyulda qəbul etdiyi müvafiq qərarının olmasına baxmayaraq, müxtəlif erməni təşkilatları Azərbaycana qarşı apardıqları pozuculuq işlərinə son qoymurdular. Iyul ayının 23-də Ə.Qarayev Şuşadan N.Nərimanov və M.D.Hüseynova göndərdiyi teleqramda yazırdı: "Sovet Ermənistanının fövqəladə müvəəkkili Ter-Simonyan Gorusda müsəlman, rus və erməni dilində elan etdiyi öz əmrində göstərib ki, Dağlıq Qarabağ Sovet Ermənistanına birləşdirilib. Bu təxribat digər tərəfdən Ter-Simonyanın Ocaqqulu Musayevi Kürdüstana fövqəladə müvəkkil təyin etməsi ilə müşayiət olunub. Bununla bağlı siyasi münasibətlər baxımından Şuşada vəziyyət həddindən artıq ağırlaşmışdı və indi artıq yavaş-yavaş düzəlməkdədir. Ter-Simonyan Qubadlı Qəza İcraiyyə Komitəsini narahat edir və hansı yolla olursa-olsun, onu Zəngəzura birləşdirmək istəyir. Minkənd sahəsində yerli icraiyyə komitəsi O. Musayev tərəfindən dağıdılıb və hansısa bir İnqilab Komitəsi yaradılıb. Nəyin bahasına olursa-olsun, bu qarışıqlığa son qoymaq və Simonyana qarşı qəti addımlar atmaq lazımdır".[101] *Sənədin üzərində Nərimanovun belə bir qeydi vardır: "Tədbir* görülməsi xahişi ilə Qafqaz Bürosuna teleqram göndərilsin". Bununla yanaşı AK(b) MK-nın Siyasi və Təşkilat Bürosunun avqust ayının 8-də keçirilən iclasında O.Musayev səlahiyyətlərini aşdığına, Kürdüstanda partiya və sovet işini pozduğuna görə kommunist partiyasının sıralarından xaric edildi.[102]

Avqust ayının ilk günlərindən başlayaraq, Qafqaz Bürosunun 5 iyul qərarının izahatı ilə bağlı Azərbaycanda geniş təbliğat işlərinə başlandı. 1921-ci ilin avqust ayının 1-də Şuşa qəzası 2-ci yaşayış sahəsi kəndlilərinin

[100] Azərbaycan K()P MK-nın Siyasi və Təşkilat bürosunun iclasının 22 saylı protokolu. 20.07.1921.// ARPİİ SSA, f.1, s.2, i.18, v.94; RDSSTA, f.64, s.1, i.92, v.51

[101] Ə.Qarayevin Şuşadan Azərbaycan XKS-nin sədri N.Nərimanova teleqramı. Surəti M.D.Hüseynova. 23.07.1921.// ARPİİ SSA, f.1, s.2, i.104, v.209

[102] AKP MK-nın siyasi və təşkilat bürosunun iclasının 27 saylı protokolu. 08.08.1921.// ARPİİ SSA, f.1, s.2, i.18, v.114(arxası)

fövqəladə qurultayı keçirildi və bu iclasada Mərkəzin *(Bakının – C.H.)* nümayəndəsi kimi L.Mirzoyan məruzə etdi. O, öz çıxışında bildirdi ki, həm iqtisadi, həm mənəvi və siyasi, həm də milli baxımdan Qarabağ Azərbaycanın mərkəzi, yəni, Bakı ilə bağlıdır. L.Mirzoyan Qarabağın dağlıq hissəsində Bakıya tabe olan xüsusi inzibati vahidin yaradılması haqqında Qafqaz Bürosunun qərarını doğru qərar hesab edirdi.[103] O, bildirirdi ki, "əgər siz muxtariyyət alsanız, onda sizin bütün məsələləriniz həll olunacaq".[104] Ezamiyyətdən döndükdən sonra L.Mirzoyan AKP MK-ya RKP MK Qafqaz Bürosuna Qarabağın dağlıq hissəsinə səfər haqqında hesabat yazmışdı və orada göstərirdi: "Mənim dərin inamıma görə, Qarabağ məsələsi bir tərəfdən bizim partiya və sovet rəhbər işçiləri, digər tərəfdən isə bəzi erməni millətçi əhvalı-ruhiyyəli ziyalıları tərəfindən yaradılıb və yaradılmaqdadır".[105] Bu mövqe L.Mirzoyan və Ə.Qarayevin 1921-ci ilin avqust ayının 8-də keçirilən AKP MK Siyasi və Təşkilat Bürosunun iclasında etdikləri "Qarabağda vəziyyət haqqında" məruzələrində də əks olundu. Daha çox Qarabağda partiya işinin vəziyyəti üzərində qurulmuş məruzə əsasında Şuşa qəzasının Surxay Adıgözəlov, Şamil Mahmudbəyov, Danelyants, S.Atayev, Səfərov, Avakyan, Əlihəsən Qəmbərovdan ibarət partiya komitəsinin tərkibi iclasda təsdiq edildi. Ə.Qarayev müvəqqəti olaraq Qarabağa fövqəladə müvəkkil təyin edildi.[106]

L.Mirzoyanın hesabatında bəhs etdiyi həmin millətçi əhvalı-ruhiyyəli ermənilər 5 iyul qərarından sonra belə şayiə yaymağa başlamışdılar ki, guya ermənilər Qarabağdan Ermənistana köçürülməyə başlayıblar. Bu şayiələr hətta RKP MK-nın Qafqaz Bürosuna da gedib çıxmışdı. Ümumiyyətlə, S.Kirov Azərbaycan K(b)P MK-nın birinci katibi seçiləndən sonra Qafqaz Bürosunun Dağlıq Qarabağ haqqında 5 iyul qərarından narazı qalan bəzi üzvləri indi Azərbaycana qarşı öz pozuculuq əməllərini onun vasitəsi ilə həyata keçirməyə çalışırdılar. RKP MK Qafqaz Bürosunun katibi Fiqatner Yuri Petroviç (Yakov İsakoviç) 1921-ci ilin avqustunda Sergey Kirova yazırdı ki, guya Qafqaz Bürosunun Dağlıq Qarabağın Azərbaycanın

[103] Şuşa qəzası 2-ci yaşayış sahəsi sovetlərinin fövqəladə qurultayının protokolu. 01.08.1921.// ARPİİ SSA, f.1, s.2, i.18, v.120-120(arxası)

[104] Правда о Нагорном Карабахе. Степанакерт, 1989, с.31

[105] L.Mirzoyanın Qarabağın dağlıq hissəsinə səfəri barədə AKP MK-ya (surəti RKP MK Qafqaz Bürosuna) hesabatı. 03.08.1921.// RDSSTA, f.64, s.1, i.95, v.3(arxası)

[106] AKP MK-nın siyasi və təşkilat bürosunun iclasının 27 saylı protokolu. 08.08.1921.// ARPİİ SSA, f.1, s.2, i.18, v.114- 114(arxası)

tərkibində saxlanılması haqqında 5 iyul qərarından sonra Dağlıq Qarabağdan "bir çox erməni kəndləri Ermənistana" köçürülməyə başlamışdır.[107] Bu haqda məlumat alan kimi, S.Kirov həmin vaxt Qarabağda olan Ə.Qarayev və L.Mirzoyana müvafiq sorğu göndərmişdi.[108] Halbuki, çoxsaylı faktlar sovetləşmənin ilk aylarında ermənilərin deyil, məhz müsəlmanların Qarabağdan müxtəlif yerlərə köç etdiyini göstərir. A.Karakozov AK(b)P MK-ya göndərdiyi teleqramda yazırdı ki, "demək olar, Cavanşir qəzasının müsəlman əhalisinin hamısı öz yerlərindən qaçaraq, bütün ətraf ərazilərə dağılmışlar".[109] Y.Fiqatnerin Qarabağ erməniləri üçün narahatlığına gəldikdə isə, ümumiyyətlə, 20-ci illərin əvvəllərində Qafqaz Bürosunda çalışan partiya işçilərinin milli tərkibinə diqqət yetirilərsə, Azərbaycana qarşı törədilən təxribatların və təhlükənin haradan gəldiyi açıq şəkildə üzə çıxar. Belə ki, bu dövrdə Qafqaz Bürosunun aparatında cəmisi 80 nəfər partiya işçisi çalışırdı. Onların 12 nəfəri gürcü, 28 nəfəri erməni, 25 nəfəri rus, 13 nəfəri digər millətlərin nümayəndəsi, vur-tut 2 nəfəri isə türk idi.[110]

Qafqaz Bürosunun muxtariyyət haqqında qərarından narazı qalanlar 1921-ci ilin sentyabr ayının 26-da "Qarabağ işi" adlı məsələni AKP MK Siyasi və Təşkilat Bürosunun müzakirəsinə çıxara bildilər. İclasda qərara alındı ki, "Dağlıq Qarabağa muxtariyyət verilməsi ilə bağlı məsələyə yenidən baxılması və həmin vaxta qədər muxtariyyət elan edilməməsi" Qafqaz Bürosundan xahiş edilsin. N.Nərimanov və D.Bünyadzadə bu qərarın əleyhinə oldular. Onlar təklif etdilər ki, Qafqaz Bürosunun Dağlıq Qarabağa muxtariyyət verilməsi haqqında qərarı ən qısa zamanda tətbiq etməlidir. N.Nərimanovun bu mövqeyi Qafqaz Bürosundakı vəziyyəti daha dərindən bilməsi ilə bağlı idi və o, yaxşı bilirdi ki, Qafqaz Bürosunun iyul ayının 4-5-də keçirilmiş müzakirələrində Qarabağın dağlıq hissəsini Azərbaycanın

[107] RKP MK-nın Qafqaz Bürosunun katibi Fiqatnerin Kirova məlumatı. Avqust 1921.// ARPİİ SSA, f.1, s.129, i.107, v.58. Qarabağ ermənilərinin taleyinə "xüsusi qayğı" göstərən Yuri Petroviç (əsl adı Yakov İsakoviç) Fiqatner 1889-cu ildə Odessa şəhərində doğulmuş və 1917-1920-ci illərdə bolşevizmin Qafqaza yayıldığı dövrdə Şimali Qafqazda bolşevik terrorunun əsas təşkilatçılarından və icraçılarından biri olmuşdur. 1921-ci ilin mart ayından RKP MK-nın Qafqaz Bürosunun katibi təyin edilmişdi.1922-ci ilin fevral ayında Sibirə yüksək partiya işinə göndərilmişdi. 1937-ci ildə o, repressiya edilərək güllələnmişdi.

[108] S.Kirovun Ə.Qarayev və L.Mirzoyana sorğusu. Avqust 1921. // ARPİİ SSA, f.1, s.129, i.107, v.58

[109] A.Karakozovun AK(b)P MK-ya teleqramı. 19.06.1920.// ARPİİ SSA, f.1, s.1, i.126, v.11

[110] RKP Zaqafqaziya Diyar Komitəsinin qapalı hesabat məktubu. 16.08.1923.// ARPİİ SSA, f1, s.85, i.340, v.248

tərkibində saxlamaq hansı çətinliklər hesabına başa gəlmişdir. Müzakirə olunan məsələ ilə bağlı material toplamaq üçün Qarayev, Əfəndiyev, Stukalov və Mirzoyandan ibarət komissiyanın yaradılması və Azərbaycan MİK-in sessiyasından sonra həmin komissiyanın Qarabağa göndərilməsi haqqında razılığa gəlindi. Qarabağda olduğu müddətdə komissiya eyni zamanda, orada partiya və sovet işinə də rəhbərlik etməli idi.[111] Bu qərarı möhkəmləndirmək üçün AKP MK Təşkilat Bürosu Nərimanovun iştirakı olmadan oktyabrın 6-da yenidən bu məsələni müzakirə edib, komissiyaya tapşırdı ki: "Stukalov istisna olmaqla, komissiya oktyabrın 9-dan gec olmayaraq, Qarabağa yola düşsün". Eyni zamanda, Maliyə Komissarı Tağıyevə tapşırıldı ki, Azərbaycan XKS-in qərarı ilə Qarabağda 4 qəza üçün 1 milyard rubl pul ayırsın və bu pulu Qarabağa yola düşən komissiyaya versin, Daxili İşlər Komissarı Bağırova tapşırıldı ki, komissiyanı müşayiət etmək üçün məsul işçilər ayırsın, Hərbi-Dəniz Komissarı Qarayevə tapşırıldı ki, Qarabağ milisi üçün 500 dəst xüsusi geyimi komissiyaya versin və Qarabağ üçün 3 kq xinin *(malyariyaya qarşı dərman – C.H.)* ayırsın.[112] Komissiya Qarabağda vəziyyəti öyrəndikdən sonra oktyabr ayının 21-də AK(b) P MK Təşkilat Bürosu ilə birlikdə Qarabağda (Şuşa, Cavanşir, Qubadlı və Qaryagin qəzalarında) işləyən məsul işçilərin konfransını keçirdi. Qarabağda çalışan bütün məsul işçilər, həm azərbaycanlılar, həm də ermənilər bu konfransda iştirak edirdilər. Ə.Qarayevin məruzəsi və məruzə ətrafındakı uzun müzakirələrdən sonra konfrans "Dağlıq Qarabağın əlahiddə muxtar vilayətə ayrılmasını məqsədəuyğun hesab etmədi".[113] Qarabağa səfər və məsul işçilərin konfransının materialları əsasında komissiya AK(b)P MK-ya məruzə hazırladı və bu məruzə oktyabr ayının 24-də MK-nın Təşkilat Bürosunun müzakirəsinə çıxarıldı. Lakin müzakirələr zamanı Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsinin əleyhinə açıq fikirlər söylənmədi və bundan sonra Qarabağda banditizmə qarşı mübarizənin gücləndirilməsi Azərbaycan Dövlət Siyasi İdarəsinə tapşırıldı, ən qısa vaxtda 4 qəzaya 1,5 milyard rubl vəsait ayrılması haqqında qərar qəbul edildi. Mübahisəli torpaq

[111] AKP MK-nın siyasi və təşkilat bürosunun iclasının 30 saylı protokolu. 26.09.1921.// ARPİİ SSA, f.1, s.2, i.18, v.158(arxası)

[112] AKP MK-nın təşkilat bürosunun iclasının protokolu. 06.10.1921.// ARPİİ SSA, f.1, s.74, i.125, v.9

[113] Qarabağın (Şuşa, Cavanşir, Qubadlı və Qaryagin qəzalarının) məsul işçilərinin, AK(b)P MK Təşkilat Bürosu üzvləri ilə birgə keçirdiyi konfransın iclasının protokolu. 21.10.1921.// ARPİİ SSA, f.1, s.2, i.74, v.23-23(arxası)

məsələlərini həll etmək üçün yerlərə səlahiyyətli komissiya göndərilməsi Torpaq Komissarlığına təklif edildi. Eyni zamanda, hər 4 qəzada partiya və sovet işinin yenidən təşkil olunması istiqamətində bir sıra addımların atılması məqsədəuyğun sayıldı. İlk addım kimi, Ş.Mahmudbəyov Şuşa Qəzası İcraiyyə Komitəsinin sədri vəzifəsindən azad edildi və onun yerinə Əlqulu Babayev təyin edildi. Təşkilat Bürosunun qərarına görə, Qarabağın muxtar hissəsinin sərhədlərini müəyyənləşdirmək üçün Torpaq Komissarlığı, Hərbi-Dəniz və Daxili İşlər komissarlıqlarının nümayəndələrindən ibarət xüsusi komissiya yaradıldı.[114] Halbuki, üç gün əvvəl AK(b)P MK-nın Təşkilat Bürosunun və Qarabağın məsul işçilərinin geniş təmsil olunduğu konfransda Dağlıq Qarabağa ayrıca muxtar vilayət statusu verilməsi məqsədəuyğun hesab edilməmişdi.

Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsi haqqında Qafqaz Bürosunun məlum qərarından sonra Mərkəz bu istiqamətdə olan ən kiçik məqamları belə diqqətdə saxlayırdı. 1922-ci ilin may ayının 22-də İ.Stalin Azərbaycan K(b)P MK-nın birinci katibi S.Kirova məktubunda istehzalı formada soruşurdu: "Deyirlər, Qarabağı Azərbaycan Mərkəzi İcraiyyə Komitəsində demək olar ki, "əsl qarabağlı" olan Fonşteyn təmsil edir"?[115] İyun ayının 18-də Stalinə göndərdiyi gizli cavabda Kirov izahat verirdi ki, "kimsə sizi yanlış məlumatlandırıb... Qarabağdan MİK-in üzvlərinin siyahisini sizə məlum edirəm: 1) Əhmədov, 2) Arızanyan, 3) Ələkbərov, 4) Məmmədxanov, 5) Mirzəbekyants, 6) İldırım. Azərbaycan MİK-i üzvlüyünə namizədlər: 1) Hacıbəyli, 2) Avetisov, 3) Xanbudaqov, 4) Hacıyev. Bundan əlavə Mirzəbekyants Azərbaycan XKS-ə komissar vəzifəsinə keçirilib".[116] Eyni zamanda, həmin dövrdə Qarabağda fəaliyyət göstərən partiya təşkilatını Azərbaycan partiya təşkilatına tabe etməmək haqqında Mərkəz tərəfindən müəyyən cəhdlər var idi. Buna ermənilər Moskvanın vasitəsi ilə nail olmaq istəyirdilər. Ona görə də, 1922-ci ilin avqust ayının 1-də RK(b)P MK-ya göndərdikləri teleqramda AKP MK-nın katibi S.Kirov və təşkilat şöbəsinin müdiri Matyuşin yazırdılar ki, "Qarabağın ərazisi Azərbaycanın tərkibinə daxildir və partiya təşkilatı da AKP-nin bir hissəsidir".[117]

[114] AKP MK-nın təşkilat bürosunun iclasının 20 saylı protokolu. 24.10.1921.// ARPİİ SSA, f.1, s.2, i.15, v.15(arxası)-16

[115] Azərbaycan Kommunist Partiyasında vəziyyət və Azərbaycan MİK-də Qarabağın nümayəndəsi haqqında Stalinin məktubu.22.05.1922.// RDSSTA, f.558, s.11, i.746, v.1

[116] S.Kirovun İ.Stalinə gizli məktubu. 18.06.1922.// RDSSTA, f.558, s.11, i.746, v.2

[117] Kirov və Matyuşinin RK(b)P MK-ya teleqramı. 01.08.1922.// RDSSTA, f.80, s.25, i.2. v.1

§3. Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması

1921-ci ilin 5 iyul qərarından sonra bir müddət sakitlik olsa da, Kirov və Orconikidzenin təşəbbüsü ilə Zaqafqaziya Diyar Komitəsi Rəyasət Heyətinin 1922-ci ilin oktyabr ayının 27-də keçirilən iclasında AK(b)P MK-ya Qafqaz Bürosunun 5 iyul qərarının reallaşdırılması tapşırıldı. Zaqafqaziya Diyar Komitəsinin həmin iclasının qərarı ilə A.Karakozov Qarabağ İcraiyyə Komitəsinin sədri təyin edildi, eyni zamanda, Ermənistanda fəaliyyət göstərən S.Şaduns Qarabağa məsul vəzifəyə təyin edilmək üçün Azərbaycan KP MK-nın sərəncamına göndərildi.[118] Bundan 3 gün sonra AK(b)P MK rəhbərliyi "Dağlıq Qarabağın muxtariyyəti haqqında" məsələni müzakirə edib, Zaqafqaziya Diyar Komitəsinin tapşırığını həyata keçirmək üçün müvafiq komissiya yaratdı. Elə həmin gün Ağamalıoğlu başda olmaqla, Karakozov və Sviridovdan ibarət olan komissiyanın tərkibi iclasda təsdiq edildi.[119]

Eyni zamanda, AKP MK-nın tapşırığı ilə Qarabağın dağlıq hissəsində olan kənd sovetləri sədrlərinin və partiya təşkilatları katiblərinin müşavirəsini keçirmək üçün L.Mirzoyan və Ə.Qarayev həmin ilin noyabrında Şuşaya ezam edildilər. Üç günlük müzakirələrdən sonra müşavirə Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması haqqında qərar qəbul etdi.[120] 1922-ci ilin dekabr ayının 14-də bəzi etirazlara baxmayaraq, Zaqfqaziya Diyar Komitəsi Dağlıq Qarabağ üzrə xüsusi komitə yaradılmasına nail oldu. Bir gün sonra, dekabr ayının 15-də Azərbaycan MİK-nin kommunist fraksiyası və AK(b)P MK Rəyasət Heyəti "Qarabağ haqqında" Zaqafqaziya Diyar Komitəsinin qərarını müzakirə edib Kirov, Mirzəbekyants və Karakozovdan ibarət yeni komissiya yaratdı, eyni zamanda, elə həmin iclasda Armenak Karakozovun sədrliyi ilə 7 nəfərdən ibarət komitə formalaşdırdı. Komitəyə Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının icraiyyə komitələrinin sədrləri, üç nəfər isə katibliklə birlikdə Karakozov tərəfindən irəli sürülməli idi və onlar Sovet orqanlarından keçməklə Rəyasət Heyətində təsdiq olunmalı idilər. Az sonra həmin üç nəfəri A.Karakozov belə müəyyən etmişdi: Şaduns, Tavakal-

[118] К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. Документы и материалы, с.127

[119] AK(b)P MK-nın Rəyasət Heyətinin qərarı. 30.10.1922.// ARPİİ SSA, f.1, s.74, i.129, v.40

[120] Bax: Правда о Нагорном Карабахе, с.32

yan və Papzyan.[121] Rəyasət Heyəti Azərbaycan MİK-ə və XKS-ə tapşırdı ki, 7 gün müddətinə Dağlıq Qarabağ üzrə komissiya və komitənin yaradıldığı barədə dekret elan etsin. Dağlıq Qarabağ üzrə komitəyə Mərkəzi orqanlarla müstəqil əlaqə saxlamaq hüququ verildi.[122] Dekabr ayının 17-də keçirilən AK(b)P MK-ın Rəyasət Heyətinin iclasında A.Karakozov sədr olmaqla, M. Məmmədxanov, Ağazadə, Tavakalyan, Papzyan və Şadunsdan ibarət olan Dağlıq Qarabağ komitəsinin tərkibi təsdiq edildi. RK(b)P Zaqafqaziya Diyar Komitəsindən xahiş edildi ki, Dağlıq Qarabağ komitəsində işləmək üçün Papazyanı Ermənistan XKS-in katibi Fanokolyanstı isə Zəngəzur qəza komitəsinin katibi vəzifəsindən azad etsin, M.C.Bağırova tapşırıldı ki, yuxarıda adları sadalanan tərkibi təcili olaraq, XKS-dən keçirsin, Karakozova həvalə edildi ki, təcili olaraq komitənin fəaliyyəti üçün zəruri olan vəsaitin smetasını tutub, həmin axşam keçiriləcək XKS-in iclasına təqdim etsin. Ən qəribəsi o idi ki, 17 dekabr iclasında İrəvana getmək üçün A.Karakozova iki həftəlik məzuniyyət verildi.[123]

Ümumiyyətlə, 1922-ci ilin payızından başlayaraq, Qarabağda rəhbər vəzifələrdə işləyən ermənilərin Ermənistanla əlaqələri intensiv xarakter almağa başladı. Digər tərəfdən isə, 20-ci illərin əvvəllərində Qarabağın Ermənistana birləşdirilməsi uğrunda mübarizədə açıq və gizli şəkildə fəal iştirak etmiş bir sıra ermənilər İrəvandan Bakıya dəvət edilərək, Qarabağa rəhbər vəzifələrə təyinat aldılar. 1923-cü ilin ilk günlərində AK(b)P MK-nın katibi S.Kirov Zaqafqaziya Diyar Komitəsinə rəhbərlik edən A.Myasnikova teleqram göndərərək ondan xahiş edirdi ki, "Ermənistan Mərkəzi Komitəsi Qarabağ üçün Tavakelyanı və Manusyanı Bakıya ezam etsin. Xahiş edirəm onlara təklif edin ki, təcili olaraq Karakozovun yerləşdiyi Şuşaya getsinlər".[124] 1923-cü ilin yanvar ayının 23-də A.Karakozovla birlikdə Ermənistan KP MK-nın katibi A.İonnisyana göndərdiyi teleqramda S.Kirov xahiş edirdi ki, "Qarabağda işləmək üçün Tavakelyanı, Akopyanı, Aydınyanı, Vartanyanı, Axtınskini, Sero Manusyanı ezam etsinlər".[125] Axı bu te-

[121] Azərbaycan MİKnin və XKS-nin Dağlıq Qarabağ haqqında qərarı. Dekabr 1922.// AR DA, f.411, s.1, i.48, v.201

[122] AKP MK-nın Rəyasət Heyətinin Azərbaycan MİK-nin communist fraksiyası ilə birlikdə keçirdiyi iclasın 56 saylı protokolu. 15.12.1922.// AR DA, f.379, s.3, i.58, v.175-175 (arxası)

[123] AKP MK-nın Rəyasət Heyətinin iclasının 57 saylı protokolu. 17.12.1922.// ARPİİ SSA, f.1, s.169, i.249/II, v.28

[124] S.Kirovun RKP MK-nın Zaqafqaziya Diyar Komitəsinə, A.Myasnikova teleqramı. 1923.// ARPİİ SSA, f1, s.85, i.316, v.162

[125] S.Kirov və A.Karakozyanın Ermənistan KP MK-nın katbi A.İonisyana teleqramı. 22.01.

leqram göndərilən şəxs həmin Akop İonnisyan idi ki, 1921-ci ilin mayında Ermənistan onu Dağlıq Qarabağda özünün müvəkkili təyin etmişdi. Görünür teleqramda sadalanan işçilərin siyahisini A.Karakozov az əvvəl AKP MK-nın Rəyasət Heyətinin qərarı ilə özünün iki həftəlik məzuniyyətini İrəvanda keçirərkən İonnisyanla birlikdə hazırlamışdı. Bu teleqramı eyni ilə S.Kirov bir həftə sonra A.Myasnikova da göndərmişdi və onun sonuna əlavə etmişdi ki, "möhkəmləndirmə olmadan Qarabağda işləri təşkil etmək mümkün deyildir".[126] Göründüyü kimi, 1923-cü ilin əvvəllərindən etibarən Ermənistandan dəvət edilən rəhbər partiya və sovet işçilərinin Qarabağa müxtəlif məsul vəzifələrə təyin edilməsi geniş xarakter almağa başladı və məhz bunun hesabına ermənilər orada vəziyyəti dəyişməyə nail oldular. Azərbaycan rəhbərliyinin belə kadr siyasəti ermənilərin Dağlıq Qarabağda möhkəmlənməsinə gətirib çıxardı.

Zaqafqaziya diyar Komitəsinin 1922-ci ilin sonlarında yaratdığı Qarabağ komitəsi hələ 1923-cü ilin may ayının 20-də hazırladığı "Qarabağ məsələsinin həlli layihəsi" adlı təkliflərini iyun ayının 20-də AKP MK Rəyasət Heyətinin müzakirəsinə verdi. Orada göstərilirdi ki, dağlıq və düzən Qarabağ iqtisadi baxımdan bir-biri ilə bağlıdır Layihədə Dağlıq Qarabağın Ermənistana meyl etməsi, bölgədə işləri lazımı səviyyədə aparan hazırlıqlı türk işçilərin olmaması ilə izah edilirdi. Orada yazılırdı: "Nə qədər ki, Mərkəz *(Bakı – C.H.)* gücünün ən böyük və ən yaxşı hissəsini neft cəbhəsinə atır və öz diqqətini başlıca olaraq Bakı və onun rayonlarına yönəldir, nə qədər ki, müsəlman qüvvələrinin böyük çatışmazlıqları vardır və üç il ərzində vilayətin idarə olunmasında planlaşdırılmış işin (maarif, yer quruluşu, nəqliyyat, kooperasiya, ticarət və s.) hər hansı əlaməti belə yoxdur, nə qədər ki, Qarabağın böyük bir hissəsi öz coğrafi vəziyyətinə görə Mərkəzdən ayrılıb, nə qədər ki, azlığın hüquq və mənafeyini qorumaq zəruridir", bütün bunlar üçün Qarabağda inzibati-idarəçilik islahatları həyata keçirilməlidir.[127] Kirovun sədrliyi və İnozemtsovun katibliyi ilə keçən iclasda Xanbudaqov, Qarayev, Mirzoyan, Bağırov, Vareykis, Çaqin, Konyuşkin, Qasımov, Rəhmanov, Maşkeviç və digərləri iştirak edirdi. Geniş müzakirələrdən sonra bir neçə bənddən ibarət qərar qəbul edildi. Orada göstərilirdi: a) Qarabağın həm yuxarı, həm də aşağı hissəsinin bir inzibati

1923.// ARPİİ SSA, f.1, s.85, i.316, v.155

[126] S.Kirovun RKP MK-nın Zaqafqaziya Diyar Komitəsinə, A.Myasnikova teleqramı. 30.01.1923.// ARPİİ SSA, f1, s.85, i.316, v.153

[127] Qarabağ məsələsinin həlli layihəsi.20.05.1923.// ARPİİ SSA, f.1, s.74, i.132, v.113-114

vahidə ayrılması zəruri hesab edilsin; b) Qarayev sədr olmaqla, Bağırov, Dövlətov, Mirzoyan, Xanbudaqovdan ibarət komissiyaya tapşırılsın ki, üç gün müddətinə bu məsələni bütün təfarrüatı ilə öyrənib bəyənilməsi üçün MK-nın Rəyasət heyətinə təqdim etsinlər; v) A.Karakozov və X.Şadunsa təklif edilsin ki, Qarabağ məsələsinin həllinin müzakirəsində iştirak etmək üçün RKP Zaqafqaziya Diyar Komitəsinin iclasına getsinlər; q) E.Xanbudaqov xüsusi rəydə qaldığı üçün, onun rəyi protokola əlavə olunsun.[128] Orada qeyd olunurdu ki, "Qarabağ məsələsinin qəti şəkildə həlli üçün Dağlıq Qarabağın muxtar vahidə ayrılması haqqında Azərbaycan XKS-in 1920-ci il may tarixli dekretinin həyata keçirilməsi zəruridir. Heç bir digər qərar Qarabağın milli azlığının tələblərini təmin edə bilməz. Əgər qeyd edilən məsələ ayrı formada həll edilərsə, biz dəfələrlə bu müzakirələri keçirməli olacağıq".[129] Görünür, E.Xanbudaqov Qarabağda Fövqəladə Komissar vəzifəsinin təsis edilməsi və Qarabağ İnqilab Komitəsinin yaradılması haqqında may ayının 18-də N.Nərimanovun imzaladığı Azərbaycan İnqilab Komitəsinin dekretini nəzərdə tutur.

Lakin Qarabağın həm dağlıq həm də aran hissəsinin bir inzibati idarəçilikdə birləşdirilməsi haqqında AKP MK-nın Rəyasət Heyətinin 20 iyun tarixli qərarı Zaqafqaziya Diyar Komitəsinin 1923-cü ilin iyun ayının sonunda keçirilən plenumunda bəyənilmədi. Ona görə də 1923-cü ilin iyu-

[128] AKP MK-nın Rəyasət Heyətinin iclasının 20 saylı protokolu. 20.06.1923.// ARPİİ SSA, f.1, s.74, i.132, v.110

[129] Dağlıq Qarabağ məsələsi üzrə E.Xanbudaqovun xüsusi rəyi. 20.06.1923.// ARPİİ SSA, f.1, s.74, i.132, v.115; Ümumiyyətlə, AK(b)P MK katibi (mart 1922 – may 1924) Eyyub Şirin oğlu Xanbudaq ötən əsrin 20-ci illərində milli məsələyə münasibətdə fərqli mövqedən çıxış edirdi və RK(b)P-nin XII qurultayından sonra milli məsələ ətrafında aparılan müzakirəl zamanı Bakı komitəsi ilə onun arasında ciddi fikir ayrılıqları olduğu üçün "xanbudaqovçuluğa" qarşı kəskin mübarizə adı altında ona qarşı tənqidi çıxışlar başlandı. E.Xanbudaqovun 1924-cü ilin aprel ayının 27-də "Bakinskiy raboçi" qəzetində çıxan məqaləsində türk işçilərə qarşı aparılan ayrıseçkilik açıq şəkildə tənqid edilirdi, rus, erməni və yəhudi fəhlələrlə müqayisədə onların dərəcəsinin aşağı olduğu göstərilirdi. Ümumiyyətlə, o, belə hesab edirdi ki, Azərbaycandakı rus, erməni və yəhudi işçiləri türk işçiləri ilə əvəz olunmalıdır. Bu çağrışları həmin dövrdə Azərbaycanı idarə edən Kirov, Mirzoyan və Belenki özlərinə qarşı hesab etdilər və Xanbudaqova qarşı kəskin mübarizəyə başladılar. (Bax: Xanbudaqovçuluq. 1924.// ARPİİ SSA, f.456, s.10, i.16, v.10). E.Xanbudaqovun milli məsələyə dair yazdığı məqalə 1924-cü ilin aprel ayının sonlarında keçirilən Bakı Komitəsinin konfransında L.Mirzoyan tərəfindən kəskin tənqid edildi (Bax: "Bakinskiy raboçiy", 1924, 30 aprel). Azərbaycanda milli məsələ haqqındakı bu yazısına görə E.Ş.Xanbudaqov 1924-cü ilin may ayında AK(b)P MK-nın katibi vəzifəsindən azad edildi. (Bax: E.Ş.Xanbudaqovun şəxsi işi.// ARPİİ SSA, f.1, s.8, i.5594, v.16-18)

lun 1-də keçirilən AKP MK Rəyasət Heyətinin iclasında Azərbaycan MİK-ə təklif edilirdi ki, Xankəndi mərkəz olmaqla, Dağlıq Qarabağın muxtariyyəti məsələsini dekretləşdirsin. MK Rəyasət Heyətinin qərarına görə, dekretdə göstərilməli idi ki, Dağlıq Qarabağın sərhədləri və digər məsələlər xüsusi komissiya tərəfindən müəyyən ediləcək və gələcəkdə icraiyyə komitəsi yaranana qədər Karakozov başda olmaqla, 5 nəfərdən ibarət İnqilab Komitəsi, Manusyan başda olmaqla, 5 nəfərdən ibarət vilayət partiya komitəsi yaradılacaq. Dağlıq Qarabağın sərhədlərini müəyyən etmək üçün Ə.Qarayevin sədrliyi ilə A.Karakozov, Sviridov, Çingiz İldırım və Bünyadzadədən ibarət komissiya yaradılması təklif edilirdi. Komissiya 7 gün ərzində öz təkliflərini MK-ın Rəyasət Heyətinə verməli idi.[130] İyulun 4-də bu təkliflər Azərbaycan MİK-in Rəyasət Heyətinin iclasında təsdiq edildi. MİK-in qərarının birinci bəndində göstərilirdi: "Qarabağın dağlıq hissəsində mərkəzi Xankəndi olmaqla, muxtar Qarabağ vilayəti yaradılsın".[131]

Üç ilə yaxın davam edən hazırlıq işlərindən sonra nəhayət ki, 1923-cü ilin iyul ayının 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi respublikanın tərkibində Muxtar Qarabağ Vilayətinin yaradılması haqqında dekret verdi. Azərbaycan MİK sədrinin müavini Mir Bəşir Qasımovun və MİK-in katibi Mahmud Xanbudaqovun imzaladığı dekretdə göstərilirdi: "Hansı formada təzahür edir etsin, milli zülmün və milli bərabərsizliyin aradan qaldırılması, milli düşmənçiliyin və nifrətin, zəhmətkeşlərin beynəlmiləl həmrəyliyi ilə vahid ittifaq dövlətində xalqların qardaşcasına əməkdaşlığı ilə əvəz edilməsi fəhlə-kənli inqilabı və sovet hakimiyyətinin əsas vəzifələrindən biridir. Bu vəzifini yerinə yetirmək üçün Azərbaycan Sovetlərinin MİK-i qərara alır: Dağlıq Qarabağın ermənilər yaşayan hissəsində Xankəndi qəsəbəsi mərkəz olmaqla, Azərbaycan SSR-in tərkib hissəsi kimi, muxtar vilayət təşkil edilsin".[132] Muxtar Qarabağ Dağlıq Vilayətinin yaradılması barədə Azərbaycan MİK-in bu dekretindən iki həftə sonra vilayətin İnqilab Komitəsinin tərkibi MİK-nin Rəyasət Heyətinin və Azərbaycan XKS-nin birgə iclasında təsdiq edildi. A.Karakozovun sədrliyi ilə beş nəfərdən ibarət olan İnqilab Komitəsinə Bəşir Bünyadov, Kostandyan, Kafiyev

[130] AKP MK-nın Rəyasət Heyətinin iclasının 22 saylı protokolu. 01.07.1923.// ARPİİ SSA, f.1, s.74, i.132, v.145(arxası)

[131] Azərbaycan MİK-nın Rəyasət Heyətinin iclasının 14 saylı protokolundan çıxarış. 04.07.1923.// ARPİİ SSA, f.1, s.74, i.129, v.38

[132] Muxtar Qarabağ vilayətinin yaradılması haqqında Azərbaycan MİK-nin dekreti. 07.07.1923.// AR DA, f.379, s.3, i.73, v.135

(Kafiyan – C.H.) və Çalyan daxil idilər.[133] Eyni zamanda, Muxtar Vilayətin əsasnaməsinin hazırlanıb başa çatdırılması işi iclasın qərarı ilə Karakozov, Bünyadov, Çalyan, Vareykis və Manusyandan ibarət komissiyaya tapşırıldı. A.Karakozova həvalə edildi ki, komissiyanın iclasını təşkil etsin və bir həftə müddətinə işi başa çatdırsın.[134] Muxtar vilayətin beş nəfərdən ibarət olan İnqilab Komitəsinin tərkibində yeganə azərbaycanlı olan Bəşir Bünyadovun iştirakı sırf formal xarakter daşıyırdı. Bunu az sonra, 1923-cü ilin yanvarında Şuşa Qəza İcraiyyə Komitəsinin sədri təyin edildikdən sonra o, özü də hiss etməyə başladı və 1923-cü ilin sentyabrında S.Kirova məktubla müraciət edərək xahiş etdi ki, "onu mənəvi məhvdən xilas etmək üçün Qarabağda tutduğu vəzifədən azad etsin." O yazırdı: "Qarabağda işlərin yenidən təşkilindən sonra məni orada saxlamağa heç bir zərurət yoxdur, zira əhalinin müsəlman hissəsi mənə satqına baxan kimi baxır".[135] Şuşa şəhər əhalisi Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsinin qəti şəkildə əleyhinə idi. Hətta, 1923-cü ilin əvvəllərində Şuşa şəhər əhalisinin toplantısında B.Bünyadovun məruzəsindən sonra Bakıya göndərilmək üçün nümayəndə heyəti seçilmişdi ki, Qarabağın muxtariyyət məsələsində ciddi dəyişikliklər edilməsi məsələsini Mərkəzin qarşısında qaldırsın. S.Kirov həyəcanlı şəkildə A.Karakozov və B.Bünyadovdan hesabat tələb edirdi və soruşurdu: "təcili olaraq məlumat verin, bu nə məsələdir".[136]

Qarabağın muxtar vilayət hüdudlarından kənarda qalan əraziləri hesabına isə Ağdam, Cəbrayıl və Kürdüstan qəzaları yaradıldı.[137] Həmin dövrdə Azərbaycanın tərkibində Kürdüstan qəzasının yaradılması məqsədli xarakter daşıyırdı. Halbuki, bu qəza yaradılanda Ermənistanda yaşayan kürdlərin sayı Azərbaycanda yaşayan kürdlərin sayından iki dəfə artıq idi. Az sonra, 1937-ci ildə SSRİ də ilk dəfə keçirilən və nəticələri siyasi mülahizələrə görə ləğv edilən əhali sayımının nəticələri göstərdi ki, Azərbaycanda 10.878 nəfər kürd əhalisi yaşadığı halda, Ermənistanda onların sayı 22.313 nəfər idi.[138] Elə Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Azərbaycan MİK-nin dekreti elan edilən gün Qarabağ muxtariyyətinin sərhədlərini müəyyən edən

[133] Azərbaycan MİK-nin Rəyasət Heyətinin və XKS-nin birgə iclasının 15 saylı protokolu. 21.07.1923.// AR DA, f.379, s.3, i.67, v.63

[134] Yenə orada, v.63

[135] B.Bünyadovun S.Kirova məktubu. Sentyabr 1923.// ARPİİ SSA, f.1, s.74, i.133, v.163

[136] S.Kirovun A.Karakozov və B.Bünyadova teleqramı. 1923. // ARPİİ SSA, f.1, s.85, i.329, v.42

[137] Qarabağın muxtariyyəti məsələsi haqqında arayış.// ARPİİ SSA, f.1, s.169, i.249/I, v.41

[138] Bax: Всесоюзная перепись населения 1937 года: Общие итоги. Сборник документов и материалов. М., 2007, с.107-108

komissiyada DQMV ilə sərhəddə "Kürdüstan muxtariyyətinin yaradılması" ideyası səsləndirildi.[139] Lakin iyul ayının 16-da keçirilən AK(b) MK-nın Rəyasət Heyətinin iclasında bu ideyadan imtina edildi və Kürdüstan qəzası yaradılmasına qərar verildi. İyulun 21-də Azərbaycan MİK-i və respublika XKS-i bu qərarı təsdiq etdi.[140]

Əgər Muxtar Qarabağ Vilayətinin yaradılması haqqında Azərbaycan MİK-nin dekretinə diqqət yetirilərsə, bu dekretlə RKP MK-nın Qafqaz Bürosunun 5 iyul qərarı arasında kiçik bir ziddiyyət vardır. Qafqaz Bürosunun qərarında yazılırdı ki, "inzibati mərkəzi muxtar vilayətin tərkibindəki Şuşa şəhəri olmaqla, ona geniş vilayət muxtariyyəti verilsin".[141] Azərbaycan MİK-nin 7 iyul dekretində isə, qeyd olunurdu ki, "Dağlıq Qarabağın ermənilər yaşayan hissəsində Xankəndi qəsəbəsi mərkəz olmaqla" muxtar vilayət yaradılsın.[142] Bu ziddiyyət nə ilə bağlı idi? Məsələ burasındadır ki, iyul ayının 7-də Muxtar Qarabağ Dağlıq Vilayəti haqqında Azərbaycan MİK-nın dekreti elan olunarkən Şuşa şəhərinin onun tərkibində olması nəzərdə tutulmamışdı. Yalnız həmin dekretdən iki həftə sonra, 1923-cü ilin iyul ayının 21-də Azərbaycan MİK-nin Rəyasət Heyətinin və XKS-nin birgə iclasında D.Bünyadzadə Dağlıq Qarabağ üzrə komissiyanın məruzəsi ilə çıxış etdi və həmin məruzənin müzakirəsindən sonra 8 bənddən ibarət qərar qəbul edildi. Həmin qərarda göstərilirdi: a) Dağıdılmış Skobelevski rus kənd cəmiyyətinin azad torpaqları Muxtar Qarabağın ərazisinə daxil edilsin; b) Şuşa şəhəri Muxtar Qarabağ Dağlıq Vilayətinə daxil edilsin.[143] Digər tərəfdən, bu qərardan sonra Şuşa yeni yaradılan muxtar vilayətin ərazisində yeganə şəhər idi və bu şəhərin əhalisi başlıca olaraq, azərbaycanlılardan ibarət idi. Ermənilər ehtiyat edirdilər ki, vilayət mərkəzi kimi Şuşa şəhərinin azərbaycanlılardan ibarət olması, muxtar qurumda hakimiyyət orqanlarının onların nəzarətinə keçməsinə gətirib çıxara bilər. Məhz ona görə də onlar Qarabağda yeganə mərkəz ola biləcək bu şəhərə deyil, onun yaxınlı-

[139] Qarabağ muxtariyyəti və kürdüstanın sərhədlərini müəyyən edən komissiyanın iclasının protokolu.07.07.1923.// ARPİİ SSA, f.1,s.74, i.132, v.170

[140] Kürdüstan qəzasının yaradılması haqqında Azərbaycan MİK-nin dekreti. 21.07.1923.// ARPİİ SSA, f.1, s.125, i.303, v.33

[141] RKP MK Qafqaz Bürosunun plenumunun iclasının 12 saylı protokolu. 05.07.1921.// RDSSTA, f.64, s.1, i.1, v.122

[142] Muxtar Qarabağ vilayətinin yaradılması haqqında Azərbaycan MİK-nin dekreti. 07.07.1923.// AR DA, f.379, s.3, i.73, v.135

[143] Azərbaycan MİK-nin Rəyasət Heyətinin və XKS-nin birgə iclasının 15 saylı protokolu. 21.07.1923.// AR DA, f.379, s.3, i.67, v.63

ğında yerləşən kənd tipli Xankəndi qəsəbəsinə üstünlük verdilər. Əslində, Xankəndi tarixən müsəlmanların yaşadığı və Muxtar Vilayət yaradılarkən türk yaşayış məntəqəsi kimi qeydə alınan kiçik bir yaşayış məntəqəsi idi. Ona qəsəbə statusunun verilməsi Xankəndinin "paytaxt" olmaq zərurətindən irəli gəlirdi. 1920-ci ilin iyulundan başlayaraq, Xankəndinin mərkəz olması istiqamətində fikirlər səslənməyə başlanmış, 1922-ci ilin payızından etibarən isə bu istiqamətdə artıq əməli addımlar atılmağa başlamışdı. Hələ, 1920-ci ilin aprel ayının sonunda yaradılmış əsasən daşnaklardan ibarət olan Dağlıq Qarabağ erməni komitəsi az sonra çox asanlıqla Azərbaycan Kommunist Partiyasının qəza komitəsinə çevrilmişdi[144] və iyul ayının 11-də həmin komitənin başçısı kimi S.Ambarsumyanın Azərbaycan KP MK-ya göndərdiyi məruzədə bildirirdi ki, biz müsəlmanlar arasında partiya işinin qoyuluşundan tamamilə məlumatsızıq və müsəlman yoldaşlardan tamamilə ayrılıqda işləyirik. "Partiya inizamsızlığı Qarabağda bütün təşkilatı işi məhv olmaq təhlükəsi altına alır. Mərkəz lazımdır və bu mərkəz Qarabağın bütün rayonlarının coğrafi və iqtisadi baxımdan əlaqələndirən Xankəndi olmalıdır".[145] Göründüyü kimi, müxtəlif erməni təşkilatları hələ sovetləşmənin ilk aylarından başlayaraq, Xankəndini mərkəz kimi gözaltı etmişdilər. 1922-ci ilin dekabrında Qarabağ komitəsinin tərkibi Azərbaycan MİK-nin kommunist fraksiyası ilə birlikdə AKP MK-da təsdiq edildikdə komitəyə tapşırılırdı ki, Xankəndində məktəb və xəstəxana açılması işini həyata keçirsin.[146]

[144] Daşnakların bu xüsusiyyəti ilə bağlı hələ 1919-cu ildə N.Nərimanov deyirdi ki, "daşnaklar özlərinin otuz illik siyasi həyatında hamıya göstərdilər ki, Böyük Ermənistanla bağlı öz arzularını həyata keçirmək naminə onlar hər rəngi qəbul etməyə və hər maskanı geyməyə hazırdırlar." Bax: Yoldaş Nərimanovun nitqi (Qafqazı tutmaq üçün onun görüşləri). 1919.// ARPİİ SSA, f.609, s.1, i.45, v.15. N.Nərimanovun bu fikrini 1920-ci ilin payızında Qarabağda vəziyyəti öyrənmək üçün ora ezam edilmiş Azərbaycan Daxili İşlər Komissarlığının müvəkkili S.Atayev də təsdiq edir. AK(b)P MK-ya göndərdiyi məruzədə o yazırdı: "Şuşada işin ciddi qoyuluşu yoxdur, *keçmiş daşnakların, indiki erməni – kommunistlərin simasında (kursiv bizimdir – C.H.)* siyasi nöqteyi-nəzərdən partiyada pozucu və şübhəli ünsürlərin olması, onların açıq çirkin intriqaları, şəxsi haqq-hesabları mənim iştirakımla şəxsi intriqalar zəminində geniş partiya iclasında iş söyüşməyə, rəyasət heyətinə etinasızlığa və silahlı toqquşmaya gətirib çıxardı". Bax: S.Atayevin AK(b)P MK-ya məruzəsi. 31.10.1920.// ARPİİ SSA, f.1, s.1, i.81, v. 35(arxası)

[145] Azərbaycan K(b)P-nin Qarabağ qəza komitəsinin üzvlərinin Azərbaycan KP MK-ya məruzəsi. 11.07.1920.// ARPİİ SSA, f.1, s.1, i.126, v.20

[146] AKP MK-nın Rəyasət Heyətinin Azərbaycan MİK-nin kommunist fraksiyası ilə birlikdə keçirdiyi iclasın 56 saylı protokolu. 15.12.1922.// AR DA, f.379, s.3, i.58, v.175 (arxası)

Əsasən azərbaycanlılardan ibarət olan Şuşa şəhərinin əhalisinin bu məsələyə münasibəti necə idi? 1923-cü ilin avqust ayının 9-da Şuşa şəhər əhalisinin adından onların səlahiyyətli nümayəndələri Rüstəm Əliyev, İbrahim Musayev, Bəşir Sarabi və Hacı Şəmşıyevin Azərbaycan MİK-nə göndərdikləri ərizə bu baxımdan maraqlıdır. Ərizənin əvvəlində son yüz il ərzində Qarabağda cərəyan edən hadisələrə toxunaraq deyilirdi ki, "uzun illər (bir əsrdən artıq) ərzində Qarabağ Rusiya imperiyasının digər hissələri kimi, rus militarizminin zülmü altında inləyib". Sonra onlar Muxtar Vilayət yaranması ilə bağlı Şuşa şəhərinin və ətrafdakı müsəlman kəndlərinin Muxtar Qarabağ Vilayətinin tərkibinə daxil edilməsinə öz etirazlarını bildirir və Azərbaycan MİK-dən xahiş edirdilər ki, "Şuşa şəhəri və onun ətrafında olan müsəlman kəndləri iqtisadi baxımdan yeni yaradılan Kürdüstan qəzasının əhalisi ilə bağlıdır. Ona görə, əhali bizi vəkil edib ki, şəhərin və onun ətraf kəndlərinin bu qəzaya birləşdirilməsi məsələsini qaldıraq. Yuxarıda deyilənlərə əsasən biz əminik ki, Sovet hökuməti əhalinin maraqlarından yan keçməz, əksinə, həmişə onun ədalətli istəklərini xoş qarşılayar. Ona görə xahiş edirik ki, Şuşa şəhəri və onun ətraf kəndlərinin əhalisinin Kürdüstan qəzasına birləşdirilməsi ilə bağlı müraciətini təmin etməkdən imtina etməyəsiniz". Ərizənin sonunda Şuşanın və ətrafdakı müsəlman kəndlərinin səlahiyyətli nümayəndələri yazırdılar: "Əgər hər hansı dövlət və digər mülahizələrlə bizim yuxarıda ifadə olunmuş xahişimizi yerinə yetirmək mümkün deyilsə, onda xahiş edirik Şuşa şəhərini Dağlıq Qarabağın mərkəzi kimi saxlayasınız, onu *(mərkəzi – C.H.)* Xankəndinə keçirməyəsiniz".[147] Şuşa əhalisi nümayəndələrinin Azərbaycan MİK-nə müraciətinindən xəbər tutan kimi, yeni yaradılmış muxtar vilayətin erməni rəhbərliyi S.Kirova teleqram vurub bunun ehtikarlıq xarakteri daşıdığını bildirdilər. Şuşa qəza icraiyyə komitəsinin katibi S.Manusyan yazırdı ki, belə müraciətlər mərkəzin köçürülməsinin Şuşada ticarətin bağlanmasına gətirib çıxaracağını hiss edən tacirlərin, gözlədikləri gəlirdən məhrum olacaqları təhlükəsinin açıq ifadəsidir.[148] Lakin vilayətin erməni rəhbərliyinin müqavimətinə baxmayaraq, Şuşa əhalisi muxtar vilayətin tərkibində qalmamaq üçün öz səylərini davam etdirdilər. 1924-cü ilin yanvar ayının 4-də Şuşa əhalisinin adından səlahiyyətli nümayəndə kimi Miriş Mirbağırov və Ələsgər Quliyev surəti

[147] Şuşa şəhərinin səlahiyyətli nümayəndələri R.Əliyev, İ.Musayev, B.Sarabi və H.Şəmşiyevin Azərbaycan MİK-nə ərizəsi. 09.08.1923.// ARPİİ SSA, f.1, s.85, i.329, v.38

[148] S.Manusyanın S.Kirova teleqramı. 03.08.1923.// ARPİİ SSA, f.1, s.85, i.329, v.?

S.Kirov, M.C.Bağırov və Q.Orconikidzeyə olmaqla, Zaqafqaziya sovetlər qurultayına göndərdikləri teleqramda Şuşanın çoxminli azərbaycanlı əhalisinin adından bu şəhərin Kürdüstan qəzasına birləşdirilməsini tələb edirdilər.[149] Yalnız Şuşa şəhərinin azərbaycanlı əhalisinin ciddi cəhdlərindən sonra AKP MK 1924-cü ilin aprel ayının 17-də keçirilən iclasında Qarabağ Vilayət Komitəsinə tapşırdı ki, ətrafındakı türk kəndləri ilə birlikdə Şuşa şəhərini ayrıca inzibati rayona ayırsın.[150]

Muxtar Qarabağ Vilayətinin yaranması haqqında Azərbaycan MİK-nin dekretinin sonuncu, 5-ci bəndində göstərilirdi ki, Vilayətin əsasnaməsini hazırlamaq və Muxtar Qarabağ Vilayətinə faktiki olaraq inzibati vahid vermək, habelə, muxtar vilayətin sərhədlərini müəyyən etmək üçün Dağlıq Qarabağın, düzən Qarabağın, Kürdüstan və Azərbaycan SSR-in mərkəzi orqanlarının nümayəndələrindən ibarət qarışıq komissiya yaradılsın. Komissiyaya tapşırılırdı ki, avqust ayının 15-nə qədər öz işini başa çatdırsın.[151] Ona görə də, Muxtar Qarabağ vilayətinə hüquqi məzmun verməkdən ötəri 1923-cü ilin iyul ayının 14-də AK(b)P MK-nın Rəyasət Heyəti onun əsasnaməsinin hazırlanması məsələsini müzakirəyə çıxardı. Ə.Qarayevin iştirak edə bilməyəcəyini nəzərə alaraq A.Karakozov, Ç.İldırım, M.Xanbudaqov, M.Çalyan və S.Manusyandan ibarət komissiyaya rəhbərlik etmək D.Bünyadzadəyə tapşırıldı. Komissiaya ən qısa zamanda əsasnaməni hazırlayıb Rəyasət Heyətinin təsdiqinə verməli idi.[152] İyulun 23-də AKP MK Rəyasət Heyəti bu məsələni yenidən müzakirəyə çıxarıb əsasnamə layihəsində bəzi kiçik dəyişikliklər etdi. Eyni zamanda, iclasda Dağlıq Qarabağ işləri üzrə komitə ləğv edildi və onun bütün əmlakını muxtar vilayətin İnqilab Komitəsinə verildi.[153] Bununla yanaşı, Azərbaycan XKS iyul ayının sonunda Muxtar Dağlıq Qarabağ vilayətinə 8 min çervon *(1922-1947-ci illərdə SSRİ-də on manatlıq kağız pul vahidi – C.H.)*, 15 min qızıl manat dəyərində 5 min pud kerosin, müxtəlif tikinti materialları və

[149] M.Mirbağırov və Ə.Quliyevin Zaqafqaziya Sovetlər qurultayına teleqramı. Surəti Kirova, Bağırova və Orconikidzeyə. 04.01.1924.// RDSSTA, f.85, s.24, i.728, v.1

[150] AKP MK Rəyasət Heyətinin iclasının protokolundan. 17.04.1924.// ARPİİ SSA, f.1, s.174, i.136, v.41

[151] Muxtar Qarabağ vilayətinin yaradılması haqqında Azərbaycan MİK-nin dekreti. 07.07.1923.// AR DA, f.379, s.3, i.73, v.136

[152] Azərbaycan MİK-nın Rəyasət Heyətinin iclasının 25 saylı protokolu. 14.07.1923.// ARPİİ SSA, f.1, s.74, i.132, v.157

[153] Azərbaycan MİK-nın Rəyasət Heyətinin iclasının 27 saylı protokolu. 23.07.1923.// ARPİİ SSA, f.1, s.74, i.132, v.173

10 min arşın bez buraxdı.[154] 1923-cü ilin iyul ayının son günlərində Muxtar Qarabağ Dağlıq Vilayətinin əsasnaməsini hazırlayan komissiyanın geniş iclası keçirildi. İclasda 1923-cü ildə quberniya icraiyyə komitələri üçün qəbul edilmiş əsasnamə Muxtar Qarabağ Dağlıq vilayəti üçün də əsas kimi qəbul edilirdi. Muxtar vilayət erməni əhalisi üçün yaransa da, komissiyanın iclasında Qarabağın çoxlu sayda türk kəndlərinin də onun tərkibinə daxil olması haqqında qərar qəbul edildi. Hətta, komissiya üç nəfər əleyhinə olmaqla, böyük səs çoxluğu ilə Şuşa şəhəri və Xonaşen kəndinin düzən Qarabağa aid olması haqqında qərar qəbul etsə də, A.Karakozov təkid etdi ki, Şuşa şəhəri və Xonaşen ərazisi Dağlıq Qarabağın tərkibində qalmalıdır. Bir Karakozovun mövqeyi komissiyanın sədri də daxil olmaqla, iclasda iştirak edən altı nəfər azərbaycanlı rəhbər işçinin mövqeyindən üstün çıxdı. Eyni zamanda, iclasda düzən Qarabağın və Kürdüstanın idarəçilik forması və inzibati bölgüsü haqqında qərarlar qəbul edildi.[155] Bir il sonra, 1924-cü ilin iyun ayının 5-də Ağdam qəzası ilə Muxtar Qarabağ Dağlıq Vilayəti arasında sərhəd məsələlərini aydınlaşdıran komissiyanın iclasında Azərbaycan MİK-nin 6 avqust əmrinə əsasən Xonaşen torpaqlarının, o cümlədən, Kuropatkino kəndinin ərazisinin muxtar vilayətin sərəncamında qalması haqqında qərar qəbul edildi. Qərarın ikinci bəndinə əsasən qeyd edilən ərazilərdə artıq 1924-cü ildə əkin işləri aparmış avşarlar əkdikləri sahələrin məhsulunu toplamaq hüququnda qaldılar.[156]

Bundan sonra Dağlıq Qarabağdakı vəziyyəti öyrənmək və izahat işləri aparmaq üçün AK(b)P MK Rəyasət Heyətinin 20 avqust və MK katibliyinin 5 sentyabr qərarına uyğun olaraq E.Xanbudaqov, İ.Dovlatov və M.C.Bağırovdan ibarət bir heyət Qarabağa ezam edildi. Onlara tapşırıldı ki, müsəlmanların yaşadığı Kolanı kəndi ilə ermənilərin yaşadığı Sarov kəndi arasında yaranmış münaqişəni də ətraflı şəkildə öyrənsinlər. Bu ezamiyyətin yekunları oktyabr ayının 8-də Rəyasət Heyətində geniş müzakirə edilib müvafiq qərar qəbul edildi. Qərarda Dağlıq Qarabağ üçün haqqı ödənilmədən meşə materiallarının buraxılması Torpaq Komissarlığına tapşırılırdı; XKS-nə tapşırıldı ki, Dağlıq Qarabağ üçün borc toxum verilməsinin artırılması məsələsini qaldırsın, Stepan kənddə *(Xankəndində - C.H.)* elektrik stansi-

[154] «Бакинский Рабочий», 1923, 30 июля

[155] Muxtar qarabağ Dağlıq vilayətinin əsasnaməsini hazırlayan komissiyanın iclasının 1 saylı protokolu. İyul 1923.// ARPİİ SSA, f.1, s.169, i.249/I, v.63-65

[156] MDQV ilə Ağdam qəzası arasında sərhəd məsələlərini aydınlaşdıran komissiyanın iclasının protokolu. 05.06.1924.// ARPİİ SSA, f.1, s.74, i.137, v.59

yası qurulması üçün vəsait buraxılması işini sürətləndirsin və Dağlıq Qarabağın aclıq çəkən əhalisinə təcili qaydada yardım göstərsin; Karakozova və Torpaq Komissarlığına tapşırıldı ki, Dağlıq Qarabağda torpaq işləri ilə bağlı məsələləri aydınlaşdırsınlar; Səhiyyə Komissarlığına tapşırıldı ki, Stepan kənddə *(Xankəndində - C.H.) xəstəxana açsınlar; Torpaq Komissarlığına tapşırıldı ki, Stepan kənddə (Xankəndində - C.H.)* aqromənteqə təşkil etsin (Ağdam və Tərtər aqromənteqələrinin hesabına olmamaq şərti ilə). Eyni zamanda, iclasın qərarı ilə Qarabağ vilayət komitəsinə və vilayət icraiyyə komitəsinə təklif edilirdi ki, əsasən müsəlmanlar yaşayan kəndlərin Kürdüstan qəzasına verilməsi ilə bağlı Qaladərəsi rayonunda sərhədləri yenidən nəzərdən keçirsin.[157] Sonuncu məsələ ezamiyyətdən qayıtdıqdan sonra M.C.Bağırovun AK(b)P MK-ya yazdığı geniş xidməti məlumatda irəli sürülmüşdü. Bağırov bildirirdi ki, 10 min nəfər müsəlman əhalisinin yaşadığı Şuşa şəhəri istisnasız olaraq Kürdüstan qəzasına birləşmək istəyir. O təklif edirdi ki, Şuşa şəhəri Kürdüstan qəzasına birləşdirilə bilər və bundan sonra qəza mərkəzi bilavasitə Şuşaya köçürülə bilər. M.C.Bağırov başdan-başa müsəlmanlardan ibarət olan Şuşa şəhərinin Dağlıq Qarabağın tərkibinə verilməsini səhv addım hesab edirdi. O yazırdı: "Xankəndi, Şuşa və Abdallar rayonlarında 8 min əhalisi olan Xəlfəli, Zarıslı, Musulmanlar və digər bir sıra müsəlman kəndləri vardır ki, onları Abdallardan idarə etmək daha asandır, nəinki Xankəndidən. Bu müsəlman kəndləri yalnız ona görə Dağlıq Qarabağa verilib ki, həmin kəndlərin arasında 1.150 nəfərə yaxın ermənin yaşadığı Qaladərəsi kəndi yerləşir. Bütün bu rayon nədənsə Xankəndinə birləşdirilib".[158] Kolanı kəndi ilə Sarov kəndi arasında münaqişəyə toxunan Bağırov izah edirdi ki, qarışıqlıq dövründə Cavanşir qəzasında mərkəzi orqanların bir sıra qərarları ilə Kolanı müsəlmanları Sarov erməni kəndini tutdular, lakin sonra onlar tutduqları əraziləri boşaldıb öz yerlərinə köçdülər, erməni sarovlular da öz növbəsində kolanıların tutduqları yerlərini boşaltmalı idilər. Bağırov yazırdı: "Bizim işçilərin işə cinayətkar münasibəti nəticəsində sarovlular öz yerlərinə qayıtmaq əvəzinə, onların bir hissəsi kolanıların torpaqlarında qaldı, bir hissəsi isə Sarova qayıtdı. Beləliklə, 5 min nəfər kolanılı yerləri müəyyən olunmadan qalmaqdadırlar. Burada

[157] AKP MK Rəyasət Heyətinin iclasının 40 saylı protokolu. 08.10.1923.// ARPİİ SSA. f.1. s.169, i.249/I, v.51

[158] AK(b)P MK-nın üzvü M.C.Bağırovun AK(b)P MK-ya "Qarabağın vəziyyəti haqqında xidməti məlumatı".1923.// ARPİİ SSA, f.1, s.74, i.134, v.7-8

qeyd etmək lazımdır ki, kolanılar Qarabağın ən narahat tayfalarından biridir və əgər onlar indiyə qədər susublarsa, bu ancaq ona görədir ki, kolanılar məsələnin hakimiyyət tərəfindən ədalətli həllini gözləyirlər".[159] Öz xidməti məlumatında Bağırov daha ciddi bir məsələyə də toxunurdu. O yazırdı ki, "Ağdam Qaryagin yolu üzərindəki Xanabad ərazisində qədim zamanlardan bəri Xocalı, Muğanlı və digər müsəlman kəndləri yerləşiblər, eyni zamanda, onlarla qonşuluqda ermənilər də yaşayıblar. Qırğınlar zamanı bütün bu kəndlər, həm erməni kəndlər, həm də müsəlman kəndləri dağıdıldı və əhalisi qaçdı. Son vaxtlar onlar hamısı qayıdıblar, lakin onlara torpaq sahəsi ayrılmasında belə kobud səhvlərə yol verilib ki, hətta müsəlman qəbiristanlıqlarını ermənilərə veriblər və indi müsəlmanların torpaqlarını, qətiyyən o torpaqlara aidiyyəti olmayan ermənilər əkirlər, müsəlman kəndləri isə dayanıb bu məsələnin həllini gözləyirlər".[160]

Azərbaycan MİK-nin 7 iyul qərarından sonra belə narazılıqların kütləvi xarakter daşımasına baxmayaraq, nəhayət, uzun sürən müzakirələrdən sonra son variantı M.C.Bağırov, T.Əliyev və A.Karakozov tərəfindən redaktə edilən "Muxtar Qarabağ Dağlıq vilayətinin əsasnaməsi" 1924-cü ilin noyabr ayında keçirilən Azərbaycan Sovetlərinin MİK-nin növbəti sessiyasının müzakirəsinə verildi və MİK-in katibi M.Xanbudaqov əsasnamə haqqında məruzə etdi. Bu məruzə ilə bağlı qərar verildi ki, əsasnamə baxılmaq üçün MİK-in Rəyasət Heyətinə verilsin.[161] Elə həmin ayda əsasnamə mətbuatda dərc edildi. Onun birinci maddəsində təsbit edilirdi ki, "Muxtar Qarabağ Dağlıq vilayəti Azərbaycan SSR-in tərkib hissəsidir". İkinci maddəyə görə MQDV-də kargüzarlıq və məhkəmə işləri, məktəblərdə təlim ana dilində aparılmalı idi. Üçüncü maddəyə görə, MQDV Azərbaycanın respublika orqanlarının işində proporsional prinsip üzrə iştirak etməli idi.[162] Muxtar Vilayət əhalisinin dövlət və ana dili ilə bağlı Əsasnamədə göstərilirdi ki, Vilayətin dövlət, ictimai idarələrində və təşkilatlarında ümumi istifadə dili erməni əhalisinə münasibətdə erməni dili, türk milli azlığına münasibətdə türk dilidir.[163] Bununla da azərbaycanlılar öz ölkələrinin bir hissəsində milli azlıq

[159] Yenə orada, v.7(arxası)

[160] Yenə orada, v.7(arxası)-8

[161] Azərbaycan Sovetlərinin MİK-nin plenumunun 2-ci çağrış növbəti 4-cü sessiyasının iclasının protokolu. 23.11.1923.// AR DA, f.379, s.3, i.145, v.46

[162] Muxtar Qarabağ Dağlıq vilayətinin əsasnaməsi.1924.// ARPİİ SSA, f.1, s.74, i.137, v.98

[163] Muxtar Qarabağ Dağlıq vilayətinin əsasnaməsi.1924.// AR DA, f.379, s.3, i.1733, v.12 (arxası)

vəziyyətinə düşdülər. Əvvəlcə muxtar vilayətin əsasnaməsini hazırlayan komissiyanın təklifi ilə 1923-cü ilin iyul ayında Şuşa, Cavanşir və Qubadlı qəzalarından 169 yaşayış məntəqəsi onun tərkibinə daxil edilsə də, 1924-cü ilin noyabrın 26-da "Əsasnamə" dərc edildikdə, bu əsasnaməyə görə, Şuşa qəzasının Şuşa və Xankəndi şəhərləri daxil 115 kəndi əhatə edən 16 kənd cəmiyyəti, Cavanşir qəzasının 52 kəndi əhatə edən 6 kənd cəmiyyəti, Qaryagin qəzasının 30 kəndini əhatə edən 3 kənd cəmiyyəti, Qubadlı qəzasının Qaladərəsi kənd cəmiyyəti Muxtar Qarabağ Dağlıq vilayətinin tərkibinə daxil edildi.[164] Beləliklə, Muxtar Qarabağ Dağlıq Vilayətinin tərkibinə daxil edilən yaşayış məntəqələrinin sayı 198-ə çatdırıldı.[165] Lakin ermənilər heç vaxt onlara edilən güzəştlərlə, Dağlıq Qarabağa geniş muxtar qrum statusu verilməsi ilə kifayətlənmədilər. A.Karakozov Azərbaycan KP MK-ın katibi S.Kirova yazırdı ki, "Ədliyə Komissarlığının kollegiyasının qərarı ilə Naxçıvanda Ali məhkəmə təşkil olunur, biz də isə yox. Ali məhkəmənin şöbəsinin Qarabağda açılması haqqında Azərbaycan MİK-in dekreti mövcuddur. Mənim fikrimcə, bundan geri çəkilmək siyasi baxımdan münasib deyildir. Digər tərəfdən, Qarabağ muxtar vilayət adlansa da, öz konstitusiyasının məzmununa görə Naxçıvan diyarından heç nə ilə fərqlənmir. Ona görə belə hesab edirəm ki, Naxçıvan diyarına aid bütün qərarların Qarabağa da şamil edilməsi məqsədəuyğun olardı".[166]

1923-cü ilin avqust ayının 1-də MİK-in kiçik Rəyasət Heyətində Piricanın Kürdüstan qəzasının, Ağdam şəhərinin Ağdam qəzasının mərkəzi hesab edilməsi və Cəbrayıl qəzasının mərkəzinin Qaryagindən Cəbrayıla keçirilməsi haqqında Rəyasət Heyətinə təvsiyə verildi.[167] Avqustun 6-da Azərbaycan MİK-nin Rəyasət Heyəti Ağdam mərkəz olmaqla, Ağdam qəzasının, Cəbrayıl mərkəz olmaqla, Cəbrayıl qəzasının və Pirican mərkəz olmaqla, Kürdüstan qəzalarının inzibati-ərazi bölgüsünü təsdiq etdi.[168] 1923-cü ilin sentyabr ayının 18-də Manusyanın sədrliyi və Ter-Zaxarovun katibliyi ilə keçirilən AK(b)P Qarabağ Vilayət Komitəsinin iclasında Xankəndi şəhərinin adının dəyişdirilməsi məsələsi müzakirə edildi. İclasın qərarında

[164] Muxtar Qarabağ Dağlıq vilayətinin haqqında Azərbaycan MİK-nin qərarı.1924.// ARPİİ SSA, f.1, s.169, i.249/II, v.33-34

[165] Əlavə məlumat üçün bax: A.Paşayev. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, s.342

[166] A.Karakozovun S.Kirova məktubu. 1925.// ARPİİ SSA, f.1, s.74, i.142, v.100

[167] Azərbaycan MİK-nin kiçik Rəyasət Heyəti iclasının protokolu. 01.08.1923.// AR DA, f.379, s.2, i.3082, v.47

[168] Azərbaycan MİK-nin əmri. 06.08.1923.// AR DA, f.379, s.3, i.89, v.1-1(arxası)

deyilirdi: "Stepan Şaumyanın və 26 Bakı komissarlarının xatirəsini yad etmək məqsədilə Xankəndi şəhəri Stepanakert adlandırılsın".[169] Elə həmin gün Muxtar Qarabağ Dağlıq vilayəti MİK-nin qərarı ilə Xankəndi şəhərinin adı dəyişdirilib, Stepanakert qoyuldu. Azərbaycan rəhbərliyi bu dəyişikliyi "Stepan kənd" kimi, təsəvvür etsə də və hətta, bir sıra rəsmi sənədlərdə bir müddət Xankəndini "Stepan kənd" kimi, adlandırsa da, ermənilər şəhərin adını "Stepanakert" kimi rəsmiləşdirdilər.[170]

Beləliklə, Cənubi Qafqazda sovet hakimiyyətinin ilk illərində Dağlıq Qarabağın ərazi məxsusluğu uğrunda mübarizəyə belə yekun vuruldu. Azərbaycana rəhbərlik edən S.M.Kirov AK(b)P-nin 1924-cü ilin may ayında keçirilən VI qurultayında Dağlıq Qarabağa muxtariyyət verilməsi ilə bağlı deyirdi: "Bizim bu sahədə diqqəti cəlb edən ən böyük uğurumuz ola bilsin, tam olmasa da, hər halda, Qarabağ məsələsi deyilən məsələnin əhəmiyyətli dərəcədə həll edilməsindən ibarət oldu. Bu məsələ Zaqafqaziya Federasiyası tərəfindən diktə edilən məsələlər sırasına daxil idi".[171] N.Nərimanov bu prosesi təhlil etdikdən sonra 1924-cü ilin may ayının 27-də yazırdı: "Dağlıq Qarabağ Mirzoyanın güclü təsiri altında Muxtar Vilayət elan edilmişdir. Mənim vaxtımda bu mümkün olmamışdı, ona görə yox ki, mən bu muxtariyyətin əleyhinə idim, sadəcə olaraq, ona görə ki, erməni kəndlilərinin özləri bunu istəmirdilər. Mirzoyan bu müddət ərzində erməni daşnak müəllimlərin köməyi ilə zəmin hazırladı və məsələni Zaqafqaziya Diyar Komitəsində keçirdi".[172] N.Nərimanov yaxşı başa düşürdü ki, Azərbaycanın başına gələn müsibətlər bununla bitmir, Dağlıq Qarabağa muxtariyyət verilməsini o, haqlı olaraq, Azərbaycanın fəlakətlərinin sonu deyil, başlanğıcı hesab edirdi və yazırdı: "Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir. Mənim zərrə qədər də şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyi erməni daşnaklarına tapşırılır".[173] Qarabağın dağlıq hissəsinə

[169] К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. Документы и материалы, с.187-188

[170] Xankəndinin "Stepan kənd" kimi ifadə olunması ilə bağlı bax: Azərbaycan K(b)P MK-nın Rəyasət Heyətinin iclasının 40 saylı protokolu. 08.10.1923.// ARPİİ SSA, f.1, s.74, i.134, v.3; ARPİİ SSA, f.1, s.169, i.249/I, v.69

[171] S.M.Kirovun AK(b)P-nin VI qurultayındakı məruzəsindən. 05.05.1924.// ARPİİ SSA, f.1, s.169, i.249/II, v.4

[172] N.Nərimanov. Uçqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı, 1992, s.59

[173] Yenə orada, s.59-60

muxtariyyət verilməsi ilə başlanan uzunmüddətli faciənin kökündə də məhz, sovetləşmədən sonra Azərbaycanın taleyinin, N.Nərimanovun dili ilə desək, yadlara etibar edilməsi ilə bağlı idi. Q.Orconikidzenin hələ, 1920-ci ilin iyul ayında irəli sürdüyü "Qarabağda muxtariyyət elan edib, erməni əhalisini təşkilatlandırmaq" ideyası son nəticədə zamanın "sınağından" çıxdı və Qarabağ məsələsi yeni dövrdə, sovetlərin dağılmasından sonrakı dövrdə, regiona nəzarət baxımından Rusiyanın əlində güclü təsir vasitəsinə çevrildi.

V FƏSİL

APREL İŞĞALINDAN SONRA CƏNUBİ QAFQAZDA RUS - TÜRK MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCAN

§1. Azərbaycanın sovetləşməsi və regionda rus-türk münasibətləri

Azərbaycanın sovetləşməsindən sonra yeni bolşevik hökumətinin xarici siyasətinin başlıca istiqamətlərindən biri Türkiyə ilə münasibət məsələsi idi. 1918-ci ilin mayında Azərbaycan istiqlaliyyətinin elan edilməsində, xüsusilə, Bakının düşməndən azad edilməsində həlledici rol oynamış Osmanlı imperatorluğu yenilmiş, onun yüksək rütbəli hərbçiləri dünyanın müxtəlif yerlərinə səpələnmiş, İngiltərə əleyhinə mübarizədə müttəfiq axtarışı bir sıra səhv addımların atılmasına gətirib çıxarmışdı. Azərbaycanın taleyində mühüm rol oynamış keçmiş hərbi nazir Ənvər paşanın rus bolşevikləri ilə İngiltərə əleyhinə cəbhə yaratmaq arzuları və bu siyasətin dünənki düşmənçiliklə bugünkü müttəfiqlik arasında ləngər vurması gerçəklikdən uzaq idi. Bir sıra türk zabitlərinin Moskvada bolşeviklərlə razılığa gəlib, Anadolunu xilas etmək istəkləri, bolşeviklərin Türkiyəyə getmək bəhanəsi ilə Azərbaycana soxulması üçün əlverişli şərait yaratdı. Azərbaycan cümhuriyyətinin qurucularından biri olan və Milli Məclis sədrinin müavini, cümhuriyyət parlamentinin bütün iclaslarına sədrlik etmiş, bolşevik istilasından sonra Tiflisə sığınmış Həsən bəy Ağayevin 1920-ci ildə Ənvər paşaya yazdığı məktub bu hadisələri çox qabarıq əks etdirir. Həsən bəy yazırdı: "Dövlətli Paşa həzrətləri! Neçə müddətdən bəri rus bolşevikləri haqqında Azərbaycan mətbuatı "İttihad" qəzetəsi və Bakıda yaşayıb da zat-i alilərinizin adından çalışan türk zabitləri vasitəsilə növbənöv şayiələr və saxta məlumat intişar edilməkdə idi. Milli Moskva Şura hökuməti və zat-i aliləri arasındakı müahidənamə səbəbilə tərəflərin orduları Anadoluda birləşərək, birlikdə Antantaya qarşı müharibə yapıb, aləm-i islamı ümumən və türkiyyəti

xüsusən sahil-i səlamətə çıxaracaqlardır deyə, Azərbaycan türkləri arasında ciddi surətdə propaqanda yapılmaqda idi. Zikr olunan şaiyatdan ən ümdə və önəmlisi bu kimi, şaiyatlar idi: Rus ordusu Anadoluya Azərbaycan yolu ilə keçməli imiş və Bakını kənarda buraxıb, Qarabağ vasitəsilə Ermənistana keçib Anadoluya varacaq imiş". Həsən bəy Ağayev məhz, bu səhv addımların nəticəsində hakimiyyətin bolşeviklərə təhvil verildiyini və Anadoluya getmək bəhanəsi ilə yola çıxan Qırmızı Ordunun Bakıya girdiyini bildirirdi. O, Rusiya sovetlər hökumətinin Azərbaycanla bağlı siyasətinin neft amili üzərində qurulduğunu vurğulayaraq, əslində, Azərbaycanın rus, erməni və gürcülər arasında bölüşdürülməsi planının olduğunu qeyd edirdi. Həsən bəy yazırdı: "Azərbaycanın halı getdikcə fənadır. Ruslar ermənilərlə birlikdə qüvvələrini artıraraq, Azərbaycanı tamamən məhv etməkdədirlər". Böyük nüfuz sahibi olan Ənvər paşanın ruslar tərəfindən aldadıldığına toxunaraq, o, Azərbaycanın xilasi naminə ondan kömək istəyir və yazırdı: "Əgər zat-i aliləri tərəfindən yardım olarsa, türk Azərbaycanı kəndi haqq və istiqlalını hər halda müdafiə və mühafizə etməyə qadir olur".[1] Həsən bəy Ağayevin Ənvər paşaya ünvanladığı məktubu Azərbaycanın taleyində, 1918-ci ildə onun yadellilərdən xilas olmasında Türkiyənin rolunu obyektiv əks etdirməklə yanaşı, yeni milli hərəkatının başlamasında, məmləkətin bolşevik istibdadından qurtuluşunda yenə nəzərlərin Türkiyəyə dikildiyini bütün tərəfləri ilə ortaya qoyur.

Həsən bəy haqlı idi. Dünya müharibəsindəki ağır məğlubiyyətin acısını yaşayan keçmiş hərbi nazir indi Türkiyənin nicatını bolşeviklərlə əməkdaşlıqda axtarırdı. 1920-ci ilin aprel işğalı ərəfəsində RK(b)P MK Siyasi Bürosu iki dəfə – aprel ayının 20-də və 23-də Rusiyada iki türk qəzetinin nəşri ilə bağlı Ənvər paşanın müraciətini müzakirə etmiş və sonuncu iclasda ona və həmfikirlərinə maliyyə yardımı göstərmək barədə qərar qəbul edilmişdi.[2] Bu qəzetlərdən biri Türkiyəyə, o birisi isə Rusiya Federasiyasının hüdudlarından kənarda olan digər müsəlman ölkələrinə xidmət etməli idi. Rusiya Xarici İşlər Komissarlığı belə hesab edirdi ki, İngiltərə ilə müqavilə Rusiyanın hüdudlarından kənar təbliğatı qadağan edir, ölkənin daxilində buna elə bir məhdudiyyət yox idi. Məhz, bunu nəzərə alaraq bolşeviklər Ənvər Paşanın qəzetləri vasitəsi ilə Sovet Rusiyasını Şərqin bütün məzlum

[1] Həsən bəy Ağayevin Ənvər paşaya məktubunun tam mətni üçün bax: Rafael Hüseynov. Yurdun adındakı can. Bakı, 2010, s.13-19

[2] Политбюро ЦК РКП(б) – ВКП(б) повестки дня заседаний. Том I. 1919-1929. М., 2000, с.97

xalqlarının xilaskarı roluna təqdim etmək istəyirdilər. G.Çiçerin RK(b)P MK-ya yazırdı: "Ənvərlə kamalçılar arasında fikir ayrılıqları nəzərə alınarsa, o, öz qəzetini Rusiyadan başqa heç yerdə nəşr edə bilməz. Böyük təzyiq imkanlarına malik olmaq üçün hakim kamalçı qruplaşmaya daxil olmayan hər kəsi müdafiə etmək bizim üçün çox vacibdir. Kamalçılarla əlaqələrimizin gedişində artıq Ənvər bizə mühüm xidmət göstərmişdir. O, vəziyyətdən çox yaxşı baş çıxaran müstəsna dərəcədə mahir siyasətçidir və yaxşı başa düşür ki, biz ona lazımıq. Biz təklif edirik ki, onun iki qəzetinin çıxarılmasına icazə vermək və bu işdə ona hərtərəfli köməklik göstərmək lazımdır, lakin türk dilini bilən kommunistlərdən kiməsə tapşırmaq lazımdır ki, bu qəzetləri izləsin və onların məzmunu haqqında mütəmadi olaraq, bizə məlumat versin. Özünün xidməti qeydində Ənvər yalnız bu qəzetlərin nəşrinə başlamaq üçün zəruri olan kiçik rəsmiyyətçilik məsələlərinə toxunur, indiki anda qəti şəkildə o, maliyyə yardımı haqqında danışmır. Hazırda bu məsələnin həllinə yalnız prinsipial razılığın verilməsi tələb olunur".[3] Əslində, bütün bunlar belə bir fikir söyləməyə əsas verir ki, Ənvər paşa indi bir vaxtlar II Vilhelmin bolşeviklərlə oynadığı oyunu oynayırdı.[4]

Keçmiş Türkiyənin Rusiyada nicat axtaran nümayəndələri ilə yanaşı, yeni Türkiyənin Antantaya qarşı ölüm-dirim savaşına başlamış vətənpərvərləri də İngiltərə əleyhinə bolşevik Rusiyası ilə əməkdaşlığa hazır idi. Bakıya hücum ərəfəsində Q.Orconikidze V.Leninə və G.Çiçerinə məlumat verirdi ki, "Türkiyədə milli hərəkatın lideri Mustafa Kamal paşa ingilis hücumlarından onları müdafiə etmək üçün sovet qoşunlarının Türkiyə sərhədlərinə buraxılmasını Azərbaycan hökumətindən tələb edir".[5] Hələ 1919-cu ilin payızından Xəlil paşa (Kut) başda olmaqla, Qafqazda fəallaşan türk emissarlarının başlıca vəzifəsi 1920-ci ilin yazında "sovet idarəsini türk hüduduna qədər" çatdırmaqdan ibarət idi. Xəlil paşa öz xatirələrində yazırdı ki, "sovet hüdudunu Türkiyəyə qədər aparmaq açıqca Azərbaycanı ruslara təslim etmək demək idi. İstiqlalı və istiqbalı üçün əmək sərf etdiyimiz Azərbaycanı, rəngi nə olursa-olsun, rusların idarəsi altına verməyi bir vətən parçası saydığım Azərbaycana xəyanət sayırdım. Anadoluda istiqlal üçün döyüşərkən, bu mənim və digər türk paşalarının

[3] G.Çiçerin – RK(b)P MK-ya. Aprel 1920.// RDSSTA, f.5, s.2, i.315, v.38.

[4] Aleksandr Bodrero. Bakıya səfər haqqında hesabat. 18.09.1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 1. CERCEC, EHESS, Paris, p.13

[5] Bakıda vəziyyət haqqında Q.Orconikidzenin V.Lenin və G.Çiçerinə teleqramı. 23.04.1920.// RDSSTA, f.85, s.13, i.6, v.1.

maddi və mənəvi intiharından başqa bir şey deyildi".[6] Lakin bütün bu tərəddüdlərə baxmayaraq, Türkiyənin Şərq siyasətini formalaşdıran Kazım Qarabəkir paşanın Azərbaycana göndərilən türk zabitlərinə başlıca tövsiyəsi belə idi: "Hal-hazırda Azərbaycanda Müsavat hökuməti hakimdir. Onlara bir neçə dəfə xəbər göndərməyimə baxmayaraq, Türkiyə ölmüşdür deyə, bizə yardım etmirlər. Halbuki, gec-tez ermənilər əzərik. Bolşeviklərin də yaxın zamanlarda Qafqazı aşacaqlarına şübhə etməmək lazımdır. Bunun üçün Azərbaycan hökumətinin vaxt keçirmədən bolşeviklərlə əlaqə qurub anlaşması və Arpaçay boylarında türklərlə bolşeviklərin birləşməsinə mane olmaması zəruridir".[7] 1920-ci ilin yazında yaranmış siyasi şərtlər daxilində türk milli mücadiləsinin rəhbərləri Azərbaycanın müstəqilliyinin Paris Sülh konfransı tərəfindən de-fakto tanınmasına, Antantanın Türkiyə ilə Sovet Rusiyasının birləşməsinə mane olmaq cəhdi kimi baxır, bunun Anadolu milli mücadiləsinə qarşı yönəldiyini zənn edirdilər.[8] Bu fikrin formalaşmasında Qafqazda fəaliyyət göstərən türk kommunistlərinin ingilislərlə bolşevizm əleyhinə əməkdaşlıq edən Azərbaycan hökumətinə qarşı Anadolu komandanlarına verdiyi gizli məlumatlar az rol oynamamışdı.[9] Eyni zamanda, türk kommunistləri Anadoluda başlanmış milli mücadilənin kommunist məzmununa malik olması barədə mərkəzi bolşevik mətbuatına materiallar ötürürdülər. "İzvestiya" qəzeti 1920-ci ilin aprel ayında Vladiqafqazdan aldığı xəbər əsasında "Türk inqilabçıları Sovet Rusiyasına tərəfdardır" başlıqlı məlumat yaymışdı. Həmin məlumatda, Anadolu vilayətlərinin konfransında Türkiyəni azad etmək üçün inqilabi komitənin yaradıldığı və komitənin qətnaməsində Sovet Rusiyasının Şərq xalqlarının yeganə xilaskarı olduğu bildirilirdi.[10]

Şərq ordusu komandanlığından və Qafqazda fəaliyyət göstərən türk kommunistlərindən bolşeviklərin ingilislərlə sazişə gedə biləcəyi haqqında çoxlu sayda həyəcanlandırıcı məlumatlar aldıqdan sonra yeni formalaşan Türkiyə Böyük Millət Məclisi (TBMM) ruslarla əməkdaşlığa qərar verdi.[11] 1920-ci ilin aprel ayının 26-da K.Qarabəkir paşaya məlumat verildi ki, bol-

[6] Halil Paşa. Bitmeyen savaş. İstanbul, 1997, s.324

[7] Kazım Karabekir. İstiklal Harbimiz. Cilt I. İstanbul, 2006, s.328

[8] Yenə orada, s.513

[9] Bax: Yenə orada, s.577-578

[10] Bax: Известия, 1920, 16 апреля

[11] Ətraflı məlumat üçün bax: В.Гафаров. Русско – турецкое сближение и независимость Азербайджана (1919-1921 гг.). // Кавказ и глобализация, том 4, выпуск 1-2, 2010, с.244-245

şevik ruslarla iş və hərəkət birliyinə getmək TBMM tərəfindən qəbul edilib. Bu məqsədlə bir missiyanı təlimatlandırıb, Bakıya göndərmək ona tapşırılırdı. Eyni zamanda, Mustafa Kamal paşanın aprel ayının 26-da Türkiyə Böyük Millət Məclisinin adından Sovet hökumətinə ünvanlanmış məktubu Novorossiysk vasitəsi ilə Moskvaya yola salındı. Orada deyilirdi: "Birincisi. Biz öz üzərimizə öhdəlik qəbul edirik ki, imperialist hökumətləri ilə mübarizə aparan və bütün məzlumları onların əsarətindən azad etmək vəzifəsini qarşısına məqsəd qoyan rus bolşevikləri ilə bütün fəaliyyətimizi və bütün hərbi əməliyyatlarımızı birləşdirək. İkincisi. Əgər sovet qüvvələri Gürcüstan əleyhinə hərbi əməliyyat başlamağı nəzərdə tutursa və yaxud diplomatik yolla, öz təsiri vasitəsi ilə Gürcüstanı ittifaqa girməyə məcbur edə bilsə, habelə, ingilislərin Qafqaz ərazisindən qovulmasını təmin edə bilərsə, Türkiyə hökuməti imperialist Ermənistan əleyhinə hərbi əməliyyata başlamağı mümkün sayır və bundan əlavə təminat verir ki, Azərbaycan Respublikasını sovet dövlətləri dairəsinə girməyə məcbur edə biləcəkdir. Üçüncüsü, ölkəmizi işğal edən imperialist qüvvələri ölkəmizdən qovmaq və imperializmə qarşı başlanan ümumi mübarizəmizi davam etdirmək məqsədi ilə ölkə daxilində qüvvələrimizi artırmaq üçün Sovetlər Birliyinin əvvəlcə beş milyon qızıl lirə verməsini, danışıqlarda müəyyən ediləcək miqdarda silah, hərbi sursat və bunlardan əlavə, hərbi texnika üçün tikinti materialları və tibbi sarğı ləvazimatları, eyni zamanda, Sovet hökumətinin tələbinə uyğun olaraq, şərqdə hərəkətə keçəcək ordumuz üçün qida maddələri ilə təmin edilməsini Sovet Rusiyasından xahiş edirik".[12]

Əlbəttə, müstəqil Qafqaz respublikalarının sovet siyasətinin cazibəsinə daxil edilməsi məsələsi hələ 1919-cu ilin payızında müzakirə mövzusuna çevrilmişdi. Həmin ilin noyabr ayının 19-da RK(b)P Qafqaz Diyar Komitəsi ilə Türkiyə müvəqqəti hökuməti adından çıxış edən "Qaraqol" inqilabi təşkilatı arasında gizli şəkildə hazırlanmış müqavilə layihəsi bunun açıq ifadəsi idi.[13] Məhz, 1920-ci ilin yanvar ayının 11-də, yəni, Azərbaycanın və Gürcüstanın müstəqilliyi Versal Ali Şurası tərəfindən de-fakto tanınan gün PK(b)P Qafqaz Diyar Komitəsi ilə Türkiyə inqilabi hökumətinin adından çıxış edən "Qaraqol" cəmiyyəti arasında bir müqavilə bağlanmışdı və həmin müqavilənin 11-ci maddəsində göstərilirdi ki, Qafqazın Qərbpərəst

[12] Mustafa Kamal paşanın Sovet hökumətinə məktubu. 26.04.1920.// RF XSA, f.04, s.51, q.321a, i.54868, v.1.

[13] RK(b)P Qafqaz Diyar Komitəsi ilə "Qaraqol" cəmiyyəti arasında hazırlanmış müqavilənin layihəsi. 19.11.1919.// RDSSTA, f.544, s.4, i.12, v.13-14(arxası)

siyasət yeridən hər üç respublikası – Azərbaycan, Gürcüstan və Ermənistan imperializmə qarşı mübarizədə Sovet Rusiyasına və Türkiyə Müvəqqəti İnqilabi hökumətinə mane olur. "Qaraqol" cəmiyyəti təminat verir ki, Qafqazda kommunist partiyaları və kommunist təşkilatlarına yardım göstərəcəkdir ki, orada mövcud Qərbpərəst rejimləri devirsinlər və İngiltərəyə qarşı sazişi imzalayan hökumətləri hakimiyyətə gətirsinlər. Azərbaycanda çevriliş etmək üçün "Qaraqol" cəmiyyəti ölkənin türk əhalisinin Türkiyə inqilabi hökumətinə rəğbətindən və Azərbaycan əhalisi içərisində populyar olan özünün ayrı-ayrı nümayəndələrinin nüfuzundan istifadə edəcəyini bildirirdi. Azərbaycanda Sovet hökumətinin tərkibinə gəldikdə isə, sənəddə bildirilirdi ki, bu məsələ ölkənin zəhmətkeş əhalisinin qurultayının azad qərarı ilə həll edilməlidir. Müqavilədə olan tərəflər qurultayın iradəsinə hər hansı bir təsir göstərməməyə təminat verirdilər.[14] Bu müqavilədən bir gün öncə isə, yanvar ayının 10-da Sovet Rusiyası Xarici İşlər Komissarlığı V.Lenin tərəfindən Mustafa Kamal paşaya imzalanmış radioqram ünvanına çatdırılmaq üçün Bakıya, Eliavaya göndərilmişdi. Yanvarın 13-də fransız dilində tərtib olunmuş həmin radioqram Türkiyəyə ötürüldü və orada Mustafa Kamal paşa başda olmaqla, imperialist dövlətlərinə qarşı yönəlmiş türk milli mücadiləsinə bolşevik liderinin rəğbəti ifadə olunurdu.[15] Göründüyü kimi, istər keçmiş Osmanlı nümayəndələri, istərsə də, yeni Türkiyənin təmsilçiləri Azərbaycanda və bütövlükdə Cənubi Qafqazda baş verən hadisələrə hökumət dəyişikliyi kimi baxır, bunun sistem dəyişikliyinə və müstəqilliyin itiriləcəyinə gətirib çıxaracağını görmürdülər. Antanta və xüsusilə, İngiltərə əleyhinə olan nifrət köhnə və yeni Türkiyənin təmsilçilərini bolşevik Rusiyasına doğru sürükləyirdi.

Lakin Mustafa Kamal paşanın Sovet hökumətinə ünvanlanmış 26 aprel tarixli məktubu ətrafında çox söz-söhbət yaradılsa da, əslində, bu məktub Azərbaycanın bolşeviklər tərəfindən işğalında elə də önəmli bir rol oynamadı. Məsələ burasındadır ki, Kamal paşanın məktubu Azərbaycanın ruslar tərəfindən işğal edilməsindən çox sonra, yalnız iyun ayının 3-də Moskvaya

[14] RK(b)P Qafqaz Diyar Komitəsi ilə "Qaraqol" cəmiyyəti arasında imzalanmış müqavilə. 11.01.1920.// ARD, f.894, s.10, i.145, v.11-14; Ətraflı məlumat üçün bax: C.Həsənli. 1920-ci ilin rus işğalı ərəfəsində Britaniyanın Azərbaycandan təcrid edilməsi. // "Azərbaycan tarixinin problemləri, müasir tədris və elmi nəşrlərdə onların əksi" konfransı (materiallar). Xəzər Universiteti, Bakı, 1995, s.142-143; V.Qafarov. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, 2011, s.348-350

[15] V.Leninin Mustafa Kamal paşaya radioqramı. 10.01.1920. // RDSSTA, f.2, s.1, i.16820, v.1

yetişdi.[16] Bu zaman artıq Azərbaycanın işğalı başa çatdırılmışdı. Bununla belə, Türkiyə inqilabi hökuməti adından Mustafa Kamal paşanın göndərdiyi məktub Moskvada çox isti qarşılandı. Onu alan kimi, xarici işlər komissarı G.Çiçerin dərhal məktubun məzmunu haqqında Xalq Komissarları Sovetinin sədri V.Leninə məlumat verdi. Elə həmin gün Mustafa Kamal paşaya cavab hazırlandı və iyunun 4-də Çiçerinin imzaladığı sənəd kuryer vasitəsi ilə Ankaraya göndərildi.[17] Bu müddət ərzində Sovet Rusiyasının rəhbərliyi artıq Anadolu hərəkatı haqqında Moskvaya yetişən ilk türk nümayəndələrindən bəzi zəruri məlumatları almışdılar.

1920-ci ilin aprel ayının son günlərində Xəlil paşa və türk Kommunist Partiyasının tanınmış nümayəndələrindən biri olan doktor Fuad Sabit bəy danışıqlar aparmaq üçün Moskvaya yollanmışdılar. Aprel ayının 30-da Rusiya Teleqraf Agentliyinin Pyatiqorskdən verdiyi məlumatda göstərilirdi ki, onlar Mustafa Kamalın Anadolu hökumətinin tapşırığı ilə Sovet hökuməti ilə danışıqlar aparmaq üçün Moskvaya yollanırlar. Rusiya Teleqraf Agentliyi ilə söhbətində Xəlil paşa Mudros sazişindən dərhal sonra Türkiyənin ağır vəziyyətə düşdüyünü bildirmişdi. Onun sözlərinə görə müttəfiqlər, ən başlıcası isə ingilislər İstanbulda ağalıq edirdilər. Bununla yanaşı, bütün Asiya Türkiyəsi qaliblər arasında bölüşdürülmüşdü. İzmir sahillərini ətrafı ilə birlikdə Yunanıstan, Suriyanı Fransa almışdı. Xəlil paşanın sözlərinə görə, 10 milyondan çox əhalinin yaşadığı Asiya Türkiyəsində son vaxtlar sovet quruluşuna hiss ediləcək bir meyl yaranmışdı. Rusiya Teleqraf Agentliyi onun adından Moskvaya məlumat verirdi ki, "ölkənin idarəçiliyində sovet sistemini Kiçik Asiya türkləri tamamilə məqbul hesab edirlər... Yeni hökumət silah və hərbi sursatın çatışmadığını hiss edir. Xəlil paşa və onun yol-yoldaşı doktor Fuad Sabitin Moskvaya səfərləri qismən bununla bağlıdır. Onların məqsədi bu, və ya digər vasitələrlə Sovet Rusiyasından müəyyən həcmdə hərbi sursat almaq, əgər mümkün olsa Antanta əleyhinə müdafiə ittifaqı bağlamaqdır".[18]

May ayının ortalarında Xəlil paşa və doktor Fuad artıq Rusiya paytaxtında idilər. Mayın 15-də RK(b)P MK Siyasi Bürosu "Xəlil paşa" haqqında məsələni müzakirə edib, bir gün sonra aparılacaq danışıqlar barədə Çiçeri-

[16] Professor M.Sofiyev öz kitabında bu məktubun iyun ayının 1-də Moskvaya yetişdiyini yazır. Bax: M. Sofiyev. Güney Qafqaz Respublikaları sovet-türk əlaqələrində. Bakı, 2000, s.19

[17] Bax: Документы внешней политики СССР. Т.II, М., 1958, с.555

[18] Rusiya Teleqraf Agentliyinin məlumatı. 03.05.1920.// RF XSA, f.04, s.51, q.321a, i.54868, v.2.

nin təkliflərini bəyənmişdi. Siyasi Büronun iclasının qərarında Xəlil paşa haqqında rəsmi olaraq, Orconikidzedən soruşulması və əgər Çiçerin zəruri hesab edərdisə, Xəlil paşanın Leninlə görüşü mümkün hesab edilirdi.[19] May ayının 16-da Rusiya Xarici İşlər Komissarlığında türk nümayəndələri Çiçerinlə görüşdülər. Üç saatdan artıq davam edən bu görüşdə müzakirə edilən məsələlər haqqında Çiçerin Leninə yazırdı: "Biz həddindən artıq geniş perspektivlərin olacağına uymamalı və avantüraya başlamamalıyıq. Bunları qeyd etməklə yanaşı, mən hər halda, deməliyəm ki, Türkiyə Milli Mərkəzi ilə yaxınlaşma bizim Şərqdə siyasətimizin hədsiz dərəcədə güclənməsinə gətirib çıxara bilər. Milli Mərkəz hələ partiyaya çevrilməyib və daxili siyasətin proqramı işlənməyib. Bütün hallarda respublika olacaq. Onlar izah etdilər ki, türk kütlələri kəndlilər və xırda burjuaziyadan ibarətdir. Onların müstəbidləri bürokratiya, yüksək rütbəli paşalar və möhtəkirlərdir. Oradakı kapital qərbindir, iri burjuaziya isə ermənilər və yunanlardır. Kiçik Asiyada iri torpaq sahibkarlığı hələ II Mahmud dövründə məhv edilib, indiyə qədər bu qismən bərpa olunsa da, lakin bu mülkədarlar çox azdır və onları yəqin ki, qovacaqlar. Kommunizm üçün zəmin yoxdur, lakin bolşevizm müstəsna dərəcədə populyardır. Qərb kapitalına və öz müstəbidlərinə nifrət böyükdür. Xəlil bizimlə münasibətləri aydınlaşdırıb, Sivasa qayıtmaq və sonra yenidən bura gəlmək istəyir. O, xahiş edir ki, biz öz nümayəndəmizi, eyni zamanda, Ermənistanla münasibətlərin mürəkkəb olduğunu nəzərə alıb, erməni yoldaşları onunla birlikdə göndərək. O, nəinki mümkün hesab edir, hətta təkid edir ki, biz onlarda daimi nümayəndəliyimizi, mətbəələr, kitabxanalar yaradaq, kitab və jurnallar nəşr edək. Onlar xahiş edirlər ki, bu nümayəndəlikdə rus yoldaşlarla yanaşı, müsəlmanlar da olsun. Biz tam şəkildə azad təbliğat imkanı əldə edəcəyik. Orada Sovet Respublikası tətbiq etmək mümkündür, lakin o bizim sovetlər olmayacaq, belə ki, hər kəndli öz torpaq sahəsinə bağlıdır və yalnız tədricən kommunizmi kənddə geniş yaymaq olar. Mən şəxsən, şüurları çaşdıracaq belə saxta sovetizmin faydasını görmürəm. Hərbi münasibətlər baxımından Xəlil sursat və pul istəyir. Onlar bütün millətlərin öz müqəddəratını təyin etmə hüququnu tamamilə etiraf edirlər, ayrılmaya və muxtariyyətə də hazırdırlar. Xəlilin proqramı Asiya üçün Monro doktrinasıdır, bu bütün Asiya xalqlarının Avropa imperializminə qarşı mübarizəsi deməkdir. O, Sovet Rusiyasının Asiya xalqlarının yeganə dostu olduğunu

[19] RK(b)P MK Siyasi Bürosunun iclasının 10 saylı protokolundan çıxarış. 15.05.1920.// RDSSTA, f.17, s.3, i.78, v.2; Политбюро ЦК РКП(б) – ВКП(б) повестки дня заседаний. Том I. 1919-1929. М., 2000, с.64

qəbul edir və başa düşür ki, bizsiz onlar məhv olarlar. Türk partizanlarını göndərməklə o, bizim işə İranda kömək etməyə hazırdır, belə ki, mübarizə hələ ki, şəhər burjuaziyasına toxunmadan aqrar inqilab uğrunda şaha və feodallara qarşı gedəcəkdir. Onun agentləri Əfqanıstan və Hindistanda da bizim siyasətimizi müdafiə edəcəkdir. Beləliklə, bizim Yaxın Şərq siyasətimizin ağırlıq mərkəzi Türkiyəyə keçəcəkdir. Türkiyə ilə əlaqələrin zəruriliyi bizim Ermənistan dəmiryolundan *(Şahtaxtı-İrəvan dəmir yolu xətti nəzərdə tutulur – C.H.)* istifadə etməyimizə gətirib çıxaracaq, bunun üçün isə biz Ermənistanla müqavilə bağlamalıyıq. Gürcüstanı hədələmək lazım gələcəkdir ki, bizim Türkiyə ilə əlaqələrimiz üçün zəruri olan məntəqənin ingilis dəstələri tərəfindən tutulmasına imkan verməsin. Silahı Azərbaycan təşkilatının adı altında göndərmək olar. Yaxın günlərdə məsələnin bütün praktiki hərbi tərəflərini bizim hərbçilər Xəlillə aydınlaşdırmalıdırlar".[20] Bu dövrdə Xəlil paşa o qədər məşhurlaşmışdı ki, onun Azərbaycan, Rusiya və bütövlükdə, Qafqazda oynadığı rol, hətta, Avropa mətbuatına gedib çıxmışdı.[21] Təxminən bir ay sonra, iyun ayının 22-də Çiçerin RK(b)P MK Siyasi Bürosuna yazdığı məlumatda bildirirdi ki, "nəhayət, Türkiyədə biz öz planlarımızın həyata keçirilməsini sürətləndirməliyik".[22] Xüsusilə, bir həftə sonra B.Mdivaninin türk hissələrinin Naxçıvanda görünməsi barədə məlumatı Rusiya Xarici İşlər Komissarlığını kamalçılara münasibətində daha çevik siyasət yeritməyə sövq edirdi. Onlar bir tərəfdən bunu "Kiçik Asiya türk millətçilərinin bütün siyasətində kəskin dönüş" ola biləcəyi kimi qiymətləndirir, digər tərəfdən isə sovetlərə qarşı mübarizə aparan müsavatçıların təsirinə düşmüş, "öz siyasətini həyata keçirən ayrıca bir hərbi hissənin addımı" kimi dəyərləndirirdilər.[23] Bu qeyri-müəyyən vəziyyətin özündən də Çiçerin ermənilərin marağına uyğun siyasət sərgiləyir və mübahisəli hesab etdiyi ərazilərin Ermənistanın əlində qalmasına çalışırdı. O, bütün vasitələrlə Azərbaycanı tutmuş bolşevik ordusunu Ermənistana doğru hərəkətdən çəkindirməyə çalışırdı və Leninə yazırdı: "Mübahisəli hesab edilən yerlərin kiçik bir hissəsi Ermənistan Respublikasının əlində qalmışdır. Türklərin hücumu bizi əvvəlki plandan *(Ermənistana doğru hərəkət etməkdən – C.H.)* imtina etməyə məcbur edir. Respublikanın Hərbi

[20] Xəlil paşa ilə danışıqlar barədə G.Çiçerinin V.Leninə məlumatı. 16.05.1920.// RF XSA, f.04, s.51, q.321a, i.54868, v.3-4.

[21] Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4. III. CERCEC, EHESS, Paris, p.75

[22] G.Çiçerinin RK(b)P MK-ya məlumatı. 22.06.1920.// ARPİİ SSA, f.1, s.1, i.2a, v.9

[23] G.Çiçerinin V.Leninə məktubu. 29.06.1920.// ARPİİ SSA, f.1, s.1, i.2a, v.11

İnqilab Şurası oralarda bizim ordular tərəfindən yeni yerlərin tutulmasının qeyri-mümkünlüyü haqqında qəti şəkildə bəyan edir. Türk təhlükəsi bizi məcbur edir ki, əlimizdə olanın, başlıca olaraq, Bakının müdafiəsi ilə məhdudlaşaq".[24] G.Çiçerin sovet nümayəndəsinə Ankaraya gedib, oradan dəqiq məlumatlar göndərilməyəcəyinə qədər kamalçılara silah verilməsini dayandırmağı təklif edirdi. Yalnız bundan sonra o, türklərə silah verilməsi haqqında sovet vədlərinin yerinə yetirilməsini mümkün sayırdı. Bu aydınlaşma olmadan Çiçerin bu silahların birbaşa, yaxud, dolayısı yolla sovetlərə qarşı çevriləcəyindən ehtiyat edirdi.[25]

1920-ci ilin yayında Litvadakı təsadüfü həbsdən sonra Ənvər paşa Moskvaya yetişmiş və elə həmin vaxt bir sıra ittihadçılarla birlikdə Camal Paşa da Berlindən Rusiya paytaxtına gəlmişdi. Ənvər Paşanın Moskva yolçuluğu əsil macəraya bənzəyirdi.[26] Onu Almaniyadan Rusiyaya gətirən aeroplan Rusiyaya enmək əvəzinə, səhvən Litva tərəfinə enmiş və bu aeroplanın Litvada tanınmayan məşhur sərnişini həbs edilmişdi. Bir müddət Litva həbsxanasında onu əhatə edən adamların rəsmlərini çəkməklə başını qarışdıran Ənvər paşa, nəhayət ki, Moskvaya gələ bilmişdi. "Mançester Qardian" qəzetinin müxbiri Artur Ransom haqlı olaraq yazırdı ki, "Litva həbsxanasının nə qədər fırıldaqçı və avara sakinləri var idisə, onların hamısının portretləri Ənvər paşanın məşhur əlləri ilə çəkilmişdi".[27]

1920-ci ilin avqust ayının 11-də F. Dzerjinski Belostokdan Moskvaya V.Leninə və Qərb Cəbhəsinin Hərbi İnqilab Şurasının üzvü İ.Smilqaya – Minskə göndərdiyi teleqramda Ənvər paşanın Berlindən gəlməsi haqqında məlumat verirdi.[28] Moskvanın Ənvər paşadan istəkləri nə idi? İlk növbədə Ənvər paşa Anadoluda gedən prosesləri diqqətlə izləyirdi və Moskvadakı söhbətlərində gizlətmirdi ki, əgər Ankara hökuməti artıq ləğv edilmiş Sevr müqaviləsinə bənzər bir şey edərsə, məsələn, İzmiri yunanlara verərsə o, öz qılıncı, xəncəri, revolveri, *adını və hərəkatın rəhbərliyini onlara qarşı* çevirməyə hazır olacaqdır. Əgər müttəfiqlər Türkiyəni satın alıb, onu Moskvaya qarşı istifadə etməyə cəhd göstərərdilərsə, ruslar Ənvərin köməyi ilə

[24] Yenə orada, v.13-14

[25] Yenə orada, v.14

[26] Ətraflı məlumat üçün bax: Aleksandr Bodrero. Bakıya səfər haqqında hesabat. 18.09.1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 1. CERCEC, EHESS, Paris, p.10-11

[27] Artur Ransom. Moskvada Ənvər Paşa ilə görüş. 25.07.1921.// RDSSTA, f.5, s.3, i.364, v.42

[28] F.Dzerjinskinin V.Leninə və İ.Smilqaya teleqramı. 11.08.1920.// RDSSTA, f.76, s.3, i.106, v.1

yeni Türkiyəni darmadağın etməyə qərarlı idilər. Ənvər paşanın Rusiya xarici siyasəti üçün dəyəri bunda idi.

Bolşeviklərin kamalçıları öz müttəfiqlərinə çevirmələri üçün Ənvər paşa onların əlində güclü vasitə idi. Bir növ rus diplomatiyası Ankara olmasa, Ənvər və gənc türklərin simasında Türkiyə ilə Antantaya qarşı mübarizəni davam etdirmək fikrində idi. Ş.S.Aydəmirin fikrincə, bolşevik liderləri türklərin qırmızı və yaşıl bayraqları *(millətçilər və islamçılar nəzərdə tutulur – C.H.)* arasında məharətlə manevr etməyi düşünürdülər". Ənvər paşa haqqında çox maraqlı əsərin müəllifi kimi Şövkət Sürəyya Aydəmirin dili ilə desək, bu əslində, "yıxılmış və qərarsız bir adamın özünə tamamilə yad olan bir yerdə" himayə axtarışında ifadə olunan taleyin həzin və acınacaqlı bir istehzası idi.[29] Lakin Ənvər paşa yaxşı başa düşürdü ki, onun islamçılığa söykənən turançılıq idealları çətin ki, bolşeviklərin xalis rus siyasətinə çevrilmiş "proletar inqilabı" idealları ilə uzlaşsın və çətin ki, bu ideallar uzun müddət yanaşı mövcud olsun. Moskva çayı sahilindəki hoteldə qəflətən ona sınayıcı sual verəndə ki, onun imperialist olması təsadüfdürmü? Belə halda imperializmə qarşı mübarizə məqsədilə Sovet Rusiyasının simasında müttəfiq axtaran Ənvər paşa bir qədər qəmgin-qəmgin cavab vermişdi ki, "O, imperialistdir və bütün məsələ də, məhz, elə imperiyanın miqyasındadır".[30]

Osmanlı liderləri rəngindən asılı olmayaraq, rusların Azərbaycana münasibətini yaxşı bilirdilər. Hələ, 1918-ci ildə Berlin danışıqları zamanı Tələt paşa tərəfindən Qafqaz respublikalarının müstəqilliyinin Sovet Rusiyası tərəfindən tanınması məsələsi irəli sürüləndə, Rusiyanın Almaniyadakı səfiri Adolf Ioffe Gürcüstan və Ermənistanın müstəqilliklərinin tanınmasında heç bir problem olmadığını bildirsə də, Azərbaycanın müstəqilliyinin Bakı dairəsi Rusiyada qalmaq şərti ilə tanına biləcəyini demişdi.[31] Türkiyənin baş naziri ilə Berlin danışıqlarında rus səfiri bildirmişdi ki, Osmanlı imperatorluğunun *Brest müqaviləsinin şərtlərini* pozmasına, Rusiya tərəfindən tanınmamış Qafqaz respublikaların müstəqilliyinin İstanbul tərəfindən tanınmasına Sovet hökuməti sülhsevərlik naminə dözsə də, lakin Bakının tutulmasına dözməyəcəkdir və bu hadisə *(Bakının türklər tərəfindən tutulması – C.H.)* Bakının Rusiya sənayesi, ticarəti üçün bütün əhəmiyyətini əla başa düşən rus xalqının düşüncəsində dönüş məqamı olacaqdır.[32] Göründüyü kimi, bu

[29] Şevket Süreyya Aydemir. Suyu arayan adam. 19. Basım, Remzi Kitabevi, İstanbul, 2006, s.192

[30] Artur Ransom. Moskvada Ənvər Paşa ilə görüş. 25.07.1921.// RDSSTA, f.5, s.3, i.364, v.45

[31] A.Ioffenin V.Lenin və G.Çiçerinə teleqramı. 21.09.1918.// RDSSTA, f.5, s.1, i.2183, v.47

32 A.Ioffenin V.Lenin və G.Çiçerinə təcili xidməti məlumatı. 22.09.1918.// RDSSTA, f.5,

danışıqlar və Bakını "xalis rus şəhəri" qismində təqdim edən bu yazışmalar tarixin elə də uzaq keçmişinin hadisəsi deyildi.

Ənvər paşanın gəlişində ikinci maraqlı məqam Almaniya ilə bağlı idi. Almanlar da ondan qeyri-rəsmi şəkildə vasitəçi kimi istifadə etmək istəyirdilər. Berlinin başlıca marağı bolşeviklərin yardımı ilə 1914-cü il sərhədlərini bərpa etmək idi. Almaniyanın nüfuzlu hərbçilərindən sayılan general Zekt Ənvər paşa vasitəsi ilə xəbər göndərmişdi ki, əgər ruslar 1914-cü il hüdudlarının bərpa edilməsində onlara yardım göstərsələr, almanlar qeyri-rəsmi şəkildə bolşeviklərə silah verə və rusların xeyrinə polyaklara qarşı yönəlmiş üsyan qaldıra bilərlər. G.Çiçerin V.Leninə yazırdı: "Ənvər deyir ki, bizə qarşı polyaklara köməyin müqabilində Antanta artıq indi Almaniyaya 1914-cü il sərhədlərini vəd edir. Bizə belə gəlir ki, bu diplomatik uydurmadır. Almaniyadan silah əldə etməyə gəldikdə isə, biz artıq hər hansı kompensasiyaya ehtiyac olmadan da danışıqlara başlamışıq. Lakin Ənvər təsdiq edir ki, əgər general Zekt razılıq verməsə, hələ hökumətin razılığı bir şey demək deyildir. Mənə belə gəlir ki, biz Polşa vilayətlərinin Almaniya idarəçiliyinə qayıtmasına yardım etməməliyik. Bununla belə, biz eyni zamanda, Polşanı fəth etməyi də düşünmürük. Biz yalnız bir şey edə bilərik. Avropa konfransı olacağı təqdirdə biz diplomatik vasitələrlə Almaniyanın keçmiş şərq hissəsinin mübahisəli yerlərində plebisit keçirilməsinə köməklik edə bilərik. Ənvər cavab gözləyir". Eyni zamanda, Ənvər paşa Çiçerinə bildirmişdi ki, Misir, Tunis, Əlcəzair daxil olmaqla, bütün müsəlman ölkələrinin milli-inqilabi partiyaları Berlində ümumi bir mərkəzə malikdirlər və onlar şərqdə bolşevik siyasətinə kömək etmək üçün qarşılıqlı yardım haqqında Sovet Rusiyası ilə sazişə girmək istəyirlər. G.Çiçerin yazırdı: "Onlar bizdən pul yardımı umur və digər vasitələrlə köməkliklər gözləyirlər, məsələn, gələcək terrorçular üçün Moskvada məktəb açmaq və sair. Mən ona dedim ki, bizim ümumi siyasətimiz milli-inqilabları müdafiə etməkdir, lakin köməyin konkret forma və obyektinə hər bir xüsusi şəraitdə ayrıca baxılmalıdır. Ənvər bununla bağlı həmin partiyaların üç və ya dörd nümayəndəsini bura çağıracaq".[33]

Moskvada Ənvər paşanı təmtəraqla qarşılayan bolşevik liderləri 1920-ci ilin iyun ayının ilk günlərində Mustafa Kamal paşanın 26 aprel tarixli məktubunu da dərhal cavablandırdılar. Xarici işlər komissarı Çiçe-

s.1, i.2183, v.51

[33] G.Çiçerinin V.Leninə xidməti məlumatı . 16.08.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.28.

rin tərəfindən iyun ayının 4-də Kamal paşaya göndərilən məktubda bildirilirdi ki, hər iki ölkəni təhdid edən xarici imperializmə qarşı mübarizədə əməkdaşlıq ifadə olunan məktubunuz Sovet hökuməti tərəfindən alınmışdır. Sovet hökuməti Böyük Millət Məclisinin rəhbərlik etdiyi yeni türk hökumətinin Ankarada elan etdiyi xarici siyasətinin aşağıdakı əsas prinsiplərini məmnunluqla nəzərə alır: 1)Türkiyənin müstəqilliyinin elan edilməsi; 2)Mübahisəsiz türk ərazilərinin Türkiyə dövlətinin tərkibinə daxil edilməsi; 3)Ərəbistan və Suriyanın müstəqil dövlət elan edilməsi; 4)Böyük Millət Məclisində qəbul olunmuş qərarın Kürdüstan, Türkiyə Ermənistanı, Lazistan, Batum vilayəti, Şərqi Frakiya və türk-ərəb əhalisinin qarışıq yaşadığı ərazilərdə əhaliyə öz müqəddəratı haqqında fikrini ifadə etmək imkanı verməsi. Şübhəsiz ki, bu yerlərdə azad referendumun bir vaxtlar öz vətənini qoyub çıxmaq məcburiyyəti qarşısında qalmış qaçqınların və mühacirlərin vətənə dönüşü şəraitində onların iştirakı ilə keçirilməsi; 5)Avropa dövlətlərində azad sorğu yolu ilə milli azlıqlara verilən bütün hüquqların Böyük Millət Məclisinin başçılıq etdiyi yeni Türkiyə dövlətinin hüdudlarında həyata keçirilməsi; 6)Boğazlar haqqında məsələnin Qara dəniz sahili dövlətlərinin konfransına verilməsi; 7)Təslimçiliyin və xarici iqtisadi nəzarətin məhv edilməsi; 8)Kimliyindən asılı olmayaraq, xarici dövlətlərin təsir dairəsinin ləğv edilməsi. Məktubda Sovet hökuməti ümidvar olduğunu bildirirdi ki, diplomatik danışıqlar bir tərəfdən Türkiyə Böyük Millət Məclisinə, digər tərəfdən isə Ermənistan və İrana imkan verəcəkdir ki, xalqların öz müqəddəratını təyin etmək və ədalətli prinsiplər əsasında öz dəqiq sərhədlərini qursunlar. eyni zamanda, Çiçerin maraqlı tərəflərin dəvəti ilə Sovet hökumətinin bu məsələdə vasitəçi ola biləcəyini vurğulayırdı. Ən nəhayət, sovet Xarici işlər komissarı Türkiyə ilə Rusiya arasında dostluq münasibətlərini qurmaq üçün dərhal diplomatik və konsulluq idarələrinin açılmasını təklif edirdi.[34] Göründüyü kimi, Çiçerinin məktubunda qoyulan məsələlərin, demək olar ki, böyük əksəriyyəti Kamal paşanın Moskvaya göndərdiyi məktubda yox idi. Bu məktubla bir növ bolşevik hökuməti bəzi deklarativ müddəalar altında hələ 1918-ci ilin yanvar ayının 11-də elan etdikləri "Türkiyə Ermənistanı" haqqında dekreti yenidən gündəliyə gətirmək istəyirdi.[35]

[34] Xalq komissarı Çiçerinin Türkiyə Böyük Millət Məclisinin prezidenti Mustafa Kamal paşaya məktubu. 04.06.1920. // RF XSA, f.04, s.51, q.321a, i.54868, v.5-6.

[35] Bax: "Türkiyə Ermənistanı" haqqında RSFSR XKS-nin dekreti.11.01.1918.// RDSSTA, f.2, s.1, i.24221, v.1-1(arxası)

Bu məktubun ardınca Türkiyədən cavab gözləmədən Sovet Rusiyası 1920-ci ilin iyun ayının 8-də Ankaraya öz diplomatik nümayəndəsini təyin etdi. Bu məsələ ilə bağlı RK(b)P MK Siyasi Bürosunun qərarında göstərilirdi: "Yoldaş Eliavanın Kamal paşanın Türkiyə Milli hökuməti yanında bizim diplomatik və hərbi nümayəndəmiz qismində ezam olunması haqqında Xarici İşlər Komissarlığının xahişi təmin edilsin."[36] Bundan üç gün sonra isə Təşkilat Bürosu Xarici İşlər Komissarlığının xahişi ilə Skaçkonu Türkiyədə komissiyanın tərkibinə daxil etdi.[37] Eyni zamanda, Siyasi Büro qərara aldı ki, Mustafa Kamal hökumətinə silah və qızıl göndərməklə yardım etsin. G.Çiçerin iyun ayının 28-də RK(b)P MK Siyasi Bürosuna yazırdı ki, "Türkiyəyə səfir göndərmək, Kamalçı hərəkata, İran və Əfqanıstana yardım göstərmək haqqında Siyasi Büronun qərarları göstərir ki, əgər Antanta əleyhinə birbaşa silahlı qüvvələr göndərmək yolu ilə olmasa da, hər halda silah və qızıl yardımı göstərməklə bizim şərqdə siyasətimiz müəyyənləşir. MK-nın bu qərarlarına uyğun olaraq bizim tərəfimizdən müvafiq bəyanatlar və vədlər verilmişdir ki, onları reallaşdırmaq zəruridir". G.Çiçerin yazırdı: "Türkiyəyə vəd edilən silah yardımını təcili olaraq etmək lazımdır, verilən vədlərdən sonra bunun yubanması Mustafa Kamalı məcbur edər ki, bizə boşboğaz və yalançıya baxan kimi baxsın. Eyni zamanda, hələ mövcud olan inqilabi Türkiyə darmadağın edilə bilər. Yeri gəlmişkən bu kömək, hətta, bizim məhdud imkanlarımız nöqteyi-nəzərindən böyük olmasa da, praktiki və mənəvi baxımdan mühüm əhəmiyyətə malikdir. Siyasi Büronun qərarının olmasına baxmayaraq, biz silah ala bilmirik. Bu gün həll etdiyimiz, sabah isə yerinə yetirmədiyimiz siyasət, bu gün kömək vəd edib, sabah isə onu verməmək bizi hörmətdən salır, bizim şərqdə böyük nüfuzumuzu və təsirimizi sarsıdır".[38] G.Çiçerinin bu məktubunun ciddiliyini nəzərə alıb, Siyasi Büro iyunun 29-da Hərbi İnqilab Şurası sədrinin müavini, Əmək və Müdafiə Şurasının üzvü E.Sklyanskiyə və Xarici işlər komissarının müavini L.Karaxana tapşırdı ki, günü sabah Türkiyə və Əfqanıstan məsələləri üzrə razılığa gəlsinlər.[39] İyunun 30-da isə RK(b)P MK Siyasi Bürosu türk hücu-

[36] RK(b)P MK Siyasi Bürosunun iclasının 18 saylı protokolundan çıxarış. 08.06.1920. // RDSSTA, f.17, s.3, i.86, v.4

[37] RK(b)P MK Təşkilat Bürosunun iclasının 22 saylı protokolundan çıxarış. 11.06.1920. // RDSSTA, f.17, s.112, i.37, v.3

[38] G.Çiçerin – RK(b)P MK-nın Siyasi Bürosuna. 28.06.1920.// RDSSTA, f.5, s.2, i.314, v.12-12(arxası)

[39] RK(b)P MK Siyasi Bürosunun iclasının 23 saylı protokolundan çıxarış. 29.06.1920.// RDSSTA, f.17, s.3, i.92, v.8

muna süni şəkildə rəvac verməmək üçün Azərbaycanda olan rus ordusunun Ermənistana doğru hərəkətini dayandırmaq haqqında qərar qəbul etdi.[40] Əslində, bu məsələ hələ Azərbaycanın işğalı günlərində və ondan az sonra razılaşdırılmışdı. Azərbaycan işğal olunan gün, aprel ayının 28-də G.Çiçerin V.Leninə yazırdı ki, Ermənistana münasibətdə biz elə etməliyik o bizə qarşı çevrilməsin. G.Çiçerin təklif edirdi ki, Sovet Rusiyası Ermənistana çörək verməlidir və onun fikrincə "Ermənistanla müqavilə haqqında məsələ... çox tezliklə meydana çıxacaqdı".[41] Bundan bir neçə gün sonra L.Karaxan 1920-ci ilin may ayının 11-nə qədər göndərildiyi ehtimal edilən teleqramında Orconikidzeni xəbərdar edirdi ki, Lenin Azərbaycandan kənara sovetlərin yayılmasında tələsməməyi tapşırıb. O yazırdı: "Birincisi Azərbaycanda möhkəmlənmək, digər tərəfdən isə bizim beynəlxalq vəziyyətimizlə hesablaşmaq lazımdır. Doğrudan da Ermənistan yaxın vaxtlarda bizim üçün maraq kəsb etmir, bununla belə o çox narahatlıqlar gətirə bilər. Ermənistan ilə köhnə Azərbaycan arasında sərhədi keçməyə ehtiyac yoxdur, mübahisəli əraziləri ultimativ formada tutmayın, mübahisəli məsələləri dinc yolla həll edin, məsələn bizim sədrliyimiz altında hər iki dövlətin nümayəndələrindən qarışıq komissiya yaradın. Siz yeni qırğının əvəzi kimi türklərlə qarşılıqlı münasibətlərin çətinliyini yaxşı bilirsiniz. Əgər irəliləməyimiz nəticəsində yeni qarşılıqlı qırğın olacaqsa, bu İngiltərə və Amerikada ciddi şəkildə bizə ziyan vurar. Ona görə təklif edirik ki, Azərbaycanla məhdudlaşaq."[42]

İyul ayının 2-də Çiçerin Orconikidzeyə bildirirdi ki, qüvvə çatışmadığı üçün biz hazırda tutduğumuz yerlərdən əlavə əraziləri tuta bilmərik. O yazırdı: "Bizim ordular Şuşa və Cəbrayılı tutmuşdur, ona görə biz Naxçıvan və Culfanın tutulmasından imtina etməli olacağıq. Azərbaycan hökumətinə izah edin ki, biz Şuşa və Cəbrayılın tutulması ilə kifayətlənməyə məcburuq və ordularımızın irəliyə doğru hərəkətinə faktiki olaraq imkanımız yoxdur. Bu qəti şəkildə respublika Hərbi Şurası tərəfindən müəyyən edilmişdir. Xahiş edirəm, Naxçıvan və Culfanın indiki anda tutulmasının bizim üçün qeyri-mümkün olduğunu Bakı hökumətinə məlumat verin və hərbi status-kvo ilə məhdudlaşmağımızın obyektiv səbəblərini göstərin".[43] Elə həmin gün

[40] *RK(b)P MK Siyasi Bürosunun iclasının 24 saylı protokolundan çıxarış. 30.06.1920.*// RDSSTA, f.17, s.3, i.93, v.1

[41] Республика Армения в 1918—1920гг: (Политическая история). Сборник документов и материалов. Ереван: Гитутюн, 2000, с.183

[42] L.Karaxanın Q.Orconikidzeyə teleqramı. 11.05.1920.// .// RDSSTA, f.85, s.14, i.29, v.1

[43] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 02.07.1920.// RDSSTA, f.85, s.3c, i.2, v.3

Orconikidzeyə göndərdiyi başqa bir teleqramda Çiçerin türk milli mərkəzi ilə danışıqlara başladığını bildirirdi və qeyd edirdi ki, ərazi əlaqəsi bizim üçün zəruridir, bunun üçün biz Ermənistanla sülh bağlamalıyıq ki, onun ərazisi vasitəsi ilə belə bir əlaqəni quraq. Çiçerin Ermənistanla müqaviləni sovetlərin Kiçik Asiya işlərinə təsirinin yeganə vasitəsi hesab edirdi.[44] Bütün bu məsələləri Çiçerin Naxçıvanı Ermənistana verməyin hesabına etmək istəyirdi. Qeyd edilən addımların ardınca Siyasi Büro Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasının üzvləri, Gürcüstan, Ermənistan və Türkiyədə sovet diplomatik nümayəndələri üçün Çiçerin tərəfindən hazırlanmış təlimatı təsdiq etdi.[45] Həmin təlimatda Türkiyənin artıq azad kommunist təbliğatına vəd verdiyi bildirilir, dünyada yaranmış vəziyyət, ümumi siyasi şərait və sovetlərin hərbi durumu baxımından orada mövcud hökumət əleyhinə üsyan qaldırmaq cəhdlərindən çəkinmək Qafqazda olan bəzi hücumçu dairələrə tövsiyə edilirdi.[46]

Eyni zamanda, Rusiya Xarici işlər komissarı G.Çiçerin iyul ayının 2-də "sovetlərin çox hörmətli dostu və etibarlı adamı" hesab edilən Xəlil paşanın Türkiyəyə dönüşündən istifadə edərək, onun vasitəsi ilə Mustafa Kamal paşaya bir məktub göndərmişdi və bu məktubda o, Sovet Rusiyasının Türkiyə inqilabi hökumətinə rəğbətini, bir sıra məsələlərdə sovet və türk hökumətləri və xalqlarının maraqlarının eyniliyini ifadə edirdi.[47] Əslində, bu məktub Türkiyə hökumətinə rəğbətdən daha çox, Azərbaycanın işğalında bolşeviklərə yardım etmiş Xəlil paşanın "etibarlı" adam olduğuna təminatı özündə ehtiva edirdi. Sovetlərin Türkiyədəki nümayəndəliyinin müşaviri tərəfindən Ankaraya çatdırılan bu məktuba Kamal paşa çox gec, 1920-ci ilin noyabr ayının 29-da cavab yazmışdı. Çiçerinə cavabında o, son iki ildə rus xalqı öz qollarındakı istibdad zəncirlərini qıraraq, habelə, yer üzündən zülmün birdəfəlik silinməsi üçün, bütün məhrumiyyətlərə dözərək, dünyanın azad olması uğrunda çox ağır mübarizə aparmasından türk xalqının vəcdə gəldiyini ifadə edirdi. Mustafa Kamal paşa yazırdı: "Bizim xalq bəşəriyyəti xilas etmək üçün rus xalqının verdiyi böyük qurbanları dərindən

[44] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 02.07.1920.// RDSSTA, f.85, s.3c, i.2, v.1

[45] RK(b)P MK Siyasi Bürosunun iclasının 25 saylı protokolundan çıxarış. 07.07.1920 // RDSSTA, f.17, s.3, i.94, v.2

[46] G.Çiçerin N.Krestinskiyə. Qafqaz Bürosunun Hərbi İnqilab Şurasına, surəti Nərimanova, Kirova, Leqrana və Eliavaya. 04.07.1920.// RDSSTA, f.17, s.3, i.94, v.5-6

[47] G.Çiçerinin Türkiyə Böyük Millət Məclisinin prezidentinə məktubu. 02.07.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.23; M.Sofiyev. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936). Bakı, 2000, s.21-22

anlayır, belə ki, türk xalqı özü Avropa imperializmi tərəfindən ələ keçirilmiş müsəlman dünyasının müdafiəsi üçün əsrlər boyu mübarizə aparmışdır". Kamal paşa bir tərəfdən, qərb fəhlələri, digər tərəfdən, Asiya və Afrikanın məhkum xalqlarının birləşərək, beynəlxalq kapitala qarşı mübarizə aparacağı günün yetişəcəyinə inandığını bildirirdi. O, bu birliyin modelini Avropa fəhlələri arasında Sovet hökumətinin yüksək mənəvi nüfuzunda, müsəlman dünyasının türk xalqına olan sevgisində görürdü və belə hesab edirdi ki, rus-türk ittifaqı bütün əzilən və aldadılan qüvvələri Qərb imperializminə qarşı birləşdirmək üçün yetərlidir.[48]

§2. Naxçıvan uğrunda hərbi-diplomatik mübarizənin başlanması

Azərbaycanın sovetləşməsindən sonra rusların Qafqaza dönüşü artıq reallığa çevrilmişdi. Ona görə də Ankarada yeni təşkil olunmuş türk hökumətinin may ayının 5-də keçirilən ilk iclasında bolşevik hökuməti ilə rəsmi danışıqlar aparmaq üçün Moskvaya bir heyət göndərilməsinə qərar verildi. Bu heyətə yeni hökumətin Xarici işlər naziri Bəkir Sami (Kunduh) bəy rəhbər təyin edildi. İqtisadiyyat naziri Yusuf Kamal bəy, Lazıstan millət vəkili Osman bəy heyətə daxil edilmiş, doktor İbrahim Tali bəy və Seyfi Düzgörən hərbi nümayəndələr kimi, Kazım Qarabəkir paşanın təklifi ilə Ərzurumda heyətə əlavə olunmuşdular.[49] Ermənistan hökuməti öz ərazisindən Rusiyaya getməyə icazə vermədiyi üçün may ayının 11-də yola düşən heyət Ərzurumda bir aya yaxın gözləməli oldu.[50] Bəkir Sami heyəti Ankaradan yola düşən gün, məhz, may ayının 11-də Lloyd Corcun "türk olmayan bütün xalqları türk hakimiyyətindən qurtarmaq siyasəti"ni özündə əks etdirən Sevr müqaviləsinin layihəsi tamamlanmış və İstanbul hökumətinə təqdim edilmişdi.[51]

Ermənistan yolu alınmadıqda Bəkir Sami bəyin missiyası 1920-ci ilin iyul ayının 11-də Qara dəniz yolu ilə Moskvaya yola düşdü və ayın 19-da

[48] Mustafa Kamal Paşanın G.Çiçerinə məktubu. 29.11.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.51; Bax: Документы внешней политики СССР. T.III, M., 1959, c.11-12

[49] Mustafa Öztürk. Atatürk dönem'inde Türkiye'nin Kafkasiya politikası. Ankara, 2005, s.103

[50] Bax: Мустафа Кемаль. Путь новой Турции. III том, М.,1934, с.293-294

[51] Mustafa Öztürk. Atatürk dönem'inde Türkiye'nin Kafkasiya politikası. Ankara, 2005, s.103

Rusiya paytaxtına yetişdi.[52] Lakin L.Karaxanla iyulun 24-ü və avqustun 4-də türk kommunistlərin nümayəndəsi doktor Fuad Sabit bəyin iştirakı ilə keçirilən iki qeyri-rəsmi görüş istisna olmaqla, avqustun ortalarına qədər türk heyətini rəsmi dairələrdən qəbul edən olmadı. Bir tərəfdən, "Sovet Rusiyası Ermənistanla münasibətlərini tam aydınlaşdırmadan türk heyəti ilə rəsmi danışıqlar aparmaq istəmirdi".[53] Digər tərəfdən isə, bolşevik liderləri avqust ayının əvvəllərində imzalanacaq Sevr müqaviləsinin Türkiyənin üzərinə hansı ağır şərtləri qoyacağını gözləyir və yeni türk hökumətinin buna necə reaksiya verəcəyini izləyirdilər. 1920-ci ilin avqust ayının 10-da Sevr müqaviləsi imzalandı və Türkiyə yaxın keçmişdə Osmanlı imperiyasına məxsus olan torpaqların 80 faizindən məhrum oldu.[54] Lakin 1920-ci ilin aprelində Mustafa Kamal paşa başda olmaqla, Ankarada yeni dövlət yaradan türk milli mücadiləsinin rəhbərləri Sevr müqaviləsinin ağır şərtlərini rədd etdilər. Ölkədə Türkiyəni parçalamağa qərar vermiş Antantaya, xüsusilə, ingilis və yunanlara qarşı mübarizənin yeni mərhələsi başladı.

Rusiya Xarici işlər komissarının İbrahim Əfəndi vasitəsi ilə Kamal paşaya göndərdiyi məktubunda Ermənistanla sərhədlərin müəyyənləşdirilməsi məsələsinin belə qabarıq şəkildə qoyulması, sovetlərin ermənilərin himayədarı rolunda çıxış etməsi və məktubda "Türkiyə Ermənistanı" ifadəsinin işlədilməsi Böyük Millət Məclisini elə də məmnun etmədi. Millət Məclisinin xarici məsələlər üzrə icraiyyə komitəsinin üzvü Bəkir Sami bəy G.Çiçerinə göndərdiyi 4 iyul tarixli məktubunda xatırladırdı ki, Batum konvensiyası imzalanan andan həmin sənədə uyğun olaraq, Türkiyə erməni hökumətinin mövcudluğunu və onun müəyyən edilmiş sərhədlərini ilk olaraq tanımışdır. O yazırdı: "Ermənilərlə dostluq və mehriban qonşuluq münasibətlərini saxlamaq şərti ilə biz adı çəkilən konvensiyaya dəqiq riayət edirdik. Lakin, Antanta dövlətləri ilə barışıq imzalanan vaxtdan bəri erməni hökuməti, öz arxasında İngiltərənin dayandığını hiss edir və bizim hesabımıza Böyük Ermənistan yaratmaq fikrini yürüdür, hazırda hərbi hissələr vasitəsi ilə ələ keçirdiyi mübahisəsiz türk ərazilərində mütəmadi olaraq, müsəlman əhalisini məhv etmək siyasəti həyata keçirir. Sistemli şəkildə həyata keçirilən bu talan və qırğınların başlıca məqsədi əsl türk vilayətlərində saxta erməni çoxluğu yaratmaqdan ibarətdir. Hər gün bu kəndlərdən, yaşamaq

[52] Bax: Документы внешней политики СССР. T.III, M., 1959, c.667

[53] V.Qafarov. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, 2011, s.389

[54] Bax: Документы внешней политики СССР. T.II, M., 1958, c.555

üçün bütün vasitələrdən məhrum edilmiş yüzlərlə qaçqın bizim sərhədlərə axışır. Bu quldur və terrorist tədbirlər davam etdiyindən, həmin qeyri-insani siyasətin qarşısını almaq üçün biz qəti addımlar atmaq məcburiyyətində qalmışdıq, hətta, zəruri strateji məntəqələri işğal etmək üçün şərq ordusuna səfərbərlik haqqında əmr vermək qərarına da gəldik, lakin sizin məktubun nəticəsi kimi, biz müvəqqəti olaraq, belə sərt addımları təxirə saldıq. Biz dərindən ümid edirik ki, Sovet Rusiyasının hökuməti müdafiəsiz əhaliyə hücumlarına heç nə ilə bəraət qazandıra bilməyəcək erməni hökumətinin bu hərəkətlərinə son qoymaq üçün fəal addımlar atacaqdır. Sovet Rusiyası Respublikası ilə dostluq münasibətlərini yüksək qiymətləndirən Türkiyə milli hökuməti diplomatik münasibətlərimizin əsaslarını müəyyən etmək və bizim iki ölkə arasında gələcək münasibətləri tənzimləmək məqsədilə hələ sizin məktubu almazdan əvvəl Millət Məclisinin göndərdiyi missiya ilə Moskvaya getməyi mənə həvalə etmişdir".[55]

Bəkir Sami missiyası hələ Moskvaya yetişməzdən əvvəl Türkiyə Böyük Millət Məclisinin vəkil etdiyi Niyazi Zəkəriyyə adlı bir nəfər yeni təşkil olunan Mustafa Kamal hökumətinin tərkibi, məqsəd və məramı haqqına Rusiya Xarici İşlər Komissarlığının Şərq ölkələri ilə əlaqələr şöbəsinə sənədlər təqdim etmişdi. Birinci sənəddə Qərb imperializminə qarşı mübarizədə Rusiya Sovet Respublikasına uğurlar arzulanır və Niyazi Zəkəriyyənin təqdim etdiyi sənədlərin imperializmə qarşı sonrakı mübarizədə türk və sovet hökumətləri arasında dostluğun daha da möhkəmlənməsinə xidmət edəcəyi göstərilirdi.[56] İkinci sənəd Türk hökumətinin tərkibi barədə idi. Kamal paşanın yeni təşkil olunan hökumətində Bəkir Sami bəy xarici işlər naziri, Yusif Kamal bəy isə xalq təsərrüfatı naziri vəzifəsini tuturdu.[57] "Təklif olunan suallara cavablar" adlı üçüncü sənəd isə daha geniş məsələləri əhatə edirdi. Burada Türkiyənin siyasi sistemi, hökumətin strukturu, onun sosial dayaqları, Sultan hökumətinin təslimçilik siyasətinin rədd edilməsi, ölkənin milli maraqlarının müdafiəsi və imperializmə qarşı mübarizə, türk xalqının öz ölkəsinin taleyinə hakim olması, ölkənin təsərrüfat həyatı və sair məsələlər əks olunmuşdu. 12 bənddən ibarət olan sənədin 9-cu bəndində göstərilirdi ki, xalq hökumətinin idarəsi altında 12 milyon nəfər əhali vardır *(2009-cu*

[55] Bəkir Sami bəyin G.Çiçerinə məktubu. 04.07.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.9.

[56] Türkiyə Böyük Millət Məclisinin Xalq hökuməti. 12.07.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.18.

[57] Türkiyə hökumətinin tərkibi haqqında. 12.07.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.19.

ilin məlumatına görə Türkiyənin əhalisinin sayı 72,5 milyon nəfərə çatmışdır – C.H.). Bunun 8 milyonunu xırda torpaq sahibkarları, fəhlələr, məmur və xidmətçilər, 2 milyonunu köçəri həyat tərzi keçirən tayfalar, 2 milyonunu isə iri torpaq sahibkarları, tacirlər və sənayeçilər təşkil edirdi.[58] Hər üç sənədin aşağısında Türkiyə Böyük Millət Məclisinin möhürü var idi.

1920-ci ilin iyul ayının 27-də XI Qızıl Ordu hissələrinin Naxçıvana girməsi və diyarda sovet hakimiyyətinin elan edilməsi ilə rus-türk münasibətləri daha da intensiv xarakter almağa başladı. İyulun 28-də M.Bəkdaşov, A.Qədimov, F.Mahmudbəyov və başqalarından ibarət ali hakimiyyət orqanı kimi Naxçıvan İnqilab Komitəsi yaradıldı, Naxçıvan Sovet Sosialist Respublikası elan edildi.[59] Azərbaycanda aprel çevrilişindən sonra müsavat hökumətinin yerli strukturları dağıldığından, yeni formalaşan sovet hökumətinin isə birmənalı siyasəti olmadığından, ermənilər yenidən Naxçıvanda yerli müsəlman əhalisinə qarşı terror və təmizləmə cəhdlərinə əl atmışdılar. Azərbaycan rəhbərliyi özü bu vəhşiliklərin qarşısını almaq iqtidarına malik ola bilmədiyi halda, bölgənin müdafiəsində mühüm rol oynayan türk hərbi dəstələrini də oradan çıxarmağa qərar vermişdi. AK(b)P MK Bürosunun 1920-ci ilin iyul ayının 13-də keçirilən iclasının qərarında göstərilirdi ki, "Azərbaycanın mübahisəsiz ərazisi hesab edilən Naxçıvan rayonu"nun hazırda türk ordusu tərəfindən tutulduğunu nəzərə alaraq, hər hansı münaqişədən qaçmaq məqsədilə bu rayon türk ordusundan təmizlənməlidir. Bu məsələni tənzim etmək üçün Büro Xəlil paşa ilə aparılacaq danışıqlara Nərimanov, Mikoyan, Qarayev, Naneyşvili və Hüseynovdan ibarət bir heyət müəyyənləşdirmişdi.[60] Lakin bu qərarın yerinə yetirilməsi istiqamətində heç bir əməli addım atılmadan, iki gün sonra, iyul ayının 15-də AK(b)P MK Bürosu "Azərbaycanın mübahisəsiz ərazisi hesab edilən Naxçıvan rayonu" haqqında tamamilə fərqli bir qərar verdi. Vasili Yeqorov, Anastas Mikoyan, Mirzə Davud Hüseynov, Nəriman Nərimanov, Dadaş Bünyadzadə, Yusif Qasımov, Viktor Naneyşvili, Qriqori Orconikidze, Yelena Stasova və Ermənistandakı Sovet Rusiyasının nümayəndəsi Boris Leqranın qatıldığı iclasda "Ermənistanla sülh haqqında məsələ" müzakirə edilərkən qəbul edilmiş qərarın ikinci bəndində belə yazılırdı: "Naxçıvan və

[58] Təklif olunan suallara cavablar. 12.07.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.20-22.

[59] Bax: İsmayıl Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1998, s.286

[60] Azərbaycan K(b)P MK Bürosunun iclasının protokolu. 13.07.1920.// ARPİİ SSA, f.1, s.1, i.18, v.12(arxası)

digər ərazilərdən imtina edilsin, həmin yerlərin rus ordusu tərəfindən işğalı təklif edilsin".[61] Azərbaycan rəhbərliyinin Naxçıvan və Şərur-Dərələyəzdən imtina etməsi bilavasitə Moskvadan gəlirdi və bu istiqamətdə Rusiya paytaxtında olan erməni nümayəndələri ilə Rusiya Xarici İşlər Komissarlığı arasında danışıqlar gedirdi. Bu qərara uyğun olaraq, bolşeviklər Naxçıvanda yaranmış siyasi vəziyyətlə ciddi şəkildə maraqlanmağa başlamış və hətta, diyara ordu yeritməzdən əvvəl türklərin Bəyazid diviziyasının və ermənilərin bölgədəki hərbi imkanları kəşfiyyat vasitəsi ilə öyrənilmişdi.[62] Elə həmin gün Qafqaz cəbhəsinin Hərbi İnqilab Şurasına göndərdiyi teleqramda Q.Orconikidze sovet qoşunlarının Naxçıvan, Culfa və Ordubada doğru hərəkət etməsi üçün Baş Qərargahın Çiçerinlə razılaşdırılmış yeni direktivinin olmasını zəruri hesab edirdi. O yazırdı: "Naxçıvan, Culfa və Ordubadı tutmaq üçün bizim irəliyə doğru hərəkətimiz, Çiçerinlə yazışmalarda bizim sorğumuza verilən cavabda deyildiyi kimi, Baş Qərargahın yeni direktivini alana qədər həyata keçirilə bilməz".[63] Naxçıvana doğru hərəkət etməkdə rusların tərəddüdü, ilk növbədə, onunla bağlı idi ki, onlar daxili yazışmalarda Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrinin Ermənistanda qalmasını planlaşdırırdılar.[64] Bu istiqamətdə onların qarşısında başlıca maneə Türkiyə idi.

Sovet Azərbaycanının rəhbərliyi ilə yanaşı, Türkiyə inqilabi hökumətinin Şərqi Anadoludakı səlahiyyətli nümayəndələri də erməni təhdidi altında olan Naxçıvanı bolşeviklərə təslim etməyə tələsirdilər. Naxçıvandakı türk hərbi dəstələrinin başçısı Veysəl bəyin iyul ayının 11-də bölgədəki siyasi vəziyyət haqqında Şərq cəbhəsi komandanlığına verdiyi məlumata cavab olaraq, K.Qarabəkir paşa təlimat vermişdi ki, Azərbaycan hərbi qüvvələrinin hansı formada, olursa-olsun, Naxçıvanda qalması məqsədəuyğun deyildir. Çünki, burada əhali bolşeviklər əleyhinə üsyana qalxsa, bütün bunların bizim tərəfimizdən təşkil olunduğu qənaəti hasil olacağından, bu həm bizim, həm də naxçıvanlıların labüd fəlakəti olar. Kazım paşa təklif edirdi ki, Naxçıvanda olan Azərbaycan əsgərlərini tezliklə oradan çıxarıb, Bəyazidə gətirmək və oradan yola salmaq lazımdır.

[61] Azərbaycan K(b)P MK Bürosunun iclasının protokolu. 15.07.1920.// ARPİİ SSA, f.1, s.1, i.18, v.13(arxası)

[62] Q.Orconikidzenin V.Qittesə teleqramı. 17.07.1920.// RDSSTA, f.85, s.14, i.7, v.3

[63] Q.Orconikidzenin Qafqaz cəbhəsi Hərbi İnqilab Şurasına teleqramı. 17.07.1920.// RDSSTA, f.85, s.14, i.7, v.4

[64] Q.Orconikidze və B.Leqranın G.Çiçerinə teleqramı. 14.07.1920.// RDSSTA, f.85, s.13, i.51, v.1

Azərbaycan rəhbərliyinin Naxçıvandan "imtina edilməsi" haqqında mənhus qərarı, türk inqilabi hökumətinin bolşevikləri, məhz, Naxçıvan bölgəsi boyunca öz sərhədlərində görmək arzuları regionda böhranlı vəziyyət yaratmışdı. Çoxdan bəri Naxçıvana göz tikmiş ermənilər, əgər Çar Rusiyası dövründə əhalinin milli-etnik tərkibini dəyişmək yolu ilə ona sahib çıxmaq istəyirdilərsə, birinci dünya müharibəsindən sonra onlar buna, ya Antantanın Türkiyəyə diktə etdiyi Sevr müqaviləsi çərçivəsində, ya da bolşevik Rusiyasının "Şərq diplomatiyası" fonunda nail olmaq istəyirdilər. Ermənistan hökumətinin müxtəlif emissarları, Mərkəzdə fəaliyyət göstərən bir sıra nüfuzlu ermənilər Naxçıvan haqqında Rusiyanın bolşevik liderlərinə çoxlu yalan məlumat vermişdilər. Lakin Mərkəzin bölgəyə ezam olunmuş nümayəndələri Naxçıvanda yaxın keçmişin tarixi hadisələrini və sovetləşmənin ilk illərindəki siyasi vəziyyəti araşdırdıqda, tamam fərqli mənzərənin şahidi oldular. Bu araşdırmalar zamanı aydın oldu ki, İrəvan və Naxçıvan xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra həmin vilayətlərə İran və Türkiyədən çoxlu sayda ermənilər köçürülmüşdür. Belə ki, 1834-cü ilin məlumatına görə İrəvan vilayətində yaşayan 22.336 ailədən (65.300 nəfər kişi əhalisi) – 29.690 nəfər kişi əhalisi türk, 10.350 nəfər kişi əhalisi köhnə erməni sakinləri idi. Hər iki cinsdən olan əhalinin birgə sayı sənəddə 130.600 nəfər göstərilirdi. Bunun 16 faizi köhnə erməni sakinləri (yeni köçürülənlərlə birlikdə 37 faiz), 47 faizi isə müsəlmanlar idi. Sənəddə yazılırdı: "Əgər nəzərə alınarsa ki, rusların gəlişi ilə çoxlu sayda müsəlman əhalisi vilayəti tərk edib, İran və Türkiyəyə köçüb, onda aydın olar ki, məhəmmədilərin faizi əvvəllər müqayisəyə gəlməz dərəcədə yüksək olmuşdur".[65] Sənəddə yalnız 1829-1830-cu illərin 10 ayı ərzində Osmanlı imperiyasının Bəyazid və Qars paşalığından 50.000 ermənin İrəvan vilayətinə köçürüldüyü bildirilirdi.

Naxçıvan vilayətinə gəldikdə isə diyarı təhqiq edən bolşevik komissiyasının araşdırmaları daha maraqlı idi. Orada göstərilirdi: 1832-ci ilin kameral sayımına görə, Naxçıvan dairəsində 6.538 ailədən ibarət 32.000 əhali yaşamışdır. Bunun 59,2 faizi, yəni 3.859-u türk ailəsi, 8 faizi, yəni 533-ü köhnə erməni ailəsi, 32,8 faizi, yəni 2145-i isə İrandan köçürülən erməni aileləri idi. Xüsusi komissiyanın məruzəsində qeyd olunurdu ki, "Naxçıvan dairəsində türk əhalisi, nəinki, Türkmənçay müqaviləsinə qədər, eyni zamanda, ondan sonra da çoxluqda olub".[66]

[65] Naxçıvan diyarını təhqiq edən xüsusi komissiyanın məruzəsi. 09.06.1925.// RDSSTA. f.85, s.25, i.523, v.14

[66] Yenə orada, v.14

Ordubad dairəsinin etnik tərkibi də xüsusi komissiya tərəfində təhqiq edilmişdi. XIX əsrin 30-cu illərində dairədə 6.320 nəfər əhalinin yaşadığı, bunun 4.314 nəfərinin, yəni 68 faizinin türk, 1.574 nəfərinin, yəni, 25 faizinin yerli erməni əhalisi, 432 nəfərinin, yəni, 7 faizinin isə erməni köçkünlər olduğu bildirilirdi.[67] Xüsusi komissiyanın sənədində 1917-ci ildən başlayaraq, Naxçıvan diyarında əhalinin milli-etnik tərkibində baş verən dəyişikliklər və bölgədəki siyasi hadisələrin mənzərəsi verilirdi. Orada göstərilirdi ki, ermənilərin bəzi dairələri İrəvan daşnakları ilə sıx əlaqə saxlayaraq, Naxçıvan diyarını daşnak Ermənistanına birləşdirmək istəyirdilər. Sənəddə təsdiq olunurdu ki, musavat hökuməti dövründə Naxçıvan onların iradəsinə tabe olubdur. Ən nəhayət, məruzənin "Tarixi-coğrafi oçerk" hissəsində qeyd olunurdu ki, sovet hakimiyyətinin gəlişindən daşnaklar Naxçıvanı ələ keçirmək məqamı kimi istifadə etməyə cəhd göstərdilər, lakin onların bu səyləri sovet və türk orduları tərəfindən dostcasına dəf edildi.[68] Naxçıvan diyarı ilə bağlı bütün bu rəqəmlər və mülahizələr çox gec, yalnız 1925-ci ildə Muxtar Respublikaya ezam edilmiş SSRİ Xalq Komissarları Sovetinin sədri Aleksey Rıkov komissiyası tərəfindən etiraf edilmişdi.

1920-ci ilin yayında, istər, Naxçıvanda yaranmış mürəkkəb siyasi vəziyyət, istərsə də, Ermənistana münasibətdə sovet-türk siyasətindəki qeyri-müəyyənlik Anadoluda, xüsusilə, Şərq cəbhəsində bəzi nüfuzlu dairələrin Bakıda fəaliyyət göstərən türk kommunist təşkilatlarının mərkəzi bürosu ilə əlaqə yaratmasına gətirib çıxarmışdı. Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir paşa 1920-ci ilin iyul ayının 23-də Bakıdakı türk kommunist təşkilatlarının mərkəzi bürosunun sədri Mustafa Subhüyə "bolşevizmin tərəfdarı olduğunu və ilk gündən etibarən bu ideyanı sevdiyini" yazırdı. Kazım paşa Anadoludakı vəziyyət və əhalinin, o cümlədən, ordunun sosial tərkibi haqqında M.Subhüyə maraqlı məlumatlar yazır, ölkədə elə də çox olmayan zadəgan, aristokrat və burjua təbəqəsinin yeni hökumətdə təmsil olunmadığını, Ankara hökumətinin padşah tərəfindən təyin edilmədiyini, onun fəhlə və kəndlilər tərəfindən seçildiyini bildirirdi. Bütün bunları sadaladıqdan sonra Kazım paşa qeyd edirdi ki, ölkənin üstünə gələn imperialistləri qovmaq və Sovetlərlə sıx ittifaq bağlamaq üçün heç bir maneə yoxdur. O yazırdı: Anadoluda "xüsusi bir məsələ var ki, həmin məsələ ölkənin hüdudlarından kənarda məlum deyildir. Bu bizim ölkədə bir

[67] Yenə orada, v.15

[68] Yenə orada, v.18-19

dənə də olsun, silah və patron zavodunun olmamasıdır. Belə ki, keçmiş qanlı müharibələrdən əzab çəkən türk xalqı ingilis, fransız və yunan orduları-na qarşı öz fiziki mövcudluğu uğrunda müharibəni davam etdirir. İzmirdə, Balıkəsirdə və Bursada bədbəxt kəndlilər diş və dırnaqları ilə döyüşürlər. Düşmən imperialistlər ən yaxşı türk torpaqların ələ keçiriblər, bu yerlərdə məskunlaşan türk kəndlilərini məhv edirlər. Xalq öz mövcudluğunun son dəqiqəsinə qədər bu yırtıcı işğalçılara qarşı mübarizə aparacaqdır. Lakin hər dəqiqə bizim itkilərimiz artmaqdadır və o görünməmiş xarakter alır. Mən öz ordumla ölkənin qərbinə ona görə yardım göstərə bilmirəm ki, İngiltərə hökumətinin agentləri olan daşnak hökuməti bizim Şərq vilayətlərimizi ələ keçirmək istəyir və onlar düz bir ay əvvəl, iyun ayının 18-də qərb sərhədlərində imperialist orduları ilə birlikdə hərəkətə başlamışlar. İndi onların əlinə keçmiş müsəlman kəndlərinin bütün yoxsul əhalisi elliklə məhv edilir və ürəkləri parçalayan bu faciələr məzlum dünyanı azad edən bolşeviklərin lap yaxınlığında baş verir".[69] Kazım paşa Mustafa Sübhüdən xahiş edirdi ki, uca səslə Sovet hökumətini və Azərbaycanı əzilən Anadolunun köməyinə çağırsın, onlara başa salsın ki, daşnak cəlladları Türkiyə ilə Ermənistan arasındakı zolaqda yaşayan Anadolu zəhmətkeşlərinin yoxsullarını doğrayırlar, Rusiyanın Şərqə yolunu bağlayırlar, Türkiyənin Rusiya ilə əlaqələrini qırırlar. O yazırdı: "Bu kiçik dəstə bolşevizm ideyalarını bizim ölkəmizə yayılmaqdan məhrum edir... Bizə aydın deyil ki, yüksək idealların daşıyıcısı olan bolşeviklər daşnakların belə vəhşiliklərinə necə dözürlər və nə üçün onlar bizim qüvvələrimizdən istifadə etmirlər. Belə ki, mənim ordum, rus və Azərbaycan orduları ilə birlikdə 3-5 gün ərzində bu talançı və soyğunçu daşnakların axırına çıxa bilər".[70] Həmin gün Xəlil paşaya yazdığı məktubda isə K.Qarabəkir onun ermənilərə qarşı heç bir işğalçılıq niyyətinin olmadığını, rus-türk ittifaqının əbədi olacağını bolşeviklərə başa salmağı ondan rica edir, onun ordusuna qırmızı Azərbaycan ordusu və qırmızı rus hissələri ilə birlikdə "dəmir yolunu *(Şahtaxtı-İrəvan dəmir yolu – C.H.)* azad etmək məqsədilə təcili olaraq, daşnaklar əleyhinə döyüşə girməsinə" icazə verilməsini istəyirdi. Anadoluya köməyin dəmir yolu ilə gələcəyini düşünən Kazım paşa yazırdı: "Bizim bədbəxt ölkəmizin vəziyyəti hər gün ağırlaşmaqdadır, indiki anda isə tamamilə böhranlıdır. Hər kənd artıq sonun-

[69] K.Qarabəkir paşanın M.Sübhüyə məktubu. 23.07.1920.// RDSSTA, f.17, s.84, i.104, v.17(arxası)

[70] Yenə orada, v. 17(arxası)

cu patronunu, sonuncu malını, sonuncu enerjisini sərf edir. Bütün əhalinin əlində nə var-dövləti var idisə, hamısı vətənin şərəfini müdafiə etmək üçün sərf edilib... Ümumi işimiz naminə rus qardaşlarımızı inandırın ki, ingilislər əleyhinə çıxış etmək, maneəsiz əlaqələr qurmaq və yardım almaq üçün daşnaklara endiriləcək bir zərbə ilə dəmir yolunun açmağımıza bizə icazə versinlər".[71] Buna bənzər bolşevik ruhlu bir məktub Trabzonun qubernatoru Rüşdü bəy tərəfindən də Mustafa Sübhüyə yazılmışdı.[72]

Kazım paşanın ciddi cəhdlərinə baxmayaraq, Ermənistan hökumətinin ordu hissələri hücuma keçib Şahtaxtını ələ keçirdilər və iyul ayının 27-də isə 48 saat ərzində şəhərin təhvil verilməsi barədə Naxçıvana ultimatum göndərdilər. Ermənistanın hərbi naziri Ruben Ter-Minasyanın imzaladığı 15 bənddən ibarət olan ultimatumda Naxçıvan Milli Şurasından tələb edilirdi ki, Naxçıvan və Şərur qəzalarının əhalisinin adından bu qəzaları Ermənistan Respublikasının ayrılmaz hissəsi elan etsinlər və bütün sakinlər özlərini Ermənistan Respublikasının vətəndaşları hesab etsinlər. Ultimatumun ikinci bəndində deyilirdi ki, Naxçıvan Milli Komitəsi və bu qəzanın sakinləri öhdəlik qəbul edirlər ki, türkləri və Vedibasardan, Zəngibasardan, Şərurdan olan qaçqınları və Azərbaycandan olan təşviqatçıları qəzaya buraxmasınlar. Altıncı bəndə görə iki həftə ərzində Naxçıvan sakinləri Ermənistan hökumətinə hər biri 75.000 manat olmaqla, yəhərlə birlikdə 300 at, hər biri 30.000 manat olmaqla, 200 baş iribuynuzlu mal-qara satmalı idi. Altı həftə ərzində əhali Ermənistan hökumətinə 300.000 pud buğda verməli idi ki, bunun 150.000 pudunun əvəzi ödənilmirdi, hər pudu 2.000 manat olmaqla, qalan 150.000 pudunun dəyəri ödənilməli idi. Doqquzuncu bəndə görə, ümumi sayı 7.000 tüfəngdən az olmamaqla, hər ev bir tüfəng, hər tüfəng üçün 80 patron verməli idi. Silahların təhvil verilməsi ultimatum elan olunduqdan 48 saat sonra başlanıb, 15 gün sonra başa çatmalı idi. Bütün hərbi hissələr birinci gün silahı təhvil verməli idi. Bu bənd həyata keçirilənə qədər Milli Komitə İrəvan və Gümrüdə saxlanılmaqla, hər kənddən iki nəfər, hər şəhərdən isə üç nəfər girov verməli idi. Dəmiryolunun Şahtaxtı hissəsində dağılmış yolu müsəlman əhalisi öz hesablarına təmir edib, Ermənistan yollar nazirliyinə təhvil verməli idilər.[73] Daşnakların heç bir diplomatik çərçivəyə sığmayan

[71] K.Qarabəkir paşanın Xəlil paşaya məktubu. 23.07.1920.// RDSSTA, f.17, s.84, i.104, v.21-21(arxası)

[72] Bax: Trabzonun qubernatoru Rüşdü bəyin M.Sübhüyə məktubu. 13.08.1920.// RDSSTA, f.17, s.84, i.104, v.19-19(arxası)

[73] Naxçıvan qəzasının müsəlman əhalisinin Ermənistan Respublikası hökumətinin hakimiyyətini

bu həyasız ultimatumu Naxçıvanda sovetləşmə ilə bağlı Milli Şuranı əvəz etmiş İnqilab Komitəsi tərəfindən çox sərt qarşılandı. İnqilab Komitəsinin Ermənistan hökumətinə ünvanlandığı notada göstərilirdi ki, Naxçıvan rayonunun əməkçi əhalisi özünü RSFSR-lə ittifaqda olan Azərbaycan Sovet Respublikasının ayrılmaz hissəsi hesab edir və şanlı, güclü, məğlubedilməz Rusiya, Türkiyə və Azərbaycan qırmızı ordusuna arxalanır. Notada qeyd olunurdu ki, bundan sonra Ermənistan hökuməti bütün məsələlərlə bağlı bilavasitə Azərbaycan mərkəzi hökumətinə və iyulun 28-də Naxçıvana daxil olmuş rus, türk və azərbaycanlılardan ibarət olan Qırmızı Ordunun birləşmiş komandanlığına müraciət etsin. Notanın sonunda Naxçıvanda baş vermiş dəyişikliklərlə bağlı bildirilirdi ki, hazırkı vaxtda diyarda "İnqilab Komitəsi" təşkil olunduğundan "Milli Şura" mövcud deyildir.[74]

Naxçıvana girə bilməsələr də, erməni hərbi dəstələri Şahtaxtını artıq işğal etmişdilər. Minlərlə müsəlman əhalisi Şahtaxtıdan İran ərazisinə keçmək məcburiyyəti qarşısında qalmışdı. Yüzdən artıq müsəlman kəndi yerlə yeksan edilmişdi. Kazım paşa daşnakların cinayətkar əməlləri qarşısında Rusiya Sovet hökumətinin fəaliyyətsizliyindən hiddətlənsə də, bu hiddət təəssüf hissindən o tərəfə keçmədi. Yalnız 1920-ci ilin avqust ayının əvvəllərində daşnakların hücumun dayandırmaq mümkün oldu. Naxçıvan İnqilab Komitəsinin Ermənistan hökumətinə notası təqdim edildi, Azərbaycan Xalq Komissarları Sovetinin sədri N.Nərimanovdan xahiş edildi ki, daşnaklara qarşı bütün addımlar atılsın, sovet hakimiyyətinin elan edildiyi Naxçıvan və onun ətrafı daşnak imperializminin zülmündən azad edilsin.[75] Ruslar Naxçıvandan Şahtaxtıya tərəf hərəkət etmək fikrində deyildilər. Onlar Naxçıvanın işğalını maksimum uğur sayırdılar və bundan Ermənistanı 10 avqust müqaviləsini imzalamağa məcbur etmək istəyirdilər. Məhz, Ermənistanla müqavilə imzalanan gün Q.Orconikidze Lenin, Trotski və Çiçerinə göndərdiyi teleqramda məlumat verirdi ki, "Naxçıvan sovet ordusu tərəfindən tutulmuşdur, Leqran bu gün hərbi əməliyyatların dayandırılması barədə Ermənistanla saziş imzalayıb və bu sazişə görə, Ermənistan hökuməti bizim ordular tərəfindən Naxçıvanın işğalına öz razılığını ifadə etmişdir".[76] 1920-ci ilin sentyabr ayının 24-də Çiçerin Eliavaya göndərdiyi

tanınması haqqında ultimatum. 27.07.1920.// RDSSTA, f.17, s.84, i.104, v.25-25(arxası)

[74] Ermənistan hökumətinə təqdim etmək üçün Şahtaxtıda olan erməni dəstələrinin komandanlığına. İyul 1920.// RDSSTA, f.17, s.84, i.104, v.26-26(arxası)

[75] Xəlil paşanın M.Sübhüyə məktubu. 04.08.1920.// RDSSTA, f.17, s.84, i.104, v.20

[76] Q.Orconikidzenin V.Lenin, L.Trotski və G.Çiçerinə teleqramı. 10.08.1920.// RDSSTA, f.85, s.14, i.5, v.10

təcili diplomatik məlumatda yazırdı: "Bu müqaviləni bağlamaq bizim üçün zəruri idi. Leqranın bəyanatına görə, Ermənistana dəmiryolundan istifadə imkanı verilmədən bu müqaviləni bağlamaq və bizim tərəfimizdən Naxçıvanın işğalının tanıdılmasına nail olmaq mümkün deyildi".[77] Əslində, dəmiryolu adı altında bu müqavilədə söhbət Naxçıvan ərazilərinin böyük bir hissəsinin Ermənistana verilməsindən gedirdi.

Ermənistanla Rusiya arasında müqavilə imzalanan gün, avqust ayının 10-da Naxçıvan İnqilab Komitəsinin sədri M. Bəkdaşov N.Nərimanova məktub yazaraq bildirdi ki, "Naxçıvan xalqının böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsi kimi tanıdı".[78] Avqust ayının 13-də B.Şahtaxtinski V.Leninə yazırdı ki, Naxçıvanın əhalisi diyarda sovet quruluşunu bərqərar etmişdir və onlar belə bir fikri yaxın buraxmaq istəmirlər ki, Sovet Rusiyası bütün əhalinin iradəsinin əleyhinə olaraq, Naxçıvanı daşnaklara versin, halbuki, onların hakimiyyəti altında, nəinki, sovet quruluşu məhv edilir, eyni zamanda, daşnak Ermənistanın ərazisində olduğu kimi, əhalinin fiziki mövcudluğu tamamilə təhlükə altına düşmüş olur.[79]

Rusiya-Ermənistan müqaviləsindən sonra Azərbaycan K(b)P MK-nın Siyasi bürosu Naxçıvanda vəziyyəti müzakirə edib, Azərbaycan İnqilab Komitəsinə tapşırdı ki, Naxçıvan məsələsini və bununla yanaşı Azərbaycan-Ermənistan sərhədlərini müəyyənləşdirsin. Eyni zamanda, Azərbaycan İnqilab Komitəsinə tapşırıldı ki, XI Ordunun Hərbi İnqilab Şurası ilə məsləhətləşib, Naxçıvanda hakimiyyətin təşkili və diyara komissar vəzifəsinə namizəd göstərilməsi məsələsini həll etsin. Büro iclasında bu vəzifəyə Mir Cəfər Bağırovun göndərilməsi nəzərdə tutuldu və Viktor Nanеyşviliyə tapşırıldı ki, onun hazırkı vəzifəsindən azad olunması məsələsinin mümkünlüyünü aydınlaşdırsın. Siyasi Büro Naxçıvanda yaranmış vəziyyəti müzakirə edərək, diyarın əhalisinin tərksilah edilməsini məqsədəuyğun saymadı, Təşkilat Bürosu və Katibliyə tapşırıldı ki, Naxçıvana partiya işçiləri və ədəbiyyat göndərilməsini təmin etsin. Siyasi Büronun həmin iclasında Türkiyə məsələsi də müzakirə edildi. Türkiyə milli azadlıq hərəkatının müdafiə olunması xətti bəyənilsə də, indiki halda Türkiyədə kommunist tədbirlərinin həyata keçirilməsinin qeyri-mümkün olduğu qeyd edildi.[80]

[77] G.Çiçerinin Ş.Eliavaya təcili diplomatik məlumatı. 24.09.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.37

[78] M.Bəkdaşinin N.Nərimanova məktubu. 10.08.1920.// .// ARPİİ SSA, f.609, s.1, i.6, v.3

[79] B.Şahtaxtinskinin V.Leninə məktubu. 13.08.1920.// RDSSTA, f.5, s.1, i.2796, v.2

80 Azərbaycan K(b)P MK-nın Siyasi Bürosunun iclasının protokolu. 28.08.1920.// ARPİİ

Lakin hadisələrin gedişindən Kazım paşa yaxşı başa düşürdü ki, Sovet Rusiyası türk qoşunlarının daşnak Ermənistanına qarşı hər hansı hərbi əməliyyat aparmasına razı deyildir. İyulun 31-də Xəlil paşaya məktubunda o, yazırdı: "Çiçerin Böyük Millət Məclisinin adına göndərdiyi məktubunda məlumat vermişdi ki, bizimlə Ermənistan arasında sərhəd məsələləri Rusiyanın vasitəçiliyi ilə həll ediləcəkdir. Yoldaş Çiçerinin bu cavab məktubundan mən onun belə bir eyhamını duydum ki, bizim daşnaklarla döyüşə girməyimiz onun üçün arzuedilən deyildir. Sovet Rusiyasının bizimlə Ermənistan arasında toqquşma arzulamaması sizin tərəfinizdən iyul ayının 4-də Mustafa Kamal paşanın adına verilən məktubdan məlum olur. Bax, buna görə də, mən yalnız, müdafiə xarakterli toqquşmalarla keçinir və ciddi əməliyyata başlamıram". Bu məktubunda da Kazım paşa xahiş edirdi ki, "bizim ümumi məqsədlərimizə nail olmağı sürətləndirmək və Şərq məsələsinin həlli üçün" XI ordunun komandanlığı "Antanta tərəfində olduğu şübhə doğurmayan" Ermənistana qarşı onun Rusiya və Azərbaycan qırmızı orduları ilə birlikdə hərbi əməliyyata başlamasına icazə versin.[81] Türk komandanlığı Şahtaxtının ermənilərdən azad edilməsində israrlı idi. Bunu Çiçerin Vladiqafqaz vasitəsi ilə Leqranın adına göndərdiyi şifroqramda da xatırladırdı.[82] Rusların bu əməliyyatda iştirakı mümkün olmadığı halda, türklər Qırmızı Ordunun iştirakı olmadan bilavasitə öz gücləri ilə Şahtaxtı və Sarıqamışı ermənilərdən təmizləməyi tələb edirdilər. G.Çiçerin bu barədə təcili olaraq, RSFSR-in Xarici Ticarət Komissarlığının Tiflisdəki səlahiyyətli müvəkkili L.Ruzer vasitəsi ilə Q.Orconikidzenin fikrini soruşurdu.[83]

Kazım paşa öz mülahizələrində haqlı idi. G.Çiçerin iyul ayının 27-də hələ də Ağstafada yerləşmiş Sovet Rusiyasının Ermənistandakı diplomatik nümayəndəsi B.Leqrana göndərdiyi təcili diplomatik məlumatda ona təlimat verirdi ki, yubanmadan öz təyinat yerinə, İrəvana getsin. O yazırdı: "Yaranmış vəziyyətdə və türklərin hücumunun başlandığı bir vaxtda biz birtərəfli qaydada, xüsusilə, radio vasitəsi ilə Ermənistandan tələb edə bilmərik ki, təkbaşına hərbi əməliyyatları dayandırsın. Bu yalnız, bütün maraqlı tərəflərin danışıqlarının nəticəsində ola bilər. Ona görə, sizin tezliklə təyin olunduğunuz yerdə olasınız zəruridir... Hərbi əməliyyatların dayandırılması

SSA, f.1, s.1, i.22, v.6

[81] K.Qarabəkir paşanın Xəlil paşaya məktubu. 31.07.1920.// RDSSTA, f.17, s.84, i.104, v.22

[82] Türklərin Şahtaxtını və Sarıqamışı tutması haqqında B.Leqranla L.Ruzer arasında olan yazışmalar.17.08.1920.// RDSSTA, f.85, s.10, i.14, v.1

[83] L.Ruzerin Q.Orconikidzeyə teleqramı. 17.08.1920.// RDSSTA, f.85, s.10, i.14, v.2

məsələsi elə də sadə məsələ deyildir, belə ki, birinin hücumu qarşısında, o birinin əllərini bağlamaq olmaz... Erməni katolikosu indi çabalayır ki, Fransa Ermənistan üzərində mandatı qəbul etsin, əgər fransızlar imtina edərlərsə, onda həmin mandat Belçikaya verilsin. Görünür, onlar bizim yaxın vaxtlarda güclənəcəyimizin qorxusu altında himayədar axtarırlar. Türklər Naxçıvanı alıb, orada sovet hakimiyyəti tətbiq ediblər və təklif edirlər ki, bizim ordularımız ora girsin. Naxçıvanın tutulması haqqında əmr bizim hissələrə artıq çoxdan verilib və bu haqda mən sizə artıq məlumat vermişəm, lakin bizim hara və hansı sayda getməyimizi müəyyənləşdirmək nə, türklərin, nə də, digər xalqların işidir".[84]

Belə hikkəli deyimlərə baxmayaraq, əlbəttə, bolşeviklərin kamalçılara ehtiyacı var idi. Rusların onlarla əməkdaşlıq cəhdləri yalnız, dünya imperializminə qarşı birgə mübarizə və Şərqin məzlum kütlələrini "azad etmək" arzuları ilə bağlı deyildi. Bir sıra hallarda onlar kamalçıların simasında özlərinin işğal etdikləri müsəlman ərazilərində təhlükəsizliklərini, bütövlükdə, şərq siyasətində uğurlarına təminatı görürdülər. 1920-ci ilin iyul ayının 31-də G.Çiçerin RKP MK Siyasi Bürosuna göndərdiyi xidməti məlumatda yazırdı ki, kamalçılar "silah və sursat çatışmazlığından məhvə yaxınlaşırlar. Onların adamları var, rəhbərləri var, lakin silah və sursatları tükənmək üzrədir, patronları azdır. Bu onların vəziyyətini ağırlaşdırır. Onlara silahı yalnız Ermənistan üzərindən tranzit vasitəsi ilə göndərmək olar. Üç ay bundan əvvəl ermənilər bizə azad tranzit verməyə razılaşdılar, lakin sərhəd məsələsində Azərbaycanın inadkarlığı ucbatından müqaviləyə yubandı. İndi ermənilər türkləri əzirlər və çox azğınlaşıblar. Kirovun məlumatına görə, ermənilər Vrangeldən patron alıblar (daha dəqiq desək, Vrangel vasitəsi ilə Antantadan). Yoldaş Serqonun sözlərinə görə, indi Ermənistan üzərindən nəzarət olmadan daşıma hüququ almaq ümidsizdir. Yoldaş Serqo təsdiq edir ki, Ermənistanı sovetləşdirməyə elə də böyük qüvvə lazım deyil. O, Baş Komandanlıqla danışıb və aydınlaşdırıb ki, bu qüvvəni tapmaq olar. Bu halda, Ermənistanın sovetləşdirilməsi olduqca zəruridir. Bunsuz bizim Türkiyə ilə yetərli əlaqəmiz yoxdur. Kamalçıların məhvi Şərqdə bizə böyük zərbə olardı".[85] Bu fikri az sonra, 1920-ci ilin sentyabrında G.Çiçerin həyəcanlı formada V.Leninə də yazırdı: "Eliava və Kirovun məlumatları və

[84] G.Çiçerinin B.Leqrana təcili diplomatik məlumatı. 27.07.1920.// RDSSTA, f.5, s.1, i.2099, v.1

[85] G.Çiçerinin RKP MK Siyasi Bürosuna xidməti məlumatı. 31.07.1920.// RFXSA, f. 132, s. 3. q. 2, i.1, v. 1

qərb radiolarının xəbərləri əsasında hərbi sursat çatışmadığından kamalçıların vəziyyətinin fəlakətli olduğu qənaətinə gəlmək olar. Kamalçıların məhvi Antantanın müdafiə etdiyi müsəlman irticasının və müsəlman fanatizminin təntənəsinə, həm də, nəzərə almaq lazımdır ki, Sultanın Kiçik Asiyada peyda olmasının mümkünlüyü bizə qarşı müqəddəs müharibənin *(cihadın – C.H.)* təbliğinə yol açar. Belə geniş əksinqilabi müsəlman hərəkatı Bakının bizim üçün itirilməsinə gətirib çıxara bilər və ola bilsin ki, Türküstan və hətta, Şərqdə bizə ciddi təhlükə yarada bilər. Kamalçıların bundan sonrakı mövcudluğu haqqında məsələ bizim üçün həyati məsələdir. Onların birləşməsi hər şeydən əvvəl kamalçılara silah göndərilməsindən asılıdır. Onların nümayəndələri burada olanda bizim hərbçilərlə danışıqlarda dedilər ki, müvafiq sayda patronla 250.000 tüfəng lazımdır. Bizim hərbçilər Xəlillə söhbətdə 60.000 tüfəngə razılaşdılar. Lakin sonra biz heç bunu da vermədik, yalnız 6.000 göndərdik. Tranzit məsələsi o halda əhəmiyyət kəsb edir ki, biz onlara nə isə göndərək. Ənvər indi yeni təkliflərlə gəlib. O, Almaniyaya gedib, ordan kamalçılar üçün silah əldə edəcək, onun bizim limanlar vasitəsi ilə daşımaq lazım gələcəyini nəzərə almaq lazımdır və bu halda bizim işimiz ondan ibarət olacaq ki, həmin silahları öz ərazimiz vasitəsi ilə Kiçik Asiyaya çatdıraq. Əgər bu mümkün olsa, tranzit haqqında məsələ ciddi şəkildə meydana çıxacaq. Onda yalnız Ermənistanın deyil, Gürcüstanın da sovetləşdirilməsi məsələsi gündəliyə gələcək, belə ki, burjua Gürcüstan hökuməti kamalçılar üçün silah buraxmaz. Bəkir Sami daha ayrı bir şey təklif edir. Onun fikrincə, onlar bu silahı İtaliyada da əldə edə bilərlər və yeri gəlmişkən, əgər biz kredit açsaq, onlar bu silahı birbaşa alıb, sonra bu məbləği malla ödəyə bilərlər".[86] Türkiyəyə silah verilməsi ilə bağlı tranzit məsələsinə gəldikdə, sovet rəhbərliyi onun Ermənistan ərazisindən ötürülməsini uyğun hesab edirdi və bununla bağlı İrəvandakı Rusiya nümayəndəsi B.Leqranın V.Leninə maraqlı təklifləri var idi. O, Sovet Rusiyasının Xalq Komissarları Sovetinin sədrinə və Xarici işlər komissarına yazırdı ki, bu tranzitin müqabilində biz Ermənistana hansısa ərazini güzəştə getməliyik və hesab edirəm ki, bu məqsədlə Naxçıvan və Zəngəzuru Ermənistana verməkdən ehtiyatlanmaq lazım deyil.[87]

1920-ci ilin yayında Moskvaya səlahiyyətli nümayəndə təyin edilmiş B.Şahtaxtinskinin sentyabrın 20-də V.Leninə göndərdiyi geniş məktubun

[86] G.Çiçerinin V.Leninə xidməti məlumat. 27.09.1920.// RDSSTA, f.159, s.2, i.57, v.3

[87] B.Leqranın V.Leninə və G.Çiçerinə məlumatı. 23.09.1920.// RDSSTA, f.64, s.1, i.21, v.144

Türkiyəyə aid hissəsindən bəlli olur ki, Sovet Azərbaycanının rəhbərliyi Rusiyanın Naxçıvanı Ermənistana vermək planlarından məlumatlı olmuşdur. B.Şahtaxtinski ilk növbədə, N.Nərimanov başda olmaqla, Azərbaycan Xalq Komissarları Sovetinin fikrini ifadə edirdi və yazırdı ki, Naxçıvanın Ermənistana güzəştə gedilməsi Türkiyə ilə əlaqələrin düşünülmüş qaydada tamamilə kəsilməsi deməkdir. O, əlavə edirdi ki, daşnaklara hücum etməyi türklərə qadağan etmək, Rusiya tərəfindən yaxın gələcəkdə Anadolunun bir sıra vilayətlərinin ermənilərə güzəştə gedilməsinə bərabər eyhamdır. B.Şahtaxtinski bu fikirdə idi ki, Türkiyə ilə ittifaq Şərqdə imperializmə qarşı mübarizədə sovetlərə onların nüfuzundan geniş istifadə imkanı verir. Lakin erməni məsələsində sovetlərin tərəddüdlü münasibəti onun fikrincə, Şərqdə bolşeviklərin siyasətinin ciddiliyinə inamı itirər və Antantanın qələbəsinə gətirib çıxara bilərdi.[88]

Ermənistanla Sovet Rusiyası arasında 1920-ci ilin avqust ayının 10-da imzalanmış müqavilə ilə Moskva qismən İrəvanı özünə tabe etsə də, onun həmin tarixdə Sever müqaviləsini imzalamış Qərb ölkələrinin təsirinə düşməsinin qarşısını ala bilsə də, G.Çiçerin elə avqust ayının 10-da B.Leqrana göndərdiyi teleqramda bəzi mətləbləri Ermənistan hökumətinin başçılarına başa salmağı tövsiyə edirdi.[89] Görünür, Sevr hazırlıqlarını nəzərdə tutaraq, o, Leqrana xatırladırdı ki, son zamanlar Ermənistan azğınlaşıbdır. Çiçerin qeyd edirdi ki, bizim Qafqaz cəbhəsində müvəqqəti zəifliyimiz Ermənistanı təkəbbürlü etmişdir, onlar başa düşməlidirlər ki, kamalçılar bizim notadan sonra Ermənistan üzərinə hazırladıqları hücumu dayandırdılar və ermənilər bizimlə hesablaşmağa borcludurlar.[90] Bu təzyiqlər altında Ermənistanı Rusiya ilə müqavilə imzalamağa məcbur etdikdən sonra vəziyyət köklü şəkildə dəyişdi. İndi artıq, Sovet Rusiyasının XXİK Ermənistanın müdafiəçisi rolunda çıxış etməyə başlamışdı.

1920-ci ilin avqust ayının 10-da imzalanmış müqaviləsi ilə Rusiya Ermənistanı öz təsiri altına saldıqdan sonra avqust ayının 13-də Türkiyə nümayəndə heyəti ilə Moskvada ilk rəsmi görüş keçirildi. Türkiyə nümayəndə heyəti Ermənistanla imzalanmış müqavilə haqqında məhz bu

[88] B.Şahtaxtinskinin V.Leninə məktubu. 20.09.1920.// ARPİİ SSA, f.1, s.1, i.2a, v.26-27

[89] 1920-ci ilin avqust ayının 10-da imzalanmış Sovet Rusiyası ilə Ermənistan arasında müqavilənin mətni üçün bax: Республика Армения в 1918—1920гг. (Политическая история). Сборник документов и материалов. Ереван: Гитутюн, 2000, с.248-249

[90] G.Çiçerinin B.Leqrana məktubu.10.08.1920.// RFXSA, f. 04, s. 51, q. 321a, i. 54870, v. 18-18(arx.)

görüşdə məlumat aldı. Avqust ayının 13-də keçirilən görüşdə G.Çiçerin ermənilərin müdafiəçisi rolunda çıxış edərək, Sevr müqaviləsinin onlara verdiyi imtiyazları gerçəkləşdirməyə çalışdı və Van, Muş, Bitlis kimi türk vilayətlərinin Ermənistana verilməsi məsələsini müzakirəyə gətirdi. Eyni zamanda, o, əlavə etdi ki, Türkiyəyə yardımın bu əsasda olacağı Xəlil paşa və Camal paşa ilə də müzakirə edilmişdir. Lakin Türkiyə nümayəndə heyəti buna qəti etirazını bildirdi və belə siyasətin Türkiyəni parçalamaq istəyən Antanta siyasətindən heç nə ilə fərqlənmədiyini, habelə, Xəlil və Camal paşaların Türkiyə adından danışıqlar aparmağa haqlı olmadıqlarını bildirdi. G.Çiçerinin belə iddiaları danışıqların yarımçıq başa çatması ilə nəticələndi. Avqustun 14-də türk nümayəndələri Leninlə görüşəndə[91] bolşevik lideri Ermənistanla imzalanmış müqavilənin səhv olduğunu etiraf etdi və bildirdi ki, "biz o müqaviləni imzalamaqla səhv etdiyimizi anladıq, düzəltməyə çalışacağıq. Biz düzəltməsək, siz düzəldərsiniz".[92] Eyni zamanda, Ali Fuat Cebesoyun "Moskva xatirələrindən" bəlli olur ki, V.Lenin yaxın zamanlarda Ermənistan və Gürcüstanın sovetləşəcəyini də məhz, bu görüşdə türk nümayəndələrinə bildirmişdi.[93] Lakin Leninin vədlərinin elə bir əhəmiyyəti olmadı. Avqustun 17-də Rusiya XXİK-nın nümayəndələri E.Adamov və A.Sabanin bir həftə ərzində türk heyəti ilə apardığı danışıqlarda ilk addım kimi, 8 bənddən ibarət rus-türk müqaviləsinin layihəsi hazırlansa da, lakin Çiçerinin ermənilər üçün Şərqi Anadoluda torpaq almaq tələbləri avqustun 24-də danışıqların dayandırılması ilə nəticələndi.[94]

Georgi Çiçerinin açıq şəkildə ermənilərı himayə etmək siyasəti Sovet Rusiyasının Türkiyə ilə münasibətlərini pozulma həddinə gətirib çıxarmışdı. Sovet xarici işlər komissarı Sevr müqaviləsini imzalayan Antanta rəsmilərindən də çox ermənipərəstlik siyasətinin cazibəsinə düşmüşdü. Daşnak liderləri və Mərkəzdəki ermənilərin əli ilə hazırlanan "Böyük Ermənistan" iddialarının indi başlıca sözçüsü G.Çiçerin idi. Onun bu hərəkətləri Sovet rəhbərliyində Qafqazı yaxşı tanıyan ayrı-ayrı nüfuzlu şəxsləri belə hövsələdən çıxarırdı. Türklərlə danışıqların dayandırılmasına

[91] M.Sofiyev. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936). Bakı, 2000, s.24

[92] Türkiyə Böyük Millət Məclisi Gizli Celese Zabıtları. Devre: I. C.II. Ankara, 1985, s.166

[93] Ali Fuad Cebesoy. Moskova Hatiraları. İstanbul, 1955, s.72-73

[94] Bax: Yusuf Kemal Tengirşenk. Vatan Hizmetinde. İstanbul, 1967, s.178-180; Əlavə məlumat uçün bax: V.Qafarov. Türkiyə - Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, 2011, s.391

səbəb olmuş G.Çiçerinin ermənilər üçün torpaq tələbləri haqqında bir qədər sonra İ.Stalin məlumat aldıqda, hiddətlə Leninə yazırdı: "Yoldaş Lenin, mən yalnız dünən bildim ki, Çiçerin həqiqətən, nə vaxtsa, Van, Muş və Bitlisin (türklərin çox böyük üstünlük təşkil etdikləri türk vilayətlərin) Ermənistanın xeyrinə boşaldılması haqqında türklərə axmaq bir tələb göndərib. Bu erməni imperialist tələbləri, bizim tələblərimiz ola bilməz. Çiçerinə millətçi əhval-ruhiyyəli ermənilərin təsiri altında türklərə nota göndərməsini qadağan etmək lazımdır".[95] İ.Stalin bir gün əvvəl bu məlumatı Q.Orconikidzenin V.Leninə, G.Çiçerinə, L.Trotskiyə və ona ünvanlandığı teleqramdan almışdı. Orconikidze yazırdı ki, "Çiçerinin Muş-Van-Bitlisi tələb etməsi o saat Antanta tərəfdarlarını gücləndirmişdir və Mustafa Kamal İstanbulla-Antanta ilə yaxınlaşmağın yollarını axtarmağa başlamışdır... Hazırda Anadoluda iki qrupun mübarizəsi gedir, biri (xalqçılar) bizimlə sazişə tərəfdardır, o biri Antanta ilə. Sonuncu Antanta tərəfində açıq çıxış etməyə cəsarət etməyərək, bütün vasitələrlə bizim əleyhimizə təxribatlar törədir, onlar bilə-bilə Ermənistanda bütün mümkün vasitələrlə hissləri coşdururlar, bizim əleyhimizə bütün mümkün təxribatçı şayiələri yayırlar. Erməni məsələsi Türkiyə siyasətinin ən ağrılı yeridir. Ali komandanlığın bir sıra cəhdlərinə baxmayaraq, ermənilərə olan çoxillik nifrət erməni yoldaşların püskürdüyü və çox şişirtdiyi həyacanı aradan qaldırmaq imkanına malik deyildir. Ordu hissələrində bizə əks olan qruplar təşviqat aparırlar ki, guya, biz ermənilərin tərəfindəyik və Ankara ilə əlaqələri kəsmişik. Bununla bağlı Qarabəkir komandanlığı ordu içərisində əmr yayıb ki, bütün bunlar yalan və təxribatdır. Bir çox erməni yoldaşların Türkiyə ilə müharibəyə tərəfdar olduqları barədə susa bilmərəm. Onların bu məlumatları əksər hallarda türklərlə vuruşmaq arzusu ilə alışıb-yanan və müharibə olacağı təqdirdə hər şeydən əvvəl bilavasitə ermənilərin ziyan çəkəcəyini anlamayan kommunist olmayan ermənilərdən alınır... Türklərlə ermənilər arasında kiçicik belə olsun yaxınlaşma yoxdur. Qarşılıqlı nifrət tam gücündədir. Mənim fikrimcə, Ankara hökumətinin Rusiyaya, yaxud, Antantaya istiqamətlənmək arzusundan asılı olmayaraq, hələ ki, o bizə istiqamətlənməyə məhkumdur, çünki, ordunun və xalqın əhval-ruhiyyəsi bunu tələb edir. Heç şübhəsiz, Muş, Van və Bitlisin tələb edilməsi türklərlə bizim münasibətlərimizi pozmaq üçün istifadə ediləcək. Bütün bu məzmunda olan tələblər aradan qaldırılmalıdır və sırf

[95] İ.Stalinin V.Leninə yazılı xatırlatması. 12.02.1921.// RDSSTA, f.558, s.11, i.388, v.4(arxası)

təşviqat xarakteri daşıyan müqavilə bağlanmalıdır ki, bizim əleyhdarlarımız həmin saat təxribat törətmək imkanından məhrum olsunlar. Bu halda, əgər Ankara Antanta tərəfinə keçərsə, Şərqi Anadolu bizimlə qalar, bu isə bizim üçün çox vacibdir. Erməni məsələsi Şərqi Anadolu məsələsidir. Məhz, Antanta Muş, Van, Bitlis və digər yerləri Ermənistana vermək istədiyi üçün Şərqi Anadolunun əhalisi Antantaya nifrət edir".[96] Q.Orconikidzenin Sovet Rusiyasının siyasətini müəyyən edən rəhbər şəxslərə ünvanlanmış bu şifrli teleqramı bolşeviklərin Türkiyəyə münasibətdə yeritdiyi siyasətin bir sıra məqamlarına aydınlıq gətirir.

G.Çiçerin sonra da ermənilərə himayədarlıq siyasətini yeritməkdə israrlı idi. 1920-ci ilin sentyabrın 15-də o, Türkiyə, Ermənistan və Gürcüstandakı sovet nümayəndələrinə göndərdiyi məktubda Türkiyə ermənilərinə müstəqillik verilməsini sovet-türk münasibətlərinin mərkəzinə qoyaraq yazırdı: "Bizim Türkiyəyə münasibətimiz haqqında məsələ hadisələrin mərkəzində dayanır. Bizim Şərq siyasətimizin ağırlıq mərkəzi onun üzərinə keçirilib. Bütün səyləri ona yönəltmək lazımdır ki, bizim vəziyyətimiz imkan verdiyi dərəcədə türklərin arzularını təmin edək. Bu baxımdan yerlərdə çox iş görmək olar, nəinki, Mərkəzdə. Sazişin əsaslarında çıxış nöqtəsi kimi, türk inqilabçılarının tamamilə yeni xalq siyasəti və onların demokratik prinsipləri, o cümlədən, xalqların öz müqəddəratını təyin etməsi nəzərdə tutulmuşdur. Türkiyə ermənіləri üçün Türkiyə Ermənistanında ərazi ayrılması onlara müstəqillik verilməsi üçün yetərlidir."[97]

Türkiyə "inqilabi qüvvələri ilə əlaqələrin yaradılması" baxımından avqust ayında aparılan müzakirələrdə Qafqaz Bürosunun bəzi üzvləri Türkiyəyə yolun Gürcüstandan keçməsinə və bu səbəbdən də Gürcüstanın sovetlər tərəfindən birinci ələ keçirilməsinə üstünlük verirdilər. Hələ avqust ayının 5-də Qafqaz Bürosu şifrli teleqramla Trotski, Krestinski və Çiçerinə bildirirdi ki, cəbhə komandanlığının fikrincə, hərbi strateji mülahizələr baxımından, Gürcüstanı daha asan tutmaq olar, nəinki Ermənistanı. Qafqaz bürosunun rəhbərliyi Ermənistanın işğalına Türkiyəyə Gürcüstandan sonra ikinci yolun açılması kimi baxırdı.[98]

[96] Q.Orconikidzenin G.Çiçerinə, V.Leninə L.Trotskiyə , İ.Stalinə şifrli teleqramı. 11.02.1921.// RDSSTA, f.558, s.11, i.388, v.4-4(arxası)

[97] G.Çiçerinin Eliava, Stark və Leqrana məktubu. 15.09.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.35.

[98] Qafqaz Bürosunun Trotski, Krestinski və Çiçerinə şifrli teleqramı. 06.08.1920.// RDSSTA, f.17, s.84, i.59, v.10 Maraqlıdır ki, teleqramın şifri açıldıqdan sonra bu sənədin əslinin yandırılması haqqında şifr şöbəsinin müdiri M. Çuqunovun qeydi vardır.

1920-ci ilin sentyabr ayının 16-da keçirilmiş AKP MK-nın Siyasi və Təşkilat Bürosunun iclasında Cənubi Qafqazdakı vəziyyət geniş müzakirə edildi. Bu məsələ ilə bağlı N.Nərimanov geniş məruzə etdi və məruzədə kamalçıların vəziyyəti geniş təhlil edildi. Onun fikrincə, Anadoluda Mustafa Kamal paşanın siyasətinə qarşı başlanmış bəzi silahlı çıxışlar kamalçıları zəiflətmişdi. Nərimanova görə, bu şəraitdə Antantanın əsas planı Azərbaycana hücum etməklə Rusiyanı, onun başlıca həyat mənbəyi olan Bakı neft rayonundan məhrum etmək idi. O, deyirdi ki, indi təcili qərarlar qəbul etmək zəruridir, "eyni zamanda, məsuliyyət yalnız bizim üzərimizdə qalmaması üçün bütün bunlar haqqında mərkəzi məlumatlandırmaq zəruridir".[99] Nərimanovun məruzəsi ətrafında çıxış edən V.Yeqorov təklif etdi ki, Qafqaz respublikaları olan Gürcüstan və Ermənistana münasibətlə bağlı keçmiş səhvlərin təkrar olunmamasını Mərkəzə təklif etmək lazımdır. O, qeyd etdi ki, Anadolu ilə birləşmək bizim Azərbaycanda vəziyyətimizi möhkəmləndirə bilər. Onun fikrini qüvvətləndirmək üçün O.Qarayev əlavə etdi ki, Vrangel Krımdan geri çəkilməli olsa, onun arxa bazadan məhrum etmək üçün Ermənistan və Gürcüstanı ləğv etmək lazımdır. V.Sturua da bu fikiri müdafiə edib, bildirdi ki, biz Anadolu ilə birləşib "Bakını dünya inqilabı üçün saxlamaq naminə" mübarizənin mərkəzini Türkiyəyə keçirməliyik. İclasda çıxış etən Y.Qasımov təklif etdi ki, biz təcili olaraq, Ermənistan və Gürcüstana müharibə elan edib, Anadolu ilə birləşmək üçün onlarla qurtarmalıyıq. Bütün bu fikirləri dinlədikdən sonra Y.Stasova bildirdi ki, Mərkəz Cənubi Qafqazdakı vəziyyət barədə ətraflı məlumata malikdir. Lakin o, qeyd etdi ki, Qərb və Vrangel cəbhələrinin indiki vəziyyətində çətin ki, Mərkəz Ermənistana və Gürcüstana hücum etmək üçün qüvvə ayırsın. Y. Stasova açıq şəkildə bildirdi ki, yerli qüvvələr bu işin öhdəsindən gələ bilməyəcəkdir. Eyni zamanda, o, razılaşdı ki, Ermənistanla təcili şəkildə qurtarmaq lazımdır, lakin Gürcüstanın tutulması məsələsinə gəldikdə, bu məsələdə hələlik gözləmək lazım gəldiyini bildirdi və dedi: "Bizim Gürcüstana hücumumuz onun müstəqilliyinə qəsd kimi izah edilib, bizə qarşı mübarizəni gücləndirə bilər. Bu isə, əlbəttə, bizim üçün sərfəli deyildir". Bütün bu müzakirələrdən sonra iclasda qərara alındı ki, istər Yaxın Şərqdə, istərsə də Türkiyədə Antantaya qarşı mübarizəni asanlaşdırmaq məqsədilə yubanmadan Ermənistanın sovetləşdirilməsini həyata keçirmək və müvafiq addımlar atmaq üçün bu barədə mərkəzə məlumat vermək lazımdır.[100]

[99] AKP MK Siyasi və Təşkilat Bürosunun birgə iclasının protokolu. 16.09.1920.//ARPİİ SSA, f.1, s.1, i.24, v.13.

[100] Yenə orada, v.13

Nəhayət, 1920-ci ilin sentyabr ayının sonunda başlayan Türkiyə-Ermənistan müharibəsi ermənilərin Naxçıvanı hərbi yolla ələ keçirmək cəhdlərinə son qoydu. Bundan sonra onlar daha çox diplomatik yolla, məhz Sovet Rusiyasının köməyi ilə istəklərinə nail olmaq istəyirdilər.

§3. Türkiyə-Ermənistan müharibəsinin başlaması və Azərbaycan

Sevr müqaviləsinin ermənilərə verdiyi əraziləri və imtiyazları həyata keçirmək üçün Ermənistan hökuməti çox gözləmək fikrində deyildi. Sevr müqaviləsinin ardınca Antanta tərəfindən Ermənistanın silahlandırılması istiqamətində bir sıra addımlar atılmış, müttəfiqlərin Hərbi Şurası tərəfindən Qafqaz respublikalarına göndərilən, o cümlədən, Azərbaycan üçün də nəzərdə tutulan silah və sursat Azərbaycanın sovetləşməsindən sonra Ermənistana yönəldilmişdi.[101] İyun ayının əvvəllərində bu silah və sursatın bir hissəsi fransızlar tərəfindən ermənilərə çatdırılmaq üçün Batuma göndərilmişdi.[102] İyun ayının 12-də Fransa Xarici İşlər Nazirliyinin katibi P.Kambon ermənilərə silah verilməsi ilə bağlı Britaniya xarici işlər naziri lord Kerzonu məlumatlandırırdı.[103] Ancaq bununla bərabər Antanta rəsmiləri yaxın vaxtlarda Sovet Rusiyasının kamalçı Türkiyə ilə birlikdə Ermənistanı diz çökdürəcəklərini təxmin edirdilər. Hətta, Sovet Rusiyası tərəfindən Ermənistana neft verilməsinin dayandırılması, qatarların gediş-gəlişinin kəsilməsi belə, onların Tiflisdə olan nümayəndələrinin diqqətindən yayınmamışdı.[104]

Müharibəyə hazırlıq məqsədilə Ermənistan hökuməti 18-45 yaş arası vətəndaşların hərbi səfərbərliyini elan etmişdi. 1920-ci ilin yayında və payızında türk ordusunun ölkənin qərbində yunan işğalçılarına qarşı ölüm-dirim müharibəsi aparmasından istifadə edərək, ermənilər Şərqi Anadoluda Oltı vilayətini və bir sıra digər türk ərazilərini ələ keçirmişdilər. Rusiya Federasiyasının İran və Türkiyədəki səlahiyyətli nümayəndəsi Eliava sentyabrın 18-də Orconikidzeyə teleqramında Xəlil paşanın münaqişə bölgəsinə gəldiyini və Türkiyə-Ermənistan-Azərbaycan münasibətlərinin kəskinləşdiyini yazırdı. O, təcili olaraq, hadisələrinin gedişinin aydınlaşdırılmasını və irəli sürdüyü təkliflərin Çiçerinə göndərməsini zəruri hesab edirdi.[105] Sentyabrın 21-də, hərbi əməliyyatlar başlamazdan bir neçə gün əvvəl isə Eliava, Çiçerin, Lenin və Trotskiyə göndərdiyi şifrli teleqramda məxfi şəkildə məlumat verirdi ki, "Ermənistan Gürcüstana möhkəm ümid bəsləyərək, silah və sursatla təmin olunaraq, fəal hərəkətə keçmək üçün əlverişli məqam gözləyir. İngiltərə Mesopotamiyadan şimalda bufer kürd dövləti yaratmağa cəhd göstərir, tayfa başçıları ilə aparılan danışıqlar hələ ki, uğur qazanmamışdır. Maku sərdarı bizim komandanlığa göndərdiyi məktubda bizimlə dost olmağa səy edir, eyni zamanda, bizə qarşı birgə hərəkət üçün daşnaklarla danışıqlar aparır. Anadolunun içində İngiltərənin və Sultanın casusları "Mustafanın *(Kamal paşa nəzərdə tutulur – C.H.)* və onun müttəfiqləri ilə mübarizə" şüarı altında üsyan qaldırırlar... Bütün bunlar islam xəlifəsinin və peyğəmbərin yaşıl bayrağının təntənəsidir".[106]

Sentyabrın 24-də ermənilər öz planlarını həyata keçirmək məqsədilə Türkiyənin Şərq vilayətlərində hərbi əməliyyatlara başladılar. Ketek və Bardız rayonlarına hücumla başlayan müharibə daşnak Ermənistanının iflası ilə başa çatdı. Sentyabrın 28-də Kazım Qarabəkir paşanın komandanlığında türk ordusu uğurlu hərbi əməliyyatlarla elə ilk həmlələrdə ermənilər tərəfindən işğal olunmuş Sarıqamış və Merdeneki azad etdi. Lakin bu uğurlu hərbi əməliyyatlardan sonra Türkiyə hökuməti bir sıra məsələlərdən ehtiyatlanaraq, ordunun irəliləməsini dayandırdı və sentyabrın 30-da türk orduları Sarıqamış-Laloğlu xəttində öz mövqelərini möhkəmləndirdi. Hökumətin bu gözləmə siyasəti daha çox Sovet Rusiyası, Gürcüstan hökuməti və Antanta dövlətlərinin baş verənlərə münasibətini öyrənmək zərurətindən irəli gəlirdi.[107]

Müharibənin ilk günlərində türklərin Sarıqamışı azad etməsi və sürətlə irəliləməsi Sovet Rusiyasının ciddi narahatlığına səbəb olmuşdu. Sentyabrın 29-da türklərin cəbhədəki uğurları barədə G.Çiçerinə məlumat göndərən B.Leqran təkid edirdi ki, Sovet hökuməti işə qarışıb türklərin hücumunu dayandırmalıdır. O, qeyd edirdi ki, hərbi əməliyyatlar dayanarsa, bizim Ermənistanda öz vəzifələrimizi dinc yolla həyata keçirmək imkanları xeyli artar.[108] Sovet diplomatiyasının "Ermənistanda vəzifələr" deyəndə

[101] Aide Materielle A Preter A La Georgie et A L'Armenie. Le 6 mai 1920.//Ministère des Affaires Etrangères de France, Archives Diplomatique, vol.644, folio 30

[102] Ministère des Affaires Etrangères de France, Archives Diplomatique, vol.644, folio 61-68

[103] Ministère des Affaires Etrangères de France, Archives Diplomatique, vol.644, folio 65

[104] Bax: Aleksandr Bodrero. Bakıya səfər haqqında hesabat. 18.09.1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 1. CERCEC, EHESS, Paris, p.14

[105] Ş.Eliavanın Q.Orconikidzeyə teleqramı. 18.09.1920.// RDSSTA, f.85, s.18, i.50, v.1

[106] Ş.Eliavanın V.Lenin, G.Çiçerin və L.Trotskiyə şifrli teleqramı. 18.09.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.36

[107] Serpil Sürmeli. Türk-gürcü ilişkileri (1918-1921). Ankara, 2001, s.571

[108] B.Leqranın G.Çiçerinə teleqramı. 29.09.1920.// RDSSTA, f.64, s.1, i.21, v.49

Leqran daha çox Rusiyanın mübahisəli elan etdiyi ərazilərin Ermənistana verilməsini nəzərdə tuturdu. Oktyabr ayının 2-də Leqrana göndərdiyi gizli məktubda Çiçerin izah edirdi ki, ərazi məsələləri çox mürəkkəb məsələlərdir və onlar beş dəqiqəyə həll etmək mümkün deyildir. O yazırdı: "Əgər xatırlayırsansa, mübahisəli yerlərlərlə bağlı məsələ Bakıda hansı faciələrə gətirirb çıxardı. Sən başa düşməlisən ki, mübahisəli ərazilərin, o cümlədən, Naxçıvan və Zəngəzurun Ermənistan verilməsi haqqında məsələyə beş dəqiqəyə cavab vermək olmaz. Azərbaycanda belə bir əhvali-ruhiyyə hökm sürür ki, bu ərazilərin verilməsi hansısa bir fəlakətə gətirib çıxarar. Əziyyətli olsa da, uzun müddət, ardıcıl olaraq, bir neçə gün məsələni müzakirə etmək lazım gələcək. Yeri gəlmişkən, burada çox aydın şəkildə belə bir nəticəyə gəlmişlər ki, indiki vaxtda mübahisəli əraziləri Ermənistana vermək mümkün deyildir və ümumiyyətlə, mübahisəli yerlər haqqında məsələ hələ ki, açıq qalmalıdır... Eyni zamanda, Azərbaycanla mübahisəli yerlər haqqında məsələni də açıq saxlamaq lazım gələcək".[109]

İndiki anda Çiçerin mübahisəli ərazilərin həllindən daha çox Türkiyə ilə başlamış müharibədə ermənilər məğlubiyyətdən qurtarmaq barədə düşünürdü. Oktyabr ayının ilk günlərində o, Q.Orconikidzeyə yazırdı ki, təcili olaraq, kamalçılarla əlaqəyə girsin və onları Ermənistana doğru irəliləməkdən çəkindirsin. Çiçerin yazırdı: "Biz hesab edirik ki,vaxtından əvvəl başlamış təhlükəli hərbi əməliyyatlar Antanta hökumətlərini təxribata təhrik edə bilər. Bütün imkanlarımızdan istifadə edib, belə toqquşmaların qarşısını alın". Eyni zamanda, Çiçerin Sovet Rusiyasının Ermənistan və Gürcüstanla Türkiyə arasında vasitəçi ola biləcəyini də tərəflərə təklif etməyi Orconikidzeyə xatırladırdı.[110] Həmin gün Siyasi Büroya göndərdiyi məktubda Çiçerin xatırladırdı ki, bizdən asılı olmayaraq və bizim iştirakımız olmadan bizimlə zəruri əlaqələrin yaradılması naminə türklərin Sarıqamış-Şahtaxtı xəttini tutması onlarla razılaşdırılıb.[111] Oktyabrın 5-də Leqrana göndərdiyi teleqarmda Çiçerin təlimat verirdi ki, əgər türklərin hücumu bizimlə əlaqə üçün vacib olan Sarıqamış-Şahtaxtı xəttindən bu tərəfə keçib Ermənistanın mövcudluğu üçün təhlükə yaratmırlarsa, bütün dəlillər göstərir ki, Ermənistandan indi silah göndərilməsi üçün tranzit kimi istifadəyə ümid etmək olmaz. Onun fikrincə, Antantanın Ermənistanı silahlandırdığı indiki vəziyyətdə türklərlə əlaqələr Sovetlər üçün daha vacib idi. Çiçerin belə hesab edirdi ki, əgər Ermənistanın bir sıra şəhərləri türklər tərəfindən tutulubsa, bundan Sovet Rusiyasının Ermənistanla olan müqaviləsi ziyan çəkməyəcəkdi.[112] Eyni zamanda, həmin gün göndərdiyi digər bir teleqramda Çiçerin Leqrana təlimat verirdi ki, türklər Sarıqamış-Şahtaxtı xəttini keçib Ermənistanın içərilərinə doğru irəliləmədiyi təqdirdə məsələlərə müdaxilə etməsin.[113]

L.Trotski də öz növbəsində Lenin və Krestinskiyə göndərdiyi teleqramda kamalçıların Ərdahan və Batumu tutmağa cəhd göstərmələrinin Antantanın Batuma desant çıxarmasına bəhanə verəcəyini yazırdı. O, belə hesab edirdi ki, kamalçıların indiki vəziyyəti onlara belə fəallıq göstərməyə, Antantaya münasibətdə son dərəcə təxribatçı addım atmağa imkan verməməlidir. Trotski yazırdı: "Fransa kamalçılara qarşı deyil, lakin Sovet Rusiyası və Sovet Azərbaycanına qarşı desant çıxarmaq üçün bəhanə axtarır".[114] Sovet Rusiyası Xarici İşlər Komissarlığının Ermənistanla müharibəni dayandırmaq üçün türkləri Antantanın fəallaşması təhlükəsi ilə təhdid etməsi daha çox ermənilər qaçılmaz olan məğlubiyyətdən xilas etmək zərurətindən irəli gəlirdi. G.Çiçerin Q.Orconikidzeyə göndərdiyi başqa bir teleqramda türklərin irəliləməsinin Antantanı guya, hərəkətə gətirdiyindən narahatlıq ifadə olunur və ona təlimat verirdi ki, kamalçıları ehtiyatsız hərəkətlərdən çəkindirsin.[115] Bu təlimatı alan kimi, Orconikidze birbaşa xəttlə L.N.Stark (Ryabovski) və S. İ. Kavtaradzeyə tapşırıq vermişdi ki, Antantanın desantından yayınmaq üçün türk ordusunun hücumunun dayandırılması haqqında Çiçerinin təkliflərini kamalçılara çatdırsınlar.[116]

Hələ, müharibə başlanmazdan əvvəl Xalq Xarici İşlər komissarının Türkiyə, Ermənistan və Gürcüstandakı sovet nümayəndələrinə göndərdiyi məktubda Rusiyanın Şərq siyasətinin mərkəzinin Türkiyəyə keçdiyi bildirilirdi. Lakin sovet diplomatiyası elə etmək istəyirdi ki, sovet-türk münasibətləri

[109] G.Çiçerinin B.Leqrana məktubu. 02.10.1920.// RFXSA, f.04, s.51, q.321a, i.54970, v.12-12(arxası)

[110] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 05.10.1920.// RDSSTA, f.85, s.14, i.15, v.2-2(arxası)

[111] G.Çiçerinin RKP MK Siyasi Bürosuna məktubu. 05.10.1920.// RFXSA, f.04, s.39, q.232, i.52987, v.40

[112] G.Çiçerinin B. Leqrana teleqramı. 05.10.1920.// RDSSTA, f.64, s.1, i.21, v.283

[113] G.Çiçerinin B. Leqrana teleqramı. 05.10.1920.// RDSSTA, f.64, s.1, i.21, v.284

[114] L.Trotskinin V.Leninə və N.Krestinskiyə teleqramı. 05.10.1920.// RFXSA, f.04, s.39, q.232, i.52987, v.39

[115] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 14.10.1920.// RDSSTA, f.85, s.14, i.15, v.3-4

[116] Q.Orconikidzenin Stark və Kavtaradzeyə birbaşa xətlə xidməti məlumatı. 14.10.1920.// RDSSTA, f.85, s.14, i.18, v.1-1(arxası)

bir tərəfdən Krasinin Londonda başladığı ticarət əlaqələrinin yaranmasına mane olmasın, digər tərəfdən, Kamenevin İngiltərədə apardığı inqilabi işi səngitməsin. Sənəddə deyilirdi:" İngiltərədə dəlisovcasına müştəri axtarırlar, bizim bazara və bizim xammala ümid bəsləyirlər, ona görə, Lloyd Corc bütün acığını Kamenevin üstünə tökür, Krasin isə qar kimi təmizdir".[117] Bu məktubda Çiçerin ərazi də daxil olmaqla, Türkiyədə ermənilərə müstəqillik verilməsini sovet siyasətinin başlıca vəzifəsi hesab edirdi.

Sarıqamışdan sonra Ərdahanın türklər tərəfindən azad edilməsi Ermənistanı böyük təhlükə qarşısında qoyurdu. Sovet Rusiyası türk hücumunu dayandırmaq üçün bütün vasitələrdən istifadə edirdi. Oktyabr ayının 19-da Çiçerin Q.Orconikidzeyə təlimat verərək yazırdı ki, "türklərin hücumunun davam etməsi tamamilə məqsədəuyğun deyildir. Çalışın, onlara bunu etməməyə inandırasınız, belə ki, onlar özlərinə bununla zərər vururlar və yalnız, Antantanın müdaxiləsi üçün əsas vermiş olurlar. Bakıya hücum planı ilə bağlı Antantanın Ermənistanı və Gürcüstanı bizə qarşı çevirmək cəhdləri haqqında məlumatlar vardır. Türklərin Ermənistanın içərilərinə doğru irəliləməsi ermənilərə himayədarlıq üçün zəmin yaradır və onların xilası üçün desant göndərilməsi Qərbdə, hətta, sollar arasında belə populyar olacaqdır".[118] 1920-ci ilin sentyabrında İtaliyanın Türkiyədə olan nümayəndəliyinin əməkdaşı Aleksandr Barrere ilə söhbətində rus ticarət nümayəndəsi L.Ruzer hər necə olursa olsun, bolşeviklərin Bakını əllərində saxlayacaqlarını bildirmişdi.[119]

Gürcüstandakı Rusiya nümayəndəsi L.N.Stark da öz növbəsində türk-erməni cəbhəsindən Moskvaya Çiçerin və Trotskiyə, Bakıya isə, Orconikidzeyə həyəcanlı məlumatlar göndərirdi. O, bolşevik rəsmilərinə məlumat verirdi ki, "sentyabr ayının 28-də türklər iki diviziya ilə Oltı, Badras, Karakurt və Arqaca istiqamətindən hücuma keçiblər. Ayın 29-na keçən gecə ermənilər Sarıqamışı tərk etdilər, Merdenek altında birinci erməni piyada alayı güclü itki verdi və 8 top itirdi. Ərdahan və Kağızmanı ermənilər müqavimətsiz verdilər".[120] Sentyabrın 29-da Tiflisdəki Rusiya nümayəndəsi

[117] G.Çiçrinin Eliava, Stark və Leqrana məktubu. 15.09.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.34.

[118] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 19.10.1920.// RDSSTA, f.85, s.14, i.15, v.5

[119] Aleksandr Bodrero. Bakıya səfər haqqında hesabat. 18.09.1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 1. CERCEC, EHESS, Paris, p.1

[120] Starkın Çiçerin, Trotski və Orconikidzeyə teleqramı .15.10.1920.// RDSSTA, f.85, s.14, i.16, v.3-4

B.Leqran türk-erməni cəbhəsində baş verənlərlə G.Çiçerini məlumatlandırdı. O yazırdı: "Türklər Qars cəbhəsində hücuma başlayıb, Sarıqamışı tutdular. Türklərin hücumunun dayandırılması məqsədilə Sovet hökumətinin təcili olaraq, qəti müraciəti zəruridir. Əks təqdirdə, bizim vəziyyətimiz ikimənalı olacaq. Başladıqları hücumu dayandırmaq istiqamətində türklərə uğurlu təsir edəcəyimiz təqdirdə, bizim Ermənistandakı vəzifələrimizin dinc yolla həll edilməsi imkanları çox böyükdür".[121]

Əslində, Mustafa Kamal paşa Ermənistanla müharibəyə çox ehtiyatla yanaşırdı. Oktyabr ayının ortalarında hərbi əməliyyatların dayandırılması barədə ilk sovet təklifləri alınanda, o, bu təklifləri məclisin müzakirəsinə çıxarmadı. Kamal paşa ehtiyat edirdi ki, az əvvəl Van, Muş və Bitlisin ermənilərə verilməsi tələbi ilə çıxış etmiş Moskvanın təklifləri məclisdəki sovetlərlə yaxınlaşma əleyhdarlarının əlinə əlavə dəlil versin. Lakin Ankaradakı sovet nümayəndəliyinin birinci katibi ilə şəxsi söhbətdə Kamal paşa bəyan etdi ki, "nə lazımdırsa, o, hamısına razıdır, yalnız bizim ərazilərimizə qəsd edilməsin".[122]

Türk-erməni cəbhəsindən ilk məğlubiyyət xəbəri alınan kimi, sentyabr ayının 30-da Ermənistanın xarici işlər naziri A.Ohancanyan G.Çiçerinə təcili teleqramla müraciət etdi. Bu teleqramın surəti Tiflisdəki Rusiya nümayəndəsi Leqrana və erməni missiyasının rəhbəri Bekzadyana da göndərildi. Ohancanyan Çiçerinin 1920-ci ilin iyulun 20-də ona göndərdiyi teleqramı xatırladırdı və yazırdı ki, sovetlər o zaman türk milli hökuməti ilə dostluq münasibətlərini Kiçik Asiya ərazisində erməni xalqının vəziyyəti ilə əlaqələndirir və Şərqi Anadoluda erməni xalqının mövcudluğunun təmin edilməsini Sovet hökumətinin təsiri ilə izah edirdi. A.Ohancanyan G.Çiçerinin Ermənistana verdiyi təminatın əksinə olaraq, sentyabrın 28-də türk ordularının hərbi əməliyyatlara başlamasından Rusiya Sovet hökumətinin xəbərinin olub-olmadığını soruşur və bu hücumun dayandırılması üçün hansı tədbirlər gördükləri ilə maraqlanırdı. O yazırdı: "Öz tərəfindən Ermənistan Respublikası hökuməti, bütün imkanlarından istifadə edərək, ona müttəfiq olan Türkiyə milli qüvvələrinin Ermənistana hücumunun dayandırılması və öz ordularını indiki Ermənistan sərhədlərindən geri çəkməsi istiqamətində Türkiyəyə təsir göstərməyi RSFSR hökumətindən gözləyir. Təcili tədbirlər görün. RSFSR hökumətinin bu tədbirləri mənim

[121] B.Leqranın G.Çiçerinə təcili teleqramı. 29.09.1920.// RDSSTA, f.64, s.1, i.21, v.149

[122] Upmal-Anqorskinin Çiçerinə şifrli teleqramı. 18.10.1920.// RDSSTA, f.5, s.1, i.2203, v.3

hökumətimə imkan verər ki, Ermənistan hökuməti ilə Sovet Rusiyası arasında imzalanacaq müqavilənin şərtlərini onun səlahiyyətli nümayəndəsi ilə müzakirə etsin".[123]

A.Ohancanyanın məktubu və Qafqazdan aldığı digər teleqramlar əsasında G.Çiçerin oktyabr ayının 5-də RK(b)P MK Siyasi Bürosuna məlumat hazırladı. Həmin məlumatda o, bildirdi ki, "bizimlə zəruri əlaqə yaradılması naminə, lakin bizdən tamamilə asılı olmayaraq və bizimlə heç bir əlaqə olmadan Sarıqamış-Şahtaxtı xəttini tutmaları türklərlə razılaşdırılıb. Çiçerin yaranmış vəziyyətdə Batuma fransız desantının çıxarılmasını mümkün sayaraq, xəbərdarlıq edirdi ki, İstanbulda, əsasən, seneqallılardan ibarət olan 86.000 antisovet ordu toplanıb və Fransızların Gürcüstana desant çıxarması istisna təşkil etmədiyindən Bakı üçün ciddi təhlükə yarana bilər. Türklər hücumu dayandırmayacağı təqdirdə Çiçerin Orconikidzenin belə bir təklifini Siyasi Büronun diqqətinə çatdırırdı ki, Ermənistanın bütün ərazisinin Sovet Rusiyası qoşunları tərəfindən tutulmasını ermənilərə təklif edilsin. Digər tərəfdən, G.Çiçerin əldə etdiyi məlumatlar əsasında belə bir mülahizə irəli sürürdü ki, türk hücumu Qafqazın Sovet hakimiyyətinə qarşı olan bütün əksinqilabi müsəlman dairələrini ruhlandırmışdır. O yazırdı: "Axı Bakını fəth edən və bolşevizm əleyhinə işğalçı siyasətin ilhamçısı kimi Nuru paşa hələ oradadır *(Qafqazdadır – C.H.)*".[124]

1920-ci ilin sentyabrında Q.Zinovyevlə birlikdə Ənvər paşanın Bakıya, Şərq xalqlarının I qurultayına gəlişi yerli əhalidə anti-sovet əhval ruhiyyəni coşdurmuşdu.[125] Həmin vaxt Bakıda olan italyan nümayəndəsi A.Bodrero yazır ki, "onun Bakıya gəlişi gözlənilmədən Azərbaycanın müsəlman əhalisini sözün tam mənasında vəcdə gətirmişdi. Onu hər yerdə salamlayırdılar, əlini öpürdülər. Tatarların (azərbaycanlıların – C.H.) Ənvər üçün təşkil etdiyi təntənəli qəbulları onun kommunizmə müraciət etməsi ilə izah edilə bilməz. Bu tatarlarla *(azərbaycanlılarla – C.H.)* ermənilər arasında tükənməz nifrət ilə bağlı idi".[126] Ə.Alpoud öz xatirələrində Ənvər paşa-

[123] A.Ohancanyanın G.Çiçerinə təcili teleqramı. 30.09.1920.// RDSSTA, f.64, s.1, i.21, v.150-151

[124] G.Çiçerinin RK(b)P MK Siyasi Bürosuna məktubu. 05.10.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.40.

[125] Ənvər Paşanın Bakı səfəri və Şərq xalqların I qurultayında iştirakı haqqında ətraflı məlumat üçün bax: Yavuz Aslan. Birinci Doğu Halkları Kurultayı (1-7 Eylül 1920 - Bakü). İstanbul, Kaynak yayınları, 2007, s.246-304; Solmaz Rüstəmova – Tohidi. Kominternin Şərq siyasəti və İran, s.122-130

[126] Aleksandr Bodrero. Bakıya səfər haqqında hesabat. 18.09.1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 1. CERCEC, EHESS, Paris, p.11

nın Bakıya gəlişini belə təsvir edir: "Bizdə Ənvər paşanın adını Ədirnə və Sarıqamış fatehi olaraq tanımayan yox idi. Azərbaycan türkləri onu çox sevirdi. Buna görə də bir çox ailələrdə doğulan oğlan uşaqlarının adını Ənvər qoymuşdular...Ənvər paşanın Azərbaycana gələcəyini eşidən millətimiz, bayram günlərini yaşayırmış kimi üzü gülür, bir-birini təbrik edirdi. Sanki gecənin səsizliyində, sabaha qədər eşidilən makinalı tüfənglərin səsi, verilən şəhidlər heç elə bil bu məmləkətdə deyildi...Hamı öz dərdini unutmuşdu. Sanki qurtuluş ümidi Ənvər paşanın gəlişi ilə bağlı idi...Küçələrdə, evlərdə, tarlalarda günün əsas söhbəti Ənvər paşa idi".[127]

Mustafa Kamal paşanın Azərbaycana təyin etdiyi diplomatik təmsilçi Memduh Şevket Esendal Şərq Xalqlarının I qurultayına qədər Bakıya yetişmək məqsədilə 1920-ci ilin avqust ayının 15-də Ankaradan yola çıxsa da, lakin o, hərbi attaşe Ömər Lütfi əfəndi ilə birlikdə qurultay başa çatdıqdan az sonra Azərbaycan paytaxtına yetişmişdi. Mustafa Kamal paşa bu təmsilçiliyə böyük əhəmiyyət verirdi. Avqust ayının 25-də Kazım Qarabəkir paşaya göndərdiyi teleqramda Mustafa Kamal paşa yazırdı ki, hələlik diplomatik nümayəndəlik kimi fəaliyyətə başalayan Bakı təmsilçiliyi, Sovet Azərbaycanı Ankarada səfirlik açan kimi, Türkiyənin Azərbaycanda səfirliyinə çevriləcəkdir.[128] Türkiyə Böyük Millət Məclisi hökumətinin xarici ölkələrdə ilk diplomatik nümayəndəsi olan Memduh Şevket bəyə verilən təlimatda göstərilirdi ki, onun səlahiyyətləri, yalnız Azərbaycana aid olmayıb, bütün Qafqazı əhatə edir. Doqquz bənddən ibarət olan təlimata görə, o, Azərbaycan hökuməti haqqında bilgilər verməli, hökumətin hansı əsaslar üzərində qurulduğu, kimlərdən təşkil olunduğu və hökumət üzvlərinin düşüncə tərzi barədə Ankaraya məlumat çatdırmalı idi. Eyni zamanda Memduh Şevket bəy Azərbaycanın Rusiya, İran, Ermənistan və Gürcüstanla siyasi, iqtisadi və diplomatik münasibətləri haqqında da Ankaaraya raportlar göndərməli idi. Təlimatın 9-cu bəndində deyilirdi ki, Memduh Şevket bəy Şimali Iranda yaşayan türklərlə Azərbaycan arasında hər hansı bir əlaqənin olub-olmamasını araşdırmalı, əgər bu əlaqələr varsa, onun hansı səviyyədə olduğunu, yoxsa necə qurula biləcəyini müəyyənləşdirməli idi.[129]

[127] Oziz Alpoud. Həyatımın hekayələri. Bakı, 2011, s.186-187

[128] Bilal Şimşir. Bizim Diplomatlar. İstanbul, 1996, s.76

[129] Bilal Şimşir. Azerbaycan. Azerbaycan'ın Yeniden Doğuş Sürecinde Türkiye-Azerbaycan ilişkileri. Bilgi Yaymevi, Ankara, 2011, s.59; Bilal Şimşir. Atatürk ve Yabançı Devlet Başkanları. Ankara, 1993, s.397-398; İran Azərbaycanı ilə bağlı Sovet Azərbaycanı siyasi dairələrinin görüşləri barədə ətraflı məlumat üçün bax: А.Ахмедов. Национальное движение партии и

Bakıda fəaliyyətə başladıqdan az sonra Memduh Şevket bəy Azərbaycan hökuməti ilə yaxşı münasibətlər yarada bildi və Türkiyə diplomatik nümayəndəsi kimi Azərbaycan xalqının etimadını qazandı. N. Nərimanovun ətrafında birləşmiş "təmayülçülər" və "kommunist millətçilər" Memduh Şevket bəylə keçirilən gizli görüşlərdə açıq şəkildə bildirirdilər ki, ruslaşdırmaya "hamilə olmuş" Azərbaycan cəmiyyətini "qırmızı imperializmin" əsarətindən qardaş Türkiyənin yardımı xilas edə bilər.[130] Xüsusilə, 1922-ci ilin avqust ayının 30-da türk ordusunun Qərb cəbhəsində qazandığı tarixi zəfər Bakıda böyük ümumxalq həyacanı yaratmışdı. Bu zəfərdən Azərbaycan rəsmilərinin, Azərbaycan aydınlarının və bütövlükdə, Azərbaycan xalqının iftixar hissi keçirdiyini Memduh Şevket bəy sentyabr ayının 14-də Kamal paşaya göndərdiyi şifrli teleqramda qeyd edirdi. O, bu qələbə münasibəti ilə N. Nərimanovun təbrikini Ankaraya çatdırırdı.[131] Memduh Şevket bəy 1924-cü ilin mart ayının 31-nə qədər öz diplomatik missiyasını yerinə yetirdi və SSRİ-nin qurulması ilə xarici siyasət funksiyası Moskvanın səlahiyyətlərinə keçdiyindən, Türkiyə hökuməti 1924-cü ilin martında Bakıdakı diplomatik təmsilçiliyi bağlamalı oldu.[132]

Moskvada danışıqlar dayandırıldıqdan sonra Yusuf Kamal bəy razılaşdırılmış müqavilə mətni ilə birlikdə Ankaraya dönmüş, İbrahim Tali Bakıda Şərq Xalqlarının I qurultayında iştirak etdikdən sonra Ənvər paşa ilə birlikdə Moskva üzərindən Berlinə yollanmış, Osman bəy Rusiyadan alınan yardımları Türkiyəyə çatdırmaq üçün Tuapseyə getmiş, Seyfi bəy isə, Bakıya gəlmişdi.[133] Orconikidzenin məlumatına görə, bacısı ilə görüşmək məqsədilə Vladiqafqaza gedən Bəkir Saminin inquşlar arasında müstəqillik haqqında təşviqat aparması Xarici İşlər Komissarlığının narahatçılığına səbəb olmuşdu. Çiçerin Siyasi Büroya məlumatında deyirdi: "Bəkir Sami bildirdi ki, bacısı ilə görüşmək üçün Vladiqafqaza gedir. Müttəfiqimizə imtina etmək olmaz, lakin mən Menjinski ilə şərtləşdim

общественные деятели Азербайджана в 1918-1925 годах глазами очевидца. Баку, 2006, с.56-59

[130] Türkiyə Respublikasının Bakıdakı diplomatic nümayəndəsi ilə keçirilmiş gizli görüşlər barədə ətraflı məlumat üçün bax: А.Ахмедов. Национальное движение партии и общественные деятели Азербайджана в 1918-1925 годах глазами очевидца. Баку, 2006, с.72-79

[131] Bilal Şimşir. Azerbaycan. Azerbaycan'ın Yeniden Doğuş Sürecinde Türkiye-Azerbaycan ilişkileri. Bilgi Yayınevi, Ankara, 2011, s.63

[132] Bax: Bilal Şimşir. Bizim Diplomatlar. İstanbul, 1996, s.84

[133] Mustafa Öztürk. Atatürk dönem'inde Türkiye'nin Kafkasiya politikası. Ankara, 2005, s.104

ki, Rostovda onu bacısı gözləyəcək, sonra isə hər hansı narahatlığa istinad edib, onu Rostovdan o yana buraxmasınlar. Başa düşmürəm, buna niyə əməl edilməyib".[134] Bütün bunlar bolşevikləri türklərdən ehtiyatlanmağa vadar edir və türklərin Qafqazdakı siyasətinə münasibətdə qısqanclıq hissi doğururdu. Bəkir Sami bəy 1920-ci ilin noyabrın 16-da Sovet Rusiyasını tərk etdi və istər Türkiyədə, istərsə də 1921-ci ilin fevralında London konfransına getdikdən sonra Avropada Sovetlərin ən qatı əleyhdarına çevrildi.

Qafqazda vəziyyətin ağırlaşdığını nəzərə alaraq, Çiçerin təxirə salınmadan Stalinin ora göndərilməsini təkid edirdi. G.Çiçerinin təklifləri üzrə oktyabr ayının 6-da RK(b)P MK Siyasi Bürosu erməni-türk müharibəsi ilə bağlı Qafqazdan gələn məlumatları müzakirə etdi. Bu müharibənin başlanması ilə bağlı Gürcüstan hökuməti Sovet Rusiyasına nota təqdim etmişdi. G.Çiçerinə tapşırıldı ki, Siyasi Büroda aparılan müzakirənin ruhuna uyğun olaraq, Gürcüstan hökumətinə cavab verilsin. Qafqazda yaranmış böhranlı vəziyyətlə bağlı Çiçerin nüfuzlu bir sovet nümayəndəsinin Tiflisdə yerləşməsini zəruri hesab edirdi. Xarici işlər komissarının bəyanatını nəzərə alaraq Siyasi Büro 48 saat ərzində A.M.Şeynmanın Tiflisə getməsi haqqında qərar qəbul etdi. Elə həmin iclasda Stalinin Qafqaza səfərinin bir qədər təxirə salınması haqqında xahişi də nəzərə alınmadı. Ona tapşırıldı ki, yaxın günlərdə Qafqaza yola düşsün.[135] Sovet rəhbərliyində Stalin çox az siyasi liderlərdən idi ki, Türkiyə - Ermənistan müharibəsinin doğura biləcəyi siyasi nəticələri qabaqcadan təxmin edə bilirdi. G.Çiçerindən fərqli olaraq, o, belə hesab edirdi ki, türk hücumunun davam etməsi "bizim dəyirmanımıza su tökür".[136]

Antantanın Gürcüstanın hər hansı formada müharibəyə girməsinə cəhd göstərməsinin qarşısını almaq üçün Türkiyə tərəfi Tələt bəy başda olmaqla, Tiflisə bir nümayəndə heyəti göndərdi. Bu heyətin başlıca vəzifəsi türklərin Gürcüstana qarşı hər hansı bir işğalçılıq niyyətinin olmadığını, Ermənistanla müharibədə onların bitərəf qalmasına nail olmaqdan ibarət idi. Türk-erməni müharibəsi başlandıqdan sonra Tiflisdə olan ingilis nümayəndəsi polkovnik Stoks bütün vasitələrlə gürcüləri bu münaqişəyə cəlb etməyə və ermənilərə

[134] G.Çiçerinin RK(b)P MK Siyasi Bürosuna məktubu. 05.10.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.40.

[135] RK(b)P MK Siyasi Bürosunun iclasının 47 saylı protokolundan çıxarış. 06.10.1920.// RDSSTA, f.17, s.3, i.114, v.1

[136] İ.Stalin, V.Lenin, Q.Orconikidze və G.Çiçerin arasında telefon söhbəti. 05.10.1920.// RDSSTA, f.2, s.1, i.24461, v.1-1(arxası)

yardım göstərməyə təhrik edirdi. Oktyabrın 13-də lord Kerzona göndərdiyi teleqramda, o, Gürcüstanın ermənilərə hər cür yardım göstərəcəyini yazmışdı.[137] Oktyabrın ilk günlərində cəbhədən alınan məğlubiyyət xəbərləri Gürcüstanda yaşayan ermənilərı təşvişə salmışdı. Ermənistan ordusunu gücləndirmək üçün Tiflisdəki erməni cəmiyyəti Gürcüstanda yaşayan 18-35 yaş arası ermənilərin səfərbərliyinə qərar vermişdi.[138] Bu səfərbərlik nəticəsində 2.000 adamın könüllü olaraq, orduya yazılmasını bildirsələr də, lakin vuruşmağa gedən olmadı. Oktyabr ayının 6-da Tiflis ermənıləri türk hücumuna qarşı bir mitinq təşkil edib, şəhərdəki rus səfirliyinə getdilər və Sovet Rusiyasının Türkiyəyə yardım göstərməsindən narazılıqlarını bildirdilər.[139]

Tiflisə gələn türk nümayəndə heyəti istər, gürcü rəsmiləri ilə, istərsə də, Gürcüstandakı Rusiya nümayəndəsi Şeynmanla danışıqlarda Türkiyənin 1920-ci ilin may ayının 7-də Rusiya ilə Gürcüstan arasında imzalanmış müqavilənin Batuma aid maddələrinə hörmətlə yanaşacaqlarına təminat verdi. Polkovnik Stoksun İrəvana səfəri, Ermənistanda daha çox iqtisadi - filantropik mahiyyətli işlərlə məşğul olan italyalı və amerikalılarla məsləhətləşməsi, hətta, britaniyalıların Rumıniyadan erməni cəbhəsi üçün neft gətirməsi belə, daşnak qüvvələrini türk ordusu qarşısında geri çəkilməkdən xilas etmədi. Britaniya nümayəndəsi Stoksun fikrincə, Cənubi Qafqazın xilası hər üç respublikanı və Dağıstanı əhatə edəcək, Zaqafqaziya konfederasiyasının yaranmasında idi. İngilislər müsavatçıların timsalında Azərbaycanı da bu konfederasiyanın tərkibində görürdülər. Lakin Leqranın yazdığına görə, "ermənilər mübahisəli əraziləri onlara verməkdən imtina edib, həmin əraziləri *musavatçılara güzəştə getməyə üstünlük verən* İngiltərə ilə sazişə getməkdən çəkinirdilər".[140]

B.Leqran oktyabr ayının əvvəllərində Moskvaya göndərdiyi məlumatlarında təklif edirdi ki, Ermənistanı Sevr müqaviləsinin ona verdiyi torpaqları silah gücünə ələ keçirmək niyyətlərindən çəkindirmək lazımdır. Onun fikrincə, Ermənistan Türkiyə ilə olan ərazi mübahisələrini Sovet Rusiyasının vasitəçilik missiyasına etibar etməli idi. O yazırdı: "Ermənilərin bu şərtlərlə razılaşmasını vəziyyətdən çıxış yolu hesab edirəm. Bu bizə türklərdən hərbi əməliyyatını dayandırmağı və onların erməni ərazilərini

[137] Bax: Stefanos Yerasimos. Türk – Sovyet ilişkileri Ekim Devriminden "Milli mücadele"ye. Birinci Baskı, İstanbul, 1979, s.188

[138] Starkın Orconikidzeyə teleqramı. 05.10.1920.// RDSSTA, f.85, s.14, i.16, v.1-2

[139] Serpil Sürmeli. Türk-gürcü ilişkileri (1918-1921), s.577

[140] B.Leqranın G.Çiçerinə teleqramı. 14.10.1920.// RDSSTA, f.64, s.1, i.21, v.189

təmizləməyə son qoymalarını təkidlə tələb etməyə tam əsas verərdi".[141] Eyni zamanda, Leqran türk hücumunun doğurduğu siyasi şəraitdən Ermənistanın sovetləşdirilməsi məqamı *kimi istifadə olunmasına da ehtiyatla yanaşırdı.* O, belə hesab edirdi Sovet Rusiyasının regionda yetərincə ordusu olmadan, bu məqsədlə türk qüvvələrindən istifadə olunması sovetləşmə əməliyyatına qalmaqal xarakteri verərdi. Leqran ermənilərin Rusiya şərtlərinə razı olacağı təqdirdə, Sovet hökuməti adından Türkiyəyə təcili olaraq, hücumu dayandırmaq haqqında tələb verilməsi üçün vəkalət istəyirdi.[142]

Türkiyənin Ermənistana doğru irəliləməsindən ruhlanan Naxçıvandakı yerli könüllü dəstələr 10 avqust müqaviləsi ilə Rusiya tərəfindən Ermənistana verilmiş Şahtaxtı dəmir yolunun Şahtaxtı-Culfa hissəsini azad etdilər. Rusiya ilə Türkiyəni bağlayan dəmir yolunun bolşeviklər tərəfindən ermənilərə verilməsi Mustafa Kamal paşanı da narazı salmışdı. O, Ankaradakı sovet nümayəndəsi Upmal-Anqorski ilə söhbətdə qeyd etmişdi ki, Şahtaxtı-Culfa dəmiryolunun tamamilə ermənilərin sərəncamına verilməsini nə ilə izah etmək olar, halbuki, bu rusların özlərinin də əleyhinədir.[143] Dəmiryolu ilə bağlı B.Leqranın məlumatına cavab olaraq, G.Çiçerin bildirdi ki, "biz oranı tutmayacağıq, oranı ermənilər üçün qaytarmaq bizim işimiz deyil. Müqavilə bizdən Türkiyə ilə müharibəni tələb etmir. Deməli, biz dəmiryolunu tutmuruqsa, əllərimizi təmizə çıxarmış oluruq. Uğurlu olub-olmamasından asılı olmayaraq, Ermənistan vasitəsi ilə tranzitə dair məsələni qaldırın. Mübahisəli vilayətlər hələlik bu və ya digər tərəfə verilmədən, bizim işğalımız altında qalmalıdır".[144] Elə həmin gün Leqrana göndərilən digər bir məktubda *mübahisəli ərazilər* Qordi düyününə[145] bənzədilir və Ermənistanın Antantadan kömək alması ilə bağlı siyasi vəziyyət təhlil edilirdi. Leqrana tapşırılırdı: "Ermənistanın daxili vəziyyəti, Ermənistanın siyasi həyatında müxtəlif partiyalar haqqında daha çox məlumat ver. Hansı siyasi partiyalar daşnaklarla

[141] B.Leqranın G.Çiçerinə teleqramı. 07.10.1920.// RDSSTA, f.85, s.14, i.17, v.3

[142] B.Leqranın G.Çiçerinə teleqramı. 07.10.1920.// RDSSTA, f.85, s.14, i.17, v.3

[143] Upmal-Anqorski. Xarici işlər üzrə xalq komissarının müavininə məruzə. 08.11.1920.// RDSSTA, f.5, s.1, i.2158, v.7

[144] G.Çiçerinin B.Leqrana teleqramı. 09.10.1920.// RDSSTA, f.64, s.1, i.21, v.172

[145] Qordi düyünü – qədim yunan əfsanəsinə görə, Frigiya hökmdarı Qordinin arabanın boyunduruğunun dişləsinə bağladığı dolaşıq düyün idi. Qordi düyününü heç kəs açа bilmirdi. Qeybdən gələn xəbərə görə, Qordi düyününü açan şəxs guya bütün dünyaya hakim olacaqdı. Rəvayətə görə Makedoniyalı İsgəndər e.ə. 334-cü ildə Qordion şəhərinə gələrək Qordi düyününü qılıncla kəsmişdi. Bir qayda olaraq, mürəkkəb və dolaşıq məsələləri "Qordi düyünü" ilə müqayisə edirlər.

birlikdədir və onlar arasında mübarizə nə ilə bağlıdır. Erməni kəndlilərinin əhvalı-ruhiyyəsi necədir? Türk hücumu ilə bağlı vəziyyət kəskin şəkildə dəyişmişdir. Sarıqamış-Şahtaxtı xətti təxminən sərhəd xəttidir, lakin əgər türklər Ermənistanın içərilərinə doğru gəlsələr, onlar ciddi siyasi böhrana nail olacaqlar... Daşnaklarla əlaqələrinizdə qəti şəkildə onlara cavab verin ki, biz Ermənistana hər hansı formada ziyan dəyməsini arzulamırıq. Əgər daşnaklar arzulayırsa, biz vasitəçi kimi çıxış etməyə hazırıq".[146]

Sovet Rusiyasının Türkiyəyə münasibətdə loyal mövqeyini hiss edən Ermənistan xarici işlər naziri A.Ohancanyan G.Çiçerinə göndərdiyi məktubda türk hücumundan daha çox Xəlil paşanın Zəngəzura gəlməsindən, guya Azərbaycan hökumətinə tabe olmaq haqqında erməni kəndlilərindən imza toplamasından və Rusiyanın 10 avqust müqaviləsi üzrə neytral ərazi kimi tanıdığı Qarabağ, Zəngəzur və Naxçıvana Azərbaycan ordusunun gəlməsindən, habelə, Sovet Rusiyasının bütün bunlara göz yummasından narazılıq ifadə olunurdu.[147] Şübhəsiz ki, erməni-türk müharibəsinin başlanması və Ermənistanın bir-birinin ardınca ağır hərbi məğlubiyyətlərə düçar olması Azərbaycanın maraqlarına uyğun idi. Lakin türk qoşunlarının irəlilədiyi bu böhranlı vəziyyətdə belə, Ermənistan Rusiyanın yardımı ilə mübahisə obyektinə çevrilmiş Qarabağ, Zəngəzur və Naxçıvan barədə iddialarını önə çəkirdi. Sovet Rusiyasına gəldikdə isə, bolşeviklər türk hücumunun doğurduğu siyasi böhrandan kommunistlərin Ermənistanda hakimiyyətə gətirilməsi məqamı kimi istifadə etməyə çalışırdılar. Oktyabrın 13-də Çiçerin Leqrana yazırdı: "Orconikidze daşnakların istefaya getmələrinin mümkünlüyü haqqında məlumat verir. Təcili olaraq, xəbər verin, Ermənistanda daxili vəziyyət necədir və xaricdən təzyiq olmadan hakimiyyətin kommunistlərə verilməsi mümkündürmü, belə ki, biz indiki anda hər hansı təzyiq göstərməkdən çəkinməliyik, biz öz tərəfimizdən barışçı qüvvə kimi çıxış etməliyik... Bizim səmimi dostpərvərliyimizi və onlara kömək etmək arzunuzu erməni kütlələrinə göstərin".[148]

Oktyabr ayının 11-də İrəvana gəlmiş B.Leqran üç gün sonra Çiçerinə məlumat verdi ki, türklər Brest müqaviləsinə və Batum sazişinə əsaslanan iddialarından imtina etsələr, ermənilər türk məsələsində Sovet Rusiyasının vasitəçiliyini qəbul etməyə hazırdılar. Elə həmin teleqramda Leqran əlavə

[146] Mərkəzdən B.Leqrana verilmiş təlimat. 09.10.1920.// RDSSTA, f.64, s.1, i.21, v.173-174
[147] A.Ohancanyanın G.Çiçerinə məktubu. Surəti Yeqizaryana, Leqrana və Bekzadyana. 10.10.1920.// RDSSTA, f.64, s.1, i.21, v.175-176
[148] G.Çiçerinin B.Leqrana teleqramı. 13.10.1920.// RDSSTA, f.64, s.1, i.21, v.183

edirdi ki, "ermənilər mübahisəli ərazilərdə qırmızı ordunu yerli partizan qüvvələrinin və Azərbaycan hissələrinin əvəz etməsindən, onların hazırda müharibə vəziyyətində olduğu türk nizami qüvvələrinin Naxçıvanda olmasından narazılıq edirlər".[149]

Ermənistan hökuməti bütün vasitələrlə Türkiyə ilə olan münaqişələrini Azərbaycanla əlaqələndirməyə çalışırdı. Onlar Sovet Rusiyasının nümayəndəsi ilə danışıqlarda Türkiyəyə Ermənistan üzərindən tranzit yolunun açılmasını bilavasitə Zəngəzur və Naxçıvanın qəti olaraq, Ermənistan ərazisi kimi tanınması ilə şərtləndirirdilər.[150] Oktyabrın 26-da Moskvaya göndərdiyi məlumatda Leqran ermənilərə istinadən cəbhədəki hərbi vəziyyəti təsvir edir və cəbhə xəttinin Dəmirqapı-Ziyarət dağları boyunca keçdiyini bildirirdi.[151] Xarici radiostansiyalar belə məlumat yaymışdı ki, guya, Sovet nümayəndəsi Leqran Ermənistan hökumətinə ultimatum təqdim etmişdir. Bununla bağlı G.Çiçerin ona məsləhət görürdü ki, bizim Cənubi Qafqazdakı qüvvələrimizin indiki vəziyyətinə görə, biz təhdidedici bəyanatlarla çıxış etməməliyik. O yazırdı: "Hökumətə və mətbuata deyin ki, biz vasitəçilərik, biz təhdid etmirik. Qeyd edin ki, bizim türklərlə ittifaqımız yoxdur, biz barış yaratmaq məqsədilə öz təsirimizdən istifadə etməyi arzulayırıq. Bundan çıxış edərək, biz vasitəçiliyimizi təklif edirik və bunu davam edəcəyik. Eyni zamanda, Ermənistandan tələb edirik ki, Antanta ilə ittifaqa son qoysun, lakin bunu ultimatum və ya, təhdid formasında etməyin".[152] Görünür, bütün bunları nəzərə alaraq, Ermənistanın Avropadakı nümayəndə heyətinin sədri A.Ağaronyan Versal Ali Şurasına müraciətində türklərin rus bolşevikləri ilə birlikdə Ermənistana hücum etdiyini yazmışdı.[153]

Ermənilərin bütün ciddi, cəhdlərinə baxmayaraq, türklər oktyabrın 30-da Qarsı aldılar, erməni ordusu Gümrüyə doğru geri çəkilmək məcburiyyətində qaldı. Türklərin Qarsa yaxınlaşması Ermənistanın Rusiya vasitəçiliyinə razılaşmasını daha da sürətləndirdi. Oktyabr ayının 28-də Sovet Rusiyasının Ermənistandakı nümayəndəsi B.Leqranla erməni hökumətinin nümayəndələri Levon Şant, Ambarsum Terteryan və Levon Zarafyan arasında bir protokol imzalandı. Bu protokoloda ermənilərin irəli sürdüyü şərtlər Sovet Rusiyasının "dostyana vasitəçiliyi" ilə müharibə meydanın-

[149] B.Leqranın G.Çiçerinə teleqramı. 14.10.1920.// RDSSTA, f.64, s.1, i.21, v.181
[150] B.Leqranın G.Çiçerinə teleqramı. 24.10.1920.// RDSSTA, f.64, s.1, i.21, v.188
[151] B.Leqranın G.Çiçerinə teleqramı. 14.10.1920.// RDSSTA, f.64, s.1, i.21, v.191
[152] G.Çiçerinin B.Leqrana teleqramı. 26.10.1920.// RDSSTA, f.5, s.1, i.2099, v.4
[153] Ministère des Affaires Etrangères de France, Archives Diplomatique, vol.644, folio 142

da itirdikləri əraziləri diplomatiya vasitəsi ilə əldə etməyə yönəlmişdi. Bu protokolun birinci maddəsinə görə, Ermənistan Qarabağ vilayətinə olan bütün iddialarından imtina edir və elə həmin maddəyə görə, Zəngəzur və Naxçıvan Ermənistana birləşdirilməsinə nail olurdu. Daşnakların ikinci şərtinə görə, Ermənistan vasitəsi ilə Türkiyəyə daşınacaq silah, sursat və hərbi ləvazimatın 25 faizi onlara verilməli idi. Üçüncü şərtə görə, Rusiya tərəfindən yoxsulluq həddində olan Ermənistana 2,5 milyon qızıl həcmində kredit verilməli idi və nəhayət, Türkiyə Brest-Litovski müqaviləsindən və Batum konvensiyasından imtina etməli, Ermənistan Respublikasını Rusiya ilə imzalanmış müqavilədə göstərilən sərhədlərdə tanımalı, türk ordusu 1914-cü il sərhədlərinə çəkilməli, Türkiyəyə daşınan yüklər Trabzon, Ərzurum, Muş, Bitlis xəttindən arxa tərəfdə türklərə təhvil verilməli idi.[154] B.Leqran mübahisəli ərazilər barədə Azərbaycanın razılığı olardısa, yuxarıdakı şərtlər daxilində Ermənistanla müqaviləni mümkün hesab edirdi. Lakin Azərbaycanın razılığını almadan o, erməni nümayəndələri ilə birlikdə Sovet Rusiyası ilə Ermənisatan arasında imzalanacaq müqavilənin 17 maddədən ibarət olan layihəsini artıq hazırlamışdı.[155] Onun fikrincə, məsələnin belə qoyuluşu kamalçıların ürəyincə olmasa da, Ermənistan üçün sərfəli olardı, onu Antantanın əlində vasitə olmaqdan qurtara və hətta, Sovet Rusiyasının Cənubi Qafqazda mövqelərinin möhkəmlənməsinə xidmət edən Gürcüstan-Ermənistan ittifaqının yaranmasına gətirib çıxara bilərdi. "Azərbaycana gəldikdə isə, B.Leqran yazırdı, - mən əminəm ki, əgər siz möhkəm mövqe tutsanız, biz Azərbaycanı arzu edilən qərarla razılaşmağa məcbur edə bilərik". Eyni zamanda, Stalin Bakıya gəldiyindən, Leqran da sabah Bakıya yola düşəcəyini və bu məsələləri "Bakılı yoldaşlarla" müzakirə edəcəyini Çiçerinə bildirirdi. Ən nəhayət, o, xəbərdarlıq edirdi ki, "daşnaklar Ermənistanda möhkəm dayanıblar, kommunistlərin indi gücü yoxdur, yalnız türklərin, və ya, bizim tərəfimizdən ərazinin işğal edilməsi daşnakların ləğvinə gətirib çıxara bilər".[156]

Döyüş meydanında hərbi qüvvələrin bərabər olmasına baxmayaraq, ermənilərin Qarsı belə asanlıqla təslim etməsi sovet nümayəndələrinin narahatlığını daha da artırmışdı. Onlar türklər tərəfindən 1918-ci ilin

[154] Вестнике архивов Армении. 1967, № 3, с.71-72; B.Leqranın G.Çiçerinə teleqramı. 01.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.186

[155] Bax: Республика Армения в 1918—1920гг. (Политическая история). Сборник документов и материалов. Ереван: Гитутюн, 2000, с.316-320

[156] B.Leqranın G.Çiçerinə teleqramı. 01.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.197

may ayındakı manevrlərin təkrar olunacağından ehtiyatlanırdılar. Qars məğlubiyyəti erməni ordusunun, xüsusilə, onun komanda heyətinin yararsızlığını üzə çıxarmışdı. Hökumətin orduya və xalqa müraciət qəbul etməsinə baxmayaraq, ermənilər kənardan yardım axtarmağa başlamışdılar və Qars məğlubiyyətindən bir gün sonra, oktyabr ayının 31-də Sovet Rusiyasına da məhz bu məqsədlə müraciət etmişdilər. Eyni zamanda, ermənilər şayiə yaymağa başlamışdılar ki, Azərbaycanda müsavat hərəkatına yardım göstərmək və Cənubi Qafqazdan sovet hakimiyyətini qovmaq üçün kamalçıları Ermənistana hücuma İngiltərə başda olmaqla, Antanta ruhlandırır. Bu şayiələr hökumət və parlament səviyyəsində yayılırdı. Onun müəllifləri rusları inandırırdılar ki, "Ankarada bütün Antanta ölkələrinin qeyri-rəsmi nümayəndələri vardır".[157]

Noyabrın 4-də Ermənistan və Gürcüstandakı vəziyyət Stalinin iştirakı ilə AK(b)P MK və RK(b)P MK-nın Qafqaz Bürosunun birgə iclasında geniş müzakirə edildi. Bundan bir gün əvvəl G.Çiçerin Türkiyə Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramda Sovet Rusiyasının ermənilərlə türklər arasında vasitəçilik missiyasını yerinə yetirmək arzusunda olduğunu ifadə etmişdi. Gürcüstandakı vəziyyət barədə Rusiyanın Tiflisdəki nümayəndəsi A. Şeynman məlumat verdi. O, qeyd etdi ki, Gürcüstan rəhbərliyi bizdən Kamal paşa tərəfindən ola biləcək təhlükədən onları qorumaq barədə təminat istəyir. Şeynman belə hesab edirdi ki, Kamal paşa ilə münasibətləri aydınlaşdırmaq üçün onun əvəz etdiyi Starkı Mustafa Kamal paşanın yanına səfir göndərmək lazımdır. Lakin Stalin bu təkliflə razılaşmadı. O, dedi ki, "Moskva Kamal haqqında heç nə bilmir. Bu halda, məsələ belə qoyulur: yanacağa görə, o, Sarıqamışa qədər geri çəkilməyə məcburdur. Hücumun dayandırılması barədə Moskvadan Kamala teleqram göndərilib, lakin onun teleqramı alıb-almaması məlum deyil. Burada, nə Türkiyə Kommunist Partiyası, nə də, Kamalın nümayəndəsi oradakı vəziyyət haqqında heç nə bilmir. Yaxın vaxtlarda Kamalın yanından, kamalçılar və sovetçilər (orduda və əhali arasında belələri var) arasından gələn bir kommunist deyirdi ki, Kamal Sultanla (o, Antanta tərəfdarıdır) danışıqlar aparmağa qərarlı deyildir. Kamalçılar fraksiya tələbləri və daha başqa şeylər irəli sürürlər, onların pulu və sursatı yoxdur. Sultanla danışıqlar bütün vəziyyəti onun üçün yaxşı olmayan tərəfə dəyişə bilər. Mən Şeynmanla razıyam ki, vəziyyətlə yaxından tanış olmaq üçün bir adamı Kamalın yanına ezam etmək lazımdır, lakin biz fikirləşirik

[157] Silinin Çiçerinə teleqramı. 14.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.231

ki, Behbud Şahtaxtinski və Cəlaləddin Korkmasovla birlikdə Polikarp (Budu) Mdivanini göndərək. L. Starkın namizədliyinə etiraz yoxdur, lakin ola bilsin ki, o, Gürcüstanda daha çox lazım ola bilər. Bundan əlavə Mdivani tezliklə Bakıda daha çox yararlı olacaq, nəinki, Stark. Gürcülərə isə demək lazımdır ki, biz Kamala nota göndərmişik, onlar bizə cavab verməyiblər, nə vaxt cavab alsaq, onlara da deyərik". Şeynman öz fikrində qalaraq, Kamalın yanına Moskvadan verilən bütün tapşırıqları yerinə yetirən Mərkəzin nümayəndəsinin göndərilməsinə üstünlük verilsə də, qərar qəbul olunan zaman Stalinin təklifi keçdi.[158]

Ermənistanla bağlı B.Leqranın məruzəsi dinlənildikdən sonra onun Azərbaycan əraziləri hesabına Ermənistanla müqavilə bağlamaq təklifi bəyənilmədi. Müqavilə haqqında RKP MK-nın son rəyinin öyrənilməsi Stalinə tapşırıldı. Müqavilə naminə Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi, nə, siyasi, nə də, strateji baxımdan məqsədəuyğun sayılmadı. Naxçıvan və Zəngəzurun ermənilərə verilməsini özündə ehtiva edən Ermənistanla Sovet Rusiyası arasında hazırlanmış müqavilə layihəsi ilə tanış olduqdan sonra noyabr ayının 5-də İ.Stalin və Q.Orconikidze G.Çiçerinə teleqram vurdular ki, müqavilə bu formada imzalana bilməz və onun üzərində ciddi iş aparmağa ehtiyac vardır.[159] Həmin gün Çiçerinə göndərdikləri ikinci teleqramda onlar qeyd edirdilər ki, bütün müzakirə edilən məsələlərdə "Azərbaycan bizimlədir" və təklif edirdi lər ki, türklərlə danışıqlarda iştirak etmək üçün P.Mdivani, B.Şahtaxtinski və C.Korkmasova mandat göndərmək, habelə, türklərin Ermənistana hücumu məsələsi ilə bağlı bu üçlüyə təlimat vermək lazımdır. İ.Stalin və Q.Orconikidze xəbərdarlıq edirdi ki, bu məsələdə "bizim tərəfimizdən yubanmaq çox təhlükəlidir və biz onsuz da yubanmışıq".[160] Noyabr ayının 5-də İ.Stalin V.Leninə də bir gizli teleqram göndərdi. O yazırdı ki, Türkiyədə vəziyyət hələ aydın deyil, əgər kamalçılar Antanta ilə razılığa gəlsələr, vəziyyət çox təhlükəli xarakter alacaq və Antantanın Bakıya yürüşü asanlaşacaq. Stalin bildirirdi ki, XI Ordu zəifdir və əgər Antanta Bakıya doğru hərəkətə başlasa, onun qarşısını ala bilməyəcək. O təklif edirdi ki, əlavə olaraq, Bakıya daha bir

[158] Azərbaycan K(b)P MK-nın Siyasi Bürosunun RK(b)P MK-nın Qafqaz Bürosu ilə birgə keçirdiyi iclasın 4 saylı protokolundan çıxarış. 04.11.1920.// RDSSTA, f. 558, s.1, i.1986, v.1-2; ARPİİ SSA, f.1, s.1, i.22, v.18-19

[159] İ.Stalin və Q.Orconikidzenin G. Çiçerinə teleqramı. 05.11.1920. // RDSSTA, f. 558, s.1, i.5224, v.1

[160] İ.Stalin və Q.Orconikidzenin G. Çiçerinə teleqramı. 05.11.1920. // RDSSTA, f. 558, s.1, i.5224, v.2

ordu göndərilsin.[161] Xüsusilə, xarici mətbuatdan alınan belə bir məlumat bolşeviklərin daha da narahatlığına səbəb olmuşdu ki, guya ingilislər müsavatçılarla danışıqlar aparırlar və Bakıdakı əksinqilabi qüvvələri mənəvi cəhətdən ruhlandırmaq üçün onlar Zəngəzur və Naxçıvanın Ermənistana verilməsinin əleyhinə olublar. G.Çiçerin B.Leqrandan xahiş edirdi ki, bu məlumatı da Bakıda olan Stalinə çatdırsın.[162] Vəziyyət böhranlı olduğu üçün Mərkəz Bakıdan göndərilən teleqramlar dərhal reaksiya veirdi. Noyabr ayının 7-də G.Çiçerin Sovet Rusiyasının Azərbaycandakı nümayəndəsi Babkinə məlumat verirdi ki, Ermənistanla Türkiyə arasında hərbi əməliyyatların dayandırılması barədə kamalçılarlar danışıqlar aparılması üçün Xalq Xarici İşlər Komissarlığı Mdivani, Şahtaxtinski və Korkmasova vəkalət vermişdir.[163] Bu məlumatı G.Çiçerin noyabr ayının 7-də Ermənistandakı Rusiya nümayəndəsi B.Leqrana da göndərdi. İrəvana göndərdiyi teleqramda o, yazırdı: "Türklər bəyan edirlər ki, Ermənistanı daşnaklardan azad etmək istəyirlər. Bu kələkbazlıqdır. Barışıq bağlamadıqları halda, onlara silah verilməsini dayandırmaq lazımdır".[164]

Türkiyə və kamalçılara münasibətlə bağlı məsələ AKP MK, BK, RKP MK-ın Qafqaz Bürosu, Azərbaycan İnqilab Komitəsi və digər təşkilatların, Stalinin iştirakı ilə noyabrın 9-da keçirilən birgə iclasında yenidən müzakirə edildi. Həmin iclasdakı məruzəsində Stalin bildirdi ki, bir sıra vilayətlərin Ermənistana verilməsi haqqında Antantanın türk hökumətinə zorla qəbul etdirdiyi müqavilədən Ermənistanı imtina etməyə məcbur etmək üçün kamalçılar Gümrünü tutmağa, Ermənistanı Gürcüstandan ayırmağa cəhd göstərirlər. O dedi: "Onlar yazırlar ki, Ermənistanı daşnaklardan azad etmək istəyirlər. Bu cəfəngiyyatdır. Kamalçılar Antanta ilə mübarizə aparan burjua-inqilabçı partiyadır. Rusiyanın Kamalın Ermənistana olan məqsədlərinə münasibəti mənfidir. Aydındır ki, Ermənistanı darmadağın olmaqdan xilas etmək üçün Sovet hökuməti bacardığı formada kamalçılara dayanmağı təklif etməlidir. Ümumiyyətlə, kamalçılar Antanta ilə bir sıra sazişlər bağlamaq üçün yollar axtarmağa başlayıblar. Şərqdəki çıxışların təsiri altında İngiltərə daha üzüyola olub. Vəziyyətin burada necə olacağını demək çətindir. Türkiyənin Antanta ilə barışıb, bizim əleyhimizə Antantanın mübarizə meydanına çevriləcəyi istisna təşkil etmir, eyni zamanda, onun Antantaya qarşı

[161] İ.Stalin V.Leninə teleqramı. 05.11.1920. // RDSSTA, f. 558, s.1, i.1987, v.1

[162] G.Çiçerinin B.Leqrana teleqramı. 08.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.221

[163] G.Çiçerinin Babkinə teleqramı. 05.11.1920. // RDSSTA, f. 64, s.1, i.21, v.314

[164] G.Çiçerinin B.Leqrana teleqramı. 07.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.209

mübarizəni davam etdirəcəyi də mümkündür. Orada vəziyyəti aydınlaşdırmaq üçün yaxın vaxtlarda biz Türkiyəyə nümayəndə heyəti göndəririk... Nümayəndə heyətinə təlimat verililir ki, vəziyyəti öyrənsinlər və şəraitə uyğun hərəkət etsinlər".[165]

Bakıdakı birinci toplantıdan sonra Leqran noyabr ayının 6-da Ermənistandakı sovet missiyasına təcili məlumat göndərdi ki, Stalinin iştirakı ilə keçirilən müşavirdə "bizim müqaviləyə" mənfi münasibət üzə çıxdı və ilk olaraq, qeyd edildi ki, orduların 1914-cü il sərhədlərinə çəkilməsi türklərlə münasibətləri ağırlaşdıra bilər, ikincisi, mübahisəli ərazilərdən İrandakı hadisələrin gedişinə təsir imkanının əhəmiyyəti vurğulandı. B.Leqran yazırdı: "Bizim münasibətimiz tamamilə mənfi olsa da, faktiki olaraq, biz türklərin hücumuna qarşı heç nə edə bilmərik. Formal olaraq, Türkiyə bizimlə müqavilə öhdəliyi ilə bağlı deyildir, biz ona qarşı tələb irəli sürə bilmərik. Tranzit məsələsinə gəldikdə isə, Türkiyədən məlumatın olmadığı indiki anda bu məsələ öz kəskinliyini itirir. Bundan əlavə güman edilir ki, Türkiyə Ermənistanla sülh bağlayacağı halda, asanlıqla özü tranzit məsələsini həll edə bilər. Tranzit əvəzi olaraq, ermənilərə mübahisəli əraziləri vermək baha başa gələn məsələdir".[166]

Ümumiyyətlə, Qarsın təslimindən sonra Sovet Rusiyasının Türkiyəyə, Qafqaz müsəlmanları və Şərqə yönəlik siyasəti tərəddüd içərisində idi. Bunu Rusiyanın xarici işlər komissarı G.Çiçerinin noyabr ayının 5-də Bakıda olan İ.Stalinə geniş məktubu açıq şəkildə nümayiş etdirir. Çiçerin yazırdı ki, Antantanın Türkiyəyə və kamalçıların Antantaya münasibətində əsaslı və sərt dönüş barədə müxtəlif mənbələrdən çoxlu sayda məlumatlar alınmışdır. Lakin bütün bunlar hələ ki, son məlumatlar olmayıb, axıra qədər aydın deyildir. Bu məlumatların içərisindən Çiçerin, xüsusilə, kamalçılarla İstanbul hökuməti arasında olan münasibətlər üzərində dayanır və kamalçıların belə bir fikrini xatırladır ki, tarixən kim Anadoluya sahib olubsa, o İstanbula da sahib olub. Kim Anadolusuz İstanbula sahib olubsa, onu itirib. Çiçerin ehtiyat edirdi ki, dünya dəniz yollarının həlledici qovşaqlarını tutmağa adət etmiş ingilislər İstanbulun onlara güzəştə gedilməsi əvəzinə, kamalçılara güzəştə gedə bilərlər. O yazırdı: "tamamilə aydın de-

[165] AKP MK, AKP BK, RKP MK Qafqaz Bürosu, Azərbaycan İnqilab Komitəsi, Bakı İcraiyə Komitəsi, Xalq Komissarları, rayon icraiyə komitələrinin rəyasət heyətləri və AKP komitələrinin birgə iclasının 1 saylı protokolu. 09.11.1920.// ARPİİ SSA, f.1, s.1, i.14, v.17-20

[166] B.Leqranın İrəvandakı sovet missiyasına teleqramı. 06.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.203

yil, bu, kamalçıların özünüqoruma məqsədilə etdikləri güzəştdir, yoxsa, türk siyasətinin bizim əleyhimizə 180 dərəcə dönüş etməklə dünya irticasının antibolşevik düşərgəsinə daxil olub, 1918-ci il nümunəsində olduğu kimi, bizim hesabımıza kompensasiya almaq cəhdidir. Bəkir Sami Şimali Qafqazda türk millətçilərinin dəyişən cəbhəsinin hücum siyasəti üçün zəmin hazırlamırdımı, Nuru paşanın siyasəti qələbə çalmadımı, Kaşqardakı fəaliyyəti ilə Xəlil paşa buna can atmırmı? Bax bizim hesablaşmalı olduğumuz, lakin hələ cavabını verə bilmədiyimiz suallar bunlardır. Bəkir Sami və onun dairəsi bizim dostumuzdur, ya düşmənimizdir, bunu biz indi bilmirik. Bizim Ermənistana və Gürcüstana münasibətimizi bir dəqiqə də unutmamalıyıq, tarixin təkəri geriyə döndükdə bu ölkələr cəbhəni dəyişmiş türk millətçilərinin işğalçılıq siyasəti əleyhinə sədd ola bilər. Bizim müsəlmanlara etibarımız məsələsində həmişə nəzərə almalıyıq ki, bu yaxınlarda Əfqanıstanda olduğu kimi, gözəl günlərin birində antibolşevik meyllər, anti-ingilis meyllərdən güclü ola bilər. Mən həmişə bizdə nümayəndəsi Nərimanovun olduğu müsəlmançılığa birtərəfli etibar etməyin əleyhinə olmuşam, ondan ehtiyatlanmışam və indi də ehtiyat edirəm. İndiki anda biz ona tərəfdarıq ki, kamalçılara münasibətimizi hələ dəyişməyək, əlimizdə olan və bu münasibətlər baxımından əlimizdə ola biləni itirməməliyik, tərəddüd edəni düşmən düşərgəsinə itələməməliyik".[167] G.Çiçerinin İ.Stalinə yazdığı bu məktub Sovet Rusiyasının kamalçılara münasibəti və rus-türk əlaqələrində Azərbaycan məsələsinin çox məqamlarına aydınlıq gətirir. Bu məktubdan bir gün sonra G.Çiçerin İ.Stalinə təcili teleqram göndərdi ki, ermənilər vasitəçilik üçün bizə müraciət ediblər, ya sovetləşmə hesabına Ermənistanı xilas etmək, ya da, onu Antanta ilə əlaqələri kəsməyə məcbur etmək lazımdır.[168] Ümumiyyətlə, Çiçerin noyabrın 9-da Stalinə göndərdiyi məktubda Qafqaza münasibətdə öz fikirlərini daha açıq formada ifadə edir. O qeyd edirdi ki, Zəngəzur və Naxçıvan məsələsini indiki halda açıq saxlamaq lazımdır, indi bu vilayətləri Ermənistan verməyin zamanı yetişməyib. Bu məktubda Çiçerin vaxtı ilə Bəkir Sami bəylə müzakirə etdiyi Türkiyə Ermənistanına müstəqillik vermək tələbindən geri çəkilir və belə hesab edirdi ki, bu ərazilərdə çox az erməni olduğundan, həmin müstəqilliyin perspektivi yoxdur. Digər tərəfdən o, etiraf edirdi ki, Türkiyə Ermənistanı ilə Rusiya Ermənistanı arasında yerləşən Bəyazid vilayəti başdan-başa müsəlmanlardan ibarətdir və daşnaklar bu

[167] G.Çiçerinin İ.Stalinə məktubu. 05.11.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.42-43

[168] G.Çiçerinin İ.Stalinə teleqramı. 06.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.205

etnoqrafik mənzərəni müsəlmanların məhv edilməsi hesabına həll etmək istəsələr də, biz Bəyazidin tamamilə müsəlman xarakeri ilə hesablaşmaq məcburiyyətindəyik. G.Çiçerin yaranmış vəziyyətdə çıxış yolunu RKP MK Siyasi Bürosunun qərarına uyğun olaraq Ermənistanın sovetləşdirilməsində və Türkiyə Ermənistanını Rusiya Ermənistanına birləşdirilməkdə görürdü. O yazırdı: "Bu halda Qafqaz sovet respublikalarının bir respublikada birləşdirilməsi məsələsini qoymaq olar". Eyni zamada, Çiçerin Antantanın Bakıya ehtimal olunan hücumunun qarşısını da, məhz, bu birləşmiş Qafqaz dövləti vasitəsi ilə almaq istəyirdi.[169]

Noyabr ayının 2-də türk ordusunun komandanlığı Ermənistana sülh təklifi ilə müraciət etdi. Türk ordusunun Gümrüyə doğru hərəkətinin qarşısının alınmasının mümkünsüzlüyünü anlayan ermənilər noyabrın 6-da hərbi əməliyyatları dayandırmağa razı olduqlarını bildirdilər və bu istəklə Türkiyə komandanlığına müraciət etdilər. Həmin gün türk ordusu artıq Gümrüyə çatmışdı. Ermənistanın xarici işlər naziri Ohancanyanın təklifi ilə noyabrın 8-də barışıq sazişinin şərtləri razılaşdırıldı.[170] Barışıq sazişinə görə, ermənilər 24 saat ərzində türklərə işlək vəziyyətdə 2.000 tüfəng, 60 pulemyot, 3 top, 4.000 yeşik patron, 60 top mərmisi, 2 parovoz, 60 vaqon verməli idi. Ən çoxu üç gün ərzində erməni ordusu Gümrünü boşaldıb, Arpaçaydan 15 km cənuba çəkilməli, türk ordusu, Gümrü qalasını, dəmiryolunu və şəhərin 10 km ərazidə olan çevrəsini tutmalı idi.[171] Müddəti 7 gün olan 7 maddədən ibarət barışığın şərtlərinə görə, türklər şəhərdə dinc əhalinin əmin-amanlığını və qayda-qanunu təmin etməli idilər. Bu şərtlər daxilində hərbi əməliyyatlar dayandırılmalı idi.[172] Noyabr ayının 10-da Ermənistanın xarici işlər naziri Ohancanyan Türkiyəyə verdiyi notada bu şərtlərlə razı olduqlarını bildirdi.[173] Lakin son anda ermənilər razılaşdırılmış sazişi imzalamaqdan yayındılar. Bu sazişin bolşeviklərə onların əleyhinə təbliğat aparmaq imkanı verəcəyinə istinadən ermənilər onu yerinə yetirilməsindən imtina etdikdə, noyabrın 14-də türk qüvvələri yenidən hərbi əməliyyatlara başladılar və bu əməliyyatlar onların təslim olub, danışıq masasının arxasına gəlmələrinə qədər davam etdi.

Vəziyyətin belə gərginləşdiyini görən Çiçerin noyabrın 7-də Stalinə teleqram vuraraq, Sovet qoşunlarının Ermənistana yeridilməsinin mümkünlüyünü ona bildirdi. Çiçerin yazırdı: "Trotski cavab verdi ki, hərbi münasibətlər baxımından, biz Qafqazda güclənmişik. O, sovetləşmə üçün orduların Ermənistana göndərilməsinə etiraz etmir. Məsələ siyasi baxımdan həll olunmalıdır. Biz hesab edirik ki, siz məsələni orada özünüz həll etməlisiniz. Sovetləşmə hesabına Ermənistanın xilas edilməsinin ən çox iki mümkün yolu vardır". Kommunistlərin üsyana başlaması və ordu göndərilməsindən ibarət olan bu yollardan hansısa birinin seçilməsini Çiçerin Stalinin öhdəsinə buraxırdı və deyirdi ki, Ermənistanda "əgər bir qırmızı əsgər olsa belə, türklər ora *(Ermənistana - C.H.)* toxunmayacaqlar". Daha sonra Çiçerin Mustafa Kamalın yanına göndərmək üçün Şahtaxtinski və Korkmasovun mandatının göndərildiyini, İran hadisələri ilə bağlı Mdivanin digər bir şəxslə əvəz olunduğunu bildirirdi.[174] Stalinə teleqramla yanaşı Çiçerin noyabr ayının 7-də birbaşa xəttlə söhbətində Leqrana da təlimat verdi ki, onun təqdim etdiyi müqavilə layihəsi artıq köhnəlib və bütün vasitələrdən istifadə edib, türklərinin hücumunu dayandırmaq lazımdır. O deyirdi ki, "Zəngəzur və Naxçıvan haqqında məsələ hələ açıq qalmalıdır. Gürcüstanın İngiltərənin ağuşuna atılmaması üçün bizimlə danışıqlar aparılması *(türklərlə sovetlər arasında danışıqlar nəzərdə tutulur – C.H.)* haqqında məlumatla onları *(gürcüləri – C.H.)* sakitləşdirmək lazımdır".[175] G.Çiçerin təlimat verirdi ki, əgər ermənilər Sovet Rusiyasının vasitəçilik şərtlərini qəbul edirlərsə, biz türklərdən hücumu dayandırmağı tələb edərik. O, qeyd edirdi ki, "biz türklərə iki halda silah göndərilməsini davam etdirəcəyik: Birincisi, ermənilər öz tərəflərindən bizim vasitəçilik şərtlərimizi qəbul etdiyi təqdirdə, Türkiyə Ermənistana hücumu dayandırmalıdır; İkincisi, əgər onlar *(türklər – C.H.)* Batumu tutublarsa, Antantanı oradan qovmağa təminat versinlər". Eyni zamanda, Çiçerin türklərlə danışıqlar aparmaq üçün Mdivani, Şahtaxtinski və Korkmasovun adına Xarici İşlər Komissarlığından mandat göndərildiyini Leqrana bildirirdi.[176] Ermənistana sovet ordusunun yeridilməsi məsələsinə gəldikdə isə, Çiçerin bunu Ermənistanın sovetləşdirilməsinə qərar verildiyi halda mümkün hesab edirdi. Eyni zamanda, Gürcüstanın tutulmasını da istisna etmirdi, lakin, o, bunu elə etmək istəyirdi ki, Gürcüstan hökuməti bolşeviklərdən qorxub, həyəcanlanmasın və İngiltərənin ağuşuna sığınmağa vaxt tapmasın. Lakin indiki anda söhbət

[169] G.Çiçerinin İ.Stalinə məktubu. 09.11.1920.// RF XSA, f.04, s.51, q.321a, i.54870, v.4-6
[170] B.Leqranın G.Çiçerinə teleqramı. 19.11.1920.// RDSSTA, f.85, s.14, i.17, v.4
[171] Ankara hökumətinin barışıq şərtləri. Noyabr 1920.// RDSSTA, f.85, s.14, i.24, v.2
[172] A.Şeynmanın G.Çiçerinə teleqramı. 09.11.1920.// RDSSTA, f.85, s.14, i.19, v.1
[173] B.Leqranın G.Çiçerinə teleqramı. 19.11.1920.// RDSSTA, f.85, s.14, i.17, v.6

[174] G.Çiçerinin İ.Stalinə teleqramı. 07.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.205
[175] G.Çiçerinin birbaşa xətlə Leqranla söhbəti. 07.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.207
[176] G.Çiçerinin birbaşa xətlə Leqranla söhbəti. 07.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.212-213

Ermənistan sərhədlərində bir sıra qüvvələri hazır vəziyyətdə saxlamaqdan gedirdi ki, lazım gələndə hərəkətə keçsinlər.[177]

Noyabr ayının 11-də vasitəçilik missiyasını yerinə yetirmək üçün Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurası tərəfindən Polikarp (Budu) Mdivaniyə vəkalətnamə verildi.[178] Eyni zamanda, həmin gün Çiçerin Mustafa Kamal paşaya və Ermənistan hökumətinin sədrinə P.Mdivaninin erməni-türk danışıqlarına vasitəçi kimi göndərildiyi haqqında məlumat verirdi. O yazırdı: "Ermənistan-Türkiyə arasında Sovet Rusiyasının vasitəçi olması barədə Ermənistan hökumətinin müraciətini və Türkiyə milli hökumətinin bununla razılaşdığını nəzərə alaraq, Sovet hökuməti məlum edir ki, o vasitəçilik missiyasını öz üzərinə alır və bu məqsədlə özünün səlahiyyətli nümayəndəsi Mdivanini hərbi əməliyyatlar rayonuna göndərir".[179] Bu vəkalətnamə ilə o, Dilican yolu ilə İrəvana yola düşdü və noyabrın 19-da İrəvana çatdı. Mdivani İrəvana çatmazdan bir gün əvvəl, yəni, noyabrın 18-də ermənilər türklərin şərtlərini artıq qəbul etmişdilər. Noyabr ayının 25-də Türkiyə Böyük *Millət Məclisi hökuməti ilə Ermənistan hökuməti* arasında sülh yaratmaq məqsədilə aparılan danışıqlarda iştirak etmək üçün RSFSR Xarici İşlər Komissarlığı tərəfindən belə bir vəkalət Cəlaləddin Korkmasov[180] və Behbud Şahtaxtinskiyə[181] də verilmişdi.

Budu Mdivani İrəvana yola düşəndə Çiçerindən fərqli olaraq, Stalin tərəfindən ona təlimat verildi ki, daşnaklara görə, türklərlə münaqişəyə getməsin, Batum dairəsində onların hərəkətlərinə diqqət yetirsin, türk hissələrinin keçmiş sərhədlərə çəkilməsi məsələsini kəskin qoymasın, hələlik Sovet Rusiyasının iştirakı ilə birgə komissiyanın yaradılması tələbi ilə məhdudlaşsın, daşnakları parçalasın və İnqilab Komitəsinin yaradılması işində onların sol hissəsini öz ardınca aparsın və Mərkəzin icazəsi olmadan qərarlar qəbul etməsin.[182]

[177] G.Çiçerinin İ.Stalinə teleqramı. 09.11.1920.// RDSSTA, f.5, s.1, i.2097, v.9

[178] Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurası tərəfindən Polikarp (Budu) Mdivaniyə verilmiş vəkalətnamə. 11.11.1920.// RDSSTA, f.85, s.14, i.20, v.1

[179] G.Çiçerinin Mustafa Kamal paşaya və A.Xatisova müraciəti. 11.11.1920. // RDSSTA, f.64, s.1, i.21, v.229

[180] RSFSR XXİK-ğı tərəfindən Korkmazova verilən vəkalət.25.11.1920.// RDSSTA, f.85, s.14, i.25, v.2

[181] RSFSR XXİK-ğı tərəfindən Şahtaxtinskiyə verilən vəkalət.25.11.1920.// RDSSTA, f.85, s.14, i.25, v.3

[182] İ.Stalinin V.Leninə teleqramı. 16.11.1920.// ARPİİ SSA, f.1, s.44, i.118, v.38

Türk ordusunun hücumu qarşısında duruş gətirə bilməyən Ermənistan hökuməti noyabr ayının 15-də Kazım Qarabəkir paşaya xəbər göndərdi ki, Ankara hökumətinin 8 noyabr şərtləri ilə razıdır və bu şərtlərin bir hissəsini onlar guya, sırf texniki səbəblərdən icra edə bilməyiblər. Noyabrın 17-dən 18-nə keçən gecə Ermənistan hökuməti türklərin barışığa razı olduqları barədə məlumat aldı və noyabrın 18-də hərbi əməliyyatlar dayandırıldı.[183] B.Leqranın məlumatına görə, 8 noyabr barışığından fərqli olaraq, ermənilər 15 noyabr barışığına əməl etməyə qərarlı idilər və barışıq şərtlərini yerinə yetirməyə başlamışdılar.[184] Tərəflər arasında cəbhə xətti artıq Sürməli, Araz stansiyası və Alagöz dağından keçirdi. Erməni ordusuna əmr verilmişdi ki, Qarakilsəni də boşaltsın.

Məğlubiyyət daşnak partiyasında ciddi fikir ayrılıqları yaratmışdı. B.Leqranın məlumatına görə, onlar Sevr müqaviləsinə meyllənib, Türkiyə Ermənistanının işğal edilməsi haqqında öz təbliğatlarının səhv olduqlarını anlamışdılar".[185] Gümrü türklər tərəfindən tutulduqdan sonra şəhərdəki erməni kommunistləri bəyanat verib, erməni xalqını daşnakların zülmündən qurtarmaq üçün irəliləyən inqilabi türk ordusunu salamlamışdılar. B.Leqran Moskvanı məlumatlandırırdı ki, "əvvəl Ermənistanın, sonra isə ola bilsin ki, Gürcüstanın qalibiyyətli kamallaşdırılması prosesi bizim batmaq təhlükəmizi doğurur. Hətta, kamalçıların yanında qısa müddətdə olmasına baxmayaraq, *Mdivani* onların Ermənistanı sovetləşdirmək planına etimad göstərməyə başlamışdır və hazırda türklərin təşkil etdiyi "Sovet Ermənistanının İnqilab Komitəsindən" istifadə etməyi təklif edir".[186]

Türklərin Gümrüyə girməsindən narahat olan Q.Orconikidze, bir tərəfdən, erməni kommunistlərinin mövqeyini gücləndirmək, digər tərəfdən, Türkiyənin Azərbaycanla quru sərhədlərini bağlamaq məqsədilə çoxdan düşündüyü Zəngəzurun Ermənistana verilməsi ideyasının həyata keçirilməsinə başladı. Kazım Qarabəkir paşanın türk-erməni cəbhəsində möhtəşəm qələbəsi bolşeviklərdə 1918-ci ilin sentyabr hadisələrinin, Nuru paşa başda olmaqla, Qafqaz İslam Ordusunun Bakıya daxil olmasının təkrarlanma qorxusunu yaratdı. Hətta, İ.Stalin noyabr ayının 15-də V.Leninə göndərdiyi teleqramda Bakı üçün böyük təhlükənin yarandığını etiraf edirdi. O, qeyd

[183] Mixaylovun Stalinin katibi BRızanovskiyə teleqramı. 19.11.1920.// .// RDSSTA, f.85, s.14, i.21, v.3

[184] B.Leqranın BRızanovskiyə teleqramı. 23.11.1920.// RDSSTA, f.85, s.14, i.23, v.2

[185] B.Leqranın G.Çiçerinə teleqramı. 28.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.252

[186] B.Leqranın G.Çiçerinə teleqramı. 28.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.253-254

edirdi ki, düşmən birinci cəhddə Yelizavetpolu tutub orada 1918-ci ildə olduğu kimi, Azərbaycan burjua-millətçi hökumət yaradacaq və bu da onların Bakını tutmasını asanlaşdıracaq.[187] Bu şəraitdə Serqo Orconikidze Bakıdakı qızğın müzakirələrdən sonra Moskvaya yola düşən İ.Stalinə Türkiyənin Azərbaycana birbaşa çıxışını bağlamaq üçün Zəngəzurun Ermənistana verilməsi ideyasını təklif etdi. Bolşevik Rusiyasını bu məsuliyyətdən kənarda qoymaq üçün Orconikidze belə hesab edirdi ki, Zəngəzurla bağlı təşəbbüs Sovet Azərbaycanının birinci şəxsindən, Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovdan gəlməli idi.

Qeyd etmək lazımdır ki, hələ 1920-ci ilin yayında Sovet Rusiyası ilə Ermənistan arasında müqavilə imzalanana qədər Q.Orconikidze G.Çiçerinin təzyiqi ilə N.Nərimanovu Naxçıvan, Ordubad və Şərur-Dərələyəzi Ermənistana güzəştə getməyə məcbur etmək istiqamətində ilk cəhdi göstərmişdi. 1920-ci ilin iyun ayının 20-də G.Çiçerin Vladiqafqazda olan Q.Orconikidzeyə belə bir göstəriş vermişdi: "Mənim yoldaş Nərimanova teleqramımda anlaşılmazlığa yol verilmişdir. Qarabağ və Zəngəzuru birləşdirmək *(Azərbaycana – C. H.)* lazımdır. Heç bir halda, Naxçıvan, Ordubad və Culfanı nə Azərbaycan, nə də Ermənistana birləşdirmək lazım deyildir. Bu yerlər Azərbaycan və erməni hərbi hissələri tərəfindən deyil, Rusiya hərbi hissələri tərəfindən tutulmalıdır. Orada Azərbaycan və erməni hakimiyyəti deyil, Rusiya işğal hakimiyyəti olmalıdır. Bu yerlərdə Sovet hakimiyyəti Rusiya işğal hakimiyyətinə tabe olmalıdır".[188] G.Çiçerinin göstərişlərini alan Serqo Orconikidze tələsik N.Nərimanova məlumat verirdi: "Qarabağ və Zəngəzurla bağlı mən indi Çiçerinlə danışdım. Mən təklif edirəm təcili və danışıqsız bu vilayətlər Azərbaycana birləşdirilməlidir. Siz digər vilayətlərə (Naxçıvan, Ordubad, Culfa və Şərur-Dərələyəz) iddianızdan imtina etməlisiniz, habelə, Qarabağ və Zəngəzura muxtariyyət verməlisiniz. Yeri gəlmişkən sonuncu məsələ heç bir halda sülh müqaviləsində *(Sovet Rusiyası ilə Ermənistan arasında 1920-ci ilin avqust ayının 10-da imzalanacaq müqavilə nəzərdə tutulur – C.H.)* göstərilməməlidir, təşəbbüs bilavasitə sizdən gəlməlidir".[189]

[187] İ.Stalinin V. Leninə teleqramı. 15.11.1920.// RDSSTA, f.558, s.1, i.1999, v.1

[188] G.Çiçerinin bir başa xəttlə Q.Orconikidze ilə danışığı. 20.06.1920. // RDSSTA-nin sənədlər kolleksiyasından.

[189] Q.Orconikidzenin bir başa xəttlə N.Nərimanovla danışığı. 20.06.1920. // RDSSTA-nin sənədlər kolleksiyasından.

Bakıdan dönərkən Stalin də bu narahatlığı yaşayırdı. Hələ Vladiqafqazda olarkən, o, noyabr ayının 16-da Leninə göndərdiyi teleqramda yazırdı: "Təhlükə Bakını üç istiqamətdən təhdid edir. Birinci istiqamət: əgər Ənzəli və Rəşt şah hökumətinə, yəni, İranda hazırda yeganə real hakimiyyət olan İngiltərəyə verilsə, İngiltərə tərəfindən cənubdan olan təhlükədir..." İkinci istiqamət: Əgər Türkiyə Ermənistanda möhkəmlənsə və Azərbaycanla ümumi sərhədlərə nail olsa, Türkiyə tərəfindən olan təhlükədir. Bu təhlükəni aradan qaldırmaq üçün indiki şəraitdə Ermənistanın sovetləşdirilməsindən istifadə etmək olar, erməni sovet zolağı ilə Türkiyə ilə Azərbaycanın arasına girmək lazımdır. Üçüncü istiqamət Gürcüstan, yəni Antanta tərəfindən olan təhlükədir. Məsələ bundadır ki, Tiflis və Yelizavetpol arasındakı ərazi qərbdən gözlənilən zərbədən müdafiə olunmaq üçün tamamilə əlverişsizdir. Birinci həmlədə düşmən Yelizavetpolda ola bilər və orada Azərbaycan burjua hökumətini yarada bilər".[190] Eyni zamında, Tiflisdə olan Azərbaycan xarici işlər komissarı M.D.Hüseynov Gürcüstana yeni gəlmiş Türkiyə nümayəndəsi Kazım Dirik bəylə olan söhbətləri barədə Stalinə maraqlı məlumat göndərmişdi. Kazım bəylə söhbətə istinadən o, yazırdı ki, "türklər heç vaxt Qarsdan çıxmayacaqlar". Söhbət zamanı Kazım bəy Ankaranın fikrini ifadə edərək demişdi ki, "Naxçıvanın ya Türkiyəyə, ya da Azərbaycana verilməsi zəruridir".[191]

Türkiyənin Azərbaycan sərhədlərinə yaxınlaşması Bakıda da böyük həyacan yaratmışdı. Noyabr ayının 22-də Q.Orconikidzenin rəhbərliyi altında Ermənistan KP MK üzvləri və N.Nərimanovun iştirakı ilə geniş müzakirə keçirilmişdi. Müzakirələrin gedişində Q.Orconikidze bildirmişdi ki, biz böyük Qafqaz müharibəsi ilə üz-üzə dayanmışıq, musvatçılar Azərbaycan kəndlilərinin Kamal paşaya bütün mümkün müraciətlərini göndərirlər, artıq gözləmək olmaz, məhz, indi Azərbaycanla Türkiyənin arasına *(söhbət Zəngəzurun Ermənistana verilməsi ilə Azərbaycanla Türkiyə arasında erməni zolağının yaradılmasından gedir – C.H.)* girmək lazımdır.[192] Bu qərar barədə bir gün sonra Q.Orconikidze Rostovda olan İ.Stalinə məlumat verdi. İ.Stalin bildirdi ki, Azərbaycanda olan Sovet ordusu əlavə qüvvələr hesabına möhkəmləndirilmədən, biz Azərbaycanla Türkiyə arasına girsək

[190] İ.Stalinin V.Leninə teleqramı. 16.11.1920.// RDSSTA, f.558, s.1, i.1999, v.3

[191] M.D.Hüseynovun İ.Stalinə xidməti məlumatı. 20.11.1920.// RDSSTA, f.85, s.c/Türkiyə, i.23, v.1-2

[192] Q.Orconikidzenin birbaşa xəttlə İ.Stalinlə söhbəti. 23.11.1920.// RDSSTA, f.558, s.1, i.2004, v.1-2

tələsmiş olarıq. İ.Stalin bir qədər gözləməyi məsləhət bildi və əlavə etdi ki, "əgər sən bütün hallarda təkid edəcəksənsə, mən elə bu gün mərkəzlə danışıb, sənin təklifin ruhunda sanksiya tələb edərəm". Söhbətin sonunda Stalin dedi: "Sən hələlik İnqilab Komitəsini *(Ermənistan İnqilab Komitəsi Nəzərdə tutlur – C.H.)* hazırla ki, komitə ordunun yanında olsun, mən indi Stariklə *(Lenin nəzərdə tutulur – C.H.)* danışaram".[193]

Türklərin Azərbaycanla birbaşa sərhədlərə çıxması məsələsində bu məlumat İ.Stalinin şübhələrini daha da artırdı. O, Serqo Orconikidze ilə söhbəti dayandırıb, ondan bir qədər gözləməyi xahiş etdi və birbaşa xəttlə Leninlə əlaqəyə girib, Bakıdan aldığı həyacanlandırıcı məlumatları ona məruzə etdi. Noyabr ayının 23-də Stalin birbaşa xəttlə Leninə göndərdiyi radiqramda öz narahatlığını belə ifadə edirdi: "1.İrəvandan, Mdivanidən alınan məlumatlara görə, erməni ordusu yoxdur, türklər istəsələr, çətinlik çəkmədən bütün Ermənistanı tutarlar. Kamalın nümayəndəsi Kazım bəy özünü Tiflisdə çox şübhəli aparır. Mdivani fikirləşir ki, Ermənistanın işğalı kamalçılarla Gürcüstan arasında bir sıra sazişlər, Antantanın razılığı və göstərişi olaraq gerçəkləşir; 2. Orconikidzenin məlumatına görə, indi artıq Azərbaycanın narazı dairələrindən kollektiv ərizə almış türklər onlarla əlaqə yaratmağa can atır, xüsusilə, təhlükəli olan budur ki, onlar Azərbaycanla ümumi sərhədlərinin olmasına cəhd göstərirlər; 3. Vasitəçilik haqqında türk hökumətinin bizim notaya verdikləri cavab və dünən sizə göndərdiyimiz nota türklərin mövqeyinin qeyri-müəyyən olduğundan xəbər verir; 4. Yenə həmin Orconikidzenin məlumatına görə, İranda Ənzəli və Rəştə bizə qarşı bir neçə minlik ingilis qüvvəsi toplanır və ingilislərin İranda möhkəmlənməsi istiqamətində ümumi hazırlıq işləri görülür. Belə ki, İranda ingilislər əleyhinə olan kabinet ingilispərəst kabinetlə əvəz olunub; 5. Bu məlumatları ümumiləşdirərək, Orconikidze fikirləşir ki, biz Qafqazın cənubunda Gürcüstanın vasitəçiliyi, Türkiyənin, yaxşı halda neytrallığı, pis halda isə onunla bizim əleyhimizə ittifaqda Antantanın hazırladığı, ilk növbədə, bolşevik Azərbaycanı əleyhinə olan yeni böyük müharibə ilə üzüzə dayanmışıq. Bu mənada Orconikidze ilə razıyam; 6. Praktiki addım kimi Orconikidze təklif edir ki, biz məhz, indi Azərbaycanla Türkiyənin arasına girməliyik. Mən bizim İrəvanla dəmiryolu əlaqəmizin olmadığı indiki vaxtda bu addımı riskli hesab edirəm. Mənim təklifim belədir ki, yeni

[193] Q.Orconikidzenin birbaşa xəttlə İ.Stalinlə söhbəti. 23.11.1920.// RDSSTA, f.2, s.1, i.16244, v.2

qüvvələr gələnə qədər Ermənistan əməliyyatını təxirə salmaq lazımdır. Mənə aydındır ki, hərbi hissələrin gətirilməsi məsələsində biz rüsvayçılığa qədər yubana bilərik. Belə ki, hadisələr çox sürətlə cərəyan edir, türklər tərəfindən Azərbaycana təhlükə günü-gündən artır. Hər halda, bizim Orconikidze tərəfindən müəyyənləşdirilmiş əməliyyatı qısa müddətə təxirə salmaqdan başqa ayrı çıxış yolumuz yoxdur".[194] İ.Stalinin mülahizələrini eşitdikdən sonra V.Lenin bildirdi ki, Siyasi Büronu çağırmadan o, heç bir şey deyə bilməz. Lenin məsləhət gördü ki, Stalin, ya özündə olan faktları bu dəqiqə konkretləşdirib, Siyasi Büroya göndərsin, ya ona verilmiş vəkalət əsasında hərəkət etsin, ya da bütün Qafqaz məsələlərini bütövlükdə həll etmək üçün Moskvaya gəlişini sürətləndirsin. Stalin bildirdi ki, bu gecə Moskvaya gəlir, Orconikidzeyə isə sərəncam verir ki, hazırlıq işləri görsün və Moskvanın göstərişini gözləsin.[195] V.Leninlə söhbəti yekunlaşdıran kimi, İ.Stalin yenidən Q.Orconikidze ilə əlaqə yaradıb dedi ki, "indicə Leninlə danışdım. O, mənim Moskvaya gəlməyimi sürətləndirməyi xahiş edir. Mən bu gün gedirəm. Üç gündən sonra təlimat alacaqsınız. Hələlik qərara alındı ki, sizin təklifiniz ruhunda hazırlıq işləri görülsün və möhkəmlənmək üçün yeni qüvvələrin atılması sürətləndirilsin".[196] Beləliklə, noyabr ayının 23-də Sovet hakimiyyətinin ən yüksək siyasi fiqurları hesab edilən Q.Orconikidze, İ.Stalin və V.Lenin arasında birbaşa xəttlə aparılan danışıqlarda Azərbaycanla Türkiyənin arasına girmək məqsədilə Zəngəzurun Ermənistana verilməsi haqqında məsələ həll edildi.

Sovet nümayəndələri danışıqlarda təşəbbüsü ələ almaq üçün Gümrüyə tələsir, ermənilərı məğlub etmiş türklər onların vasitəçiliyindən yayınmağa çalışır, daşnaklar isə öz hakimiyyətlərini xilas etmək üçün müstəqil şəkildə türklərlə sazişə gəlmək istəyirdilər. Daşnakların belə mövqeyi türklərin erməni əhalisinə humanist münasibəti ilə bağlı idi. Müharibə başlayanda Ermənistan hökuməti və Sovet rəsmiləri türklərin guya, erməni əhalisini qırması barədə hay-küy qaldırsalar da, lakin bu fikirlər özünü doğrultmadı. Noyabr ayının 16-22-si arasında İ.Stalinə göndərdiyi məlumatlarda Q.Orconikidze yazırdı ki, "türklərin işğal etdiyi rayonlarda qırğın *(erməni*

[194] İ.Stalinin birbaşa xəttlə V.Leninin söhbəti. 23.11.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.47

[195] Yenə orada, v.47

[196] İ.Stalinin birbaşa xəttlə Q.Orconikidze ilə söhbəti. 23.11.1920.// RDSSTA, f.558, s.1, i.2004, v.16

qırğını nəzərdə tutulur – C.H.) yoxdur".[197] Əslində, daşnak hökuməti noyabr ayının 26-da Sevr müqaviləsindən rəsmən imtina etməsində bu amil mühüm rol oynadı.[198] Eyni zamanda, məğlubiyyətin doğurduğu böhranlı vəziyyətdən daşnaklar Rusiya meylli eser və menşeviklərin iştirakı ilə koalision hökumət yaratmaqla çıxmaq istəyirdilər.[199] Ona görə də böhranın dərinləşdiyi şəraitdə Terteryan və Dro hökumət kabinetinə daxil edildilər. Leqran və Mdivani noyabr ayının 21-də Stalin və Orconikidzeyə yazırdılar ki, daşnakların içində Ermənistanın sovetləşməsi proqramını qəbul etməyə hazır olan qrup formalaşır. Bu qrupların birinin başında Dro (Drastamat Kanayan) dayanır. Hakimiyyəti ələ keçirmək məqsədilə bu qrupların birləşdirilməsi istiqamətində tədbirlər görülür. Sovet hökumətinin yaradılması zamanı Bakıda nəzərdə tutulduğu kimi, daşnaklara çox yer vermək lazım gələcək. Bakıda qəbul olunmuş qərara əsasən, yeni sovet hökuməti kömək xahişi ilə müraciət edən kimi, Qırmızı Ordunun təcili olaraq Ermənistana girməsinə təminat veririk.[200] Bir gün sonra Çiçerin və Orconikidzeyə teleqramında Leqran Qazaxda hərbi qüvvələrin sayı və Ermənistana girmək üçün hazır olub-olmamağı ilə maraqlanırdı. [201] B.Leqranın Moskvaya Çiçerinə və Stalinə, Bakıya Orconikidzeyə göndərdiyi digər təcili teleqramdan aydın olur ki, Kazım paşanın Mdivaninin vasitəçiliyinə ehtiyac duymaması Sovet Rusiyasının Türkiyəyə etimadını azaltmışdı. İndi sovet nümayəndələri Batumu tutmayacaqları ilə bağlı türklərin vədlərinə inanıb-inanmamağı Ermənistan məsələsində onların özlərini necə aparacağından asılı etmək istəyirdilər.[202]

Noyabrın 24-də Gümrüyə yetişən Mdivanı elə həmin gün Kazım paşa ilə görüşdü. K.Qarabəkir paşa bildirdi ki, ermənilər bütün şərtləri qəbul ediblər və Ankara hökuməti Sovet Rusiyasının vasitəçiliyinə artıq ehtiyac görmür. O, dedi ki, danışıqları ancaq, ermənilərlə aparmaq barədə Ankaradan təlimat alıb. Eyni zamanda, Kazım paşa ruslarsız erməni-türk danışıqlarını aparmaqla yanaşı, ayrıca ermənilərsiz "bir məqsədə can atan dostlar

[197] Q.Orconikidzenin İ.Stalinə teleqramı. 16-22.11.1920.// RDSSTA, f.85, s.14, i.30, v.5

[198] M.Sofiyev. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936). Bakı, 2000, s.27

[199] B.Leqranın G.Çiçerinə şifrli teleqramı. 22.11.1920.// RDSSTA, f.85, s.14, i.17, v.8

[200] B.Leqran və P.Mdivaninin İ.Stalin və Q.Orconikidzeyə şifrli teleqramı. 21.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.243

[201] B.Leqranın G.Çiçerinə və Q.Orconikidzeyə şifrli teleqramı. 22.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.244

[202] B.Leqranın G.Çiçerinə, İ.Stalinə və Q.Orconikidzeyə şifrli teleqramı. 21.11.1920.// RDSSTA, f.85, s.14, i.17, v.19

arasında" rus-türk danışıqlarını istisna etmirdi. Danışıqlar zamanı Kazım Qarabəkir dedi: "Moskva türk komandanlığına vəd etmişdi ki, eyni zamanda, sovet ordusu Azərbaycandan Ermənistana hücum edəcəkdir, lakin təəssüf ki, bu icra olunmadı.[203] Həmin gün Kazım paşa ilə Mdivani arasında keçirilən ikinci görüşdə K.Qarabəkir təkid etdi ki, Qırmızı Ordu təcili olaraq, Azərbaycandan hərəkət edib, Tiflisi tutmalıdır. O, söz verdi ki, əgər ingilislər Batumdan hücuma cəhd göstərsələr, öz ordusu ilə onların Tiflisə yolunu bağlayacaq.[204] Noyabrın 26-da Kazım paşa başda olmaqla, Türkiyə Böyük Millət Məclisinin iki nüfuzlu üzvü ilə Mdivani arasında keçirilən görüşdə türklər iki ölkə arasında heç olmasa formal bir müqavilənin bağlanmasında təkid etdilər. Mdivani Stalin və Orconikidzeyə yazırdı: "Onlar bizdən yalnız silah yardımı istəyirlər, ingilislərə qarşı barışmaz mübarizə aparacaqlarına və bizim siyasətimizi Şərqdə yayacaqlarına söz verirlər. Türklərin müqavilə istəklərinə və onların Batum istiqamətindən ingilis zərbəsini qabaqlayıb bizə yardım vədləri ilə qoşunlarımızı Ermənistan və Gürcüstana yeritmək haqqında təkliflərinə əsasən, deyə bilərəm ki, türklərin hələlik İngiltərə ilə heç bir sazişi yoxdur".[205]

Türklər rus vasitəçiliyindən imtina etdikdə, daşnaklar isə müstəqil hərəkət etməyə üstünlük verdikdə təcili olaraq, sovet nümayəndələri Ermənistanı öz təsirlərində saxlamaq üçün digər planlar cızmağa başladılar. Leqran mərkəzə yazırdı ki, türklər bizim vasitəçiliyimizdən imtina etdikdən sonra "vəziyyət təcili qərarlar qəbul edilməsini tələb edir. Bizə türklərin də hesablaşdığı, Qafqazda müstəqil fəaliyyət proqramı vacibdir". Bu fəaliyyət proqramını bolşeviklər yeni hökumət kabinetinə daxil edilmiş D.Kanayan (Drо) vasitəsi həyata keçirmək istəyirdilər. B.Leqran yazırdı ki, Sovet Rusiyasının arxasında türklərlə müstəqil sazişə gəlməyə cəhd göstərən Ohancanyan hökuməti və onu müdafiə edən qruplar məğlubiyyətə uğradılar. Hakimiyyətdə olan Dronun nazirliyi özünü Sovet Rusiyası ilə federasiyaya və Ermənistanda sovet quruluşunun yaradılmasına tərəfdar elan edir. Dro bizimlə sazişə gəlmək istəyir, əgər silahlı qüvvə lazım olarsa, biz təminat verə bilərikmi"?[206] İrəvandan verilən məlumatda göstərilirdi ki,

[203] B.Leqranın G.Çiçerin və İ.Stalinə radioqramı. 24.11.1920.// RDSSTA, f.85, s.14, i.17, v.24

[204] P.Mdivaninin İ.Stalin və Q.Orconikidzeyə şifrli teleqramı. 25.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.246

[205] P.Mdivaninin İ.Stalin və Q.Orconikidzeyə şifrli teleqramı. 29.11.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.52

[206] B.Leqranın Q.Orconikidzeyə radioqramı. 28.11.1920.// RDSSTA, f.85, s.14, i.17, v.25

Dro Ermənistanın müstəqilliyini itirməsindən qorxmur. O, hesab edirdi ki, Ermənistan yalnız Sovet Rusiyasının federativ hissəsi kimi öz mövcudluğunu saxlaya bilər.[207]

Noyabrın 25-də Vrasyanın sədrliyi ilə yeni təşkil edilmiş Ermənistan hökumət kabinetinin tərkibi elan edildi. Yeni hökumətdə Dro hərbi nazir, Terteryan isə himayəçilik naziri vəzifələrini tutmuşdular.[208] Noyabrın 26-da Leqran Çiçerinə və Bakıya – Orconikidzeyə məlumat verirdi ki, "hökumət böhranı qarşılıqlı güzəştlər əsasında həll edildi, kabinetin tərkibinə Rusiya meylinin tərəfdarları Dro və Terteryan daxil edildi. Mdivaninin məlumatından görünür ki, türklərin bizim vasitəçiliyimizdən imtina etdiklərini nəzərə alaraq, o, ümumiyyətlə, Ermənistanla bağlı türklərin qarşısına hər hansı şərtin qoyulmasını gərəkli hesab etmir. Düşünürəm ki, bu səhvdir. Təcili olaraq, Ermənistanla məqbul sülh şərtlərinə dair Mdivaniyə göstəriş vermək lazımdır".[209]

Sovet nümayəndələri çalışırdılar ki, türklərin ermənilərlə hansı şərtlərlə sülh bağlayacaqlarını dəqiqləşdirsinlər. Onlar türklərin Ermənistanı öz təsirinə salmaq cəhdlərinin passiv müşahidəçiləri olmaq istəmirdilər. B.Leqran Gümrüyə – Mdivaniyə, Bakıya – Orconikidzeyə, Moskvaya – Çiçerinə məlumat verirdi ki, "türklər Naxçıvanı özləri üçün boşaldırlar" və guya, onlar Ermənistana hücumu Antantanın əmri ilə dayandırıblar, Kazım Qarabəkirin nəzarətində isə hansısa bir müsavatçı hərbi hissə vardır. Leqran yazırdı: "Dro bəyan edib ki, yaxın günlər ərzində hökuməti Sovet ordusunun Ermənistana dəvəti barədə qərar qəbul etməyə məcbur edəcək. Mənim tərəfimdən məsələ belə qoyulub ki, kommunistlər həbsdən azad edilsinlər və bizim ermənilərdə olan əsirlər qaytarılsınlar. Müsbət nəticələr gözləməyə əsas vardır. Dilican və Qazax vasitəsilə Bakı ilə teleqraf əlaqəsi qurulması barədə addımlar atın".[210] Həmin gün Orconikidzeyə göndərdiyi başqa bir radioqramda Leqran türklərin Naxçıvanı tutmasının həqiqət olduğunu təsdiq edir və sovet hissələrinin onlarla birlikdə hərəkət etməsinin tamamilə sərfəli olmadığını yazırdı.[211] B.Leqran xarici işlər komissarı Çiçerinə bildirirdi: "Bədbəxtlik ondadır ki, bizim komandanlıq Azərbaycanda millətçi əhvalı-

[207] B.Leqranın G.Çiçerinə teleqramı. 28.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.253

[208] Ermənistan Xarici İşlər nazirliyinin yeni hökumətin tərkibi haqqında məlumatı. 25.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.248

[209] B.Leqranın G.Çiçerinə və Q.Orconikidzeyə teleqramı. Surəti Şeynmana. 26.11.1920. RDSSTA, f.64, s.1, i.21, v.249

[210] B.Leqranın P.Mdivaniyə, G.Çiçerinə və Q.Orconikidzeyə radioqramı. 29.11.1920. RDSSTA, f.85, s.14, i.17, v.31-31(arxası)

[211] B.Leqranın Q.Orconikidzeyə radioqramı. 29.11.1920.// RDSSTA, f.85, s.14, i.17, v.32

ruhiyyəli dairələrin təsirinə düşüb və buna görə də ordu yaxşı komissar heyətindən məhrumdur".[212]

Türklərin Qafqaza gəlişi ilə Ermənistanda ciddi böhran yarandığı və erməni-türk münaqişəsinin kəskin şəkil aldığı bir dövrdə 1918-ci ilin təkrarlanmasından ehtiyatlanan RK(b)P MK Siyasi Bürosu Cənubi Qafqazda vəziyyəti müzakirə edib qərara aldı ki, indiki anda başlıca vəzifə Azərbaycanın mühafizəsini gücləndirmək və bütün Xəzər dənizinə qəti şəkildə sahib olmaqdan ibarətdir.[213] Siyasi Büronun bu qərarına uyğun olaraq, Bakının müdafiəsini möhkəmləndirmək üçün təcili addımlar atıldı və Azərbaycana əlavə qüvvələr göndərildi.

§4. Gümrü danışıqları və Türkiyənin Azərbaycana yolunun bağlanması

Noyabrın 25-də Gümrüdə sülh danışıqları başlanmalı idi. İrəvanda yeni hökumət formalaşdırıldıqdan sonra köhnə hökumətin başçısı və parlament üzvü Aleksandr Xatisyan, keçmiş maliyə naziri və parlament üzvü Abram Gülxəndanyan və daxili işlər nazirinin müavini Stepan Korqanyandan ibarət erməni sülh nümayəndə heyəti hökumət və parlamentin vəkaləti ilə Gümrüyə göndərildi.[214] Türkiyə tərəfini isə Gümrü danışıqlarında Kazım Qarabəkir paşa, Ərzurum valisi Həmid bəy və Türkiyə Böyük Millət Məclisinin Ərzurumdan olan üzvü Süleyman Necati bəy təmsil edirdi.[215] Lakin bu zaman Ermənistanın taleyi tək Gümrüdə deyil, eyni zamanda, Azərbaycanın Qazax qəzasında və Dilicanda həll edilirdi. Sovet Rusiyasının rəhbər dairələrinin təlimatı əsasında təcili şəkildə erməni kommunistləri səfərbər edilib Qazaxa, oradan da tələsik şəkildə sovet hakimiyyəti elan etmək üçün Dilicana göndərilirdi. Noyabr ayının son günlərində Ermənistanda hakimiyyəti ələ almaq üçün iki İnqilab Komitəsi yaradılırdı. Bunun birini türklər Gümrüdə onlarla əməkdaşlığa hazır olan qeyri-kommunistlərdən formalaşdırır, digərini isə ruslar Qazaxda öz nəzarətlərində olan kommunistlərdən formalaşdırırdılar. Ermənistan uğrunda mübarizə son mərhələyə yetişmişdi.

[212] B.Leqranın G.Çiçerinə teleqramı. 28.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.253

[213] N.Krestinskinin Q.Orconikidzeyə teleqramı. 28.11.1920.// RDSSTA, f.85, s.18, i.29, v.1

[214] Aleksandr Xatisyanın Ermənistan Respublikasının baş naziri olarkən fəaliyyəti haqqında ətraflı məlumat üçün bax: R.Hovannisian. The Republic of Armenia. The First Year, 1918-1919. Berkley-Los-Angelos-London, 1971, pp.151-152, 380-408/

[215] Gümrü sülh danışıqlarında Türkiyə nümayəndə heyəti haqqında geniş məlumat üçün bax: İskender Yılmaz. Gümrü Antlaşması. Ankara, 2001, s.84-91

Sovet Rusiyasının vəkalət verib, göndərdiyi nümayəndələr P.Mdivani, B.Şahtaxtinski və D.Korkmasov sülh danışıqları başlayan vaxt Gümrüdə olsalar da, Rusiyanın vasitəçiliyi qəbul edilməmişdi və onlar danışıqlara buraxılmamışdılar. Noyabr ayının sonlarında Mdivaniyə çatdırılmaq üçün Bakıya, Orconikidzenin ünvanına göndərilən təcili teleqramda Çiçerin yazırdı: "Gümrüdə danışıqların gedişi barədə dərhal məlumat verin. Mdivaninin danışıqlarda iştirakı nədə özünü ifadə edir? Qoy o, son hadisələr barədə bizə məlumat göndərsin. Xüsusilə, ona nail olmaq lazamdır ki, erməni-türk sərhədlərinin müəyyən edilməsi bizim də iştirak edəcəyimiz birgə komissiyaya verilsin. Qoy Mdivani fasiləsiz olaraq, orada nə baş verdiyi barədə bizi məlumatlandırsın".[216] Q.Orconikidze G.Çiçerinə izah edirdi ki, "Mdivaninin Gümrüdən bizimlə birbaşa əlaqəsi yoxdur. Bu əlaqənin Leqran vasitəsi ilə qurulmasına nail olunur. Sizin göstərişləriniz çatdırılacaq".[217] Türkiyə-Ermənistan danışıqları başlandıqdan sonra Sovet Rusiyası Mdivani vasitəsi ilə öyrənmək istəyirdi ki, türklər sovetlərlə müqavilə bağlanması üçün danışıqların başlanmasına necə baxır və bu danışıqlar harada, hansı tərkibdə aparılmasını onlar təklif edirlər. Türklərin niyyətlərin öyrənmək üçün Orconikidze və Şeynman hər ehtimala qarşı Çiçerinə məsləhət gördülər ki, danışıqların aşağıda qeyd edilən məsələlər ətrafında aparılması onlara təklif edilsin: 1.Sovet Ermənistanının sərhədləri Rusiya ilə saziş əsasında müəyyən edilsin; 2.Gürcüstana hücumun vaxtı Rusiya ilə birlikdə müəyyənləşdirilsin; 3.Antanta ilə müharibə bərpa edilsin, yəni, fəal davam etdirilsin. Onlar yazırdılar: "Bu şərtlərə riayət edildiyi halda silah, maliyyə və digər şeylərin buraxılması mümkündür".[218] Maraqlıdır ki, bu teleqram göndəriləndə hələ Ermənistanın sovetləşdirilməsi elan edilməmişdi, lakin sənəddə Sovet Ermənistanının sərhədlərinin müəyyən edilməsindən söhbət gedirdi.

Bəkir Sami şimali Qafqazdan qayıtdıqdan sonra onunla sovet nümayəndələri arasında axıra qədər razılaşdırılmayan bir layihə hazırlanıb, Yusuf Kamal vasitəsi ilə Ankaraya göndərilmişdi. Çiçerin Leqran vasitəsi ilə Mdivanidən soruşurdu: "Bəkir Sami ilə birlikdə hazırladığımız və Yusuf Kamalla Ankaraya göndərdiyimiz layihənin Türkiyə hökuməti tərəfindən alındığını bilmək bizim üçün arzuolunandır. Türkiyə hökuməti onu uyğun sayırmı və Bəkir Sami ilə bizim aramızda fikir ayrılığı olan və onun özü-

[216] G.Çiçerinin Q.Orconikidzeyə təcili teleqramı. 26.11.1920.// RDSSTA, f.85, s.14, i.26, v.1
[217] Q.Orconikidzenin G.Çiçerinə teleqramı. 27.11.1920.// RDSSTA, f.85, s.14, i.26, v.3
[218] Orconikidze və Şeynmanın Çiçerinə teleqramı. 29.11.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.49

nün qərar qəbul edə bilmədiyi maddələrə necə yanaşır?"[219] Noyabrın 28-də Leqran Mdivaniyə istinadən Çiçerinə və Orconikidzeyə məlumat verdi ki, türklər öz sülh şərtlərini bu gün elan edəcəklər, Mdivanidən qabaqcadan alınmış məlumata görə, sülh şərtlərinin ağır olacağı gözlənilir. Mdivaniyə təlimat vermək lazımdır ki, türklər vasitəçilikdən imtina etdikləri halda, o, necə hərəkət etməlidir. Türklərin bizim vasitəçiliyimizdən imtina etmələrinə baxmayaraq, ermənilərin xeyrinə hansı təklifləri biz müdafiə edə bilərik. Təkidli şəkildə zəruri hesab edirəm ki, dəmiryolunun Qarakilsə-Gümrü-İrəvan-Naxçıvan hissəsinin Ermənistanda saxlanması bizim maraqlarımıza uyğundur. Xahiş edirəm yubanmadan məlumat verin: "əgər türklər həqiqətən ağır şərtlər irəli sürərlərsə, erməni hökuməti tərəfindən gözlənilən müraciət olarsa, bizim ordular daxil olmaqla, Ermənistana hərbi kömək göstəriləcəkmi? Stalin Bakıda olarkən onun iştirakı ilə hazırlanmış təlimata uyğun olaraq, mənim tərəfimdən Ermənistan hökumətinə müvafiq təminat verilib". B.Leqran Ermənistanda əksəriyyəti kommunist çoxluğu olmaqla, öz içinə Dro tərəfdarı olan bir neçə daşnakı alan sovet hökumətinin yaradılmasını mümkün hesab edirdi. Türklərin Sovet Rusiyasının vasitəçilik cəhdlərinə qarşı çıxmalarını və erməni İnqilab Komitəsini yaratmalarını, habelə, danışıqlar ərəfəsində Şahtaxtı və Şərur qəzasının cənub-şərq hissəsindən öz ordularını çıxarmaları barədə erməni komandanlığına yeni tələblər təqdim edilməsini Leqran türklərin təşəbbüsü əllərində saxlaması ilə izah edirdi.[220] 1920-ci ilin noyabr ayının 28-də Mdivani Gümrüdən Bakıya, Orconikidzeyə radioqram göndərdi ki, "buradakı İnqilab Komitəsi özünü Ermənistan Sovet Respublikasının İnqilab Komitəsi adlandırır. Türkiyə komandanlığı tərəfindən müdafiə olunan İnqilab Komitəsinin tərkibi zəifdir. Türklərin erməni kommunistlərinə etibar etmədiklərini nəzərə alaraq, bura nüfuzlu yoldaşları göndərmək lazımdır".[221]

Danışıqların gedişində, noyabr ayının 28-də Kazım Qarabəkir paşa Sovet Rusiyasının nümayəndələri ilə də ayrıca görüşdü. Digər Antanta dövlətləri ilə birlikdə Çar Rusiyasının Türkiyəni bölüşdürmək siyasəti, bolşevik inqilabı və bu inqilabın doğurduğu siyasi nəticələr haqqında geniş danışdıqdan sonra o dedi: "Türklər qərara gəldilər ki, bütün vasitələrlə Sovet Rusiyasını müdafiə etsinlər, lakin özləri hələlik sovet cəmiyyəti

[219] G.Çiçerinin B.Leqrana teleqramı. 02.12.1920.// RDSSTA, f.85, s.14, i.26, v.6
[220] B.Leqranın G.Çiçerinə teleqramı. 28.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.255-256
[221] P.Mdivaninin Q.Orconikidzeyə radioqramı. 28.11.1920.// RDSSTA, f.85, s.14, i.331, v.6

qurmağa meylli deyillər. Bu o demək deyildir ki, kommunist idealları bizim üzümüzə gülmür. Türklər indi o dövrü yaşayırlar ki, onları böyük uğurla milli inqilabi hərəkətə yönəltmək olar, aqrar məsələ olmadan türk kəndlilərini heç nə ilə maraqlandırmaq olmaz, sənaye-ticarət müəssisələri olmadığından fəhlə ordusu, demək olar ki, bizdə yoxdur. Hər bir türk yaxşı anlayır ki, Antantaya bir neçə ağır zərbə endirilməsi Qərb proletariatını məcbur edəcək ki, hakimiyyəti öz əlinə keçirib, orada sovet quruluşunu bərqərar etsin. Sovet quruluşu Avropada ağalıq edərsə, digər ölkələr haqqında danışmağa dəyməz, həmin ölkələrdə sovet quruluşu öz-özünə bərqərar olacaqdır. Siyasi cəhətdən yetkin adam ayrı cür düşünə bilməz, əgər bu beladirsə, bizim səmimiliyimiz gərək Sovet Rusiyası üçün aydın olsun və heç bir qıcıqlandırıcı şübhə doğurmasın. Sovet Rusiyasına hər kəsdən daha yaxşı məlumdur ki, rus inqilabına birinci hay verən türklər oldu..., onlar istəyirdilər ki, Rusiya Azərbaycan vasitəsi ilə inqilabi Türkiyə ilə əlaqə qursun, lakin Rusiya inqilabi Türkiyə ilə hər hansı əlaqəni qurmaq üçün heç nə etmədi".[222] Cənubi Qafqazda yaranmış vəziyyətə gəldikdə isə Kazım paşa olub-keçənləri xatırladaraq dedi: "Rusiya Türkiyəyə təklif etdi ki, Antantanın ən səmimi müttəfiqi olan Ermənistana hücumdan imtina etsin, Antanta ilə mübarizədə Ermənistan hər zaman bizə arxadan zərbə endirməsinə baxmayaraq, Rusiyaya sərfəli olduğu üçün biz bundan çəkinməyi qərara aldıq. Bütün bunlardan sonra Sovet Rusiyası Anadolunun bir sıra vilayətlərinin Ermənistana verilməsini tələb etdi... Rusiya... Türkiyə və Azərbaycan hesabına, o zaman ermənilərsiz mürtəce Böyük Ermənistan qurmaq istəyirdi ki, həmin vaxt, bu Ermənistanın özü, Azərbaycanda Rusiya əleyhinə birgə çıxış etmək üçün Gürcüstan, İran və Ermənistandan ibarət koalisiya yaratmağa cəhd göstərirdi. Ən nəhayət, Rusiya Naxçıvan diyarını Ermənistana verdi. Bu, yeganə dar dəhliz idi ki, türklər onun vasitəsilə Rusiya ilə əlaqə saxlaya bilərdilər. Bu addımla Rusiya türk inqilabına bütün başçılıq edənləri türk kütlələrinin qarşısında demək, olar ki, tərksilah etdi, Rusiyanı hər hansı formada müdafiə etməyə inamı sarsıtdı. Digər tərəfdən isə, Azərbaycanda həyata keçirilən dəhşətlər haqqında məlumatlar gəlməyə başladı. Bütün bunlar hamısı birlikdə bizim düşmənlərimizin əlinə belə bir fikri yaymaq üçün əsas verdi ki, nəinki, Rusiyadan hər hansı kömək gözləmək olmaz, hətta, on-

[222] B.Şahtaxtinski Q.Orconikidzeyə. Kazım paşa ilə söhbət. 28.11.1920.// RDSSTA, f.85, s.c/Türkiyə, i.31, v.3

dan ehtiyat etmək lazımdır".[223] Son erməni-türk müharibəsinə gəldikdə, Kazım paşa bu hadisənin bəzi məqamlarına toxunaraq dedi: "Rusiya bizə icazə verdi ki, Sarıqamış və Naxçıvan rayonunu tutaq, lakin bu əməliyyatlarda bizə heç bir hərbi kömək göstərmək istəmədi. Elə həmin vaxt erməni ordusu hücum edib, Oltı rayonunda müsəlman qırğını törətməyə başladı. Türk xalqının səbri tükəndi və xalq daşnakların cəzalandırılmasını tələb etdi. Tək Ermənistanla bacarmaq elə də çətin olmasa da, mənim işim heç də asan deyildi, hücum başlayan zaman hamı deyirdi ki, biz erməni-gürcü ordusu ilə qarşılaşmalı olacağıq, ona görə də, mən elə güc toplamalı idim ki, yalnız ermənilərin deyil, gürcü ordusunun da qarşısına çıxa bilim. Erməni ordusu bizim tərəfimizdən elə sürətlə darmadağın edildi ki, gürcü ordusu, hətta, yır-yığış etmək üçün vaxt tapmadı. İrəvanın qapısında Ermənistan hökuməti bizim bütün şərtlərimizi qəbul etməyə hazır olduğunu bildirib, aman istədi. Bizə dəqiq məlum idi ki, Ermənistan hüdudlarında irəliləməyimizi Rusiya belə yozmağa çalışacaq ki, biz işğalçılıq məqsədilə Azərbaycanın hüdudlarına girməyə cəhd göstəririk və bu məsələdə, guya, Antanta ilə bizim aramızda saziş olmuşdur. Beləliklə, ümumi düşmənə qarşı yönəlmiş bütün hərəkətlərimiz, hətta, bizim üçün böyük itkilərlə müşayiət olunsa da, bizə qarşı şübhə və etimadsızlıq doğururdu".[224] Bütün bu söhbətin məzmununu həmin görüşdə iştirak edən B.Şahtaxtinski elə noyabrın 28-də yazıb, Qafqaz məsələləri üzrə Sovet Rusiyasının başlıca nümayəndəsi hesab edilən Q.Orconikidzeyə göndərdi.

Kazım paşanın toxunduğu sonuncu məsələ, yəni, Türkiyə tərəfindən Azərbaycanın işğalının, guya, Antanta ilə razılaşdırılması haqqında şayiələr o qədər geniş yayılmışdı ki, Türkiyənin xarici işlər naziri Əhməd Muxtar (Mollaoğlu) bununla bağlı dekabr ayının 1-də Gümrüyə, Şərq cəbhəsinin komandanı K.Qarabəkirə, Bakıdakı türk nümayəndəsi Məmduh Şevket bəyə və Tiflisdəki türk nümayəndəsi Kazım bəyə teleqram göndərib, bu şayiələri təkzib etmək məcburiyyətində qalmışdı. Orada deyilirdi: "Hər tərəfdən gələn məlumatlara görə, ingilislər bütün vasitələrlə bizi və müsəlman dünyasını bolşeviklərlə vuruşdurmaq istəyir. Onlar ümid edirlər ki, əgər buna nail olsalar, bizim hər birimizi ayrı-ayrılıqda əzsinlər. Təxribatçılıq məqsədilə quraşdırılan şayiələrdən biri budur ki, guya, ingilislər bizə Azərbaycanı vəd ediblər və biz bunun əvəzi olaraq bolşeviklərdən ayrılmalıyıq. Siz təcili

[223] Yenə orada, v.3

[224] Yenə orada, v.3-4

olaraq, bizim əlimizdə olan bütün vasitələrdən istifadə etməklə, hər tərəfə yayılan bu şayiələri qəti şəkildə təkzib etməyə müvəkkil edilirsiniz".[225] Bu teleqramın mətni Orconikidze tərəfindən Rusiya Xarici İşlər Komissarlığına göndərildi. Bundan əlavə, dekabr ayının 2-də Türkiyənin xarici işlər naziri Əhməd Muxtar Georgi Çiçerinə xüsusi məktub göndərib, "Sovet Rusiyası əleyhinə mübarizənin əvəzi olaraq, Qərb dövlətlərinin Azərbaycanı Türkiyəyə vəd etmələri barədə" yayılan söz-söhbətin yalan olduğunu bildirdi.[226]

Gümrü danışıqları zamanı rusların "xidmətindən" imtina edilməsi bolşevikləri hövsələdən çıxarmışdı. Noyabrın 29-da Leqran tərəfindən Gümrüdə olan Mdivaniyə verilən təlimatlar bunun açıq təzahürü idi. Surəti Xarici işlər komissarı Çiçerinə göndərilən bu təlimatlar, təşəbbüsü türklərə verdiyindən Mdivani üçün daha çox diplomatik danlaq xarakteri daşıyırdı. Leqran yazırdı: "Bizim vasitəçilikdən imtina haqqında türklərin rəsmi xəbərdarlığını almısanmı? Hansı şərtlərlə türklər Ermənistanla sülh bağlamağı fikirləşirlər və bu barədə onlar sənə nə deyiblər, sizin tərəfinizdən hansı bəyanat verilib? Türklərin bizi Ermənistan haqqında məsələnin həllindən kənarlaşdırmaq cəhdlərinə laqeyid yanaşmaq olmaz. Qarabəkir əlavə olaraq, orduların Şahtaxtı rayonu və Şərur qəzasının bir hissəsindən çıxarılmasını tələb etməklə, Naxçıvanı özləri üçün azad edirlər".[227] Türklərin Ermənistanda İnqilab Komitəsinə gəldikdə isə, Leqran soruşurdu ki, kimlər daxildir bu İnqilab Komitəsinə, yerli erməni kommunistləri, yoxsa ayrı formada təşkil edilib bu? O yazırdı: "Nəzərə alın ki, bizim yoldaşlar bu İnqilab Komitəsinə göndərilə bilməzlər, ümumiyyətlə, türklərin İnqilab Komitəsi uydurması ən kiçik etimada belə layiq deyildir. Onlar Ermənistanda tamamilə müstəqil siyasətlərini yeritməkdə davam etdirirlər və bizim vasitəçiliyimizi tanımağı arzulamırlar. Bunu bu və ya digər formada onların nəzərinə çatdırmaq lazımdır".[228] Stalin isə noyabr ayının 16-da Leninə göndərdiyi teleqramın ruhuna uyğun bir teleqramı həmin ayın 29-da İrəvandakı Sovet missiyasına da göndərdi. O, Leqrana və Mdivaniyə tövsiyə edirdi ki, "tələsmək lazım de-

[225] Əhməd Muxtar bəyin K.Qarabəkir paşaya, Mehmed Şevket bəyə və Kazım bəyə teleqramı. 01.12.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.53

[226] Əhməd Muxtar bəyin G.Çiçerinə məktubu. 02.12.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.58

[227] B.Leqranın P.Mdivaniyə teleqramı.Surəti G.Çiçerinə. 29.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.259

[228] Yenə orada, v.259

Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov

N.Nərimanov, D.Bünyadzadə, M.D.Hüseynov XI Qırmızı Ordunun paradında. 1920-ci il.

Sovet Azərbaycanının rəhbərliyi Bakıda keçirilən nümayişdə. Öndə Ə.Qarayev və M.D.Hüseynov. 1920-ci il.

İ.Stalindən Bakı Komitəsinə xatirə şəkili. 1920-ci il.

Azərbaycan SSR-in xarici işlər komissarı M.D.Hüseynov. 1920-ci il.

Azərbaycan SSR-in Sovet Rusiyasında səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski

Azərbaycan SSR-in Türkiyədə səfiri İ.Obilov

Şərq Xalqlarının I qurultayına gələn nümayəndələrin Bakı limanında qarşılanması. 1920-ci il.

N.Nərimanov, Q.Zinovyev, K.Radek, Bela Kun və digərləri Şərq Xalqlarının I qurultayının rəyasət heyətində. 1920-ci il.

Bakılı uşaqlar Şərq Xalqlarının I qurultayına həsr olunmuş paradda. 1920-ci il.

N.Nərimanov, K.Radek və Bela Kun Bakı teatrının qarşısında. 1920-ci il.

Ənvər paşa Şərq Xalqlarının I qurultayına gəlmiş Türkiyə nümayəndələri arasında. 1920-ci il.

Ə.M.Topçubaşov iş otağında. Paris, 1920-ci il.

Ə.M.Topçubaşov. Paris, 1920-ci il.

Azərbaycan siyasi mühacirləri Parisdə. M.Mehdiyev, Ə.Şeyxülislamov və M.Məhərrəmov. 1920-ci il.



Gilan Sovet Respublikasının lideri Mirzə Kuçek (Kiçik) xan. 1921-ci il.

Sovet Rusiyasının Tehrandakı Səlahiyyətli nümayəndəsi F.Rotşteyn.1921-ci il.

Gilan Sovet Respublikasının rəhbərlərindən Sərdar Muxi, Xalu Qurban, Ehsanulla xan və Kərim xan Bozorq sovet işçiləri arasında. Rəşt, 1921-ci il.

Sovet döyüşçüləri İran Qırmızı Ordusunun sıralarında. Gilan, 1921-ci il.

Sovet Rusiyasının Xarici İşlər Komissarı G.Çiçerin və onun Şərq ölkələri üzrə müavini L.Karaxan. 1921-ci il.

Türkiyənin Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir paşa

Türkiyənin Azərbaycanda diplomatik nümayəndəsi Memduh Şevket Esendal

Ankarada Azərbaycan səfirliyinin açılış mərasimi. 1921-ci il.

Sovet Rusiyası ilə Türkiyə arasında 1921-ci il 16 mart müqaviləsinin imzalanması.

Mustafa Kəmal paşa, Semyon Aralov və İbrahim Əbilov Qərb cəbhəsində. 1922-ci il.

Cənubi Qafqaz İttifaq Sovetinin sədri N.Nərimanov Berlin vağzalında Genuya konfrasına gedən nümayəndələr arasında. 1922-ci il.

N.Nərimanov, A.Bekzadyan və B.Mdivani Genuya konfransında. 1922-ci il.

K.Voroşilov, N.Nərimanov və C.Korkmasov RK(b)P MK plenumunun fasiləsi zamanı. 1923-cü il.

Azərbaycan Milli Mərkəzinin rəhbər heyəti.
Soldan: M.Ə.Rəsulzadə, A.Kazımzadə, Ə.Cəfəroğlu və M.Vəkilov. 1924-cü il.

SSRİ Mərkəzi İcraiyə Komitəsinin sədri N.Nərimanovun Moskvada dəfn mərasimi. 1925-ci il.

İ.Stalin RK(b)P-nin XV Qurultayının Cənubi Qafqazdan olan nümayəndələri arasında. 1927-ci il.

Brüssel paktı imzalandıqdan sonra verilən ziyafət. 1934-cü il.



Azərbaycan, Gürcüstan, Şimalı Qafqaz, Ukrayna və Türküstan mühacirlərinin fransız dilində nəşr edilən «Prométhée» jurnalı. 1934-cü il.

Azərbaycan siyasi mühacirətinin Paris mərkəzinin lideri Ə.M.Topçubaşovun dəfn mərasimi. Sen-Klu, 1934-cü il.

yildir, güclənməyi gözləmək lazımdır. Daşnaklara görə, türklərlə mübarizə aparmağa dəyməz, lakin hər şeyi türklərə güzəştə getmək də yolverilməzdir. Gümrünü Ermənistan üçün türklərdən almaq lazımdır, Qars məsələsi isə hələlik açıq saxlanmalıdır. Hər şeydən görünür ki, türklər Ermənistanda Antantanın göstərişi ilə hərəkət edirlər, buna görə, onlara etibar etmək olmaz. Onları Antantadan ayırıb, Gürcüstanın üzərinə salmaq lazımdır və yoxlamaq gərəkdir ki, onlar Gürcüstanın əleyhinə gedirlərmi?"[229]

Yaranmış mürəkkəb vəziyyətdə hadisələrdən kənarda qalmamaq üçün Sovet Rusiyası bir tərəfdən türklərlə Moskvada yarımçıq dayandırılmış sülh danışıqlarını bərpa etmək istəyir, digər tərəfdən isə Ermənistanda hakimiyyət çevrilişinə hazırlaşırdı. Bu barədə noyabr ayının 27-də RK(b)P MK Siyasi Bürosunda İ.Stalinin "Qafqaz işləri haqqında" məruzəsi dinlənilib, müvafiq qərar qəbul edilmişdi. Qərarın birinci bəndi ilə Orconikidzeyə tapşırılmışdı ki, Bakıda qalsın və Azərbaycan İnqilab Komitəsinə, habelə, Şərq Xalqlarının Təbliğat və Fəaliyyət Şurasına siyasi baxımdan ümumi rəhbərliyi öz əlinə alsın.[230] Siyasi Büronun bu qərarı Ermənistanda gözlənilən dəyişikliklər ərəfəsində Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovu Q.Orconikidzeyə tabe etmək xarakteri daşıyırdı. Noyabrın 29-da gündüz saat 14:30-da Orconikidze Bakıdan Lenin və Stalinə məlumat verirdi ki, "Mərkəzi Komitənin qərarını yenicə almışam. İşi təşkil etmək üçün erməni İnqilab Komitəsi Qazax rayonuna yola salındı. Karvansaray və Dilicanın kəndli kütlələrindən hakimiyyətin ələ alınması barədə kütləvi müraciətlər alınır. Ordu dağılır. İnqilab Komitəsi müstəqil şəkildə sərhəddi keçdi və Sovet hakimiyyətinin elan ediləcəyi Dilicana doğru hərəkət edir".[231] Bundan beş dəqiqə sonra İrəvanda olan Leqrana və Gümrüdə olan Mdivaniyə teleqramında Orconikidze yazırdı: "İndicə məlumat alındı ki, Ermənistan İnqilab Komitəsi Dilican rayonu kəndli kütlələrindən çoxlu sayda müraciətlər alaraq, gecə ikən sərhəddi keçib və əhali tərəfindən sevinclə qarşılanıb. İrəvanda Dro və Tərteryan qrupları tərəfindən müdafiə olunmaq üçün bütün tədbirləri görün. Siz onların İnqilab Komitəsinin tərkibinə daxil olmalarına və daşnakların tam təhlükəsizliyinə təminat verin".[232]

[229] İ.Stalinin B.Leqrana və P.Mdivaniyə teleqramı. 29.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.260
[230] RKP MK Siyasi Bürosu iclasının 66 saylı protokolundan çıxarış. 27.11.1920.// RDSSTA, f.17, s.3, i.125, v.1
[231] Q.Orconikidzenin V.Leninə və İ.Stalinə teleqramı. 29.11.1920.// RDSSTA, f.85, s.14, i.33, v.2
[232] Q.Orconikidzenin B.Leqrana və P.Mdivaniyə teleqramı. 29.11.1920.// RDSSTA, f.85, s.14, i.33, v.3

Türklərin yaratdığı İnqilab Komitəsi noyabrın 28-də Gümrüdə Ermənistan Sovet hakimiyyətini elan etdikdən bir gün sonra, Qazaxda yaradılmış İnqilab Komitəsi noyabr ayının 29-da Ermənistan Sovet hakimiyyətini elan etdi. İnqilab Komitəsinin məlumatında Dilican yazılsa da, əslində sovet hakimiyyəti Qazaxda elan edilmişdi, lakin yeni hakimiyyətə legitim xarakter vermək və türklərin müqavimətin aradan qaldırmaq üçün sənədin altında Dilican göstərilmişdi. Yalnız bir gün sonra, noyabrın 30-da İnqilab Komitəsi Dilicana getmişdi.[233] Ermənistanda sovet hakimiyyətinin elan edilməsinin Azərbaycanda həyata keçirilməsi və Bakıdan ora 2 min silahlı erməni dəstəsinin göndərilməsi haqqında məlumatı həmin günlərdə Tiflidəki Britaniya komissarı polkovnik Stoks şifrli teleqramla İngiltərənin xarici işlər naziri lord Kerzona bildirmişdi.[234] Lakin bu teleqramda bəzi qeyri dəqiqlik var idi. Birincisi Ermənistanı işğal edən qüvvə ermənilərdən deyil, rus bolşeviklərindən ibarət idi, ikincisi isə İrəvana doğru hərəkət edən bolşevik ordusunun sayı cəmi 1.500 nəfər idi.[235] İnqilab Komitəsi Dilicana yola düşəndə komitənin yalnız bir üzvü kimi, Avis (Nuricanyan Hakop) orada idi, bir müddət sonra Komitənin sədri Sarkis Kasyan (Ter-Kasparyan) ona birləşdi və dekabrın 3-də qalan üzvlər də Bakıdan gəldi.[236]

Hər iki İnqilab Komitəsinin İrəvana daxil olub, Ermənistan miqyasında tanınması və hakimiyyəti ələ alması uğrunda gərgin mübarizəsi başlanmışdı. Rusiyanın nəzarətində olan Dilicandakı İnqilab Komitəsinə əməli xarakter vermək və onu təntənə ilə İrəvana daşıtmaq üçün Moskvanın "məsləhəti" ilə noyabrın 30-da Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov və xarici işlər komissarı M.D.Hüseynov hələ Dilicanda olan Ermənistan İnqilab Komitəsinə təbrik teleqramı göndərdilər. Dilicanda Ermənistan Sovet hakimiyyətinin elan olunması haqqında Qazaxdan vurulan teleqram alınan kimi, noyabr ayının 30-da AK(b)P MK-nın Siyasi və Təşkilat Bürosu həmin teleqramın müzakirəsinə toplandı. Q.Orconikidze, S.Ter-Danelyan (Sarkis), Y.Stasova, Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.D.Hüseynov və başqalarının iştirak etdiyi iclasda Serqo Orconikidzenin planı üzrə qərar qəbul olundu. Orada göstərilirdi ki, artıq Sovet Azərbaycanı ilə Sovet Ermənistanı

[233] Q.Orconikidzenin Nazaretyan ilə birbaşa xəttlə söhbəti. 30.11.1920.// RDSSTA, f.85, s.14, i.37, v.1

[234] Documents on British Foreign Policy. 1919—1939, First Series. Vol. XII, London, 1962, p. 655

[235] Geniş məlumat üçün bax: Q.Orconikidzenin birbaşa xəttlə A.Nurcanyan, S.Kasyan, hərbi komandanlar Velikanov və Kurişko ilə danışığı. 30.11.1920.// RDSSTA, f.85, s.14, i.35, v.1-24

[236] B.Leqranın G.Çiçerinə məktubu. 22.12.1920.// RDSSTA, f.5, s.1, i.2127, v.2

arasında heç bir sərhəd mövcud deyildir və qərarda Zəngəzur Ermənistana verildiyi bildirilirdi. N.Nərimanova tapşırılırdı ki, bu barədə bəyanat hazırlayıb Bakı Sovetinin plenumunda elan etsin.[237]

Bu tapşırığa uyğun olaraq, Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun Ermənistanda Sovet hakimiyyətinin qurulması münasibəti ilə dekabr ayının 1-də Bakı Sovetinin təntənəli iclasında geniş çıxışı oldu və onun bəyanatı elan olundu. Bəyanatda deyilirdi: "Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın-kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının bölünməz ərazisidir".[238] Halbuki, AK(b)P MK Siyasi və Təşkilat Bürosunun 30 noyabr tarixli iclasının qərarında söhbət Zəngəzurun Ermənistana verilməsindən gedirdi və orada ümumiyyətlə Naxçıvanın adı çəkilmirdi. Partiya qərarı ilə Azərbaycan İnqilab Komitəsinin bəyanatı arasında ziddiyyət də məhz, buradan əmələ gəlirdi.

Ermənistanın Türkiyə ilə müharibədə məğlub olub, tamamilə dağıldığı, Dilicanda və Gümrüdə elan olunmuş Sovet hakimiyyətinin hələ İrəvana daşınmağa cəsarət etmədiyi bir vaxtda bu bəyanat ermənilərin özləri üçün belə gözlənilməz olmuşdu. Q.Orconikidze noyabrın ayının 30-da Amayak Nazaretyana bu gözlənilməz məlumatı birbaşa xəttlə dedikdə, A.Nazaretyan qeyri ixtiyari olaraq "Ohsən, azərbaycanlılar" deyə qışqırmışdı.[239] Q.Orconikidze Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi və Qarabağın dağlıq hissəsəsinin əməkçi kəndlilərinə öz müqəddəratını təyin etmə hüququnun verildiyi haqqında məlumatı Nazaretyana birbaşa xəttlə noyabr ayının 30-da verəndə, AK(b)P MK Siyasi və Təşkilat Bürosunun məlum iclası yeni başa çatmışdı və orada Naxçıvan məsələsi olmamışdı. Əslində, Naxçıvanla bağlı məlumatı Q.Orconikidze bu məsələ dekabrın 1-də Bakı Sovetinin iclasında N.Nərimanov tərəfindən elan edilməzdən bir gün əvvəl A.Nazaretyana verilmişdi. Dekabr ayının 1-də elan etdiyi bəyanatda N.Nərimanov Zəngəzur və Naxçıvanı, məhz, o zaman Ermənistana güzəştə gedirdi ki, köhnə erməni

[237] Azərbaycan K(b)P MK Siyasi və Təşkilat Bürosunun iclasının protokolu. 30.11.1920.// ARPİİ SSA, f.1, s.1, i.24, v.51-52

[238] Коммунист, 1920, 2 декабря

[239] Q.Orconikidzenin A.Nazaretyan ilə birbaşa xəttlə söhbəti. 30.11.1920.// RDSSTA, f.85, s.14, i.37, v.1(arxası)

hökuməti dağılmış, Dilicanda elan olunan yeni sovet hökuməti isə kağız üzərində idi. Onlar türklərin etiraz edəcəyindən ehtiyatlanıb, hələ İrəvana getməyə cəsarət etmirdilər.

Gümrüdə olan B.Şahtaxtinskinin şəhadətinə görə, Azərbaycan İnqilab Komitəsinin bu gözlənilməz addımı Ermənistan üzərində qələbə çalmış Kazım Qarabəkir paşada çox böyük təəssüf hissi doğurmuşdu. Həmin vaxt B.Şahtaxtinski ilə söhbətində o demişdi ki, "Azərbaycan İnqilab Komitəsi gərək taktiki mülahizələrə görə, heç olmasa, konfrans qurtarana qədər *(Gümrüdəki sülh konfransı nəzərdə tutulur – C.H.)* bu məsələni həll etməyə tələsməyəydi, belə ki, bu akt Rusiyanın təsirini artırır".[240] Kazım paşa ilə söhbətdən sonra B.Şahtaxtinski Azərbaycan İnqilab Komitəsinin Naxçıvanı ermənilərə güzəştə getmək kimi, ağılsız addımından çıxış yolunu Rusiyanın himayəsi altında Naxçıvanın müstəqilliyinin elan olunmasında görürdü. O yazırdı: "Strateji mülahizələrə görə, bu çox mühüm guşəni türklərin protektoratlığı altına vermək olmaz. Rusiyanın protektoratlığı altında bu diyarın müstəqilliyini ehtimal etmək olar ki, bu addım türkləri də təmin edə bilər. Ola bilsin ki, yaxın gələcəkdə müstəqil Naxçıvan diyarının adından İran Azərbaycanı istiqamətinə addımlar atmağa *(Cənubi Azərbaycanın sovetləşdirilməsi və onun Sovet Azərbaycanına birləşdirilməsi ideyası nəzərdə tutulur – C.H.)* vəziyyət bizi məcbur etsin. Lakin bunu heç vaxt ayrı yerdən, yaxud Ermənistanın adından etmək olmaz".[241] Ümumiyyətlə, Rusiya nümayəndələrində Naxçıvanın türklərə verilməsi ideyası da var idi. Bunu onlar o halda mümkün hesab edirdilər ki, Türkiyə müsəlman şərqində inqilabi hərəkatın ağırlıq yükünü öz çiyinlərinə alsın. B.Leqran G.Çiçerinə yazırdı: "Əgər türklər qonşu müsəlman ölkələrinə inqilabi təsir göstərmək imkanına malik olsa, onlar Şərqdə inqilabi hərəkatı qaldıra bilsələr, bu, əlbəttə, əla olar, onda onlara müstəqil hərəkət imkanı vermək olar, Naxçıvanı onlara vermək olar, onları Sovet Ermənistanı ilə yaxınlaşdırmaq olar və sair. Lakin əvvəlcə türkləri sınamaq lazımdır".[242] Azərbaycan İnqilab Komitəsinin məlum bəyanatından türklərin narazı qaldığını P.Mdivani də G.Çiçerinə yazırdı. O, qeyd edirdi ki, İrəvandakı Rusiya nümayəndəsinin Zəngəzur, Naxçıvan və Qarabağın Ermənistana verilməsini elan etməsi və

[240] B.Şahtaxtinskinin Q.Orconikidzeyə məktubu. Noyabr 1920. // RDSSTA, f.85, s.c Türkiyə, i.31, v.1

[241] Yenə orada, v.2

[242] B.Leqranın G.Çiçerinə məktubu. 22.12.1920.// RDSSTA, f.5, s.1, i.2127, v.5

bunun Azərbaycan tərəfindən tanınması türklərin şübhəsinə səbəb oldu, onlar bu fikirdədirlər ki, Azərbaycan bu addımı Rusiyanın təsiri ilə atmışdır.[243]

Dekabrın ilk günlərində Dilicanda yerləşmiş İnqilab Komitəsi Gümrüdə başlanan sülh danışıqlarının nəticəsi elan olunmadan İrəvana hərəkət etməyə qərarlı deyildi. Ermənistanda hakimiyyət strukturlarının dağılmasına baxmayaraq, İnqilab Komitəsi formal xarakter daşıdığı üçün gözləmə mövqeyinə üstünlük verirdi. Əlində az-çox silahlı qüvvə saxlayan Dro İnqilab Komitəsinin dekabr ayının 3-də İrəvana gəlməsini məqsədəuyğun sayırdı. Çünki, dekabrın 2-də Gümrüdə sülh müqaviləsinin bağlanacağı gözlənilirdi. Müqavilənin şərtləri elan olunana qədər B.Leqran tələsik olaraq, Sovet Rusiyasının adından Sovet Ermənistanının tanındığını bildirdi. Rusiyanın tanıdığı Ermənistan əraziləri İrəvan quberniyasını, Qars vilayətinin bir hissəsini, Zəngəzur qəzasının bir hissəsini, Qazax qəzasının 10 avqust müqaviləsi ilə müəyyən edilmiş hissəsini, Tiflis quberniyasının türk hücumuna qədər Ermənistan tərəfindən tutulmuş hissəsini əhatə edirdi. İnqilab Komitəsi fəaliyyətə başlayan kimi, kommunistlərin həbsdən azad olunması haqqında verdiyi dekretin artıq icrasına başlanmışdı. Türklər düşmənçilik mövqeyinə keçəcəyi halda, Ermənistan sərhədlərinə kifayət qədər hərbi qüvvənin toplanması istiqamətində tədbirlər görülürdü.[244] B.Leqran G.Çiçerinə məlumat verirdi ki, sovet qoşunlarının Ermənistanın içərilərinə doğru hərəkəti dekabrın 3-nə qədər dayandırılmalıdır. Dro söz verib ki, bu müddət ərzində bütün zəruri tədbirləri görəcək ki, bizim qoşunlar İrəvana hökumətin və bir sıra hərbi hissələrin müqaviməti olmadan daxil olsun.[245] B.Leqranın belə mövqeyini Q.Orconikidze onun köhnə erməni hökumətinə həddindən çox vəd verməsi ilə izah edirdi.[246]

Qızıl Ordunun Qazaxda dislokasiya olunmuş hissələrinin komandanlığına da eyni zamanda, tapşırılmışdı ki, siyasi şərait aydınlaşana qədər Ermənistana doğru hərəkət etməsinlər.[247] Q.Orconikidze dekabr ayının 2-də V.Lenin və I.Stalinə bildirdi ki, İrəvanda sovet hakimiyyəti artıq elan edilib, köhnə hökumət kənarlaşdırılıb, bütün hakimiyyət İnqilab Komitəsi gələnə qədər Dro başda olmaqla, hərbi komandanlığa verilib. Ordunun İn-

[243] P.Mdivaninin G.Çiçerinə teleqramı. 08.01.1921.// RDSSTA, f.5, s.1, i.2203, v.43

[244] B.Leqranın Q.Orconikidzeyə teleqramı. 02.12.1920.// RDSSTA, f.85, s.14, i.33, v.16

[245] B.Leqranın G.Çiçerinə teleqramı. 30.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.264

[246] Q.Orconikidzenin V.Leninə teleqramı. 08.12.1920.// RDSSTA, f.5, s.1, i.2178, v.35

[247] Bobrişevin Qızıl Ordunun Qazax qrupunun komandanlığına teleqramı. 30.11.1920.// RDSSTA, f.64, s.1, i.21, v.269

qilab Komitəsinin sərəncamına keçməsi üçün onlara əmr verilib. İnqilab Komitəsi indi Dilicandadır, sabah səhər İrəvana gələcək. İnqilab Komitəsi türk cəbhəsinin komandanı Qarabəkir paşadan təbrik teleqramı alıb. İnqilab Komitəsi İrəvan yolundadır. Bu gün Gümrüdən gələn yoldaşlar məlumat verirlər ki, kamalçı ordu daxilində bizə münasibət yüksək dərəcədə dostluq səviyyəsindədir, ordu qırmızı döş nişanları taxır və özlərini qırmızı əsgər hesab edirlər. Azərbaycan dünən artıq Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Sovet Ermənistanına verildiyin bəyan edib".[248] Məhz, Orconikidzenin saxtalaşdırdığı sonuncu məsələ Stalin tərəfindən dekabr ayının 4-də "Pravda" qəzetində Ermənistanda sovet hakimiyyətinin qələbəsi haqqında dərc olunmuş geniş məqaləsində yer aldı.[249]

Kazım paşa Ermənistan İnqilab Komitəsinə göndərdiyi təbrikə bənzər bir teleqramı Çiçerinə də göndərdi. O yazırdı: "Mən Qırmızı Ordunun Dilicana gəlişini sevinclə eşitdim. Sizinlə dostluq ittifaqında olan türk ordusu sizin Dilicana gəlişinizi salamlayır, əməkçi proletariatın xoşbəxtliyi və rifahı naminə imperializm üzərində bizim qələbəmizi arzulayır".[250] Kazım paşanın bu təbrikindən, Azərbaycan İnqilab Komitəsinin məlum bəyanatından sonra, dekabrın 4-də Ermənistan İnqilab Komitəsinin sədri S.Kasyan və üzvü Avis Türkiyə ilə müharibədə məğlub olmuş Ermənistanın "qalib" nümayəndələri kimi İrəvana gəldilər. Dekabrın 5-də isə Qırmızı Ordu şəhərə daxil oldu.[251]

Nəhayət, 1920-ci ilin dekabr ayının 2-də Gümrüdə Ermənistanla Türkiyə arasında sülh müqaviləsi imzalandı. Həmin gün Kazım paşa anlaşılmazlıq baş verməməsi üçün Mdivanidən xahiş etdi ki, yaxınlıqda *(Naxçıvanda – C.H.)* olan rus hissələri müqavilə bağlanana qədər türk hissələrinin yerləşdiyi Araz stansiyası və Alagöz dağı boyunca olan cəbhə xəttini keçməsin.[252] Beləliklə, türklər sakit şəraitdə "Türkiyə hökuməti ilə Ermənistan Respublikası arasında" Gümrü müqaviləsini imzaladılar. Ərazi məsələlərində çoxlu mübahisələr olsa da, türklər öz şərtlərindən geri çəkilmədilər. Hətta, A.Xatisyan Kazım paşanı tarixin qədim qatlarına çəkib, Urartu dövləti dövründə Van və ətrafının ermənilərə məxsusu olduğunu inandırmağa çalışsa da, Kazım paşa bildirdi ki, Urartı mədəniyyətinin ermənilərə heç bir dəxli yoxdur, onlar bu tarixlə çox az bağlı olublar, həmin mədəniyyətin qalıqları Urartunun turan tayfalarına məxsusu olduğunu göstərir. Kazım paşa əlavə etdi ki, ermənilər bu tarixdə elə də əhəmiyyətli iz qoymayıblar, XI əsrdə Alp Arslan Bizans torpaqlarını fəth edəndə o, bu ərazilərdə ermənilərlə qarşılaşmayıb.[253]

[248] Q.Orconikidzenin V.Leninə və İ.Stalinə teleqramı. 02.12.1920.// RDSSTA, f.85, s.14, i.33, v.20

[249] Правда, 1920, 4 декаря

[250] K.Qarabəkir paşanın G.Çiçerinə təbrik teleqramı. Dekabr1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.61

[251] B.Leqranın G.Çiçerinə məktubu. 22.12.1920.// RDSSTA, f.5, s.1, i.2127, v.3

[252] P.Mdivaninin Bakıya teleqramı. 03.12.1920.// RDSSTA, f.85, s.14, i.50, v.1

Bütün bu mübahisələrdən sonra ermənilər dekabr ayının 2-də Gümrü müqaviləsini imzalamalı oldular. Müqavilənin birinci maddəsi tərəflər arasında müharibənin başa çatdığını təsdiqləyir, ikinci maddəsi isə Ermənistanla Türkiyə arasında sərhəd xəttini müəyyənləşdirirdi. Bu maddəyə görə, Naxçıvan, Şərur və Şahtaxtı rayonları Kükü dağı, Həməsur dağı, Qurdqulaq kəndi, Saat dağı, Arpacay kəndi, Qəmərli dağı, Saray-bulaq dağları, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasu çayının töküldüyü yerin cənubundakı ərazilər Ermənistanın nəzarətindən kənarda qalırdı. Ermənistan bu ərazilərdə referendum yolu ilə müəyyən ediləcək idarə formasına qarışmamalı və bu rayonlar müvəqqəti olaraq, Türkiyənin müdafiəsi altında qalmalı idi. Sərhədlər son olaraq, hər iki tərəfdən təşkil olunmuş qarışıq komissiyalar tərəfindən, bu müqavilə imzalandıqdan iki həftə sonra yerlərdə müəyyən edilməli idi. Müqavilənin üçüncü maddəsi referendum məsələlərini, dördüncü maddəsi Ermənistanın ordu, jandarm və sərhəd qüvvələrinin sayını, habelə, hərbi texnikasının həcmini müəyyənləşdirirdi. Beşinci maddəyə görə, Ermənistan Türkiyənin göndərdiyi siyasi nümayəndəyə icazə verirdi ki, İrəvana gəlsin və dördüncü maddə ilə müəyyən edilmiş şərtlərin təftişini aparsın. Həmin maddəyə görə, Türkiyə təminat verirdi ki, əgər Ermənistan hökuməti müraciət edərsə, daxili və xarici təhlükəni aradan qaldırmaq üçün Türkiyə ona hərbi yardım göstərməlidir. Altıncı və yeddinci maddələr qaçqınlar məsələsini, səkkizinci maddə tərəflərin bir-birinə təzminat tələblərinin olmamasını tənzim edirdi. Doqquzuncu maddə ilə Türkiyə Ermənistan hökumətinin inkişafına və nüfuzunun möhkəmlənməsinə səmimi şəkildə yardım göstərməli idi. Onuncu maddəyə görə, İrəvan hökuməti Türkiyə Böyük Millət Məclisi hökumətinin qəti şəkildə rədd etdiyi Sevr müqaviləsinin ləğv olunduğunu tanıyır, Avropa və Amerikada olan öz nümayəndələrinin geri çağırılmasına təminat verirdi. On birinci maddəyə görə, Ermənistan hökuməti respublikanın ərazisində yaşayan müsəlman əhalisinin dini və

[253] R. Hovannisian. The Republic of Armenia, Vol. IV: Between Crescent and Sickle: Partition and Sovietization Berkeley, Los Angeles, London: University of California Press, 1996, p.370-371

mədəni inkişafını təmin etməli, müfti və şeyxülislam seçkilərinin sərbəst keçirilməsinə müdaxilə etməməli idi. On ikinci maddəyə əsasən, Ermənistan Türkiyə vasitəsilə tranzit ilə Azərbaycana, Gürcüstana və İrana aparılan və əksinə gətirilən mallara rüsum qoymamalı idi. Türkiyə hökuməti öhdəlik qəbul edirdi ki, Şərur-Naxçıvan-Şahtaxtı-Culfa yolu ilə Ermənistandan İrana və Makuya azad tranziti təmin etsin. On üçüncü maddəyə görə, Türkiyə bu müqavilə ilə Ermənistana verilən hüquqları pozmadan, Ermənistan Respublikasının ərazisində hərbi tədbirlər keçirmək hüququna malik idi. On dördüncü maddəyə əsasən, Ermənistan hökuməti Türkiyəyə aid bağladığı bütün müqavilələri, eyni zamanda, Türkiyənin maraqlarına zidd müqavilələrin ləğv olunduğunu tanıyırdı. On beşinci, on altıncı və on yeddinci maddələr ticarət-kommersiya, poçt, teleqraf, telefon, konsulluq, hərbi əsirlərin dəyişdirilməsi və sair məsələləri tənzimləyirdi. On səkkizinci maddəyə görə, müqavilə bir ay müddətinə təsdiqlənməli idi.[254] Bununla da Ermənistan Qars vilayətinin, Artvin dairəsinin və keçmiş İrəvan quberniyasının Sürməli qəzasının Türkiyəyə keçdiyini rəsmən tanımış oldu.[255] Gümrü müqaviləsinin Türkiyə üçün ən böyük siyasi və diplomatik əhəmiyyəti Ermənistan hökumətinin açıq şəkildə Sevr müqaviləsinin şərtlərindən imtina etməsi idi.[256] Gümrü müqaviləsinin imzalanması ilə beynəlxalq aləmdə Sevrin təftiş edilməsi prosesi başlandı ki, bu proses Lozanna konfransında türklərin qələbəsi ilə başa çatdı.

Gümrü müqaviləsinin, xüsusən, sərhəd məsələlərini özündə əks etdirən əsas məzmunu dekabrın 3-də Bakıya Orconikidzeyə çatdırıldı.[257] Lakin Gümrü müqaviləsi Sovet Rusiyasının təzyiqi ilə Ermənistanın kommunist hakimiyyəti və Sovet hökuməti tərəfindən tanınmadı. Bu müqavilə imzalanan kimi, İ.Stalin Qafqazdakı məsul şəxslərə təlimat göndərdi ki, türklərə silah verilməsi dayandırılsın.[258] Sovet Rusiyasının İrəvandakı nümayəndəsi O.Silin ilə Ermənistanın hələ formalaşmamış Dro hökuməti

[254] Türkiyə və Ermənistan arasında sülh müqaviləsi. Gümrü. 02.12.1920.// RDSSTA, f.85, s.14, i.28, v.5-7; İskender Yılmaz. Gümrü Antlaşması. Ankara, 2001, s.103-107; F.Kazemzadeh. The Struggle for Transcaucasus (1917-1921). New-York, 1951, p.289; Армения в документах международной дипломатии и советской внешней политики. Ереван, 1972, с. 683-687

[255] Bax: The Boundary Between Turkey and the USSR. CIA/RR M-17. Secret. January 1952. // National Archives and Records Administration USA, CIA-RDP 79, p.8

[256] İskender Yılmaz. Gümrü Antlaşması. Ankara, 2001, s.111

[257] Rubeninin Orconikidzeyə teleqramı. 03.12.1920.// RDSSTA, f.85, s.14, i.28, v.1-4

[258] S.Kamenevin Q.Orconikidzeyə teleqramı. 05.12.1920.// RDSSTA, f.85, s.3/c, i.7, v.1

arasında dekabrın 2-də hərbi-siyasi saziş imzalandı ki, həmin sazişin üçüncü maddəsinə görə, Rusiya keçmiş İrəvan quberniyasını, o cümlədən, Zəngəzur qəzasını Ermənistan Respublikasının ərazisi kimi tanıyırdı.[259] Bununla da, Azərbaycan Naxçıvan diyarından və onunla yanaşı, Türkiyədən ayrı salındı. Həmin gün Rusiya Xalq Komissarları Sovetinin sədri V.Lenin Ermənistan İnqilab Komitəsinin sədri Kasyana təbrik teleqramı göndərdi. O, ümid edirdi ki, Sarkis Kasyan bütün gücünü Ermənistan, Türkiyə və Azərbaycan zəhmətkeşləri arasında qardaşlıq həmrəyliyinin bərqərar olmasına sərf edəcəkdir.[260] Lakin yeni yaradılan Ermənistan Sovet hökumətinin ilk addımı Gümrü müqaviləsinin tanınmaması haqqında Çiçerinə müraciəti oldu.[261] Gümrü müqaviləsinin ləğv edilməsi ilə bağlı dekabr ayının 10-da Sovet Ermənistanının Xarici işlər komissarı A.Bekzadyan Türkiyənin Xarici işlər naziri Əhməd Muxtar bəyə və Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir paşaya da müraciət etdi.[262] Lakin Əhməd Muxtar bəy Ermənistanın kommunist hökumətini daşnaklarla imzalanmış müqaviləyə qoşulmağa çağırdı.

Dekabr ayının ilk günlərində Sovet Rusiyasının Xarici İşlər Komissarlığı Ermənistan ətrafında gedən proseslərdən tam məlumatlı olmasa da, türk məsələsi haqqında təlimatlar hazırlayıb, RK(b)P MK-nın Siyasi Bürosuna təqdim etdi. Dekabrın 4-də Siyasi Büro G.Çiçerin tərəfindən təqdim olunmuş təlimatı müzakirə edib təsdiqlədi.[263] Orada deyilirdi: "Əgər biz Sovet Ermənistanına diplomatik yardım göstərməsək, bu hər tərəfdə sovetləşmə tərəfdarlarının ümidlərini qıracaq. Təəssüflər olsun ki, biz türklərin sülh şərtlərini bilmirik. Mdivani türklərin qarşısını kəsməlidir və onların Ermənistana yönəlmiş tələblərini məhdudlaşdırmalıdır. O, eyni zamanda, Ermənistanın sovetləşdirilməsindən sonra baş verənlərin Antantaya təsirini nəzərə alıb, türkləri Gürcüstana qarşı hücumdan çəkindirməlidir. Ermənistanın sovetləşdirilməsi bizi məcbur edir ki, Antantaya münasibətdə çox ehtiyatlı olaq. Mdivani öz tələblərini ehtiyatlı formada təqdim edə bilər, bilavasitə, türklərlə danışıb deyə bilər ki, hücumun davam etdirilməsi üçün

[259] Bax: F.Kazemzadeh. The Struggle for Transcaucasus (1917-1921). New-York, 1951, p.290; Ronald Grigor Suny. Looking toward Ararat. Armenia in Modern History. Indiana University Press, Bloomington and Indianapolis, 1993, p.130; İsmayıl Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s.337

[260] V.Leninin A.Kasyana təbrik teleqramı. 02.12.1920.// RDSSTA, f.85, s.14, i.38, v.1-2

[261] A.Bekzadyanın G.Çiçerinə teleqramı. 12.12.1920.// RDSSTA, f.5, s.1, i.2178, v.40

[262] F.Kazemzadeh. The Struggle for Transcaucasus (1917-1921). New-York, 1951, p.292

[263] Политбюро ЦК РКП(б) – ВКП(б) повестки дня заседаний. Том I. 1919-1929, с.85

zaman əlverişli deyildir. Türklər bizdən silah və qızılla yardım gözləyirlər, bununla da biz türklərə çox böyük təsir imkanlarına malikik. Aydındır ki, onlar Antantadan silah və pul almırlar, ən azı, yetərli qədər almırlar. Əgər onlar Ermənistandan çəkilsələr, biz türklərə yardımımızın bərpasını vəd edə bilərik. Nəzərə almaq lazımdır ki, Qars Bakının açarıdır... Ermənistanın müstəqilliyinə təminat verilməlidir və biz əvvəlki kimi təkid etməliyik ki, onun sərhədlərinin müəyyənləşdirilməsi bizim iştirakımızla olan qarışıq komissiyaya verilsin. İndiki sərhədlərinin toxunulmazlığı istisna olmaqla, Gürcüstanın müstəqilliyinə də təminat vermək lazımdır, belə ki, indi Gürcüstanın tərkibində mübahisəli yerlər vardır ki, türklər o yerlərə iddialıdırlar və ola bilsin ki, hadisələrin sonrakı gedişində həmin yerlər türklərə güzəştə gedilsin. Türkiyə Ermənistanının bəzi hissələrinin müstəqilliyinə nail olmaq lazımdır, lakin bu ultimatum formasında olub, türklərlə dostluğumuzun qarşısına atılan daşa çevrilməməlidir".[264]

Gürcüstanda mübahisəli ərazilər dedikdə sovet tərəfi Axalsıx və Axalkələki nəzərdə tuturdu. G.Çiçerin dekabr ayının 10-da Ermənistandakı sovet missiyasına göndərdiyi təlimatda yazırdı: "Əgər türklər Gürcüstanda mübahisəli vilayətləri, bilavasitə, Axalsıx və Axalkələki tutmağa cəhd göstərsələr, etiraz etməyəcəyik, lakin təkid edəcəyik ki, onlar bundan o tərəfə keçməsinlər. Amma, bunu onlara qabaqcadan deməyin, bu təşəbbüs bizdən deyil, onların özündən gəlməlidir".[265]

Bu sənədlərə uyğun olaraq, Xarici İşlər Komissarlığı dekabrın 6-da Türkiyə ilə hazırlanacaq müqavilənin bəzi məqamları haqqında təkliflərini RK(b)P MK-ya göndərdi. Orada bilavasitə Ermənistan və Gürcüstanın müstəqilliyinin tanınması, Türkiyə ilə sərhədlərin müəyyən edilməsində tarixi-etnoqrafik şərtlərin nəzərə alınması, Antantaya münasibət Rusiyanın ehtiyatlı davranması, Batumun Gürcüstan ərazisində saxlanılmasına nail olunması və sair məsələlər əks olunmuşdu. Xarici İşlər Komissarlığı Mərkəzi Komitəyə yazırdı: "İngiltərə əleyhinə qarşılıqlı yardım məsələsinin müqavilədə ifadə edilməsində ehtiyatlı olmaq lazımdır. Bu müqavilə Bəkir Sami ilə bizim artıq hazırladığımız layihədə olduğu kimi, iki dövlət arasında dost münasibətlərinin uzun müddət üçün ümumi cəhətlərini müəyyən etməlidir. Bundan əlavə gizli notaların mübadiləsi də Bəkir Sami ilə hazırla-

[264] G.Çiçerinin RK(b) MK Siyasi Bürosuna məktubu. 03.12.1920.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.6; RDSSTA, f.159, s.2, i.57, v.9

[265] G.Çiçerinin İravandakı sovet missiyasına radio vasitəsi ilə təlimatı. 10.12.1920.// RDSSTA, f.64, s.1, i.21, v.279

dığımız layihədə olduğu kimi, Antantaya münasibətdə hər hansı dəyişiklər barədə bir-birini məlumatlandırmaq xarakteri daşımalıdır. Bu layihə artıq Bəkir Sami tərəfindən bəyənilib və bizi İngiltərə qarşısında etibardan salmır".[266] Elə həmin gün Rusiya Xarici İşlər Komissarlığı Türkiyə Xarici İşlər Nazirliyindən Gürcüstan barədə mövqelərin aydınlaşdırılması barədə məktub aldı. Əhməd Muxtar bəy Çiçerinə məlumat verirdi ki, Gürcüstan hökuməti 7 may 1920-ci ildə Rusiya ilə imzaladığı müqavilədə müəyyən edilmiş sərhədlər çərçivəsində, qarşılıqlı münasibətləri müəyyən etmək üçün Türkiyə ilə danışıqlara başlamaq arzusu ilə bizə müraciət etmişdir. Əhməd Muxtar xahiş edirdi ki, Sovet Rusiyası bu məsələyə öz münasibətini bildirsin və 7 may müqaviləsinin mətnini Ankaraya göndərsin.[267] Belə bir müraciəti türklər hələ noyabr ayının 22-də Mdivani vasitəsi ilə Moskvaya göndərmişdilər. Lakin həmin müraciət gəlib, Moskvaya çatmamışdı.[268]

Behbud bəy Şahtaxtinski Gümrüdə olarkən, onunla Kazım paşa və digər türk nümayəndələri arasındakı danışıqlarda Naxçıvan məsələsi müzakirə edilmiş və Azərbaycanla Türkiyə arasında bir müqavilənin bağlanması məqsədəuyğun hesab edilmişdi. O, dekabrın 7-də Azərbaycanın Xarici işlər komissarı Mirzə Davud Hüseynova yazırdı: "Türklər gələcəkdə Antanta ilə hansısa bir müqavilənin bağlanacağının mümkünlüyünü istisna etmirlər. Ona görə istəyirlər ki, Naxçıvan qəzası, Şərur-Dərələyəz qəzasının bir hissəsi və Maku xanlığına bir inzibati vahiddə özünüidarə hüququ verilsin. Antanta ilə müqavilə imzalanacağı təqdirdə, onlar bu inzibati vahiddən şərqdə Antanta əleyhinə mübarizə aparmaq məqsədilə türk üsyançı dəstələrinin bazası kimi istifadə etmək niyyətindədirlər. Mən onlara təklif etdim ki, yuxarıda deyilən məqsəd üçün Bəyazid sancaqlığının və Van vilayətinin seçilməsi yaxşı olardı. Bu məsələ açıq saxlanıldı, onu Moskva və türklər həll edəcəklər. Türklərin mahiyyətini axıra qədər açmaq üçün mən təklif etdim ki, Azərbaycanla Türkiyə arasında saziş layihəsi hazırlansın. Kazım paşa buna öz razılığını verdi. Müqavilə layihəsi teleqrafla Ankaraya verilib. Kazım paşa əmindir ki, Ankara heç bir halda bu müqavilənin əleyhinə olmayacaq... Bütün görkəmli türk xadimlərinin içərisində Kazım paşa kəskin şəkildə seçilir. Mən şübhə etmirəm ki, nə vaxtsa Millət Məclisi Antantanın

[266] Xarici İşlər Komissarlığının RK(b)P MK-ya məktubu. 06.12.1920.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.9; RDSSTA, f.159, s.2, i.57, v.10

[267] Əhməd Muxtar bəyin G.Çiçerinə məktubu. 06.12.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.62

[268] Bax: G.Çiçerinin Ş.Eliavaya məktubu. 14.12.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.64

ağuşuna atılmaq istəsə, biz onunla əlaqəyə girib, onu öz tərəfimizə çəkə bilərik. O, məndən xahiş etdi ki, yazışmaq və sıx əlaqə yaratmaq üçün Şərq işlərində yaxından iştirak edən görkəmli kommunistlərdən birini ona təklif edim. Mən Stalini göstərdim, deyəsən, Kazım paşa ona məktub hazırlayır. Ola bilsin ki, o, müqavilə bağlamaq üçün Moskvaya gedən heyətə başçılıq etsin".[269]

Kazım paşanın Ankaraya, B.Şahtaxtinskinin Bakıya göndərdiyi Azərbaycan-Türkiyə müqaviləsinin layihəsi yeddi bənddən ibarət idi. Birinci maddəyə görə, İnqilabi Türkiyə və Sovet Azərbaycanı Şərq xalqlarının tam azadlığına nail olana qədər bütün öz qüvvələrini Antantaya qarşı səfərbər etməyi öhdələrinə alırdılar; ikinci maddəyə əsasən, əgər bu, və ya digər səbəbdən Türkiyə Antanta ilə sazişə getmək məcburiyyətində qalardısa, o gizli yolla, öz emissarları vasitəsi ilə inqilabi Şərqi müdafiə etməli idi; üçüncü maddəyə görə, əgər Türkiyə Antanta ilə saziş bağlayardısa, Azərbaycanın ixtiyarına lazımi sayda üsyankar dəstə verməli idi. Bu dəstənin xərclərini Azərbaycan tərəfi çəkməli idi; dördüncü maddəyə görə, Azərbaycan o halda milli-azadlıq hərəkatını müdafiə edirdi ki, inqilabi hərəkat başlayan vilayətlərin əhalisi özü bunu tələb etsin; Beşinci maddəyə görə, inqilabi hərəkatın davam etdiyi bütün müddətdə Azərbaycan Türkiyənin razılığı olmadan Antanta ilə sazişə getmək hüququna malik deyildi; altıncı maddəyə görə, Antanta tərəfindən hücum olacağı təqdirdə, Türkiyə Azərbaycana yardım göstərməyə təminat verirdi; yeddinci maddəyə görə, Türkiyə Şərqdə inqilabi hərəkatda iştirak etdiyi müddətdə həcmi xüsusi komissiya tərəfindən müəyyən edildiyi miqdarda Azərbaycan onu neft və neft məhsulları ilə təchiz etməli idi.[270] Lakin məsləhətləşmələr zamanı Sovet Rusiyası birbaşa Azərbaycan-Türkiyə müqaviləsinin bağlanmasını məqsədəuyğun hesab etmədi. G.Çiçerin dekabrın 8-də Q.Orconikidzeyə, 9-da isə Mdivani və Kazım Qarabəkir paşaya göndərdiyi teleqramda bildirirdi ki, Moskva konfransında Sovet heyətinin tərkibində Azərbaycan nümayəndəsinin olması da nəzərdə tutulmuşdur.[271] Sovet rəhbərləri bunu mümkün hesab edərək belə düşünürdülər ki, "Moskvada

[269] B.Şahtaxtinskinin M.D.Hüseynova teleqramı. 07.12.1920.// RDSSTA, f.85, s.13, i.143, v.1

[270] Azərbaycanla Türkiyə arasında sazişin layihəsi. 07.12.1920.// RF XSA, f.04,s.39, q.232, i.53001, v.78; RDSSTA, f.85, s.13, i.143, v.1(arxası)

[271] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 08.12.1920.// RF XSA, f.04, s.39, q.232, i. 53001, v.71; RDSSTA, f.85, s.14, i.52, v.1(arxası); G.Çiçerinin Q.Orconikidzeyə, P.Mdivaniyə və K.Qarabəkir paşaya teleqramı. 09.12.1920.// RDSSTA, f.85, s.14, i.52, v.10-10(arxası)

həlledici söz Sovet hökumətinə məxsus olacaqdır".[272] Türklər bu danışıqları Bakıda aparmaq istəsələr də, lakin G.Çiçerin buna razılıq vermədi və xarici işlər komissarı kimi, uzun müddət işdən ayrıla bilməyəcəyini əsas gətirdi.[273]

Hətta, Moskva danışıqlarına qərar verildikdən sonra belə, Çiçerin kamalçılara ehtiyatla yanaşmağın tərəfdarı idi. O, xüsusilə, "böyük gücə malik olan türk milli ənənələrinin qalıqlarının kamalçılarda" yaşamasından ehtiyat edirdi. Çiçerinin fikrincə, bu qalıqların daşıyıcıları kimi, kamalçıların müəyyən hissəsinin Qafqazda işğalçılıq meylləri onların musavatçıları və Şimali Qafqazda antisovet ünsürləri müdafiə etmələrinə gətirib çıxara bilərdi. O yazırdı: "Bizim siyasətimizin məqsədlərindən biri sol kamalçıların sağlar üzərində qələbəsi, yəni, bizə meyllənən dairələrin, o dairələr üzərində qələbəsidir ki, həmin dairələr hələ bizə qarşı yönələn və Qafqazda köhnə kompensasiya siyasəti ilə bağlı olan millətçi, dini və imperialist qalıqları özlərində yaşadırlar".[274]

G.Çiçerin Ş.Eliavaya verdiyi təlimatda bütün vasitələrlə Ermənistanı müdafiə etməyi tapşırır və deyirdi ki, "Bizim əvvəllər Türkiyə ilə daşnaklar arasında üzərimizə almaq istədiyimiz vasitəçilik rolu indi türklərlə Sovet Ermənistanı arasında daha böyük dərəcədə bizə məxsus olmalıdır. Dünya sistemi kimi, kommunizmin əsas mənafeyi tələb edir ki, yeni yaranmış Ermənistan Sovet Respublikasını taleyin ümidinə buraxmayaq".[275]

G.Çiçerin Türkiyə xarici işlər naziri Əhməd Muxtar bəyə məktubunda daşnak Ermənistanının türk əhalisinə qarşı sərtlik göstərdiyini etiraf edir və Türkiyə komandanlığının buna reaksiyasını anladığını bildirirdi. Bununla yanaşı o, yazırdı: Sovet hökuməti əmindir ki, "türk ordusu yubanmadan Gümrünü və Qars vilayətindən şimalda və şərqdə yerləşən məntəqələri boşaldacaq" və son olaraq, erməni-türk sərhədləri müəyyənləşəcək.[276] Gürcüstan məsələsinə gəldikdə G.Çiçerin Ş.Eliavaya bildirirdi ki, "bu şəraitdə bizim Gürcüstana münasibətimiz ehtiyatlı olmalıdır. Bu əlaqələrdə Batum haqqında məsələ bizim üçün xüsusi əhəmiyyətə malikdir. Batum Bakı üçün kommersiya çıxışı deməkdir və eyni zamanda, Bakıya mümkün hücumlar üçün güclü bazadır. Belə ki, Batum haqqında məsələ mahiyyət etibarı ilə

[272] Q.Orconikidzenin V.Leninə teleqramı. 08.12.1920.// RDSSTA, f.5, s.1, i.2178, v.34

[273] Bax: Документы внешней политики СССР. T.III, M., 1960, c.391-392

[274] G.Çiçerinin Ş.Eliavaya məktubu. 14.12.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.65

[275] Yenə orada, v.66

[276] G.Çiçerinin Əhməd Muxtar bəyə məktubu. Dekabr 1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v.83-84

Bakı haqqında məsələ deməkdir... Əgər Gürcüstan bizə düşmən siyasəti aparmasa, Antanta ilə birlikdə Bakıya hücuma hazırlaşmasa, bizim çörək və neftlə Ermənistanı təchiz etməyimizə mane olmasa belə, burjua Gürcüstanının mövcud olması hər halda, bizim üçün arzuolunandır".[277]

Ermənistanda hakimiyyət dəyişikliyindən sonra Sovet Rusiyasının ciddi cəhdlərinə baxmayaraq, Kazım paşa Gümrü müqaviləsinin yenidən baxılmasına getmədi. O dedi: "Türk xalqı böyük itkilər verib və heç vaxt bununla razılaşmaz və bunun izahını tapa bilməz ki, ona bu qədər bəlalar gətirmiş ermənilərə nə üçün güzəştə gedilməlidir. Xüsusilə, Ermənistan sovet hakimiyyətinin özündə kimi təmsil etdiyi məlum olmayan indiki vaxtda bu mümkün deyil. Daşnaklar hələ ləğv olunmamışlar. Hakimiyyətdə türklərə nifrət bəsləyən Dro kimi şəxslər təmsil olunur".[278] Kazım paşa bu fikirdə idi ki, daşnaklar sovet hakimiyyəti pərdəsi altında gizlənibələr, ziyalı və zəngin ermənilər xaricdədirlər və onlar öz işlərini davam etdirəcəklər. K.Qarabəkirin fikrincə, ən azı, bir il Ermənistana çox ehtiyatla yanaşılmalı və onun özünü necə aparacağı müşahidə edilməli idi. Ona görə də Türkiyə tərəfi haqlı olaraq, Ermənistanın kommunist hakimiyyətinə inanmırdı. P.Mdivani dekabr ayının ortalarında Stalin və Orconikidzeyə yazırdı ki, sovet hakimiyyətinin qurulması ilə türklər Ermənistanda, nəyinsə, dəyişməsinə inanmırlar, onlar bu fikirdədirlər ki, daşnaklar indi sovet maskasında öz əvvəlki siyasətlərini davam etdirəcəklər.[279] Ermənistanın sovetləşdirilməsi prosesində Drodan istifadə etdikdən sonra Q.Orconikidze belə hesab edirdi ki, nəinki Sovet hökumətinin maraqları naminə, eyni zamanda, ərazi məsələlərini həll etmək üçün Dronu ikinci dərəcəli rolda saxlamaq lazımdır. O, Ermənistan İnqilab Komitəsinin sədri S.Kasyana yazırdı ki, Dro hakimiyyətdə qaldığı təqdirdə. "əgər sabah Nərimanov Qarayevin yerinə Xosrov Sultanovu təyin etsə, milyon dəfə haqlı olacaq".[280]

Əslində, Sovet Ermənistanının yaradılmasına və onun Moskva ilə dostluq münasibətləri qurmasına türklər haqlı olaraq, "Sovet Rusiyasının Qafqazın müsəlman ölkələrinə Türkiyənin yolunu bağlamasının sipəri kimi

[277] G.Çiçerinin Ş.Eliavaya məktubu. 14.12.1920.// RF XSA, f.04, s.39, q.232, i.52987, v..67

[278] P.Mdivaninin İ.Stalin və Q.Orconikidzeyə teleqramı. Surəti B.Leqrana. 05.12.1920.// RDSSTA, f.85, s.14, i.50, v.6

[279] P.Mdivaninin İ.Stalin və Q.Orconikidzeyə teleqramı. 15.12.1920.// RDSSTA, f.85, s.14, i.50, v.20

[280] Q.Orconikidzenin S.Kasyana xidməti məlumat. Dekabr 1920.// RDSSTA, f.85, s.14, i.35, v.27

baxırdılar".[281] Lakin bütün bu inamsızlığa baxmayaraq, Türkiyə Böyük Millət Məclisi Gümrü müqaviləsindən bir neçə gün sonra Sovet Rusiyası ilə müqavilə bağlamaq üçün Moskvaya gedəcək türk nümayəndə heyətinin tərkibini təsdiq etdi. Bu tərkibə iqtisadiyyat naziri Yusif Kamal, maarif naziri Rıza Nur və noyabrın 21-də Moskvaya səfir təyin edilmiş Əli Fuad Cəbəsoy daxil idilər. Dekabrın 14-də Ankaradan yola çıxan nümayəndə heyətini Rusiya paytaxtındaı çətin danışıqlar gözləyirdi.

[281] B.Leqranın G.Çiçerinə məktubu. 22.12.1920.// RDSSTA, f.5, s.1, i.2127, v.5

VI FƏSİL

MOSKVADA RUS-TÜRK KONFRANSI VƏ AZƏRBAYCAN DİPLOMATİYASI

§1. Azərbaycan diplomatiyası Moskva konfransına hazırlıq mərhələsində

1920-ci ilin noyabrında Ermənistanın sovetləşdirilməsindən sonra Rusiya-Türkiyə münasibətlərini hüquqi müstəviyə keçirmək və iki ölkənin qarşılıqlı münasibətlərinin əsaslarını hazırlamaq üçün əlverişli şərait yetişdi. Türkiyə tərəfi əvvəlcə Sovet Rusiyası ilə danışıqların Bakıda keçirilməsinə üstünlük versə də, G.Çiçerinin müxtəlif bəhanələri onların rus-türk konfransının Moskvada çağrılmasına razılıqlarını ala bildi. Türkiyənin xarici işlər naziri Əhməd Muxtara göndərdiyi teleqramda Çiçerin yazırdı ki, Türkiyə, Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin iştirak edəcəyi konfransa Sovet hökuməti böyük əhəmiyyət verdiyi üçün məni konfransda iştirak edəcək öz nümayəndə heyətinin başçısı təyin etmişdir. Belə bir şəraitdə konfransın Bakıda keçirilməsi onun fikrincə, sovet xarici siyasətinin bütün rəhbər heyətinin işdən ayrılması ilə nəticələnə bilərdi. Bunu mümkün hesab etməyən Çiçerin Sovet Hökumətinin adından təklif edirdi ki, konfrans Bakıda deyil, Moskvada keçirilsin.[1]

1920-ci ilin dekabr ayının 31-də G.Çiçerin Ş.Eliavaya təlimat vermişdi ki, türklər artıq Moskvaya gəlirlər və o, Azərbaycan və Ermənistanı da Sovet Rusiyasının adından konfransa dəvət etsin.[2] G.Çiçerinlə yanaşı, Ermənistan İnqilab Komitəsi də konfransın Bakıda keçirilməsinin əleyhinə idi. Ermənilər də istəyirdilər ki, konfrans Moskvada keçirilsin. Saak Ter-Qabrielyan isə həm Ermənistanın Rusiyada səlahiyyətli nümayəndəsi təyin edilmiş, həm də A.Bekzadyanla birlikdə Ermənistanı konfransda təmsil etməli idi. Elə

[1] G.Çiçerinin Əhməd Muxtara teleqramı. Dekbar 1920.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.12

[2] G.Çiçerinin Ş.Eliavaya təlimatı. 31.12.1920.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.75

həmin məlumatda Mixail Atabekovun Azərbaycana səlahiyyətli nümayəndə təyin edildiyi bildirilirdi.[3] Bunula yanaşı, 1920-ci ilin sonlarında bir sıra ərazi məsələlərini, xüsusilə Qarsın qaytarılması məsələsini Sovet rəhbərliyi ilə razılaşdırmaq məqsədilə Ermənistan Moskvaya İnqilab Komitəsinin üzvləri A.Mravyan və Q. Atarbekovdan ibarət bir heyyət göndərmişdi və Moskvada S.Ter-Qabrelyan da onlara qoşulmuşdu. 1920-ci ilin dekabrında Lenin, Trotski, Çiçerin və Karaxanla görüşlər keçirən *(Stalin həmin dövrdə xəstəxanada yatdığı üçün onunla görüşə bilməmişdilər – C.H.)* erməni heyəti Qars və Naxçıvanın Ermənistana verilməsinə, Azərbaycan nümayəndəsi B.Şahtaxtinskinin danışıqlardan uzaqlaşdırılmasına nail olmaq istəyirdilər. Lakin Lenin açıq şəkildə dedi ki, Qars türk şəhəridir və "Rusiya indiki anda, xüsusilə, Qarsa görə vuruşmaq istəmir *(türklərlə - C.H.)* və vuruşa bilməz". B.Şahtaxtinskinin türklərlə danışıqlardan uzaqlaşdırılması məsələsinə gəldikdə isə L.Karaxan qeyd etdi ki, əgər "biz indi Şahtaxtinskiyə etibar etmədiyimiz haqda bəyanatla çıxış etsək, bu şübhə ilə qarşılanar".[4] Erməni nümayəndələri müzakirə olunan məsələlərə münasibətdə Stalini neytrallaşdırmaq və onların nöqteyi-nəzərlərinin doğru olduğunu Leninə sübut etmək üçün S.Ter-Qabrelyanı və A.Karinyanı Moskvada saxlamalı oldular.

1921-ci ilin yanvar ayının ortalarında Şərq Cəbhəsinin komandanı Kazım Qarabəkir paşa Ankara hökumətinin adından RSFSR-in Türkiyə hökuməti yanında səlahiyyətli nümayəndəsi P.Mdivaniyə bildirirdi ki, Türkiyə nümayəndələri Lenin və Stalindən alınmış şifirli təcili diplomatik sənədə uyğun olaraq, Sovet Rusiyası ilə siyasi müqavilə və hərbi ittifaq haqqında saziş bağlamaq üçün Moskvaya getməyə hazırdırlar. Belə bir təklifin Lenin və Stalindən gəldiyini dekabr ayının 3-də Kazım paşa ilə söhbətində P.Mdivani ona bildirmişdi.[5] Elə həmin gün Kazım paşaya göndərdiyi cavab teleqramında P.Mdivani belə bir söhbətin olduğunu və "Türkiyə ilə Rusiya arasında siyasi və hətta, hərbi sazişin bağlanmasının mümkünlüyü" haqda təlimatın ona Lenin və Stalinin imzası ilə gəldiyini təsdiq etdi.[6] Eyni zaman-

[3] Ermənistan İnqilab Komitəsi üzvünün Ermənistanın Sovet Rusiyasındakı nümayəndəsi Ter-Qabreliana məlumatı. 04.01.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.14

[4] Ermənistan İnqilab Komitəsinin üzvləri A. Mravyan və Q. Atarbekovun A. Bekzadyanla telefon danışığının yazısı. 26.12.1920.// Armenia. Political and Ethnic Boundaries. 1878-1948. Anita L.P. Burdett (ed). Cambridge Archive Editions, 1998, p. 654-655

[5] K.Qarabəkir paşanın P.Mdivaniyə teleqramı.14.01.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.18; RDSSTA, f.2, s.1, i.526, v.4

[6] P.Mdivanini K.Qarabəkir paşaya teleqramı.14.01.1921.// RDSSTA, f.2, s.1, i.526, v.5

VI FƏSİL

MOSKVADA RUS-TÜRK KONFRANSI VƏ AZƏRBAYCAN DİPLOMATİYASI

§1. Azərbaycan diplomatiyası Moskva konfransına hazırlıq mərhələsində

1920-ci ilin noyabrında Ermənistanın sovetləşdirilməsindən sonra Rusiya-Türkiyə münasibətlərini hüquqi müstəviyə keçirmək və iki ölkənin qarşılıqlı münasibətlərinin əsaslarını hazırlamaq üçün əlverişli şərait yetişdi. Türkiyə tərəfi əvvəlcə Sovet Rusiyası ilə danışıqların Bakıda keçirilməsinə üstünlük versə də, G.Çiçerinin müxtəlif bəhanələri onların rus-türk konfransının Moskvada çağrılmasına razılıqlarını ala bildi. Türkiyənin xarici işlər naziri Əhməd Muxtara göndərdiyi teleqramda Çiçerin yazırdı ki, Türkiyə, Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin iştirak edəcəyi konfransa Sovet hökuməti böyük əhəmiyyət verdiyi üçün məni konfransda iştirak edəcək öz nümayəndə heyətinin başçısı təyin etmişdir. Belə bir şəraitdə konfransın Bakıda keçirilməsi onun fikrincə, sovet xarici siyasətinin bütün rəhbər heyətinin işdən ayrılması ilə nəticələnə bilərdi. Bunu mümkün hesab etməyən Çiçerin Sovet Hökumətinin adından təklif edirdi ki, konfrans Bakıda deyil, Moskvada keçirilsin.[1]

1920-ci ilin dekabr ayının 31-də G.Çiçerin Ş.Eliavaya təlimat vermişdi ki, türklər artıq Moskvaya gəlirlər və o, Azərbaycan və Ermənistanı da Sovet Rusiyasının adından konfransa dəvət etsin.[2] G.Çiçerinlə yanaşı, Ermənistan İnqilab Komitəsi də konfransın Bakıda keçirilməsinin əleyhinə idi. Ermənilər də istəyirdilər ki, konfrans Moskvada keçirilsin. Saak Ter-Qabrielyan isə həm Ermənistanın Rusiyada səlahiyyətli nümayəndəsi təyin edilmiş, həm də A.Bekzadyanla birlikdə Ermənistanı konfransda təmsil etməli idi. Elə

[1] G.Çiçerinin Əhməd Muxtara teleqramı. Dekbar 1920.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.12

[2] G.Çiçerinin Ş.Eliavaya təlimatı. 31.12.1920.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.75

həmin məlumatda Mixail Atabekovun Azərbaycana səlahiyyətli nümayəndə təyin edildiyi bildirilirdi.[3] Bunula yanaşı, 1920-ci ilin sonlarında bir sıra ərazi məsələlərini, xüsusilə Qarsın qaytarılması məsələsini Sovet rəhbərliyi ilə razılaşdırmaq məqsədilə Ermənistan Moskvaya İnqilab Komitəsinin üzvləri A.Mravyan və Q. Atarbekovdan ibarət bir heyyət göndərmişdi və Moskvada S.Ter-Qabrelyan da onlara qoşulmuşdu. 1920-ci ilin dekabrında Lenin, Trotski, Çiçerin və Karaxanla görüşlər keçirən *(Stalin həmin dövrdə xəstəxanada yatdığı üçün onunla görüşə bilməmişdilər – C.H.)* erməni heyəti Qars və Naxçıvanın Ermənistana verilməsinə, Azərbaycan nümayəndəsi B.Şahtaxtinskinin danışıqlardan uzaqlaşdırılmasına nail olmaq istəyirdilər. Lakin Lenin açıq şəkildə dedi ki, Qars türk şəhəridir və "Rusiya indiki anda, xüsusilə, Qarsa görə vuruşmaq istəmir *(türklərlə - C.H.)* və vuruşa bilməz". B.Şahtaxtinskinin türklərlə danışıqlardan uzaqlaşdırılması məsələsinə gəldikdə isə L.Karaxan qeyd etdi ki, əgər "biz indi Şahtaxtinskiyə etibar etmədiyimiz haqda bəyanatla çıxış etsək, bu şübhə ilə qarşılanar".[4] Erməni nümayəndələri müzakirə olunan məsələlərə münasibətdə Stalini neytrallaşdırmaq və onların nöqteyi-nəzərlərinin doğru olduğunu Leninə sübut etmək üçün S.Ter-Qabrelyanı və A.Karinyanı Moskvada saxlamalı oldular.

1921-ci ilin yanvar ayının ortalarında Şərq Cəbhəsinin komandanı Kazım Qarabəkir paşa Ankara hökumətinin adından RSFSR-in Türkiyə hökuməti yanında səlahiyyətli nümayəndəsi P.Mdivaniyə bildirirdi ki, Türkiyə nümayəndələri Lenin və Stalindən alınmış şifirli təcili diplomatik sənədə uyğun olaraq, Sovet Rusiyası ilə siyasi müqavilə və hərbi ittifaq haqqında saziş bağlamaq üçün Moskvaya getməyə hazırdırlar. Belə bir təklifin Lenin və Stalindən gəldiyini dekabr ayının 3-də Kazım paşa ilə söhbətində P.Mdivani ona bildirmişdi.[5] Elə həmin gün Kazım paşaya göndərdiyi cavab teleqramında P.Mdivani belə bir söhbətin olduğunu və "Türkiyə ilə Rusiya arasında siyasi və hətta, hərbi sazişin bağlanmasının mümkünlüyü" haqda təlimatın ona Lenin və Stalinin imzası ilə gəldiyini təsdiq etdi.[6] Eyni zaman-

[3] Ermənistan İnqilab Komitəsi üzvünün Ermənistanın Sovet Rusiyasındakı nümayəndəsi Ter-Qabrieliana məlumatı. 04.01.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.14

[4] Ermənistan İnqilab Komitəsinin üzvləri A. Mravyan və Q. Atarbekovun A. Bekzadyanla telefon danışığının yazısı. 26.12.1920.// Armenia. Political and Ethnic Boundaries. 1878-1948. Anita L.P. Burdett (ed). Cambridge Archive Editions, 1998, p. 654-655

[5] K.Qarabəkir paşanın P.Mdivaniyə teleqramı.14.01.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.18; RDSSTA, f.2, s.1, i.526, v.4

[6] P.Mdivanini K.Qarabəkir paşaya teleqramı.14.01.1921.// RDSSTA, f.2, s.1, i.526, v.5

da, türklərdə məlumat var idi ki, Sovet Rusiyasının rəhbərliyində xüsusi nüfuzu olan L.Trotski də Türkiyə ilə Rusiya arasında müqavilə bağlanmasına tərəfdardır.[7]

1920-ci ilin dekabr ayının ortalarında Ankaradan yola düşən türk heyəti 1921-ci ilin yanvar ayının 7-də Qarsa yetişdi və burada Ankaranın təlimatı üzrə onları gözləyən, Kazım paşa tərəfindən dekabrın 16-da xüsusi mərasimlə qarşılanmış Ali Fuad paşanın başçılıq etdiyi Türkiyənin Moskvaya göndərdiyi səfirlik heyəti ilə birləşdi.[8] Hələ Türkiyə heyəti Qarsda olanda oradan aldığı məlumatlara əsasən Q.Orconikidze G.Çiçerinə yazmışdı ki, "türk heyəti bir həftədən çoxdur Qarsdadır, onların orada yubanması Əhməd Muxtar bəyin erməni vilayətləri (Muş, Van, Bitlis) barədə sizə göndərdiyi sonuncu notaya cavab gözləmələri ilə bağlıdır. Türklər qəti olaraq, bu məsələnin bizimlə müzakirəyə qoyulmasından imtina edirlər".[9]

Bir həftə Qarsda qaldıqdan sonra türk heyəti qatarla Rusiya paytaxtına doğru hərəkət etdi. Onlar 10 gün Tiflisdə qalıb Gürcüstan rəhbərliyi ilə müzakirələr apardılar və yanvar ayının 27-də Bakıya doğru hərəkət etdilər. Türkiyə nümayəndə heyəti yanvar ayının 29-da Azərbaycanın paytaxtına yetişdi.[10] Türkiyə heyəti Bakı dəmir yol vağzalında Azərbaycan SSR-in maarif komissarı D.Bünyadzadə, hərbi-dəniz komissarı Ə.Qarayev, Azərbaycanın Moskvadakı səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski, XI ordunun komandanı A.Qekker, Hərbi İnqilab Şurasının üzvləri Ş. Eliava və Y.Vesnik, habelə, digər rəsmi şəxslər tərəfindən çox ehtiramla qarşılandılar. Onların şərəfinə şəhərin iki yerində hərbi təzim mərasimi düzülmüşdü. Elə həmin gün nümayəndə heyəti Azərbaycan XKS-in sədri N.Nərimanov və XI Ordunun Hərbi İnqilab Şurasın üzvü Q.Orconikidze tərəfindən qəbul edildi. Axşam onların şərəfinə dövlət teatrında Şrq musiqisindən ibarət konsert təşkil edildi və Nərimanov tərəfindən Türkiyəli qonaqların şərəfinə Azərbaycan dövləti adından ziyafət verildi.[11] Q.Orconikidze nümayəndə heyətinin tezliklə Moskvaya yola düşməsinə cəhd göstərsə də,

[7] Bax: From the Turkish Ambassador in London Cevat Açıkalın to the Secretary of State for Foreign Affairs Ernest Bevin.// National Archives and Records Administration USA, RG 59, Box: 4010, NND 7600050, Doc.761. 67/3-446

[8] Ali Fuat Cebesoy. Moskova Hatıraları. İstanbul, 2002, s.113

[9] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 14.01.1921.// RFXSA, f. 04, s. 39, q. 232, i. 53001, v. 15

[10] Bax: Serpil Sürmeli. Türk – Gürcü ilişkileri (1918-1921). Ankara, 2001, s.615

[11] Q.Orconikidzenin G.Çiçerine teleqramı. 29.01.1921.// RDSSTA, f.85, s.c(Türkiyə), i.27, v.4-7

lakin türklər bir neçə gün Bakıda qala bildi və Azərbaycan hökuməti ilə müəyyən məsələlər barədə fikir mübadiləsi apardı. Danışıqların gedişində N.Nərimanov Türkiyə nümayəndə heyətinə bəzi tövsiyələr verdi. O, bildirdi ki, Şərq siyasətində ardıcıl səhvlərə yol verən G.Çiçerin nümayəndə heyəti üçün bəzi problemlər yaradacaqdır və bunu nəzərə alaraq o, Leninlə görüşməyi vacib hesab edirdi, əgər bu mümkün olmasa, Nəimanov Stalinin onlara yardım edə biləcəyini vurğulamışdı.[12] Lakin Bakıdakı danışıqlar ümumilikdə, türklərin ümidlərini doğrultmadı. Türk nümayəndələrinə münasibətdə Azərbaycan rəhbərliyinin soyuq davranışı Mokvanın təlimatı ilə bağlı idi. Bununla belə, tərəflərin mövqelərinin öyrənilməsi baxımından Bakı danışıqları əhəmiyyətli oldu. Bu uğursuz nəbz yoxlamasından sonra fevral ayının 6-da türk nümayəndə heyəti Bakıdan Moskvaya yola düşdü. N.Nərimanov nümayəndə heyəti ilə birlikdə Moskvaya yollanan Behbud Şahtaxtinski ilə V.Leninə bir məktub göndərdi ki, həmin məktubda o, türklərlə danışıqlar barədə öz fikir və mülahizələrini yazmışdı.[13]

1920-ci ilin dekabr ayının 5-də Çiçerinin Eliavaya göndərdiyi teleqramdan aydın olurdu ki, qarşıdakı konfransada erməni məsələsi Sovet Rusiyası üçün vacib bir məsələ kimi gündəlikdə olacaqdır. Çiçerin Ankaraya səlahiyyətli nümayəndə təyin edilmiş Eliavanı məlumatlandırırdı ki, Şərqi Anadoluda erməni əhalisinin təhlükəsiz yaşaması üçün biz heç olmasa, Türkiyə Ermənistanının bəzi hissələrinin müstəqilliyini tələb etməliyik.[14] Halbuki, Çiçerin yaxşı bilirdi ki, 1920-ci ilin yayında Moskvada başlamış rus-türk danışıqları, məhz, onun ermənilərlə bağlı irəli sürdüyü qeyri-ciddi tələblərə görə baş tutmamışdı. Bəkir Sami bəyin başçılıq etdiyi missiyanın üzvü Yusuf Kamal 1920-ci ilin oktyabrında Moskva danışıqları barədə Kamal paşanı və Millət Məclisini məlumatlandıranda, rusların təklif etdiyi "qardaşlıq müqaviləsi" hər kəsi təmin etsə də, lakin Çiçerinin söhbət zamanı müqavilənin imzalanmasının zəruri şərti kimi, Muş, Van və Bitlisin ermənilərə verilməsi tələbi Türkiyə siyasi dairələrinin ciddi etirazlarına səbəb olmuşdu. Yusuf Kamal məclisə danışıqlar haqqında təqdim etdiyi məruzəsində qeyd etmişdi ki, bu vilayətlərin əhalisinin böyük əksəriyyətini türklər təşkil etdiyindən, "yoldaş Çiçerin, sanki, bəyan edir ki, "türk

[12] Candan Azer. Babadan Oğula Güney Kafkasiya. Türkiye – Güney Kafkasiya ilişkileri. İstanbul, Truva yayınları, 2011, s.298

[13] Hüseyin Adıgüzel. Atatürk-Nerimanov ve Kurtuluş Savaşımız. İstanbul, İleri Yayınları, 2006, s.103-107

[14] G.Çiçerinin Ş.Eliavaya teleqramı. 05.12.1920.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.7

əhalisini oradan yığışdırın, biz ora ermənilər yerləşdirəcəyik". Türklər Çiçerinin belə mövqeyini Sovet rəhbərliyində təmsil olunan L.Karaxan və B.Avanesovun ona təsiri ilə izah edirdilər. Ankaradakı Sovet nümayəndəsi Moskvaya yazırdı: "Türklər bunu Sovet Rusiyasının siyasətində yeni imperializmin başlanğıcı kim anlayırlar". Məclis Çiçerinin tələbləri barədə Yusuf Kamalın məruzəsini dinlədikdən sonra millət vəkillərinin şiddətli etirazları eşidildi ki, "bizə belə kömək lazım deyidir".[15] Bütün bunları dinlədikdən sonra Mustafa Kamal paşa qəti şəkildə bildirmişdi ki, "Türkiyə bir qarış ərazi də güzəştə getməyəcəkdir".[16] Ankaradakı sovet nümayəndəliyinin birinci katibi açıq şəkildə Moskvaya yazırdı ki, Kamal paşa hökuməti bu şərtlərlə müqaviləni imzalaya bilməz, bu həmin hökumətin özü-özünü məhv etməsinə bərabər olardı. Sovet nümayəndəsi ilə görüş zamanı Kamal paşa təəccübünü gizlətmədən demişdi ki, "Sovet hökumətinin üçüncü dərəcəli, kiçik məsələ olan Türkiyə Ermənistanı məsələsini, inqilabi Rusiya ilə Türkiyənin birləşməsi kimi, həyati əhəmiyyətli məsələ ilə yanaşı qoymasını anlamaq çətindir". Y.Y.Upmal-Anqorski Kamal paşaya istinadən yazırdı: "Qoy həmin təklifi *(Türkiyə Ermənistanı təklifini – C.H.)* geri alsınlar o, bütün qalan şərtlərlə razıdır. O, hətta, Türkiyəni Sovet Rusiyası ilə konfederasiyaya belə, girməyə məcbur edə bilər".[17]

1921-ci ilin yanvar ayının ortalarında Orconikidzenin 14 yanvar tarixli teleqramına göndərdiyi cavabda Çiçerin "Türkiyə Ermənistanı" haqqında onun fikirlərinin türklər tərəfindən düzgün yozulmadığını yazırdı. Guya, o, erməni və türk əhalisinin qarışıq yaşamaması üçün təklif edib ki, qarşılıqlı şəkildə türklər və ermənilər müəyyən ərazilərdən köçürülsünlər ki, hər xalq yığcam şəkildə yaşaya bilsin.[18] Əlbəttə, burada söhbət Türkiyə Ermənistanı adı altında türk ərazilərinin ermənilər üçün boşaldılmasından, ermənilərin bu ərazilərdə yerləşdirilməsindən gedirdi və türklər Çiçerinin planının nəyə xidmət etdiyini çox yaxşı anlayırdılar. G.Çiçerin belə hesab edirdi ki, sərhədlər qarşılıqlı şəkildə dəyişilmədən, erməni-türk ədavəti aradan qalxmayacaqdır. O yazırdı: "İndi türklər burunlarını dik tuturlar və bun-

[15] Mustafa Kamal paşanın RSFSR-in Türkiyədəki səlahiyyətli nümayəndəliyinin 1-ci katibi Upmal-Anqorskiyə Bəyanatı. 25.10.1920.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.3

[16] Н.Г.Киреев. История Турция XX век. Москва, 2007, с.140

[17] Mustafa Kamal paşanın RSFSR-in Türkiyədəki səlahiyyətli nümayəndəliyinin 1-ci katibi Y.Y.Upmal-Anqorskiyə Bəyanatı. 25.10.1920.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.3(arxası)

[18] Bax: Документы внешней политики СССР. Т.II, М., 1958, с.726

dan istifadə edərək kütlələri bizim əleyhimizə yönəldilər. Bütün məsələlər Moskvada həll olunacaq və biz hər cür sövdələşməyə hazırıq, anlaşılmazlıqları aydınlaşdırmaq lazımdır, qoy bizə qarşı suyu bulandırmasınlar... Ərazi məsələləri həll olunmadan, biz Türkiyə ilə müqavilə bağlaya bilmərik".[19] Bu məsələdə Sovet rəhbərliyində aydın bir mövqe yox idi. Ona görə də Qafqazda və Türkiyədə olan Sovet nümayəndələrinə bir-birinə zidd təlimatlar verilirdi. P.Mdivanini türklərin təsiri altına düşməkdə və onlara münasibətdə güzəştli siyasət yeritməkdə ittiham etdikdə o, 1921-ci ilin yanvar ayının 20-də Türkiyədən Q.Orconikidzeyə yazırdı: "Moskvada birinin bir söz, digərinin ayrı söz deməsi fəlakətdir. Təsəvvür etməzsən ki, necə dolaşıqlıq yaranır, Koba *(İ.Stalin – C.H.)* və İlic *(V.Lenin – C.H.)* rəsmi teleqramda mənə deyir ki, Qarsa görə türklərlə dalaşmağa dəyməz, Çiçerin isə, sən demə, Van və Muşu tələb edir və mən də bunu yalnız Əhməd Muxtarın cavab notasından bilirəm. Bu siyasətlə biz uzağa gedə bilmərik".[20]

Lakin Azərbaycan SSR-in Moskvadakı səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski hələ danışıqlar başlanmazdan xeyli əvvəl, Sovet Rusiyasının XXİK-ı üçün hazırladığı məruzədə, erməni məsələsini Moskva konfransının müzakirəsinə çıxarılmamasını məsləhət görürdü. O, yazırdı ki, "Türkiyə ilə danışıqlarda erməni məsələsi maneə rolunu oynaya bilər. Erməni məsələsində türklər maksimum güzəştə getməməy qərarlıdırlar. Bunu onlar, bu məsələdə güzəştə getmiş İstanbul hökumətinin vəziyyətinə düşmək istəməmələri ilə əsaslandırırlar. Türklərlə möhkəm ittifaq bağlamaq üçün, biz erməni məsələsini danışıqlarımızın obyektinə çevirməməliyik. Erməni məsələsinin qəti həlli üçün digər, daha uyğun məqam tapa bilərik".[21]

Türkiyə Sovet Rusiyası ilə yanaşı, Cənubi Qafqazda olan sovet respublikalarının hər biri ilə ayrı-ayrılıqda müqavilə bağlamaqda maraqlı olsa da, Sovet rəhbərliyi Azərbaycan və Ermənistanı da, Moskva danışıqlarına dəvət etmək və onların simasında Türkiyəyə qarşı yekdil cəbhə yaratmaq fikrində idi. Elə bu məqsədlə də, hər iki respublikaya Moskva danışıqlarında iştirak etmək üçün Sovet hökuməti adından dəvət göndərilmişdi. Eyni zamanda, Türkiyə nümayəndələri hələ Qarsdan Bakıya hərəkət edərkən, Çiçerin Orconikidzeyə teleqram göndərib bildirmişdi ki, əgər türklər razı olsalar,

[19] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 18.01.1921.// RDSSTA, f.85, s.c(Türkiyə), i.18, v.6-6(arxası)

[20] P.Mdivaninin Q.Orconikidzeyə teleqramı. 20.01.1921.// RDSSTA, f.85, s.14 i.106, v.1-2

[21] B.Şahtaxtinskinin RSFSR XXİK-na məruzəsi.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.77

Gürcüstanı da, Moskva konfransına dəvət etmək yaxşı olardı.[22] Yanvar ayının 14-də İ.Stalinə göndərdiyi məktubda G.Çiçerin, onun da bu barədə öz fikrini bildirməsini xahiş edirdi. Çiçerin, hətta, Stalinə yazdığı məktubda İran, Buxara, Xivə və Əfqanıstanı da Moskva konfransına çağırmağı mümkün hesab edirdi. Bu da Türkiyəyə xeyli dərəcədə inamsızlığdan irəli gəlirdi. O, Stalinə məlumat verirdi ki, Azərbaycandan İngiltərə haqqında fövqəladə dərəcədə maraqlı təbliğat materialları gətirilmişdir, digər tərəfdən artıq Kazım paşanın fransızlarla yaxınlaşması gizlədilmir, bu işdə türklərin Antanta ilə bir olduğu şübhəsizdir. Bu şəraitə Çiçerin Gürcüstanın Moskva konfransında iştirakını çox əhəmiyyətli sayırdı. Çiçerinin fikrincə, gürcülər "bu konfransda Antantanın casusu rolunu oynaya bilərdilər".[23] Lakin Moskvanın fikrincə, sovet respublikaları konfransda ayrı-ayrı nümayəndəlik kimi deyil, Sovet Rusiyasının başçılığı altında vahid nümayəndəlik kimi, iştirak etməli idi. Bu halda, nümayəndə heyətinin sədri Sovet Rusiyasının nümayəndəsi olmalı idi. Hətta, bu məsələlər müzakirə olunduqda, xüsusi olaraq, "Xarici dövlətlərlə danışıqlar aparılması üzrə nümayəndə heyətinin üzvləri ilə sədri arasında qarşılıqlı münasibətlər haqqında əsasnamə" hazırlanmışdı ki, yeni sovet respublikaları öz "müstəqilliklərinə" elə də çox aludə olmasınlar. Həmin əsasnaməyə görə, konfransda danışıqları nümayəndə heyətinin sədri aparmalı idi. Nümayəndə heyətinin üzvü konfransda o zaman söz ala bilərdi ki, onun demək istədiyi məsələ sədrin razılığı ilə qabaqcadan nümayəndə heyətinin öz müşavirəsində müzakirə edilmiş olsun. Eyni zamanda, sədr öz şəxsi qərarı ilə də nümayəndə heyətinin üzvünə konfransın gedişində söz verə bilərdi. Əgər sədrlə üzvlər arasında fikir müxtəlifliyi yaranardısa, sədr bu və ya digər məsələnin həllinin məsuliyyətini öz üzərinə ala bilərdi. Bu halda, nümayəndə heyətinin üzvü hökumət qarşısında həmin qərardan şikayət etmək hüququnu özündə saxlayırdı. Hökumətə məruzələrini və ümumiyyətlə, onunla yazışmalarını sədr nümayəndə heyətinin üzvlərinin nəzərinə çatdırmalı idi. Qarşı tərəfin hüzurunda, nümayəndə heyətinin bütün üzvləri hər hansı məsələ ilə razı olmasalar belə, nizam-intizama riayət etməli idilər.[24]

Bütün bunları nəzərə alaraq, Türkiyə Cənubi Qafqazın sovet respublikaları ilə Moskvada deyil, regionun özündə danışıqlar aparmağa üstün-

[22] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 18.01.1921.// RDSSTA, f.85, s.c(Türkiyə), i.34, v.1

[23] G.Çiçerinin İ.Stalinə məktubu. 14.01.1921.// RDSSTA, f.159, s.2, i.57, v.12

[24] Xarici dövlətlərlə danışıqlar aparılması üzrə nümayəndə heyətinin üzvləri ilə sədri arasında qarşılıqlı münasibətlər haqqında əsasnamə. 1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.5

lük verirdi. Lakin Sovet Rusiyası Türkiyə ilə bu respublikalar arasında birbaşa ikitərəfli əlaqələr yaranmasından çox ehtiyatlanırdı. Düzdür, Gümrü müqaviləsindən dərhal sonra İrəvandakı sovet nümayəndəliyi Moskva vasitəsi ilə Ankaraya təzyiq edib, Sovet Rusiyasının iştirakı ilə ermənitürk sülh konfransının çağırılmasına nail olmaq istəsə də, Kazım Qarabəkir paşa erməni məsələsinin, ermənilərin minumum təmsil olunacağı Moskvada keçiriləcək rus-türk konfransında həll olunacağını bildirib, həmin vaxt məsələdən yayınmışdı.[25] Əslində, bu, Gümrü müqaviləsinin şərtlərini şübhə altına almamaq üçün Kazım paşa tərəfindən edilmiş siyasi bir gediş idi. Məhz, bütün bunları nəzərə alaraq, B.Şahtaxtinskinin Rusiya Xarici İşlər Komissarlığına göndərdiyi məruzə yalnız erməni məsələsini deyil, Ermənistanın sovetləşməsindən sonra Cənubi Qafqazda yaranmış yeni siyasi şəraitin və bu geosiyasi durumda Rusiya-Türkiyə münasibətlərinin bütün tərəflərini əhatə edirdi. B.Şahtaxtinski yaxın vaxtlarda Moskva konfransında iştirak edəcək dövlətlərin vəziyyətini dəyərləndirməyi özünün "borcu" hesab edirdi. Məruzədə əvvəlcə dörd mənfi fakt üzərində dayanan Behbud bəy İstanbul hökumətinin nümayəndəsi kimi, İzzət paşa misiyasının Ankaraya gəldiyi və kamalçı hökumətlə danışıqlar apardığını bildirirdi. Hətta, bu barədə B.Şahtaxtinski hələ 1920-ci ilin dekabr ayının 8-də Gümrüdə olarkən Bakıya, Orconikidzeyə məlumat vermişdi. Həmin məlumatda İzzət paşa başda olmaqla, bir heyətin İstanbuldan Ankaraya gəlməsi Antantanın kamalçılarla sazişə girmək cəhdi kimi qiymətləndirilirdi.[26] İkincisi, o qeyd edirdi ki, hazırda Dərələyəz və Zəngəzura səpələnmiş daşnaklar Gümrü müqaviləsinə uyğun olaraq, onların hakimiyyətini həm xarici, həm də daxili düşməndən qorumağı türklərdən tələb etmək hüququna malikdirlər. Şahtaxtinskinin fikrincə, çap olunmuş bəyanatlarında Qarabağın müsəlman əhalisini ermənilərlə birlikdə bolşevizmlə mübarizəyə çağıran daşnaklar indi ona görə, türklərdən öz müqavilə öhdəliklərini yerinə yetirməyi tələb etmirdilər ki, guya, Antanta bu məsələdə hələ ki, türklərlə razılığa gələ bilməmişdilər və yalnız, türklər fiziki imkanlar əldə etdikdə bu məsələ gündəliyə gələcəkdir. Üçüncüsü, Şahtaxtinski belə bir məlumat verirdi ki, guya, Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdən gəlmiş A.Xatisov türklərlə Ermənistanı Türkiyənin muxtar vilayətinə çevirən müqavilə imzalayıb. Onun fikrincə, Xatisov çətin ki, belə bir müqavilə im-

[25] B.Leqranın G.Çiçerinə və Q.Orconikidzeyə teleqramı. 06.12.1920.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.8

[26] B.Şahtaxtinskinin Q.Orconikidzeyə teleqramı. 08.12.1920.RDSSTA, f.159, s.2, i.56, v.41

zalasın, bunu ona ancaq Antanta məcbur edə bilər. Dördüncüsü, konfrans qurtarana qədər türklər Gümrünü boşaltmağı qəti şəkildə arzulamırlar, halbuki, dəqiq məlumatlara görə, onların Gümrüdə hər hansı niyyətləri yoxdur.[27]

B.Şahtaxtinski öz məruzəsində vəziyyətə müsbət təsir göstərən beş amili sadalayır və onların qısa izahını verirdi. Onun fikrincə, Türkiyədə hazırda iki cərəyan mövcud idi: biri Moskvadakı keçmiş türk missiyasının başçısı Bəkir Sami və Ankara hökumətinin bir çox üzvlərini özündə birləşdirən cərəyan idi ki, onlar Sovet Rusiyasına ümidlərini itirmiş və inqilabi Türkiyənin Rusiya ilə hər hansı əlaqəsini əhəmiyyətsiz hesab edirdilər. Doğrudan da, Bəkir Sami missiyası Moskvadan çox ümidsiz qayıtmışdı. Ankaradakı sovet səlahiyyətli nümayəndəliyinin birinci katibi Upmal-Anqorski, hələ 1920-ci ilin oktyabrında Xaici işlər komissarlığını məlumatlandırırdı ki, Çiçerinin Türkiyə Ermənistanı ilə bağlı tələbləri Sovet Rusiyası ilə müqavilə bağlamaq üçün böyük həvəslə Moskvaya gələn türkləri mütəəssir etmişdir. Ankarada aldığı məlumatlara əsasən, Y.Upmal-Anqorski yazırdı: "Türkiyə nümayəndələri Moskvaya yetişəndə onlara müqavilə layihəsi təklif edildi və müzakirədən sonra bu layihə onlar tərəfindən əsasən qəbul edildi. Sonra müqaviləni imzalamaq üçün gözlənilməz şəkildə bir sıra ərazilərin ermənilərə güzəştə gedilməsi onların qarşısına şərt kimi qoyuldu. Onlar bunu Karaxanın və Avanesovun şəxsi təsirləri ilə izah edirlər".[28] B.Şahtaxtinskinin təbirincə, Ankara hökumətində olan digər cərəyan hazırkı türk missiyasına rəhbərlik edən Yusuf Kamal və bəzi hökumət üzvlərindən ibarətdir. Onlar belə hesab edirdilər ki, Rusiya ilə əlaqələrdən inqilabi Türkiyə imtina etməməlidir, əks təqdirdə Rusiya ilə əlaqə olmadan Türkiyə Antantanın təzyiqinə dözə bilməz. B.Şahtaxtinski öz məruzəsində türk missiyasına daxil olan Yusuf Kamal, Ali Fuad və doktor Rıza Nurun siyasi görüşlərini dəyərləndirir və yazırdı: Ali Fuad paşanın Sovet Rusiyasına inamının həddi-hüdudu yoxdur. O, hərbi hissəyə bəyan etdi və buna inanır ki, ona Moskvada anbarları açıb mümkün olan hər şeyi Türkiyəyə göndərmək müyəssər olacaq. Onun adamları İtaliyadan müəyyən miqdarda silah alıb, qaçaq yolla Anadoluya gətirə bildilər. Bu silahı paylayan zaman o, rəsmi əmrlə bildirdi ki, bu silahlar bizə dost və müttəfiq olan inqilabi Rusiya tərəfindən göndərilib. O, Türkiyədə inqilabi hərakatın təşkil olunmasının təşəbbüsçülərindən biridir və həmişə Qərbi Anadolu cəbhəsinin baş komandanı olmuşdur. Antanta onun həyatına

[27] B.Şahtaxtinskinin RSFSR XXİK-na məruzəsi.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.76

[28] Upmal-Anqorski. Xarici İşlər Komissarı ilə müsahibə. 25.10.1920. .// RF XSA, f.04, s.39, q.232, i.53001, v.2

qəsd təşkil etmək üçün 40 min qızıl türk lirəsi ayırmışdı, lakin son nəticədə bu qəsdin təşkilatçısı özü onun əlinə keçdi. Üçüncü nümayəndə Rıza Nur İngiltərənin böyük əleyhdarı hesab edilir, lakin ermənilərə görə indi bizə də inanmır".[29] B.Şahtaxtinski XXİK-ın məlumatlanırırdı ki, uşaqdan-böyüyə bütün türklər Rusiya ilə səmimi sazişin Antanta üçün ölüm hökmü olacağına inanır. Şərqi Anadoluya gəldikdə isə, Şahtaxtinski yazırdı: "Bütün Şərqi Anadolu və oranın başçısı Kazım Qarabəkir paşa bizim səmimi və qızğın tərəfdarımızdır. Psixoloji baxımdan bu onunla izah olunur ki, ötən müharibədə rus yumruğunun bütün ağırlığını öz üzərində hiss etmiş Şərqi Anadolu, Rusiyanın məğlubedilməzliyinə və onun insan ehtiyatlarının hüdudsuzluğuna əmindirlər. Rusiya bütün müharibələrdən qalib çıxmışdır. Əksinə, ingilis-fransızların Dardanelə uğursuz ekspedisiyası İngiltərənin qüdrətinə şübhə toxumu səpdi. Kazım Qarabəkir paşa yaxşı bilir ki, bu kütlələrin əhvali-ruhiyyəsidir və bundan əlavə, o, Anadolunun bütün məktəblərində oxunan ədəbi əsərlərində açıq-açığına İngiltərəni abırdan salır, türk gəncliyinin qəlbində ingilislərə nifrət yaratmağa çalışırdı. Ona görə də Antantanın Anadoluya təsirinin yayılması indiki anda bütün Anadoluda ən nüfuzlu və məşhur adam sayılan Qarabəkirin sonu deməkdir".[30]

B.Şahtaxtinskinin məruzəsindən aydın olur ki, Türkiyədə Sovet Rusiyası ilə sazişin əleyhinə olan bəzi dairələr, Rusiyada bolşevizmin müvəqqəti olacağından və bu halda, Türkiyənin Avropa ilə, hətta, millətçi Rusiyanın özü ilə təkbaşına üz-üzə qalalacağından ehtiyatlanırlar. Bu narahatçılığı aradan qaldırmaq üçün B.Şahtaxtinski Gümrüdə olarkən, Kazım paşaya izah etmişdi ki, hazırda Sovet Rusiyasının sayəsində indi Başqırdıstan, Qırğız, Türküstan, Xivə, Buxara və Azərbaycan respulikaları mövcuddur. Onun fikrincə, əgər kommunizm bütün dünyaya yayılardısa, müsəlmanlar buna sevinərdilər, yaxud əgər kommunizm məğlub olardısa və Rusiya Türkiyəni təhdid edən qüvvəyə çevrilərdisə, bu halda, Sovet Rusiyasının himayəsi sayəsində mökəmlənmiş bu müsəlman respublikaları sovet olmayan Rusiyanın Şərqdə təcavüzkar siyasətinə qarşı uğurla çıxış edə bilərdilər. B.Şahtaxtinski təklif edirdi ki, biz türklərin, guya, bizdən müəyyən miqdarda silah və qızıl alıb, bizdən uzaqlaşacağı və hətta, bizə qarşı dönəcəkləri fikrindən həmişəlik uzaq olmalıyıq. Eyni zamanda, o qeyd edirdi ki, starteji mülahizələrə görə, mühim məntəqə olan Naxçıvan diyarını heç bir hal-

[29] B.Şahtaxtinskinin RSFSR XKS-ə məruzəsi. // RF XSA, f.04, s.39, q.232, i.53001, v.76

[30] Yenə orada, v.76

da türklərin protektaratlığına vermək olmaz. Bununla yanaşı, o yazırdı ki, həmin diyarın indi Ermənistana birləşdirilməsi də, yolverilməzdir: birincisi, diyarın əhalisi özü bunun əleyhinədir, ikincisi isə, bununla türklər razılaşmazlar. Şahtaxtinski təklif edirdi ki, bu diyarı hələlik Sovet Rusiyasının protektoratlığı altında özünüidarə hüququnda vilayətə çevirmək lazımdır. Onun fikrincə, məsələnin belə həlli türk ordularının tutduqları mövqelərdən çəkilməsinə səbəb olar və Ermənistanı təmin etməyə bilməz. Şahtaxtinski yazırdı: "Ola bilsin ki, nə vaxtsa şərait bizi məcbur edəcək ki, müstəqil Naxçıvan rayonunun adından İran Azərbaycanı istiqamətində, hətta, bəlkə Türkiyəyə qarşı da, təxribat edək, lakin belə gedişləri heç vaxt Ermənistanın adından və ya onun tərəfindən etmək olmaz. Nəhayət, nəzərə almaq lazımdır ki, Naxçıvan rayonunun Ermənistana birləşdirilməsi ilə Maku xanlığı dərhal özünü Türkiyənin bir hissəsi elan edəcək ki, bu isə bütün münasibətlər baxımından bizim üçün əlverişli deyildir".[31]

Məruzənin sonunda Şahtaxtinski Azərbaycandakı və ümumiyyətlə, Qafqazdakı vəziyyətə toxunaraq, belə nəticəyə gəlir ki, regionda vəziyyət mürəkkəb olaraq qalmaqdadır. Onun fikrincə, Azərbaycanda daimi olaraq, böyük ordu saxlamaq mümkün deyildir və yazda bəzi çıxışların olması da, istisnalıq təşkil etmir. Bütün bunlar, Şahtaxtinskiyə görə, Türkiyə ilə müqavilənin bağlanmasını zəruri edirdi. O yazırdı: "Türkiyə ilə ittifaq bizə imkan verər ki, Dağıstan, Azərbaycan və Ermənistan əksinqilabçılarının toplandığı və yaxşı işlədiyi Gürcüstanın sovetləşdirilməsini yubanmadan başa çatdıraq. Gürcüstanın sovetləşdirilməsi əksinqilabçıları tamamilə tərksilah edər və bizə imkan verər ki, ordunun böyük hissəsini Azərbaycandan Şimali Qafqaza aparaq". Əgər Moskvada saziş əldə olunmasa, Türkiyə nümayəndə heyəti nə etmək niyyətində olacaqdır? Şahtaxtinskinin fikrincə, bu halda Ali Fuad paşa Ankara hökumətinin səfiri kimi, Moskvada qalacaq, nümayəndə heyəti isə, təcili olaraq geri dönəcək və Anadolu Milli Məclisi həmin saat Şərq müsəlmanlarına bəyan edəcək ki, inqilabi Türkiyə Rusiya ilə heç bir əlaqədə və ittifaqda deyildir. Sovet Rusiyasının heç bir köməyi və yardımı olmadan türklər öz mübarizəsini aparır və aparacaq.[32] Göründüyü kimi, Behbud Şahtaxtinskinin Sovet Rusiyasının Xarici İşlər Komissarlığı üçün hazırladığı məruzədə Türkiyə ilə müqavilə bağlanması siyasi cəhətdən zəruri, starateji baxımdan isə, faydalı hesab edilirdi.

[31] Yenə orada, v.77
[32] Yenə orada, v.77

Lakin B.Şahtaxtinskinin və Qafqazda, o cümlədən, Türkiyədə fəaliyyət göstərən bir sıra bolşeviklərin Türkiyə ilə müqaviləni zəruri sayan tövsiyyələrinə rəğmən, G.Çiçerinin məsələyə öz münasibəti var idi və o, belə hesab edirdi ki, Türkiyənin tələbləri qarşısında, xüsusilə, erməni məsələsində geri çəkilmək lazım deyildir. 1921-ci ilin yanvar ayının 11-də o, Orconikidzeyə yazırdı: "Əgər türklər bazarlıq edirlərsə, tələb və şantaj edirlərsə, bu o demək deyildir ki, biz həmin dəqiqə güzəştə getməliyik. Əksinə, biz də eyni ilə onlarla bazarlıq etməliyik və onların qarşısında təslim olmamalıyıq. Onlara izah etmək lazımdır ki, bizim ümumiyyətlə, ermənilərə xüsusi meylimiz yoxdur, bizim siyasətimiz bütün xalqların öz müqəddəratını təyin etmək prinsipi üzərində qurulub, biz bunun əleyhinə olan siyasətə yardım edə bilmərik. Biz, əlbəttə, türk nümayəndələrinin 1918-ci ilin rəy sorğularına edilən mənasız istinadlarına aludə olmamalıyıq. Əlbəttə, bizim siyasətimiz öz çevikliyi ilə fərqlənməlidir, inadkarlıq bizə yaddır, lakin türklərin hər hansı tələbləri qarşısında həmin dəqiqə güzəştə getmək tamamilə əsassız olardı. Ermənistanın sovetləşməsi faktı öz-özlüyündə bizim üçün ciddi siyasi nəticələrə malikdir, belə ki, sovet hakimiyyətinin nüfuzu bizə icazə vermir ki, qardaş sovet respublikasını taleyin ümidinə buraxaq. Bu ziddiyyətli vəziyyətin içərisində, ağılsızcasına bir tərəfə yuvarlanmadan, çox ehtiyatla hərəkət etmək lazımdır. Ən nəhayət, Türkiyə ilə dostluq bizim üçün birinci dərəcəli əhəmiyyətə malikdir, lakin bu məsələnin özünə də, biz hər şeyi qurban verə bilmərik".[33] Türklərlə müqavilənin bağlanmasının zəruriliyi haqqında P.Mdivaninin Qarsdan göndərdiyi mülahizələrlə də, Çiçerin razi deyildi. P.Mdivani xəbərdarlıq edirdi ki, Türkiyə Ermənistanı məsələsində güzəştə gedilməsə, Ankarada mürtəce hökumət qurulacaqdır və bunu nəzərə alaraq, Mdivani təcili olaraq Türkiyəyə güzəştə gedilməsini təkidlə tələb edirdi. G.Çiçerin isə, onun bu təkidlərini həddindən artıq türklərin təsirinə düşməsi ilə izah edərək yazırdı: "Mənə belə gəlir ki, Şərq xalqları ilə münasibətlərdə belə zəifliyi və tez güzəştə getməyi bu tezliklə büruzə vermək lazım deyildir. Belə ki, bunun nəticəsində onların iddialarının həmin dəqiqə həddi-hüdudu olmur. Ardıcıllıq və sərtlik lazımdır. Güzəştlər isə şəraitə uyğun olaraq, yalnız çarəsiz qaldıqda mümkündür. Ona görə, mənə belə gəlir ki, bizim keçmiş təkliflərimizdə hər hansı dəyişiklik Moskva konfransına qədər olmamalıdır, biz türklərin hədə-qorxusuna uymamalıyıq".[34]

[33] G.Çiçerinin Q.Orconikidzeyə məktubu. 11.01.1921.// RDSSTA, f.85, s.c(Türkiyə), i.33, v.1
[34] G.Çiçerinin Q.Orconikidzeyə şifirli teleqramı. 15.01.1921.// RDSSTA, f.85, s.c(Türkiyə), i.33, v.2

Lakin Qafqazda fəaliyyət göstərən bolşeviklər, xüsusən, Q.Orconikidze Cənubi Qafqazda cərəyan edən hadisələri yaxşı bildiyindən G.Çiçerinin anti-türk mövqeyi ilə razı deyildi. Türkiyə nümayəndə heyəti Bakıdan Moskvaya yola düşdükdən sonra Orconikidze 1921-ci ilin fevral ayının 6-da Lenin və Stalinə göndərdiyi teleqramda Çiçerinin Türkiyəyə qarşı yönəlmiş torpaq tələblərindən imtina edilməsi və rus-türk müqaviləsinin imzalanmasının tezləşdirilməsini təklif edirdi. O yazırdı ki, bizim əldə etdiyimiz məlumatlara görə, Çiçerinin Muş, Van və Bitlisi tələb etməsi Türkiyədə Antanta tərəfdarlarını gücləndirmiş və Mustafa Kamal İstanbul hökuməti ilə yaxınlaşmağın yollarını axtarmağa başlamışdır. Q.Orconikidze xəbərdarlıq edirdi ki, erməni məsələsi Türkiyə siyasətinin ən ağrılı yeridir. Bununla belə, onun fikrincə, ermənilər də türklərin onlara qarşı uzun müddət davam edən nifrətlərini həddindən artıq şişirdirlər. Orconikidze yazırdı: "Heç şübhəsiz ki, türklər bizim Muş, Van və Bitlisi tələb etməyə bənzər hər addımımızdan, onlara olan münasibətimizi nümayiş etdirmək üçün istifadə edəcəklər. Bütün bu xarakterli tələblər aradan qaldırılmalıdır və belə şeyləri qurtarmaq lazımdır".[35]

Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir paşa da öz növbəsində bütün vasitələrlə çalışırdı ki, Moskva konfransı başlayana qədər regionda sakitliyi qorusun və rusları ermənilərə himayədarlıq cəhdlərindən çəkindirsin. O, XI Qırmızı Ordunun komandanlığına yazırdı ki, ermənilər hər zaman dəyişməz olaraq, Antantaya meyllənəcək və rus xalqı ilə türk xalqı arasına düşmənçilik toxumu səpəcəkdir. Kazım paşanın fikrincə, hətta, bolşevik olmuş ermənilər belə, daşnaklarla birgə hərəkət edirlər. O yazırdı: "Onlar müxtəlif hiyləgərlik yolu ilə min oyundan çıxırlar ki, nifaq toxumu səpsinlər".[36]

1921-ci ilin fevral ayının 6-da B.Şahtaxtinskinin müşayəti ilə Bakıdan Moskvaya yola düşən Türkiyə nümayəndələri, yalnız, fevralın 18-də Rusiya paytaxtına yetişə bildilər. G.Çiçerin hələ 1920-ci ilin dekabr ayının ortalarında Q.Orconikidzeyə təlimat vermişdi ki, türk heyəti sürətlə hərəkət edən xüsusi qatarla Bakıdan Moskvaya yola salınsın.[37] Bakıdan nümayəndə heyəti sürətli qatarla yola salınsa da, lakin Rostov şəhərində qatar üç gün dayanmalı

[35] Q.Orconikidzenin V.Leninə və İ.Stalinə teleqramı. 06.02.1921.//RDSSTA, f.85, s.c(Türkiyə), i.3, v.8

[36] Kazım Qarabəkir paşanın XI ordunun komandanlığına məktubu. 08.02.1921.//RDSSTA, f.85, s.c(Türkiyə), i.37, v.6

[37] Q.Orconikidzenin G.Çiçerinlə yazışmaları. Dekabr 1920.//RDSSTA, f.85, s.14, i.49, v.24

oldu. Əvvəlcə nümayəndə heyəti öz aralarındakı müzakirələrdə qatarın Postov stansiyasında belə uzun müddət dayanmasını bolşeviklərin intizamsızlığı və ya Moskvada bolşevik hakimiyyəti ilə bağlı nəsə baş verməsi ilə izah etsələr də, lakin səbəb başqa imiş. Bu vəziyyətdən çıxış yolu kimi, Türkiyə nümayəndə heyətinin başçısı Yusuf Kamal bəy B.Şahtaxtinski ilə birlikdə Rostov stansiyasından G.Çiçerinə etiraz teleqramı göndərəndə məlum olmuşdu ki, Rostov stansiyasının rəisi ermənidir. Türk nümayəndə heyətinin üzvü Rıza Nurun fikrincə, Moskva danışıqlarını pozmaq üçün ermənilər bu oyunu qurmuşdular.[38] Hətta, Türkiyə nümayəndələri bu hörmətsizliyə etiraz olaraq, fevral ayının 12-də geri dönməyi belə, müzakirə etməli olmuşdu. Onların fikrincə, bütün baş verənlər Rusiya hökumət dairələrinin türk heyətini Moskvada görmək istəməməsi ilə bağlı idi. Türkiyə heyətinin bu fikri barədə qatarın komendantı Çeçulin təcili şəkildə Çiçerinə məlumat verdi ki, yaranmış vəziyyətlə bağlı nümayəndə heyəti Moskvaya gəlməkdən imtina edir.[39] Yalnız məsələ Çiçerinə çatdırıldıqda Moskva dərhal xüsusi qatarın hərəkətini təmin etdi və nümayəndə heyəti Rusiya paytaxtına doğru yola düşdü və fevralın 18-də onları Moskvada kursantların hərbi paradı və musiqi orkestri ilə qarşıladılar. Moskva kursantlarının dəmir yol vağzalında türk nümayəndələrinin şərəfinə təşkil etdikləri fəxri keçidini nümayəndə heyətinin adından Ali Fuad paşa qəbul etdi.[40] Fevral ayının 19-da türk nümayəndə heyəti Rusiya Xarici İşlər Komissarlığında G.Çiçerin və L.Karaxan tərəfindən qəbul edildi. Elə həmin axşam Ali Fuad paşa öz etimadnaməsini G.Çiçerinə təqdim etdi.[41] Fevral ayının 21-də qeyri-rəsmi danışıqlar davam etdirildi. Lakin sovet rəsmiləri köhnə mövqelərində qaldıqlarından və 1920-ci ilin avqust ayının 27-də G.Çiçerinin Bəkir Sami bəy ilə görüşdə irəli sürdüyü Van, Bitlis və Batumla bağlı tələbləri yenidən irəli sürdüyündən danışıqlar ümidverici olmadı. G.Çiçerin və L.Karaxan danışıqların gedişində Gümrü müqaviləsinin ləğv edilməsini və 1914-cü il sərhədlərinin bərpa edilməsini türklərdən tələb etdilər. G.Çiçerinin köhnə tələbləri təkrar etməsi türklərdə xoş təəssürat yaratmadı. Onlar açıq-aydın hiss etdilər ki, Çiçerin onlarla danışıqlar aparmaq istəmir və onun meyli əsasən, Qərbədir. Əslində, Sovet

[38] Dr. Rıza Nur'un Moskova/Sakarya Hatıraları. İstanbul, 1991, s.67-68

[39] Çeçulinin Çiçerinə teleqramı. 13.02.1921.// RDSSTA, f.159, s.2, i.56, v.56

[40] Voznesenskinin Nərimanov və Orconikidzeyə teleqramı.18.02.1921.// RDSSTA, f.85, s.18, i.257, v.1

[41] Bax: Н.Г.Киреев. История Турция XX век. Москва, 2007, с.140

rəhbərliyi və o cümlədən, Çiçerin yaxşı bilirdi ki, Türkiyə yeni qəbul olunmuş "Milli Pakt" (Misak-i Milli) hüdudları çərçivəsində öz qonşularından kiməsə torpaq vermək fikrində deyildi. Hələ Türkiyə nümayəndələri yolda olarkən Mustafa Kamal paşanın Şərq Xalqların Fəaliyyət və Təbliğat Şurasının müvəkkili E.Eşba ilə söhbəti olmuşdu və həmin söhbət zamanı Kamal paşa demişdi: "Mən tamamilə anlayıram ki, kommunizmdə milli dövlət sərhədləri haqqında məsələ olmayacaq... Məsələn, kommunist Azərbaycanı öz ərazilərinin bir hissəsini könüllü şəkildə kommunist Ermənistanına verdi. Əgər ermənilər türk torpaqlarının bir hissəsinin onlara verilməsini xahiş etsələr, gənc və güclü millətçilik hisslərinin təsiri altında olan xalq şübhəsiz ki, bununla razılaşmayacaq və bunun əleyhinə mübarizə aparacaqdır".[42] E.Eşba 1921-ci ilin yanvar ayının 29-da Kamal paşa ilə olan bu söhbətinin məzmununu dərhal Moskvaya çatdırmışdı.

Danışıqların hazırlıq mərhələsində Ermənistanda antisovet üsyan baş verdiyindən və Sovet hökuməti devrildiyindən Moskvadakı erməni nümayəndələri üçün uğursuz vəziyyət yarandı. Bu hadisə ilə bağlı fevral ayının 21-də N.Nərimanov dərhal V.Leninə məlumat verdi. O, yazırdı ki, "sizə məlum olduğu kimi, Ermənistanda Sovet hakimiyyəti artıq devrilmişdir. Bunu nəzərə alaraq mən hesab edirəm ki, erməni məsələsi Türkiyə nümayəndələri ilə danışıqlarda heç bir rol oynamamalıdır". Bu məsələ ilə bağlı Azərbaycan K(b)P MK-nın birinci katibi Qriqori Kaminski geniş məruzə hazırlamışdı. N.Nərimanov Lenindən xahiş edirdi ki, Kaminskinin məruzəsinə ciddi şəkildə diqqət yetirsin.[43]

Türkiyə nümayəndə heyəti ilə birinci hazırlıq görüşündən sonra G.Çiçerin V.Leninə geniş bir məktub yazdı. O, qeyd etdi ki, Xaici İşlər Komissarlığının xəbəri olmadan sizin və Stalinin Türkiyə barədə Mdivaniyə təlimatından mən indi xəbər tuturam və bütün bu hadisələr mənim üçün tamamilə gözlənilməz oldu və məhz, bu yazışmalardan aydın olur ki, siz Türkiyəyə rəsmi olaraq, siyasi və hərbi ittifaq təklif etmisiniz. Çiçerin xatırladırdı ki, ümumiyyətlə, biz "ittifaq" ifadəsindən qaçmalıyıq və türklərlə hər hansı "ittifaq" bizim İngiltərə ilə nəzərdə tutulan sazişlə bir araya sığmır. Lakin Çiçerin bildirirdi ki, türklər sizin Mdivaniyə verdiyiniz təlimata uyğun olaraq ittifaq müqaviləsi imzalanmasında təkid edirlər və onlara öz hökumətləri tərəfindən mandat da, məhz, bu məqsədlə verilmişdir. İndiki

[42] Mustafa Kamal paşanın E.Eşba ilə söhbəti. 29.01.1921.// RDSSTA, f.544, s.3, i.46, v.48-49
[43] N.Nərimanovun V.Leninə məktubu. 21.02.1921.// RDSSTA, f.2, s.1, i.24504, v.1-2

anda Çiçerin necə hərəkət edəcəyini və türklərə hansı məsələlərdə güzəştə gedə biləcəyini V.Lenindən soruşurdu.[44]

G.Çiçerinə təsir göstərmək məqsədilə türklər fevral ayının 22-də İ.Stalinlə görüşdülər və bu görüş onlarda danışıqların davam etdirilməsinə müəyyən ümidlər oyatdı. Stalin bu görüşdə Sovet Rusiyasının Artvin və Ərdahanı türklərə güzəştə gedə biləcəyini vurğulamışdı.[45] Əslində, Stalinin danışıqlara cəlb edilməsini türklərlə Bakıda görüşdükdən sonra Q.Orconikidze Moskvaya tövsiyyə etmişdi. Hələ, türk nümayəndə heyəti yolda ikən, Q.Orconikidze Moskvaya göndərdiyi şifrli teleqramda yazırdı: "Stalinin türklərlə danışıqlarda iştirakı tamamilə zəruridir. Onlar Çiçerinə inanmır, Karaxana isə nifrət edirlər".[46] Stalinlə görüşdən sonra danışıqlar bərpa edilsə də, Çiçerinin təkəbbürlü tələblərindən sonra türklər yenidən onu dayandırmalı oldular. Onlar bütün bunların Karaxanın təsiri ilə baş verdiyindən şübhələnirdilər.[47]

Fevral ayının 23-də RSFSR nümayəndə heyəti ilə Türkiyə nümayəndə heyəti arasında yeni bir qeyri-rəsmi görüş keçirildi. Bu görüşlər daha çox bir-birinin fikir və məramını öyrənmək xarakteri daşıyırdı. Əvvəlki gürşlə müqayisədə özünü daha təmkinli aparan Çiçerin ümidvar olduğunu bildirdi ki, bu görüşlə müzakirələrin hazırlıq mərhələsini başa vurub, konfransın rəsmi açılışına keçmək olar. Yusuf Kamal bəy də bunun zəruri olduğunu vurğuladı və ötən iclasda Çiçerinin qaldırdığı bir sıra məsələlərə aydınlıq gətirdi. Bu daha çox Gümrüdə aparılmış türk-erməni danışıqlarına vasitəçi kimi, Rusiya nümayəndələrinin buraxılmaması ilə bağlı idi. Daha sonra Yusuf Kamal bəy ötən görüşdə mübahisəyə səbəb olmuş "ittifaq" ifadəsinə diqqəti yetirib bildirdi ki, "siz deyirsiniz İngiltərə ilə ticarət müqaviləsi bağlama prosesində olduğunuzdan bizimlə ittifaqa girə bilməzsiniz. Mən fikirləşirəm ki, bu sazişlə siz bizim düşmənlərimizi zəiflətməyə nail olmaq istəyirsiniz. Nə qədər mümkünsə, tez bir zamanda bizə kömək etməyiniz və bir-birimizə etibar etməyimiz lazımdır. Biz deyə bilərik ki, Türkiyənin tarixi onun öz sözünə sədaqətli qalacağının ən yaxşı sübutudur. Türkiyə Rusiyaya öz sözünü deyibdir". Bunun müqabilində Yusuf Kamal bəy Sovet Rusiya-

[44] G.Çiçerinin V.Leninə məktubu. 22.02.1921 .// RDSSTA, f.2, s.2, i.526, v.1-2
[45] İ.Stalinin G.Çiçerinə məktubu. 06.03.1921.// RDSSTA, f.558, s.11, i.824, v.7
[46] Q.Orconikidzenin İ.Stalinin şifrli teleqramına cavabı. 12.02.1921.// RDSSTA, f.5, s.1, i.1247, v.3
[47] M.Frunze və İ.Obilovun Mustafa Kamal paşa və Yusuf Kamal bəylə söhbəti. 04.01.1922.// ARDA, f.28, s.1, i.68, v.4

sının öz sözünü tutmadığını xatırlatdı və dedi ki, siz bizə 4 milyon patron verəcəyinizə söz versəniz də, indiyə qədər cəmisi 250 min ədəd vermisiniz. Ermənistan məsələsinə gəldikdə, Türkiyə nümayəndə heyətinin başçısı dedi: "Biz hesab etmirik ki, Ermənistan o dəqiqə kommunist ölkəsinə çevrildi, doğrudur kommunist hökuməti var, lakin daşnakların da böyük təsiri qalmaqdadır. Türkiyə Ermənistanla səmimi və dostluq münasibətləri yaratmamağa və iki ölkənin yoxsul kütlələri arasında düşmənçiliyi həmişəlik aradan qaldırmağa tamamilə hazırdır, lakin zəruri əminlik olmaq şərtilə". G.Çiçerin cavabında dedi ki, keçmiş mübahisələri unutmaq lazımdır və mühüm olan məsələ sizin təhlükəsizliyinizlə bağlıdır, biz hazırda sizə bu istiqamətdə kömək etməyə hazırıq. O, dedi ki, "bir sıra qərarları biz gizli saxlaya bilərik, digər məsələləri müqavilədə göstərmək olar, mübahisəli məsələlərin həllində zəruri dəyişikliklərlə biz keçmiş müqaviləni *(Bəkir Sami bəylə hazırlanmış müqavilə layihəsi nəzərdə tutulur – C.H.)* əsas kimi qəbul edib, kömək məsələsində son olaraq razılığa gələ bilərik". Bundan sonra G.Çiçerin kamalçıların İstanbul hökuməti və Antanta ilə münasibətləri, habelə, keçiş Osmanlı mülklərinə baxışları baraədə bir sıra aydınlaşdırıcı suallar verdi. Yusuf Kamal bəy bütün bu məsələlərə Milli Paktda (Misak-ı Milli) aydınlıq gətirildiyini bildirdi və dedi ki, "orada millətin tələb etdiyi ərazilər və Osmanlı imperatorluğunun keçmiş əyalətlərinə münasibətdə bizim özümüzü necə aparmağımız əks olunub...Biz icazə verə bilmərik ki, bizi nüfuz dairəsinə bölsünlər... Bizim yeganə dayağımız millətin gücüdür. Biz bunu imperialistlərlə mübarizə də sübut etmişik". G.Çiçerin sultanın taleyi ilə maraqlandıqda, doktor Rıza Nur dedi ki, "Sultan müsəlman Papası kimi, qalmalıdır... Sultanın hakimiyyətinin hüdudları haqqında məsələ yeni konstitusiyanın ayrıca maddəsi ilə müəyyənləşdirilib və bu maddə artıq Böyük Millət Məclisində qəbul edilib". Danışıqların gedişində söz alan Yusuf Kamal bəy dedi ki, "biz həmişə sizinlə işləyəcəyik, öz hökumətim adından sizdən xahiş edirəm bizə qarşı olan bütün şübhələrinizi bir kənara qoyun. Bakıda olarkən bilmirəm, nədənsə dedilər ki, bizdən ehtiyat edirlər, biz buna güldük". Çiçerin ehtiyatlılıq məqamının Türkiyə üçün də vacib olduğunu qeyd edib soruşdu: "Vəziyyətinizin mökəmlənməsinə baxmayaraq, sizin qeyd etdiyiniz kimi, siz gərək həmişə hücumdan *(Antantanın Türkiyəyə hücumu nəzərdə tutulur – C.H.)* ehtiyat edəsiniz. Nə vaxtsa Antanta sizə belə bir alver təklif etsə: Asiya sizin, Frakiya və Suriya bizim, siz bunu qəbul edərsiniz, yoxsa bundan imtina edərsiniz? Yoxsa siz bu ölkələrə marağınızı itirmisiniz?" Yusuf Kamal bəy hesab etdi ki, Millət Məclisi belə təklifləri qəbul

etməz. Söhbətin sonunda Çiçerin qeyd etdi ki, "texniki və hərbi məsələləri siz Sklyanski, Kamenev və Lebedevlə görüşüb müzakirə edə bilərsiniz, lakin gərək nəticələr kağız üzərində göstərilməsin, gizli saxlanılsın... Ən nəhayət, biz gərək bütün anlaşılmazlıqları aradan qaldıraq. Bunun üçün biz təklif etmişik ki, müsəlman Respublikası kimi, sizə tam etimad göstərən Azərbaycanın nümayənsəni bura dəvət edək. Hər halda Azərbaycan Qafqazda bəlli bir rol oynayır. Mən öyrəndim ki, Azərbaycanın öz vilayətlərini *(Zəngəzur və Naxçıvan nəzərdə tutulur – C.H.)* Ermənistana güzəştə getməsi süzdə bəzi narahatçılıqlar doğurub. Bu barədə ayrıca bir məsləhətləşmə keçirərik". Yusuf Kamal bəy yaxşı anlayırdı ki, Çiçerinin Azərbaycanı dəvət etmək təklifinin ardınca Ermənistanın dəvət edilməsi təklifi gələcəkdir və ona görə də o, bu məsələyə toxunmadı. Türkiyə nümayəndələri bildirdilər ki, hazırkı anda onları daha çox hərbi məsələlərin müzakirəsi maraqlandırır. Yusuf Kamal bəy dedi: "Biz hərbi sursatın göndərilməsi haqqında hərbi danışıqları başlayıb qurtarmasına və bundan sonra digər məsələlərə keçməyə üstünlük veririk".[48]

Konfransa ilk hazırlıq iclaslarında Çiçerinin qoyduğu məsələlər o qədər qəbul edilməz idi ki, türklər bir neçə gün danışıqlara fasilə vermək məcburiyyətində qaldılar.[49] G.Çiçerinin qərbpərəstliynə gəldikdə, hətta, Yusuf Kamal deyirdi ki, o, bizim Antantanın həmlələrinə tab gətirəcəyimizə inanmırdı və tövsiyyə edirdi ki, bəzi güzəştlər müqabilində Antanta ilə razılığa gələk. Yusuf Kamal yazırdı: "O, hətta, məni həmin dövrdə Moskvaya gələn İngiltərənin ticarət nümayəndəsi ilə görüşdürmək istəyirdi. Onun bu hərəkətləri və bizə sonrakı münasibəti, Çiçerinin siyasətinə münasibətdə bizim mənfi təəssüratlarımızı daha da dərinləşdirdi".[50]

Türkiyə nümayəndə heyətinin ilk mühüm uğuru, danışıqların rəsmi hissəsi başlayana qədər Sovet Rusiyasının xarici işlər komissarının müavini L.Karaxanı danışıqlardan uzaqlaşdırmaq oldu. Bundan əlavə, onlar mandatlarının yalnız, Sovet Rusiyası ilə danışıqlar aparılmasına aid olduğunu bəyan edib, Cənubi Qafqaz sovet respublikalarının Moskva konfransına qatılmasına etiraz etdilər. Sovet Rusiyası bununla razılaşmaq məcburiyyətində qaldı.[51]

[48] Türkiyə Böyük Millət Məclisi və RSFSR nümayəndələrinin qeyri-rəsmi görüşünün protokolu. 23.02.1921.// RF XSA, f.04, s.39, q.232, i.52998, v.1-15

[49] M.Frunze və İ.Əbilovun Mustafa Kamal paşa və Yusuf Kamal bəylə söhbəti. 04.01.1922.// ARDA, f.28, s.1, i.68, v.4

[50] Yenə orada, v.4

[51] Bax: Moskva konfransının siyasi komissiyasının iclası.12.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.12, v.52

Moskvaya yetişdikdən sonra Şahtaxtinski Nərimanovun məktubunu təcili olaraq, Leninə çatdırdı. Lenin məktubla tanış olduqdan sonra RKP MK Siyasi Bürosu üzvülüyünə namizəd, Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin sədri Mixail Kalininə tapşırıq verdi ki, RK(b)P MK-ın bütün üzvləri Nərimanovun məktubu ilə tanış olsunlar. Eyni zamanda, Lenin Stalindən xahiş etdi ki, Nərimanovun fikirlərinə rəy yazsın. Məktubun üzərində Mərkəzi Komitə üzvləri Krestinski, Serebrovski, Zinovyev, Radek, Rıkov, Kamenev və Buxarinin onunla tanış olduqları barədə qeydləri vardır. N.Nərimanov yazırdı: "Əziz Valadimir İliç! Türkiyə nümayəndə heyəti bizim nümayəndə Behbud Şahtaxtinski ilə Moskvaya yollanır. Mənim burada Türkiyə nümayəndə heyəti ilə ətraflı söhbətim oldu. Mən qətiyyən şübhə etmirəm ki, ankaralılar İngiltərəyə qarşı çıxaraq, özlərinin taleyini səmimi olaraq, bizimlə bağlamaq istəyirlər. Onlar üçün ən prinsipial məsələ erməni məsələsidir. Bu işdə onlar maksimum səy göstərirlər ki, məsələni öz xeyirlərinə həll etsinlər. Mən Batum və Axalsıx haqqında danışdım: onlar dedilər: "Erməni məsələsi ölüm-dirim məsələsidir. Əgər bu məsələdə biz güzəştə getsək, kütlələr bizim ardımızca getməyəcəkdir. Burası da var ki, həmin məsələnin bizim xeyrimizə həll olunması qüdrətimizi artırar". Şübhəsiz ki, onlar Antantanın əleyhinədirlər, onunla mübarizə etməyə hazırdırlar, onlar bizimlə birlikdə son damla qanlarınadək İngiltərə əleyhinə vuruşmağa hazırdırlar, lakin əgər Moskva erməni məsələsinə görə ankaralıları özündən uzaqlaşdırsa, onlar ümidsizləşib, İngiltərəyə üz tuta bilərlər". N.Nərimanov V.Leninі xəbərdar edirdi ki, Çiçerin Şərq məsələsini dolaşdırır və erməni məsələsinə həddindən artıq uyur. O yazırdı ki, məhz, Çiçerin "erməni məsələsi üzündən türklərlə aramızın dəyməsi nəticəsində nələr baş verəcəyini nəzərə almır. Mən qəti olaraq deyirəm: Qafqazda (Dağıstanda və Gürcüstanda) yaranmış indiki vəziyyətdə Azərbaycanı əlimizdə saxlamaq istəyiriksə, biz nəyin bahasına olursa-olsun, türklərlə möhkəm ittifaq bağlamalıyıq". Nərimanov xatırladırdı ki, Sovet Rusiyası Türkiyə ilə razılığa gəlmədiyi halda, türklər Avropa imperializminə qarşı əzilən Şərqin azadlıq missiyasını öz əlinə alar və İngiltərəyə qarşı müqəddəs müharibə elan edib, müsəlman dünyasında böyük rəğbət qazana bilər və Sovetlər özü üçün Şərq cəbhəsi açıb, müsəlman Şərqində öz təsirini itirə bilər. O yazırdı: "Əgər bu durumdan istifadə edib, yenidən Polşa və Rumıniyanın timsalında İngiltərə Qərb cəbhəsini də açsa, onda indiki dağıntılar şəraitində bizim vəziyyətimizi təsəvvürə gətirmək çətin deyil. Əziz Vladimir İliç, mən yaxınlaşan fəlakəti görürəm və istəyirəm ki, Sizdən heç nəyi gizlətməyim. Mənə hamı inanır və

mənə hər şeyi deyirlər. Məndə bizim əyalətlərin muxtar respublikalarında *(Rusiya Federasiyasının müsəlman muxtar qurumları nəzərdə tutulur – C.H.)* vəziyyət haqqında yazılı və şifahi məruzələr vardır. Bütün məruzələrdə Sovet Rusiyasının müstəmləkəçi siyasəti haqqında danışılır".[52] N.Nərimanovun bu sərt sözləri sovet rəhbərliyinin ciddi narahatçılığına səbəb oldu. Çünki 1921-ci ilin əvvələrində digər nüfuzlu müsəlman kommunistləri də Moskvanın müstəmləkəçiliyi haqqında danışmağa başlamışdılar.

§2. Moskva konfransının başlanması və rus-türk müzakirələrində Naxçıvan məsələsi

Fevral ayının 26-da başlanan Moskva konfransında Sovet Rusiyasını Georgi Çiçerin və Cəlaləddin Korkmasov, türk heyətini isə Yusuf Kamal bəy, doktor Rıza Nur və Ali Fuad Cəbəsoy təmisil edirdi.[53] Konfransın ilk iclası Çiçerinin sədrliyi ilə keçdi. O, giriş nitqində Moskva konfransının Şərqin tarixində böyük rol oynayacağını bildirir, Rusiya və Türkiyə arasında dostluğun möhkəmlənməsində mühim hadisə olacağını qeyd edirdi. Hər iki ölkənin yaxın tarixinə toxunaraq, Çiçerin deyirdi ki, rus əsgərlərinin Ərzurum divarları yanında kütləvi şəkildə məhv olmasının, onların müsəlman əhalisini əzməsinin bütün günahı çar Rusiyası rejiminin müstəsna dərəcədə Türkiyəyə nifrət etməsində idi. I Nikolay Müqəddəs Sofiya məbədinə[54] xaç sancmağın bütün rus xalqının arzusu olduğunu xəyal etməkdə yanılmışdı. Bu mütləqiyyətin ideyası idi, təkəbbürlü zadəganların idealı idi, lakin rus xalqının geniş kütlələri, rus kəndliləri heç vaxt bu işğalçılıq iddialarını bölüşməyib... Eyni ilə, yeni Rusiyanın yaxın dostu Əbdül Həmidin köhnə Türkiyəsi deyil, bir-birilə rəqabət aparan imperialist koalisiyaların birinin üzvü olan Brest-Litovsk dövrünün Türkiyəsi deyil, Anteyə[55] bənzər yeni qurulan Türkiyədir".[56] G.Çiçerin türk xalqının apardığı milli mücadiləyə toxunaraq, Sevr müqaviləsinin ölkəyə gətirdiyi bəlalar və Türkiyənin öz varlığını təsdiq edəcəyinə inamını ifadə etdi. O dedi: "Bizim hazırladığımız

[52] N.Nərimanovun V.Leninə məktubu. 19.02.1921.// RDSSTA, f.2, s.1, i.24503, v.1-1(arxası)

[53] Ali Fuat Cebesoy. Moskova Hatıraları. İstanbul, 1955, s.146

[54] Ayasofiyaya – Müqəddəs Sofiya Məbədi Bizans imperatoru Yustinianın dövründə 532-537-ci illərdə Konstantinopolda (İstanbulda) tikilmişdir. 1453-cü ildən əlavə tikililərlə birlikdə məscid kimi istifadə edilir.

[55] Antey - qədim Yunan mifologiyasına görə, nəhəng pəhləvan, Dəniz Allahı Poseydonun və Yer ilahəsi Geyanın oğlu, Liviya hökmüdarı idi, yenilməz sayılırdı.

[56] Moskvada rus-türk konfransı. Plenar iclas. 26.02.1921.// RF XSA, f.04, s.39, q.232, i.12, v.26-27

müqavilə layihəsində İstanbul məsələsinin üzərindən sükutla keçilə bilməz. Rus hökuməti adından mən bəyan edirəm ki, İstanbul Türkiyə şəhəri olub və Türkiyə şəhəri olacaq. Biz İstanbulu fəth etməyi öz qarşısına məqsəd qoyan Rusiya hökumətinin keçmiş iddialarından həmişəlik və qəti olaraq imtina edirik. Hazırda Nesselrod və Qorçakovun yerində olmaqla, mən təntənəli şəkildə bəyan edirəm ki, biz Rusiyanın əsirlər boyu davam edən bu iddialarını mühakimə və rədd edirik. İstanbul Türkiyənin milli paytaxtı olmalıdır. Türkiyəyə bitişik olan dəniz sahilləri də, ona məxsus olmalıdır".[57] G.Çiçerin Türkiyə haqqında, türk xalqı və Türkiyə Böyük Millət Məclisi haqqında bir sıra yüksək fikirlər səsləndirdikdən sonra konfransı açıq elan etdi.

Türkiyə nümayəndəliyi adından konfransın açılışında heyətin başçısı Yusuf Kamal bəy çıxış etdi. O, öz xalqının müstəqilliyi uğrunda mübarizə aparan türk xalqı, türk əsgəri baradə dediyi tərifli sözlərə görə, Çiçerinə təşəkkürünü bildirdi. Yusuf Kamal bəy türk xalqının heç vaxt Sevr müqaviləsi ilə barışmayacağını, rus xalqı ilə birlikdə beynəlxalq imperializmə qarşı mübarizə aparacağını, bu arzusuna yetişmək üçün rus xalqına təmiz ürəklə əl uzatdığını qeyd edib, dedi: "Coğrafi, tarixi, iqtisadi və siyasi şərait bizə Rusiyanın yolunu göstərdi.Yeni Rusiyanın nümayəndələri qarşısında bütün məsuliyyəti ilə deyirəm ki, türklər səmimidirlər və bizə inanın. Kimlər ki, dünya siyasətini yönləndirirlər, qoy müzakirələr aparsınlar, onlar tarixin gedişini döndərməkdə acizdirlər, bizim aramızda başlanan müzakirələr seçdiyimiz doğru yoldan bizi sapındıra bilməz".[58] Nümayəndə heyətlərinin başçılarının çıxışlarından sonra Rusiya heyəti müzakirəyə hələ əvvəlki danışıqlar zamanı hazırlanmış, əlavə və düzəlişlərə ehtiyacı olan bir layihə təqdim etdi və türklər bununla razılaşdı. Qarşılıqlı müzakirələr nəticəsində siyasi, hüquqi və redaksiya komissiyalarının yaradılmasına qərar verildi. İclas axşam saatlarında başa çatdı və növbəti iclasın vaxtı qarşılıqlı razılıq əsasında müəyyən edilməli idi.

Moskva konfransının açılışı barədə B.Şahtaxtinski elə həmin gün Azərbaycanın xarici işlər komissarı M.D.Hüseynova geniş məlumat göndərmişdi. Bu məlumatda o, həm konfransın ilk günündə aparılan müzakirələr, həm də Moskva konfransında Azərbaycanın iştirakı barədə fikir və mülahizələrini ifadə etmişdi. Şahtaxtinski yazırdı: " Bu gün şənbə günü, fevralın 26-da Rusiya və Ankara hökuməti nümayəndələrinin iş-

[57] Yenə orada, v.28
[58] Yenə orada, v.30

tirakı ilə konfrans başlayır. Türklərlə Azərbaycan arasında müqavilə məxsusi olaraq, Bakıda bağlanacaqdır. Onlarla Azərbaycan arasında heç bir mübahisəli məsələ olmadığını qəti şəkildə bəyan edərək, türklər konfransda Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakını arzulamırlar. Azərbaycanla müqavilə isə xüsusi olaraq bağlanacaqdır. Onlar Ermənistan nümayəndələrinin iştirakına qarşı ona görə müqavimət göstərirlər ki, türklər Gümrü müqaviləsini qüvvədə saxlamaqda davam edir və ondan imtina etmək istəmirdilər. Rusiya, əlbəttə ki, bizimlə ayrıca müqavilənin bağlanmasının əleyhinə deyildir, lakin hər halda, o əvvəlcə Azərbaycan, sonra isə Ermənistan nümayəndələrini konfransa qatmaq istəyir. Mənim orada nə haqdasa qəti şəkildə danışa bilməyəcəyimə istinad edərək, mən şəxsən Azərbaycanın konfransda iştirakına mənfi münasibət bəsləyirəm, əhəmiyyətsiz məsələlərdə isə türklərin əleyhinə getmək, ümumiyyətlə, bizə sərfəli deyildir, çünki, mən onların üzərində böyük təsirə malikəm, məni Anadoluda hələ çoxlu manevrlər gözləyir, əgər Azərbaycana heç bir dəxli olmayan məsələlər barədə konfransda türklərin əleyhinə çıxış etsəm, mən bütün bunları itirə bilərəm. Mənim bəyanatım bu gün müzakirə olunacaq və hələ məlum deyil hansı qərar qəbul olunacaq".[59] Rusiya ilə Türkiyə arasında münasibətlərə gəlincə, B.Şahtaxtinski yazırdı ki, "Rusiya türklərlə ittifaq haqqında deyil, dostluq və qardaşlıq haqqında müqavilə bağlayır, belə ki, İngiltərə ilə danışıqlar aparılır və güman etmək olar ki, saziş əldə olunub. Maddi və digər yardımlar türklərlə bağlanacaq saziş əsasında deyil, digər formalarda göstəriləcək".[60] B.Şahtaxtinski bütün bu məsələlər barədə G.Çiçerinlə iki geniş və bir qısamüddətli söhbətinin olduğunu yazırdı.

Moskva konfransının işə başlamasından bir gün əvvəl, Sovet Rusiyası Cənubi Qafqazın üçüncü respublikasını – Gürcüstanı da fevral ayının 25-də sovetləşdirə bilmişdi. Gürcüstanın sovetləşməsi regionda yeni geosiyasi vəziyyət yaratmış və Moskva konfransında Sovet Rusiyasının mövqelərini gücləndirmişdi. Gürcüstanın sovetləşməsi ilə bağlı Azərbaycanın Rusiyadakı səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin fikrini soruşduqda o, təklif etmişdi ki, "Dağıstanı da daxil etməklə bütün Cənubi Qafqaz respublikalarını bir ümumi qazana yığıb, yəni, Rusiya Federasiyasına daxil olacaq bir Qafqaz respublikası yaratmaq lazımdır. Yalnız bu yolla sərhədlər və digər məsələlər haqqında mübahisələrə son qoymaq olar. Güman etmək olar ki, bu məsələyə

[59] B.Şahtaxtinskinin M.D.Hüseynova məktubu. 26.02.1921.// ARPİİ SSA, f.609, s.1,i.94, v.2
[60] Yenə orada, v.2; Əlavə məlumat üçün bax: M.Qasımov. Xarici dövlətlər və Azərbaycan. Bakı, 1998, s.139-140

biz hələ bir dəfə də, qayıdacağıq və onu burada bütün təfərruatları ilə müzakirə edəcəyik".[61] Lakin Gürcüstanın sovetləşməsi ilə eyni vaxtda Ermənistanda antisovet üsyanın başlaması və sovet hakimiyyəti orqanlarının İrəvandan qaçması vəziyyəti mürəkkəbləşdirsə də, Moskvada buna müvəqqəti hal kimi baxılır, Qafqaz respublikalarının birləşdirilib, əyalət halına salınması barədə fikir mübadiləsi edilirdi. B.Şahtaxtinski yazırdı: "Azərbaycanın müstəqilliyini mən Ermənistan və Gürcüstanın sovetləşdirilməsinə qədər şərtləndirirdim. Bu ölkələrin sovetləşməsi ilə Qafqazda yeni idarəçilik forması olacaqdır. Təşəbbüs məndən gələcəkdir".[62] Bunun üçün çox gözləmək lazım gəlmədi. Mart ayının 1-də B.Şahtaxtinski öz təklifləri ilə Sovet Rusiyasının XKS-in sədri V.Leninə müraciət etdi. Onun fikrincə, qarışıq əhalinin yaşadığı ərazilərdə xalqların öz müqəddəratını təyin etmə prinsipinin şərhinə çox geniş imkanlar yarandığından, Qafqaz respublikaları arasında ərazi mübahisələrinə son qoymaq üçün onları Cənubi Qafqaz respublikası adı altında birləşdirib Rusiyanın tərkibinə daxil etmək lazımdır. Şahtaxtinski yazırdı ki, əks təqdirdə, bu, və ya, digər respublika tarixi hüquqlar, iqtisadi şərait, dövlət sərhədlərinin müdafiəsi adı altında yeni "prinsiplər" dövriyyəyə buraxacaqlar və bu da, həmin respublikalar arasında narazılığın güclənməsinə, onların İngiltərə, Türkiyə və digərlərinə meyl etməsinə gətirib çıxaracaq. O yazırdı: "Mənim fikrimə görə, bütün münasibətlər baxımından Cənubi Qafqazda ərazi, iqtisadi və digər mübahisələrin həllinin ən mümkün, daha əlverişli, məqbul və məqsədəuyğun forması, Dağıstan və dağlıları da, bura daxil etməklə, bütün Cənubi Qafqaz respublikalarını bir Qafqaz respublikasında birləşdirmək və Rusiya Federasiyasına daxil olmaqdır".[63] Lakin həmin məktubun sonuna B.Şahtaxtinski əlyazma formasında əlavə edib ki, əleyhinə hər hansı etiraz olarsa, o, Dağıstanın Qafqaz Respublikasına daxil edilməsində təkid etməyəcəkdir. Eyni zamanda, Şahtaxtinski Cənubi Qafqaz Respublikaları arasında mübahisə obyekti olan ərazilər haqqında arayışı da Leninə məktuba əlavə etmişdi.[64]

[61] B.Şahtaxtinskinin M.D.Hüseynova məktubu. 26.02.1921.// ARPİİ SSA, f.609, s.1,i.94, v.2-2(arxası)

[62] Yenə orada, v.2(arxası)

[63] B.Şahtaxtinskinin V.Leninə məktubu. 01.03.1921.// RDSSTA, f.5, s.1, i.2796, v.3-3(arxası)

[64] Cənubi Qafqaz Respublikaları arasında mübahisə obyekti olan ərazilər. 01.03.1921.// RDSSTA, f.5, s.1, i.2796, v.4-4(arxası)

Azərbaycanın Moskvadakı səlahiyyətli nümayəndəsi B.Şahtaxtinski Azərbaycanın konfransa qatılmaması məsələsində türklərlə eyni mövqedə dayansa da, lakin rus-türk danışıqlarının iki mübahisəli məqamlarından biri Batumla bağlı idisə, digəri məhz, Naxçıvanla bağlı idi. Türkiyə nümayəndələri istər, konfransın açılışından əvvəl qeyri-rəsmi görüşlərində, istərsə də, konfrans açıldıqdan sonrakı müzakirələrdə Naxçıvan məsələsinə böyük əhəmiyyət verirdilər. Hələ Moskvaya yola düşmək ərəfəsində nümayəndə heyətinin başçısı Yusuf Kamal bəy Mustafa Kamal paşa ilə görüşərkən ondan soruşmuşdu: "Paşam, ruslar Naxçıvan üzərində israr edərlərsə, nə edək?" Kamal paşa cavab vermişdi ki, "Naxçıvan türk qapısıdır. Bu xüsusu nəzərə alaraq, əlinizdən gələni edin".[65]

Konfransın açılışında təmtəraqlı fikirlər söylənməsinə baxmayaraq, komissiyalarda müzakirələr elə də, rəvan getmirdi. Danışıqların gedişində türklər "Milli Pakt" (Misak-ı Milli) ideyasını irəli sürmüşdülər ki, bu da Batum, Qars və Ərdahanın Türkiyə ərazisi kimi tanınmasını, orada yeni rəy sorğusu keçirilməsini, Gümrü müqaviləsinin qüvvədə saxlanmasını özündə ehtiva edirdi. Öz mövqelərini əsaslandırmaq üçün türklər hətta, 1831-ci ildən başlayaraq, bu regionların əhalisinin dini və milli tərkibi haqqında statistik materiallar hazırlamışdılar. Təqdim edilən məlumatlara uyğun olaraq 1831-ci ildə Qarsda əhalinin 92,8 faizi (91.053 nəfər) müsəlman, yalnız 7,2 faizi (7.041 nəfər) xristian idi. 1871-ci ilə qədər Qarsın əhalisi kəskin şəkildə artsa da (müsəlmanların sayı 207.876 nəfərə, xristianların sayı 14.982 nəfərə çatmışdı), əhalinin dini-etnik nisbətindəki fərq əvvəlki qaydada davam edirdi, müsəlmanlar əhalinin 93 faizini, xristianlar isə 7 faizini təşkil edirdi. Yalnız 1877-1878-ci il müharibəsi nəticəsində Qars Rusiya imperiyasının tərkibinə qatıldıqdan sonra əhalinin dini-etnik nisbətində kiçik dəyişiklik qeydə alınmış, müsəlmanların sayı 88,6 faizə (255.780 nəfər) enmiş, xristianların sayı isə 11,4 faizə (29.160 nəfər) yüksəlmişdi. Türklərin məlumatına görə, I Dünya müharibəsi illərində Qafqaz cəbhəsində əməliyyat meydanına çevrilmiş bu rayonlarda əhalinin sayı kəskin şəkildə azalsa da, 1918-ci ildə Qars, Ərdahan və Batumun 318.926 nəfər əhalisinin 272.691 nəfəri (85 faizi) müsəlman, 46.235 nəfəri (15 faizi) xristian idi.[66] Hətta, müzakirələrin davam etdiyi günlərdə Millətlər Komissarlığının Moskvada nəşr olunan "Jizn nasionalnostey" jurnalı yazırdı ki, Ermənistanın Qars və Ərdahanı

[65] Türk Dünyası Tarih Dergisi, Nisan 1992, Sayı 64, s.5-6

[66] Bax: Short Synopsis of the Region of Kars and Ardahan.// The National Archives and Records Administration USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/3-446

tələb etməsi imperialist siyasətdir, ilk növbədə ona görə ki, bu vilayətlərin əhalisinin 67 faizini müsəlmanlar təşkil edir.[67]

Siyasi komissiyanın fevral ayının 28-də keçirilən altı saatlıq iclasında bu məsələlər geniş müzakirə edilmişdi. Bu iclas haqqında İ.Stalinə geniş hesabat hazırlayan G.Çiçerin türklərlə danışıqların çox çətin getdiyini bildirirdi. O yazırdı: "Bütün münasibətlər baxımından onların tələbləri əfsanədir, yeri gəlmişkən, onlar hökumətdən üç gün müddətinə cavab tələb edirlər və bəyan edirlər ki, imtina ediləcəyi təqdirdə geri dönəcəklər. Hər şeydən əvvəl, biz onların hələ İstanbulda parlamenti qovana qədər qəbul etdikləri və onlar üçün xartiya xarakteri daşıyan, dillərində xüsusilə müqəddəs və toxunulmaz hesab edilən "Milli Pakt"ları (Misak-i Milli)[68] ilə üzləşmişik. Həmin "Milli Pakt"ın ikinci maddəsində bildirilir ki, artıq 1917-ci ildə Batum, Ərdahan və Qars sancaqlıqları ana vətənə birləşdirilmişdir və Türkiyə razıdır ki, yenidən orada referendum keçirsin".[69] Lakin, Çiçerin Stalinə yazdığı kimi, əhalisi əsasən, acar müsəlmanlarından ibarət olan bir sancaqda referendum keçirilməsini uyğun hesab etmirdi. Uzun və gərgin sürən danışıqlarda Yusuf Kamal sovet nümayəndəsi Mdivaninin şəxsi qaydada türklərin Batuma girmələrinə razılıq verdiyini Çiçerinə bildirdi. Çiçerin bu faktı unutmadı və konfrans başa çatdıqdan sonra bu faktın dəqiqləşdirilməsini Orconikidzedən xahiş edirdi. Hətta, Qarabəkir paşanın öz məktubunda bu fakta işarə etməsi Çiçerinin təbirincə həddindən artıq qəribə təsir bağışlayırdı.[70] Rus-türk müqaviləsinin taleyinin Batumdan asılı olduğu məlum olduqda, Türkiyə nümayəndə heyətinin üzvü Rıza Nur ötəri olaraq qeyd etmişdi ki, Batum məsələsinə xüsusi baxılacağı haqqında qeyd əlavə etməklə, "Milli Pakt"ı qəbul etmək olar. Lakin Yusuf Kamal bütün gücü ilə buna qarşı çıxmışdı və "Milli Pakt"ın heç bir şərt olmadan qəbul olunmasını zəruri hesab etmişdi. Onun fikrincə, Misak-i Milli və Gümrü müqaviləsi toxunulmaz olmalı idi. Çiçerin Stalinə yazırdı: "Əslində, bunu onlar, guya, erməni kommunistlərinin, yalnız qırmızılaşmış daşnaklar olması ilə əsaslandırırlar. Formal olaraq onlar bəyan edirlər ki, Batum məsələsi Gürcüstana, Gümrü müqaviləsi isə, Ermənistana aid məsələdir, bu məsələlər bizimlə deyil, həmin dövlətlərlə müzakirə olunmalıdır. Yeri gəlmişkən nümayəndəlik Gürcüstan, Ermənistan və Azərbaycanla danışıqlar aparmaq üçün heç bir səlahiyyətə malik deyildir. Nümayəndələrin səlahiyyəti müstəsna olaraq Rusiya ilə siyasi müqavilə və hərbi ittifaq bağlamağadır. Onlar gedə bilərlər, onların hökuməti sonra Gürcüstan, Ermənistan və Azərbaycan ilə danışıqlar aparmaq üçün digər nümayəndəlik göndərə bilər. Lakin onlar bunu edə bilməzlər. Bizim əvvəlki müşavirələrimizdə onlar bunu deməmişdilər. Bu dəlil yalnız bu gün ortaya atılıb və bizim hökumətdən üç gün müddətinə qəti cavab tələb edilməsi ilə nəticələnib".[71] G.Çiçerin danışıqların gedişi barədə sovet siyasi və hərbi rəhbərliyinə göndərdiyi məlumatda yazırdı ki, "türklər bizə ültumatum veriblər"[72].

[67] Bax: Жизнь национальностей, 1921, 4 марта

[68] Ərzurum və Sivas konqreslərinin əsas qərarlarını özündə birləşdirən Misak-i Milli (Milli Pakt) Mustafa Kamal paşa tərəfindən hazırlanmış və 1920-ci ilin yanvar ayının 28-də İstanbulda Osmanlı parlamenti tərəfindən qəbul edilmiş və fevral ayının 17-də dünyaya bəyan edilmişdi. Geniş məlumat üçün bax: Türkiye Cümhuriyeti Tarihi. Cilt I, Ankara, 2004, s.185-187

[69] G.Çiçerinin İ.Stalinə məktubu. 28.02.1921.// RDSSTA, f.159, s.2, i.57, v.16

[70] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 28.04.1921.// RDSSTA, f.5, s.1, i.2097, v.22

G.Çiçerin türk nümayəndə heyəti ilə məsələləri şəxsi münasibətlər vasitəsi ilə yoluna qoymağı təklif edirdi. Bu məqsədlə o, Cəmaləddin Korkmasovdan istifadə etməyə çalışırdı. Amma, eyni zamanda, Korkmasova da axıracan etibar etmirdi. Korkmasov Yusuf Kamal bəylə şəxsi söhbətlərindən sonra Çiçerinə məlumat vermişdi ki, türklər Misak-i Milli bütövlükdə qəbul edildikdən sonra, Batum haqqında deyd-şərt əlavə edilməsini mümkün hesab edirlər. Çiçerin Stalinə yazırdı: "Gümrü müqaviləsinə münasibətdə Yusuf Kamal, guya, deyib ki, əgər Türkiyənin qarşısında həqiqi kommunist Ermənistanıdırsa, onda belə nəticə çıxarmaq olar ki, Gümrü müqaviləsi öz mənasını itirir. Hər ehtimala qarşı bu günlərdə şəxsi söhbətləri güclü şəkildə inkişaf etdirmək lazımdır, görünür, yalnız, şəxsi danışıqlar yolu ilə onlarla sövdələşmək olar. Bunun üçün Xəlili *(Xəlil Kut paşa nəzərdə tutulur – C.H.)* və digər türkləri fəaliyyətə gətirmək lazım gələcək. Aydındır ki, iclaslarda və ümumiyyətlə, mənimlə söhbətlərdə onlar bir qarış da, olsun öz türk təkəbbürlərindən geri çəkilməyəcəklər".[73] Rus-türk danışıqlarının kəsilmək həddinə yetişdiyi bir məqamda, həmin vaxt Moskvada olan Ənvər paşa və B.Şahtaxtinskinin araya girməsi böhranı aradan qaldırdı. Ənvər paşa Ali Fuad paşaya tövsiyə etdi ki, bir qəsəbəyə görə, ruslarla münasibətləri pozmasınlar. B.Şahtaxtinski isə, türklərlə uzun-uzadı söhbətlərdə Şərq

[71] G.Çiçerinin İ.Stalinə məktubu. 28.02.1921.// RDSSTA, f.159, s.2, i.57, v.17

[72] S.Sonyel. Türk Kurtuluş Savaşı ve Dış Politika. II, TTKB, Ankara, 1991, s.54

[73] G.Çiçerinin İ.Stalinə məktubu. 28.02.1921.// RDSSTA, f.159, s.2, i.57, v.17; Xəlil paşanın Moskvadakı fəaliyyətləri haqqında geniş məlumat üçün bax: Taylan Sorgun. Halil Paşa. İttihad ve Tarkki'den Cumhuriyet'e Bitmeyen Savaş. 6. Baskı. Destek Yayınevi, İstanbul, 2010, s.244-254

sərhədlərində kiçik bir dəyişikliklər müqabilində onlara Stalin və Çiçerinin dəstəyini vəd edirdi.[74]

Rusiyalı ekspertlər türk "Milli Pakt"ını təhlil edərək, Batum, Qars və Ərdahanın guya, "Milli Pakt"a daxil olmadığı və Rusiyanın heç vaxt, heç yerdə bu sancaqları türk əraziləri kimi tanımadığı barədə Xarici işlər Komissarlığına rəy vermişdilər.[75] Bu şəraitdə hətta, Çiçerinin Krestinskiyə mart ayının 1-də göndərdiyi məktubdan aydın olur ki, türk nümayəndələrinin danışıqları yarımçıq qoyub, Ankaraya qayıtması belə, istisna olunmurdu. Çiçerin yazırdı ki, Türkiyəyə münasibət məsələsi müstəsna dərəcədə ciddi və böhranlı məqama yetişmişdir. O, xəbərdarlıq edirdi ki, Türkiyənin bütün orientasiyası dəyişə bilər və belə dönüşün nəticələri Sovet Rusiyasının Şərqdə bütün siyasəti üçün ağır fəsadlar verə bilər. Bu şəraitdə Rusiyanın Ankarada səfirinin olmamasını Çiçerin yolverilməz hesab edirdi. Ankarada olan sovet nümayəndəliyinin katibi Upmalın fəaliyyətini o, elə də, yüksək qiymətləndirmirdi, Mdivanini isə türklərin təsiri altına düşməkdə günahlandırırdı. Onun tərəfindən Ankaraya səlahiyyətli nümayəndə vəzifəsinə namizədliyi irəli sürülən Karl Danişevski və Vyaçeslav Menjinskinin namizədliyindən isə imtina edilmişdi. K.Danişevskinin namizədliyini Çiçerin hələ 1921-ci ilin yanvar ayında irəli sürmüşdü. Yanvarın 24-də RKP MK-ya ünvanladığı məktubda, o, yazırdı ki, Ankarada Sovet Rusiyasının səlahiyyətli nümayəndəsinin olmaması sovetlərin Şərq siyasəti üçün əsil fəlakətdir. Eyni zamanda, Çiçerin Qafqaz xalqlarından kiminsə Ankaraya səlahiyyətli nümayəndə göndərilməsini arzuedilməz hesab edirdi.[76] Menjinskinin namizədliyini isə, Çiçerin fevral ayının 3-də Krestinskiyə göndərdiyi məktubda irəli sürmüşdü. O, qeyd edirdi ki, türklər artıq, Moskvaya səfir vəzifəsinə təyinat almış Ali Fuad paşa ilə gəlirlər, bizim Ankaradakı "missiyanın katibi" isə açıq radio məlumatlarında Ankara ilə münasibətləri sərinləşdirməyi tövsiyə edir. Ankara hökumətinin kommunistlərə pis münasibətini nəzərə alaraq, Anakaradakı sovet missiyasının katibi Upmal Mustafa Kamal paşanı sultana bənzədərək, Moskvaya göndərdiyi şifirli məlumatda yazırdı: "Anadoluya hər hansı köməyi dayandırmaq lazımdır, zira sultanla bizim heç bir ümumi işimiz ola bilməz". Çiçerin artıq Upmalın geri çağrılması haqqında qərar qəbul olunduğunu bildirir, Türkiyədə hakimiyyətin hərbçilərin əlində olduğunu nəzərə alaraq, ora Danişevski kimi, nüfuzlu bir hərbiçinin, bu mümkün olmadıqda, mərkəzi aparatda nüfuzu və diplomatik təcrübəsi olan Menjinskini göndərilməsini məqsədəuyğun bilirdi.[77] Hətta, RK(b)P MK-nın Təşkilat Bürosu Danişevskini Ankaraya səlahiyyətli nümayəndə vəzifəsinə təsdiq etsə də, son anda o, özü bundan imtina etmişdi.[78] İndi Çiçerin təcili olaraq, nüfuzlu bir sovet işçisinin Türkiyəyə səfir göndərilməsini vacib hesab edirdi. O yazırdı: "İndi Türkiyə ilə münasibətlər ciddi şəkildə böhranlı həddə yüksəlmişdir. Türkiyə nümayəndə heyəti elan etmişdir ki, Batum, Qars və Ərdahanın türklərə verildiyini və orada rəy sorğusu keçirməyi özündə əks etdirən "Milli Pakt", Ermənistanın əhəmiyyətli hissəsini Türkiyəyə verən, qalan hissəsini isə faktiki olaraq, onun vassalına çevirən Gümrü müqaviləsi toxunulmaz saxlanılmalıdır. Günbəgün Batumun türklər tərəfindən tutulmasından ehtiyatlanmaq lazımdır. Bu konfransın gedişinin necə olmasından asılı olmayaraq, bizim qarşımızda Türkiyə ilə münasibətlərimizin son dərəcə ağır bir mərhələsini keçmək məsələsi dayanır. İndi bizim Ankarada səfir vəzifəsi, sən demə, dünya siyasətinin kəsişmə nöqtəsinə çevrilib. Türkiyənin Şərqdə oynadığı rol və indiki anda Şərq məsələsinin əhəmiyyəti baxımından Ankara bizim diplomatik işimizin başlıca məntəqələrindəndir. Bütün bunlara görə biz hesab edirik ki, Ankaraya bizim daha görkəmli diplomatlardan biri göndərilməlidir. Nəzərə alsaq ki, yodaş Maksim Litvinov[79] Reveldə baş vermiş xaosu, demək olar ki, aradan qaldırmışdır, biz təklif edirik ki, yoldaş Litvinov Ankarada bizim səlahiyyətli nümayəndəmiz təyin edilsin".[80] Çiçerin bütün Qafqazın sovetləşməsindən sonra bunu xüsusilə əhəmiyyətli hesab edirdi və İngiltərəyə də bu təyinatın izah edilməsinin mümkün olacağını vurğulayırdı. Bundan əlavə, Çiçerinin fikrincə, nə qədər ki, "Milli Pakt" və Gümrü müqaviləsinə görə rus-türk danışıqları pozulmamışdır, Türkiyə

[74] Bax: Serpil Sürmeli. Türk – Gürcü ilişkileri (1918-1921). Ankara, 2001, s.650-651

[75] Rusiyalı ekspertlərin türk "Milli Pakt"ı haqqında G.Çiçerinə rəyi. 02.03.1921.//RF XSA. f.04, s.39, q.232, i.52997, v.17-17(arxası)

[76] G.Çiçerinin RK(b)P MK-ya məktubu. 24.01.1921.// RDSSTA, f.159, s.2, i.57, v.14

[77] G.Çiçerinin N.Krestinskiyə məktubu. 03.02.1921.// RDSSTA, f.159, s.2, i.57, v.15

[78] XXİK-in RK(b)P MK-ya məlumatı. 10.02.1921.// RDSSTA, f.159, s.2, i.57, v.11

[79] Maksim Maksimoviç Litvinov (Vallax Meer-Qenox Movşeviç) (1876-1951) – 1918-ci ildə Sovet Rusiyasının Böyük Britaniyada müvəqqəti işlər vəkili, 1918-1920-ci illərdə RSFSR XXİK-ın kollegiyasının üzvü, 1920-1921-ci illərdə RSFSR-in Estoniyada müvəqqəti işlər vəkili, 1921-1930-cu illərdə RSFSR və SSRİ Xarici işlər komissarının müavini, 1930-1939-cu illərdə SSRİ Xarici işlər komissarı vəzifələrində işləyib. M.M.Litvinov haqqında geniş məlumat üçün bax: Максим Максимовеч Литвинов: революционер, дипломат, человек. М.: Политиздат,1989

[80] G.Çiçerinin N.Krestinskiyə məktubu. 01.03.1921.// RDSSTA, f.5, s.2, i.315, v.20-21

nümayəndələri geri dönməmişdir, Litvinovun təyinatı tezliklə qəzetlərdə dərc edilməli idi ki, hamı Sovet Rusiyasının Türkiyə ilə sülh və dostluq şəraitində yaşamağı arzu etdiyini görsün. O yazırdı: "Bu Türkiyə nümayəndələrinin buradan getmələrinin son dərəcə zərərli olan nəticələrini müəyyən dərəcədə heçə endirə bilər. Ona görə, təcili şəkildə bunu etmək zəruridir, belə ki, türk nümayəndələri növbəti iclası cümə axşamına təyin etməyi tələb edirlər, onların gedişi çox tezliklə baş verə bilər".[81] Lakin Çiçerinin mart ayının 2-də Stalinə göndərdiyi məktubdan aydın olur ki, Kiçik Asiyada "əsgərin və kütlənin sovetlərin arxasında olduğu bir vaxtda" Maksim Litvinov Ankaraya getməkdən qəti şəkildə imtina edib. Gürcüstan Sovet Rusiyası tərəfindən ələ keçirildikdən sonra, Ankaraya səlahiyyətli nümayəndə təyin edilməsi məsələsi daha da aktuallaşmışdı. Mdivani Çiçerinə olan teleqramında xəbərdarlığ edirdi ki, gürcü hadisələri Ankaranın iştahını daha da artırmışdır və hər şeydən göründüyü kimi, türklər Artvin və Ərdahanla məhdudlaşmayacaqlar, Batuma doğru irəliləyəcəklər. O yazırdı ki, türklər daşnaklar dövründə Ermənistanı udmağı daha uyğun hesab edirdilər, nəinki, kommunistlər dövründə Sovet Rusiyası tərəfindən müdafiə edilən Sovet Ermənistanı.[82]

G.Çiçerin danışıqların gedişində İ.Stalindən xahiş etmişdi ki, türk nümayəndələri ilə görüş zamanı Sovet Rusiyasının edə biləcəyi mümkün güzəştlərlə bağlı səsləndirdiyi bəyanatın dəqiq məzmununu Xarici İşlər Komissarlığına göndərsin. Bu sorğuya cavab olaraq, Stalin mart ayının 6-da yazırdı: "1.Batum dairəsinin böyük hissəsi RSFSR-ə qalır, Artvin və Ardenuç Türkiyəyə keçir, RSFSR-lə Türkiyə arasında yeni sərhədlər təxminən, Borçxa limanı – Çorox çayı – İmerxevi çayı boyunca şərqə doğru Qars vilayətinin sərhədlərinə qədər davam edir; 2.Hərbçilər Ərdahanı Tiflisin açarı hesab edib, onu Türkiyəyə güzəştə getməyin əleyhinədir, bununla belə, mən (Stalin) ümid edirəm, hərbiçilərə təzyiq göstərib, güzəştə nail olmaq olar. Belə ki, RSFSR ilə Türkiyə arasında sərhədlər təxminən köhnə sərhədlər boyunca Qars vilayəti ilə Tiflis quberniyasının arasından keçməlidir; 3.Gümrü türklərdən təmizlənir, Gümrü-Kəmərli dəmiryolu xətti boyunca (bu xətdən qərbə) təxminən 20 verst içərilərə doğru ərazi RSFSR-in xeyrinə təmin olunur; 4.Naxçıvan məsələsi haqqında son söz Azərbaycanın nümayəndəsinə verilir." Birinci və ikinci bənddə Stalin onun tərəfindən təklif olunan sərhədlərin

[81] Yenə orada, v.21

[82] G.Çiçerinin İ.Stalinə məktubu. 02.03.1921.// RDSSTA, f.159, s.2, i.57, v.21

təxmini xarakter daşıdığını qeyd edir və dəqiq sərhədlərin müvafiq komissiya tərəfindən müəyyən olunacağını bildirirdi.[83]

Doğrudan da, Rusiya Xalq Xarici İşlər Komissarlığının sorğusuna əsasən, Sovet Ordusunun Hərbi Qərargahı mart ayının 4-də Ərdahanın Türkiyəyə verilməsinin əleyhinə Çiçerinə rəsmi rəy göndərmişdi. Həmin rəydə göstərilirdi ki, Ərdahan aşağıda göstərilən bir sıra mülahizələrə görə, sovetlər üçün əhəmiyyətlidir: "1. Əgər Qars və Qars yaylası türklərə keçirsə, onda Ərdahan rayonu həm Qarsa, həm də, Oltı və Ərzurum istiqamətində hücum etmək məqsədilə qüvvələri səfərbərlik etmək üçün əlverişli rayon olardı. Bununla bağlı, əgər biz bütün Ərdahan dairəsini ələ keçirsək, onda Qarsa münasibətdə biz mühasirə vəziyyətini saxlamış oluruq; 2. Ərdahan və onun rayonları türklərə verildiyi halda, onlar indiki gürcü mülklərinə dərindən nüfuz etmək imkanı qazanır və Axalkələk vadisinə yaxınlaşırlar. Bu isə onların Gürcüstanın mərkəzinə soxulmasını asanlaşdırır. Eyni dərəcədə Ərdahan dairəsini ələ keçirmək türkləri Batuma yaxınlaşdırır. Bundan əlavə, Ərdahan rayonundan türklər həmişə Axalkələk və hətta, Xaram vasitəsi ilə bizim Gümrüdən şimala gedən yollarımızı təhdid edəcək." Bununla yanaşı, hərbi qərargah Qarsa Gümrü, Borçalı qəzası vasitəsi ilə Tiflisdən də, yaxınlaşmağı mümkün hesab edirdi və Ərdahanı danışıqların məhək daşına çevirməyi məsləhət görmürdü.[84]

Mart ayının 7-də B.Şahtaxtinski İ.Stalinə məlumat verdi ki, dünən o, türklərlə geniş söhbət edib və indi Naxçıvan, habelə, Batum haqqında məsələ onları az maraqlandırır, türklər əmin oldular ki, bu dairələrlə bağlı bütün mübahisələr əhəmiyyətsizdir, onlar hazırda Batum dairəsinin sərhədləri ilə bağlı məsələlərə hansısa dəyişikliklər etmək istəyirlər. B.Şahtaxtinski qeyd edirdi ki, türklər indi dəmir yolu xəttindən 20 verst geri çəkilmək məsələsinə daha çox əhəmiyyət verirlər. Eyni zamanda, B.Şahtaxtinski təcili olaraq, türklərin Stalinlə görüşmək istədiyini bildirirdi. [85] B.Şahtaxtinski belə bir məlumatı G.Çiçerinə də göndərmişdi və ona da, bildirirdi ki, sazişin bütün maddələrini müzakirə etmək üçün türk nümayəndələri Stalinlə üç saatlıq görüş istəyirlər.[86] Elə həmin gün Çiçerin Stalinə məktubunda bu görüşün arzuolunan olduğunu yazır və bildirirdi ki, sərhəd xəttinin Araz çayı boyunca keçməsini istəyən türklər dəmiryolu xəttindən 20 verst geri çəkilməyə

[83] I.Stalinin G.Çiçerinə məktubu. 06.03.1921.// RDSSTA, f.558, s.11, i.824, v.8

[84] I.ebedevdən Çiçerinə arayış. 04.03.1921.//RF XSA, f.04, s.39, q.232, i.53001, v.21.

[85] B.Şahtaxtinskinin İ.Stalinə məktubu. 07.03.1921.// RDSSTA, f.558, s.1, i.3529, v.1-2

[86] B.Şahtaxtinskinin G.Çiçerinə məlumatı. 07.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.24

etiraz edirlər və onlar buna Qarsın hərbi əhəmiyyətinin heçə endirilməsi kimi baxırlar. Çiçerin yazırdı: "Bilavasitə Araz vadisinə gəldikdə isə, Sürməli qəzasının dağlara bitişik olan cənub hissəsində öz həyat tərzinə görə, soyğunçu olan kürdlər yaşayırlar. Əgər sərhəd Araz çayı üzrə keçsə, heç kim kürdlərin vadinin əhalisini daimi olaraq, talamasının qarşısını ala bilməyəcək". Çiçerin eyni zamanda, bu məktubunda Stalinə digər bir məlumat da, verirdi. O yazırdı: "Xüsusilə, sağ sosialist yönümlü Qərb mətbuatında Moskva imperializminin, guya, azad gürcü xalqına hücum etməsi ilə bağlı böyük təbliğat kampaniyası gedir. Bununla bağlı bakılı yoldaşlar vasitəsi ilə Orconikidzeyə bildirdim ki, Gürcüstan Sovet hökumətinin adından bütün ölkələrin zəhmətkeşlərinə müraciət dərc etmək lazımdır ki, Qərb publikasının qarşısında yalnız tək Moskva deyil, gürcülər, onların sovet xadimləri dayansınlar".[87] Bütün bunları nəzərə alaraq, Sovet Rusiyası Gürcüstanı da təcili olraq, Moskva konfransına cəlb etmək istəyirdi. Bu məqsədlə Çiçerin M.D.Hüseynovdan xahiş etmişdi ki, Moskva konfransında Türkiyə ilə Qafqaz respublikalarının sərhədləri müəyyən ediləcəyindən, Tiflis İnqilab Komitəsi, Gürcüstan Sovet hökumətinin mandatı ilə gürcü yoldaşlardan kimisə Moskvaya göndərməsini onlara çatdırsın.[88] Lakin bu "dəvəti" alana kimi, Ş. Eliava G.Çiçerinə teleqram vurub, Gürcüstan Sovet hokumətinin nümayəndəsinin rus-türk konfransında iştirakının mümkünlüyünü soruşmuşdu.[89] Razılıq alınan kimi, Sxakaya təcili olaraq teleqraf vasitəsi ilə Gürcüstan hökumətinin Moskva konfransında nümayəndəsi təyin edilmişdi.

Martın 7-də Çiçerin Şahtaxtinskiyə göndərdiyi çavabda, türklərlə görüşməyin çox arzuolunan bir iş olduğunu Stalinə yazdığını bildirirdi. Sərhəddin Araz çayı boyunca keçməsinə gəldikdə isə, o, dağlara bitişik ərazilərdə yaşayan kürdlərin yürüşlərindən vadinin əhalisini qorumağın mümkün olmadığı indiki şəraitdə, bunun çətin ki, mümkün olacağını yazırdı.[90] Eyni zamanda, ruslar ölkənin müsəlman əhalisinin Türkiyəyə azad mühacirət etmək hüququnun müqavilədə təsbit edilməsi barədə türk nümayəndələrinin təklifinə çox ehtiyatla yanaşırdılar. Mart ayının 8-də G.Çiçerin Ümumittifaq Fövqəladə Komissiyasına məktub göndərərək, xahiş etmişdi ki, türklərin bü

[87] G.Çiçerinin İ.Stalinə məktubu. 07.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.22

[88] G.Çiçerinin bir başa xəttlə M.D.Hüseynova təlimatı. 09.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.26

[89] Ş.Eliavanın G.Çiçerinə teleqramı. 09.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.27

[90] G.Çiçerinin B.Şahtaxtinskiyə məlumatı. 07.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.23

təklifinə rəy versinlər. UFK bir gün sonra göndərdiyi rəydə, müsəlmanların Rusiyadan kütləvi şəkildə Türkiyəyə köçməsini nəqliyyatın indiki dağılmış vəziyyətində praktiki olaraq, mümkünsüz hesab edirdi. Lakin bu, məsələnin yalnız texniki tərəfi idi. Fövqəladə Komissiya belə hesab edirdi ki, RSFSR-in daxili təhlükəsizliyi nəzərindən müsəlmanların kütləvi emiqrasiyasının Türkiyə ilə müqaviləyə daxil edilməsi, Rusiyanın müsəlmanlarla münasibətlərini kəskinləşdirə bilərdi. Beynəlxalq münasibətlər baxımından belə bir maddənin müqaviləyə əlavə edilməsi Türkiyə hökumətinin Sovet Rusiyasının daxili işlərinə müdaxilə imkanı verirdi. Onlar belə hesab edirdilər ki, müqavilədə belə bir maddənin olması, Türkiyənin sovet vətəndaşları olan müsəlmanların müdafiəçisi rolunda çıxış etməsinə gətirib çıxarar, istənilən ziddiyyət zəminində ona müqavilədən imtina etmək imkanı verər, sovetlərin şərq siyasətinin gələcəyini Türkiyənin iradəsindən asılı edərdi.[91]

B.Şahtaxtinski və G.Çiçerinin müraciətlərindən sonra İ.Stalin türk nümayəndə heyətinin arzusunu nəzərə alıb, onlarla görüş üçün vaxt ayırdı. Mart ayının 9-da Türkiyə nümayəndə heyəti ikinci dəfə İ.Stalinlə görüşə bildi. Bu görüşdə bir sıra mühüm məsələlər barədə razılaşmalar əldə edildi.[92] Həmin razılaşmaların, bir gün sonra toplanan siyasi komissiyanın iclasında Sovet Rusiyası hökuməti tərəfindən bəyənildiyi bildirildi.[93] Martın 10-u axşamına siyasi komissiyanın iclasi təyin edildiyindən Xarici İşlər Komissarlığı çalışırdı ki, Türkiyə ilə müzakirəyə çıxarılacaq müqavilə layihəsini və ona edilən əlavələri müvafiq sovet komissarlıqları və bütövlükdə sovet rəhbərliyi ilə razılaşdırsın. Müqavilənin layihəsi demək olar ki, Siyasi Büronun bütün üzvlərinə göndərilimişdi. Müxtəlif idarələrə göndərilən məktublardan aydın olur ki, İngiltərədən ehtiyat etdiyindən, Sovet Rusiyasının xarici siyasət institutu müqavilənin adında və onun mətnində "imperializmə qarşı mübarizə" ifadəsini işlətməkdən çəkinməyə çalışırdı. Çiçerin RKP MK-ya yazırdı ki, "imperializmə qarşı ittifaq" ifadəsini biz maddənin başlığından çıxara bildik, lakin türklərin bu istiqamətdə bəzi ehtiyatlı təkliflərini biz qəbul etməliyik ki, onlar razı qalsınlar və "fikirləşməsinlər ki, biz sadəcə

[91] RSFSR Ümumittifaq Fövqəladə Komissiyasından G.Çiçerinə. 09.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.25

[92] Bax: The National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc.761.67/3-446

[93] Kamuran Gürün. Türkiye – Sovyet İlişkileri (1920-1953). Ankara, 1991, s.67-68; Candan Azer. Babadan Oğula Güney Kafkasiya. Türkiye – Güney Kafkasiya ilişkileri, s.299

olaraq, onlarla oynayırıq və onlara qeyri-ciddi yanaşırıq. Belə ifadə edilmiş fikir İngiltərə əleyhinə yönəlmiş düşmənçilik hərəkətlərini özündə ehtiva etmir".[94] Martın 10-da Stalinə yazdığı məktubda Çiçerin türklərlə danışıqların bəzi məqamlarına işarə edir və onların Türkiyəyə silah və qızıl verilməsi ilə bağlı məsələləri yazılı sazişlər üzərinə keçirmək cəhdlərinə toxunurdu. Türklər bu təklifləri onların mandatlarının şifahi razılaşmalara deyil, yalnız yazılı sənədləri imzalamağa aid olmaları ilə izah edirdilər. Çiçerin yazırdı: "Əvvəllər onlar bunu yada salmırdılar, onlarla olan bütün söhbətləri və danışıqları xatırlayaraq, mən əmin oldum ki, onlar bunu indi fikirləşiblər". Maliyə və qızıl məsələsinə gəldikdə isə, o, Stalinə bildirirdi ki, "türklər tərəfindən səsləndirilən 150.000.000 qızıl rubl, şübhəsiz ki, Şərq adamının istəyidir. Ötən il Bəkir Sami 8.000.000 rubla təkid etdi. Mərkəzi Komitə 5.000.000 rubl qızıl pul verməyə razılaşdı, onun türklər artıq 3.000.000 rublunu alıblar. Daha 2.000.000 alacaqları qalır... Onların büdcələri üçün bu çox kiçik yardımdır. Nəzərə alınsa ki, biz onlara çox az silah verə bilərik, onlar böyük məbləğdə qızıl verilməsində təkid edirlər ki, özləri silah tapa bilsinlər. Bu maddə əslində, çox böyük rol oynayır, ona görə ki, əgər biz türklərə hiss ediləcək yardım göstərməsək, bizimlə yaxınlaşma onlara real olaraq, çox az şey verir. Əgər onlara kömək etməsək, onlar öz siyasətlərini dəyişməyə məcbur olacaqlar. Ona görə də, bu bənd xüsusi ciddi yanaşma tələb edir".[95] Martın 10-da Leninə göndərdiyi məktubda Çiçerin türklərlə müzakirə edilən müqavilə layihəsinin bütün dairələrlə razılaşdırıldığını bildirir və onun tezliklə imzalanmasını tövsiyyə edirdi. O, Leninə bildirirdi ki. müqavilənin layihəsi ədliyyə komissarı D.Kurski və A.Lejavaya göndərilib və onlardan xahiş edilib ki, təcili şəkildə öz rəylərini bildirsinlər.[96] Ədliyyə Komissarlığına göndərilən müqavilə, yalnız, kiçik bir düzəlişlə səhəri günü Xarici İşlər Komissarlığına qaytarıldı.[97]

Mart ayının 10-da axşam rus-türk konfransının siyasi komissiyası işə başladı. Komissiya iclasın Türkiyə nümayəndə heyətinin başçısı Yusuf Kamal bəy sədrlik edirdi. İclas sərhəd məsələlərinin müzakirəsi ilə başladı. G.Çiçerin və C.Korkmasovdan ibarət olan Rusiya nümayəndələri bəyan

[94] Xarici İşlər Komissarlığından RKP MK-ya. 10.03.1921. // RF XSA. f.04. s.39. q.232. i.53001. v.32

[95] G.Çiçerinin İ.Stalinə məktubu. 10.03.1921.// RF XSA. f.04. s.39. q.232. i.53001. v.31

[96] G.Çiçerinin V.Leninə məktubu. 10.03.1921.// RF XSA. f.04. s.39. q.232. i.53001. v.29-30

[97] Kurskinin Çiçerinə son dərəcə təcili məktubu. 11.03.1921.// RF XSA. f.04. s.39. q.232. i.53001. v.37

etdilər ki, Sovet hökuməti türklərin elan etdiyi ərazi məsələlərini özündə əks etdirən "Milli Pakt"ı tanımağa hazırdırlar, lakin orada bir sıra dəyişikliklərin olunmasını zəruri hesab edir. Bu dəyişikliklər daha çox Batum məsələsinə aid idi. Rus nümayəndələrinin bəyanatında deyilirdi: "Bütün sovet respublikalarının öz aralarında sıx əlaqələrini nəzərə alaraq, Rusiya nümayəndələri hesab edir ki, Batum Qafqazın qapısıdır və sovet dünyasının həyati əhəmiyyətinə güclü şəkildə xidmət edə biləcək yeganə Qara dəniz limanıdır. Ona görə, həmin limanın, ona xidmət edən dəmir və şose yolları sovet respublikalarına, indiki halda isə Gürcüstan Sovet respublikasına məxsus olması zəruridir".[98] Sonra bəyanatda Gürcüstan və Ermənistanla Türkiyə arasından keçən sərhəd xətti ümumi şəkildə əks olunurdu. Rusların təklifinə görə, Ağbaba və Qızıldaş dağları, habelə, Gümrü müqaviləsi ilə müəyyən edilmiş ərazilər Ermənistana birləşdirilməli idi. Rusiya hökuməti Ermənistan sərhədlərinin Arpaçaydan şərqə və Arazdan cənuba uzanmasında təkid etməyəcəkdi, lakin bu halda Rusiya nümayəndələri hərbi nöqteyi-nəzərdən Gümrü-Naxçıvan dəmiryolunun təhlükəsizliyinin təmin edilməsini və kürd tayfalarının mümkün basqınlarının qarşısının alınmasını zəruri hesab edir. Rusiya tərəfinin fikrincə, Türkiyə tərəfi öhdəlik qəbul etməli idi ki, sərhəd xəttinin 8 verstlik eni boyunca ordu saxlamayacaq və sərhəddən bu məsafədə olan sahədə istehkamlar tikməyəcəkdir. Türklər bu təklifi qəbul edirdilər, Batuma gəldikdə isə, onun aşağıdakı şərtlərlə Gürcüstanın süzerenliyinə verilməsinə etiraz etmirdilər: 1.Əhaliyə geniş muxtariyyət verilsin; 2.Müsəlmanların mədəni və dini məsələlərə aid hüquqları, onların torpaqdan azad istifadə etmək haqları tanınsın; 3.Türkiyədən gələn və Türkiyəyə göndərilən bütün növdən olan ticarət mallarının azad tranziti təmin edilsin və bu mallar limanda yığılan bütün rüsum və vergilərdən azad edilsin. Türklərin fikrincə, Acarıstanda yaşayan müsəlmanlara yuxarda göstərilən şərtlər əsasında muxtariyyət veriləcəyi və sərhədlər də, daxil olmaqla, bütün bunları Gürcüstanın tanıyacağı halda Türkiyə Batum məsələsində güzəştə gedə bilərdi. Rusiya nümayəndələri kiçik istisnalarla türklərin şərtləri ilə razı olduqlarını bildirdilər və bu məsələlərin Gürcüstan hökuməti ilə razılaşdırılacağını qeyd etdilər.

Siyasi komissiyanın iclasında Batum məsələsindən sonra, ikinci mübahisəli məsələ kimi, Naxçıvan məsələsi müzakirəyə çıxarıldı. Bu məsələ

[98] Moskva konfransının siyasi komissiyasının iclası. 10.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.12, v.36

ilə bağlı türklər bildirdilər ki, diyarın əhalisinin bilavastə türk ordusunu çağırması faktı özü, "Naxçıvanın Türkiyə himayəsində olması deməkdir. Buna baxmayaraq, Türkiyə bu himayədarlığı bu şərtlə Azərbaycana güzəştə getməyə razıdır ki, Azərbaycan həmin himayədarlığı üçüncü dövlətə güzəştə getməyəcəyinə öhdəlik versin. Əgər əhalinin keçmişdə olduğu kimi, kütləvi şəkildə məhv edilməsi hadisəsi yenidən təkrar olunacaqsa, türk ordusu çətin ki, fəaliyyətsiz qalsın".[99] Rusiya tərəfi analoji qaydada Qars vilayətində qeyri-müsəlmanların da, məhv olma təhlükəsi ilə üzləşə biləcəyini misal gətirərək, sonuncu məsələnin müdaxilə cəhdləri doğuracağından ehtiyatlanırdı. Ona görə onlar sadəcə olaraq, Azərbaycanın himayəsi altında Naxçıvanın muxtariyyəti məsələsini təklif edərək, əlavə olaraq bildirirdilər ki, əgər müqavilənin bu maddəsi pozulardısa, onda bütün müqavilə pozulmuş hesab edilməli idi. Bununla da, Rusiya nümayəndələri Naxçıvanın muxtariyyətinə xüsusi təminat haqqında məsələnin müqaviləyə salınmasına zərurət görmürdülər. Eyni zamanda, Rusiya nümayəndələri Gümrü müqaviləsinin ratifikasiya olunmadığını əsas tutaraq, "Türkiyənin öz himayədarlıq hüququnu güzəştə getməsi" formulu ilə razı deyildilər, bununla yanaşı onlar türk ordusunun əhali tərəfindən bölgəyə çağırılmasının da, belə himayədarlıq üçün hüquqi əsas olmadığını göstərirdilər. Ən nəhayət, rusların fikrincə, icrası Azərbaycan tərəfindən həyata keçiriləcək öhdəliyin müqaviləyə daxil edilməsi bu dövlətin danışıqlarda təmsil olunmaması səbəbindən çətinlik təşkil edirdi. Bütün bunları əsas tutaraq, Rusiya nümayəndələri təklif edirdilər ki, Naxçıvan vilayəti daimi olaraq, Azərbaycanla bağlı olacaqdır və onun himayəsi altında muxtariyyətdən istifadə edəcəkdir. Türklər isə sonuncu cümlənin belə verilməsində təkid edirdilər: "O şərtlə ki, Azərbaycan bu himayədarlığı heç bir üçüncü dövlətə güzəştə getməyəcəkdir".[100] Türklərin bu təklifinə münasibətdə Rusiya nümayəndələrinin hər hansı bir fikir və mülahizəsinin olduğu danışıqların stenoqramında əks olunmadığı üçün onların bu təkliflə razılaşdığını demək olar. Naxçıvanın özünün sərhədlərinin müəyyən edilməsi isə, tərəflərin qarşılıqlı razılaşması ilə hərbi ekspertlərə həvalə edilirdi.

Batum və Naxçıvanla, habelə, sərhədlərlə bağlı bir sıra prinsipial məsələlər əsasən, razılaşdırıldıqdan sonra, danışıqların sonunda tərəflər bəzi maddələrdə bir sıra ifadələri dəqiqləşdirdilər və bəzi əlavələri səsləndirdilər.

[99] Yenə orada, v.39-40

[100] Yenə orada, v.40

Rusiya nümayəndələri növbəti iclasda prinsipial hesab etdikləri daha iki məsələni müzakirəyə təqdim edəcəklərini bildirdilər. Bunlardan birincisi, Sovet Rusiyası ilə imzalanan bütün müqavilələrə belə bir bəndin əlavə edilməsini nəzərdə tuturdu ki, hər tərəf öhdəlik qəbul edir ki, özünün bütün ərazisində və ya onun bir hissəsində digər tərəfə düşmənçilik edən hər hansı təşkilat, silahlı birliyin yaranmasına və fəaliyyət göstərməsinə imkan verməsin. Rusiya nümayəndələrinin Türkiyə ilə müqaviləyə əlavə etmək istədiyi ikinci məsələ, tərəflərin bir-birinə aid olan məsələlərini qarşı tərəfə məlumat vermədən, üçüncü dövlətlə imzaladığı müqavilələrə daxil etməməsi haqqında idi. Bu daha çox Rusiyanın və Türkiyənin danışıqlar apardığı İngiltərənin nümunəsində izah edilirdi. Müzakirələr gecə saatlarında başa çatdıqdan sonra komissiyanın növbəti iclası mart ayının 12-nə təyin edildi.[101]

Lakin mart ayının 11-də məlumat alındı ki, türk hərbi dəstələri "əhalinin alqışları altında" artıq Batuma daxil olub və bu məlumat vəziyyəti bir qədər mürəkkəbləşdirdi.[102] Əslində, mart ayının 8-də türk hərbi hissələrinin Batum, Axıska və Axəlkələkə girməsi haqqında qərar qəbul ediməsi bölgədə baş verən fövqəladə hadisələrlə bağlı idi. Axıska əhalisi menşeviklərə qarşı üsyan qaldırdığından, Gürcüstan hökuməti özü türklərin bu vilayətlərə girməsini istəmişdi. Həmin vaxt Bəkir Sami bəy başda olmaqla, türk nümayəndə heyətinin Londonda apardığı danışıqlarda da bu məsələyə toxunulmuş və qeyd edilən vilayətlərin Türkiyə tərəfindən tutulması uyğun hesab edilmişdi. Məhz, Gürcüstan və Londondan alınan xəbərlərin təsiri altında "Ankara mart ayının 8-də bu üç vilayəti işğal etməyə qərar vermişdi".[103]

Moskva danışıqlarının getdiyi bir vaxtda həm Rusiya, həm də Türkiyə Londonda Britaniya hökuməti ilə danışıqlar aparırdılar və hər iki tərəf müzakirələrin gedişində bunu nəzərə almağa çalışırdı. 1920-ci ilin yayında Moskva missiyasına başçılıq etmiş Bəkir Sami bəy Rusiyadan döndükdən sonra Ankara hökumətinin nümayəndəsi kimi, London konfransına göndərilmişdi. 1921-ci ilin fevral ayının 21-dən mart ayının 12-nə qədər o, Londonda Britaniya siyasi dairələri və o cümlədən, Baş nazir Lloyd Corcla intensiv görüşlər keçirmişdi. Bəkir Sami bəy ingilislərin Sovet Rusiyası ilə

[101] Yenə orada, v.42

[102] Bax: Н.Г.Киреев. История Турция XX век. Москва, 2007, с.140; Moskva konfransı ərəfəsində və rus-türk danışıqları dövründə Batum məsələsi haqqında ətraflı məlumat üçün bax: Serpil Sürmeli. Türk – Gürcü ilişkileri (1918-1921). Ankara, 2001, s.604-703

[103] Stefanos Yerasimos. Kurtuluş Savaşı'nda Türk – Sovet ilişkileri 1917-1923. İstanbul, 2000, s.347

gizli əlaqələrindən məlumatlı idi və türklər yaxşı bilirdilər ki, Cənubi Qafqaz, məhz, Britaniya Baş Naziri Lloyd Corcun xeyir-duası ilə bolşeviklər tərəfindən sovetləşdirilmişdir. Bu danışıqlarda Lloyd Corc vəd etmişdi ki, Türkiyə Sovet Rusiyasına qarşı hərəkətə keçəcəyi təqdirdə, neft Bakısı da daxil olmaqla, bütün Cənubi Qafqaz Türkiyənin himayəsinə veriləcəkdir.[104]

Məhz, Moskva konfransı işə başlayan gün, fevral ayının 26-da London konfransında da erməni məsələsi müzakirəyə çıxarılmışdı. Britaniya xarici işlər naziri lord Kerzonun sədrliyi ilə keçirilən iclasda İngiltərədən siyasi ekspertlər Vansittart, Nikolson, Hauort, podpolkovnik Uolker, Fransadan Bertelo, Kammerer və Massiqli, İtaliyadan qraf Sforts və siyasi ekspert Qalli, Yaponiyadan baron Haqaşi, siyasi ekspert Naqai, katib Sato, İstanbul hökumətindən Romadakı səfir Osman paşa, Ankara hökumətindən Bəkir Sami bəy, doktor Nihat Reşad bəy və Münir bəy iştirak edirdilər. Erməni nümayəndəliyini iclasda Poqos Nübar paşa, A. Ağaronyan və general Baqratuni təmsil edirdi. Hər iki ermən nümayəndəliyi Sevr müqaviləsinin bütövlüyünün qorunmasını konfransdan xahiş etdi. Lakin lord Kerzon bildirdi ki, bu istiqamətdə üç böyük çətinlik vardır. Bunlardan birincisi Rusiya Ermənistanının bolşeviklər tərəfindən sovetləşdirilməsi, ikincisi, Mustafa Kamal paşanın erməni ərazilərinin böyük hissəsini işğal etməsi, üçüncüsü isə, müttəfiqlərin Ermənistana əhəmiyyətli kömək göstərmək imkanına malik olmamasıdır. Lord Kerzon bilmək istəyirdi ki, bu şəraitdə erməni nümayəndələri hansı sərhədləri real hesab edirlər? Lord Kerzona görə, prezident Vilsonun Ermənistan üçün cızdığı sərhədlər real deyildi. Çünki "Böyük Ermənistan" üçün cızılmış bu sərhədlər, hətta, Trabzonu belə öz içinə alırdı, halbuki, erməni nümayəndələri konfransda lord Kerzonun dilindən bunu eşitdikdə, Poqos Nübar paşa bildirdi ki, ermənilərin heç vaxt Trabzona iddiaları olmayıb. Lord Kerzon A.Ağaronyanın Gümrü müqaviləsinə münasibətini soruşduqda, o, bildirdi ki, bu müqavilə Ermənistana zorla qəbul etdirilib və erməni xalqı onunla razı deyil. Sonra Britaniya xarici işlər naziri Kilikiya barədə fransızların fikirini soruşduqda, Bertelo cavab verdi ki, Fransa həmişə Kilikiyadakı xristian azlığını qorumağa çalışmışdır və indi də buna səy göstərir. Fransa nümayəndəsinin çıxışındakı "xristian azlığı" ifadəsi Nübar paşanın etirazına səbəb oldu. O, qeyd etdi ki, ermənilər həmişə Kilikiyada əhalinin çoxluğunu təşkil ediblər və öz fikrini əsaslandırmaq

[104] Bax: The Soviet Union and Turkey.// National Archives and Records Administration of the USA, RG 59, Box: 4010, NND 7600050, Doc. 761.67/12-1045; V.Qafarov. Türkiyə - Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, 2011, s.395

üçün o, son illərdə Avropada nəşr edilmiş müxtəlif kitablardan nümunələr gətirdi. Həmin nümunələrin birində göstərilirdi ki, Adana vilayətinin əhalisi 185 min müsəlmandan və 215 min xristiandan ibarətdir. Belə olduqda, Bertelo Kilikiya əhalisi haqqında real rəqəmləri elan etmək üçün fransalı ekspert Kammererə söz verilməsini xahiş etdi. Kammerer rəsmi məlumatlara istinadən konfransa məlumat verdi ki, 1914-cü ildə Adana vilayətində 314 min müsəlman, 55 min xristian-erməni və bir qədər də yunan əhalisi yaşamışdır. Poqos Nübar paşa bu məsələyə aydınlıq gətirmək istəsə də, lord Kerzon ermənilərin səsləndirdiyi rəqəmlərlə rəsmi rəqəmlər arasında kəskin fərq olduğu üçün ona söz vermədi.[105] O, qeyd etdi ki, Sevr müqaviləsinin Ermənistana aid olan 88-93-cü maddələri ilə bağlı ciddi problemlər yaranmış, regionda bir sıra dəyişikliklər baş vermişdir. Bununla belə, lord Kerzon hesab edirdi ki, Gümrü müqaviləsi ratifikasiya edilmədiyi üçün onun hüquqi qüvəsi yoxdur və o, türk nümayəndələrinə bildirdi ki, müttəfiqlər Sevr müqaviləsinin yerinə yetirilməsində maraqlıdırlar. Bu məqamda söz alan Bəkir Sami bəy dedi ki, onun hökuməti müstəqil Ermənistanın erməni çoxluğu olan rayonlarda yaradılmasını və belə Ermənistanla sülh şəraitində yaşamağı arzu edir. Daşnak Ermənistanı ilə imzalanmış müqavilənin ratifikasiya olunmamasına gəldikdə, o, qeyd etdi ki, doğrudur, müqavilə ratifikasiya edilməyib, lakin indi daşnaklar yenidən hakimiyyətə qayıdıb və Ankara hökuməti hər gün müqavilənin ratifikasiya ediləcəyini gözləyir. Bəkir Sami bəy eyni zamanda, dedi: "o, lord Kerzonun ratifikasiya olunmayan müqavilənin hüquqi qüvvəsi olmaması barədə bəyanatını sevinclə qarşılayır və hesab edir ki, bu prinsip Sevr müqaviləsinə də tətbiq ediləcək." Bəkir Sami bəy iddia olunan vilayətlərdə ermənilərin əhalinin çox az hissəsini təşkil etdiyini və türklərin həmin rayonlarda rəy sorğusu keçirməyə hazır olduğunu konfransın diqqətinə çatdırdı. Bəkir Sami bəyin bu sözləri lord Kerzonu əsəbləşdirdi. Britaniya xarici işlər naziri dedi ki, "Türkiyə faktiki olaraq əlli ildən artıq bir dövr ərzində ona məxsus olmayan ərazilərə iddia edir, müharibədə məğlub olmuş Türkiyənin, hərb meydanından genişləndirilmiş ərazilərlə çıxması ağlasığmazdır." Lord Kerzonun fikrincə, Qars, Ərdahan və Aleksandropol müttəfiqlərin yaratmağa qərarlı olduqları müstəqil Ermənistana birləşdirilməli idi.[106] Göründüyü kimi, London konfransında ingilislərin, Moskva konfransında rusların "Böyük Ermənistan"

[105] Bax: Documents on British Foreign Policy, 1919—1939. First series, volume XV, London, 1967, p. 210-212.

[106] Yenə orada, s.215-216

yaratmaq niyyətləri üst-üstə düşsə də, onların iddia etdikləri ərazilərdə ermənilər çox azlıqda qaldığından böyük güclər Türkiyəyə öz şərtlərini diktə edə bilmədirlər.

Bəkir Sami bəy London konfransında Qafqaz xalqlarının, o cümlədən, Şimali Qafqazın müstəqilliyinin qorunmasına xüsusi əhəmiyyət vermişdi, hətta, o, Britaniya baş nazirinə təklif etmişdi ki, əgər İngiltərə yardım göstərsə, Qafqaz xalqlarını Türkiyə ətrafında birləşdirib, bolşevizmə qarşı uğurlu mübarizə aparmaq olar.[107] Hətta, bu birliyi yaratmaq üçün Bəkir Sami bəy, Avropada olan Qafqaz mühacirəti ilə bir araya gəlib, bir sıra əməli addımlar atdı. Mart ayının sonlarında o, gürcü mühacirlərinin nümayəndələri Akaki Çxenkeli və Zurab Avalaşvili, Azərbaycan mühacirətinin nümayəndələri Əli Mərdan bəy Topçubaşov, Məmməd Məhərrəmov, Əkbər ağa Şeyxülislamov, Ceyhun bəy Hacıbəyli, Şimali Qafqaz mühacirətinin nümayəndələri Abdul Məcid Çermoyev, Vassan Girey Cabaquyev, Aytek Namitekovla görüşüb, Qafqaz xalqlarının müstəqilliyi və bolşevizmə qarşı birgə mübarizə məsələlərini müzakirə etdi.[108] Lakin elə həmin dövrdə imzalanan Rusiya - İngiltərə ticarət müqaviləsi və Sovet Rusiyası ilə Türkiyə arasında imzalanan Moskva müqaviləsi bu məsələləri arxa plana keçirdi. Bəkir Sami hələ Rusiyaya səfər edərkən, öz gözləri ilə görmüşdü ki, bolşeviklərin elan etdiyi müstəqillik tamamilə formal xarakter daşıyır və o, Ankaraya döndükdən sonra demişdi ki, "Azərbaycanda heç bir "respublika" yoxdur, birinci qarşısına çıxan qırmızı əsgərə tabe olan bəstəboy - Nərimanov vardır". N.Nərimanov özü isə bu fikiri daha yumşaq formada belə ifadə edirdi: "Azərbaycanın müstəqilliyindən bir Nərimanov qalmışdır".[109]

Mart ayının 10-da Xarici İşlər Komissarlığı tərəfindən hazırlanan "Türkiyə ilə müqavilə haqqında" və "Türkiyə nümayəndələri ilə ərazi sazişləri haqqında" iki sənəd təcili olaraq, sovetlərin rəhbər dairələrinə göndərildi. Birinci sənəddə qeyd olunurdu ki, Türkiyə ilə ərazi sazişi müqavilənin tərkib hissəsi olacaq, müqavilənin özündə əsas müddəalar olacaq, sərhədlərin geniş təsviri isə xüsusi protokolda veriləcəkdir. Sonra

[107] Bax: S.Sonyel. Mustafa Kemal and the Turkish National Movement, SAGE, Studies in 20th Century History? Vol.3, London, SAGE Publications, 1975, p.101-102; Н.Г.Киреев. История Турция XX век. Москва, 2007, с.141-142

[108] Bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.40-41

[109] B.Leqranın G.Çiçerin və Q.Orconikidzeyə məktubu. 29.06.1921.// RDSSTA, f.85, s.c(Türkiyə), i.44,v. 4 (arxası)

sənəddə ayrı-ayrı maddələr ətrafında gedən müzakirələrə toxunulur və qeyd olunurdu: "onlar *(türklər – C.H.)* bizi məcbur edirlər deyək və müqavilədə göstərək ki, biz onlarla birlikdə imperializm əleyhinə gedirik, lakin biz bunu elə etməliyik ki, Krasinin sazişi *(İngiltərə ilə hazırlanan saziş nəzərdə tutlur – C.H.)* pozulmasın".[110] İkinci sənəddə isə, Batum məsələsi ilə bağlı müzakirənin qısa təsviri verilərək və göstərilirdi ki, geniş yerli muxtariyyət verilməklə, "Batum Gürcüstanın suverenliyi altında deyil, süzerenliyi altında olacaqdır". Naxçıvanla bağlı Sovet rəhbərliyi məlumatlandırılırdı ki, "Naxçıvan Azərbaycanın protektaratlığı altında muxtar ərazi kimi tanınacaqdır, bu şərtlə ki, Azərbaycan həmin protektaratlığı digər bir dövlətə verməsin". G.Çiçerin yazırdı ki, "bütün yuxardakı düzəlişlər Türkiyə ilə sazişin vacib şərtləridir və ona görə mənim tərəfimdən qəbul edildi".[111]

1921-ci ilin mart ayının 12-də, axşam saatlarında Moskva konfransının siyasi komissiyasının növbəti iclası başlandı. Bu iclasda nümayəndə heyətləri ilə yanaşı hərbi ekspertlər də, iştirak edirdi. Rusiya tərəfindən hərbi ekspert qismində Samaylo və Bobrişev, Türkiyə tərəfindən isə, Seyfi bəy və Səfvət bəy iclasa dəvət edilmişdilər. 12 mart iclası G.Çiçerinin sədrliyi ilə keçirilirdi. Hər iki tərəf iclasa müqavilə layihəsi ilə gəlmişdilər. Müzakirəyə təqdim edilən Rusiya layihəsi 15 maddədən ibarət idi. Bu layihədə 3-cü maddə kimi, verilən Naxçıvan məsələsi bir qədər natamam xarakter daşıyır və vilayətin sərhədləri məsələsi açıq saxlanılırdı.[112] Lakin türklər müzakirəyə təqdim etdikləri 16 maddədən ibarət olan əks layihədə, sonradan əlavə problemlər yaranmaması üçün, Naxçıvanın Ermənistanla olan sərhəd xəttinin dəqiq göstərilməsini zəruri hesab edirdilər və bu xəttin başlıca kontrlarını layihədə təqdim etmişdilər. Batuma gəldikdə isə, sovet layihəsindən fərqli olaraq, türklərin layihəsində Batumun məhz, Gürcüstana güzəştə gedildiyi 2-ci maddədə qeyd edilir, rusların layihəsində Batum Gürcüstanın suverenliyi altına keçirdi, türklərin layihəsinə görə isə, Batum Gürcüstanın süzerenliyi altına keçirdi. Batumun yerli əhalisinin torpaqdan istifadə hüququ ilə bağlı tranzit məsələlərində də müəyyən fərqli cəhətlər var idi.[113]

[110] G.Çiçerin. Türkiyə ilə müqavilə haqqında.10.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.34

[111] G.Çiçerin. Türkiyə nümayəndələri ilə ərzi sazişləri haqqında. 10.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.36

[112] Konfransın müzakirəsinə təqdim edilən rus layihəsi. 12.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.52997, v.38

[113] Konfransın müzakirəsinə təqdim edilən türk əks layihəsi.12.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.52997, v.41-44

Siyasi komissiyanın 12 mart iclasında türklər sərhədlərin daha dəqiq müəyyənləşdirilməsində, ruslar isə bu məsələlərin hərbi ekspertlərin öhdəsinə buraxılmasında maraqlı idilər. Sərhəd boyunca Ermənistan və Gürcüstan sovet respublikalarının kürdlərin basqınlarından qorunması ilə bağlı Rusiya nümayəndələrinin təkliflərinə Yusuf Kamal bəy çox sərt cavab verdi. O dedi: "İngilis imperializmi türk inqilabi hərəkatını boğmaq üçün, həqiqətən kürdlərdən istifadə etməyə cəhd göstərirdi. Bu məqsədlə onlar kürdlərin müstəqilliyi bəhanəsi ilə onların arasında üsyan qaldırmaq üçün ora zabitlər, ordu və pul göndərirdi. Əsl həqiqətdə isə bunlar kürdləri ingilislərə işlətmək üçün edilirdi. Lakin kürdlər aydın şəkildə başa düşdülər ki, onların xilası ümumi iş uğrunda mübarizədə türklərlə birliyin saxlanılmasındadır. Onlar ingilispərəst təbliğatçılara uyğun olan zabitləri və ingilis dəstələrini saxladılar və Türkiyə tərəfinə döndülər. Buna bənzər cəhdlərin təkrar olunacağı təqdirdə, kürdlər, Türkiyəyə özlərinin sədaqətlərini unutmadan, dəyişməz olaraq, beləcə hərəkət edəcəklər. Ona görə də, kürdlərin Sovet Respublikalarına münasibəti eynilə türklərinki kimidir və Türkiyə nümayəndələri kürdlərlə bağlı Rusiya nümayəndələrinin etdikləri qeydlərlə razılaşa bilməz".[114]

Yusuf Kamal bəy sovet nümayəndələrinin Türkiyənin qeyri-müsəlman əhalisinin talanlardan qorunması ilə bağlı təkliflərinin də əsassız olduğunu göstərərək qeyd etdirdi ki, Qarsın qeyri-müsəlman əhalisinin kütləvi şəkildə qırılması barədə bizdə heç bir yazılı və şifahi məlumat yoxdur. O dedi: "Hətta, il yarım ərzində Qars və İrəvana gəlmiş Amerika nümayəndələri şəhadət edirlər ki, bütün türk əməliyyatları dövründə qeyri-müsəlman əhalisi toxunulmaz olaraq qalmışlar. Biz güman edirik ki, bu kütləvi qırğınlar və zorakılıqlar haqqında yalançı şayiələr, bu dairənin müsəlmanlarının məruz qaldığı çoxsaylı qırğınları və işgəncələri ört-basdır etmək üçün dövriyyəyə buraxılmış bir manevrdir. Rusiya xarici işlər komissarı dekabr ayının 19-da (1920-ci ildə) Türkiyə Böyük Millət Məclisi hökumətinin xarici işlər nazirinə yazırdı: "Rusiya hökuməti qəbul edir ki, daşnak hökumətinin həyata keçirdiyi qəddarlıqlara Türkiyə ordusunun komandanlığı biganə qala bilməzdi. Bizim əlimizdə çoxlu sənədlər vardır və bu sənədlər əsasında hökumətimiz onların vəhşilikləri haqqında toplu dərc etmişdir, həmin sənədlərin tərcümələrini yaxın gələcəkdə gətirə bilərik. Bunlar əsasən, 1918-ci ilin barışığından

[114] Moskva konfransının siyasi komissiyasının iclası.12.03.1921.// RF XSA, f.04. s.39. q.232, i.12, v.48-49

sonra baş vermişdir. Məsələn, Qars hökumət şurası ingilislərin intriqaları nəticəsində devrildikdən sonra, dairəni Osepyanın ordusu tutdu, şəhərin özündə 100 müsəlman, eyni zamanda, şuranın 20 üzvü güllələndi. 1920-ci ilin yanvarında Qars dairəsinin 253 kəndi dağıdıldı və kişi, qadın və uşaqdan ibarət olan 14.620 müsəlman öldürülmüşdür. Sarıqamış dairəsində 32 müsəlman kəndi dağıdılmış 2.000 kişi, qadın və uşaq öldürülmüşdür".[115]

Müzakirələr zamanı mübahisə mövzusu olan məsələlərdən biri də, Cənubi Qafqaz respublikalarının suverenliyi məsələsi idi. Danışıqların gedişində Rusiya nümayəndələri müxtəlif formalarda Qafqazın sovet respublikalarının suverenliyinin Türkiyə tərəfindən qəbul olunmasına çalışır və bunun qarşıda onlarla imzalanacaq müqavilələrdə əks olunmasını istəyirdi. Eyni zamanda, sovet nümayəndələri belə hesab edirdilər ki, Türkiyənin Qafqazın yeni sovet respublikaları ilə imzalayacağı müqavilələr seperat xarakter daşımamalı və onların suverenliyini məhdudlaşdırmamalı idi. Türk nümayəndələri bunun cavabında bildirdilər ki, Böyük Millət Məclisi hökuməti öz fəaliyyəti və öz bəyanatlarında hamıya sübut etmişdir ki, onun məramı hansısa xalqın suverenliyinə qəsd etmək deyil, öz xalqının və digər xalqların azadlığı uğrunda mübarizədir. Türk nümayəndələrinin fikrincə, ilk növbədə, aydınlaşdırılmalı idi ki, Qafqazın sovet respublikaları nə dərəcədə müstəqildirlər. Onlar deyirdilər: "Müstəqil dövlət müqavilələr bağlamaq hüququna malik olmalıdır, bu respublikalarla böyük Sovet Rusiyası arasında sıx əlaqələr, yalnız Sovet Rusiyasının onlara məsləhət verdiyi halda özünü büruzə verməkdədir. Əgər Rusiya nümayəndələri onların suverenliyini məhdudlaşdıran hər hansı müqaviləyə etiraz edən əvvəlki niyyətlərində qalırlarsa, onda müəyyən edilməsi zəruridir ki, bu suverenlik ifadəsi altında nə başa düşülməlidir. Əks təqdirdə, nəzərə almaq lazımdır ki, hər hansı müqavilə məlum mənada suverenliyi qarşılıqlı şəkildə məhdudlaşdırır, Rusiya ilə Türkiyə arasında ziddiyyətlərə imkan yaradır, ona görə, bilavasitə hansı bəndin suverenliyi məhdudlaşdırdığı müəyyən edilməlidir".[116]

Siyasi komissiyanın mart ayının 12-də keçirilən iclasının əsas müzakirələrindən biri Naxçıvan dairəsinin Ermənistanla sərhədləri haqqında idi. Bu məsələ ilə bağlı Rusiya nümayəndələri qeyd etdilər ki, ekspertlərin müəyyən etdiyi sərhəd xətti Azərbaycanın maksimum tələblərini də, ötüb keçir, onların fikrincə, Azərbaycan heç vaxt İrəvan qəzasının hansısa bir

[115] Yenə orada, v.49-50

[116] Yenə orada, v.52

hissəsinə iddia etməmiş və özünün dəyişməz maksimum sərhədlərini Qurd Qapısına qədər tanımışdır. Rus nümayəndələrinin təbirincə, sovet respublikaları arasında sıx əlaqələr olduğundan bu məsələ birinci dərəcəli əhəmiyyət kəsb etməsə də, Şərur-Dərələyəz dairəsinin sərhədlərini etnoqrafik prinsiplərə uyğun müəyyənləşdirmək lazım gəlir.[117] Türklər məsələnin belə qoyuluşuna etiraz etdilər. Onlar bildirdilər ki, məhz bu yerlərdə türk qoşunlarının bölgəyə çağrılmasına səbəb olmuş məlum hüzünlü hadisələr baş vermişdir və bütün bu dairə müsəlmanlarla məskunlaşmışdır. Türklər əmin olduqlarını bildirirdilər ki, Sovet Azərbaycanı əlində olan hakimiyyəti çərçivəsində Türkiyə, Rusiya və bəşəriyyət qarşısında öz borcunu yerinə yetirmək üçün bütün addımları atacaq və ona görə də həmin ərazi üzərində də, himayədarlıq hüququnun Azərbaycana həvalə edilməsi arzuediləndir.[118]

Rusiya nümayəndələri məsələnin belə qoyuluşu ilə razı deyildilər. Onlar Naxçıvanla Ermənistan arasında sərhədlərin müvəqqəti xarakter daşımasına üstünlük verirdilər. Rusyalı nümayəndələrinin fikrincə, əgər gələcəkdə Naxçıvanla Ermənistanın birbaşa danışıqlarında sərhədlərlə bağlı hər hansı dəyişikliklər ediləcəksə, bu dəyişikliklərə Azərbaycanın qəbul etdiyi protektoratlığın güzəştə gedilməməsi öhdəliyinin pozulması kimi baxılmamalıdır. Lakin Türkiyə nümayəndələri bununla razılaşmayaraq, təkid etdilər ki, bu məsələ Türkiyənin şərq sərhədlərinin təhlükəsizliyi üçün çox mühüm əhəmiyyətə malikdir və Azərbaycanla Ermənistan arasında bununla bağlı hər hansı bir danışıqların mümkünlüyü istisna olunmaqla, bu məsələ öz qəti həllini tapmalıdır. Rusiya nümayəndələri bəyan etdilər ki, bu halda, əvvəllər Azərbaycanın özünün tələb etdiyi sərhədlər üzərində dayanmaq lazımdır, belə ki, əvvəllər müəyyən edilmiş sərhəd xəttində, maraqlı hökumətlərin və əhalinin rəyini soruşmadan, Moskvadan dəyişiklik etmək qeyri-mümkündür. Türkiyə nümayəndələrinin təklifi ilə, Şərur-Dərələyəz dairəsinin Naxçıvan ərazisinə aid edilməsi qərara alınırdı və İrəvan dairəsinin mübahisəli hissələrində sərhədlər Kömürlü dağ və Sarı Bulaq dağlarından başlayaraq, Ararat stansiyasına döğru tərkibində Ermənistan, Azərbaycan və Türkiyə nümayəndələrinin olduğu qarışıq komissiya tərəfindən rektifikasiya *(saflaşdırma – C.H.)* olunmalı idi. Danışıqların sonunda qərara alındı ki, hərbi ekspertlərin protokolları hər iki nümayəndə heyətləri tərəfindən müqavilə ilə birlikdə eyni zamanda imzalanacaqdır.[119] Danışıqlar axşam saatlarında

[117] Yenə orada, v.54
[118] Yenə orada, v.55
[119] Yenə orada, v.55-56

başa çatdı, növbəti iclas mart ayının 14-nə təyin edildi. Həmin gecə danışıqlar başa çatdıqdan sonra mart ayının 13-də B.Şahtaxtinski M.D.Hüseynova təcili teleqram göndərdi. O yazırdı: "Rusiya ilə rzılığa gəlindi, türklər Qars vilayətini, Ərdahan, Ardanuç, Artvin və Batum dairəsinin böyük hissəsini alırlar. Sərhədlər Batumun iyirmi verst qərbindən keçəcək. Eyni zamanda, Sürməli də Türkiyəyə keçir. Pul və silahla yardım haqqında məsələnin həlli qalır. Bu tez həll olunacaq. Türklərlə aparılan şifahi danışıqlarda razılığa gəlindi ki, Naxçıvan Azərbaycana keçir. Türklərlə müqavilədə qeyd edilir ki, o heç vaxt Ermənistana verilməyəcək. Türklər bunu onunla konpensasiya edirlər ki, əgər Maku xanlığı Türkiyəyə birləşdirilsə, Rusiya bunun əleyhinə olmayacaq".[120]

Martın 14-də siyasi komissiyanın iclası axşam cağı çox gec başlandı. Həmin axşam danışıqlarda nümayəndə heyətləri, habelə, Samaylo istisna olmaqla, hər iki tərəfdən hərbi ekspertlər iştirak edirdilər. İclasa Yusuf Kamal bəy sədirlik edirdi. 12 mart danışıqlarında sona çatdırılmamış məsələlər ətrafında tərəflər müzakirələri davam etdirdilər. Bu iclasda tərəflər müqavilədə yer alacaq maddələrin məzmununun daha aydın dəqiqləşdirilməsinə, bəzi terminlərin siyasi tutumunun izahına daha geniş yer verdilər. Türkiyə Qarsın etibarlı müdafiəsini, Rusiya Naxıçıvan - İrəvan dəmir yolunun təhlükəsizliyinin zəruri hesab edirdi. Sonra maddələr üzrə müqavilənin müzakirəsi başlandı və giriş hissədə bəzi stilistik düzəlişlər edildi. Sarp məntəqəsindən tutmuş Qars yaylasına doğru, Türkiyənin Cənubi Qafqaz respublikaları ilə sərhədlərinin keçdiyi əsas məntəqələr tərəflər arasında sonuncu dəqiqləşmədən keçdi. Rusiya nümayəndələri Batumun "güzəştə" gedilməsi ifadəsi ilə razı olmasalar da, türklər bu məsələnin əsas Misak-i Millidə yer aldığına istinad edərək, rusları etiraz etməməyə çağırdılar və Rusiya nümayəndələri onlarla razılaşmalı oldu. Müqavilənin III maddəsi və onun 1(B) əlavəsi ilə türklər Naxçıvanın siyasi və hüquqi statusunun tam olaraq, müəyyən edilməsinə nail ola bildilər. Bununla da, Azərbaycan sovet hökumətinin Naxçıvan məsələsində tərəddüdlü mövqeyinə son qoyuldu və Azərbaycanın bu diyarı heç kimə güzəştə getməməsi şərtilə onun protektoratlığı altında qalması tərəflər arasında razılaşdırıldı. Siyasi komissiyanın iclası martın 15-də gecə öz işini başa çatdırdı və növbəti iclas martın 16-na təyin edildi.[121]

[120] B.Şahtaxtinskinin M.D.Hüseynova teleqramı. 13.03.1921.// ARPİİ SSA, f.609, s.1,i.94, v.137
[121] Moskva konfransının siyasi komissiyasının iclası.14.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.12, v.61-68

Sovet Rusiyası ilə Türkiyə arasında imzalanacaq müqavilənin ərazi və sərhəd məsələlərinə aid bütün maddələrini G.Çiçerin artıq fevral ayının 18-də devrilmiş Ermənistan Sovet hökumətinin xarici işlər komissarı A.Bekzadyanla müzakirə etdi. Ermənistanda Sovet hökuməti devrilməndən sonra A.Bekzadyanın devrilmiş hökumət adından çıxış etməsi, bir sıra siyasi bəyanatlar səsləndirməsi bəzi bolşevik liderlərinin diqqətindən yayınmadı. Məsələn, A.Bekzadyan imzalanma mərhələsində olan rus-türk müqaviləsi haqqında Sovet Ermənistanının xarici işlər komissarı kimi, bəzi fikir və mülahizələrini RK(b)P MK-ya, G.Çiçerin, İ.Stalin və ordu komandanlığına göndərmişdi. A.Bekzadyan birbaşa müqavilənin imzalanmasına qarşı çıxmasa da, onun Cənubi Qafqaz üçün "təhlükə doğuracaq" bəzi məqamlarına diqqəti cəlb etmək istəyirdi.[122] A.Bekzadyanın belə çıxışlarından hiddətlənən Q.Orconikidze G.Çiçerinə yazırdı ki, "Sovet Ermənistanının keçmiş xarici işlər komissarı Moskvada Ermənistan Respublikasının adından danışmaqda və çıxış etməkdə davam edir. Sizin diqqətinizi bir daha bu məsələyə cəlb etməyi vacib hesab edirik ki, fevral ayının 18-də keçmiş Sovet Ermənistanının bütün hökumət idarələri və nümayəndəlikləri, habelə, kimliyindən asılı olmayaraq, həmin hökumətin verdiyi vəkalətlər ləğv edilmişdir. Ona görə də Bekzadyanın Ermənistanın nümayəndəsi qismində çıxış etməsi, ona məxsus olmayan hüququn kobudcasına qəsb edilməsidir".[123] Buna baxmayaraq, G.Çiçerin Moskva konfransının yekun sənədlərinin Ermənistan nümayəndəsi kimi, A.Bekzadyanla razılaşdırmasına üstünlük verirdi.

Martın 15-də danışıqların gedişi barədə G.Çiçerin İ.Stalinə məlumat göndərdi. Lakin bu məlumat konfransın siyasi komissiyasında aparılan müzakirələrdən daha çox, pərdəarxası danışıqları əhatə edirdi. Türkiyə nümayəndələri bu danışıqlarda Rusiyanın Türkiyəyə edəcəyi yardımlar barədə yazılı öhdəlik məktubu almaq istəyirdi, ruslar isə hökumətin partiya qurultayı ilə məşğul olduğunu bəhanə gətirib, bundan yayınmağa çalışırdılar. Yazılı öhdəliklə bağlı Çiçerin qəti olaraq, türklərə bildirmişdi ki, hökumət buna getməyəcəkdir. O, Stalinə məlumat verirdi ki, müqavilə üzərində artıq çox az iş qalır. Onun fikrincə, müqavilənin imzalanması yolunda indi əsas maneə yardım və yazılı öhdəlik məsələsi idi.[124]

[122] Bax: A.Bekzadyanın RK(b)P MK, G.Çiçerin, İ.Stalin və Hərbi komandanlığa məktubu. Mart 1921.// RDSSTA, f.55, s.c/Türkiyə, i.29, v.32-34

[123] Q.Orconikidzenin G.Çiçrinə məlumat. 15.03.1921.// RDSSTA, f.5, s.1, i.2178, v.54

[124] G.Çiçerinin İ.Stalinə məktubu.15.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.38

Mart ayının ortalarında danışıqlar artıq başa çatmaq üzrə idi. Ayın 15-də Sovet Rusiyasının Xarici İşlər Komissarlığı Mərkəzi evakuasiya idarəsindən türk hərbi əsirlərinin hansı müddətə öz ölkələrinə qaytarılmasının mümkünlüyü haqqında sonuncu məlumatı aldı. Orada müqavilənin müvafiq maddəsində bu müddətin iki ay ərzində müəyyən edilməsinə və ölkə nəqliyyatının indiki vəziyyətində türk hərbi əsirlərinin əşyaları və mülkiyyəti ilə birlikdə Türkiyəyə yola salınmasına etiraz edilirdi.[125] Martın 16-da Qafqaz ordusunun komandanlığı da artıq Cənubi Qafqazın sovet respublikaları ilə Türkiyə arasından keçəcək sərhəd xəttinin təsvirini teleqram vasitəsi ilə Xarici İşlər Komissarlığına göndərmişdilər. Burada sərhədlər Sarp məntəqəsindən tutmuş Araz çayı boyunca aşağı Qarasu çayının mənsəbinə qədər təsvir edilirdi.[126]

Siyasi komissiyanın mart ayının 16-da gündüz saatlarında keçirilən iclası Mərkəzi evakuasiya idarəsinin arayışının müzakirəsi ilə işə başladı. Türkiyə nümayəndələri Türkiyədə rus hərbi və mülki əsirlərinin olmadığını bildirdilər. Eyni zamanda, onlar Rusiyada hələ çoxlu sayda türk hərbi əsirlərinin qaldığını dedilər. Onların fikrincə, təxminən 12.000 min türk əsiri Sibirdə, bir neçə min Ukraynada var idi, bir alay isə, yaxın vaxtlarda Bakıdan Tiflisə yola salınmışdı. Türkiyə nümayəndələri ona tərəfdar idi ki, hər tərəf öz ölkəsində olan hərbi əsirləri sərhəd məntəqələrinə qədər öz hesabına göndərsinlər. Əsirlərin qaytarılma müddətinə gəldikdə, belə razılıq əldə olundu ki, Avropa Rusiyası və Qafqazda olan türk hərbi və mülki əsirləri 3 ay müddətinə, Asiya Rusiyasında olan əsirlər isə, 6 ay müddətinə repatriasiya edilsinlər və Türkiyənin şimal-şərq sərhədlərinə çatdırılsınlar. Türkiyə də eyni müddət ərzində öz ölkəsində olan rus əsirlərinin Sovet Rusiyasına qaytarılmasını təmin etməli idi.[127] Danışıqların sonunda tərəflər birinci notalar mübadiləsində hər hansı üçüncü dövlətlə yaxınlaşma və saziş imzalayarkən, bir-birlərinə məlumat verməyi öhdələrinə alırdılar. Eyni zamanda, hər iki tərəf bir-birinin maraqlarına zidd olan müqavilə bağlamamağa təminat verirdilər.[128] Tərəflər arasında həyata keçirilən ikinci notalar mübadiləsinə görə, Türkiyənin Sovet Rusiyası-

[125] Mərkəzi evakuasiya idarəsindən XXİK-na.15.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.39

[126] Qafqaz Ordusu komandanlığının XXİK-na teleqramı. 16.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.40

[127] Moskva konfransının siyasi komissiyasının iclası.16.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.12, v.74-77

[128] Türkiyə ilə Rusiyaya arasında birinci nota mübadiləsi.16.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.12, v.77-78

na yönəlik xarici siyasətində və orientasiyasında prinsipial dəyişiklik olardısa, bu dəyişiklik haqqında məlumat təcili olaraq Sovet hökumətinin nəzərinə çatdırılmalı idi. Türk səfirinə təqdim edilən notada, Türkiyəyə münasibətdə Rusiya da, eyni ilə belə hərəkət edəcəyinə təminat verirdi.[129] Danışıqların sonunda Türkiyə nümayəndələri təklif etdilər ki, Moskva müqaviləsi ratifikasiya olunduqdan sonra ratifikasiya sənədləri Qarsda mübadilə edilməli idi. Bununla da siyasi komissiyanın iclası başa çatdı.

Tarixə 16 mart müqaviləsi kimi, daxil olan sovet – türk müqaviləsi əslində, həmin gün imzalanmadı. Onun üzərində 16 mart tarixi qoyulsa da, həmin sənəd ayın 18-də imzalandı. Müqavilənin imzalanması ərəfəsində, mart ayının 17-də G.Çiçerin V.Leninə yazırdı: "Ötən iclas zamanı mən türklərə deyəndə ki, biz onlara cəmisi hansısa həcmdə silah, 10.000.000 qızıl rubl (yarısını Batum türklərdən təmizlənən kimi, yarısını isə sonra) pul verəcəyik, onlar heç nə demədilər. Lakin bu gün onlar həmin məsələyə qayıdaraq, bunun az olduğunu dedilər və yazılı bəyanat istədilər. Başlanan uzun mübahisələrdən sonra, nəhayət, onlar müqaviləni aşağıdakı şərtlərlə imzalamağa razılıq verdilər: 1. Mən vəd verməliyəm ki, bir neçə il ərzində onlara hər il 10 milyon verməliyik; 2.Onlar silahla bağlı yazılı bəyanat verməməyə razıdırlar, lakin bir neçə il ərzində onlara hər il 10 milyon verəcəyimiz barədə yazılı bəyanat alınmasında təkid edirlər. Yeri gəlmişkən, yazmaq olar ki, bu, ölkənin iqtisadi cəhətdən bərpası üçündür. Onda bu İngiltərə əleyhinə düşmənçilik aktı sayıla bilməz, indi İngiltərə özü də onlara borc təklif edir. Bu pul silah almağa görə lazımdır, halbuki, biz az veririk və silah onlara Antantadan müdafiə olunmaq üçün lazımdır; 3.İmza üçün hər şey hazırdır, müqavilə sabah axşam imzalanacaq, lakin imzalanana qədər onlar məndən bu kağızı almalıdırlar... Onların sözlərinə görə, hər illik 10 milyon haqqında kağız məclisi sakitləşdirər və əleyhdarların ağzını bağlayar. Mən qəti şəkildə tərəfdaram ki, bu kağızı verək. Sovet respublikaları ağrısız olaraq, Batumu alır, müqavilə özü isə diplomatik baxımdan yüksək təəssürat yaradır, xüsusilə, Fransa onlara yan alır, illik maliyə yardımı isə gələcəyin işidir. İndi heç nə dayanaqlı deyildir. Cavab mənə axşam saat 18-ə qədər lazımdır ki, kağızı imzalamağı çatdırım və imzalama *(müqaviləni – C.H.)* yubanmasın. Müqavilə ayın 16-i tarixilə olacaq, çünki onda hələ biz Krasinin İngiltərə ilə müqavilə imzaladığını bilmirdik".[130]

[129] Türkiyə ilə Rusiyaya arasında ikinci nota mübadiləsi.16.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.12, v.79

[130] G.Çiçerinin V.Leninə məlumatı.17.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.44

§3. Moskva müqaviləsinin imzalanması və Cənubi Qafqazda Azərbaycanın mövqeyinin güclənməsi

Nəhayət, mart ayının 18-də gecə saat 22:00-də Yusuf Kamal bəyin sədrliyi ilə ekspertlərin iştirakı olmadan rus-türk konfransının sonuncu plenar iclası keçirildi. Nümayəndə heyətləri siyasi komissiyanın işinə yekun vurdular və müqaviləni imzalamaq üçün öz vəkalətlərinin qanuniliyini yoxladılar.[131] İlkin prosedur qaydalarının müzakirəsindən sonra mart ayının 18-də Sovet Rusiyası ilə Türkiyə arasında 16 maddədən və 3 əlavədən ibarət olan Moskva müqaviləsi imzalandı. "Dostluq və qardaşlıq haqqında" sovet-türk müqaviləsini Rusiya tərəfindən Georgi Çiçerin və Cəlaləddin Korkmasov, Türkiyə tərəfindən isə Yusuf Kamal bəy, doktor Rıza Nur və Ali Fuad Cəbəsoy imzaladılar. Müqavilə Rusiya ilə Türkiyə arasında münasibətlərin geniş bir dairəsini əhatə edirdi. Orada tərəflərin mart ayının 16-da birbirlərinə ünvanladığı notalar, "Türkiyə" ifadəsi altında 1920-ci ilin yanvar ayının 28-də İstanbulda Osmanlı Nümayəndələr Məclisi tərəfindən qəbul olunub, mətbuatda elan edilmiş və böyük dövlətlərin diqqətinə çatdırılmış Türkiyə Milli Paktında nəzərdə tutulan ərazilər, Şərq xalqlarının mübarizəsinə yardım göstərmək, Boğazların açılmasının təmin edilməsi, Türkiyənin suverenliyinə, o cümlədən, İstanbulun təhlükəsizliyinə xələl gətirmədən Qara dənizin beynəlxalq statusunun işlənib hazırlanması, milli maraqlara cavab verməyən Çar Rusiyası ilə Türkiyə arasında imzalanmış müqavilələrin ləğv edilməsi və bu müqavilələlərdə Türkiyənin üzərinə qoyulmuş maliyə öhdəliklərindən imtina edilməsi, Türkiyədə təslimçi rejimin azad milli inkişafla bir araya sığmaması, hər iki ölkənin öz ərazisində müqavilədə olan digər ölkədə hakimiyyətə gəlmək istəyən təşkilatların və qrupların fəaliyyətini qadağan etməsi, Rusiya və Türkiyənin qarşılıqlı olaraq, Qafqazın Sovet Respublikalarına münasibətdə öz üzərlərinə belə öhdəlik qəbul etməsi, dəmir yol, teleqraf və başqa vasitələrin fasiləsiz olaraq, işə başlaması, adamların maneəsiz gediş gəlişi, azad tranzitin tənzim edilməsi, müqavilədə olan tərəfin digər ölkənin ərazisində yaşayan vətəndaşlarının həmin ökənin qanunlarına hörmətlə yanaşması, müqavilədə olan tərəfin vətandaşı digər tərəfə getdikdə, ona daha əlverişli şəraitin yaradılması, hazırda Rusiya tərəfindən Türkiyənin suveren əraziləri kimi tanınan,1918-ci ildək Rusiyaya məxsus ərazilərdə yaşayan əhalinin öz əmlakı ilə birlikdə

[131] Rus-türk konfransının plenar iclası.18.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.12, v.85

Rusiyaya azad köç etmək haqqının tanınması, 3-6 ay ərzində Rusiyanın türk hərbi əsir və mülki vətəndaşlarını öz hesabına Türkiyənin şimal-şərq sərhədlərinə çatdırması, konsulluq münasibətlərinin yaradılması, iqtisadi və maliyə məsələlərinə aid sazişlərin imzalanması, müqavilənin Qafqaz respublikalarına aid olan maddələrinin onlar tərəfindən qəbul edilməsini Rusiyanın öz üzərinə alması və sair məsələlər əhatə edilirdi.[132] Müqavilənin ən əhəmiyyətli maddələri Batum və Naxçıvanla bağlı olan ikinci və üçüncü maddələri idi. İkinci maddəyə görə, Türkiyə Batum limanının və şəhərinin Gürcüstanın süzerenliyinə güzəştə gedilməsi ilə razılaşırdı, lakin güzəştə gedilən ərazinin əhalisi inzibati münasibətlər baxımından hər bir icmanın mədəni və dini hüquqlarını təmin edən geniş yerli muxtariyyətdən istifadə etməli idilər. Bununla yanaşı, Türkiyə Batum limanında azad tranzit hüququ əldə edirdi, Batum limanı vasitəsi ilə Türkiyədən göndərilən və Türkiyəyə göndərilən bütün mallar rüsumsuz, vergisiz və yubanmadan sənədləşdirilməli idi.[133] Müqavilənin 1(A) və 1(B) əlavəsində, Batum da daxil olmaqla, Türkiyənin Cənubi Qafqaz sovet respublikaları ilə şimali-şərq sərhədləri təsvir olunurdu.[134]

Müqavilənin üçüncü maddəsi və kiril əlifbasının ardıcıllığına uyğun olaraq, 1(V) əlavəsi Naxçıvan məsələsi haqqında idi. Orada göstərilirdi: Müqavilədə olan hər iki tərəf, Naxçıvan vilayətinin bu müqavilənin 1(V) əlavəsində göstərilən sərhədlər daxilində, Azərbaycanın himayəsi altında, həmin protektoratlığı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə, muxtar ərazi təşkil etməsinə razıdırlar. Üçüncü maddənin davamında göstərilirdi ki, "üçbucaq zonada yaradılan Naxçıvan ərazisi Arazın telveq *(səth relyefinin alçaq yerində - C.H.)* xətti arasında Dəhnə dağı (3829) – Vəli dağ (4121) - Bağırsaq (6587) – Kömürlü dağ (6930) silsiləsi sərhədləri icərisində qalan ərazinin Kömürlü dağdan (6930) başlayıb, Saraybulaq (8071) – Ararat stansiyasından keçərək, Qarasunun Araz ilə

[132] Rusiya ilə Türkiyə arasında müqavilə. 16.03.1921.//RDSSTA, f.159, s.2, i.57, v.77-80; Moskva müqaviləsinin türk mətni üçün bax: İsmail Soysal. Türkiy'enin Siyasal Antlaşmaları. I Cilt (1920-1945). Ankara, 1989, s.32-38; Müqavilənin ingilis dilində olan mətni üçün bax: Treaty of Friendship between Russia and Turkey signed at Moscow 16 March 1921.// British and Foreign State Papaer, 1923, Part II, vol.CXVIII, 1926, pp.990-996

[133] Rusiya ilə Türkiyə arasında müqavilə. 16.03.1921.//RDSSTA, f.159, s.2, i.57, v.77(arxası); Ətraflı məlumat üçün bax: M.Qasımov. Azərbaycan-Türkiyə diplomatik –siyasi münasibətləri (aprel 1920-ci il – dekabr 1922-ci il). Bakı, 1998, s.71-73

[134] Rusiya ilə Türkiyə arasında müqaviləyə 1(A) və 1(B) saylı əlavə. 16.03.1921.//RDSSTA, f.159, s.2, i.57, v.80(arxası)-81

birləşdiyi yerdə sona çatan sərhəd xətti Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət bir komissiya tərəfindən təshih ediləcəkdir".[135] Bu maddəyə 1(V) saylı, "Naxçıvan ərazisi" adlı əlavədə qeyd edilirdi ki,"Ararat stansiyası – Saraybulaq dağları (8071) – Kömürlü dağı (6839), (6930) – 3080 – Sayat dağı (7868) – Qurdqulaq kəndi – Həməsur dağı (8160) – hündürlük 8022 – Küküdağ (10282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi".[136] Bilavasitə Moskva müqaviləsinin üçüncü maddəsi və bu maddəyə edilmiş 1(V) saylı əlavə ilə Naxçıvanın ərazi bütövlüyü məsələsinə bir aydınlıq gətirildi.[137] Moskva müqaviləsinin imzalanması nəticəsində 1877-1878-ci illər rus-türk müharibəsindən sonra Rusiyaya keçmiş bir sıra ərazilərin yenidən Türkiyəyə qaytarılması hüquqi cəhətdən tamamlandı. Bu müqaviləyə görə, San-Stefano sülhü və Berlin konqresindən sonra Çar Rusiyasına verilmiş 23,6 min kv.km. ərazi Qars, Kağızman, Ərdahan, Oltı, Artvin, Batum dairəsinin cənub hissəsi və Sürməli qəzasının, 572 min əhali ilə birlikdə Türkiyəyə qovuşduğu Sovet Rusiyası tərəfindən tanındı.[138] Lakin bütün bunlar 1878-ci ildə Türkiyənin Cənubi Qafqazda itirdiyi ərazilərin hamısı deyildi. 1878-ci ilin iyulunda imzalanmış Berlin traktatına görə, Çar Rusiyası tərəfindən ələ keçirilmiş Batum strateji bir məntəqə kimi, Türkiyə tərəfindən Gürcüstana güzəştə gedildi. Bununla belə, Batumun Gürcüstana güzəştə gedilməsi istisna olmaqla, Türkiyə Qafqaz regionunda 1829-cu il sərhədlərini bərpa edə bildi.[139]

Azərbaycanın maraqları, Türkiyənin təhlükəsizliyi baxımından Naxçıvan məsələsinin ədalətli həlli Moskva konfransında türk diplomatiyasının böyük qələbəsi idi. Bu qələbədə Azərbaycan diplomatiyasının da payı var idi. Məhz, Naxçıvan məsələsinin həllindəki roluna görə, N.Nərimanov Moskva danışıqlarına ezam edimiş Azərbaycan nümayəndəsi Behbud Şahtaxtinskiyə yazırdı: "Naxçıvana görə, çox sağ ol! Görürsən, sən artıq işin içinə girmisən və işi düzgün aparırsan. Bu məni sevindirir, belə ki, məlum qrupdan olan

[135] Rusiya ilə Türkiyə arasında müqavilə. 16.03.1921.//RDSSTA, f.159, s.2, i.57, v.77(arxası)

[136] Rusiya ilə Türkiyə arasında müqaviləyə 1(V) saylı əlavə. 16.03.1921.//RDSSTA, f.159, s.2, i.57, v.81(arxası)

[137] Bax: İsmayıl Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), s.347

[138] Д.С.Заврием. К новейшей истории северо-восточных вилайетов Турции. Тбилиси, 1947, с.111

[139] Bax: The Boundary Between Turkey and the USSR. CIA/RR M-17. Secret. January 1952. // National Archives and Records Administration USA, CIA-RDP 79, p.8

bəziləri həmişə deyirdilər ki, mənim seçimim uğursuzdur və sair".[140] Moskva müqaviləsi imzalandıqdan sonra, Ali Fuad paşa bəyanatla çıxış edib bildirdi ki, Moskva müqaviləsinə əsasən Naxçıvan Azərbaycanın protektaratlığına verilmişdir, lakin Maku ərazisində imperialist güclərin əməliyyat keçirməsi ilə bağlı Türkiyəyə şərq istiqamətindən öz təhlükəsizliyini təmin etmək məcburiyyətindədir.[141] Bu, əslində, türk qoşunlarının müvəqqəti olaraq Naxçıvanda qalması demək idi.

Moskva müqaviləsinin imzalanması Azərbaycanda böyük əks-səda doğurdu. Bu müqavilə imzalandıqdan az sonra, Azərbaycan SSR-in xarici işlər komissarı M.D.Hüseynov Şərq Cəbhəsinin komandanı Kazım paşaya, G.Çiçerinə, B.Şahtaxtinskiyə, Q.Orconikidzeyə, Gürcüstanın xarici işlər komissarı İ.Oraxelaşviliyə, Türkiyənin Bakıdakı diplomatik nümayəndəsi Memduh Şövket bəyə göndərdiyi teleqramda Moskva müqaviləsini yüksək qiymətləndirir və Sovet Azərbaycanı hökumətinin inqilabi Türkiyəyə ilk yardımı kimi, Bakı-Tiflis-Qars marşurutu ilə 30 sistern neft, 2 sistern benzin və 8 sistern kerosin göndərdiyini bildirirdi.[142] Bu məlumatdan bir neçə gün əvvəl, mart ayının 14-də Azərbaycan XKS-in sədri N.Nərimanov təntənəli şəkildə Bakı-Tiflis-Batum neft kəmərini açmışdı və bu hadisə Azərbaycan-Türkiyə münasibətlərində əhəmiyyətli rol oynamalı idi.[143]

Moskva müqaviləsi imzalanan gün Çiçerin, Batum və Naxçıvan məsələlərinin müqavilədə qoyuluşu haqqında Orconikidzeyə teleqram göndərdi. O, məlumat verdi ki, Batum Gürcüstana keçdi, Naxçıvan isə, Azərbaycanın protektaratlığı altında muxtar vilayət olacaqdır. Eyni zamanda, Çiçerin bildirirdi ki, Ali Fuad paşa Tiflis və ya Bakı vasitəsi ilə müqavilənin mətnini birbaşa xəttlə Qarsdakı türk nümayəndəsinə çatdırmaq istəyir. O, müqavilədən sonra Ermənistan və Naxçıvandakı vəziyyətlə maraqlanaraq yazırdı: "Türkiyə nümayəndələri bəyan edirlər ki, türk qoşunlarının Batum, Axalkələk və Axalsıx vilayətlərindən çıxarılmasında təkid edəcəklər. İrəvan nə edir, Vrasyan *(S.Vrasyan 1921-ci ilin fevralında İrəvanda daşnak qiyamından sonra "Vətəni Xilas Komitəsi"yaratmışdı – C.H.)* haradadır,

[140] N.Nərimanovun B.Şahtaxtinskiyə məktubu. 1921.//RDSSTA, f.85, s.2c, i.3, v.62

[141] Moskvadakı Türkiyə Böyük Millət Məclisi səfirliyinin bəyanatı. 17.03.1921.// RF XSA, f.132, s.4, q.4, i.3, v.109

[142] M.D.Hüseynovun Kazım Qarabəkir paşa, Q.Orconikidze, G.Çiçerin və digərlərinə teleqramı.24.03.1921.// RDSSTA, f.85, s.c(Türkiyə), i.65, v.1-1(arxası)

[143] M.D.Hüseynovun Q.Orconikidze, G.Çiçerin, B.Şahtaxtinski və digərlərinə teleqramı.14.03.1921.// RDSSTA, f.85, s.13, i.144, v.1

Ermənistan İnqilab Şurası haradadır, Naxçıvanda nə var, nə yox".[144] Mart ayının 19-da G.Çiçerin Rusiyanın Stokholmda olan ticarət nümayəndəsi P. Kerjentsevə göndərdiyi teleqramda Moskva müqaviləsinin məzmununu belə ümumiləşdirirdi: "Mart ayının 16-da Moskvada rus-türk müqaviləsi imzalanıb. Batum Gürcüstana məxsus olacaq, lakin muxtariyyətdən istifadə edəcək. Naxçıvan Azərbaycanın protektoratlığı altında olacaq. Türkiyənin Rusiyaya borcları ləğv edildi. Türkiyənin əraziləri türk milli paktı əsasında müəyyən edildi. Boğazların statusu Qara dəniz dövlətlərinin komissiyasında hazırlanacaq".[145]

Sovet Rusiya ilə Türkiyə arasında "Dostluq və qardaşlıq haqqında" müqavilə imzalanan kimi, XI Ordunun komandanlığına və Hərbi İnqilab Şurasının üzvü Orconikidzeyə Moskvadan təlimat gəldi ki, türklərlə imzalanmış müqavilədə Qara dəniz sahillərindəki Sarp məntəqəsindən tutmuş, Qarasu çayının aşağı axarına qədər müəyyən edilmiş sərhəd xəttinə Qırmızı Ordu tərəfindən riayət edilsin.[146] Mart ayının 24-də isə Moskva müqaviləsinin mətni, onun əlavələri ilə birlikdə Xarici İşlər Komissarlığının katibi Syurupa tərəfindən teleqraf vasitəsi ilə Tiflisdə olan Orconikidzeyə çatdırıldı.[147] Rusiya-Türkiyə müqaviləsinin imzalanmasından bir neçə gün sonra, mart ayının 25-də RKP MK Siyasi Bürosu S. Nasarenusu Ankaraya səlahiyyətli nümayəndə təyin etmək haqqında MK Təşkilat Bürosunun qərarını təsdiq etdi.[148]

Moskva müqaviləsi imzalandıqdan sonra Türkiyə nümayəndə heyəti Rusiya hökumətindən aldığı 4 milyon qızıl rubl maliyə yardımı ilə aprel ayının 1-də Bakıya yola düşdü. Türklərin niyyəti qayıdan baş Azərbaycanla bir müqavilə bağlayıb, onun müstəqilliyinə əməli xarakter vermək idi. Lakin, Sovet Rusiyası Türkiyə ilə istər siyasi əlaqələri, istərsə də iqtisadi əlaqələri öz əlində cəmləşdirib, bütün yardımların mərkəzləşdirilmiş qaydada göstərilməsinə qərarlı idi. Xüsusilə, Azərbaycan hökumətinin Moskva müqaviləsindən ruhlanaraq, inqilabi Türkiyəyə neft marşurutu açması Sovet

[144] G.Çiçerinin Q.Orconikidzeyə teleqramı. 16.03.1921.// RDSSTA, f.85, s.c(Türkiyə), i.29, v.31-31(arxası)

[145] G.Çiçerinin P.Kerjentsevə teleqramı. 19.03.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.45

[146] Puqaçov və Peçerskinin Orconikidzeyə teleqramı. 16.03.1921.// RDSSTA, f.85, s.c(Türkiyə), i.29, v.1

[147] Syurupanın Orconikidzeyə teleqramı. 24.03.1921.// RDSSTA, f.85, s.c(Türkiyə), i.29, v.22-24(arxası)

[148] Bax: Политбюро ЦК РКП(б) – ВКП(б) повестки дня заседаний. Том I. 1919-1929. M., 2000, c.91

Rusiyası tərəfindən "özbaşınalıq" kimi, qiymətləndirilirdi. Belə "özbaşınalıqların" qarşısını almaq üçün, Türkiyə nümayəndələri Bakıya yola düşən gün, aprel ayının 1-də Xarici İşlər Komissarlığı RK(b)P MK-ya, Türkiyə ilə münasibətlərdə Qafqaz respublikalarının müstəqil hərəkət etmələrinin qarşısını almaq üçün təqdimat göndərdi. Bu təqdimatın əsasında Türkiyə nümayəndə heyəti hələ Moskvada olarkən, mart ayının 24-də G.Çiçerinin RKP MK-ya göndərdiyi məktub dayanırdı. Çiçerin yazırdı ki, türklər Tiflisdə Qafqaz respublikaları ilə müqavilə imzalamaq və onlardan nə isə "qoparmaq" fikrindədirlər. O, təklif edirdi ki, bu məqsədlə mərkəzdən kimisə Tiflisə göndərmək lazımdır ki, bilavasitə Sovet Rusiyasının nümayəndəsi kimi, Qafqaz respublikalarının türklərlə aparacağı danışıqlarda iştirak etsin. Çiçerinin fikrincə, belə bir nümayəndə hazırda Reveldə işləyən və Qafqaz işlərinə yaxından bələd olan Stark ola bilərdi. O, RKP MK-nı xəbərdar edirdi ki, türklər Tiflisə çatana qədər müvafiq təlimatlar verilmiş Rusiya nümayəndəsinin Tiflisə göndərilməsi və "Qafqaz espublikalarının nümayəndələrinin bizimlə sıx əlaqədə olması tamamilə zəruridir".[149] Bu məktub ruhunda hazırlanmış təqdimatda söhbət Qafqazın sovet respulikalarından getsə də, əslində, sənəd bütövlükdə, Azərbaycana qarşı yönəlmişdi. Orada göstərilirdi: "Türklərin taktikası ondan ibarətdir ki, bizdən ala bilmədiklərini, indi ayrıca danışıqlar yolu ilə Qafqaz respublikalarından əldə etsinlər. Türklərə məharətli manevrlər yolu ilə Qafqaz respublikalarını bir-birlərindən ayırmağa və əldə edə bilmədiklərini indi onlardan təklikdə qoparmağa imkan verməmək üçün, Qafqaz respublikaları türklərlə qarşıdakı danışıqlar zamanı öz aralarında sıx birləşib, bizimlə tam əlaqədə olmalıdırlar. Yeri gəlmişkən, ehtiyat etmək olar ki, bu münasibətlərdə, xüsusilə, Azərbaycan tərəfindən hər şey asan olmayacaqdır. Əgər biz hər hansı arzuolunmaz təmayülün qarşısını almaq üçün addımlar atmasaq, belə hallar çox asan baş verə bilər. Ona görə, Qafqazın sovet respublikalarının, Türkiyə ilə bağlayacağı müqavilələri qabaqcadan bizim hökumətə göndərməsi barədə, Mərkəzi Komitənin qəti və aydın qərar qəbul etməsi zəruridir".[150]

Aprel ayının 3-də RK(b)P MK-nın Siyasi Bürosu Xarici İşlər Komissarlığının təqdimatını müzakirə edib, Çiçerinin təklifini bəyəndi və Cənubi Qafqazın sovet respublikalarını, ilk növbədə isə, Azərbaycanı Türkiyə ilə münasibətlərdə müstəqil addımlar atmaq cəhdlərindən çəkindirdi.[151] Aprel

[149] G.Çiçerinin RKP MK-ya məktubu. 24.03.1921.// RDSSTA, f.2, s.1, i.17789, v.1-2

[150] XXİK-dan RK()P MK-ya. 01.04.1921.// RDSSTA, f.159, s.2, i.57, v.37

[151] RK(b)P MK-ın Siyasi Bürosunun iclasının 8 saylı protokolundan çıxarış.03.04.1921.//

ayının 4-də G.Çiçerin teleqram göndərərək, RKP MK-ın Qafqaz Bürosu və Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasının üzvü Q.Orconikidzeni, habelə, Gürcüstan İnqilab Komitəsinin üzvü İ. Oraxelaşvilini məlumatlandırdı ki, Azərbaycan və Ermənistanın kamalçılarla ayrılıqda danışıqlar aparması yolverilməzdir, bu respublikaların Ankara ilə gələcək müqavilələrində başlıca məsələ olan Gümrü müqaviləsi tanına bilməz. Teleqramda göstərilirdi ki, Azərbaycan və Ermənistan nümayəndələri ilə əlaqəyə girib, onları başa salmaq lazımdır ki, türklərlə ayrı-ayrılıqda danışıqlar aparıb, bizim üçün sürprizlər yaratmasınlar. Eyni zamanda, qeyd olunurdu ki, Qafqaz respublikaları ilə danışıqlarda türklər yeni məsələlər irəli sürsələr, təcili olaraq, bütün bunlar haqqında Moskva ilə məsləhətləşmək lazımdır. Ermənistanla danışıqlarda türklər tərəfindən hələ qüvvədə hesab edilən Gümrü müqaviləsi də daxil olmaqla, bütün əvvəlki müqavilələrin ləğv edilməsi tövsiyyə edilirdi. Çiçerin yazırdı: " Rus-türk konfransı zamanı biz milyon dəfə bəyan etdik ki, Gümrü müqaviləsini tanımırıq və əgər türklər yenidən onu irəli sürsələr, bizim bəyanatımıza istinad edib, ən qəti formada bəyan etmək lazımdır ki, o qüvvədə deyil. Bunun haqqında xüsusi məktub da, göndərə bilərəm. Gümrü müqaviləsi o qədər dəhşətlidir ki, ona hər hansı istinad qəti müqavimətlə qarşılanmalıdır, açıq şəkildə demək lazımdır ki, əgər Ermənistanın Gümrü müqaviləsini tanımağa məcbur edilməsi təkrarlansa, Sovet Rusiyası heç nəyin qarşısında dayanmayacaqdır".[152]

G.Çiçerinin teleqramında Azərbaycanla bağlı maraqlı məqamlar var idi. Azərbaycan Respublikası ilə müqavilədə Naxçıvan məsələsinin rus-türk müqaviləsinin üçüncü maddəsində olduğu kimi, göstərilməsini tövsiyə etməklə yanaşı, o, qeyd edirdi ki, Türkiyənin Azərbaycanla əlaqələrinə ciddi şəkildə nəzarət etmək lazımdır. Çiçerin yazırdı: " Xüsusi şəkildə diqqət etmək lazımdır ki, faktiki olaraq, Türkiyənin Azərbaycanın protektoru rolunda çıxış etməsini özündə əks etdirən, türklərin Şahtaxtinski ilə birlikdə hazırladıqları layihədə yer almış qeyri-mümkün və yolverilməz maddələr Azərbaycanla müqavilədə olmasın. Türklər bütün müsəlman ölkələrinin protektoru rolunu öz üzərlərinə almağa meyllidirlər. Bunu heç bir halda görməzliyə vurmaq olmaz və xüsusilə, Azərbaycan çox qəti şəkildə öz müstəqilliyini, Türkiyənin digər müsəlman ölkələrinin himayəçisi rolunu öz əlinə almaq cəhdlərindən

RDSSTA, f.17, s.3, i.145, v.1; Политбюро ЦК РКП(б) – ВКП(б) повестки дня заседаний. Том I. 1919-1929. M., 2000, c.93

[152] G.Çiçerinin Q.Orconikidze və İ.Oraxelaşviliyə teleqramı. 04.04.1921.// RDSSTA, f.298, s.1, i.106, v.3

qoruyub saxlamalıdır. Türklər yalnız, Türkiyə ərazisində doğulan və ya oradan olanların himayəçisi rolunda çıxış edə bilər, bundan artıq heç nəyə iddia edə bilməz".[153] Elə həmin gün P.Mdivaniyə göndərdiyi təcili diplomatik teleqramda G.Çiçerin ona göstəriş verirdi ki, Ermənistanda olan türklərin Moskva müqaviləsi ilə müəyyən edilmiş sərhədlərə çəkilməsini və xüsusilə, Gümrünü təcili olaraq, böşaltmalarını onlardan tələb etmək lazımdır.[154] Lakin türklər daşnak Ermənistanı ilə bağlanmış müqaviləni əsas tutaraq, Gümrünü tezliklə böşaltmaqdan imtina edirdilər. Q.Orconikidze isə Gümrü böşaldılmadan İrəvanın müdafiəsini qeyri-mümkün hesab edir və belə şəraitdə Ermənistanda Sovet hakimiyyətinin heç bir nüfuzunun olmayacağını bildirirdi.[155] Çiçerin Orconikidzeni arxayın edirdi ki, Gümrünün təcili olaraq, böşaldılmasını Ali Fuad paşa ona söz verib və "o, Türkiyə ilə Sovet Ermənistanı arasında müharibənin, Türkiyə ilə Sovet Rusiyası arasında müharibə kimi, başa düşüləcəyini göstərməklə, tezliklə Qarabəkir paşanın özbaşınalığı haqqında Ali Fuad paşaya məlumat verəcəyini" Orconikidzeyə yazırdı.[156]

Şərq Cəbhəsinin komandanı Kazım paşa, təkid edirdi ki, Ermənistan bütün silahlarını təslim etmədikcə, o, Gümrünü boşaltmayacaqdır. Sovet Rusiyanın ciddi müdaxiləsindən sonra Kazım paşa Gümrünü tərk etmək məcburiyyətində qaldıqda, o, Gümrüdən çıxmazdan öncə cəbbəxanaları külünü havaya sovurmuşdu.[157] Türklərin Gümrünü böşaltmamasının bir səbəbi də, 1921-ci ilin fevral ayında Ermənistanda baş vermiş üsyan nəticəsində İrəvanda hakimiyyətin yenidən daşnakların əlinə keçməsi ilə bağlı idi. Kommunistlər Gümrü müqaviləsini tanimaq istəmədiklərindən Ankara daşnakların yenidən hakimiyyətə gəlməsinə elə də pis baxmırdı. Hətta, İrəvanda yeni hakimiyyətə gələn daşnakların müdafiə naziri Iğdıra gedərək, türklərlə gizli bir saziş imzalamışdı və "bu sazişə görə, Ankara hökuməti daşnak hökumətinə silah və sursat verməyi mümkün sayırdı".[158] Bununla türklər bir tərəfdən, Sovet Rusiyasına təsir imkanı əldə edir, digər tərəfdən, Moskvanın imtina etdiyi Gümrü müqaviləsini qüvvədə saxlamış olurdu-

[153] Yenə orada, v.3(arxası)

[154] G.Çiçerinin P.Mdivaniyə təcili diplomatik teleqramı. 04.04.1921.// RDSSTA. f.5, s.1. i.2117, v.13

[155] Q.Orconikidzenin G.Çiçerinə teleqramı. 06.04.1921.// RDSSTA, f.85, s.C/Türkiyə, i.18, v.21

[156] Документы внешней политики СССР. T. IV, M.: Госполитиздат, 1960, c.50

[157] Bax: S.İ.Aralov. Bir Soviet diplomatının Türkiye Hatıraları. İstanbul, 1967, s.34

[158] Nurcan Toksoy. Revan'da son günler. Türk yönetiminden ermeni yönetimine. Orion Yayınevi, Ankara, 2007, s.319

lar. Lakin Antanta ölkələri, ilk növbədə isə, ABŞ Ermənistanda yaranmış böhranlı vəziyyətdən kamalçıların yararlanacağından narahat idilər. Hətta, İstanbuldakı Amerika komissarı admiral Mark Lambert Bristol Türkiyə Böyük Millət Məclisi hökumətinə bir nota verərək Mustafa Kamal paşanı Azərbaycanda olan Ənvər paşa ilə əlaqədə Ermənistana qarşı birgə hərəkət etməkdən çəkindirməyə çağırırdı. O, Ankara hökumətini təhdid edərək bildirirdi ki, kamalçılar belə bir addım atarsa, dünya ona qarşı olacaqdır.[159]

Aprel ayının ilk günlərində İrəvan yenidən bolşeviklərin əlinə keçdikdən sonra Çiçerin Ali Fuad paşaya bildirdi ki, İrəvan yenidən Ermənistan Sovet hökumətinin əlindədir və türk ordusu Moskva müqaviləsinə əsasən, müəyyən edilmiş sərhədlərə çəkilməlidir.[160] Belə mübahisəli məsələlərdə Çiçerin türk səfiri və digər rəsmiləri ilə yazışmalarında çox nəzakətli görünsə də, Qafqaz respublikalarındakı rəhbər sovet işçiləri ilə diplomatik yazışmalarında türklərin ünvanına hədələyici ifadələr işlətməkdən çəkinmirdi. Aprel ayının 7-də o, Mdivaniyə yazırdı: "Türklərə başa salın ki, toqquşmanın fəlakətli nəticələri ola bilər, sovet respublikalarının biri ilə olan müharibə bizimlə müharibə kimi qəbul ediləcək. Belə nəticədən qaçmaq lazımdır, bunun üçün türklərin təcili olaraq, Gümrüdən çıxması zəruridir".[161] Aprel ayının 7-də Ali Fuad paşa İrəvanın yenidən aprelin 2-də kommunistlərin əlinə keçməsindən məmnun olduğunu və Türkiyənin şərq sərhədlərinin təhlükəsizliyi baxımından, Gümrünün türklərin nəzarətində saxlanılmasının zəruruliyini Çiçerinə bildirdi. O, əlavə etdi ki, erməni əksinqilabi tərəfindən hərbi təhlükə sovuşan kimi, Moskva müqaviləsinə uyğun olaraq, Gümrü böşaldılacaqdır.[162] Həmin günlərdə Türkiyənin hərbi naziri Fevzi paşanın türk qoşunlarının balans yaratmaq məqsədilə müəyyən müddət Qafqazda qalacağı haqqında verdiyi bəyanat Sovet Rusiyasının xarici işlər komissarını tamamilə hövsələdən çıxardı. Fevzi Çakmak paşa bildirdmişdi ki, türk orduları Gümrü müqaviləsi tətbiq edildikdən sonra bölgəni tərk edəcəkdir. Çiçerin bundan hiddətlənərək, Moskvadakı türk səfirinə göndərdiyi notada Qafqazda balans yaratmaq missiyasının sovet respublikalarının birləşmiş Qırmızı Ordusuna məxsus olduğunu və Gümrü müqaviləsinin qüvvədə

[159] Bax: Nurcan Toksoy. Revan'da son günler. Türk yönetiminden ermeni yönetimine, s.306

[160] Документы внешней политики СССР. T. IV, M.: Госполитиздат, 1960, c.49

[161] G.Çiçerinin P.Mdivaniyə təcili diplomatik teleqramı. 07.04.1921.// RDSSTA, f.5, s.1, i.2117, v.14

[162] Документы внешней политики СССР. T. IV, M.: Госполитиздат, 1960, c.49

qaldığı təqdirdə Moskva müqaviləsinin qüvvədən düşəcəyi ilə türkləri hədələdi. Notada deyilirdi: "Gümrü müqaviləsini yerinə yetirməyi arzulamaq, Moskva müqaviləsini ləğv etməyə bərabərdir".[163] Eyni zamanda, Çiçerin Gürcüstanın xarici işlər komissarı Oraxelaşviliyə göndərdiyi teleqramda türklərin Gümrünü boşaltması ilə bağlı vəziyyət barədə ona məlumat verilməsini tələb edirdi. Çiçerin yazırdı: "Mən bu barədə Ali Fuadla çox ciddi danışmışam... Biz dözə bilmərik ki, müqavilənin ziddinə olaraq orada türk ordusu qalsın".[164] Lakin Çiçerinin notasına cavabında Ali Fuad paşa bütün baş verənlərin Ermənistanda yaranmış vəziyyətdən irəli gəldiyini, Ankaranın Moskva ilə və ona qardaş olan respublikalarla münasibətləri mehriban qonşuluq əsasında quracağı, şərq sərhədlərində Türkiyənin təhlükəsini təhdid edən təcavüzkar ünsürlərin hərəkətlərinə son qoyulan kimi, onun hökümətinin öz fəaliyyətində Moskva müqaviləsinin maddələrini rəhbər tutacağını bildirirdi.[165] Məhz, Moskva müqaviləsinin müvafiq maddəsinə əsasən, türk qoşunları 1921-ci ilin aprel ayının 16-da Naxçıvanı tərk etdi. Lakin Ankaradan gələn bir təlimata əsasən, daşnakların tam məğlub olmasına qədər Gümrünün boşaldılması məsələsində tələsməməyə üstünlük verildi və aprelin 23-nə qədər türk qoşunları orada qaldı.[166]

Fevral ayının 17-də Ermənistanda Sovet hakimiyyətinə qarşı başlanmış antisovet üsyanını ermənilər daha çox onların milli problemlərinin həll olunmaması və Sovet Rusiyasına olan ümidlərinin boşa çıxması ilə izah edirdilər. Fevral ayının 18-də daşnaklar İrəvanda hakimiyyəti ələ aldıqdan sonra Gürcüstan hökumətindən yardım istəmişdilər. Hakimiyyətdən devrilmiş erməni kommunistlər isə yenidən Dilican və Akstafaya dönməli olmuşdular.[167] İrəvanda hakimiyyəti yenidən ələ almış daşnakların ilk addımı xarici ölkələrdə olan Ermənistan Sovet Respublikasının nümayəndəliklərini ləğv etmək olmuşdu. Eyni zamanda, A.Bekzadyan başda olmaqla, Moskva konfransında iştirak edən Ermənistan nümayəndə heyətinin fəaliyyəti də qanundankənar elan edilmişdi.[168] Əslində, fevral ayının 25-də tələsik ola-

[163] Документы внешней политики СССР. Т. IV, М.: Госполитиздат, 1960, с.53-54

[164] G.Çiçerinin İ.Oraxelaşviliyə teleqramı. 12.04.1921. // RDSSTA, f.85, s.18, i.266, v.1

[165] Документы внешней политики СССР. Т. IV, М.: Госполитиздат, 1960, с.54-55

[166] Bax: Nurcan Toksoy. Revan'da son günler. Türk yönetiminden ermeni yönetimine. Orion Yayınevi, Ankara, 2007, s.320

[167] Atabekyanın Orconikidzeyə birbaşa xəttlə məlumatı. 25.02.1921.// RDSSTA, f.64, s.1, i.137, v.31

[168] Ermənistanı Xilas Komitəsinin Q.Orconikidze və G.Çiçerinə teleqramı. 17.03.1921.// RDSSTA, f.5, s.1, i.2178, v.54

raq, Qırmızı Ordunun Tiflisə hücumu və Gürcüstanın sovetləşdirilməsi xeyli dərəcədə Ermənistandakı hadisələrlə bağlı idi. Aprel ayının əvvəllərində bu üsyan yatırıldıqdan sonra hazırlanmış "Xidməti qeyd"də bildirilirdi ki, hakimiyyətin sovet orqanlarına verilməsi haqqında dekabr ayının 2-də RSFSR-in səlahiyyətli nümayəndəsi B.Leqranla imzalanmış müqaviləyə əsasən, Sovet Rusiyası söz verirdi ki, bütün İrəvan quberniyası, Zəngəzur qəzası, Yelizavetpol quberniyası Qazax qəzasının dağlıq hissəsi, Tiflis quberniyası Borçalı qəzasının bütün əraziləri və Qars vilayətinin cənub-şərq hissəsinin Ermənistan Sovet respublikasına daxil olmasını təmin edəcək. Lakin ermənilərin fikrincə, Leqranla erməni hökuməti arasında imzalanmış müqavilənin heç bir bəndi yerinə yetirilmədi. Xüsusilə, "erməni kommunistlərinin nəzarətinə verilmiş Naxçıvan qəzasının Ermənistana birləşməkdən imtina edib, gah Azərbaycana, gah da Türkiyəyə meyl etməsini" Ermənistanın siyasi dairələri Sovet hakimiyyətinin zəifliyi ilə izah edirdilər.[169]

Moskva müqaviləsi imzalandığı günlərdə ermənilər bu müqavilə əsasında Türkiyə ilə Cənubi Qafqaz arasında müəyyən edilmiş sərhədlərin Cənubi Qafqazın müdafiəsini zəiflətdiyini, Ermənistanın müdafiəsini isə, sıfıra endirdiyini bildirirdilər. Onların RKP MK-ya, surətini isə Çiçerin və Stalinə göndərdikləri məktubda yeni sərhədərin Ermənistanı ağır vəziyyətə saldığı, onun mərkəzi şəhərləri olan İrəvan və Gümrünün sərhədyanı şəhərlərə çevrildiyi vurğulanırdı. Lakin sənəddə ermənilər daha çox "Bakının təhlükəsizliyindən" narahat idilər. Orada yazılırdı ki, Qars, Qars yaylası və Ərdahanın Türkiyəyə verilməsi, "nəinki, Cənubi Qafqaz, eləcədə bütün Sovet Rusiyasının həyat mənbəyi olan Bakının müdafiəsini çətin vəziyyətə salır. Müharibə şəraitində yeni sərhədlər türklərin Bakını tutması üçün böyük imkanlar və perspektivlər açır". Türklərin "Bakıya yolunun açılmasını" ermənilər daha çox Naxçıvanın Azərbaycanın protektaratlığına verilməsi ilə əlaqələndirməyə çalışırdılar. Onların fikrincə, Naxçıvanın Azərbaycana verilməsi ilə türklərin Bakıya doğru iki istiqamətdə strateji yolu açılmış olurdu. Bunlardan birincisi Naxçıvan-Biçənək aşırımı-Gorus-Şuşa-Yevlax-Bakı yolu, ikincisi isə, Naxçıvan-Ordubad-Xudafərin körpüsü-Yevlax-Bakı (yaxud Xudafərin körpüsü – Qarabağ düzü- Bakı) yolu idi. İkinci yolun təhlükəsini ermənilər bu yolun başdan-başa müsəlman rayonlarından

[169] Ermənistanda Sovet hakimiyyəti əleyhinə erməni xalqının üsyanı haqqında xidməti məlumat. 09.04.1921.// RDSSTA, f.64, s.1, i.137, v.1-3

keçməsi ilə izah edirdilər.[170] Erməni kommunistləri Moskva müqaviləsi ilə müəyyən edilmiş sərhədləri kinayəli formada özləri üçün yeni Brest sərhədləri adlandırırdılar. Lakin, G.Çiçerin Sovet Rusiyasının Almaniyadakı nümayəndəsi V. Koppa yazdığı məktubda Qarsı Qafqazın açarı hesab etsə də, onun və Ərdahanın türklərə verilməsini qaçılmaz hesab edirdi. O, eyni zamanda, qeyd edirdi ki, Qarsın və Ərdahanın türklərə verilməsi qaçılmaz olduğu kimi, "Batumu Gürcüstana, Naxçıvanı isə, Azərbaycana vermədən Türkiyə ilə heç bir sülh mümkün deyidi".[171]

Türkiyə nümayəndələri aprel ayının 8-də Bakıya çatan kimi, Azərbaycanın Xarici işlər komissarı M.D.Hüseynov, onlarla danışıqlar aparmamaq barədə Çiçerindən telefonoqrama aldı. Çiçerin yazırdı ki, "Bakılı yoldaşlar" digər Qafqaz respublikaları ilə razılaşmadan türklərlə danışıqlara başlamasınlar. O yazırdı: "Türklərin xətti ondan ibarətdir ki, bütün vasitələrlə Azərbaycana yardım etsin, onun himayəçisi rolunu oynamaqla, Azərbaycanın işlərinə müdaxilə imkanı qazansın və ona qəyyumluq etsin".[172] Çiçerin xəbərdarlıq edirdi ki, "Qafqaz respublikaları RKP MK-dan xəbərsiz türklərlə hər hansı müqavilə bağlaya bilməzlər". O, bu barədə Mərkəzi Komitənin aprel ayının 3-də müvafiq qərarının qəbul olduğunu M.D.Hüseynovun nəzərinə çatdırırdı. Çiçerin nəinki, təlimat, eyni zamanda, Qafqazın sovet respublikalarının Türkiyə ilə bağlayacağı müqavilənin layihəsini də onlara göndərmişdi.[173]

Türkiyə nümayəndə heyəti aprel ayının 19-na qədər Bakıda qalıb, Azərbaycanın hökumət rəsmiləri ilə bir sıra görüşlər keçirsələr də, lakin Çiçerinin tapşırığına uyğun olaraq, Azərbaycan tərəfi hər hansı bir sənəd imzalamaqdan çəkindi. Sovet Xarici İşlər Komissarlığı Türkiyə nümayəndə heyətinin uzun müddət Bakıda qalmasından narahat idi. Çiçerin Azərbaycan rəsmilərinə tövsiyə edirdi ki, müxtəlif bəhanə ilə türkləri Bakıdan çıxarmaq lazımdır. M.D.Hüseynov Moskvaya göndərdiyi teleqramda G.Çiçerini əmin edirdi ki, "türklər heç vaxt və heç bir formada Azərbaycan üzərində himayədar rolunu oynaya bilməz. Hökumətimizin qərarına görə, türklərə bir neçə yüz min pud neft məhsulları verilməsi qərarından başqa onlarla birtərəfli qaydada heç bir müqavilə imzalanmayacaqdır. Əgər hazırda danışıqlarda Cənubi Qafqaz respublikalrının cəbhəsini yaratmaq lazımdırsa, biz bu danışıqlarda

[170] RKP MK-ya, surəti G.Çiçerin və İ.Stalinə. 1921.// RDSSTA, f.85, s.c/Türkiyə, i.29, v.32-34

[171] G.Çiçerinin V.Koppa məktubu. 20.03.1921.// RDSSTA, f.85, s.C/Türkiyə, i.29, v.41

[172] G.Çiçerinin M.D.Hüseynova telefonoqramı. 09.04.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v.197

[173] Yenə orada, v.196

iştirak edəciyimizi türklərə deyə bilərik. Lakin türk heyətinə yalnız Tiflisdə danışıqlar aparmaq bəhanəsi ilə Bakını tərk etmələrini təklif edə bilmərik".[174]

Türkiyə nümayəndə heyətinin Bakıda danışıqları davam etdirmək cəhdləri G.Çiçerin tərəfindən çox qısqanclıqla qarşılanırdı. Azərbaycanın ayrılıqda türklərlə müqavilə bağlamayacağı haqqında aprel ayının 12-də M.D.Hüseynovdan teleqram vasitəsi ilə təminat almasına baxmayaraq, elə həmin gün, o, Azərbaycan xarici işlər komissarı ilə birbaşa xəttlə əlaqəyə girib, Moskva müqaviləsi və ondan irəli gələn vəzifələrin izahını verdi, eyni zamanda, Qafqaz respublikalarının, ilk növbədə isə, Azərbaycanın Türkiyə ilə necə davranacağı haqqında Moskvanın təlimatlarını M.D.Hüseynova çatdırdı. G.Çiçerin yaxşı anlayırdı ki, 16 mart müqaviləsində Naxçıvanla bağlı maddə olduğu üçün, türklər Naxçıvanın üçüncü dövlətə güzəştə getməməsi barədə Azərbaycandan təminat almalıdırlar. Türk heyətinin Bakıda Azərbaycanın hökumət rəsmiləri ilə danışıqlara cəhd göstərməsi də, ilk növbədə, məhz, bununla bağlı idi. Onlar Naxçıvanın gələcəkdə də, Azərbaycanın ərazisi olaraq, qalması üçün onun siyasi və hüquqi statusunu daha da etibarlı etmək istəyirdilər. Lakin Sovet Rusiyası ayrılıqda Azərbaycanla Türkiyə arasında müqavilə bağlanmasından ehtiyatlanır, onlar bütün vasitələrlə Cənubi Qafqaz respublikalarının Türkiyə ilə, layihəsi Moskvada hazırlanan kollektiv müqavilə bağlanmasına üstünlük verirdilər. Türkiyə ilə gələcək müqaviləyə münasibətdə G.Çiçerin deyirdi: "Müqavilədə-əgər bir neçəsi olacaqsa-Qafqaz respublikaları ilə müqavilələrdə, hər şeydən əvvəl, Qafqaz respublikalarının suveren hakimiyyətini məhdudlaşdıran heç nə olmamalıdır. Ona görə, Türkiyənin Ermənistana nəzarətinin hər hansı norması şübhəsiz ki, aradan qaldırılmalıdır. Eyni ilə, Şahtaxtinskinin mənə göstərdiyi Türkiyənin Azərbaycanı müdafiə etmək öhdəliyi qəbul etdiyi və hətta, onu silahlı qüvvələrlə təchiz edəcəyi barədə Azərbaycanla müqavilənin layihəsində olanlar da yoverilməzdir. Daxili işlərə hər hansı formada müdaxilə sözsüz ki, rədd edilməlidir".[175] Sonra təlimatda Çiçerin uzun-uzadı Moskva müqaviləsində Batum məsələsinin qoyuluşunu izah edib, Naxçıvan məsələsinin üzərinə gəlirdi. O deyirdi: "Ermənistanla Azərbaycanın Naxçıvan məsələsi vardır. Üçbucaq zonada sərhədləri dəqiqləşdirmək üçün Ermənistan, Azərbaycan və Türkiyədən ibarət üçtərəfli komissiya haqqında maddə belə meydana çıxdı: "Naxçıvanın

[174] M.D.Hüseynovun G.Çiçerininə teleqramı. 12.04.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v.214

[175] G.Çiçerinin birbaşa xəttlə M.D.Hüseynova təlimatı. 12.04.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.52

Azərbaycanın protektoratlığı altına keçməsi" həll edilən zaman türklər Naxçıvan vilayətinin sərhədlərini İrəvan vilayətinin cənub üçbucaq hissəsini Naxçıvanın xeyrinə əhatə edən Gümrü müqaviləsi üzrə müəyyən etdilər. Bu sərhədlər bizim xəbərimiz olmadan hərbi ekspertlərin səhvi üzündən xüsusi ekspert komissiyasıda qəbul edildi. Ona görə, məsələ yenidən konfransa gələn zaman biz yalnız onu edə bilərdik ki, sərhədlərin cənub üçbucaq istiqamətinə dönməsinə etiraz edək. Uzun mübarizədən sonra qərara alındı ki, Ermənistan, Azərbaycan və Türkiyədən ibarət komissiya bu yerlərdə son olaraq, sərhədləri dəqiqləşdirəcək. Əvvəllər, Şahtaxtinski bizimlə Naxçıvan haqqında danışanda, o, Naxçıvan vilayətinin son hüdudlarını Qurd qapısına qədər hesab edirdi. Yeri gəlmişkən, üçbucaq zona, yəni, İrəvan vilayətinin cənub üçbucaq parcası Şahtaxtinskinin iddia etdiyindən də artıq olub, Qurd qapısı hüdudlarından kənara çıxır. Qabaqcadan müzakirə edin və məlumat verin ki, sizcə dəqiq olaraq, Naxçıvanla Ermənistan arasında sərhədlər haradan keçməlidir? Qabaqcadan bu sərhədləri müəyyənləşdirmək lazımdır ki, biz erməni və Azərbaycan nümayəndələrinin Türkiyə ilə üçtərəfli komissiyaya nə ilə daxil olduğunu bilək".[176]

Ümimi məsələlərə gəldikdə isə, Çiçerin qeyd edirdi ki, türklər bütün ölkələrin müsəlmanlarının protektoru rolunda çıxış etməyə meyllidirlər. O, bunu Moskva konfransında türklərin Rusiyada yaşayan müsəlmanların Türkiyəyə mühacirət hüququnun tanınmasını tələb etmələri ilə əlaqələndirir və bu ad altında Türkiyənin "Qafqaz tatarlarına" nəzarət edəcəyini vurğulayıb, tövsiyə edirdi ki, bütün hallarda türklərin bütün müsəlmanların himayəçisi rolunda çıxış etməsi yolverilməzdir.[177]

Sovet Rusiyasının bu təlimatları türk heyətinin Bakıda soyuq qarşılanmasına gətirib çıxardı. Azərbaycan hökumətinin yüksək vəzifəli rəsmiləri müxtəlif vasitələrlə Türkiyə nümayəndələri ilə görüşlərdən yayınır və bəzən təyin olunmuş görüşlərə gəlmirdilər. Bütün bunlar, heç şübhəsiz ki, türklərin heysiyyətinə toxunurdu və heyət üzvü doktor Rıza Nur sonralar Böyük Millət Məclisinə məlumatında Bakıda baş verənləri "türk heyətinin təhqir edilməsi" kimi dəyərləndirirdi.[178] Lakin Azərbaycan tərəfinin türklərlə görüşdən müxtəlif formalarda yayınmaq cəhdlərinə baxmayaraq, Türkiyə heyəti böyük çətinliklə Azərbaycanın hökumətinin başçısı N.Nərimanov və Xarici işlər komissarı M.D.Hüseynovla görüşə bildi. Aprel ayının

[176] Yenə orada, v.54

[177] Yenə orada, v.55

[178] Türkiye Böyük Millet Meclisinin Gizli Celese Zabıtları. Devre: I. C. II. Ankara, 1985, s.229

14-də Q.Orconikidzenin iştirakı ilə M.D.Hüseynovun Türkiyə nümayəndə heyətinin başçısı Yusuf Kamal bəylə uzun sürən danışıqları oldu. Türkləri əsas məsələlərdən yayındırmaq üçün M.D.Hüseynov ilk olaraq, Gümrünün boşaldılmasının yubadılması səbəbləri ilə maraqlanmağa başladı. Yusuf Kamal bəy bu məsələ ilə bağlı Moskvada G.Çiçerinlə geniş söhbətinin olduğunu və Gümrünün böşaldılmasının zəruriliyi haqqında sovet xarici işlər komissarından nota da, aldığını bildirdi.[179] Əslində, türklərlə Bakıda aparılan danışıqlarda Azərbaycan tərəfinin Gümrünün türklər tərəfindən boşaldılması məsələsini tez-tez müzakirə mövzusuna çevirməyə çəhd göstərməsi Moskvanın təlimatından irəli gəlirdi. Bakı danışıqlarının iştirakçısı olan Q.Orconikidze İ.Stalini məlumatlandırırdı ki, "Gümrünün boşaldılmasına çalışırıq".[180]

Türkiyə nümayəndə heyətinin N.Nərimanovla görüşü də soyuq keçdi. Xarici işlər komissarı M.D.Hüseynovun da qatıldığı bu görüş həddindən artıq mübahisəli oldu. Türklər Bakıda daha çox Azərbaycanla müqavilə imzalamaq məsələsi ətrafında müzakirə apardıqlarından, Nərimanov hansı müqavilədən söhbət getdiyini dəqiqləşdirmək istədi. Türk heyəti bildirdi ki, "bizim sizinlə imzalanacaq müqaviləmiz vardır, qısası, Naxçıvan məsələsi. Çünki, biz Naxçıvanın himayəçilik haqqını Azərbaycana bir şərtlə verdik, o da Azərbaycanın bu himayəçilik haqqını əsla üçüncü bir dövlətə verməməsi idi. Yəni, bir gün ola bilər, aralarındakı kommunistlik münasibətləri üstün gələ bilər, Azərbaycan Naxçıvanı Ermənistana və yaxud Rusiyaya verməyə cəhd edərsə, o zaman bizim müqavilə Azərbaycanın Naxçıvanın himayəsi təəhhüdünə bağlı qalmasını təmin etmək üçündür".[181] Türklər bu məsələdə yanılmamışdılar. Bu söhbətdən az sonra, 1921-ci ilin iyun ayının 29-da Cənubi Qafqazdakı Rusiya nümayəndəsi B.Leqran G.Çiçerin və Q.Orconikidzeyə məktubunda artıq Naxçıvanın özünü müstəqil dövlət kimi, aparmasından şikayət edirdi. O yazırdı ki, Naxçıvanda Azərbaycanın protektoratlığının tanınması tamamilə arzuedilməz nəticələrə gətirib çıxaracaq. Onun fikrincə, "bu yalnız panislamizm qarşısında səcdə etmək demək deyildir. Bu məsələ ilə daha yaxından tanış və məşğul olmaq lazımdır. Biz Naxçıvandan çox aralandıq. Bu günlərdə Azərbaycanın Hərbi dəniz komissarı Qarayev oradan gəlib. O, deyir ki, Naxçlvanda Xalq Komissarları Soveti yaradılıb və Naxçıvan hökumətində özünə müstəqil respublika kimi bax-

[179] M.D.Hüseynovun Çiçerinə, Leqrana, Oraxelaşvili və Mravyana teleqramı. Surəti Orconikidzeyə. 19.04.1921.// RDSSTA, f.85, s.13, i.49, v.1

[180] Q.Orconikidzenin İ.Stalinə teleqramı. 12.04.1921.// RDSSTA, f.85, s.18, i.84, v.1

[181] Türkiye Böyük Millet Meclisinin Gizli Celese Zabıtları. Devre: I. C. II. Ankara, 1985, s.227

maq meyli vardır. Görünür, yaxın gələcəkdə mən özüm ora getməliyəm və bilavasitə yerində vəziyyətlə tanış olmalıyam". [182]

Türklərlə danışıqlarda N.Nərimanov G.Çiçerinin təlimatına uyğun olaraq, dedi ki, "biz üç respublika arasında bir ittihad qurmaq istəyirik. Bura Azərbaycan, Gürcüstan, Ermənistan və bəlkə Dağıstan da, daxil olacaqdır. Bu hökumətlər arasında təşəkkül edəcək ittihad ilə Türkiyə arasında bir ittifaq bağlamaq istəyirik". Türklər bu ittihadın kimə qarşı olacağı ilə maraqlandıqda, Nərimanov onun imperializmə qarşı olacağını bildirdi və Yusuf Kamal bəy bu imperializmin haradan gələcəyini dəqiqləşdirmək istədikdə, Nərimanov əlavə etdi ki, bu imperializm hər yerdən gələ bilər. O dedi: "Hətta, Rusiyada Sovet hökuməti devrilərsə, onun yerinə mütləq imperialist hökumət gələcək, o imperialist hökumətə qarşı da ittifaq bağlayarıq". Lakin türklər bildirdilər ki, Türkiyə hökuməti nəzərdə tutulan Qafqaz ittifaqı ilə danışıqlar aparıb, müqavilə imzalamaq üçün onlara səlahiyyət verməmişdir. Danışıqların gedişində doktor Nərimanov daim türkləri Gümrü müqaviləsindən çəkindirməyə çalışırdı.[183]

Azərbaycan XKS-in sədri N.Nərimanovun qeyri-müəyyən cavabından sonra Türkiyə heyəti danışıqları dayandırdı və Bakıdakı türk temsilçisi Memduh Şövket vasitəsi ilə Azərbaycan XXİK-na öz etirazlarını bildirdi. Məhz, bütün bunları nəzərə alaraq, Türkiyə nümayəndə heyətinin üzvü doktor Rıza Nur Ankaraya qayıtdıqdan sonra, səfər haqqında məlumatında bildirirdi ki, "Azərbaycan bizə burun göstərdi".[184] Bunu nümayəndə heyətinə başçılıq etmiş və Moskvadan döndükdən sonra xarici işlər naziri vəzifəsinə yüksəlmiş Yusuf Kamal bəy də, Azərbaycanın Ankaradakı səlahiyyətli nümayəndəsi İbrahim Əbilovla söhbətdə vurğulayırdı. O deyirdi: "RSFSR ilə müqavilə bağlamaq üçün Moskvaya gedərək, biz dönüşdə yolüstü Azərbaycan, sonra Gürcüstan və nəhayət, Ermənistanla müqavilə bağlamaq niyyətində idik. Lakin Azərbaycanda bu məsələyə təəssüf ki, bizim gözlədiyimiz kimi, münasibət göstərmədilər".[185]

Sonralar 1923-cü ildə N.Nərimanova qarşı geniş kampaniya başlandıqda, Bakı danışıqlarında bilavasitə iştirak etmiş B.Şahtaxtinskinin onun əleyhinə RK(b)P MK-ya və Stalinə yazdığı məktublarda məsələlər bir qədər

[182] B.Leqranın G.Çiçerin və Q.Orconikidzeyə məktubu. 29.06.1921.// RDSSTA, f.85, s.c(Türkiyə), i.44, 7

[183] Türkiye Böyük Millet Meclisinin Gizli Celese Zabıtları. Devre: I. C. II. Ankara, 1985, s.229

[184] İbrahim Əbilovun Yusuf Kamal bəy ilə söhbəti. 26.01.1922.// ARDA, f.28, s.1, i.68, v.19

[185] Yenə orada, v.19

fərqli formada təsvir edilir. B.Şahtaxtinski yazır ki, "Moskvadan Ankaraya qayıdan Türkiyə nümayəndə heyəti bizimlə siyasi müqavilə bağlamaq üçün, yolüstü Bakıda dayandı. Qeyd etmək lazımdır ki, türklər var gücləri ilə çalışırdılar ki, Cənubi Qafqaz respublikaları, xüsusilə də, Azərbaycanla separat müqavilə imzalasınlar. Moskvadan isə təlimat belə idi ki, heç bir separat müqavilədən söhbət gedə bilməz. Nərimanov türklərlə cavab görüşünə getməli idi. Mən və Hüseynov *(Mirzə Davud – C.H.)* Nərimanov üçün zəruri olan bütün dəlilləri hazırlamış və onu təchiz etmişdik ki, türklərə birdəfəlik anlatsın ki, hər hansı bir separat müqavilədən söhbət gedə bilməz və bununla da, bizim işimizi asanlaşdırsın. Biz ondan eşidəndə ki, separat müqavilə bağlanaması haqqında o, özü türklərə qəti söz verib, həmin vaxt biz dəhşətə gəldik. Nərimanov bizi elə axmaq vəziyyətə saldı ki, biz düz beş gün türklərin gözünə görünmədik. Nəhayət, biz onlarla görüşəndə, hökumət başçısının tam razılığına istinad edərək, Yusuf Kamal separat müqavilə bağlamaq tələbi ilə o dəqiqə bizim üzərimizə hücuma keçdi".[186] Öz sözləri ilə desək, Nərimanovun "belə dövlət müdrüklüyü" haqqında məlumatı B.Şahtaxtinski İ.Stalinə göndərdiyi məktuba da, daxil etmişdi.[187]

Türklər Azərbaycan rəhbərliyini müstəqil siyasət yeritməyə sövq edirdilər, lakin Yusuf Kamal bəy M.D.Hüseynovla apardığı uzun-uzadı söhbətdən başa düşdü ki, bütün bunlar əhəmiyyətsizdir.[188] Aprel ayın 16-da M.D.Hüseynovla görüşündə Türkiyənin Bakıdakı diplomatik nümayəndəsi Memduh Şövket Azərbaycan tərəfinə izah etməyə çalışdı ki, onların ölkəsi bir Şərq ölkəsi olaraq, Türkiyə ilə münasibətlərdə xüsusi mövqelərə malikdir. O, Türkiyənin Azərbaycana xüsusi münasibətinin olduğunu vurğulayıb təklif etdi ki, yaxın günlərdə Türkiyə-Azərbaycan konfransına başlamaq olar. Lakin M.D.Hüseynov bildirdi ki, "Biz Türkiyənin Azərbaycanla qarşılıqlı münasibətlərinin bir cür, Türkiyə ilə Ermənistanın, yaxud Ermənistanla Gürcüstanın qarşılıqlı münasibətlərinin isə ayrı cür olmasına yol verə bilmərik".[189] Azərbaycan xarici işlər komissarı öz fikrini əsaslandırmaq üçün dedi ki, yaxın vaxtlarda Cənubi Qafqaz respublikalarının dəmir yollarını, xarici ticarətini və iqtisadiyyatını birləşdirmək istiqamətində iş gedir.

[186] B.Şahtaxtinskinin RKP MK-ya məktubu. Avqust 1923.// RDSSTA, f.85, s.2c, i.3, v.50-50(arxası)

[187] B.Şahtaxtinskinin İ.Stalinə məktubu. Avqust 1923.// RDSSTA, f.588, s.2, i.177, v.50(arxası)

[188] B.Leqranın G.Çiçerin və Q.Orconikidzeyə məktubu. 29.06.1921.// RDSSTA, f.85, s.c(Türkiyə), i.44, 4

[189] M.D.Hüseynovun Çiçerinə, Leqrana, Oraxelaşvili və Mravyana teleqramı. Surəti Orconikidzeyə. 19.04.1921.// RDSSTA, f.85, s.13, i.49, v.1

Bunu əsas tutaraq, M.D.Hüseynov Memduh Şövketə bildirdi ki, "Cənubi Qafqaz respublikaları Türkiyə ilə birgə müqavilə imzalamalıdırlar".[190] Lakin Memduh Şövket qeyd etdi ki, türk nümayəndə heyətinin xüsusi olaraq, Azərbaycan və Gürcüstan ilə müqavilə bağlamağa mandatı vardır, onlar Ermənistanla müqavilə bağlamaq səlahiyyətinə malik deyillər. Belə olduqda, M.D.Hüseynov "məsləhət verdi" ki, türk nümayəndə heyəti Qarsa gedib, Kazım Qarabəkir paşa ilə birlikdə, öz hökuməti ilə əlaqəyə girərək, Cənubi Qafqaz respublikaları ilə müqavilə məsələsini müzakirə etsinlər.[191] Türk heyyəti Tiflisə yola düşmək ərəfəsində sonuncu dəfə M.D.Hüseynovla görüşdükdə, Xarici işlər komissarı da, Nərimanovun mövqeyini müdafiə etdi. Aprel ayının 19-da M.D.Hüseynov G.Çiçerinə yazırdı: "Bu gün mən və Şahtaxtinski türklərlə söhbət etdik. Mənim yalnız Cənubi Qafqaz - Türkiyə konfransı haqqında dediyim təklif onları bizdən çox narazı saldı. Sonra davamlı fikir mübadiləsindən sonra onlar birgə hazırlanan müqavilənin hər bir respublika ilə ayrıca imzalanması şərti ilə Cənubi Qafqaz-Türkiyə konfransına razı oldular. Biz buna razılaşdıq. Türklər konfransın yerinin Qarsa təyin edilməsində təkid edirlər, onlar bunu Ankara ilə daha asan əlaqə saxlamağın mümkünlüyü ilə əlaqələndirirlər. Azərbaycan tərəfindən biz Qars barədə razılığımızı bildirdik, eyni zamanda, bunun Gürcüstan və Ermənistanla razılaşdırılmasına da istinad etdik. Düşünürəm ki, bizim əsas şərtlərimizin qəbulu şəraitində Qarsa razılaşmaq olar".[192] G.Çiçerinə göndərdiyi teleqramı eyni ilə M.D.Hüseynov Tiflisə - Orconikidze və Oraxelaşviliyə, İravana-Mravyana da, göndərdi. Bu teleqramın sonunda o, Tiflisə və İrəvana məlumat verirdi ki, aprelin 19-da, axşam saat 23:00-də Yusuf Kamal bəy başda olmaqla, türk nümayəndə heyəti Tiflis və Gümrü vasitəsi ilə Qarsa yola düşdü.[193]

Türk nümayəndələri yola düşən kimi, Azərbaycan xarici işlər komissarı M.D.Hüseynov G.Çiçerinə və Ermənistanın xarici işlər komissarı A.Bekzadyana teleqram vuraraq, Cənubi Qafqaz respublikalarının Türkiyə ilə münasibətlərdə birgə mövqeyini müəyyənləşdirmək üçün qabaqcadan Bakıda danışıqlara başlamağı zəruri hesab edirdi. Bu barədə o, öz fikrini Orconikidzeyə də, bidirdiyini teleqrama əlavə edirdi.[194] Azərbaycan

[190] Yenə orada, v.2

[191] Yenə orada, v.2

[192] M.D.Hüseynovun G.Çiçerininə teleqramı. 19.04.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v.200

[193] M.D.Hüseynovun Orconikidze, Oraxelaşvili və Mravyana teleqramı. 19.04.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v.199

[194] M.D.Hüseynovun G.Çiçerininə və A.Bekzadyana teleqramı. Aprel 1921.// ARPİİ SSA,

hökumətinin konfransın Qars şəhərində keçirilməsinə razılıq verməsi kimi, azacıq müstəqillik nümayiş etdirməsi Qafqazdakı Rusiya nümayəndələrinin etirazına səbəb olmuşdu. B.Leqran N.Nərimanov və M.D.Hüseynova yazırdı ki, "Sizin Ankara hökumətinə cavabınız konfransın digər iştirakçılarının etirazına səbəb olmayacağına baxmayaraq, bizim Bakıda hazırlıq iclasımızdan sonra biz gözləyə bilərdik ki, siz belə məsələlərdə təcrid olunmuş halda hərəkət etməycəksiniz. Birgə qərar işləyib, hazırlamaq üçün digər respublikların münasibətini qabaqcadan öyrənəcəksiniz. Yeri gəlmişkən, mən 2289 saylı teleqramla tamamilə aydın formada sizdən xahiş etdim ki, cavabınızın layihəsini birbaşa xəttlə bizə göndərin. Siz isə bizim hamımızı baş vermiş fakt qarşısında qoydunuz. Bu tamamilə yolverilməzdir. Mən sizdən qətiyyətlə xahiş edirəm ki, gələcəkdə RSFSR-in səlahiyyətli nümayəndəsinin xəbəri olmadan belə hərəkətlər etməyəsiniz".[195]

Türkiyə ilə Azərbaycan arasında narahatlıq doğuran məqamlardan biri də, Bakının müxtəlif vasitələrlə öz diplomatik nümayəndəsini Ankaraya göndərməkdən yayınmaq cəhdləri idi. Azərbaycandakı türk diplomatik nümayəndəsi Memduh Şövket M.D.Hüseynovla görüşlərdə dəfələrlə bu məsələni qaldırsa da, lakin Azərbaycan bu addımı atmağa tələsmirdi. Bu isə öz növbəsində Azərbaycanla bağlı Ankarada müxtəlif söz-söhbətin yaranmasına gətirib çıxarırdı. Xüsusilə, millətçi dairələr bunu Azərbaycanın müstəqilliyinin olmaması, bütün səlahiyyətlərin qeyri-azərbaycanlıların əlində olması ilə izah edirdilər. Onların fikrincə, "əgər Azərbaycan müstəqil olsaydı, onun nümayəndəsi çoxdan Ankarada olardı".[196]

Türklərlə bağlı yaranmış bu arzuolunmaz vəziyyəti yumşaltmaq üçün Türkiyə Böyük Millət Məclisinin işə başlamasının ildönümü münasibəti ilə N.Nərimanov və M.D.Hüseynov aprel ayının 23-də Mustafa Kamal paşa, Əhməd Muxtar, Kazım Qarabəkir paşa, Yusuf Kamal və Bakıdakı türk nümayənəsi Memduh Şövket bəyə təntənəli bir təbrik teleqramı göndərdilər. Teleqramda deyilirdi: "Azərbaycanın azad fəhlə və kəndliləri Türkiyə inqilabi hökumətinə ən səmimi salamlarını göndərirlər".[197] Lakin Azərbaycanın nə dərəcədə "azad" və bu salamların nə dərəcədə "səmimi" olduğunu

f.609, s.1, i.94, v.201

[195] B.Leqranın N.Nərimanov və M.D.Hüseynova teleqramı. Surət Çiçerinə və Orconikidzeyə. 22.07.1921.// RDSSTA, f.85, s.c/Türkiyə/, i.100, v.3

[196] M.Məmmədovun M.D.Hüseynova "Mustafa Kamal paşa hökumətinin siyasəti və bu siyasətin rəhbərləri" adlı məruzəsi. 29.05.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v.110

[197] "Kommunist", 1921, 26 aprel

türklər, bir neçə gün əvvəl Bakıda olarkən, əyani şəkildə görmüşdülər. Nəzərə almaq lazımdır ki, 1921-ci ilin yazında, danışıqlar getdiyi dövrdə, artıq Bakıda millətçiliyin güclənməsi haqqında Moskvaya mütəmadi olaraq, məlumatlar verilirdi.[198]

Moskva müqaviləsi imzalandıqdan sonra Avropa ölkələri və xüsusilə, həmin ölkələrdə olan Azərbaycan siyasi mühacirəti rus-türk müqaviləsinin mətnini əldə etməyə çalışır və ona böyük maraq göstərirdi. Moskva danışıqları getdiyi vaxtda London konfransında iştirak edən Azərbaycan sülh nümayəndə heyətinin keçmiş üzvü M.Mehdiyev mart ayının 16-da imzalanmış rus-türk müqviləsinin mətnini əldə edib, onu 1921-ci ilin may ayında Londondan Parisə, Ə.M.Topçubaşova göndərdi. M.Mehdiyev yazırdı: "Rus-türk müqaviləsinin maraqlı mətnini sizə göndərirəm, mətn böyük maraq kəsb etdiyindən onu Sizin sərəncamınıza göndərməyi lazım bildim, hesab edirəm ki, müqavilənin mətnı diqqətlə və ətraflı şəkildə öyrənilməlidir".[199]

Moskvada rus-türk danışıqları gedən zaman prosesləri sakit müşahidə etsələr də, 16 mart müqaviləsi imzalandıqdan sonra ermənilər ona qarşı kəskin etirazlar etməyə başladılar. Aprel ayının əvvəllərində Xarkov şəhərindən Xardanmaryants adlı "adi bir kommunist" Sovet Rusiyasının Şərq siyasətindən narazılıq ifadə edən yazısını "İzvestiya" qəzetinin redaktoru Y.Steklova göndərdi. Yazıda "bədnam Şərq xalqlarının" qurultayından, orada yoldaş Zinovyevin orijinal məruzəsindən tutmuş" Moskva konfransına qədər Sovet Rusiyasının Şərq siyasətinin iflasa uğradığı göstərilirdi. Xardanmaryans "Şərqi əla bilən sıravi bir kommunist" kimi, Türkiyə, Gürcüstan, Azərbaycan və Ermənistan arasında maraqlar və meyllərin düzgün izah edilməsini, həqiqi vəziyyətin aydınlaşdırılmasını vacib sayır və Türkiyə ilə sülh siyasətinin kökündən səhv olduğunu bildirirdi.[200]

Y.Steklov Xardanmaryantsın məktubunu dərc etməzdən əvvəl onu Sovet Rusiyasının XXİK-na göndərdi. G.Çiçerin məktubla tanış olduqdan sonra qəzetin redaktoruna yazdı ki, bizim müqavilənin əleyhinə olan şəxs, familiyasından göründüyü kimi, ermənidir və görünür, o, kifayət qədər güclü şəkildə erməni millətçiliyinə yuvarlanmışdır. O, Steklova məsləhət gördü ki, Sovet Rusiyasının Türkiyə ilə münasibətlərini nəzərə alaraq, bu

[198] Bax: Q.Orconikidzenin İ.Stalinə teleqramı. 22.04.1921.// RDSSTA, f.85, s.3c, i.8, v.12

[199] M.Mehdiyevin Ə.M.Topçibaşiyə məktubu. 24.05.1921.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 1. CERCEC, EHESS, Paris.

[200] Sıravi kommunist Xardanmaryantsın "İzvestiya" qəzetinin redaktoru Y.Steklova məktubu. Aprel 1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.51

cızma-qaranı dərc etməsin. Bununla yanaşı, Çiçerin qeyd edirdi ki, yazıda çoxlu düzgün olmayan müddəalar vardır və xüsusilə, kamalist hərəkatın təhlili düzgün deyildir. O yazırdı: "Kamalist hərəkatı onunla fərqlənir ki, onun simasında müharibədə varlanmış türk millətçi xırda burjuaziyası səhnəyə çıxmışdır. Torpaq sahibkarları sinifi kamalizmdə elə bir rol oynamır və bütün görkəmli kamalistlər xırda burjuaziyanın və ya kiçik məmurların içərisindən çıxmışdır. Bu tipik şərq xırda burjua milli hərəkatıdır. Xardanmaryantsın kiçik yazısının bütün nəticələri tamamilə həqiqətdən uzaqdır və bu yazı onun erməni millətçiləri ilə şəksiz əlaqələri baxımından, asan izah olunandır".[201] Lakin Xardanmaryantsın yazısı başlanğıc idi, bundan bir həftə sonra Moskva konfransındakı erməni nümayəndəliyindən və Ermənistanın Xarici işlər komissarı A.Bekzadyandan G.Çiçerinə geniş bir etiraz bəyanatı çatdı. Bu bəyanatda "Ermənistanın milli maraqlarına münasibətdə Moskva müqaviləsinin satqın xarakteri" mühakimə edilirdi. Orada deyilirdi ki, RSFSR ilə kamalçı Türkiyə arasında bu ilin mart ayının 16-da imzalanmış müqavilənin mətni və rus-türk konfransının 10, 12, 14 və 16 mart tarixli iclaslarının protokolları ilə tanış olduqdan sonra erməni nümayəndələri aşağıdakı bəyanatı verməyi zəruri hesab edirlər. Ermənilərin bəyanatında, ilk növbədə, Rusiya nümayəndələri Sovet Ermənistanı hesabına türklərə böyük ərazi güzəştlərinə getməkdə ittiham edilirdi. Onlar konfransa buraxılmadıqlarından şikayətlənir və bilavasitə, Sovet Ermənistanına aid məsələlərin müzakirəsində erməni nümayəndələrinin səsinin eşidilməyindən narazılıq edirdilər. Erməni nümayəndələrinin fikrincə, Moskva danışıqlarında türk nümayəndələri erməni dəstələrinin Cənubi Qafqazın müsəlman əhalisinə qarşı 1918-ci ildə törətdiyi qırğın və zorakılıqları bəyan etdikləri halda, Rusiya nümayəndələri 1914-1921-ci illərdə ermənilərə qarşı törədilmiş zorakılıqdan bir kəlmə belə danışmayıblar. Moskva danışıqlarında türklərin tez-tez Cənubi Qafqaz müsəlmanlarının himayəçisi rolunda çıxış etməsi də ermənilərı qıcıqlandıran məsələlər sırasına daxil idi. Onlar belə hesab edirdilər ki, Cənubi Qafqaz müsəlmanları üçün bu himayədar rolunu yalnız Sovet Rusiyası oynaya bilər və bu hüququnu o heç kimə, xüsusilə, "Şərqin yarımfeodal aristokratlarına və pantürkistlərinə" güzəştə getməməlidir.[202]

Ermənilərin bəyanatında ciddi narazılıq ifadə edilən məsələlərdən biri də Naxçıvan və Şərur-Dərələyəzlə bağlı məsələnin Moskva müqaviləsində

[201] G.Çiçerinin Y.Steklova məktubu. Aprel 1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.43

[202] Moskva konfransındakı erməni nümayəndələrinin və A.Bekzadyanın G.Çiçerinə bəyanatı. 15.04.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.57-59

qoyuluşu idi. Onlar yazırdılar: "Naxçıvan və Şərur-Dərələyəz haqqında məsələdə Rusiya nümayəndəliyi öz mövqeyini qorumaq üçün lazimi inadkarlıq göstərməmiş, Naxçıvan və onun rayonlarının taleyi Azərbaycan İnqilab Komitəsinin dekabr... bəyannaməsi ilə həll edildiyi halda, onlar Türkiyə nümayəndələrinə bu rayonun müsəlman əhalisinin himayəçisi rolunda çıxış etmək imkanı vermişdir. Elə həmin Naxçıvan məsələsinin müzakirəsində türk nümayəndələri göstərilən sərhədlərdə Naxçıvan muxtariyyətinin yaradılmasını "bu məsələnin Türkiyənin şərq sərhədlərinin müdafiəsi üçün müstəsna dərəcədə əhəmiyyətli olması ilə" əsaslandırıblar. Ermənistan nümayəndələri hesab edir ki, "türk nümayəndələrinin, Türkiyənin şərq sərhədləri üçün mümkün təhlükəyə istinad etmələri Sovet Ermənistanına qarşı yönəlib və onların iddiaları Sovet Ermənistanının qonşu türk xalqına münasibətdə heç bir təcavüzkar niyyətləri və məqsədlərinin olmadığını göstərməklə, ümumiyyətlə, rus nümayəndəliyi tərəfindən dəf edilməyib".[203] Ermənistan ərazilərinin, guya, türklərə güzəştə gedilməsi ilə Sovet Rusiyasının erməni xalqına və bolşeviklərin elan etdiyi xalqların öz müqəddəratını təyin etmək hüququna ağır zərbə vurduğu bəyanatda xatırladılırdı. Onlar iddia edirdilər ki, Sovet nümayəndələrinin Batum məsələsində göstərdikləri inadkarlıq erməni məsələsində müşahidə olunmayıb, bu, və ya, digər ərazilərə münasibətdə Gürcüstanın süzeren, Azərbaycanın suveren hüquqları qorunduğu halda, Qars məsələsi ümumiyyətlə, konfransda qoyulmamışdır.[204]

Ermənilərin belə hərəkəti G.Çiçerini hiddətə gətirdi. Aprel ayının 21-də Ermənistanın Sovet Rusiyasındakı səlahiyyətli nümayəndəsi Ter-Qabrielyana yazdığı məktubda o, bildirdi ki, Bekzadyanın Moskva konfransının siyasi komissiyasının iclaslarının protokollarına istinad etməsi mənasızdır, onun fikrincə, "nüfuzlu yoldaşların iştirakı ilə" türklərlə səhnəarxası danışıqlar siyasi komissiyanın iclaslarından iki həftə əvvəl başlamışdı. Çiçerin yazırdı ki, erməni nümayəndələri bu prosesdən məlumatlı olsalar da, bütün məsələlər haqqında onlara ətraflı məlumat verilsə də, danışıqların gedişində onlar bir dəfə də olsun bu məsələlərə öz etirazlarını bildirməmişdilər. A.Bekzadyanın bəyanatı ilə razılaşmayan Çiçerin Ermənistanın səlahiyyətli nümayəndəsini məlumatlandırırdı ki, birincisi, Moskva danışıqlarında güzəştlər qarşılıqlı olub, ikincisi isə, türklərə edilən

[203] Yenə orada, v.59

[204] Yenə orada, v.61

bütün güzəştlər Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsinin qərarı ilə edilib və Bekzadyan da bundan məlumatlı idi.[205]

Eyni məzmunlu məktubu G.Çiçerin teleqram formasında Tiflisdəki nümayəndə B.Leqrana da göndərdi. O, təəssüf edirdi ki, Bekzadyan bu bəyanatı Moskvanı tərk etdikdən sonra göndərmişdir və konfransın gedişi ilə bağlı bəzi həlledici məqamları ona izah etmək mümkün olmamışdır. Çiçerin Bekzadyanın bəyanatında iddia edilən, Qarsın müdafiə edilməməsi ilə bağlı məsuliyyətin rus nümayəndələrinin üzərinə qoyulması ilə razı deyildi və bütün bunları o, erməni nümayəndələrinin özlərini kimlərinsə qarşısında təmizə çıxarmaq cəhdi kimi qiymətləndirirdi.[206]

G.Çiçerin V.Molotova yazdığı məktubda təkidlə xahiş edirdi ki, Moskvada müəyyənləşmiş sərhədlərin dəyişdirilməsi istiqamətində Qafqaz respublikalarının Türkiyəyə müraciət etmələrinin qarşısında Mərkəzi Komitə qətiyyətlə dayansın. O, xatırladırdı ki, türklər Moskvada müəyyən edilmiş sərhədlərə çox çətinliklə razılaşıblar, bundan əlavə, belə bir müraciətin, onun fikrincə, faciəli nəticələri ola bilərdi və ilk növbədə, Türkiyə tərəfinin Sovet Rusiyası ilə imzalanan müqaviləyə inamı itirərdi, Moskva müqaviləsini "kağız parçasına" döndərərdi.[207] Erməni nümayəndələrinin və A.Bekzadyanın G.Çiçerinə Moskva müqaviləsindən narazılıq ifadə edən məktubundan sonra Ermənistan K(b)P MK-nın may ayının 19-da keçirilən plenumu rus-türk danışıqlarında erməni nümayəndə heyətinin iştirakı barədə Xarici işlər komissarı Bekzadyanın məruzəsini dinlədi və nümayəndə heyətinin fəaliyyətini bəyəndi.[208] Lakin bununla belə, hələ, bir müddət Ermənistan hakimiyyət orqanları Naxçıvanda olan öz nümayəndələrini geri çağırmaq istəmirdilər. Ermənistan XKS-in və digər hökumət orqanlarının Moskva müqaviləsinə əməl edib, öz nümayəndələrini Naxçıvandan geri çağırması üçün iyul ayının 13-də M.D.Hüseynov Ermənistanın Xarici işlər komissarı A.Mravyana və Q.Orconikidzeyə müraciət etməli oldu. O, xatırladırdı ki, görünür İrəvanda bir sıra yoldaşlar yaranmış beynəlxalq şəraitdən zəif baş çıxarır və bizim Moskva müqaviləsi əsasında Naxçıvan diyarında yeritdiyimiz ümumi siyasətimiz haqqında kifayət qədər aydın təsəvvürlərə malik deyillər. M.D.Hüseynov yazırdı ki, nəinki, Ermənistan XKS-in, eləcə də,

[205] G.Çiçerinin S.Ter-Qabrielyana məktubu. 21.04.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.63-64

[206] G.Çiçerinin B.Leqrana teleqramı. 22.04.1921.// RF XSA, f.04, s.39, q.232, i.53001, v.65

[207] G.Çiçerinin V.Molotova məktubu. 29.05.1921.// RDSSTA, f.159, s.2, i.57, v.82

[208] Ermənistan KP MK plenumu iclasının 3 saylı protokolu. 19.05.1921. RDSSTA, f.64, s.1, i.105, v.3

Ermənistan SSR-in mərkəzi orqanlarının nümayəndələri Naxçıvan diyarında özlərini elə iddialı aparırlar, "sanki, Naxçıvan diyarı Ermənistan İnqilab Komitəsinin hakimiyyət dairəsindən çıxmamışdır".[209] M.D.Hüseynov bildirirdi ki, Moskva müqaviləsinin icra edilməməsi bəhanəsi ilə, Ermənistanın Naxçıvan diyarına qarşı yeni iddialarla çıxış etməsi arzuolunmaz nəticələr verə bilər və buna görə də, o, Ermənistan XKS, habelə, ona tabe olan orqanlar tərəfindən "göndərilmiş bütün yoldaşların" təcili olaraq, Naxçıvan ərazisindən geri çağırılmasını tələb edirdi.[210]

Moskva müqaviləsinin imzalanmasına baxmayaraq, G.Çiçerin uzun müddət Avropada işləmiş keçmiş çar diplomatı kimi, Türkiyəyə münasibətdə bölücülük siyasətindən əl çəkməmişdi. Rus alimi P.Moiseyev haqlı olraq yazır ki, Moskva Türkiyəyə münasibətdə fantastik bir avantüra planlaşdırırdı.[211] 16 mart müqaviləsindən təxminən bir ay sonra, 1921-ci ilin aprel ayının 22-də RK(b)P MK-ya məktubunda Moskva müqaviləsinə imza atmış Sovet Rusiyasının Xarici işlər komissarı G.Çiçerin təklif edirdi ki, vrangelçilərə siyasi aministiya və maneəsiz olaraq, vətənə dönüş vəd edib, onların köməyi ilə İstanbulu tutmaq, onu kamalçılara deyil, Rusiyanın təşkilatlandırdığı və silahlandırdığı daha sol fəhlə dairələrinə vermək lazımdır.[212] Belə təkliflər, əslində, 1915-ci ilin mart-aprel aylarında İstanbul və böğazların Rusiyanın tərkibinə qatılması haqqında Rusiya, İngiltərə və Fransa arasında imzalanmış gizli sazişlərin yeni siyasi şəraitdə davamı idi.[213]

Bütün bunlara baxmayaraq, Moskva müqaviləsi 1921-ci ilin iyul ayının 20-də Rusiya Federasiyasının Mərkəzi İcraiyyə Komitəsi, bir həftə sonra, iyulun 27-də isə, Türkiyə Böyük Millət Məclisi tərəfindən 1 nəfər

[209] M.D.Hüseynovun A.Mravyan və Q.Orconikidzeyə teleqramı. 13.07.1921.// RDSSTA, f.85, s.13, i.151, v.4

[210] Yenə orada, v.6-7

[211] П.П.Моисеев. Российско-турецкие отношения в период 1920-1939 гг.: Анализ научных публикацийс позиции нового мышления.// Российско-турецкие отношения: история, современное состояние и перспективы. Москва, 2003, с.122

[212] Р.Казанджян. Большевики и младотурки. Новые документы о российско-турецких отношениях (1920-1922). Москва, 1996, с.12-13

[213] Ю.В.Ключников и А.В.Сабанин. Международная политика новейшего времени в договорах, нотах и декларациях. Т.II, Москва, 1926, с.25-27, 53-54; 1915-ci ildə İstanbul və boğazların Rusiyaya verilməsi ilə bağlı gizli müqavilələr haqqında əlavə məlumat üçün bax: İranın və Avropa Türkiyəsinin parçalanması. Seymur Koksun "Gizli müqavilələr və sazişlər" broşürundan. 1918.// AR DA, f.28, s.1, i.68, v.69-70

bitərəf, 5 nəfər əleyhinə olmaqla, 201 səslə təsdiq edildi.[214] Ratifikasiya edilmiş sənədlər həmin ilin sentyabr ayının 22-də Qarsda mübadilə edildi və bununla da Sovet Rusiyasi ilə kamalçı Türkiyə arasında imzalanmış 16 mart 1921-ci il tarixli "Dostluq və Qardaşlıq haqqında" müqavilə hüquqi baxımdan əməli əhəmiyyət kəsb etməyə başladı və qüvvəyə mindi. Moskva müqaviləsi Türkiyənin Şərq siyasətinin çox böyük uğuru olub, türk "Milli Pakt"ı çərçivəsində Türkiyənin hüdudlarının Rusiya kimi, böyük bir dövlət tərəfindən qəbul olunması, bölgədə uzunmüddətli münasibətlərinin təməlinin qoyulması baxımından beynəlxalq əhəmiyyətli hadisə idi.

[214] Bax: S.Nasarenusun G.Çiçerinə teleqramı. 27.07.1921.// RDSSTA, f.5, s.1, i.2203, v.117

VII FƏSİL

QARS KONFRANSI VƏ ANKARADA AZƏRBAYCAN SƏFİRLİYİNİN AÇILMASI

§1. Qars konfransına hazırlıq dövründə Azərbaycanın diplomatik fəallığının artması

İran və Türkiyədə cərəyan edən hadisələr müstəqil xarici siyasət yeritmək imkanında olmayan Sovet Azərbaycanının fəallığını bir qədər artırmışdı. Lakin bu fəallığ Azərbaycanın xarici diplomatik əlaqələrinin inkişafından daha çox, "məzlum Şərqi imperializmin əsarətindən azad etməyə" xidmət edirdi. 1921-ci ilin mayında Azərbaycan Xalq Komissarlar Sovetinin sədri N.Nərimanov I Ümumazərbaycan sovetlərinin qurultayında xarici siyasət məsələləri ilə ilə bağlı ziddiyyətli fikirlər soyləmiş, hətta, bəzi məqamlarda, xüsusilə, sovet respublikalarına münasibətdə Sovet Azərbaycanının xarici siyasətinin olmadığını etiraf etmişdi. Kamalçı Türkiyənin güclənməsi, birləşmiş islam dövlətinin yaradılması haqqında şayiələrin yayılmasına rəvac verdiyindən N.Nərimanov may ayının 8-də geniş nitqində bu məsələyə də, toxunmuşdu. O, qeyd edirdi ki, "siz heç vaxt islam bayrağı altına millətləri yığa bilməzsiniz, heç vaxt Türkiyə bayrağı altında yaşamağa fars razı ola bilməz, yaxud heç vaxt İran tayfalarının ağalığı altında türklər yaşamağa razı ola bilməzlər".[1] Eyni zamanda, Nərimanov bir qədər əvvəl Bakıda olan Türkiyə nümayəndə heyəti ilə danışıqlara istinad edərək, Sovet Rusiyasının Anadolu hökuməti üçün əhəmiyyətini yüksək qiymətləndirirdi. O, "inqilabçı türklərin" bunu yaxşı anladığını və Sovet Rusiyası olmadığı təqdirdə, onu əvəz edəcək monarxist Rusiyanın Türkiyə üçün necə böyük təhlükəyə çevriləcəyini xüsusi şəkildə vurğulayırdı. Bakı danışıqlarına istinadən Nərimanov türklərin Çar Rusiyasının Xarici işlər nazir Pavel Milyukovun "Biz ruslar yalnız o zaman sakitləşəcəyik ki, Konstantinopolu ələ keçirmiş olaq" sözlərini unutmadıqlarını nümunə kimi gətirirdi.[2]

[1] H.Нариманов. Избранные произведения. Том 2. Баку, 1989, с.495

Azərbaycanın Yaxın Şərq ölkələri, ilk növbədə, isə İran və Türkiyə üçün inqilabiləşdirici rolunu nəzərə alaraq, Azərbaycan Xarici İşlər Komissarlığının informasiya şöbəsi 1921-ci ilin yazında "Xarici İşlər Komissarlığının xəbərləri" bülletenini çapa hazırlayırdı. İlk nömrədə Azərbaycanın xarici siyasəti haqqında M.D.Hüseynovun, "Azərbaycan Şərq xalqlarının azad olmasının avanqardıdır" mövzusunda N.Nərimanovun, Azərbaycan, Gürcüstan və Ermənistan haqqında, XXİK-nın məsləhətçisi A. Andreyevin, Rusiya-Türkiyə müqaviləsi haqqında informasiya şöbəsinin müdiri Yevgeni Lavrovun, İran inqilabı haqqında isə Vladimir Tardovun məqaləsinin verilməsi nəzərdə tutulurdu.[3]

Azərbaycan xarici siyasətinin İran və Türkiyə istiqamətinin davamlı olacağını düşünən Xarici İşlər Komissarlığı bu ölkələrdəki diplomatik korpuslarda işləyəcək kadrların hazırlanması ilə bağlı bəzi addımların atılmasını planlaşdırırdı. Bakı Dövlət Universitetində diplomatik kadrlar hazırlayan fakültə olmadığından, belə kadrların Xarici İşlər Komissarlığı yanında yaradılması nəzərdə tutulan Şərqşünaslığ institutunda hazırlanması təklif edilirdi. Bu məsələ ilə bağlı hazırlanmış xidməti qeydlərdən aydın olur ki, Azərbaycan xarici siyasətinin əsas istiqaməti kimi, İran və Türkiyə nəzərdə tutulurdu. Yaradılması nəzərdə tutulan Şərqsünaslıq institutunda həm komissarlığın mərkəzi aparatında, həm İranda, həm də Türkiyədə işləyəcək Azərbaycan diplomat kadrların hazırlanması məqsədəuyğun hesab edilirdi. Eyni zamanda, institutun, yalnız, təhsil müəssisəsi kimi, deyil, həm də elmi müəssisə kimi, fəaliyyət göstərməsi nəzərdə tutulurdu. Orada Yaxın Şərq ölkələri haqqında tarixi, iqtisadi, hüquqi və siyasi məlumatlar toplanıb təhlil olunmalı və Xarici İşlər Komissarlığının fəaliyyətində istifadə edilməli idi. İnstitutun digər bir funksiyası isə Azərbaycanın tarixi və mədəni dəyərlərininin Yaxın Şərq ölkələrində təbliğ edilməsi olmalı idi. Xidməti qeydlərdə göstərilirdi ki, bu həm Azərbaycanın Yaxın Şərq ölkələrində geniş tanınması baxımından faydalı olar, həm də respublika Xarici İşlər Komissarlığının fəaliyyətini genişləndirər, onu dar çərçivədən çıxarardı. Xarici İşlər Komissarlığının hazırlıqlı diplomatlara ehtiyacını nəzərə alaraq, kadr hazırlığı ilə bağlı təhsil 3 aylıq qısamüddətli kurslar formasında nəzərdə tu-

[2] H.Нариманов. Избранные произведения. Том 2, с.496

[3] Y.Lavrovun A.Andreyevə məktubu. 14.05.1921.// AR DA, f.28, s.1, i.12, v.26

tulurdu. Burada dinləyicilərə gün ərzində 10-11 saat olmaqla, ümumilikdə, 960 saat mühazirə oxunması planlaşdırılırdı, bunun 664 saatını nəzəri kurslar əhatə etməli, 336 saatı isə xarici dil öyrənilməsinə ayrılmalı idi. İnstituta qəbul olmaq istəyən dinləyicilər türk dilindən imtahan verməli, tədris olunacaq ingilis, fransız, türk və fars dillərinin ikisindən, bir Avropa və bir Şərq dilindən buraxılış imtahanı verməli idilər.[4] Lakin az sonra SSRİ-nin yaradılması ilə bağlı respublikalarda xarici işlər komissarlıqları ləğv edildiyindən, onlar üçün kadr hazılığı məsələsi də öz əhəmiyyətini itirdi və Azərbaycan Elmlr Akademiyasında Şərqşünaslıq instiyutu yaradılması ideyasını yalnız, 1958-ci ildə gerçəkləşdirmək mümkün oldu.

Moskva müqaviləsindən sonra Sovet Rusiyasının və onun nəzarətində olan Azərbaycan Sovet Respublikasının Türkiyəyə münasibətdə yeridəcəyi siyasətin konturları getdikcə aydınlaşırdı. 1921-ci ilin avqust ayında keçirilən Azərbaycan Kommunist Partiyasının plenumunda xalq xarici işlər komissarı M.D.Hüseynovun məruzəsindən aydın olur ki, artıq "yaxın vaxtlarda Anadoluda kommunist hakimiyyətindən danışmaq" məsələsi arxa plana keçirilirdi. İndi sovet siyasətinin qarşısında duran başlıca məqsəd bütün vasitələrlə Türkiyədə kamalçıları müdafiə edib, bu yolla Antantanı Şərqdən qovub çıxarmaqdan ibarət idi. M.D.Hüseynov qeyd edirdi ki, "biz indi bütün gücümüzlə kamalçıları müdafiə etməliyik, yalnız bu yolla biz Antantanın qovulub çıxarılması haqqında əlimizdə olan planı həyata keçirə bilərik ki, onun Şərqə təsiri olmasın".[5] M.D.Hüseynovun məruzəsindən aydın olur ki, bu həm də, RKP-nin Qafqaz Bürosuna rəhbərlik edən və Şərqdə sovet siyasətini Moskva ilə razılaşdıran Q.Orconikidzenin fikridir. Bütün bu məsələlər barədə və ümumiyyətlə, Qafqaz respublikasının sovetləşdirilməsi, Qafqaz Bürosunun fəaliyyəti barədə az əvvəl Orconikidzenin Tiflisdə geniş məruzəsi olmuşdu. Həmin məruzədə Orconikidze göstərmişdi ki, bu, və ya, digər Qafqaz respublikasının sovetləşdirilməsi məsələsi gündəliyə gəldikdə, hər dəfə o, Moskvada Çiçerinlə üz-üzə gəlməli olmuşdu. Orconikidze etiraf etmişdi ki, vaxtilə Çiçerin Azərbaycanın sovetləşdirilməsinin əleynə olub.[6]

Moskva müqaviləsindən sonra Azərbaycan Türkiyə ilə münasibətlərin genişləndirilməsinə, Anadoluda gedən siyasi proseslərə və hərbi əməliyyatlara ciddi maraq göstərirdi. Q.Orconikidze hələ 1920-ci ilin dekabrında G.Çiçerinlə yazışmalarında təklif etmişdi ki, Ankarada Sovet Azərbaycanının nümayəndəliyini açmaq arzuolunandır, belə ki, onun fikrincə, "öz müsəlmanları" onlara daha tez təsir göstərə bilərdi.[7]

1921-ci ilin may ayının 29-da Rusiya Federasiyasının Ankarada olan səlahiyyətli nümayəndəliyinin birinci katibi M.Məmmədov Türkiyədəkə vəziyyət haqqında Sovet Azərbaycanının Xarici işlər komissarı M.D.Hüseynova geniş məruzə göndərmişdi. M.Məmmədov Azərbaycanın Yaxın Şərqdə siyasətini daha da səmərəli etmək məqsədilə Türkiyədə olduğu 8 ay ərzində müşahidə etdiyi siyasi və sosial vəziyyət haqqında "etibarlı məlumatları" Bakıya təqdim etməyi zəruri hesab etmişdi. Türkiyə Böyük Millət Məclisi haqqında məlumatında o, bildirirdi ki, millət vəkillərinin bir hissəsi Mustafa Kamal paşa başda olmaqla, milli hərakatın başlandığı Sivas konqresindən sonra seçilmiş anadolulu vəkillər, digər hissəsi isə İstanbuldan qaçmış rumelili vəkillərdir. O yazırdı: "Rəsmən məclis "Millət Məclisi" adlansa da, əlbəttə ki, yoxsul şəhər əhalisinin və kəndlilərin nümayəndələri Məclisdə yoxdur".[8] M.Məmmədov məlumat verirdi ki, 1920-ci ilin noyabr ayından 1921-ci ilin mart ayına qədər TBMM-də iki qruplaşma mövcud olmuşdur: bunlardan birincisi Qərb və Sultan tərəfdarı olanlar hesab edilirdi ki, ora Böyük Millət Məclisinin ikinci sədri Cəlaləddin Arif, maliyyə naziri Fərid, maarif naziri Həmdullah Sübhi və Moskva səfərindən döndükdən sonra Bəkir Sami bəy daxil idilər. Türkiyənin dircəldilməsi üçün yalnız Şərqdən "nicat gözləyən" və Sovet Rusiyasının dostları qrupuna isə xarici işlər naziri Əhməd Muxtar, sənaye naziri Cəlal bəy və mətbuat direktoru Mühiddin bəy daxil idilər. M.Məmmədovun fikrincə, Məclisdə müxalifətin güclənməsi, məclisin qovulması haqqında şayiələrin yayılmasına gətirib çıxarmışdı. Məruzədə Mustafa Kamal paşa böyük ağıl, enerji, güclü iradə, öz məqsədinə yetşmək üçün heç nədən çəkinməyən, insanlara ehtiyatla yanaşmağı, onları ya, nəvazişlə, ya da, təhdidlə öz tərəfinə çəkməyi bacaran tarixi bir şəxsiyyət kimi qiymətləndirilirdi. O yazırdı: "Kamal hər şeyi əlində cəmləşdirən mərkəzi simadır, bütün cilovlar onun əlindədir, bir çox anadolulunun nifrin etdiyi adamdır və bir çoxları da, onun qarşısında yaltaqlıq edir. Bu roluna görə, onun Anadolunun siyasi həyatında oynadığı rolu, şübhəsiz ki, müəyyən dərəcədə onun özü və agentləri tərəfindən yaradılmış,

[4] Diplomatik xidmətə hazırlıq üçün kursların təşkili haqqında məsələ üzrə xidməti qeyd. 1921.// AR DA, f.28, s.1, i.55, v.179-184

[5] Azərbaycan K(b)P MK-nın plenumunun 2-ci iclasının materialları. 20.08.1921.// RDSSTA, f.64, s.1, i.90, v.54-55

[6] Yenə orada, v.53

[7] Q.Orconikidzenin G.Çiçerinlə yazışmaları. Dekabr 1920.// RDSSTA, f.85, s.14, i.49, v.18

[8] M.Məmmədovun M.D.Hüseynova "Mustafa Kamal paşa hökumətinin siyasəti və bu siyasətin rəhbərləri" adlı məruzəsi. 29.05.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v.100

nə mürtəce qrup, nə də Şərq siyasəti qrupu oynaya bilməz. Onlar Kamala onun siyasətində balans yaratmaq üçün lazımdırlar. Əminliklə demək olar: nə qədər ki, Kamal milli hərəkatın başında dayanır, sultanla heç bir saziş ola bilməz".[9] M. Məmmədov Kamal paşanın gücünü İsmət paşanın rəhbərliyi ilə qısa vaxtda formalaşdırılan mütəşəkkil və intizamlı orduda görür və yazırdı: "Nə qədər ki, bu ordu var, Kamal paşa, arxayıncasına özünü yarımfeodal Türkiyənin hakimi hesab edə bilər"[10].

Xarici siyasət məsələlərinə gəldikdə isə, M.Məmmədovun müşahidələrinə görə, Kamal paşa Qərblə Şərq arasında oynayır, Antanta ilə Sovet Rusiyası arasında manevr etməyi bacarırdı. O, bir tərəfdən Komintern vasitəsi ilə Ankarada müsəlman kongresi çağırmaq istəyir, əslində isə, bu konqresi Şərq xalqlarının Bakı qurultayına cavab kimi təsəvvür edir, digər tərəfdən isə, Moskvadan bolşevizmə qarşı dərin nifrətlə qayıtmış Bəkir Sami bəyi London konfransına göndərirdi. Sovet diplomatının fikrincə, "London konfransında türklər "biabır oldular" və bu Şərq siyasətinin tərəfdarlarına güclənmək imkanı verdi, Kamalı isə ayıltdı". Bütün bunları Mustafa Kamal paşanın öz "oyunları" kimi qiymətləndirən M. Məmmədov yazırdı ki, "London konfransındakı uğursuzluğun Kamala necə təsir etdiyini bilmirəm, lakin hesab edirəm ki, 4-5 ay bundan əvvəlkindən fərqli olaraq, Kamal özünü Şərq siyasətində daha azad və daha müstəqil hiss edir".[11]

Ən nəhayət, Ankaradan Moskvaya Bakı vasitəsi ilə qayıdan Türkiyədəki Rusiya nümayəndəliyinin birinci katibi Anadolu hökumətinə Azərbaycanın diplomatik nümayəndəliyinin göndərilməsini zəruri hesab edirdi. Onun fikrincə, "Azərbaycandan qaçmış müsavatçılar ziyanlı təşviqat aparmağa başlamışlar. Bundan rəsmi və ziyalı dairələri kommunizmə qarşı öz çıxışları üçün əlverişli məqam kimi istifadə edirlər. Belə yalan şayiələrə uyaraq, bu dairələr Azərbaycan üzərində zorakılıq haqqında açıq danışmağa başlayıblar". M. Məmmədov yazırdı ki, bütün təxribatçı şayiələrə baxmayaraq, türk xalqının qəlbində Azıərbaycana böyük sevgi vardır və "bu sevgidən bizim Anadoluda sonrakı fəaliyyətimizdə istifadə edilməsi zəruridir".[12]

Bütün bu mülahizələri nəzərə alaraq, Azərbaycan Xarici İşlər Komissarlığı 1921-ci ilin may ayında Ankaraya göndəriləcək səlahiyyətli nümayəndəni müəyyənləşdirib, təsdiq üçün onun namizədliyini Rusi-

[9] Yenə orada, v.102
[10] Yenə orada, v. 102
[11] Yenə orada, v. 102
[12] Yenə orada, v.103

ya XXİK-ə göndərdi. N.Nərimanov və M.D.Hüseynov bu vəzifəyə Sovet Azərbaycanının daxili işlər komissarının müavini İbrahim Əbilovun göndərilməsini təklif edirdilər. G.Çiçerin may ayının 26-da M. D.Hüseynova teleqram göndərərək, İ.Əbilovun Ankaraya Azərbaycan SSR-in səlahiyyətli nümayəndəsi təyin edilməsinə Moskvanın etirazı olmadığını bildirdi və onun "namizədliyinin Türkiyəyə təqdim edilməsini" bəyəndi.[13] Sovet Rusiyasından razılıq alındıqdan sonra 1921-ci ilin iyun ayında İ.Əbilov Azərbaycan sovet respublikasının Ankara hökuməti yanında səlahiyyətli nümayəndəsi təyin edildi və bu təyinat mətbuat vasitəsi ilə bəyan edildi.[14] Mətbuatın məlumatlarına görə İ.Əbilov Azərbaycanla Türkiyə arasında əlaqələri inkişaf etdirməli və Anatantaya qarşı mübarizə aparan Türkiyə Böyük Millət Məclisi hökuməti ilə Sovet Rusiyası arasında münasibətlərin genişlənməsinə yardım göstərməli idi. Eyni zamanda, İ.Əbilov may ayının əvvəllərindən etibarən, Ankarada öz vəzifəsinin icrasına başlamış RSFSR-in Türkiyədəki səlahiyyətli nümayəndəsi Sergey Nasarenus ilə birgə fəaliyyət göstərməli idi.[15] Azərbaycanın səlahiyyətli nümayəndəliyinin tərkibini müəyyənləşdirmək respublika XXİK-nın səlahiyyətlərinə aid olsa da, Moskva bundan ciddi narahatlıq keçirirdi. İyul ayının 19-da M.D.Hüseynova göndərdiyi teleqramda G.Çiçerin yazırdı ki, səlahiyyətli nümayəndəliyin əməkdaşlarının seçilməsində çox diqqətli olmaq lazımdır. O, tövsiyə edirdi ki, tez təsir altına düşə bilən, hətta, istəmədən bəzi səhvlərə yol verə biləcək adamlar missiyanın tərkibinə seçilməsin.[16]

İbrahim Məhərrəm oğlu Əbilov Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun yaxın silahdaşlarından sayılırdı və məhz, onun yaxını kimi, bilavasitə Nərimanovun təklifi ilə Azərbaycanın Türkiyədə səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin edilmişdi. 1882-ci ildə Ordubad şəhərində doğulan İ.Əbilov XX əsrin əvvəllərində Cənubi Qafqazda sosialist hərəkatında fəal iştirak etmiş və 1908-ci ildə Nərimanovun tapşırığı ilə Məşrutə inqilabi dövründə Cənubi Azərbaycana ezam olunmuşdu. 1909-cu ildə İrandan qayıtdıqdan sonra bir müddət Bakıda jurnalist kimi fəaliyyət göstərən Əbilov 1912-ci ildə "Bakı həyatı" qəzetinin redaktoru olmuşdu. Çar polisi tərəfindən dəfələrlə həbslərə məruz qalan İ.Əbilov 1913-cü ildə Həştərxana sürgün

[13] G.Çiçerinin M.D.Hüseynova teleqramı. 26.05.1921.// ARPİİ SSA, f.609, s.1, i.96, v. 43
[14] "Kommunist", 1921, 5 iyun
[15] Türkiyənin siyasi həyatının əsas anları (1920-ci ilin noyabrından 1921-ci ilin noyabrına qədər). Tarixi kanva.// RDSSTA, f.5, s.3, i.630, v.51
[16] G.Çiçerinin M.D.Hüseynova teleqramı. 19.07.1921.// ARPİİ SSA, f.609, s.1, i.15, v. 137

edilmiş və 1917-ci ilin fevral inqilabından sonra Tiflisə dönüb, menşevik "Hümmət" təşkilatının əsas simalarından biri kimi fəaliyyət göstərmişdir. O, N.Nərimanovla da, məhz, elə Həştərxanda olarkən daha çox yaxınlaşmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra Bakıya gələn İ.Əbilov 1918-ci ilin dekabrında təsis edilən respublika parlamentinin deputatı və onun sosialist fraksiyasının üzvü olmuşdu. 1920-ci ilin aprelində Azərbaycanın sovetləşməsindən sonra o, bir müddət Sovet Azərbaycanının daxili işlər komissarının müavini işləmiş və 1920-ci ilin sentyabrında Bakıda keçirilən Şərq xalqlarının I qurultayında N.Nərimanovun tövsiyyəsi ilə Şərq Xalqları Təbliğat və Təşviqat Şurasının birinci katibi seçilmişdi. May ayının 21-də keçirilən AK(b)P MK-nın Siyasi və Təşkilat Bürosunun iclasında İ.Əbilov, Q.Musabəyov və M.Kaxiani ilə birlikdə Kominternin III konqresinə göndərilən Azərbaycan nümayəndə heyətinin tərkibinə daxil edilmişdi.[17] Şərq Xalqları Təbliğat və Təşviqat Şurasının fəaliyyəti barədə o, 1921-ci ilin iyun ayının 4-də RKP MK Qafqaz Bürosunun plenumunda məruzə ilə çıxış etmiş və Kommunist İnternasionalının Moskvada keçirilən III konqresinə nümayəndə seçildiyindən, Şərq Xalqları Təbliğat və Təşviqat Şurasının birinci katibi vəzifəsi R. Axundova tapşırılmışdı.[18] İ.Əbilov 1921-ci ilin iyul ayında Azərbaycan nümayəndə heyətinin tərkibində Kommunist İnternasionalının III konqresində iştirak etmişdi və Konqres işinə başlayana qədər artıq, onun N.Nərimanov tərəfindən Türkiyəyə səlahiyyətli nümayəndə vəzifəsinə irəli sürülmüş namizədliyi Moskvada təsdiq edilmişdi. İyul ayının 24-də Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat Bürosunun iclasında İ.Əbilova tapşırıldı ki, nə qədər mümkünsə, tez Ankaraya yola düşsün.[19] İyulun 31-də isə MK-nın Büro iclasında Mustafa Kamal paşaya və Ankara hökumətinin digər üzvlərinə veriləcək hədiyyələr barəsdə məsələ müzakirə edildi və onların hazırlanması xarici işlər komissarı M.D.Hüseynova tapşırıldı.[20]

1921-ci ilin avqust ayında İ.Əbilov Türkiyəyə yola düşdü. Yolüstü o, Azərbaycanın Ankara missiyasının bəzi texniki və maliyyə məsələlərini

[17] Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat bürosu iclasının 15 saylı protokolu. 21.05.1921.// ARPİİ SSA, f.1, s.2, i.18, v.80

[18] RK(b)P MK Qafqaz Bürosu Plenumunun 7 saylı protokolu. 04.06.1921.// RDSSTA, f.64, s.1, i.1, v.80

[19] Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat bürosu iclasının protokolu. 24.07.1921.// RDSSTA, f.64, s.1, i.92, v.52

[20] Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat bürosu iclasının 25 saylı protokolu. 31.05.1921.// ARPİİ SSA, f.1, s.2, i.18, v.113(arxası)

həll etmək üçün bir neçə gün Tiflisdə qaldı. Avqustun 15-də RKP MK-nın Qafqaz Bürosunun plenumunda Azərbaycanın Ankaradakı missiyasının maliyyə ehtiyaclarını ödəmək üçün 300 min qızıl rubl ayrıldı.[21] Qafqaz Bürosu plenumunun avqustun 16-da keçirilən iclasında Azərbaycanın Ankara missiyasının üzvlərinin aylıq əmək haqqları ilə bağlı bəzi dəqiqləşmələr aparıldı və onların əmək haqlarının Türkiyədəki Sovet Rusiyasının diplomatik missiyası əməkdaşlarının əmək haqqlarına uyğunlaşdırılması adı altında minimuma endirildi.[22] İ.Əbilov M.D.Hüseynova məktubunda Ankara missiyası üçün ayrılmaş vəsaitdən Q.Orconikidze tərəfindən ona 150 milyon rubl *verildiyini və bu vəsaitin yaşayış minimumu yüksək olduğu* Ankarada, yalnız 3-4 ay fəaliyyət göstərmək üçün yetərli olacağını yazırdı. İ.Əbilov diplomatik missiyanın əməkdaşlarının aylıq əmək haqqının 90 min kağız rubl olduğunu yazaraq, bu vəsaitin 300 milyon rublunun aylıq əmək haqqına ayrılacağını bildirirdi. Vəziyyətdən müvəqqəti çıxış yolu kimi, o, Azərbaycan Siyasi İdarəsinin sədri M.C.Bağırovun Tiflisə gəlişindən istifadə edərək, onun vasitəsi ilə XXİK-in hesabından 50 milyon rubl çıxara bildiyini qeyd edirdi. İ.Əbilov Xarici işlər komissarından xahiş edirdi ki, Ankaraya yola düşmək ərəfəsində missiya üçün Batumda 10 min pud kerosin ayrılmasına və gələcək fəaliyyət üçün valyuta tədarükünə sərəncam versin.[23]

İ.Əbilov M.D.Hüseynova göndərdiyi məktubunda Gürcüstanın yeni Xarici işlər komissarı Aleksandr Svanidze ilə görüşünə toxunaraq, Tiflisin Moskva müqaviləsindən narazı qaldığı bəzi məqamları xatırladırdı. Avqust ayının 25-də Əbilovla görüşdə Svanidze Türkiyə ilə Qafqaz respublikaları arasında keçriləcək konfransada Gürcüstanın bir sıra addımlar atmaq fikrində olduğunu bildirmişdi. Onun fikrincə, gürcülər Moskva müqaviləsinin Türkiyə - Gürcüstan sərhədlərinə dair bəzi maddələri ilə razi deyildilər və ona görə də, bu *məsələni qarşıdakı Qars konfransında yenidən müzakirəyə* çıxarmaq niyyətində idilər. İ.Əbilov söhbətin gedişində Türkiyə ilə sərhəd məsələlərinin Moskva konfransında geniş müzakirə edildiyini xatırladaraq, onun qarşıdakı konfransda qaldırılmasının yersiz olduğunu bildirdi. Bununla bağlı Əbilov demişdi : "Türklərin əhval-ruhiyyələrindən və hərəkətlərindən görünür ki, indi onlar hər hansı kompromisə və güzəştə getməyəcəklər". O,

[21] RK(b)P MK Qafqaz Bürosu Plenumunun 15 saylı protokolu. 15.08.1921.// RDSSTA, f.85, s.18, i.58, v.21

[22] RK(b)P MK Qafqaz Bürosu Plenumunun 16 saylı protokolu. 16.08.1921.// RDSSTA, f.85, s.18, i.58, v.23

[23] İ.Əbilovun M.D.Hüseynova məktubu. 26.08.1921.// ARPİİ SSA, f.609, s.1, i.81, v.9-9(arxası)

hesab edirdi ki, "konfransda bu məsələnin qaldırılması bizim gerçəkliyimiz *(Sovet respublikalarının münasibətlərini nəzərdə tutur –C.H.)* barədə arzuolunmaz presedent yaradacaq".[24] İ.Əbilov tövsiyə edirdi ki, bu və buna bənzər digər ağrılı məsələləri M.D.Hüseynov konfrans ərəfəsində "gürcü yoldaşlarla" müzakirə etsin. A.Svanidze Moskva müqaviləsi ilə Batumda yaşayan müsəlman əhalisinə verilmiş milli və dini haqqların ləğv edilməsini, Batumun hüdudlarının genişləndirilməsini, Ərdahan və Artvinin Gürcüstana qaytarılmasını tələb etmək fikrində idi.[25] O, bu barədə hələ 1921-ci ilin may ayında Çiçerinə müraciət etmişdi. Aleksandr Svanidze yazmışdı ki, "o, Moskva müqaviləsinə görə, Türkiyəyə verilmiş keçmiş Batum vilayətinin bütün cənub hissəsinin Gürcüstana verilməsini Türkiyədən tələb etmək istəyir". G.Çiçerin bildirirdi ki, türklər heç vaxt Gürcüstanın bu tələbi ilə razılaşamayacaqlar, onlar Moskvada Batumun bir hissəsinin Gürcüstana verilməsinə çox böyük çətinliklə razı olublar.[26]

Öz növbəsində türklər də gürcülərin və ermənilərin Moskva müqaviləsindən açıq və gizli narazılıqları haqqında məlumatlı idilər. Eyni zamanda, onlar bu narazılıqların gizli şəkildə Sovet Rusiyasından qaynaqlanmasından şübhələnirdilər. Qars, Ərdahan və Artvindən Türkiyə Böyük Millət Məclisinə seçilmiş nümayəndələr əhali arasında izahat işi aparır və Rusiyadakı dəyişikliklərə ehtiyatla yanaşmağı tövsiyyə edirdilər. Türk rəsmi dairələrinin fikrincə, "əgər Sovet Rusiyası millətlərin öz müqəddəratını təyin etməsini elan edibsə, o iki tərəfdən gavurlarla əhatə olunmuş müsəlman əhalisinin Türkiyəyə birləşməsinə ədalətli yanaşmalıdır." Onlar deyirdilər: "Biz türklər çar siyasətinə bələdik, lakin bu siyasətin nə dərəcədə dəyişdiyini deyə bilmərik. Azərbaycan, Ermənistan, indi isə Gürcüstanın sovetləşdirilməsi (əslində isə işğalı) bizi şərq sərhədlərimizin bütövlüyü üçün ayıq olmağa məcbur edir. Əgər Sovet Rusiyasının imperialist niyyətləri yoxsa, müsəlman vilayətlərinin ədalətli şəkildə bizə keçməsi, Rusiya tərəfindən etiraz doğurmamalıdır". Bir çox türklər açıq şəkildə deyirdilər ki, hər şeydən əvvəl, şərq sərhədlərindən bizi "kommunizm gürültusu" narahat edir. Onlar şərq vilayətlərinə Türkiyə ilə kommunizm arasında bufer zona kimi, baxırdılar. [27]

[24] Yenə orada, v.9(arxası)-10

[25] Bax: Candan Azer. Babadan Oğula Güney Kafkasiya. Türkiye – Güney Kafkasiya ilişkileri. İstanbul, Truva yayınları, 2011, s.303

[26] G.Çiçerinin V.Molotova məktubu. 29.05.1921.// RDSSTA, f.17, s.84, i.104, v.91

[27] ARPİİ SSA, f.609, s.1, i.94, v.102-102(arxası)

Xüsusilə, yunan cəbhəsində vəziyyətin gərginləşdiyi bir dövrdə, 1921-ci ilin avqustunda Ənvər paşanın kiçik bir qrupun müşayiəti ilə gizli şəkildə Batuma gəlişi kamalçı rəhbərlikdə ciddi suallar doğurmuşdu. Xəlil paşa öz xatirələrində yazır: "Batumda dəniz kənarında parkın qarşısındakı bir ev bizə hazırlanmışdı. Burada Moskvanın nümayəndəsi olaraq, fəaliyyət göstərən yoldaş Qoltsman ilə ilk gün tanış olmuşduq. Bir gün heç xəbərim olmadan evimə gəldi və bunları söylədi: "Ənvər paşa gizli olaraq, Batuma gəldi, bu gecə kimsənin xəbəri olmadan sizi ziyarətə gələcək".[28] Həmin günlərdə Xəlil paşanın da, Batumda olması rusların ittihatçılarla gizli şəkildə işlədiklərinə dair şübhələri daha da artırmışdı. Bir sıra Avropa mətbuatı səhifələrində belə söz-söhbət yayılmışdı ki, ənvərçilər öz fəaliyyətlərinin mərkəzini Bakıdan Batuma keçirmişlər.[29] Hətta, Q.Orconikidze belə, Ənvər paşanın Batuma gəlişindən xəbərsiz idi və o, Stalinə göndərdiyi şifrli teleqramda Moskvanın ənvərçilərlə belə "sıx əlaqələrindən" təəccübləndiyini bildirirdi. Onun fikrincə, türklərin yunanlarla ölüm-dirim savaşı apardığı və kamalçıların taleyi həll olunduğu bir vaxtda Ənvər paşanın Batuma göndərilməsi nə dərəcədə məqsədəuyğun idi?[30] Ənvər paşanın Batuma gəlməsi dünyanın diqqətini çəkən bir məsələyə çevrilmişdi. İngiltərənin "Tayms" qəzeti Ənvər paşanın Anadoluya qarşı ola biləcək hərəkətlərinin Sovet Rusiyanın təşəbbüsləri olduğunu yazırdı.[31] Lenin, Stalin və Çiçerinə teleqramında Orconikidze Ənvər paşanın sovetlər üçün siyasi əhəmiyyətini etiraf edirdi, lakin onun fikrincə, indiki anda Ənvərin Batuma gəlişi türklərlə toqquşmanı qaçılmaz bir hadisəyə çevirirdi. O yazırdı: "Bu günlərdə Anadoludan Ənvərin yanına gəlmişdilər və onun sözlərinə görə, soruşmuşdular: bir halda ki, sən gəlirsən, deməli, Rusiya səni müdafiə edir, bu o deməkdirmi ki, bizdə kommunistlər ağalıq edəcəklər? Biz səni müdafiə edəcəyik, lakin kommunistlərə qarşı amansız mübarizə aparacağıq. Ənvər nə cavab verib, deyə bilmərəm, bu heç mühüm də deyil, mühüm olanı bütün bunların nə ilə qurtaracağıdır. Mən bu məsələyə müdaxilə etmirəm, indi artıq qorxuram ki, gec olsun, indi artıq onun Batuma gəlişi barədə əlbəttə ki, bilirlər. Yaxın günlərdə onlar konfrans keçirməyi nəzərdə tuturlar. Orada bizi məlumatlandıran adamımız vardır. Budu *(Mdivani – C.H.)* hesab edir ki,

[28] Halil Paşa. Bitmeyen Savaş. İstanbul, 1972, s.358

[29] Ənvər paşanın tərəfdarları haqqında. 1921.// AR DA, f.6, s.1, i.134, v.201

[30] Q.Orconikidzenin İ.Stalinə şifrli teleqramı. 18.08.1921.// RDSSTA, f.85, s.c/Türkiyə, i.4, v.1

[31] Ali Fuat Cebesoy. Moskova Hatıraları. İstanbul, 2002, s.258

indi bunu etmək *(Ənvəri Batuma gətirmək – C. H.)* lazim deyildi və Ənvəri geri çağrmaq lazım gələcək".[32]

Doğrudan da, Ənvər paşa "Mən ora dönərsəm, faydalı ola biləcəyimə inanıram" fikri ilə motorlu bir qayıqla Anadoluya getmyə qərarlı idi. Onu bu fikrindən Xəlil paşa daşındırdı. O dedi: "Sənin Türkiyəyə getməyini doğru bilmirəm. Açığını bilmək istəyirsənsə, belə vəziyyətdə sənə tərəfdar olanlarla Mustafa Kamala tərəfdar olanlar ayrılacaqdır. Bu halda, yunan cəbhəsi ilə məşğul olan xalqda ikilik hasil olacaqdır. Nəticədə səxsi bir macəra üzündən vətən və millət zərər görəcəkdir".[33]

Ənvər paşanın "İttihad və Tərəqqi" partiyasının Mərkəzi Komitəsi ilə yazışmaları Ankaradakı rus səfirliyi tərəfindən ələ keçirilmişdi. MK partiya üzvlərini xəbərdar edirdi ki, Kamal paşa ilə ehtiyatlı hərəkət etmək lazımdır, kommunist partiyasının səhvlərini təkrar etməyə eytiyac yoxdur. Ənvər paşa ittihad və tərəqqiçilərə tövsüyə edirdi ki, nə qədər çətin və mürəkkəb olsa da, müharibəni davam etdirmək lazımdır, onun fikrincə, Sevr müqaviləsinin tətbiqinin qarşısını, ancaq, bu yolla almaq olardı.[34]

Bir neçə gün sonra Ənvər paşa onun Anadoluya dönüşünün arzuolunmaz nəticələr verəcəyini anlayıb, bu fikirdən daşındı. Bununla da Sovet Rusiyasının bəzi dairələrinin Qars konfransı ərəfəsində Mustafa Kamal paşanı zəiflətmək məqsədilə Ənvər paşanı Anadoluya göndərmək planı baş tutmadı. Bununla belə, Ankaradakı sovet diplomatik idarəsi Türkiyə siyasi dairələrində özünün "müttəfiqi" hesab etdiyi ənvərçilərlə sıx əlaqədə idi.[35] Müxtəlif məsələlərə münasibətdə, hətta, hökumət icərisində Rusiya əleyhinə olan adamların vəzifədən uzaqlaşdırılmasında onların yardımından istifadə edilirdi.[36]

Ənvər paşanın Batumda görünməsi kamalçıları ehtiyatlı hərəkət etməyə vadar edirdi. Onlar təcili olaraq, Ankara və xüsusilə, Qara dəniz sahili şəhərlərdə rus diplomatik idarələrini gizli nəzarət altına aldılar, türk limanlarına gələn rus gəmilərini ciddi şəkildə yoxlamağa başladılar, hətta, bəzi gəmilərin şəxsi heyətini müvəqqəti olaraq, həbs etdilər. Türkiyədəki Azərbaycan musavatçıları, rus ağqvardiyacıları və digər mühacir təşkilatlar

[32] Q.Orconikidzenin V.Leninə, İ.Stalinə və G.Çiçerinə teleqramı. 26 .08.1921.// RDSSTA. f.85, s.c/Türkiyə, i.5, v.1

[33] Taylan Sorgun. Halil Paşa. İttihad ve Tarkki'den Cumhuriyet'e Bitmeyen Savaş. 6. Baskı. Destek Yayınevi, İstanbul, 2010, s.266-267

[34] S.Nasarenusun G.Çiçerinə teleqramı. 28.09.1921.// RDSSTA, f.17, s.84, i.104, v.104

[35] Bax: S.Nasarenusun G.Çiçerinə teleqramı. 06.10.1921.// RDSSTA, f.17, s.84, i.104, v.116

[36] Bax:S.Nasarenusun G.Çiçerinə şifrli teleqramı. 18.11.1921.// RDSSTA, f.17, s.84. i.104, v.118-119

fəallaşdırıldı. Sovet Rusiyasının Türkiyədəki səlahiyyətli nümayəndəsi Nasarenus Moskvaya yazırdı: "Ankarada azərbaycanlı musavatçıların fəaliyyəti nəzakət və davranış qaydalarının bütün sərhədlərini keçmişdir". Bütün bu məsələlər barədə Rusiya səlahiyyətli nümayəndəsi Türkiyənin xarici işlər naziri Yusuf Kamal bəyə avqustun 18-də və sentyabrın 14-də məktub göndərdiyini bildirirdi.[37]

Rusların bu hərəkətindən Kamal paşa çox narahat olmuşdu. Sovet Rusiyasının Ankarada olan səfirliyinin əməkdaşı B. Piskunov sentyabr ayının 15-də Çiçerinə yazırdı: "Mən on dəfələrlə Yusuf Kamal və Mustafa Kamaldan Moskvanın Ənvər paşanı müdafiə etməsi və ona yardım göstərməsi, Cənubi Qafqaz respublikalarının Türkiyəyə qarşı yönəlmiş hansısa hərbi hazırlıqları haqqında şikayətlərini eşitmişəm".[38] Hətta, Kamal paşa Ankaradakı Rusiya səlahiyyətli nümayəndəsi Nasarenusa demişdi ki, "əgər Rusiya Türkiyəni sovetləşdirmək istəyirsə, bunu mənim vasitəmlə daha asan edə bilər, nəinki, Ənvərin vasitəsi ilə".[39] Əslində, hələ 1921-ci ilin yazında Ankarada olan sovet diplomatik nümayəndəsi Upmal-Anqorski Mustafa Kamal paşanı inandırmağa çalışırdı ki, Sovet Rusiyasının Türkiyəyə dost münasibəti Türkiyənin kommunistləşdirilməsindən keçir. Bunu nəzərə alaraq, Kamal paşa öz nəzarətində olan "Türkiyə Xalq Kommunist Partiyası" (TXKP) adında bir təşkilatın yaranmasına razılıq vermişdi. Lakin hadisələrin sonrakı gedişində G.Çiçerin Türkiyənin kommunistləşməsinə Rusiyanın elə bir zərurət duymadığını izah etdikdə, TXKP Kamal paşanın göstərişi ilə yarandığı kimi, onun göstərişi ilə də özünü buraxılmış elan etmişdi. Lakin Kamal paşanın kommunizmə "sədaqətinə" rus bolşevikləri inanmırdılar. Şərq Xalqları Şurasının Rəyasət Heyəti belə hesab edirdi ki, Mustafa Kamal paşa hökuməti kommunizm pərdəsi altında kəşfiyyat işləri aparır.[40]

1921-ci ilin avqust ayında Türkiyənin Moskvadakı böyük elçisi Ali Fuad paşa bütün bunlar haqqında G.Çiçerinlə keçirdiyi iki görüşdə çox açıq şəkildə öz fikrini bildirdi. Ali Fuad bəy ilk növbədə, Türkiyənin xarici işlər naziri Yusuf Kamal bəy tərəfindən avqust ayının 4-də imzalanmış me-

[37] S.Nasarenusun G.Çiçerinə şifrli teleqramı. 27.09.1921.// RDSSTA, f.17, s.84, i.104, v.114-115

[38] B.Piskunovun G.Çiçerinə məruzəsi. 15.09.1921.// RF XSA, f.04, s.39, q.232, i.52992, v.26(arxası)

[39] Türkiyənin siyasi həyatının əsas anları (1920-ci ilin noyabrından 1921-ci ilin noyabrına qədər). Tarixi kanva.// RDSSTA, f.5, s.3, i.630, v.51

[40] Bax: Şərq Xalqları Təbliğat və Fəaliyyət Şurası Kommunist Fraksiyasının məruzəsi. 20.03.1921.// RF XSA, f.544, s.3, q.4, i.2, v.200

morandumu Çiçerinə təqdim etdi.[41] O dedi: "İyul ayında yunan ordusunun qələbə çalacağı hiss edildikdə, Ənvər paşa və dostlarını, dağılacağını sandığınız hökumətim və Türkiyə Böyük Millət Məclisinin yerinə, yardım və təsisatınızla Anadoluda yeni bir hökumətin yaradılması üçün bizə xəbər belə, vermədən göndərdiniz, Ənvər paşa ilə nə tərtiblər düşündünüz?" G.Çiçerin əvvəlcə, Ənvər paşa ilə Sovet Rusiyasının Türkiyəyə qarşı hər hansı işbirliyinin olduğunu inkar etsə də, Əli Fuad paşanın təkzibolunmaz dəlilləri qarşısında geri çəkilməyə məcbur oldu. O dedi ki, Ənvər paşa Türkiyədə çoxlu tərəfdarları olan bir partiyanın rəhbəri olduğu üçün, onlunla əlaqə saxlayırıq. Çiçerin onun gələcəkdə iqtidara gələ biləcəyini də dilə gətirib, bu səbəbdən Ənvər paşaya hörmət etdiklərini vurğulayaraq, dedi: "Ənvər paşa türk-rus dosdluq münasibətlərinin yaranmasında əməyi olan adamların başında olmuşdur". Ali Fuad paşa Çiçerinə etiraz edərək, bildirdi ki, "Ənvər paşanın Türkiyədə necə bir vəziyyətə düşəcəyi məlum deyildir. Ənvər paşa Türkiyədə Dünya müharibəsini uduzmuş bir hökumətin baş komandan müavini və hərbi naziri olmuşdur. Şəxsiyyətini çox yaxşı tanıdığım Ənvər paşanın, bunun hesabını vermədən, məmləkətdə yenidən siyasətə atılacağını düşünmürəm". Ali Fuad paşa iki ölkə arasında imzalanmış müqaviləyə hörmətlə yanaşılmasının zəruriliyini Çiçerinin nəzərinə çatdırdı.[42] Eyni zamanda, Ali Fuad paşa Türkiyəyə silah və pul yardımı göstərilməsi ilə bağlı Rusiyanın öz üzərinə aldığı öhdəliklərə əməl etmədiyini, Qafqazda və Qara dəniz sahillərində sovet idarələrinin Türkiyəyə göndərilən silah yüklərini buraxmaqdan imtina etdiyini Çiçerinin nəzərinə çatdırdı. May ayından başlayaraq, Xarici İşlər Komissarlığına göndərdiyi notalarda Ali Fuad paşa yay hərbi kampaniyaları üçün sovet yardımına böyük ehtiyac duyulduğunu yazsa da, lakin bu istiqamətdə elə bir ciddi irəliləyiş olmamışdı. Türk səfiri xatırladırdı ki, əgər bu yardımlar həlledici döyüşlərdən sonra çatdırılacaqsa, bunun qələbənin əldə edilməsində heç bir rolu olmayacaq.[43] Böyük Millət Məclisinin Moskvadakı türk səfirinə göndərdiyi təlimatda deyilirdi: "Türkiyə Rusiyadan almağa ümid bəslədiyi maddi yardımın elə cüzi bir hissəsini almışdır ki, bu yardımın bizim böyük, qüdrətli müttəfiqimiz tərəfindən göndərildiyini türk xalqına göstərmək Böyük Millət Məclisi

[41] Bax. Ali Fuad paşanın G.Çiçerinə memorandumu. 04.08.1921 // RF XSA, f.132, s.4, q.4, i.2, v.78
[42] Ali Fuat Cebesoy. Moskova Hatıraları. İstanbul, 2002, s.257-259
[43] Ali Fuad paşanın G.Çiçerinə notası. 15.05.1921.// RF XSA, f.132, s.4, q.4, i.4, v.25-25(arxası)

hökuməti üçün çox çətindir".[44] Türk səfirinin bu açıq diplomatik demarşı Sovet Rusiyasının rəhbərliyində ciddi narahatlığa səbəb oldu.

Türkiyənin bu narahatlığını ruslar, "haqqında müxtəlif şayiələr" yayılmış Qars konfransına olan hazırlıq görüntüsü ilə sakitləşdirmək istəyirdilər. G.Çiçerin sentyabr ayının 14-də Ali Fuad paşa ilə keçirdiyi görüşlər, xüsusilə, silah və maliyyə yardımı göstərilməsi ilə bağlı sentyabr ayının 4-də türk səfiri ilə olan danışıqlar, habelə, bu məsələ ilə bağlı Yusuf Kamal bəydən alınmış nota barədə Stalinə məlumat göndərdi. O, artıq yunan cəbhəsində vəziyyətin dəyişdiyini, yunanların həyacan içində geri çəkildiyini və türklərin maliyə yardımına böyük ehtiyacı olduğunu bildirirdi. Yusuf Kamal bəyin notasında kifayət qədər şantaj əlamətlərinin olduğunu qeyd edən Çiçerin yazırdı: "Son teleqramlara görə, yunanların geri çəkilməsi haradasa, panika içində qaçmaq xarakteri almaqdadır, biz çərxi-fələyin geri döndüyünü gözləyə bilərik".[45]

Sentyabr ayının 16-dan 17-nə keçən gecə Ali Fuad paşa Stalinlə də görüşə bilmişdi. Əvvəllər olduğu kimi, iki ölkə münasibətlərinin gərginləşdiyi bir məqamda yenə, o, Stalindən yardım alacağına ümidli idi. Həmin günlərdə türklər Sakaryada böyük qələbə qazanmışdılar. Stalin həm Əskişəhər və Kütahyada kamalçıların məğlubiyyətinin səbəbini öyrənmək istəyir, həm Sakarya zəfəri və həm də, rusları "tələşa salan türk-fransız danışıqları barədə məlumat istəyirdi". Ali Fuad paşa Stalinin gətirdiyi Anadolunun xəritəsi üzərində onu maraqlandıran suallara ətraflı cavablar verdi. Ali Fuad paşa fransızlarla aparılan danışıqların ruslara qarşı yönəlmədiyi, bunun iki böyük düşməni bir-birindən ayırmaq məqsədi daşıdığını Stalinə bildirdi. O dedi: "Fransızların sizinlə düşmən olduğunu bilirik. Fəqət, bizimlə sizə qarşı bir hərəkət edə bilməyəcəklərini anladıqlarından, bizə bu xüsusda bir təklifdə bulunmadılar. Əslində, türk-fransız sazişinin daxili məzmunu bundan ibarətdir". Stalin Ali Fuad paşanın izahatlarını dinlədikdən sonra dedi: "Əmin olun ki, türk-fransız sazişindən mən şəxsən narahat deyildim. Lakin Xarici İşlər Komissarlığımız bizi həqiqətən tələşa sala biləcək izahatlar vermişdi".[46] Yalnız, bundan sonra Stalin Türkiyəyə dayandırılmış sovet yardımlarının bərpasına kömək etmişdi.[47]

Rus-türk münasibətlərinin müxtəlif mübahisəli tərəflərini əhatə edən bir sıra məsələlər, ölkədə siyasi, yunan cəbhəsində hərbi, Anadoluda iqtisadi

[44] Türkiyə Böyük Millət Məclisi hökumətinin Ali Fuad paşaya təlimatı. 25.05.1921.// RF XSA, f.132, s.4, q.4, i.4, v.62-63
[45] İ.Stalinin G.Çiçerinə məktubu. 14.09.1921.// RDSSTA, f.5, s.2, i.315, v.153-154
[46] Ali Fuat Cebesoy. Moskova Hatıraları. İstanbul, 2002, s.275-277
[47] Kamuran Gürün. Türk – Sovyet ilişkileri. (1920-1953). 2.Baskı, Ankara, 2010, s.70

vəziyyət haqqında Ali Fuad paşa sentyabrın 17-də Çiçerinə şəxsi bir məktub göndərmişdi. Ali Fuad paşa yunan cəbhəsindəki dönüşdən sonra hazırkı siyasi vəziyyətin bütün tərəflərinin birgə öyrənilməsini, Moskva müqaviləsinin davamı kimi, bütün məsələlərlə bağlı daimi məsləhətləşmələr keçirilməsini təklif edirdi.[48] Bundan əlavə, Yusuf Kamal bəyin sentyabr ayında Çiçerinə ünvanladığı məktubunda bir sıra məsələlərin rus-türk münasibətlərinə ciddi xələl gətirdiyini yazır və həmin məsələlər sırasına ilk olaraq, ölkədən qaçmış bəzi şəxslərin Moskva tərəfindən müdafiə edilməsini daxil edirdi. O yazırdı: "Guya, Moskva hakimiyyətdən devrilmiş və ölkə tarixinin ən böhranlı anlarında xaricdə gizlənmiş, bir sıra mənsəbpərəstlərə yardım göstərir və bizim əleyhimizə intriqa qaldırıb, qalib kimi ölkəyə qaytarmaq istəyir". İkincisi, Yusuf Kamal bəy rus-yunan ticarət müqaviləsi haqqında söz-söhbətin yayılmasının türk ictiamayi fikrinə ağır təsir göstərdiyini bildirirdi. Son olaraq o, qeyd edirdi ki, Türkiyə və Sovet Rusiyasının düşmənləri onları, əsasında rus-türk sazişinin dayandığı Şərq məsələsinin həllindən yayındırmağa, danışıqları dayandırmağa cəhd göstərir və bununla öz məqsədlərinə nail olmağa calışırlar.[49]

Artıq sentyabrın 22-də Sovet Rusiyasının Ankaradakı səlahiyyətli nümayəndəsi S. Nasarenus G.Çiçerinə yazırdı ki, Mustafa Kamalın yunanlar üzərində parlaq qələbəsi onun ölkədə nüfuzunu görünməmiş dərəcədə artırmışdır. O yazırdı: "Bu qələbə Mustafa Kamal paşanın böyük uğurudur, o, burada özünü nəhəng sərkərdə kimi göstərdi".[50] 1921-ci ilin yayından başlayaraq, dünya mətbuatının səhifələrində Kamal paşa haqqında çoxlu tərifli yazılar getməyə başlamışdı. Hətta, Amerikanın "Filadelfiya Lyublik" qəzeti "Türk Vaşinqtonu" yazısında onu Corc Vaşinqtona bəzətmişdi. Qəzet Mustafa Kamal paşanın portreti altında Türkiyənin Corc Vaşinqtonu, Corc Vaşinqtonun portreti altında isə "Amerikanın Mustafa Kamalı" sözlərini yazmışdı.[51]

Sentyabr ayının sonlarında Çiçerin yunanlar üzərində parlaq qələbə münasibəti ilə Mustafa Kamal paşaya təmtəraqlı bir təbrik teleqramı göndərdi. Ankaradakı səlahiyyətli nümayəndə Nasarenus vasitəsi ilə Kamal paşanın sentyabr ayının 29-da Moskvaya çatdırılan cavabında deyilirdi: "Türk xalqının öz azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizəsinin ən ağır dəqiqiqələrində bizim işimizin doğru və mübarizəmizin qanuni olduğuna tərəddüdsüz inanan Sovet Rusiyasının zəhmətkeş xalqı adından göndərilən bu təbrik məni riqqətə gətirmişdir".[52]

[48] Bax: Ali Fuad paşanın G.Çiçerinə şəxsi məktubu. 17.09.1921.// RF XSA, f.132, s.4, q.4, i.2, v.79
[49] Yusuf Kamal bəyin G.Çiçerinə məktubu. Sentyabr 1921.// RF XSA, f.132, s.4, q.4, i.5, v.48
[50] S.Nasarenusun G.Çiçerinə məktubu. 22.09.1921.// RDSSTA, f.17, s.84, i.104, v.107
[51] Azərbaycan XXİK-nın İnformasiya şöbəsinin arayışı.25.07.1921.// AR DA, f.6, s.1, i.134, v.17

Yusuf Kamal bəyin memorandumunda, Ali Fuad paşanın şəxsi məktubunda qaldırılan müxtəlif məsələlərə Rusiya tərəfi, çox gec, Qars konfransı sona yaxınlaşanda cavab verdi. Oktyabr ayının 10-da Ali Fuad paşaya geniş cavabında Çiçerin bildirdi ki, Böyük Millət Məclisinin hakim partiyasına daxil olmayan türk siyasi dairələrinin Rusiyaya gəlmə təhlükəsini Türkiyə hökuməti bir qədər şişirdir. O, qəti şəkildə bəyan edirdi ki, "Rusiya hökuməti tərəfindən Türkiyənin hazırkı hökumətinə düşmən olan bu siyasi dairələrə və ya siyasi hərəkatlara heç bir yardım və kömək göstərilməmişdir. Türkiyənin daxili işlərinə müdaxilə etməmək prinsipinə ciddi şəkildə yanaşaraq, biz hesab edirik ki, Böyük Millət Məclisində partiyaların mübarizəsi bizi maraqlandırmır".[53] Eyni zamanda, G.Çiçerin Qafqaz respublikaları tərəfindən Türkiyəyə ordu hissələri və ya düşmən qüvvələrin hərəkət etməsi haqqında yayılmış söz-söhbətə toxunaraq, belə şayiələrin və ümumiyyətlə, Qafqaz respublikaları tərəfindən Türkiyə qarşı yönəlmiş təhlükənin heç bir əsası olmadığını göstərdi. O yazırdı: "Yaxın günlərdə Qarsda müqavilə imzalanmalıdır , bu bizim dostluq münasibətlərimizin möhkəmlənməsi və təsdiqi üçün əlavə bir əsas olacaqdır".[54] Əlbəttə, bu sözlərində Çiçerin elə də, səmimi deyildi. Yusuf Kamal bəydən avqustun 4-də, Ali Fuad paşadan sentyabrın 17-də alınmış sənədlərə G.Çiçerinin oktyabrın 10-da cavab yazması onun, oktyabrın 3-də Ankaradakı sovet səlahiyyətli nümayəndəsi S.Nasarenusdan gizli şifrli məlumat alması ilə bağlı idi. Nasarenus həmin məlumatda göstərirdi ki, Fransa ilə Türkiyə Rusiya haqqında gizli sazişə gəlmişlər, bu sazişə görə, formal baxımdan türklər Rusiya ilə imzalanmış müqaviləni qüvvədə saxlasalar da, lakin onu pozmağa bəhanə axtarmalıdırlar. Daha sonra o, əlavə edirdi ki, Kamal paşa ilə Fransa arasında imzalanmış gizli sazişə görə, guya, Ankara hökuməti keçmiş Qafqaz hökumətlərini, Cənubi Qafqazda yeni sovet respubliklarına qarşı mübarizədə müdafiə etmək haqqında öz üzərinə öhdəlik qəbul etmişdir.[55] Bu məlumat bütün sovet rəhbərliyini həyəcana salmışdı. Sentyabr ayının ortalarından başlayaraq, Kamal paşanın Fransa nümayəndələri ilə gizli danışıqlar aparması barədə Ankaradan, belə həyacanlı teleqramlar alındığından, RK(b)P MK-nın Siyasi

[52] Mustafa Kamal paşanın G.Çiçerinə teleqramı. 29.09.1921.// RF XSA, f.132, s.4, q.4, i.5, v.154
[53] G.Çiçerinin Ali Fuad paşaya məktubu. 10.10.1921.// RF XSA, f.132, s.4, q.4, i.2, v.80
[54] Yenə orada, v.80 (arxası)
[55] S.Nasarensun G.Çiçerinə şifrli teleqramı. 03.10.1921.// RDSSTA, f.558, s.11, i.388, v.1

Bürosunun sentyabr ayının 29-da keçirilən iclasının gündəliyinə çıxarılmış "Türkiyə üçün hərbi sursat ayrılması haqqında" məsələ Lenin, Molotov, Trotski, Stalin, Kamenev, Krestinski və Unşlixtin iştirak etdiyi iclasda təxirə salınmışdı.[56]

Ümumiyyətlə, 1921-ci ilin yayında yunan cəbhəsində vəziyyət gərginləşəndə Türkiyə Rusiyadan gözlədiyi maddi və mənəvi dəstəyi almadı. Həmin ilin iyun ayında Ali Fuad paşa bunu açıq şəkildə Çiçerinin nəzərinə çatdırdı. O, bildirdi ki, bütün böyük dövlətlərin kiçik Türkiyəyə qarşı hücumunun gözlənildiyi bir vaxtda dünya proletariatı bunun əleyhinə bəyanat və manifestasiyalarla çıxış etməli idi. Ali Fuad paşa təklif edirdi ki, Kommunist İnternasionalı bununla bağlı qətnamə qəbul etməlidir. G.Çiçerin bu tələblərə qarşı Türkiyədə kommunistlərin təqib edilməsi və Gümrüdə guya, ermənilərin öldürülməsi məsələsini qoydu. Ali Fuad paşa dedi: "Türkiyədə kommunistlər imperializmə qarşı mübarizədə türk cəbhəsini zəiflədən səhv taktika yeridən zaman bu məsələləri təqib edirlər, həmin vaxt sadəcə olaraq, onlara qarşı qanunun tələbləri tətbiq edilir". O, ermənilərə qarşı vəhşilik törədilməsi barədə məlumatların yalan olduğunu bildirdi. Türk səfiri dedi ki, onun ölkəsinin böyük qurbanlar bahasına imperilaizmə qarşı mübarizə apardığı bir vaxtda, onun təbii müttəfiqi olan, imperializmlə barışıq dövrünə qədəm qoyan kommunist aləmindən heç olmasa mənəvi dəstək gözləməyə haqqı vardır. Bu dəlillərlə razılaşmaq məcburiyyətində olan G.Çiçerin Kominternin İcraiyyə Komitəsinin sədri G. Zinovyevə yazırdı ki, bizim çıxış yolumuz iki qətnamə qəbul etməkdədir. Onun fikrincə, bir qətnamə ilə dünya proletariatını Antantanın Türkiyəyə hücumuna qarşı mübarizə aparmağa çağırmaq olar, digər qətnamə ilə türk hökumətinin kommunistlər əleyhinə hərəkətlərini mühakimə etmək olar.[57]

1921-ci ilin fevralında İrəvanda hakimiyyəti ələ keçirmiş daşnaklar aprel ayında məğlub olduqdan sonra onların əsas silahlı dəstələri Zəngəzura gəlmişdi. Onlarla sovet qüvvələri arasında Zəngəzurda mübarizə dərinləşdiyindən, mərkəzi bürosu Berlində yerləçən Erməni İnqilabi Federasiyasının (Daşnaksyutun) rəhbərliyi G.Çiçerinlə əlaqəyə girib bu məsələni "yoluna qoymaq" istəyirdi. G.Çiçerin isə buna daşnakları Türkiyənin nəzarətindən çıxarmaq məqamı kimi, baxırdı. Rusiya nümayəndələri Riqada gizli şəkildə daşnaklarla da danışıqlar aparırdılar. Bu danışıqlarda əsas

[56] RK(b)P MK Siyasi Bürosu İclasının 63 saylı protokolu. 29.09.1921// RDSSTA, f.17, s.3, i.208, v.1

[57] G.Çiçerinin G.Zinovyevə məktubu. 08.06.1921.// RDSSTA, f.17, s.84, i.104, v.93-94

məqsəd Gümrü müqaviləsindən sonra müəyyən dərəcədə türklərə "meyl edən" daşnakları kamalçıların təsirindən çıxarmaq idi. RKP MK Siyasi Bürosu 1921-ci il iyun ayının 10-da keçirilən iclasında bu danışıqlara razılıq vermişdi. Danışıqları aparmaq üçün Sovet Ermənistanının Moskvadakı səlahiyyətli nümayəndəsi Ter-Qabrielyanın göndərilməsi haqqında qərar qəbul edilmişdi. Həmin qərarın ikinci bəndinə görə, Riqaya göndəriləcək ikinci nümayəndəni Ter-Qabrielyan, Çiçerin və Molotov qarşılıqlı razılıq əsasında müəyyən etməli idilər. Riqa danışıqlarına A.İoffenin cəlb edilməsi də nəzərdə tutulmuşdu.[58] İyun ayının 20-də bu məsələ Ermənistan KP MK-nin iclasında da, müzakirə edilmişdi və erməni kommunistləri Moskvanın daşnaklarla danışıqlarına rəsmi xarakter verilməsinə tərəfdar deyildilər. Onlar bu məqsədlə Ter-Qabrielyana əlavə təlimat göndərdilər və Zəngəzurda gizli fəaliyyəti gücləndirmək üçün ora yeni işçilər göndərmək haqqında MK-nin qərarını qəbul etdilər.[59]

Daşnaklarla danışıqlar haqqında məsələ ikinci dəfə iyunun 25-də Siyasi Büronun müzakirəsinə çıxarılmış və iyun ayının 10-da qəbul olunmuş qərar qüvvədə saxlanılmışdı.[60] RK(b)P MK ilə Erməni İnqilabi Federasiyası arasında Riqada başalanan danışıqlarda Daşnak partiyasını V. Papazyan (nümayəndə heyətinin sədri), V.Navasardiyan və A.İsaakyan (nümayəndə heyətinin üzvləri) təmsil edirdilər. Daşnak nümayəndələri ilə Riqada başlanan danışıqlar RK(b)P MK ilə Erməni İnqilabi Federasiyası-Daşnaksyutun arasında gizli sazişin imzalanması ilə nəticələnmişdi. Bu saziş 1921-ci ilin iyul ayının 14-də paraflanmışdı.[61] Lakin Sovet rəhbərliyi daşnakların 1921-ci ilin iyununda digər Qafqaz respublikaları ilə birlikdə Parisdə əməkdaşlıq haqqında Bəyannamə imzaladığını eşitdikdə, Riqada paraflanmış sazişdən geri çəkilməyə çalışdı. Bu zaman artıq Zəngəzurda daşnak hərbi dəstələri tərksilah edilmişdi.[62]

İyul ayının 26-da RKP MK Siyasi Bürosunun iclasında Riqada daşnaklarla paraflanmış saziş haqqında A. İoffenin məlumatı dinlənildi və belə bir

[58] RK(b)P MK Siyasi Bürosu İclasının 38 saylı protokolu. 08.06.1921.// RDSSTA, f.17, s.3, i.175, v.1

[59] Ermənistan K(b)P MK İclasının 9 saylı protokolu. 20.06.1921.// RDSSTA, f.64, s.1, i.105, v.12(arxası)

[60] RK(b)P MK Siyasi Bürosu İclasının 42 saylı protokolu. 25.06.1921.// RDSSTA, f.17, s.3, i.179, v.4

[61] V.Papazyan, V.Navasardiyan və A.İsaakyanın RK(b)P MK-ya məktubu. 17.08.1921.// RDSSTA, f.17, s.84, i.183, v.12-12(arxası)

[62] Ermənistan K(b)P MK İclasının 10 saylı protokolu. 21.07.1921// RDSSTA, f.64, s.1, i.105, v.14

qərar qəbul edildi: "Yoldaş İoffe və digərlərinin daşnaklar barəsində imzaladığı saziş layihəsi qəti şəkildə rədd edilsin". [63] Siyasi Büronun bu qərarından sonra 1921-ci ilin avqust ayının 13-də A.İoffe RSFSR-in Latviyadakı nümayəndəliyi vasitəsi ilə daşnak liderlərinə çatdırdı ki, "Zaqafqaziya respublikaları nümayəndələrinin yaxın vaxtlarda Parisdə və Romada Brian və Toretti qarşısındakı çıxışlarından sonra mən bizim aramızda tərtib edilmiş sazişi RKP MK-ya məruzə etməyi mümkünsüz hesab edirəm. Hələ ki, sizin tutduğunuz siyasi mövqe mənə belə bir imkanı vermir".[64] Riqa danışıqlarında iştirak etmiş daşnak liderləri avqust ayının 17-də RKP MK-ya məktub yazaraq, Paris Bəyannaməsinin Riqa görüşündən əvvəl verildiyini və bu barədə Avropa mətbuatında, hətta, Moskva radiosunda da məlumatların getdiyini bildirdi. Onlar öz tərəflərindən danışıqların davam etdirilməsi və sona çatdırılmasına hazır olduqlarını bildirdilər.[65] Əslində, bununla daşnaklar ikili oyun oynayırdılar. Bir tərəfdən, Sovet Rusiyası ilə gizli danışıqlara gedir, digər tərəfdən isə Qərbin himayə etdiyi Qafqaz həmrəyliyində təmsil olunmaq istəyirdilər. Məhz, bu məqsədlə də 1921-ci ilin iyun ayının 10-da Ermənistan Respublikasının nümayəndə heyətinin sədri Avetik Ağaronyan, Azərbaycan Respublikası nümayəndə heyətinin sədri Əli Mərdan bəy Topçubaşov, Şimali Qafqaz Respublikası nümayəndə heyətinin sədri Abdul Məcid Çermoyev və Gürcüstan Respublikası nümayəndə heyətinin sədri Akaki Çxenkeli ilə birlikdə Paris Bəyannaməsini imzalamışdı.[66]

Əslində, 1921-ci ilin aprelində Bakı və Tiflisdəki müzakirələrdən sonra Azərbaycanın müstəqil siyasət yeridəcəyinə ümidini itirən Türkiyə Qafqaz respublikaları ilə yeni konfransda elə də maraqlı deyildi. Bu konfransa onlar Moskva konfransının birbaşa davamı kimi, baxır, ən yaxşı halda, Qars konfransında Moskva müqaviləsinin Cənubi Qafqaz sovet respublikası tərəfindən hüquqi sənəd kimi təsdiqlənəcəyini gözləyirdilər.[67] Moskva bütün vasitələrlə təsir göstərirdi ki, Cənubi Qafqaz respublikaları konfransda vahid komanda kimi çıxış etsinlər. Bu məqsədlə, hər üç respublikanın xarici işlər komissarı 1921-ci ilin may ayının 7-də Tiflisə çağrılmışdı. Azərbaycandan

[63] RK(b)P MK Siyasi Bürosu İclasının 53a saylı protokolu. 26.07.1921// RDSSTA, f.17, s.3, i.192, v.3

[64] V.Papazyan, V.Navasardiyan və A.İsaakyanın RK(b)P MK-ya məktubu. 17.08.1921.// RDSSTA, f.17, s.84, i.183, v.12

[65] Yenə orada, v.12(arxası)

[66] Bax: Déclaration Représentants des Républiques d'Arménie, d'Azerbaïdjan, du Caucase du Nord et de Géorgie. Classé le 15 juin 1921.// Ministère des Affaires Etrangère de France. Archives Diplomatique, vol. 639, folio 205-209

[67] Bax:B.Leqranın Orconikidzeyə məktubu. 29.06.1921.// RDSSTA, f.85, s.c/Türkiyə, i.44, v.4

bu müzakirələrdə M.D.Hüseynovla yanaşı B.Şahtaxtinski də iştirak edirdi. Q.Orconikidze və B.Leqranın başçılığı ilə keçirilən iclasda hər üç Cənubi Qafqaz respublikasının qarşıdakı konfransda eyni mövqedən çıxış etməsi haqqında qərar qəbul edildi. Qərarda göstərilirdi ki, Türkiyə ilə aparılacaq danışıqların və imzalanacaq müqavilənin əsasını Moskva müqaviləsi təşkil etməlidir.[68] Bu fikri, bir qədər sonra RSFSR-in xarici işlər komissarı Çiçerin Moskvadakı türk səfirinə verdiyi notada rəsmi şəkildə təsdiq edirdi. Onun fikrincə, müqavilə, yalnız, Türkiyə ilə Azərbaycan və Gürcüstan arasında deyil, Ermənistan da daxil olmaqla, hər üç Qafqaz respublikası ilə Türkiyə arasında imzalanmalı, "Moskvada bağlanmış müqaviləni tamamlamalı idi".[69] Türkiyə tərəfinin fikrincə, yeni müqavilə bütün hallarda Gümrü müqaviləsində olduğu kimi, Ermənistanın Qars, Ərdahan və Artvindən Türkiyənin xeyrinə imtina etməsini özündə əks etdirməli idi.[70]

Konfransın Qarsda keçirilməsi barədə Türkiyə tərəfi hələ Bakı və Tiflisdəki danışıqlar zamanı Azərbaycan və Gürcüstan tərəfindən razılıq alsa da, Yusuf Kamal Ankaraya döndükdən sonra xarici işlər naziri təyin edildiyindən, indi konfransın Ankarada keçirilməsini təklif edirdi. Bu məqsədlə o, iyul ayının 3-də M.D.Hüseynova teleqram göndərmişdi. Konfransın Ankarada keçirilməsi ilə bağlı Azərbaycana dəvət göndərən Yusuf Kamal xarici işlər komissarı M.D.Hüseynovdan xahiş edirdi ki, Türkiyə Böyük Millət Məclisi hökuməti ilə qardaş Azərbaycan respublikası arasında münasibətləri tənzim etmək və Moskva müqaviləsinin Azərbaycana aid hissəsini iki ölkə arasında imzalanacaq bir müqavilədə rəsmiləşdirmək üçün Azərbaycan öz nümayəndələrini təyin etsin. [71] Eyni zamanda, Yusuf Kamal yazırdı ki, Böyük Millət Məclisi ona yüksək etimad göstərib, Xarici işlər naziri vəzifəsinə təyin etdiyi üçün, onun uzun müddət Ankaradan uzaq düşməsi qeyri-mümkündür. O, danışıqların yeri kimi, Ankaranı təklif edir və orada konfrans üçün hər cür şəraitin olduğunu xatırladaraq, yazırdı: "Sovet Ermənistanı respublikasının rəhbərliyi ilə konfrsla bağlı görüşmək mümkün olmasa da, Sovet İrəvan hökumətinin arzu etdiyi təqdirdə nümayəndələrini

[68] Türkiyə ilə danışıqlar barədə Cənubi Qafqaz respublikaları nümayəndələrinin iclası. 07.05.1921.// AR DA, f.28, s.2, i.27, v.30

[69] Документы внешней политики СССР. T. IV, M.: Госполитиздат, 1960, с.287

[70] Bax: The Pan-Turanian Idea. // National Archives and Records Administration USA, CIA-RDP 83, p. 97

[71] Yusuf Kamalın M.D.Hüseynova teleqramı. 03.07.1921.// AR DA, f.28, s.1, i.49, v.8

Ankaraya göndərmələri məni çox məmnun edərdi. Evvəlcədən razılaşdığımız kimi, bu təklifimizi onlara bildirməyinizi Sizden rica edirəm".[72]

Yusuf Kamal bəyin bu teleqramı Türkiyənin Azərbaycandakı diplomatik nümayəndəsi Memduh Şövket bəy tərəfindən M.D.Hüseynova çatdırılmışdı.[73] M.D.Hüseynov teleqramı alan kimi, iyul ayının 5-də onun məzmununu G.Çiçerinə çatdırmışdı.[74] Həmin gün Yusuf Kamal konfransın Ankarada keçirilməsi barədə Gürcüstan və Ermənistan rəhbərliyinə də dəvətlər göndərmişdi.[75] O, Qafqaz respublikalarına göndərdiyi dəvətlərin məzmununa uyğun bir notanı iyul ayının 9-da G.Çiçerinə də ünvanlamışdı. Nota iyul ayının 12-də Moskvaya gəlib çatmışdı. O yazırdı ki, Türkiyə ilə Cənubi Qafqaz dövlətləri arasında bütün həll olunmamış məsələləri tənzimləmək, Moskava müqaviləsinin bu respublikalara aid maddələrinə uyğun olaraq, onların hər biri ilə müqavilə bağlamaq məqsədilə Ankara həmin ölkələrin hökumətlərindən xahiş etmişdir ki, konfransa öz nümayəndələrini təyin etsinlər. Yusuf Kamal Çiçerindən xahiş edirdi ki, Moskva müqaviləsinə uyğun olaraq, Sovet Rusiyası da, Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında keçirilən konfransa öz nümayəndəsini göndərsin. Konfransın yeri ilə bağlı Yusuf Kamal Moskva konfransının hazırlıq dövrünə qayıdaraq yazırdı: "Sizin konfransın yerinin Bakıdan Moskvaya dəyişdirməklə bağlı 19 dekabr 1920-ci tarixli bəyanatınıza mənim hökumətimin həmin vaxt yubanmadan verdiyi cavabı nəzərə alaraq, əgər Siz Cənubi Qafqaz sovet respublikalarına olan öz təsirinizdən istifadə edib, nəzərdə tutulan konfransın keçirilməsinin mənimlə Azərbaycan və Gürcüstan hökumət dairələri arasında şifahi şəkildə razılaşdırıldığı kimi, Şərqi Anadolunun hər hansı şəhərinə deyil, Ankaranın özünə təyin edilməsinə onları razı sala bilsəniz, mən şəxsən Sizə minnətdar olaram. Bu ricanı zəruri edən səbəblər Sizin 19 dekabr 1920-ci il tarixli teleqramınızda göstərilən səbəblərlə eynidir".[76] Yusuf Kamal izah edirdi ki, o, indiki şəraitdə Ankaranı tərk etmək imkanına malik deyildir. Lakin Sovet Rusiyası konfransın Ankarada keçirilməsinə razılıq vermədi.[77] Avqust

[72] Yusuf Kamalın M.D.Hüseynova teleqramı. 03.07.1921.// AR DA, f.28, s.1, i.66, v.28

[73] Bax: Betül Aslan. Türkiye – Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.138

[74] M.D.Hüseynovun G.Çiçerinə teleqramı. 05.07. 1921.// AR DA, f.28, s.1, i.49, v.8

[75] Türkiyənin siyasi həyatının əsas anları (1920-ci ilin noyabrından 1921-ci ilin noyabrına qədər). Tarixi kanva.// RDSSTA, f.5, s.3, i.630, v.51

[76] Yusuf Kamal bəyin G.Çiçerinə şifrli teleqramı. 09.07.1921.// RDSSTA, f.5, s.1, i.2203, v.109

[77] Bax: Документы внешней политики СССР. T. IV, M.: Госполитиздат, 1960, c.227-228

ayının 8-də Çiçerin Sovet Rusiyasının Türkiyə Qafqaz konfransında iştirak edəcəyini təsdiq etdi və bu barədə Ali Fuad paşaya bildirirdi. O yazırdı ki, Rusiya hökuməti konfransın Qarsda keçirilməsi barədə əvvəlcədən qəbul edilmiş qərardan imtina edilməsini məqsədəuyğun hesab etmir. G.Çiçerin xahiş edirdi ki, Türkiyə hökuməti Qarsda nəzərdə tutulan konfransın hansı tarixdə açılmasının mümkünlüyü barədə ona məlumat versin.[78]

Rusiyanın bu cavabından sonra Cənubi Qafqaz respublikaları da, eyni mövqeyi müdafiə etdilər. Beləliklə, Rusiyanın diktəsi ilə sovet respublikaları Türkiyə-Cənubi Qafqaz konfransının Qarsda keçirilməsi haqqında 1921-ci ilin aprel ayında Bakı və Tiflisdə əldə olunmuş razılaşmalardan geri çəkilmədilər. M.D.Hüseynov iyulun 21-də Yusuf Kamal bəyə göndərdiyi cavab teleqramında bildirdi ki, "hələ siz Bakıda olanda müqavilə bağlanması ilə bağlı bu, və ya, digər məsələləri müzakirə edərkən, mən konfransın ya, Bakıda, ya da, Tiflidə çağrılmasını təkid etdim və siz konfransın Qarsda keçirilməsi haqqında öz arzunuzu ifadə etdiniz. Onda olduğu kimi, indi də, hökumətimiz ilə daimi teleqraf əlaqəsi saxlanması bizim üçün böyük əhəmiyyətə malikdir. Əgər siz konfransın Bakıda keçirilməsinə razılıq versəniz mən bundan məmnun olaram. Lakin hökumətimizlə etibarlı və daimi əlaqənin olması şərtilə mən konfransın çağrılma yeri kimi, Qarsın əleyhinə deyiləm və dostlarımızın da, razılığının alınmasına təminat verirəm. Sizin sovet respublikalarına xoş münasibətinizi dəyərləndirərək, Türkiyə nümayəndə heyətinin tərkibində Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan konfransında sizin iştirakınızı səmimi şəkildə arzulayaraq, təəssüf ki, mən konfransın Ankarada keçirilməsinə razılıq verə bilmərəm".[79] Eyni zamanda, Gürcüstan Xarici İşlər Komissarlığı da, iyulun 31-də Türkiyəyə göndərdiyi notada konfransın Ankarada keçirilməsinə etiraz etdi və Türkiyə-Cənubi Qafqaz konfransının Batumda keçirilməsini irəli sürdü.[80] Avqust ayının 24-də belə bir nota Ermənistan hökuməti tərəfindən də verildi.[81] Orada göstərilirdi ki, Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında konfransın keçirilməsi hər iki tərəfin dostluq əlaqələrinin inkişafında səmərəli nəticələr verəcəkdir. Bütün bu yazışmalardan sonra, Ankara hökuməti avqust ayının 26-da konfransın sentyabr ayının sonlarında Qarsda

[78] G.Çiçerinin Ali Fuad paşaya notası. 08.08.1921.// RF XSA, f.132, s.4, q.4, i.2, v.63

[79] M.D.Hüseynovun Yusuf Kamal bəyə teleqramı. 21.07. 1921.// ARPİİ SSA, f.276, s.5, i.1, v. 26

[80] Bax: Документы внешней политики СССР. T. IV, M.: Госполитиздат, 1960, c.228

[81] Yenə orada, s.292

keçirilməsinə qərar verdi.[82] Avqustun 29-da Yusuf Kamal bəy Sovet Rusiyasına və Cənubi Qafqaz respublikalarına Qars konfransında iştirak etmək üçün nota ilə dəvətlər göndərdi.

§2. Qars müqaviləsi və Azərbaycanın himayəsində Naxçıvanın statusu

1921-ci ilin yay aylarında Qars konfransına ciddi hazırlıq işləri gedirdi. Avqustun sonlarında Tiflisdə olan İ.Əbilovla birbaşa xəttlə söhbətində M.D.Hüseynov deyirdi ki, Qarsda mühüm məsələlər müzakirə ediləcək və Q.Orconikidze ilə görüşüb, ondan xahiş etmək lazımdır ki, Azərbaycanın konfransda çox güclü təmsil olunması zəruridir. Eyni zamanda, o, maraqlanırdı ki, Ermənistanı konfransda kim təmsil edəcəkdir.[83] M.D.Hüseynov söhbət əsanasında Əbilova dedi ki, əgər ayrı namizəd olmasa, yəqin ki, Azərbaycan nümayəndə heyətinə o, *(İ.Əbilov - C.H.)* rəhbərlik edəcəkdir. Bu halda, Əbilov bir müddət Tiflisdə qalıb, gözləmək lazım olacağını bildirdi.[84] Ümumiyyətlə, ilkin müzakirələrdə, Azərbaycan hökuməti İ.Əbilovun Ankaraya getməzdən əvvəl Qarsa getməsini qərarlaşdırsa da, lakin Əbilovun Tiflidə N.Nərimanov və M.D. Hüseiynovla görüşlərindən sonra, onun Ankaraya yola düşməsinə üstünlük verilmişdi.[85] Lakin avqust ayının 26-da AK(b)P MK Bürosunun iclasında Türkiyə ilə müqaviləni imzalamaq üçün Azərbaycan nümayəndə heyətinin göndərilməsi məsələsi müzakirə edildi və Behbud Şahtaxtinski nümayəndə heyətinin sədri təsdiq edildi. [86] Avqust ayının son günlərində 13 nəfərlik bir heyətlə Qars konfransında iştirak etmək üçün o, Tiflisə yola düşdü.[87] B.Şahtaxtinskinin Azərbaycan hökuməti adından Qars konfransına nümayəndə heyətinin başçısı kimi göndərilməsi bir tərəfdən onun Moskva konfransının iştirakçısı olması ilə bağlı idisə, digər tərəfdən Naxçıvanda yaranmış vəziyyətlə əlaqədar idi.

[82] S.Nasarenusun G.Çiçerinə teleqramı. 27.08.1921.// RDSSTA, f.17, s.84, i.104, v.101

[83] M.D.Hüseynovun birbaşa xəttlə İ.Əbilovla söhbəti. Avqust 1921.// ARPİİ SSA, f.276, s.5, i.1, v.1

[84] M.D.Hüseynovun birbaşa xəttlə İ.Əbilovla söhbəti. Avqust 1921.// ARPİİ SSA, f.609, s.1, i.81, v.27-28

[85] Bax: Betül Aslan. Türkiye – Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.179

[86] Azərbaycan K(b)P MK Bürosu iclasının 15 saylı protokolu. 26.07.1921.// ARPİİ SSA, f.1, s.2, i.16, v.85

[87] Bax: B.Şahtaxtinskinin RKP MK-ya məktubu.Avqust 1923.// RDSSTA, f.85, s.2c, i.3, v.49

Moskva müqaviləsinin Naxçıvan barədə məlum maddəsinin olmasına baxmayaraq, Ermənistan hökuməti bu diyara olan iddiaların əl çəkmir, Naxçıvanın idarə olunması ilə bağlı müxtəlif təxribatçı addımlar atırdı. B.Şahtaxtinski nümayəndə heyətinin başçısı təyin edilməsindən bir gün əvvəl, avqust ayının 25-də Azərbaycan K(b)P MK-nın Təşkilat Bürosunun iclasında Naxçıvanda vəziyyətin yaxşı olmadığı haqqında D.Bünyadzadənin məlumatı dinlənildikdən sonra, məsələnin müzakirəsi Siyasi Büroya tövsiyə edilmiş və Şahtaxtinskiyə tapşırılmışdı ki, yaxın günlərdə Naxçıvana baş çəksin.[88] Bu qərar onunla bağlı idi ki, Ermənistan hökumətinin Naxçıvanın işlərinə müdaxiləsi barədə Diyar Komitəsi avqustun 22-də geniş məruzə hazırlamışdı. Bu məruzədə qeyd olurdu ki, hələ də, Ermənistan KP MK Naxçıvanla qarşılıqlı münasibətlərini özü üçün axıra qədər aydınlaşdıra bilmədiyindən, ən kiçik məsələlərə qədər Naxçıvanın daxili işlərinə müdaxilə etməyə cəhd göstərir. Məruzədə göstərilirdi: "Ermənistan KP tərəfindən göndərilən gizli əməkdaş Sayadyan özünü Ermənistanın Naxçıvanda Qeydiyyat Şöbəsinin müdiri adlandırır və öz işçiləri ilə diyarın ərazisində tamamilə müstəqil şəkildə fəaliyyət göstərir, nə yerli partiya komitəsini, nə də yerli sovet hakimiyyətini tanıyır. Bu ilin iyul ayının 14-də Ermənistan Gənclər İttifaqının MK-sı Rza Axundov adlı birisini Naxçıvan Diyar Komsomolun Təşkilat Bürosunun məsul katibi vəzifəsinə təyin edib. O, yerli partiya komitəsi ilə heç bir əlaqə saxlamadan, diyardakı vəziyyət haqqında Ermənistan KP MK-ya faktların təhrif olunduğu müxtəlif məktublar göndərir".[89] Azərbaycan K(b)P MK katibi Qafqaz Bürosuna göndərdiyi məktubda belə qeyri-normal hallara son qoyulmasını xahiş edərək bildirirdi ki, "Ermənistan K(b)P MK Naxçıvan ərazisində özünün hər hansı tədbirini Azərbaycan K(b)P MK-nın razılığı və icazəsi ilə keçirməlidir".[90]

Əslində, Ermənistanın partiya və hökumət dairələrinin Naxçıvana münasibətdə belə özbaşınalığı, Qafqaz Bürosunun məsələyə etinasız münasibətindən irəli gəlirdi. Sentyabrın ilk günlərində Naxçıvandakı vəziyyəti müzakirə edən Qafqaz Bürosunun plenumu Naxçıvana yardımım Ermənistan vasitəsi ilə göstərilməsi haqqında qərar qəbul etmişdi. Orada deyilirdi: "Naxçıvan üçün 20 min qızıl rubl buraxılması Ermənistan

[88] Azərbaycan K(b)P MK-nın Təşkilat Bürosu iclasının 10 saylı protokolu. 25.08.1921.// ARPİİ SSA, f.1, s.2, i.15, v.85

[89] Azərbaycan KP MK katibinin RKP MK Qafqaz Bürosuna məktubu. Avqust 1921.// ARPİİ SSA, f.1, s.2, i.24, v.37

[90] Yenə orada, v.37

MK-ya tapşırılsın... Ermənistan MK-ya tapşırılsın ki, Naxçıvana manufaktura və əskinaslarla yardım göstərilməsi məsələsini ən ciddi şəkildə diqqət mərkəzində saxlasın".[91] Ermənistanın siyasi dairələri Naxçıvan haqqında Moskva müqaviləsinin müddəalarına o qədər etinasız yanaşırdılar ki, hətta, 16 mart müqaviləsi qüvvəyə mindikdən sonra belə, onlar Moskva ilə yazışmalarında Naxçıvan haqqında Azərbaycan İnqilab Komitəsinin məlum bəyannaməsinə istinad edirdilər. Ermənistan respublikasının Bakıdakı diplomatik nümayəndəsi Atabekov Moskvaya, Ter-Qabrielyana teleqramında yazırdı ki, "türklər tamamilə Naxçıvanın Ermənistana birləşdirilməsi haqqında artıq Ermənistan sovet hökuməti tərəfindən təsdiq olunmuş Azərbaycanın bəyanatı ilə hesablaşmaq istəmirlər".[92] Atebekovun Ter-Qabrielyanın adına Sovet Rusiyasının Xarici İşlər Komissarlığına göndərdiyi bu teleqramı Moskvada RKP MK katibi N. Krestinskiyə təqdim edilmişdi. Bütün bunları nəzərə alaraq, Azərbaycan rəhbərliyi Naxçıvanı möhkəmləndirmək məqsədilə Behbud Şahtaxtinskini hələ Qars konfransının gedişində Naxçıvan Xalq Komissarları Sovetinin sədri seçilməsini təmin etmişdi və hökumətin tərkibi yeni kadrlarla möhkəmləndirilmişdi.[93]

Ermənilərin Naxçıvana qarşı törətdiyi təxriabatlardan və Sovet Rusiyasının buna göz yummasından türklər məlumatlı idilər. 1921-ci ilin avqust ayında G.Çiçerinlə görüşündə Ankara hökumətinin Moskva böyük elçisi Ali Fuad paşa bütün bunları Sovet Xarici işlər komissarının diqqətinə çatdıraraq, soruşdu: "Ermənilərin Naxçıvanı işğal etmək niyyətində olduğunu eşitdik, bunlar doğrudurmu?" Cavabında Çiçerin ermənilərin belə bir niyyəti olmadığını bildirdi.[94] Uzun illər boyu Ermənistan və erməni diasporu tərəfindən Türkiyəyə qarşı formalaşmış nifrət hissinin, erməni transmilli terror təşkilatı olan ASALA-nın terror aktlarının əsas dəlillərindən biri də məhz, Naxçıvan məsələsində Ankaranın tərəddüdsüz və sərt mövqeyi ilə bağlı idi.[95]

Avqust ayının sonlarında Sovet Rusiyasında da, bu istiqamatdə yazışmalar gedirdi. G.Çiçerinə məktubunda İ.Stalin Türkiyə-Cənubi Qafqaz konfransında Rusiyanı Şeynmanın təmsil etməsini təklif edir və "türklər

[91] RK(b)P MK Qafqaz Bürosu plenumunun İclasının 20 saylı protokolu. 05.09.1921.// RDSSTA, f.85, s.18, i.58, v.33(arxası)

[92] Atabekovun Ter-Qabrielyana teleqramı. 02.11.1921.// RDSSTA, f.17, s.84, i.183, v.6

[93] AKP Naxçıvan Diyar Komitəsinin Təşkilat Bürosu iclasının 49 saylı protokolu. 11.10.1921.// RDSSTA, f.64, s.1, i.100, v.5-6

[94] Ali Fuat Cebesoy. Moskova Hatıraları. İstanbul, 2002, s.259-260

[95] Bax: Worldwide Report Terrorism. FOUO 3/82. For Official Use Only. 21.06.1982. // National Archives and Records Administration USA, CIA-RDP 82, p. 23.

üçün ayrı bir namizədi görmədiyini" yazırdı.[96] Lakin az sonra Rusiya Xarici İşlər Komissarlığı Latviyadakı səlahiyyətli nümayəndəsi Yakov Qanetskinin üzərində dayandı və Moskva hökumətini vasitəçi olaraq, Qars konfransında Qanetski təmsil etdi. Y.Qanetskinin Türkiyə ilə tanışlığı, yalnız, 1918-ci ildə Sovet Rusiyasının nümayəndə heyətinin tərkibində Brest-Litovsk danışıqlarında iştirak etməsindən ibarət idi.

Sovet Rusiyası ilə Türkiyə xarici işlər idarələri arasındakı yazışmalar nəticəsində Qars konfransının açılışı sentyabr ayının 26-na müəyyən edildi.[97] Mustafa Kamal paşa ilə söhbətində Sovet Rusiyasının Ankaradakı səlahiyyətli nümayəndəsi S.Nasarenus dedi ki, "məhz, indi Türkiyə üçün ağır olan bir dövrdə Rusiya ona mənəvi dəstək olmaq üçün Qars konfransının keçirilməsini sürətləndirmişdir".[98] M.D.Hüseynov sentyabr ayının 21-də Yusuf Kamal bəyə teleqram göndərərək, həmin tarixdə konfransın açılmasına Azərbaycanın razı olduğunu və Behbud Şhtaxtinskinin Qars konfransına fövqəladə səlahiyyətli nümayəndə təyin edildiyini bildirdi. O yazırdı ki, "mənim hökumətim Sizin Qarsda Cənubi Qafqaz-Türkiyə konfransının sentyabr ayının 26-da açılması arzusu ilə tamamilə razıdır. Ona görə də, mən Azərbaycan Sovet hökuməti adından konfrasın sentyabr ayının 26-da Qarsda açılmasına razılıq verməkdən məmnunluq duyuram".[99] Bu teleqramın surəti A.Mravyana da, göndərildi. Ermənistan KP MK-nın hələ avqust ayının 26-da keçirilən iclasında Qars konfransına hazırlıqla bağlı məsələlər A.Mravyana tapşırılmışdı. O, B.Leqran vasitəsi ilə konfrans barədə Moskvanın təlimatlarını almalı, Qarsa göndərilən Azərbaycan və Gürcüstan nümayəndə heyətləri ilə əlaqə yaratmalı idi.[100] Ermənilər Moskva müqaviləsindən narazılıqlarını ifadə etsələr də, lakin yeni Ermənistan rəhbərliyi yaxşı başa düşürdü ki, onları bilavasitə hakimiyyətə Sovet Rusiyası gətirmişdir və ona görə də Qars konfransına hazırlıq dövründə onlar Moskvanın bütün arzularını yerinə yetirməyə hazır idilər.[101]

[96] İ.Stalinin G.Çiçerinə məktubu. 30.08.1921.// RDSSTA, f.558, s.11, i.824, v.9

[97] Bax: M.Qasımov. Azərbaycan-Türkiyə diplomatik –siyasi münasibətləri (aprel 1920-ci il – dekabr 1922-ci il). Bakı, 1998, s.102

[98] S.Nasarenusun G.Çiçerinə şifirli teleqramı. 23.09.1921.// RDSSTA, f.17, s.84, i.104, v.112

[99] M.D.Hüseynovun Yusuf Kamal bəyə teleqramı. Surəti A.Mravyana. 21.09.1921.// AR DA, f.28, s.1, i.133, v.19

[100] Bax: Ermənistan K(b)P MK iclasının protokolu. 26.08.1921// RDSSTA, f.64, s.1, i.105, v.23

101 Bax: The Boundary Between Turkey and the USSR. CIA/RR M-17. Secret. January 1952. // National Archives and Records Administration USA, CIA-RDP 79, p.8

Qars konfransına hazrlıq işlərinin gedişində Türkiyənin Bakıdakı diplomatik nümayəndəsi Memduh Şövket M.D.Hüseynovla görüşüb, Türkiyə cəbhəsində vəziyyətin ağır olduğunu bildirmiş və sovet respublikalarının Türkiyəyə hərbi köməyini gücləndirmək məqsədilə, Qafqaz respublikaları ilə Türkiyə arasında Antanta əleyhinə hərbi-müdafiyə ittifaqı bağlanmasını arzuolunan hesab etmişdi. O, bildirmişdi ki, Qafqaz-türk cəbhəsi etibarlı olduğu üçün Türkiyə Şərqi Anadoluda olan ordu hissələrini buradan çağırıb, yunan cəbhəsnə göndərmək istəyir. Avqust ayının 28-də M.D.Hüseynovla görüşdə türk diplomatik nümayəndəsi Memduh Şövket Rusiya başda olmaqla, Türkiyə ilə Qafqaz respublikaları, İran, Türküstan və Əfqanıstan arasında ittifaq yaradılması haqqında məsələ qaldırmışdı. O, ittifaqa Rusiyanın başçılıq etməsi haqqında təşəbbüsün Azərbaycandan gəlməsini daha məqsədəuyğun hesab etmişdi.[102] Buna bənzər məsələyə Azərbaycanın Qarsa yeni təyin edilmiş konsulu İslam Hacıbəylini sentyabr ayının 8-də Sarıqamışda qəbul edərkən, Kazım paşa tərəfindən də toxunulmuşdu. Kazım paşa demişdi: "Biz bu qənaətə gəlmişik ki, Türkiyə və bütün müsəlman ölkələrinin Rusiya ilə dostluğu bizim yeganə xilasımızdır. Yalnız rus xalqı ilə ittifaqda biz öz müstəqilliyimizi və fiziki mövcudluğumuzu, ümumilikdə, Qərb yırtıcılarının, xüsusilə, İngiltərənin imperialist tamahından qoruya bilərik. Ona görə, biz də, Azərbaycan da, İran və Əfqanıstan da, bütün gücümüzlə indiki vaxtda Rusiya ilə olan dostluğumuzu qorumalı və onu daha da möhkəmləndirməliyik".[103]

Əslində, həm Memduh Şövket, həm də, Kazım paşa tərəfindən bu nəbz yoxlaması Azərbaycanın Türkiyə ilə hərbi ittifaq ideyasına Bakının münasibətini öyrənmək xarakteri daşıyırdı. Memduh Şövket yaxşı bilirdi ki, milli mücadilə cəbhəsində Türkiyənin yadelllilərə qarşı uğurlu hərbi əməliyyatları Azərbaycan cəmiyyətində kamalçılara rəğbəti xeyli artırmışdır. Müxtəlif vasitələrlə Mokvaya təsir edib, daha çox müstəqillik almaq istəyən Nərimanov və onun əhatəsindəki millətçi kommunistlərin 1921-ci ilin yazında, xüsusilə, may ayında keçirilən I Ümumazərbaycan sovetlər qurultayındakı üstünlüyü, Azərbaycanın müstəqil siyasət yürütməsinə müəyyən ümidlər yaratsa da, lakin həmin üstünlük uzun davam etmədi, bir qədər sonra Nərimanovun təklənməsi prosesi başladı və müstəqilliyə olan

[102] M.D.Hüseynovun B.Leqrana şifirli teleqramı. 28.08.1921.// RDSSTA, f.85, s.c/Türkiyə, i.44, v.9

[103] İ.Hacıbəylinin M.D.Hüseynova məktubu. 11.09.1921.// ARPİİ SSA, f.609, s.1, i.81, v.12

ümidlər də boşa çıxdı.[104] Y. Baberovski haqlı olaraq yazır ki, "mərkəzin emissarları, göründüyü kimi, Nərimanovun silahdaşlarını siyasi cəhətdən neytrallaşdıra bildi. Gizli təhdidlər və siyasi vədlər onun dostlarını düşmənlərinə çevirməyə imkan verdi".[105]

M.D.Hüseynov Memduh Şövketlə görüşdən dərhal sonra, avqust ayının 28-də onunla olan söhbətin məzmunu barədə Tiflisdəki Rusiya nümayəndəsi B.Leqrana teleqram göndərmişdi, Leqran isə həmin məlumatı təcili diplomatik məlumat kimi, G.Çiçerinə çatdırmışdı. Məsələ yuxarı qalxdıqca onun məzmunu da, tədricən dəyişmiş, Moskvada bu artıq, Azərbaycanın Türkiyə ilə hərbi ittifaq arzusunda olduğu kimi yozulmağa başlamışdı. G.Çiçerin bu məlumatı Stalinə verdikdə, Stalin Azərbaycanın bu "özbaşınalığından" bərk əsəbləşmişdi. O, Çiçerinə yazırdı: "Mənim məlumatıma görə, Azərbaycan hissələri tamamilə kağız üzərindədir (Çar dövründə Azərbaycan ordusuna əsgər vermirdi, ona görə də, orada keçmiş əsgər kadrları yoxdur, bunun nəticəsində təmiz Azərbaycan hissələrinin yaradılması işi, hələ, mümkün olmamışdır). Lakin, əgər hətta, bu hissələr mövcud olsaydı belə, mən türklərlə "ittifaqın" tamamilə əleyhinə olardım. Mənim dəlillərim çoxdur, əgər lazımdırsa, onlar haqqında mən Siyasi Büroya məlumat verə bilərəm. Yeri gəlmişkən, deməliyəm ki, Hüseynova inanmaq olmaz (yəqin ki, o, "ittifaqın" arzuolunanlığı haqqında Sizə məlumat verib). Siyasətçi kimi, o, az təcrübəlidir və yüngülçəkilidir ("ittifaqın" arzuolunanlığı haqqında danışmaq onun işi deyildir)".[106]

Yalnız Azərbaycanla deyil, Türkiyənin İran və Əfqanıstanla ittifaq ideyası da, rusların ciddi narahatçılığına çevrilmişdi. 1921-ci ilin avqust ayında Ali Fuad paşa ilə görüş zamanı Çiçerin bunun səbəbini soruşduqda, Ali Fuad paşa bildirmişdi ki, "Türkiyənin İran və Əfqanıstanla ittifaq müqaviləsi bağlaması qədər təbii bir şey yoxdur. Çünki üçümüzün də istiqlal və azadlığı eyni düşmənlər tərəfindən təhdid edilir.[107] Əslində, sovet rəhbərliyi hələ 1921-ci ilin may ayında Kamal paşanın müsəlman qurultayı çağırmaq haqqında niyyətindən xəbər tutduqda, türklərin müsəlman ittifaqı yaratmaq niyyətindən narahat olmağa başlamışdılar. Bu məsələ o qədər ciddi xarakter almışdı ki, may ayının 31-də RKP MK həmin məsələni Siyasi Büronun müzakirəsinə çıxarmışdı. Müzakirələr nəticəsində məsələ ilə yaxından tanış

[104] Bax: O.Əhmədov. Azərbaycanda milli hərakat.22.12.1927.//ARPİİ SSA, f.12, s.1, i.152, v.28

[105] Йорг Баберовски. Враг есть везде. Сталинизм на Кавказе. Москва, 2010, с.275

[106] İ.Stalinin G.Çiçerinə məktubu. 10.09.1921.// RDSSTA, f.558, s.11, i.824, v.12

[107] Ali Fuat Cebesoy. Moskova Hatıraları. İstanbul, 2002, s.259

olmaq üçün Türkiyə məsələsinə yaxından bələd olan Xarici İşlər Komissarlığı, Komintern və Millətlər Komissarlığının nümayəndələrindən ibarət komissiya yaradılmışdı. Siyasi Büronun qərarında göstərilirdi: "Komissiyanın bütün üzvləri etibarlı kommunistlərdən ibarət olmalıdır". Komissiyanın çağrılması Zinoyevə həvalə edilirdi.[108]

Sentyabr ayının 3-də RK(b)P MK-nın Qafqaz Bürosunun plenumunda "Qars konfransı haqqında" məsələ müzakirə edildi. Qafqaz Bürosunun Azərbaycandan olan üzvləri Nərimanov və Kirovdan başqa, M.D.Hüseynov, B.Şahtaxtinski və İ.Əbilov da iclasda iştirak edirdilər. Plenumun iclasında müzakirə edilən məsələ ilə bağlı 8 bənddən ibarət qərar qəbul edildi, bunun birinci 7 bəndi Qars konfransına, 8-ci bəndi isə İ.Əbilova aid idi. Sonuncu bənddə göstərilirdi ki, İ.Əbilov təcili olaraq, Ankaraya yola düşməlidir. Qarşıdakı Qars konfransı ilə bağlı plenumun qərarında göstərilirdi: "1.Danışıqların aparılması ciddi şəkildə Moskva müqaviləsinin çərçivəsində saxlanılmalıdır; 2.Antanta ilə mübarizədə Qafqaz respublikaları Ankara ilə həmrəylik nümayiş etdirməlidirlər; 3.Bu mübarizəyə güclü şəkildə yardım (pul və digər vasitələrlə) göstərilməlidir; 4.İndiki şəraitdə Qafqaz Respublikaları və Ankara arasında hərbi müqavilənin bağlanılması qeyri-mümkün hesab edilsin, lakin, əgər bu məsələ Ankara nümayəndələri tərəfindən irəli sürülərsə, Cənubi Qafqaz respublikalarının Türkiyə, İran və Əfqanıstan ilə daha sıx siyasi yaxınlığından boyun qaçırılmasın; 5.Danışıqların gedişi prosesində Kağızman rayonunda otlaqlar və duz mədənlərindən, eyni zamanda, Çorox rayonunda mis konsesiyalarından istifadə haqqında məsələ qaldırılsın; 6.Heç bir halda ayrı-ayrılıqda hər hansı Qafqaz Respublikasının təcrid olunmuş formada çıxışına yol verilməsin, bütün məsələlər üzrə həmrəlik nümayiş etdirilsin; 7.Danışıqların başlanma vaxtı və konfransın gündəliyinin hazırlanması nümayəndə heyətinin özünə tapşırılsın".[109]

Qars konfransı ilə bağlı Qafqaz Bürosunun plenumundan dərhal sonra, sentyabr ayının 4-də M.D.Hüseynov Yusuf Kamal bəyə nota göndərərək, Azərbaycanın konfransın Qarsda keçirilməsinə razı olduğunu bildirdi.[110] Sentyabrın ilk günlərində Gürcüstan və Ermənistan nümayəndə heyətləri də müəyyən edildi. Gürcüstan konfransda Xarici işlər və maliyə komissarı A.Svanidze, hərbi dənizçilik komissarı Ş.Eliava, Ermənistan isə, 1921-ci ilin may ayının sonlarında təşkil olunmuş Xalq Komissarları Sovetində xarici işlər komissarı vəzifəsinə təyin edilmiş Askanaz Mravyan və daxili işlər komissarı Poqos Makinsyan ilə Qars konfransında təmsil olunacaqdılar.[111] Konfransa hazırlıq mərhələsində ermənilərin bu işə mane olacağını ehtimal edən Çiçerin onlara münasibətdə bəzi sərt addımların atılmasına rəvac vermiş və İrəvan hökumətini inqilabi Türkiyə ilə münasibətlirin pozulmasında ittiham etmişdi. Ermənisatnın Moskvadakı səlahiyyətli nümayəndəsi Ter-Qabrielyan Ermənistan K(b)P MK-ya məktublarında göstərirdi ki, onun Çiçerinə müraciətləri həm məzmun, həm də formasına görə, Sovet Ermənistanının siyasəti haqqında Çiçerində, yalnız, əks təəssüratlar yaradır. Bundan narahat olan Ermənistan KP MK-nın katibi avqust ayının 10-da G.Çiçerinə yazırdı: "Ermənistan KP MK Sovet Respublikaları və inqilabi Türkiyə arasında ittifaqın pozulmasının tərəfdarı deyildir. Mərkəzi Komitə gözəl başa düşür ki, Şərqdə inqilabi hərəkatın mənafeyi bu ittifaqın möhkəmləndirilməsini tələb edir... Ermənistan KP MK əmindir ki, yalnız, inqilabi Türkiyə ilə sülhün möhkəmləndirilməsi Ermənistan zəhmətkeşlərinin millətçilik zəhərindən tamamilə azad olma gününün yaxınlaşmasını sürətləndirə bilər".[112] Məhz, bu narahatlığın ifadəsi kimi, Azərbaycan və Gürcüstandan fərqli olaraq, Qarsa yollanan erməni nümayəndə heyətinə Ermənistan KP MK-nın birinci katibi A.Mravyan başçılıq edirdi. Avqust ayının 28-də A.Mravyan Ermənistanın yaxın gələcəkdə keçiriləcək konfransda iştirak edəcəyi ilə bağlı Yusuf Kamal bəyin avqustun 24-də göndərdiyi notaya müsbət cavab verdi. A.Mravyan cavab notasında müqavilənin Türkiyə ilə Ermənistan arasında deyil, Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında imzalanmasını məqsədəuyğun hesab edirdi. Bunu, o, Cənubi Qafqaz respublikalarının öz aralarında sıx siyasi və iqtisadi ittifaq yaratması ilə izah edirdi.[113]

Böyük Millət Məclisində Ədirnə millət vəkili, Şərq Cəbhəsi komandanı Kazım Qarabəkir paşanın başçılıq etdiyi Türkiyə nümayəndə heyətinə Burdur millət vəkili Vəli bəy, Şərqi Anadolu Dəmiryolları baş inşaat mühəndisi Muxtar bəy, Türkiyənin Sovet Azərbaycanındakı diplomatik nümayəndəsi

[108] RK(b)P MK Siyasi Bürosu İclasının 35 saylı protokolu. 31.05.1921// RDSSTA, f.17, s.3, i.172, v.5

[109] RK(b)P MK Qafqaz Bürosu plenumunun İclasının 17 saylı protokolu. 03.09.1921.// RDSSTA, f.64, s.1, i.1, v.144

[110] M.D.Hüseynovun Yusuf Kamal bəyə notası. 04.09.1921.// //ARPİİ SSA, f.276, s.5, i.1, v.26

[111] M.Sofiyev. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936). Bakı, 2000, s.45

[112] Ermənistan KP MK katibinin G.Çiçerinə məktubu. 10.08.1921.// RDSSTA, f.17, s.84, i.183, v.11-11(arxası)

[113] A.Mravyanın Yusuf Kamal bəyə notası. 28.08.1921.// RF XSA, f.132, s.4, q.4, i.5, v.69

Memduh Şövket bəy, habelə, müşavir kimi, millət vəkili Edip bəy, Türkiyə tütün işləri müfəttişi Muvaffak bəy, Şərq Cəbhəsi Qərargah rəisi Qədri bəy, minbaşı Veysəl bəy və minbaşı Tələt bə daxil idilər. Türkiyə tərəfindən konfransın katibliyinə Xarici İşlər Nazirliyinin əməkdaşları Zühtü bəy və Osman bəy, Şərq Cəbhəsi komandanının yavərlərindən Nəzmi bəy və Səlahəddin bəy daxil edilmişdilər.[114] Moskva konfransında təmsil olunan nümayəndə heyətindən Yusuf Kamal bəy Xarici işlər naziri, Ali Fuad bəy Sovet Rusiyasında böyük elçi, doktor Rıza Nur isə Qars konfransının əleyhinə olduğundan Türkiyə nümayəndə heyətinə daxil edilməmişdilər.[115] Doktor Rıza Nur sentyabr ayının 13-də Türkiyə Böyük Millət Məclisinin qapalı iclasındakı çıxışında öz fikrini onunla izah edirdi ki, Rusiya və Cənubi Qafqaf sovet respublikalarının bu konfransada əsas məqsədi ermənilər himayə edib, Türkiyəni Gümrü müqaviləsindən imtina etdirməkdir. O deyirdi: "Onlar birləşib bunu bizə etdirəcəklər". Rıza Nurun fikrincə, konfrans keçirmək istəklərində Rusiyanın bir Qafqaz konfederasiyası yaratmaq niyyətləri də, duyulmaqdadır ki, bu da, Türkiyənin maraqlarına uyğun deyildir. Ən nəhayət, doktor Rıza Nur Moskvadan dönərkən, türklərlə danışıqlarda Azərbaycan və Gürcüstan rəhbərliyinin özlərini aparmalarından çox narazı idi, hətta, Məclisdəki çıxışında onların bu hərəkətlərindən özünü təhqir olunmuş saydığını bildirirdi.[116] Doktor Rıza Nurun bu sözlərini, eynilə Yusuf Kamal da təsdiq edirdi və məclisdəki çıxışında deyirdi: "Bakıya gəldiyimiz sırada Bakı rəhbərliyi, yəni Xariciyyə komissarı və rəisi hökumət bizimlə dərhal müqavilə bağlamaq fikrindən uzaq görünürdülər. Məsələn, bu gün söz verirdilər, sabah söz verdikləri yerə gəlmirdilər, o biri gün bilmirəm filan saat gələrik dedilər, gəlmədilər".[117] Bütün bunlar türklərə çox pis təsir göstərmişdi. Lakin bununla yanaşı, Yusuf Kamal bəy Azərbaycan xalqının türk nümayəndələrinə necə böyük sayğı ilə yanaşdığına da, öz xatirələrində geniş yer vermişdi. O yazırdı: "Aprelin birinci günü axşam doqquzda Moskvadan Bakıya birbaşa hərəkət etdik. Səkkizinci gün günortadan sonra Bakının heç görməmiş olduğunu söylədikləri bir qarşılanma ilə qarşılandıq. Kücələrdə bizim əsir əsgərlər Azərbaycan əsgəriymiş kimi düzülmüşdülər. Mindiyimiz faytonun

[114] Bax: Karabekir. İstiklal Harbimiz. İstanbul, 1988, s.956

[115] Bax: Nurcan Toksoy. Revan'da son günler. Türk yönetiminden ermeni yönetimine. Orion Yayınevi, Ankara, 2007, s.321

[116] Bax: Türkiye Böyük Millet Meclisinin Gizli Celese Zabıtları. Devre: I. C. II. Ankara, 1985, s.230

[117] Yenə orada, s.227

keçdiyi yerlərin üstünə qadınlar baş qoyub torpağı öpürdülər. Aprelin on doqquzuna qədər Bakıda qaldıq. Bakılılar bizə çox yaxşı baxdılar. Oturduğumuz süfrələrə bəzən səksən cür yemək qoymuş olduqlarını görürdük. Bir gün bizi qonaq edənlərə dedik: "Canım, nə üçün bu qədər məsrəflər edirsiniz? Belə şeylər söyləməyin, dedilər. Mümkün olsa, Azərbaycanın bütün varlıqlarını sizin çiyinlərinizə yükləyib, Türkiyəyə göndərmək istəyirik , amma əlimizdə deyil, – cavabını verdilər".[118] Xarici işlər naziri kimi, Yusuf Kamal bəyin Azərbaycana olan sevgisi xalqın onlara, onların simasında isə, türklərə yuxarıda təsvir edilən məhəbətindən qaynaqlanırdı.

Qars konfransının açılışından bir neçə gün əvvəl, sentyabr ayının 17-də Ankara hökumətinin xarici işlər naziri Yusuf Kamal bəy tərəfindən Türkiyə nümayəndə heyətinə çox aydın təlimat verilmişdi. Təlimatda hər bir Cənubi Qafqaz respublikası ilə bağlı ayrılıqda zəruri hesab edilən məqamlar var idi. Yusuf Kamal bəy ilk növbədə, Moskva konfransı və konfransdan sonra Bakı və Tiflisdə türk nümayəndə heyətinin apardığı danışıqları, keçirdiyi görüşləri təsvir edir və bu görüş və danışıqlarda tərəflərin mövqeyinin şərhini verirdi. O, Kazım paşaya xatırladırdı ki, Cənubi Qafqaz respublikalarından hər hansı biri Moskva müqaviləsinin özünü maraqlandıran qisminə etiraz edərdisə, Rusiya nümayəndə heyətini öz öhdəliklərini yerinə yetirməyə dəvət edən bir siyasət yeritməli və 16 mart 1921-ci ildə imzalanmış Moskva müqaviləsinin heç bir maddəsini Rusiya ilə aramızda müzakirə mövzusuna çevrilməsinə yol verilməməlidir. Sənəddə Azərbaycan Respublikası ilə bağlanacaq müqavilədə aşağıdakı məsələlərin nəzərə alınması tövsiyə edilirdi. Yusuf Kamal bəy yazırdı: Azərbaycanla imzalanacaq müqavilənin mətni aydın şəkildə türkcə yazılmalı və müqəddimədə hər iki millətin həqiqətən də, qardaş olması haqqında ifadələr yer almalıdır; Azərbaycan və Türkiyə hökumətləri, onlardan hər hansı birinə zorla qəbul etdirilən müqavilə və ya beynəlxalq aktları bir prinsip olaraq, qəbul etməməlidirlər; Azərbaycan tərəfi Moskva müqaviləsi ilə ona verilən Naxçıvanın himayə haqqını heç vaxt, heç bir dövlətə verməməyə təminat verməlidir; Müqaviləyə Türkiyənin Azərbaycandakı və Azərbaycanın Türkiyədəki mühacirləri ilə bağlı ayrıca bir maddə salınmalıdır; Türkiyə hökuməti öz ərazisində olan azərbaycanlı mühacirləri, onların istəklərinə uyğun olaraq, türk təbəəliyinə qəbul etməkdə sərbəst olmalıdır; Bakı neftindən bir hissənin Türkiyəyə verilməsi müqavilədə öz əksini tapmalıdır; Azərbaycanda təhsil sərbəst

[118] Yusuf Kamal Tengirşek. Vatan Hizmetinde. Ankara, 1981, s.223

olmalıdır; Gürcüstanla imzalanacaq müqavilənin Batuma dair maddəsinə Azərbaycanla imzalanacaq müqavilədə yer verilməməli, həmçinin, Naxçıvanla bağlı maddə də, Gürcüstanla bağlı müqavilədə yer almamalıdır. Təlimatın digər hissələri Gürcüstan, Ermənistan və Rusiya nümayəndələri ilə aparılacaq danışıqlara aid idi.[119] Yusuf Kamal bəyin təlimatında ən mühüm məqam Türkiyənin hər üç Cənubi Qafqaz respublikası ilə ayrı-ayrılıqda müqavilə imzalamasının xüsusi şəkildə vurğulanmasından ibarət idi.[120] Lakin Cənubi Qafqaz respublikalarının nümayəndə heyətlərinin formalaşma prinsipindən və Sovet Rusiyasının bu respublikalara verdiyi təlimatdan aydın olurdu ki, Türkiyənin bu respublikalarlarla ayrı-ayrılıqda müqavilə imzalamaq istəkləri ciddi müqavimət ilə qarşılanacaqdır. Qafqaz Bürosunun 3 sentyabr qərarından da göründüyü kimi, Rusiyanın istəkləri bu respublikalara hakim kəsimişdi.[121]

Sentyabr ayının əvvəllərində Sovet Azərbaycanın Qarsa təyin olunmuş konsulu İslam Hacıbəylini Şərqi Anadoluda çox təmtəraqla qarşılamışdılar. Dəmiryol stansiyasındakı qarşılama mərasiminə Şərq Cəbhəsinin qərargah rəisi Rüşdü paşa, Qars jandarmasının rəisi Nəsimi bəy, şəhərin komendantı və digər rəsmi şəxslər gəlmişdilər. Sentyabr ayının 4-də Azərbaycan diplomatik nümayəndəsi İslam Hacıbəyli Sarıqamışda olan Şərq Cəbhəsi komandanı Kazım paşaya teleqram vuraraq, Qarsa gəlişi barədə məlumat verdi və ondan audensiya istədi. Gəlişinin ilk günlərində İslam Hacıbəyli şəhərin hərbi və mülki idarələrini ziyarət etdi. Sentyabr ayının 11-də M.D.Hüseynova məktubunda o yazırdı: "Onlar hamısı bizi çox mehriban qarşıladılar, Azərbaycandakı vəziyyət haqqında soruşdular, türk xalqının və hökumətinin Azərbaycan xalqına və hökumətinə olan qardaşlıq hisslərinə bizi əmin etdilər". Sentyabrın 8-də isə, Kazım paşa Azərbaycan konsulunu Sarıqamışa dəvət etdi. Sarıqamışda "Azərbaycanın Türkiyədə birinci nümayəndəsini" Şərq Cəbhəsi komandanın adından Kazım paşanın yaveri Nəzmi bəy salamladı. Həmin gün axşamüstü hərbi orkestrin müşayiəti ilə Kazım paşa Azərbaycanın Qarsda işə başlamış konsulunun şərəfinə yüksək rütbəli hərbçilərin iştirakı ilə qəbul mərasimi keçirdi. O, Azərbaycan,

[119] Bax: Karabekir. İstiklalHarbimiz. Cilt II, İstanbul, 2006, s.1112- 1116; V.Qafarov. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, 2011, s.409-410

[120] Bax: Candan Azer. Babadan Oğula Güney Kafkasiya. Türkiye – Güney Kafkasiya ilişkileri, s.303-304

[121] Bax: Betül Aslan. Türkiye – Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.140

Ermənistan və Naxçıvan diyarındakı siyasi, iqtisadi, ictimayi vəziyyət və təsərrüfat həyatı ilə maraqlandı. Qarsa dönüş ərəfəsində Hacıbəyli RSFSR-in Sarıqamışdakı konsulu Norman və Ermənistanın Qarsdakı konsulu Sarkisyanla görüşdü.[122] Sovet respublikalarının Şərqi Anadoludakı diplomatik nümayəndələri Qars konfransına hazırlığın bəzi məqamlarını müzakirə etdilər.

1921-ci ilin avqust ayının axırından Tiflisdə olan Azərbaycan nümayəndə heyəti 24 gün Gürcüstan paytaxtında gözlədikdən sonra, nəhayət ki, 150 nəfərdən ibarət sovet respublikalaramın nümayəndə heyəti Qarsa yola düşdü. Sovet Rusiyasının yeni təyin edilmiş Baş konsulu Aleksey Nikolayeviç Normanın başçılığı ilə rus diplomatik heyəti sentyabr ayının 20-də Qarsa yetişdi. Qars konfransı ərəfəsində o, Sarıqamışdan Qarsa Baş konsul təyinatı almışdı. Sentyabrın 22-də təşkil olunmuş təntənəli mərasimdə Moskva müqaviləsinin hər iki ölkədə ratifikasiya edilmiş nüsxələrinin mübadiləsi həyata keçirildi.[123] Bu mərasimdə artıq sentyabrın 4-də Qarsda diplomatik fəaliyyətə başlayan Sovet Azərbaycanın konsulu İslam Hacıbəyli də iştirak edirdi.

Tiflisdən yola düşən Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndə heyəti sentyabrın 26-da səhər saat 11:30-da Qarsa yetişdilər. Onlar şəhərdə təntənəli şəkildə təşkil edilmiş rəsmi mərasimlə qarşılandılar. Konfrans elə həmin gün, axşam saat 19:30-da Ordu küçəsində tədbir üçün hazırlanmış xüsusi binada təşkil olunmş mərasimdə Kazım Qarabəkir paşanın təbrik nitqi ilə açıldı.[124] Kazım paşadan sonra Rusiya nümayəndəsi Y.Qanetski, Cənubi Qafqaz respublikalarının adından isə, A.Mravyan təbrik nitqləri söylədi. Qanetski obrazlı formada bildirdi ki, "qüdrətli türk və erməni xalqları aralarındakı düşmənçilikdən sözdə deyil, əməldə əbədi olaraq, imtina edəcəklərini bütün dünyaya sübut edəcəklər. Onlar bir-birinə doğru sıyrılmış qılıncla deyil, hərarətli qardaşlıq duyğuları ilə gəlirlər".[125] A.Mravyan isə, Cənubi Qafqaz xalqlarının "imperializmə və zorakılığa qarşı mübarizədə qardaş türk xalqına" qələbə arzularını ifadə edərək, bunun konfransda qeyd edilməsini və daha da gücləndirilməsini istədi. O dedi: "Cənubi Qafqaz xalqları ümid edirlər ki, bu konfrans türk xalqı ilə dost-

[122] İ.Hacıbəylinin M.D.Hüseynova məktubu. 11.09.1921.// ARPİİ SSA, f.609, s.1, i.81, v.11-12

[123] Bax: Betül Aslan. Türkiye-Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.141

[124] Yenə orada, s.141-143

[125] Документы внешней политики СССР. Т. IV, М.: Госполитиздат, 1960, с.372

luq və qardaşlıq müqaviləsinin möhkəm əsasını qoyacaq ki, bu müqavilə əsasında bundan sonra biz bütün mübahisəli məsələləri tezliklə və asanlıqla həll edə biləcəyik".[126] Qars konfransı zamanı sovet nümayəndələrinin etimadını qazanmaq üçün Mustafa Kamal paşanın təklifi ilə sentyabr ayının sonlarında Türkiyə Böyük Millət Məclisi həbsdə olan kommunistləri azad edilməsi haqqında aministiya aktı qəbul etdi.[127]

Konfransın birinci iclasında onun iş qaydası müəyyən edərək Cənubi Qafqaz nümayəndələrinin təklifi ilə iqtisadi və sərhəd məsələlərini öyrənmək üçün iki komissiya yaradıldı. Konfransın ilk iclasında Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında müqavilənin hansı formada bağlanması ciddi mübahisə mövzusuna çevrildi. Kazım paşa təklif edirdi ki, hər bir Cənubi Qafqaz respublikası ilə ayrı-ayrılıqda müqavilə imzalansın. Bunun Türkiyə hökumətinin fikri olduğunu vurğulayaraq, o, deyirdi ki, hökumətimiz hər bir respublika ilə ayrıca müqavilə bağlamaq haqqında bizə təlimat vermişdir. Kazım paşa öz fikrini onunla əsaslandırırdı ki, Rusiya sovet hökuməti Cənubi Qafqaz respublikalarını müstəqil dövlətlər kimi, tanıdığını bəyan etmişdir. Bu fikrə istinad edərək, o, deyirdi ki, "biz onların hər biri ilə müstəqil dövlət kimi, ayrıca müqavilə bağlamaq istəyirik". Kazım paşa bununla bağlı Kamal paşanın onlara təlimat verdiyini bildirirdi.[128] Lakin Rusiya nümayəndəsi Y.Qanetski hər respublika ilə ayrca müqavilə bağlanmasının əleyhinə çıxış etdi. O bildirdi ki, Moskva müqaviləsinin imzalanmasından sonrakı müddətdə Cənubi Qafqazda vəziyyət əsaslı şəkildə dəyişmişdir, indi hər üç qardaş xalq siyasi, iqtisadi və təsərrüfat həyatı baxımından birləşməyə doğru gedir. Qanetski əsaslandırmağa çalışırdı ki, hər üç respublikanın Türkiyə ilə birgə müqavilə imzalaması Ankara ilə sıx ittifaqın yaranmasına gətirib çıxaracaq və ümumi düşmənə qarşı mübarizəyə yeni təkan verəcəkdir.[129] Kazım paşa Rusiya nümayəndəsinin gətirdiyi dəlilləri əsassız hesab edərək, hər bir respublika ilə ayri-ayrılıqda müqavilə bağlanmasının zəruriliyini bir daha vurğuladı. Ankara ilə əlaqə saxladıqdan sonra, o, konfransa məlumat verdi ki, müqavilə Cənubi Qafqaz respublikalarının hər biri ilə ayrıca imzalanmalıdır. Konfransın sentyabrın 28-də keçirilən iclasında Kazım paşa bir daha öz mövqeyində israrlı olduğunu bildirdi. Bu iclasdan sonra Rusiya nümayəndə heyətinin rəhbəri Y.Qanetski danışıqların gedişi və meydana çı-

[126] Bax: Документы внешней политики СССР. T. IV, M.: Госполитиздат, 1960, c.373
[127] S.Nasarenusun G.Çiçerinə teleqramı. 29.09.1921.// RDSSTA, f.17, s.84, i.104, v.111
[128] Qars konfransının 1-ci iclasının protokolları. 26.09.1921.// AR DA, f.28, s.1, i.81, v.3
[129] Yenə orada, v.3

xan mübahisəli məqamlar haqqında G.Çiçerinə məlumat göndərdi. O yazırdı: "Konfransın üçüncü iclası yenicə başa çatmışdır. Əvvəlcə sərhədlər haqqında məsələ müzakirə olundu. Əhəmiyyətsiz bir dəyişikliklə Moskva mətni qəbul edildi, yeri gəlmişkən, bütün üç respublika üçün sərhədlər məsələsi bir maddədə yerləşdirildi. RSFSR nümayəndəsinin iştirakı ilə vahid qarışıq sərhəd komissiyasının yaradılması məsələsinə türklərdən çətinliklə razılıq almaq mümkün oldu. Sonra biz müqaviləyə yanaşmada öz formulumuzu təklif etdik, onlar bunun qəbul edilən olduğunu etiraf etdilər, lakin bildirdilər ki, hər respublika ilə ayrı-ayrılıqda müqavilə bağlamaq haqqında öz hökumətlərindən təlimat almışlar. Biz uzun-uzadı əsaslandırdıq və sübut etdik ki, ayrı-ayrılıqda müqavilə imzalamaq mümkün deyildir. Türklər dedilər ki, bir daha Ankaradan soruşacaqlar, lakin görünür ki, razılaşacaqlar, belə ki, bizim dəlilləri dəf etmək imkanına malik deyillər".[130] Bu məsələ ətrafında müzakirələr getdikcə kəskin xarakter aldı və mübahisələr sentyabr ayının 30-na qədər davam etdi. Sentyabr ayının 30-da keçirilən konfransın dördüncü iclasında Kazım paşa müqavilənin iki hissədən ibarət olmasını təklif etdi. Onun fikrincə, müqavilənin birinci hissəsində hər üç Cənubi Qafqaz respublikası ilə bağlı ümumi məsələlər, ikinci hissəsində isə, hər bir respublika ilə ayrı-ayrılıqda ticarət və sərhəd məsələləri əks olunmalı idi. Lakin Türkiyə tərəfinin bu təklifi də müqavimətlə qarşılandı.[131]

Sentyabr ayının 30-da Qanetski müzakirələrin gedişi haqqında Çiçerinə yeni teleqram göndərdi. O, Qars konfransında yaranmış vəziyyəti belə təsvir edirdi: "Dünən iclas olmadı, biz bu gün türklərə təqdim etmək üçün maddələri və onların tərcümələrini hazırlayırıq. Bizim ümumi müqavilənin layihəsi respublikalar üzrə deyil, məsələlər üzrə qruplaşdırılmışdır. Türklər bizim Cənubi Qafqaz respublikaları arasında siyasi və iqtsadi ittifaqın mövcudluğu haqqında əsas izahatımızı nəzərə alaraq, müqavilənin ayrı-ayrı imzalanması ilə bağlı ilkin qərarlarından geri çəkilmələri haqqında Ankaraya sorğu göndərmişlər. Maddələrin məsələlər üzrə deyil, respublikalar üzərə redaktə edilməsi şərtilə bir ümumi müqavilənin bağlanmasına razıdırlar. Türklərin sərhəd və iqtisadi komissiyalarda özlərini təkəbbürlü aparmasını nəzərə alaraq, bununla razılaşmaq olmaz, onların təklif etdiyi redaksiya bizim üçün ümumiyyətlə qəbul edilən deyil... Ona görə də biz yenidən yuxarı-

[130] Y.Qanetskinin G.Çiçerinə teleqramı. 28.09.1921.// RDSSTA, f.298, s.1, i.108, v.4
[131] Qars konfransının 4-cü iclasının protokolları. 30.09.1921.// ARPİİ SSA, f.609, s.1, i.81, v.21; Nurcan Toksoy. Revan'da son günler. Türk yönetiminden ermeni yönetimine. Orion Yayınevi, Ankara, 2007, s.322

da göstərilən ittifaqa əsaslanaraq, bir respublikaya aid olan bütün məsələlərin digər respublikalarla birgə həll olunması fikrinə söykənərək, onların təklifindən imtina etdik. Türklər uzun-uzadı məsləhətləşdilər və nəhayət, cavab verdilər ki, onlar bu ittifaq haqqında heç nə bilmirlər və gərək ikinci dəfə Ankaradan soruşsunlar. Bununla bağlı bizim bəyanatımızı onlar Ankaraya göndərməkdən imtina etdilər, belə ki, onların anlamında bu diplomatik kanallarla getməli idi. Əvvəlcə onlar tələb etdilər ki, bu bəyanat hər paytaxtdan ayrıca olaraq, Ankaraya göndərilməlidir. Eyni zamanda, tələb edirdilər ki, Rusiya da belə bir bəyanatla çıxış etməlidir. Biz belə bir formalizmin yolverilməz olduğunu onlara bildirib, dedik ki, həmin bəyanatın burada olan Gürcüstan və Ermənistan xarici işlər komissarları, habelə, Azərbaycan Xalq Komissarları Soveti sədrinin müavini tərəfindən ayrı-ayrılıqda imzalanmış mətnələrini Ankaraya göndərmək üçün Qarabəkirə verə bilərik. Bəyanatın layihəsini göndərirəm. Əgər sabaha qədər sizdən cavab gəlməsə, bu bəyanat göndəriləcək. Ola bilər ki, siz bu bəyanatı öz imzanızla teleqraf vasitəsi ilə Yusuf Kamalın adına göndərəsiniz. Türklər komissiyalarda çox tələbkardırlar, Cənubi Qafqaz respublikalarına inamsızlıq hiss edilir və hər şeyi strateji nöqteyi-nəzərdən həll etməyə cəhd göstərirlər. Beş gündür iclas keçiririk, demək olar ki, yerimizdə sayırıq və irəliyə getməmişik. Türklərin özlərini belə aparmaları qafqazlı yoldaşlarda ağır təəssürat yaradır".[132]

Kazım paşanın bu müzakirələrdə Azərbaycanı Türkiyə tərəfinə çəkə biləcəyi ehtimalı özünü doğrultmadı. Sentyabr ayının 30-da çıxış edən Azərbaycan nümayəndə heyətinin başçısı B.Şahtaxtinski Y.Qanetskinin mövqeyini dəstəkləmədi. O dedi: "İnqilabi zərurət bizi vahid müqavilə bağlamağa məcbur edir. Məhz, vahid müqavilənin bağlanması Cənubi Qafqaz respublikaları üçün məqsədəuyğundur. Cənubi Qafqaz respublikaları artıq iqtisadi, siyasi və hərbi cəhətdən birləşmişlər". Şahtaxtinski əsaslandırmağa çalışdı ki, birgə müqavilə Qafqaz və türk xalqlarının ümumi düşmənlərinə qarşı mübarizəsində Türkiyə üçün daha faydalıdır. O, sözünü belə yekunlaşdırdı: "Mən Azərbaycan Respublikası adından müqavilənin vahid olmasını və bu müqavilədə hər bir respublikaya aid xüsusi fəsillərin olmamasını təklif edirəm".[133] Oktyabr ayının 3-də Cənubi Qafqaz respublikalarının

[132] Y.Qanetskinin G.Çiçerinə teleqramı. 30.09.1921.// RDSSTA, f.298, s.1, i.108, v.6-7

[133] Kars konfransının 4-cü iclasının protokolları. 30.09.1921.// ARPİİ SSA, f.609, s.1, i.81, v.21; AR DA, f.28, s.1, i.81, v.30; Əlavə məlumat üçün bax: Karabekir. İstiklalHarbimiz. İstanbul, 1988, s.963; M.Qasımov. Azərbaycan-Türkiyə diplomatik -siyasi münasibətləri (aprel 1920-ci il – dekabr 1922-ci il). Bakı, 1998, s.106; Betül Aslan. Türkiye – Azerbaycan

nümayəndələri Türkiyə Böyük Millət Məclisi hökumətinə rəsmi şəkildə bildirdilər ki, Azərbaycan, Gürcüstan və Ermənistan arasında sıx siyasi və iqtisadi ittifaq vardır, bu respublikalar onlara aid olan siyasi və iqtisadi məsələri birlikdə həll edirlər.[134] Bu diplomatik gedişdən sonra Kazım paşa geri çəkilmək məcburiyyətində qalıb, birgə müqavilənin imzalanmasına razılıq verdi. Bununla da Qars konfransının gərgin məqamları arxada qaldı. Oktyabr ayının əvvəllərində Azərbaycanın Qarsdakı konsulu İ.Hacıbəyli xarici işlər komissarı M.D.Hüseynova yazırdı ki, "konfransın işi uğurla davam edir, fransız dilində yaxşı makinaçı tapmaqdan başqa konfransda elə bir çətin iş qalmamışdır". Eyni zamanda, Hacıbəyli konfransla bağlı Qarsda olan canlanmadan, bolşevik təbliğatı ehtimalından Türkiyə hakimiyyət orqanlarının ehtiyatlandığını bildirirdi. O yazırdı: "Mən türkləri əmin etdim ki, ümumiyyətlə, bolşeviklər, xüsusilə də, Azərbaycan bolşevikləri onların səmimi dostlarıdır və imperialistlərin caynağından qurtarmaq uğrundakı mübarizələrində türklərə hər cür yardım göstərməyə hazırdırlar. Türklər mənə, Azərbaycan konsuluna tam etimad göstərirlər".[135] Oktyabrın ilk günlərində B.Şahtaxtinskinin konfransın normal gedişi haqqında M.D.Hüseynova ünvanladığı teleqram Bakı mətbuatında dərc edildi.[136]

Sovet Rusiyası konfransın pozulacağından ehtiyat edərək, Y.Qanetskini Qarsa yola salanda Moskvada türklərə vəd edilmiş maliyyə vəsaitindən daha bir milyon yüz min qızıl manatı onunla Türkiyəyə göndərmişdi. Lakin Xarici işlər komissarlığında ona tapşırılmışdı ki, bu vəsait Çorox mədənləri haqqında müqavilə bağlandıqdan sonra Kazım paşaya verilsin. Qars konfransının gedişi zamanı Çiçerin RKP MK Siyasi Bürosuna təklif edirdi ki, heç bir şərt qoymadan bu vəsaiti təcili olaraq, türklərə çatdırmaq lazımdır. Onun fikrincə, əks təqdirdə onlar hər yanda təbliğat aparacaqlar ki, Sovet hökuməti öz vəd və öhdəliklərini yerinə yetirmir. Çiçerin yazırdı: "Əlbəttə, bu fikir türklərə təsir edəcək və onları qərb orientasiyasının cazibəsinə salacaqdır. Parisdən qayıdan Bəkir Sami fransızlarla birlikdə bundan istifadə edəcəkdir. Ona görə, mənə belə gəlir ki, təcili olaraq, nəzərdə tutulan məbləği vermək və eyni zamanda, Çorox haqqında məsələ ilə bağlı ekspertləri təyin

ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.144; V.Qafarov. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, 2011, s.411

[134] M.Sofiyev. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936). Bakı, 2000, s.45

[135] Hacıbəylinin M.D.Hüseynova məktubu. Oktyabr 1921.// ARPİİ SSA, f.609, s.1, i.81, v.23

[136] Bax: Kommunist, 1921, 4 oktyabr

etmək lazımdır".[137] Yusuf Kamal bəy martın 16-da vəd edilən yardımın Çorox mədənləri ilə əlaqələndirilməsinə etiraz etdi. O, xatırlatdı ki, "rusların 16 martda verdikləri təminat məktubunda heç bir şərt qoyulmamışdır və Çiçerin Ali Fuad paşaya göndərdiyi 13 sentyabr tarixli məktubda bildirmişdi ki, vəd edilən məbləğin bir hissəsi Moskva müqaviləsinin ratfikasiya edilmiş mətnlərinin mübadiləsi zamanı türklərə veriləcəkdir".[138] Yusuf Kamal bəyin bu notasından sonra Çiçerin Siyasi Büroya yeni müraciətində Türkiyəyə münasibətdə Sovet hökumətinin öz vədlərini yerinə yetirməyi zəruru hesab edir,[139] eyni zamanda, Stalinə məktubunda iqtisadi münasibətlərin genişləndirilməsini vacibliyini vurğulayırdı.[140] İ.Stalin bu məsələdə pessimist olsa da, Çiçerin onu inandırmağa çalışırdı ki, Şərqdə milli azadlıq hərakatının, Türkiyədə burjua demokratik inqilabın sosial bazasını genişləndirmək və bütövlükdə, Şərqə nüfuz etmək üçün bu ölkələrlə iqtisadi əlaqələrə başlamaq lazımdır.[141]

Konfransda baş verən mübahisəli məqamlarla bağlı Y.Qanetski oktyabr ayının 3-də G.Çiçerinə geniş teleqram göndərdi. O, müxtəlif komissiyalarda müzakirə edilən müqavilə layihəsinin razılaşdırılan və mübahisə doğuran maddələri haqqında Rusiya xarici işlər komissarını məlumatlandırırdı. Qanetski yazırdı: "Naxçıvan və Batumla bağlı qızğın mübahisələr getdi, türklər təkid edirdilər ki, bu maddələrin hər biri ilə bağlı, konfransda müvafiq respublikaların Türkiyə ilə birlikdə işləyib hazırladığı sənədlər, həmin vilayətlərin muxtariyyətinin ümumi əsaslarını özündə əks etdirən əlavələr kimi müqavilədə yer alsın". Azərbaycanla bağlı türk nümayəndə heyətinin irəli sürdüyü digər mühüm məsələ Bakı nefti ilə bağlı idi. Bu məsələ haqqında türk heyəti təklif edirdi ki, Azərbaycan hər il Türkiyənin ehtiyaclarını nəzərə alaraq, türk hökumətinə neft və neft məhsulları göndərmək öhdəliyini öz üzərinə almalıdır. Türkiyə tərəfinin neft istəklərinin müqavilədə əks olunması ilə bağlı Behbud Şahtaxtinski bildirdi ki, bu məsələdə Türkiyə tərəfinə xüsusi formada yardım göstəriləcəkdir, lakin bununla bağlı Azərbaycan rəsmi bir öhdəliyin altına girməyəcəkdir.[142] Qanetski yazırdı ki, bir sıra

[137] G.Çiçerinin RKP MK Siyasi Bürosuna məktubu. 07.10.1921.// RDSSTA, f.2, s.2, i.991, v.1
[138] Yusuf Kamal bəyin G.Çiçerinə notası. 21.10.1921.// RDSSTA, f.5, s.1, i.2203, v.190
[139] XXİK-nın RKP MK Siyasi Bürosuna məktubi. 06.11.1921.// RDSSTA, f.159, s.2, i.57, v.85
[140] G.Çiçerinin V.Stalinə məktubu. 19.11.1921.// RDSSTA, f.159, s.2, i.57, v.86
[141] G.Çiçerinin V.Stalinə məktubu. 22.11.1921.// RDSSTA, f.159, s.2, i.57, v.89-92
[142] Ю. Багиров. Из истории ысоветско-турецкий отношений (1920-1922). Баку, 1965, с.73-74

maddələrdə cüzi dəyişikliklər etdikdən sonra türklər neft məsələsi ilə bağlı təklif edirdi lər ki, "Azərbaycan il ərzində Türkiyənin ehtiyaclarını qarşılayacaq həcmdə neft və neft məhsullarının Türkiyə hökumətinə verilməsi haqqında öhdəlik qəbul etməlidir. Türkiyənin arzusuna uyğun olaraq, bu neft məhsulları Qarsda və ya Batumda türklərə verilməlidir. Biz bu maddə ilə razılaşmırıq, neftin həcmi və çatdırılmasına münasibətdə bizim üzərimizə elə bir öhdəlik qoymayan söz gəlişi bir vəd veririk. Bu maddədən sizə aydın ola bilər ki, türklər özlərini necə aparırlar".[143]

Qars konfransında türklərin tələbləri Moskvada ciddi narahatlıq yaratdı. Bu məlumatlar alınan zaman Rusiyadakı türk səfiri Ali Fuad paşa Stalinlə görüşüb, ona təklif etdi ki, Türkiyə Sovetlərin xeyrinə Fransa ilə Sovet Rusiyası arasında vasitəçilik missiyasını yerinə yetirə bilər. Eyni zamanda, Ali Fuad paşa təklif etmişdi ki, Rusiya və Türkiyə Asiya və Afrikanın bütün müstəmləkə ölkələrində inqilabi təbliğat aparmaq üçün birgə qeyri-leqal komissiya yarada bilərlər. Bu məlumatları ümumiləşdirərək Stalin Leninə yazırdı ki, "bizə bütün hallarda özümüzün köhnə mövqeyimizi saxlamaq və bununla yanaşı, Cənubi Qafqazda sərhədlərimizi möhkəmləndirmək istiqamətində tədbirlər görmək lazımdır... Bütün bunlardan aydın olur ki, türklər artıq öz məsələlərini həll ediblər (uzun müddətəmi?) və bizimlə yeni əməkdaşlıq forması axtarırlar".[144]

Oktyabr ayının 4-də G.Çiçerin Nasarenusa göndərdiyi teleqramda Qars konfransının yubanmasından çox narahat olduğunu bildirdi. O, qeyd edurdi ki, "türklər görünməmiş müqavimət göstərir və qəbuledilməz iddialar irəli sürürlər. Konfrans fəlakətli dərəcədə yubanır və hər bir addım fövqəladə dərəcədə uzun və kəskin mübahisə hesabına başa gəlir".[145] Konfransın işini sürətləndirmək üçün Çiçerin Sovet səlahiyyətli nümayəndəsini Ankaraya təsir göstərməyə təlimatlandırırdı.

Oktyabr ayının 5-də Qarsda aparılan müzakirələrin novbəti gedişində tərəflər siyasi, iqtisadi və mədəni xarakterli bir sıra təkliflərlə çıxış etdilər. Gürcüstan nümayəndələri və Ermənistan adından Y.Qanetski Şərqi Anadoluda, xüsusilə, Ani xarabalığında arxeoloji tədqiqatların aparılması, Gümrüdən aparılmış dəmiryol avadanlığının Ermənistana qaytarılması, İrəvanda aclıq çəkən əhaliyə yardım göstərilməsi, Kulp duz mədənlərindən və Iqdır otlaqlarından birgə istifadə edilməsi və sair təklifləri, dəmir yol

[143] Y.Qanetskinin G.Çiçerinə teleqramı. 03.10.1921.// RDSSTA, f.298, s.1, i.108, v.8-9
[144] İ.Stalinin V.Leninə xidməti məlumatı. 03.10.1921.// RDSSTA, f.558, s.11, i.388, v.1
[145] G.Çiçerinin S.Nasarenusa teleqramı. 04.10.1921.// RFXSA, f.04, s.39, i.232, i.52994, v.37-38

avadanlığının qaytarılması və aclıq çəkən əhaliyə yardım göstərilməsi istisna olmaqla, türklər tərəfindən daxili işlərə müdaxilə kimi, qiymətləndirilib, rədd edildi.[146] Türkiyənin təkliflərində Cənubi Qafqaz respublikalarında türk vətəndaşlarının müsadirə edilmiş əmlakının geri qaytarılması, bu şəxslərə məxsus daşınmaz əmlakın milliləşdirilməməsi, Türkiyənin Batum limanından sərbəst istifadə edilməsinin təmin edilməsi və digər məsələlər öz əksini tapmışdı. Kazım paşa bildirmişdi ki, Batum Qafqaz respublikaları üçün həyati əhəmiyyətli bir liman olduğu üçün türklər tərəfindən güzəştə gedilmişdir və bu limandan Türkiyənin yararlanmasının zəruri olduğu nəzərə alınmalıdır. Gürcüstan nümayəndələri Moskva müqaviləsində əks olunmuş bu təkliflə razılaşmalı oldular. Oktyabrın 5-də gündüz saat 2-dən axşam saat 8-ə qədər davam edən fasiləsiz iclasda da elə bir əhəmiyyətli irəliləyiş olmadı. Sovet nümayəndələri elmi tədqiqat adı ilə Türkiyənin bir sıra sərhəd ərazilərinə, xüsusilə Ani şəhərinə çıxış əldə etmək istəsələrdə Kazım paşa buna razılıq vermədi və bildirdi ki, Türkiyədə "elmi axtarışlar" ifadəsi çox geniş anlamda şərh edilir. Oktyabr ayının 5-də iclasdan sonra Qnetski Çiçerinə göndərdiyi telqramda yazırdı ki, "biz tısbağa sürətilə irəliyə doğru addımlayırıq".[147]

Konfransda müzakirə edilən Azərbaycanla bağlı məsələlərə gəldikdə, Kazım paşa təklif edirdi ki, Anadoluda olan Azərbaycan mühacirlərinin öz istəklərinə uyğun olaraq, türk təbəəliyinə qəbul edilməsində Türkiyə hökumətinə sərbəstlik verilməlidir. Türkiyə qanunlarına görə, üç ay ölkə ərazisində yaşayıb, hansı dövlətin təbəəsi olduğu haqqında sənəd təqdim etməyən şəxslər Türkiyə təbəələri hesab edilirdilər. Həmin vaxt 20-45 yaş arası olan əhalinin səfərbərliyi elan olunduğundan, Şərqi Anadoludakı Azərbaycan mühacirləri üçün seçim anı yetişmişdi. Onlar ya Azərbaycana qayıtmalı, halbuki, bu mühacirlərin xeyli hissəsi siyasi mülahizələrə görə, öz vətənlərini tərk etmişdilər, ya da türk təbəəliyini qəbul edib Türkiyə qanunlarına tabe olmalı idilər. Bu addımın müharibə ilə bağlı olduğunu yazan Qarsdakı Azərbaycan konsulu Türkiyədə böyük dəyişikliklərin baş verdiyini bildirirdi. O yazırdı: "Cəbhədə işlər əladır, ən başlıcası, türk xalqı ya qələbə, ya ölüm seçiminə qərar vermişdir, əlbəttə, belə xalq qələbə çalacaqdır".[148]

[146] Bax: Karabekir. İstiklal Harbimiz. İstanbul, 1988, s.119-1122; V.Qafarov. Türkiyə - Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, 2011, s.411-412

[147] Y.Qanetskinin G.Çiçerinə teleqramı. 05.10.1921.// RDSSTA, f.298, s.1, i.108, v.17

[148] Bax: Hacıbəylinin M.D.Hüseynova məktubu. Oktyabr 1921.// ARPİİ SSA, f.609, s.1, i.81, v.22(arxası)-23

Qars danışıqlarında türklər Azərbaycanla bağlı müzakirə edilən məsələlərdən ən mühümü Naxçıvanla bağlı məsələyə yenidən qayıtdılar. Bu məsələni xüsusi olaraq, diqqət mərkəzində saxlayan türk diplomatiyası Naxçıvan məsələsi ilə bağlı Moskva müqaviləsinə uyğun bir layihəni müzakirəyə təqdim etdi. Kazım paşa, ilk növbədə, Acariya və Naxçıvan muxtariyyəti ilə bağlı Gürcüstan və Azərbaycan nümayəndələrinin məlumat vermələrini istədi. Gürcüstan nümayəndələri adından Ş.Eliava, Azərbaycan nümayəndə heyəti adından isə B.Şahtaxtinski qısa məlumat verdi. O dedi: "Azərbaycan şura hökumətidir. Naxçıvana veriləcək muxtariyyat Rusiyadakı sistemə görə olacaqdır. Naxçıvan uzaqda *(Azərbaycandan – C.H.)* yerləşdiyi üçün ona verilən idarə üsulu muxtariyatdan da artıqdır. Xalq komissarlarından təşkil olunmuş bir məclis vardır. Elm və ürfan sahibləri az olduğu üçün rəsmi dairələrdə dil ruscadır. Müəssisələrin milliləşdirməsi ilə bağlı bir qanun verilmiş və addımlar atılmışdır. Naxçıvanın maliyyəsini Azərbaycan idarə edir. Ordusu hələ qərarlaşdırılmamışdır. Üçillik ibtidai məktəblər türkcədir. Nigah, boşanma və digər dini məsələlər əvvəllərdə olduğu kimi sərbəstdir".[149]

Qars konfransı ərəfəsində Tiflisdə bütün məsələlər müzakirə edildiyi kimi, Azərbaycan və Ermənistan nümayəndələri arasında Naxçıvan məsələsi də müzakirə edilmişdi. Bu müzakrələrin yekunu kimi, onların Naxçıvan məsələsi ilə bağlı türk nümayəndələrinin qarşısına vahid mövqeyi özündə əks etdirən xüsusi bir Memorandumla çıxmışdılar. Həmin memorandumda bir sıra digər məsələlərlə yanaşı, Ermənistanın xeyrinə olan bəzi sərhəd düzəlişləri daxilində "Azərbaycan SSR-in nəzdində muxtar Naxçıvan Sovet respublikasının yaradılması" nəzərdə tutulurdu. İstər konfrans ərəfəsindəki diplomatik gedişlərdə, istərsə də, Rusiyanın "himayəsi" ilə Azərbaycanla Ermənistan arasında bu diplomatik müzakirələrin yekunu kimi, hazırlanmış memorandumdan əsas məqsəd Naxçıvan məsələsini Türkiyənin nəzarətindən çıxarmağa yönəlmişdi. Konfransdakı müzakirələrdən aydın olurdu ki, Azərbaycan da daxil olmaqla, sovet nümayəndələri Moskva müqaviləsinin əksinə olaraq, "Türkiyə nümayəndələrinin də daxil ediləcəyi qarışıq komissiyanın bölgəyə göndərilməsi imkanını aradan qaldırmaq, ümumiyyətlə isə, Naxçıvan məsələsini rəsmi Ankaranın iştirakı olmadan yoluna qoyula biləcək daxili işə çevirmək istəmişdilər".[150] Lakin Naxçıvan məsələsinə çox həssaslıqla yanaşan türk diplomatiyası buna yol vermədi.

[149] Karabekir. İstiklal Harbimiz. İstanbul, 1988, s.963-964

[150] İsmayıl Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1998, s.350

Kazım paşa Moskva müqaviləsinə uyğun olaraq, Naxçıvan məsələsinin Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında imzalanacaq müqaviləyə daxil edilməsində təkid etdi. Uzun mübahisələrdən sonra razılığa gəlindi ki, müqaviləyə əlavədə sərhədləri əks olunan Naxçıvan məsələsi hüquqi cəhətdən Qars müqaviləsində bu redaktədə verilsin: "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet Respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər".[151] Türk diplomatiyası tərəfindən məsələnin belə qoyuluşunun üstün cəhəti ondan ibarət idi ki, Ermənistan Naxçıvan vilayətinin Azərbaycan ərazisi olduğunu tanıyır və müqaviləni imzalamaqla öz üzərinə siyasi – hüquqi öhdəlik qəbul etmiş olurdu. Lakin göründüyü kimi, bu halda 16 mart 1921-ci il müqaviləsindən fərqli olaraq, Azərbaycanın Naxçıvanı "heç bir üçüncü dövlətə güzəştə getməməsi" sənəddə yer almırdı. Moskvanın "tövsiyəsinə" uyğun olaraq, Sovet Azərbaycanının rəhbərliyi bütün vasitələrlə türklərin qarşısında belə bir öhdəlik qəbul etməkdən yayınmağa çalışırdılar. Bu isə ilk növbədə, konfransın gedişində sovet həmrəyliyinə aludə olub, Ermənistanla bir mövqedən çıxış edən Azərbaycan diplomatiyasının türklərin mövqeyini zəiflətməsi ilə bağlı idi.

Oktyabr ayının 6-da da müzakirələr gərgin şəraitdə keçdi. Türklər qaçqınlarla bağlı məsələni növbəti iclasa keçirməyi təklif etdilər. Sovet nümayəndələrində belə bir təəssürat yaranmışdı ki, türklər qəsdən danışıqları yubadırlar. Qanetski Çiçerinə yazırdı: "Şəhərdə şayiələr gəzir ki, bu-gün-sabah Polşa ilə müharibə yenidən başlayacaq və bizə tamamilə aydındır ki, türk nümayəndələri bundan ehtikarlıq məqsədilə istifadə edirlər.[152] Oktyabr ayının 7-də müzakirələr əsasən tərəflərə dəymiş ziyanın ödənilməsi və hərbi əməliyyatlar zamanı müsadirə edilmiş əmlakın qaytarılması məsələləri ətrafında aparıldı. Sovet nümayəndələri Gümrüdə Ermənistana vurulmuş ziyanın ödənilməsini tələb etdikdə, türklər də Ərzurum, Qars və Sarıqamışda daşnakların türk əhalisinə vurduğu ziyanın ödənilməsi məsələsini müzakirəyə təqdim etdilər. Türkiyə tərəfi bütün vasitələrlə danışıqları Moskva müqaviləsinin hüdudları çərçivəsində aparmağa yönəldir və qarşı tərəfi də buna riayət etməyə çağırırdı.[153] Oktyabr ayının 8-dəki

[151] Betül Aslan. Türkiye-Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.145

[152] Y.Qanetskinin G.Çiçerinə teleqramı. 06.10.1921.// RDSSTA, f.298, s.1, i.108, v.16

[153] Y.Qanetskinin G.Çiçerinə teleqramı. 07.10.1921.// RDSSTA, f.298, s.1, i.108, v.20-21

iclasda tərəflər təxirə salınmış məsələrin müzakirəsinə başladılar. Sərhəd dəqiqləşdirilmələri ilə bağlı müvafiq komissiyada razılaşdırılmış maddələr plenar iclasın müzakirəsində təsdiq edildi və Batum limanından istifadə ilə bağlı bəzi dəqiqləşdirmələr aparıldı. Həmin gün Qanetski müqavilənin bazar ertəsi və ya çərşənbə axşamı imzalanacağını Çiçerinə yazırdı.[154] Lakin bazar ertəsi də müzakirələri davam etdirmək lazım gəldi. Batum haqqında yeni qızğın mübahisələr olsa da, tərəflərin mövqelərini yaxınlaşdırmaq mümkün oldu. Türklər Batum haqqında əlavə protokol tələblərindən, Sovet nümayəndələri isə Gümrü deposu ilə bağlı iddialarından imtina etdilər. Qars müqaviləsinin çərşənbə günü imzalanması nəzərdə tutuldu.[155]

Nəhayət, bir sıra məsələlərdə fikir ayrılıqları və mübhisələrə baxmayaraq, Türkiyə ilə Cənubi Qafqaz respublikalarının qarşılıqlı münasibətlərinin əsaslarını özündə əks etdirən Qars müqaviləsi 1921-ci il oktyabr ayının 13-də günorta saat 14:00-də Rusiyanın iştirakı ilə imzalandı. 20 maddədən və 3 əlavədən ibarət olan Qars müqaviləsi Türkiyə ilə Cənubi Qafqaz Sovet respublikaları olan Azərbaycan, Gürcüstan və Ermənistan arasında bağlanmışdı.[156] Müqavilənin preambulasında göstərilirdi: "Millətlərin qardaşlıq prinsiplərini bölüşərək, bütün xalqların öz müqəddəratını təyin etmə hüququnu tanıyaraq, onlar arasındakı qarşılıqlı maraqlara əsaslanan daimi və qırılmaz səmimi dostluq münasibətlərini yaratmaq niyyəti ilə saziş bağlamaq üçün Rusiya Sovet Federativ Sosialist Respublikasının iştirakı ilə bir tərəfdən Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist Respublikalarının hökumətləri, digər tərəfdən isə, Türkiyə Böyük Millət Məclisinin hökuməti danışıqlara başlamağı qərara aldılar".[157] Bu müqavilənin birinci maddəsinə görə, tərəflər 16 mart 1921-ci il Moskva müqaviləsi istisna olmaqla, "müqavilə bağlayan tərəflərin ərazisi üzərində əvvəllər suverenlyi

[154] Y.Qanetskinin G.Çiçerinə teleqramı. 08.10.1921.// RDSSTA, f.298, s.1, i.108, v.28

[155] Y.Qanetskinin G.Çiçerinə teleqramı. 10.10.1921.// RDSSTA, f.298, s.1, i.108, v.35

[156] Bax: The Boundary Between Turkey and the USSR. CIA/RR M-17. Secret. January 1952. // National Archives and Records Administration USA, CIA-RDP 79, p.9

[157] Cənubi Qafqaz-Türkiyə müqaviləsi. 13.10.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v.111 Kars müqaviləsinin nəşr olunmuş mətni üçün bax: Документы внешней политики СССР. T. IV, M.: Госполитиздат, 1960, c.420-426; İsmail Soysal. Türkiy'enin Siyasal Antlaşmaları. I Cilt (1920-1945). Ankara, 1989, s.41-47; Treaty of Frienship between Turkey and Soviet Republics of the Caucasus, 13 October 1921.// Soviet Treaty Series, vol.1, 1917-1928, Washington, DC., 1950, pp. 135-139; Kars müqaviləsi, Карсский договор, Kars muahedenamesi, Traite de Kars.Bakı, 2004; Betül Aslan. Türkiye-Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.146-153

həyata keçirmiş hökumətlərin arasında bu ərazilər ilə bağlı bağlanan bütün müqavilələrin, həmçinin, Cənubi Qafqaz respublikaları ilə əlaqədər üçüncü dövlətlə bağlanan müqavilələrin də, ləğv edildiyini və qüvvədən düşdüyünü bildirirlər". Qars müqaviləsinin ikinci maddəsində "Türkiyə" adı altında, türk Milli Paktına (Misak-i Milli) görə, müəyyən olunmuş ərazilərin nəzərdə tutulduğu qeyd edilirdi. Həmin maddəyə görə, tərəflər bu müqaviləyə qoşulan ölkələrdən hər hansı birinə zorla qəbul etdirilən heç bir sülh müqaviləsini və ya, heç bir beynəlxalq sənədi tanımamaq haqqında razılığa gəlirdilər. Bu maddə hər üç Qafqaz respublikasının 1920-ci ilin avqust ayının 10-da imzalanmış Sevr müqaviləsini rədd etməsi, ilk növbədə isə, Ermənistan Sovet Respublikasının türk "Milli Pakt"ı ilə müəyyənləşmiş Türkiyə sərhədlərini tanıması, Sevr müqaviləsinə əsaslanan "Böyük Ermənistan" iddialarından imtina etməsi demək idi.[158] Müqaviləni imzalayan üç Qafqaz respublikası üçüncü maddə ilə "işğal rejimini hər bir ölkənin milli tərəqqisi, həmçinin, suveren hüquqlarının tam həyata keçirilməsi ilə bir araya sığmadığını bildirərək, bu rejimə hər hansı şəkildə aidiyyəti olan hər növ fəaliyyəti və hüquqları qüvvədən düşmüş və ləğv olunmuş hesab edirdlər". Dördüncü maddədə Sarp məntəqəsindən başlayaraq, Aşağı Qarasu çayının mənsəbinə qədər uzanan xətt üzrə Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında sərhədlər müəyyənləşdirilirdi. Sərhədlərin dəqiq təsviri müqaviləyə edilən I və II əlavədə əks olunurdu. Beşinci maddəyə görə, "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet Respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirdilər".[159] Bu maddə ilə Ermənistan Naxçıvanın Azərbaycanın himayəsinə verildiyini, Azərbaycan isə, bu himayəni qəbul etdiyini təsdiq edirdi. Bununla yanaşı, Moskva müqaviləsinin üçüncü maddəsində göstərilən "həmin himayədarlığı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi" müddəası Qars müqaviləsinin beşinci maddəsində yer almamışdı. Müqavilənin "Naxçıvan ərazisi" adlı III əlavəsində onun sərhədləri belə müəyyən edilirdi: "Urmiyyə kəndi, oradan düz xətt ilə Arazdayan stansiyasına (onu Ermənistan SSR-ə daxil etdilməklə), sonra düz xətt ilə qərbi Daş-Burun (3142) dağı və daha

[158] Bax: Candan Azer. Babadan Oğula Güney Kafkasiya. Türkiye – Güney Kafkasiya ilişkileri. İstanbul, Truva yayınları, 2011, s.304-305

[159] Cənubi Qafqaz – Türkiyə müqaviləsi. 13.10.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v.112; Betül Aslan. Türkiye – Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.146-149

sonra suayrıcı xəttlə şərqi Daşburun dağı (4108) və Cəhənnəm dərəsi çayından keçməklə "Rod" (Bulaq) yazısının cənubundan Bağırsaq dağı (6607 və ya 6587) suayrıcı xəttlə və buradan keçmiş İrəvan və Şərur-Dərələyəz qəzalarının inzibati sərhədilə 6625 yüksəkliyindən keçərək, Kömürlü dağına (6839 və ya 6930) və daha sonra 3080 yüksəkliyi, Sayatdağ (7868), Qurdqulaq kəndi, Həmsur dağı (8160), 8022 yüksəkliyi, Küküdağ (10282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədləri".[160] Altıncı maddəyə görə, Türkiyə Batum limanının və Batum şəhərinin, həmçinin, bu müqavilənin dördüncü maddəsi ilə müəyyən edilmiş sərhədlərdən şimalda yerləşən və Batum vilayətinə daxil olan ərazilər üzərində suverenliyini Gürcüstana güzəştə gedirdi. Gürcüstan bu ərazilərin yerli əhalisinin mədəni və duni hüquqlarını təmin etməli, onlara geniş inzibati muxtariyyət verməli və bu əhalinin istəklərinə uyğun torpaq haqqında qanun qəbul etməli idi. Bundan əlavə, Batum limanı vasitəsi ilə Türkiyəyə idxal və Türkiyədən ixrac ediləcək bütün mallardan kömrük rüsumu alınmaması, maneələr törədilməməsi şərti ilə Türkiyəyə azad tranzit hüququ verilməli idi. Yeddinci maddədə Türkiyə ilə Gürcüstan sərhədd rayonunda yaşayan əhalinin sərhədi keçə bilməsini asanlaşdırmağı öz öhdələrinə alırdılar. Səkkizinci maddəyə görə, Türkiyə və Gürcüstan hökumətləri hər iki tərəfin sərhəd rayonunda yaşayan əhalinin sərhəddən digər tərəfdə yerləşən yay və qış otlaqlarından istifadə edilməsinin zəruriliyini qəbul edirdilər. Döqquzuncu maddə Qara dəniz və boğazların beynəlxalq statusunu özündə ehtiva edirdi. Tərəflər razılığa gəlirdilər ki, bu məsələlərin həlli Türkiyənin tam suverenliyinə və onun paytaxtı İstanbulun təhlükəsizliyinə xələl gətirməməli idi. Onuncu maddədə tərəflər, digər dövlətin və ya onun ərazisinin bir hissəsində hökumət roluna iddia edən təşkilatların və qrupların öz ərazisində yaradılmasına və fəaliyyət göstərməsinə imkan verməməli idilər. On birinci maddə müqavilə bağlayan ölkələrin qarşı tərəfin ərazisində yaşayan vətəndaşlarına azad olduqları milli müdafiə qanununu çıxmaq şərti ilə həmin ölkənin qanunlarından irəli gələn bütün hüquq və vəzifələrin aid olduğunu təsbit edirdi. Bu maddənin müddəaları müqavilə bağlayan ölkələrin vətəndaşlarının ailə, vərəsəlik və əhliyyət hüquqlarına aid deyildi. On ikinci maddə ilə tərəflər digər tərəfin ərazisində olan vətəndaşlara layiqli şərait yaradacaqlarını bildirirdilər. On üçüncü maddəyə görə, 1918-ci ilə qədər Rusiyanın bir hissəsi olan və hazırda üzərində Türkiyənin suverenliyi qəbul edilən ərazidə yaşayan hər bir

[160] Cənubi Qafqaz-Türkiyə müqaviləsi. 13.10.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 116(arxası)

sakin Türkiyə vətəndaşlığından çıxmaq istədikdə, öz əşyalarını, əmlakını və ya onların dəyərini özləri ilə aparmaq, Türkiyəni sərbəst şəkildə tərk etmək imkanına malik olacaqdı. Eyni hüquq Gürcüstanın süzerentliyinə verilən ərazidə yaşayan əhaliyə də tətbiq edilirdi.[161] Müqavilənin on dörd, on beş və on altıncı maddələri 1918-1920-ci illərin qaçqınları haqqında altı ay ərzində saziş bağlanması, Qafqaz cəbhəsindəki müharibə dövründə törədilmiş cinayət əməllərinə görə, digər tərəfin vətəndaşlarına əfv verilməsi, müqavilə bağlanan gündən iki ay ərzində keçmiş hərbi və mülki əsirlərin vətənlərinə qaytarılmasına şərait yaradılması və sair məsələləri əhatə edirdi. Sənədin on yeddi, on səkkiz və on doqquzuncu maddələri dəmiryolu, teleqraf və digər rabitə vasitələrinin, ticarət, iqtisadi və maliyyə məsələlərinin, üç ay ərzində konsulluq konvensiyalarının imzalanması və digər məsələlərin həllini nəzərdə tuturdu. İyirminci maddəyə görə, Türkiyə, Ermənistan, Azərbaycan və Gürcüstan hökumətləri arasında bağlanan Qars müqaviləsi ratifikasiya olunmalı və ratfikasiyaların mübadiləsi ən yaxın müddətdə İrəvanda həyata keçirilməli idi.[162] Müqaviləni Ermənistan hökuməti adından Askanaz Mravyan və Poqos Makinsyan, Azərbaycan hökuməti adından xalq fəhlə-kəndli müfəttişliyi komissarı Behbud Şahtaxtinski, Gürcüstan hökuməti adından Şalva Eliava və Aleksandr Svanidze, RSFSR hökuməti adından Yakov Qanetski, Türkiyə hökuməti adından Kazım Qarabəkir paşa, Vəli bəy, Memduh Şövket bəy və Muxtar bəy imzalamışdılar. Bir sıra məqamlarda Qars müqaviləsi Moskva müqaviləsinin maddələrinin təkrarından ibarət idi. Lakin buna baxmayaraq, Moskva və Qars müqavilələri ilə türk-rus münasibətlərində yeni bir dövr başladı.[163] Həmin dövr, kiçik istisnalarla II dünya müharibəsinin sonuna qədər davam etdi.

Bəzi məhdud tərəflərinə baxmayaraq, Qars müqaviləsi türk diplomatiyasının mühüm qələbəsi idi. Müharibədən sonrakı beynəlxalq münasibətlər və Sevr şərtlərinin inkarı baxımından bu müqavilə Versal sisteminin birinci böhranı idi. RSFSR-in iştirakı ilə Türkiyə Cənubi Qafqaz respublikaları ilə Qars müqaviləsini imzalamaqla özünün Şərq siyasətinin qələbəsini təsbit

[161] Cənubi Qafqaz-Türkiyə müqaviləsi. 13.10.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 112(arxası)-114; Betül Aslan. Türkiye-Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.149-151

[162] Cənubi Qafqaz-Türkiyə müqaviləsi. 13.10.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 114-114(arxası); Betül Aslan. Türkiye-Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.151-153

[163] Bax: Kamuran Gürün. Türk-Sovyet ilişkileri. (1920-1953). 2.Baskı, Ankara, 2010, s.71

etdi. Dörd qonşu dövlət tərəfindən "Milli Pakt" hüdudları çərçivəsində sərhədlərin tanınması Türkiyənin daxili və beynəlxalq vəziyyətini xeyli möhkəmləndirdi. 1922-ci ildə Böyük Millət Məclisinin üçüncü toplantısını açarkən, Mustafa Kamal paşa dedi: "Azərbaycan, Gürcüstan, Ermənistan Sovet Respublikaları ilə Moskva müqaviləsinin əsasları çərçivəsində Qarsda 13 oktyabr tarixli müqavilə imzaladıq. Bu müqavilə ilə Şərqdə hüquqi bir şəkil alan indiki vəziyyətimiz Sevr müqaviləsinin tətbiqinin qeyri-mümkün olduğunu göstərən reallıqlardan biridir". [164] Moskva müqaviləsi ilə birlikdə Qars müqaviləsi "Böyük Ermənistan" iddialarını beynəlxalq-hüquqi bazadan məhrum edib, əbədi olaraq, onu xəyali müstəviyə keçirdi. Mustafa Kamal paşa 1922-ci ilin mart ayının 1-də Böyük Millət Məclisindəki çıxışında deyirdi: "Erməni məsələsi deyilən və erməni millətinin həqiqi mənafeyindən ziyadə dünya kapitalistlərinin iqtisadi mənafelərinə görə, həll edilməsi istənilən məsələ Qars müqaviləsi ilə ən doğru həllini tapdı".[165] Bu müqavilə ilə daşnak və boşevik siyasətinin hədəfinə çevrilmiş Naxçıvan Azərbaycanın ərazisi olaraq, beynəlxalq status qazandı. Ermənistanın sovetləşməsindən sonra Naxçıvanla bağlı yaranmış siyasi böhran Qars müqaviləsi ilə birdəfəlik aradan qaldırıldı. Qars müqaviləsindən sonra, nəinki, Ermənistan, heç Sovet Azərbaycanı da bu statusu pozmaq imkanına malik deyildi. Milli maraqlardan daha çox, "beynəlmiləlçilik pafosu" üzərində qurulmuş sovet şərtləri daxilində Qars müqaviləsi Naxçıvanın taleyi üçün ən etibarlı beynəlxalq – hüquqi təminat idi. Türk mətbuatı müqavilənin Naxçıvanla bağlı maddəsinə böyük əhəmiyyət verirdi. "Tevhidi efkar" qəzetinin yazdığına görə, Qars müqaviləsinə görə, "Naxçıvan rayonun Azərbaycanın himayəsinə verilməsi Türkiyə ilə bu qardaş və dost respublikanın əlaqələrini təmin edəcəkdi".[166] Avropadakı erməni mətbuatı isə, Naxçıvanın Azərbaycana verilməsindən çox narahat idi. Onlar belə hesab edirdilər ki, bu müqavilə ilə Türkiyə Qars, Ordahan və Sürməlinin ələ keçirməklə Ermənistan və bütün Cənubi Qafqazın fəthinə nail oldu. Erməni qəzeti "Zoqovurtu tzain" Qars müqaviləsi ilə bağlı yazırdı: "Qars və Ərdahanı zəbt etmək, Naxçıvan muxtariyyətini yaratmaq, Qarabağ və Zəngəzur erməni vilayətlərini Ermənistandan ayırmaq yolu ilə Azərbaycanın Ermənistana yeni iddiaları baş qaldırdı. Ermənistan bütün iqtisadi vasitələrdən və siyasi inkişafdan məhrum edildi, Oltı kömü-

[164] Atatürk'ün Söylev ve Demeçleri. I-III, Ankara, 1989, s.247

[165] Yenə orada, s.248

[166] Mətbuat Kars konfransı haqqında.Noyabr 1921.// AR DA, f.6, s.1, i.134, v.196

rünü və Sarıqamış meşəsini onun əlindən aldılar".[167] İranda nəşr olunan "Hayk" erməni qəzeti Qars müqaviləsinin imzalanmasından bir ay sonra, noyabr ayının 13-də yazırdı ki, "şanlı Qızıl Ordunun komandanları Sovet federasiyasının tərkibinə daxil olan Ermənistanın mübahisəsiz hissəsini təşkil edən 1914-cü il sərhədlərində, belə, dayana, hətta, balaca Naxçıvanı kamalçıların caynaqlarından qopara bilmədilər".[168] Digər bir daşnak qəzeti "Çakatamart" isə belə hesab edirdi ki, Qars konfransının qərarlarından yalnız azərbaycanlılar razı qalmışdır.[169] Əlbəttə, xaricdəki erməni mətbuatı ilə yanaşı, Naxçıvanın Azərbaycanın himayəsində saxlanmasından narazı qalan bir sıra rəhbər bolşevik nümayəndələri də var idi. Bunlardan biri kimi, Moskvada Qdaliya Qelbars adlı partiya funksyoneri 1921-ci ilin noyabr ayının 12-də V.Leninə hazırladığı məruzədə yazırdı: "təcili olaraq Naxçıvan vilayət komitəsinin formalaşması məqsədiylə çağırılan vilayət konfransını təxirə salmaq lazımdır... Bizim hörmətli bakılılar yenidən təxribat işləri ilə məşğul olmağa başlayıblar. Mən dərindən əminəm ki, Bakının törətdiyi bütün bu biabırçılıqlar bizim düşmənlərimiz tərəfindən İrandakı nümayəndəmizə qarşı istifadə olunacaq. Bunun baş verməməsi üçün Naxçıvan diyarında bu konfransa icazə vermək olmaz... Mən sizə məlumat verirəm ki, Naxçıvan diyarı sovet anlaşılmazlığının bir nümunəsidir... Mən əminəm ki, Moskva bu respublikanı yaradıb və o Bakı ilə Ankara arasında körpü rolunu oynacaq".[170]

Qars müqaviləsindən sonra Naxçıvan diyarının inzibati idarəçilik sistemində bəzi dəyişikliklər edildi və bir sıra təşkilat tədbirləri həyata keçirildi. Hələ müqavilənin imzalanmasına iki gün qalmış, oktyabr ayının 11-də AKP Naxçıvan diyar komitəsinin Təşkilat və Siyasi Bürosunun iclasında təşkil olunan Xalq Komissarları Sovetinin tərkibində xarici işlər komissarı vəzifəsi nəzərdə tutulsa da və həmin vəzifəyə XKS-in sədrinin müavini Abbas Qədimov təyin edilsə də,[171] 1921-ci ilin dekbrında onun Tiflisə səfərindən sonra formalaşdırırlan Naxçıvan XKS-in tərkibində artıq xarici

[167] Yenə orada, v.197

[168] Pərdə qaldırılmışdır. "Hayk" qəzeti. 13.11.1921.// AR DA, f.28, s.1, i.234, v.124-125

[169] Bax: İsmayıl Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1998, s.352

[170] Q.Qelbarsın V.Leninə məruzəsi. 12.11.1921.// RDSSTA, f.5, s.1, i.2125, v.3-4

[171] AKP Naxçıvan Diyar Komitəsinin Təşkilat və Siyasi Bürosu iclasının 49 saylı protokolu. 11.10.1921.// RDSSTA, f.64, s.1, i.100, v.5(arxası)

işlər komissarı vəzifəsi nəzərdə tutulmamışdı. Dekabr ayının 18-də keçirilən Naxçıvan XKS-nin iclasında Xalq Komissarları Sovetinin tərkibi yenidən müəyyənləşdirildi və diyarın ərazisinin kiçik olmasını nəzərə alaraq bir sıra komissarlıqlar birləşdirildi. Qafqaz Bürosuna səfərdən sonra A.Qədimovun 1921-ci ilin dekabr ayının 21-də AKP Naxçıvan diyar komitəsi Rəyasət Heyətinin iclasında etdiyi məruzədən aydın olur ki, "Naxçıvanın faktiki olaraq, Mərkəzdən ayrı düşməsi" Qafqaz Bürosunun sədri Q.Orconikidze və katibi Y. Fiqatnerdə ciddi narahatlıq yaradır. Onlar tövsiyə etmişdilər ki, Naxçıvan mərkəzlə, yəni Qafqaz Bürosu ilə sıx əlaqə saxlamalıdır. Bu tövsiyələri nəzərə alaraq A.Qədimov təklif edirdi ki, məruzələr, hesabatlar göndərmək yolu ilə Qafqaz Bürosu ilə əlaqələri gücləndirmək və Naxçıvan respublikasının nüfuzunu qaldırmaq lazımdır. Cənubi Qafqaz respublikaları federasiyasının yaradılması məsələsinə gəldikdə isə, A.Qədimov məlumat verirdi ki, bu məsələ sovetlər qurultayı çağırılana qədər dayandırılıbdır.[172]

1922-ci ilin dekabrında keçirilən I Cənubi Qafqaz sovetlər qurultayı Azərbaycan SSR-in tərkibində Naxçıvanın muxtariyyət təşkil etməsinə dair qərar qəbul etdi. Bu qərara uyğun olaraq, RK(b)P Qfqaz komitəsi 1923-cü ilin yanvarında Naxçıvanla bağlı məsələni müzakirə edərək, belə bir qərar qəbul etdi: "Cənubi Qafqaz sovetlər qurultayının qərarları əsasında Naxçıvanı muxtar vilayətə çevirmək AK(b)P MK-ya təklif edilsin".[173] 1923-cü ilin fevral ayının 27-də keçirilən III Ümumnaxçıvan sovetlər qurultayı Naxçıvan SSR-in muxtariyyat hüququnda Azərbaycanın tərkibinə qatılması haqqında qərar qəbul etdi. Qərarda göstərilirdi ki, "bütün Naxçıvan ölkəsi özünün qurumları ilə muxtar ölkə hüququnda Azərbaycan SSR-in tərkibinə daxil edilsin". Bunu nəzərə alaraq, 1923-cü ilin mart ayında keçirilən Azərbaycan K(b)P-nin V qurultayı Naxçıvan məsələsini geniş müzakirə etdi. Orada qeyd edilirdi ki, Naxçıvan respublikası kimi, böyük mahalın son vaxtlarədək Azərbaycanın protektoratlığı altında qalması bir sıra tələblərə cavab vermədiyindən, bölgəni muxtar vahid hüququnda Azərbaycanın tərkib hissəsi kimi, tanınması daha düzgün olardı. Azərbaycan sovetlərinin 1923-cü ilin iyun ayında keçirilən II çağırış III sessiyası Naxçıvan sovetlər

[172] Bax: AKP Naxçıvan Diyar Komitəsinin Təşkilat və Siyasi Bürosu iclasının 61 saylı protokolu. 21.12.1921.// RDSSTA, f.64, s.1, i.100, v.21-22

[173] Bax: İsmayıl Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1998, s.357

qurultayının vəsadətini təmin etdi və iyun ayının 16-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvanın Azərbaycana birləşdirilməsi haqqında qərar qəbul etdi.[174]

Naxçıvanın statusunda belə dəyişikliklərin baş verməsi Türkiyəni ciddi şəkildə narahat edirdi. Moskva və Qars müqavilələrinə əsasən, Naxçıvanın Azərbaycanın himayədarlığına verilməsi böyük çətinlik hesabına başa gəldiyindən, Ankara ehtiyat edirdi ki, sovet siyasi şərtləri zəminində bu dəyişikliklər Azərbaycanın Naxçıvanı itirməsinə gətirib çıxara bilər. Ona görə də, Türkiyə hökuməti Naxçıvana aid maddənin Azərbaycan tərəfindən pozulmasına qarşı Sovet hökumətinə etiraz etdi. Türkiyə Xarici İşlər Nazirliyinin 1923-cü ilin iyun ayının 25-də SSRİ Xarici İşlər Komissarlığın göndərdiyi etiraz notasında deyilirdi: "Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi bu qərarı 1921-ci ilin mart ayının 16-da Moskvada imzalanmış dostluq haqqında Türkiyə-Rusiya müqaviləsinin 3-cü maddəsinin və eyni zamanda, 1921-ci ilin oktyabr ayının 13-də, Rusiya tərəfindən imzalanmış müqavilənin 5-ci maddəsinin birbaşa pozulmasıdır".[175]

1923-cü ilin avqust ayının 17-də SSRİ Xarici İşlər Komissarlığının kollegiyası yaranmış vəziyyəti müzakirə edib, SSRİ XXİK-ın Cənubi Qafqazda müvəkkili üçün təlimat hazırladı. Təlimata görə, Cənubi Qafqaz respublikaları beynəlxalq müqavilələr və ittifaq dövlətinin xarici siyasət maraqları məsələlərində SSRİ XXİK-ın direktivlərinə uyğun hərəkət etməli idilər.[176] Xarici İşlər Komissarlığının təlimatı kiçik dəyişikliklərlə avqust ayının 23-də Siyasi Büronun iclasında təsdiq edildi. Demək olar ki, təlimatın bütün bəndləri Cənubi Qafqaz respublikalarının Türkiyə ilə münasibətlərində meydana çıxan ziddiyyətli məqamlarla bağlı idi. Bu ziddiyyətli məqamlardan biri kimi, Naxçıvan məsələsi nəzərdə tutulurdu və Türkiyənin etirazlardan sonra, G.Çiçerin İ.Stalinə və digər Siyasi Büro üzvlərinə yazırdı: "Moskva və Qars müqavilələrinə görə, Naxçıvan Azərbaycanın himayədarlığında muxtar ərazidir. Türkiyə hökuməti öyrənib ki, Azərbaycan Respublikası Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvan Azərbaycanın ərazisinin

[174] "Naxçıvan MSSR Sovet-Türkiyə müqavilələrində". SSRİ Xarici İşlər Nazirliyinin Sov.İKP MK üçün hazırladığı arayış. 31.05.1966.// Rusiya Dövlət Ən Yeni Tarix Arxivi (RDƏYTA). f.5, s.58, i.3, v.8; İsmayıl Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1998, s.357

[175] "Naxçıvan MSSR Sovet-Türkiyə müqavilələrində". SSRİ Xarici İşlər Nazirliyinin Sov. İKP MK üçün hazırladığı arayış. 31.05.1966.// RDƏYTA, f.5, s.58, i.3, v.9

[176] XXİK-nın kollegiya iclasının protokolu. 17.08.1923.// RDSSTA, f.17, s.3, i.375, v.4

bir hissəsinə çevrilib və bu Türkiyə ilə imzalanmış müqavilələrlə ziddiyyət təşkil edir. Bununla bağlı bizim Tiflisə göndərdiyimiz bütün məktub və teleqramlar cavabsız qalıb. Yoldaş Orconikidze Moskvaya gələn zaman, bununla bağlı ona yazdım və indi Berlindən ondan cavab almışam ki, Naxçıvan diyarının qurultayı özünü Azərbaycanın ayrılmaz hissəsi elan edib və indi ora qəza hüququndadır. Yoldaş Orconikidze əlavə edir ki, Naxçıvanın buna hüququ olduğunu güman edərək, məsələnin əleyhinə etiraz etməyib. Təəssüf ki, bu doğru deyil. Əgər müqavilə üzrə hər hansı ərazi məlum status alırsa, onun statusu müqavilədə olan tərəflərin razılığı olmadan dəyişdirilə bilməz. Məsələn, Lüksemburq əhalisinin necə arzu etməsindən asılı olmayaraq, ora, nə Almaniya, nə Fransa, nə də Belçika tərəfindən ilhaq edilə bilməz. Deməli, indiki halda, bizim Türkiyə ilə müqaviləmizdə həqiqətən pozuntu baş verib. Mən başa düşmürüəm, niyə Naxçıvanı, faktiki olaraq, onun qəza kimi, vəziyyətindən mahiyyət etibarı ilə elə də güclü şəkildə fərqlənməyəcək, muxtar vilayət elan etmək olmaz". [177] Bu məktubdan sonra, Çiçerin və Nərimanovun təqdimatı üzrə "Naxçıvan haqqında" məsələ RK(b)P MK Siyasi Bürosunun 1923-cü il avqust ayının 23-də keçirilən iclasının müzakirəsinə çıxarıldı. Qərara görə, Çiçerinin yuxarıdakı məktubda qeyd edilən təklifləri nəzərə alındı və MK katibliyinə tapşırıldı ki, "Naxçıvan məsələsini Zaqafqaziya diyar komitəsi ilə tənzim etsin".[178] Bu qərardan sonra Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan məsələsinə yenidən qayıtdı və onu Azərbaycan SSR-in tərkibində Muxtar Sovet Sosialist Respublikasına çevirməyə qərar verdi. 1924-cü ilin yanvar ayının 8-də Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan MSSR-in yaradılması haqqında Azərbaycan MİK-in qərarını bəyəndi və həmin ilin fevral ayının 9-da Azərbaycan Mərkəzi İcraiyə Komitəsi Naxçıvan MSSR-in yaradılması haqqında dekret verdi. Bununla da, Naxçıvan məsələsi ətrafında yaranmış mübahisə aradan qalxdı.

Sovet İttifaqı rəhbərliyi bir də 1966-cı ildə Naxçıvanla bağlı məsələyə qayıtdı və həmin dövrdə Sov.İKP MK-nın Təşkilatı partiya işi Şöbəsinin bölmə müdiri Y.Starçenko tərəfindən SSRİ Xarici İşlər Nazirliyinə təlimat verildi ki, Naxçıvanın stausu ilə bağlı arayış hazırlasınlar. Verilən tapşırığa uyğun olaraq, Xarici İşlər Nazirliyinin Yaxın Şərq ölkələri Şöbəsinin müdiri S. Kiktev və Müqavilə-hüquq Şöbəsinin müdiri O.Xlestov tərəfindən hazırlanan 3

[177] Bax: G.Çiçerinin İ.Stalinə məktubu. 11.10.1921.// RDSSTA, f.17, s.3, i.375, v.12

[178] RK(b)P MK Siyasi Bürosu iclasının 27 saylı protokolu. 23.08.1923.// RDSSTA, f.17, s.3, i.375, v.2

səhifəlik arayış 1966-cı ilin may ayının 31-də Sov.İKP MK-ya göndərildi.[179] Onlar qeyd edirdilər ki, Naxçıvanın statusunda hər hansı dəyişiklik Sovet-Türkiyə münasibətlərinin kəskinləşməsinə gətirib çıxara bilər. Xarici İşlər Nazirliyinin rəsmiləri Muxtar Respublikanın Moskva və Qars müqavilələri ilə müəyyən edilmiş hüquqi statusunda siyasi dəyişikliyi məqsədəuyğun hesab etmirdilər. Heç şübhəsiz ki, Sovet partiya rəhbərliyinin ötən əsrin 60-cı illərində Naxçıvanın statusu ilə maraqlanması təsadüfü xarakter daşımırdı.

§3. Ankarada Azərbaycan səfirliyinin fəaliyyətə başlaması

Qars konfransını imzalanması ərəfəsində Azərbaycanın səlahiyyətli nümayəndəsi İ.Əbilov artıq Ankaraya yetişmişdi. Sentyabrın əvvəllərində Tiflisdən yola çıxan Azərbaycan missiyası ayın 10-da Batuma yetişmişdi. Ankaraya onları Türkiyənin Azərbaycandakı diplomatik nümayəndəliyinin əməkdaşı Osman bəy müşayiət edirdi. İ.Əbilov hələ Batumda ikən, müharibənin doğurduğu çətinliklərilə bağlı Türkiyə Böyük Millət Məclisinin ölkənin inzibati mərkəzini Ankaradan Qeysəriyə keçirmək niyyətində olduğunu və Azərbaycan missiyasının, yəqin ki, Qeysəriyə getməli olacağını Xarici işlər komissarlığına yazmışdı.[180]

11 gün Batumda gözlədikdən sonra sentyabr ayının 21-də Azərbaycan missiyası İtaliyanın "Remo" gəmisində Türkiyəyə yola düşdü. Diplomatik heyətin yolasalınma mərasimində Türkiyənin Batumdakı Baş konsulu iştirak edirdi. Sentyabrın 22-də nümayəndə heyəti Trabzonda, ayın 23-də Geresunda və 24-də Samsunda Türkiyə yerli hakimiyyət orqanları tərəfindən rəsmi mərasimlə qarşılandı. Sentyabrın 22-də Anadolu torpaqlarına ayaq basması münasibəti ilə İ.Əbilov Kamal paşaya bir teleqram göndərdi. Sentyabrın 27-də Əbilova göndərdiyi cavab teleqramında Mustafa Kamal paşa qardaş Azərbaycan nümayəndələrinin məmləkətə gəlişini salamlayır, Anadolu və Rumeli türklərinin arzu və istəklərini bəyan edirdi.[181] Keçdikləri bütün şəhərlərdə Azərbaycan missiyasının şərəfinə rəsmi qəbullar keçirildi və təntənəli ziyafətlər verildi. İ.Əbilov Anadolunu dolandıqca gördüklərini

[179] "Naxçıvan MSSR Sovet-Türkiyə müqavilələrində". SSRİ Xarici İşlər Nazirliyinin Sov. İKP MK üçün hazırladığı arayış. 31.05.1966.// RDƏYTA, f.5, s.58, i.3, v.6-9

[180] İ.Əbilovun M.D.Hüseynova məktubu. 20.09.1921.// AR DA, f.28, s.1, i.133, v.17

[181] Bax: Atatürk'ün Tamim Telegraf ve Beyannameleri. IV, Ankara, 1991, s.406

M.D.Hüseynova yazdığı məktubda belə ifadə edirdi: "Kəndlərdə və tarlalarda kişi əhalisi, demək olar ki, gözə dəymir, onlar cəbhə üçün səfərbər olunublar, işin əsas ağırlığı qadınların, uşaqların və qocaların üzərinə düşür".[182] İ.Əbilov Xarici İşlər Komissarlığına yazırdı ki, qeyd edilən şəhərlərdə qarşılanma mərasimində Azərbaycan mühacirləri də iştirak edirdilər. Onların arasında Nəsrulla Aşurbəyov, doktor Xosrov bəy Sultanov, Musavat hökuməti əks-kəşfiyyat idarəsinin rəisi Nağı Şeyxzamanov, polkovnik Xosrov Qacar və digərləri var idi. Əldə etdiyi məlumatlara əsasən, İ.Əbilov Azərbaycan hökumətinin keçmiş daxili işlər naziri Şəfi bəy Rüstəmbəyovun İstanbulda olduğunu, Əhməd bəy Ağayevin isə Ərzuruma getdiyini Bakıya bildirirdi. Keçdikləri şəhərlərdə o, Azərbaycan mühacirlərinin böyük əksəriyyətinin acınacaqlı vəziyyətdə olduğunu M.D.Hüseynova yazırdı.[183]

Nəhayət, oktyabr ayının 11-də Azərbaycan missiyası Ankaraya yetişdi. Onlar Türkiyə paytaxtının 30-40 verstliyində olanda Kamal paşa öz yaveri Müzəffər bəyi, Yusuf Kamal bəy isə Xarici İşlər Nazirliyinin müşaviri Suad bəyi Azərbaycan nümayəndələrini qarşılamağa göndərmişdi. Onlar Kamal paşanın və hökumətin adından İ.Əbilovu salamladılar. İ.Əbilov yazırdı: "Anadolu əhalisinin bütün təbəqələrinin bizə münasibəti səmimi və qardaşlıq münasibətidir. Trabzondan Ankaranın özünə qədər bütün şəhərlərdə və kəndlərdə bizim üçün səmimi görüşlər və qəbullar təşkil etdilər".[184] Yusuf Kamal bəy özü isə şəhərin iki saatlıq məsafəsində Azərbaycan diplomatik heyətini qarşıladı.[185]

Ankara yetişdikdən sonra İ.Əbilov ilk olaraq, oktyabr ayının 12-də Xarici işlər naziri Yusuf Kamal bəylə görüşdü. Bu görüş haqqında o, M.D.Hüseynova yazırdı ki, "Yusuf Kamal bəylə keçirilən bu görüşdə Türkiyənin fransızlarla apardığı danışıqlar müzakirə edildi". Türkiyə Xarici İşlər Nazirliyində keçrilən ilk görüşdə İ.Əbilov türk-fransız əməkdaşlığının əleyhinə olduğunu Yusuf Kamal bəyə bildirmişdi. Türkiyə xarici işlər naziri dedi ki, yaxın vaxtlarda cənab Franklin Buyon başda olmaqla, Fransa missiyası Ankaraya gəlmişdi. O, daha əvvəl də qeyri-rəsmi şəkildə Ankarada olmuşdu. Bu missiyanın Ankarada olma faktını bizim düşmənlərimiz provokasiya məqsədilə istifadə edib, belə şayiələr yayırlar ki, guya, bizimlə Fransa arasında RSFSR-ə qarşı yönəlmiş hansısa saziş əldə edil-

[182] İ.Əbilovun M.D.Hüseynova məktubu. 08.11.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 131

[183] İ.Əbilovun M.D.Hüseynova məktubu. 28.09.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 106-107

[184] İ.Əbilovun M.D.Hüseynova məktubu. 28.09.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 130

[185] İ.Əbilovun Q.Orconikidzeyə məktubu. 16.11.1921.// RDSSTA, f.85, s.c/Türkiyə, i.96, v.45

mişdir. Düşmənlərimizin belə təxribatçı fəaliyyəti RSFSR tərəfindən bizə münasibətdə bəzi şübhəli meylləri doğurmuşdur". Yusuf Kamal bəy bildirdi ki, nə qədər ki, Türkiyənin xarici siyasətinə o, rəhbərlik edir və iş başında onun dostları dayanır "Türkiyədə RSFSR-in əleyhinə heç bir pis niyyət ola bilməz".[186] Həmin görüş haqqında Azərbaycan Xarici İşlər Komissarlığına göndərdiyi birinci məlumatında İ.Əbilov Yusuf Kamal bəyin sözlərinin səmimiliyinə inandığını bildirsə də, lakin elə həmin gün göndərdiyi ikinci məlumatda o, "Fransa və ümumiyyətlə, bizim düşmənlərimizlə bağlanan hər hansı sazişin bizim xeyrimizə olmadığını və bizim ümumi Şərq cəbhəmizi zəiflədəcəyini" yazırdı. İ.Əbilov xahiş edirdi ki, təcili şəkildə Moskva ilə əlaqəyə girib, ona ümumi təlimat versinlər. O, etiraf edirdi ki, Mustafa Kamal paşanın xoşuna gəlmək üçün hələlik, milli, ümumşərq, ümummüsəlman məsələlərindən danışır. Eyni zamanda, İ.Əbilov xatırladırdı ki, Batumda olarkən orada görüşdüyü Ənvər paşa ilə də təxminən bu məzmində söbətlər etmişdi. Həm də, Əbilov vurğulayırdı ki, tez-tez görüşdüyü "Ənvər paşanın Batumda olmasından kamalçılar məlumatlıdırlar". [187] Yeri gəlmişkən, artıq, "1921-ci ilin payızında belə şayiələr yayılmışdı ki, guya, Ənvər paşa öz tərəfdarlarını Batumun mərkəzinə toplayaraq, Acarıstan hökumətini devirib, "İttihad və Tərəqqi" partiyasının üzvlərindən ibarət Acarıstan Sovet Respublikası elan edib. Bunu nəzərə alaraq, Şərq cəbhəsi komandanı Kazım paşa altı gün ərzində Acarıstanı tərk etməsi və Qars müqaviləsinə əsasən Acarıstan hökumətinin bərpa edilməsi barədə ona ultimatum göndərib. Əks təqdirdə, Kazım paşa hərbi əməliyyata başalayacağı ilə Ənvər paşanı hədələyib. Bu ultimatumdan sonra Ənvər paşa Qafqazda qalmaq iqtidarında deyildir, o, Batumu və Qafqazı tərk etmək məcburiyyətindədir".[188] Qars müqaviləsindən sonra artıq Sovet rəhbərliyi daxili yazışmalarında Ənvər paşa vasitəsi ilə Kamal paşanın təhdid edilməsi istiqamətində öz günahlarını etiraf edirdilər. Oktyabr ayının 17-də İ.Stalin G.Çiçerinə yazırdı ki, "Ənvərə Kamal əleyhinə inttiriqa yaratmağa izn verməkə və sonuncunu bir dəqiqəyə "satmaqla", biz "günahı" öz üzərimizə almış olduq".[189]

1922-ci ilin yanvar ayında İ.Əbilov və M.Frunze ilə görüş zamanı Kamal paşa Camal paşanın Ənvər paşa haqqında yazdığı iki məktubu onlara oxudu. Birinci məktubda Camal paşa tövsiyə edirdi ki, Ənvər paşa ilə

[186] İ.Əbilovun M.D.Hüseynova məktubu. 16.10.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 116-117

[187] İ.Əbilovun M.D.Hüseynova məktubu. 16.10.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 124-124(arxası)

[188] Zaqafqaziya və Ankara. Ənvərin fəaliyyəti. Dekabr 1921.// AR DA, f.6, s.1, i.134. v.223

[189] İ.Stalinin G.Çiçerinə məktubu. 17.10.1921.// RDSSTA, f.558, s.11, i.824, v.16

barışıb, Türkiyə xaricində ondan istifadə etmək lazımdır. İkinci məktubda isə, Camal paşa yazırdı ki, "o heç bir hörmətə layiq olmayan dəli bir avantürüstdür. O həm Türkiyəni, həm də RSFSR-i aldadır. İndi o Rusiyanın ona münasibətinin dəyişdiyini hiss edib, yeni avantüranı işə salıb. Məndə olan məlumata görə, indi o, Rusiyanın əleyhinə üsyan qaldırmaq üçün Buxara və Fərqanəyə yollanır. Mən bütün gücümü qoydum ki, onu bu yeni avantüradan çəkindirim. Bilmirəm, buna nə qədər nail oldum. Mənə belə gəlir ki, Şərqin bütün müsəlmanları arasında panislamist kampanyaya son verməyin vaxtıdır".[190] Bu məktubu oxuyandan sonra Kamal paşa Moskvaya yola düşən M.Frunzeyə dedi ki, bir aydan sonra Camal paşa Berlindən Moskvaya gələcək. Xahiş edirəm onunla görüşəndə bizim vəziyyətimizi ona izah edin. Ənvərin əvvəlki təsirinin qalıqlarını onun başından çıxarmaq mümkün olsa, Camal paşadan Şərqdə fəaliyət üçün istifadə etmək olar".[191] Ənvər paşa haqqında bu məzmunda son dərəcə məxfi xarakter daşıyan bir məktubu Camal paşa Münhendən Çiçerinə də göndərmişdi.O, yazırdı ki, Ənvəri çox böyük çətinliklə Batumdan Moskvaya çağıra bilib və Moskvdan yazdığı son məktubundan görünür ki, "Ənvər ağlını itirib". Ənvər paşanın Buxaradan geri çağırılması ilə bağlı RKP MK Təşkilat Bürosunun qərarını əsaslandırmaq üçün Çiçerin, Camal paşadan aldığı gizli məktub haqqında Stalinə məlumat verirdi.

Yusuf Kamal bəylə görüş zamanı Azərbaycanla Türkiyə arasında bir sıra iqtisadi-kommersiya məsələləri də müzakirə edildi. İ.Əbilov Anadolunun tütün, mal-qara və taxıl ilə zəngin olduğunu yazırdı. O, bu malların Azərbaycana buraxılmasının mümkünlüyünü Yusuf Kamaldan soruşduqda, Yusuf Kamal bəy qonşu respublikalara verilməyəcəyi təqdirdə, bu malların neft məhsulları ilə mübadilə edilməsnin mümkünlüyünü bildirmişdi. İqtisadi-ticarət əlaqələrini genişləndirmək üçün İ.Əbilov Trabzon və Samsunda Azərbaycan konsulluğunun açılmasını, Qarsdakı konsulluğun gücləndirilməsini M.D.Hüseynova yazırdı.[192] Bu konsulluqların açılmasını İ.Əbilov həm də, Türkiyədə fəaliyyət göstərən Azərbaycan mühacirlərinə nəzarət etmək üçün əhəmiyyətli olacağını yazırdı. Sovet Azərbaycanının rəhbərliyi bunda çox maraqlı idi və Xarici işlər komissarlığından Türkiyədəki diplomatik idarələrə verilən təlimatlarda bu işin diqqət mərkəzində saxlanıl-

[190] M.Frunze və İ.Əbilovun Mustafa Kamal paşa ilə ikinci söhbəti. 04.01.1922.// AR DA, f.28, s.1, i.68, v.6

[191] Yenə orada, v.6

[192] İ.Əbilovun M.D.Hüseynova məktubu. 16.10.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 121-122

ması tövsiyə edilirdi. Xarici işlər komissarının müavini A.Andreyev Qarsdakı konsul İ. Hacıbəyliyə xəbərdarlıq edirdi ki, Qars vilayəti Azərbaycan və ümumiyyətlə, Qafqaz mühacirəti üçün əməliyyat meydanı rolunu oynayır. İ.Əbilov həm M.D.Hüseynova, həm də Q.Orconikidzeyə bildirirdi ki, Trabzonda fəaliyyət göstərən doktor Xosrov bəy Sultanov Azərbaycan qaçqınlarına yardım göstərmək üçün xeyriyyə cəmiyyəti yaratmışdır. Nizamnaməsinə görə, cəmiyyət Anodolunun bütün Qara dəniz sahili şəhərlərində və Qarsda öz filiallarını açmalı idi. İ.Əbilov belə hesab edirdi ki, bu filiallar adı altında Azərbaycan əksinqilabçıları bütün Türkiyədə öz şəbəkələrini yaradıb, "onun vasitəsi ilə Cənubi Qafqazdakı qara əməllərinə rəhbərlik etmək istəyirlər".[193] Ankaradakı RSFSR-in səlahiyyətli nümayəndəliyinin məlumatına görə, Azərbaycan mühacirlərinin Türkiyədəki ictimayi rəyə və siyasi dairələrə təsir imkanları güclü idi. Hətta, Rusiya səfirliyi Türkiyədə kommunistlərin təqib edilməsini Azərbaycanda işlərin düzgün aparılmaması və nəticədə çoxlu sayda əksinqilabçıların Anadoluya axışması ilə izah edirdi.[194] İ.Əbilov məlumat verirdi ki, bu cəmiyyətin təşkilat komitəsinə yerli Milli Müdafiə Komitəsinin iki üzvü də daxildir. İ.Əbilov az əvvəl daxili işlər komissarının müavini olduğundan, Türkiyədəki Azərbaycan mühacir təşkilatları üzərində nəzarət qoymağa çalışırdı. O, hətta, Bakıdakı türk diplomatik nümayəndəliyinin ciddi nəzarətdə saxlanılmasını M.D.Hüseynova yazır və türk missiyasının yerli ittihadçılarala gizli əlaqələrinin olduğunu bildirirdi. İ.Əbilov yazırdı:"Məndə olan məlumata görə, Bakıdakı türk missiyası Azərbaycanda işləyən əksinqilabi ittihad təşkilatının fəaliyyətinə biganə deyildir. Hətta, əgər Memduh Şövket özü bundan uzaqdırsa da, onun qalan işçiləri adı çəkilən təşkilatla bağlıdırlar. Ona görə, xahiş edirəm adı çəkilən missiyanın əməkdaşları üzərində nəzarət və izləmə qoyulmasına əncam çəkəsiniz. Təklif edirəm ki, bir nəfər təcrübəli və etibarlı adamı xidmətçi kimi türk missiyasına düzəldib, onun vasitəsi ilə dəqiq məlumatlar almaq lazımdır".[195] Bakıya göndərdiyi başqa bir məlumatda İ.Əbilov yazırdı ki, "Bakıdan Ankaraya qədər bizi müşayiət etmiş Türkiyə missiyasının Azərbaycandakı əməkdaşı Osman bəylə birlikdə türk diplomatik nümayəndəliyinə təyinat almış Həmdi bəy adında birisi Azərbaycana yola düşür. Onların hər ikisi Kamalın əks-kəşfiyyatına məxsusdurlar. Ona görə, xahiş edirəm, Bakıdakı türk missiyasının üzərinə etibarlı nəzarət və izləmə qoyulması üçün zəruri addımlar atılsın".[196] Ümumiyyətlə, İ.Əbilov türklərin kəşfiyat və əks-kəşfiyat işlərinin nümunəvi şəkildə qurulduğunu qeyd edir, "onların, nəinki, ölkə içində, eyni ilə onun xaricində də, çox şeydən məlumatlı olduğunu" yazırdı. Məsələn, o, vurğulayırdı ki, "Tiflisdə toplanan gizli müşavirənin detalları burada bəllidir. Bu müşavirə haqqında Mustafa Kamal paşa, bu günlərdə Rusiyaya qayıdacaq Sergey Nasarenusla danışdı, ola bilsin ki, o sizə məlumat verəcək".[197] Türk kəşfiyyatının məlumatı doğru idi. Oktyabr ayının ortalarında ittihadçıların Sovet Rusiyası və Qafqaz respubliklarının nümayəndələri ilə Tiflisdə gizli müşavirəsi keçirilmiş və bu müşavirədə sovet nümayəndələri Mustafa Kamal paşaya etibar etmədiklərini bildirmişdilər. Danışıqların gedişində sovet nümayəndələri ittihadçıları hakimiyyəti ələ keçirməyə həvəsləndirsələr də, lakin onlar bu addımın Anadolunun müqavimətini zəiflədəcəyini əsas gətirərək, ondan imtina etmişdilər. Çiçerinə şifrli teleqramında Nasarenus Kamal paşanın baş verənlərdən məlumatlı olduğunu yazır və xahiş edirdi ki, belə konfransları boşboğazların həddindən çox olduğu Qafqazda etməsinlər.[198]

28 nəfərdən ibarət bir heyətlə Ankarada fəaliyyətə başalayan Azərbaycan nümayəndəliyinin ilk işi İstanbulda çıxan türk və xarici mətbuat materiallarını, Ankara qəzetlərinin yazılarını Bakıya göndərməkdən ibarət oldu.[199] Missiyanın tərkibində M.D.Rəsulzadə birinci katib, Əsgər Əsgərov hərbi ataşe, İsmayıl İsmayılov katib, Yusif Axundov idarə işlər müdiri, Ağababa Yusifzadə İnformasiya idarəsinin müdiri, Məbud Zeynalov şifr işləri təşkilatçısı, Rəhim İbrahimov və Rıza Təhmasib informasiya şöbəsinin əməkdaşaları, Nadir İbrahimov təsərrüfat müdiri, Musa Sultanov ticarət şöbəsinin müdiri, G.Nərimanov, Yusif Həsənov və Həbib Əliyev ticarət şöbəsinin əməkdaşları vəzifələrini tutmuşdular.[200] Qalan işçilər nümayəndəlikdə müxtəlif texniki vəzifələrdə çalışırdılar. Noyabr ayı ərzində Azərbaycanın Ankaradakı səfirliyində kommunist partiyasının özəyinin formalaşdırılması işi başa çatdırıldı. Özəyin sədri M.D.Rəsulzadə, katibi İ.İsmayılov və xəzinədarı

[193] İ.Əbilovun Q.Orconikidzeyə məktubu. 16.11.1921.// RDSSTA, f.85, s.c/Türkiyə, i.96, v.46
[194] Yoldaş Yusifzadənin yoldaş Lara ilə söhbəti. Oktyabr1921.// ARPİİ SSA, f.609, s.1, i.81, v. 15
[195] İ.Əbilovun M.D.Hüseynova məktubu. 16.11.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 133-134
[196] İ.Əbilovun M.D.Hüseynova məktubu. 21.11.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 135
[197] İ.Əbilovun Q.Orconikidzeyə məktubu. 16.11.1921.// RDSSTA, f.85, s.c/Türkiyə, i.96, v.45(arxası)
[198] S.Nasarenusun G.Çiçerinə şifrli teleqramı. 21.10.1921.// RDSSTA, f.2, s.2, i.990, v.1
[199] İ.Əbilovun M.D.Hüseynova məktubu. 08.11.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 128-129
[200] Azərbaycan SSR-in Ankaradakı səlahiyyətli nümayəndəliyinin tərkibi və onların aylıq əmək haqqı cədvəli. 1921. .// AR DA, f.28, s.1, i.133, v.15

H.Əliev oldu.[201] Noyabr ayının 5-də İ.Əbilov yeni yaradılan kommunist özəyinin iclasında Şərqdə, o cümlədən, Türkiyədə inqilabi hərəkat, Kommunist partiayasının vəzifələri və partiya intizamı haqqında məruzə ilə çıxış etmişdi. Məruzə haqqında qəbul olunmuş qərarda göstərilirdi ki, geridə qalmış yoldaşların səviyyəsini yüksəltmək üçün hələlik sırf mədəni-maarifçilik işi ilə məşğul olmaq lazımdır. Bundan əlavə RSFSR-in Ankaradakı missiyasında fəaliyyət göstərən kommuinist özəyi ilə sıx əlaqə saxlanılması qərara alınmışdı.[202]

Oktyabr ayının 14-də xarici işlər naziri Yusuf Kamal bəyin iştirakı ilə Mustafa Kamal paşa İ.Əbilovu qəbul etdi. Görüş zamanı İ.Əbilov dedi: "Möhtərəm qazi həzrətləri! Türkiyə Böyük Millət Məclisi rəisi və şanlı ordusunun Baş komandanı zati aliləri vasitəsilə Azərbaycan İctimai Şura hökumətinin və azəri türklərinin qardaşlıq salamını hüzuri alinizə icazənizlə təqdim edirəm. Nümayəndəsi olduğum hökumət və azərbaycanlılar tərəfindən Türkiyə Böyük Millət Məclisini və dünya tarixində cəsarət və qəhrəmanlıqları ilə bütün aləmi heyrətə salan türk ordusunu və bütövlükdə, öz siyasi hüquqları və iqtisadiyyatının mühafizəsi və milli həyatın təmini üçün can fəda edən türk xalqını səmimi bir sürətdə alqışlayıram". Sonra İ.Əbilov "Qərb zalımlarının" müsəlman xalqlarına gətirdiyi müsibətlər, Versal və Sevr müqaviləsinin Türkiyəyə gətirdiyi fəlakətlər haqqında danışaraq, türk milli mücadiləsinin imperialistlərin əsarətinə qarşı mübarizədə böyük rol oynadığını vurğuladı. O dedi: "Rusiya böyük inqilabı sayəsində əsarətdən xilas olmuş və öz arzularına yetişmiş azəri türkləri bir nəfər kimi, türk xalqının sevincini öz sevinci və matəmini öz matəmi bilərək, son qətrə qanları qalana qədər Türkiyənin və bütün Şərq məzlumlarının xilas olması üçün əziz övladlarını qurban verməkdən çəkinməyəçəklər". İ.Əbilov türk ordusunun son qələbələrindən Azərbaycan türklərinin və islam aləminin riqqətə gəldiyini Kamal paşanın diqqətinə çatdırdı.[203] Kamal paşa cavab

[201] Türkiyədə Azərbaycan səfirliyinin kommunist özəyi bürosunun iclasının 2 saylı protokolu. 09.11.1921.// RDSSTA, f.64, s.1, i.136, v.8

[202] Türkiyədə Azərbaycan səfirliyinin kommunist özəyi bürosunun iclasının 1 saylı protokolu. 05.11.1921.// RDSSTA, f.64, s.1, i.136, v.6

[203] Zati aliləri İbrahim Əbilovun çıxışı. 14.10.1921.// RDSSTA, f.544, s.3, i.115, v.175-176; Azərbaycan səfirinin Ankarada qəbul edilməsi.İnformasiya idarəsinin arayışı.13.11.1921. AR DA, f.6, s.1, i.134, v.97-98; 14 oktyabr görüşündə İ.Əbilovun çıxışının tam mətni üçün bax: Betül Aslan. Türkiye – Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.186-188. İ.Əbilovun etimadnaməsinin təqdimatı ilə bağlı türk tədqiqatçısı Betül Aslan təqdimetmə mərasiminin oktyabr ayının 14-də olduğunu yazır (Bax: Betül Aslan. Türkiye

nitqində Türkiyə Böyük Millət Məclisi adından İbrahim Əbilovun simasında Azərbaycan xalqına salamlamaqdan məmnunluq duyduğunu ifadə etdi. O dedi: " Milli hüdudlarımız daxilində azad və müstəqil yaşamaq istəyirik və bu döğru ideyanı həyata keçirmək üçün mübarizə edirik. Bu müqəddəs mübarizədə millətimiz islamın xilasi və dünya məzlumlarının rifahının təntənəsinə xidmət etməkdən iftixar hissi keçirir. Millətimiz bu həqiqətin qardaş Azərbaycanın nümayəndəsi tərəfindən təsdiq edildiyini eşitməklə böyük bir səadət duyur. Rumeli və Anadolu xalqı Azərbaycan türkərinin qəlbinin onların qəlbi kimi vurduğunu bilir. Bunun üçün gətirdiyiniz salam töhfəsinin nə qədər dərin və ali bir hissin ifadəsi olduğunu təqdir edir və bu salamı alarkən, Azərbaycan türklərinin bir daha əsarətə düşməmələri və hüquqlarının əldən verilməməsini arzu və təmənna edirəm. Azərbaycan türklərinin kədəri öz kədərimiz, sevinci öz sevincimizdir".[204]

Oktyabr ayının 22-də Azərbaycanın səlahiyyətli nümayəndəsi öz etimadnaməsini Mustafa Kamal paşaya təqdim etdi.[205] Noyabrın 18-də, gündüz saat 13:00-da isə Mustafa Kamal paşa Ankaranın Cəbəçi məhəlləsində Azərbaycan səfirliyinin üzərində Sovet Azərbaycanının bayrağını qaldırdı. Bu təntənəli mərasimdə Baş nazir Fevzi Çakmak paşa, Türkiyə Böyük Millət Məclisinin bir sira üzvləri, xarici işlər naziri Yusuf Kamal bəy, Türkiyənin təhsil, ədliyə, səhiyyə, daxili işlər nazirləri, İtaliya nümayəndəsi Toçi, Əfqanıstan səfiri Sultan Əhməd xan, müşavir Gül xan və katibi Hidayətulla xan, RSFSR-in diplomatik nümayəndəliyinin katibi V.Mixaylov, həmin nümayəndəliyin draqomanı Feyzi bəy və digər rəsmi şəxslər iştirak edirdilər. Mərasimə gələnlər orkestr və xalq çalğıçılarının musiqi sədaları altında qarşılanırdı. İ.Əbilov mərasimin açılışında nitq söylədi. O dedi: "Tarixin səhifələri nə qədər doldurulsa da, lakin yenə onda çox şey qalır və gələcəyi yazmaq üçün ağ səhifələr hələ vardır. Sununcu müharibə zamanı bəşəriyyətin bu idarəçiləri öz hakimiyyətləri və zülmlərini artırmağa cəhd göstərirdilər. Lakin Azərbaycan öz hüququnu əldə etməyə və müstəqilliyini qurmağa nail oldu. Hörmətli Baş komandan, tarix bizə qırmızı bayrağımızı

– Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.185). Lakin İ.Əbilov Azərbaycan Xarici İşlər Komissarlığına göndərdiyi 8 noyabr 1921-ci il tarixli məktubunda etimadnaməsini Kamal paşaya oktyabr ayının 22-də təqdim etdiyini yazır (Bax:İ.Əbilovun M.D.Hüseynova məktubu. 08.11.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 130). Fikrimizcə, bu halda İ.Əbilovun məktubu daha etibarlı sənəddir.

[204] Mustafa Kamal paşanın cavab nitqi. 14.10.1921.// RDSSTA, f.544, s.3, i.115, v.177

[205] İ.Əbilovun M.D.Hüseynova məktubu. 08.11.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 130

sizin əlinizlə Türkiyə al bayarğı ilə yanaşı ucaltmağı nəsib etdi. Beləliklə, tarix öz ağ səhifələrini tamamladı. Bu gün Azərbaycan üçün, dünyanın bütün məzlumları üçün tarixi bir gündür. Sizə və bütün türk qardaşlarımıza öz müstəqilliyinə qovuşmuş azərbaycanlıların adından təşəkkur edirəm. İki il əvvəl İstanbulda Azərbaycanın üç rəngli bayrağı ucaldıldı. Bu bayraq o zaman Azərbaycanı idarə edənlərin qəlbləri kimi, üçrəngli idi. İndi isə, sizin əlinizlə Azərbaycanın birrəngli inqilabi bayrağı ucaldılır. Azərbaycanlılar böyük rus inqilabının nəticəsində azad oldular. Azərbaycan Rusiya və digər xalqlarla dostcasına yaşamaq arzusundadır. Ümüdvaram ki, bütün əzilən kiçik xalqlar öz müstəqilliyinə qovuşacaq və qardaşcasına yaşayacaqlar. Bir daha sizə, orduya və bütün türklərə təşəkkür edirəm".[206] İ.Əbilovdan sonra Mustafa Kamal paşa təbrik nitqi soylədi. O dedi: "Cənab səfir, şəxsən öz adımdan və bizim Böyük Millət Məclisi adından bu günkü bayrama görə sizə təşəkkür edirəm. Bu bayram bir də ona görə, mənim üçün əzizdir ki, qardaş dövlətin və qardaş millətin bayrağını ucaltmaq mənə nəsib oldu. Cənablar, Ankarada yunanların bayrağını, düşmən bayrağını ucaltmaq istəyirdilər. Allaha şükür ki, bu düşmənlərə nəsib olmadı və bu gün burada biz qardaş bayrağı ucaldırıq. Türkiyə ilə Azərbaycan arasında dostluq münasibətlərinin səmimiliyi haqqında danışmaq istəmirəm, bu tamamilə aydındır. Belə dostluq münasibətlərinin qurulmasında hörmətli səfir Əbilovun rolu böyükdür. Türkiyə ilə Azərbaycan arasında dostluq münasibətlərinin bərqərar olmasında Azərbaycanın coğrafi vəziyyəti az rol oynamır. Azərbaycanın coğrafi vəziyyəti ona xüsusi əhəmiyyət verir... Əziz qardaşım, Əbilov, bu gün Azərbaycanın istiqlal rəmzi olan bayrağını ucaldarkən, əllərimin bir coşqun hissiyat və təəssürat duyğusu ilə çalışdığını hiss edirdim.Əcaba, görəsən, həqiqətən bayrağı ucaldan mənim əllərimdir? Lakin əllərimi təhrik edən, bu günkü bayramda mənimlə birlikdə olan bütün Türkiyə xalqının həqiqi və qardaşlıq hissiyyatı idi. Cənab səfir, Azərbaycanın bayrağını Türkiyə bayrağının yanında, Türkiyə səmasında dalğalanmasını görmək bütün millətimizin böyük bir bayramıdır. Bizə belə bir bayram günü yaşatdığınıza görə, səmimi təşəkkürümü təkrar edirəm".[207] Rusiya nümayəndəsi Mixaylov təbrik nitqində bildirdi ki, "bugünkü gün yalnız Sovet Azərbaycanının bayramı deyil, eyni zamanda, RSFSR-in bayramıdır. İki il əvvəl Azərbaycan, yalnız Sovet Rusiyanın yardımı ilə deyil, həm də, Anadoluda inqilab nəticəsində öz

[206] Ankara üzərində Azərbaycan bayrağı. İnformasiya şöbəsinin arayışı. 21.12.1921.// AR DA, f.6, s.1, i.134, v.169

[207] Atatürk'ün Söylev ve Demeçleri. II, 4.Baskı, Ankara, 1989, s.23-24

müstəqilliyinə qovuşdu. Azərbaycanın nümayəndəsini, Anadolu inqilabinin rəhbəri Mustafa Kamal paşanı və bütün iştirakçıları şəxsən öz adımdan və rus xalqının adından təbrik edirəm".[208] Əfqanıstan səfiri Sultan Əhməd xan öz nitqində qeyd etdi ki, "müstəqillik əldə etmiş Azərbaycanın bayrağının ucaldılması Şərq üçün, bütün islam dünyası üçün böyük hadisədir. Biz Şərq xalqları şərəflə və müstəqil yaşamaq istəyirik. Biz Qərbə bəyan etdik ki, bütün xalqlarla dostluq və bərabərlik şəraitində yaşamaq istəyirik. Əfqanıstan xalqı Azərbaycanın işıqlı və qara günlərini bütünlüklə bölüşür. Anadolu Şərqin qapısıdır və Asiya üçün günəş rolunu oynayır. Bax, buna görə də, əfqan xalqı Anadoluya vurulan bütün zərbələri öz canında hiss edir. Qərb bilməlidir ki, biz Şərq xalqları öz müstəqilliyimizə nail olacağıq. Bizim məqsədimiz azadlıqdır. Yaxın vaxtlarda digər müsəlman ölkələrinin səfirlərini də, burada görməyi arzulayırıq".[209] İtaliya nümayəndəsi Toçinin çıxışı çox qısa oldu. O dedi: "Bu günkü böyük bayram münasibətilə sizi təbrik edirəm. İtaliya müstəqillik ideyası və prinsiplərinin meydana gəldiyi yerdir. Sizin bayrağınızı Mustafa Kamal paşa kimi bir şəxsiyyət ucaltdı. Ölkənizdəki hərəkat sizə müstəqillik hüququ verdi".[210] Keçmiş maarif naziri Həmdullah Sübhi qeyd etdi ki, Azərbaycanın müstəqilliyi haqqında xəbəri biz iki il əvvəl İstanbulda aldıq. Həmin vaxt İstanbul işğal edilmişdi. Çoxsaylı casuslarla əhatə olunmağımıza baxmayaraq, biz Azərbaycanın azad olunması kimi, böyük günü qeyd etməyə qərar verdik. Bunun üçün beş minə yaxın vətəndaş universitetin zalına toplanmışdı. Həmin gün bizim ağlayan gözlərimiz gülürdü. İndi iki il keçdikdən sonra mən qardaş Sovet Azərbaycanının ucalmış bayrağını və Anadolunun müstəqilliyini görürəm".[211] Səfirlik binası üzərində Azərbaycan bayrağının ucaldılması mərasimindən sonra İ.Əbilov iştirakçılara böyük bir ziyafət verdi və ziafət zamanı Azərbaycan hökuməti adından, üzərində "Türk inqilabının qəhrəmanı Mustafa Kamal paşaya" yazısı olan qızıl Qafqaz xəncəri təqdim edildi.[212] Bu mərasimlə bağlı İ.Əbilov M.D.Hüseynova yazırdı: "Noyabr ayının 18-də, cümə günü bizim bayrağımız missiyanın üzərində təntənəli şəkildə qaldırıldı. Mənim tərəfimdən verilən təntənəli ziyafətdə Mustafa Kamal paşa, Nazirlər Şurası, RSFSR,

[208] Ankara üzərində Azərbaycan bayrağı. İnformasiya şöbəsinin arayışı. 21.12.1921.// AR DA, f.6, s.1, i.134, v.171

[209] Yenə orada, v.172

[210] Yenə orada, v.172

[211] Yenə orada, v.173

[212] Ю. Багиров. Из истории ысоветско-турецкий отношений (1920-1922). Баку, 1965, с.84

İtaliya və Əfqanıstanın nümayəndələri, Məclisin görkəmli üzvləri iştirak edirdilər. Düz saat bir tamamda nəfəsli orkestrin sədaları altında Mustafa Kamal paşa bizim bayrağımızı ucaltdı".[213]

Beləliklə, 1921-ci ilin sonlarında Ankarada Sovet Azərbaycanının ilk baxışda müstəqil görünən diplomatik nümayəndəliyi tam gücü ilə işə başladı. Lakin bu görüntü uzun çəkmədi. Dekabr ayının ilk günlərində türk qəzetləri yazırdı ki, Azərbaycan səfiri İbrahim Əbilov yaralılara yardım üçün 75 türk lirəsi ianə verdi.[214] Bu, Ankarada fəaliyyət zamanı Azərbaycanın səlahiyyətli nümayəndəsinin qəbul etdiyi sonuncu müstəqil qərarı oldu. Azərbaycan səfirliyinin fəaliyyəti ilə bağlı noyabr ayının 8-də V.Mixaylov Q.Orconikidzeyə yazırdı: "Demək olar ki, hələlik Azərbaycan səfirliyi faktiki olaraq çalışmır. Keçib gəldikləri əyalətlərdə onları hər cür siyasi "yaxınlıqla" çox mehribancasına qarşılasalar da, Ankarada onlara münasibət dəyişmişdi. Türklər Azərbaycanın "asılı olması" haqqında tanış mahnıları oxuyurlar və açıqca onlara anladırlar ki, azərbaycanlıları yetərli qədər siyasi qüvvə hesab etmirlər ki, onlarla danışsınlar".[215] İ.Əbilovun fəaliyyəti ilə bağlı V.Mixaylov Q.Orconikidzeyə məlumat verirdi ki, Mustafa Kamalın yoldaş Əbilov haqqında səciyyəvi rəyini belə ifadə edirlər: "O, çox qabağa getmiş kommunist, lakin səthi diplomatdır".[216]

1921-ci ilin oktyabr ayının 13-də imzalanmasına baxmayaraq, Qafqazın sovet respublikları Qars müqaviləsinin ratifikasiya edilməsini xeyli yubatdılar. Bunu onlar daha çox Cənubi Qafqaz federasiyasının yaradılması ilə izah etməyə çalışırdılar. Türkiyə üçün isə müqavilənin, xüsusilə, Sovet Ermənistanı tərəfindən daha tez ratfikasiya edilməsi siyasi əhəmiyyətə malik idi. İ.Əbilovun M.Frunze ilə birlikdə 1921-ci ilin dekabr ayının 25-də Mustafa Kamal paşa ilə keçrilən birinci söhbətində, habelə, 1922-ci ilin yanvar ayının 4-də keçrilən ikinci görüşündə tərəflər arasındakı bəzi mübahisəli məqamlara toxunuldu. İkinci söhbətdə iştirak edən xarici işlər naziri Yusuf Kamal bəy Türkiyənin sovet respublikaları ilə münasibətlərində şübhəli məqamlarının qalmasını Rusiya XXİK və şəxsən G.Çiçerinlə bağlı olduğunu

[213] İ.Əbilovun M.D.Hüseynova məktubu. 21.11.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 135(arxası)

[214] Azərbaycan səfirinin hədiyyəsi. İnformasiya idarəsinin arayışı. 25.12.1921.// AR DA, f.6, s.1, i.134, v.214

[215] V.Mixaylovun Q.Orconikidzeyə məktubu. 08.11.1922.// RDSSTA, f.85, s.c/Türkiyə, i.96, v.42(arxası)-43

[216] Yenə orada, v.43

açıq şəkildə bildirdi. O qeyd etdi ki, "G.Çiçerinin xarici işlər komissarlığındakı fəaliyyəti bizdə elə də, xoş təəssürat yaratmır." Yusuf Kamal bəy dedi: "Bunların Karaxanın təsiri altında olduğunu mən deyə bilmərəm, lakin bu bir həqiqətdir ki, Çiçerin öz fəaliyyətində Qərbə daha çox rəğbət bəsləyir, nəinki, Şərqə". [217] Yusuf Kamal bəyin toxunduğu bu məsələlərə Frunze qeri-müəyyən cavablar verdi. O dedi: "Hamıya məlum olduğu kimi, Rusiyada partia və onun Mərkəzi Komitəsi mövcuddur. Bütün siyasətə, istər daxili olsun, istər xarici, MK rəhbərlik edir. Çiçerinin şəxsiyyətinə gəldikdə isə, o, çox yaxşı kommunistdir, lakin ola bilsin ki, o, 20 ildən artıq Qərbi Avropada yaşadığından, Qərbə müəyyən rəğbəti hiss olunur... Karaxana gəldikdə isə, o, elə böyük bir xadim deyildir ki, Çiçerinin siyasətinə təsir edə bilsin".[218]

İ.Əbilovun 1922-ci ilin yanvar ayının 26-da Yusuf Kamal bəy ilə keçirilən görüşü əsasən, Qars müqaviləsinin ratifikasiyası ilə bağlı idi. Danışıqların əvvəlində Yusuf Kamal bəy bildirdi ki, "Sizin tələbiniz üzrə Azərbaycandan olan əks-inqilabi təşkilatların ləğv edilməsi ilə bağlı mənim tərəfimdən daxili işlər nazirinə müvafiq sərəncam verilmişdir. Ümid edirəm ki, yaxın gələcəkdə daxili işlər naziri bu təşkilatların tamamilə ləğvi barədə qərar qəbul edəcəkdir". Cənubi Qafqaz federasiyasının yaradılması haqqında Yusuf Kamal bəyin sorğusuna cavab olaraq, İ.Əbilov bu barədə müfəssəl məlumatının olmadığını, lakin əgər bu federasisya yaranarsa onun Türkiyəyə münasibətinin dəyişməyəcəyini bildirdi. O, əlavə etdi ki, məndə olan məlumata görə, Cənubi Qafqaz Ittifaq sovetinin sədri yoldaş Nərimn Nərimanov, xarici işlər komissarı isə Behbud Şahtaxtinski seçiləcək. Qalan portfellərin bölünməsi isə yaxın vaxtlarda bəlli olacaq. İ.Əbilov Qars müqaviləsinin ratfikasiyasının yubanmasının, məhz, bununla bağlı olduğunu bildirdi və qeyd etdi ki, müqavilə Azərbaycan, Gürcüstan və Ermənistan Sovet Respublikalarının adından İttifaq Sovetində təsdiq ediləcəkdir. Yusuf Kamal bəy Nərimanov və Şahtaxtinskinin belə məsul vəzifələrə seçiləcəklərinin sevindirici xəbər olduğunu qeyd edib, bildirdi ki, Qars müqaviləsinin yubanması və bu yubanma ilə bağlı millət vəkillərinin suallarına cavab verə bilməməsi onu narahat edir. O dedi: "Siz indi bəyan etdiniz ki, müqavilə ümumittifaq şura konfederasiyası yarandıqdan sonra təsdiq ediləcək. Sizə deməliyəm ki, Qars konfransı zamanı federasiya və buna müvafiq olaraq, onun vahid nümayəndəliyinin olmaması kimi, hər

[217] M.Frunze və İ.Əbilovun Mustafa Kamal paşa ilə ikinci söhbəti. 04.01.1922.// AR DA, f.28, s.1, i.68, v.4

[218] Yenə orada, v.4-5

hansı bir səbəb bizim təmin etmir. RSFSR ilə müqavilə bağlamaq üçün Moskvaya gedərkən, biz yolüstü Azərbaycan, sonra Gürcüstan və nəhayət, Ermənistanla müqavilə bağlamaq fikrində idik... Sonra Moskvada bizə dedilər ki, siz bu respublikaların hər biri ilə ayrılıqda deyil, eyni zamanda, üçü ilə də bir yerdə müqavilə bağlamalısınız. Bizim üçün yalnız bir yol qalırdı: bununla razılaşmaq. Lakin biz Qarsda ittifaq federasiyasının ümumi nümayəndəliyi ilə deyil, Azərbaycan, Gürcüstan və Ermənistan Sovet Respublikasının ayrı-ayrılıqda müstəqil nümayəndələri ilə əlaqədə olduq". İ.Əbilov Yusuf Kamal bəyi inandırmağa çalışdı ki, "müqavilənin ayrı-ayrı respublikalar və ya ittifaq soveti tərəfindən təsdiq edilməsinin elə bir fərqi yoxdur. Bu bir faktdır ki, Qars konfransında hər üç respublika bir tərəf kimi çıxış edib. Bu müqavilə ayrı-ayrılqda təsdiq olunsa da doğrudur, ittifaq soveti tərəfindən bir yerdə təsdiq olunsa, yenə doğrudur". Belə olduqda, Yusuf Kamal bəy açıq danışmağa üstünlük verdi və dedi: "Müqavilənin Azərbaycan tərəfindən təsdiq edilməsi bizim üçün xüsusi bir tələskənlik və zərurət təşkil etmir. Bu bizi elə də çox maraqlandırmır və Gürcüstanla da, eyni ilə belədir. Lakin müqavilənin Ermənistan tərəfindən ayrıca təsdiq ediməsi bizim üçün fövqəladə dərəcədə vacibdir və bizi çox maraqlandırır. Sizə məlumdur ki, Şərq məsələsinə dair konfransa bizim də dəvət olunacağımız güman edilir. Sizə bu da məlum olmalıdır ki, erməni xadimlərinin Qərbdə apardığı işin və təbliğatın nəticəsində erməni məsələsi ətrafında müzakirələr və dediqodular gedir. Ona görə, İngiltərə və ya Amerikanın - bunun elə də fərqi yoxdur - erməni məsələsini qaldırması tamamilə mümkündür. Əgər həmin vaxt həm erməni daşnakları, həm də erməni kommunistləri ilə bağladığımız müqavilələr əlimizdə olsa, biz öz maraqlarımızın müdafiəsinə qalxa bilərik. Əgər Qars müqaviləsi ayrı-ayrı Cənubi Qafqaz respublikası tərəfindən deyil, ittifaq soveti tərəfindən təsdiq edilsə, onda konfransda deyə bilərlər ki, bu erməni xalqının iradəsinin ifadəsi deyil, bu, Türkiyə və Sovet Rusiyasının kənardan öz iradəsini zorla qəbul etdirməsi yolu ilə baş vermişdir. Beləliklə, siz görürsünüz ki, müqvilənin Ermənistan tərəfindən müstəqil ratfikasiyası bizim üçün fövqəladə dərəcədə mühüm və zəruridir. Ona görə, mən sizdən artıq dərəcədə xahiş edirəm, Qars müqaviləsinin hər bir respublika tərəfindən ayrılıqda ratfikasiya olunması və bu işin sürətləndirilməsi istiqamətində müvafiq qərar qəbul edilməsi üçün yoldaş Nərimanovla əlaqəyə girməkdən imtina etməyəsiniz".[219] Yusuf Kamal bəyin bu açıq iza-

[219] İ.Əbilovun Yusuf Kamal bəylə söhbəti. 26.01.1922.// AR DA, f.28, s.1, i.68, v.17-20

hatlarından sonra İ.Əbilov dedi: "Əgər bu məsələ həqiqətən sizi belə maraqlandırırsa, mən şəxsən yoldaş Nərimanovla əlaqəyə girib, ondan xahiş edərəm ki, ratfikasiya haqqında məsələni sizin üçün uyğun formada həll etməyə cəhd göstərsin".[220]

Yusuf Kamal bəy Qars müqaviləsinin ratifikasiyanı sürətləndirməyi Rusiyanın Ankaradakı diplomatik nümayəndəsi V.Mixaylovdan da xahiş etmişdi. Yanvar ayının 24-də Mixaylov Moskvaya göndərdiyi teleqramda Çiçerinə yazırdı ki, Yusuf Kamal Cənubi Qafqaz federasiyasının yaranmasının Qars müqaviləsinin taleyi üçün təhlükə yaradacağından narahatdır. Rusiyanın səlahiyyətli nümayəndəsi belə hesab edirdi ki, Cənubi Qafqaz respublikaları Qars müqaviləsini birinci ratifikasiya etsələr, bu Bəkir Sami qrupunun Cənubi Qafqaz federasiyasının yaranması ilə bağlı bizim haqqımızda yaydığı söz-söhbətə də son qoyar.[221]

Cənubi Qafqaz federasiyası haqqında Türkiyədə çoxlu söz-söhbət yaranmışdı. İstanbul qəzetləri bunu rus imperializminin Qafqazda güclənməsi kimi şərh edirdilər. Sovet diplomatik idarələrinin məlumatına görə, bəzi rəsmi dairələr bu məsələyə bir qədər fərqli bucaqdan yanaşırdılar. Onlar hesab edirdilər ki, "federasiya Moskvanın Qafqazda təsirini gücləndirəcək və türklər üçün daim hoqqa çıxaran Cənubi Qafqaz dövlətlərinin xarici siyasətində "seperatizmi" aradan qaldıracaq".[222] Türkiyədəki Azərbaycan mühacirləri federasiyanın yaranmasını müstəqilliyin tamam itirilməsi kimi, anlatdıqlarından İ.Əbilov səfirlik əməkdaşlarının qarşısında bu federasiya haqqında geniş məruzə ilə çıxış etdi. O qeyd edirdi ki, müsavatçılar Millətlər Cəmiyyətinə onların Azərbaycan hökumətini tanımamaları barədə müraciət ediblər və bununla onlar Azərbaycanı bolşevizmin Şərqə yayılması yolunda bir səddə çevirmək istəyirlər. İ.Əbilov çox açıq şəkildə göstərirdi ki, iqtisadi, siyasi və inzibati əlaqələr olmadan Cənubi Qafqaz respublikaları ayrı-ayrılıqda yaşaya bilməzlər.[223] Bütün bunların nəticəsi olaraq, Türkiyənin ciddi səylərindən sonra Qars müqaviləsinin ratfikasiya edilməsi məsələsi Azərbaycan KP MK Siyasi və Təşkilat Bürosunun 1922-ci ilin fevral ayının 14-də keçirilən iclasında Azərbaycan MİK-in mart ayının əvvəllərində ça-

[220] Yenə orada, v.20

[221] V.Mixaylovun G.Çiçerinə teleqramı. 24.01.1922.// RDSSTA, f.5, s.1, i.2204, v.18

[222] V.Mixaylovun Q.Orconikidzeyə məktubu. 17.01.1922.// RDSSTA, f.85, s.c/Türkiyə, i.96, v.58-59

[223] Türkiyədə Azərbaycan səfirliyinin əməkdaşlarının və kommunist özəyi iclasının 9 saylı protokolu. 31.01.1922.// RDSSTA, f.64, s.1, i.136, v.4-5

gırılacaq sessiyasının gündəliyinə salınmasını təklif edildi.[224] Buna görə də, müqaviləni birinci olaraq, 1922-ci ilin mart ayının 3-də Azərbaycan, mart ayının 17-də Türkiyə Böyük Millət Məclisi, mart ayının 20-də Ermənistan və iyun ayının 14-də Gürcüstan hökuməti tərəfindən ayrı-ayrılıqda ratfikasiya edildi. Ratfikasiya edilmiş sənədlərin mübadiləsi 1922-ci ilin sentyabr ayının 11-də İrəvan şəhərində həyata keçirildi.[225]

Qeyd etmək lazımdır ki, 1921-ci ilin payızında kamalçılar fransızlarla da danışıqlar aparırdılar. Bu danışıqlarda Rusiyanın əleyhinə bəzi şeylərin olacağından ehtiyatlanan sovet səlahiyyətli nümayəndəsi Kamal paşaya anlatmışdı ki, Fransa ilə hazırlanan sazişdə sovetlərin əleyhinə müəyyən məsələlərə yol verilərsə, Sovet Rusiyası bəzi tədbirlər görmək məcburiyyəti qarşısında qalacaq. Bu tədbirlər sırasına o, rusların təsiri ilə İngiltərənin bu sazişi tanımayacağını, sovetlərin öz qüvvələrini strateji baxımdan daha əlverişli mövqelərə çıxarmaq üçün, Qafqazda hərbi təlimlərə başlayacağını, Rusiyada saxlanılan yunan hərbi əsirlərinin Yunanıstana qaytarılacağını aid etmişdi. XXİK-ın kollegiyası hesab edirdi ki, hələlik bu təhdidlərlə kifayətlənmək lazımdır. XXİK RKP MK Siyasi Bürosuna yazırdı ki, Türkiyədə sovetlərin ən güclü silahı türk əhalisinin geniş dairələrinin Sovet Rusiyasına olan rəğbət və ənvərçilərin Rusiya tərəfində olmasıdır. Sənəddə göstərilirdi: "Nasarenus, bu məsələlərdə bizimlə birgə addımlayan ənvərçiləri başa salıb ki, belə məzmunda olan bir müqaviləni tanımasınlar". Xarici İşlər Komissarlığı təklif edirdi ki, Kamal paşanın sovetləri əmin etdiyinin əksinə olaraq, müqavilədə Sovet Rusiyasının əleyhinə bir şey olardısa, güc nümayiş etdirmək üçün Qafqazda hərbi təlimlərə başlamaq lazımdır. Orada deyilirdi: "Bu məsələ ilə bağlı xüsusi olaraq, Lev Davidoviçlə *(Trotski – C.H.)* danışmaq lazımdır. Məhz, Budyonnı indi banditizmin kökünün kəsilməsi ilə bağlı öz işini başa çatdırır, onun Qafqaza hərəkət etməsi türk idarəçilərinə müstəsna dərəcədə güclü təsir göstərmiş olardı. Əlbəttə, bunu türk hökuməti bizə xəyanət etdiyi halda etmək lazımdır". [226] Əslində, 1921-ci ilin avqustunda Ukrayna Sovet Respublikasının Türkiyədə fövqəladə səlahiyyətli nümayəndəsi təyin edilmiş Mixail Frunzenin sovet sərkərdələrindən biri

[224] Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat bürosu iclasının 6 saylı protokolu. 14.02.1922.// ARPİİ SSA, f.1, s.74, i.126, v.57

[225] Bax: Документы внешней политики СССР. T. IV, M.: Госполитиздат, 1960, с.429; Kars müqaviləsi, Карсский договор, Kars muahedenamesi, Traite de Kars.Bakı, 2004. s.18

[226] XXİK-nın RKP MK Siyasi Burosuna təklifləri.17.10.1921.// RDSSTA, f.17, s.163, i.201, v.7-8

kimi, həmin ilin oktyabr ayında Rusiya XXİK-ın təlimatları ilə Ankaraya göndərilməsi, bir tərəfdən, geniş türk kütlələrinin rəğbətini qazanmaq zərurətindən irəli gəlirdisə, digər tərəfdən, onun qarşısına Ankaranın hərbi gücünü öyrənmək vəzifəsi qoyulmuşdu. Frunzeyə verilən təlimatlarda göstərilirdi: "Türkiyə tərəfindən bizi hansı real təhlükənin gözlədiyi və Türkiyənin hərbi vəziyyəti barədə hərbi mütəxəssisin rəy verməsi bizim üçün zəruridir. Çalışın ki, türk ordusunun vəziyyəti, onun idarə edilməsi və gələcək mübarizə perspektivləri ilə əsaslı şəkildə tanış olasınız. Biz bilməliyik ki, türk ordusu döyüş qabiliyyəti olan ciddi hərbi amil kimi, nə vəziyyətdədir və nə vəziyyətdə olacaq. Biz bilməliyik ki, bu istiqamətdən bizə nə hazırlanır və bizi hansı sürprizlər gözləyir".[227] Məhz, bu təlimatlarla, Tiflisdə Boris Leqrandan aldığı 1.100.000 qızıl rubl pulla, səkkizi qızıl əsgər daxil olmaqla, 24 nəfərlik heyyətlə M.Frunze noyabrın 5-də Türkiyəyə yola düşmüş və dekabrın 13-də Ankaraya yetişmişdi.[228]

Qars müqaviləsi imzalanan gün, oktyabr ayının 13-də Türkiyə Fransa ilə də sazişi imzaladı və Türkiyə Böyük Millət Məclisi oktyabr ayının 20-də bu sənədi təsdiq etdi. On üç maddədən ibarət olan həmin sazişi xarici işlər naziri Yusuf Kamal bəy və Fransa Respublikasının keçmiş naziri Henrix Franklin Buyon imzalamışdı. Bu saziş bir qədər əvvəl imzalanmış ingilis-rus ticarət müqaviləsindən fərqli olaraq, daha çox siyasi məzmuna malik idi. Sənədin birinci maddəsi ilə müqavilə imzalanan andan tərəflər arasında hərbi əməliyyatlar dayandırılırdı. Sonrakı maddələrdə hər iki tərəfdən ələ keçirilmiş hərbi əsirlər və saxlanılmış mülki şəxslərin azad edilməsi, dəmiryol konsessiyası, kömrük məsələlərinin tənzimlənməsi, Hələblə türk əraziləri arasında su hövzələrinin ədalətli bölgüsü, Suriya və Türkiyə ərazilərində otlaqlardan istifadə edilməsi haqqında və sair məsələlər yer almışdı.[229] Göründüyü kimi, Türkiyə ilə Fransa arasında imzalanmış sazişdə Rusiya ilə bağlanmış Moskva müqaviləsinin və Qafqaz respulikaları ilə imzalanmış Qars müqaviləsinin əleyhinə olan hər hansı maddə yox idi. Bu saziş Türkiyənin Avropaya çıxışı istiqamətində ilk addımlardan biri idi.

[227] Sovet Rusiyası XXİK-nın M.Frunzeyə verdiyi təlimatlar. 03.10.1921.// RDSSTA, f.5, s.2, i.315, v.181-182

[228] Bax: Betül Aslan. Türkiye-Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.222; Ukrayna SSR-in Türkiyədəki səlahiyyətli nümayəndəliyinin siyashisi. 29.12.1921.// ARPİİ SSA, f.276, s.5, i.1, v. 49

[229] Türkiyə Fransa sazişinin mətni. 20.10.1921.// AR DA, f.6, s.1, i.134, v.103-108

Türkiyə-Fransa sazişi Ankaradakı sovet diplomatik idarələri tərəfindən süngü ilə qarşılandı. Saziş imzalanan günlərdə türk mətbuatının Sovet Rusiyasını imperialist adlandırması və "bolşeviklərin böyük dövlətçilik imperialismi siyasəti aparması" haqqında yazılar verməsi rusların narahatlığını daha da artırmışdı.[230] S.Nasarenus oktyabr ayının 21-də Moskvaya göndərdiyi şifrli teleqramda sazişin müəmmalı tərəflərinə toxunsa da, qeyd edirdi ki, Türkiyə hökuməti fransızların Rusiya və Qafqaz haqqında təklif etdiyi maddəni rədd etmişdir.[231] Sovet Rusiyasının səlahiyyətli nümayəndəliyinin katibi V.Mixaylov Q.Orconikidzeyə yazırdı ki, bu sazişlə Türkiyə "böyük sürətlə müttəfiqlərin cazibəsinə düşdü". Onun fikrincə, bu saziş haradasa bir il yarım ərzində Türkiyəni ikinci Misirə çevirəcəkdi. V.Mixaylov böyük "qayğıkeşliklə" yazırdı: "Türkiyəni hərraca qoyublar. Siyasətin böyük və kiçik alverçiləri – bələləri isə Türkiyədə həddindən artıq çoxdur - əllərini isidirlər".[232] Fransa ilə sazişin mətbuatda dərc olunan mətnini İ.Əbilov Bakıya göndərmişdi. Lakin o, belə hesab edirdi ki, əsas müqavilə gizli saxlanılır. O yazırdı: "Danışıqların gedişində Buyon türk hökumətinə təklif etmişdi ki, sovet respublikaları ilə əlaqələri kəssin və Cənubi Qafqaz respublikalarında keçmiş hökumətlərin bərpasına yardım etsin. Sonradan onların tələbi bu mənada yumuşaldıldı: türklər bu bərpaya mane olmasınlar. Məndə olan məlumata görə, türklər bu bəndi rədd ediblər. Mənimlə söhbətdə Mustafa Kamal paşa və Yusuf Kamal bəy əmin etdilər ki, Qərb dövlətləri ilə sazişlər heç bir halda, Sovet respublikalarının maraqları ilə ziddiyyət təşkil etməyəcək və bizim dostcasına qarşılıqlı münasibətlərimizıə qarşı yönəlməyəcəkdir".[233] Eyni zamanda, İ.Əbilov hərbi əsirlərin dəyişdirilməsi barədə belə bir sazişin İngiltərə ilə imzalandığını da bildirirdi. O yazırdı ki, ingilislər tərəfindən Maltada azad olunmuş 50 türk əsiri artıq, İnəboluya gətirilmişlər və yaxın günlərdə Ankarada olacaqlar. İ.Əbilov Noezi başda olmaqla, İtaliya hökumət missiyasının da oktyabrın 24-də Türkiyəyə gəldiyini bildirirdi. O, Q.Orconikidzeyə yazırdı: "Bir şey aydındır ki, Antanta türklərin son qələbəsini və onların Şərqə daim artan təsirini nəzərə alaraq, Kiçik Antanta yaratmaq və kiçik dövlətləri bir-birinin üzərinə sal-

[230] S.Nasarenusun G.Çiçerinə teleqramı. 30.10.1921.// RDSSTA, f.17, s.84, i.104, v.117

[231] S.Nasarenusun G.Çiçerinə teleqramı. 21.10.1921.// RDSSTA, f.2, s.2, i.990, v.2

[232] V.Mixaylovun Q.Orconikidzeyə məktubu. 08.11.1922.// RDSSTA, f.85, s.c/Türkiyə, i.96, v.39

[233] İ.Əbilovun M.D.Hüseynova məktubu. 08.11.1921.// ARPİİ SSA, f.609, s.1, i.94, v. 131(arxası)

maq ideyasını arxa plana keçirmiş, bütün güclərini Şərq məsələsinin dinc həllinə yönəltmişdir. Kamalçılarla sovet respublikaları arasında daha sıx yaxınlaşmadan ehtiyat edərək, Türkiyənin bu respublikalarla dostluq münasibətlərini pozmaq üçün Antanta türklərin simasında sovet respublikaları ilə Şərq arasında möhkəm sədd yarada bilməsi məqsədilə görünür ki, bir sıra güzəştlərə gedəcəkdir".[234] Ankaradakı sovet nümayəndəliyinin Çiçerinə məlumatında göstərilirdi ki, italyalılar ticarət işləri adı altında gəldiklərini bildirsələr də, türk rəsmilərindən heç kəs gizlətmir ki, onların İtaliya hökuməti adından Türkiyə ilə müqavilə bağlamağa səlahiyyətləri vardır.[235] Ümumiyyətlə, Sovet diplomatik nümayəndəliyi tərəfindən hazırlanan geniş arayışda Türkiyənin Fransa, İtaliya və İngiltərə ilə apardığı danışıqlar barədə həyacanlı məlumatlar var idi.[236] Leonid Krasinin Londondan Lenin, Trotski və Stalinə göndərdiyi şifrli teleqram bu həyacanı daha da artırmışdı. Orada göstərilirdi: "Ciddi mənbənin məlumatına görə, Ankara müqaviləsinin bütün Cənubi Qafqazın işğalını və bolşeviklərin oradan qovulmasını nəzərdə tutan gizli maddəsi vardır. Arxasında A.Brianın dayandığı bu plan, Cənubi Qafqazın keçmiş burjua hökumətləri bloku tərəfindən müdafiə edilir... Ermənilər əvvəlcə qırğından ehtiyat edərək, mane olmaq istəyiblər, lakin Ankara təminat verib ki, yürüş zamanı onlara toxunmayacaqlar. Ənvər paşanın dəstəsi müəyyən məqamda sovet hökumətini satacaq və Cənubi Qafqazın türklər tərəfindən işğalına kömək edəcəkdir. Diqqəti yayındırmaq və qüvvələri Cənubi Qafqazdan çıxarmaq üçün Polşa, Rumıniya və Kareliyanın hücumu ilə bizi qorxudacaqlar. Hücumun Qars və Acarıstan vasitəsi ilə olacağı güman edilir. Məlumatı ciddi hesab edirəm. Ola bilsin ki, bu planla Brian ingilisləri Ankara müqaviləsi ilə barışdırmağa cəhd edəcək".[237] Krasinin teleqramı ilə bağlı Lenin Stalinə yazırdı ki, "Krasinin verdiyi bu məlumatlar həqiqətə çox uyğundur və müstəsna dərəcədə mühümdür. Orconikidze gələn kimi, Çiçerinlə birlikdə bu məsələ ilə bağlı müşavirə keçirmək, məsələni Siyasi Büroya qoymaq üçün bir sıra təkliflər hazırlamaq zəruridir".[238]

[234] İ.Əbilovun Q.Orconikidzeyə məktubu. 16.11.1921.// RDSSTA, f.85, s.c/Türkiyə, i.96, v.45-45(arxası)

[235] Ankaradakı sovet diplomatik nümayəndəliyinin G.Çiçerinə arayışı. Noyabr-dekabr 1921.// RDSSTA, f.85, s.c/Türkiyə, i.96, v.47(arxası)

[236] Bax: Yenə orada, v.47-49(arxası)

[237] L.Krasinin V.Lenin, L.Trotski və İ.Stalinə şifrli teleqramı. 13.11.1921.// RDSSTA, f.2, s.1, i.22439, v.4

[238] V.Leninin İ.Stalinə xidməti qeydi. 17.12.1921.// RDSSTA, f.2, s.1, i.22439, v.2

Qars müqaviləsi imzalandıqdan bir həftə sonra G.Çiçerin V.Leninə Türkiyə siyasəti ilə bağlı izahedici məktubla müraciət etdi. O, Ali Fuad paşanın müraciətlərinə və Qars danışıqlarının materiallarına əsasən bildirirdi ki, əgər türklər öz ehtiyaclarını ödəmək üçün bizdən istədikləri yardımı ala bilməsələr, onlar Antanta ilə sazişə gedəcəklər. G.Çiçerin yazırdı: "Kamal bizə qarşı açıq müharibə apara bilməz, o, bunu istəmir də, bu onun bütün populyarlığını məhv edə bilər. Lakin o, Gürcüstan hökumətinin sovetləşməyə qədər etdiyi kimi, dəstələr göndərmək və antisovet ünsürləri pulla müdafiə etmək yolu ilə Qafqazda bizim üçün xoşagəlməz vəziyyət yarada bilər. Nərimanovun sözlərinə görə - əgər o, doğru deyirsə, - Azərbaycanda sovet hakimiyyəti kifayət qədər möhkəmlənməyə müvəffəq olmuşdur, Naxçıvanda isə, türklər özlərinə qarşı nifrət oyada biliblər, belə ki, Kamalın cəbhəni dəyişməyə məcbur olması yarım il əvvəl olduğu qədər Bakı üçün elə bir təhlükə təşkil etmir".[239] Buna Çiçerin xarici düşmənlərə qarşı mübarizənin Anadolunu zəiflətməsi və türk cəmiyyətində sovetlərə rəğbətin artmasını da əlavə edirdi. Bununla belə, o, Gürcüstanda, xüsusilə, Batumda türklərin sovetlərə narahatçılığ yarada biləcəyini istisna etmirdi. Ona görə də, Çiçerin bu rayonda sovet ordusunun gücləndirilməsini təklif edirdi. Eyni zamanda, noyabr ayının 5-də Stalinə yazdığı məktubda Çiçerin xəbərdarlıq edirdi ki, Türkiyənin müsəlman şərqində xüsusi rolu bizim Şərq siyasətimizə güclü şəkildə təsir göstərə bilər.[240] Əlbəttə, Stalin bütün deyilənlərin fərqində idi və o, türk təhlükəsini daha qorxunc hesab edirdi. Onun fikrincə, Gürcüstanın sovetləşməsindən sonra RK(b)P MK-nın Qafqaz Bürosunun yaranması və Tiflisdə yerləşən bu Büroya rəhbərlik etmək üçün Q.Orconikidzenin Bakıdan Gürcüstan paytaxtına gəlməsi tamamilə yanlış addım idi. İ.Stalin 1921-ci ilin sonlarında V.Leninə göndərdiyi məktubda təklif edirdi ki, RK(b)P MK-nın Təşkilat Bürosunun qərarı ilə Q.Orconikidzeni Tiflisdə deyil, daimi olaraq, Bakıda oturtmaq lazımdır. Stalin yazırdı: "Orconikidzeyə təlimat verilməlidir ki, Bakıya səpələnmiş Türkiyədən olan "mehriban adamları" diqqətlə izləsin və sonra mütləq onları Azərbaycandan qovsun. Nəzərə alın ki, Bakıya ciddi təhlükə türklərdən gəlir."[241]

[239] G.Çiçerinin V.Leninə məktubu. 20.10.1921.// RDSSTA, f.558, s.11, i.388, v.2-2(arxası)

[240] G.Çiçerinin İ.Stalinə məktubu. 05.11.1921.// RDSSTA, f.159, s.2, i.57, v.84

[241] İ.Stalinin 1921-ci ildə V.Leninə göndərdiyi bu məktubun surəti ilə tanış olmaq üçün bax: The National Security Archive at the George Washington University, Box 2, 1920-1922. Russian and Eastern Archive Documents, R 10087

G.Çiçerinin V.Leninə məktubunda toxunulan ciddi məsələlərdən biri ənvərçilərə münasibət məsələsi idi. O, qeyd edirdi ki, əgər Türkiyə Böyük Millət Məclisi müqaviləni təsdiq edəcəksə, ənvərçilər haqqında məsələ bütün ciddiyyəti ilə bizim qarşımızda duracaq. Çiçerinin etirafına görə, onsuz da, sovetlər maliyyə məsələlərində türklərlə üz-üzə gəlmişdilər. O yazırdı: "Əgər biz Ənvərə böyük həcmdə maliyyə vəsaiti verməsək, onun bütün cəhdləri ümidsiz olacaq. Əgər o, hakimiyyətdə olacaqsa, Kamalçıların qarşısında dayanan maliyə çətinlikləri, daha böyük həcmdə onun da qarşısında dayanacaq və bizdən böyük yardım və kredit almadan o, uzun müddət dözməyəcəyək. Əgər biz Ənvəri müdafiə etmək yolunu tutsaq, özümüz üçün aydınlaşdırmalıyıq ki, bu müdafiənin başa gəldiyi çox baha qiyməti biz ödəyə biləcəyikmi? Buna əsaslı surətə baxmaq lazımdır. Ənvərlə daha artıq yaxınlaşma olacaq, lakin, bu yaxınlaşma, kamalçılarla bizim aramızda təbii soyuqlaşmanın nəticəsi kimi olacaq. Camal paşa Ənvərlə bağlıdır. Bizim Əfqanıstanla müqaviləmiz onun hesabına başa gəldi. Onsuz da, kamalçıların orientasiya dəyişikliyi ilə bağlı, Camal paşa haqqında məsələ daha aktuallıq kəsb edir".[242] Bununla yanaşı, Çiçerin onu da, bildirirdi ki, Əfqanıstanda sovet tərəfdarlarının başlıca dəlili Rusiyanın Kamalla dostluq etməsi faktıdır və onun fikrincə, Kamalın cəbhəni dəyişməsi sovetlərin Əfqanışstanla münasibətlərinə ciddi təsir göstərəcəkdi.[243] Sovet Rusiyası xarici işlər komissarının ölkə hökumətinin başçısına olan bu izahatından aydın olur ki, Moskva və Qars müqaviləsindən sonra da sovetlər kamalçılarla ənvərçilər arasında tərəddüd edir, Türkiyəyə münasibətdə vahid bir qərara gələ bilmirdilər. Lakin son anda sovet rəhbərliyi kamalçılarlarla əməkdaşlığa üstünlük verdilər. 1921-ci ilin sonlarında S.Kirov Q.Orconikidzeyə məlumat verirdi ki, Xəlil paşanın Azərbaycanda gizlənmək niyyəti və yayılan məlumata görə, guya, onun Naxçıvan respublikasında üsyan qaldırmaq planı vardır. S.Kirov eyni zamanda, Batumdan bir sıra ənvərçilərin Azərbaycana toplaşdığını bildirirdi. O, təklif edirdi ki, Xəlil paşanı Azərbaycandan çıxarıb, qalanlarını həbs etmək lazımdır.[244]

Sovetlərin ənvərçiləri Qafqazdan çıxarmaq cəhdləri bir sıra səbəblərlə yanaşı, Ənvər paşanın Mustafa Kamal paşa ilə birləşməsindən ehtiyatlanmaları ilə bağlı idi. Ankaradakı Rusiya nümayəndəliyinin katibi V.Mixaylov 1921-ci ilin noyabr ayının 8-də Q.Orconikidzeyə yazırdı: "mən qorxuram

[242] G.Çiçerinin V.Leninə məktubu. 20.10.1921.// RDSSTA, f.558, s.11, i.388, v.2(arxası)

[243] Yenə orada, v.2(arxası)

[244] S.Kirovun Q.Orconikidzeyə teleqramı. 30.11.1921.// RDSSTA, f.85, s.13, i.92, v.1

ki, Ənvər onlarla *(kamalçılarla – C.H.)* sövdələşməyə gedə bilər".[245] Ankaradakı Rusiya səlahiyyətli nümayəndəliyindən Çiçerinə yazılırdı ki, Mustafa Kamal paşa "İttihad və Tərəqqi" partiyası tərəfindən bir sıra siyasi güzəştlər müqabilində ənvərçiləri hökumətə daxil etmək məqsədilə Ənvər paşa ilə danışıqlar aparmaq istəyir. Bununla bağlı o, məclis üzvü Hilmi bəyi Moskvaya göndərmək fikrindədir. Sovet səlahiyyətli nümayəndəliyi bu sövdələşmənin baş tutub-tutmamasını Moskvanın Ənvər paşaya təsirindən asılı edirdi.[246] Nəhayət, 1922-ci ilin yanvar ayının 3-də Ankaradakı Sovet Rusiyası səlahiyyətli nümayəndəliyinin katibi V.Mixaylov Q.Orconikidzeyə məktubunda etiraf edirdi ki, "Türkiyədə nə qədər çox yaşayırsansa, bir o qədər çox əmin olursan ki, bizim Ənvərin qoltuq cibində saxladığımız daş yalnız Kamala aid olan daşdır. O, Türkiyədə sosial tərkibi əhəmiyyətli dərəcədə dəyişməyəcək, hakimiyyətdə əhəmiyyətli irəliləyişlərə də gətirib çıxarmayacaq. Bizim Türkiyədə möhkəm təsirimizin qurulması mənasında biz mövcud şəraitdə, Kamalın dövründə də kifayət qədər yaxşı işləyə bilərik. O, müəyyən qədər opportunistdir və qərarsızlığa da meyllidir, lakin onun üzərində təsirə malik olmaq asandır və fasiləsiz olaraq, öz siyasi təsirimizlə onu Rusiyaya tərəf çəkə bilərik".[247] Bu fikirlərini Mixaylov yanvar ayının 9-da Çiçerinə də yazırdı. O, yazırdı ki, "bizim siyasi istinadımız uzun dövr üçün və ciddi tərzdə Mustafa Kamala olmalıdır. Onun hakimiyyətini açıq və möhkəm şəkildə müdafiə etmək zəruridir. Ənvərlə oyunu dayandırmaq lazımdır...O, olsa-olsa Mustafa Kamalın şəxsi əleyhdarıdır. Mustafa Kamalı öz adamımız etmək mümkündür və lazımdır. Ona görə, Ənvəri uzaqlaşdırmalıyıq, əks təqdirdə, bizim onunla oynamağımız Türkiyədə bütün siyasətimizi pozacaqdır. Məsələn, Batum şərgüzəşti Türkiyəyə münasibətdə acınacaqlı rol oynadı".[248]

Diplomatik və hərbi nümayəndələr vasitəsi ilə Ankaradan alınan və bir-birini təkzib edən məlumatların çoxluğuna baxmayaraq, Sovet Rusiyasının rəhbərliyi yaxşı anlayırdı ki, Türkiyə sovetlərə hücum etmək imkanına malik deyildir. Az əvvəl Trotskini Cənubi Qafqazda hərbi hazırlıq işlərini

[245] V.Mixaylovun Q.Orconikidzeyə məktubu. 08.11.1922.// RDSSTA, f.85, s.c/Türkiyə, i.96, v.40(arxası)

[246] Ankaradakı sovet diplomatik nümayəndəliyinin G.Çiçerinə arayışı. Noyabr-dekabr 1921.// RDSSTA, f.85, s.c/Türkiyə, i.96, v.49(arxası)

[247] V.Mixaylovun Q.Orconikidzeyə məktubu. 03.01.1922.// RDSSTA, f.85, s.c/Türkiyə, i.96, v.57

[248] V.Mixaylovun G.Çiçerinə teleqramı. 09.01.1922.// RDSSTA, f.5, s.1, i.2204, v.8

gücləndirməyə sövq edən Çiçerin noyabr ayının sonlarında onu inandırmağa çalışırdı ki, "Türkiyə sadəcə olaraq indiki vaxtda bizə qarşı müharibə aparmaq qabiliyyətinə malik deyildir". Bunu o, Moskva müqaviləsindən sonra geniş kütlələrin sovetlərə rəğbətinin artması, türk millətçilərinin İstanbul boğazlarını ələ keçirmiş İngiltərəyə nifrətinin güclü olması, "Qafqazın özünün türkləri istəməməsi və türk ordusunun orada olmasından sonra yalnız, Azərbaycanda deyil, Naxçıvanda da əhalinin onları görmək istəməməsi" ilə izah edirdi.[249] Şübhəsiz ki, Çiçerinin sonuncu fikri rəhbərlikdə olan Azərbaycan bolşeviklərinin Moskvaya yarınmaq üçün göndərdikləri, rellıqdan uzaq olan məlumatların, hesabatların və məktubların yanlış təzahürü idi.

1921-ci ilin dekabr ayında Ankaradakı Azərbaycan səfirliyi böyük həvəslə işə başladığı bir vaxtda Bakıda və Moskvada baş verən iki hadisə İ.Əbilovu məyus etdi. Həmin vaxt Azərbaycanda əsasən N.Nərimanova yaxın olan müsəlman kommunistlərinə qarşı başlamış təmizləmə kampaniyası bir vaxtlar menşevik qrupunda olmuş İbrahim Əbilovdan da yan keçmədi. Rəhbərliyi daha çox erməni və rusların əlində olan Bakı şəhər partiya təşkilatı B.Şahtaxtinski, İ.Əbilov, Ə.Şirvani kimi, diplomatik işdə fəallıq edən kommunistləri partiya sıralarından azad etdi. B.Şahtaxtinski partiya sıralarından azad edilməzdən bir neçə gün əvvəl AKP MK-nın Siyasi və Təşkilat Bürosunun iclasında İrana səlahiyyətli nümayəndə təyin edilmişdi.[250] Hətta, fraksiyaçılar Nərimanovun özünün belə, işdən azad ediməsini tələb edirdilər. Q.Orconikidze Lenin və Stalinə yazırdı ki, "Nərimanovun devrilməsi məsələsi qoyulmuşdur. İndi onu saxlamaq elə də, asan məsələ deyildir. Nərimanov məsələsində R.Axundov və M.D.Hüseynova inanmaq olmaz".[251] Bütün bunları nəzərə alaraq, N.Nərimanov bu şəraitdə işləməyin qeyri-mümkünlüyünü görüb, ədəbi yaradıcılıqla məşğul olmaq adı altında işdən getmək haqqında Azərbaycan KP MK Siyasi Bürosuna ərizə ilə müraciət etmişdi. Lakin onun müraciəti geri qaytarılmışdı.[252] Xarici İşlər Komissarlığından Əbilova məlumat verirdilər ki, "partiya təşkilatlarında təmizlənmə başlamışdır. Həmin təmizlənmə sizə də toxundu... Hətta, B.Şahtaxtinski də,

[249] G.Çiçerinin L.Trotskiyə məktubu. 21.11.1921.// RDSSTA, f.159, s.2, i.57, v.88

[250] Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat bürosu iclasının 33 saylı protokolu. 28.11.1921.// ARPİİ SSA, f.1, s.2, i.18, v.160

[251] Q.Orconikidzenin V.Lenin və İ.Stalinə teleqramı. 21.12.1921.// RDSSTA, f.85, s.18, i.99, v.1-1(arxası)

[252] N.Nərimanovla onun əleyhdarları arasında mübarizə haqqında geniş məlumat üçün bax: Йорг Баберовски. Враг есть везде. Сталинизм на Кавказе. Москва, 2010, с.272-278

partiyadan kənar qaldı. Sizinlə bağlı əvvəl dava-dalaş düşdü. Lakin şəhər komissiyası səni "azad" etdi".[253] Bu xəbər Ankarada böyük həvəslə işə başlayan İ.Əbilovun qol-qanadını sındırdı. RSFSR-in Türkiyədəki səlahiyyətli nümayəndəliyinin katibi Mixaylov Q.Orconikidzeyə yazırdı: "Nəzarət komissiyası ilə bağlı məsələ yoldaş Əbilova dəhşətli dərəcədə təsir etmişdir, müəyyən dərəcədə onu yolundan sapdırmışdır və onun əlini işdən soyutmuşdur. Mən əminəm ki, bu hansısa bir anlaşılmazlıqdır, partiyadan kənarlaşdırılmış bu saç-saqqalı ağarmış partiya işçisinin oturub ağladığını gördükdə, mən bizim partiya formalistlərini ədəbsiz sözlərlə xatırladın".[254] Doğrudan da, bu anlaşılmazlıq uzun sürmədi. N.Nərimanov İ.Əbilovla bağlı dekabr ayının 16-da AKP MK-ya müraciət etdi. O, Əbilovu proletar inqilabın ən sadiq nümayəndələrindən biri kimi xarakterizə edirdi. [255] Yalnız bundan sonra Nəriman Nərimanovun zamin durması ilə İbrahim Əbilov 1921-ci ilin dekabr ayının 22-də Kommunist Partiyasının sıralarına bərpa olundu.[256] Xarici işlər komissarlığından Əbilova yazırdılar ki, "Nərimanov səninlə bağlı Mərkəzi Komissiyaya müraciət etdi və yalnız bu günlərdə səni AKP üzvü hüququnda partiyaya bərpa etdilər. Bununla da sizin geri çağrılmanızla bağlı iztirablarınız və həyacanlarınız arxada qaldı".[257]

Türkiyənin Sovet Rusiyasından tədricən uzaqlaşıb, Fransa, İngiltərə və İtaliya kimi, Qərb ölkələri ilə yaxınlaşma ehtimalından narahatlıq keçirən Nəriman Nərimanov Azərbaycanın səlahiyyətli nümayəndəsinə təlimat xarakterli bir məktubla müraciət etmişdi. O yazırdı: "Əziz yoldaş, İbrahim, teleqramınızı və axırıncı məktubunuzu oxudum. Bu vaxta kimi apardığınız xətti-hərəkət düzdür. Ümid edirəm, bundan sonra da, səhviniz olmasın. Bir şeyi gərəkdir unutmayaq: Rusiya və Türkiyə tərəfindən müəyyən şəxslər vardır ki, istəyirlər, aranı qarışdırmağa. Siz burada olarkən mən deyirdim daşnaklar bu yolda işləyirlər. İndi məlum olur ki, Zaqfqaziyanın tamam əksinqilabçıları bu fikirdə birləşib, gözəl Qafqazı yenə də qan ocağına döndərmək istəyirlər. Bir neçə türk aferistləri hazır bu yolda işlərkən, işin aqibətini kor gözləri ilə görməyirlər. Bu aferistlərdən Gürcüstan ve Ermənistanda da az deyildir. Çiçerinin Şərq siyasətində işlətdiyi fikirlər büsbütün yanlışdır. İran bizdən bilmərə üz çöndərdi... İndisə Türkiyə haqqında böyük səhvlər edir. Bununla Türkiyənin səhvləri də yox deyildir. Bir balaca qanadlandıqda aferistliyə ayaq qoyur. İslam məmləkətlərinin birləşməsi şüarını buraxır. Mənimcə, hərgah, Türkiyə istəyirsə, yaşasın, bu fikirdən gərəkdir əl çəksin. Tamam bəla bundadır və bu şüarla da Türkiyə öləcəkdir... Bizim borcumuzdur hər iki tərəfi düşündürmək. Çiçerinin siyasəti barəsində böyük bir doklad yazıb göndərdik. Var qüvvəmiz ilə tənqid etdik. Siz isə gərəkdir orada bütün gücünüzü bu yolda sərf edəsiniz. Başa salasınız, Rusiya ilə əlaqələrini pozmayalar. Hər gah Türkiyə doğrudan xüsusi mənfəəti üçün yox, ümum mənfəət üçün Şərqin xilasını istəyirsə, gərəkdir Rusiyaya yaxınlaşsın. Biz ancaq Rusiya şüarı ilə Şərqi xilas edə biləcəyik... *(Türkiyə - C.H.)* tək öz mənafeyi üçün bütün Şərqi qurban edərsə, özü də, qurban olub bitəcəkdir... Buna mən əminəm. Bolşevik imperializması türkləri çaşdırırsa, o da, onların səhvləridir. Bolşevik imperializması Avropanın inqilabları üçündür. Avropada biz istədiyimiz inqilab meydana gələrsə, bolşevik imperializması özü-özündən yox olacaqdır. Bu cür nazik mətləbdən bunu düşünmək gərəkdir".[258]

İ.Əbilov üçün ikinci gözlənilməz xəbər 1921-ci ilin dekabr ayının 8-də RK(b)P MK Siasi Bürosunun G.Çiçerinin təklifi üzrə Sovet Rusiyası və milli respublikaların səlahiyyətli nümayəndələrinin qarşılıqlı münasibətləri haqqında məsələnin müzakirəsi və müvafiq qərarın qəbul edilməsi idi. Orada göstərilirdi ki, müttəfiq sovet respublikalarının xaricdəki nümayəndələri RSFSR-in səlahiyyətli nümayəndəsinə tabe edilsin. Müəyyən məsələlərə münasibətdə onlar arasında fikir ayrılıqları olardısa, RSFSR nümayəndəsinin qərarı icra olunmalı idi. Belə ki, yaranmış fikir ayrılıqları ilə bağlı RSFSR-in səlahiyyətli nümayəndəsi Moskvaya müraciət etməli və Moskvada bu məsələ mərkəzi idarələrlə müvafiq respubliklar arasında razılaşdırılmalı idi.[259] G.Çiçerinin təqdimatı ilə həmin gün Siyasi Büro digər bir qərar da qəbul etmişdi. "Sovet respublikalarının müqavilə bağlama qaydaları haqqında" Siyasi Büronun qərarında göstərilirdi ki, sovet respublikaları qabaqcadan RSFSR XXİK ilə razılaşdırmadan heç bir müqavilə imzalaya

[253] Azərbaycan XXİK-nın Azərbaycanın Türkiyədəki səlahiyyətli nümayəndəsinə məktubu. 02.1.1922.// ARPİİ SSA, f.276, s.5, i.1, v. 65

[254] V.Mixaylovun Q.Orconikidzeyə məktubu. 01.11.1921.// RDSSTA, f.85, s.c/Türkiyə, i.96, v.55

[255] N.Nərimanovun AKP MK-ya məktubu. 16.12.1921.// ARPİİ SSA, f.276, s.5, i.1, v. 126

[256] Bax: Betül Aslan. Türkiye – Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.219

[257] Azərbaycan XXİK-nın Azərbaycanın Türkiyədəki səlahiyyətli nümayəndəsinə məktubu. 02.1.1922.// ARPİİ SSA, f.276, s.5, i.1, v. 65

[258] N.Nərimanovun İ.Əbilova məktubu. 1922.// ARPİİ SSA, f.609, s.1, i.92, v. 115-119

[259] RK(b)P MK Siyasi Bürosu iclasının 7 saylı protokolu. 08.12.1921.// RDSSTA, f.17, s.3, i.242, v.2

bilməzdi. Belə respublikaların siyahisinin hazırlanması XXİK-ə və Millətlər Komissarlığına tapşırılırdı.[260] Əslində, bu məsələni Çiçerin hələ 1921-ci ilin oktyabr ayında qaldırmışdı. Qars müqaviləsi imzalandıqdan sonra o, belə hesab edirdi ki, Qafqaz respublikları öz xarici siyasətlərində Moskvanın təlimatlarını yerinə yetirməlidirlər. Onun təqdimatı ilə RKP MK Siyasi Bürosu bu barədə qərar qəbul etmiş və həmin qərar Qafqaz respublikalarına göndərilmişdi.[261]

Bu qərarlar ilk növbədə, Azərbaycana və onun xaricdəki nümayəndəliklərinə qarşı yönəlmişdi. Çünki, həmin vaxt, Azərbaycandan başqa, digər sovet respubliklarının onlarla qonşu olan ölkələrin həmsərhəd şəhərlərində bir sıra kiçik konsulluq idarələrini istisna etməklə xarici ölkələrdə səlahiyyətli nümayəndəlikləri yox idi. Qafqazda olan RSFSR-in səlahiyyətli nümayəndəsi B.Leqran G.Çiçerinə göndərdiyi diplomatik məlumatlarında sovet respublikalarının bir-birləri ilə və xarici ölkələrlə münasibətlər baxımından Azərbaycanın özünü həddindən çox müstəqil aparmasından narazılıq edirdi. O, qeyd edirdi ki, Qafqazda biz üç müstəqil hökumət (Azərbaycan, Ermənistan və Gürcüstan), iki muxtar vilayət (Naxçıvan və Acariya) və Abxaziya kimi, qeyri-müəyyən bir qurumla işləməliyik. Onun fikrincə, mərkəzi sovet hökuməti ilə yerli respublikaların hökumətləri arasında münasibətlər hələ də qeyri-müəyyən olaraq qalır. Xalq xarici işlər komissarlığının yerli orqanlarına gəldikdə isə, B.Leqran yazırdı: "Hazırda onlar Rusiya nümayəndəliyi ilə çox az bağlıdırlar və çalışırlar özlərini Rusiya missiyasının müdaxiləsindən mühafizə eləsinlər. Bu, və ya, digər məsələlərlə bağlı RSFSR XXİK-ə müraciət etmək qaçılmaz olduqda, onlar birbaşa sizə müraciyət etməyə üstünlük verirlər. Bu ilk növbədə, Azərbaycana aiddir...Əlbəttə, "müstəqil" psixologiya və digər şərtləri gözləməklə mən yoldaş Hüseynova təsir üsulu tapacağam, lakin bunu çox yumuşaq formada etmək lazım gələcəkdir".[262] B.Leqran təklif edirdi ki, sovet respublikaları və onların xaricdəki nümayəndələri mərkəzlə öz əlaqələrini RSFSR-in səlahiyyətli nümayəndəlikləri vasitəsi ilə qurmalıdırlar. B.Leqranın təklifləri üzrə RKP MK Siyasi Bürosu qərar qəbul etdi ki, Qafqaz respublikaları öz xarici siyasətlərini Moskvanın direktivləri əsasında həyata keçirməlidirlər.[263] Hətta, bu direktivi əsas tutaraq, oktyabr

[260] Yenə orada, v.2

[261] G.Çiçerinin İ.Stalinə məktubu. 27.10.1921.// RDSSTA, f.5, s.2, i.315, v.213

[262] B.Leqranın G.Çiçerinə məktubu. 18.10.1921.// RDSSTA, f.85, s.c/Türkiyə, i.100, v.5

[263] G.Çiçerinin İ.Stalinə məktubu. 28.10.1921.// RDSSTA, f.5, s.2, i.315, v.213

ayının 31-də keçirilən iclasında RK(b)P MK Qafqaz Bürosu Naxçıvan diyarının konstitusiyasını hazırlamağı Boris Leqrana tapşırdı.[264] Bir neçə gün sonra, noyabr ayının 3-də isə RKP MK Qafqaz Bürosu Cənubi Qafqaz respublikların bir-birində olan diplomatik nümayəndəliklərinin 7 gün ərzində ləğv ediməsi haqqında qərar qəbul etdi.[265]

RK(b)P MK Siyasi Bürosunun 8 dekabr qərarı qəbul olunan kimi, B.Leqran Azərbaycan rəhbərliyinə teleqram göndərək, onların məzmunu haqqında məlumat verdi. AK(b)P MK Siyasi və Təşkilat Bürosunun dekabr ayının 13-də keçirilən iclasında Leqranın teleqramı müzakirə edilib, S.Kirov və Ə. Şirvaniyə tapşırdı ki, bu qərarın mahiyyətini RKP MK və RSFSR-in XXİK ilə aydınlaşdırsınlar. Orada göstərilirdi: "Müvafiq izahatlar alınana qədər bu məsələ ilə bağlı Azərbaycan SSR-in nümayədəliklərinə heç bir sərəncam verilməsin".[266]

1921-ci ilin sonlarında Sergey Nasarenus Ankaradan geri çağrıldı. Yan Upmal-Anqorski, Polikarp (Budu) Mdivani kimi, Moskva onun işindən də razı deyildi. 1922-ci ilin yanvar ayının 5-də Semyon Aralov Sovet Rusiyasının Türkiyədə səlahiyyətli nümayəndəsi təyin edildi. O, Ankaraya gəldikdən sonra ilk görüşdüyü adamlardan biri İbrahim Əbilov oldu. Azərbaycanın səlahiyyətli nümayəndəsi S.Aralova Türkiyənin dövlət və ictimayi həyatı, Şərqdə dipmlomatik və siyasi işin xüsusiyyətləri, Ankaranın siyasi mühiti haqqında geniş məlumat verdi. 1922-ci ilin yanvar ayının 31-də Semyon Aralov etimadnaməsini Mustafa Kamal paşaya təqdim etdi və 1923-cü ilin aprel ayının sonlarına qədər Ankarada sovet diplomatiyasının mərkəzi simasına çevrildi.

Beləliklə, 1920-1922-ci illərdə kamalçılarla ittihadçılar arasında oynayan sovet siyasəti Mustafa Kamal paşanın yadellilər üzərində Sakarya qələbəsindən sonra müəyyən sabitlik dövrünə qədəm qoydu. İndi artıq sovet siyasətinin yolunda başağrısına çevrilmiş Ənvər paşanın siyasi və fiziki məhvi üçün müxtəlif planlar cızılırdı.

[264] RK(b)P MK Qafqaz Bürosu iclasının 11 saylı protokolu. 31.10.1921// RDSSTA, f.64, s.1, i.2, v.82

[265] RK(b)P MK Qafqaz Bürosu iclasının 23 saylı protokolu. 03.11.1921// RDSSTA, f.85, s.18, i.58, v.39

[266] Azərbaycan K(b)P MK-nın Siyasi və Təşkilat bürosu iclasının 35 saylı protokolu. 13.12.1921.// ARPİİ SSA, f.1, s.2, i.18, v.181

VIII FƏSİL

CƏNUBİ QAFQAZ FEDERASİYASINDAN SSRİ-YƏ DOĞRU: GENUYA KONFRANSI VƏ AZƏRBAYCAN

§1. Cənubi Qafqaz İttifaqının yaradılması və Azərbaycan

Sovet Sosialist Respulikalar İttifaqının yaranması ilə başa çatan 1922-ci il sovet respublikalarının xarici siyasət funksiyalarının sonu oldu. Hələ 1921-ci ilin axırlarından başlayan milli respublikalarda xarici ölkələrlə əlaqələrin məhdudlaşdırılması siyasəti 1922-ci ilin dekabr ayının 30-da ittifaq dövlətinin yaradılması ilə başa çatdı. Sovet respublikalarının bu hüququ bütövlükdə, mərkəzi dövlətə verildi və müstəqilliyin görüntüsü kimi, yerlərdə fəaliyyət göstərən xarici işlər komissarlıqları ləğv edildi. SSRİ-nin yaranması ilə Rusiyanın 1914-cü il hüdudlarında bərpası prosesi başa çatdı. Çar imperiyasını bolşevik imperiyası əvəz etdi.

SSRİ-nin yaranması prosesinin başlanğıcı Cənubi Qafqaz respublikalarının əvvəlcə maliyyə, təsərrüfat, nəqliyyat, poçt və rabitə sistemlərinin birləşdirilməsi, sonra isə siyası qurumlarının mərkəzləşdirilməsi və son nəticədə, Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının formalaşdırılması ilə qoyuldu. Bir sıra tarixçilər Cənubi Qafqaz federasiyası ideyasının N.Nərimanov və B.Şahtaxtinskidən gəldiyini yazsa da, əslində, bu ideya Moskvadan qaynaqlanırdı. Nəzərə almaq lazımdır ki, hələ QOELRO planında Qafqaz vahid iqtisadi rayon kimi təqdim edilir və Sovet Rusiyasının ilk iqtisadi planında məsələnin belə qoyuluşu Cənubi Qafqaz respublikaların gələcək birliyini özündə ehtiva edirdi.[1] 1921-ci ilin aprel ayının 11-də keçirilən Ümumrusiya Həmkarlar İttifaqının Mərkəzi Şurasının iclasında "Qafqaz respublikalarını vahid bir təsərrüfat məkanında birləşdirmək"

[1] Bax: V.İ.Lenin. Əsərlərinin tam külliyatı, 42-ci cild, s.380

məsələsi tam kəskinliyi ilə qoyulmuşdu və bu istiqamətdə əməli addımlar atılmağa başlamışdı.[2] İran və Türkiyə kimi qonşu dövlətlərlə 1921-ci ilin fevral-mart aylarında Sovet Rusiyasının imzaladığı müqavilələr Cənubi Qafqaz sovet respublikalarının xarici təhlükəsizliyinin başlıca təminatı idi. Bu müqavilələr bilavasitə, ya dolayı yolla Sovet Rusiyasının Cənubi Qafqaz respublikalarına olan hüququnu təsdiq edir, beynəlxalq aləmin region ölkələrinin siaysi həyatına hər hansı müdaxiləsini məhdudlaşdırırdı.

Gürcüstanın sovetləşdirilməsindən sonra Cənubi Qafqazın hər üç sovet respublikasının partiya orqanlarının fövqündə dayanan RK(b)P MK Qafqaz Bürosu həmin respublikaların partiya orqanlarının birləşdirilməsi yolunda ilk addım idi. Orconikidze başda olmaqla, Qafqaz Bürosu, bir mərkəzdən idarə olunan Cənubi Qafqazın siyasi baxımdan Moskva üçün daha əlverişli olduğunu sınaqdan çıxarmışdı. Cənubi Qafqaz respublikalarının addım-addım federasiyaya doğru yolu da məhz, Qafqaz Bürosunda sənədləşdirilirdi. Hətta, Qafqaz Bürosunun iqamətgahının Tiflisdə yerləşməsi, Bakını yeni qurumun mərkəzi kimi, görmək istəyən N.Nərimanovun səylərini nəticəsiz qoymuşdu.[3] 1921-ci ilin martında həmkarlar ittifaqlarının, həmin ilin sentyabrında isə gənclər təşkilatlarının birləşməsi, hər üç respublikanın siyasi birliyinin yaradılmasını daha böyük sürətlə gündəliyə gətirirdi. Belə regional birliklərin yaradılması, tədricən respublika orqanlarının öz müstəqilliyini itirməsi və Sovet Rusiyasının vilayət hüquqlu təşkilatlarına çevrilməsi ilə nəticələnirdi.

Hələ 1921-ci ilin aprel ayının 18-də Azərbaycan, Ermənistan və Gürcüstan nümayəndələri Cənubi Qafqaz dəmir yollarının idarə olunması qaydaları haqqında saziş imzalamışdılar. Bunun davamı kimi, həmin ilin may ayının 2-də RK(b)P MK-ın Qafqaz Bürosu Cənubi Qafqaz respublikaları arasında gömrük məntəqələri və sərhəd postlarının ləğv ediməsi haqqında qərar qəbul etmişdi. Bu qərara uyğun olaraq, Azərbaycan XKS 1921-ci ilin iyun ayında Ermənistan və Gürcüstanla sərhədlərdə gömrük məntəqələrinin ləğv edildiyi haqqında dekret vermişdi. 1921-ci ilin aprel ayının 21-də Gürcüstanla Azərbaycan arasında poçt rabitəsi haqqında konvensiya imzalanmışdı. Bu istiqamətdə növbəti addım 1921-ci ilin iyun ayının 2-də hər üç respublikanın xarici ticarət komissarlıqlarının birləşləşdirilməsi haqqında qərar qəbul edilməsindən ibarət oldu.[4] Xarici ticarət orqanlarının

[2] Yenə orada, s.380

[3] Bax: N.Nərimanovun V.Leninə məktubu. 1921.// ARPİİ SSA, f.609, s.1, i.62, v.18

[4] Bax: Azəərbaycan tarixi, Yeddi cilddə. Altıncı cild. Bakı, 2000, s.156

birləşdirilməsi haqqında razılığa hələ aprel ayının 26-da Q.Orconikidzenin rəhbərliyi altında Qafqaz respublikalarının nümayəndələrinin keçirdikləri iclasda gəlinmişdi. Birgə xarici ticarət orqanının yaradılması haqqında 1921-ci ilin iyun ayının 21-də Gürcüstan, Azərbaycan və Ermənistan arasında saziş imzalanmışdı. Filip Maxaradze, Nəriman Nərimanov və Aleksandr Myasnikov tərəfindən imzalanmış sazişə görə, xarici bazarda həyata keçirilən mal dövriyyəsi yeni birliyin səlahiyyətinə verilirdi.[5] Hər üç respublikanın təmsil olunduğu "Xarici ticarət ittifaqı" Tiflisdə yerləşməli və onun fəaliyyətini həmin respublikaların razılığı ilə yaradılan kollegiya rəhbərlik etməli idi. Bu orqanın əsas vəzifəsi Azərbaycan, Gürcüstan və Ermənistanı ərzaq və xammalla təmin etmək idi. Xarici ticarət komissarlıqlarının ləğv edilməsi və onun bazasında kollegial bir orqanın yaradılması Cənubi Qafqazın sovet respublikalarının, ilk növbədə isə xarici bazarlara çıxış potensialı olan Azərbaycanın mühüm bir istiqamətdə müstəqilliyinə son qoydu və bu sahə bütövlükdə, Moskvanın inhisarına keçdi. 1921-ci ilin avqust ayının 26-da Qafqaz Bürosuna, Q.Orconikidzeyə göndərdiyi şifirli teleqramda RK(b)P MK katibi V.Molotov Qafqaz Bürosunun vahid orqanların yaradılması, Cənubi Qafqaz respublikalarının təsərrüffat imkanlarının birləşdirilməsinin məqsədəuyğun olduğu haqqında qərarının Mərkəzi Komitə tərəfindən bəyənildiyini bildirirdi.[6]

1921-ci ilin noyabr ayının 2-də RK(b)P MK katibi V.Molotovun iştirakı ilə Qafqaz Bürosunun Bakıda işə başlayan plenumunda Cənubi Qafqaz respublikalrının federasiya yaratması haqqında məsələ müzakirəyə çıxarıldı. Plenum geniş müzakirədən sonra noyabr ayının 3-də səhər iclasında Şalva Eliavanın təklifi üzrə Cənubi Qafqaz Federasiyasının yaradılması haqqında qərar qəbul edildi. Ş.Eliava və A.Myasnikova tapşırıldı ki, axşam iclası üçüm federasiya haqqında qətnamə hazırlasınılar.[7] Həmin gün axşam iclasında Cənubi Qafqaz Respublikalarının Federasiyası haqqında RK(b)P MK Qafqaz Bürosunun qətnaməsi qəbul edildi. Qətnamədə göstərilirdi ki, Cənubi Qafqaz respublikalarının ayrı-ayrılıqda mövcudluğu kapitalist və burjua ölkələrinin qarşısında onları zəiflədir, belə bir şəraitdə, hər üç res-

[5] Xarici ticarət orqanlarının birləşdirilməsi haqında Gürcüstan, Azərbaycan və Ermənistan Sovet Sosialist respublikaları arasında saziş. 21.06.1921.// RDSSTA, f.17, s.13, i.385, v.16

[6] V.Molotovun Qafqaz Bürosuna, Q.Orconikidzeyə şifrli teleqramı. 26.08.1921.// RDSSTA, f.85, s.18, i.326, v.3

[7] RK(b)P MK Qafqaz Bürosu plenumunun səhər iclasının 22 saylı protokolu. 03.11.1921.// RDSSTA, f.64, s.1, i.1, v.183

publikalrın sıx siyasi ittifaqı əks-inqilabçı qüvvələr tərəfindən onlara qarşı yönəlmiş hər hansı qəsdlərə qarşı möhkəm təminat rolu oynayacaq və Yaxın Şərqin sərhədlərində sovet hakimiyyətini möhkəmləndirəcəkdir. Sənəddə qeyd olunurdu ki, Cənubi Qafqaz respubulikalarının təsərrüfat pərakəndəliyi onsuz da, ağır olan iqtisadi vəziyyəti daha da ağırlaşdırmış, xalq kütlələrinin yoxsulluğunu və var-yoxdan çıxmasını sürətləndirmiş, respubliklar arasında bir sıra hərc-mərcliklər yaratmışdır. Qafqaz Bürosunun fikrincə, belə şəraitdə siyasi birlik respublikalara imkan verəckdir ki, öz aralarında sıx təsərrüfat ittifaqı yaratsınlar. Orada deyilirdi: "Cənubi Qafqaz vahid bir təsərrüfat məkanıdır və bu təsərrüfat məkanının iqtisadi inkişafı ümumiqafqaz təsərrüfat birliyi şüarı altında baş verə bilər".[8] Eyni zamanda, hər üç respublikada bir-birini təkrar edən çoxsaylı komissarlıq və müəssələrin olmasından qətnamədə şikayət edilir və bütün bunları nəzərə alaraq, "Qafqaz Bürosu hərbi sahədə, təsərrüfat və maliyyə işlərində, xarici siyasət sahsində respublikalar arasında federativ ittifaqın bağlanmasını təxirəsalınmaz hesab edirdi".[9] Qətnamədə Cənubi Qafqaz respublikalarının inzibati, iqtisadi və siyasi mərkəzinin (İttifaq Sovetinin) yaradılması zəruri hesab edilir və belə bir mərkəz kimi, Tiflis şəhəri təklif edilirdi. İclasın qərarı ilə Qafqaz respublikalarının İttifaq Sovetinin layihəsini hazırlamaq üçün Eliava, Əfəndiyev, Lukaşin, Yeqorov və Leqrandan ibarət komissiya yaradıldı. Eliava komissiyanın sədri təyin edildi. Noyabr ayının 25-nə qədər komissiya işini başa çatdırmalı idi.[10]

Həmin gün Qafqaz Bürosunun plenumunda Cənubi Qafqaz respublikalarının hərbi konvensiyası haqqında məsələ müzakirə edilib, altı bənddən ibarət qərar qəbul edildi. Qərara görə, Leqran, Eliava, Myasnikov və Qarayevə tapşırılırdı ki, Cənubi Qafqaz respublikaları arasındsa imzalanacaq sazişin mətnini hazırlasınlar. Bu istiqamətdə işlər 20 gün ərzində başa çatdırılmalı idi.[11] Noyabr ayının 6-da plenumda Cənubi Qafqaz Federasiyası komissarlıqlarının və İqtsadi Şurasının layhisini hazırlamaq üçün müxtəlif komissiyaların yaradılmasına qərar verildi. 1922-ci ilin fevral ayının 25-dən gec olmayaraq, yerlərdə Sovetlər qurultaylarının keçirilməsi vaxtı

[8] Cənubi Qafqaz respublikalarının federasiyası haqqında RK(b)P MK Qafqaz Bürosunun qətnaməsi. 03.11.1921 .// RDSSTA, f.64, s.1, i.1, v.187-187(arxası)

[9] Yenə orada, v.187(arxası)

[10] Yenə orada, v.188

[11] RK(b)P MK Qafqaz Bürosu plenumunun axşam iclasının 23 saylı protokolu. 03.11.1921.// RDSSTA, f.64, s.1, i.1, v.187

müəyyənləşdirildi. Plenumda İttifaq müqaviləsinin layihəsi təsdiq edildi. Zaqafqaziya Federasiyasının yaradılmasında mühüm addım hesab edilən Cənubi Qafqaz partiya qurultayının çağrılması 1922-ci ilin fevral ayının 15-dən gec olmayaraq nəzərdə tutuldu. Həmin vaxta qədər respublika partiya qurultayları öz işini başa çatdırmalı idi. Cənubi Qafqaz partiya qurultayının gündəliyi və nümayəndəlik norması Qafqaz Bürosunun Rəyasət Heyəti tərəfindən müəyyən edilməli idi.[12] Plenumdan dərhal sonra Q.Orconikidze RK(b)P MK-ya və İ.Stalinə göndərdiyi teleqramda bildirirdi ki, "təsərrüfat, maliyyə, hərbi və xarici siyasəti İttifaq Sovetinin şəxsində birləşdirməklə, Zaqafqaziya Federasiyasının yaradılması haqqında plenum yekdilliklə qərar qəbul etmişdir. Qətnamə göndərilib. Xahiş edirəm, Mərkəzi Komitənin qərarını verin. Bu məqsədlə başlanmış kampaniya uğurla gedir".[13] Plenum qərara aldı ki, Cənubi Qafqaz İttifaqının yaradılması ilə bağlı mübahisəli məqamları aydınlaşdırmaq və bir sıra məsələləri izah etmək üçün Sergey Kirovun başçılığı ilə hər üç respublikanın partiya orqanlarının geniş müşavirəsi keçirilsin.

1921-ci ilin noyabr ayında, Qafqaz Bürosunun plenumundan dərhal sonra keçirilən müşavirədə dörd məsələ ətrafında geniş müzakirə aparıldı. Q.Orconikidzenin giriş sözünə görə, müşavirə aşağıdakı suallara aydınlıq gətirməli idi: 1.Qafqaz respublikalarının müstəqilliyini biz hansı mənada başa düşürük; 2.Müstəqilliyə burjua anlamında yanaşmaq olarmı; 3.Cənubi Qafqaz sovet respublikaları RSFSR-dən müstəqil ola bilərmi; 4.Cənubi Qafqaz sovet respublikaları bir-birlərindən müstəqil ola bilərmi?[14] Bu məsələlər ətrafındakı müzakirələrdən aydın oldu ki, Cənubi Qafqaz respublikaları, ilk növbədə isə, Gürcüstan və Azərbaycan sovet respublikalarının hökumətlərində təmsil olunan bir sıra rəhbər dairələr federasiya yaradılmasına ehtiyatla yanaşır, bunu vaxtı çatmamış məsələ hesab edirdilər. Hələ Azərbaycan sovetlərinin Mərkəzi İcraiyyə Komitəsinin 1921-ci ilin oktyabr ayında keçirilən plenumunda N.Nərimanov deyirdi: "Hazırda bu

[12] RK(b)P MK Qafqaz Bürosu plenumunun iclasının 24 saylı protokolu. 06.11.1921.// RDSSTA, f.64, s.1, i.1, v.193-193(arxası)

[13] Q.Orconikidzenin RK(b)P MK-ya və İ.Stalinə teleqramı. 08.11.1921.// RDSSTA, f.85, s.18, i.327, v.3

[14] RK(b)P MK Qafqaz Bürosu, Gürcüstan, Azərbaycan və Ermənistan K(b)P MK-ların, Bakı və Tiflis Komitələrinin, Gürcüstan Sovet Həmkarlar İttifaqı Rəyasət Heyətinin, Əlahiddə Qafqaz Ordusu Hərbi İnqilab Şurası və Dağlılar Komitəsi üzvlərinin müşavirəsinin protokolu. Noyabr, 1921.// RDSSTA, f.64, s.1, i.1, v.200

birləşmə bir qədər sünidir. Bu respublikalara bir qədər əl-qol açmaq imkanı vermək lazımdır ki, respubliklar öz aralarında olan yaxınlaşmanı həqiqətən hiss etsinlər, bu yaxınlaşmanı təbii olaraq tələb etsinlər".[15] Gürcüstan socialist-federalistlərinin orqanı olan "Tribuna" qəzeti 1921-ci ilin noyabr ayının 16-da federasiya əleyhinə geniş məqalə verdi. Bolşeviklərin federasiya yaratmaq üçün gətirdikləri iqtisadi dəlilə qarşı "Tribuna" sual edirdi ki, Gürcüstanla Ermənistanı hansı iqtisadi tellər bağlayır? Ona görə də, qəzet əsaslandırmağa çalışırdı ki, federasiya iqtisadi cəhətdən Ermənistana lazımdır. Digər tərəfdən, "Tribuna" haqlı olaraq, soruşurdu: məgər, indi qonşu respublikalar bir-birlərindən Çin səddi ilə ayrılır? Məgər, bizdə bir-birindən fərqli mahiyyət və məqsəd daşıyan, Rusiyaya fərqli münasibət bəsləyən sovetlər və inqilab komitələri var? Məgər, bütün sovet respublikalarının oriyentasiyası Rusiyaya deyilmi? Bütün bu suallardan sonra məqalədə Qafqaz Bürosunun federasiya yaratmaq haqqında tələsik, sadəlövh və ehtiyatsız qərarı siyasi cəhətdən zərərli hesab edilirdi. Qəzetin fikrincə, inqilab əleyhinə çıxış edənlərə qarşı yalnız Qırmızı Ordu vasitəsi ilə deyil, qırmızı xalq vasitəsi ilə mübarizə aparılmalı idı.[16] Yaxud gürcü dilində çıxan "Şroma" qəzeti 20 noyabr sayında A.Myasnikovun "Kommunist" qəzetində federsiyanın zəruriliyi ilə bağlı dərc edimiş məqaləsi əleyhinə yazırdı: "Bizə deyirlər ki, əksinqilab və burjua bloku ilə mübarizə aparmaq, sovet hakimiyyətini imperialist hücumundan müdafiə etmək üçün federasiya zəruridir". Qəzetin fikrincə, ümumi düşmənə qarşı fderasiya zəruridirsə, niyə Fransa, İngiltərə, İtaliya, Amerika və Yaponiyada kiminsə ağlına gəlmədi ki, Almaniyaya qarşı mübarizə aparmaq və onun üzərində qələbə çalmaq üçün müstəqilliklərindən imtina edib, federasiya yaratsınlar? A.Myasnikovun federasiyadan sonra qonşu respublikalarda olan neft, marqanes, duz, pambıq, üzüm və digər məhsullar hər üç respublikaya aid olacaq fikrini "Şroma" cəfəngiyat adlandırır və bir ölkənin təbii zənginliklərinin digər ölkəyə məxsus olmasının iqtisadi sirrini və siyasi mənasını öyrənmək istəyirdi. "Şroma" qəzeti bolşeviklərin təbliğ etdiyi federasiya şəraitində müstəqilliyin hansı yollarla saxlanacağını bilmək istəyir və yazırdı: "Gürcüstanda heç kimin qulağına pambıq tıxanmamışdır ki, müstəqilliyin nə olmasını və federasiya şəraitində ondan nə qalacağını anlamasın. "Geriyə, Rusiyaya!" Əks təqdirdə Qafqaz Bürosunun qərarının mənasını və məntiqini

[15] Н.Нариманов. Избранные произведения, том 2, с.568

[16] Federasiya. "Tribuna" qazəetindən tərcümə.16.11.1921.// RDSSTA, f.64, s.1, i.216, v.16-19

anlamaq mümkün deyildir".[17] Gürcüstan mətbuatında dərc edilən bu məzmunda yazılar, şübhəsiz ki, partiya orqanlarının müşavirəsinin işinə təsir göstərirdi. Müşavirədə çıxış edən bir sıra nümayəndələr müstəqillikdən geri çəkilməyi məqbul hesab etmirdilər və bunun geniş əhali kütləsinə mənfi təsir göstərəcəyini əsaslandırmağa çalışırdılar. Müzkirələrin gedişində çıxış edən İ.Stalin bir çox mübahisəli məqamlara aydınlıq gətirərək, izah etdi ki, Ukrayna, Belorusiya kimi respublikalardan, Rusiya Federasiyasının inzibati muxtar qurumlarından və muxtar respublikalarından fərqli olaq, Gürcüstan, Ermənistan və Azərbaycanın tam müstəqilliyi bir sıra mülahizələrə görə, Mərkəzi Sovet hökuməti tərəfindən tanınmışdır. Bu mülahizələr içərisində birinci yerə o, Qafqazda üç il ərzində mövcud olan milli hökumətlərin ictimai fikirdə dərin iz buraxmasını qoyur və həmin tərbiyənin izlərinin qaldığını, sovetləşmənin bunu dərhal aradan qaldıra bilməməsini önə çəkirdi. Ona görə, Stalin deyirdi ki, "dolayı yolla getmək lazım gəlir. Bununla onlar *(Cənubi Qafqaz respublikaları – C.H.)*, bütün qalan respublikalardan köklü şəkildə fərqlənirdilər".[18] Stalin federasiya məsələsinə yalnız kommunistlərin deyil, əhalinin hazırlanmasını zəruri hesab edir və o, bildirirdi ki, "əhali ilə hesablaşmaq lazım gələcək, belə ki, əhali 3 milyona, kommunistlər isə 15 minə yaxındır.[19] Stalinə görə, proletar Bakısı istisna olmaqla, Cənubi Qafqazın qalan əhalisi əsasən, kəndli kütlələrindən ibarət idi və o, bu kütlələri daim nəzarətdə saxlamağı zəruri hesab edirdi. İ.Stalin tərəfindən hazırlanmış RKP MK-nın qətnaməsində qeyd edilirdi ki, bu istiqamətdə buraxılan səhvlər və ehtiyatsızlıqlar ziyalı, xırda burjua və kəndli təbəqələrinin Sovet hakimiyyətindən ayrılıb, Azərbaycanın panislamizm və pantürkizm, Gürcüstan və Ermənistanın isə Antanta tərəfinə yuvarlanmasını doğura bilər.[20]

Əhalini hərəkətə gətirmək zərurəti federasiya ideyasına qarşı kommunist müxalifətinin müşahidə edilməsi ilə bağlı idi. Xarici ticarət və dəmiryol idarələrinin birləşdirilməsi özünü doğrultmamışdı. Respublikalar arasında narazılıqlar güclənməyə başlamışdı. Gürcüstanda Budu Mdivani

[17] Federasiya məsələsinə dair. "Şroma" qəzetindən tərcümə. 20.11.1921.// RDSSTA, f.64, s.1, i.216, v.21-23

[18] RK(b)P MK Qafqaz Bürosu, Gürcüstan, Azərbaycan və Ermənistan K(b)P MK-ların, Bakı və Tiflis Komitələrinin, Gürcüstan Sovet Həmkarlar İttifaqı Rəyasət Heyətinin, Qafqaz Ordusu Hərbi İnqilab Şurası və Dağlılar Komitəsi üzvlərinin müşavirəsinin protokolu. Noyabr, 1921.// RDSSTA, f.64, s.1, i.1, v.223

[19] Yenə oarada, v.224

[20] RK(b)P MK-nın qətnaməsi. 05.04.1922.// RDSSTA, f.64, s.1, i.61, v.9

başda olmaqla, bir sıra partiya rəhbərləri, Azərbaycanda Ruhulla Axundov və Mirzə Davud Hüseynov kimi rəhbər partiya işçiləri belə hesab edirdilər ki, federasiya yaradılması hələ tezdir. Noyabrın 18-də RK(b)P MK Siyasi Bürosu onlardan tələb etdi ki, iki gün ərzində Qafqaz Bürosunun federasiya yaratmaq haqqında qərarından niyə narazı olmalarının səbəblərini yazılı şəkildə izah etsinlər.[21] Nəriman Nərimanov da Vladimir Leninə məktubunda federasiya məsələsində tələskənliyə yol verilməsini ziyanlı hesab edirdi. O yazırdı: "Mən Qafqaz Bürosunun iclaslarında həmişə demişəm: birləşmə zəruridir, lakin tələsmək lazım deyildir. Birləşdirilmiş xarici ticarətin və dəmiryollarının mövcudluğu məni bir daha əmin edir ki, biz, hər halda, gözəl ibarələrlə kifayətlənməkdə davam edirik. Bu müddət ərzində Azərbaycan həmin birləşmənin daha hansı ağrılarına dözmədi".[22] N.Nərimanov belə hesab edirdi ki, federasiya yaradılması ilə bağlı bütün tələskənlik Q.Orconikidzedən gəlir. Hətta, o, bildirirdi ki, Serqo Cənubi Qafqaz respublikalarının birləşdirilməsi ilə bağlı V.Leninin layihəsini gizlədib, əvəzinə isə öz layihəsini ortaya atıb.[23]

Qafqaz Bürosunun Bakı plenumunun materialları Moskvaya göndərildikdən sonra RK(b)P MK Təşkilat Bürosunda sənədlərlə tanışlıq bir sıra suallar doğurdu. Qərara alındı ki, bəzi məsələləri aydınlaşdırmaq üçün Qafqaz Bürosuna teleqram göndərilsin. Teleqramda soruşulurdu ki, yeni yaradılan Cənubi Qafqaz Federasiyasının İttifaq Soveti ilə RSFSR arasında qarşılıqlı münasibətləri necə təsəvvür edirsiniz? Hərbi birliyin yaradılmasına gəldikdə isə RK(b)P MK tövsiyə edirdi ki, ilk növbədə, Rusiya Federasiyası ilə Azərbaycan, Ermənistan və Gürcüstan arasında hərbi konvensiya sənədləşdirilməlidir. Q.Orconikidzeyə tapşırıq verilirdi ki, qısa müddətdə bu işi başa çatdırsın.[24] Noyabr ayının 24-də V.Molotova göndərdiyi teleqramda federasiyanın yaranması ilə bağlı Moskvanı maraqlandıran bütün suallara Q.Orconikidze geniş cavablar verdi. O, qeyd edirdi ki, federasiya yaradılması haqqında Qafqaz Bürosunun qərarı AK(b)P MK-nın Bakı təşkilatı, Azərbaycan MİK və Azərbaycan Təsərrüfat Şurası, habelə, Ermənistan və Gürcüstan kommunist partiyaları tərəfindən müdafiə edilir.

[21] Bax: RK(b)P MK Siyasi Bürosu iclasının 78 saylı protokolu. 18.11.1921.// RDSSTA, f.17, s.3, i.232, v.5

[22] N. Nərimanovun V. Leninə məktubu. Noyabr, 1921.// ARPİİ SSA, f.609, s.1, i.62, v.17

[23] N.Nərimanovun məruzə və ərizəsini araşdıran komissiyanın iclasının protokolu. 13.06.1923. // RDSSTA, f.558, s.2, i.179, v.7

[24] RK(b)P MK Qafqaz Bürosuna teleqram. 17.11.1921.// RDSSTA, f.85, s.18, i.328, v.1

Q.Orconikidzenin fikrincə, federasiya yaradılmasının əleyhdarları azlıqda idilər. O, təkid edirdi ki, RK(b)P MK bu məsələ ilə bağlı öz qərarını versin.[25]

Lakin Orconikidzenin cavabları Mərkəzi qane etmədi. V.Molotov belə hesab edirdi ki, Orconikidze daha çox federasiya daxilindəki qarşılıqlı münasibətləri izah etməyə çalışır. Mərkəz isə ondan Cənubi Qafqaz federasiyasının İttifaq Soveti ilə RSFSR arasında münasibətlərin hansı formada qurulacağının izahını istəyirdi.[26] Buna müvafiq olaraq, Orconikidze noyabr ayının ilk günlərindən başlayaraq, Qafqaz Bürosunun qəbul etdiyi qərar və qətnamələri, habelə, noyabrın 25-də Cənubi Qafqaz respublikaları arasında ittifaq müqaviləsinin komissiya tərəfindən hazırlanmış layihəsini RK(b)P MK-ya göndərdi.[27] İttifaq müqaviləsinin layihəsində göstərilirdi ki, Cənubi Qafqaz respublikları ittifaqının ali orqanı Azərbaycan, Ermənistan və Gürcüstan hökumətləri tərəfindən bərabər sayda seçilən nümayəndələrin səlahiyyətli konfransıdır. Azərbaycan nümayəndəsi S.M.Əfəndiyev ali orqanın bu əsasda formalaşdırılması ilə razı deyildi. Onun fikrincə, ali orqan proporsional prinsip əsasında təşkil edilməli idi və həmin səbəbdən də S.M.Əfəndiyev müqavilə layihəsinə öz xüsusi rəyini əlavə etmişdi. Sənədə görə, səlahiyyətli konfransın icra orqanı üzvləri konfrans tərəfindən seçilən İttifaq Soveti olmalı idi. Layihəyə görə, hərbi, maliyyə, xarici siyasət, xarici ticarət, nəqliyyat, rabitə, əksinqilabla mübarizə və müqavilədə olan respublikaların iqtisadi siyasətinə rəhbərlik məsələləri İttifaq Sovetinin səlahiyyətinə verilirdi. İttifaq Soveti sədr və müavindən, habelə, birləşdirilmiş hərbi, maliyyə, xarici işlər, poçt-teleqraf, xarici ticarət komissarlarından, nəqliyyat idarəsinin rəisindən və əksinqilab əleyhinə mübarizə üzrə Fövqəladə Komissiyanın sədrindən ibarət olmalı idi. Qeyd edilən komissarlıqlar ayrı-ayrı respublikalarda ləğv edilir, yalnız İttifaq Sovetinin Fövqəladə Komissiyasına tabe yerli Fövqəladə Komissiyalar respublikalarda saxlanılırdı. Hərbi, maliyyə, poçt-teleqraf komissarlıqları hər üç respublikada öz müvəkkillərini saxlayır, xarici işlər və xarici ticarət komissarlıqları isə, bütövlükdə, İttifaq Sovetinin sərancamına keçirdi. Müqavilədə olan tərəflərin bütün iqtisadi orqanlarının İttifaq Sovetinin daimi komissiyası hüququnda fəaliyyət göstərən Ali İqtisadi Şuraya verilməsi nəzərdə tutulurdu. Azərbaycan nümayəndəsi kimi, S.M.Əfəndiyev Ali İqtisadi Şuranın yaranmasına da öz etirazını xüsusi rəy kimi, sənədə əlavə etmişdi. Onun fikrincə, İttifaq Şurası olduğu halda,

[25] Q.Orconikidzenin V.Molotova teleqramı. 24.11.1921.// RDSSTA, f.85, s.18, i.328, v.2-4
[26] V.Molotovun Q.Orconikidzeyə teleqramı. 25.11.1921.// RDSSTA, f.85, s.18, i.328, v.6
[27] Q.Orconikidzenin V.Molotova teleqramı. 26.11.1921.// RDSSTA, f.85, s.18, i.328, v.8

Ali İqtisadi Şura artıq orqan idi. Əslində, Azərbaycan tərəfi onun qonşuları ilə müqayisədə daha zəngin olan iqtisadi ehtiyatlarının bərabər əsaslarla yaradılacaq bir qurum vasitəsi ilə Ermənistan və Gürcüstanın nəzarətinə düşməsindən ehtiyat edirdi və bu xüsusi rəylər də bilavasitə həmin narahatlığın ifadəsi idi. Çünki, Ali İqtisadi Şuranın qərarları respublikalar üçün məcburi xarakter daşıyacaqdı və bununla da, Azərbaycan iqtisadiyyatının idarəçiliyi, bütövlükdə, Bakıdan Tiflisə keçmiş olacaqdı.

Azərbaycan nümayəndəsinin bir sıra məsələlərə dair xüsusi rəylə çıxış etməsi noyabr ayının ortalarında respublika Mərkəzi İcraiyyə Komitəsində hazırlanmış təlimatlarla bağlı idi. Noyabr ayının 16-da Azərbaycan MİK-in iclasında Cənubi Qafqaz respublikalrının vahid federativ ittifaqda birləşdirilməsi təxirəsalınmaz zərurət hesab edilsə də, eyni zamanda, İttifaq müqaviləsini hazırlayan komissiyanın tərkibindəki Azərbaycan nümayəndəsinə bir sıra təlimatlar da verilmişdi.[28] Ən nəhayət, sənəddə Cənubi Qafqaz ittifaqının RSFSR ilə qarşılıqlı münasibətlərinin ittifaq müqaviləsi əsasında tənzimlənməsi nəzərdə tutulurdu.[29] Bütün bu sənədləri Moskvaya göndərdikdən sonra, noyabr ayının 30-da Q.Orconikidze teleqraf vasitəsi ilə V.Molotova bildirirdi ki, dekabrın ayının 5-də Qafqaz diyar kommunist təşkilatlarının Cənubi Qafqaz Federasiyasının müqaviləsinin müzakirəsinə həsr edilmiş müşavirəsi keçiriləcək, o, xahiş edirdi ki, müşavirəyə qədər federasiya haqqında RK(b)P MK-nın qərarının qəbul edilməsi arzuedilən olardı.[30]

Lakin Q.Orconikidzenin teleqramından bir gün əvvəl, 1921-ci ilin noyabr ayının 29-da RK(b)P MK Siyasi Bürosu Gürcüstan İnqilab Komitəsinin sədri Polikarp (Budu) Mdivanin təklifi ilə Cənubi Qafqaz respublikalarının federasiya yaratmaq ideyasını müzakirə edib, məsələni bəyənmişdi. V.Lenin Qafqaz Bürosunun federasiya haqqında qərarına böyük həvəs göstərirdi. Hətta, o, Siyasi Büro üçün hazırladığı qərar layihəsinin ilkin variantında federasiyanı "təbliğ etmək üçün bir neçə həftə tələb olunduğunu" təklif etmişdi. Lakin Stalin bu layihə ilə tanış olduqda, "bir neçə həftə ifadəsini" dəyişərək "müzakirə üçün müəyyən vaxt tələb edilir" sözlərini yazmışdı. İ.Stalin öz fikrini onunla izah edirdi ki, federasiyanı Gürcüstanda bir neçə həftəyə "sovet qaydasında" həyata keçirmək olmaz. O, qeyd edirdi ki, "Gür-

[28] Bax: Azərbaycan tarixi, Yeddi cilddə. Altıncı cild. Bakı, 2000, s.159-160
[29] Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist respublikalarının İttifaq müqaviləsi. 25.11.1921.// RDSSTA, f.85, s.18, i.328, v.11-11(arxası)
[30] Q.Orconikidzenin V.Molotova teleqramı. 30.11.1921.// RDSSTA, f.85, s.18, i.328, v.15

cüstanda sovetlər yeni yaranır (bir ay əvvəl orada sovetlər, ümumiyyətlə, yox idi) və orada "bir neçə həftəyə" sovetlər qurultayı keçirmək mənasızdır. Onun fikrincə, Gürcüstansız federasiya isə, kağız üzərində federasiya olacaqdı". Stalin təklif edirdi ki, "bu işə 2-3 ay vaxt ayırmaq lazımdır ki, federasiya ideyası Gürcüstanın geniş kütlələri arasında qələbə çalsın. Əks təqdirdə, biz yalnız menşeviklərin və digər millətçilərin işini asanlaşdırmış olacağıq".[31] Stalinin təklifi nəzərə alınmaqla, Leninin layihəsi əsasında qəbul olunmuş Siyasi Büronun qərarında Cənubi Qafqaz Federasiyasının yaradılması tamamilə doğru və həyata keçirilməsi vaxtında olan məsələ kimi tanınır, onun müzakirəsi üçün "müəyyən vaxtın tələb olunduğu" bildirilirdi. Orada deyilirdi: "Federasiya haqqında məsələnin partiya, fəhlə və kəndli kütlələrinin geniş müzakirəsinə qoyulması, federasiya təbliğatının fəal aparılması və onun hər respublikada sovetlər qurultayından keçirilməsi Qafqaz Bürosu vasitəsi ilə Gürcüstan, Ermənistan və Azərbaycan Mərkəzi Komitələrinə təklif edilsin. Bu məsələyə münasibətdə güclü müxalifət olduğu halda, RK(b)P MK-ya vaxtında və dəqiq məlumat verilsin".[32] Dekabr ayının 1-də Molotovun imzaladığı Siyasi Büronun bu qərarı şifrli teleqram vasitəsi ilə Orconikidze, Mdivani və Fiqatnerə çatdırıldı.[33]

RK(b)P MK Siyasi Bürosunun bu qərarından sonra Cənubi Qafqaz federasiyasının yaradılması qaçılmaz xarakter almağa başladı. Azərbaycanın regionda əhəmiyyətini nəzərə alaraq, N.Nərimanov bu vəziyyətdən mümkün qədər yararlanmağa çalışır, Bakını birləşmiş Zaqafqaziyanın mərkəzi kimi, görmək istəyirdi. O, Leninə yazırdı: "Şübhəsiz ki, partiya qaydasında biz bunu ləyaqətlə həyata keçirəcəyik, lakin bir-birimizə olan belə münasibətdə bu işdən nə çıxacağını demək çətindir. Hər halda birləşmə haqqında məsələ, son vaxtlar bu işə çox aludə olan və bunu hiss etməyən Q.Orconikidzenin məruzəsi əsasında artıq, Mərkəzi Komitə qarşısında həll edilmişsə belə, onda, yenə də təkid etmək lazımdır ki, İttifaq Sovetinin mərkəzi Tiflis deyil, Bakı olsun. Bu, vəziyyəti bir qədər yüngülləşdirərdi".[34] Bunun ardınca Nərimanov bildirirdi ki, Azərbaycanın 8 qəzasında artıq aclıq başlamışdır və manatın kursu isə daim aşağı düşməkdədir.[35]

[31] İ. Stalinin V.Leninə xatırlatma məktubu. 28.11.1921.// RDSSTA, f.17, s.163, i.220, v.11

[32] RK(b)P MK Siyasi Bürosunun qərarı. Siyasi Büronun iclasının 80a saylı protokolu. 29.11.1921.// RDSSTA, f.17, s.3, i.237, v.1-2

[33] V.Molotovun Q.Orconikidzeyə şifrli teleqramı. Surəti Mdivani və Fiqatnerə. 01.12.1921. RDSSTA, f.85, s.18, i.328, v.16

[34] N. Nərimanovun V. Leninə məktubu. Noyabr, 1921.// ARPİİ SSA, f.609, s.1, i.62, v.18

[35] Yenə orada, v. 18

Cənubi Qafqaz respublikalarının federasiya yaratmaq ideyası müzakirəyə çıxarılanda və bu istiqamətdə əməli addımlar atılmağa başlayanda, həmin respublikaların daxili sərhədlərinin müəyyənləşdirilməsi məsələsi yenicə başa çatdırılmışdı. 1921-ci ilin iyun ayından işə başlayan sərhəd məsələləri üzrə birgə komissiya noyabr ayının ortalarında Cənubi Qafqaz respublikalrının daxili sərhədlərinin müəyyənləşdirilməsi üzrə bir sıra razılıqlar əldə etmişdi. Komissiya işə başladıqdan az sonra, 1921-ci ilin iyul ayının 5-də Tiflisdə N.Nərimanovla F.Maxaradze arasında imzalanmış sazişə görə, Azərbaycanla Gürcüstan arasında daxili sərhədlər və sərhəd xətti əsasən razılaşdırılmışdı. Qazax qəzası kəndlilərinin istifadə etdiyi Qarayazı çölü həmin qəzanın tərkibində saxlanılırdı. Zaqatala dairəsi ilə bağlı sazişdə göstərilirdi ki, Gürcüstan Sovet Sosialist Respublikası Zaqatala dairəsinə olan bütün iddialarından imtina edir və bu barədə Gürcüstan İnqilab Komitəsi müvafiq bəyannamə ilə çıxış edir.[36] Noyabr ayının 15-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Muxtar Hacıyevlə Gürcüstan İnqilab Komitəsinin sədri Budu Mdivani arasında iki ölkə arasında sərhəd xəttini müəyyən edən saziş imzalandı.[37] Sazişə görə, iki ölkə arasında 1921-ci ilin iyul ayının 5-də imzalanmış sazişin müddəaları qüvvədə saxlanılırdı.

Qazax qəzası boyunca Ermənistan tərəfindən ələ keçirilmiş bir sıra sərhədyanı ərazilərin qaytarılması məsələsi birgə komissiyanın tərkibində olan Azərbaycan nümayəndələri tərəfindən qaldırılsa da, lakin buna qismən nail olmaq mümkün oldu. Ermənilər tərəfindən qəsb edilmiş bu ərazilər Qazax bəylərindən olan Vəkilovların və Şərifovların Əskipara dərəsindəki keçmiş mülk torpaqları idi. Komissiya belə qərara gəlmişdi ki, 2000 desyatin meşə sahəsindən və pay torpaqlarından ibarət olan bu ərazilər Azərbaycana qaytarılmalıdır. Lakin Vəkilovların bu ərazidə olan torpaq mülkləri yerli hakimiyyət orqanları tərəfindən ermənilərə güzəştə gedildiyi üçün komissiya yerli hakimiyyət orqanının həmin qərarını tanıdı. Daxili sərhədlərlə bağlı komissiya tərəfindən razılaşdırılmış məsələlər Azərbaycan MİK-nin sədri M.Hacıyev, Gürcüstan nümayəndəsi Jgenti və Ermənistan nümayəndəsi İ.Dovlatov tərəfindən imzalanaraq, noyabr ayının 12-də RK(b)P MK-nın

[36] Azərbaycan SSR və Gürcüstan SSR arasında daxili sərhədlərin müəyyən edilməsi haqqında qərardad. 05.07.1921.// RDSSTA, f.64, s.1, i.61, v.7

[37] Azərbaycan SSR ilə Gürcüstan SSR arasında daxili sərhədlərin müəyyən edilməsi haqqında saziş.15.07.1921.// RDSSTA, f.64, s.1, i.61, v.5

Qafqaz Bürosuna təqdim edildi.[38] Ermənistanla Gürcüstan arasında əsasən, türk əhalisinin yaşadığı məntəqələrindən keçən sərhəd xətti noyabr ayının 6-da Ermənistan XKS-nin sədri A.Myasnikovla, Gürcüstan İnqilab Komitəsinin sədri P.Mdivani arasında imzalanmış sazişlə təsdiq edildi.[39] Bütün bunlara baxmayaraq, üç respublika arasında sərhəd məsələləri ilə bağlı ümumi bir müqavilənin hazırlanması üçün Lukaşin, Hüseynov, Svanidze və Oraxelaşvilidən ibarət komissiya yaradılsa da, Cənubi Qafqaz respublikaları arasında ümumi bir müqavilə imzalanmadı. 1922-ci lin aprel-may aylarında hər üç respublikanın Mərkəzi İcraiyyə Komitələrində, habelə, Cənubi Qafqaz federasiyasının İttifaq Sovetində bir sıra qərarlar qəbul edilsə də, sərhəd məsələlərini tənzimləyən yekun sənəd imzalamaq mümkün olmadı. Azərbaycanla Ermənistan arasında bəzi mübahisəli sərhəd məsələləri ötən əsrin 20-30-cu illərinə qədər davam etdi.[40]

Cənubi Qafqaz Federasiyasının yaradılması məsələsini müzakirə etmək üçün 1921-ci ilin dekabr ayının 7-də Birinci Zaqafqaziya partiya konfransı çağrıldı. Konfrans qərara aldı ki, federasiya ideyası geniş təbliğ və təşviq edilsin, sovetlər vasitəsi ilə bu işə əməli xarakter verisin və federasiyanın yaradılması prosesi tezliklə başa çatdırılsın. Partiya və sovet orqanlarının ciddi cəhdlərinə baxmayaraq, federasiya ideyasına müxalif meyllər də güclənməkdə idi. Belə meyllərə qarşı mübarizənin siyasi müstəviyə keçirilməsi və birlik ideyasına qarşı yönəlmiş hər hansı fikirlərin millətçilik kimi damğalanması, partiya və sovet orqanlarına repressiv metodları gücləndirməyə imkan verdi. Xüsusilə, yerlərdə məsələnin müzakirəsi federasiya ideyasına qarşı müxalif fikirlərin ortaya çıxmasına səbəb olmuşdu. Bir sıra müzakirələrdə yeni İttifaq dövlətində Azərbaycanın mənafeyinin tapdalanacağı haqqında açıq fikirlər səsləndirilmiş, birləşmənin prinsiplərinə etiraz edilmişdi. Bütün bunları nəzərə alaraq, 1922-ci ilin fevralında keçirilən Azərbaycan K(b)P-nin İV qurultayı Cənubi Qafqaz Federativ dövlətinin yaradılması haqqında xüsusi qətnamə qəbul etdi. Qətnamədə partiya Mərkəzi Komitəsinə tapşırılırdı ki, federasiya yaradılması ilə bağlı

[38] Sərhəd komissiyasının üzvləri M.Hacıyev, Jqenti və İ.Dovlatovun RK(b)P MK Qafqaz Bürosuna məktubu.12.11.1921.// RDSSTA, f.64, s.1, i.61, v.13

[39] Ermənistan SSR və Gürcüstan SSR arasında daxili sərhədlərin müəyyən edilməsi haqqında qərardad. 06.11.1921.// RDSSTA, f.64, s.1, i.61, v.4

[40] Bax: С.Мустафаева. Советская Россия и формирование границ между государствами Кавказа (на примере Азербайджана и Армении)// Кавказ и Глобализация. Том 4. Выпуск 1-2, 2010, с.238

"hər cür millətçilik təməyülləri və partiya orqanlarının qərarlarına etinasızlıq göstərmək cəhdlərinə qarşı bütün vasitələrlə mübarizə aparsın".[41]

Cənubi Qafqaz kommunist partiyalarının 1922-ci ilin fevral ayının 18-22-də Tiflisdə keçirilən birinci qurultayı hər üç respublikanın partiya orqanlarının vahid mərkəzdə birləşdirilməsinə və Cənubi Qafqazın idarə olunmasının daha da mərkəzləşdirilməsinə qərar verdi. 1921-ci ilin noyabr ayının sonlarında hazırlanmış İttifaq müqaviləsinin layihəsi və Ali İqtisadi Şuranın əsasnaməsi qurultay tərəfindən qəbul edildi. Qurultayda N.Nərimanov, C.Yaqubov, S.Kirov, S.Lukaşin (Srapionyan), P.Mdivani, A.Myasnikov, M.Oraxelaşvili, Q.Orconikidze və M. Pleşakovdan ibarət Cənubi Qafqaz Ölkə Komitəsi seçildi. Ə.Qarayev, M.Lisovski, F.Maxaradze, L.Mirzoyan və N.Okucava bu qurumun üzvlüyünə namizəd təsdiq edildilər. Yeni yaradılan birləşmiş partiya orqanı ilk plenumunda Cənubi Qafqaz respublikalarında Mərkəzi İcraiyyə Komitələrinin konfranslarının çağrılmasına qərar verdi.

1922-ci ilin mart ayının 3-də keçirilən Azərbaycan MİK-in üçüncü sessiyası Cənubi Qafqaz respublikalarının federasiya ittifaqı haqqında müqaviləni və Ali İqtisadi Şuranın əsasnaməsini bəyəndi. Federasiyanı rəsmiləşdirəcək Cənubi Qafqazın səlahiyyətli konfransına Azərbaycandan həlledici səslə 25, məşvərətçi səslə 3 nümayəndə göndərildi. Mart ayının 11-də Tiflisdə işə başlayan Azərbaycan, Gürcüstan və Ermənistan Mərkəzi İcraiyyə Komitələri nümayəndələrinin səlahiyyətli konfransı mart ayının 12-də Cənubi Qafqaz Sovet Sosialist Respublikaları Federativ İttifaqının yaradılması haqqında qərar qəbul etdi. Yeni qurumun ali orqanı kimi, konfrans özünün icra orqanı sayılan İttifaq Sovetini və onun üç nəfərdən ibarət Rəyasət Heyətini yaratdı. Azərbaycandan Nəriman Nərimanov, Gürcüstandan Polikarp (Budu) Mdivani, Ermənistandan isə Aleksandr Myasnikov Rəyasət Heyətində təmsil olundular. Onlar 1922-ci ilin dekabr ayının sonlarına qədər Cənubi Qafqaz Respublikası İttifaq Sovetinin Rəyasət Heyətinə rəhbərlik etdilər. Yeni təşkil edilmiş Cənubi Qafqaz hökumətində Eliava hərbi-dəniz işləri komissarı, Svanidze Maliyyə komissarı, Bekzadyan Poçt və Teleqraf komissarı, Musabəyov ticarət komissarı, Yaqubov əmək komissarı, Talıblı fəhlə-kəndli müfəttişliyi, Şuşkov dəmiryol idarəsinin rəisi, Rusakov fövqəladə komissiyanın rəisi vəzifələrini tutdular.[42] Göründüyü kimi, Cənubi Qafqaz respublikalarının xarici siyasət idarələri birləşdirilsə də, yeni

[41] Резолюции и постановления IV съезда АКП (б). Баку, 1922, с.22

[42] Cənubi Qafqaz respublikalarının federal şurası. 16.03.1922.// RDSSTA, f.64, s.1, i.216, v.58

yaranan hökumətin tərkibində xarici işlər komissarı vəzifəsi yox idi. Xarici siyasət məsələləri bütövlükdə İttifaq Sovetinin kollektiv səlahiyyətinə verilmişdi. Konfransada qəbul olunmuş İttifaq müqaviləsində göstərilirdi ki, hər üç respublikanın silahiyyətli konfransı xalqların öz müqəddəratlarını təyin etmək hüququnu əsas tutaraq, razılığa gələn tərəflərdən hər birinin müstəqilliyini və suverenliyini tanıyaraq, müdafiə məqsədilə və təsərrüfat quruculuğu mənafeyi üçün öz qüvvələrini birləşdirməyin zəruriliyini dərk edərək, Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Socialist Respublikaları bundan sonra öz aralarında sıx hərbi, siyasi və iqtisadi ittifaqa daxil olduqlarını bəyan edirlər.[43] Bununla da Cənubi Qafqaz sovet respublikalarının hərbi, maliyyə, xarici siyasət, xarici ticarət, nəqliyat, poçt-rabitə komissarlıqları, iqtisadiyyatın idarə olunması və əks-inqilabla mübarizə funksiyaları birləşmiş orqan olan İttifaq Sovetinin səlahiyyətinə verildi. Beləliklə, zəruri dövlət və hakimiyyət orqanlarının vahid federasiya ittifaqında birləşdirilməsi prosesinin birinci mərhələsi tamamlandı. 1922-ci ilin aprel ayının 28-də II Ümumazərbaycan Sovetlər qurultayı İttifaq müqaviləsini ratifikasiya etdi. Azərbaycanda iki il davam edən məhdud müstəqillik erası əsasən, başa çatdı. Respublika hakimiyyətinin bir hissəsi, ilk növbədə isə, onun gündən günə məhdudlaşdırılan xarici siyasəti əhatə edən hissəsi Cənubi Qafqaz İttifağının kollektiv idarəçiliyinə verildi.

Cənubi Qafqaz İttifaq Soveti Rəyasət Heyətinin üzvü olmaq Nəriman Nərimanov üçün yüksəliş idi, yoxsa eniş? Hələ, 1922-ci ilin əvvəllərində Nərimanovun Cənubi Qafqaz İttifaq Sovetinin sədri seçiləcəyi haqqında söz-söhbət yayılmışdı. Azərbaycanın Ankaradakı səlahiyyətli nümayəndəsi İbrahim Əbilov Türkiyə Xarici işlər naziri Yusuf Kamal bəylə 1922-ci ilin yanvar ayının 26-da keçirdiyi görüşdə məlumat vermişdi ki, Bakıdan alınan məlumatlara görə, N.Nərimanov Cənubi Qafqaz Federasiyası İttifaq Sovetinin sədri, B.Şahtaxtinski isə yeni birliyin xarici işlər komissarı vəzifəsini tutacaqdır. İ.Əbilovun bu məlumatı, ilk növbədə, Türkiyədə olan Azərbaycan mühacirlərinin "Rusiyanın Cənubi Qafqaz republikalarının müstəqilliyini məhv etməsi və federativ hakimiyyətin başında rus komissarı Orconikidzenin duracağı" haqqında mətbuata ötürdükləri məlumatlarla bağlı idi.[44] Yusuf Kamal bəy bildirdi ki, Nəriman bəyin və Behbud bəyin belə yüksək vəzifələrə seçilməsi bizim üçün sevindirici məlumatdır və biz bunu alqışla-

[43] Bax: Azərbaycan tarixi, Yeddi cilddə. Altıncı cild. Bakı, 2000, s.162

[44] İ.Əbilovun N.Nərimanova məktubu. 03.02.1922.// ARPİİ SSA, f.609, s.1, i.94, v.169

yırıq. O, əmin olduğunu bildirdi ki, Cənubi Qafqaz sovet respublikaları ilə bərqərar edilmiş dostluq münasibətləri bu respublikaların federasiya birliyi ilə də davam etdiriləcəkdir.[45]

Lakin Nərimanovun uzaqdan yüksəliş kimi görünən bu təyinatının arxasında dayanan müəyyən gizli məqamlar var idi. Əslində isə, söhbət onun Azərbaycanın idarəçiliyində real hakimiyyət sayılan respublika XKS-in sədri vəzifəsindən uzaqlaşdırılmasından gedirdi. Sözün tam mənasında N.Nərimanov artıq Bakıda sovet rəhbərliyi, ilk növbədə, Orconikidze və Kirov üçün arzuolunmaz fiqura çevrilmişdi. 1921-ci ilin noyabrında Azərbaycan Fövqəladə Komissiyasının Nərimanov haqqında Moskvaya, RK(b)P MK-ya göndərdiyi gizli məlumatda deyilirdi: "Nərmanov türk millətçiləri ilə əlaqə saxlayır ki, onların yardımı ilə vahid Şərq dövləti yaradılması kimi millətçi ideyanı həyata keçirsin. Çekistlər, hətta, Azərbaycan hökumətinin başçısının gizli əks-inqilabçı olmasından belə, şübhələnirdilər".[46] Bu vəziyyətdə Mərkəz, Cənubi Qafqaz Federativ İttifaqının yaranması ilə Nəriman Nərimanovu Azərbaycandan uzaqlaşdırmağın ağrısız yolunu əldə etmişdi. Zaqafqaziya İttifaq Sovetinin Rəyasət Heyətinin üzvü kimi, onun iqamətgahı Bakıdan Tiflisə köçdü.

N.Nərimanovun öz tərəfdarlarını səfərbər etməklə, eyni zamanda, Azərbaycanda Xalq Komissarları Sovetinin sədri vəzifəsində qalmaq cəhdləri baş tutmadı. Moskva məsələni belə qoydu ki, Nərimanov Cənubi Qafqaz hökumətinin başçısı olduğundan, o, Azərbaycanda vəzifə tuta bilməz. N.Nərimanov özünün belə "yüksəldilməsinə" qarşı dəfələrlə etiraz etsə də, Azərbaycan hökumətinin başçısı vəzifəsini geri qaytarmaq mümkün olmadı. Şübhəsiz ki, Q.Orconikidze onu etiraz əlaməti olaraq, siyasətdən gedib, özünü ədəbi fəaliyətə həsr etmək fikrindən daşındıra bildi.[47] Nəriman Nərimanov özü sonralar onun Azərbaycan XKS-in sədri vəzifəsindən uzaqlaşdırılmasını belə şərh edirdi: "Partiya qaydası ilə XKS-in sədri yoldaş Musabəyovu seçmək təklifi elan edildikdə, yerlərdən səslər eşidildi: "Bəs, Nərimanov?" Onlar cavab verdilər ki, Nərimanov İttifaq Sovetinin sədri seçilmişdir. Elə həmin dəqiqə onların agentləri bu qərarla razı olmayanları dilə tutub, sakitləşdirməyə başladılar ki, indi yoldaş Nəriman hər üç respublikanın başçısı sayılır". [48] Bir qədər sonra N.Nərimanov onun

[45] İ.Əbilovun Yusuf Kamal bəylə söhbəti. 26.01.1922.// ARDA, f.28, s.1, i.68, v.17

[46] Йорг Баберовски. Враг есть везде. Сталинизм на Кавказе. Москва, 2010, с.274-275; RDSSTA, f.64, s.1, i.55, v.96

[47] Йорг Баберовски. Враг есть везде. Сталинизм на Кавказе. Москва, 2010, с.277

[48] Üçqarlarda inqilabımızın tarixinə dair, Mərkəzi Komitəyə, İ.Stalinə məktub. Surəti yoldaş

Bakıdan uzaqlaşdırılmasının daha açıq şərhini verərək yazırdı ki, "özünün "Qafqaz" siyasətinin inkişafına mane olan hər şeyi məhv etmək üçün məni Azərbaycandan uzaqlaşdırmaq Serqoya lazım idi".[49] Halbuki, bir qədər əvvəl milli kommunizmə ehtiyatla yanaşan Q.Orconikidze də, S.Kirov da və hətta, İ.Stalin də Azərbaycanda rəhbər vəzifədə Nərimanova alternativ görmürdülər. Alman tarixçisi, Humbolt universitetinin professoru Yorq Baberovski əvvəllər Sovet rəhbərliyinin Nəriman Nərimanova olan böyük etimadını nəzərdə tutaraq, yazır ki, o, "Mərkəzi əyalətdə, əyalət əhalisini isə Mərkəzdə təmsil edirdi".[50] N.Nərimanov Azərbaycandan uzaqlaşdırıldıqdan sonra milli təməyüllü müsəlman kommunistləri "aralarında yoldaş Nərimanov olmadığından, özlərini yetim sayırdılar".[51]

Məsələnin maraq doğuran digər tərəfi, N.Nərimanovun 1921-ci ilin oktyabr-noyabr aylarında öz əleyhdarları üzərindəki mühüm qələbəsindən sonra Bakıdan uzaqlaşdırılması idi. Bu ixtilafla bağlı oktyabr ayının ilk günlərində RK(b)P MK Siyasi Bürosu teleqram göndərərək, onu təkidlə Moskvaya çağırır və bu ixtilafların əsas təşkilatçısı olan Q.Orconikidze ilə onu bir masa arxasında oturdub, barışdırmağa çalışırdı.[52] Azərbaycanın kommunist rəhbərliyi daxilində getdikcə dərinləşən fraksiya mübarizəsində Mərkəz əvvəlcə Nərimanovun tərəfində dayanmış və RK(b)P MK Siyasi Bürosu oktyabr ayının 15-də "Bakı məsələsi"ni müzakirə edib, M.D.Hüseynov və R.Axundovdan hər cür fraksiyaçılığı dayandırmağı tələb etmiş və onları xəbərdarlıq üçün təcili olaraq, Moskvaya çağırmışdı.[53] Leninin əli ilə sənədin üzərində 6 bənddən ibarət qeyd qoyulmuşdu və həmin qeydlərlə onlara xəbərdarlıq edilirdi ki, əgər fraksiya mübarizəsinə son qoymasalar, partiya sıralarından xaric ediləcəklər.[54] Bu, bilavasitə Leninin dəstəyi ilə Nərimanovun mühüm qələbəsi idi. Oktyabr ayının 17-də Siyasi Büro yenidən

Trotskiyə və Radekə. İyun1923. // RDSSTA, f.588, s.2, i.176, v.33

[49] Н.Нариманов. К истории нашей революции в окраинах (Письмо И.В.Сталину). Баку, 1990, с.105

[50] Йорг Баберовски. Враг есть везде. Сталинизм на Кавказе. Москва, 2010, с.274

[51] Üçqarlarda inqilabımızın tarixinə dair, Mərkəzi Komitəyə, İ.Stalinə məktub. Surəti yoldaş Trotskiyə və Radekə. İyun 1923. // RDSSTA, f.588, s.2, i.176, v.33

[52] Bax: RK(b)P MK Siyasi Bürosu iclasının 64 saylı protokolu. 03.10.1921.//RDSSTA, f.17, s.163, i.193, v.8

[53] Bax: RK(b)P MK Siyasi Bürosu iclasının 68 saylı protokolu.15.10.1921.//RDSSTA, f.17, s.3, i.216, v.6

[54] Bax: RK(b)P MK Siyasi Bürosu iclasının 68 saylı protokolu üzərində V.Leninin qeydləri. 15.10.1921.// RDSSTA, f.17, s.163, i.199, v.22

bu məsələyə qayıdaraq, Nərimanovun təklifi üzrə partiya özəkləri və digər məsul partiya orqanlarına rəhbərlik etmək üçün müsəlman kommunistlərinin hazırlanmasını Azərbaycan Kommunist Partiyasından və Bakı Komitəsindən tələb edən qərar qəbul etmişdi. Elə həmin iclasda N.Nərimanovun zəmanəti ilə fraksiyaçılığa qarşı mübarizədə Qafqaz Bürosuna yardım etmək üçün Mir Cəfər Bağırov və Əliheydər Qarayev Qafqaz Bürosunun üzvü təsdiq edilmişdilər. [55] Siyasi Büronun Azərbaycan K(b)P MK işçiləri üçün təsdiq etdiyi təlimatda göstərilirdi ki, bütün vasitələrlə Azərbaycanın yerli əhalisini geniş sovet quruculuğuna cəlb etmək və bu prosesdə onların milli məişət xüsusiyyətlərini, mədəni inkişafının səviyyəsini ciddi şəkildə nəzərə almaq lazımdır.[56] Şübhəsiz ki, bu təlimatın qəbul edilməsində N.Nərimanovun dəst-xətti açıq-aydın hiss edilirdi.

RK(b)P MK Siyasi Bürosunun M.D.Hüseynov, R.Axundov, Sarkis (Danilyan) və digər fraksiyaçılar haqqında tənbeh tədbirləri olsa da, N.Nərimanov onların Bakıda qalmasına imkan vermədi. Son nəticədə RK(b)P MK Siyasi Bürosu İ.Stalinə tapşırıq verdi ki, Hüseynov və Axundovu Moskvaya çağırıb, Millətlər Komissarlığında onları işlə təmin etsin.[57] Hətta, az sonra Mirzə Davud Hüseynov RSFSR Millətlər Komissarının müavini vəzifəsinə təyin edilmişdi.[58] Sarkisi isə Bakıdan çıxarmaq elə də asan olmamışdı. 1921-ci ilin avqust ayında RK(b)P MK-nın Qafqaz Bürosu N.Nərimanovun tələbi üzrə Sarkis və digərlərinin fraksiyaçı əməllərini mühakimə edən qərar qəbul etdikdə, Sarkis həmin qərara tabe olmaqdan imtina etmişdi. Belə olduqda, N.Nərimanov 1920-ci ilin sentyabrında A.Mikoyanı Bakıdan yola saldığı kimi, Sarkisi də zor gücünə qapalı vaqona oturdub, Bakıdan qovmuşdu.[59] Behbud Şahtaxtinskinin dili ilə desək, Nərimanov Azərbaycanı özünə "tabe etmək" istəyirdi ki, "məsuliyyətsiz" ermənilər ölkəni dağıtmasınlar.[60] Məhz, Nərimanovun tələbi ilə 30 rəhbər partiya, sovet və həmkarlar ittifaqı işçiləri Bakıdan çıxarılmışdı ki, bunların içərisində Lominadze, Strua, Mikoyan,

[55] Bax: RK(b)P MK Siyasi Bürosu iclasının 69 saylı protokolu. 19.10.1921.// RDSSTA, f.17, s.3, i.217, v.1-2

[56] Azərbaycan işçiləri üçün RK(b)P MK-nın təlimatı. 17.10.1921.// RDSSTA, f.17, s1693, i.200, v.3-4

[57] Bax:RK(b)P MK Siyasi Bürosu iclasının 81 saylı protokolu. 01.12.1921.//RDSSTA, f.17, s.3, i.238, v.2

[58] Bax:RK(b)P MK Siyasi Bürosu iclasının 92 saylı protokolu. 26.01.1922.//RDSSTA, f.17, s.3, i.257, v.1

[59] Bax: Йорг Баберовски. Враг есть везде. Сталинизм на Кавказе. Москва, 2010, с.273

[60] B.Şahtaxtinskinin RK(b)P MK-ya məktubu. Avqust 1923.// RDSSTA, f.558, s.2, i.2, v.50-51

Sarkis, Cəbiyev, Axundov, Hüseynov kimi, tanınmış rəhbər partiya işçiləri var idi.[61] Göründüyü kimi, Nəriman Nərimanov böyük çətinliklə Bakını arzuedilməz rəhbər işçilərdən təmizləmə prosesini başa çatdırdıqdan az sonra özü də "yüksək vəzifəyə" aparılmaq adı altında Azərbaycandan uzaqlaşdırıldı.

N.Nərimanovun respublikadan uzaqlaşdırılmasından az sonra, Mərkəz, onun öz dili ilə desək, Azərbaycanı simasızlaşdırmaq siyasətinə nail oldu. N.Nərimanovun yerinə XKS-in sədri seçilən Qəzənfər Musabəyovun hökumət başçısı kimi rolunu səciyyələndirən İ.Stalin haqlı olaraq yazırdı ki, Azərbaycanda "işlər o həddə gəlib çatmışdır ki, hətta, Xalq Komissarlar Sovetinin sədri Musabəyov AK(b)P MK-nın Baş Katibinin xüsusi razılığı olmadan atlar üçün saman almaq məsələsini belə, həll edə bilmir".[62]

§2. Genuya konfransına hazırlıq və Azərbaycan

Cənubi Qafqaz Federasiyasının rəhbərliyi formalaşdırıldıqdan az sonra, İttifaq Soveti Rəyasət Heyətində təmsil olunan hər üç respublikanın nümayəndələri Genuya konfransına göndərilmək üçün Moskvaya dəvət edildilər. RK(b)P MK Siyasi Bürosunun 1922-ci ilin yanvar ayında keçirilən iclasının qərarı ilə N.Nərimanov, P.Mdivani və A.Bekzadyan Genuyaya gedəcək sovet nümayəndə heyətinin tərkibinə daxil edilsələr də, Cənubi Qafqaz Federasiyasının rəhbərliyinin nümayəndə heyətinə daxil edilməsi beynəlxalq vəziyyətlə bağlı olub, sırf deklarativ xarakter daşıyırdı. Hadisələrin sonrakı gedişi göstərdi ki, Sovet Rusiyası nə Nərimanovu, nə də, digər əyalət nümayəndələrini Avropa dövlətləri ilə aparılan diplomatik danışıqlara yaxın buraxmaq fikrində deyildi. Bununla belə, fevral ayının 9-da Siyasi Büronun qərarı ilə Q.Orconikidzeyə teleqram göndərildi ki, fevral ayının 22-dən gec olmayaraq, Nərimanov, Mdivani və Bekzadyan Moskvada olsunlar.[63] Elə həmin iclasda Maksim Litvinova tapşırıq verildi ki, Mdivaniyə teleqram göndərib, Gürcüstan məsələsinin Genuya konfransının gündəliyinə salına biləcəyi haqqında onu məlumatlandırsın. Teleqramda Mdivanidən tələb edilirdi ki, bununla bağlı bütün zəruri sənədləri toplayıb,

[61] N.Nərimanovun məruzə və ərizəsini araşdıran komissiyanın iclasının protokolu. 13.06.1923. // RDSSTA, f.588, s.2, i.176, v.62-63

[62] İ.Stalinin S.Kirova məktubu. 22.05.1922. // RDSSTA, f.558, s11, i.746, v.1

[63] RK(b)P MK Siyasi Bürosu iclasının 94 saylı protokolu.09.02.1922.//RDSSTA, f.17, s.163, i.244, v.26

Siyasi Büroya təqdim etsin.[64] Taleyin qəribə iztehzası idi ki, Gürcüstanı Genuyada sovet nümayəndəliyinin tərkibində Polikarp (Budu) Mdivani, Gürcüstan mühacir hökumətini isə onun qardaşı Simon Mdivani təmsil edəcəkdi.[65] P.Mdivaninin Sovet Gürcüstanının adından Genuya konfransına nümayəndə təyin edilməsi haqqında məlumat yayılan kimi, fevral ayının 13-də Parisdəki Gürcüstan mühacirətinin rəhbərlərindən olan Akaki Çxenkeli Fransa Baş naziri Raymon Puankareyə məktub göndərib, Kremlin adamı olan Gürcüstan XKS-in sədri P.Mdivaninin Gürcüstan nümayəndəsi kimi tanınmasına etirazını bildirdi.[66]

Cənubi Qafqaz nümayəndə heyətinin Genuya konfransında iştirakı Türkiyəni də çox maraqlandırırdı. Hələ İbrahim Əbilovla 1922-ci ilin yanvar ayının 26-da keçirdiyi görüşdə Türkiyənin xarici işlər naziri Yusuf Kamal bəy Cənubi Qafqaz respublikalarının, ilk növbədə isə, Azərbaycanın Genuya konfransına dəvət alıb-almaması ilə maraqlandı. Yusuf Kamal bəy bilmək istəyirdi ki, Cənubi Qafqaz respublikaları və Azərbaycan Avropa konfransına dəvət alsalar, onlar konfransda bilavastə öz nümayəndələri ilə iştirak edəcəklər, və ya Rusiya vasitəsi ilə Genuyada təmsil olunacaqlar? İ.Əbilov bildirdi ki, bu haqda o, Azərbaycan hökumətindən hər hansı bir məlumat almamışdır. Səfir əlavə etdi ki, əgər belə bir dəvət olarsa, "biz, yəni, Cənubi Qafqaz respublikaları öz nümayəndələrimizi göndərəcəyik, ya da əlbəttə, əgər zərurət olarsa, Rusiya nümayəndələri vasitəsi ilə təmsil olunacağıq". Yusuf Kamal bəy Cənubi Qafqaz respublikalarının Genuya konfransında iştirakının vacib addım olduğunu Əbilova bildirdi. O qeyd etdi ki, Genuyada Şərq Antantasının yaranmasına zərurət meydana çıxa bilər və bu halda biz bir-birimizin yardımından istifadə edə bilərik.[67]

N.Nərimanov və digər Qafqaz respublikalarının nümayəndələri Genuyaya gedən sovet heyətinin tərkibinə niyə daxil edilmişdi? Şübhəsiz ki, bu, ilk növbədə, Qafqaz respublikaları haqqında Avropada yayılan fikirlərlə bağlı idi. Avropa mətbuatı demək olar ki, hər gün Cənubi Qafqaz haqqında bu və ya digər məlumatlar çap edirdi. Avropada yerləşən mühacirət nümayəndələri bu gün-sabah Cənubi Qafqazda sovet hakimiyyətinin devriləcəyi haqqında

[64] Bax: RK(b)P MK Siyasi Bürosu iclasının 94 saylı protokolu. 09.02.1922.//RDSSTA, f.17, s.3, i.261, v.6

[65] Bax: «Правда Закавказья», 1922, 16 мая

[66] Bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.62

[67] İ.Əbilovun Yusuf Kamal bəylə söhbəti. 26.01.1922.// ARDA, f.28, s.1, i.68, v.20

müsahibələr verirdilər. Sovet xüsusi xidmət orqanlarına yaxşı məlum idi ki, Qafqaz mühacirəti Genuyada vahid bəyannamə ilə çıxış etməyə hazırlaşır. Hələ Kann müşavirəsi işə başlayan zaman, 1922-ci ilin yanvar ayının 5-də Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz respublikalarının Parisdə olan nümayəndələri Fransanin xarici işlər naziri Aristid Briana nota ilə müraciət edib, bildirmişdilər ki, Avropa iqtisadiyyatının bərpası ilə bağlı məsələlərdə Qafqaz respublikalarına Rusiyanın bir hissəsi kimi deyil, ayrıca bir iqtisadi məkan kimi baxılsın. Sənədə imza atanlar təklif edirdilər ki, Avropa iqtisadiyyatının bərpası ilə bağlı müzakirələrdə onlar bu respublikaların qanuni təmsilçiləri kimi tanınsınlar.[68] Digər tərəfdən, II İnternasionalda gürcü menşeviklərinin mövqeləri çox güclü idi və onlar dəfələrlə socialist partiyaların toplaşdığı bu güclü təşkilatda Gürcüstanın işğal olunması məsələsini qoyub, dünya socialist partiyalarından dəstək ala bilmişdilər. Hətta, Gürcüstan məsələsi üç internasionalın rəsmi bəyanatına belə düşmüşdü.

Gürcüstan, Azərbaycan və Ermənistanı antisovet üsyanları bürüdüyü barədə yayılan müxtəlif məlumatlar Qərbin bəzi dairələri üçün maraqlı görünürdü. Avropa ölkələrində Cənubi Qafqaz respublikalarının, xüsusilə, Gürcüstanın sovetləşdirilməsinə qarşı etirazlar güclü olduğu üçün, bu etirazlara cavab olaraq, Moskvanın təlimatı ilə 1921-ci ildə F.Maxaradze tərəfindən hazırlamış bir broşür nəşr edilmişdi. 1921-ci ilin ilin iyul ayında G.Çiçerin Gürcüstanın Moskvadakı nümayəndəsi Mixail Sxakayadan xahiş edirdi ki, xaricə ezam olunan kuryerler vasitəsi ilə Sovet Rusiyasının müxtəlif ölkələrdəki nümayəndəlikləri arasında tədricən yaymaq üçün həmin broşürdən 50-60 ekzemplyar Moskvaya göndərilsin.[69] Hələ, 1921-ci ilin yayında Bernşteyn və Kautski kimi tanınmış sosialistlər bəyanatla çıxış edib, Sovet Rusiyasını Gürcüstan, Ermənistan, Azərbaycan və Türküstandan çıxmağa, talançılıq və zorakılıqla məşğul olan Qırmızı Ordunun 200 minlik hərbi hissələrini bu ölkələrdən geri çağırmağa, bu xalqlara öz ölkələrini idarə etmək azadlığı verməyə çağırırdılar. Çiçerin 1921-ci ilin iyul ayının 29-da Gürcüstanın Moskvadakı səlahiyyətli nümayəndəsi Mixail Sxakayaya göndərdiyi məktubda belə hesab edirdi ki, bu məzmunda çağrışlar bilavasitə Qafqaz dövlətlərinə aid olduğundan, onların özlərinin bu çıxışlara reaksiya vermələri daha uyğun olardı.[70]

[68] Bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.61-62

[69] G.Çiçerinin M.Tsxakayaya məktubu. 08.07.1921. .// RDSSTA, f.157, s.1/c, i.12, v.1

[70] G.Çiçerinin M.Tsxakayaya məktubu. 29.07.1921. .// RDSSTA, f.157, s.1/c, i.12, v.2

Cənubi Qafqaz sovet nümayəndələrini Genuyaya gedən sovet heyətinin tərkibinə daxil etməklə, bolşeviklər bir növ bu respublikalarda müstəqil hökumətlərin fəaliyyət göstərdiyini nümayiş etdirmək istəyirdilər. Sovetlərə lazım idi ki, Qafqaz respublikalarının özlərinin nümayəndələri bu respublikalarla bağlı Avropada yayılan söz-söhbətə cavab versinlər.[71] Fevral ayının 11-də Bakı şəhər sovetinin birləşmiş iclasında beynəlxalq Genuya iqtisadi konfransı ilə bağlı "zəhmətkeşlər" tərəfindən N.Nərimanova verilən tapşırıqlardan da bu açıq-aydın hiss edilirdi.[72]

Cənubi Qafqaz nümayəndələrinin sovet heyətinə daxil edilməsinin digər səbəbi 20-ci illərin əvvəllərində neft konsessiyaları haqqında siyasi müzakirələrin geniş yayılması ilə bağlı idi. Əslində, 1921-ci ilin fevral-mart aylarında keçirilmiş London konfransının mərkəzi məsələlərindən biri Bakı nefti ilə bağlı olmuşdu. Məlum olduğu kimi, Britaniya Baş naziri Lloyd Corc həmin konfransda Bakının neft mədənləri ilə birlikdə bütün Cənubi Qafqazın Türkiyənin nüfuz dairəsinə verilməsi ideyasını müzakirəyə təqdim etmişdi. Lakin bu müzakirələr əməli bir nəticə verməsə də, Bakı nefti uğrunda beynəlxalq diplomatik mübarizə daha da kəskinləşib, yeni mərhələyə daxil olmuşdu.[73] London konfransından sonra verdiyi bəyanatda Bəkir Sami bəy bildirirdi ki, beynəlxalq sülhün əldə edilməsində London konfransı əhəmiyyətli addım olsa da, Avropada bu istiqamətdə yeni bir konfransın olacağı şübhəsizdir.[74]

1921-ci ilin payızında RK(b)P MK-nın Siyasi Bürosu artıq, bir neçə dəfə neft konsessiyaları məsələsini müzakirəyə çıxarmış və bu məqsədlə müxtəlif komissiyalar yaratmışdı. Bolşevik hərc-mərcliyinin dağıtdığı Bakı və Qroznı neft sənayesini Sovet rəhbərliyi xarici konsessiyalar vasitəsi ilə bərpa etmək barədə müxtəlif müzakirələr aparırdılar. Siyasi Büronun 1921-ci ilin noyabr ayının 5-də keçirilmiş iclasında "Neft konsessiyaları haqqında" məsələ müzakirə edildi və Leonid Krasinlə Aleksey Rıkova tapşırılmışdı ki, 3 gün müddətində mütəxəssislərin iştirakı ilə Bakı və Qroznı neft mədənlərini təhlükə altına alan fəlakətdən çıxış yolu haqqında öz mülahizələrini Siyasi Büroya təqdim edsinlər. Siyasi Büro bilmək istəyirdi ki, bu fəlakətdən qurtarmaq üçün konsessiyadan hansı formada və hansı

[71] Bax: RK(b)P MK Siyasi Bürosu iclasının 2 saylı protokolu. 10.04.1922.// RDSSTA, f.17, s.3, i.288, v.6

[72] "Kommunist", 1922, 13 fevral

[73] İ.Musayev. Azərbaycanın xarici siyasəti. İkinci hissə. 1920-1991. Bakı, 2010, s.24

[74] Bəkir Sami bəyin bəyanatı. 03.05.1921.// ARPİİ SSA, f.7, s.1, i.59, v.53

həcmdə istifadə etmək olar.[75] Noyabr ayının 16-da Siyasi Büro yenidən neft konsessiyaları məsələsinə qayıtdı və bu məsələni partiyadaxili müzakirəyə verməməyi məqsədəuyğun hesab etdi. Katibliyə tapşırıldı ki, sorğu yolu ilə MK üzvlərinin rəyi öyrənilib, Siyasi Büronun təsdiqinə verilsin.[76]

Neft konsessiyası ilə bağlı müzakirələrin Genuyada da aparılacağı gözlənildiyindən, Nəriman Nərimanov neftin əsl "sahibi" kimi, sovet nümayəndə heyətinin tərkibinə daxil edilmişdi. 1922-ci ilin fevral ayının 13-də Siyasi Büronun iclasında neft konsessiyaları haqqında məsələ yenidən müzakirəyə çıxarılıb, Ramzin, Strijov və Şibinskidən ibarət müvafiq ekspert komissiyasının formalaşdırılması və onların Avropada danışıqlar aparan L.Krasinlə görüşünün təşkil edilməsi zəruri hesab edildi. Müzakirələrin gedişində Ali Xalq Təsərrüfatı Şurasının eksperti professor Traxtenberq ekspert qismində Genuyaya gedən nümayəndə heyətinin tərkibinə əlavə edildi və Xarici İşlər Komissarlığına tapşırıldı ki, İtaliya hökumətindən onun üçün viza istəsin.[77] İclasın qərarı ilə Ali Xalq Təsərrüfatı Şurasının sədr müavini, Baş Yanacaq İdarəsinin rəisi İvar Smilqaya teleqram göndərildi ki, ekspertləri neft sənayesinə aid zəruri sənədlərlə təmin etmək üçün materiallar çatdırsın.[78] Müzakirələrdən və sənədləşmələrdən göründüyü kimi, neft konsessiyalarına hazırlıq işləri ilə, Genuya konfransına hazırlıq tədbirləri Sovet rəhbərliyi tərəfindən parallel şəkildə aparılırdı. Çünki, rəsmi şəkildə elan edilməsə də, maraqlı tərəflər yaxşı bilirdi ki, Avropa iqtisadi konfransının başlıca hədəfləri neft məsələsi olacaqdır. M.Mehdiyev "Beynəlmiləl siyasətdə petrol" kitabında doğru olaraq yazırdı ki, "Konfransdan rəsmi məqsəd hərbdən daha yeni çıxdığı dolayısı ilə bərbad bir vəziyyətdə olan Avropa iqtisadiyyatının islah və tənzimindən ibarət idi. Həqiqi məqsəd (Bakı nefti imtiyazı) isə son dərəcə gizli tutulurdu".[79] Bunu nəzərə alaraq, RSFSR-dən başqa digər sovet respublikalarını müstəqil şəkildə konsessiya danışıqlarından məhrum etmək üçün mart ayının 1-də xarici işlər komissarının müavini M.Litvinov Siyasi Büroya məktubla müraciət etmişdi. O yazırdı ki, federativ respublikaların əsas sərvətləri haqqında konsessiya danışıqları aparmaq məqsədilə qardaş sovet respublikalarının müstəqil şəkildə xaricə ezam olunmuş müvəkkilləri çox vaxt belə danışıqlar üçün hazırlıqlı olmurlar. M.Litvinov Dövlət Plan Komitəsi yanında konsessiya idarəsinin qabaqcadan razılığı olmadan Sovet Federativ Respublikaları hakimiyyət nümayəndələrinin belə danışıqlar aparmalarını partiya qaydasında qadağan etməyi məqsədəuyğun sayırdı.[80] M.Litvinovun bu müraciətindən sonra Sovet Rusiyası ilə Cənubi Qafqaz sovet respublikları arasında xarici ticarət və konsessiya məsələlərinə dair saziş imzalandı. Sazişi RSFSR tərəfindən Xalq Komissarları Sovetinin sədri Lenin, xarici ticarət komissarının müavini Lejava, Cənubi Qafqaz respublikaları tərəfindən Gürcüstanın nümayəndəsi Oraxelaşvili, Azərbaycanın nümayəndəsi Əliyev və Ermənistanın nümayəndəsi Ter-Qabrielyan imzalamışdılar. Sazişdə deyilirdi ki, Cənubi Qafqaz Sovet respublikalrının digər ölkələrlə iqtisadi əlaqələri onların RSFSR-lə sazişi əsasında həyata keçirilməlidir. Sazişə görə, Cənubi Qafqaz respublikalarının xarici ölkələrdə olan ticarət nümayəndəliyi RSFSR-in həmin ölkələrdəki ticarət nümayəndəliyi ilə birləşdirilir və yalnız, bütün sovet respublikalarının mənafeyini təmsil edən bir nümayəndəlik, yəni, Sovet Rusiyasının nümayəndəliyi saxlanılırdı. Cənubi Qafqaz respubliklarının ərazisində xarici ölkələrlə ticarət müqavilələri və buna bərabər olan konsessiya sazişləri yalnız RSFSR-in razılığı ilə bağlana bilərdi. Sazişin 5-ci bəndinə görə, Moskva RSFSR-in iqtisadi maraqlarını qorumaq və bu sazişdən irəli gələn məsələlərə nəzarət etmək üçün öz səlahiyyətli nümayəndəsini Cənubi Qafqazın birləşmiş Xarici Ticarət Komissarlığına ezam edirdi.[81] Bu sazişdən sonra Cənubi Qafqaz respublikalarının xarici ticarət və konsessiya məsələlərinə nəzarət, hələ 1921-ci ilin may ayının 6-da RSFSR Xarici Ticarət Komissarlığının və Ali Təsərrüfüt Şurasının Cənubi Qafqaz respublikalarında nümayəndəsi təyin edilmiş F.Rabinoviçə tapşırıldı.[82] Azərbaycan hökuməti adından Rabinoviçə təklif edilmiş fəaliyyət proqramında Cənubi Qafqaz Sovet Respublikalarının müstəqil olduğu qeyd edilsə də, orada göstərilirdi ki, "müqavilədə olan respublikaların hüdudlarında xaricilərə konsessiyalar RSFSR-in razılığı ilə verilə bilər".[83]

[75] RK(b)P MK Siyasi Bürosu iclasının 82 saylı protokolu. 05.11.1921.// RDSSTA, f.17, s.3, i.129, v.2

[76] RK(b)P MK Siyasi Bürosu iclasının 87 saylı protokolu. 16.11.1921.// RDSSTA, f.17, s.3, i.134, v.1

[77] RK(b)P MK Siyasi Bürosu iclasının 96 saylı protokolu. 13.02.1922.// RDSSTA, f.17, s.3, i.265, v.1-2

[78] RK(b)P MK Siyasi Bürosu iclasının 94 saylı protokolu. 09.02.1922.// RDSSTA, f.17, s.163, i.248, v.4

[79] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.15

[80] M.Litvinovun Siyasi Büroya məktubu. 01.03.1922.// RDSSTA, f.17, s.163, i.261, v.20

[81] RSFSR hökuməti ilə Cənubi Qafqaz Sovet Respublikaları (Gürcüstan, Azərbaycan, Ermənistan) hökuməti arasında saziş. 1922.//ARPİİ SSA, f.276, s.5, i.1, v.240

[82] Политбюро ЦК РКП (б) – ВКП (б). Повестки дня заседаний. Том 1. 1919-1929. Каталог. Москва, 2000, с.100

[83] Azərbaycan hökuməti tərəfindən F. Rabinoviçə göndərilən fəaliyyət proqramı. 1922. .//

Sovet rəhbərliyinin bu narahatçılığı 20-ci illərin əvvəllərində Qərb ölkələrinin neft siyasətinin intensiv xarakter alması ilə bağlı idi. Bakı neftinə yaxın düşmək üçün bir sıra Avropa və Amerika şirkətləri İran, Türkiyə və Yaxın Şərqdə konsesiyalar almağa can atırdılar. 1922-ci ilin mart ayının 3-də İ.Əbilov Ankaradan N.Nərimanova yazırdı ki, amerikalılar Şimali İranda neft konsessiyası əldə ediblər və orada çıxarılacaq neftin dəniz vasitəsilə daşınması yollarını arayırlar. Bundan əlavə, Əbilov yazırdı ki, geoloji tədqiqatlara əsasən, müəyyən olunub ki, Ərzurum neft yataqları Bakı nefti ilə eyni tərkibə malikdir və eyni yeraltı neft axarı üzərində yerləşir. O, Amerika neft kompaniyasının Türkiyə hökuməti ilə danışıqlar əsasında Ərzurumda neft axtarışlarına başlamaq arzusunu bununla izah edirdi.[84]

Sovet Rusiyası Avropa iqtisadiyyatının bərpası ilə bağlı çağırılan Genuya konfransına böyük önəm verirdi. Ümumdünya proletar inqilabına bəslənilən ümidlər boşa çıxdıqdan sonra bolşeviklər normal diplomatik əlaqələr yaratmağın mümkün yolunu axtarırdılar. Qərblə Şərq arasında inqilabi xülyalara qapılan, Qərbin proletarları ilə, Şərqin məzlumları haqqında dəbdəbəli təlimlər irəli sürən bolşevik liderləri üçün Genuya inqilabi ritorikadan kompromislər axtarışına keçid məqamı idi. Beynəlxalq aləmdə Genuya iqtisadi konfransı ilə ölkə icində yeni iqtisadi siyasətə keçidin eyni vaxta təsadüf etməsi Sovet Rusiyasının əvvəlki inqilabi pafosundan geri çəkilməsinin aydın ifadəsi idi. Əslində, Sovet Rusiyasının borclar məsələsində güzəştə gedə biləcəyi ilə bağlı 1921-ci ilin oktyabr ayının 28-də böyük dövlətlərə nota göndərməsi beynəlxalq tanınmaya duyulan ehtiyacın diplomatik təzahürü idi. N.Nərimanov hələ Genuya konfransı ərəfəsində deyirdi ki, bizim kapitalistlərə ehtiyacımız olduğu kimi, kapitalistlərin də bizə ehtiyacı vardır. O, öz fikrini əsaslandırmaq üçün Loyd Corcun belə bir deyiminə istinad edirdi ki, "Rusiyanın iştirakı olmadan Avropa iqtisadiyyatının bərpa edilməsi mümkün deyildir". [85]

1921-ci ilin noyabr-dekabr aylarında dünya iqtisadi konfransının keçirilməsi istiqamətində bir sıra diplomatik danışıqlar aparıldı və müttəfiq dövlətlərin 1922-ci ilin yanvar ayının 6-dan 13-nə qədər keçirilən Kann müşavirəsi bu istiqamətdə əhəmiyyətli addım oldu. Kann müşavirəsi ərəfəsində - 1921-ci ilin sonlarında İngiltərə hökuməti Sovet hökumətinə müraciət edərək, Cənubi Qafqaz respublikalarında iqtisadi vəziyyəti

ARPİİ SSA, f.276, s.5, i.1, v.25

[84] İ.Əbilovun N.Nərimanova məktubu. 01.03.1922.// ARPİİ SSA, f.609, s.1, i.94, v.177

[85] «Бакинский рабочий", 1922, 22 марта

öyrənmək və regionda Britaniya maraqlarını müdafiyə etmək üçün Qafqaza missiya göndərmək arzusunu Moskvaya bildirmişdi. Lakin Cənubi Qafqaz respublikalarının Sovet Rusiyasındakı nümayəndələri – Eliava, Mdivani, Bekzadyan və Bağırovla razılıq əsasında Britaniya hökumətinin müraciətinə rədd cavabı verilmişdi. Londonda olan L.Krasin vasitəsilə İngiltərə hökumətinə bildirilmişdi ki, Cənubi Qafqazın sovet respublikaları kral hökuməti tərəfindən tanınmadıqları üçün, hazırkı vaxtda Britaniya missiyası bu respublikalara buraxıla bilməz. L.Karaxan Cənubi Qafqaz respublikalarının Sovet Rusiyasındakı nümayəndələrini xəbərdar edirdi ki, əgər Moskvadakı Britaniya nümayəndəsi bu məsələ ilə bağlı onlara müraciət edərsə, onlar da bu məzmunda cavab versinlər.[86]

Kann görüşündən bir ay əvvəl Leonid Krasinlə Lloyd Corc arasında aparılan danışıqlar Britaniya Baş nazirinə imkan verdi ki, Rusiya dəmir yollarının bir hissəsinə nəzarət etmək müqabilində Sovet hökumətinə kredit vermək ideyasını siyasi müzakirələrə çıxarsın. Bir sıra təməl prinsiplərini özündə əks etdirən Kann bəyannaməsi Sovet Rusiyasının və bir sıra məğlub dövlətlərin Genuyada keçiriləcək dünya iqtisadi konfransına dəvət edilmələrini mümkün sayırdı. Kann müşavirəsinə görə, dünya iqtisadi konfransının qərarlarına dərhal əməli xarakter vermək üçün, dəvət edilən ölkələrin bilavasitə hökumət başçılarının orada iştiraki məqsədəuyğun sayılırdı.[87] Kann bəyannaməsini əsas tiutaraq, İtaliya Xarici İşlər Nazirliyi 1922-ci ilin yanvar ayının 7-də Genuya konfransında iştirak etmək üçün Sovet Rusiyasına dəvət göndərdi. Yanvar ayının 8-dən etibarən, Moskvada Genuya konfransına fəal hazırlıq işləri başlandı. RKP MK-nın Siyasi Bürosu hələ rəsmi dəvət almazdan əvvəl, L.Krasinin teleqramı əsasında yanvar ayının 5-də Avropa konfransına hazırlıq işləri üzrə Çiçerin, Litvinov, Sokolnikov, İoffe, Lejava və Krestinskidən ibarət komissiya yaratmaq barədə qərar qəbul etmişdi. Yanvar ayının 10-da isə Siyasi Büro V.Leninin Avropa konfransına dəvət edilməsi məsələsini müzakirə etmiş və onun Genuyaya getməsini məqsədəuyğun hesab etməmişdi.[88] Bu müzakirədən sonra G.Çiçerin İtaliya Xarici işlər nazirliyinə teleqram göndərib bildirmişdi ki, Sovet hökuməti Avropa konfransına dəvəti böyük məmuniyyətlə qəbul edir.

[86] L.Karaxanın M.Tsxakayaya məktubu. Surəti Bağırova, Ter-Qabrelyana. 02.01.1922. // RDSSTA, f.157, s.1/c, i.12, v.3

[87] Документы внешней политика СССР. Том V, M., 1962,c.58

[88] Политбюро ЦК РКП (б) – ВКП (б). Повестки дня заседаний. Том 1. 1919-1929. Каталог. Москва, 2000, с.144-145

Lakin o, bildirirdi ki, XKS-in sədri V.Lenin həddindən artıq məşğul olduğundan, xüsusilə, ölkədəki açlıqla bağlı gərgin işlədiyindən ölkəni tərk edə bilməz. G.Çiçerin İtaliya Xarici İşlər Nazirliyini əmin edirdi ki, "vətəndaş Leninin" konfransda iştirak etməməsi konfransın işinə hər hansı maneçilik törətməyəçək, Rusiya nümayəndə heyətinə verilən səlahiyyət, onun nüfuzu Leninin rəhbərlik etdiyi bir nümayəndə heyətinin səlahiyyətinə və nüfuzuna bərabər olacaqdır.[89] Bu teleqramdan sonra yanvar ayının 13-də İtaliyanın Baş naziri İvanoe Bonomi G.Çiçerinə rəsmi dəvət məktubu göndərdi. Məktubda xahiş edilirdi ki, Genuya konfransına gələn nümayəndələr və onları müşayiət edən şəxslər haqqında məlumat verilsin.

Sovet rəhbərliyinin Leninin əlavələri ilə birlikdə Çiçerin tərəfindən hazırlanmış Genuya beynəlxalq konfransında iştiraka razılıq cavabı 1922-ci ilin yanvar ayının 17-də RK(b)P MK Siyasi Bürosunun iclasında müzakirə edilib, qəbul edildi. Həmin iclasda nümayəndə heyətinin tərkibi barədə Çiçerinin məktubu müzakirəyə çıxarılıb razılaşdırıldı. Siyasi Büro belə hesab edirdi ki, Genuya konfransı ərəfəsində "müstəqil respublikaların" nümayəndələrinin Moskva müşavirəsini keçirib, beynəlxalq tədbirə vahid platforma ilə getmək lazımdır. Ona görə də, 17 yanvar iclasında Stalin və Çiçerinə tapşırıldı ki, ən qısa müddətdə "müstəqil respublikaların" Mərkəzi İcraiyyə Komitələrinə Moskva müşavirəsinin keçirilməsi haqqında müraciət hazırlayıb göndərsinlər.[90] RK(b)P MK Siyasi Bürosunun qərarına uyğun olaraq, Ümumrusiya MİK-in sədri M.Kalinin və xalq xarici işlər komissarı G.Çiçerin Azərbaycan, Ukrayna, Belorusiya, Gürcüstan, Ermənistan, Buxara, Xivə və Uzaq Şərq respublikalarına teleqram göndərərək, onları yaxın vaxtlarda keçiriləcək Avropa iqtisadi konfransında kapitalist ölkələrinə qarşı vahid mövqedən çıxış etməyə çağırdılar.[91]

Genuya konfransına gedən nümayəndə heyətini müəyyənləşdirmək üçün yanvar ayının 27-də Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin fövqəladə sessiyası çağrıldı. Həmin sessiyada "müstəqil respublikaların" Mərkəzi İcraiyyə Komitələrinin sədrləri də iştirak edirdi. Bolşevik rəhbərliyi Genuya konfransında iştirak edəcək hər bir nümayəndənin bütün sovet respublikalarından mandat alınmasına böyük əhəmiyyət verirdi və belə kollektiv mandat prinsipi əslində, milli respublikaların nümayəndələrini

[89] Bax: Документы внешней политика СССР. Том V, М., 1962,с.47

[90] RK(b)P MK Siyasi Bürosu iclasının 90 saylı protokolu. 17.01.1922.// RDSSTA, f.17, s.3, i.253, v.1-2

[91] Bax: ARDA, f.28, s.1, i.46, v.40

öz ölkələrinin məsələsi ilə bağlı müzakirələrdə aktiv iştirakdan məhrum edirdi. Sessiyada V.Lenin nümayəndə heyətinin sədri, G.Çiçerin isə onun müavini təyin edildi. Lenin konfransa gedə bilməyəcəyi halda, onun bütün səlahiyyətləri sədrin müavininə, yəni, G.Çiçerinə verilirdi. Nümayəndə heyətinin tərkibinə L.Krasin, M.Litvinov, N.Nərimanov, V.Vorovski, Y.Rudzutak, P.Mdivani, A.Bekzadyan və digərləri daxil edildi.[92] V.Leninin təklifi ilə fevral ayının 3-də RK(b)P MK Siyasi Bürosu Genuya danışıqları haqqında, 6-da isə ekspertlərin işi haqqında Genuya konfransına hazırlıq üzrə komissiyanın direktivlərini müzakirə etdi.[93] Bu direktivlər kommunist görüşlərindən daha çox burjua-pasifist ideyalarını özündə əks etdirirdi. Orada bütün borcların ləğv edilməsi, müharibənin daha çox dağıtdığı ölkələrə güzəştli şərtlərlə kreditlər verilməsi, bir sıra ölkələrin pul sistemi üçün vahid beynəlxalq qızıl standartının yaradılması, bir sıra ölkələrin inflyasiya və yanacaq böhranına qarşı mübarizə məqsədilə sazişə gəlməsi, beynəlxalq nəqliyyat vasitələrinin yaxşılaşdırılması və digər məsələlər əks olunmuşdu. Bir sözlə, vaxtilə kapitalistlərlə bir stol arxasında oturmayacaqları haqqında təntənəli bəyanatlar verən bolşeviklər belə pasifist ideyalarla 1922-ci ilin yazında Genuya konfransına gedirdilər. Bu liberal ideyaların əsas təşəbbüsçüsü isə dünya proletar inqilabi nəzəriyyəsinin əsas ideoloqu Vladimir Lenin idi.

N.Nərimanovun Azərbaycan sovet respublikasının adından Genuya konfransına nümayəndə simasında göndərilməsi məsələsi 1922-ci ilin fevral ayının 11-də təsdiqləndi. Azərbaycan MİK, XKS və XXİK tərəfindən ona mandat verildi. Həmin mandatla o, beynəlxalq Genuya konfransında sovet respublikalarının vahid nümayəndə heyətinin tərkibində Azərbaycanın maraqlarını qorumalı idi. Həmin mandat N.Nərimanova bəyanatlar vermək, qərarlar qəbul etmək, aktlar və müqavilələr imzalamaq səlahiyyəti verirdi.[94]

İlk dəfə geniş heyyətdə bir nümayəndəliyin xaricə gedəcəyini nəzərə alaraq, Siyasi Büro fevral ayının 20-də M.Litvinovun təklifi üzrə "Xarici pasportların verilmə qaydası haqqında" məsələni müzakirəyə çıxarıb, bu istiqamətdə təklifləri hazırlamağı Litvinovun başçılığı ilə yaradılan üç nəfərdən ibarət komissiyaya həvalə etdi. Komissiyaya tapşırıldı ki, üç gün

[92] Bax: Документы внешней политика СССР. Том V, М., 1962,с.67-68

[93] Политбюро ЦК РКП (б) – ВКП (б). Повестки дня заседаний. Том 1. 1919-1929. Каталог. Москва, 2000, с.152

[94] Azərbaycan MİK, XKS və XXİK tərəfindən N.Nərimanova verilmiş mandat. 11.02.1922.// ARDA, f.28, s.1, i.55, v.159

ərzində bu məsələ ilə bağlı layihə hazırlayıb, Siyasi Büronun təsdiqinə versinlər. Eyni zamanda, iclasda Çiçerinə tapşırıldı ki, beynəlxalq konfransla bağlı bütün məsələləri Siyasi Büronun müzakirəsinə çıxarsın. Belə qərara alındı ki, beynəlxalq konfransa göndəriləcək nümayəndəliklə bağlı bütün məsələlər iki gün sonra, fevral ayının 22-də Siyasi Büronun iclasında geniş müzakirə edilsin.[95]

Genuya nümayəndə heyətinin müşavirəsi haqqında məsələ fevral ayının 22-də keçirilən RK(b)P MK Siyasi Bürosunun iclasında geniş müzakirə edildi. Siyasi Büro qərara aldı ki, Genuya konfransına gedəçək nümayəndə heyətinin nəzərdə tutulan Moskva müşavirəsinin keçirilməsi təxirə salınsın. İclasın qərarı ilə Xarici İşlər Komissarlığına tapşırıldı ki, Genuya konfransının çağrılma vaxtı haqqında İtaliya hökumətinə sorğu göndərilsin. Genuya konfransı ilə bağlı yaradılmış hazırlıq komissiyasına tapşırıldı ki, bir həftə ərzində öz işini başa çatdırıb, təkliflərini Siyasi Büroya təqdim etsin. Genuyada vahid taktika ilə çıxış etmək üçün məsul işçilər dairəsinin müəyyən edilməsi və bununla bağlı məruzənin hazırlanması məqsədəuyğun hesab edilirdi. Nümayəndə heyətinin üzvlərinə təklif edilirdi ki, Siyasi Büronun təlimatına uyğun olaraq, Genuya konfransında edəcəkləri nitqlərin qısa məzmununu hazırlıq komissiyasına təqdim etsinlər. Siyasi Büronun qərarı ilə L.Krasin hazırlıq komissiyasına əlavə edilirdi. Nümayəndə heyətinin bütün üzvləri hazırlıq komissiyasının iclaslarında iştirak edə bilərdilər. Siyasi Büronun 22 fevral tarixli iclasında M.Litvinov və Xarici İşlər Komissarlığına tapşırıldı ki, Genuya nümayəndə heyətinin xərcləri nümayəndəliyin hesabına köçürülsün.[96]

Moskvada Genuya konfransına gərgin hazırlıq işləri getdiyi üçün, fevral ayının 22-də respublika Mərkəzi İcraiyyə Komitəsi tərəfindən Azərbaycanın Sovet Rusiyası hökuməti yanında səlahiyyətli nümayəndəsi Ə. Şirvaniyə (Mustafabəyova) teleqram göndərilərək, Avropa konfransına hazırlıqla bağlı sənəd və protokolların Azərbaycan SSR-in adından imzalanması ona tapşırıldı.[97] Bu mandata uyğun olaraq, fevral ayının 22-də Azərbaycanın adından Ə.Şirvani, Ermənistanın adından S.Ter-Qabrielyan.

[95] RK(b)P MK Siyasi Bürosu iclasının 100 saylı protokolu. 20.02.1922.// RDSSTA, f.17, s.3, i.269, v.1

[96] RK(b)P MK Siyasi Bürosu iclasının 101 saylı protokolu. 22.02.1922.// RDSSTA, f.17, s.3, i.270, v.1

[97] Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən Ə. Şirvaniyə (Mustafabəyova) göndərilmiş teleqram. 22.02.1922.// ARDA, f.28, s.1, i.46, v.31

Belorusiyanın adından A.Çervyakov, Buxara və Xarəzm respublikaları adından A.Xocayev, Gürcüstanın adından M.Sxakaya, Uzaq Şərq respublikası adından N.Matveyev, Ukraynanın adından M.Poloz birgə protokol imzaladılar. Bu protokolu imzalayan hökumətlərin nümayəndələri Genuya konfransında öz hökumətlərinin bütün səlahiyyətlərinin Sovet Rusiyasına verildiyini bəyan edir və bu hökumətlərin maraqlarının müdafiə edilməsini RSFSR nümayəndə heyətinə həvalə edirdilər.[98] Sovet respublikalarının nümayəndələrinin imzaladığı bu protokol RSFSR XXİK tərəfindən Genuya konfransında iştirak edəcək Avropa dövlətlərinə göndərildi.

Sovet rəhbərliyində nümayəndə heyətinin tərkibinə, xüsusilə, sədrinə münasibətdə fikir ayrılıqları mövcud idi. L.Trotski G.Çiçerinin belə geniş səlahiyyətlərlə Avropa konfransına göndərilməsinə tərəfdar deyildi. O, Çiçerinin nümayəndə heyətinin sədrliyindən dəyişdirilməsi və belə bir səlahiyyətin Rakovskiyə verilməsini təklif edirdi. Görünür, Rakovskinin az əvvəl Siyasi Büroya göndərdiyi Çiçerinin hərəkətlərini tənqid edən məktubu L.Trotskinin, hələ, 1918-ci ildən fikir ayrılıqları olduğu xarici işlər komissarına münasibətdə belə mövqeyinin formalaşmasına əlverişli şərait yaratmışdı. L.Trotski, yalnız, Genuyaya gedən sovet nümayəndə heyətinə G.Çiçerinin rəhbərlik etməsinə deyil, beynəlxalq konfras ərəfəsində bütövlükdə XXİK-ın rəhbərliyinə etiraz edirdi. Lakin Lenin, Stalin və Kalinin bu mübahisədə Çiçerinin tərəfini saxladılar və onun dəyişdirilməsinin məqsədəuyğun olmadığını bildirdilər.[99]

Fevral ayının 24-də V.Lenin Genuya konfransına gedən nümayəndə heyətinin qarşısında duran vəzifələr haqqında qərar layihəsini hazırladı. Sənəddə G.Çiçerinə sədrə aid olan bütün səlahiyyətlər verilirdi. Lenin tövsiyə edirdi ki, nümayəndə heyəti Kann şərtlərindən yayınmağa çalışmalıdır, əgər bu mümkün olmazsa, Krasin tərəfindən hazırlanmış qarşılıqlı iddia ideyasına üstünlük verməli idi. Yəni, dövlət borcları tanınmalı və həmin dövlətlərin vətəndaş müharibəsi dövründə Sovet hökumətinə vurduğu ziyan da dövlət borcu kimi, irəli sürülməli idi. Lenin Avropada kommunist baxışlarının gizlədilməsinə tərəfdar deyildi, eyni zamanda, bu baxışların konfransda təbliğ edilməsini də yersiz hesab edirdi. Leninə görə, Genuya konfransında başlıca vəzifə ticarət sazişinə və digər düşərgənin pasifist dairələrinin birliyinə nail olmaqdan ibarət idi. Hətta, bu dairələrlə o, siyasi sazişi də mümkün hesab edirdi. Onun fikrincə, nümayəndə heyəti heç bir vəchlə Rusiya və Avropanın iqtisadi həyatının bərpasına Dövlət Plan

[98] Bax: Документы внешней политика СССР. Том V, М., 1962,с.111-112

[99] Bax: А.О.Чубарьян. XX век. Взгляд историка. Москва, 2009, с.256

Komitəsinin yanaşdığı kimi, yəni, bolşevikcəsinə yanaşmamalı idi. Genuya konfransı ərəfəsində Sovet hökumətinə münasibətlə bağlı eyni müzakirələr Avropa paytaxtlarında da müşahidə olunurdu.[100] V.Leninin bu göstərişləri RK(b)P MK Siyasi Bürosunun mart ayının 2-də keçirilmiş iclasında geniş müzakirə edildi. Həmin iclasda Çiçerin, Litvinov, Krasin, Şlyapnikov, Sapronov, İoffe, Rudzutak, Mdivani, Nərimanov, Bekzadyan, Rakovskidən ibarət nümayəndə heyəti geniş tərkibdə iştirak edirdi. Eyni zamanda, konfransa hazırlıq komissiyasının üzvləri də (Krjijanovski, Sokolnikov, Lejava və Preobrajenski) toplantıya dəvət edilmişdilər.[101] Genuyaya gedəcək sovet nümayəndə heyətinin əsas fəaliyyət proqramı və siyasi plotforması Cənubi Qafaz respublikalarının nümayəndələrinin iştirakı ilə mart ayının 2-də keçirilən iclasda müəyyənləşdirildi.

Nümayəndə heyəti konfransa gedənə qədər bütün taktiki addımlar və təşkilati məsələlər Moskvada müzakirə edildi. Genuya konfransına hazırlıqla bağlı Moskvada keçirilən toplantıda qeyd edildi ki, "bizim Qərbə ehtiyacımız olduğu kimi, Qərbin də bizə ehtiyacı var". 1917-ci il inqilabından sonra birinci dəfə idi ki, Sovet rəhbərliyi Qərbə ehtiyacının olduğunu belə açıq şəkildə ictimai müzakirəyə çıxarırdı. Müzakirələrin gedişində aydın şəkildə göstərilirdi ki, Avropa ölkələri ilə sovetlərin ticarət münasibətlərində edəcəyi güzəştlər, qarşı tərəfin edəcəyi güzəştlərə uyğun olmalıdır. Müşavirədə hamılıqla qərara alınmışdı ki, sovet qurluşunun dəyişdirilməsinə aid bütün təkliflər qəti şəkildə rədd edilməlidir. Çar Rusiyasının Qərb ölkələrinə olan keçmiş borcları məsələsində sovet nümayəndə heyətinin taktiki addımları Moskva toplantısında geniş müzakirə edilib, vahid mövqedən çıxış etmək istiqamətində müvafiq razılıqlar əldə edildi. Ən nəhayət, toplantıda qeyd edildi ki, Genuya konfransı Sovetlərə Avropa zəhmətkeşləri qarşısında çıxış edib, öz üstünlüklərini nümayiş etdirmək imkanı verəcəkdir.[102] Nümayəndə heyəti konfrans dövründəki fəaliyyətində toplantıda səsləndirilən bütün bu fikirləri rəhbər tutmalı və ona uyğun hərəkət etməli idi. Mart ayının 23-də Siyasi Büro "Genuya konfransı haqqında" məsələni müzakirə edərək, nümayəndə heyətinə öz təlimatlarını verdi. Orada göstərilirdi ki, bütün prinsipial məsələlər Moskvada həll edildiyindən, nümayəndə heyətinin rəhbəri bütövlükdə həmin qərarları əsas kimi qəbul etməli, yeni qərar tələb

[100] Bax: А.О.Чубарьян. XX век. Взгляд историка. Москва, 2009, с.261-262

[101] Политбюро ЦК РКП (б) – ВКП (б). Повестки дня заседаний. Том 1. 1919-1929. Каталог. Москва, 2000, с.161

[102] N.Nərimanov. Genuya nə deməkdir. Əlyazma. 1922.//ARPİİ SSA, f.609, s.1, i.31, v.29

edən nəzərdə tutulmamış prinsipial məsələlər meydana çıxdıqda, sədr imkan daxilində onu diplomatik korpusun müzakirəsinə çıxarmalı, bütün təkliflər və mülahizələri Mərkəzi Komitənin Siyasi Bürosuna çatdırmalı idi. Siyasi Büro Çiçerin sədr olmaqla, Litvinov, Krasin, Rakovski, İoffe, Vorovski və Rudzutakdan ibarət sovet nümayəndə heyətinin bürosunu təsdiq etdi. Nümayəndə heyətinin sədrinə icazə verilirdi ki, bütün cari işlərin müzakirəsini, ya büronun, ya da bütün nümayəndə heyətinin müzakirəsinə çıxarsın. Eyni zamanda, təlimatda istisnasız olaraq, bütün məsələlərin həllində sədrin üstün hüquqları saxlanılırdı.[103]

Moskvaya yola düşmək ərəfəsində N.Nərimanov "Bakinskiy raboçiy" qəzetinin müxbiri ilə geniş söhbət etdi. Bu söhbət qəzetin 22 mart tarixli sayında "Bizim yaxın perspektivlərimiz" başlığı altında dərc edildi. Bu söhbətdə o, Qanq çayından tutmuş Aralıq dənizi sahillərinə və Nil çayına qədər böyük bir coğrafi ərazidə Azərbaycanın sovet siyasəti və dünya inqilabı üçün əhəmiyyətini əsaslandırmağa çalışırdı. Sovetlərin Şərq siyasətində o, Türkiyə ilə imzalanmış Moskva və Qars müqavilələrinə böyük əhəmiyyət verir və bu işdə Azərbaycanın eyni millətdən olduğu Türkiyə ilə qardaş sovet respublikaları arasında əlaqələndirici rolunu vurğulayırdı. Nərimanov Genuya konfransını Qərbin Sovet Rusiyasına olan iqtisadi ehtiyacı ilə izah edir və buna sovet hakimiyyətinin Avropa tərəfindən etirafı kimi yanaşırdı. Onun fikrincə, konfrans baş tutmasa, və ya Qərbin bir oyunu olardısa, bundan kapitalizm dünyası daha çox itirəcək, nəinki, Sovet Rusiyası.[104] Məhz, belə bir tərəddüdlü fikirlərlə N.Nərimanov mart ayının 25-də Moskvaya yetişdi.

"Bakinskiy raboçiy" qəzetindəki təmtəraqlı fikirlərindən fərqli olaraq, N.Nərimanov İtaliyaya yola düşmək ərəfəsində, mart ayının 27-də Sovetlərin Şərq siyasətindən və G.Çiçerindən narazılıq ifadə edən geniş bir məktubla İ.Stalinə müraciət etdi. O yazırdı ki, bizim xarici siyasətimiz daxili vəziyyətimizi yetərli dərəcədə nəzərə almır, əgər bizdə hər şey uğurlu olsaydı və biz öz vəsaitimizlə iqtisadi həyatımızda olan böhranı aradan qaldıra bilsəydik, kapitalist Avropasının həyatında baş verən ziddiyyətlərdən bir nəticə gözləyə bilərdik. Qarşıdakı Genuya konfransı ilə bağlı müzakirələrə toxunan Nərimanov qeyd edirdi ki, Avropa konfransında bizim ehtimal edilən güzəştlərimiz göstərir ki, ölkəmizin daxili vəziyyəti elə də yaxşı deyildir və Avropa fəhlə sinifindən yardım alacağımıza çox da əmin deyilik. O

[103] RK(b)P MK Siyasi Bürosu iclasının 116 saylı protokolu. 23.03.1922.// RDSSTA, f.17, s.3, i.285, v.1-2

[104] «Бакинский рабочий", 1922, 22 marta

yazırdı: "Nümayəndələrin iclasında yoldaş Çiçerinin çıxışı məni son dərəcə heyrətləndirdi. O dedi: "Avropa ölkələri bizim mövcud qanunvericiliyə etibar etmirlər" və sonra əlavə etdi ki, bu istiqamətdə biz gərək nə isə edək. Nə üçün işi bu həddə gətirib, çıxarmaq lazim idi? Axı elə vaxtlar var idi ki, bütün Yaxın Şərq bizim təsirimiz altında idi. Onlar bizə yeganə xilaskar kimi, baxırdılar".[105] N.Nərimanov yaranmış belə vəziyyəti Çiçerinin səhvlərini izah edib yazırdı ki, "mən o zaman Siyasi Büronun və yoldaş Çiçerinin diqqətinə çatdırdım ki, böhranı sürətləndirmək üçün müsəlman Şərqindən istifadə edib, Avropa kapitalının zəif yerindən zərbə endirmək lazımdır, onu bazar və xammal bazasından məhrum etmək gərəkdir ...Bütün bunlara baxmayaraq, bizim xarici siyasət, görünür ki, Antantanın xeyir-duası ilə Yaxın Şərq məsələsindən imtina etdi və nəinki, Antantaya Yaxın Şərqdə geniş meydan verdi, hətta, özünün bacarıqsız siyasəti ilə Şərqi bizdən uzaqlaşdırdı. Bizim əlimizlə o, İranın inqilab çırağını söndürdü, müstəqillik uğrunda mübarizə aparan türklərə münasibətdə öz səbatsız və tərəddüdlü siyasəti ilə onları məcbur etdi ki, Fransa ilə müqavilə bağlasınlar. Ənvərin kim olduğunu çox gözəl bilə-bilə bizim xarici siyasət onu Buxaraya göndərdi, yəqin, ona görə ki, Kamal tərəfdən bizə təhlükə olardısa, bizim uğrumuzda Kamala qarşı hərəkət etsin. Ənvər isə bunu gözləməyərək, bizim əleyhimizə hərəkət etməyə başladı".[106] Nərimanov bütün bunlardan sonra təklif edirdi ki, Şərqdə işi canlandırmaq, təcili olaraq, Rotşteyni İranda Sovet Rusiyasının müvəqqəti işlər vəkili vəzifəsindən azad etmək, rus səfirindən başqa İrana yerli şəraiti bilən səlahiyyətli nümayəndə göndərmək, işi gücləndirmək üçün Bakıdakı İran Kommunist Partiyasına vəsait buraxmaq, bütün vasitələrlə Ankara hökumətinə kömək etmək, Türküstan və Buxarada buraxılan səhvləri təcili olaraq, düzəltmək lazımdır. Nərimanov təklif edirdi ki, Ənvər paşa ilə danışıqlar aparmaq üçün ona səlahiyyət verilsin. O yazırdı: "Yaranmış vəziyyət məni məcbur edir, bütün ciddiyyəti bir kənara qoyub, bəyan edim ki, nəinki İran inqilabçıları, eyni zamanda, İranın tayfa başçıları mənim göstərişlərimi gözləyir və yalnız mənə inanırlar".[107] Bu məktubdan görünür ki, Nərimanov Genuya konfransına elə də böyük umid bəsləmirdi. Moskvaya yetişən kimi, Stalinə yazdığı məktubunda xahiş edirdi ki, onu da özü ilə birlikdə Tatarıstan, Başqırdıstan və Qırğızıstan vilayətlərinə gedən

[105] N.Nərimanovun İ.Stalinə məktubu. 27.03.1922.//ARPİİ SSA, f.609, s.1, i.71, v.43
[106] Yenə orada, v.44
[107] Yenə orada, 46

nümayəndə heyətinin tərkibinə daxil etsin. N.Nərimanov yazırdı: "Mən şəxsən düşünürəm ki, Genuya konfransı bizə heç nə verməyəcəkdir, ona görə də, əgər, lazım bilsəniz, məni özünüzlə Tatarıstan, Başqırdıstan və Qırğızıstan səfərinizə aparın. Buna mən böyük əhəmiyyət verirəm. Ondan sonra isə mən İran hadisələrinə rəhbərlik və İranla əlaqə yaratmaq üçün Cənubi Qafqazda olmalıyam".[108] Görünür, Nərimanovun belə münasibəti bir tərəfdən, Genuyaya gedən milli respublikalarının nümayəndələrinin bütün səlahiyyətlərinin Rusiya nümayəndələrinə verilməsi ilə bağlı idisə, digər tərəfdən, Nərimanov Azərbaycanda və bütövlükdə, Qafqazda yaranmış vəziyyəti Stalinlə geniş müzakirə etmək imkanı əldə etmək istəyirdi.

Eyni zamanda, N.Nərimanov Stalinin məlum səfərini nəzərə alaraq, onun üçün "İndiki anda müsəlman şərqinə bizim münasibətimiz" adlı geniş bir arayış da hazırlamışdı. Bu sənəddə o, son vaxtlar Kiçik Asiyada Mustafa Kamal paşanın rəhbərliyi ilə "Rədd olsun ingilis zorakılığı" şüarı altında aparılan mübarizənin böyük əhəmiyyəti olduğunu, Moskva "xadimlərindən" fərqli olaraq, ingilislərin İran və Əfqanıstanla bağladığı müqavilələrin Britaniyanın Şərqdə nüfuzunu möhkəmləndirmədiyini yazırdı. Nərimanov Sovet rəhbərliyini indiki anda panislamizmdən qorxmamağa çağırır və imperializmə qarşı mübarizə məqsədilə Şərq xalqlarının anti-imperialist düşərgədə birləşdirilməsində bundan bir vasitə kimi, istifadə etməyi mümkün sayırdı. O, sabun köpüyü hesab etdiyi panislamizmin milli mədəni yarışda tədricən aradan çıxacağını təxmin edirdi. Hətta, o, Britaniyanı zəiflətmək üçün Almaniyanın şərqin anti-ingilis qüvvələri ilə gizli şəkildə sazişə girdiyini, alman casuslarının Volqaboyu, Türküstanda və digər müsəlman vilayətlərində təbliğat apardığını yazırdı. Sovet siyasətinin Şərqdə uğurunu Nərimanov müsəlman əhalisi içərisində partiya işinin gücləndirilməsində görürdü. O yazırdı: "Bütün bunları nəzərə alaraq, bir dəqiqə belə yubanmadan Volqa tatarları, qırğızlar, başqırdlar arasında və başlıca olaraq, Türküstanda var gücümüzlə partiya işini ən yüksək həddə yüksəltməliyik".[109] Belə tərəddüdlü mövqeyinə baxmayaraq, N.Nərimanov türk vilayətlərinə yollanan Stalin missiyasının tərkibinə deyil, Genuyaya yollanan Çiçerin missiyasının tərkibinə daxil edildi.

[108] N.Nərimanovun İ.Stalinə məktubu. 27.03.1922.//ARPİİ SSA, f.609, s.1, i.71, v.46
[109] N.Nərimanov. İndiki anda müsəlman şərqinə bizim münasibətimiz. 1922.// ARPİİ SSA, f.609, s.1, i.31, v.73

§3. Genuya konfransı və Azərbaycan: neft uğrunda mübarizənin başlanması

Bütün hazırlıq işlərini başa çatdırdıqdan sonra Georgi Çiçerin, Leonid Krasin, Maksim Litvinov, Vatslav Vorovski, Yan Rudzutak, Adolf İoffe, Xristian Rakovski, Nəriman Nərimanov, Polikarp Mdivani, Aleksandr Bekzadyan, Aleksandr Şlyapnikov və Boris Şteyndən ibarət sovet nümayəndə heyəti mart ayının 31-də Genuyaya yola düşdü. Yolüstü onlar bir neçə gün Berlində dayanıb, Almaniya hökuməti ilə danışıqlar apardılar. Berlin danışıqlarında sovet nümayəndələri inqilabdan sonra dünyadan təcrid olunmuş Rusiya ilə, müharibədəki məğlubiyyətdən sonra həmin vəziyyətə düşən Almaniyanın imkanlarını birləşdirməyə və eyni mövqedən çıxış etməyə çalışırdılar. 1922-ci ilin əvvəllərindən başlayaraq, Almaniya hökumətinin daxilində də Rusiya ilə əlaqələrin qurulmasına maraq göstərən dairələr fəallaşmağa başlamışdı. Bu dairələrə Almaniyanın xarici işlər naziri Valter Ratenau və nazirliyin Şərq şöbəsinin müdiri Uqo fon Maltsan başçılıq edirdi. Ratenau yaranmış vəziyyətdə belə hesab edirdi ki, Genuya konfransı Rusiyanın həyatına əhəmiyyətli dərəcədə təsir edəcəkdir, ona görə də, "biz öz imkanlarımız və gücümüz daxilində Rusiyanın bərpa olunmasında iştirak etməyə cəhd göstərməliyik".[110] Sovet nümayəndələri Genuyaya qədər almanlarlarla sazişə gəlmək istəyirdilər. Bu istiqamətdə bir sıra məsələlər Berlin danışıqlarında müzakirə edilmişdi. Bununla belə, Almaniya rəhbərliyi Rusiya ilə sazişin qalib dövlətləri qıcıqlandıracağından ehtiyat edirdi. Almaniyada bəzi dairələr belə hesab edirdilər ki, özlərini "ağıllı" aparsalar, qarşıdakı Genuya konfransında Versal müqaviləsinə yenidən baxılmasına nail ola bilərlər.[111] Lakin, Genuya konfransı bu ümidləri doğrultmadı və Berlində başlanan danışıqlar konfransın gedişində Rapallo müqaviləsinin imzalanması ilə nəticələndi.

1922-ci ilin aprel ayının 6-da Genuyaya gələn sovet nümayəndələrinin İtaliyada ilk qarşılaşdığı ciddi məsələ Qafqaz məsələsi idi. Demək olar ki, Avropada olan Qafqaz mühacirəti hamılıqla İtaliyaya gəlmişdi və belə bir vəziyyət sovet nümayəndə heyəti üçün arzuedilməz idi. N.Nərimanov etiraf edirdi ki, "rəsmi və qeyri-rəsmi səviyyələrdə bizim nümayəndəlik utancaq aşiqlərin nə qədər yarımçılıq etiraflarını eşitməli olurdu".[112] Sovet

[110] Bax: В.Ратенау. Генуя и Канны. Москва, 1923, с.48
[111] А.Иоффе. Генуэзская конференция. Москва, 1922, с.56
[112] «Бакинский рабочий", 1922, 2 июня

nümayəndələri Qafqaz respublikalarının keçmiş idarəçilərinin Genuyada onlar üçün təşkil etdiyi narahatlığı dərhal Moskvaya xəbər verdi. G.Çiçerin tələsik formada Xarici İşlər Komissarlığından Gürcüstan haqqında sənədlər tələb edirdi. Sovet nümayəndələri Qafqaz mühacirətinin onlara qarşı çıxışlarının ingilislər tərəfindən təşkil olunduğundan şübhələnirdilər. Hələ konfrans açılmazdan bir gün əvvəl, Lev Trotski Cənubi Qafqazın mühacir nümayəndələrinə qarşı öz təkliflərini hazırlayıb, RK(b)P MK Siyasi Bürosuna təqdim etdi. Qafqaz siyasi mühacirətinin etirazının təsirini azaltmaq üçün L.Trotski aprel ayının 9-da təklif edirdi ki, Gürcüstan, Azərbaycan və Ermənistan partiya təşkilatları, həmkarlar ittifaqları və digər cəmiyyətləri adından Britaniya fəhlə təşkilatlarına, tred-yuniyonlara və hər üç İnternasionalın bürosuna 26 Bakı komissarlarının ölümünün təhqiqatını tələb edən məktublar göndərilməlidir. Onun fikrincə, 1922-ci ilin 1 may nümayişlərinin əsas şüarı belə olmalı idi: "İmperialistlər Qafqaza əl uzadırlar, beynəlxalq sosial-demokratiya imperialistlərə yol göstərir; Qafqaz zəhmətkeşləri, qızıl əsgərlər, Qafqazı qoruyun", "Beynəlxalq proletariat, cəlladların əli ilə öldürülmüş öz qəhrəmanlarını unutma; sən qatillər üzərində mühakiməyə nail olmalısan" və sair.[113] Trotski təklif edirdi ki, Vadim Çaykinin 26 Bakı komissarları haqqında kitabı[114] və onun özünün Gürcüstan haqqında kitabçası Avropa dillərində çap edilib, geniş yayılmalıdır. Aprelin 10-da, Genuya konfransı işə başlayan gün, Siyasi Büro Lev Trotskinin təkliflərini qəbul etdi.[115]

Qafqazın mühacir hökumətlərinin İtaliya və digər Avropa ölkələrində Sovet hökumətinin siyasətinə qarşı təşkil etdiyi təbliğat kampaniyası geniş xarakter aldığı üçün sovet nümayəndələri onlara qarşı müxtəlif addımların atılmasını zəruri hesab edirdilər. Bu məqsədlə Sovet nümayəndə heyətinin üzvü N.Nərimanov konfrans günlərində özlərini Avropada Cənubi Qafqaz respublikalarının qanuni nümayəndələri hesab edən Əli Mərdan bəy Topçubaşov, Aleksandr Xatisov və İrakli Sereteliyə açıq məktubla müraciət etdi. Məktub sırf sovet ideologiyası və təbliğatının qaydalarına uyğun yazılmışdı. N.Nərimanov yazırdı: "Hörmətli cənablar, siz Genuya konfransının açılma-

[113] L.Trotskinin Siyasi Büroya təklifləri. 09.04.1922.// RDSSTA, f.17, s.3, i.288, v.13-14
[114] Eser partiyasının üzvü V.Çaykinin kitabında 26 Bakı komissarlarının güllələnməsi Türküstanda hakimiyyətdə olmuş eserlərlə deyil, ingilislərlə əlaqələndirildiyi üçün bolşeviklər bu kitabı 1922-ci ildə Moskvada nəşr etdilər və ondan İngiltərə əleyhinə təbliğatda istifadə edirdilər. Daha geniş məlumat üçün bax: В.Чайкин. К истории Российской революции: Казнь 26 Бакинских комиссаров. Москва, 1922
[115] RK(b)P MK Siyasi Bürosu iclasının 2 saylı protokolu. 10.04.1922.// RDSSTA, f.17, s.3, i.288, v.6

sı ərəfəsində Puankare və Lloyd Corcun qapısının kandarını ayaqdan salaraq, bəyan edirsiniz ki, Cənubi Qafqaz respublikalarının yeganə qanuni nümayəndələri siz və sizin şəxsinizdə üzvü olduğunuz partiyalardır. Mən sizi və öz şəxsi mənfəətlərinə görə, bilavasitə sizləri Cənubi Qafqaz xalqlarının nümayəndələri kimi görmək istəyən keçmiş və indiki qəyyumlarınızı məyus etməliyəm. Xalq və əhali sözlərinin altında siz kimləri nəzərdə tutursunuz? Əgər əhali sözünün altında bir neçə yüz bəy, xan, knyaz və bir neçə min tacir və tüccarı nəzərdə tutursunuzsa, onda keçmiş fəaliyyətinizə görə, sizə nifrət edən fəhlə və kəndlilərdən ibarət milyonlarla zəhmətkeş kütləni hara qoyaq. Onlar bizim – bolşeviklərin arxasınca gedirlər, Cənubi Qafqazda sovet quruculuğunu bəyənirlər".[116] Nərimanov uzun illər ərzində çar istibdadına qarşı mübarizə aparmış Qafqazın keçmiş dövlət başçılarını ağılsızcasına çar Nikolayın siyasətinə uymaqda, öz hakimiyyətlərini saxlamaq üçün milli qırğın salmaqda, Zəngəzur, Qarabağ və Zaqatalada qarşıdurma siyasəti yeritməkdə və digər mənasız ideoloji məsələlərdə ittiham edirdi. O, xatırladırdı ki, yeni iqtisadi siyasətə keçiddən sonra Sovet hökuməti xırda burjua kütlələrini də öz tərəfinə çəkməklə, Cənubi Qafqaz respublikalarının keçmiş idarəçilərini sosial bazadan məhrum etmişdir. Qafqaz respublikalarının Rusiya tərəfindən işğal edildiyi, onların öz müstəqilliklərini itirdikləri barədə Avropada geniş təbliğat kampaniyası qura bilmiş mühacir hökumətlərinin nümayəndələrinə Nərimanov yazırdı:"Bizim Sovet Rusiyası ilə sıx əməkdaşlığımız sizə əsas verir ki, Cənubi Qafqaz respublikalarının müstəqillikdən məhrum olması haqqında danışasınız. Bu, doğru deyil. Biz lap əvvəldən öz qarşımıza aydın şəkildə sual qoymuşduq ki, Cənubi Qafqaz respublikaları nə zaman müstəqil ola bilər? Sovet Rusiyası dövründə, və ya, Denikinin təkidlə bərpa etmək istədiyi Nikolayın dövründə. Bəlkə, İngiltərə və Fransanın, Rusiyada kadet, və ya çar hökumətinin bərpası ilə sizin respublikalarınız müstəqil qalacaqdır, vədlərindən sizin başınız gicəllənmişdir. Siz Rusiyada sovet hakimiyyətini məhv etmək istəyirsiniz. Bu şəraitdə hadisələrin sonrakı gedişini nəzərə alırsınızmı? Biz nəzərə alırıq, ona görə də nəinki, Sovet Rusiyası ilə əməkdaşlıq edirik, eyni zamanda, onun möhkələnməsi, həyatının davam etdirilməsi üçün qurbanlar veririk. Belə ki, bizim həyatımız ondan asılıdır. Bütün bədbəxtlik ondadır ki, siz imperializmə inanırsınız, öz taleyinizi ona etibar edirsiniz, biz isə

[116] N.Nərimanovun Ə.M.Topçibaşaov, A.Xatisov və İ.Sereteliyə açıq məktubu. 1922.// AR-PİİSSA, f.609, s.1, i.31, v.81

sadədil, vicdanlı rus fəhlə və kəndlilərinə inanırıq və ümid edirik ki, bizim müstəqilliyimiz onların əlindədir. Əgər Qafqaz üçün keçirdiyiniz sıxıntılar sizi Puankare və Loyd Corca da olmayan şeyləri danışmağa məcbur edirsə, bu sizin üçün daha pis olacaq. Hər halda, biz ümid etmək istəyirik ki, siz zamanın tələbini anlayacaq, ondan nəticə çıxaracaqsınız, xalqların bədbəxtliyinin əsil səbəblərini biləcəksiniz, vətənə qayıdacaq və indi onun daha çox ehtiyac duyduğu bir şeyi - biliklərinizi ona verəcəksiniz".[117] Əlbəttə, artıq 1922-ci ilin yazında uzaqlaşdırıldığı Azərbaycanda və digər Cənubi Qafqaz respubliklarında vəziyyət Nərimanovun keçmiş Qafqaz liderlərinə yazdığı kimi, rəvan olmadığını o, özü də bilirdi.

Avropa dövlətlərinin Genuya konfransı İtaliyanın Baş naziri Luici Faktonun sədrliyi ilə 1922-ci ilin aprel ayının 10-da gündüz saat 3-də işə başladı. Konfransda 29 ölkənin, Britaniya dominionları ilə birlikdə 34 ölkənin nümayəndə heyəti iştirak edirdi. Konfrans Avropa məsələlərinə həsr edildiyindən, ABŞ rəsmən onun işində iştirak etmirdi. Lakin Birləşmiş Ştatların dövlət katibi Çarlz Yuzun 1922-ci ilin mart ayının 8-də İtaliya Xarici İşlər Nazirliyinə göndərdiyi notaya uyğun olaraq, Romadakı Amerika səfiri Robert Çayld Genuya konfransına müşahidəçi kimi qatılmışdı. Genuyada təmsil olunan nümayəndə heyətinin başçıları və tərkibi haqqında Azərbaycan xalq Cümhuriyyətinin Paris Sülh Konfransındakı keçmiş nümayəndə heyətinin üzvü M.Mehdiyev yazırdı: "Genuyaya Avropa dövlətlərinin ən mühüm siyasi simaları gəlmişdi. Burada cin baxışlı ixtiyar Lloyd Corca təsadüf olunduğu kimi, gözlük daşıyan əbus simalı fransız Bartuya, italyan kişilərindən Faktoya, konfransın ən şıq geyinmiş kişilərindən alman Ratenau ilə Almaniyanın ən mühüm siyasilərindən Virtə, bir yoldaşdan ziyadə adətən, bir lord qiyafəsi daşıyan Çiçerin ilə Ankara Böyük Millət Məclisinin üzvü şişman Cəlaləddin Arif bəyə, Gürcüstan nümayəndəsi Şengeli və sairlərinə təsadüf olunurdu. Azərbaycana gəlincə, o eyni zamanda, Azərbaycan nümayəndə heyəti vasitəsi ilə təmsil olunduğu kimi, digər tərəfdən, Azərbaycan bolşeviklərinin lideri Nəriman bəyin şəxsində təmsil etdirilmək istənilirdi. Və o, azərbaycanlı olduğunu göstərmək üçün bir qalpaq *(buxarı papaq – C.H.)* dəxi geymiş bulunurdu".[118]

Türkiyə Böyük Millət Məclisi hokumətini Genuyada təmsil edən Cəlaləddin Arif bəy İtaliyaya yeni səfir təyinatı almışdı. İbrahim Əbilov

[117] Yenə orada, v.82

[118] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.15-16

Nəriman Nərimanova məlumatında onu tanınmış türk siyasətçisi kimi səciyyələndirirdi. Onun məlumatına görə, Cəlaləddin Arif bəy bir müddət İstanbul məclisinin sədri olmuş və ingilislər tərəfindən Maltaya sürgün edilmişdi. Malta sürgünündən azad olduqdan sonra o, Ankaraya gəlmiş və Romaya səfir təyin edilmişdi. Bu təyinatdan əvvəl ona Ankara Millət Məclisində müavin vəzifəsi təklif edilsə də, Cəlaləddin Arif bəy diplomatik işdə çalışmağa üstünlük vermişdi. Öz siyasi görüşlərinə görə, İ.Əbilov Cəlaləddin Arif bəyi ingilislərin əleyhinə olub, fransızlara rəğbət bəsləyən bir siyasətçi kimi təqdim edirdi. Onun antiingilis mövqeyini Əbilov eyni zamanda, türk-yunan müharibəsində Britaniyanın yunanları müdafiə etməsi ilə izah edirdi.[119]

Aprel ayının 10-da açılış nitqində İtaliya hökuməti adından nümayəndələri salamlayan Baş nazir L.Fakto ümidvar olduğunu bildirirdi ki, Genuya konfransı iqtisadi böhranın daha da dərinləşdiyi bir şəraitdə Avropanın dağılmış təsərrüfatını bərpa etmək üçün qitə ölkələrinə ümumi dil tapmağa imkan verəcəkdir. Ondan sonra söz alan Britaniya Baş naziri Lloyd Corc konfransın ümumavropa təsərrüfatının bərpa olunmasında mühüm rol oynayacağını qeyd etdi. R.Puankare hökumətində ədliyyə naziri və Elzas-Lotaringiya məsələləri üzrə nazir vəzifəsini tutan Lui Bartu Fransa nümayəndə heyəti adından konfransı salamladı. Yaponiya nümayəndəsi İsii, Belçika nümayəndəsi Työnis də konfransın işinə uğurlar arzuladılar. Müharibədən və məğlubiyyətdən daha çox ziyan çəkən Almaniyanın nümayəndəsi N.Nərimanovun sözləri ilə desək, "göz yaşları içərisində öz ölkəsinin çıxılmaz iqtisadi vəziyyətindən danışdı".[120] İtaliyadakı Amerika səfiri R.Çayldın fikrincə, Almaniya nümayəndə heyətinin başçısı Cozef Karl Virtin cansıxıcı nitqi Almaniyanın hadisələrin arxasınca getdiyinə əyani bir sübut idi.[121] Nəhayət, konfransı salamlamaq üçün söz Georgi Çiçerinə verildi. O qeyd etdi ki, Rusiya nümayəndə heyəti kommunizm prinsipləri nöqteyi-nəzərində qalaraq, indiki tarixi şəraitdə köhnə dünyanın və doğulmaqda olan yeni dünyanın paralel şəkildə mövcud olmasını qəbul edir. Onun fikrincə, bu iki sistemin iqtisadi əməkdaşlığı dünya təsərrüfatının bərpası üçün zəruri idi.[122] G.Çiçerin öz nitqində kommunizm prinsiplərinə sadiq qalmaqla yanaşı, Qərbin böyük maraq göstərdiyi konsessiyalar məsələsinə də toxundu. O, Sovet hökuməti adından geniş konsessiya proqramını elan etdi və bu proqram ilk növbədə, Avropa sənayesi üçün xammal bazası rolunu oynayacaq Sibirin təbii zənginliklərinə aid idi. Çiçerin yeni iqtisadi siyasətə keçidlə bağlı Sovet Rusiyasının öz qanunvericiliyində bir sıra dəyişikliklər etdiyini, kapitalist ölkələri ilə iqtisadi əlaqələri genişləndirmək üçün beynəlxalq tranzit yollarını açmağa hazır olduğunu bəyan etdi. Bununla yanaşı, Çiçerin Qərb ölkələrinin başçılarını qıcıqlandıran bir sıra məqamlara da toxundu. O dedi: "Əgər doğrudan da, Avropa sülh və müharibənin dağıtdığı təsərrüfatı bərpa etmək istəyirsə, onda gərək tərksilah olsun və dünya qızıl fondunu ehtiyacı olan ölkələr arasında bölsün".[123] Bunun üçün Çiçerin bütün xalqların fəhlə sinfinin iştirakını zəruri hesab etdiyi yeni konfransın keçirilməsi ideyasını irəli sürdü. G.Çiçerinin təbrik nitqi bir sıra nümayəndələrin kəskin etirazına səbəb oldu. Alman hücumuna məruz qalmış və Birinci Dünya müharibəsindən böyük ziyan çəkmiş Fransanın nümayəndə heyətinin başçısı iqtisadi məsələlərə həsr olunmuş konfransda tərksilah haqqında məsələnin qoyulmasının doğru olmadığını bildirdi. O dedi: "Tərksilah haqqında söhbət belə, gedə bilməz. Ümumiyyətlə, burada konfransın proqramına daxil olmayan məsələlər haqqında danışmaq yolverilməzdir. Genuya konfransının müzakirələri üçün özündə aşağıdakı bəndləri ehtiva edən Kann konfransının qərarı zəruri xarakter daşıyır".[124] Sonra Lui Bartu Kann konfransının altı bənddən ibarət olan qərarını bir-bir xatırlatmalı oldu. Orada deyirlirdi ki, heç bir dövlət digər dövlətə siyasi sistem, daxili iqtisadi həyatının idarə olunması və idarəçiliklə bağlı öz prinsiplərini diktə etmək hüququnu mənimsəyə bilməz; hər bir millət bu sahədə üstünlük verdiyi sistemi seçməkdə azaddır; təhlükəsizliyin əsas təminatı bütün ölkələrin hökumətlərinin xarici dövlət borclarını tanıması haqqında bəyantlarından keçir; ölkələr arasında ticarət işlərini bərpa etmək üçün maliyyə-pul dövriyyəsinin inkişafına şərait yaradılmalıdır; bütün millətlər digər ölkələrdə bərqərar olunmuş mövcud qaydaların devrilməsinə yönəlmiş təbliğatdan çəkinməlidirlər; bütün ölkələr öz qonşularına hücum etməmək barədə üzərlərinə qarşılıqlı öhdəliklər qəbul etməlidirlər. Rusiya ilə bağlı Kann konfransının qərarında göstərilirdi ki, Rusiyanın siyasi cəhətdən tanınması, rus hökumətinin Kann prinsipləri ilə razı-

[119] İ.Əbilovun N.Nərimanova məktubu. 03.02.1922.// ARPİİ SSA, f.609, s.1, i.94, v.167-168

[120] N.Nərimanov. Genuya nə deməkdir. Əlyazma. 1922.//ARPİİ SSA, f.609, s.1, i.31, v.32

[121] The Ambassador in İtaly (Child) to the secretary of State. April 11, 1922.//Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, p.770

[122] Bax: Документы внешней политика СССР. Том V, M., 1962,c.191-192; Genuya konfransının materialları üçün bax: Генуэзская конференция. Документы и материалы. Москва, 1922

[123] N.Nərimanov. Genuya nə deməkdir. Əlyazma. 1922.//ARPİİ SSA, f.609, s.1, i.31, v.33

[124] Bax: Документы внешней политика СССР. Том V, M., 1962,c.201

laşmasından asılıdır. Lui Bartu bəyan etdi ki, Kann qərarlarından kənar biz məsələlərə baxa bilmərik və ona görə də belə davam edərsə, biz konfransın bundan sonrakı işində iştirak edə bilmərik. Konfransda yaranmış qarşıdurmanı və gərginliyi yumşaltmaq məqsədilə Britaniya Baş naziri Lloyd Corc müzakirələrə müdaxilə etdi. O, bildirdi ki, əgər Genuya konfransı tərksilaha yol açmayacaqsa, onu baş tutmamış tədbir hesab etmək olar. Lakin Lloyd Corc tərksilahdan əvvəl sülhə gəlməyi, bir sıra mühüm məsələlərdə sazişə gəlməyi vacib hesab edirdi. Onun fikrincə, tərksilah üçün baza olmalı idi və əgər bu baza olmadan tərksilah məsələsi müzakirəyə çıxarılardısa, bu məsələnin ağırlığı altında konfrans dağılmağa məhkum olacaqdı.[125] Konfransda yaranmış bu gərginliklə bağlı N.Nərimanov yazırdı: "Lloyd Corc görəndə ki, Bartu konfransı pozmaq istəyir, söz aldı və yarım saatlıq nitqində həm Bartunu, həm də, Çiçerini tənqid edərək, onları ehtiyatlı hərəkət etməyə çağırdı və bununla da, konfrans iştirakçılarını sakitləşdirdi".[126] Lloyd Corc Çiçerinə nöqsan tutaraq, dedi ki, "bizi gətirən gəmi onsuz da kifayət qədər ağırdır, əgər onu əlavə olaraq, daha da yükləsək, biz sizinlə suyun dibinə gedərik". Bundan əsəbləşən Lui Bartu Lloyd Corca dedi ki, onsuz da "Çiçerinin bombası partlamadı, sən niyə bizi qorxudursan".[127] Qarşılıqlı ittihamlara son qoymaq və gərginliyi zəiflətmək üçün konfransa sədrlik edən Luici Fakto Lui Bartu və Georgi Çiçerini müzakirə açmamağa çağırdı. Belə olduqda, daha təcrübəli olan Lui Bartu icazə almadan məsələni çox kəskin şəkildə qoydu və soruşdu: "Konfrans Kann qərarlarını tanıyırmı?" Yenidən söz alan Çiçerin onun bu təklifinin fransızların tərəfindən bu qədər həssas qarşılanmasından təəccüb etdiyini bildirdi. Eyni zamanda, o, əlavə etdi ki, "əgər konfrans bu məsələni öz gündəliyindən çıxaracaqsa, biz konfransın kollektiv iradəsinə tabe olacağıq".[128] L.Fakto nümayəndələr tərəfindən Kann qərarlarının qəbul edilməsinə etiraz edilmədiyini bildirdi və bundan sonra o, konfransda siyasi, maliyyə, iqtisadi və nəqliyyat komissiyalarının yaradılması haqqında razılığa gəlindiyini bildirdi. Komissiyaların yaradılmasından sonra konfransın işində qeyri-müəyyən vaxta qədər fasilə elan edildi. Aprel ayının 11-dən etibarən komissiyaların işə başlaması təklif edildi. Konfransın işini müşahidə edən İtaliyadakı Amerika səfiri R.Çayld onun birinci günü

[125] Yenə orada, s.201

[126] N.Nərimanov. Genuya nə deməkdir. Əlyazma. 1922.//ARPİİ SSA, f.609, s.1, i.31, v.34

[127] N.Nərimanovun Bakı şəhər sovetinin iclasında məruzəsi. 01.06.1922.// ARPİİ SSA. f.609, s.1, i.27, v.59

[128] Документы внешней политика СССР. Том V, M., 1962,c.200

baş vermiş hadisələr barədə aprel ayının 11-də Birləşmiş Ştatların Dövlət katibinə yazırdı ki, Çiçerinin çıxışını çıxmaq şərti ilə konfransın açılışında qeyri-adi bir hadisə baş vermədi. Səfirin fikrincə, hər şeydən əvvəl, ruslar Genuyaya təbliğat aparmaq üçün gəlmişdilər və onlar separat sazişlər bağlamağa ümidli idilər. Lui Bartunun Çiçerini diskusiyaya çəkməsini də Riçard Çayld bununla əlaqələndirirdi.[129]

Siyasi komissiyanın ilk müzakirə etdiyi məsələlərdən biri Cənubi Qafqazın keçmiş milli respublikalarının Parisdə olan nümayəndələrinin Genuya konfransında iştirakı məsələsi idi. Konfrans açılan gün, aprel ayının 10-da Fransa nümayəndə heyətinin yardımı ilə Azərbaycan, Gürcüstan və Ermənistan milli hökumətlərinin adından konfransa memorandum təqdim edilmişdi. Yevgeni Gegeçkori başda olmaqla, Cənubi Qafqaz respublikalarının mühacir nümayəyəndələrindən ibarət bir heyət Genuyaya gəlmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin Paris sülh konfransında olan keçmiş nümayəndələrindən Mir Yaqub Mehdiyev və Məmməd Məhərrəmov da Genuyaya gələn heyətin tərkibində idi. Bundan əlavə, konfransda Bakı nefti ilə bağlı məsələlərin müzakirə ediləcəyi gözlənildiyindən Əli Mərdan bəy Topçubaşov da həmin günlərdə Genuyaya gəlmişdi.[130] Hələ Genuya konfransı ərəfəsində, Fransanın Baş naziri R.Puankare mart ayının 31-də parlamentdəki çıxışında Azərbaycanın Fransa üçün xüsusi önəm daşıdığını vurğulamışdı. O, demişdi ki, Qafqaz respublikaları Asiya hesab edildiklərindən, Genuya konfransına çağrılmasalar da, hər halda, bu dövlətləri silah gücünə işğal edən Rusiyaya da həmin ölkələrin adından danışmaq haqqı verilməmişdi R.Puankare qeyd edirdi ki, biz Bakıda uğurlu neft siyasətimizi davam etdirmək fikrindəyik. Fransa Baş naziri açıq şəkildə bildirmişdi ki, "biz Azərbaycan hökumətinin müstəqil hüquqlarını pozan hər hansı hərəkətləri tanıya bilmərik. Amerikanın mövqeyi də bu məsələdə bizim mövqeyimizlə tamamilə üst-üstə düşür".[131] Hətta, Ankaradakı Azərbaycan səfiri İ.Əbilov Xalq Cümhuriyyətinin İstanbuldakı keçmiş səfirliyinin bir əməkdaşından gizli şəkildə əldə etdiyi məlumata əsasən, N.Nərimanova yazırdı ki, Fransa hökuməti anti-sovet fəaliyyətlərini gücləndirmək üçün Parisdəki Azərbaycan mühacirlərinə böyük həcmdə, 3,5 milyon frank məbləğində pul vermişdir.[132]

[129] The Ambassador in İtaly (Child) to the secretary of State. April 11, 1922.//Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, p. 770

[130] Bax: Российское зарубежье во Франции 1919-2000. Том третий. Москва, 2010, с.323

[131] "Le Figaro", 1922, 16 mai

[132] İ.Əbilovun N.Nərimanova məktubu. 01.03.1922.// ARPİİ SSA, f.609, s.1, i.94, v.178

Parisdə olan Qafqaz mühacir hökumətlərinə rəsmi xarakter vermək üçün aprel ayının 1-də Raymon Puankare hökuməti Rusiya tərəfindən işğal olunmuş Gürcüstanın mühacir hökumətini de-yure olaraq, tanıdığını bildirmiş və Genuya konfransının açılışından bir gün sonra, aprel ayının 11-də bu qərar Akaki Çxenkeliyə çatdırılmışdi. Bununla da Fransa hökuməti Parisə mühacirət etmiş Gürcüstan hökumətini rəsmi olaraq, Gürcüstan hakimiyyəti kimi tanıdığını bəyan etmişdi.[133] Xüsusilə, Bakı neftinin müəyyən hissəsinin, guya, bolşeviklər tərəfindən "Royal Dutch Shell" Holland şirkətinə satılması barədə mətbuatda həyacanlı xəbərlərin yayılması Fransa hökumət dairələrinin ciddi narahatlığına səbəb olmuşdu. Onlar Qafqazın mühacir hökumətləri vasitəsi ilə Bakı neftinə münasibətdə müəyyən təsir imkanları əldə etmək istəyirdilər.[134]

Sovet nümayəndə heyətinin təqdim etdiyi bəyanatda Qərb ölkələrinin konsessiya maraqları Sibirin təbii ehtiyatlarına yönəldilsə də, konfransın əsas hədəflərinindən biri Bakı nefti üzərində qurulmuşdu. Avropa mətbuatının fikrincə, dünyanın "heç bir rayonu Bakı neftini əvəz edə bilməzdi. Dünyanın heç bir yerində, hətta, Mekskada da Azərbaycanın Bakı neft hövzəsindəki qədər neft çıxarılmır. Bu rayonda neft ehtiyatları tükənməz dərəcədə böyükdür. Ona görə də bizim fəaliyyətimizin əsas mərkəzi Bakı olmalıdır."[135] Böyük Britaniyada çıxan bir sıra mətbuat orqanları neft məsələsini Genuya konfransının əsas məsələlərindən biri hesab edirdi. Mançesterdə nəşr edilən "Qardian Kommersial" qəzetinin fikrincə, əgər Rusiya Genuya konfransında təmsil edilmişdisə, deməli konfransın vacib müzakirələrindən biri neft haqqında olacaqdı.[136]

1920-ci ilin aprel işğalından sonrakı illərdə Bakı neft sənayesi öz istehsal gücünə görə, XX əsrdə ən aşağı həddə (1920-ci ildə 2,915 milyon ton, 1921-ci ildə 2,457 milyon ton) ensə də, Genuya konfransında neft uğrunda mübarizəyə qoşulmuş böyük neft şirkətləri Abşeron rayonun neft ehtiyatları haqqında geniş məlumatlara malik idilər.[137] 20-ci illərin əvvəllərində neft sənayesini xilas etmək üçün Bakıda fəaliyyət göstərən neft mütəxəssisləri

[133] Bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.63

[134] Yenə orada, s.64

[135] "Fiqaro", 1922, 6 mai

[136] "Guardian Commercial", 1922, 13 april

[137] Bax: Ч. Султанов. Политические и экономические этюды по Южному Кавказу (хроника с 1850 по 2010 гг.). Баку, 2010, с.93

Amerika qazma üsuluna keçməyi Moskvaya təklif edirdilər. Bunun üçün ya Amerika, ya da Almaniya dəzgahları alınmalı idi. Q.Orconikidzenin 1921-ci ilin iyun ayında V.Leninə göndərdiyi teleqramından aydın olur ki, bolşeviklər Qərb şirkətləri ilə əlaqə yaratmağa böyük ehtiyac hiss edirdilər.[138]

Bakı neftinə münasibət nəinki, Qərb dövlətləri ilə Sovet Rusiyası arasında ziddiyyətləri gücləndirmiş, eyni zamanda, Qərb dövlətlərinin bir sıra aparıcı şirkətləri arasında da ziddiyyətləri kəskinləşdirmişdi. Belə bir ziddiyyət Genuya konfransı günlərində "Royal Dutch Shell" və "Standart Oil" arasında daha açıq xarakter almağa başlamışdı. Onlar Bakı neft konsessiyalarını almağa ümid bəsləyir və bu istiqamətdə ciddi rəqiblərə çevrilirdilər. Xüsusilə, Rusiya nümayəndə heyətinin üzvü Leonid Krasinin aprel ayının 11-də İtaliya qəzetlərində dərc olunmuş müsahibəsi bolşeviklərin neftli əraziləri konssesyalara vermək niyyətlərinin olduğunu göstərmişdi. Bu istiqamətdə Genuya konfransı ərəfəsində RK(b)P MK Siyasi Bürosunun iclaslarında çoxlu müzakirələr getmiş və müxtəlif layihələr hazırlanmışdı. L.Krasin məhz bu layihələrə istinadən İtaliyanın "İnformazioni" qəzetindəki açıqlamasında Sovet Rusiyasının böyük dövlətlərə neft konsessiyaları verməyə hazır olduğunu bildirmişdi.[139] O, bir qədər sonrakı müsahibəsində neft konsessiyaları ilə bağlı məsələyə daha geniş aydınlıq gətirmişdi. L.Krasin bəyan etmişdi ki, Sovet hökuməti Azərbaycanın neft mədənlərinin dörddə birini özündə saxlamalı, qalan hissəsini Fransa, İngiltərə, Amerika və Belçika şirkətlərinə konsessiyaya verməlidir.[140] Bunu N.Nərimanov da mümkün hesab edirdi. Onun fikrincə, "neft mədənlərinin qismən konsessiyaya verilməsi Azərbaycan üçün xeyirli olardı və sənayeni inkişaf etdirmək üçün də geniş imkanlar açardı".[141] Lakin Azərbaycan Xalq Cümhuriyyətinin Genuyaya gəlmiş nümayəndələri Sovet Rusiyasının Bakı neftini konsessiyaya vermək hüququnun olmadığını bəyan etdilər. Konfransın ikinci günü M.Məhərrəmov İtaliya mətbuatında çıxış edərək bildirdi ki, bolşeviklər Azərbaycan millətinə məxsus neft mədənlərini satmağa səlahiyyətli deyillər. Onun fikrincə, Bakı neft sənayesində rus kapitalı elə də, əhəmiyyətli rol oynamamışdı. Ona görə də, Məhərrəmov yazırdı ki, Ab-

[138] Q.Orconikidzenin V.Leninə teleqramı. 06.06.1921.// RDSSTA, f.85, s.18, i.82, v.7

[139] Bax: "İnformazioni", 1922, 11 aprile

[140] Bax: "Известия», 1922, 9 мая

[141] N. Nərimanovun bu fikri A. Hüseynovun məqaləsindən alınmışdır. Bax: A.Hüseynov. N. Nərimanovun Genuya səfəri. // "Kommunist", 1989, 8 iyul

şeronun neftlə zəngin əraziləri Azərbaycan xalqına və oraya kapital qoymuş xarici şirkətlərə aid olmalı idi.[142]

Genuya konfransının ilk günlərində Bakı neft mədənlərində baş vermiş yanğın hadisəsi Azərbaycan siyasi mühacirlərinin antisovet təbliğatına bəraət qazandırmış oldu. [143] Londonda fəaliyyət göstərən "Azərbaycan informasiya bürosu" bu fakta istinadən Sovet hökumətinə qarşı Azərbaycanda etirazların güclənməsi və Bakı ətrafındakı neft yataqlarının yandırıldığı haqqında məlumatlar yaydı. Britaniya maliyyə-sənaye dairələri ilə apardığı danışıqlarda Azərbycan milli hökumətinin nümayəndələri bildirdilər ki, "Azərbaycan milləti Bakı neftinin bolşeviklər tərəfindən konsessiyalara verilməsinə heç vaxt razı olmayacaqdır".[144] Azərbaycan mühacir dairələrinin başladığı geniş təbliğat kampaniyası izsiz keçmədi. Onların mətbuatdakı çıxışları, etiraz notaları, yaydıqları bəyanatlar Sovet Rusiyası nümayəndə heyətinin əsəbiliyinə səbəb olmaqla, yanaşı, Qərb siyasi dairələrini ehtiyatlı davranmağa sövq etdi, Avropa və Amerikanın böyük şirkətləri üçün çəkindirici amil rolunu oynadı. Məhz, belə geniş kampaniyanı nəzərdə tutaraq, Genuya konfransı günlərində "Tayms" qəzeti yazırdı ki, "bu günlərdə mətbuat neftlə doludur".[145]

Sovet nümayəndələrinin konsessiya vədləri Genuya konfransı dövründə vaxtilə Bakı neft sənayesində böyük kapitalı olan "Nobel qardaşları cəmiyyəti", "Standart Oil" və "Royal Dutch Shell" kimi, nəhəng şirkətlər arasında rəqabəti elə gücləndirdi ki, hətta, onlar bir-birlərinə qarşı mətbuatda kampaniya aparmaqdan belə çəkinmədilər. "Royal Dutch Shell" mətbuatda belə bir məlumat yaydı ki, guya, "Standart Oil" Nobel qardaşlarının Bakı neftində olan səhmlərini ələ keçirmişdir. Lakin Emmanuel Nobel bəyanat verərək, belə məlumatları təkzib etdi.[146] Öz növbəsində, "Standart Oil"a yaxın olan "Nyu York Tayms" qəzeti də məlumat yaymışdı ki, "Royal Dutch" bolşeviklərlə saziş bağlayıb, Rusiyada geniş konsessiya hüquqları alır.[147]

Genuya konfransı dövründə neft uğrunda mübarizə və neft konsessiyaları haqqında müzakirələr o qədər kəskin xarakter aldı ki, ABŞ dövlət

[142] Bax: "Corriere d' İtalia", 1922, 12 aprile

[143] Bax: «Правда Закавказья», 1922, 16 мая

[144] İsmayıl Musa. Azərbaycanın xarici siyasəti. İkinci hissə. Bakı, 2010, s.43

[145] "Times", 1922, 7 may

[146] M.Qasımov. Xarici dövlətlər və Azərbaycan, s.272

[147] Bax: The Ambassador in İtaly (Child) to the Secretary of State. May 2, 1922.//Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, p. 772

rəsmiləri bu məsələyə müdaxilə etmək məcburiyyətində qaldılar. 1922-ci ilin may ayının 3-də Dövlət Departamentinin xarici ticarət məsələləri üzrə müşaviri və neft siyasəti üzrə tanınmış mütəxəssisi sayılan Artur Milspo 20-ci illərin əvvəllərində Bakı nefti ilə bağlı L.Krasinin apardığı danışıqlar barədə dövlət katibi üçün geniş bir memorandum hazırladı. O, 1921-ci ilin sonlarında İngilis-İran neft kompaniyası ilə Krasin arasında aparılan gizli danışıqlara toxunaraq, yazırdı ki, Krasin Bakı və Qrozni rayonunu İngilis-İran neft kompaniyasına konsessiyaya vermək üçün gizli danışıqlar aparırdı.[148] Eyni zamanda, may ayının 3-də R.Çayld dövlət katibi Ç.Yuza göndərdiyi gizli teleqramda bildirirdi: "Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin nümayəndələri burada deyirlər ki, Bakı "Royal-Dutch"ın agentləri ilə doludur. Bu üç dövlətin nümayəndələri təsdiq edirlər ki, Bakı neft rayonu ola bilsin perspektiv üçün Amerika maraqlarının üzünə bağlana bilər".[149] May ayının 5-də "Standart Oil" kompaniyasının direktorlar şurasının sədri A.C.Bedford yaranmış vəziyyətlə bağlı dövlət katibi Carlz Yuza müraciət etdi. O, Rusiya nefti ilə bağlı "Royal Dutch" ilə Sovet Rusiyasının nümayəndələri arasında aparılan danışıqların bütün pərdəarxası məqamlarını Yuza izah etdi.[150] Amerika Birləşmiş Ştatlarının dövlət katibi Carlz Yuz 1922-ci ilin may ayının 11-də yayılan məlumatlara, A.Bedfordun məktubuna və Qərb ölkələri nümayəndələrinin Rusiyaya təqdim etdiyi me-

[148] Memorandum by the Economic Adviser of the Department of State (Millsmaugh). May 3, 1922.//Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, p. 772; Genuya konfransından az sonra A.Milspo 1922-ci ilin noyabr ayında Amerika iqtisadi və maliyyə missiyasının başçısı kimi İrana göndərilmişdi və 1927-ci ilə kimi orada çalışmışdı. Bu onun İrana birinci missiyası idi. İkinci dəfə Milspo 1943-cü ildə böyük bir Amerika missiyasının başçısı kimi, Tehrana getmiş və 1945-ci ilə kimi İranda işləmişdi. Bax: Doktor Milspo və onun əməkdaşlarının fəaliyyətinə dair. 1944.// ARPİİ SSA, f.1, s.89, i. 76, v.3-18; O.Süleymani. İran-ABŞ münasibətləri: Maliyyə eksperti A.Ç.Milsponun İranda fəaliyyəti. (1922-1927 və 1943-1945-ci illər). Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2007, s.14-17; В.Т.Юнгблод, А.В.Чучкалов. Политика США в Иране в годы второй мировой войны. Киров, 2011, с.190-191; Jamil Hasanli. At the Dawn of the Cold War. The Soviet - American Crisis over Iranian Azerbaijan, 1941-1945. Rowman & Littlefield Publishers, INC. Lanham, Boulder, New York, Toronto, Oxford. 2006, p. 41

[149] The Ambassador in İtaly (Child) to the Secretary of State. May 3, 1922.//Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, p. 774

[150] The Chairman of the Board of Directors of the Standart Oil Company of New Jersey (Bedford) to the Secretary of State. May 5, 1922.//Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, p.786

moranduma əsasən, neft konsessiyaları ilə bağlı bəyanat verərək bildirdi ki, neft konsessiyaları məsələsində Amerika kapitalını kənarlaşdıran hər hansı sazişi Birləşmiş Ştatlar qəbul etməyəcəkdir. eyni zamanda, o, əlavə edirdi ki, hər kəsə münasibətdə "açıq qapılar" prinsipinin nəzərə alınmadığı, maraqlı tərəflərin hamısına bərabər hüquqlar verilmədiyi hər hansı milli və beynəlxalq planın tətbiqinə ABŞ razı olmayacaqdır.[151]

ABŞ Genuya konfransında iştirak etməsə də, neft konsessiyaları məsələsinə biganə qalmaq fikrində deyildi. Ona görə də konsessiya bölgüsündə Britaniyanın üstün mövqelərini zəiflətmək üçün Birləşmiş Ştatlar Fransa və Belçika ilə birgə hərəkət etmək planına üstünlük verirdi. Genuya konfransı dövründə böyük şirkətlərin neft uğrunda ölüm-dirim savaşını M.Mehdiyev belə təsvir edirdi: "Lloyd Corcun arxasında admiral lord Fişerin təsvirinə görə, "cəsarətdə bir Napoleon, əsabilikdə bir Kromvel" olan "Royal Dutch" müdiri ser Henri Deterdinq dururdu. Amerika səfirinin arxası da möhkəm idi, bu arxa "Standart Oil" şirkətinin rəisi A.S.Bedfordun vücudu ilə təhkim edilmiş bulunurdu...İştə yek-digərinə saldırmaq üçün mühəyya iki cəbhə! "Royal Dutch" əski firma olduğundan tülkü kimi, manevraçı, "Standart Oil" isə gənc bulunduğundan atəşli bir aslan kimi görükürdü. Bir tülkünün hiyləsi və bir aslanın həmləsi ilə mücəhhəz olan olan bütün zehnlər Bakı nefti ilə məşğul bulunurdu".[152] Hətta, Britaniya nümayəndə heyətinin üzvü Ser Laming Vorzington-Evans Amerika səfiri R.Çaylda bildirmişdi ki, əgər "Royal-Dutch" ilə Leonid Krasin arasında sazişin imzalandığı doğru olarsa, onlar konfransı tərk edəcəklər.[153] Lakin Qərb ölkələrinin siyasi dairələri böyük şirkətlər arasında yaranmış "neft intriqalarına" tezliklə son qoya bildilər.

N.Nərimanovun "bizdə neft var, onu hasil də edə bilərik, konsessiyaya da verə bilərik" ikibaşlı fikrinə Qərb ölkələri eyni mövqedən yanaşdılar. Qərbin neft şirkətlərinin nümayəndələri bildirdilər ki, onlar, yalnız, Bakı neft mədənləri öz keçmiş sahiblərinə qaytarıldıqdan sonra konsessiya müqaviləsi bağlanmasına baxa bilərlər.[154] Bundan sonra tanınmış neft

[151] Bax: К.Гофман. Нефтяная политика и англо-саксонский империализм. Москва, 1930, с.135-136

[152] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.16

[153] The Ambassador in İtaly (Child) to the Secretary of State. May 4, 1922.//Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, p. 775

[154] Bax: A.Hüseynov. N. Nərimanovun Genuya səfəri. // "Kommunist", 1989, 8 iyul

şirkətləri olan "Nobel qardaşları cəmiyyəti", "Standart Oil" və "Royal Dutch Shell" və digərləri 1922-ci ildə "Front uni" ("Vahid cəbhə") adında sindikat yaradıb, Rusiya ilə separat danışıqlara getməmək haqqında öhdəlik qəbul etdilər.[155] Bununla da, Genuya konfransında başlanmış "neft savaşı" nəticəsiz qaldı və Bakı ətrafının neftlə zəngin ərazilərinin Qərb ölkələrinin tanınmış şirkətlərinə konsessiya müqaviləsi əsasında verilməsi məsələsi ciddi mübahisələrə gətirib çıxardı. "Royal Dutch"ın rəhbəri H. Deterdinq Amerika işgüzar dairələrinin nümayəndəsi kiçik Rokfellerə yazırdı ki, "əgər siz Moskva ilə ticarəti dayandırsanız, sovetlərin qatil rejimi tezliklə çökəcəkdir".[156] Həmin günlərdə Genuyada olan M.Mehdiyev obrazlı formada qeyd edirdi ki, "Konfransda hazır olanlar, şübhəsiz Genuya havasının o günlərdə Azərbaycan neftinin qoxusu ilə məşbu olduğu hiss edilirdi. Halbuki, nə böyük dövlətlər arasında mübadilə edilən rəsmi notalarda və nə də, konfransda baş verən rəsmi müzakirələrdə bir kəlmə də olsun neftdən söylənməyirdi. Konfransın neft bəhsindəki bu rəsmi sükunətini pozan şey yalnız, Azərbaycan heyəti mürəxxəsəsinin verdiyi etiraz notaları idi. Azərbaycanlıların bu xüsusda çıxardıqları protest səsləri ümumi ahəngi xəlaldar edirdi. Azərbaycan heyətinin bu məsələ ətrafında yapdığı iqdamlar Lloyd Corc ilə Çiçerini əsəbləşdirdiyi kimi, konfransın Bakı nefti üzərində yapdığı qeyri-rəsmi bazarlıq əsnasında dəxi Azərbaycan millətpərəstlərinin qaldırdığı gurultu yoldaş Krasin ilə ser Henri Deterdinqi narahat edir və məqsədlərinə asan nail olmalarına əngəl təşkil edirdi".[157] Rus inqilabına qədər Bakı neft sənayesində böyük üstünlüyü olan fransızlar isə Genuya konfransı dövründə həmin üstünlüyü qoruyub, saxlamaq istəyirdilər. "Le Figaro" qəzetinin fikrincə, Bakı neft sənayesinə münasibətdə fransızlar heç bir böyük maneə ilə qarşılaşmamalı idilər, bu prosesdə "köhnə sahibkarların konsessiyaları tamamilə saxlanılmalı və onlar Bakı neftini yenidən öz əllərinə almalı idilər".[158]

Neftə bağlı olan bu ziddiyyətlər siyasi münasibətlərə də öz təsirini göstərmişdi. Rusiya nümayəndə heyətinin tərkibində təmsil olunmuş sovet respublikalarının hüquqi-siyasi statusuna münasibət birmənalı deyildi. G.Çiçerinin Azərbaycanı və digər sovet respublikalarını Rusiyanın müttəfiqi

[155] Bax: Ч. Султанов. Политические и экономические этюды по Южному Кавказу (хроника с 1850 по 2010 гг.), с.91

[156] Yenə orada, s.91

[157] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.15

[158] "Le Figaro", 1922, 16 mai

statusunda təqdim etməsi Lloyd Corcun etirazı ilə qarşılanmışdı. Britaniya Baş naziri bu respublikaları Rusiyanın "müttəfiqi" kimi deyil, bolşeviklərin işğal etdiyi "sovet respublikaları" kimi dəyərləndirirdi. Parisdə olan mühacir nümayəndələri Britaniya Baş nazirinin bu nöqteyi-nəzərini doğru hesab edirdilər. "Corriere Mercantile" qəzetinə verdiyi müsahibəsində Ə.M.Topçubaşov Lloyd Corcun fikrini müdafiyə edərək deyirdi ki, sülh və sabitlik naminə dövlətlər Genuyaya gəlmişdilər ki, ümumi iqtisadi həyatı bərpa etsinlər. Eyni zamanda onlar Sovet hökumətinə təklif edirdilər ki, rus ordusunu Azərbaycanın ərazisindən çıxarsınlar və Azərbaycanın əməksevər xalqına bolşevik zülmündən xilas olmaq imkanı versinlər.[159] Bu məqamda sovet respublikalarının Genuyada olan təmsilçiləri, nəhayət ki, nəyəsə yaradı. Yalnız Qərb ölkələrinin Qafqazın işğal olunduğu barədə bəyanatlarından sonra G.Çiçerin onların Rusiya ilə müttəfiq olması haqqında imzaladıqları sənədləri siyasi komissiyaya təqdim etdi. Orada Rusiya nümayəndə heyətinin tərkibində konfransda təmsil olunmuş bütün sovet respublikalrının, ilk növbədə isə neft konsessiyaları məsələsində siyasi müzakirələrin mərkəzində dayanan Azərbaycanın "Rusiya ilə müttəfiq respublika" olduğu göstərilirdi.[160] G.Çiçerinin bu "diplomatik" gedişindən sonra Azərbaycan, Gürcüstan və Ermənistan mühacir hökumətlərinin Genuya konfransında rəsmi olaraq, iştirak etmək haqqında olan müraciətləri may ayının 13-də siyasi komissiya tərəfindən təmin edilmədi.[161]

Sovet nümayəndələri konfransın birinci gününü özləri üçün qələbə kimi, qiymətləndirirdi. Çoxdan bəri bolşevizmin daşıyıcısı olan canlı sovet liderləri ilə qarşılaşmaq imkanı olmayan İtaliya qəzetləri Çiçerinin hər addımını öz səhifələrinə çıxarmağa çalışırdı. Avropada, xüsusilə, İtaliyada müharibədən sonra liberal-pasifist ideyaların genişlənməsi Sovet nümayəndə heyətini İtaliya mətbuatı üçün bir qədər cazibədar etmişdi. Sovet təbliğatı və demoqogiyası ilk günlərdə sosialist hərakatının genişləndiyi Avropada çoxları üçün maraqlı görünürdü. Konfransın birinci gününün yekunları barədə Romada çıxan "Korerra della sera" yazırdı: "Çiçerinin nitqi zalda alqış-

[159] Les Aspirations de L'Azerbaidjan. Notre entrevue avec M.Toptchibacheff. 18-19.05.1922.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 1. CERCEC, EHESS, Paris, p.292

[160] Daha geniş məlumat üçün bax: Документы внешней политика СССР. Том V, М., 1962, с.209-261

[161] Bax: «Бакинский рабочий», 1922, 2 июня

lar doğurdu, bundan sonra tam gizli bir həyəcana bürünmüş sakitlik hökm sürməyə başladı".[162] N.Nərimanov bu "qələbədən" vəcdə gələrək yazırdı ki, biz Genuyada "Avropa burjuaziyasının maskasını yırtdıq, onun əsl sifətini göstərdik..."İmtahan edənlər" imtahanda iflasa uğradılar. Məsələlərin bu müstəvidə və belə açıq formada qoyulması konfrans təşkilatçılarının bütün planların alt-üst etdi".[163] N.Nərimanov belə hesab edirdi ki, Sovet nümayəndə heyətinin Genuyadakı bəyanatı "indiyə qədər öz burjuaziyası ilə yaxınlaşmağı mümkün hesab edən Avropa fəhlələrinin" gözünü açdı. O, yazırdı ki, "biz bəyan etdik: Avropanı dağıntıdan xilas etmək istəyirsiniz. Buyurun! Sizin qarşınızda geniş sahə açılır, öz zəngin mədənləri ilə bütün Sibir sizin sərəncamınıza verilir. Kapital qoyun və biz sizə həm kapitalınızı, həm də, əldə etdiyiniz mənfəəti qorumağa təminat veririk. Ümumi sülh yaratmaq istəyirsinizsə, tərksilah olun. Əgər fransızlar son damlaya qədər almanların şirəsini sıxıb çıxarmayıblarsa, necə tərksilah ola bilərlər".[164]

Genuya konfransının birinci günündən Nərimanovun aldığı ən mühüm təəssürat Şərq siyasətində tez-tez ittiham etdiyi Lloyd Corcla bağlı idi. O, Britaniya Baş nazirinin Avropanın və bütün dünyanın həyatında mühüm siyasətçi olduğunu etitaf edərək yazırdı: "Lloyd Corc, şübhəsiz ki, ağıllı adamdır. Lakin onun öz ağlını hansı məqsədlər üçün və necə istifadə etməsi ayrı məsələdir. O, Avropanın həyatında cərəyan edən bütün hadisələrə eidi şəkildə nüfuz etmişdir və yeni müharibə təhlükəsini sovuşdurmaq üçün kəskinləşmiş məsələləri hansısa yolla aradan qaldırmaq istəyir. O, başa düşür ki, yeni müharibə Avropanı tamamilə xarabalığa gətirib çıxaracaq və kim bilir ki, orada daha nələr baş verəcəkdir. Axı Lloyd Corc eyni zamanda, burjuaziyanın nümayəndəsidir və buna görə də onun maraqlarını müdafiə etməyə bilməz".[165] Təxminən belə bir ruhda aprel ayının 13-də G.Çiçerin Moskvaya yazırdı ki, məqsədlərimizə nail olduq, konfransın birinci iclasında geniş pasifist proqramla çıxış etdik və nəzərdə tutulan effekt alınmışdır.[166]

G.Çiçerin Genuya konfransında tərksilah məsələsini qoyduğu üçün Sovet Rusiyasının hərbi komissarı L.Trotski qırmızı ordunun sayının azal-

[162] Bax: Corierra Della Sera, 1922, 11 aprile

[163] «Бакинский рабочий», 1922, 2 июня

[164] N.Nərimanov. Genuya nə deməkdir. Olyazma. 1922.//ARPİİ SSA, f.609, s.1, i.31, v.36

[165] Yenə orada, v.83

[166] Bax: А.О.Чубарьян. XX век. Взгляд историка. Москва, 2009, с.267

dılması haqqında Siyasi Büroya müraciət hazırladı. "Ordu haqqında" olan bu müraciət aprel ayının 13-də Siyasi Büronun müzakirəsinə çıxarıldı. Tərksilah məsələsinin G.Çiçerin tərfindən Genuya konfransında qaldırıldığını nəzərə alaraq, L.Trotski bildirirdi ki, Sovet respublikalarının Hərbi İnqilab Şuraları ilə birlikdə Qırmızı Ordunun sayının azaldılması planı işlənib hazırlanır. Əgər bu istiqamətdə beynəlxalq saziş baş tutardısa, L.Trotski təklif edirdi ki, Uzaq Şərq respublikası da daxil olmaqla, Qırmızı Ordunun sayını 800 min nəfərə endirmək olar. Siyasi Büronun iclasında Trotskiyə tapşırıldı ki, beynəlxalq vəziyyətdən asılı olan bu proses başlayarsa, o, hər ay bu istiqamətdə işlərin gedişi haqqında Mərkəzi Komitəyə məruzə təqdim etsin. Eyni zamanda, Siyasi Büro Frunze, Voroşilov və Orconikidzeyə də bu məsələlərlə bağlı aylıq qısa məruzələr hazırlamalarını tapşırdı. Dövlət Siyasi İdarəsinin şəxsi heyətinin 50 min nəfərə qədər azaldılması nəzərdə tutulurdu və bu say Qırmızı Ordunun ümumi sayına daxil edilmirdi. Bu işlərin həyata keçirilməsi üçün hərbi orqanlara iki ay vaxt verilirdi.[167] Eyni zamanda, Siyasi Büro Genuya konfransındakı sovet ekspert qrupunun möhkəmləndirilməsi haqqında M.Litvinovun teleqramını müzakirəyə çıxarıb, onu təmin etdi və L.Sosnovski əlavə olaraq, Genuyaya göndərildi.

Aprel ayının 11-nə təyin edilmiş siyasi komissiyanın iclasında Sovet nümayəndə heyəti tam tərkibdə qatılmışdı. İclasda ilk olaraq, söz alan Lloyd Corc təklif etdi ki, ekspertlərin Londonda hazırladığı memorandum siyasi komissiyanın fəaliyyəti üçün əsas kimi qəbul edilsin. Sovet nümayəndələri xahiş etdilər ki, onların bu memorandumla tanış olmaları üçün siyasi komissiyanın işində fasilə elan edilsin. Onların xahişi nəzərə alındı və komissiyanın işində iki günlük fasilə elan edildi. Britaniya memorandumu ilə tanışlığı N.Nərimanov belə şərh edirdi: orada iki müddəa var idi ki, həmin dəqiqə bizim gözümüzə çarpdı: 1)Sovet Rusiyasının daxili işlərinə müdaxilə; 2) Nə mümkünsə almaq, lakin heç nə verməmək. Bu məsələlərə cavab olaraq, Sovet nümayəndə heyəti bildirdi ki, onlar Çar hökumətinin müharibəyə qədər olan borclarını qaytarmaq barədə öz üzərlərinə öhdəlik qəbul etmək fikrində deyillər. Lakin müəyyən istisnalar daxilində Sovet nümayəndələri ilə Qərb dövlətləri arasında saziş əldə edilərdisə, inqilaba qədərki Rusiyanın kiçik sahibkarlara olan borclarına baxmağı mümkün hesab edirdilər. Əgər sovet əks-iddiası qəbul edilsəydi, onlar Rusiya hökumətinin hərəkətlərindən zi-

[167] RK(b)P MK Siyasi Bürosu iclasının 2 saylı protokolu. 13.04.1922.// RDSSTA, f.17, s.3, i.288, v.1

yan çəkmiş xüsusi şəxslərə, xaricilərə dəyən ziyanın ödənilməsi məsələsini də müzakirə edə biləcəklərini bildirdilər. Xüsusilə, Rusiyada istehsal prosesinə mənfəət gətirən xarici sahibkarların öz keçmiş mülkiyyətini birgə cəmiyyətlər və trestlər yaratmaq yolu ilə konsessiya formasında geri qaytarmalarının müxtəlif yolları təklif olunurdu. Eyni zamanda, G.Çiçerin müharibədən ən çox ziyan çəkən ölkə kimi, Rusiyanın hərbi borclarının qaytarılmasını mümkün hesab etmirdi. Lakin bütün vəd edilən iqtisadi güzəştlər Rusiya və digər dövlətlər arasında hər hansı sazişin bağlanması və Sovet Rusiyasının hüquqi cəhətdən tanınması şərtindən asılı edilirdi.[168]

Sovet Rusiyasının nümayəndələrinin memoranduma mənfi cavabını qabaqcadan bildikləri üçün Britaniya nümayəndələrinin xahişi ilə aprel ayının 14-nə təyin edilmiş iclas təxirə salındı. Təcrübəli siyasətçi olan Lloyd Corc Çiçerinlə görüşüb rusların mövqeyini yumşaltmağa ümid bəsləyirdi. Bu məqsədlə, o, Sovet nümayəndə heyətində əsas simalar sayılan G.Çiçerin, M.Litvinov və L.Krasindən ibarət bir heyəti öz iqiamətgahına - Alberts villasına qeyri-rəsmi söhbətə dəvət etdi. Lloyd Corcla yanaşı Fransa nümayəndə heyətinin başçısı L.Bartu, İtaliya Xarici işlər naziri Karlo Şantser və Belçikanın Baş naziri Työnis də söhbətdə iştirak edirdi. Alberts görüşü bir neçə gün davam edən müzakirələrə və mübahisələrə çevrildi. Bu danışıqlar zamanı Lloyd Corc müxtəlif vasitələrlə keçmiş sahibkarların və kreditorların Rusiyada olan əmlakının qaytarılmasına nail olmaq, bolşevikləri Rusiyanın keçmiş borclarını ödəməyə razı salmaq istəyirdi.[169] Bu borcların ümumi məbləği Qərb ekspertləri tərəfindən 18 milyard qızıl manat məbləğində müəyyən edilmişdi. Lakin Sovet nümayəndələrinin ilk dəfə burada açıqladığı əks-iddianın məbləği həmin rəqəmdən xeyli artıq idi. Xarici hərbi müdaxilə dövründə Rusiyaya vurduqları iqtisadi ziyana görə, Sovet hökuməti Qərb ölkələrinə qarşı 30 milyard qızıl manat iddia irəli sürdü.[170] Bu iddianın bir hissəsi xarici müdaxilə dövründə Bakı neft sənayesinə vurulan ziyana görə hesablanmışdı. Bu məqsədlə RK(b)P MK Siyasi Bürosunun qərarı ilə yaradılmış ekspert komissiyasının işçi qurupuna Bakıdan da mütəxəssislər cəlb edilmişdi və sovet ekspertləri tərəfindən 1922-ci ilin yanvar-mart aylarında hazırlanmış həmin məbləğ RKP MK-nın Siyasi Bürosunda təsdiq edilmişdi. Lloyd Corc təklif edirdi ki, Rusiya nümayəndələri Leninə teleqram vurub,

[168] N.Nərimanov. Genuya nə deməkdir. Olyazma. 1922.//ARPİİ SSA, f.609, s.1, i.31, v.37-38

[169] Материалы Генуэзской конференции. (Подготовка. Отчёты заседаний, работы комиссии, дипломатическая приписка и др.). Москва, 1922, с.167

[170] История дипломатии. Том третий (1919-1939). Москва, 1945, с.177

bildirsinlər ki, Qərb ölkələri dördillik vətəndaş müharibəsi dövründə dəymiş ziyanla bağlı iddiaya baxa bilərlər, "təki Rusiya keçmiş xarici sahibkarların mülkiyyətini, zavod və fabriklərini qaytarmağa razı olsun".[171] Lloyd Corc, nəinki, xaricilərə məxsus keçmiş müəssisələrin qaytarılmasını tələb edir, eyni zamanda, Çar Rusiyası dövründə olduğu kimi, həmin müəssisələrin öz sahibləri tərəfindən idarə olunmasını təklif edirdi. Onun fikrincə, Sovet hakimiyyəti orqanları ilə müəssisə sahibləri arasında hər hansı mübahisə yaranardısa, bu mübahisələrə Sovet hakimiyyət orqanlarının nümayəndələri və xaricilərdən birgə təşkil olunmuş xüsusi məhkəmələrdə baxılmalı idi.[172]

Lloyd Corcun bütün cəhdlərinə baxmayaraq, danışıqların gedişində Sovet nümayəndə heyətinin üzvü M.Litvinov bəyanat verdi ki, bolşeviklər heç vaxt və heç bir formada xaricilərin Rusiyada müsadirə edilmiş əmlakını köhnə sahiblərinin istifadəsinə qaytarmağa razı olmayacaqlar. Buna cavab olaraq, Lloyd Corc təklif etdi ki, ya bolşeviklər xaricilərin əmlakını uzunmüddətli icarə formasında 99 il müddətinə keçmiş sahiblərinin istifadəsinə versin, ya da bunu etmək istəmirlərsə, müsadirə edilmiş əmlakın əvəzində onun sahiblərinə iki milyard altı yüz milyon funt sterlinq vəsait ödəsinlər. M.Litvinov Britaniya Baş nazirinin bu iddialarına qarşı Rusiyada vətəndaş müharibəsi zamani dəymiş ziyanın ödənilməsi məsələsini qoydu. M.Mehdiyev Alberts danışıqlarının arxasında Bakı neftindən imtiyaz gözləyən neft şirkətlərinin dayandığını yazırdı.[173] Alberts görüşünün elə bir ciddi siyasi və iqtisadi nəticəsi olmasa da, belə bir şayiələr yayılmışdı ki, guya, ingilis və fransızlar ruslarla müəyyən bir sazişə gəlirlər.[174]

Rusiya ilə Qərb dövlətlərinin nümayəndələri arasında konfransdankənar danışıqların aparılması Almaniya nümayəndələrinin ciddi narahatlığına səbəb olmuş, təklənmək qorxusu onları Sovet Rusiyasına yaxınlaşmağa vadar etmişdi. Bu narahatlığın nəticəsi kimi, aprel ayının 16-da Sovet nümayəndə heyətinin yerləşdiyi Rapalloda sovet-alman müqaviləsi imzalandı. Cənubi Qafqaz sovet respublikalarının nümayəndələri, ümumiyyətlə, Rapallo danışıqlarında iştirak etmirdilər.[175] Rapallo müqaviləsinə görə, hər iki tərəf qarşılıqlı olaraq, müharibə dövründə bir-birlərinə vurduqları ziyandan imtina edirdilər. Sovet Rusiyası digər ölkələrin iddiaların

[171] N.Nərimanov. Genuya nə deməkdir. Olyazma. 1922.//ARPİİ SSA, f.609, s.1, i.31, v.39
[172] Yenə orada, v.86
[173] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.2122
[174] Bax: G.Kennan. Russia and the West under Lenin and Stalin. Boston – Toronto, 1961, p.218
[175] Йорг Баберовски. Враг есть везде. Сталинизм на Кавказе. Москва, 2010, с.276

təmin etməyəcəyi halda, Almaniya Rusiyada milliləşdirilmiş müəssisələrə münasibətdə öz iddialarından imtina edirdi. Iki ölkə arasında diplomatik və konsulluq münasibətləri qurulur, habelə, ticarət əlaqələri üçün əlverişli şərait yaradılırdı. Sovet Rusiyası və Almaniya qarşılıqlı münasibətlərini tənzim etmək üçün öz aralarında fikir mübadiləsi aparmağı zəruri hesab edirdilər. Şübhəsiz ki, Rapallo müqaviləsi Genuyaya toplanmış Qərb liderləri üçün qəfil partlayan bomba təsiri bağışladı. Bu müqavilənin doğurduğu həyacanı müşahidə edən ABŞ-ın İtaliyadakı səfiri Riçard Çayld qeyd edirdi ki, Rapallo dünyanı sarsıtdı və konfransa ağır zərbə vurdu.[176] İlk növbədə isə Genuya konfransının əsas hədəfi olan neft konsessiyaları məsələsi arxa plana keçdi. M.Mehdiyev yazırdı ki, "Rapallo müqaviləsi beynəlxalq neft mübarizəsində dönüş mərhələlərindən birini təşkil etmişdir".[177] Avropa dövlətlərinin Rapallo müqaviləsinə kəskin etirazlarının gücləndiyi bir vaxtda, amerikalılar ehtiyat edirdilər ki, alman-rus müqaviləsi pis nümunə ola bilər və bəzi dövlətlər ayrı-ayrılıqda və yaxud, dövlətlər bloku birlikdə Rusiya ilə Rapallo müqaviləsinə bənzər separat sazişə gedə bilərlər. Bununla bağlı öz narahatçılığını səfir R.Çayld İtaliyanın Xarici işlər nazirinə də bildirmişdi.[178]

Aprel ayının 18-də Avropa qəzetləri Rapallo müqaviləsi haqqında geniş məlumatlar yaymağa başladı. Elə həmin gün R.Puankare Fransa hökumət kabinetini toplayıb, Almaniyanın bu addımının Versal müqaviləsinə zidd olduğunu bəyan etdi. Fransa və Belçika nümayəndələri Almaniyanın konfransdan kənarlaşdırılmasını tələb edirdilər. Almaniya nümayəndə heyətinin başçıları Karl Virt və Valter Ratenau Lloyd Corcun hər zaman hadisələrin gedişindən məlumatlı olduğunu çox incə şəkildə anlatdılar. Ruslar da belə hesab edirdilər ki, ingilis Baş nazirinin xəbəri olmadan almanlar belə riskli addım ata bilməzdilər.[179] Lakin Lloyd Corc bu məlumatları təkzib etdi və aprel ayının 19-da İtaliya, İngiltərə, Fransa, Belçika, Polşa, Rumıniya, Yuqoslaviya, Çexoslovakiya və Portuqaliya nümayəndələri Rapallo müqaviləsinin əleyhinə birgə etiraz notası ilə çıxış etdilər. Onlar Almaniyanın gizli olaraq, Rusiya ilə saziş bağlamasından təəssüf etdiyini bildirir və bu sazişin Kann bəyannaməsinə zidd olduğunu vurğulayırdılar. Müqaviləni imzalayan

[176] Bax: Richard Child. A Diplomat Looks at Europe. New York, 1925, p. 38
[177] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.22
[178] The Ambassador in İtaly (Child) to the secretary of State. April 24, 1922.//Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, p. 771
[179] N.Nərimanov. Genuya nə deməkdir. Olyazma. 1922.//ARPİİ SSA, f.609, s.1, i.31, v.40

hökumət başçıları belə hesab edirdilər ki, Almaniya bu addımı ilə özünü Genuya konfransından kənarda qoymuşdur. Belə söhbətlər yayılmışdı ki, guya, Lloyd Corc almanlara xəbərdarlıq edib ki, "əgər onlar öz səhvlərini düzəltməsələr, almanları tamamilə fransızların pəncəsinə verəcəkdir".[180]

Rapallo müqaviləsi ətrafında geniş təbliğat kampaniyası getdiyi bir vaxtda Sovet nümayəndələri arasında bir sıra məsələlərə münasibətdə fikir ayrılıqları yaranmağa başladı. Rakovski və Krasin Rapallo müqaviləsi haqqında aprel ayının 16-da Siyasi Büroya öz xüsusi rəylərini göndərmişdilər. Lakin Siyasi Büro onların rəyini rədd etmiş və aprelin 17-də göndərdiyi şifirli teleqramda Almaniya ilə olan müqaviləni axıracan müdafiə etməyi tapşırmışdı. Bununla belə, Moskva Çiçerinin fəaliyyətindən də narazı idi. Aprel ayının 20-də RKP MK Siyasi Bürosu "Genuya konfransı haqqında" məsələni müzakirə edib, Çiçerinə teleqram göndərmək barədə qərar qəbul etdi. Teleqramda deyilirdi ki, "sizin məlumatlarda müttəfiqlərin Sovet Rusiyasına kredit verməsi haqqında heç nə yoxdur və bunsuz bütün addımlar bizim üçün öz əhəmiyyətini itirir".[181] RKP MK-nın belə mövqeyi Çiçerinə bəlli idi. Əslində, Alberts villasında danışıqlar zamanı Çiçerinin Lloyd Corcun bəzi təkliflərinə maraq göstərməsi onun Sovet Rusiyasının daxili işlərinə müdaxilə cəhdlərinə səbrli münasibəti bununla bağlı idi. Hərbi borcların məbləğinin azaldılmasına və maliyyə ödənişlərinin faizlərinin aşağı salınmasına Qərb dövlətləri razı olsalar da, Rusiyada xarici vətəndaşlara dəymiş ziyanın ödənilməsi və onlara məxsus əmlakın qaytarılması məsələsində israrlı idilər. Bu, ilk növbədə, Rusiya iqtisadiyyatında, xüsusilə, Bakı neft sənayesində xarici kapitalın üstün mövqeləri ilə bağlı idi. Məsələn, 1920-ci ilin aprelindən sonra Azərbaycanda neft sənayesinin millilləşdirilməsi (dövlətləşdirilməsi) zamanı Bakıda neftlə məşğul olan 272 xüsusi şirkət ləğv edilmişdi ki, bunun da böyük bir hissəsi xarici kompaniyalara və vətəndaşlara aid idi.[182] Müttəfiqlərin təkliflərinə cavab olaraq, aprel ayının 20-də G.Çiçerin Lloyd Corca məktub yazaraq, bildirdmişdi ki, hərbi borclar və bütün borcların faizləri ləğv edilməklə və Rusiyaya maliyyə köməyi

[180] Yenə orada, v.45

[181] RK(b)P MK Siyasi Bürosu iclasının 3 saylı protokolu. 20.04.1922.// RDSSTA, f.17, s.3, i.289, v.1

[182] Bax: Ч. Султанов. *Политические и экономические этюды по Южному Кавказу* (хроника с 1850 по 2010 гг.). Баку, 2010, с.83

göstərilməklə, Sovet nümayəndə heyəti müttəfiqlərin irəli sürdüyü bir sıra təklifləri kiçik istisnalarla müzakirə və qəbul etməyə hazırdır.[183] G.Çiçerinin bu addımı nümayəndə heyətinin bir sıra üzvlərinin etirazına səbəb olmuşdu. Belə ki, Rudzutak, Sapronov, Mdivani, Nərimanov, Preobrajenski və Bekzadyan bildirdilər ki, Çiçerinin Lloyd Corcla danışıqlarda irəli sürdüyü təklifləri MK-nın Siyasi Bürosunun təlimatının pozulamsı deməkdir. Bütün bunlar haqqında Rudzutak aprel ayının 22-də Xarici İşlər Komissarlığına xüsusi teleqramla məlumat göndərdi.[184] Rudzutakın teleqramı alınan kimi, RKP MK Siyasi Bürosu təcili olaraq, Genuyaya teleqram göndərməyi və Çiçerini belə addımlardan çəkindirməyi zəruri hesab etdi. Orada göstərilirdi: "Rudzutakın Çiçerinin Lloyd Corca göndərilən məktubunun əleyhinə olan etiraz teleqramı göstərir ki, Çiçerin Mərkəzi Komitənin təlimatının əleyhinə olan səhvə yol vermişdir, ya da, yol vermək imkanına malikdir".

Aprel ayının 24-də Çiçerin Moskvaya teleqram göndərib, öz mövqeyini izah etsə də, aprel ayının 24-də səhiyyə komissarı N.Semaşkonun Çiçerin haqqında hazırladığı tibbi rəy aprel ayının 27-də Siyasi Büronun müzakirəsinə çıxarıldı və ona tapşırıldı ki, konfrans qurtaran kimi, Almaniyaya müalicəyə getsin. Tibbi komissiyanın rəyində Xarici İşlər Komissarlığına və şəxsən G.Çiçerinə *iş vaxtından sonra gecə işləmək qadağan* edilirdi.[185] Həmin iclasda "Genuya konfransı haqqında" qəbul olunmuş digər bir qərarla ona xəbərdarlıq edildi ki, Mərkəzi Komitənin direktivindən kənara çıxmasın və güzəştlər siyasətini dayandırsın. *Genuyaya göndərilən* teleqramda deyilirdi ki, bundan sonrakı hər hansı güzəşt kredit alınmasına verilən dəqiq və aydın təminatla bağlı olmalıdır. Siyasi Büro qəti olaraq, bildirirdi: "Kreditsiz, ümumiyyətlə, heç bir güzəştə gedilməməlidir".[186]

Almaniya nümayəndələrinə qarşı təhdidlər güclü olduğu üçün Sovet nümayəndəliyi aprel ayının 28-də "Genuya" otelində onların şərəfinə nümayişkəranə şəkildə ziyafət təşkil etdi. G.Çiçerin öz nitqində bir daha əmin olduğunu bildirdi ki, rus-alman müqaviləsi heç bir dövlətə qarşı yönəlməyib və indiki şəraitdə yeganə dögru addımdır. Karl Virt cavab nitqində qeyd etdi

[183] Материалы Генуэзской конференции. (Подготовка. Отчёты заседаний, работы комиссии, дипломатическая приписка и др.). Москва, 1922, с.168

[184] Bax: А.О.Чубарьян. XX век. Взгляд историка. Москва, 2009, с.272

[185] RK(b)P MK Siyasi Bürosu iclasının 4 saylı protokoluna əlavə. 27.04.1922.// RDSSTA, f.17, s.3, i.290, v.9

[186] RK(b)P MK Siyasi Bürosu iclasının 4 saylı protokolu. 27.04.1922.// RDSSTA, f.17, s.3, i.290, v.1

ki, Almaniyanın özündə, belə, Rapallo müqaviləsinin əleyhinə qruplar olsa da, Almaniya öz mövqeyində möhkəm dayanacaq və öz imkanları daxilində Rusiyada vəziyyəti yaxşılaşdırmağa çalışacaqdır.[187]

N.Nərimanov belə hesab edirdi ki, Rusiya ilə Almaniya arasında olan bu yaxınlaşma Avropa ölkələrinin Sovet hökumətinə qarşı müqavimətinin zəifləməsinə və onların geri çəkilməsinə kömək edəcəkdir. Məhz, "Genuya" otelində ziyafət keçirilən gün, aprel ayının 28-də İtaliya sosialistlərinin "Avanti" qəzeti Rusiya nümayəndələrinə təqdim olunmaq üçün hazırlanmış memorandum münasibətdə Avropa ölkələri arasında fikir ayrılıqlarının yarandığını yazırdı. Qəzetin yazdığına görə, xarici vətəndaşların Rusiyadakı əmlakına dair ingilis və italyanlar daha güzəştli memorandum hazırlamışdılar, lakin bununla Fransa, Belçika və Yaponiya nümayəyəndələri razı deyildilər.[188] Rapallo müqaviləsindən sonra Genuya konfransındakı Fransa nümayəndə heyətinin başçısı Lui Bartu məsləhətləşmələr üçün Parisə çağırılmışdı. L.Bartu Parisdə olarkən, Gürcüstan milli hökumətinin rəhbərlərindən olan Y.Gegoçkori R.Puankare ilə görüşüb, gürcü xalqının bolşevizmdən son dərəcə məyyus olduğunu və işğalçılara qarşı mübarizə aparacağını bildirdi. Baş nazir Raymon Puankare qeyd etdi ki, o, dünən Gürcüstan nümayəndələrinin Genuya konfransına buraxılması məsələsini qaldırmaq haqqında konfransdakı Fransa nümayəndələrinə təlimat göndərmişdir.[189] Lakin konfransda təmsil olunan dövlətlər Gürcüstan, Azərbaycan və Ermənistanın mühacir hökumətləri nümayəndələrinin konfransa buraxılmasına ehtiyatla yanaşdılar.[190] Bütün bunlara görə, R.Puankare L.Bartuya təlimat verildi ki, ruslara qarşı sərt mövqedə dayansın və Genuyada qeyri-rəsmi şəkildə aparılan neft konsessiyaları haqqında danışıqları nəzarətdə saxlasın. Bu, ilk növbədə, müharibədən sonra yanacağa ehtiyacın artması və neftin milli müdafiə sistemində rolunun yüksəlməsi ilə bağlı idi. M.Mehdiyevin fikrincə, "özünün böyük dövlətlər sırasında qalmasını arzu edən Fransanın neftə olan ehtiyacını təmin etmək zərurətində olduğu şübhəsiz idi".[191]

İngiltərə Sovet Rusiyası ilə yaxınlaşmaq məqsədilə xarici vətəndaşların Rusiyada olan əmlakının onlara uzunmüddətli icarəyə verilməsini mümkün

[187] N.Nərimanov. Genuya nə deməkdir. Olyazma. 1922.//ARPİİ SSA, f.609, s.1, i.31, v.46
[188] Bax: "Avanti", 1922, 28 aprile
[189] Bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.66-67
[190] «Правда Закавказья», 1922, 16 мая
[191] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.23

hesab etsə də, fransız və belçikalılar əmlakın keçmiş sahiblərinə qaytarılmasını tələb edirdilər. Aprel ayının sonunda İngiltərə-Amerika mətbuat nümayəndələri üçün keçirilən ziyafətdə Lloyd Corc Genuya konfransının dağılmasının qarşısını almaq üçün səbrli olmağı təklif etdi. O, bildirdi ki, belə ağır məsələlərdə nəticə əldə etmək üçün iki-üç həftə elə də, böyük zaman demək deyildir. Lloyd Corc dedi: "Vaşinqton konfransı üç ay davam etdi, buna müqabil o öz məqsədlərinə nail oldu. Bunun üçün altı ay, hətta, bir ildə böyük müddət deyildi. Mən demək istəmirəm ki, biz burada üç ay, və ya bir il oturacağıq. Lakin biz çətinlikləri iki-üç, yaxud, dörd həftəyə aradan qaldıracağımıza ümid bəsləməməliyik. Qarşımızda böyük məsələ dayanıb, biz səbrlə silahlanmalıyıq. İndiki anda biz qalib dövlətlərin hakim quruplaşmasına daxilik. Lakin bu daimi davam etməyəcəkdir. Əgər bizim təntənəmiz digər xalqların əzilməsini doğuracaqdırsa, bəşəriyyət bizi Allahın bəxş etdiyi qələbədən sui-istifadədə ittiham edəcək və biz onda layiq olduğumuz cəzadan qaça bilməyəcəyik".[192] Britaniya Baş naziri mətbuat üçün verdiyi açıqlamada çox istəyirdi ki, Genuya konfransı həqiqi sülhün yaradılması ilə nəticələnsin, əks təqdirdə, kiçik uğurların olmasına baxmayarq, o, konfransı iflasa məhkum hesab edirdi.

May ayının 1-də Sovet nümayəndələri beynəlxalq həmrəylik gününü İtaliya komunistləri ilə birgə qeyd etdilər. Əslində, onlar Avropa konfransını özləri üçün bitmiş hesab edirdilər. Onlar məğlub düşərgədə olan Almaniya ilə imzalanmış Rapallo müqaviləsini Sovet Rusiyasına qarşı yaranmış kapitalist blokadasını yarmaq üçün uğurlu başlanğıc sayırdılar. Qərb dövlətlərinin bolşevikləri ram etmək siyasəti ciddi bir nəticə vermədi. Genuya konfransında Avropa siyasi və işgüzar dairələri ilə danışıqlar aparan Sovet nümayəndələri mayın 1-də proletar həmrəyliyi bayramını keçirirdilər. N.Nərimanov yazırdı: "Sinələrində qırmızı bantlar olan nümayəndələr səhərdən şən əhvali-ruhiyyə ilə bir-birlərini təbrik edirlər. Onların üzündə xoş təbəssüm vardır. Bir mayı italyan kommunistləri ilə birgə keçiririk. Şübhəsiz, çoxları təəccüb edirdi ki, rus bolşevikləri bir damcı belə şərab içmədən necə şənlənə bilirlər".[193]

Mayın 2-də Qərb ölkələri tərəfindən razılaşdırılmış memorandum Sovet nümayəndə heyətinə təqdim edildi. Orada göstərilirdi ki, Rusiya keçmişdə Avropa iqtisadi sisteminin çox zəruri bir həlqəsi olub və onun iqtisadi

[192] N.Nərimanov. Genuya nə deməkdir. Olyazma. 1922.//ARPİİ SSA, f.609, s.1, i.31, v.49
[193] Yenə orada, v.51

cəhətdən bərpası həm Rusiyanın özünün, həm də, Avropa iqtisadiyyatının inkişafında mühüm rol oynaya bilər. Lakin sənədi imzalayan konfrans iştirakçıları Avropanın kapitalı və təcrübəsi olmadan Rusiya iqtisadiyyatının çiçəklənməsini qeyri-mümkün hesab edirdilər. Müharibəyə qədər Rusiya vətəndaşları ilə xaricilər arasında imzalanmış mülkiyyət müqavilələrinin Sovet hökuməti ilə imzalanacaq müqaviləyə daxil edilməsi memorandumda nəzərdə tutulurdu.[194] Fransa və Belçika istisna olmaqla, yeddi dövlətin nümayəndələri tərəfindən imzalanmış sənəddə göstərilirdi ki, Rusiyaya maliyyə yardımı göstərmək üçün Antanta dövlətləri 20 milyon funt sterlinq kapitalı olan beynəlxalq konsorsium yarada bilərlər. İngiltərə isə təminat verirdi ki, Rusiyaya 26 milyon funt sterlinq dəyərində mal krediti göndərə bilər. Bunun müqabilində müttəfiqlər tələb edirdi ki, bolşeviklər digər ölkələrin siyasi quruluşlarını dəyişməyə yönəlmiş təbliğatlarından imtina etsin və hərbi borclar istisna olunmaqla, bütün borcları qəbul etsin. Sovet nümayəndələri tərəfindən irəli sürülmüş əks-iddia müttəfiqlər tərəfindən rədd edilirdi. Bolşeviklər tərəfindən müsadirə edilmiş mülkiyyət ilə bağlı əsas mübahisəli məsələyə gəldikdə isə, memorandumda deyilirdi ki, Sovet hökuməti bu mülkiyyəti, ya, qaytarmalı, ya da, onun əvəzini ödəməlidir. May ayının 2-də Riçard Çayld Vaşinqtona göndərdiyi məlumatda rusların bu tələbləri qəbul edəcəyinə ümid bəsləmədiyini bildirmişdi.[195]

May ayının 3-də Genuya konfransının ikinci plenar iclası keçirildi. Konfransı pozmamaq naminə Qərb dövlətləri Sovet Rusiyası ilə yumşaq rəftar etməyə üstünlük verirdi. N.Nərimanov yazırdı: "Bu gün Genuya konfransının ikinci plenar iclası keçirilir. Əvvəldə olduğu kimi, yenə bir təntənə var. Biz zala axırda daxil oluruq. İndi nümayəndələrin bizə münasibəti tamamilə başqadır. Əvvəlki bədxahlıqdan əsər-əlamət yoxdur. İlk görüşdəki istehzalı baxışlar artıq hiss edilmir. Bizim natiqlər çıxış edərkən, zalda əvvəlki uğultu da daha duyulmur. Hamı səmimi gülümsünür, bizə yerimizə keçməyə iltifatla yol verirlər. Bizim səsimizə açıqdan-açığa diqqətlə və lazimi ciddiyyətlə qulaq asırlar".[196] Plenar iclasda hələ aprel ayının 10-da yaradılmış maliyyə və

[194] The Delegations of İtaly, France, Great Britain, Japan, Poland, Rumania, Switzerland, and Sweden at the Genoa Conference to the Delagation of Soviet Russia. May 2, 1922. Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, p. 777-786

[195] The Ambassador in İtaly (Child) to the secretary of State. May 11, 1922.//Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, p. 772

[196] N.Nərimanov. Genuya nə deməkdir. Olyazma. 1922.//ARPİİ SSA, f.609, s.1, i.31, v.52

nəqliyyat komissiyalarının məruzələri dinlənildi. N.Nərimanovun təbirincə desək, hər iki məruzə yekdilliklə qəbul edildi, lakin, heç nə həll edilmədi. Çünkü, hər şey rus məsələsinin müzakirə edildiyi siyasi komissiyanın qərarı ilə bağlı idi. Mayın 3-də Sovet nümayəndə heyəti xarici kreditlərlə bağlı öz təkliflərini açıqladı. Sovet Rusiyasının ehtiyac duyduğu kreditin ümumi məbləği 8 milyard 797 milyon qızıl manat idi. Bu məbləğin 3-5 il ərzində veriləcəyi nəzərdə tutulurdu. Onun 2 milyard 797 milyon manatı kənd təsərrüfatı, 1 milyard manatı sənaye, 5 milyard manatı isə nəqliyyat üçün nəzərdə tutulurdu. Lakin Rusiyanın bu təklifləri elə bir ciddi rəy doğurmadı. Qərb müttəfiqləri mayın 2-də təqdim etdikləri memoranduma cavab gözləyirdilər. Sovet nümayəndələri Qərb ölkələrinin Rusiyaya qarşı vahid mövqeyini parçalamaq üçün Amerika səfiri ilə görüşə qərar verdilər. Lakin səfir R.Çayld Qərb ölkələrinin memorandumuna cavab gələnə qədər sovet nümayəndəsi L.Krasinlə görüşmək istəmədiyini bildirdi.[197]

May ayının 11-də Rusiya nümayəndələri 2 may memorandumuna cavablarında xaricilərə məxsus əmlakın hər hansı formada qaytarılmasından qəti şəkildə imtina etdilər. Onlar Qərbə hər hansı iqtisadi güzəşti Sovet Rusiyasının de-yure tanınması ilə əlaqələndirirdilər. Qərb ölkələrinin rus borclarını qaytarmaq tələblərinə sovet nümayəndələri vətəndaş müharibəsi və hərbi blokada dövründə 140 milyon adamın həyatına müdaxilə edildiyi və böyük həcmdə xammalın məhv edilməsi ilə cavab verirdilər. Cavabın sonunda qeyd edilirdi ki, "Rusiya konfransa barışıq arzusu ilə gəlmişdi və hələ də ümid edir ki, onun səyləri uğurla nəticələnəcəkdir".[198] Cavabın belə nikbin sonluğuna baxmayaraq, Qərb nümayəndələri bunu konfransın sonu kimi qarşıladılar. Həmin gün çıxış edən Lloyd Core bolşeviklərin cavabından məyus olduğunu bildirdi və qeyd etdi ki, Rusiya Qərbin yardımı olmadan bütöv bir nəslin həyatı böyunca dirçələ bilməyəcəkdir.[199] Əslində, Genuya konfransı elə həmin gün öz işini başa çatdırdı. Nümayəndələr konfransın rəsmi bağlanmasını gözləmədən dağılışırdılar. Çünki, rusların belə

[197] The Ambassador in İtaly (Child) to the secretary of State. May 6, 1922.//Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, p.788

[198] The Delagation of Soviet Russia at the Genoa Conference to the Delegations of Italy, France, Great Britain, Japan, Poland, Rumania, Switzerland, and Sweden. May 11, 1922.// Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, p.803

[199] Материалы Генуэзской конференции. (Подготовка. Отчёты заседаний, работы комиссий, дипломатическая приписка и др.). Москва, 1922, с.445

cavabından sonra Mir Yaqub Mehdiyevin yazdığı kimi, onların Genuyada qalmasının elə bir mənası yox idi. Ruslara gəldikdə isə, onlara da "artıq öz çanta-mantalarını toplayaraq, Rusiyaya geri dönməkdən başqa bir şey qalmırdı".[200] Genuya konfransının rəsmi şəkildə qapanması mərasimi may ayının 19-na təsadüf etdi. Yarmçılıq qalmış məsələlərin müzakirəsi Haaqa konfransına keçirildi.

Genuya konfransının belə uğursuz sonluğunu M.Mehdiyev neft şirkətlərinin gizli əməlləri ilə izah edirdi. O yazırdı: "Dünyanın gizli qüvvətlərindən ən böyüyü "Standart Oil" Genuya konfransını dağıtdı və bolşeviklərin "Royal Dutch" ilə əməkdaşlıq etmələrinə mane oldu. Böyləcə də Genuya konfransı dastanına xitam verildi... İngilislər ilə amerikalılar arasında mövcud olan mücadilə Azərbaycan neftinə sahib olmaq üçün başlanan həm siyasi və həm də iqtisadi səhifələrə tökülmüşdü".[201] Genuya konfransı uğursuzluğa dücar olsa da, böyük dövlətlər Bakı nefti ilə bağlı belə hesab edirdilər ki, "oyun çətindir, lakin hələ itirilməmişdir". Xüsusilə, fransızlar başlanmış oyundan səmərəli istifadə edib, Bakını Fransanın nüfuzlu neft siyasətinin başlıca hədəfinə çevirmək istəyirdilər.[202] Fransızlar sonralarar da bu siyasəti davam etdirib, sovet respublikalarına qarşı Rumıniya, Polşa, Bolqarıstan və Türkiyənin simasında birgə güc nümayiş etdirmək istəyəndə, N.Nərimanov yazırdı ki, sovetlərə dost olan Türkiyənin bu koalisyada iştirak etdiyinə biz inanmırıq. Onun fikrincə, Sovet respublikasının ucqarlarında yaşayan türk xalqları fransızların təşkil etdikləri koalisyaya qarşı mübarizənin önündə gedəcəkdilər. Nərimanov yazırdı: "Biz bütün dünyaya sübut etmişik ki, ərazilərin genişləndirilməsi deyil, xalqların öz müqəddəratını təyin etməsi bizim üçün əsasdır".[203]

N.Nərimanov A.İoffe ilə birlikdə Genuya konfransının yekunları barədə Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinə məlumat vermək üçün may ayının 6-da İtaliyanı tərk etdilər. P.Mdivani və A.Bekzadyan da onlarla birlikdə Moskvaya dönməli idilər. Lakin "erməni və gürcü məsələləri onları Genuyada yubandırdı".[204] Nərimanovun həmin günə aid qeydləri Genuya şəhəri haqqında maraqlı təəssürat yaradırdı: "Bu gün mən ağır təəssüratla Genuyanı tərk edirəm. Genuya öz məftunedici təbiəti ilə dünyanı cəzb edir. Onun

[200] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.27
[201] Yenə orada, s.28
[202] "Le Figaro", 1922, 16 mai
[203] N.Nərimanov. Əlyazma. 24.03.1924.// ARPİİ SSA, f.609, s.1, i.31, v.19
[204] «Правда Закавказья», 1922, 16 мая

göy dənizi, ruhu oxşayan parlaq ulduzları ilə mavi göyləri, tropik bitkiləri ilə ormanlı dağları, limon və portağal bağları, göz oxşayan xiyabanları, gülləri və xurma ağacları, insan əməyinə şəhadət edən nəhəng yeraltı keçidləri insanı öz gücünə inandıran mühüm bir vasitədir".[205] May ayının 6-da Sovet nümayəndə heyətinin bir hissəsinin qəflətən Genuyanı tərk etməsi Qərb ölkələri nümayəndələrinin ciddi marağına səbəb olmuşdu. Amerika səfiri Çayld ilə söhbətdə Lloyd Corc Qərb memorandumuna Moskvadan təlimat almaq üçün İoffe və digər sovet nümayəndələrinin Berlində gizli müşavirə keçirmək məqsədilə Genuyanı tərk etdiklərini bildirirdi.[206]

May ayının əvvəllərində Qafqaz mühacir hökumətlərinin nümayəndələri Avropada xeyli fəallaşdığı üçün N.Nərimanov Genuyanı tərk etmək ərəfəsində Cənubi Qafqazdakı vəziyyət haqqında mətbuata açıqlama verdi. O, bildirdi ki, Cənubi Qafqazda diqqəti cəlb edən ən mühüm hadisə Cənubi Qafqaz respublikaları federasiyasının yaranmasıdır. Federasiya ideyasının regionda çoxdan yayıldığını vurğulayaraq, Nərimanov dedi: "gürcü münşeviklərinin, erməni daşnaklarının və Azərbaycan müsavatçılarının şovinist siyasətinin izlərini məhv etmək üçün Cənubi Qafqaz respublikaları böyük iş görməli oldular...Tədricən, doğrudur, böyük çətinliklə sovet hakimiyyəti Cənubi Qafqaz xalqlarının birliyinə nail oldu. Hazırda Cənubi Qafqaz Federsaiyası, nəinki, respublikalrın xarici siyasət birliyidir, eyni zamanda, mədəni və millətlərarası birlikdir. Federasiya hüquqi olaraq, artıq praktiki baxımdan çoxdan formalaşmış federasiyanın yalnız nəticəsidir. Belə ki, dəmiryolu və xarici ticarət aparatı xeyli əvvəl birləşdirilmişdi. Cənubi Qafqaz Amerika, İtaliya, Bolqarıstan və digər ölkələrlə möhkəm ticarət əlaqələri qura bilib".[207]

Mayın 11-də Mokvaya gələn qatar sovet sərhədlərinə daxil oldu. Genuya konfransına böyük maraq göstərən jurnalistlər İtaliyadan ilk dönən nümayəndələrin təəssüratlarını aldılar. N.Nərimanov "İzvestiya" qəzetinə geniş müsahibə verdi. O qeyd etdi ki, tərksilah haqqında sözümüz bizi bütün dünyada tanıtdı. Konfransa qədər bizə şübhə ilə yanaşır, "vəhşilər", "bolşevik barbarları" kimi baxırdılar. Lakin o zaman ki, biz birinci olaraq, tərksilah barədə təklif irəli sürdük, nəinki, konfrans salonunda oturanları, habelə, bü-

[205] N.Nərimanov. Genuya nə deməkdir. Əlyazma. 1922.//ARPİİ SSA, f.609, s.1, i.31, v.55
[206] The Ambassador in Italy (Child) to the secretary of State. May 7, 1922.//Papaers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938, pp.789-790
[207] «Труд», 1922, 17 мая

tün Avropanın ictimai dairələrini ayıltdıq". Neft konsessiyaları ilə bağlı sual gəldikdə isə, N.Nərimanov dedi ki, "bəzi neft mədənlərinin konsessiyaya verilməsi məsələsi hələ axıra qədər həll edilməyib. Lakin hər ehtimala qarşı Bibi-Heybət sahəsində bir sıra mədənlərin qismən konsessiyaya verilməsini mən mümkün hesab edirəm. Bu, həm, Azərbaycan respublikası üçün faydalı ola bilər, həm də bizim dövlət sənayemizi lazım olan səviyyəyə qaldırmağa imkan verər".[208] Lakin bütün bu açıqlamalar konfransın dağılmasının məsuliyyətini Sovet Rusiyasından uzaqlaşdırmaq məqsədini güdürdü. May ayının ikinci ongünlüyündə Avropa iqtisadi konfransının dağılma ehtimalı böyük olduğu üçün Cənubi Qafqaz Diyar Komitəsinin Rəyasət Heyəti may ayının 13-də Genuya konfransının dağılmasını Avropa dövlətlərinin üzərinə yıxmaq üçün bütün partiya komitələrinə bu dağılmanın xarakterini izah edən təlimat göndərmişdi. Onlar bu təlimatdan yazılı və şifahi təbliğat kampaniyasında istifadə etməli idilər.[209]

May ayının 13-də "Pravda" qəzeti Genuya konfransındakı sovet nümayəndə heyəti üzvlərinin Moskvaya gəlməsi barədə məlumat verdi. N.Nərimanov Moskvaya yetişən kimi, may ayının 14-də Tiflisdən M. Oraxelaşvili onunla birbaşa xəttlə əlaqəyə girib, qələbə, yoxsa, məğlubiyyətlə qayıtdığını soruşdu. Nərimanov, əlbəttə, qələbə ilə qayıtdığını dedi və əlavə etdi ki, İoffe ilə birlikdə Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinə məruzə etmək üçün gəlib. O, Cənubi Qafqazdan olan digər nümayəndələrin də onlarla birlikdə dönəcəklərini bildirdi, lakin erməni və gürcü məsələsi ilə bağlı Mdivani və Bekzadyanın orada qalmalı olduğunu vurğuladı. Nərimanov dedi: "Məsələ ondadır ki, menşeviklər orada böyük kampaniya açıblar, demək olar ki, hər gün Fransa qəzetlərində Gürcüstanda baş verən üsyan haqqında məlumatlar yerləşdirilir... Dünən burada teleqram alındı ki, Genuya konfransını çağıran ölkələrin komissiyası Gürcüstan, Ermənistan və Azərbaycan məsələsinə baxmaqdan imtina ediblər. Bununla da, menşeviklərin kampaniyası pozuldu və heç bir nəticə vermədi".[210] Genuya konfransının Cənubi Qafqaz respublikalarına münasibəti barədə Oraxelaşvilinin sualına cavab olaraq, Nərimanov dedi ki, "konfransın Cənubi Qafqaz nümayəndələrinə münasibəti yaxşıdır. Biz orada Gegeçkori və Mdivanini (Budunun qardaşı, sosial-federalist) gördük". Nərimanov izah etdi

[208] «Известия», 1922, 14 мая

[209] RK(b)P MK Cənubi Qafqaz Diyar Komitəsi Rəyasət Heyəti iclasının 12 saylı protokolu. 13.04.1922.// RDSSTA, f.85, s.24, i.281, v3(arxası)

[210] «Правда Закавказья», 1922, 16 мая

ki, hələlik danışıqlar davam edir, Antanta dövlətləri tədricən geri çəkilirlər. Fransa nümayəndələrinə gəldikdə isə onlar Parisdən cavab gözləyirlər. Onun fikrincə, konfransı pozmamaq üçün rus məsələsini yəqin ki, xüsusi komissiyanın exspertlərinin müzakirəsinə verəcəklər. Onun ardınca isə Rusiya ilə ayrı-ayrı müqavilələrin bağlanacağı gözlənir. Nərimanov deyirdi: "Bu böyük qələbədir, digər qələbə isə ondan ibarətdir ki, bütün dünya və Avropa bizim ciddi şəkildə əməkdaşlıq etmək istədiyimizi gördü, lakin Fransa kiçik bir yığın kapitalistin mənafeyinə görə, ümumi sülhü pozur. Bütün Avropa qəzetləri bunun haqqında yazır... Lloyd Corc bəyan etdi ki, bu məsul dövrdə böyük rus və alman xalqları ilə hesablaşmamağı ağılsızlıq hesab edir".[211]

N.Nərimanov A.İoffe ilə birlikdə təxminən belə bir hesabatı mayın 16-da V.Leninin iştirakı ilə keçirilən RK(b)P MK-nın plenumuna da verdi. Hələ konfrans başa çatmamış plenum sovet nümayəndə heyətinin Genuya konfransındakı fəaliyyətini bəyəndi. Bir gün sonra, mayın 17-də ÜRMİK-in IX çağrış üçüncü sessiyası Genuya konfransı haqqında sovet nümayəndə heyətinin hesabatını dinlədi. Sessiyanın Lenin tərəfindən hazırlanmış qərarında deyilirdi ki, RSFSR və onunla ittifaqda olan sovet respublikalarının nümayəndə heyəti öz vəzifələrini düzgün yerinə yetirmişdir.[212]

May ayının sonlarında N.Nərimanov Moskvada işlərini yekunlaşdırdıqdan sonra Bakıya gəldi. Genuyada rəsmi danışıqlarda fəal iştirak etməsə də, Azərbaycanda onu təmtəraqla qarşıladılar. Qəzetlər onun Genuya səfəri haqqında geniş məlumatlar dərc etməyə başladı. Bakıya yetişən kimi, ilk olaraq, o, Cənubi Qafqaz qadınlarının qurultayında Genuya konfransı haqqında ətraflı şəkildə məruzə etdi. Bu məruzə Azərbaycan mətbuatı tərəfindən dolğun işıqlandırıldı. "Bakinskiy Raboçiy" qəzeti Genuya təəssüratları ilə bağlı onunla geniş müsahibə apardı. Qəzet bu müsahibəni "Genuyanın yekunları və Haaqanın perspektivləri" adı altında dərc etdi. Müsahibə Genuya konfransının başlıca detallarını əhatə edir, Avropa iqtisadi konfransının siyasi məqamlarına aydınlıq gətirirdi. N.Nərimanovun fikrincə, Genuya konfransının ən mühüm siyasi yekunlarından biri, Cənubi Qafqaz respublikaları nümayəndələrinin Zaqafqaziyanın "keçmiş adamları" üzərində qələbəsi idi. Müsahibənin sonunda Nərimanov Lloyd Corcun Britaniya icma palatasındakı çıxışına istinadən qeyd edirdi ki, Qərb üçün rus məsələsini həll etməyin üç yolu vardır: güc tətbiq etmək, Rusiyanı öz taleyinə buraxmaq və onunla

[211] Yenə orada

[212] Bax: A.Hüseynov. N. Nərimanovun Genuya səfəri. // "Kommunist", 1989, 8 iyul

saziş bağlamaq. Onun fikrincə, birinci yol vətəndaş müharibəsi dövründə ağqvardiyaçıların sıyrılmış qılıncı timsalında artıq iflasa uğramışdı. İkinci yola gəldikdə isə Rusiya Qərblə əlaqə olmadan da yaşaya bildiyini sübut etmişdi. Ən nəhayət, Nərimanov qeyd edirdi ki, "artıq üç yol yoxdur, yalnız, bir yol vardır, Rusiya ilə razılaşma yolu, bu Haaqaya qədər olacaq, ya Haaqadan sonra, fərqi yoxdur".[213]

İyun ayının 1-də Bakı Sovetinin toplatısında o, Genuya konfransının gedişi və nəticələri haqqında məruzə etdi. O, qeyd etdi ki, "biz hər zaman konfransdan istifadə etmək barədə düşünürdük. Bu Mərkəzi Komitənin təlimatı idi. Ona görə, də hər zaman elə sözlər və ifadələr tapmaq lazım idi ki, danışıqları davam etdirmək və lazım olan anda onu pozmaq mümkün olsun. O vaxta qədər biz bir-birini necə aldatmağın lazım olduğunu bilmirdik, lakin biz orada diplomatiya kursu keçdik".[214] Nərimanovun məruzəsi əsasında toplantının qətnaməsində deyilirdi: "Bakı Soveti qeyd edir ki, Genuya konfransında sovet nümayəndə heyəti fəhlə-kəndli kütlələrinin mənafeyini və böyük inqilabımızın nailiyyətlərini şərəflə müdafiə etmişdir. Yoldaş Nərimanov Rusiya Federasiyasının nümayəndələri ilə birlikdə Bakı Sovetinin ona tapşırdıqlarını parlaq şəkildə yerinə yetirmişdir". Bakı Sovetinin iclası Sovet nümayəndə heyətinin və Nərimanovun Genuyadakı fəaliyyətini bəyənməklə yanaşı, Qırmızı Ordunun möhkəmləndirilməsi ilə bağlı işləri də gücləndirməyi tövsiyyə edirdi. Bu tövsiyə Genuyada sovetlərin tərksilahla bağlı təkliflərinin qəbul olunmaması ilə əsaslandırılırdı.[215] Qətnamə qəbul olunduqdan sonra N.Nərimanov iclasda yekun sözü söylədi. Onun yekun sözü bütövlükdə, Şərq məsələsinə, ilk novbədə isə İran və Türkiyədə cərəyan edən hadisələrə həsr edilmişdi. 1920-ci ildən fərqli olaraq, Nərimanov yekun sözündə qeyd edirdi ki, biz Şərqə kommunist proqramı ilə getmirik, biz gərək Şərqin bütün məzlum xalqlarına imkan verək ki, onlar öz talelərini öz əllərinə alsınlar. Bunun üçün o, Şərqdə inqilabın gələcək xadimlərinin hazırlanmasını zəruri hesab edirdi.[216]

İyun ayının 7-də N.Nərimanovun "Bakinskiy raboçiy" qəzetində Genuya konfransı ilə bağlı məqaləsi də dərc edildi. Həmin məqalədə o, yazırdı ki,

[213] «Бакинский рабочий», 1922, 2 июня

[214] N.Nərimanovun Bakı şəhər sovetinin iclasında məruzəsi. 01.06.1922.// ARPİİ SSA. f.609, s.1, i.27, v.61

[215] Yenə orada, v.62

[216] N.Nərimanovun Bakı şəhər sovetinin iclasında yekun sözü. 01.06.1922.// ARPİİ SSA. f.609, s.1, i.27, v.64

"nə qədər ki, beyinlər kapitalın girovudur, qaba gücün hökmranlığı davam edəcəkdir".[217] Genuya eyforiyasını yaşayan N.Nərimanov bir neçə gün Bakıda baş verənləri müşahidə etdikdən sonra həmin "qaba gücün hökmranlığını" Azərbaycanda gördü. O, ölkədə olmadığı qısa müddətdə diqqəti cəlb edən çox şey dəyişmişdi. Mətbuatda türk dilinə qarşı kampaniya başlamış, türk teatrında tamaşaların sayı azaldılmış, onun tərəfdarlarına qarşı açıq və qapalı təqiblər həyata keçirilmişdi. Y.Baberovski haqlı olaraq, yazır ki, "inadcıl Qafqaz milli kommunistlərinin İtaliyaya göndərilməsi Zaqafqaziya Diyar Komitəsinə imkan verdi ki, milli partiya təşkilatlarını yeni əsaslara keçirsin. N.Nərimanovun əleyhdarları bu müddət ərzində partiya daxilində hökumət başçısının oturuşmuş nüfuzunu sarsıda bildilər, onlar Nərimanovun tərəfdarlarını mühüm vəzifələrdən uzaqlaşdırdılar və ya onları partiyadan çıxardılar".[218]

Böyük bir silsilə təşkil edən Genuya təəssüratlarından sonra N.Nərimanov "Bakinskiy Raboçiy" qəzetində "Bəzi yoldaşlara cavab" adlı geniş bir məqalə yazdı. O qeyd edirdi ki, son zamanlar Azərbaycanda bəzi məsul şəxslər məktəblərdə türk dili dərslərinin və teatrlarda türk tamaşalarının azaldılması barədə mətbuatda çıxış edir və bunu marksizm noqteyi-nəzəri ilə əlaqələndirməyə çalışırlar. Nərimanov bu kampaniyaya Marksın öz sözləri ilə cavab verirdi. Marksa görə, "fəhlə sinfi nə qədər şüurlu olardısa, onun işi də bir o qədər məhsuldar, əlinə aldığı hakimiyyət də bir o qədər möhkəm olmalı idi". Nərimanov yazırdı ki, türk fəhləsi və kəndlisinin teatra daha çox ehtiyacı var, nəinki, digər millətlərin. Onun fikrincə, türk teatrı 30 il mövcud olsa da, indi onun yalnız 2 aktrisası vardır, yalnız indi türk qadını teatra getmək imkanı qazanmışdır. O, soruşurdu: "Siz hansı dildə türk fəhlə və kəndlisinin uşaqlarını digər millətlərin uşaqlarına yaxınlaşdırmaq istəyirsiniz?... Türk uşaqları yalnız Puşkinin şeirlərini, Şekspir və Şilleri deyil, hər şeydən əvvəl, əsl proletar şairi olan Sabirin mübariz şeirlərini, xalq şairləri Vaqifin, Zakirin, Vidadinin də şeirlərini bilməlidirlər". Nərimanov türk dili dərslərini azaltmaq istəyənlərə məsləhət görürdü ki, özləri o dili öyrənib, türk Sabirin peyğəmbərcəsinə yazılmış şeirlərini oxumaq imkanını əldə etsinlər. Nərimanova görə, bəzi məsul işçilər Sabirin şeirləri ilə tanış olsaydılar, "bu çətin zamanda "hansısa Sabirə abidə qoymaq nəyə lazımdır" sözlərini deməzdilər. İki şeydən biridir: ya bu yoldaşlar Azərbaycan

[217] «Бакинский рабочий», 1922, 7 июня

[218] Йорг Баберовски. Враг есть везде. Сталинизм на Кавказе. Москва, 2010, с.276

şəraitini bilmir və səhvlər edirlər, ya da Marksı pis mənimsəyiblər və Marksın çoxdan yazdığı məsələlərdən heç cür baş çıxara bilmirlər." N.Nərimanov "köçəri quşlar" adlandırdığı belə rəhbər işçilərə xatırladırdı ki, "Türk dili Azərbaycanda dövlət dili elan edilib və o bu dilin bütün hüquq və üstünlüklərindən istifadə etməlidir. Heç kəs bunu dəyişdirmək gücündə deyildir. Azərbaycan məlum siyasi və iqtisadi mülahizələrə görə, öz ərazisini, təbii sərvətlərini güzəştə gedə bilər, lakin öz ana dilindən imtina edə bilməz və heç kəsə icazə verə bilməz ki, Azərbaycanda bu dilin əhəmiyyətini aşağı salsın. Qoy müxtəlif adlar altında Azərbaycanda türk dilinin əleyhinə çıxanlar bunu yaxşıca bilsinlər".[219] N.Nərimanovun yazısının aşağısında "Bakinskiy Raboçiy" qəzetinin redaksiya qeydi dərc olunmuşdu. Orada yazılırdı ki, redaksiya özünə borc bilir göstərsin ki, "Bakinskiy Raboçiy" qəzetinin səhifələrində türk dilinin və türk teatrının əleyhinə heç bir məqalə getməyib və getməyəcək də. Sərt üslubda yazılmış bu məqalə Azərbaycan rəhbərliyini həyacana gətirdi. Tələsik olaraq, onu iyunun 19-da Azərbaycan KP MK Rəyasət Heyətinin müzakirəsinə çıxardılar. Müzakirə nəticəsində qəbul olunmuş qərarda deyilirdi: "Mərkəzi partiya orqanında məsul işçinin partiya təşkilatına pozğunluq salan belə məqalə ilə çıxış etməsi yolverilməzdir". Məqalənin mətni Mərkəzi Komitənin qərarı ilə birlikdə Cənubi Qafqaz Diyar Komitəsinə göndərildi və xahiş edildi ki, bu məsələ Diyar Komitəsinin Bakıda keçiriləcək növbəti plenumunda müzakirə edilsin.[220]

İyul ayının əvvəllərində N.Nərimanov artıq Tiflisdə idi. O, istər, Qafqaz Diyar Komitəsinin müxtəlif iclaslarında və istərsə də, Tiflis şəhər sovetində Genuya konfransı haqqında, orada cərəyan edən hadisələr barədə, xüsusilə, Qərb dövlətlərinin tələbləri və Qafqaz mühacirlərinin konfrans günlərindəki fəaliyyəti ilə bağlı geniş məlumat verdi. Əslində, bu məlumatlar daha çox Sovet nümayəndə heyətinin Qərb diplomatiyası üzərində qələbəsi fonunda təqdim edilirdi.[221] Bu zaman artıq, P.Mdivani də Genuyadan qayıtmışdı və Cənubi Qafqaz Diyar Komitəsi Rəyasət Heyətinin qərarı ilə konfransın yekunlarının regionda təbliğinə fəal qoşulmuşdu.[222] Bu təbliğat kampaniyası Genuya konfransının yekunları ilə yanaşı ciddi hazırlıq görülən Haaqa konfransının perspektivlərini də özündə ehtiva edirdi.

[219] N. Nərimanov. Bəzi yoldaşlara cavab. İyun 1922.// ARPİİ SSA, f.1, s.74, i.128, v.18-21

[220] Azərbaycan KP MK Rəyasət Heyəti iclasının 26 saylı protokolu.19.06.1922.// ARPİİ SSA, f.1, s.74, i.128, v.13

[221] «Правда Грузии», 1922, 6 июля

[222] RK(b)P MK Cənubi Qafqaz Diyar Komitəsi Rəyasət Heyəti iclasının 21 saylı protokolu. 24.07.1922.// RDSSTA, f.85, s.24, i.281, v.11(arxası)

§4. Haaqa konfransı və Bakı nefti uğrunda mübarizənin növbəti mərhələsi

Genuya konfransının davamı kimi, Haaqa konfransı iyun ayının 15-də işə başladı. Hələ, may ayının 17-də Genuya konfransı "rus məsələsinin" müzakirəsinin Haaqa konfransına keçirmək barədə qərar qəbul etmişdi. Lakin nümayəndələrin siyasi çəkisi baxımından Genuyada olan təntənə Haaqada baş vermədi. Burada əsasən, işgüzar dairələrin nümayəndələri təmsil edilmişdilər. Haaqada nə Lloyd Corc var idi, nə, Lui Bartu, heç, Almaniyada dincələn Çiçerin də konfransa gəlməmişdi. Orada İngiltərəni xarici ticarət naziri Lloyd Qrim, Rusiya-Asiya Bankının keçmiş direktoru L.Urkvart, Fransanı Rusiyadakı fransız vətəndaşlarının əmlakını müdafiə bürosunun diroktoru Alfan və digərləri iştirak edirdi. Hətta, Azərbaycan və Gürcüstan mühacir hökumətləri belə, Haaqaya özləri tərəfindən "ikinci dərəcəli diplomatlar" hesab etdikləri şəxsləri göndərmişdilər.[223] Konfransa Hollandiyanın xarici işlər naziri Paten sədrlik edirdi. 11 gün konfrans iştirakçıları rus-larsız "rus məsələsini" müzakirə edib, vahid mövqelərini formalaşdırdılar. Xalq xarici işlər komissarının müavini M.Litvinov başda olmaqla, Rusiya nümayəndələri iyunun 26-da konfransa qatıldılar. Lakin Moskvada da Haaqa konfransına ciddi hazırlıq getmişdi. İyun ayının 12-də RKP MK Siyasi Bürosunun iclasında Haaqa konfransına hazırlıqla bağlı məsələ müzakirə edilmiş və nümayəndə heyətinin tərkibi müəyyən edilmişdi.[224] Haaqa konfransı açılan gün, iyun ayının 15-də Siyasi Büro Xarici İşlər Komissarlığının nümayəndələri kimi, Litvinov, Krasin və Karaxanın iştirakı yenidən bu məsələni müzakirəyə çıxardı. Siyasi Büronun qərarında göstərilirdi ki, hərbi borcların tanınmaması ilə bağlı Genuya konfransına getmiş nümayəndə heyətinə verilən təlimatlar Haaqa konfransı üçün də qüvvədədir. Qərarda Xarici İşlər Komissarlığına tapşırılırdı ki, Litvinov, Krasin və Krestinskidən ibarət nümayəndə heyəti təcili olaraq, Haaqaya yola düşsün və nümayəndələr iyunun 26-da Haaqada olsunlar. Qərara görə, biri Ali Xalq Təsərrüfatı Şurasından, digəri isə Maliyyə Komissarlığından olmaqla, Haaqaya Genuya materialları ilə tanış olan nüfuzlu mütəxəssislərdən ibarət iki ekspert qrupu göndərilməli idi. Bu məqsədlə Krasin və Litvinova tapşırılırdı ki, 48 saat

[223] Bax: M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.34

[224] Bax: Политбюро ЦК РКП (б) – ВКП (б). Повестки дня заседаний. Том 1. 1919-1929. Каталог. Москва, 2000, с.179

ərzində qeyd edilən idarələrlə əlaqə saxlayıb, mütəxəssislərin dairəsini müəyənləşdirsinlər və onlara viza alınmasını təmin etsinlər. Ən nəhayət, Siyasi Büronun qərarı ilə Plan Komitəsinin mühəndisi Smirnov tərəfindən hazırlanmış konsessiya layihəsi xarici kapitalistlərlə danışıqlarda əsas kimi qəbul edilməli idi.[225]

RK(b)P MK Siyasi Bürosunda və Xarici İşlər Komissarlığında çox yaxşı bilirdilər ki, Haaqa konfransının başlıca hədəfi Bakı neftidir. Genuya konfransının neft konsessiyaları ilə bağlı müzakirələri böyük mübahisələrə səbəb olub, nəticəsiz qaldıqdan sonra Haaqa konfransının yalnız Bakı nefti ilə məşğul olacağı əvvəlcədən hər kəsə bildirilmişdi.[226] Hələ Haaqa toplantısından iki həftə əvvəl, iyun ayının 1-də Fransa parlamenti Genuya konfransı və Rapallo müqaviləsindən sonra yaranmış vəziyyəti müzakirə etmiş və bolşeviklərin Şərqdə fəallaşmasından, müsəlman dünyasını öz arxasınca aparmaq cəhdlərindən narahatçılığını ifadə etmişdi. Bu müzakirələrdə Sovetlər tərəfindən işğal edilmiş Qafqaz respublikaları müstəqilliklərinin bərpa ediməsi zəruri bir addım kimi irəli sürülmüşdü.[227] Elə həmin gün Fransa hökuməti Azərbaycan nefti haqqında İngiltərəyə bir nota vermişdi. Bu notanın əsas məzmunu Lui Bartunun Genuya konfransında rəhbər tutduğu prinsiplər üzərində qurulmuşdu. Fransızlar Rusiyada xaricilərə məxsus əmlakın keçmiş sahiblərinə qaytarılmasında təkid edirdilər. İyun ayının 10-da Britaniya hökumətinin cavab notasında qeyd edilirdi ki, Rusiyada keçmiş mülk sahiblərinin əmlakını qaytarmaq, yaxud onun əvəzini ödəmək Sovet hökumətinə aid bir məsələdir. Bu cavab notasında fransızlardan fərqli olaraq, ingilis rəsmi dairələri Rusiyada, o cümlədən, Bakı neft sənayesində xaricilərə məxsus keçmiş mülklərin icarə müqaviləsi əsasında işlədilməsini mümkün hesab edirdilər.[228] Genuyada böyük neft şirkətləri danışıqları kənardan idarə edirdilərsə, Haaqada bilavasitə onların özləri iştirak edirdilər. Hətta, bir sıra mətbuat orqanları çox açıq şəkildə bu konfransı "neft məclisi" adlandırırdı. Konfransın Haaqada keçirilməsini, belə, böyük neft şirkətlərindən birinin başçısı olan Henri Deterdinqin özünün hollandiyalı olması ilə əlaqələndirirdilər.[229] Lakin Genuyadan fərqli olaraq, Sovet

[225] RK(b)P MK Siyasi Bürosu iclasının 12 saylı protokolu. 15.06.1922.// RDSSTA, f.17, s.3, i.298, v.1

[226] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.35

[227] R.Puankare Şərq məsələsi haqqında. 01.06.1922.// ARPİİ SSA, f.276, s.5, i.1, v.3

[228] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.33

[229] Yenə orada, s.34

nümayəndə heyətinin tərkibinə nə neft Bakısından, nə də digər respublikalardan heç kim daxil edilməmişdi. Siyasi Büro iyunun 15-də keçirdiyi iclasda Rapallo müqaviləsinin bütün sovet respublikaları tərəfindən tanınmasına nail olmağı XXİK-ə tapşırsa da, Haaqada onların iştirakına ehtiyac duymurdu.[230] Əlbəttə, bu fərq Genuyanın siyasi məzmunu ilə Haaqanın iqtisadi mahiyyətindən daha çox, xarici siyasətdə sovet mərkəzləşməsinin getdikcə dönməz xarakter alması ilə bağlı idi.

Sovet respublikalarının Rusiyanın xarici siyasət fəaliyyətində iştirakının sonuncu nümunələrindən biri Rapallo müqaviləsinin uzadılmasına dair Berlin danışıqları oldu. Həmin danışıqlar ərəfəsində Rapallo müqaviləsinə uyğun olaraq, Azərbaycan SSR-də Almaniya konsulluğunun işi bərpa edilmişdi.[231] 1922-ci ilin oktyabr ayının 12-də Emmerix Beme Almaniyanın Azərbaycanda konsulu kimi tanındı.[232] Berlin danışıqların nəticəsi kimi, Ukrayna Sovet Respublikasının nümayəndəsi Vladimir Aussam, Berlindəki sovet səfiri Nikolay Krestinski noyabr ayının 5-də Sovet Rusiyası, Belorusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Uzaq Şərq sovet respublikalarının adından Almaniya ilə Rapallo müqaviləsinin uzadılması haqqında sənədi imzaladılar. Sənədin tam mətni və onun haqqında Almaniya mətbuatında gedən yazılar təcili olaraq, Fransanın Berlindəki müvəqqəti işlər vəkili S.Kventin tərəfindən Fransa Xarici İşlər Nazirliyinə çatdırıldı. Almaniya tərəfindən müqaviləyə Veymar Respublikası Xarici İşlər Nazirliyinin Şərq şöbəsinin müdiri Uqo fon Maltsan imza atmışdı.[233] Almaniyanın təkidi ilə müqavilənin sonuncu, 9-cu bəndində göstərilirdi ki, müqavilə iştirakçı dövlətlərin hər birinin hakimiyyət orqanları tərəfindən ratifikasiya edilməlidir.[234] Almaniyanın təkidi ilə sovet respubliklarının Berlin

[230] RK(b)P MK Siyasi Bürosu iclasının 12 saylı protokolu. 15.06.1922.// RDSSTA, f.17, s.3, i.298, v.2

[231] Xarici işlər üzrə katibliyin fəaliyyəti haqqında hesabat. 09.11.1922.// AR DA, f.28, s.1, i.96, v.98

[232] Bax: AR DA, f.28, s.1, i.40, v.67

[233] Le Chargé d'Affaires de France à Berlin, à Monsieur le Ministre des Affaires Etrangères. Extension du Traité de Rapallo. Accord du 5 novembre 1922. Le 11 novembre 1922.// Ministère des Affaires Etrangères de France, Archives Diplomatique, vol.639, folio 263-267

[234] Texte de l'Accord relatif à l'extension du Traité de Rapallo, signé à Berlin, le 5 novembre au nom de Gouvernement allemand par le Baron de Maltzan, Directeur à l'Office des Affaires Etrangères et, d'autre part, par le Plénipotentiaire du gouvernement de la République Soviétique Socialiste d'Ukraine, Waldemar Aussam ainsi que par le Plénipotentiaire des Gouvernements de la République socialiste des Soviets de Russie Blanche, de la République Socialiste des Soviets de Géorgie, de la République Socialiste des Soviets de l'Azerbaïdjan,

müqaviləsinin iştirakçısı olması, ilk növbədə, Almaniya ilə Ukrayna və Gürcüstan arasındakı bəzi diplomatik məqamlarla, habelə, müharibəyə qədər Bakı neft sənayesindəki alman kapitalı ilə bağlı idi.[235]

Sovet nümayəndələri Haaqaya iyunun 26-ı gəldi. İyun ayının 27-də konfransdakı ilk çıxışında M.Litvinov Sovet Rusiyasının maliyyə ehtiyaclarını açıqladı və hətta, bəyan etdi ki, Rusiyanın kreditlərə olan ehtiyacı ödənməyincə müzakirələrə başlamayacaqdır. Litvinovun fikrincə, Rusiyaya veriləcək kreditin məbləği (3 milyard 224 milyon) elan edilməli və buna təminat verilməli idi. Bu təminat olmadıqca, sovetlər keçmiş əmlak sahiblərinə hər hansı bir təzminat ödəmək, və ya, həmin əmlakın qaytarılması barədə müzakirə aparmaq fikrində deyildi.[236] Lakin Qərb diplomatları və işgüzar dairələrinin təzyiqi altında Sovet nümayəndələri Haaqa müzakirələrində geri çəkilmək məcburiyyətində qaldı. Şübhəsiz ki, Rusiyanın maliyyə kreditlərinə olan ehtiyacı və ölkədə hökm sürən dəhşətli aclıq bu geri çəkilmədə mühüm rol oynayırdı. İyulun 7-də M.Litvinov Haaqa konfransının mülkiyyət məsələləri ilə məşğul olan komissiyasında Sovet hökumətinin hansı şərtlər daxilində xüsusi mülkiyyətçilərə imtiyaz verə biləcəyini açıqladı. Litvinovun müzakirəyə təqdim etdiyi sənəddə konsessiyaya veriləcək ərazilərin xəritəsi və müəssisələrin siyahisi göstərilmişdi. Bu sənəd Azərbaycan, Şimali Qafqaz və Türküstanın işləməkdə olan və istismarı planlaşdırılan neftli ərazilərini əhatə edirdi. M.Litvinov, hətta, "Şimali Qafqazda və xüsusilə, Azərbaycanda heç bir zaman neft işləri ilə əlaqədar olmayan şəxslərin belə, neft imtiyazları ala biləcəklərini çox açıq surətdə elan edirdi, yəni, bir xarici şəxs Sovet hökumətindən imtiyaz istəyərdisə, o zaman bu adamla müzakirə başlanacaq və siyahidə göstərilən ərazidən ona bir parça veriləcəkdi".[237] Litvinovun bəyanatına görə, xarici kapitalistlər tərəfindən irəli sürülmüş bütün təkliflərə Moskvada baxılacaqdı, bu prosesdə təklifin iqtisadi baxımdan səmərəliliyi öyrəniləcək və seçim zamanı keç-

de la République Socialiste des Soviets d'Arménie, de la République d'Extrême-Orient et par l'Ambassadeur à Berlin de la République socialiste Fédérative des Soviets, Nicolas Krestinsky. Le 5 novembre 1922.// Ministère des Affaires Etrangères de France, Archives Diplomatique, vol.639, folio 268-273

[235] Le Chargé d'Affaires de France à Berlin, à Monsieur le Ministre des Affaires Etrangères. Extension du Traité de Rapallo. Accord du 5 novembre 1922. Le 11 novembre 1922. Ministère des Affaires Etrangères de France, Archives Diplomatique, vol.639, folio 264-265

[236] Bax: Документы внешней политика СССР. Том V, M., 1962, c.474-478

[237] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.35-36

miş mülk sahiblərinə üstünlük veriləcəkdi.[238] Litvinovun bu bəyanatından aydın olurdu ki, Sovet hokuməti imtiyaz verəcəyi dairəni seçmək hüququnu öz əlində saxlayırdı və bundan Qərb ölkələri arasında ixtilaf yaratmaq məqsədilə istifadə etmək istəyirdi. Lakin məsələnin belə qoyuluşu Qərb müttəfiqlərini təmin etmirdi. İndi nəinki, fransız və belçikalılar, hətta, sovetlərə qarşı səbrli davranışları ilə bütün Avropanı heyrətə salan ingilislər belə, Rusiyanın təkliflərini rədd etmək məcburiyyətində qaldı. Britaniya nümayəndəsi Lloyd Qrimin iyul ayının 12-də konfransadakı çıxışı çoxları üçün gözlənilməz oldu. O, Rusiyada xaricilərə məxsus müsadirə edilmiş əmlakın restitusiya prosesinə aydınlıq gətirilməsini tələb edirdi. Qrim bilmək istəyirdi ki, mülk sahiblərinin pozulmuş hüquqları necə bərpa olunacaq və dəymiş ziyanın ödənilməsi hansı qaydada həyata keçiriləcəkdir.[239]

M.Litvinovun iyulun 7-də verdiyi bəyanatda Azərbaycanın neftli ərazilərinin konsessiyalara verilməsi məsələsi qoyulduğundan, Avropadakı Azərbaycan mühacir təşkilatları fəallaşmağa başladılar. Haaqa konfransının davam etdiyi günlərdə Londonda olan Azərbaycan siyasi mühacir hökumətinin nümayəndəsi "Röyter" agentliyinə müsahibə verərək, gələcəkdə bərpa olunacaq Azərbaycan milli hökumətinin ölkənin milli sərvətlərinin bu formada qarət edilməsinə razı olmayacağını bütün hökumətlərə bildirdi. Bununla yanaşı, Parisdə olan Azərbaycan siyasi mühacir hökumətinin nümayəndələri də öz tərəflərindən bu məzmunda bir memorandumu Haaqa konfransına təqdim etdilər.[240] Bolşevik Rusiyasında böhranın dərinləşdiyi, aclığın geniş yayıldığı, siyasi ixtilafların güclandiyi bir vaxtda, sovetlərə, hələ də, müvəqqəti yanaşan Qərbin siyasi və işgüzar dairələri üçün bu bəyanatların müəyyən prinsipial əhəmiyyəti qalmaqda idi.

İyul ayının 19-da Litvinov yeni bir bəyanatla çıxış edib, güzəştləri yumşaltmaq istiqamətində Moskvadan teleqram gözlədiyini açıqlasa da, Qərbin həm siyasi, həm də, işgüzar dairələrinin nümayəndələri sovet rəsmisinin bəyanatını mənasız hesab edir və verilən yeni vədlərə inanmırdılar. Belə bir şəraitdə Sovet nümayəndələrinin gözləmədiyi halda Haaqa konfransı iyul ayının 20-də Belçika nümayəndəsi Katte tərəfindən təqdim edilən Rusiyaya qarşı vahid mövqedən çıxış etməyin zəruriliyini əks etdirən bir qətnamənin oxunmasından sonra qapandı. Orada deyilirdi ki, konfransda

[238] Bax: Документы внешней политика СССР. Том V, M., 1962, c.481-483

[239] Bax: Гаагская конференция июнь – июль 1922 г. Полный стенографический отчёт. Москва, 1922, с.73

[240] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.38

təmsil olunan hökumətlər sahiblərinin razılığı və iştirakı olmadan 1917-ci ilin noyabr ayının 7-dən sonra Rusiyada müsadirə edilən əmlakın keçmiş sahibləri tərəfindən satın alınmasına yardımda iştirak etməməlidirlər. Qətnamədə qeyd edilirdi ki, belə qərarları Haaqa konfransında təmsil olunan hökumətlər birgə qəbul etməlidirlər.[241] Göründüyü kimi, sənəddə əsas məqsəd Rusiya ilə ehtimal edilən separat danışıqların qarşısını almaq idi.

Beləliklə, Genuya konfransı kimi, Haaqa konfransı da nəticəsiz qaldı. Rusiya ilə işgüzar münasibətləri bərpa etmək, keçmiş borcları, xüsusilə, XX əsrin əvvəllərindən başlayaraq, Bakı neft sənayesinə qoyulmuş böyük həcmdə kapitalı geri almaq mümkün olmadı. İyulun 20-də Siyasi Büro Haaqadan aldığı ilk məlumatları Moskva Sovetinin geniş müzakirəsinə çıxardı. Haaqa konfransı ilə bağlı L.Trotskinin hazırladığı tezislər yerlərə göndərildi. Orada deyilirdi ki, Avropanın indiki hakimləri iqtisadi münasibətləri bərpa etmək haqqında deyil, zor siyasətini davam etdirmək haqqında düşündüklərini Genuya və Haaqa göstərdilər. Konfrans haqqında yekun qərarın qəbul edilməsi son məlumatların alınmasından sonraya saxlanıldı.[242]

Haaqa konfransı başa çatdıqdan az sonra, 1922-ci ilin iyul ayının axırlarında Fransa hökumətinin təşəbbüsü ilə Parisdə bir neft konfransı toplandı. Konfransın əsas məqsədi Qafqaza maraq göstərən neft şirkətlərini bir yerə toplayıb, Sovet Rusiyasına qarşı vahid mövqedən çıxış etmək idi. Orada "Standart Oil", "Royal Dutch", "İngilis-İran" kimi böyük şirkətlər, habelə, vaxtilə Çar Rusiyası ərazisində fəaliyyət göstərmiş bir çox şirkətlər təmsil olunurdular. Azərbaycan milli hökumətini Paris konfransında Xalq Cümhuriyyəti hökumətində ticarət və sənaye naziri işləmiş Ə.Əsədullayev təmsil edirdi. H.Diterdinqin sədrliyi ilə keçirilən konfransda bolşeviklərə qarşı mübarizə etməklə, onları təslim olmağa məcbur etməyin yolları müzakirə edildi. Konfransın qərarına görə, istər dövlət rəsmiləri, istər, şirkətər və istərsə də, ayrı-ayrı əmlak sahibləri neft məsələsi ilə bağlı sovetlərlə heç bir sazişə getməməli, "hər kəs hamının mənafeyini, hamı da, hər kəsin mənafeyini müdafiə etməli idi".[243] Bu isə özlüyündə sovetlərə qarşı bir blokada elan etmək demək idi. Bununla da, sovetləşmədən sonra Avropa ölkələrinin Azərbaycan nefti uğrunda başladığı gərgin mübarizənin birinci mərhələsi başa çatdı.

[241] Bax: Гаагская конференция июнь – июль 1922 г. Полный стенографический отчёт. Москва, 1922, с.200

[242] RK(b)P MK Siyasi Bürosu iclasının 18 saylı protokolu. 20.07.1922.// RDSSTA, f.17, s.3, i.304, v.1

[243] M.Mehdiyev. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s.49-50

§5. SSRİ-nin yaranması və xarici siyasət funksiyasının ittifaq dövlətinə verilməsi

Genuya və Haaqa konfranslarından sonra sovet respublikalarının birləşdirilməsi, 1921-ci ilin sonlarında başlayaraq, onların məhdudlaşdırılan xarici siyasətinin mərkəzləşdirilməsi prosesi geniş xarakter almağa başladı. 1922-ci ilin yayından etibarən, birləşmənin forma və məzmunu, onun həyata keçirilmə yolları, milli, muxtar, federasiya əsasları haqqında müxtəlif müzakirələr keçirilirdi. Bu müzakirələrin gedişində ilk olaraq, "müstəqil" sovet republikalrının istər ölkə daxilində və istərsə də, qonşu xarici ölkələrdə olan diplomatik idarələri bir-birinin ardınca ləğv edildi.

1922-ci ilin mart ayında Cənubi Qafqaz İttifaq Şurası yaradıldıqdan sonra bir müddət ştatları ixtisar edilmiş xarici işlər komissarlıqları fəaliyyət göstərsə də, lakin bu uzun sürmədi. 1922-ci ilin aprel ayının 18-də AK(b) P MK Rəyasət Heyəti Azərbaycanla müvafiq müqaviləsi olmayan ölkələrin nümayəndəliklərinin təcili olaraq, Azərbaycanı tərk etməsi barədə qərar qəbul etdi. Qərarın icrası Azərbaycan XKS-ə tapşırılırdı.[244] 1922-ci ilin iyun ayının 13-də Cənubi Qafqaz respublikalarının xarici siyasətlərini birləşdirmək haqqında Zaqafqaziya İttifaq Sovetinin dekreti verildi. Orada göstərilirdi ki, Cənubi Qafqaz respublikalarının xarici siyasətinə ümumi rəhbərlik İttifaq Şurası tərəfindən həyata keçirilir. Sənədin ikinci maddəsinə görə, Cənubi Qafqaz sovet respublikalarının xarici işlər komissarlıqları ləğv edilir, onların funksiyası İttifaq Soveti yanında təşkil edilən xarici əlaqələr şöbəsinə verilirdi. Bu şöbəyə ümumi rəhbərlik İttifaq Şurasının Rəyasət Heyətinə tapşırılır, yerlərdə onun işi Xalq Komissarları sovetləri tərəfindən tənzim edilirdi. Dekretə görə, müttəfiq respublikaların Rusiya Sovet Federasiyası və digər sovet respublikalarındakı nümayəndəlikləri ləğv edilir, zərurət duyulardısa Cənubi Qafqaz İttifaqının RSFSR-də səlahiyyətli nümayəndəliyinin təsis olunması mümkün hesab edilirdi. Digər tərəfdən xarici ölkələrin Cənubi Qafqaz respublikalarında olan diplomatik nümayəndəlikləri və respublikaların xaricdəki səlahiyyətli orqanları xarici əlaqələr şöbəsi vasitəsi ilə həyata keçirilməli idi.[245] Lakin bu proses uzun sürmədi və 1922-ci ilin yayında aparılan müzakirələrdən sonra avqust ayının 1-də Cənubi Qafqaz respublika-

[244] Azərbaycan K(b)P MK Rəyasət Heyəti iclasının 16 saylı protokolu. 18.04.1922.// ARPII SSA, f.1, s.74, i.127, v.114(arxası)

[245] Bax: Musa Qasımlı. Azərbaycan Xalaq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin bağlanması və "yeni xarici siyasət xətti" (1920-1922).// Diplomatiya aləmi, 2009, № 23, s.74

larında xarici siyasət məsələləri üzrə katibliyin yaradılması haqqında qərar verildi.[246] Bundan az sonra, avqust ayının 21-də Cənubi Qafqaz İttifaq Soveti "Xarici siyasətin birləşdirilməsi haqqında" dekret verdi. N.Nərimanovun imzaladığı dekretə görə, Cənubi Qafqaz respublikalarının xarici siyasətinə ümumi rəhbərlik İttifaq Şurasının Rəyasət Heyəti tərəfindən həyata keçirilirdi. Rəyasət Heyəti bu rəhbərliyi xarici əlaqələr şöbəsi vasitəsi ilə həyata keçirməli idi. Hər respublikanın Rəyasət Heyətindəki nümayəndəsi eyni zamanda, təmsil etdiyi respublikada xarici işlər komissarı sayılırdı. İttifaqa daxil olan hər üç respublikada Xarici İşlər üzrə Katiblik yaradılırdı və onun işinə İttifaq Sovetinin təsdiq etdiyi səlahiyyətli nümayəndə rəhbərlik edirdi.[247] İttifaq Sovetinin dekretindən sonra, 1922-ci ilin avqust ayında Azərbaycanda Xarici İşlər üzrə Katiblik təsis edildi və az əvvəl Moskvada Azərbaycanın səlahiyyətli nümayəndəsi işləmiş, 1922-ci ilin iyun ayında isə İrana səfir təyinatı almış, Nərimanova yaxınlığı ilə seçilən Əliheydər Şirvani (Mustafabəyov) Tehranda səfir kimi işə başlamadığından, katibliyin rəhbəri təyin edildi.[248] Yeni yaradılmış Katibliyin ilk işi Cənubi Qafqaz İttifaq Soveti xarici əlaqələr şöbəsinin 26 avqust tarixli sorğusuna cavab olaraq, xarici ölkələrin Azərbaycandakı nümayəndəlikləri və Azərbaycanın xaricdəki nümayəndələri haqqında məlumatları hazırlayıb, Tiflisə göndərmək oldu.[249]

1922-ci ilin payızında Azərbaycanın bir neçə qonşu ölkədə diplomatik nümayəndəliyi fəaliyyət göstərməkdə idi. Ankarada səfirlik, Qarsda konsulluq öz işini davam etdirirdi, 1921-ci ilin noyabrında Azərbaycanın İrandakı nümayəndəliyi ləğv edildikdən sonra, 1922-ci ilin iyun ayında Ə. Şirvani İrana səlahiyyətli nümayəndə təyin edilsə də, o, təyinat yerinə gedə bilmədi, Azərbaycanın Əfqanıstana səlahiyyətli nümayəndə təyin etdiyi Əli Cabbar İsmayılov isə noyabr ayının 4-də Kabula yola düşmüşdü. 1922-ci ilin payızında Bakıda Türkiyə Böyük Millət Məclisi hökumətinin diplomatik nümayəndəliyi, İran, Buxara Xalq Sovet Respublikasının səlahiyyətli nümayəndiliyi və Almaniya nümayəndəliyi fəaliyyət göstərirdi.[250] Əvvəllər Bakıda fəaliyyət göstərən Belçika, Yunanıstan, Danimarka, Polşa, Finlan-

[246] Bax: AR DA, f.28, s.1, i.96, v.97

[247] Birləşmiş xarici siyasət haqqında Cənubi Qafqaz İttifaq Soveti Rəyasət Heyətinin dekreti. 21.08.1922.// AR DA, f.28, s.1, i.40, v.41-42

[248] Bax: AR DA, f.28, s.1, i.38, v.134

[249] Bax: AR DA, f.28, s.1, i.40, v.39

[250] Xarici işlər üzrə katibliyin fəaliyyəti haqqında hesabat. 09.11.1922.// AR DA, f.28, s.1, i.96, v.98

diya, İsveç, İtaliya, Estoniya, Litva, Hollandiya və digər ölkələrin diplomatik nümayəndəlikləri Azərbaycan sovet hökumətinin qərarı ilə artıq, öz fəaliyyətlərini dayandırmışdı.[251]

Cənubi Qafqaz İttifaqı yaradıldıqdan sonra Zaqafqaziya Diyar Komitəsi hər üç Qafqaz respublikasının Ankarada diplomatik nümayəndəlik saxlamasına ehtiyac görmədi. Cənubi Qafqaz Diyar Komitəsinin Rəyasət Heyətinin 1922-ci ilin avqust ayının 5-də keçirilən iclasında Ermənistan və Gürcüstan hökumətlərinə təklif edildi ki, onların Ankarada nümayəndəlik saxlamaları məqsədəuyğun deyildir. Ona görə də İrəvan və Tiflisə tövsiyə edilirdi ki, Ankarada səlahiyyətli nümayəndə saxlamaq hüququnu, ya, Rusiya, ya da, Azərbaycan nümayəndəsinə versinlər.[252] 1922-ci ilin sentyabr ayının 25-də Cənubi Qafqaz Diyar Komitəsinin Rəyasət Heyətinin iclasında qərar qəbul edildi ki, İbrahim Əbilov Cənubi Qafqaz respublikalarını, yəni, Azərbaycanla yanaşı, Gürcüstan və Ermənistanı da Türkiyədə təmsil etsin. Qərarda Ankaradakı Azərbaycan səfirliyində Gürcüstan və Ermənistan üçün müşavir ştatının açılması məqsədəuyğun hesab edilirdi.[253]

Lakin 1922-ci ilin baharından başlayaraq, İ.Əbilovun geri çağırılması haqqında söz-söhbət yayılmışdı. Həmin ilin may ayında Türkiyə mətbuatında belə bir məlumat getmişdi ki, guya, İ.Əbilov Rusiya əleyhinə gizli Türkiyə-Azərbaycan müqaviləsi bağlamağa cəhd göstərdiyi üçün Sovet hökumətinin əmri ilə geri çağırılacaqdır. "Cağadamard" adlı bir erməni qəzetindən alınmış bu məlumatda, hətta, bu istiqamətdə Əbilovun fəaliyyəti haqqında sovet orqanlarının əlinə gizli sənədlər keçdiyi bildirilirdi.[254] İ.Əbilov iyun ayının 12-də "Varlık" qəzeti vasitəsi ilə təkzib verib, bildirdi ki, nə onun geri çağırılması haqqında məsələ gündəlikdə dayanır, nə də Rusiya əleyhinə hansısa bir Türkiyə-Azərbaycan müqaviləsindən söhbət gedə bilər. Əbilov təxribat xarakteri daşıyan bu söz-söhbətin Rusiya,

[251] Xarici ölkələrin Azərbaycan SSR-də diplomatik idarələrinin bağlanması və Azərbaycan SSR-in Xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin ləğv edilməsi haqqında əlavə məlumat üçün bax: Musa Qasımlı. Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin bağlanması və "yeni xarici siyasət xətti" (1920-1922).// Diplomatiya aləmi, 2009, № 23, s.66-74

[252] RK(b)P Cənubi Qafqaz Diyar Komitəsi Rəyasət Hetətinin iclasının 25 saylı protokolu. 05.08.1922.// RDSSTA, f.85, s.24, i.281, v.17

[253] RK(b)P Cənubi Qafqaz Diyar Komitəsi Rəyasət Hetətinin iclasının 34 saylı protokolu. 25.09.1922// RDSSTA, f.85, s.24, i.281, v.21(arxası)

[254] İ.Əbilov haqqında "Peyamı Sabah" qəzetində dərc olunmuş məlumat. 24.05.1922.// ARPİİ SSA, f.276, s.5, i.1, v.6

Türkiyə və Azərbaycanın əleyhdarları tərəfindən ortaya atıldığını bildirirdi.[255] Bu söz-söhbətə son qoymaq üçün bir gün sonra isə "Varlık" qəzetində N.Nərimanovun Türkiyə Böyük Millət Məclisinə göndərdiyi məktubu dərc edildi. Orada qeyd edilirdi ki, İ.Əbilovun maarif komissarı təyin edilməsi ilə bağlı müzakirələr getdiyindən, onun geri çağrılması istənilmişdi. Lakin onun yerinə nümayəndə təyin edilmədiyindən, Əbilov Ankarada qalıb öz işini davam etdirəcəkdir.[256] Doğrudan da bu məsələ 1922-ci ilin iyun ayının 19-da AK(b)P MK Rəyasət Heyətinin müzakirəsinə çıxarılmışdı və İ.Əbilovun Ankarada qalması barədə qərar qəbul edilmişdi. Həmin iclasda maarif komissarı vəzifəsinə isə Mustafa Quliyev təyin edilmişdi.[257]

Bu söz-söhbətin geniş yayılmasının bir səbəbi də, sovet respublikalarının, ilk növbədə isə Cənubi Qafqaz sovet respublikalarının qonşu[258] xarici ölkələrdəki nümayəndəliklərinin hüquqlarının Moskva tərəfindən məhdudlaşdırılmasından Əbilovun narazılığı ilə bağlı idi. Hələ, 1922-ci ilin fevral ayının 3-də o, Azərbaycan XKS-in sədri N.Nərimanova yazırdı ki, bu günlərdə Ankaradakı Rusiya missiyası Çiçerindən məktub almışdır və həmin məktubda Çiçerin Cənubi Qafqaz respublikalarının müstəqil siyasət yeritmək cəhdlərinindən narazılığını ifadə edir. Çiçerinin məktubuna görə, məhz, bu məqsədlə Mərkəzi Komitə sovet respublikalarının xaricdəki səlahiyyətli nümayəndələrinin RSFSR səlahiyyətli nümayəndəsinə tabe edilməsi haqqında qərar qəbul etdmişdi. İ.Əbilov N.Nərimanova yazırdı: "Bu tədbiri tamamilə artıq hesab edirəm, onsuz da, biz sovet respublikalarının nümayəndələri hər yerdə razılaşdırılmış siyasət aparırıq və belə tədbirlər bizim düşmənlərimizin əlinə bizə qarşı mübarizəni gücləndirmək imkanı verir. İndiyə qədər mən sizdən bununla bağlı heç bir məlumat almamışam. Bilmirəm, siz bu qərarın surətini almısınız, ya yox, əgər almısınızsa, bununla bağlı Mərkəzi Komitə və yoldaş Çiçerinlə söhbət etmisinizmi? Xahiş edirəm məsələni bütün detalları ilə aydınlaşdırın...Bu qeyri-normal bir hadisədir və praktiki baxımdan onu həyata keçirmək mümkün deyil".[259]

Lakin İ.Əbilovla bağlı gərginlik bununla ötüşmədi. 1922-ci ilin sentyabr ayının 10-da o, məzuniyyətə çıxıb, müvəqqəti olaraq, Qafqaza gəldikdən son-

[255] Bax: Betül Aslan. Türkiye-Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004, s.266

[256] Yenə orada, s.267

[257] Azərbaycan K(b)P MK Rəyasət Heyəti iclasının 26 saylı protokolu. 19.06.1922.// ARPİİ SSA, f.1, s.74, i.128, v.12(arxası)

[258] İ.Əbilovun N.Nərimanova məktubu. 03.02.1922.// ARPİİ SSA, f.609, s.1, i.94, v.169-170

[259] Yenə orada, v.170-171

ra Azərbaycanın Ankaradakı səfirliyinin hərbi attaşesi Əsgər Əsgərov Almaniyaya qaçdı. Bu hadisə onun əleyhdarlarına Əbilova qarşı daha geniş kampaniya başlamağa əsas verdi. Oktyabr ayının 4-də RSFSR Daxili İşlər Komissarlığının Dövlət Siyasi İdarəsinin apardığı araşdırmalar nəticəsində hazırlanan arayışda bildirilirdi ki, "Ə.Əsgərov Azərbaycan Xalq Cümhuriyyəti ordusunun keçmiş zabiti olub. Hətta, Siyasi İdarənin məlumatında qeyd edilirdi ki, o, Türkiyə əks-kəşfiyyatı ilə əlaqədə olub və Anadoluda fəaliyyət göstərən sovet təhlükəsizlik orqanları əməkdaşlarının elə keçməsində gizli rol oynayıb".[260] Ə.Əsgərovla yanaşı, Dövlət Siyasi İdarəsinin Şərq şöbəsinin müvəkkili Vasyukov İ.Əbilov haqqında daha sərt xarakteristika hazırlamışdı. Orada göstərilirdi ki, "keçmiş menşevik və 1920-ci ilə qədər kommunist hərəkatına qarşı fəaliyyət göstərən, indi isə kommunist və sovet işçisindən daha çox müsəlman və ağqvardiyaçı olan İ.Əbilov keçmiş hərbi attaşeni himayə edib. Vasyukov yazırdı ki, Əbilov öz çıxışlarının birində belə bir ifadə işlədib: "Rədd olsun Ümumittifaq Fövqəladə İdarəsi, rədd olsun çekistlər. Mən müsəlmanam və öz Azərbaycanımı sevirəm. Mən RSFSR və kommunistlərə qarşı mübarizə aparacağam." Əbilovun rus missiyasına qarşı intriqaları o həddə çatmışdır ki, rus səfirliyinin əməkdaşı ilə tanışlığına görə, o, öz əməkdaşını 4 sutka həbs etmişdir. Müsəlmanlığı hər şeydən üstün milli vəzifə hesab edən Əbilov, hətta, RSFSR-in maraqlarına ziyan vuraraq, daima Kamal paşanın əlinə oynayır. Onun bundan sonra bu vəzifədə qalması bizim Türkiyədəki işlərimizə çox mənfi təsir göstərəcəkdir. Xüsusilə, Əbilov tərəfindən yerli kommunistlərə əhəmiyyət verilməməsi, onların Azərbaycan nümayəndəliyinə xoş olmayan münasibətini doğurmuşdur".[261] Vasyukovun İ.Əbilov və Ə.Əsgərov haqqında topladığı məlumatlar əsasında Dövlət Siyasi İdarəsinin sədr müavini H.Yaqoda və idarənin Şərq şöbəsinin müdiri Y.Peters oktyabr ayının 5-də xarici işlər komissarının müavini L.Karaxana tam məxfi məlumat göndərdilər. Dövlət Siyasi İdarəsinin rəhbərliyi Xarici İşlər Komissarlığına təklif edirdi ki, onların aşkarladığı məlumatlardan sonra "hazırda Qafqazda məzuniyyətdə olan İ.Əbilovu RSFSR hüdudlarından kənara buraxmaq yolverilməzdir".[262] Bu məktuba istinadən L.Karaxan oktyabr ayının 7-də İ.Stalinə yazırdı ki, Dövlət Siyasi İdarəsinin hazırladığı xarakteristikaya əsasən, "Xarici İşlər Komissarlığı belə hesab edir ki,

[260] Ə.Əsgərovun xarakteristikası. 04.10.1922.// RDSSTA, f.558, s.11, i.746, v.6

[261] İ.Əbilovun xarakteristikası. 04.10.1922.// RDSSTA, f.558, s.11, i.746, v.6

[262] H.Yaqoda və Y.Petersin L.Karaxana tam məxfi məktubu. 05.10.1922.// RDSSTA, f.558, s.11, i.746, v.6

yoldaş Əbilovun bundan sonra Azərbaycan SSR-in Türkiyədə səlahiyyətli nümayəndəsi vəzifəsində qalması qeyri-mümkündür".[263] Lakin Stalin Siyasi İdarənin rəyinə və Xarici İşlər Komissarlığının təklifinə əsasən, İ.Əbilovun Türkiyədən geri çağrılmasına razılıq vermədi. O, Karaxan və Petersin məktublarının üzərinə dərkənar yazdı ki, "Ə.Əsgərovun qaçmasına baxmayaraq, Azərbyacan K(b)P MK-nın xüsusi araşdırması olmadan Dövlət Siyasi İdarəsinin rəyi obyektiv ola bilməz və əsas kimi, qəbul edilə bilməz".[264] Stalinin dərkənarından sonra İ.Əbilov haqqında materiallar araşdırılmaq üçün Cənubi Qafqaz Diyar Komitəsinə, oradan da Nazaretyanın məktubu ilə Bakıya, S.Kirova göndərildi.[265] Azərbaycanda aparılan gizli araşdırmalar Moskvada Əbilov haqqında yazılan ittihamları təsdiq etmədi. Bu araşdırmalardan sonra Azərbaycan və Cənubi Qafqaz İttifaqının rəhbərliyi Əbilovu Ankarada saxlamağı məqsədəuyğun hesab etdi. Əslində, Siyasi İdarənin araşdırmalarında yer alan ittihamların bir hissəsi vaxtilə Əbilovun Nərimanova yazdığı məktublardan qaynaqlanırdı. O, bu məktublarda Mustafa Kamal paşaya rəğbətini gizlətmir və əks-inqilabi mərkəzlərə qarşı mübarizə məqsədilə bir sıra mühacir nümayəndələri ilə gizli əlaqələr saxladığını etiraf edirdi.[266]

Maraqlıdır ki, eyni ilə həmin vaxtda, 1922-ci ilin oktyabr ayında Cənubi Qafqaz Fövqəladə Komissiyasının sədr müavini Pankratov Azərbaycanın Qarsdakı konsulu İ.Hacıbəyli haqqında "ifşaedici" məlumat toplamışdı. O, Nərimanova yazırdı ki, "agentura məlumatları əsasında təsdiq edilmişdir ki, Azərbaycan SSR-in Qarsdakı konsulu İ.Hacıbəyli ağların hakimiyyəti dövründə Kubanda onlara xidmət edib, lakin Kuban sovetləşdirildikdən sonra o, Batuma qaçmış, oradan da Bakıya gəlmiş və partiyaya daxil olmuşdur. Pankratov qeyd edirdi ki, İslam Hacıbəylinin qardaşı Arif Hacıbəyli İrəvandakı Türkiyə konsulluğunun katibi vəzifəsində işləyir. Onlar bir-birləri ilə əlaqə saxlayır və bundan əlavə İ.Hacıbəyli Türkiyədəki Azərbaycan ağ mühacirəti ilə təmasdadır, hətta, onların məktublarını Azərbaycandakı dostlarına göndərir".[267] Bu məktubda N.Nərimanovun dərkənarı ilə araşdırılmaq

[263] L.Karaxanın İ.Stalinə məktubu. 07.10.1922.// RDSSTA, f.558, s.11, i.746, v.5

[264] Karaxan və Petersin məktubları üzərində Stalinin dərkənarı. 11.10.1922.// RDSSTA, f.558, s.11, i.746, v.4

[265] A.Nazaretyanın S.Kirova məktubu. 12.10.1922.// RDSSTA, f.558, s.11, i.746, v.3

[266] Bax: İ.Əbilovun N.Nərimanova məktubu. 03.02.1922.// ARPİİ SSA, f.609, s.1, i.94, v.164-172; İ.Əbilovun N.Nərimanova məktubu. 01.03.1922.// ARPİİ SSA, f.609, s.1, i.94, v.173-179

[267] Pankratovun Nərimanova məktubu. 28.10.1922.// ARPİİ SSA, f.1, s.85, i.214, v.349

üçün Azərbaycan K(b)P MK katibi S.Kirova göndərilmişdi. Lakin az sonra, 1922-ci ilin noyabr ayında Azərbaycan SSR-in Qarsdakı konsulluq bağlandı və bu məsələ öz əhəmiyyətini itirdi.

Yalnız, Stalinin dərkənarı və Azərbaycanda aparılan yoxlamalardan sonra, Cənubi Qafqaz respublikalarında artıq, mövcud olmayan Xarici İşlər Komissarlıqları adından İ.Əbilova etimadnamə verildi ki, onları Türkiyə Böyük Millət Məclisi hökumətində təmsil etsin. Azərbaycan Xalq Komissarları Soveti və Xarici İşlər Komissarlığı adından İ.Əbilova verilmiş etimadnamədə göstərilirdi ki, o, Sovet Azərbaycanını siyasi, iqtisadi və ticarət əlaqələri baxımından Türkiyədə təmsil edəcəkdir.[268] Ş.Eliavanın imzaladığı 10 noyabr tarixli etimadnamədə xahiş edilirdi ki, Türkiyə BMM hökuməti Gürcüstan Sovet respublikası adından yoldaş İ.Əbilovun verdiyi bütün bəyanatlara inansın və ona zəruri olan köməkliyi göstərsin.[269] Ermənistan Xarici İşlər Komissarlığı adından noyabr ayının 10-da A.Myasnikovun imzaladığı etimadnamə ilə İ.Əbilova Ermənistan Sovet Respublikasını Türkiyədə təmsil etmək hüququ verilirdi.[270] Bu etimadnamələr Cənubi Qafqaz respublikalarının xaricdəki səlahiyyətli nümayəndəyə verdiyi sonuncu etimadnamə oldu. Həmin sənədlər verilən gün, 1922-ci ilin noyabr ayının 10-da Cənubi Qafqaz Diyar Komitəsinin Rəyasət Heyətinin iclası "Zaqafqaziya respubliklarının xaricdəki diplomatik nümayəndəlikləri haqqında" qərar qəbul etdi. Həmin qərara görə, Ankara istisna olmaqla, Cənubi Qafqaz respublikalarının Qars, Tehran, Təbriz və Buxaradakı nümyəndəlikləri ləğv edilir, onların səlahiyyətləri Sovet Rusiyasının bu şəhərlərdəki diplomatik nümayəndəliklərinə verilirdi.[271] Cənubi Qafqaz respublikalarının xaricdəki sonuncu nümayəndəliyi 1923-cü ilin fevral ayının 23-də İbrahim Əbilovun vəfatına qədər davam etdi.[272] 1923-cü ilin fevralında İzmirdə keçirilən Türkiyə İqtisadi konfransında İ.Əbilovun gözlənilməz və müəmmalı vəfatından sonra Zaqafqaziya Federativ Sovet Sosialist Respublikaları adından Ankaraya yeni səfir təyin edilmədi və Türkiyədəki səlahiyyətli nümayəndəlik də ləğv edildi.

[268] Azərbaycan XKS və XXİK tərəfindən İ.Əbilova verilmiş etimadnamə. 1922.// ARPİİ SSA, f.276, s.5, i.1, v.94

[269] Gürcüstan XXİK tərəfindən İ.Əbilova verilmiş etimadnamə. 10.11.1922.// ARPİİ SSA, f.276, s.5, i.1, v.92

[270] Ermənisat XXİK tərəfindən İ.Əbilova verilmiş etimadnamə. 10.11.1922.// ARPİİ SSA, f.276, s.5, i.1, v.93

[271] RK(b)P Cənubi Qafqaz Diyar Komitəsi Rəyasət Hetətinin iclasının 42 saylı protokolu. 10.11.1922// RDSSTA, f.85, s.24, i.281, v.27

[272] S.Aralov. İbrahim Əbilov. 1967. // ARPİİ SSA, f.276, s.5, i.1, v.130

Azərbaycanın və digər Cənubi Qafqaz respublikalarının xaricdəki nümayəndəliklərinin ləğv edilməsi 1922-ci ilin yayından etibarən, SSRİ-nin yaradılmasına ciddi hazırlıq işlərinin başlanması ilə bağlı idi. Bu məqsədlə artıq 1922-ci ilin avqust ayının 10-da RK(b)P MK Siyasi Bürosunun qərarı ilə RSFSR, USSR, BSSR və Zaqafqaziya İttifaqının gələcək münasibətlərini müzakirəyə çıxarmaq üçün müvafiq komissiya yaradılmışdı. Həmin hazırlıq işlərinin gedişində Cənubi Qafqaz İttifaqının Cənubi Qafqaz Sovet Federativ Sosialist Respublikasına çevrilməsi ideyası meydana çıxdı. Stalin komissiyasının hazırladığı layihəyə görə, Cənubi Qafqaz federasiyası Ukrayna və Belorusiya sovet respublikaları muxtar qurumlar kimi, Rusiya Federasiyasının tərkibinə daxil olmalı idilər. Azərbaycan K(b)P MK-nın Rəyasət Heyəti 1922-ci ilin sentyabr ayının 11-də keçirilən iclasında Azərbaycan Sovet Sosialist Respublikasının "geniş muxtariyyat əsasında Ümumrusiya Federasiyasına dərhal daxil olmasını zəruri hesab etdi".[273] Elə həmin gün keçirilən AK(b)P MK plenumu Rəyasət Heyətinin tövsiyə etdiyi muxtariyyətləşmə ideyasını bəyəndi.

1922-ci ilin sentyabr ayında keçirilən müxtəlif müzakirələrdə Gürcüstan nümayəndələri istisna olmaqla, digər sovet respublikalarının nümayəndələri Stalinin muxtariyyətləşmə ideyasını bəyəndi. Sovet respublikalarının muxtar əsaslarla RSFSR-ə birləşdirilməsini Eliava istisna olmaqla, Gürcüstan rəhbərliyi vaxtı çatmamış məsələ hesab edirdilər.[274] Lakin sentyabr ayının 26-da Lenin RKP MK Siyasi Bürosunun üzvlərinə müraciət edərək, Stalinin muxtariyyətləşmə ideyasını kəskin tənqid etdi. O yazırdı: "Biz özümüzü Ukrayna SSR və başqaları ilə bərabərhüquqlu hesab edirik və onlarla birlikdə, onlarla bərabər yeni ittifaqa, yeni federasiyaya daxil oluruq".[275] V.Leninin təkilifi üzrə 1922-ci ilin oktyabr ayının 6-da keçirilən RKP MK plenumu öz qətnaməsində qeyd etdi ki, Ukrayna, Belorusiya, Zaqafqaziya respublikaları federasiyası və RSFSR-in "Sovet Sosialist Respublikaları İttifaqı" formasında birləşməsi zəruri hesab edilsin, bu respublikalar arasında imzalanacaq müqavilədə onların hər birinin İttifaqın tərkibindən sərbəst surətdə çıxmaq hüququ təsbit edilsin.[276] Plenumda, eyni zamanda, P.Mdivaninin Cənubi

[273] Azərbaycan KP MK Rəyasət Heyətinin iclasının protokolu. 11.09.1922.// ARPİİ SSA, f.1, s.74, i.128, v.175

[274] Gürcüstan KP MK-ın iclasının protokolu. 15.09.1922.// RDSSTA, f.64, s.1, i.1, v.256

[275] V.İ.Lenin. ƏTK, 45-ci cild, s.236

[276] İ.Stalinin RKP-nin Cənubi Qafqaz Diyar Komitəsinə teleqramı. 08.10.1922.// RDSSTA, f.64, s.1, i.1, v.258-259

Qafqaz federasiyasının ləğv edilməsi və həmin federasiyaya daxil olan respublikların ayrı-ayrılıqda SSRİ-yə daxil olması təklifi kəskin şəkildə tənqid edildi. Oktyabr ayının 10-da AK(b)P MK Rəyasət Heyəti, oktyabrın 18-də isə Cənubi Qafqaz Diyar Komitəsinin plenumu RKP MK plenumunun qərarını bəyəndi və Cənubi Qafqaz Sovetlər qurultayının çağrılmasına qərar verdi. 1922-ci ilin dekabr ayının 10-da Bakıda N.Nərimanovun sədrliyi ilə işə başlayan Cənubi Qafqaz Sovetlərinin birinci qurultayı Cənubi Qafqaz Sovet Federativ Sosialist Respublikasını yaradıldığını elan etdi və onun konstitusiyası qəbul edildi. İttifaq Sovetinin fəaliyyəti haqqında N.Nərimanov, SSRİ-nin yaradılması haqqında Q.Orconikidze qurultayda məruzə etdilər. Qurultay Zaqafqaziya federasiyasına daxil olan respublikaların siyasi, hərbi və təsərrüfat birliyinin əsaslarının möhkəmləndirilməsinə yönəldilən həm xarici, həm də daxili siyasətini bəyəndi.[277] Qurultay 150 üzv və namizəddən ibarət olan Zaqafqaziya MİK-ni, onun 13 nəfərdən ibarət olan Rəyasət Heyətini, 11 komissardan ibarət olan Zaqafqaziya XKS-ni seçdi. M. Oraxelaşvili ZSFSR XKS-in sədri, M.D.Hüseynov və A.Myasnikov onun müavinləri təyin edildilər.

ZSFSR yaradıldıqdan az sonra SSRİ-nin yaradılması prosesi başa çatdırıldı. 1922-ci ilin dekabr ayının 23-27-də RSFSR, ZSFSR, Ukrayna SSR və Belorusiya SSR nümayəndələrinin iştirakı ilə keçirilən X Ümumrusiya Sovetlər qurultayı SSR İttifaqının yaradılmasına qərar verdi. Dekabr ayının 30-da sovet respublikalarının nümayəndələri SSRİ-in yaradılması haqqında Bəyannamə və Müqaviləni imzaladılar və elə həmin axşam işə başlayan Birinci Ümumittfaq Sovetlər qurultayı Stalinin məruzəsi üzrə SSRİ-nin yaradılmasını təsdiq etdi. Yeni yaradılan ittifaq dövlətinin ali icra orqanı kimi, SSRİ Mərkəzi İcraiyyə Komitəsi təsis edildi və ittifaqa daxil olan respublikaların sayına uyğun olaraq, M.Kalinin, Q.Petrovski, N.Nərimanov və A.Çerviyakov SSRİ MİK-in sədri seçildilər. Beləliklə, N.Nərimanov yeni yaradılan Sovetlər Birliyinin hakimiyyət "olimpinə" yüksəldi. Lakin az sonra həmin hakimiyyət olimpindən, o, Siyasi Büroya müraciət edirdi ki, Moskvanın iqlimi onun və ailəsinin sağlamlığı üçün əlverişli olmadığına görə, ona Bakıya qayıtmağa icazə verilsin. Hətta, Nərimanov Bakıya qayıtmaq üçün Sovet dövlətinin rəhbərliyində tutduğu yüksək vəzifədən getməyə belə, hazır olduğunu bildirirdi. O yazırdı: "hələ, ötən il Moskvada keçirdiyi ağır ürək tutmasından sonra həkimlər Moskvanın iqliminin mənim, xüsusilə, tənəffüs yollarının iltihabından tez-tez xəstələnən

[277] Bax: Первый Закавказский съезд Советов. Тифлис, 1923, с.129

uşağımın səhhəti üçün əlverişli olmadığı fikrini söyləmişdilər".[278] Lakin hadisələrin gedişi tezliklə aydınlaşdırdı ki, Nərimanovun Bakıya dönmək arzusu Moskvanın təbii iqlimindən daha çox, siyasi iqlimi ilə bağlı idi. Onun Bakıya dönüşünü müdafiə etmək üçün Nərimanov Stalinə yazırdı: "Çox hörmətli yoldaş Stalin! Sizdən çox rica edirəm, mənim Siyasi Büro qarşısında ərizəmi müdafiə edəsiniz, belə ki, övladımın səhhəti məni belə bir addım atmağa məcbur edir. Fikirləşirəm ki, mənim 30 illik ədəbi-ictimayi fəaliyyətim və partiyanın göstərişi ilə 8 il ərzində tutduğum məsul vəzifələr mənə bizim partiyanın Siyasi Bürosuna belə bir xahişlə müraciət etməyə hüquq verir. Tibbi arayış təqdim etməklə, xahiş edirəm, Siyasi Büro mənim Bakıda yaşamağıma icazə versin. Əgər mənim SSRİ MİK-in sədri kimi, tutduğum vəzifə buna mane olursa, xahiş edirəm məni tutduğum vəzifədən azad edəsiniz".[279] Bu ağrılı məktub balaca Nəcəfin xəstəliyindən daha çox, doktor Nərimanovun şəxsi faciəsinin yekunu idi. 1923-cü ilin iyununda onun Stalinə və Mərkəzi Komitəyə ünvanladığı "Ucqarlarda inqilabımızın tarixinə dair" tarixi məktubu bu faciənin acı hekayəsi idi. Məktub Nərimanov tərəfindən Mərkəzi Komitəyə təqdim edilməklə yanaşı, eyni zamanda, axtarış zamanı həmin dövrdə həbs edilmiş Sultan-Qaliyevin evindən çıxmışdı.[280] Əvvəlcə bunu əsas tutub, Mirsaid Sultan-Qaliyevlə birlikdə Nərimanovu da həbs etmək istəyirdilər. Lakin Stalin buna razılıq vermədi. Məktubun araşdırılmasına böyük zərurət də məhz, buradan yaranmışdı. Bu məktubu araşdırmaq üçün E.Yaroslavski başda olmaqla, yaradılmış RK(b)

[278] N.Nərimanovun RKP MK Siyasi Bürosuna məktubu. 1923.// ARPİİ SSA, f.609, s.1, i.71, v.20-21

[279] N.Nərimanovun İ.Stalinə məktubu. 1923 // ARPİİ SSA, f.609, s.1, i.71, v.18-19

[280] AKP MK və BK-nin AKP MK Nəzarət Komitəsinin və BK Nəzarət Komitəsinin RKP MK komissyası ilə birgə iclasının 2 saylı protokolu. 10.07.1923.// RDSSTA, f.588, s.2, i.179, v.35; Mirsaid Haydarqalieviç Sultan-Qaliyev (1892-1940) hələ, 1917-ci ildə Petroqradda yaradılmış Ümumrusiya Müsəlman Milli Şurasının İcraiyyə Komitəsinin katibi olmuş, 1918-1920-ci illərdə RSFSR Hərbi və Dənizçilik Komissarlığı nəzdində Mərkəzi Müsəlman Hərbi Kollegiyasının *sədri vəzifəsində işləmişdi. Eyni zamanda, M.Sultan-Qaliyev 1919-1921-ci illərdə* RKP MK yanında Şərq xalqları kommunist təşkilatlarının Mərkəzi Bürosuna rəhbərlik etmiş. 1920-1923-cü illərdə RSFSR Millətlər Komissarlığında müsəlman bölməsinə başçılıq etmiş və komissarlığın kollegiyasının üzvü olmuşdu. 1923-cü ildə M.Sulaan-Qaliyev millətçilik ittihamı ilə ÜİK(b)P-nın üzvlüyündən azad edilmiş, 1928 və 1934-cü illərdə repressiyalara məruz qalmış, 1940-cı ildə "xalq düşməni" kimi güllələnmişdi. "M.X.Sultan-Qalievin işi" barədə ətraflı məlumat üçün bax: Тетради по истории рабочего и революционного движение. Москва, 2006, с.142-212; Б.Ф.Султанбеков и Д.П.Шарафутдинов. Неизвестный Султан-Галиев. Рассекреченные документы и материалы. Казан, 2002

P Partiya Nəzarəti Komitəsinin sənədləri Nəriman Nərimanovun sovet elitasında və şəxsi həyatda artıq, tək qaldığını göstərdi.[281] Bu qalmaqalla bağlı əleyhdarları ilə yanaşı kiçik istisnalarla keçmiş tərəfdarları da Nərimanovun əleyhinə ifadə vermişdilər. Hətta, Nərimanovun məktubunu araşdıran komissiyanın iclasında Azərbaycanın "gənc bolşevikləri" onu müsavatçılıqda ittiham edirdilər. N.Nərimanov R.Axundovun eser keçmişini yada salanda o, dedi ki, "kommunist və keçmiş eser olmaq daha yaxşıdır, nəinki, Nərimanov kimi hazırki müsavatçı olmaq".[282] R.Axundov xəbərdarlıq etdi ki, Azərbaycanda nərimanovçuluq bəlasının kökü bir dəfəlik kəsilməsə, bizi, "sultan-qaliyevçilik" təhlükəsi təhdid edir.[283] M.D.Hüseynov isə komissiyanın iclasında qeyd edirdi ki, "bizim əks-inqilabçıları başına toplayıb, əleyhimizə kitab çap etdirən Rəsulzadənin bizim əleyhimizə quduz kampaniya apardığı bir vaxtda, Nərimanov da bizə qarşı öz quduz kampaniyasını genişləndirir. Mən, əlbəttə, fikirləşmirəm ki, Nərimanovun Rəsulzadə ilə əlaqəsi var. Lakin o, Rəsulzadənin dəlillərini sözbəsöz təkrar edir".[284] Onun əleyhinə Bakıda və Moskvada toplanmış materiallar partiya araşdırmasından daha çox, istintaq materalına bənzəyirdi. Fəhlə kollektivlərində komissiyanın onun əleyhinə təşkil etdiyi iclaslarda müsəlman kommunistlərindən bəziləri onun əleyhinə çıxış edərək, deyirdilər: "Nərimanov bizə dedi ki, nə düşmüsünüz *ermənilərin ardına, 1918-ci il yadımızdan çıxıb*". Bütün bu ittihamlara baxmayaraq, Nərimanov komissiyanın 13 iyun tarixli protokolu ilə tanış olduqdan sonra iclasın katibi Yakobsona yazdı ki, aşağıdakı fikri protokola əlavə etsin. O yazırdı: "Mikoyan, Sarkis və Mirzoyanın siyasətini mən Azərbaycan üçün ziyanlı hesab etmişəm və ziyanlı hesab edirəm. Belə ki, onlar Azərbaycanı simasızlaşdırmağa cəhd göstərirlər".[285] Sovet dövlətinin rəhbərlərindən biri olan N.Nərimanovun Moskvanı tərk edib, özünün və *oğlunun xəstəliyi* adı altında Bakıya qayıtmaq arzusu məhz, onun üçün yaradılmış belə dözülməz siyasi şəraitlə bağlı idi. Onun vaxtsız ölümünü şərtləndirən amillər Nərimanova qarşı təşkil olunmuş iclasların protokollarından aydın şəkildə görünür.

[281] N.Nərimanovun məktubu ilə bağlı yaradılmış E.Yaroslavski komissiyasının materialları ilə ətraflı tanış olmaq üçün bax: RDSSTA, f.588, s.2, i.179, v.1-101; i.178, v.1a-153

[282] N.Nərimanovun məktubunu araşdıran komissiyanın iclasının protokolu. 13.06.1923. // RDSSTA, f.588, s.2, i.176, v.76

[283] Yenə orada, v.77

[284] Yenə orada, v. 81

[285] N.Nərimanovun Yakobsona məktubu. 16.06.1923. // RDSSTA, f.588, s.2, i.176, v.129

SSRİ-nin yaranması ilə Sovet Azərbaycanının və tərkibində olduğu Cənubi Qafqaz federasiyasının xarici siyasət fəaliyyəti də başa çatdı. 1922-ci ilin dekabr ayının 30-da imzalanmış müqaviləyə görə, SSR İttifaqına daxil olan sovet respublikaları öz xarici siyasət funksiyalarını Mərkəzi dövlətə həvalə etdilər. Azərbaycan XKS-in 1923-cü ilin oktyabr ayının 8-də verdiyi əmrlə Türkiyə və İranın diplomatik idarələri istisna olmaqla, Bakıda fəaliyyət göstərən bütün diplomatik nümayəndəliklər ləğv edildi. Bundan sonra Azərbaycan SSR-in xariclə əlaqəsi mərkəzi və respublika təhlükəsizlik orqanları vasitəsi ilə Türkiyədə və Avropada fəaliyyət göstərən azərbaycanlı siyasi mühacirləri, onların yaratdığı müxtəlif təşkilatları, nəşr etdikləri mətbuat orqanlarını təqib etməkdən ibarət oldu.

IX FƏSİL

AZƏRBAYCAN MÜHACİRƏTİNİN SİYASİ-DİPLOMATİK FƏALİYYƏTİ (1920-1939-CU İLLƏR)

§1.Aprel işğalından sonra Azərbaycan mühacirətinin respublikanın istiqlaliyyətini bərpa etmək uğrunda diplomatik mübarizəsi

1920-ci ilin aprel ayının ortalarında Tiflisdə keçirilən Cənubi Qafqaz respublikalarının konfransında Azərbaycan nümayəndə heyətinə başçılıq edən respublika parlamenti sədrinin birinci müavini H.Ağayev Bakının işğalı xəbərini Gürcüstanda eşitdi. Bu xəbəri alan kimi, o, Azərbaycan Xalq Cümhuriyyətinin silah gücünə devrilməsi haqqında məlumatı dünya ictimaiyyətinə çatdırmaq üçün etiraz bəyanatı ilə çıxış etdi. Azərbaycan dövlətinin başçılarından biri kimi, H.Ağayevin imzaladığı müraciətdə deyilirdi: "Aprel ayının 27-də gecə ikən rus Qızıl Ordu hissələri o vaxt Azərbaycan Ordusunun demək olar ki, hamısının cənubda, erməni silahlı qüvvələrinin hücum təhlükəsinə məruz qalmış Qarabağda olmasından istifadə edərək, heç bir səbəb olmadan, xəbərsiz surətdə Dağıstan tərəfdən Azərbaycan respublikasına soxulmuşdur. Azərbaycan hərbi hissələri sərhəddə bu təcavüzə silahlı müqavimət göstərmişdi, hər iki tərəfdən həlak olanlar və yaralanalar var".

Bəyanatda dünya ictimaiyyətinə bildirilirdi ki, "öz istiqlaliyyəti naminə böyük qurbanlar verən, qazandığı azadlığı iki il ərzində bütün qüvvəsi ilə qoruyan və əziz bilən Azərbaycan xalqı ona zorakı yolla qəbul etdirilən yeni qayda-qanun ilə barışa bilməz". Müraciətdə bolşeviklərin Azərbaycanda törətdiyi vəhşiliklər, heç nə ilə məhdudlaşmayan talanlar və soyğunçuluq halları göstərilir və rus ordusunun tezliklə ölkənin hüdudlarından çıxarılması tələb olunur, bu məqsədlə dünya dövlətlərinin Sovet hökumətinə təzyiq

göstərilməsi xahiş edilirdi.[1] Dünya dövlətlərinə ünvanlanmış bu müraciətdən təxminən bir ay sonra, iyun ayının 19-da dəfələrlə Azərbaycan hökumət kabinetlərinə rəhbərlik etmiş, sonuncu hökumət kabinəsində xarici işlər naziri vəzifəsini tutmuş Fətəli xan Xoyski, bundan az sonra isə Həsən bəy Ağayev Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetrildilər. Bu hadisə ilə bağlı Tiflisdəki Britaniya nümayəndəsi kapitan H.Lyuka iyun ayının 20-də Forin Ofisə göndərdiyi təcili teleqramda yazırdı ki, "ötən axşam sonuncu Azərbaycan hökumətində xarici işlər naziri vəzifəsini tutmuş Xan Xoyski öldürülmüşdür". Sənədin arxivdəki nüsxəsi üzərində Britaniya Xarici İşlər Nazirliyi rəsmiləri kimi, R.Makdonel və D.Osbornun maraqlı qeydləri vardır. R.Makdonel teleqramın üzərində yazır: "Müttəfiqlərin dostu və yaxşı bir insan həyatdan getdi". D.Osborn isə qeyd edir ki, "heç şübhəsiz ki, bunu *(qətli – C.H.)* ermənilərdən kimsə Rusiya üçün edib".[2] Fətəli xanın Qarabağda yeritdiyi sərt siyasətə görə, Tiflisdə daşnak partiyasının üzvü olan erməni terrorçusu tərəfindən öldürüldüyü barədə Parisdə olan Azərbaycan sülh heyətinə də bəzi məlumatlar daxil olmuşdu.[3] Doktor Həsən bəy Ağayevin qətlə yetirilməsi haqqında eyni ilə belə bir məlumatı Admiral de Robek iyul ayının 28-də İstanbuldan Forin Ofisə çatdırmışdı.[4]

Eyni mövqei Azərbaycanın Avropada fəaliyyət göstərən nümayəndə heyəti də nümayiş etdirirdi. Aprel ayının sonunda İtaliyanın San-Remo şəhərində keçirilmiş beynəlxalq konfransdan Parisə dönən Azərbaycan nümayəndələri Bakının bolşeviklər tərəfindən işğal edilməsi xəbərini Fransa mətbuatından aldılar. Bu məlumatı alan kimi, Ə.M.Topçubaşov Fransa Nazirlər Kabinetinə və Xarici İşlər Nazirliyinə müraciət edib, Azərbaycan Nazirlər Şurasına təcili radioqram göndərilməsi işində köməklik göstərilməsini xahiş etdi. Ə.M.Topçubaşov bu radioqrama cavab alacağına əmin olduğunu Fransa rəsmilərinə bildirirdi.[5] Fransa Xarici İşlər Nazirliyinin köməkliyi ilə

[1] Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsi ilə bağlı H.Ağayevin dünya dövlətlərinə müraciəti. 1920.// ARDA, f.28, s.1, i.86, v. 30-33

[2] Telegram from H. Luke. Tiflis. 20.06.1920.// National Archives (United Kingdom), Public Records Office, FO 371/4942 28423.

[3] Убийство Фатали Хана Хойского. 1920. .// Archives d'Ali Mardan-bey Toptchibachi. carton n° 7/2. CERCEC, EHESS, Paris

[4] Telegram from Admiral de Robeck. Constantinople. 28.07.1920.// National Archives (United Kingdom), Public Records Office, FO 371/4944 28423.

[5] Président du Parlement, Président de la Délégation de Paix de la République d'Azerbaïdjan A.M.Toptchibacheff - A Son Excellence Monsieur le Président du Conseil des Ministres et Ministre des Affaires Etrangères de la République Française. Le 3 mai 1920. // Ministère des

Ə.M.Topçubaşov may ayının 3-də Azərbaycan Nazirlər Şurasının sədrinə bu məzmunda radioqram göndərdi: "Artıq iki gündür qəzetlər Azərbaycandan alınmış mühüm məlumatlar dərc edir. San-Remodan qayıdan Azərbaycan nümayəndələri baş vermiş hadisələr barədə məlumatsızdır. Acizanə şəkildə rica edirik, baş vermiş hadisələr barədə nümayəndəliyi məlumatlandırın."[6] Eyni zamanda, Parisdə olan Azərbaycan nümayəndələri yubanmadan müttəfiq dövlətlərin Ali Şurasına, Fransa, İngiltərə, ABŞ və İtaliya hökumətlərinə və xarici dövlətlərin Parisdə yerləşən səfirliklərinə suveren Azərbaycan dövlətinin Sovet Rusiyasının silahlı qüvvələri tərəfindən işğal olunduğu haqqında nota təqdim etdilər. Sülh konfransına verilmiş notada göstərilirdi: "Azərbaycan nümayəndələri ümid edirlər ki, Sülh konfransı müstəqilliyinin bərpa olunmasında Azərbaycana köməklik göstərəcəkdir".[7] Bu məzmunda notalar və müraciətlər dəfələrlə Millətlər Cəmiyyətinə, dünya siyasətini müəyyən edən ölkələrə də verildi. Azərbaycan nümayəndələrinin Millətlər Cəmiyyətinə müraciətində deyilirdi: "... Azərbaycan milləti Baş Məclisin üzvlərini məmnuniyyətlə salamlayır və Millətlər Cəmiyyətinin xidmətlərinin təhəqüqü ilə bütün bəşəriyyətə səadət gəlməsi ümidini izhar edər. Fəqət, eyni zamanda, Cenevrədə birləşmiş olan millətlər təmsilçilərinə müraciət edərək, Azərbaycan xalqının məruz qaldığı əlam və nəqab ilə nəzəri diqqətinizi cəlb etmək istəyirik".[8] Müraciətdə Azərbaycan Demokratik Respublikasının Azərbaycan türk millətinin iradəsini ifadə etdiyi, müttəfiqlər tərəfindən tanınan bu dövlətin həyat qabiliyyətli olduğu göstərilərək yazılırdı: "Fəqət, 1920-ci ilin aprelində rus bolşevikləri Azərbaycanı istila etdilər və qeyri-bərabər hərbdən sonra Qızıl Ordu məmləkəti əsgəri işğalı altına aldı... Millətlərin həyatını sülhü-ədalət əsasları üzərində sırf yaşamaq və sərbəstcə inkişaf etmək üçün mücadilə aparan kiçik Azərbaycan millətinin çəkdiyi ələmə qarşı laqeyd qalacağınızı zənn etmirik. Millətlər Cəmiyyətinin nəzəri diqqətinin dünyanın bu güşəsinə yönələcəyinə və ali məclisin Azərbaycan millətinə və onun haqlı tələbatına mənəvi himayəsini göstərəcəyinə ümid edirik..." [9]

Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 20

[6] Président Délégation Topchibacheff - Président Conseil des Ministres République Azerbaïdjanienne. Le 3 mai 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 21

[7] F.Kazemzadeh. The Struggle for Transcaucasia, p.286.

[8] League of Nations from the President of the Peace Delegation of the Azerbaijan Republic. Bibliotheque de documentation international contemproraine (BDIC, Nanterre), Paris.

[9] League of Nations from the President of the Peace Delegation of the Azerbaijan Republic.

Azərbaycanın işğalı haqqında Avropada ziddiyyətli xəbərlər dolanırdı. Azərbaycanın Tehrandakı nümayəndəsi A.Ziyadxanov İranda olan Britaniya missiyası vasitəsi ilə Bakının bolşeviklər tərəfindən tutulması barədə Ə.M.Topçubaşova məlumat göndərsə də, həmin məlumat, yalnız, iyul ayının 2-də Azərbaycan sülh heyətinin Londonda olan üzvü M.Mehdiyevə verildi.[10] Aprel işğalı zamanı Britaniyada olan M.Mehdiyev Azərbaycan barəsində ingilislərlə ruslar arasında gizli danışıqlar aparıldığını Topçubaşova yazırdı. Onun əldə etdiyi məlumata görə, bolşeviklər Bakı neftinin 80 faizini əldə etmək müqabilində Azərbaycanın müstəqilliyini tanımağa razı olduqlarını bildirmişdilər. Lakin o, bildiridi ki, ingilislər bununla razılaşmamış və Bakı neftində digər ölkələrin də marağının olduğunu vurğulamışdılar.[11]

Azərbaycanın işğalı barədə Avropa mətbuatında müxtəlif xarakterli məlumatlar getdiyindən, Azərbaycan sülh heyəti bu məlumatları təhlil edib, cavabı bəlli olmayan sualları müəyyənləşdirdi. Bu sualların cavablarını onlar Gəncə və Tiflis vasitəsi ilə aydınlaşdırmaq istəyirdilər. On doqquz sualdan ibarət olan sənəddə, Azərbaycanın işğalına əhalinin və parlamentin münasibəti, hakimiyyətin verilməsinin, işğal zamanı Azərbaycan ordusunun Bakıda olmamasının səbəbləri, Bakının erməni və rus əhalisinin bolşeviklərə kömək edib-etməməsi məsələsi, hazırda Bakıda xarici qoşunların olub-olmaması, hakimiyyətin kimə (azərbaycanlı və ya Moskva bolşeviklərinə) verilməsi, Azərbaycanın qalan hissəsinin vəziyyəti, bu ərazilərin Gəncə hökumətinə *(bir sıra parlament və hökumət üzvləri, ordu hissələri ilk vaxtlar Gəncəyə toplandığı üçün Gəncə hökuməti ifadəsi işlədilirdi – C.H.)* tabe olub-olmaması, Azərbaycanın Gürcüstan və Ermənistanla münasibətləri, Avropa mətbuatının Azərbaycanla Gürcüstan arasında müharibənin başlanması barədə yazdığı məlumatların həqiqətə uyğunluğu, Gürcüstanla Rusiya arasında imzalanmış 12 iyun müqaviləsinin mahiyyəti, bolşeviklər tərəfindən Ənzəlinin alınmasında azərbaycanlıların iştirak edib-etməməsi, bu hadisələrin İran Azərbaycanında separatist hərəkata təsiri, Azərbaycanda hansı partiyaların 28 aprel çevrilişini müdafiə etməsi, bolşeviklərin Bakıdan nə qədər neft aparması və sair məsələlərin aydınlaşdırılması nəzərdə tutulurdu. Orada soruşulurdu ki, "Batum limanından Azərbaycana dənizə

Bibliotheque de documentation international contemproraine (BDIC, Nanterre). Paris.

[10] From H.Servant to M.Mektieff. July 2nd.1920. .// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

[11] From M.Mektieff to A.Toptchibacheff. The 8 of May 1920. // Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

çıxış verilməsi şərti ilə Gürcüstanın Batum üzərində suverenliyinin tanınması haqqında bizim nümayəndəliklərin buradakı razılaşmaları orada məlumdurmu?"[12]

1920-ci ilin iyun ayının 8-də Azərbaycan sülh heyətinin başçısı Ə.M.Topçubaşov respublikanın Avropada fəaliyyət göstərən nümayəndə heyətinin adından Sülh Konfransının Ali Şurasına müraciət etdi. Bu müraciətdə o, bolşevik işğalına məruz qalmış Azərbaycan hökumətinin və onun Avropadakı sülh heyətinin ölkəni müdafiə etmək üçün Ali Şuradan və ümumilikdə, Antanta ölkələrindən yardım alacaqlarına ümidvar olduqlarını bildirirdi. Ə.M.Topçubaşov xatırladırdı ki, Azərbaycanın bolşevik işğalından müdafiəsi məsələsi, hələ, 1920-ci ilin yanvar ayının 17-də və 19-da Versal konfransının Ali Şurasının plenar iclaslarında və feldmarşal Vilsonun sədrliyi ilə keçirilmiş müşavirələrdə müzakirə edilmişdi. O, qeyd edirdi ki, Azərbaycan hökuməti, onun Parisdə və Londonda olan nümayəndələri Bakının müdafiəsini təşkil etmək üçün hələ də bu toplantıların qərarı ilə vəd olunmuş silah yardımını gözləməkdədirlər. Əli Mərdan bəy Azərbaycanın müdafiəsi üçün ölkəyə göndəriləcək silah və hərbi sursatın dəyərinin respublikanın 200 milyon puddan artıq olan neft ehtiyatları hesabına ödəniləcəyini bildirirdi. Müraciətin sonunda Ə.M.Topçubaşov Azərbaycan xalqının bolşevik işğalı ilə barışmayacağını, əlində olan bütün vasitələrlə öz müstəqilliyini və azadlığını qoruyacağını bildirir, bu mübarizədə Versal Ali Şurasının yardımına böyük ümidlər bəslədiyini qeyd edirdi.[13]

1920-ci ilin iyun ayının 30-da isə Ə.M.Topçubaşov sovet ticarət komissarı M. Krasinin Rusiyanın Qərb ölkələrinə olan borclarının Bakı neftinin həmin ölkələrə konsessiya verilə biləcəyi ilə ödənilməsi barədə bəyanatına qarşı Versal Ali Şurasının sədrinə etiraz notası vermişdi.[14] Bir gün sonra o, bu məzmunda bir etiraz notasını Versal konfransının Ali İqtisadi Şurasının sədrinə də təqdim edib bildirdi ki, Krasinin Bakı nefti haqqında danışmaq və Azərbaycanın təbii sərvətlərini kimlərəsə vəd etmək səlahiyyəti yoxdur. Ə.M.Topçubaşov Sovet nümayəndəsi Krasinin Rusiya borclarını Bakı nefti-

[12] Вопросы на которые Азербайджанская Делегация в Париже ждет ответов. Июнь 1920. // Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris

[13] A.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan - Monsieur le Président du Conseil Suprême de la Conférence de la Paix. Le 8 juin 1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 3. CERCEC, EHESS, Paris

[14] A.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan - Monsieur le Président du Conseil Suprême de la Conférence de la Paix. Le 30 juin 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 135

nin Qərb şirkətlərinə konsessiyaya verilməsi hesabına ödənilməsinə Azərbaycan hökuməti adından qəti etirazını bildirirdi.[15] Az sonra Spa konfransına (6-16 iyul 1920-ci il) da bu məzmunda müraciət verildi. 1920-ci ilin iyul ayının 4-də Ə.M.Topçubaşov tərəfindən konfransın sədrinə təqdim edilmiş müraciətdə göstərilirdi: "Azərbaycanın Sülh konfransında olan nümayəndə heyəti Sülh konfransının diqqətini Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalına yönəltmək istəyir... Versal Ali Şurası tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanınması xalqın böyük ruh yüksəkliyinə səbəb olmuşdu. Bu tanınma xalqa ümid verirdi ki, onların yaratdığı gənc dövlətin həyatında yeni dövr başlayır... Lakin bu tanınmadan az sonra ölkəmiz bolşeviklər tərəfindən işğal edildi... Yaranmış bu şəraitdə hadisələrin həllinin açarı müttəfiq dövlətlərin, Sülh konfransının və Millətlər Cəmiyyətinin əlindədir." Müraciətdə göstərilirdi ki, "Sovet hakimiyyəti" qurulması adı altında Azərbaycanın işğal olunduğu, respublikanın informasiya blokadasına alındığı, parlament və hökumət üzvlərinin repressiyalara məruz qaldığı, bütün bunlar barədə Tiflisdən, Azərbaycan parlamenti sədrinin müavini H.Ağayevdən məlumatlar alındığı bildirilirdi. Ə.M.Topçubaşov Spa konfransının rəhbərliyindən xahiş edirdi ki, Azərbaycan Respublikasının de-yure tanınması, ölkənin siyasi və iqtisadi maraqlarının müdafiəsi üçün ona yardım göstərilməsi məsələsini müzakirə edib , müvafiq qərarlar qəbul etsinlər. Onun fikrincə, Spa konfransı tərəfindən belə diplomatik addımların atılması bolşevizmə qarşı mübarizədə Azərbaycan xalqına əhəmiyyətli yardım olardı. [16] Bu müraciətin surətləri Spa konfransında təmsil olunan ayrı-ayrı nümayəndə heyətlərinin başçılarına təqdim edildi. Orada göstərilirdi ki, Azərbaycan Respublikası de-yure tanınma ərəfəsində bolşeviklər tərəfindən istila edildi, bu istilaya qarşı millətin dirənişi və üsyanları silah gücünə qan içində boğuldu. Fransa nümayəndə heyətinin başçısına yazdığı məktubda Ə.M.Topçubaşov bildirirdi ki, rəhbərlik etdiyiniz Fransa Respublikasının konfransdakı nümayəndə heyətinin Azərbaycan üçün böyük həyati əhəmiyyət daşıyan məsələlərə diqqət yetirəcəyinə bəslədiyimiz dərin inamın ifadəsi kimi, bu müraciəti Sizə ünvanlayırıq.[17] Lakin bunların elə bir əhəmiyyəti

[15] A.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan - Monsieur le Président du Conseil Economique Suprême de la Conférence de la Paix. Le 1 juillet 1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 1. CERCEC, EHESS, Paris

[16] Monsieur le Président de la Conférence de la Paix à Spa. Le 4 juillet 1920. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 124-132

[17] Président de la Délégation de Paix de la République d'Azerbaïdjan - le Président de la

olmadı. Hətta, ABŞ kimi, bir sıra dövlətlər Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından bölünməz Rusiya ideyasını və Ermənistanın müstəqilliyini müdafiə məqamı kimi istifadə etdikdə, Ə.M.Topçubaşov 1920-ci ilin avqust ayının 16-da ABŞ-ın Parisdəki səfirinə kəskin bir nota ilə müraciət etməli oldu. Orada deyilirdi: "Cənab Səfir, mənim başçılıq etdiyim Azərbaycan Respublikasının Parisdə Sülh konfransındakı nümayəndə heyəti adından sizin hökumətə ünvanlanmış bəyannaməni, sizə təqdim etməkdən şərəf duyuram. Avropa mətbuatı, Birləşmiş Ştatların Xarici İşlər Nazirliyinin İtaliya səfirliyinə göndərdiyi notasının tam mətnini dərc etmişdir. Polşa - Rusiya məsələlərindən bəhs edən bu notada, eyni zamanda, Azərbaycan Respublikasının həyati maraqlarına da toxunulub. Bu səbəbdən, Azərbaycan Respublikasının Paris Sülh konfransındakı nümayəndə heyəti bu notaya münasibətdə etinasız qala bilməzdi və ona görə də, notanın Azərbaycana aid məqamlarına Birləşmiş Ştatlar hökumətinin diqqətini cəlb etmək məcburiyyətindədir... Azərbaycan xalqının rus dövlətindən, onun gələcəkdə hər hansı forma alacağına baxmayaraq, ayrılmaq və 28 may 1918 il tarixində öz müstəqil Azərbaycan Xalq Cümhuriyyətini yaratmaq qərarına əsaslanaraq, Azərbaycan nümayəndə heyəti, heç bir halda, gələcək Rusiyaya münasibətdə bu mövqeylə razılaşa bilməz. Bu qərar bir əsrə yaxın müddətində rusların Qafqazda və o cümlədən, Azərbaycanda hakimiyyətinin nəticəsidir, çünki, heç bir hüquqa malik olmayan və sayı dörd milyon yarım olan Azərbaycan əhalisi öz təbiətinə tam yad olan rus əsarəti altında boğulurdu. Sülh konfransına və həmçinin, Birləşmiş Ştatlar hökumətinə nümayəndə heyəti tərəfindən təqdim olunmuş siyasi hesabatlarda, rusların bir əsrlik hakimiyyətindən sonra Azərbaycan əhalisinin acınacaqlı vəziyyəti gerçək şəkildə təsvir edilmişdir. Azərbaycanlılar rus imperiyasının dağılmasından sonra, digər Qafqaz xalqları ilə birlikdə öz müstəqilliklərini elan etmişlər, bu yolda onlar iki ildən artıq böyük qurbanlar vermişlər və indi də rus bolşeviklərinə qarşı mübarizələrini davam etdirirlər. Bütün bu qurbanlar Azərbaycanın gələcəkdə müstəqil yaşamaq arzularından irəli gəlir, çünki, azərbaycanlılar irq, din, dil baxımından slavyanlardan fərqlənirlər və onlarla nə adətlərində, nə də mənəvi və intelektual düşüncələrində heç bir oxşarlıqları yoxdur. Əgər Birləşmiş Ştatların Xarici İşlər Nazirliyinin notası, ermənilərin zor gücünə işğal ediləcəyini səbəb gətirərək, onların müstəqillik hüququnu tanıyırsa, on-

Délégation de la République française à la Conférence de Spa. Le 7 juillet 1920.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 133

da bizə bəyan etməyə icazə verin ki, Qafqazın ruslar tərəfindən işğalı zamanı, Azərbaycan xanlıqlarının və azad Dağıstan əhalisinin simasında yalnız müsəlmanların ruslara qarşı mübarizə apardığını nəzərinizə çatdıraq. Azərbaycanın və Dağıstanın rus işğalına qarşı mübarizəsi yarım əsr davam edib. Halbuki, Qafqaz ermənilər heç vaxt ruslara qarşı mübarizə aparmayıblar. Ancaq biz, kiçik erməni millətinə və çox milyonlu rus xalqına ən xoş arzular diləyirik. Biz qeyd etmək istəyirik ki, kiçik Azərbaycan millətinin də böyük xalqların köməyi və müdafiəsinə ehtiyacı var. Azərbaycanlılar daha çox diqqətə və ədalətli münasibətə layiqdirlər. Bundan əlavə, Azərbaycan xalqı iki dəfə – 1918-ci ildə və 1920-ci ilin aprel ayından etibarən, rus bolşevikləri tərəfindən dəhşətli müdaxiləyə məruz qalıblar və hal-hazırda heç bir yerdən kömək almadan onlara qarşı qanlı mübarizə aparmaqdadırlar. İki dəfə rusların hakimiyyəti nəticəsində bizim kiçik ölkədə 200 minə yaxın insan qurban olub, dörd şəhər və yüzlərlə kənd talan edilib, saysız var-dövlət, pul, müxtəlif mallar, Xəzər donanması müsadirə olunub və ölkənin əsas sərvəti olan Bakının neft sənayesi itirilib. Kiçik ölkə olmasına baxmayaraq, böyük qurbanlar vermiş Azərbaycan xalqı, Sülh konfransının Ali Şurası tərəfindən Azərbaycan Respublikasının de-fakto tanınması faktından ilham alaraq, gələcək azad həyat arzusu ilə yaşayır. Azərbaycanın nümayəndə heyəti inanmaq istəyir ki, böyük dövlət kimi, Amerika və onun məşhur prezidenti, millətlərin öz müqəddəratını təyinetmə hüququnun əsas carçısı olan V.Vilson kiçik Azərbaycan xalqının artıq həyata keçirmiş öz müqəddəratını təyinetmə hüququnu tanıyacaqdır. Bunun yolunda Azərbaycan bütün qurbanlara hazırdır. Azadlığın tərəfdarı olan Amerika xalqına, onun demokratik ictimaiyyətinə müraciyət edərək, Azərbaycan nümayəndə heyəti Amerikanın Xarici İşlər Nazirliyinin notası ilə əlaqədar bu bəyannaməni sizə təqdim edərək, bildirir ki, Azərbaycan xalqı hökumət formasından asılı olmayaraq rus dövlətinə birləşdirilməyəcək və müstəqil Azərbaycan Xalq Cümhuriyyəti olaraq, yaşamağa davam edəcək, bütün ölkələrlə və o cümlədən, gələcək Rusiya ilə iqtisadi münasibətlər saxlayacaqdır."[18] Rusiyanın 1914-cü il sərhədlərində bərpasına belə münasibət digər Qərb ölkələri üçün də səciyyəvi idi. Ona görə də, müraciət edilmiş Antanta ölkələri bir qayda olaraq, Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsini sükutla qarşıladılar.

[18] Ə.M.Topçibaşovun ABŞ-ın Paridəki səfirinə notası. 16.08.1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 9. CERCEC, EHESS, Paris; Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari Arxivi, sənəd № 8856

Bu notadan dərhal sonra, sentyabr ayının 8-də bolşevik işğalı ilə bağlı Parisdə fəaliyyət göstərən Azərbaycan nümayəndə heyətinin adından Millətlər Cəmiyyətinin rəhbərliyinə müraciət edildi. Nümayəndə heyətinin adından Ə.M.Topçubaşovun imzaladığı müraciətdə göstərilirdi ki, Azərbaycan milləti Cenevrədə yerləşən Millətlər Cəmiyyətinə müraciət edərək, Azərbaycan xalqının məruz qaldığı kədər və faciəni onların nəzərinə çatdırmaq istəyir. Orada deyilirdi: "1920-ci ilin aprelində rus bolşevikləri Azərbaycanı istila etdi və qeyri-bərabər hərbdən sonra Qızıl Ordu ölkəni əsgəri işğalı altına aldı. O vaxtdan bəri Azərbaycanda üsyanlar davam edir". Müraciətin sonunda bildirilirdi ki, "Millətlər Cəmiyyəti Ali Məclisinin Azərbaycan millətinə və onun haqlı tələblərinə mənəvi yardım göstərəcəyinə ümid edirik".[19]

Beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan nümayəndələri Fransa Xarici İşlər Nazirliyinə tez-tez müraciətlər edir və ölkənin bolşeviklər tərəfindən işğalı məsələsini onlarla müzakirə etmək istəyirdilər. Bu məqsədlə Ə.M.Topçubaşov 1920-ci ilin iyul ayında Xarici İşlər Nazirliyinin Baş katibindən görüş istəmişdi. Lakin Baş katib belə bir görüşün onun səlahiyyətlərinə aid olmadığını bildirib, Ə.M.Topçubaşovun oktyabr ayının 10-da nazirliyin siyasi və ticarət idarəsi müdirinin köməkçisi cənab Laroş tərəfindən qəbul ediləcəyini bildirmişdi.[20]

Bolşevik işğalına qarşı mübarizədə Millətlər Cəmiyyətindən effektli yardım almaq üçün 1920-ci ilin oktyabr ayının 28-də Azərbaycanın Avropadakı sülh heyəti bu beynəlxalq birliyə üzv olmaq üçün onun rəhbərliyinə müraciət etməyi qərara aldı. Cenevrəyə gələn nümayəndə heyətinin adından onun rəhbəri Ə.M.Topçubaşov Azərbaycanın bu birliyə qəbul edilməsi barədə 1920-ci ilin noyabr ayının 1-də Millətlər Cəmiyyətinin Baş Katibi Erik Drümmonda məktubla müraciət etdi. Orada göstərilirdi ki, "keçmiş rus imperiyasından ayrılmış və 1918-ci ilin may ayının 28-də öz müstəqilliyini elan etmiş, paytaxtı Bakı şəhəri olan 4 milyon nəfərdən ibarət Azərbaycan xalqı uzun müddət səbirlə Millətlər Cəmiyyətinə qəbul olunacağını gözləyir. Azərbaycanlılar Millətlər Cəmiyyətini onlar üçün daha çox zəruri sayılan,

[19] X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996, s.103; A.Haşımova. XX əsrin birinci yarısında Azərbaycan mühacirəti. Bakı, 1992, s.131

[20] Le Secretaire general du Ministre des Affaires Estrangeres Republique Francaise – A.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan. Le 09.10.1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

həm siyasi, həm də iqtisadi baxımdan, həyati maraqları inkar edilən və ya, daimi qorxu altında saxlanılan kiçik xalqların xilaskarı hesab edib və edir". Bu kiçik müraciətdən sonra Azərbaycan nümayəndə heyətinin 1919-cu ilin sentyabrında Paris Sülh Konfransına təqdim etdiyi və azərbaycanlıların siyasi tələblərini özündə əks etdirən memorandum məktuba əlavə edilirdi. Baş katibə müraciətində Ə.M.Topçubaşov yazırdı: "...beynəlxalq tribuna kimi, oynadığı rolu tam şəkildə və lazımı dərəcədə qiymətləndirərək, azərbaycanlılar adından biz Millətlər Cəmiyyətinin yaranmasını və meydana gəlməsini səmimi qəlbdən alqışlayırıq. Biz əminik ki, sülh naminə əməkdaşlıq etmək, bəşəriyyətin rifahı naminə Millətlər Cəmiyyətinin ali və nəcib məqsədlərinin həyata keçirilməsinə öz töhvəmizi vermək üçün biz digər xalqlar arasında öz yerimizi tutmalıyıq. Bizim şübhəmiz yoxdur ki, Millətlər Cəmiyyəti kimi, əxlaqlı və ədalətli beynəlxalq təşkilatda xalqımızın toxunulmaz hüquqlarının qorunmasına təminatlar alacağıq. Artıq qeyd edildiyi kimi, bizim xalqımız Vilsonun dahi prinsipləri əsasında yaradılmış millətlər ailəsində müstəqil siyasi mövcudluq və inkişaf üçün zəruri olan bütün maddi və insani ehtiyatlara malikdir". Məktubda qeyd edilirdi ki, Azərbaycan Millətlər Cəmiyyətinə qəbul olunmaqla, onun himayəsi altında öz azad və müstəqil həyatını davam etdirə bilər. Azərbaycan nümayəndə heyətinin üzvlərinin Parisdə nəşr etdirdikləri və cümhuriyyət haqqında Bakıda çap olunmuş bir sıra kitab və broşurlar məktuba əlavə edilirdi. Azərbaycan sülh heyətinin 1919-1920-ci illərdə Parisdə nəşr etdirdiyi "Azərbaycan informasiya bülleteni"nin bütün nömrələri Millətlər Cəmiyyətinə təqdim edilən sənədlər arasında idi.[21]

Eyni zamanda, noyabr ayının 2-də Ə.M.Topçubaşov Millətlər Cəmiyyətinin katibliyinə bildirdi ki, bu beynəlxalq birliyə müraciət etmək üçün Azərbaycan sülh heyətinin öz hökumətindən mandatı vardır və bu mandat onlara 1920-ci ilin mart ayının 26-da verilmişdir. Həmin mandata uyğun olaraq, Azərbaycanın Millətlər Cəmiyyətinə müraciətinin müzakirəsində iştirak etmək üçün özünün nümayəndəsi M.Mehdiyevin noyabrın 15-də Cenevrədə Cəmiyyətin iclasında iştirak etmək arzusunda olduğunu bildirirdi.[22]

[21] Admission of the Azerbaijan Republic to the League of Nations. Geneva. 01.11.1920. National Archives (United Kingdom), Public Records Office, FO 371/4948 28562

[22] Lettre de Creance. Le 2 novembre 1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 8. CERCEC, EHESS, Paris

Azərbaycan Xalq Cümhuriyyəti Versal Ali Şurası tərəfindən tanındıqdan sonra yeni yaradılan Millətlər Cəmiyyətinə üzv olmaq arzusunda olduğu üçün Baş nazir N.Usubbəyovun və xarici işlər naziri F.X.Xoyskinin imzası ilə 1920-ci ilin mart ayının 26-da Azərbaycanın Avropada olan nümayəndə heyətinin rəhbəri Ə.M.Topçubaşova, nümayəndə heyətinin üzvləri Ə.Şeyxülislamov, M.Məhərrəmov, M.Mehdiyev və C.Hacıbəyova Millətlər Cəmiyyətinə üzv olmaq, ölkəni Versal Ali Şurasının strukturlarında təmsil etmək, Avropa ölkələri ilə siyasi, iqtisadi və maliyyə xarakterli danışıqlar aparmaq, müqavilələr imzalamq, Avropa dövlətləri ilə danışıqlarda respublikanın adından çıxış etmək və sair məsələlərlə bağlı mandat verilmişdi.[23]

Millətlər Cəmiyyətinə üzvlüklə bağlı Azərbaycanın müraciəti Cəmiyyətin noyabr ayının 15-də keçirilən iclasında geniş şəkildə öyrənildikdən sonra Cəmiyyətin Baş katibi Erik Drümmond noyabr ayının 24-də "Azərbaycan Respublikasının Millətlər Cəmiyyətinə qəbul edilməsinə dair ərizəsi haqqında memorandum"la çıxış etdi. O, göstərdi ki, 1920-ci ilin noyabr ayının 1-də Azərbaycanın 1919-cu ildən Parisdə fəaliyyət göstərən nümayəndə heyəti bu ölkənin Millətlər Cəmiyyətinə üzv qəbul olunması xahişi ilə Cəmiyyətin Baş katibinə müraciət etmişdir. Ser Drümmond izah etdi ki, üzvlük haqqında ərizə təqdim edən heyət 1920-ci ilin aprelinə qədər Azərbaycanda hakimiyyətdə olan hökumətdən səlahiyyət almışdır. Baş katib öz memorandumunda Cəmiyyət üzvlərinə Azərbaycanın ərazisi, əhalisi, adı, keçdiyi tarixi yol, bu ölkədə iki il ərzində fəaliyyət göstərmiş müstəqil respublikanın siyasi quruluşu, onun 1920-ci ilin yanvar ayında Versal Ali Şurası tərəfindən de fakto tanınması və 1920-ci ilin aprelində süqutu haqqında yığcam məlumat təqdim edirdi. Ser Drümmond, həmçinin, yeni üzvlərin Cəmiyyətə qəbulunu tənzimləyən hüququ qaydalara toxunub, Azərbaycan dövlətinin hazırkı vəziyyətinin bu qaydalara nə dərəcədə uyğun olub-olmamasını aydınlaşdırmaq istəyirdi. O, deyirdi: "Əgər Cəmiyyətin assambleyası Azərbaycanın statusunu "tam özü-özünü idarə edən dövlət" səviyyəsində tanıyırsa, onda belə bir sual çıxır: hazırkı ərizəni təqdim edən nümayəndə heyəti bu gün ölkənin legitim hakimiyyətini təmsil etmək üçün lazımi səlahiyyətlərə malikdirmi və hökumət bu vəziyyətdə öz üzərinə öhdəlik ala bilərmi, habelə, Millətlər Cəmiyyətinin üzvlüyünə münasibətdə öhdəlik

[23] Mandat General. Le 26 mars 1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 8. CERCEC, EHESS, Paris

təqdim edə bilərmi?"[24] Ser Drümmond bu memorandumun bir nüsxəsini Cenevrədə olan Azərbaycan nümayəndələrinə də göndərmişdi.

Baş katibin memorandumu ilə tanış olduqdan sonra Azərbaycan nümayəndələri ona ünvanlanan əlavə bir sənəd hazırladılar və bu sənəd noyabr ayının 26-da Cəmiyyətin rəhbəri Erik Drümmonda göndərildi. Ə.M.Topçubaşovun imzaladığı yeni məktubunda, ilk növbədə, memorandumda Azərbaycanın adı, əhalisi və ərazisi haqqında yol verilmiş səhvlərə aydınlıq gətirildi. Orada göstərilirdi ki, "Azərbaycanın ərazisi sizin memorandumda göstərilən kimi, 40.000 kvadrat mil deyil, 94.137 kvadrat mil təşkil edir... Xəritədə göstərilən keçmiş İrəvan əyalətinin bölgələrində əhali müsəlman və azərbaycanlılardan ibarətdir. Onlar dəfələrlə Azərbaycan Respublikasının tərkibinə daxil edilmələrini xahiş ediblər". Ə.M.Topçubaşov bolşevik işğalına qarşı Azərbaycan xalqının mübarizə apardığını bildirərək yazırdı: "Yalnız Gəncə şəhərində iyun ayında on beş min insan öldürülmüşdür və onların əksəriyyəti günahsız qocalar, qadınlar və uşaqlardır. Bolşeviklərin qazandığı qələbələrə və törətdikləri amansız qətllərə baxmayaraq, Azərbaycan xalqı yeni rus işğalına qarşı qalxmış və heç bir yerdən kömək almadan inadla mübarizə aparmışdır. Bu mübarizə nəticəsində bolşeviklər yalnız Bakını və onun ətrafını idarə edirlər. Moskvanın Sovet hökumətinin Azərbaycan Sovet Respublikasını tanımasına baxmayaraq, Azərbaycan xalqı heç vaxt bolşeviklərə tabe olmayacaq, özünə mənəvi və milli baxımdan yad olan, ona fəlakət gətirən bir rejimdən azad olanadək silahı yerə qoymayacaqdır. Məhz, bu fəlakətə qarşı kiçik Azərbaycan təkbaşına kəskin mübarizə aparır. Onun Millətlər Cəmiyyətinə daxil olması verdiyi bütün qurbanlar müqabilində ona mənəvi rahatlıq gətirər və güc verərdi". Məktubun sonunda Ə.M.Topçubaşov Ser Drümmonda bildirirdi: "Cənab Baş katib, qeyd edilən əlavələri sizin diqqətiniz çatdırmaqla ümidvar olmaq istəyirəm ki, bu qeydləri Azərbaycan Respublikasının Millətlər Cəmiyyətinə qəbulu ilə əlaqədar Cəmiyyətin Baş Məclisinə təqdim etdiyiniz 108 saylı memorandumа əlavə etmək mümkün olacaqdır".[25]

Lakin Azərbaycan nümayəndələrinin ciddi cəhdlərinə baxmayaraq, Millətlər Cəmiyyəti Baş Məclisi tərəfindən seçilmiş Beşinci Komitə 1920-ci ilin dekabr ayının 1-də Baş katibin təqdimatı üzrə Ə.M.Topçubaşovun

[24] Memorandum on the Application for the Admission of the Azerbaijan Republic to the League of Nations. Geneva. 24.11.1920.// National Archives (United Kingdom), Public Records Office, FO 371/4948 28562

[25] Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Sənədlər məcmuəsi. Bakı, 2009, s.131-134

müraciətini müzakirə edib, Azərbaycan Respublikasının Millətlər Cəmiyyətinə qəbul edilməsinin mümkün olmadığı qənaətinə gəldi. Komitənin dördüncü toplantısının qərarında göstərilirdi ki, Azərbaycan dövlətinin *(AXC hökuməti nəzərdə tutulur – C.H.)* hazırkı hökumətinin öz səlahiyyətlərini hansı hüdudlarda icra etdiyini müyyənləşdirmək mümkün deyildir və qonşu dövlətlərlə mübahisələrinin olması səbəbindən Azərbaycanın hazırkı sərhədlərini müəyyən etmək qeyri-mümkündür.[26]

Azərbaycan sülh heyətinin üzvləri Cenevrənin "Türinq-Balans" otelində Millətlər Cəmiyyətinin Beşinci Komitəsinin bu qərarını müzakirə edib, onunla razılaşmadıqlarını bildirdilər. Sülh heyətinin adından Ə.M.Topçubaşov 1920-ci ilin dekabr ayının 7-də Millətlər Cəmiyyətinin Baş Məclisinin prezidenti Paul Hümansa etiraz məktubu göndərdi. Azərbaycan hökumətinin öz səlahiyyətlərini hansı hüdudlarda icra etdiyini müəyyənləşdirməyin çətinliyi ilə bağlı Ə.M.Topçubaşov yazırdı: "Nümayəndə heyəti Millətlər Cəmiyyətinin Məclisinə belə bir məsələni xatırlatmağı zəruri hesab edir ki, Komitə tərəfindən istinad edilən çətinlik müvəqqəti və şərti xarakter daşıyır və həlledici baxımdan bu vəziyyətin heç bir halda müzakirə edilən məsələyə təsir edəcəyini düşünmək doğru olmazdı. Bu danılmaz bir faktdır ki, rus bolşeviklərinin 1920-ci ilin 28 aprel işğalından əvvəl Azərbaycanın qanuni hökuməti heç bir istisna olmadan, Millətlər Cəmiyyətin Baş katibinə təqdim edilən xəritədə göstərildiyi kimi, hazırkı sərhədlər daxilində Azərbaycan Respublikasının bütün hüdudlarında öz səlahiyyətlərini icra etmişdir. Bu işğaldan sonra ölkə ərazisinin bir hissəsi bolşeviklər tərəfindən tutulmuşdur. Hökumət başda olmaqla, Azərbaycan xalqı Gəncə şəhərinə toplaşmış və bolşeviklərə qarşı qanlı döyüşə qalxmışdır. Bu müqavimət nəticəsində bolşeviklər, demək olar ki, işğal etdikləri bütün ərazilərdən çıxarılmışdır. Hazırda onlar yalnız Bakı şəhərini və onun ətrafını öz əllərində saxlayır, Hacıqabul stansiyasına qədər dəmir yolunun kiçik bir sahəsinə nəzarət edirlər. Bakı və Quba əyalətlərinin bir sıra rayonları istisna olmaqla, Azərbaycanın qalan ərazisi, eyni zamanda, keçmiş Yelizavetpol quberniyasının bütün ərazisi əsas qərargahı Gəncədə yerləşən Azərbaycan hökumətinin əlindədir. Bolşeviklər tərəfindən dağıdılmış Parlament və Ordunun da bir hissəsi, məhz, bu şəhərdə yerləşir. Bu ərazilər mövcud sərhədlər daxilində Azərbaycan ərazilərinin onda doqquzuna bərabərdir. Azərbaycanın qanunu hökuməti

[26] Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. Составитель Н.А.Максвелл. Баку, 2011, с.563

kimi, Gəncə hökuməti Millətlər Cəmiyyətinin qaydalarına uyğun olaraq, beynəlxalq xarakterli öhdəliklərini yerinə yetirməyə dair yetərli zəmanətlər verməyə qadirdir".

Beşinci Komitənin ikinci qeydinə gəldikdə, Ə.M.Topçubaşov yazırdı ki, qonşu dövlətlər arasında ərazi mübahisələri, nəinki, yeni yaranmış dövlətlər, eyni zamanda, əsrlər boyu mövcud olmuş dövlətlər arasında da müşahidə edilir. Orada deyilirdi: " Komitə tərəfindən irəli sürülən ikinci etiraz Azərbaycanın qonşu Gürcüstan və Ermənistanla olan ərazi mübahisələri barədədir. Bu məsələ ilə bağlı nümayəndə heyəti belə bir faktı Baş Məclisin diqqətinə çatdırmağı özünə şərəf bilir ki, sərhədləri tamamilə mübahisəsiz olan yeni dövlət elan etmək, demək olar ki, mümkün deyildir. Hətta, biz görürük ki, yalnız yeni dövlətlər deyil, eyni zamanda, əsrlər boyu mövcud olan dövlətlərin belə, sərhədlərlə bağlı mübahisələri olmuş və bu mübahisələr hələ də qalmaqdadır. Lakin bu mübahisələr onların öz ərazilərində suveren hüquqlardan məhrum edilməsinə əsas vermir. Öz ərazilərinin toxunulmazlığını bütün təcavüzlərdən müdafiə edən Azərbaycan Respublikası Zaqatala regionuna görə Gürcüstan, Qarabağ və Zəngəzura görə isə Ermənistanla münaqişəyə girməyə məcbur olmuşdur. Bu ərazilər Azərbaycanın bir hissəsini təşkil edir və Azərbaycan hökuməti tərəfindən idarə olunur. Qarabağ və Zəngəzur bölgələri Azərbaycanın idarəçiliyinə Müttəfiqlərin Qafqazdakı keçmiş nümayəndələrinin qərarı ilə verilmişdir. Bununla belə, bu mübahisələrin yalnız Azərbaycana aid deyil, eyni zamanda, öz tərəflərindən bu mübahisələri yaratmış dövlətlərə də aidiyyəti vardır. Lakin Azərbaycan Respublikası həmişə belə bir qənaətdə olmuşdur ki, qonşu Gürcüstan və Ermənistan Respublikaları ilə sərhəd mübahisələri yalnız aidiyyəti olan respublikaların yerli maraqlarına aid məsələ olmuş və bu respublikalar qeyd edilən mübahisələrin qarşılıqlı güzəştlər vasitəsi ilə həlli yollarını tapa bilərlər". Müraciətin sonunda göstərilirdi ki, "iki dəfə rus bolşeviklərinin hücumuna məruz qalmış ölkəsinin həyati əhəmiyyətli maraqlarından çıxış edən nümayəndə heyəti Azərbaycan Respublikasının Millətlər Cəmiyyətinə qəbul edilməsini zəruri hesab edir. Bu üzvlük Azərbaycanının müstəqilliyini xilas etmək yolunda təkbaşına, heç bir xarici kömək olmadan altı aydan çox bir müddətdə qanlı mübarizə aparan xalqımızın bolşeviklərə qarşı apardığı mücadilədə ona olduqca vacib olan mənəvi dəstəyi təmin edərdi. Bu arzunu Millətlər Cəmiyyətinin üzvlərinə çatdırmağı özüm üçün şərəf hesab edirəm".[27]

[27] Lettre du President de la Delegation de Paix de la Republique də Azerbaidjan. Le de-

Azərbaycan sülh heyətinin və onun rəhbəri Ə.M.Topçubaşovun ciddi cəhdlərinə baxmayaraq, Millətlər Cəmiyyətinin Beşinci Komitəsinin qərarını dəyişmək mümkün olmadı. 1920-ci ilin dekabr ayının 20-də Cəmiyyətin Baş katibi Erik Drümmond Ə.M.Topçubaşova məktub göndərib, indiki şəraitdə Azərbaycan Respublikasının Millətlər Cəmiyyətinə qəbul olunmasının mümkün olmadığını bildirdi.[28] Bununla da bolşevizmə qarşı mübarizədə Avropadakı Azərbaycan mühacirlərinin Millətlər Cəmiyyətindən mənəvi və siyasi dəstək almağa başladiyi ümidlər özünü doğrultmadı.

Lakin Azərbaycan nümayəndə heyətinin Avropada fəaliyyət göstərməsi, azərbaycanlı tələbələrin müxtəlif ali məktəblərdə təhsillərini davam etdirməsi üçün ilk növbədə, onların vizalarının uzadılmasına nail olmaq lazım idi. Bu məqsədlə Ə.M.Topçubaşov Fransa Xarici İşlər Nazirliyinə müraciət edib, Azərbaycan vətəndaşlarına rus milləti deyil, məhz, Azərbaycan milləti yazılmaqla, birillik vəsiqələr verilməsini xahiş etdi. 1920-ci ilin may ayının 3-də nazirlik belə bir vəsiqələrin hazırlanmasına razı olduğunu bildirdi.[29] İyun ayının 5-də Ə.M.Topçubaşov Versal konfransının katibliyinə müraciət etdi. Bu məktubda o, sülh heyətinin tərkibi haqqında məlumat verir, Ə.M.Topçubaşovun nümayəndə heyətinin başçısı və Parlamentin sədri, Ə.Şeyxülislamov, M.Mehdiyev, M.Məhərrəmovun nümayəndə heyətinin və parlamentin üzvləri, C.Hacıbəyovun nümayəndə heyətinin məsləhətçisi, A.Atamalıbəyovun parlamentin üzvü və nümayəndə heyətinin katibi olduğunu bildirirdi.[30] 1920-ci ilin sentyabrında Ə.M.Topçubaşov nümayəndə heyətinin Parisdə qalma vaxtını uzatmaq üçün yenidən Fransa Xarici İşlər Nazirliyinə müraciət etdi. Nazirlikdən ona tövsiyə etdilər ki, bu məsələni asanlaşdırmaq üçün Fransa ordusunun Baş Qərargahın rəhbərlərindən biri olan general Pişonla əlaqə saxlasın. Xarici İşlər Nazirliyinin məlumatına görə, Pişon Şərq məsələsini və o cümlədən, Qafqaz işlərini yaxşı bildiyindən,

cembre 1920// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 185-187; Letter from the President of the Peace Delegation of the Republic of Azerbaijan. Geneva. 07.12.1920.// National Archives (United Kingdom), Public Records Office, FO 371/4949 28562

[28] Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Sənədlər məcmuəsi. Bakı, 2009, s.135

[29] Ministre des Affaires Estrangeres Republique Francaise – A.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan. Le 03.05.1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

[30] A.M.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan - le Secretariat du Conseil Suprême de la Conférence de la Paix. Le 5 juin 1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

Azərbaycan nümayəndələrinin Parisdə fəaliyyətlərini davam etdirmək işində onlara yardım göstərə bilərdi.[31] Böyük çətinliklərdən sonra Fransa siyasi dairələrinin müdaxiləsi və Xarici İşlər Nazirliyinin təqdimatı əsasında polis idarəsi Azərbaycan sülh nümayəndə heyətinin Parisdə viza müddətini uzatmalı oldu.[32]

Azərbaycan hökumətinin qərarı ilə Qərbi Avropanın müxtəlif universitetlərində oxuyan 82 tələbəyə 1920-ci ilin mart ayında göndərilmiş 3 aylıq vəsait qurtarandan sonra yeni hökumət bu gənclərin təhsilini maliyələşdirməkdən imtina etmişdi. Azərbaycan sülh heyətinin maddi imkanları tükəndiyindən, həmin gənclər son dərəcə ağır vəziyyətə düşmüşdülər. Bu gəncləri xilas etmək üçün 1920-ci ilin avqust ayının 3-də Ə.M.Topçubaşov müəyyən məbləğdə vəsait üçün Dağlılar Respublikasının Parisdəki nümayəndə heyətinin başçısı A.M.Çermoyevə müraciət etdi. Ə.M.Topçubaşov xahiş edirdi ki, azərbaycanlı tələbələri bu ağır vəziyyətdən qurtarmaq üçün Azərbaycan hökumətinin Şimali Qafqaz hökumətinə verdiyi 50 milyon manat kredit və Azərbaycan nümayəndə heyətinin Parisdə Dağlı Respublikası nümayəndə heyətinə verdiyi 50 min frank vəsaitdən 200 min frank Azərbaycan nümayəndələrinə qaytarılsın. Əli Mərdan bəy bu vəsaitin hər dəfə 100 min frank olmaqla, iki dəfəyə qaytarılmasını mümkün hesab edir, hətta, Azərbaycan nümayəndə heyətinin maddi vəziyyəti yaxşılaşdıqda bu vəsaitin yenidən Dağlı nümayəndə heyətinə qaytarılacağını bildirirdi.[33]

1920-ci ilin avqust ayının 7-də Parisdə olan Azərbaycan sülh heyətinin sədrinə yazdığı məktubda Abdul Məcid bəy doğrudan da Azərbaycan hökumətinin, onun Parisdəki nümayəndələrinin Dağlılar Respublikasına və onun Fransadakı nümayəndələrinə böyük həcmdə yardım göstərdiyini təsdiq edirdi. Lakin Dağlı Respublikası hökumətinin artıq Fransa banklarında heç bir vəsaitinin qalmadığını bildirirdi. Bununla belə, o, yazırdı: "Qafqaz dağlısı kimi, doğma Azərbaycan xalqının hazırda düşdüyü vəziyyətə

[31] Ministre des Affaires Estrangeres Republique Francaise. Direction des Affaires Politiques et commerciales – A.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan. Le 09.09.1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

[32] Ministre des Affaires Estrangeres Republique Francaise. Direction des Affaires Administratioes & Techniques – Délégation de Paix de la République d'Azerbaïdjan. Le 02.11.1921. Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

[33] A.M.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan - Abdoul Medjid bey Tchermoeff Président de la Délégation de Paix de la Nord-Caucase. Le 3 aout 1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

ürəyim sizinlə birlikdə ağrıyır. Uzaq məmləkətdə bu xalqın gənclərinin və nümayəndəliyinin qarşılaşdığı müvəqqəti çətinliyə biganə qala bilmərik. Mən özümü əlimdən gələni etməyə borclu hesab edirəm... Hazırda mən sizə yalnız 75 min frank, bir ay sonra isə daha bu qədər məbləğdə pul verə bilərəm. Mənim tərəfimdən verilən bu vəsait müstəsna qaydada verilən mənim şəxsi vəsaitimdir".[34] Bu vəsaitin müqabilində A.M.Çermoyev qəbz istədiyindən, Parisdə fəaliyyət göstərən Qafqaz respublikalarının nümayəndələri ilə danışıqlar aparmaq, iqtisadi, ticarət və maliyyə xarakterli sənədlər imzalamaq üçün Azərbaycan nümayəndə heyəti respublika hökuməti adından Ə.M.Topçubaşova mandat verdi. Əli Mərdan bəy 1920-ci ilin avqust ayının 9-da Abdul Məcid Çermoyevə yazdığı məktubla bu məlumatı ona çatdırdı.[35] Dağlı Respublikası nümayəndə heyətinin başçısı tərəfindən verilən bu vəsait Azərbaycan nümayəndə heyətini və azərbaycanlı tələbələri düşdüyü çətin maliyyə böhranından müvəqqəti olaraq qurtardı. Lakin həmin bu vəsait 1921-ci ilin fevral ayında Lloyds Bank vasitəsi ilə Azərbaycan nümayəndələri tərəfindən A.M.Çermoyevə qaytarıldı.[36]

Ümumiyyətlə, maliyyə çətinlikləri ilə bağlı belə müraciətlərə sovetləşmədən sonra Parisdə qalmış Qafqaz və keçmiş Rusiyanın digər xalqlarının nümayəndə heyətlərinin münasibətlərində tez-tez rast gəlinirdi. Məsələn, 1921-ci ilin sentyabrında Kuban nümayəndələri Parisdə öz konfranslarını keçirdikdə maliyyə yardımı üçün Azərbaycan nümayəndə heyətinə müraciət etmişdi. Bütün çətinliklərə baxmayaraq, Kuban nümayəndələrinin konfransını keçirmək üçün Azərbaycan nümayəndə heyəti onlara 5 min frank həcmində maliyyə yardımı göstərməyə hazır olduğunu bildirmişdi.[37]

1920-ci ilin noyabrında Ermənistan, 1921-ci ilin fevralında isə Gürcüstan respublikaları bolşeviklər tərəfindən işğal edildikdən sonra Parisdə

[34] A.M.Tchermoeff Président de la Délégation de Paix de la Nord-Caucase - A.M.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan . Le 7 aout 1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

[35] A.M.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan - Abdoul Medjid bey Tchermoeff Président de la Délégation de Paix de la Nord-Caucase. Le 9 aout 1920.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

[36] A.M.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan - Abdoul Medjid bey Tchermoeff Président de la Délégation de Paix de la Nord-Caucase. 15.02.1921.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

[37] Président de la Délégation de Paix de la République d'Azerbaïdjan - Président de la Délégation de Paix de la Kouban. 18.09.1921.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

olan bütün Qafqaz nümayəndələri maddi baxımdan ağır vəziyyətə düşdülər. 1921-ci ilin avqust ayının 11-də Azərbaycan, Ermənistan, Gürcüstan və Şimali Qafqaz nümayəndələri maliyyə yardımı üçün Fransanın Baş naziri A.Briana müraciət etdilər. Avqust ayının 28-də Brian A.Çxenkeliyə yazırdı ki, Fransa hökuməti Qafqaz respublikalarının iqtisadi inkişafında maraqlı olsa da, bu məsələlərin banklar və sənaye qurumları vasitəsi ilə həll edilməsi daha məqsədəuyğundur. O, tövsiyə edirdi ki, Qafqaz respublikalarının nümayəndələri təmsil etdikləri hökumətlərdən lazımi təminatları alıb, Fransanın maliyyə və sənaye dairələri ilə regionun iqtisadi inkişafına dair danışıqlara başlasalar, Fransa hökuməti lazım olan bütün yardımları göstərəcəkdir.[38]

Ermənistan və Gürcüstanın Rusiya tərəfindən işğalından sonra yaranmış vəziyyət Qafqazın Avropadakı nümayəndələrini tədricən yaxınlaşmağa məcbur edirdi. Gürcüstanın işğalından az sonra Azərbaycanın Parisdəki sülh heyəti 1921-ci ilin may ayının 8-də geniş toplantı keçirib, Qafqaz Respublikalarının müstəqilliyi uğrunda birgə fəaliyyət göstərməyin zəruriliyini qeyd etdi. Bu məqsədlə onlar Qafqaz Konfederasiyasının yaradılması ideyasını irəli sürdülər. Qafqaz respublikalarının birləşməsi ideyası Fransa siyasi dairələri və həmin dövrdə Parisdə səfərdə olan Türkiyənin xarici işlər naziri Bəkir Sami bəy tərəfindən yüksək qiymətləndirildi. İyun ayının 2-də Fransanın Baş naziri A.Brianla görüşən Gürcüstan mühacir hökumətinin başçısı N.Jordaniya bu barədə ona məlumat verdi. Sovet Rusiyasını Qafqaz dövlətləri ilə mühasirəyə almağı arzulayan A.Brian üçün bu ideya çox cəlbedici göründü və o, buna tərəfdar olduğunu bildirdi.[39] Bir neçə gün sonra, iyun ayının 8-də N.Jordaniya bu məsələni Fransa prezidenti A.Milyeran ilə də müzakirə etdi və Fransanın prezidenti bildirdi ki, "Qafqaz Respublikalarının ittifaqı çox yaxşı ideyadır. Bu işdə biz sizə uğurlar arzu edirik".[40]

Qafqaz respublikalarının konfederasiyası məsələsi 1921-ci ilin mart ayının 25-də Parisə səfər edən Türkiyənin xarici işlər naziri Bəkir Sami bəylə də geniş müzakirə edilmişdi. Hələ, 1921-ci ilin fevral-mart aylarında Londonda Lloyd Corcla danışıqlar apararkən Bəkir Sami bəy bolşeviklərə

[38] Ministre des Affaires Estrangeres Republique Francaise A. Briand – Ministre de Georgie a Paris A. Tchenkeli. Le 28.08.1921.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 7/2. CERCEC, EHESS, Paris

[39] BDIC, microfilms des archives du gouvernement géorgien, mfm 881, bobine 128.

[40] G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.46

qarşı dayanmaq üçün Türkiyə ilə yaxın münasibətlərdə olan Qafqaz konfederasiyasının yaradılmasını zəruri hesab etmişdi. Ermənilər istisna olmaqla, digər Qafqaz nümayəndələri ilə yanaşı Ə.M.Topçubaşov başda olmaqla, Ə.Şeyxülislamov və C.Hacıbəyovdan ibarət olan Azərbaycan nümayəndələri də Bəkir Sami bəylə görüşüb, Qafqaz konfederasiyası ilə bağlı məsələləri müzakirə etmişdilər. Gürcüstan nümayəndələrinin arzusuna uyğun olaraq, Qafqaz təmsilçiləri Sami bəyə bildirmişdilər ki, Qafqaz xalqlarının Türkiyə ilə əməkdaşlığı Türkiyənin Qafqaza hər hansı siyasi və torpaq iddialarının olmaması, xüsusilə, Türkiyə - Gürcüstan sərhədlərinin kamalçı hökumət tərəfindən tanınması şərti ilə mümkündür. Danışıqlar zamanı Bəkir Sami bəy bildirdi ki, Türkiyənin Qafqaz respublikalarına hər hansı torpaq iddiası yoxdur, lakin Türkiyə Rusiya ilə Anadolu arasında möhkəm bir müdafiə səddinin qurulmasında maraqlıdır və Qafqaz konfederasiyası bu funksiyanı yerinə yetirə bilər. Bəkir Sami belə hesab edirdi ki, yunanlarla müharibə davam etdikcə, Türkiyənin Qafqaz konfederasiyasına əhəmiyyətli yardım göstərəcəyi mümkün deyildir. Lakin o, qeyd edirdi ki, yunan hücumuna son qoyulduqdan sonra Türkiyə Qafqaz konfederasiyası ilə dostluq və ittifaq haqqında müqavilənin imzalanmasında maraqlı olacaqdır.[41]

1921-ci ilin iyun ayının 10-da Ə.M.Topçubaşovun sədrliyi ilə dörd Qafqaz respublikasının Parisdəki səlahiyyətli nümayəndələrinin ilk birgə toplantısı keçirildi. Toplantının müzakirələrinin yekunu kimi, Qafqaz respublikaları öz aralarında siyasi və iqtisadi ittifaq yaratmaq qərarına gəldilər, bu məqsədlə bəyannamə imzaladılar. İmzalanmış sənədə görə, Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar Respublikasının Avropada olan nümayəndələri öz aralarında olan müxtəlif ziddiyyətləri bir kənara qoyub, Qafqaz xalqlarının müstəqilliyini təmin etmək, bu ölkələrdə demokratik idarəçilik formalarının bərpasına və regionun çiçəklənməsinə nail olmaq məqsədilə sıx əməkdaşlıq edəcəklərini bəyan edirdilər. Bəyannamənin birinci bəndində onu imza edən tərəflər yekdilliklə bu fikirdə idilər ki, Qafqaz Avropa ilə Asiyanı ayıran, öz coğrafi vəziyyətinə görə, Qara dəniz və Aralıq dənizini Mərkəzi Asiya və Yaxın Şərqlə birləşdirən bir məntəqə olduğundan, bütün xalqların rifahı naminə bu yolun azad olması Qafqaz respublikalarının tam müstəqilliyindən və onların öz aralarında möhkəm ittifaq qurmalarından asılıdır. Bəyannaməni imza edən ölkələrin nümayəndələri ikinci

[41] Résumé de la conférence tenue au Claridge Hotel le 25 mars 1921// BDIC, microfilms des archives du gouvernement Géorgien, mfm 881, bobine 136.

bənddə yekdilliklə qəbul edirdilər ki, bu respublikaların müstəqilliklərinin möhkəmləndirilməsi və Qafqaz regionunun Qərblə Şərq, eyni ilə xristian dünyası ilə müsəlman dünyası arasında əlaqələndirici funksiyasını yerinə yetirməsi məqsədilə Qafqazın bütün xalqlarının sıx və qardaşlıq ittifaqının bərqərar edilməsi zəruridir. Bəyannamənin üçüncü bəndində keçmişdə Qafqaz xalqları arasında baş vermiş mübahisələrdən və fikir ayrılıqlarından təəssüf hissi keçirilir və bu xalqlar arasında etimadı möhkəmləndirmək üçün gələcəkdə yarana biləcək mübahisəli məsələlərin, ilk növbədə isə, sərhəd mübahisələrinin arbitraj vasitəsi ilə həll olunması məqsədəuyğun hesab edilirdi. Sənədin dördüncü maddəsi xarici siyasət məsələlərinə aid idi. Orada göstərilirdi ki, oriyentasiya məsələlərində tərəflər eyni mövqedən çıxış edəcək, bəyannaməni imzalayan digər Qafqaz respublikalarına zərər gətirəcək xarici siyasət addımlarından çəkinəcək, özlərinin xarici siyasət addımlarını əlaqələndirəcək və bu istiqamətdə ittifaq yaradacaqlar.[42] Beşinci maddədə Qafqaz xalqlarının müstəqilliklərinin biri-birindən asılılığını nəzərə alaraq, tərəflər hər bir respublikanın ayrı-ayrılıqda və eyni zamanda, dörd Qafqaz respublikasının bütövlükdə xarici təcavüzdən müdafiə olunması məqsədilə bu respublikalar arasında müdafiə ittifaqının yaradıldığını bəyan edirdilər. Altıncı maddədə Qafqaz respublikaları arasında iqtisadi əlaqələrin genişləndirilməsi məqsədilə daxili gömrük sərhədlərinin aradan qaldırıldığı və bu regionun vahid gömrük ittifaqı kimi, dünya ticarəti üçün açıq olduğu bildirilirdi. Yeddinci maddəyə görə, tərəflər Rusiyanın Qafqazda iqtisadi maraqlarını gözləməyə, İranın Avropa ilə tranzit əlaqələrini təmin etməyə, Türkiyə ilə dostluq və mehriban qonşuluq münasibətləri yaratmağa hazır olduğunu bəyan edir, lakin Türkiyə ilə sərhədlərin 1914-cü il hüdudları daxilində nəzərdə tutulduğu, Türkiyədə erməni məsələsinin həll olunmamasını Qafqaz ittifaqının yaranması yolunda başlıca maneə olduğunu qeyd edirdi. Bu maddədə bir tərəfdən, Qafqaz respublikaları Türkiyə ilə mehriban qonşuluq münasibətləri qurmağa böyük maraq göstərdiklərini ifadə edir, digər tərəfdən isə Türkiyəni 1914-ci il sərhədlərinə hörmət etməyə çağırırdılar. Halbuki, 1914-cü il hadisələrindən sonra Qafqazda, o cümlədən, rus-türk sərhədlərində çox şey dəyişmişdi. Səkkizinci maddədə Qafqaz respublikaların bir sıra beynəlxalq aktlarla dünya birliyi tərəfindən tanındığı xatırladılır və Qafqazın təbii ehtiyatlarının istismarı məqsədilə xarici ka-

[42] Déclaration Représentants des Républiques d'Arménie, d'Azerbaïdjan, du Caucase du Nord et de Géorgie. Classé le 15 juin 1921.// Ministère des Affaires Etrangère de France. Archives Diplomatique, vol. 639, folio 205-206

pitalla, xarici dövlətlərin siyasi, ticarət və sənaye qurumları ilə əlaqələrin gücləndiriləcəyi qeyd edilirdi. Doqquzuncu maddədə 1919-1921-ci illərdə Rusiya və Türkiyənin Qafqaz respublikalarının ərazilərini işğal etməsi onların hüquqlarının pozulması kimi qiymətləndirilir və tezliklə bu işğala son qoyulması, regionda qayda qanunun bərpa edilməsi tələb edilirdi. Onuncu maddəyə görə, qonşu dövlətlər tərəfindən Qafqaz respublikalarının torpaq güzəştlərinə məcbur edilməsi, eyni zamanda, Ermənistan, Azərbaycan, Şimali Qafqaz və Gürcüstanda bu respublikaların xalqlarının azad iradəsinin ifadəsi kimi formalaşmayan hakimiyyətlər, qruplar və təşkilatlar tərəfindən kiməsə konsessiya və imtiyazlar verilməsinin heç bir hüquqi qüvvəsi yoxdur və belə hallara qeyri-qanuni addımlar kimi baxılacaqdır.[43]

On maddədən ibarət olan Paris Bəyannaməsini Ermənistan Respublikası adından nümayəndə heyətinin sədri Avetik Ağaronyan, Azərbaycan Respublikası adından nümayəndə heyətinin sədri Əli Mərdan bəy Topçubaşov, Şimali Qafqaz Respublikası adından nümayəndə heyətinin sədri Abdul Məcid Çermoyev və Gürcüstan Respublikası adından nümayəndə heyətinin sədri Akaki Çxenkeli imzalamışdılar. Bir çox məsələlərdə Qafqaz həmrəyliyindən kənarda dayanan ermənilərin bu Bəyannaməyə qoşulması İngiltərə, Fransa və İtaliya kimi böyük dövlətlərin onun imzalanmasında maraqlı olmaları ilə bağlı idi. Bəyannamə Qafqaz respublikalarının siyasi ittifaqını özündə ehtiva edirdi.

Paris Bəyannaməsindən sonra Qafqaz mühacir hökumətlərinin nümayəndələri Fransada olan Rusiya mühacirləri ilə də danışıqlar aparmağa cəhd göstərdilər. Eyni zamanda, Fransa rəsmi dairələri də Qafqaz və Rusiyanın Avropada fəaliyyət göstərən mühacirlərinin ümumi antibolşevik cəbhədə birləşmələrində maraqlı idilər. Bu məqsədlə 1921-ci ilin iyul ayının 4-də Parisdə Qafqaz mühacir hökumətinin nümayəndələri ilə Rusiyanın Avropadakı mühacirləri ilə birgə toplantısı keçirildi. Toplantıda Azərbaycanı Ə.M.Topçubaşov, Gürcüstanı Y.Gegeçkori və K.Sabaxtaraşvili, Şimali Qafqazı A.M.Çermoyev, Ermənistanı A.Ağaronyan, Rusiyanı Müvəqqəti hökumətin Fransada səfiri olmuş V.Maklakov, 1898-1914-cü illərdə Rusiyanın İstanbuldakı səfirliyinin birinci draqomanı A.Mandelştam, Fransanı onun Qafqazdakı keçmiş ali komissarı Abel Şevalye və Sarbon Universitetinin professoru Larnaude təmsil edirdi.

[43] Déclaration Représentants des Républiques d'Arménie, d'Azerbaïdjan, du Caucase du Nord et de Géorgie. Classé le 15 juin 1921.// Ministère des Affaires Etrangère de France. Archives Diplomatique, vol. 639, folio 207-209

Professor Larnaudenin sədrliyi ilə keçirilmiş Paris toplantısında ilk çıxış edən Ə.M.Topçubaşov dedi ki, Azərbaycan Qafqaz konfederasiyasının yaradılmasının ən qatı tərəfdarlarından biridir. O, qeyd etdi ki, Türkiyə də bu ideyaya rəğbətlə yanaşır. Eyni zamanda, Əli Mərdən bəy ingilis-fransız müttəfiqlərini Türkiyənin haqlarını tanımağa, Şərqdə stabilliyin təminatçısı olan bu dövlətə yardım göstərməyə çağıraraq dedi: "Türkiyə ilə bolşeviklər arasında razılaşma müvəqqətidir, çünki, bolşevik ideyaları islam əxlaqı və ənənələri ilə ziddiyyət təşkil edir".[44] Ə.M.Topçubaşovun Türkiyəyə münasibətdə belə mövqeyi A.Şevalyenin xoşuna gəlmədi. O, öz çıxışında mədəni baxımdan Ermənistan və Gürcüstanın inkişafına xüsusi diqqət yetirdi və qeyd etdi ki, "müttəfiqlərin də qəddar düşməni" olan Türkiyə kimi, nəhəng bir dövlətin qonşuluğunda bu respublikaların hələ də mövcud olmasına təəccüb edir. A.Şevalye Y.Gegeçkorini də Ə.M.Topçubaşova qarşı çıxışa təhrik etsə də, Gürcüstan nümayəndəsi bundan yayındı. Digər gürcü nümayəndəsi K.Sabaxtaraşvili isə öz çıxışını əsasən, Rusiya bolşeviklərinin işğalçı siyasəti üzərində qurdu. O, qeyd etdi ki, "Gürcüstan Rusiya ilə imzalanmış 100 il bundan əvvəlki müqaviləyə görə, öz müqəddəratını təyin etməyə haqlıdır".[45]

Paris toplantısında Şevalyenin Türkiyəyə qarşı təhrikçilik niyyətini A.Ağaronyan yerinə yetirdi. O, 1918-ci ildən müstəqillik uğrunda mübarizə aparan Qafqaz xalqlarının əvvəlcə, Türkiyənin, 1920-ci ildən etibarən isə Rusiyanın imperialist siyasəti ilə qarşılaşdığını bildirdi. A.Ağaronyandan sonra A.Xatisov Cənubi Qafqazın bolşevikləşdirilməsi və erməni-türk münasibətləri haqqında geniş məlumat verdi.[46] Lakin onun Rusiyanı imperializmdə günahlandıran bu fikri toplantıda iştirak edən Rusiya mühacirlərinin nümayəndəsi Maklakovu əsəbləşdirdi. Maklakov Rusiyanın ermənilərə göstərdiyi "atalıq qayğısını" xatırladaraq, dedi ki, "sabah Rusiya yenə ayağa qalxacaq" Gürcüstanın öz müqəddəratını təyin etməsi

[44] Le Cauase, Le Bolchevisme et La Turquie. Conference de M. Topchibacheff. Séance du Lundi 4 Juillet 1921.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 9. CER-CEC, EHESS, Paris; ARDA, f.28, s.1, i.146, v.24-25; Əlavə məlumat üçün bax: X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996, s.106-107

[45] Le Caucase, Le Bolchevisme et La Turquie. Conference de M. Topchibacheff. Sé-ance du Lundi 4 Juillet 1921.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 9. CER-CEC, EHESS, Paris

[46] Le Caucase, Le Bolchevisme et La Turquie. Conference de M. Topchibacheff. Sé-ance du Lundi 4 Juillet 1921.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 9. CER-CEC, EHESS, Paris

məsələsinin isə o, "Rusiyanın razılığı əsasında" ola biləcəyini yada saldı.[47] Gərgin mübahisələr şəraitində keçən Paris toplantısı heç bir nəticə əldə edilmədən öz işini başa çatdırdı.

İyul ayının 19-da Paris Bəyannaməsi rəsmi olaraq, Millətlər Cəmiyyətinin rəhbərliyinə və üzvlərinə göndərildi. Qafqazın mühacir hökumətləri adından Fransa Xarici İşlər Nazirliyinin Baş katibi F.Bertelo ilə görüşən A.Çxenkeli Azərbaycan, Ermənistan, Gürcüstan və Dağlılar Respublikası nümayəndələrinin Qafqaz konfederasiyasının gücləndirilməsi məsələsində Fransanın yardımına böyük ümid bəslədiyini və Bəkir Sami bəyin avqust ayında Parisə gözlənilən səfəri zamanı Türkiyə ilə bu istiqamətdə danışıqlar aparılacağını bildirdi. Eyni zamanda, Qafqaz nümayəndələri Fransa Baş naziri A.Brian ilə görüşə nail olub, iyun ayının 10-da imzaladıqları Paris Bəyənnaməsini ona təqdim etdilər.[48] 1921-ci ilin avqust ayının 3-də A.Brian Qafqazın mühacir hökumətinin başçıları kimi, Topçubaşov, Çxenkeli, Çermoyev və Ağaronyanla görüşdü. A.Brianın öz təşəbbüsü ilə Parisdə olan Qafqaz təmsilçiləri ilə görüşməsi Rusiyada bolşevizmin böhranının dərinləşməsi gedişində Qafqaz xalqlarının müstəqilliyinin bərpasına Fransa siyasi dairələrinin ümidinin artması ilə bağlı idi. O, deyirdi:"Mən sizinlə əlaqəyə girməyi o məqsədlə zəruri hesab etdim ki, çox yaxın gələcəkdə Rusiyada bolşevik rejiminin devrilməsinə münasibətinizin necə olacağını sizdən soruşum. Mən bilmək istəyirəm ki, siz nə dərəcədə öz ölkənizin idarəçiliyini əlinizə almağa hazırsınız?"[49] Qafqaz nümayəndələri görüş zamanı Fransanın baş naziri A.Brianı əmin etdilər ki, onlar 1918-ci ilin səhvlərini təkrar etməyəcəklər. Görüş zamanı Qafqaz respublikalarının adından çıxış edən A.Ağaronyan dedi: "Biz ümid edirik ki, keçmişin dərsləri yeni mübahisələrdən qaçmağa bizə kömək edəcək və biz münasibətlərin daha möhkəm əsaslar üzərində qurulması yollarını axtaracağıq. Xüsusilə, bu yenidənqurma, birləşmə fəaliyyətimizdə biz Fransanın mənəvi və maddi dəstəyinə ümid edirik. Belə ki, bizim əhalimizin çəkdiyi

[47] Le Caucase, Le Bolchevisme et La Turquie. Conference de M. Topchibacheff. Sé-ance du Lundi 4 Juillet 1921.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 9. CER-CEC, EHESS, Paris; ARDA, f.28, s.1, i.146, v.25

[48] G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.48

[49] Procès-verbal de l'entrevue avec Monsieur Briand des représentants des républiques du Caucase le 3 août 1921.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, CPC 1918-1940, Z, Dossier Russie (Caucase), vol. 653, folio 116

bütün məşəqqətlər sizə yaxşı məlumdur. Bolşeviklərin ağalığı xalqımıza çoxlu məhrumiyyətlər gətirmişdir.[50] A.Brian bildirdi ki, "biz sizə kömək etməyə hazırıq, lakin Qafqazın dörd respublikası içərisindən yalnız Gürcüstan de-yure tanınmışdır və mən bunun təşəbbüsçüsü olmuşam. Bu şərait bizə imkan verir ki, sizinlə bütün mümkün əməliyyatlarımız bu dövlət vasitəsi ilə həyata keçirilsin, gələcəkdə digər dövlətlər də tanınacaqlar, onların da növbəsi tezliklə çatacaq. Sizin öz ehtiyaclarınız barədə mənə geniş siyahı verməyiniz lazımdır. Sizin ehtiyacınız yalnız çörəyə deyil, lakin mənə elə gəlir ki, siz ehtiyaclarınızla bağlı məsələyə gəldikdə, çörəyə tələbatınızı sadaladığınız ehtiyaclar içərisində birinci yerə qoyacaqsınız. Mən əminəm ki, sizin hər şeydən əvvəl silah və sursata ehtiyacınız vardır. Çörəyə gəldikdə isə onu əldə etmək çətin deyildir".[51]

Qafqaz konfederasiyasının möhkəm olmasının Türkiyənin bu konfederasiyaya münasibətindən asılı olacağını vurğulayan Avetis Ağaronyan Moskva müqaviləsinə görə, Qars və Ərdahanın Türkiyəyə verilməsindən öz narahatlığını ifadə etdikdə A.Brian dedi: "Sizə açıq deməliyəm ki, mən Türkiyənin müstəqil və həyat qabiliyyətli dövlət kimi mövcud olması siyasətinin təmin edilməsinin tərəfdarıyam. Mən artıq bu istiqamətdə, hətta, ingilis dostlarımızla qarşıdurma riskinə gedərək, London konfransında öz üzərimə real öhdəliklər qəbul etmişəm ki, türk xalqı kimi bir xalq müharibə zamanı bizə düşmənçilik etmələrinə baxmayaraq, milli və müstəqil yaşamaq haqqına malikdir. Bu yaxınlarda yunanların türklər üzərində qələbəsinə baxmayaraq, ingilis dostlarımızın müttəfiqlərin və hətta, öz maraqlarını, belə, daha ədalətli formada anlamağa inandırmaq vəzifəsini mən üzərimə almışam. London konfransında mən Sevr müqaviləsinin türklərin xeyrinə təftiş edilməsinə nail oldum. Mən bu siyasəti davam etdirirəm və bunun uğur qazanacağına əminəm".[52] A.Ağaronyan Fransa Baş nazirinin sözlərinə müdaxilə edərək dedi ki, Türkiyə ilə Ermənistan arasında sərhədlər müəyyən edilmədən, Qafqaz respublikaları arasında imzalanmış müqavilə möhkəm olmayacaq və

[50] Procès-verbal de l'entrevue avec Monsieur Briand des représentants des républiques du Caucase le 3 août 1921.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, CPC 1918-1940, Z, Dossier Russie (Caucase), vol. 653, folio 117-118

[51] Procès-verbal de l'entrevue avec Monsieur Briand des représentants des républiques du Caucase le 3 août 1921.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, CPC 1918-1940, Z, Dossier Russie (Caucase), vol. 653, folio 118-119

[52] Procès-verbal de l'entrevue avec Monsieur Briand des représentants des républiques du Caucase le 3 août 1921.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, CPC 1918-1940, Z, Dossier Russie (Caucase), vol. 653, folio 121-122

1918-ci ilin hadisələrinə bənzər təhlükələr aradan qalxmayacaqdır. Erməni mühacir hökumətinin başçısının bu sözləri Fransa Baş nazirini hövsələdən çıxardı və o, əsəbi formada dedi ki, "London konfransında biz ermənilərin tələblərini yerinə yetirməyə cəhd göstərdik. Öz tərəfinizdən siz gərək şişirdilmiş tələblər irəli sürməyəsiniz. Siz hamınız embrion (rüşeym) dövlətlərsiniz. Keçmişdən qalanları yenidən təşkil etmək üçün siz nə mümkünsə, hamısını səfərbər etməlisiniz".[53] Fransa Baş nazirinin bu acıqlı sözlərindən geri çəkinən A.Ağaronyan öz yerini Abdul Məcid Çermoyev və Akaki Çxenkeliyə verdi. Onlar hər ikisi A.Briandan xahiş etdilər ki, digər Qafqaz respublikaları ilə yanaşı, Dağlılar Respublikası da Fransa tərəfindən de-yure tanınsın.

Fransanın Baş naziri A.Brianla bu görüşdən sonra Ə.M.Topçubaşov 1921-ci ilin sentyabr ayının 4-də Azərbaycandakı vəziyyət barədə Millətlər Cəmiyyətinin Baş Məclisinə geniş bəyanat təqdim etdi. Cəmiyyətin Baş katibinin adına göndərilmiş bəyanatda deyilirdi ki, bolşevik rejiminin bütün fəlakətlərinə, soyğunçuluğuna, baxmayaraq, Azərbaycan xalqının işğal rejiminə qarşı başladığı kəskin mübarizə bu gün də davam etməkdədir. O, qeyd edirdi ki, Azərbaycan hökumətinə, parlamentinə və xalqına qarşı başlamış işğalçılıq siyasətinə etiraz olaraq, alovlanan ümumxalq mübarizəsi ölkə bolşeviklərdən tam azad olana qədər davam edəcək, Azərbaycan xalqı özünə yad olan bolşeviklərin antibəşəri siyasətini qəbul etməyəcək və hansı qurbanlar bahasına olursa-olsun, öz azadlığı uğrunda vuruşacaqdır. Ə.M.Topçubaşov xatırladırdı ki, ötən il onun müraciəti əsasında Azərbaycan Millətlər Cəmiyyətinin üzvlüyünə qəbul edilsəydi, bu hadisə bolşevik istilasına qarşı yalnız öz gücü ilə mübarizə aparan Azərbaycan xalqına çox böyük mənəvi kömək olardı. Əli Mərdan bəy qeyd edirdi ki, hələ Millətlər Cəmiyyətinin Baş Məclisinin Prezidenti Paul Hümansa 1920-ci ilin dekabr ayının 7-də göndərilən məktubda bildirilmişdi ki, bolşevizm yalnız Azərbaycan üçün deyil, digər Qafqaz respublikaları üçün də ciddi təhlükə təşkil edir və məlum olduğu kimi, Azərbaycandan az sonra Ermənistan və Gürcüstan respublikaları da bolşeviklər tərəfindən işğal edildilər. Ə.M.Topçubaşov Millətlər Cəmiyyətinin Baş katibinə və Baş Məclisinə məlumat verirdi ki, bolşevik işğalına məruz qalmış dörd Qafqaz respublikası öz ölkələrinin bolşevizmə qarşı effektli müqavimətini təşkil etmək, siyasi və iqtisadi cəhətdən ölkələrinin müstəqilliyini təmin etmək məqsədilə 1921-ci

[53] Procès-verbal de l'entrevue avec Monsieur Briand des représentants des républiques du Caucase le 3 août 1921.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, CPC 1918-1940, Z, Dossier Russie (Caucase), vol. 653, folio 123

ilin iyun ayının 10-da öz aralarında ittifaq bağlamışlar. O, bu ittifaq barədə Millətlər Cəmiyyətinin rəhbərliyinə məlumat verildiyini və bolşevizmə qarşı mübarizədə Azərbaycan xalqının Cəmiyyətdən mənəvi yardım alacağını bildirirdi. Eyni zamanda, Ə.M.Topçubaşov yazırdı ki, bolşeviklər ölkənin ərzaq məhsullarını müsadirə edib, Rusiyaya göndərdiklərindən, respublikada aclıq və səfalət hökm sürür, yolxucu xəstəliklər yayılır. Məhz, belə bir şəraitdə o, Azərbaycanın ərzaq yardımına, yolxucu xəstəliklərə qarşı dava-dərmana ciddi ehtiyac duyduğunu Millətlər Cəmiyyətinin rəhbərliyinin diqqətinə çatdırırdı. Əli Mərdan bəy ümidvar olduğunu bildirirdi ki, bu məktub və onun əvvəllər Millətlər Cəmiyyətinin Baş Katibinə, Baş Məclisin Prezidentinə göndərdiyi məktublar bir daha Baş Məclisin müzakirəsinə çıxarılacaq və bolşevizmə qarşı mübarizə aparan Azərbaycan xalqı Cəmiyyət tərəfindən əhəmiyyətli yardım alacaqdır.[54]

Lakin 1921-ci ilin payızında türk-yunan cəbhəsində kamalçıların qələbəsi, Türkiyə ilə Qafqaz respublikaları arasında imzalanmış Qars müqaviləsi, habelə, Fransa ilə Türkiyə arasında imzalanmış Ankara müqaviləsi siyasi şəraiti xeyli dəyişdi. Dəyişən şəraitin təsiri altında Qafqaz nümayəndələri Baş nazir A.Brianla görüşüb, regionda yaranmış vəziyyəti müzakirə etdilər. 1921-ci ilin oktyabr ayının 23-də keçirilmiş görüşdə Azərbaycan, Gürcüstan və Dağlı Respublikasının nümayəndələri qeyd etdilər ki, bir neçə gün əvvəl imzalanmış Fransa-Türkiyə müqaviləsi kamalçıları bolşeviklərdən uzaqlaşdıracaqdır. Onlar belə hesab edirdilər ki, bu müqavilə bolşeviklərin regionda mövqelərini zəiflədəcək və yerli xalqların antibolşevik mübarizəsi fonunda Sovet Rusiyası Qafqaz respublikalarını tərk etmək məcburiyyəti qarşısında qalacaqdır. Məhz, belə bir şəraitdə mühacir hökumətinin nümayəndələri Fransa kapitalını Qafqaza cəlb etməyi zəruri hesab edirdilər. A.Ağaronyan isə fərqli mövqedən çıxış edərək, Fransa-Türkiyə müqaviləsinin Kilikiyada erməni əhalisi üçün arzuolunmaz nəticələr doğurduğunu və bu əhalinin kütləvi şəkildə Kilikiyanı tərk etməyə başladığını bildirdi. O, həyacanlı şəkildə A.Briandan xahiş edirdi ki, bu prosesin qarşısını alsın. Onun əksinə olaraq, digər Qafqaz nümayəndələri türklərlə danışığa başlamaq zamanının yetişdiyini düşünərək, Fransa Baş nazirinə bildirirdilər ki, yaxın vaxtlarda Qafqaz xalqlarının bolşevizmə qarşı başlayacaq ümumxalq üsyanlarının uğuru türklərin bu hadisələrə neytral

[54] Lettre du Président de la Délégation de Paix De la République d'Azerbaïdjan - Sir Eric Drummond, Secrétaire général de la Ligue des Nations.à Genève, le 4 septembre 1921. // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 233-236

qalmasından asılı olacaqdır. Erməni nümayəndəsi istisna olmaqla, qalan Qafqaz nümayəndələri Briandan xahiş edirdilər ki, bu məsələdə türklərlə razılığa gəlməkdə onlara köməklik etsin. A.Brian əmin olduğunu bildirdi ki, "türklər özləri belə sazişi arzulayırlar. Bunu onların öz maraqları tələb edir. Türk-bolşevik alyansı, türklərlə ruslar arasında əlaqələr ciddi ola bilməz".[55] Qars müqaviləsinin mətnini "Pravda Qruzii" qəzetinin 21 oktyabr 1921-ci il tarixli, 92-ci sayından əldə edib, onu geniş təhlil edən Qafqaz mühacir hökumətlərinin nümayəndələri A.Brianın bu fikrinə şərik oldular.[56]

Əlbəttə, bütün bu müzakirələr real vəziyyəti əks etdirməsə də A.Brian Qafqaz mühacir hökumətlərinə bu məsələlərdə yardım göstərmək istəyirdi. Ona görə də, bu görüşdə Qafqaz xalqlarına yardım göstərməyin yollarını araşdıran Fransa tərəfi və Qafqazın bütün mühacir hökumətlərinin nümayəndələrindən ibarət qarışıq bir komissiyanın yaradılması haqqında qərar qəbul edildi. Bu işlərə rəhbərlik etməyi A.Brian azad olunmuş regionlar üzrə nazir Lui Lüşerə tapşırdı. Noyabrın 7-də Lui Lüşer Qafqaz respublikalarının nümayəndələri ilə görüşdü. Geniş müzakirələrin gedişində Lüşer Qafqazın mühacir hökumətlərinin Fransadan daha çox hansı yardımı gözlədiklərini soruşduqda, dörd Qafqaz ölkəsini təmsil edən nümayəndələr ilk növbədə, maddi yardımın vacibliyini vurğuladılar.[57] Görüş zamanı A.Çxenkeli qeyd etdi ki, Qafqaz respublikalarında bolşeviklərin ağalığı müvəqqətidir və yaxın vaxtlarda öz xalqlarının mübarizəsi, Fransanın və müttəfiqlərin yardımı ilə milli hökumətlər Qafqazda idarəçiliyi yenidən ələ alacaqlar. Eyni zamanda, Çxenkeli fransızların ən həssas yerinə toxunaraq, dedi ki, Qafqaz respublikaları xüsusi mülkiyyəti və Rusiyanın borclarının bu ölkələrin payına düşən hissəsini tanımağa hazırdırlar. A.M.Çermoyev isə L. Lüşerin diqqətini neft məsələsinə yönəldərək qeyd etdi ki, keçmiş Rusiyanın neftə olan ehtiyacının 95 faizini Bakı və Qroznı ödəyirdi. Eyni zamanda, o, əlavə etdi ki, mərkəzi Rusiyanın sənaye rayonları ilə müqayisədə Qafqazın neft sənayesi bolşevik talanlarından az ziyan çəkmişdir və Baku-Batum neft kəmərini üç ay ərzində bərpa etmək üçün 100 min frank kifayət

[55] G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.54

[56] Traité Signé entre les Républiques Transcaucasiennes et le Gouvernement Turc de la Grande Assemblée Nationale d'Angora (le texte de ce traité a été publié dans le numéro 92 du 21 octobre du Journal « Pravda Grusii »), le 13 octobre 1921.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 237-252

[57] X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996, s.104-105

edər. Müzakirələr nəticəsində qərara alındı ki, maliyyə, neft və dəmir yolları ilə bağlı məsələlərə xüsusi diqqət yetirilsin. Bu sahələri araşdırmaq üçün Lüşer komissiyanın işinə fransız ekspertlərin cəlb olunacağını vəd etdi.[58]

Fransa hakim dairələri ilə Qafqaz mühacir hökumətləri nümayəndələrinin Parisdə apardığı danışıqlar və xüsusilə, maliyyə yardımı ilə bağlı məsələlərin müzakirə edilməsi bu danışıqları izləyən Sovet orqanlarının ciddi narahatlığına səbəb oldu. Türkiyədəki Azərbaycan səfirliyinin Bakıya göndərdiyi gizli məlumatda qeyd edilirdi ki, "Topçubaşov 30 desyatin neftli ərazini fransızlara bir milyon franka satmışdır və bu məbləğin yüz min frankını əvvəlcədən almışdır.[59] Düzdür, Fransa hökumət üzvləri ilə aparılan danışıqlar nəticəsində Qafqazın mühacir hökumətlərinin nümayəndələri kiçik həcmdə maliyyə yardımları ala bilsələr də, lakin bu proses uzun sürmədi. 1922-ci ilin yanvar ayının ortalarında Aristid Brian hökuməti hakimiyyətdən getdiyindən, Fransa hökuməti ilə Qafqaz nümayəndələri arasında başlanmış danışıqlar yarımçıq qaldı. 1922-ci ildə qurulan R.Puankare hökuməti Aristid Brianın bolşevik Rusiyasına qarşı Qafqaz xalqlarını fəallaşdırmaq siyasətindən tədricən geri çəkildi və keçmiş Rusiya müstəmləkələrinə münasibətdə Britaniya Baş naziri Lloyd Corcla eyni mövqedən çıxış etməyə başladı.

Avropa ölkələrində təhsil alan tələbələrə Bakıdan maliyyə yardımı kəsildiyi üçün Azərbaycan sülh heyəti demək olar ki, daimi olaraq, maliyyə çətinlikləri içində idi. Bu danışıqlardan bir il keçdikdən sonra Avropada fəaliyyət göstərən Sovet xüsusi xidmət orqanlarının gizli məlumatlarında Azərbaycan mühacirlərinin ciddi maliyyə çətinliklər içərisində olduğu bildirilirdi.[60] Azərbaycanın Avropada fəaliyyət göstərən nümayəndə heyətinin katibi A.Atamalıbəyovun 1922-ci ilin iyul ayının 7-də Fransa Xarici İşlər Nazirliyinə yazdığı məktub Azərbaycan mühacirlərinin çətinliklərindən xəbər verirdi. O, Xarici İşlər Nazirliyinə yazırdı ki, Fransa Maliyyə Nazirliyinin vergi müfəttişi nümayəndə heyətinin başçısı ilə görüşərək, ondan son üç ilin gəlir vergisini ödəməyi tələb etmişdir, lakin sizə məlum olduğu kimi. Azərbaycan nümayəndə heyətinin Bakıdan gətirdiyi vəsait çoxdan tükənmiş və "bolşeviklərin müvəqqəti işğalı nəticəsində nümayəndə heyətinə Bakıdan

[58] G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.55

[59] ARPİİ SSA, f.1, s.88, i.5, v. 13; X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996, s.105

[60] ARPİİ SSA, f.1, s.85, i.748, v. 138; X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996, s.105

göndərilən vəsaitlər dayandırılmışdır". A.Atamalıbəyov qeyd edirdi ki, son illərdə Azərbaycan nümayəndə heyətinin heç bir yerdən gəliri olmamışdır və o, Fransa Xarici İşlər Nazirliyindən xahiş edirdi ki, bütün bu məsələlər barədə Maliyyə Nazirliyini və müvafiq qaydada vergi müfəttişliyini məlumatlandırsın.[61] 1922-ci ilin sentyabr ayının 19-da nümayəndə heyətinin başçısı bu məzmunda bir məktubla Maliyə Nazirliyi vergi müfəttişliyinə və 1923-cü ilin mart ayının 26-da Xarici İşlər Nazirliyinin Siyasi və Kommersiya departamentinin direktoru qraf Peretti dö lya Rokka müraciət etdi. Lakin Paris sülh konfransı tərəfindən de-fakto tanınmış Azərbaycan Respublikası faktiki olaraq, mövcud olmadığı üçün, Maliyyə Nazirliyi aprel ayının 12-də gəlir vergisi ilə bağlı diplomatik nümayəndəliklərə edilən güzəştlərin Azərbaycan nümayəndə heyətinə tətbiq edilə bilməyəcəyini bildirdi.[62] Aprel ayının 16-da nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşovun adına belə bir məktub Xarici İşlər Nazirliyindən də gəldi. Nazirliyin Siyasi və Kommersiya İşləri departamentinin direktoru qraf Perettinin imzaladığı məktubda göstərilirdi ki, sizin başçılıq etdiyiniz nümayəndə heyətinin diplomatik immuniteti tanınmadığı üçün Azərbaycan nümayəndə heyətinin üzvlərinin vergidən azad edilməsi haqqında sorğunuza müsbət cavab verə bilməməyimdən təəssüflənirəm. Sizin vergidən azad olunmağınıza indiki halda qanun yol vermir. Belə ki, Azərbaycanda Paris sülh konfransı tərəfindən tanınmış hökumət faktiki olaraq mövcud deyildir".[63]

Vergi məsələləri ilə bağlı mübahisələr başa çatmamış 1922-ci ilin sonunda Azərbaycan nümayəndələri yenidən viza almaq çətinlikləri ilə qarşılaşdılar. Nümayəndə heyətinin üzvlərinin viza müddətini uzatmaq üçün Ə.M.Topçubaşov 1922-ci ilin dekabr ayının 20-də Fransa Xarici İşlər Nazirliyinə müraciət etdi. Lakin vergi məsələsindən fərqli olaraq, bu məsələ tezliklə öz həllini tapdı. 1923-cü ilin yanvar ayında Fransa Xari-

[61] Au Ministère des Affaires Etrangères de la République Française - Secrétaire Général de la Délégation République d'Azerbaïdjan A. Atamalibekov. Le 7 juillet 1922.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 257

[62] Le Ministre des Finances à Monsieur le Président du Conseil, Ministre des Affaires Etrangères. Privilèges diplomatiques : Délégation de Paix de la République d'Azerbaïdjan, le 12 avril 1923.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 283

[63] Ministère des Affaires Etrangères, Direction des Affaires Politiques et Commerciales de Peretti - Monsieur Toptchibacheff, Président de la Délégation de Paix de la République d'Azerbaïdjan, 59, rue Spontini, Paris, le 16 avril 1923.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 284

ci İşlər Nazirliyinin Siyasi və Kommersiya İşləri departamentinin direktoru qraf Peretti dö lya Rokk Parisdə olan Azərbaycan nümayəndələrinin viza müddətinin uzadılmasına qərar verdi. Bununla bağlı Ə.M.Topçubaşov 1923-cü ilin yanvar ayının 29-da Fransa Xarici İşlər Nazirliyinə göndərdiyi təşəkkür məktubunda yazırdı: "Bu məsələnin müsbət həll olunması Fransanın gözəl və qonaqpərvər paytaxtında dördüncü ildir ki, mənim başçılığımla fəaliyyət göstərən nümayəndə heyətinə göstərilən diqqət və qayğının daha bir təzahürüdür. Bununla bağlı Fransa hökumətinə, Xarici İşlər Nazirliyinə və xüsusilə, Siyasi və Kommersiya İşləri departamentinin rəhbərliyinə təşəkkür etməyi özümə borc bilirəm".[64]

Viza məsələlərini həll etdikdən dərhal sonra Ə.M.Topçubaşov 1923-cü ilin fevral ayının 1-də Azərbaycandakı vəziyyət barədə Millətlər Cəmiyyətinin Baş katibi Erik Drümmonda geniş məktubla müraciət etdi. O, yazırdı ki, Azərbaycanın müsəlman əhalisinə yad olan rus bolşevik rejimi qırmızı süngüyə söykənərək, ölkəni məhv etməkdədir. Bolşeviklərin Azərbaycanda yeritdiyi işğalçılıq siyasəti haqqında Əli Mərdan bəy əvvəllər də Millətlər Cəmiyyətinin Baş Məclisini məlumatlandırdığını yazırdı. O, qeyd edirdi ki, ziyalılar arasından, dövlət xadimləri və hərbi dairələrdən öz vətənpərvərliyi ilə seçilən adamlar həbsxanalara atılırlar. Onun fikrincə, "bolşeviklər Azərbaycanın müstəqilliyini tanıdıqlarını bəyan etsələr də və bunun sübutu kimi, azərbaycanlılar içərisindən özlərinə yaxın olan tərəfdarlarını komissar vəzifələrinə təyin etsələr də, lakin xalq anladı ki, bütün bunlar görüntü üçündür və istər onların Azərbaycanın müstəqilliyini tanımaq barədə bəyanatları və istərsə də yerli nümayəndələrdən təyin etdikləri komissarlar bolşeviklərin öz məqsədlərinə nail olmaq, ölkəni xarabazarlığa çevirmək, bizim ölkəni talamaq, onun təbii sərvətlərini ələ keçirmək yolunda bir vasitəyə çevrildi". Ə.M.Topçubaşov Cənubi Qafqazda gedən siyasi proseslərə, Cənubi Qafqaz Federasiyasının və SSRİ-nin yaranması ilə bağlı məsələlərə toxunaraq yazırdı ki, "qırmızı ordunun əsgərlərinə, əhalinin terror edilməsinə arxalanaraq, rus bolşevikləri Azərbaycan, Ermənistan və Gürcüstanda əvvəlcə mövcud olan avtonom sovet hökumətlərini ləğv edərək, bütün Cənubi Qafqaz üçün vahid bir hökumət yaratdı və bununla da kifayətlənməyərək, xarici siyasət fəaliyyəti, maliyyə, ordu, ticarət və

[64] Monsieur le Ministre Plénipotentiaire, Directeur des Affaires Politiques et Commerciales du Ministère des Affaires Etrangères de Peretti - Président de la Délégation de la Paix de la République d'Azerbaïdjan Toptchibacheff, le 29 janvier 1923.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 278

sənaye, nəqliyyat və rabitə işlərini Moskvanın, rus komissarlarının ixtiyarına verdi. Bolşeviklərin planına görə, hazırda bütün Cənubi Qafqaz çar Rusiyası rejimi dövründə olduğu kimi, Sovet Rusiyasının ayrılmaz hissəsidir və bu məqsədlə son vaxtlarda ruslara söykənərək, vahid sovet sosialist federasiyası yaradılmışdır". Əli Mərdan bəy qeyd edirdi ki, Rusiyada hansı siyasi quruluşun hökmranlığından asılı olmayaraq, Azərbaycan xalqı öz müstəqilliyini itirməklə və zorla Rusiya dövlətinin tərkibinə qatılmaqla razılaşmayacaqdır. O yazırdı: "Xalq bununla ona görə razılaşmayacaqdır ki, azərbaycanlılar 1918-ci ilin may ayının 28-də öz siyasi azadlıqlarını bəyan etmiş, açıq və qəti olaraq, Rusiyadan ayrılmaq arzusunu ifadə etmiş və Azərbaycanın ərazisində xalq nümayəndəliyinin azad seçkili təmsilçiliyi, bütün vətəndaşların ölkə qanunları qarşısında tam bərabərliyi, xüsusi mülkiyyət hüququnun tanınması, işçilərin azadlığı və ölkənin səmərəli iqtisadi inkişafı prinsiplərinə əsaslanan müstəqil Demokratik Respublika qurmuşlar". Məktubun sonunda Əli Mərdan bəy başçılıq etdiyi nümayəndə heyətinin adından bütün dünya və Millətlər Cəmiyyəti qarşısında bəyan edirdi ki, Azərbaycan xalqı zor gücünə onun ərazisinin Sovet Rusiyasına birləşdirilməsi ilə barışmayacaqdır.[65]

1923-cü ilin avqust ayının 23-də Ə.M.Topçubaşov bu məzmunda bir məktubla Fransanın Baş naziri və xarici işlər naziri Raymon Puankareyə müraciət etdi. O, bu məktubla Fransa Baş Nazirinin diqqətini rus bolşeviklərinin və onların yerlərdəki həmfikirlərinin Azərbaycanda törətdiyi zorakılıq hallarına və repressiyalara cəlb edirdi. O yazırdı ki, ÇK *(Fövqəladə komissiya – C.H.)* adı ilə əhali arasında qorxunc kabusu yaranmış bolşevik repressiya maşını zor gücünə sovet rejiminin mövcudluğunu təmin edir, qanunsuz axtarışlar, geniş müsadirələr, mütəmadi sürgünlər və kütləvi qətllər daimi xarakter alır. Əli Mərdan bəy əlavə edirdi ki, hələ çar hökuməti dövründə həyata keçirilmiş ruslaşdırma siyasəti, yerli əhalinin dili, ədəbiyyatı və mətbuatının təqib edilməsi bolşeviklər tərəfindən də davam etdirilir. O, qeyd edirdi ki, 1923-cü ilin mart ayında Şamaxı, Göyçay və Cavad qəzalarında Sovet hakimiyyətinə qarşı üsyanlar baş vermiş, bu üsyanları yatırmaq üçün Bakı və Tiflisdən əlavə bolşevik qüvvələri gətirilmiş və həmin qüvvələr üsyan etmiş əhaliyə divan tutmuş, Bakı-Gəncə dəmiryolu boyunca yerləşən Kürdəmir ərazisində beş kəndi yer üzündən silmiş, bu ilin

[65] Sir Eric Drummond, Secrétaire Général de la Société des Nations - A.M.Toptchibacheff Président de la Délégation de Paix de la République d'Azerbaïdjan. Le 1er février 1923.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 279-282

iyun ayında bolşevik hökuməti paytaxt və əyalətlərdə ziyalılar arasından 400 nəfər günahsız adamı həbsə almışdır. Həbs olunan ziyalılardan Əli Mərdan bəy "keçmiş nazir Nəriman bəy Nərimanbəyli, parlament üzvü Məmmədrza Vəkilov, həkim Ağa Əlizadə, elm adamı Məmməd Həsən Baharlı, müəllim Müseyib Bədəlbəyli, mühəndis Məmmədli, jurnalist Hüseyin Sadıq, fəhlə sinfinin nümayəndəsi Kərbəlayi Vəli, tələbə Nərimanbəyli, yazıçı Cabbarzadə *(Cəfər Cabbarlı – C.H.)* və digərlərinin" adını çəkirdi. Ziyalılara qarşı bolşeviklərin başladığı bu qəddarlığı o, siyasi və iqtisadi baxımdan aydınların Azərbaycanın müstəqilliyi ideyasının daşıyıcıları olması ilə izah edərək yazırdı: "ziyalıları təqib etmək, onları zindanlara salmaq, müstəqillik ideyasının tərəfdarlarını boğmaqla bolşeviklər xalqı başsız qoymağa ümid bəsləyirlər, Azərbaycanı heç bir azadlığın olmadığı, xalqların heç bir hüququnun, insan haqları və mülkiyyət toxunulmazlığının tanınmadığı, milli dil, ədəbiyyat və mətbuatın inkişafına dayanan öz müqəddəratını təyin etmə prinsipinin, azad iqtisadiyyat, ticarət və sənayenin inkar edildiyi sovet "respublikasına" çevirmək istəyirlər." Məktubun sonunda Ə.M.Topçubaşov Fransa Baş naziri R.Puankaredən xahiş edirdi ki, humanitar prinsipləri əsas tutaraq, bolşevik zorakılığı ilə qarşılaşmış 400 nəfər Azərbaycan ziyalısına mənəvi yardım göstərsin, bu bədbəxt insanların həyatını təhdid edən təhlükədən qurtarmaqda onlara dayaq olsun.[66]

Lakin Azərbaycanın işğalı və bolşeviklərin ölkədə törətdiyi qanunsuzluqlarla bağlı Ə.M.Topçubaşovun və nümayəndə heyətinin ayrı-ayrı üzvlərinin Fransa və Avropanın digər dövlətlərinin başçılarına edilmiş müraciətləri bir qayda olaraq cavabsız qalırdı. A.Brian hökuməti hakimiyyətdən getdikdən sonra Fransa siyasi və işgüzar dairələri müxtəlif yollarla Moskva ilə münasibətləri yumşaltmağın yollarını axtarır və Bakı neftinə doğru öz yolunu Rusiya paytaxtından salmağa meyllənirdi. 1923-cü ilin yayında Parisdə olan Azərbaycan nümayəndə heyətinə belə bir məlumat çatmışdı ki, bir qrup fransız neft mühəndisi artıq Moskvaya yetişmiş və bu günlərdə Bakıya yola düşməyə hazırlaşırdı. Bu məlumatı dəqiqləşdirmək üçün nümayəndə heyətinin katibi C.Hacıbəyov 1923-cü ilin iyul ayının 20-də Fransa Xarici İşlər Nazirliyinin Sənaye və Kommersiya departamentinin direktoru qraf Peretti ilə görüşdü. Ceyhun bəy bildirdi ki, bir qayda olaraq, əvvəllər Ba-

[66] A Son Excellence Monsieur Raymond Poincaré, Président du Conseil des Ministres et Ministre des Affaires Etrangères de la République Française - A.M.Toptchibachef Président de la Délégation de Paix de la République d'Azerbaïdjan, le 23 août 1923.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 287-288

kıya gedən Fransa iş adamları və mütəxəssisləri Parisdə olan Azərbaycan nümayəndələri ilə görüşür, onlardan məsləhətlər alırdı və hətta, maliyyə imkanları olanda nümayəndə heyəti Bakıya yollanan fransız iş adamları üçün Azərbaycan dili kursları təşkil edir, onlara Azərbaycanın iqtisadi və mədəni həyatı barədə ilkin bilgilər verirdi. Lakin o, qeyd etdi ki, maliyyə çətinlikləri ucbatından indi bunları etmək mümkün deyildir. Ceyhun bəy dedi ki, A.Brian hökuməti dövründə Fransa Xarici İşlər Nazirliyi Fransa işgüzar dairələrinin Azərbaycan nümayəndə heyəti ilə görüşünü məqsədəuyğun sayır və fransız iş adamlarını belə görüşlərin keçirilməsinə təşviq edirdi. Bu işlərin davam etdirilməsi məqsədilə, o, Ə.M.Topçubaşovun Baş nazir və xarici işlər naziri R.Puankare ilə görüşmək arzusunda olduğunu bildirdi və belə bir görüşün keçirilməsi barədə qraf Perittidən məsləhət istədi. Eyni zamanda, Ceyhun bəy dedi ki, Bakıya səfər edən fransız iş adamları Parisdə nümayəndə heyəti ilə müqavilə imzalaya bilər və ya nümayəndə heyəti fransız iş adamlarını neft sənayesində milyardlarla aksiyası olan Azərbaycan kapitalistləri ilə görüşdürüb, onlarla işgüzar əlaqələrini qura bilər. Lakin Peretti ilk öncə fransız mühəndislərinin Bakıya səfəri barədə məlumatlı olmadığını bildirdi və əlavə etdi ki, fransız iş adamları, istər, nümayəndə heyəti, istərsə də Azərbaycan kapitalistləri ilə müqavilə bağlamaqda azaddırlar. Bununla belə, o, qeyd etdi ki, hökumət bu məsələdə onların işinə müdaxilə edə bilməz, işgüzar dairələri nümayəndə heyəti ilə müqavilə imzalamağa təhrik edə bilməz və hər hansı uğursuzluq baş verərsə, həmin uğursuzluğun məsuliyyətini öz üzərinə ala bilməz. Nəhayət, Peretti dedi ki, onların bildiyinə görə, Azərbaycanda xüsusi mülkiyyət millileşdirilib və aksiya sahiblərinin əlində elə bir şey qalmayıb. Buna cavab olaraq, Ceyhun bəy bildirdi ki, ölkədə bolşevik rejimi uzun sürməyəcək və Azərbaycan öz sərvətlərini geri qaytaracaq.[67] 1923-cü ilin yayında keçirilmiş bu görüş özü də Fransa siyasi dairələrinin Qafqaz, o cümlədən, Azərbaycan mühacir hökumətinə marağının zəifləməsinin bir göstəricisi idi.

Digər tərəfdən, mühacir hökumətlərinin ciddi cəhdlərinə baxmayaraq, Qərb siyasi dairələri getdikcə anlayırdılar ki, Sovet hökuməti bolşevizmə qarşı müqavimət göstərən milli qüvvələri tədricən sıradan çıxarır və hətta, sovetlərin qatı əleyhdarı sayılan islam din xadimlərini, belə, özünə tabe edir-

[67] Visite de M.Djeyhoun Bey Hadjibeyli, Membre de la Mission diplomatique de la République d'Azerbaïdjan - Ministère des Affaires Etrangères, Direction des Affaires Politiques et Commerciales à M. de Peretti, le 20 juillet 1923.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 285-286

di. 1923-cü ilin sentyabr ayının 19-da Moskvanın göstərişi ilə Azərbaycanın müsəlman ruhaniləri Sovet hökumətini müdafiə edən müraciət qəbul etmişdilər. Qafqazın və Şərqin müsəlman əhalisi içərisində yayılmaq üçün müraciət Azərbaycan Xalq Komissarları Soveti tərəfindən bir milyon nüsxə tirajla nəşr edilmişdi. Sentyabr ayının 28-də həmin müraciətin mətni Kopenhagendəki Fransa səfirliyi tərəfindən Nazirlər Şurasına və Xarici İşlər Nazirliyinə göndərilmişdi.[68] Orada deyilirdi: "Sovet hökuməti yeganə düzgün hokumətdir. O dünyada bütün məzlum xalqların maraqlarının müdafiəçisi kimi çıxış edir. İngilislərin Qafqaz və Türküstanda, İranda və Yaxın Şərqin bütün qalan hissəsində intriqalarının, fransız və italyanların Əlcəzair, Tunis, Mərakeş və Tripolitaniyada bizim dindaşlarımaza zülm etməsinin qarşısını müsəlmanların və Sovet hökumətinin birgə səyi nəticəsində almaq olar. Sovet hökuməti qurulandan bəri Qərbi Avropanın müstəbidləri özlərini narahat hiss etməyə başlayıblar. Onlar bütün vasitələrlə sovetləri məhv etməyin yollarını axtarırlar. Ona görə də müsəlman dininə iman gətirənlər Sovet hökuməti ilə bir olub, müsəlmanların ənənəvi düşməni olan ingilis, fransız və italyanlara qarşı mübarizə aparmağa borcludurlar".[69]

1922-ci ilin ilk günlərindən başlayaraq, Avropadakı Azərbaycan mühacirləri və digər Qafqaz respublikalarının nümayəndələri müttəfiqlərin Kann müşavirəsində, daha çox Bakı nefti üzərində qurulmuş Genuya və Haaqa konfranslarında fəal mövqe nümayiş etdirdilər. Bütün hallarda Genuya və Haaqa konfranslarının nəticəsiz qalmasında Qafqazın mühacir hökumətlərinin, xüsusilə, Bakı nefti məsələsində Azərbaycan nümayəndələrinin tutduğu sərt mövqe Sovet Rusiyası ilə iqtisadi əməkdaşlığa meylli olan Qərb ölkələri üçün çəkindirici rol oynadı. 1922-ci ilin noyabr ayının 20-də işə başlayan Lozanna konfransına Cənubi Qafqazın mühacir hökumətlərinin təmsilçiləri, o cümlədən, Azərbaycan nümayəndələri Fransanın yardımı ilə qatılmaq istəsələr də, Britaniya hökuməti bununla razılaşmadı. Gürcüstan nümayəndələri bilavasitə öz ölkələrini Qara dəniz dövləti hesab edir, Azərbaycan və Ermənistan nümayəndələri isə ölkələrinin Qərbi Avropa ilə əlaqələrinin Qara dəniz və boğazlar vasitəsi ilə olduğunu bildirirdilər.

[68] Le Ministre de France en Danemark, à Son Excellence Monsieur le Président du Conseil, Ministre des Affaires Etrangères à Paris, le 28 septembre 1923.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 289

[69] Les Musulmans d'Azerbaïdjan et le bolchevisme. Annexe à la Dépêche № 742 de la Direction Politique et Commerciale en date du 19 septembre 1923.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 290

Eyni zamanda, hər üç Cənubi Qafqaz nümayəndələri öz ölkələrinin Lozanna konfransında müzakirə edilən Şərq məsələsində maraqlı olduqlarını bildirirdilər. Lakin Britaniya Baş Naziri Lloyd Corc və xarici işlər naziri lord Kerzon təkid etdilər ki, onlar öz ərazilərinə nəzarət etməyən hökumətlərin təmsilçilərini konfransa dəvət edə bilməzlər. Britaniya hökumət başçılarının belə kəskin müqavimətinə baxmayaraq, Lozannada müzakirə edilən məsələləri diqqət mərkəzində saxlamaq və Azərbaycan haqqında konfrans nümayəndələrini məlumatlandırmaq məqsədilə Ə.M.Topçubaşov 1923-cü ilin əvvəllərində Lozannaya getmişdi.[70] Bununla yanaşı, Qərb müttəfiqləri Sovet Rusiyasının Ukrayna və Gürcüstan Sovet Respublikalarının adından da Lozanna müqaviləsini imzalamaq cəhdlərilə razılaşmadılar. Ona görə də Lozanna müqaviləsi 1923-cü ilin iyul ayının 24-də yalnız Sovet Rusiyası tərəfindən imzalandı. Bütövlükdə, Lozanna müqaviləsi Türkiyənin mövqelərini gücləndirdi. Yunanlar üzərində qələbədən sonra İzmir daxil olmaqla, Anadolu və Şərqi Frakiya üzərində kamalçıların hakimiyyətini müttəfiqlər tanıdı və 1922-ci ilin oktyabr ayının 11-də imzalanmış Mudaniya müqaviləsinin şərtləri Lozannada etiraf edildi. Lozanna konfransından sonra Qərb siyasətçiləri Qafqaz mühacir hökumətlərinin nümayəndələrinə də tövsiyə edirdilər ki, kamalçı Türkiyə ilə əməkdaşlıq etsinlər. Bu tövsiyələrin nəticəsi kimi, 1923-cü ilin dekabr ayının 20-də Ə.M.Topçubaşov və A.Çxenkeli Türkiyə hökumətinin başçısı və xarici işlər naziri İsmət İnönüyə birgə məktubla müraciət etdilər. Onlar yazırdılar ki, əgər kamalçılar Qafqaz xalqlarının milli-azadlıq hərəkatına dostcasına yanaşsalar, Azərbaycan və Gürcüstanın mühacir hökumətləri Qars müqaviləsinin tanınması ilə razılaşa bilərlər.[71]

1924-cü ilin əvvəllərindən başlayaraq, Avropada Sovet İttifaqının tanınması prosesinin genişlənməsi Qafqazın mühacir hökumətləri üçün arzuolunmaz vəziyyət yaradırdı. Ona görə də yanvar ayında Azərbaycan və Gürcüstan nümayəndələri bu məsələni müzakirə edib, Fransa, İngiltərə və İtaliya hökumətlərinə notalar təqdim etdilər. Lakin aparıcı Qərb ölkələrinin işgüzar dairələrinin Rusiya xammalına ehtiyacı böyük olduğu üçün SSRİ-nin Qərbi Avropa ölkələri tərəfindən geniş tanınma dalğasının qarşısını almaq mümkün olmadı. Azərbaycan nümayəndələrinin görüşdüyü Qərb

[70] V.İmanov. Ali Merdan Topçibaşı. Lider bir aydın ve Bağımsız Azerbaycan Cumhuriyeti'nin Temsili. İstanbul, 2003, s.210

[71] G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.76-77

siyasi dairələri açıq şəkildə etiraf edirdilər ki, neçə illərdir bütün etirazlara, xalq həyəcanları və bolşeviklərin tezliklə yıxılacağı haqqında vədlərə baxmayaraq, Sovet hökuməti, demək olar ki, keçmiş Rusiya imperiyasının bütün ərazilərinə nəzarəti əlində saxlayır. Avropa kapitalizminin sabitləşmə dövrünə qədəm qoyması dövründə Rusiyanın tükənməz təbii ehtiyatlarına olan böyük marağı Sovet İttifaqı ilə yaxınlaşmanı zəruri edir və bu proses dərinləşdikcə mühacir hökumətlərin Parisdəki nümayəndələrinə münasibət soyuqlaşır, onların onsuz da ağır olan maliyyə vəziyyətləri daha da ağırlaşırdı.[72] 1924-cü ilin fevral ayında Azərbaycan nümayəndə heyəti ayrılıqda və Gürcüstan nümayəndələri ilə birlikdə yaranmış vəziyyəti müzakirə edib, Qərb dövlət başçılarına müraciətlər göndərdi.

1924-cü ildə Fransada sosialistlərin, Britaniyada leyboristlərin hakimiyyətə gəlməsi SSRİ-ilə münasibətlərin yumşalmasına şərait yaratdı. Fransada 1924-cü ilin iyun ayının 14-də hakimiyyətə gələn Eduard Herrio hokumətinin ilk addımlarından biri Sovet İttifaqı ilə diplomatik münasibətlərin yaradılmasını ictimai müzakirəyə çıxarmaq oldu. E.Herrio hakimiyyətə gələndən sonra ona ilk müraciət edənlərdən biri Ə.M.Topçubaşov oldu. İyun ayının 17-də Fransa Baş Naziri və xarici işlər naziri kimi, ona ünvanlandığı məktubda Əli Mərdan bəy Herrionun diqqətinə Azərbaycanla bağlı bir sıra mühüm məqamları çatdırırdı. O, Azərbaycanın 1918-ci ilin mayında azərbaycanlılar yaşayan ərazidə öz istiqlaliyyətini elan etməsini və bu istiqlaliyyətin 1920-ci ilin yanvar ayının 12-da Versal Ali Şurası tərəfindən de-fakto tanındığını Fransa Baş nazirinə xatırladırdı. Daha sonra Topçubaşov məlumat verirdi ki, 1920-ci ilin aprel ayında dünya birliyi tərəfindən tanınmış Azərbaycanı işğal edən rus bolşevikləri milliləşdirmə adı altında Bakının neft mədənlərini, Xəzərin balıqçılıq sənayesini və ölkənin digər təbii sərvətlərini ələ keçirmişdir. O yazırdı: "Qırmızı Ordunun süngüsünə arxalanan rus bolşevikləri müstəqil Azərbaycandan qalma nə varsa hamısını dağıtmağa cəhd göstərir və bu məqsədlə bolşeviklər Moskva ÇK-sının gizli agentləri vasitəsi ilə başlıca olaraq, ziyalıları fiziki və mənəvi cəhətdən məhv edir, onları kütləvi şəkildə həbsxanalara doldurur və ya uzaq Sibirə sürgün edirlər". Əli Mərdan bəy rus bolşeviklərinin

[72] Bax: Ə.M.Topçubaşovun M.Ə.Rəsulzadəyə məktubu. 09.02.-14-15.04.1924.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris; A.M. Топчибаши и М.Э.Расулзаде: Переписка. 1923-1926 гг. Сост., предисл. и прим. С.М.Исхаков. М.,2012, с.23-27

Azərbaycanda yeritdiyi siyasətin Rusiya imperiyasının Qafqazda yeritdiyi siyasətdən heç nə ilə fərqlənmədiyini bildirir və yazırdı: "Çar Rusiyası Qafqazı işğal etdikdə əvvəlcə orada canişinlik sistemi yaratdı, sonra isə işğal etdiyi bütün əraziləri imperiyanın tərkibinə qatdı. İndi də çarizm dövründə olduğu kimi, ölkə Moskvanın göstərişləri və onun adamları vasitəsi ilə idarə olunur, qeyri-rus xalqlara münasibətdə imperialist və müstəbid metodlar davam etdirilir. Hazırda Azərbaycan "Sovet Sosialist Respublikaları İttifaqı" deyilən bir qurumun tərkibinə daxil edilmişdir... Rus ağalığının bütün dövründə təsdiq edilmişdir ki, irq, dil, din, ənənə, düşüncə, mədəniyyət, adət baxımından bizim xalq slavyanlardan tamamilə fərqli bir xalqdır. Aydındır ki, Azərbaycanı "İttifaq"ın cərcivəsinə salmaq, bolşeviklərin tərəfdar çıxdıqları xalqların öz müqəddəratını təyin etmə prinsipini kobudcasına pozub, onu adi bir rus əyalətinə çevirmək deməkdir". Əli Mərdan bəy bildirirdi ki, hazırkı sərhədlər daxilində Sovet İttifaqını tanımaq, bu birliyə öz iradələrinin əleyhinə olaraq, zorla daxil edilmiş xalqların siyasi intiharı demək olardı. Ona görə, o, Fransa Respublikasının Baş naziri, xarici işlər naziri kimi, E.Herrioya təklif edirdi ki, əgər onun hökumətinin Sovet Rusiyasını tanımaq niyyəti varsa, ilk növbədə rus bolşeviklərinə işğal etdikləri ərazilərdən, o cümlədən, Azərbaycandan öz ordularını çıxarmağı xatırlatmaq lazımdır. Məktubun sonunda Ə.M.Topçubaşov yazırdı: "Biz ümid edirik ki, Sülh konfransında bizim gənc respublikamızın tanınması kimi, xeyirxah təşəbbüsü öz üzərinə almış, Şərq xalqlarına həmişə yaxşı münasibət ifadə etmiş Fransa hökuməti azərbaycanlılar üçün həyati əhəmiyyət kəsb edən, yaxın Şərqdə sabitlik üçün müstəsna əhəmiyyətə malik olan bu məsələdə öz köməyini əsirgəməyəcəkdir".[73] Qafqazın mühacir hökumətlərini təmsil edən nümayəndələrin ciddi cəhdlərinə baxmayaraq, E.Herrio hökuməti müəyyən şərtlər daxilində 1924-cü ilin oktyabr ayının 28-də SSRİ-ni tanıdı və onunla diplomatik münasibətlər yaratdı. Bununla bağlı Ə.M.Topçubaşov "Fransanın Sovetləri tanımasına dair"adlı məqalə yazıb, M.Ə.Rəsulzadənin İstanbulda nəşr etdiyi "Yeni Kafkasiya" jurnalına göndərdi.[74]

[73] Son Excellence Monsieur Edouard Herriot Président du Conseil de la République Française Quai d'Orsay Paris - A.M.Toptchibachelf Président de la Délégation de Paix de la République d'Azerbaïdjan. Le 17 juin 1924.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 291-295

[74] Ə.M.Topçubaşovun M.Ə.Rəsulzadəyə məktubu. 27-30.11.1924.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris; A.M. Топчибаши и М.Э.Расулзаде: Переписка. 1923-1926 гг. Сост., предисл. и прим. С.М.Исхаков. М.,2012, с.64

Bakıdakı həbslərlə bağlı Əli Mərdan bəy Parisdəki İran nümayəndəsi ilə də görüşdü. Lakin o, təəssüf edirdi ki, İran məmurlarını indi başlıca olaraq, bir məsələ - öz vəzifələrini qoruyub saxlamaq məsələsi düşündürür. Ona görə də onlar 1920-1921-ci il hadisələrindən sonra İranda güclü təsir qoymuş bolşeviklərlə ehtiyatlı dolanmağa üstünlük verirdilər. Bunları müşahidə edən Ə.M.Topçubaşov 1925-ci ilin yazında İstanbula - Məmməd Əmin bəyə yazırdı ki, "onların, demək olar ki, hamısı bolşeviklərdən daha çox qorxurlar, nəinki, şah olaraq, Rıza xandan, ona görə də bir növ bolşeviklərə yarınmağa çalışırlar".[75]

1924-cü başlanan SSRİ-ni tanıma hərəkatı ilə Azərbaycan və keçmiş Rusiya imperiyasından mühacirət etmiş bütün xalqların nümayəndələri üçün ağır bir dövr başlayırdı. Bu dövrü səciyyələndirərək, artıq *maliyyə çətinlikləri* səbəbindən Paris ətrafındakı Sen-Kluya köçmüş Ə.M.Topçubaşov 1924-cü ilin aprel ayının ortalarında Türkiyədə ikinci bir mühacirət mərkəzini formalaşdıran M.Ə.Rəsulzadəyə yazırdı ki, əgər sülh konfransı *(Paris konfransı nəzərdə tutulur – C.H.)* dövründə bizim hamımıza rəğbətlə və xeyirxahlıqla yanaşırdılarsa, sonra bizə sadəcə olaraq dözürdülər, Lozannadan sonra isə bu dözüm öz yerini çoxmənalı susqunluğa verməyə başladı. O, qeyd edirdi ki, əvvəlcə İtaliya, sonra isə İngiltərə hökuməti bizi diplomatik viza siyahısından çıxardı, Fransa Xarici İşlər Nazirliyi də eyni addımı atmaq istəyirdi, lakin əvvəlki qaydaları bərpa etmək mümkün oldu, amma, əgər sabah Fransa Sovetləri tanısa, vəziyyət pisliyə doğru dəyişəcək. [76]

§2. Azərbaycan mühacirətinin Türkiyədə təşkilatlanması. İstanbul mərkəzi ilə Paris mərkəzinin siyasi-diplomatik fəaliyyəti

1922-ci ilin sonlarında M.Ə.Rəsulzadənin Moskvadan Finlandiya vasitəsi ilə İstanbula gəlməsi Türkiyədə məskunlaşmış Azərbaycan mühacirlərinin təşkilatlanmasında mühüm hadisə oldu. İstanbula gələn kimi, 1922-ci ilin noyabr ayının 30-da "Yeni Şərq" qəzeti Rəsulzadə ilə geniş müsahibə dərc etdi. Müsahibənin əvvəlində qəzet məlumat verirdi ki, "bir

[75] Ə.M.Topçubaşovun M.Ə.Rəsulzadəyə məktubu.27.03-07.04.1925.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris

[76] Ə.M.Topçubaşovun M.Ə.Rəsulzadəyə məktubu.14-15.04.1924.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris

müddət əvvəl Azərbaycan Milli Şurasının keçmiş sədri, Azərbaycan kökənli türk millətçisi Məmməd Əmin bəy Rəsulzadə bizim şəhərimizə gəlmişdir". Qəzetin suallarına cavab olaraq, M.Ə.Rəsulzadə bildirdi ki, "çarizm zadəganlığa söykənən diktatura idi, bolşevizm isə fəhlə sinfinə söykənən diktaturadır. Çar mütləqiyyətinin ideologiyası Rusiyada yaşayan bütün millətləri ruslaşdırmaq idi, bolşevik mütləqiyyətinin məqsədi isə Rusiyada məskunlaşmış bütün millətləri milli sifəti olmayan kütləyə çevirməkdir. Birinci halda, ağalıq edən ideologiya rus zadəganlığından qidalanıb, rus şovinizmini özündə ehtiva edir. İkinci halda isə hökmranlıq edən ideologia rus fəhlə sinfinin həqiqətlərindən doğub, kosmopolitizmi özündə əks etdirir. Forma etibarı ilə bunlar fərqli şeyləri özündə əks etdirsə də, lakin məzmun etibarı ilə bu əsl həqiqətdə rus mərkəzçiliyindən və rus imperializmindən başqa bir şey deyildir. Bu mənada, qırmızı Rusiya ilə ağ Rusiya arasında elə də fərq yoxdur".[77]1923-cü ilin yanvar ayının 1-də keçmişdə birinci rus inqilabından yaxşı tanıdığı İ.Stalinə məktubla müraciət edən M.Ə.Rəsulzadə yazırdı ki, taleyin hökmü ilə hakimiyyət sükanı arxasına keçən Kommunist Partiyası bütün cəbhələrdə öz ideologiyasından geri çəkilərək, köhnə Rusiya İmperiyasının bərpası ideyasına gəlməli oldu. Məktubda qeyd edilirdi ki, Qafqazın müstəqilliyi çar canişini dövründə, indiki "Qafqaz Diyar Komitəsi Katibinin" dövründə olduğundan heç də az deyildi, lakin müstəqilliyin ləğv edilməsi prosesi indi çar dövründə olduğundan daha sürətlə gedir.[78]

M.Ə.Rəsulzadə İstanbula yetişdikdən sonra Gürcüstanın sovetləşməsindən sonra Türkiyəyə sığınmış müsavatçılarla birlikdə, 1922-ci ilin sonlarında Müsavat Partiyasının Xarici Bürosunu qurdu və ona başçılıq etdi.[79] Qısa müddətdə Azərbaycan mühacirlərinin yaşadığı Türkiyənin müxtəlif şəhərlərində və İranda Müsavat Partiyasının yerli komitələri yaradıldı. Bütün yerli komitələrə Xarici Büronun Rəyasət Heyəti tərəfindən rəhbərlik edilirdi. M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi Rəyasət Heyətinə X.Xasməmmədov və M.S.Axundazadə daxil idilər. Xarici Büro tam konspirasiya şəraitində fəaliyyət göstərir, Azərbaycanda partiya fəalları və partiyanın xarici komitələri ilə gizli əlaqələr saxlanılırdı. Azərbaycanla əlaqə məsələlərinə Rəyasət Heyətinin üzvü M.S.Axundzadə məsuliyyət daşıyır və əldə etdiyi məlumatları bilavasitə M.Ə.Rəsulzadəyə məruzə edirdi. Türkiyəyə mühacirət edə bilmiş Musta-

[77] M.Ə.Rəsulzadənin "Yeni Şərq" həftəlik qəzetinə müsahibəsinin mətni. Millətlər Komissarlığının müşayət məktubu ilə (Braydo). 06.02.1923.// RDSSTA, f.558, s.11, i.746, v.26

[78] "Истоник", 1994, № 6, с.83–84

[79] M.B.Məmmədzadə. Azərbaycan milli hərəkatı. Bakı, 1992, s.177

fa bəy Vəkilov, Abbasqulu Kazımzadə, Musa bəy Rəfiyev, İ.Nəzərəlizadə, H.Fəttahov, Əli Əsədullayev, Əmir xan Xoyski, S.Ağasıbəyov, Ə.Cəbiyev, N.Şirinbəyov, H. Qaracazadə, Mirzə bəy Hacızadə, K.Qənizadə və digərləri Xarici Büronun işində yaxından iştirak edirdilər.[80]

Xarici Büronun işinə əməli xarakter vermək və antisovet təbliğatı genişləndirmək məqsədilə M.Ə.Rəsulzadə 1923-cü ildə "Yeni Kafkasiya" jurnalının nəşrinə başladı. Jurnal, yalnız, Azərbaycan məsələsi ilə deyil, bütövlükdə, Qafqazda Sovet siyasətinin ifşa edilməsini önə çəkir, bolşevik müstəmləkəçiliyinin əsl mahiyyətini ortaya qoyur və regionda gedən proseslərə ümumi Qafqaz maraqları baxımından yanaşırdı. "Yeni Kafkasiya"nın təsisçisi və baş redaktoru M.Ə.Rəsulzadə, onun məsul redaktoru Dağıstanlı Səid Əfəndi, redaksiya şurasının üzvləri Ş.Rüstəmbəyov, Ə.Cəfəroğlu, X.Xasməmmədov, Ə.Abid və Buxara Respublikasının keçmiş başçısı Osman Xocayev idi. "Yeni Kafkasiya" Sovet siyasətini elə sərt formada tənqid edirdi ki, Bakıda çıxan "Kommunist" və "Bakinskiy raboçiy" qəzetlərinin ona cavab olaraq, dərc etdiyi yazılar kifayət etmirdi. Ona görə də, bəzən Sovetlərin başlıca mətbuat orqanı sayılan "Pravda" və Millətlər Komissarlığının əsas elmi-akademik jurnalı kimi, nəşr olunan "Noviy Vostok" işə qarışmalı olurdu.[81] Jurnalın demək olar ki, hər nömrəsi rus dilinə tərcümə edilib, bolşevik liderlərinə göndərilirdi. 1927-ci ilə qədər nəşr olunmuş bu jurnalın mühacirət tarixində və milli mücadilə hərəkatında roluna toxunaraq, M.B.Məmmədzadə yazırdı: "Yalnız azərbaycanlıların deyil, bütün əsir türklərin xaricdə çıxardıqları ilk dərgi olan və istila altındakı bütün əsir millətlərin, bilxassə, Qafqaziya millətlərilə türk və müsəlman ellərinin həyat və mücadilələrini əks etdirən "Yeni Kafkasiya" ilə başlayan milli nəşriyyat, milli istiqlal savaşımızın tarixi vəsiqələri olaraq qalacaqdır".[82] Müsavatçıların xarici ölkələrdə başladığı antisovet işlə bağlı Q.Orconikidze. hələ 1923-cü ilin iyul ayında keçirilən XII Ümumi Bakı Partiya konfransındakı nitqində deyirdi: "Yoldaşlar İran və Türkiyədə müsavatçıların Sovet hakimiyyəti əleyhinə qızğın iş apardığını gizlətmək lazımdırmı? Onlar sübut etmək istəyirlər ki, Azərbaycanda azərbaycançılıqdan heç nə qalmayıb. Onlar məsələni belə qoyurlar: Azərbaycanın bütün taleyi Krılov və Kirov tərəfindən həll edilir, MK-nın katibi Kirov və şəhər İcraiyyə Komitəsinin sədri Krılovdan başqa heç kim heç nəyi həll edə bilməz. Onlar bütün dünyaya

[80] X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996, s.107-108
[81] А.Балаев. Мамед Амин Расулзаде (1884-1955). М., 2009, с.226
[82] Azerbaycan, 1953, № 7(19), s.32

çar çəkirlər ki, indi Azərbaycanda rusların tam hökmranlığı mövcuddur".[83] Əslində, müsavatçıların təqib olunması haqqında təlimatlar Ankarada olan Sovet səlahiyyətli nümayəndəsi Nasarenusa Moskva müqaviləsi imzalandıqdan az sonra verilmişdi. 1921-ci ilin iyun ayında G.Çiçerin ona yazırdı ki, sizin başlıca vəzifəniz Türkiyə hökumətinin müsavatçılara göstərdiyi yardımın qarşısını almaqdır. O yazırdı: "Moskva müqaviləsinə qədər xüsusilə, Dağıstan və Bakı müsavatçılarına belə yardım göstərilmişdir. Əgər bu mənada nələrisə davam etdirəcəklərsə, bu Moskva müqaviləsinin pozulması deməkdir. Bunu diqqətlə izləmək lazımdır".[84]

Göründüyü kimi, istər, Müsavat Partiyasının Xarici Bürosunun, istər 1924-cü ildə M.Ə.Rəsulzadə tərəfindən əsası qoyulan Azərbaycan Milli Mərkəzinin fəaliyyəti və istərsə də, "Yeni Kafkasiya"nın nəşri 1921-ci ildə Sovet Rusiyası, Cənubi Qafqazın Sovet Respublikaları ilə Türkiyə arasında imzalanmış Moskva və Qars müqavilələrinin, eyni zamanda, 1925-ci ildə SSRİ ilə Türkiyə Respublikası arasında imzalanmış dostluq və neytrallıq haqqında müqavilənin müvafiq maddələrinə zidd idi. Bu müqavilələrə əsaslanaraq, Sovet rəhbərliyi dəfələrlə Azərbaycan mühacirlərinin Türkiyədəki siyasi fəaliyyətinə son qoyulması və onların mətbu orqanının nəşrinin dayandırılmasını Türkiyə hökumətindən tələb etmişdi. Xüsusilə, Gürcüstanda 1924-cü ildə baş vermiş geniş antisovet üsyan yatırıldıqdan sonra Moskva tərəfindən belə tələblər daha intensiv xarakter almağa başladı. 1924-cü ilin sentyabr ayının 26-da Ankaradakı Sovet səfiri Y.Surits G.Çiçerinə yazırdı: "Mənə belə gəlir ki, indi Türkiyənin Qafqazda əksinqilabçı ünsürləri müdafiə etməsi məsələsini qaldırmağın əsl məqamıdır və təminat kimi, indi bir sıra müsavat və gürcü başçılarının İstanbuldan çıxarılmasını tələb etmək olar".[85] Məhz, Sovet İttifaqının təkidli tələbi ilə Türkiyə hakimiyyət orqanları 1927-ci ildə "Yeni Kafkasiya" jurnalının nəşrini dayandırmaq qərarına gəldi.[86] Jurnalın bağlanma səbəbini Türkiyə Mərkəzi Mətbuat İdarəsinin direktoru Əkrəm bəy "Yeni Kafkasiya"nın son dövrlərdə Sovet İttifaqı əleyhinə həddindən artıq sərt yazılar verməsi ilə izah edirdi.[87] Zaqafqaziya Siyasi İdarəsinin 1927-ci ilin noyabr ayının 2-də

[83] XII Ümumi Bakı Partiya Konfransının iyul ayının 8-də keçirilən axşam iclasında Q.Orconikidzenin nitqi. 08.07.1923.// RDSSTA, f.64, s.1, i.215, v.156
[84] G.Çiçerinin S.Nasarenusa teleqramı. 17.06.1921.// RFXSA, f.04, s.39, q.232, i.52994, v.2
[85] Y.Suritsin G.Çiçerinə məktubu. 26.09.1924.// RDSSTA, f.82, s.2, i.1328, v.63
[86] N.Yaqublu. "Müsavat" partiyasının tarixi. Bakı, 1996, s.191
[87] Zaqafqaziya Dövlət Siyasi İdarəsinin "Müsavatçılar Türkiyədə" adlı arayışı. 01.12.1927.//

tam məxfi məlumatında göstərilirdi ki, Türkiyə hakimiyyət orqanları İstanbulda nəşr olunan "Yeni Kafkasiya" jurnalını bağlamışdır. Məxfi məlumat Azərbaycan və Ermənistan Siyasi idarələrinə, Cənubi Qafqaz Federasiyasının bütün rəhbər işçilərinə göndərilmişdi.[88] Sovet xüsusi xidmət orqanlarının məlumatında jurnalın bağlanmasını M.Ə.Rəsulzadənin Türkiyə hökumətinin xəbərdarlıqlarına məhəl qoymaması ilə əlaqələndirirdilər və qeyd edirdilər ki, Anadolu Agentliyinin başçısı Əhməd bəy Ağaoğlu (Ağayev – C.H.) yaxın vaxtlarda, Türkiyə hökumətinin "Yeni Kafkasiya"nı bağlayacağı haqqında Rəsulzadəni bir neçə dəfə dostcasına xəbərdar etmişdi.[89]

1927-ci ildə "Yeni Kafkasiya"nın nəşri dayandırıldıqdan sonra Azərbaycan mühacirləri Türkiyədə "Azəri Türk" jurnalının nəşrinə başladılar. 1928-1929-cu illərdə çıxan bu jurnal mövzu və ideya baxımından "Yeni Kafkasiya"nın işini davam etdirirdi. Lakin "Azəri Türk" jurnalını da davamlı nəşr etmək mümkün olmadı və bu mətbu orqanı 1929-cu ildə öz fəaliyyətini dayandırmalı oldu. Onun ardınca M.Ə.Rəsulzadə 1929-cu ildən başlayaraq, "Odlu Yurd" məcmuəsinin nəşrinə başladı və bu məcmuə 1931-ci ildə Azərbaycan siyasi mühacirəti Türkiyəni tərk edənə qədər dərc olundu. "Odlu Yurd" II Dünya müharibəsi başlanana qədər Azərbaycan siyasi mühacirətinin Türkiyədə nəşr etdiyi sonuncu siyasi xarakterli mətbu orqanı oldu. 1931-ci ildən başlayaraq, Sovet İttifaqına qarşı mübarizə aparan Azərbaycan mühacirət mətbuatının Avropa dövrü başladı.[90]

M.Ə.Rəsulzadə Türkiyəyə gəldiyi gündən onun siyasi fəaliyyəti, Azərbaycanla gizli əlaqələri Sovet xüsusi xidmət orqanlarının diqqət mərkəzində idi. Kəşfiyyat orqanlarının onun haqqında V.Molotovun adına hazırladıqları arayışda göstərilirdi ki, "mühacirət dövründə Rəsulzadə Azərbaycanda Sovet hakimiyyətinin devirməsinə və kapitalizmin bərpasına yönəlmiş antisovet hərəkatı genişləndirib, ona bilavasitə başçılıq edirdi. Bu məqsədlə Rəsulzadə müsavat gizli mərkəzini, casusluq, üsyançı hərəkat və pozuculuq işlərini təşkil etmək üçün ardıcıl olaraq SSRİ-yə emissarlar göndərirdi". [91] Sovet rəhbərliyinin M.Ə.Rəsulzadə ilə bağlı Türkiyə

Gürcüstan Daxili İşlər Nazirliyinin Arxivi (GDİNA), f.13, s.5, i.170, v.214-215

[88] "Yeni Qafqaziya" jurnalının bağlanması haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı. 02.11.1927.// GDİNA, f.13, s.5, i.170, v.85

[89] Zaqafqaziya Dövlət Siyasi İdarəsinin Müsavatçılar haqqında tam məxfi arayışı.13.11.1927./ GDİNA, f.13, s.5, i.170, v.103

[90] M.Ə.Rəsulzadənin Türkiyədəki fəaliyyəti haqqında ətraflı məlumat üçün bax: S.Şimşir. Mehmet Emin Resulzade'nin Türkiye'deki Hayatı,Faaliyetleri ve Çalışmaları. Ankara, 1995

[91] Məməd Əmin Rəsulzadə haqqında P.Fitinin V.Molotovun adına hazırladığı arayış.

hökumətindən tələbləri, onun nəşr etdiyi mətbuat orqananların tez-tez bağlanması, həmin mətbuat orqanlarının Azərbaycana və Sovet İttifaqının türk-müsəlman əhalisinə təsiri ilə bağlı idi. Onun 1923-cü ildə İstanbulda nəşr olunmuş və İzmir kitab sərgisində ən yüksək mükafata layiq görülmüş "Azərbaycan Cümhuriyyəti. Keyfiyyəti, təşəkkülü və şimdiki vəziyyəti" kitabı bunun aydın təzahürü idi. Bu kitabda Azərbaycan milli hərəkatının tarixi, Azərbaycan Cümhuriyyətinin keçdiyi yol və cümhuriyyətçilik ideyasının Qafqaz türklərinin taleyindəki rolu geniş təhlil edilir və nəzəri ümumiləşdirmələr aparılırdı. Türk dünyasında böyük nüfuz sahibi olan Əli bəy Hüseynzadə kimi bir mütəfəkkir "Azərbaycan Cümhuriyyəti" adı ilə tanınan M.Ə.Rəsulzadənin bu kitabına ön söz yazmışdı və cümhuriyyət elanı ərəfəsində bu kitabın nəşri Türkiyədə cümhuriyyətçilik ideyasının qələbə çalmasında əhəmiyyətli rol oynadı.[92]

"Azərbaycan Cümhuriyyəti" bilavasitə millətlər komissarı kimi, İ.Stalinin cavabdeh olduğu SSRİ-nin milli siyasətini ifşa edir, onun Rusiya İmperiyasının ruslaşdırma siyasətindən daha rüsvayçı olduğunu ortaya qoyurdu. Kitab Türkiyədə böyük əks-səda doğurdu. Ankaradakı Sovet səfirliyi təcili olaraq, kitabı rus dilinə tərcümə edib, Moskvaya göndərmişdi. "Azərbaycan Cümhuriyyəti" yenicə çapdan çıxdığı dövrdə, 1923-cü ilin iyul ayında keçirilən XII Ümumi Bakı Partiya konfransında çıxış edən Moskvanın Qafqaz canişini Q.Orconikidze deyirdi ki, "mənim indi çantamda Müsavat Partiyasının lideri Məmməd Əmin Rəsulzadənin yazdığı kitab vardır".[93] Kitab Sovet İttufaqında elə ciddi narahatlıq yaratmışdı ki, demək olar ki, bütün bolşevik liderləri Orconikidze kimi, onu çantasında gəzdirirdilər. Kitabın Sovet rəsmilərinə təsiri güclü olduğundan ona qarşı əks təbliğata, bilavasitə, Stalin özü qoşulmalı oldu. O, Cənubi Qafqaz və Azərbaycan rəhbərliyinə tövsiyə edirdi ki, Rəsulzadənin antisovet kitabının SSRİ-nin türk və müsəlman xalqlarına təsirini azaltmaq üçün ona qarşı kitab yazılmalıdır. Bu kitabı hazırlayacaq müəllif kollektivinə Stalin öz məsləhətlərini verir və əslində, Rəsulzadənin əleyhinə yazılacaq kitabın planını təqdim edirdi. 1923-cü ilin sentyabr ayının 16-da o, Bakıya göndərdiyi məktubda yazırdı: "Rəsulzadənin mürtəce kitabçası barədə Musabəyov,

17.07.1944.// RDSSTA, f.82, s.2, i.1090, v.142-143

[92] Дж.Гасанлы. Русская революция и Азербайджан. Трудный путь к независимости, 1917-1920. Москва, 2011, с.625

[93] XII Ümumi Bakı Partiya Konfransının iyul ayının 8-də keçirilən axşam iclasında Q.Orconikidzenin nitqi. 08.07.1923.// RDSSTA, f.64, s.1, i.215, v.153

Mirzoyan, Axundov, Kirov, Oraxelaşvili yoldaşlara mənim məsləhətlərim. Rəsulzadə əleyhinə kitabçanın ümumi ruhu hücum xarakteri daşımalıdır. Heç bir halda özünü təmizə çıxarmaq lazım deyil, onu aşağıdakılarda ittihamla hücuma keçmək: 1.Dönüklükdə. O bolşevik idi, sonda onlara xəyanət etdi; 2.Türklərin özlərinin mənafelərinə xəyanətdə; çünki, Rəsulzadə özü və onun "Müsavat" partiyası Qırmızı Ordunun türklərə yardım göstərməsi və Bakının alınmasına maneçilik törədirdilər; 3.Azərbaycan xalqına xəyanətdə. Torpağın kəndlilərə verilməsinə və bəylərin mülklərinin ləğv edilməsinə maneçilik törədirdilər; 4.Bütün Şərq xalqlarının mənafeyinə xəyanətdə: müsəlmanlar üzərində İngiltərənin müstəmləkəçilik ağalığını saxlamaqda, ona yardım göstərməkdə; 5.Erməni-tatar *(türk – C.H.)* qırğının təşkilində: Rəsulzadəni Azərbaycanın Pruşkeviçi kimi, "lağa qoymaq"; 6.Şamxor talanlarının təşkilində günahlandırmaq. Onu "Azərbaycan talançısı" kimi, damğalamaq... Mənim fikrimcə, əgər kitabçanın hazırlanmasında bu (və buna bənzər) tezislər nəzərə alınarsa, bu tamamilə qənaətbəxş olacaq".[94] Stalinin narahatlığı səbəbsiz deyildi. M.Ə.Rəsulzadənin kiçik həcmli kitabçası uzun müddət Stalinin cavabdeh olduğu Sovetlərin milli siyasətini şübhə altına alırdı. Bu kiçik kitabçada bünövrədən saxta olan Sovet milli siyasətinin böyük ifşası var idi və Kommunist Partiyasında sosializm quruculuğunun müxtəlif məsələlərinə münasibətdə siyasi müzakirələrin gücləndiyi bir vaxtda belə bir kitabın çıxması Stalinin mövqeyini zəiflədirdi.

Əvvəlcə Rəsulzadəyə qarşı yazılacaq broşürün hazırlanması Azərbaycan Mərkəzi İcraiyə Komitəsinin sədri Q.Musabəyova tapşırıldı. Stalinin məktubu üzərində Bakıdakı İnqilab Muzeyinin direktoru Y.Ratqauzerə ünvanlanmış Q.Musabəyovun belə bir dərkənarı vardır: "Sizdən çox xahiş edirəm yoldaş Stalinin tezislərinə uyğun olaraq, broşür hazırlamaq üçün İnqilab Muzeyində olan zəruri materialları mənim sərəncamıma verəsiniz".[95] Lakin bilavasitə Stalin tərəfindən təlimat gəlməsinə baxmayaraq, nə Q.Musabəyov, nə də məktubun ünvanlandığı digər yüksək vəzifəli şəxslər tərəfindən Rəsulzadəyə qarşı nəzərdə tutulan broşür yazılmadı. Lakin maraqlıdır ki, 1924-cü ildə Kazanda Halimcan İbrahimovun tatar milli hərəkatının liderlindən Ayaz İshaki, Fuad Tuktarov, Sədri Maksudi Arsal və digərlərinə qarşı yazılmış "Qara mayaklar və ya ağ ədəbiyyat" adlı kitabı nəşr olundu.

[94] İ.Stalinin Musabəyov, Mirzoyan, Axundov, Kirov, Oraxelaşviliyə məktubu. 16.09.1923 RDSSTA, f.558, s.1, i.4491, v.1-2

[95] Bax: İ.Stalinin Musabəyov, Mirzoyan, Axundov, Kirov, Oraxelaşviliyə məktubu üzərində Q.Musabəyovun dərkənarı. 16.09.1923.// RDSSTA, f.558, s.1, i.4491, v.1

Həmin kitabın bir bölməsi M.Ə.Rəsulzadə və onun "əksinqilabi broşürünə" həsr edilmişdi. Müəllifin bu kitabda Rəsulzadənin əleyhinə gətirdiyi dəlillər məhz, Stalinin bir il əvvəl Azərbaycan rəhbərliyinə verdiyi təlimatla üst-üstə düşürdü.[96] Bu fakt Sovet rəhbərliyinin Azərbaycan siyasi mühacirətinin liderlərindən biri kimi, M.Ə.Rəsulzadəyə qarşı apardığı mübarizənin ümumittifaq miqyasından xəbər verir. Digər tərəfdən isə, Sovet ideologiyası onu qara rəngdə təqdim etsə də, onun mayak olduğunu etiraf etmək məcburiyyəti qarşısında qaldığı bəlli olurdu.

Bu kitabdan sonra M.Ə.Rəsulzadənin İstanbulda "Əsrimizin Səyavuşu" (1923), "İstiqlal məfkurəsi və gənclik" (1924), "Rusiyada siyasi vəziyyət" (1926), "İxtilalçı sosializmin iflası və demokrasinin gələcəyi" (1928), "Milliyyət və bolşevizm" (1928), "Qafqaziya türkləri" (1928) kitabları nəşr olundu. 1930-cu ildə onun Parisdə fransız dilində "Azərbaycan və istiqlaliyyəti", rus dilində "Qafqaz problemi ilə əlaqədar panturanizm" kitabları çapdan çıxdı. Sonuncu kitaba yazdığı ön sözdə N. Jordaniya qeyd edirdi ki, "tatınmış Azərbaycan publisisti və Azərbaycanın böyük demokratik partiyası olan "Müsavat"ın lideri M. Ə. Rəsulzadə tərəfindən yazılmış panturanizm haqqında kitab müsəlman dünyasının dirçəlişi ilə maraqlanan hər kəs üçün şübhəsiz ki, tükənməz maraq kəsb edir".[97] Bu kitabların əsas ideyası istiqlal məfkurəsi və Azərbaycanın müstəqilliyi, habelə, SSRİ-nin Şərq xalqlarına, xüsusilə, Qafqaz xalqlarına və Azərbaycana münasibətdə yeritdiyi təcavüzkar xarici siyasətinin ifşası idi. Azərbaycandan gələn gizli məlumatlar ölkədə baş verən ruslaşdırma siyasətinin bütün mənzərəsini ortaya qoyurdu. Hətta, 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji qurultayda Türkiyənin təmsilçiləri kimi, yollanan Fuat Köprülü və Əli bəy Hüseynzadə yola düşməzdən əvvəl M.Ə.Rəsulzadə ilə görüşüb, Azərbaycandakı vəziyyəti müzakirə etmişdilər. M.Ə.Rəsulzadə Ə.M.Topçubaşova yazırdı ki, "türk mədəniyyəti məsələlərində bolşeviklər bütün məsələləri öz əllərinə almışlar. F.Köprülü II Türkoloji qurultayın İstanbulda keçirilməsini təklif edir".[98]

Sovet rəhbərliyi Əli bəy Hüseynzadənin Bakıda keçirilən I Türkoloji qurultayda iştirakından ciddi narahtlıq keçirirdi. Türk dünyasında böyük nüfuz sahibi kimi, onun latın əlifbasına keçidə maneçilik törədəcəyindən ehti-

[96] Султанбеков Б.Ф., Малышева С.Ю. Трагические судьбы. Казань, 1996, с.121

[97] М.Э.Расул-заде. О пантуранизме. В связи с кавказской проблемой. С предисловием Н. Жордания. Париж, 1930, с.V

[98] Bax: M.Ə.Rəsulzadənin Ə.M.Topçubaşova məktubu. 23.02.1926.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris

yatlanan siyasi dairələr, bu məsələ ətrafında səsvermədə onun mövqeyinin qurultay iştirakçılarına həlledici təsir göstərəcəyini anlayırdılar. Ona görə, Ə.Hüseynzadə və F. Köprülü Tiflisdən Bakıya yola düşən zaman onların vaqonuna xüsusi xidmət orqanlarının nümayəndələri yerləşdirilmişdi ki, Əli bəy Hüseynzadənin latın əlifbasına keçid və ümumilikdə, türk-müsəlman respublikalarında Sovet siyasəti ilə bağlı nə düşündüyünü öyrənsinlər. Eyni zamanda, qurultayın kommunist nümayəndələrinə tapşırıq verilmişdi ki, əgər Əli bəy Hüseynzadənin namizədliyi qurultayın rəyasət heyətinə təklif edilsə, ona səs verməsinlər.[99]

M.Ə.Rəsulzadənin siyasi fəaliyyətində Qafqaz konfederasiyası ideyası mühüm yer tuturdu. Əlbəttə, o, yaxşı başa düşürdü ki, Sovet hökumətinə qarşı mübarizədə Qafqaz xalqlarının birliyi əhəmiyyətli hadisə ola bilər. Bu məqsədlə Rəsulzadə Polşanın Ankaradakı səfiri, gürcü və Şimali Qafqazın dağlı mühacirləri ilə gizli məsləhətləşmələr aparır, 1921-ci ilin iyun ayının 10-da bu istiqamətdə imzalanmış Paris bəyannaməsini əhəmiyyətli addım hesab edirdi. Lakin o, çox istəyirdi ki, Qafqaz konfederasiyası Türkiyənin nəzarəti altında fəaliyyət göstərsin. Əvvəlcə Türkiyə siyasi dairələrinin özləri də bu məsələyə maraq göstərirdilər. 1924-cü ilin noyabrında Moskvadan qayıdan Türkiyə səfiri, keçmiş xarici işlər naziri Əhməd Muxtar bəy Rəsulzadə ilə görüşdə demişdi ki, bolşeviklərin sayılı günləri qalır və onların bütün istehsal müəssisələri ziyanla işləyir. Səfirə görə, Rusiyanın yenidən çökməsi qaçılmaz idi. Rəsulzadə bu məlumatı Topçubaşova yazdıqda, Əli Mərdan bəy digər məlumatların da bu fikri təsdiq etdiyini bildirirdi. O, qeyd edirdi ki, "bolşevik dirijorları arasında fikir ayrılıqlarının yaranması Trotskinin uzaqlaşdırılmasına gətirib çıxarmışdır. Kim bilir, ola bilsin ki, biz böyük hadisələr ərəfəsindəyik".[100] Məhz, Polşanın Türkiyədəki səfiri Roman Knollun təşəbbüsü ilə 1924-cü ilin oktyabr ayında İstanbulda təsis edilmiş Qafqaz Konfederasiya Komitəsinə Türkiyə rəsmilərinin loyal münasibəti bununla bağlı idi. Onun tərkibinə Azərbaycan (X.Sultanov, Ə.Əmircanov, Ə.Şeyxülislamov), Gürcüstan (A.Asatiani, D.Vaçnadze, M.Sereteli) və Şimali Qafqaz (V.Q.Cabaqiyev, A.Kantemir, A.Namitokov) mühacir

[99] Geniş məlumat üçün bax: C. Hasanlı. Birinci Türkoloji qurultaya qısa tarixi baxış./ 1926 Bakü Türkoloji Konqresinin 70 yıl dönümü toplantısı :(29-30 kasım, 1996). Ankara, 1996

[100] Ə.M.Topçubaşovun M.Ə.Rəsulzadəyə məktubu.14-15.04.-27-30.11.1924.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris; А.М. Топчибаши и М.Э.Расулзаде: Переписка. 1923-1926 гг. Сост., предисл. и прим. С.М.Исхаков. М.,2012, с.56, 64

təşkilatlarının nümayəndələri daxil edildilər. Komitənin rəhbər orqanında X.Sultanov, D.Vaçnadze, V.Q.Cabaqiyev təmsil olunurdular. Eyni ilə həmin vaxt, 1924-cü ilin oktyabr-noyabr aylarında Parisdə olan Qafqaz mühacir hökumətlərinin təmsilçiləri də belə bir təşkilat yaratmaq istiqamətində müzakirələr apardılar və nəhayət, 1925-ci ilin iyul ayının 26-da bu haqda protokol imzaladılar. Ə.M.Topçubaşov, H.Bammatov, N.Ramişvili və Ukrayna Xalq Respublikasının maarif naziri V.Prokopoviç tərəfindən imzalanmış sənəddə onlar razılığa gəldilər ki, bu üç respublikanın konfederasiya formasında siyasi və iqtisadi ittifaq yaratmaları zəruridir.[101] Bununla yanaşı, tərəflər Qafqaz və Ukrayna antibolşevik təşkilatların fəaliyyətinin əlaqələndirilməsi və bolşevik ağalığına son qoyulduqdan sonra Qafqazla Ukrayna arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələsində razılığa gəldiklərini bildirirdilər.[102]

1925-ci ildə Parisdə yaradılan Qafqaz Komitəsi İstanbul təşkilatına birləşmək haqqında müraciət etdi və 1926-cı ilin iyul ayının 15-də T.Qoluvko və Polşanın Türkiyədəki hərbi attaşesi T.Şettselin təşəbbüsü ilə iki təşkilatın birləşməsi nəticəsində İstanbulda Qafqaz İstiqlal Komitəsi yaradıldı.[103] Komitədə Azərbaycanı M.Ə.Rəsulzadə və X.Sultanov təmsil edirdi və Komitənin fəaliyyətinə nəzarət bütövlükdə, N.Jordaniya ilə M.Ə.Rəsulzadənin əlində idi. Qafqaz İstiqlal Komitəsi ilə yanaşı, Fransada bir sıra Azərbaycan cəmiyyətləri də təsis edilirdi. 1927-ci ilin payızında ingilislərə yaxınlığı ilə tanınan Mirzə Əsədullayevin başçılığı ilə Parisdə qatı antisovet "Azərbaycanın Azadlıq Liqası" yaradılmışdı və bu Liqa həm Paris, həm də, İstanbul mühacir təşkilatları ilə sıx əlaqə saxlayırdı.[104]

Nə İstanbul, nə Paris, nə də birləşmiş Qafqaz İstiqlal Komitəsinin tərkibində erməni mühacirlərinin nümayəndəsi yox idi. 1923-cü ildə Lozanna müqaviləsi Sevr müqaviləsinin "Türkiyə Ermənistanı" haqqında maddələrindən imtina etdiyinə və Türkiyənin sərhədlərini Qars müqaviləsinə uyğun olaraq tanıdığından, erməni mühacir hökumətinin nümayəndələri qonşu Qafqaz ölkələrinin təmsilçiləri ilə Qafqaz Konfederasiyası haqqında

[101] 1925-ci ilin iyul ayının 26-da imzalanmış sənədin tam mətni üçün bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.371-372

[102] А.М. Топчибаши и М.Э.Расулзаде: Переписка. 1923-1926 гг. Сост., предисл. и прим. С.М.Исхаков. М.,2012, с.109

[103] M.Ə.Rəsulzadənin Ə.M.Topçubaşova məktubu. 19.07.1925.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris

[104] Zaqafqaziya Siyasi İdarəsinin Müsavatçılar haqqında tam məxfi arayışı.13.11.1927.// GDİNA, f.13, s.5, i.170, v.165

müzakirələrdən imtina etdilər. Lozannada Sovet nümayəndəsi V.Vorovski öldürüldükdən sonra daşnak və qnçaq terrorçu təşkilatlarının Türkiyə nümayəndə heyətinin başçısı İsmət paşaya qəsd hazırladığı barədə gizli məlumatlar yayılmağa başladı. Bu məqsədlə 1923-cü ilin may ayında hər iki partiya Lozannaya terror qrupu göndərmişdi. Bu barədə məlumat alan İsvecrə polisi təhlükəsizlik məqsədilə İsmət paşa üçün ayrılmış maşından türk bayrağının çıxarılmasını təklif etsə də, İsmət paşa bundan qəti şəkildə imtina etdi.[105]

Lozanna konfransı başa çatdıqdan sonra ermənilər konfederasiya istiqamətində əməkdaşlığın bərpa olunmasının şərti kimi, Azərbaycan, Gürcüstan və Dağlılar Respublikasının nümayəndələri tərəfindən Lozanna konfransının Sevr müqaviləsinin ləğvinə aid qərarının tanımamasını irəli sürürdülər.[106] Ermənilər istisna olmaqla, digər Qafqaz nümayəndələri Türkiyə ilə əməkdaşlığa üstünlük verirdilər. Əli Mərdan bəy haqlı olaraq, M.Ə.Rəsulzadəyə yazırdı ki, "ermənilər hələ də "birləşmiş" Ermənistan haqqında xəyal edirlər və nə qədər ki, Türkiyədən istədiklərinin heç olmasa, kiçicik bir hissəsini almayıblar, hansı quruluşun olmasından asılı olmayaraq, onlar Rusiyaya meylli olacaqlar".[107] Hətta, Ə.M.Topçubaşovda məlumat var idi ki, Ermənistan Respublikası nümayəndə heyətinin başçısı A.Ağaronyan bu meylin təzahürü kimi, 1925-ci ilin yayında SSRİ xarici işlər komissarı G.Çiçerinə məktubla müraciət etmişdir.[108]

Lozanna konfransında Türkiyənin özünü təsdiq etməsi mühacir dairələrində belə bir fikir yaratmışdı ki, türklər bolşeviklərin təsirindən çıxacaqlar. Hətta, M.Ə.Rəsulzadə 1924-cü ilin dekabr ayında Ə.M.Topçubaşova yazırdı: "Sovetlərin ağır vəziyyəti haqqında türklər məlumatlıdırlar, ola bilsin ki, Türkiyə bizim məsələ üzrə daha fəal çıxış etsin"[109]. Belə bir meyl fransızlarda da yaranmışdı və Fransa parlamentinin xarici siyasət komissi-

[105] Sorularla Erməni Meselesi. Prof. Dr. Ahmet Akgündüz, Doç. Dr. Said Öztürk, Dr. Recep Kara. İstanbul, 2008, s.431

[106] Р.Абуталыбов. Мамед Амин Расулзаде и Кавказская Конфедерация. М., 2011, с.32-33; А.М. Топчибаши и М.Э.Расулзаде: Переписка. 1923-1926 гг. Сост., предисл. и прим. С.М.Исхаков. М.,2012, с.65

[107] Ə.M.Topçubaşovun M.Ə.Rəsulzadəyə məktubu. 27.03.-07.04.1925.// Archives d'Ali Mardan-bey Toptchubachi, carton n° 4/3. CERCEC, EHESS, Paris; А.М. Топчибаши и М.Э.Расулзаде: Переписка. 1923-1926 гг. Сост., предисл. и прим. С.М.Исхаков. М.,2012, с.91

[108] Ə.M.Topçubaşovun M.Ə.Rəsulzadəyə məktubu.12.08.1925.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris

[109] M.Ə.Rəsulzadənin Ə.M.Topçubaşova məktubu.25.12.1926.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris

yasının sədri Anri Franklen-Büyon 1925-ci ilin əvvəllərində Ankaraya yola düşməzdən əvvəl Əli Mərdan bəylə görüşüb, bəzi müzakirələr aparmışdı.[110]

Qafqaz mühacirlərinin fəallaşmasından və onların Türkiyə hakimiyyət dairələri ilə yaxınlaşmaq cəhdlərindən Sovet rəhbərliyi ciddi narahatlıq keçirirdi. Bu prosesin qarşısını almaq məqsədi ilə RK(b)P Cənubi Qafqaz Diyar Komitəsinin katibi A.Myasnikovun təşəbbüsü ilə Cənubi Qafqaz Siyasi İdarəsinin məsul işçisi 1889-cü ildə Şuşada doğulmuş Simon Pirumov (Pirumyan) 1924-cü ilin dekabr ayında Parisdəki Sovet səfirliyinə ikinci katib vəzifəsinə göndərildi. Sovet xüsusi xidmət orqanları tərəfindən onun qarşısına iki vəzifə qoyulmuşdu. İlk növbədə, Pirumov Qafqazın sadə mühacirləri ilə mühacir hökumətlərin başçıları arasında ziddiyyətlər yaradıb, Qafqaz nümayəndə heyətləri başçılarının təklənməsinə nail olmalı idi. İkincisi isə, o, Fransa və Türkiyədə olan Qafqaz mühacirlərinin Türkiyə hökumət dairələri ilə gizli əlaqələrinin olub-olmaması barədə Sovet rəhbərliyinə operativ əməliyyat məlumatları verməli idi.[111]

Lakin 1925-ci ilin dekabrında imzalanmış Türkiyə-Sovet müqaviləsindən sonra Ankara bolşeviklərə qarşı mübarizə aparan Qafqaz və Mərkəzi Asiya mühacir təşkilatlarına münasibətdə son dərəcə ehtiyatla davranırdı. Mühacir təşkilatları isə, Sovet xüsusi xidmət orqanlarının diqqətindən yayınmaq üçün öz fəaliyyətlərini müstəsna dərəcədə gizli formalarda qururdular. Məsələn, Qafqaz İstiqlal Komitəsinin bütün fəaliyyətini izləyən Cənubi Qafqaz Siyasi İdarəsi 1927-ci ilin oktyabr ayında məlumat verirdi ki, Komitə, demək olar ki, siyasi fəaliyyətlə məşğul olmur.[112] Lakin bundan bir neçə gün sonra hazırladığı məxfi məlumatda Cənubi Qafqaz Siyasi İdarəsi Qafqaz İstiqlal Komitəsinin və Azərbaycan Milli Mərkəzinin keçirdiyi gizli toplantılar haqqında məlumatlar verir və hətta, Azərbaycan milli qurultayının keçirilməsi ilə bağlı bu təşkilatlarla Paris mərkəzi arasında intensiv müzakirələr aparıldığı bildirilirdi.[113]

[110] Ə.M.Topçubaşovun M.Ə.Rəsulzadəyə məktubu. 27.03.-07.04.1925.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris

[111] Rapport de la préfecture de police au sujet de M. Piroumian Siméon, 09. 07. 1925.// Archives de la préfecture de police (APP), Paris, France. Dossier S. Piroumoff, GA 2639

[112] Qafqaz İstiqlal Komitəsinin fəaliyyəti haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı.18.10.1927.// GDİNA, f.13, s.5, i.170, v.85

[113] Qafqaz İstiqlal Komitəsinin fəaliyyəti haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı.13.11.1927.// GDİNA, f.13, s.5, i.170, v.159; Azərbaycan milli qurultayının çağırılması haqqında Zaqafqaziya Siyasi İdarəsinin məlumatı.12.11.1927.// GDİNA, f.13, s.5, i.170, v.137-139

1926-cı ildə Parisdə Qafqaz İstiqlal Komitəsinin orqanı kimi, "Prometey" jurnalı nəşrə başladı. Jurnal bütövlükdə Qafqaz, Ukrayna, Mərkəzi Asiya mühacir təşkilatlarını öz ətrafında birləşdirir və mühacir liderləri onun səhifələrində tez-tez çıxış edirdilər. Jurnalın birinci redaktoru tanınmış gürcü siyasi xadimi Georgi Qvazava, redaksiya şurasının üzvləri isə Azərbaycan nümayəndə heyətinin üzvü doktor Mir Yaqub Mehdiyev, Şimali Qafqaz xalqlarının nümayəndəsi İbrahim Çulik Süleyman, Mərkəzi Asiyadan Mustafa Çokayev və Ukraynadan professor Şulqin idi. Jurnalın birinci səhifəsində onun "Qafqaz xalqlarının, eyni zamanda, Ukrayna və Türküstanın milli müdafiə orqanı" olduğu bildirilirdi. [114] G.Qvazava 1926-1938-ci illərdə "Prometey" jurnalının dəyişməz redaktoru oldu. 1938-1940-cı illərdə jurnal "Revyü de Prometey" adı ilə çıxanda ona Ukraynanın keçmiş xarici işlər naziri Aleksandr Şulqin redaktorluq etmişdi.[115]

Polşada açıq antisovet siyasəti ilə tanınan Yuzef Pilsudskinin hakimiyyətə gəlməsi "Prometey" hərəkatına geniş perspektiv vəd edirdi. Bu hərəkata ilk dövrdən şəxsən Pilsudski özü rəhbərlik edirdi və 20-ci illərin əvvəllərində antisovet qüvvələrin əvvəlcə Sovet Rusiyasına, sonra isə SSRİ-yə qarşı birləşdirilməsi ideyasının müəllifi məhz, Pisudski idi.[116] Polşa Sovet İttifaqı tərəfindən öz təhlükəsizliyini təmin etmək məqsədilə qeyri-rus mühacirətinin təşkilatlanmasına böyük əhəmiyyət verir və onların Sovet imperiyasının xarabalıqları üzərində öz milli hökumətlərini qurmaq uğrunda mübarizəsinə maddi və mənəvi baxımdan yardım göstərirdi.[117] Xüsusilə, Gürcüstanın Sovet Rusiyası tərəfindən işğalından sonra Fransada yerləşən Gürcüstan mühacirət hökuməti və Türkiyəyə gəlmiş gürcü mühacirləri ilə Polşa siyasi dairələri və hərbi-kəşfiyyat orqanları arasında sıx münasibətlər yaranmışdı. 1924-cü ildən başlayaraq, Azərbaycan və digər türk-müsəlman mühacir təşkilatları da tədricən bu əməkdaşlığa cəlb olunmuşdu.[118]

[114] В.К.Былинин, А.А.Зданович, В.И.Коротаев. Организация «Прометей» и «Прометейское» движение в планах польской разведки по развалу России/СССР//Труды Общества изучения истории отечественных спецслужб. Том III, Москва, 2007, с.351; Р.Абуталыбов. Годы и встречи в Париже. Москва, 2006,с.222

[115] N.Yaqublu. Azərbaycan-Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu. Bakı, 2007, s.105

[116] В.К.Былинин, А.А.Зданович, В.И.Коротаев. Организация «Прометей» и «Прометейское» движение в планах польской разведки по развалу России/СССР//Труды Общества изучения истории отечественных спецслужб. Том III, Москва, 2007, с.318-319

[117] Bax: А.Балаев. Мамед Амин Расулзаде (1884-1955). М., 2009, с.232-233

[118] Ətraflı məlumat üçün bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009.

"Prometey" hərəkatını formalaşdırmaq üçün Pilsudskinin yaxın dostu, tanınmış publisist və diplomat Tadeuş Qoluvka 1925-ci ildə əvvəlcə Parisə yollanıb, Qafqaz mühacirət liderləri , o cümlədən, Ə.M.Topçubaşovla geniş müzakirələr aparmış, sonra isə İstanbula gəlib M.Ə.Rəsulzadə ilə görüşmüşdü. 1926-1927-ci illərdə Qoluvka Varşava milli problemlər institutunun direktoru işlədiyi dövrdə bu görüşlər daha intensiv xarakter almağa başladı.[119]

Polşa siyasi dairələri ilə ilkin əlaqələr sağ partiyaların bazasında yarandığından, əməkdaşlıq protokoluna N.Ramişvili, H.Bammatov və C.Hacıbəyov imza atmışdılar. Məsələ belə qoyulmuşdu ki, guya, Azərbaycan müsavatçıları və gürcü menşevikləri konfederasiya tərəfdarı olmadıqlarından, protokolda təmsil olunmayıblar. Lakin 20-ci illərin ortalarında mühacirət axını çoxaldıqdan sonra Parisdəki mühacir hökumətləri ilə müqayisədə müxtəlif ölkələrdə milli partiyaların şəbəkəsini qurmuş müsavatçılar və gürcü menşevikləri daha geniş təşkilat şəbəkələrinə malik idilər. Bu üstünlükdən istifadə edərək, Qafqaz İstiqlal Komitəsinin rəhbərliyi belə bir qərar qəbul etdi ki, Parisdəki mühacir hökumətlərin başçıları olan Ə.M.Topçubaşov, A.Çxenkeli və A.M.Çermoyev bundan sonra öz ölkələrinin xaricdəki diplomatik təmsilçiləri kimi, həmin ölkələrin milli mərkəzlərinin təyin etdiyi üç məsləhətçinin əhatəsində fəaliyyət göstərməlidirlər. Məsələnin belə qoyuluşu Polşa tərəfi ilə də razılaşdırılmışdı.[120]

Bir tərəfdən, Polşa ilə əlaqələri Paris mərkəzinin nəzarətinə almaq cəhdləri, digər tərəfdən, Qafqaz İstiqlal Komitəsinin Paris liderlərinin səlahiyyətlərini məhdudlaşdırmaq cəhdləri mühacirət mərkəzləri arasında bəzi ixtilaflar yaratdı. Eynilə, həmin vaxt, 1926-cı ilin yayında Bakıdan gəlmiş Məmməd Həsən Hacınskinin oğlu Azərbaycanda, guya, Əli Mərdan bəyin Sovet Azərbaycanına qayıtmaq üçün SSRİ xarici işlər komissarı G.Çiçerinə müraciət etməsi və Bakının da bu xahişə müsbət yanaşması barədə şayiə yayıldığını Rəsulzadəyə bildirmişdi. Bu şayiələr haqqında məlumatı 1926-cı ilin iyul ayının 19-da Ə.M.Topçubaşova yazdığı məktubda M.Ə.Rəsulzadə bildirirdi.[121] İlk dəfə belə yalan məlumatı 1925-ci ilin aprel ayında Parisdə Sovetlərə yaxın olan və S.Pirumovla əməkdaşlıq edən Qriqori Veşapeli

p.55-58, 91-98

[119] M.Ə.Rəsulzadənin Ə.M.Topçubaşova məktubu.05.08.1925.//Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris; А.М. Топчибаши и М.Э.Расулзаде: Переписка. 1923-1926 гг. Сост., предисл. и прим. С.М.Исхаков. М.,2012, с.103

[120] M.Ə.Rəsulzadənin Ə.M.Topçubaşova məktubu.19.07.1926.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris

[121] Yenə orada

tərəfindən nəşr edilən "Yeni Gürcüstan" qəzeti yaymışdı. 1925-ci ilin aprel ayında çıxan 6-cı nömrəsində qəzet belə bir məlumat yaymışdı ki, Paris Sülh Konfransında Azərbaycan diplomatik heyətinin başçısı Əli Mərdan bəy Topçubaşov Azərbaycana qayıtmaq üçün ona icazə verilməsi xahişi ilə bolşevik hakimiyyətinə müraciət etməyə hazırlaşır. Bu məlumatı alan kimi, Əli Mərdan bəy Q.Veşapeliyə sərt bir məktub yazmışdı və bu məktubdan sonra "Yeni Gürcüstan" qəzeti onun haqqında yaydığı yalan məlumatı təkzib etməli olmuşdu.[122] Veşapeli bolşeviklərə satıldığına görə, menşeviklər və gürcü millətçiləri onu təhdid etdiyindən, Berlinə getmiş və həmin vaxt Berlində olan Pirumovla birlikdə "Yeni Gürcüstan" qəzetinin həmin nömrəsini Almaniya paytaxtında çıxarıb, Parisə göndərmişdilər. Göründüyü kimi, Veşapelinin Pirumovla birgə quraşdırdığı yalan, Bakıya gedib çıxmış, oradan da şayiə kimi, İstanbula gəlib çatmışdı. Yayılan həmin şayiələrin əsassız olması ilə bağlı Əli Mərdan bəy 1926-cı ilin avqust ayının 30-da Rəsulzadəyə yazırdı: "Çiçerinə müraciət edilməsi ilə bağlı sizə Berlindən verilən bu şayiələrin tamamilə yalan və mənasız olmasına baxmayaraq, hər halda, qəti şəkildə yazıram ki, nə şəxsən mənim, nə də kiminsə vasitəsi ilə mənim adımdan Çiçerinə və ya başqa birisinə, nə indi heç bir müraciət olmayıb, nə də gələcəkdə olmayacaqdır. Yalanla yaşayan adamlar heç nəyə məhəl qoymayaraq, hər şeyi öz arşınları ilə ölçməyə adət ediblər. Çiyinlərində xalqa xidmətin 30 illik yükünü daşıyan bir adam kimi, mənim öz qatı antibolşevik mövqeyimi dəyişməyə heç bir əsas olmayıb və yoxdur".[123] Bütün hallarda belə xoşagəlməz söz-söhbətin yayılması Əli Mərdan bəyə münasibətdə müvəqqəti də olsa, inamsızlıq yaratdı və mühacirət dairələrində onun bolşevizmə qarşı axıra qədər mübarizə aparacağına şübhə toxumu səpdi. Bir tərəfdən, bu şayiələrin yayılması, digər tərəfdən, 1926-cı ildə 25 yaşlı oğlu Rəşid bəyi itirməsi Ə.M.Topçubaşov üçün ağır bir mənəvi durum yaratdı.[124]

1927-ci ilin yanvar ayının 12-də Azərbaycanla Dağlılar Respublikası arasında Müvəqqəti Birgə Mərkəz yaradılması istiqamətində imzalanmış akta görə, Ə.M.Topçubaşov həmin birliyin prezidenti kimi, tanınsa da, bu addım Azərbaycan müxalifəti içərisində yaranmış böhranı aradan

[122] Ə.M.Topçubaşovun Q. Veşapeliyə məktubu.19.05.1925.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris

[123] Ə.M.Topçubaşovun M.Ə.Rəsulzadəyə məktubu. 30.08.1926.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris

[124] Parisdə olan Azərbaycan mühacirlərinin həyatı haqqında maraqlı məlumatlar üçün bax: Р.Абуталыбов. Годы и встречи в Париже. Москва, 2006

qaldırmadı.[125] Digər tərəfdən, bu akt Gürcüstan nümayəndəsi A.Çxenkeliyə təqdim edilsə də, o, Gürcüstanın mühacir müxalifətindən ehtiyat edərək, aktı imzalamaqdan imtina etdi, eyni zamanda, Qafqaz Dağlılarının Xalq Partiyası Ə.M.Topçubaşovla H.Bammatov arasında yaranmış bu ittifaqdan ciddi narazılığını ifadə etdi.

1926-1928-ci illər arasında Azərbaycan Cümhuriyyətini təmsil etməyə kimin səlahiyyətli olması və mühacirlər adından kimin çıxış etməsi məsələsində mühacirət mərkəzləri arasında qızğın mübahisələr və geniş müzakirələr aparıldı.[126] "Yeni Kafkasiya" jurnalında mühacirətin Paris mərkəzi və Ə.M.Topçubaşov haqqında gözlənilmədən tənqidi yazının verilməsi bu mübahisələri daha da qızışdırdı. Bu yazı mühacirət təşkilatlarında geniş müzakirələrə səbəb oldu. Xüsusilə, doktor Xosrov bəy Sultanov və Ələkbər bəy Şamxorski başda olmaqla, bitərəflər qrupu oktyabr ayının 5-6-da toplantı keçirib, başlanan mübahisələrdə Topçubaşovu müdafiə etdiklərini bildirdilər. Bu dəstəyə görə, Əli Mərdan bəy onlara minnətdarlığını bildirdi və onun da keçmişdə bağlı olduğu bitərəflər qrupunun təşkilatlanmasını təqdir etdiyini, gələcəkdə onlara hərtərəfli yardım göstərəcəyini bildirdi.[127]

X.Sultanov İstanbul qəzetlərində çıxış edib, Azərbaycan nümayəndə heyətini müdafiə etmək niyyətində olduğunu Parisə yazdıqda, Əli Mərdan bəyin buna ehtiyac olmadığını və əgər zərurət olarsa, o, özü "müsavatçıların nümayəndə heyətini devirib, bütün işləri öz əllərinə almaq cəhdlərinə" qarşı yönəlmiş dəlillərinə cavab verəcəyini bildirdi.[128] Bu məlumat yayılan kimi, M.Ə.Rəsulzadə Parisdə olan Mirzə Əsədullayevdən də məktub aldı. O, yazırdı ki, nümayəndə heyətinin və Topçubaşovun əleyhinə gedən yazı burada çox pis qarşılanmışdır.[129] Bu məsələlərə aydınlıq gətirmək üçün Azərbaycan Milli Mərkəzi tərəfindən Müsavat Partiyasının Xarici Bürosu-

[125] Bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.115

[126] Bu mübahisə və müzakirələr haqqında ətraflı məlumat üçün bax: V.Imanov. Ali Merdan Topçibaşı. Lider bir aydın ve Bağımsız Azerbaycan Cumhuriyeti'nin Temsili. Istanbul, 2003, s.215-219; Р.Абуталыбов. Мамед Амин Расулзаде и Кавказская Конфедерация. М., 2011, с.33-35

[127] Xosrov bəy Sultanov qrupu haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı. 13.10.1927.// GDİNA, f.13, s.5, i.170, v.88

[128] İttihadçıların fəaliyyəti haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı. 13.11.1927.// GDİNA, f.13, s.5, i.170, v.158

[129] Müsavatçıların İstanbulda fəaliyyəti haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı. 13.11.1927.// GDİNA, f.13, s.5, i.170, v.105

nun üzvü Mustafa bəy Vəkilov 1927-ci ilin mart ayında Parisə və Polşa siyasi dairələri ilə danışıqlar aparmaq üçün Varşavaya göndərildi. M.Vəkilov Paris mərkəzini Azərbaycan Milli Mərkəzinə tabe olmağa inandırmalı, əks təqdirdə, o, Azərbaycan nümayəndə heyətinin buraxılmasını bəyan etməli və Parisdə diplomatik təmsilçilik səlahiyyətini öz üzərinə almalı idi. Parisə gələn kimi, M.Vəkilovun ilk addımı Topçubaşovla Bammatov arasında yaradılmış Müvəqqəti Birlik Mərkəzinin buraxılmasına nail olmaq idi. Paris danışıqlarında əvvəlcə müəyyən məsələlərdə razılıqlar əldə olunsa da, sonrakı mərhələdə münasibətlər kəskin qarşıdurma xarakteri almağa başladı.[130]

Xarici Büronun 1927-ci ilin oktyabr ayının 10-da İstanbulda keçirilmiş iclasında M.Vəkilovun Paris danışıqlarının yekunları müzakirə edildi. O, Fransadakı Azərbaycan nümayəndə heyətinin fəaliyyətini çox mənfi qiymətləndirib, bildirdi ki, nümayəndə heyətinin üzvləri elə ciddi bir iş görmürlər və heç nə ilə maraqlanmırlar, onların heç bir ciddi əlaqələri yoxdur, hər biri, yalnız öz ailə qayğıları ilə məşğuldurlar və nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov bu iş üçün tamamilə yararsızdır.[131] Məsələ burasındadır ki, 20-ci illərin ortalarında Əli Mərdan bəyin ətrafında çox az adam qalmışdı. O, özü 1924-cü ilin noyabr ayında M.Ə.Rəsulzadəyə göndərdiyi məktubda qeyd edirdi ki, nümayəndə heyətinin üzvlərindən Ə.Şeyxülislamov və M.Mehdiyev, demək olar ki, Paris mərkəzinin fəaliyyətində iştirak etmirlər. Ə.Şeyxülislamov maddi vəziyyətin ağırlığı ilə bağlı Parisdən İstanbula gəlmişdi, M.Mehdiyevin isə səhhətində müəyyən problemlər yaranmışdı.[132] M.Vəkilov Azərbaycanda müqavimət hərəkatının canlandırılması, bu məsələdə Paris mərkəzinin gözləmə mövqeyi tutması və maliyyə vəsaitlərinin xərclənməsi məsələsində Xarici Büro ilə Paris mərkəzi arasında fikir ayrılıqları yarandığını iclas iştirakçılarının diqqətinə çatdırdı. İclasda qərara alındı ki, Paris mərkəzinə qarşı "Yeni Kafkasiya" jurnalında kampaniya başlansın və mərkəzin "Prometey" jurnalının redaksiya şurasındakı nümayəndəsinin oradan uzaqlaşdırılması və şuraya Xarici Büronun

[130] Bitərəflər qrupunun Türkiyədə fəaliyyəti haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı.01.12.1927.// GDİNA, f.13, s.5, i.170, v.219; Azərbaycan mühacirət təşkilatları arasında yaranmış fikir ayrılıqları və ixtilaflar barədə geniş məlumat üçün bax: X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996, s.124-173

[131] Müsavatçıların İstanbulda fəaliyyəti haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı. 13.10.1927.// GDİNA, f.13, s.5, i.170, v.93

[132] Ə.M.Topçubaşovun M.Ə.Rəsulzadəyə məktubu. 27-30.11.1924.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 4/3. CERCEC, EHESS, Paris

nümayəndəsinin təyin olunması istiqamətində addımlar atılsın. Oktyabr ayının 12-də Azərbaycan Milli Mərkəzindəki toplantıda da M.Vəkilov eyni məzmunlu məruzə ilə çıxış etdi və bununla bağlı müvafiq qərar qəbul edildi.[133]

SSRİ ilə diplomatik münasibətlər yarandıqdan sonra Fransa hökumət dairələrinin də, Azərbaycan nümayəndə heyətinə marağı azalmışdı. İndi onlar yaxşı başa düşürdülər ki, Sovet İttifaqının ərazisinə daxil olan respublikalarla iqtisadi-ticarət əlaqələrində həlledici və ən əsas rol Moskvaya məxsusdur. Fransa Xarici İşlər Nazirliyinin Nazirlər Kabineti ilə yazışmalarından aydın olur ki, Fransa rəsmiləri Parisdəki Azərbaycan nümayəndə heyətinə artıq bir xeyriyyə cəmiyyəti kimi, baxır və etika xatirinə onların sorğularına cavab verirdilər. Eyni zamanda, bu yazışmalarda nüfuzlu bir şəxsiyyət kimi, Ə.M.Topçubaşova nəzakətli yanaşmaq da tövsiyə edilirdi.[134]

Müsavat Partiyasının Xarici Bürosu Azərbaycan milli qurultayını çağırıb, orada öz üstünlüyünü təmin etmək və Paris mərkəzi üzərində qələbəsinə nail olmaq niyyətində idi. Əvvəlcə bu qurultayın Rumıniyada keçirilməsi nəzərdə tutulsa da, Sovet təhdidindən ehtiyat edən Rumıniya hökuməti qurultay nümayəndələrinə viza verməkdən imtina etdi. Bu halda, Azərbaycan milli qurultayının İstanbulda keçirilməsi məqsədəuyğun hesab edildi. Lakin 1927-ci ilin payızında Türkiyədə müsavatçılara qarşı güclənən təzyiqlər, "Yeni Kafkasiya"nın bağlanması və M.Ə.Rəsulzadənin mənzilində polis tərəfindən axtarış aparılması qurultay hazırlıqlarının dayandırılmasına gətirib çıxardı.[135]

Qafqaz İstiqlal Komitəsinin 1927-ci ilin noyabr ayının əvvəllərində keçirilən iclasında belə qərara alındı ki, C.Hacıbəyov "Prometey" jurnalının redaksiyasından geri çağırılsın və onun yerinə Paris Universitetinin hüquq fakültəsində təhsil alan Abdin adında müsavatçı tələbə göndərilsin.[136] Oktyabr ayının axırlarında keçirilmiş Azərbaycan Milli Mərkəzinin iclasında isə qərara alınmışdı ki, əgər Türkiyə hökuməti "Yeni Kafkasiya" jurnalının bərpasına icazə verməzsə, jurnalın nəşri ya Parisə, ya da Berlinə keçirilsin.

[133] Müsavatçıların İstanbulda fəaliyyəti haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı. 13.10.1927.// GDİNA, f.13, s.5, i.170, v.94

[134] Ministère des Affaires Etrangères République Française. Direction des Affaires Politiques et Commerciales. Note pour le Cabinet du Ministre. Paris, le 3 mai 1927.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 304

[135] Azərbaycan milli qurultayının çağırılması haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı.12.11.1927.// GDİNA, f.13, s.5, i.170, v.137

[136] Qafqaz İstiqlal Komitəsi haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı.13.11.1927.// GDİNA, f.13, s.5, i.170, v.159

Eyni zamanda, oktyabr ayının sonlarında Milli Mərkəz Ə.M.Topçubaşovun zəmanəti ilə Bakı rayonunda neftli ərazilərin alqı-satqısını həyata keçirmiş Neft Sənayeçiləri İttifaqına məlumat göndərmişdi ki, Topçubaşovun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanı təkbaşına təmsil etmək səlahiyyətindən məhrum edilmişdir və əgər bu proses gələcəkdə davam etdirilərsə, belə hərəkətlər Azərbaycan milli hökuməti tərəfindən tanınmayacaqdır.[137] Azərbaycan Milli Mərkəzinin bu xəbərdarlığı Bakıda neft sahələri olan şirkətlər arasında böyük həyəcan yaratdı.

1927-ci ilin noyabr ayının 11-də Azərbaycan Neft Sənayeçiləri İttifaqı təcili toplanaraq, Azərbaycan Milli Mərkəzinin məktubunu müzakirə edib, M.Ə.Rəsulzadəyə xəbərdarlıq məktubu göndərdi ki, İttifaq Ə.M.Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan Cümhuriyyətinin nümayəndə heyətini milli hökumətdən mandatı olan əsas səlahiyyətli orqan hesab edir və bu nümayəndəlik geniş dairələr tərəfindən müdafiə edildiyi halda, İstanbulda yaradılmış Azərbaycan Milli Mərkəzini İttifaq qanunsuz və səlahiyyətləri mənimsəmiş orqan kimi qiymətləndirir.[138] Noyabr ayının 19-da Ə.M.Topçubaşov X.Sultanov və Ə.Şamxorskiyə yazırdı ki, Neft Sənayeçilər İttifaqı Azərbaycanın qanuni təmsilçisi kimi, nümayəndə heyətini və şəxsən onu tanımışdır. Bu məktubda o, bütün dəlillərini məktuba əlavə etdiyi sənədlərlə möhkəmləndirmiş və 1926-cı ildən başlayaraq, İstanbul mərkəzi ilə Paris mərkəzi arasında meydana çıxmış narazılıqların təsvirini vermiş, M.Ə.Rəsulzadə ilə yazışmaların bəzi məqamlarına toxunmuşdu.[139]

Ümumiyyətlə, Bakı neftində maraqlı olan beynəlxalq neft şirkətləri Sovet hökumətinə qarşı vahid cəbhədə birləşməyi məqbul hesab edirdilər və 1927-ci ilin noyabrın ilk günlərində keçirilən toplantıda Henri Detertinq SSRİ-yə qarşı "Vahid Cəbhə"nin yaradılmasını zəruri hesab etdi. Ermənilər təcili olaraq, "Rus neft hasilatçıları İttifaqı"nı yaradıb, "Vahid Cəbhə"yə daxil olmaq istəsələr də, onlara tövsiyə etdilər ki, ya "Azərbaycan Neft Sənayeçiləri İttifaqı"na, ya da "Ticarət-Sənaye Komitəsi"nə daxil olsunlar.

[137] Bitərəflər qrupunun Türkiyədə fəaliyyəti haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı.01.12.1927.// GDİNA, f.13, s.5, i.170, v.218

[138] Р.Абуталыбов. Мамед Амин Расулзаде и Кавказская Конфедерация. М., 2011, с.34

[139] Bitərəflər qrupunun Türkiyədə fəaliyyəti haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı.01.12.1927.// GDİNA, f.13, s.5, i.170, v.219-220

onlar müstəqil təşkilat kimi Cəbhəyə daxil ola bilməzlər.[140] 1927-ci ildə Britaniya və Fransanın SSRİ ilə münasibətləri kəskinləşdiyindən, həm qərbin siyasi dairələri, həm də, həmin dövrdə Parisdə Qafqaz mühacirləri ilə danışıqlar aparan Britaniya neft kompaniyalarının nümayəndəsi H.Detertinq onlara Sovet İttifaqına qarşı mübarizə aparan mühacir təşkilat və cəmiyyətlərinin vahid bir mərkəzdə birləşməsinin zəruri olduğunu təlqin edirdi.[141]

Azərbaycan mühacirətinin bitərəflər qrupunun və Neft Sənayeçiləri İttifaqının Ə.M.Topçubaşovu müdafiə etməsi təmsilçilik məsələsində onun mövqelərini xeyli gücləndirdi. 1928-ci ilin yanvarında o, İstanbuldakı mühacir təşkilatlarına göndərdiyi məktubda M.Ə.Rəsulzadə və onun tərəfdarlarını çox kəskin şəkildə tənqid etdi. Ə.M.Topçubaşov yazırdı ki, yeganə səlahiyyətli orqan kimi, Azərbaycan Cümhuriyyətinin sülh heyəti bütün məhrumiyyətlərə və çətinliklərə baxmayaraq, 9 ildir ki, ardıcıl olaraq, xalqın maraqlarını müdafiə edir. Bu məlumatla Azərbaycan sülh heyəti xaricdə olan bütün Azərbaycan təşkilat və cəmiyyətlərini nəyin bahasına olursa-olsun, vətəni yadellilərin işğalından qurtarmaq üçün real birliyə çağırırdı. Ə.M.Topçubaşovun belə yanaşması M.Ə.Rəsulzadə üçün çox gözlənilməz oldu. Müxtəlif fikir ayrılıqlarına baxmayaraq, milli qüvvələrdən hələ ki, heç kim ölkənin düçar olduğu bəlaların məsuliyyətini Müsavat Partiyasının üzərinə qoymamışdı.[142] Bu məktuba görə, Ə.M.Topçubaşov Azərbaycan Milli Mərkəzinin üzvlüyündən çıxarıldı. 1928-ci ilin yazında o, gürcü milli demokratı A. Asatiani və H. Bammatovla gizli saziş bağlayıb, Qafqaz Milli Mərkəzini təsis etdilər. 1928-ci ilin may ayında Qafqaz İstiqlal Komitəsindən çıxdığını elan edən Qafqaz Konfederalistlər Komitəsi də (X.Sultanov, D.Vaçnadze və Ə.Kantemir) Qafqaz Milli Mərkəzinə birləşdiyini bildirdi. Onlar "Prometey" jurnalı ilə əməkdaşlığı dayandırıb, "Müstəqil Qafqaz" jurnalını təsis etdilər.[143]

[140] Sovet nefti haqqında mübarizə haqqında Zaqafqaziya Dövlət Siyasi İdarəsinin məlumatı.04.11.1927.// GDİNA, f.13, s.5, i.170, v.97

[141] Bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.105

[142] А.Сафарова. Идея Кавказской Конфедерации в эмигрантский период политической деятельности А.М.Топчибашева.// Известия Национальной Академии Наук Азербайджана: Серия истории, философии и права. 2001, № 3, с. 48

[143] Bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.129

Lakin Azərbaycan mühacirət mərkəzləri arasında bu qarşıdurmanı məqbul hesab etməyən M.Ə.Rəsulzadə 1928-ci ilin iyul ayında Parisə gəldi. O, Ə.M.Topçubaşovla görüşüb, mühacirət mərkəzlərində mübahisəli hesab edilən məsələləri ətraflı müzakirə etdi. İyul ayının 14-də tərəflərin imzaladığı dörd bənddən ibarət bəyənnamədə göstərilirdi ki, nümayəndə heyəti və Milli Mərkəz arasında bütün mübahisələr həll edilmişdir; milli qüvvələrin birləşməsi məsələsində Milli Mərkəzin səlahiyyətli bir qurum olduğu qəbul edilmişdir; Paris nümayəndəliyi bu gündən etibarən Milli Mərkəzlə birgə hərəkət etməyə tam qərar vermişdir və vətənin bolşevik işğalından qurtarılması üçün bütün mühacirlər Milli Mərkəzin rəhbərliyi altında birləşməyə dəvət ediləcəkdir. Bu bəyannamə ilə Azərbaycan mühacirət hərəkatının siyasi və diplomatik addımlarının ağırlıq mərkəzi Azərbaycan Milli Mərkəzinin üzərinə keçdi və Ə.M.Topçubaşov mühacirət hərəkatının mənəvi lideri funksiyasını yerinə yetirərək, ömrünün sonuna qədər 14 iyul bəyənnaməsinə sadiq qaldı.[144]

Bundan sonrakı dövrdə də Əli Mərdan bəy Azərbaycan nümayəndə heyətinin başçısı kimi, öz siyasi-diplomatik fəaliyyətini davam etdirdi. 1929-cu ilin iyul ayının 29-da Aristid Brian yenidən hakimiyyətə gəlib, 96-cı Fransa hökumət kabinetini qurduqda, Ə.M.Topçubaşov Baş nazir vəzifəsi ilə yanaşı yeni kabinetdə həm də xarici işlər naziri vəzifəsini tutan A.Briana təbrik teleqramı göndərdi. O, qeyd edirdi ki, bütün dünya A.Brianı beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçılarından biri kimi, tanıyır və xahiş edirdi ki, bu dünya səslərinin içində kiçik Azərbaycan xalqının da səsi eşidilsin.[145]

1929-cu ildə Fransa Respublikasının böyük dövlət xadimi Jorj Klemanso vəfat edən zaman Azərbaycanın istiqlaliyyətinin tanınmasındakı roluna və xidmətlərinə görə, Ə.M.Topçubaşov Azərbaycan sülh nümayəndə heyətinin rəhbəri kimi, Fransa hökumətinə səmimi bir başsağlığı teleqramı göndərdi. Orada deyilirdi: "Fransanın böyük siyasi xadimlərindən biri kimi, Jorj Klemansonun vəfatı bizi dərindən kədərləndirmişdir. Biz azərbaycanlılar həmişə xatırlayacağıq ki, Azərbaycanın müstəqilliyi Klemansonun sədrliyi ilə tanınmışdır."[146]

[144] V.İmanov. Ali Merdan Topçibaşı. Lider bir aydın ve Bağımsız Azerbaycan Cumhuriyeti'nin Temsili. Istanbul, 2003, s.217-218

[145] Télégramme Son Excellence Monsieur Briand Ministère affaires étrangères Paris - M.Toptchibachy Alimardan Président Délégation azerbaïdjannienne. Le 29 juillet 1929. Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 305-306

[146] Président de la Délégation de Paix de la République d'Azerbaïdjan A.M.Toptchibacheff

Sovet İttifaqında 20-ci illərin sonunda başlanan kollektivləşmə siyasəti Azərbaycan SSR-dən qonşu İran və Türkiyəyə mühacirət axının yeni dalğasını doğurdu. Kollektivləşmə siyasətinə etiraz olaraq, yalnız İrana mühacirət edənlərin sayı beş min nəfərdən artıq idi və onlar sosial baxımdan son dərəcə ağır vəziyyətə düşmüşdülər. Parisdə yerləşən Azərbaycan diplomatik nümayəndəliyi İrana qaçmış Azərbaycan vətəndaşlarının ağır həyat şəraiti ilə bağlı 1930-cu ilin sentyabr ayının 10-da Millətlər Cəmiyyətinin Məclisinə müraciət etmişdi. Nümayəndə heyətinin üzvü M.Mehdiyev tərəfindən Cenevrəyə göndərilən sənəddə Millətlər Cəmiyyətindən xahiş edilirdi ki, ərzaq və yaşayış yerindən məhrum olmuş, epidemiyanın yayılması təhlükəsi ilə üzləşmiş bu insanlara maddi yardım göstərilsin.[147] 30-cu illərdə mühacir axınının yeni dalğasının başlanması və beynəlxalq vəziyyətin getdikcə gərginləşməsi bütövlükdə Avropa ölkələrinə sığınmış Azərbaycan mühacirlərindən yeni taktiki addımlar tələb edirdi.

§3. Qafqaz Konfederasiyası Paktı və II Dünya müharibəsi ərəfəsində Azərbaycan mühacirlərinin siyasi-diplomatik addımları

1931-ci ildə Parisdə Müstəqil Qafqaz Konfederasiyasının fəaliyyəti bərpa edildikdən sonra Azərbaycan, Gürcüstan və Dağlılar Respublikasının Milli Mərkəzləri ümumi Qafqaz əməkdaşlığına nail olmaq üçün bir sıra addımlar atdılar. Onlar gələcək Qafqaz Konfederasiyasının konstitusiya layihələrini hazırlayır və həmin layihələrin müxtəlif variantları "Prometey" jurnalının səhifələrində, habelə, Milli Mərkəzlərin gizli toplantılarında müzakirə edilirdi. Qafqaz Konfederasiyasının bütün regionu əhatə etməsi üçün Azərbaycan, gürcü və dağlı nümayəndələri çalışırdılar ki, ermənilərı də prosesə cəlb etsinlər. 1931-ci ilin dekabr ayının 3-də keçirilən iclasda qərar qəbul edildi ki, Müstəqil Qafqaz Konfederasiyasının başlıca məqsədi Qafqaz respublikalarının itirilmiş müstəqilliyini bərpa etməkdən ibarətdir. Ona görə də Qafqaz mühacir təşkilatlarının öz aralarında olan ixtilafları bir kənara

- Le Cabinet a envoyé carte, le 29 novembre 1929.// Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol. 639, folio 307

[147] Appel de Mir Yacoub (Président par intérim de la délégation de la République d'Azerbaïdjan à Paris) - à Son Excellence Monsieur le Président de l'Assemblée de la Société des Nations, le 10 septembre 1930. Bu sənədin surəti Parisdə doktor G.Mamoulyanın şəxsi arxivindən alınmışdır.

qoymaları məqsədəuyğun sayılırdı və əslində, məsələnin belə qoyuluşu ixtilafların əsas mənbəyi olan erməni mühacir təşkilatlarına bir çağırış idi.[148]

Ötən əsrin 20-ci illərinin sonunda Sovet İttifaqının Türkiyə ilə yaxınlaşma siyasəti Türkiyədə fəal siyasi hərəkətlərlə məşğul olan Azərbaycan mühacirlərinin bu ölkəni tərk etməsi ilə nəticələndi. M.Ə.Rəsulzadə Türkiyənin rəhbərliyi altında Qafqaz mühacir hərəkatını canlandırmağa üstünlük versə də, 30-cu illərin əvvəllərində türk hökuməti Sovetlərə qarşı mübarizə aparan siyasi mühacirlərin fəaliyyətini qadağan etdi. 1930-cu ildə Ankaraya gəlmiş SSRİ xarici işlər komissarının müavini L.Karaxan Baş nazir İsmət paşa ilə görüşdə Türkiyədə yerləşən Qafqaz mühacir təşkilatlarının antisovet fəaliyyətindən Sovet rəhbərliyinin narazılığını ifadə etdi. Danışıqların gedişində İsmət paşa Türkiyədə Sovet İttifaqına qarşı mübarizə aparan Qafqaz və "rus ünsürlərinin" fəaliyyətinə son veriləcəyini bildirdi. İsmət paşa söz verdi ki, Türkiyədə Sovet İttifaqı üçün arzuedilməz sayılan bütün mühacir təşkilat və cəmiyyətləri ləğv ediləcəkdir.[149] Eyni zamanda, 1931-ci ildə xarici işlər nazirlərinin qarşılıqlı səfərləri zamanı 1925-ci ildə imzalanmış dostluq və neytrallıq haqqında türk-sovet müqaviləsinin vaxtının daha beş il müddətinə uzadılması haqqında razılıq əldə edildi. Bu məqsədlə 1931-ci ilin noyabr ayının 30-da Ankarada imzalanmış protokolun gizli maddəsinə görə, Türkiyə SSRİ-dən olan fəal siyasi mühacirlərin ölkədən çıxarılması haqqında öz üzərinə öhdəlik alır və Sovet İttifaqı əleyhinə yönəlmiş bütün təbliğat işlərinə son qoyulacağına təminat verirdi.[150]

M.Ə.Rəsulzadə və onun tərəfdaşları 1931-ci ilin sonlarında Türkiyədən çıxarıldı və bununla da onun mühacirət fəaliyyətinin Avropa mərhələsi başladı. Türkiyədən çıxarılmış Azərbaycan mühacirləri Polşada yerləşdilər. Əslində, Polşa hakimiyyət orqanları 1927-ci ildən başlayaraq, M.Ə.Rəsulzadə və Azərbaycan Milli Mərkəzinə Avropada fəaliyyət göstərmək məsləhət görürdülər. Türkiyə ilə SSSR-nin yaxınlaşmasından sonra onlar İstanbulda fəaliyyət göstərməyi səmərəsiz hesab edir, Azərbaycan mühacirlərinin ya Parisdə toplanmalarını və ya Varşavaya köçmələrini məqsədəuyğun hesab edirdilər.

M.Ə.Rəsulzadə antisovet mübarizəni mətbuatsız təsəvvür etmədiyindən, Polşada siyasi sığnacaq aldıqdan az sonra "İstiqlal" qəzetinin nəşrinə başladı.

[148] Bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.134-135

[149] İsmət paşanın Moskvada V.Molotovla söhbəti. May 1932.// RDSSTA, f.82, s.2, i.1328, v.125

[150] А.Балаев. Мамед Амин Расулзаде (1884-1955). М., 2009, с.236

Qəzet Almaniyada çıxır və oradan müxtəlif ölkələrdə yerləşən Azərbaycan mühacirlərinə göndərilirdi. Qəzetin birinci nömrəsindəki baş məqaləsində Rəsulzadə yazırdı ki, biz Azərbaycanın azadlığı uğrunda mübarizəni bir an da dayandırmamalı və bunu bütün dünyaya bəyan etməliyik. O, bildirirdi ki, Berlində nəşr olunan "İstiqlal" İstanbulda bağlanmış qəzet və jurnalların davamıdır.[151] Eyni zamanda, 1933-cü ildə Parisdə fransız dilində Mir Yaqub Mehdiyevin "Qafqaz problemi" kitabının nəşr olunması regionun tarixi və diplomatiyasının öyrənilməsi və təbliği baxımdan mühüm hadisə oldu. Müəllif beynəlxalq münasibətlərdə Qafqaz dövlətlərinin yeri, Qafqaz cümhuriyyətlərinin Versal Ali Şurası tərəfindən tanınması, bolşevik istilası və Qafqaz xalqlarının öz istiqlaliyyətlərini itirməsi barədə kitabda maraqlı mülahizələr irəli sürmüşdü. M.Mehdiyevin "Qafqaz problemi" kitabı Azərbaycanın və bütövlükdə, Qafqaz respublikalarının diplomatiya tarixini öyrənmək üçün ən etibarlı mənbə sayıla bilər.[152]

30-cu illərdə Almaniyada nasional-sosialistlərin hakimiyyətə gəlməsi Fransanı Sovet İttifaqı ilə yaxınlaşmağa vadar etdi. Prometey hərəkatında fəal rol oynayan Qafqaz mühacir liderlərinin faşizmə və A.Hitlerə münasibətləri müsbət deyildi. Həmin hərəkatın başçılarından biri kimi, N.Jordaniya bildirmişdi ki, bir-birinin ardınca Avropa ölkələrini işğal edən Almaniya Gürcüstanın müstəqilliyini bərpa edə bilməz. O, çox aydın şəkildə qeyd edirdi ki, Qafqaz mühacirlərinin taleyi dünyanın demokratik qüvvələri ilə bağlıdır.[153] N.Jordaniyanın faşizmə olan münasibətini eynilə M.Ə.Rəsulzadə də bölüşürdü. Almaniyada faşizm hakimiyyətə gəldikdən sonra o, 1933-cü ildə Hitlerə öz mənfi münasibətini ifadə etmiş, onu demokratik prinsipləri inkar etməkdə və ölkədə faşist rejimi qurmaqda günahlandırmışdı.[154]

1933-cü ilin may ayının 16-da hücum etməmək haqqında Fransa-Sovet müqaviləsinin ratifikasiya olunması Qafqaz mühacirlərinin fəaliyyətinə böyük zərbə vurdu. Bu müqaviləyə görə, Gürcüstan milli hökumətinin Parisdə fəaliyyət göstərən rəsmi diplomatik nümayəndəliyi ləğv edildi. Bu nümayəndəliyin rəsmi statusu olduğundan, Qafqaz mühacirləri bir sıra siyasi-diplomatik məsələlərdə onun imkanlarından istifadə edə bilirdilər. Bunun ardınca Sovet İttifaqının 1934-cü ildə Millətlər Cəmiyyətinə daxil olması

[151] A.Karaca. Azərbaycan'ın Yakın Tarihinə Kısa Bir Bakış. Ankara, 1982, s.23-24

[152] Bax: Mir-Yacoub. Le Probleme du Caucase. Paris, 1933

[153] Mühlen Patrik fon Zur. Camali Haç ile Kızıl Yıldız Arasında. Ankara, 1984, s.37

[154] Geniş məlumat üçün bax: N.Yaqublu.Azərbaycanın müstəqilliyi uğrunda mübarizə və Məmməd Əmin Rəsulzadə. Bakı, 2001, s.98

Qafqaz mühacir təşkilatları üçün əlavə çətinliklər yaratdı. Avropa dövlət başçılarına göndərdikləri notalarda Qafqaz mühacirət təşkilatları SSRİ-nin təcavüzkar bir dövlət kimi, Millətlər Cəmiyyətinə qəbul edilməsinə etirazlarını bildirir və onlar bu qəbulla bağlı Sovet İttifaqının işğal etdiyi milli respublikalardan çəkilməsi istiqamətində şərtlər qoyulmasını zəruri hesab edirdilər.

30-cu illərin əvvəllərindən başlayaraq, polyaklar Prometey hərəkatına əməli xarakter vermək üçün Qafqaz Konfederasiyasının formalaşmasını hüquqi cəhətdən tamamlamaq istəyirdilər. Bu prosesdə başlıca maneəni ermənilər təşkil edirdilər. 1931-ci ilin əvvəllərində gürcülər vasitəsi ilə erməni mühacir nümayəndələrinə təklif edildi ki, onlar Qafqaz birliyinə qoşulsunlar. Lakin onlar bu birliyə qoşulmaq üçün öz şərtlərini irəli sürdülər. Onların fikrincə, Türkiyə Ermənistanını geri qaytarmaq mümkün olmadığından, Azərbaycan və Gürcüstan həmin sovet respublikalarında ermənilərin toplu halında yaşadığı ərazilərin Sovet Ermənistanına keçməsinə razılıq verməlidirlər. Erməni nümayəndələri öz iddialarını onunla əsaslandırırdılar ki, erməni xalqının üçdə ikisi Ermənistandan kənarda yaşayır və Sovet Ermənistanının ərazisi müstəqil dövlətin mövcudluğu üçün yetərli deyildir. Onların belə iddiaları Azərbaycan və Gürcüstan nümayəndələri üçün məqbul olmadığından, 1932-ci ilin sonlarında Qafqaz Konfederasiyası ilə bağlı ermənilərlə aparılan danışıqlar dayandırıldı.[155]

1934-cü ilin yanvar ayının 27-də Qafqaz Konfederasiyasi haqqında müzakirələr genişləndiyindən keçmiş Rusiya imperiyasından olan mühacirlərin Parisdə "Sosete Savant" klubunda geniş toplantısı keçirildi. Ukrayna nümayəndəsi A. Şulqinin sədrliyi ilə Azərbaycan, Gürcüstan, Ermənistan, Qafqaz dağlıları, Ukrayna, Türküstan və Rusiya nümayəndələrinin iştirak etdiyi toplantıda M.Mehdiyev "Beynəlxalq vəziyyət və SSRİ-də milli məsələ" haqqında məruzə ilə çıxış etdi. Məruzə rus monarxistləri tərəfindən etirazla qarşılansa da, milli respublikaların Parisdə olan təmsilçiləri tərəfindən böyük hərarətlə qarşılandı. 30-cu illərdə yaranmış beynəlxalq vəziyyəti təhlil edərək, M.Mehdiyev qeyd edirdi ki, 1933-cü ildə faşizmin hakimiyyətə gəlməsi ilə Almaniyanın Rapallo siyasətinə son qoyuldu. Onun fikrincə, Rusiya – Almaniya əməkdaşlığını Versal müqaviləsinə qarşı qoymaq üçün on ildən artıq idi ki, alman xari-

[155] Bax: G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.135

ci siyasəti Rapallonun təsiri altında fəaliyyət göstərirdi.[156] M.Mehdiyev öz məruzəsində Sovet İttifaqının milli siyasətinin Çar Rusiyasının milli siyasətindən heç nə ilə fərqlənmədiyini, onların hər ikisinin ruslaşdırma ideologiyası üzərində qurulduğunu əsaslandırırdı.[157] Məruzə ətrafında çıxış edən rus mühacirlərindən knyaz Qolitsın, prof. Svatikov federalizmi Rusiya millətləri üçün ən uyğun yol hesab etdilər. Lakin toplantıya sədrlik edən prof. Şulqin (Ukrayna), İ.Çulik (Şimali Qafqaz) , Amiracibi (gürcü), İ.Smokin (Moldova), Q.Yeremeyev (Ukrayna), Ş.Balinov (kazak), Q.Qvazava (gürcü) və Azərbaycan nümayəndəsi A.Atamalıbəyov bununla razılaşmadılar. A.Atamalıbəyov dedi ki, hər dəfə söhbət öz müstəqillikləri uğrunda mübarizə aparan millətlərdən gedəndə, ruslar federasiya haqqında məsələni irəli sürürlər, hər dəfə bizə deyirlər: "Əlbəttə, xalqlar öz müqəddəratını təyin etmək hüququna malikdirlər və s., lakin siz federasiya istəmirsinizmi?" Abbas bəy rus bolşeviklərinin və rus monarxistlərinin milli məsələyə münasibətini ümumiləşdirərək dedi ki, onlar "Rusiyanın maraqlarını, yalnız, digər xalqları köləlikdə saxlamaqda görürlər".[158] Gürcüstan nümayəndəsi Q.Qvazava bolşevizmin simasında Rusiyada 1861-ci ildə ləğv edilmiş köləliyin yenidən bərpa olunduğuna toxundu. O, soruşdu ki, rus kommunizm ideologiyası ilə gürcü və ya ukraynalının xarakteri arasında ümumi nə vardır? Bu zaman, rus mühacirlərindən kimsə replika verdi ki, Stalin. Bu replikaya cavab olaraq Qvazava dedi: "Stalin? Biz onu Gürcüstandan qovduq, siz isə, onu bütün Rusiyanın diktatoru taxtına əyləşdirdiniz".[159]

Polşa rəsmi dairələri Prometey hərəkatını gücləndirmək və Parisdə olan mühacir təşkilatlarının birliyinə nail olmaq məqsədilə 1934-cü ilin may ayında "Qafqaz, Türküstan və Ukrayna Xalqlarının Dostluq Komitəsi"nin yaradılmasına nail oldular. Komitənin başlıca vəzifəsi Parisdə olan Prometey yönlü mühacir təşkilatlarının fəaliyyətini əlaqələndirmək idi. Komitənin müvəqqəti bürosunun sədri A.Şulqin, katibi isə, A.Atamalıbəyov idi. Müvəqqəti büroya Azərbaycandan M.Mehdiyev və A.Atamalıbəyov, Gürcüstandan A.Çxenkeli, Dağlılar Respublikasından İ.Çulik, Türküstandan M.Çokayev, Ukraynadan isə A.Şulqin və İ.Kosenko daxil idilər.[160] Dostluq Komitəsi Qafqaz Konfederasiyasının yaradılması yolunda əhəmiyyətli bir

[156] Мир Якуб. Международное положение и национальная проблема в СССР. Париж, 1934, с.14-15

[157] Bax: Yenə orada, s.32-39

[158] Yenə orada, s.52

[159] Yenə orada, s.66

[160] Северный Кавказ, 1934, № 1, с.27

addım oldu. Azərbaycan milli istiqlal hərəkatının lideri kimi, M.Ə.Rəsulzadə 1933-cü ilin noyabr ayında hazırladığı "Azərbaycanda milli hərəkat" məqaləsində çox aydın şəkildə bildirirdi ki, yalnız Qafqaz xalqlarının ümumi gücü ilə Kremlin diktaturasından azad olmaq və Rusiyadan asılı olmayan Qafqaz Konfederasiya İttifaqı yaratmaq mümkündür.[161]

Uzun müzakirələrdən sonra, 1934-cü ilin iyul ayının 14-də ermənilər istisna olmaqla, digər Qafqaz respublikaları Qafqaz Konfederasiyası Paktını imzaladılar. Orada deyilirdi: "Bir millətin hərtərəfli inkişafının ancaq tam bir istiqlal şərti ilə mümkün ola biləcəyini; qabaqcıl Qafqaz qüvvələrini vahid və müştərək bir hüdud daxilində birləşmədən, bu məqsədə nail olmanın son dərəcə çətin olacağını; Qafqaz millətlərinin xarici siyasət və milli müraciətlərinin müştərək bir tərzdə ifadə edilməsinin zəruriliyini; Qafqaz Cümhuriyyətlərinin Konfederasiyasının məmləkətin siyasi və iqtisadi vəhdətindən irəli gələn siyasi bir forma olduğunu" nəzərə alan Azərbaycan, Gürcüstan və Şimali Qafqaz Milli Mərkəzləri Qafqaz Konfederasiyasını yaradırlar.[162] Sənəddə Konfederasiyanın aşağıdakı mühüm prinsiplər üzərində qurulduğu elan edilirdi: 1.Qafqaz Konfederasiyası xaricdə tərkibinə daxil olan cümhuriyyətlərin adından hərəkət edəcək və müştərək kömrük hüduduna malik olacaq; 2.Konfederasiyaya daxil olan cümhuriyyətlərin xarici siyasəti qurumun səlahiyyətli nümayəndələri tərəfindən idarə ediləcək; 3.Konfederasiyanın hüdudları ora daxil olan cümhuriyyətlərin ordularından təşkil olunan və vahid komandanlıq altına alınan Konfederasiya Ordusu tərəfindən müdafiə olunacaq; 4.Konfederasiya daxilindəki mübahisəli məsələlər Ali Konfederasiya Məhkəməsinə veriləcək; 5.Ekspert komissiyası yuxarıda deyilən prinsipləri nəzərə alaraq, ən qısa vaxtda Qafqaz Konfederasiyasının konstitusiya layihəsinin hazırlanmasına başlayacaq; 6.Ermənistan Respublikası üçün bu Paktda yer saxlanılacaq.[163]

Qafqaz Konfederasiya Paktını Azərbaycan Milli Mərkəzi adından Məmməd Əmin Rəsulzadə və Əli Mərdan bəy Topçubaşov, Şimali Qafqaz Milli Mərkəzi adından Məmməd Girey Sunş, İbrahim Çulik və Tausultan Şakman, Gürcüstan Milli Mərkəzi adından Noy Jordaniya və Akaki Çxenkeli imzaladılar. Qafqaz Konfederasiya Paktının yaranması ilə bağlı Qafqaz İstiqlal Komitəsi Qafqaz xalqlarına müraciət qəbul etdi. Orada göstərilirdi

[161] М.Э.Расулзаде. Национальное движение в Азербайджане.// Вопросы истории, 2002, № 2, с. 28-29

[162] Pacte de la Confédération du Caucase.// Prométhée, 1934, № 92, p. 3

[163] Pacte de la Confédération du Caucase.// Prométhée, 1934, № 92, p. 4

ki, 14 iyul Paktı elan olunmaqla, Milli Mərkəzlər öz fəaliyyətlərinin birinci mərhələsini başa çatdırır və bundan sonra bütün siyasi, inqilabi fəaliyyətlər Qafqaz Konfederasiya Paktının səlahiyyətlərinə keçir. Müraciətdə deyilirdi ki, bu yaxınlarda bir konfrans çağırılacaq, orada Qafqaz İstiqlal Komitəsinin istefası qəbul olunacaq və müştərək bir Qafqaz orqanı yaradılacaqdır.[164]

Qafqaz Paktı imzalanandan bir neçə həftə sonra, avqust ayının 6-da onu imzalamış respublikaların Milli Komitələri adından M.Mehdiyev, A.Çxenkeli və İ.Sunş Fransanın xarici işlər naziri Lui Bartuya nota göndərib, bildirdilər ki, öz azadlığı və müstəqilliyini bərpa etmək uğrunda mübarizə aparan Qafqaz xalqları bu məqsədlərə nail olmaq üçün qüvvələrini birləşdirmiş və Ermənistan üçün də bu Paktda yer saxlanmışdır. Notada qeyd edilirdi ki, konfederasiya formasında birləşmiş Qafqaz xalqları, heç şübhəsiz, Yaxın Şərqdə sülhün və sabitliyin mühüm amili olacaqdır.[165]

Qafqaz Konfederasiya Paktının imzalanması Moskva rəhbərliyinin diqqət mərkəzində idi. Sovet xarici kəşfiyyat orqanlarına təlimat verilmişdi ki, Paktın məqsəd və vəzifələri, Konfederasiyanın rəhbər heyəti haqqında təcili agentura məlumatları toplasınlar. Sovet xarici kəşfiyyat orqanlarının məlumatlarında Paktın bütövlükdə SSRİ-yə qarşı yönəldiyi, onun sırf antisovet məqsədlərə xidmət etdiyi göstərilirdi. Qafqaz Konfederasiyasının rəhbər heyəti haqqında toplanmış agentura məlumatları əsasında hazırlanmış arayışda qeyd edilirdi ki, N.Jordaniya və A.Çxenkeli mühacirət dairələrində əhəmiyyətli dərəcədə öz təsirlərini itirmişlər və çətin ki, bundan sonra onlar gürcü mühacir qrupunun əlaqələndirici funksiyasını yerinə yetirə bilsinlər. Dağlı Respublikası ilə bağlı vəziyyəti təhlil edib, xarici kəşfiyyat idarəsi belə qənaətə gəlirdi ki, dağlı mühacirət dəstələri həddindən artıq dağınıq fəaliyyət göstərir və belə şəraitdə Çulik, Sunş və Şakmanov Qafqaz Konfederasiyasının müəyyən etdiyi vəzifələri çətin ki, həyata keçirə bilsinlər. Ə.M.Topçubaşova gəldikdə isə, onlar yazırdılar ki, Sovet agenturasının məlumatına görə, səhhətinin ağırlaşması ilə bağlı o, tədricən fəal işdən uzaqlaşır və Azərbaycan mühacirləri arasında elə də güclü mövqeyi yoxdur. Agentura məlumatlarının təhlilində M.Ə.Rəsulzadə haqqında yazılırdı ki, Brüssel Paktını imzalayanlardan, yalnız Rəsulzadə həm Azərbaycan

[164] Kurtuluş, 1935, № 5, s.3-4; Pacte de la Confédération du Caucase.// Prométhée, 1934, № 92, p. 5-6

[165] Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения «Прометей». Сборник документов. Сост., пред., пер., прим. Г.Г.Мамулия. М.,2012, с.100

Milli Mərkəzinə, həm də Azərbaycan mühacirətinə təsir imkanlarına görə təmsilçilik roluna iddia edə bilər.[166]

Qafqaz Konfederasiya Paktının imzalanmasından dörd ay sonra bütün Qafqaz mühacirətinə ağır itki üz verdi, bütün həyatını Azərbaycanın, o cümlədən, bütün Qafqaz xalqlarının azadlığına və müstəqillik uğrunda mübarizəsinə həsr etmiş böyük lider Əli Mərdan bəy Topçubaşov 1934-cü ilin noyabr ayının 5-də Paris yaxınlığındakı Sen-Klu şəhərindəki evində vəfat etdi. Onun vəfatı yalnız vətəndən uzaqlarda öz ölkəsinin istiqlalı uğrunda mübarizə aparanlara deyil, bütün Azərbaycan xalqına böyük itki idi. Noyabr ayının 8-də Əli Mərdan bəyin dəfni bütün Qafqaz, Mərkəzi Asiya və Rusiya mühacirəti üçün həmrəylik mitinqinə çevrildi. Bütün mühacirət təşkilatlarının rəhbərlərinin iştirak etdiyi dəfn mərasimində mərhumun keçdiyi həyat yolu, Azərbaycan və Qafqazın milli həyatında, Rusiya imperiyasının siyasi həyatında onun rolu haqqında ilk sözü deyən Azərbaycan Milli Mərkəzinin rəhbəri M.Ə.Rəsulzadə öz nitqinə belə başladı: "Xanımlar və bəylər! Millət yolunda çalışanlarımızdan bir böyüyü ilə halallaşırıq. Heyhat! Azərbaycan parlamentinin şanlı sədrini, nümayəndə heyətinin sayğılı başçısını müsafiri olduğumuz Fransa torpağına əmanət buraxırıq. Parlament sədri, nümayəndə heyətinin başçısı, Milli Mərkəz üzvü və sair kimi, mərhumun daşıdığı rəsmi ünvanları zikr etməklə, Əli Mərdan bəy adının mənasını tamamilə anlatmaq, mövzunu bütün tərəfləri ilə qavramaq qətiyyən mümkün deyildir. Yetmiş beşi haqlayan yaşının, heç olmasa, əllisini mərhum durmadan, yorulmadan və usanmadan camaat işinə və millət yoluna vermişdir. Əlli il ömür, yarım əsirlik bir həyat! Böyük bir dövr!... Əvət, Əli Mərdan bəyin keçinməsi ilə biz, milli həyatımızda başlıbaşına bir dövrü təmsil edən mühüm şəxsiyyətdən ayrılırıq, çünki, Topçibaşi Əli Mərdan bəyin adı müəyyən bir nəsli və müəyyən bir dövrü andırır."[167] Sonra Məmməd Əmin bəy öz nitqində Əli Mərdan bəyin keçdiyi həyat yolunun qısa tarixcəsini verir, onun Rusiya Müsəlmanları İttifaqına, Birinci Dövlət Dumasının müsəlman fraksiyasına rəhbərliyini yada salır, Vıborq Bəyannaməsini imzalamasını xatırladaraq deyirdi: "Biz burada mərhumun millət davası yolundakı əməklərinin ən başlı və ən canlı nöqtələrini qeyd edirik, yoxsa onun bu yoldakı işlərini saymaqla bitirmək qeyri mümkündür.

[166] Л.Соцков. Неизвестный сепаратизм: На службе СД и Абвера. Из секретных досье разведки. Москва, 2003, с.130

[167] Kurtuluş, 1934, № 2, s.35

Onun bütün həyatı millət davasının vəkilliyi ilə keçmişdir".[168] Azərbaycan istiqlalının əldə edilməsində, onun beynəlxalq cəhətdən tanınmasında Əli Mərdan bəyin müstəsna xidmətlərini qeyd edən Rəsulzadə onun Qafqaz Konfederasiyasının ilk carçısı olduğunu xatırladır, mərhumun 1914-cü ildə gürcü şairi Seretelinin məzarı başında dediyi sözləri yada salırdı. O deyirdi: "Əgər vəfasız həyat, qurtaracağına heç bir zaman şübhə etmədiyi vətənə dönməyi ona nəsib etmədisə də, bundan bir az əvvəl, Azərbaycanın səlahiyyətli bir nümayəndəsi sifətilə Qafqazlı qonşularımızın səlahiyyətli digər nümayəndələri ilə birlikdə imzaladığı Qafqaz Konfederasiya Paktının elanı ilə nəhayət, qafqazlıların bir arada olmağa səy etdiklərini görməkdən təsəlli tapmış, zövq almışdı. Bu təsəllinin onda nə qədər böyük bir həyəcan və hiss oyandırdığını bilavasitə gördüm. Xəstəlik və ixtiyarlığın hücumuna rəğmən, mərhum son nəfəsinə qədər vəziyyət haqqında məlumatlar istəyir, böyük mübarizənin marağı ilə yaşayırdı. Şübhə yoxdur ki, onun şəxsində Qafqaz konfederalistləri öz mübarizələrinin ən qədim müdafiəçilərindən birini itirdilər. Əvət, vətəndaşlar, biz azərbaycanlılar, Əli Mərdan bəyin simasında milli hərəkatımızın müəyyən dövrünü təmsil edən, müstəqil Azərbaycanın böyük dövlət adamını, Azərbaycan istiqlalının sayğılı mücahidini itirdik".[169] M.Ə.Rəsulzadə Ə.M.Topçubaşovun həyat yolunu ümumiləşdirərək deyirdi ki, o, "həyata dava vəkili olaraq girmişdi. Onun həyata atıldığı çağlarda Rusiyadakı türklərin və xüsusilə, azərbaycanlıların milli yaşayışlarında yeni bir dövr başlayırdı. Axundzadə Mirzə Fətəli, Zərdabi Həsən bəy və Qaspralı İsmayıl mirzələrin canlandırdıqları milli-kültür hərəkatı irəlləyir və bu hərəkat siyasi hüquq davası mərhələsinə girirdi. Əli Mərdan bəy bütün istedadını, Allahın ona bəxş etdiyi talantı bilavasitə bu ümumi davanın müdafiəsinə verdi. Ömrünün sonuna qədər o, həm dili, həm qələmi, həm də buradan-oraya, oradan buraya coşan enerjisi ilə milli davanın vəkili olaraq qaldı".[170]

Dəfn mərasimində Gürcüstan mühacirlərinin liderlərindən biri kimi, Akaki Çxenkeli dedi ki, Ə.M.Topçubaşov gənclik illərindən bəri Qafqaz xalqlarının dostluğu uğrunda çalışan, Qafqaz millətlərinin azadlıq və istiqlal mübarizəsini birləşdirməyə cəhd göstərən ilk Qafqaz vətənsevəri sayıla bilər.[171] Daha sonra mərasimdə çıxış edənlər Ukraynanın keçmiş Baş na-

[168] Yenə orada, s.35-36

[169] Yenə orada, s.36

[170] Yenə orada, s.35

[171] Kurtuluş, 1934, № 2, s.54

ziri V.Prokopoviç, Ermənistanın keçmiş Baş naziri A.Xatisov və digərləri də mərhuma münasibətdə eyni sayğını nümayiş etdirdilər. A.Xatisov dedi ki, Qafqaz Konfederasiyasının ilk tərəfdarı kimi, Topçubaşı, hələ, 1921-ci ildə bütün Qafqaz nümayəndələrini birləşdirib, dörd respublikanın müqaviləsinin imzalanmasına nail oldu.[172] Həmin vaxt Berlində çıxan "Kurtuluş" jurnalı ikinci sayını bütövlükdə Ə.M.Topçubaşovun keçdiyi həyat yoluna və onun dəfn mərasiminə həsr etdi. Avropada çıxan "Şimali Kafkasiya", "Trizub", "Promethe", "Yaş Türküstan" və "Müstəqil Gürcüstan" jurnallarının noyabr-dekabr saylarında Ə.M.Topçubaşovun vəfatı ilə bağlı geniş yazılar verdilər.

Ə.M.Topçubaşovun xatirəsi 1935-ci ilin yanvar ayının 15-də Brusseldə işə başlamış Qafqaz mühacir təşkilatlarının konfransında da yad edildi. M.Ə.Rəsulzadə, N.Jordaniya və M.G.Sunş konfransın sədrləri, A.Atamalıbəyov, İ.Çulik və S.Menaqari isə iclasın katibləri seçildilər. Konfransın birinci iclasına sədrlik edən Rəsulzadə Qafqaz İstiqlal Komitəsinin fəaliyyəti və Qafqazla əlaqələr barədə, Q.Qvazava "Prometey" hərəkatının fəaliyyəti, A.Çxenkeli isə diplomatik fəaliyyət, T.Şakmanov mətbuat bürosunun işi ilə bağlı geniş məruzələrlə çıxış etdilər. Dağlı Respublikasının nümayəndəsi M.G.Sunş Qafqaz Konfederasiya Şurasının yaradılması haqqında məruzə etdi. Məruzə əsasında konfrans Qafqaz Konfederasiya Şurasının yaradıldığını bəyan etdi. Şura diplomatik, təbliğat və kəşfiyyat işlərini öz əlində toplamaq istiqamətində konfransdan səlahiyyət aldı.[173] Yanvar ayının 16-da keçirilən konfransın ikinci iclasında N.Jordaniya Şuranın siyasi xətti və ümumi vəziyyət haqqında ətraflı məruzə etdi. Məruzə əsasında konfransın qəbul etdiyi "Qafqaz məsələsi və Rusiya" adlı sənəddə göstərilirdi ki, Sovet İttifaqı sosial-siyasi və milli xarakterli daxili ziddiyyətlər içərisində boğulmaqdadır və yalnız, süngü üzərində dayanır. Orada qeyd edilirdi ki, hələ, I Pyotr dövründən Rusiyanın xarici siyasətinin əsas məqsədi isti dənizlərə çıxmaq olub və Çar Rusiyası bunu həll edə bilmədiyindən, həmin məsələnin həllini Sovet Rusiyasına ötürmüş, Sovet hakimiyyəti ilk dövrlərdə bu məsələni kommunizm ideyalarını Yaxın və Uzaq Şərqə yaymaqla həll etmək istəsə də, onun bu siyasəti iflasa uğradı. Ona görə, sənəddə təklif edilirdi ki, Qafqazlarda rus işğalçı hökumətinin ləğv edilməsi üçün Qafqaz

[172] Yenə orada, v. 55-57

[173] Bax: Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения «Прометей». Сборник документов. Сост., пред., пер., прим. Г.Г.Мамулиа. М.,2012, с.101-115

Cümhuriyyətlərinin bərqərar olması və bu cümhuriyyətlərin konfederasiya formasında birləşməsi yolunda Qafqaz millətlərinin hazırlanmasına çalışmaq; bu məqsədlə Sovet İttifaqındakı başqa əsir millətlərin təşkilatları ilə siyasi və təşkilatı əlaqələrə girişmək; Rusiyanın məhkum bütün millətlərinin istiqlalını qeyd-şərtsiz tanıyan rus qüvvələri ilə əlaqə qurmaq Şuranın başlıca vəzifəsidir. Sənəddə göstərilirdi ki, öz müstəqilliyi yolunda Şura, öz gücünə arxalanır.[174]

Konfransın 1935-ci il fevral ayının 23-də keçirilmiş iclasında bir sıra təşkilati məsələlər həll edildi. Qafqaz Konfederasiya Şurası Milli Mərkəzlərin hər birinin 4 nümayəndəsi daxil olmaqla, 12 nəfərdən ibarət təşkil edilirdi. İki il müddətinə təşkil olunmuş Şuraya rəhbər orqan kimi, Rəyasət heyəti başçılıq edirdi. Azərbaycanı Şurada M.Ə.Rəsulzadə, M.Mehdiyev, M.Vəkilov və M.Məhərrəmov təmsil edirdi. Şuranın rəyasət heyətinə N.Jordaniya, M.Ə.Rəsulzadə və M.G.Sunş daxil idilər. Diplomatik, təbliğat və kəşfiyyat işləri rəyasət heyətinin səlahiyyətlərinə aid idi.[175] 1935-ci ilin iyul ayının 20-də Şuranın statusu və reqlamenti haqqında sənəd qəbul edildi. Orada Şuranın məqsəd və prinsipləri, reqlamenti, Rəyasət Heyətinin səlahiyyətləri, diplomatik komissiyanın və mətbuat bürosunun vəzifələri müəyyən edilirdi.[176]

1935-ci ilin oktyabr ayının 31-də Qafqaz Konfederasiya Şurasının Rəyasət Heyəti M.Ə.Rəsulzadə, M.Mehdiyev, T.Şakmanov, N.Jordaniya və A.Çxenkelinin iştirakı ilə iclas keçirib, diplomatik iş, Cenevrədə milli azlıqların hüquqları barədə nəzərdə tutulan çıxış, rus dilində jurnal buraxılması və bir sıra təşkilati məsələləri müzakirə etdi. 1935-ci ilin noyabr ayının 12-də Rəyasət Heyəti yenidən bu məsələləri müzakirə edib, rus dilində yeni jurnalın buraxılmasının və "Prometey" jurnalının redaksiya heyətinin gücləndirilməsinin zəruriliyini bildirdi.[177] 1935-ci ilin noyabr ayının 22-də Qafqaz Konfederasiya Şurası Rəyasət Heyətinin müşavirəsi keçirildi. Müşavirədə Şuranın Qafqaz xalqlarına müraciətinin mətni, mühacirətin milli mətbuat orqanlarının redaktorlarına təlimatı, Qafqaz Konfederasi-

[174] Yenə orada, s.123-125; X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996, s.162

[175] Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения «Прометей». Сборник документов. Сост., пред., пер., прим. Г.Г.Мамулиа. М.,2012, с.104

[176] Yenə orada, v. 126-129

[177] Yenə orada, v.130-133

ya Şurasının orqanı kimi, rus dilində aylıq jurnalın buraxılması məsələləri müzakirə edildi. M.Ə.Rəsulzadə bu jurnalın redaktoru vəzifəsinə Ələkbər bəy Topçubaşovun namizədliyini irəli sürdü. T. Şakmanov onu müdafiə etsə də, N.Jordaniya qeyd etdi ki, jurnala M.Ə.Rəsulzadə kimi, tanınmış bir siyasi xadimin redaktorluq etməsi daha məqsədəuyğun olardı. N.Jordaniya Ə.Topçubaşovun namizədliyini mətbuat bürosunun texniki rəhbəri vəzifəsinə irəli sürdü və bu təklif müşavirədə təsdiq edildi.[178]

1936-cı il ərzində Qafqaz Konfederasiya Şurasının və onun Rəyasət Heyətinin bir sıra açıq və gizli toplantıları keçirildi. Məsələn, Şuranın mart ayının 17-də keçirilmiş toplantısında İstanbuldan gəlmiş M.Vəkilov Türkiyənin Qafqaz Paktına münasibəti haqqında məlumat verdi. O, qeyd etdi ki, Sovet Rusiyasının Türkiyəyə təsiri böyük olsa da, Qafqaz Paktı Ankarada yaxşı təəssürat yaratmışdır. M.Vəkilov dedi: "İndi demək olar ki, Sovetlərin hansısa bir ölkə ilə müharibəsi olsa, Türkiyə çətin ki, Sovetlərin tərəfində olsun".[179] Tarix sonrakı dövrdə M.Vəkilovun bu sözlərini təsdiq etdi.

1936-cı ilin sentyabrında Qafqaz Konfederasiyasının sessiyası keçirildi və sessiyada Azərbaycan, Gürcüstan, Şimali Qafqaz, Türküstan və Ukrayna nümayəndələrinin məruzələri dinlənildi. Polşa və bir sıra Qərb ölkələri tərəfindən müdafiə edilən mühacir təşkilatları beynəlxalq aləmdə SSRİ-yə qarşı bütün cəbhə boyu hücuma keçməyə qərar verdi. Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələri tərəfindən imzalanmış memorandum həmin ilin sentyabr ayında işə başlayan Millətlər Cəmiyyətinin XVII sessiyasının sədri Saavedra Lamasa təqdim edildi. Orada göstərilirdi: "Öz istiqlaliyyəti uğrunda vuruşan Qafqaz xalqları dünya üçün bəlaya çevrilmiş bolşeviklərə qarşı mübarizədə mütərəqqi bəşəriyyətdən yardım alacağına əmindirlər".[180]

Uzun müddət erməni mühacir təşkilatları Qafqaz Konfederasiya Paktına girməkdən imtina etsələr də, onlar II Dünya müharibəsi başlandıqdan sonra, 1940-cı ilin may ayının 28-də Pakta qoşuldular. 1934-cü ilin iyul ayının 14-də Brüsseldə imzalanmış sənəd kiçik əlavə ilə A.Xatisov, M.Mehdiyev, M.S.Şamil və A.Çxenkeli tərəfindən yenidən imzalandı. Sənədə əlavə edil-

[178] Yenə orada, v.134-135

[179] Yenə Orada, v. 142.

[180] В.К.Былинин, А.А.Зданович, В.И.Коротаев. Организация «Прометей» и «Прометейское» движение в планах польской разведки по развалу России/СССР//Труды Общества изучения истории отечественных спецслужб. Том III, Москва, 2007, с.330-331

miş yeni bənddə göstərilirdi ki, Konfederasiya öz ərazisində milli azlıqların hüquqlarına təminat verir.[181] Həmin gün A.Camalyan, M.Mehdiyev, K.Girey Sultan və A.Çxenkeli tərəfindən imzalanmış Qafqaz Konfederasiya Şurası iclasının protokolunda Konfederasiyanın şimal sərhədləri Kuban və Kuma çayı boyunca, cənubda isə Azərbaycan, Ermənistan və Gürcüstanın Sovet Respublikaların mövcud sərhədləri çərçivəsində tanınırdı.[182]

1936-cı ilin may ayının sonu iyun ayının əvvəllərində Prometey təşkilatında təmsil olunan millətlərin Varşavada qurultayı keçirildi. Qurultay öz müzakirələrinə əsasən, milli dillər məsələsi üzərində qurmuşdu. Bu onunla bağlı idi ki, ÜİK(b)P-nın XVI partiya konfransında İ.Stalin Sovetlərdə həyata keçirilən ruslaşdırma siyasətinə rəsmi xarakter vermiş və "bütün milli mədəniyyətlərin və milli dillərin vahid dil, vahid mədəniyyət ətrafında birləşdirilməsi" haqqında müddəa irəli sürmüşdü. Qurultayda Azərbaycan nümayəndələri adından M.B.Məmmədzadə çıxış etdi. O dedi: "Millətlərin oyanış, yüksəliş və süqut tarixi göstərir ki, milli xüsusiyyətlərini və milli kültürlərini qoruyub yaşatmağa müvəffəq olan hər millət gec-tez müstəqil milli bir dövlət qurmağa namizəddir. Milli xüsusiyyətlərini və milli kültürlərini itirmiş olan millətlər, milli mənliklərini və ilham alacaq milli qaynaqlarını daha itirmiş deməkdir. Bu kimi, millətlərin gələcəyi yoxdur. Onlara ölmüş nəzəri ilə baxmaq lazımdır. Milli xüsusiyyət və milli kültürün başında isə milli dil gəlir. Milli dilin milli varlığı qorumasında rolu həlledicidir".[183] M.B.Məmmədzadə daha sonra qeyd edirdi ki, Sovet Rusiyası Azərbaycanı işğal etdikdən sonra, əvvəlcə, onun dilini sıradan çıxarmaq üçün ölkədə "türkləşmiş əski millətlər" aramağa başladı, fəqət, bundan bir nəticə əldə edə bilmədi. Onun fikrincə, əhalisinin 80 faizini türklər təşkil edən bir ölkənin ruslaşacağına ümid etmək mənasız bir işdir və bolşeviklərin türkcə sözlərin işlədilməsinə "pantürkizm damğası" vurması milli dilləri ruslaşdırmaq üçün bir bəhanədir.[184] Dil məsələsi ilə bağlı qurultay Millətlər Cəmiyyətinə rəsmi müraciət qəbul etdi. Müraciətdə deyilirdi: "1926-cı ildən bəri bolşevik partiyası rus olmayan xalqların dillərini sistemli şəkildə ruslaşdırmağa başlamışdır; Stalin proletariatın bütün dünyada

[181] Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения «Прометей». Сборник документов. Сост., пред., пер., прим. Г.Г.Мамулия. М.,2012, с.211-212

[182] Yenə orada, s.210

[183] N.Yaqublu. Azərbaycan-Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu. Bakı, 2007,s.134

[184] Yenə orada, v.135-137

qələbəsindən sonra mövcud mədəniyyətlərin hamısının ortaq mədəniyyət halına gətirilməsi iddiasına düşmüşdür; son illərdə rus dilinin "oktyabr dili", "Lenin dili" adı altında Sovetlər Birliyində yaşayan xalqların ortaq dilinə çevrilməsi prosesi getmişdir". Müraciətdə SSRİ-nin yeritdiyi bu siyasətin Millətlər Cəmiyyətinin istinad etdiyi ümumbəşəri dəyərlərə zidd olduğu beynəlxalq birliyin diqqətinə çatdırılır və xahiş edilirdi ki, "Millətlər Cəmiyyətinin bu ilki toplantısında SSRİ-də yaşayan millətlərin dillərinin vəziyyətini öyrənməyi məqsədəuyğun bilir, eyni zamanda, qeyri-rusların öz dillərinin sərbəst inkişafına tam hüquqlu olduqlarından, ona şərait yaradılması Sovet İttifaqından tələb edilsin".[185]

Bununla yanaşı, Qafqaz Konfederasiya Şurası beynəlxalq aləmdə baş verən prosesləri də diqqətlə izləyirdi. 1936-cı ilin yayında Möntryö konfransı işə başlayanda Şuranın diplomatik komissiyasının sədri A.Çxenkeli konfransın sədri Stenli Bryusa müraciət etmiş, Qafqaz respublikalarının, ilk növbədə, Qara dəniz dövləti kimi, Gürcüstanın Möntryö konfransında maraqlı olduğunu onun nəzərinə çatdırmışdı.[186] Qafqaz Konfederasiya Şurasının 1936-cı ilin dekabrında qəbul olunmuş SSRİ konstitusiyası ilə bağlı Millətlər Cəmiyyətinə müraciəti və 1937-ci ildə Sovetlərin İspaniyada vətəndaş müharibəsinə müdaxiləsinə qarşı həmin Cəmiyyətə göndərdiyi etiraz notası onun fəal diplomatik fəaliyyətindən xəbər verirdi. Sovet İttifaqının İspaniyada vətəndaş müharibəsinə müdaxilə etməsi Qafqaz Konfederasiya Şurasına onun əleyhinə fəal təbliğat aparmaq üçün əlverişli şərait yaratdı. Şuranın Millətlər Cəmiyyətinə ünvanlandığı müraciətdə göstərilirdi ki, "Sovet hökuməti bu daxili müharibədə zabitləri, əsgərləri, topları, tankları və təyyarələri ilə iştirak etməkdədir".[187]

Qafqaz Konfederasiya Paktını imzalamış və Konfederasiya Şurasının Rəyasət Heyətində Azərbaycanı təmsil edən tanınmış siyasi xadim kimi, M.Ə.Rəsulzadə II Dünya müharibəsi ərəfəsində mühacirət hərəkatında getdikcə ön mövqelərə çıxırdı. Ə.M.Topçubaşovun vəfatından sonra o, Azərbaycan siyasi mühacirətinin şəksiz və şəriksiz lideri idi. 1936-cı ilin avqust ayında Varşavada keçirilmiş Müsavat Partiyasının konfransı bunu aydın şəkildə nümayiş etdirdi. Konfrans bir sıra təşkilat məsələlər ilə yanaşı,

[185] X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996, s.153

[186] G.Mamoulia. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009, p.161

[187] Kurtuluş, 1937, № 27

siyasi və ideoloji işin gücləndirilməsi, Sovetlərə qarşı mübarizənin müxtəlif formalarından istifadə edilməsi, beynəlxalq vəziyyətdə baş verən dəyişikliyin izlənilməsi və s. məsələləri müzakirə etdi. Konfransda qarşıdakı dövr üçün bir sıra mühüm vəzifələr irəli sürüldü. Orada göstərilirdi: "Müsavat Partiyası istiqlal və cümhuriyyət mövqeyində israr edərək, rus ordusunun Azərbaycanı boşaltmasını, Azərbaycanın Sovetlər Birliyindən çıxıb, tam istiqlalını elan və Qafqaz millətləri ilə konfederasiya bayrağı altında birləşməsini tələb edir; Müsavat Partiyası bütün dövlət müəssisələrinin gərək məmur, gərəksə, dil etibarı ilə türkləşməsini israr edir.[188] Konfransda M.Ə.Rəsulzadənin təklifi ilə partiyanın yeni proqram əsasları qəbul edildi. Orada göstərilirdi ki, milli istiqlala nail olmaq və onu çoxsaylı təhlükələrdən qorumaq üçün 1934-cü ilin iyul ayının 14-də imzalanmış Qafqaz Konfederasiyası haqqında pakta əsasən, Azərbaycan digər Qafqaz respublikaları ilə siyasi, hərbi və iqtisadi birliyə nail olmalıdır.[189] Konfransın sonuncu günü partiyanın Xarici Bürosunun rəhbər heyəti seçildi. Rəhbər heyətə M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, A.Azərtəkin, Ə.Çəfəroğlu, H.Münşi, M.İsrafilov və Q.Zeynalov daxil oldular.[190]

Konfransdan sonra Müsavat partiyası Sovet İttifaqına qarşı təbliğatını daha da genişləndirdi. 1937-ci ildə partiya gürcü menşevikləri ilə birlikdə Berlində "Befreiung" bülleteninin nəşrinə başladı. Bu bülleten Berlində buraxılan "Kurtuluş" jurnalının əlavəsi kimi nəşr edilirdi və Qafqazla bağlı siyasi, tarixi, mədəni məsələlərin Almaniyada yayılmasına xidmət edirdi. 1937-1939-cu illərdə "Qafqaz" jurnalının müxtəlif Avropa dillərində nəşr edilməsi mühacirətin təbliğat imkanlarını xeyli artırdı. 1938-ci ildə M.B.Məmmədzadənin Berlində çapdan çıxan "Milli Azərbaycan hərəkatı" kitabı Azərbaycan istiqlal mübarizəsi tarixinin öyrənilməsi və təbliği baxımından əhəmiyyətli addım oldu. "Kurtuluş" jurnalının 1938-ci ildə nəşr olunmuş 43-cü nömrəsində onun "Millətlərarası münasibətlərdə Azərbaycan" məqaləsinin çıxması da Azərbaycan diplomatiyasının keçdiyi yolun ümumi mənzərəsini yaradırdı.

[188] X.İbrahimli. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996, s.147; Qurultayın işi haqqında geniş məlumat üçün bax: N.Yaqublu. Azərbaycan-Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu. Bakı, 2007,s.142-147

[189] Milli Azərbaycan "Müsavat" Halk Firkasının Yeni Proqram Esasları. Varşava, 1936, s.4

[190] Л.Соцков. Неизвестный сепаратизм: На службе СД и Абвера. Из секретных досье разведки. Москва, 2003, с.123; В.К.Былинин, А.А.Зданович, В.И.Коротаев. Организация «Прометей» и «Прометейское» движение в планах польской разведки по развалу России/СССР//Труды Общества изучения истории отечественных спецслужб. Том III, Москва, 2007, с.330

II Dünya müharibəsi ərəfəsində Qafqaz Konfederasiya Şurası Türkiyə ilə yaxınlaşmağa xüsusi əhəmiyyət verirdi. Bunun nəticəsi olaraq, 1938-ci ilin fevral ayında Şuranın Rəyasət Heyəti İstanbulda "Qafqaz məntəqəsi" təsis etdi. Belə bir məntəqənin yaradılmasında əsas məqsəd Türkiyə siyasi dairələri ilə daha yaxından əlaqə qurmaq, Qafqaz xalqlarının arzu və istəklərini onlara çatdırmaq idi. Elə həmin ilin iyun ayının 5-də Prometey liqasına daxil olan xalqlar Moskvanın ağalığından azad olan günədək mübarizə aparacaqları haqqında pakt bağladılar. Paktı Azərbaycan, Şimali Qafqaz, Gürcüstan, Krım, İdil-Ural, Türküstan və Ukrayna nümayəndələri imzalamışdılar. 1938-ci ilin sentyabr ayında nizamnaməyə uyğun olaraq, Qafqaz Konfederasiya Şurasının yeni seçkisi həyata keçirildi və Azərbaycanı orada M.Ə.Rəsulzadə, M.Mehdiyev, A.Atamalıbəyov və M.Məhərrəmovun təmsil edəcəyi təsdiq edildi.[191] Lakin həmin iclasda Şimali Qafqaz nümayəndələri adından 1918-ci ildə Bakını ələ keçirmiş bolşevik və centrokaspiçilərlə əməkdaşlıq etmiş Lazar Biçeraxovun Şurada yer alması Azərbaycan nümayəndələrinin etirazına səbəb oldu. Hətta, iclasda iştirak etməyən M.Ə.Rəsulzadə bu məlumatı eşitdikdə, 1939-cu ilin may ayının 10-da Qafqaz Konfederasiyası Rəyasət Heyətindən çıxmaq haqqında Şuraya məktubla müraciət etdi. O, yazırdı ki, Şimali Qafqaz nümayəndələri adından general Biçeraxovun Şuraya üzv olması haqqında məlumatlar öz təsdiqini tapdıqdan sonra, mənim adı çəkilən Şurada qalmağım və onun fəaliyyəti üçün məsuliyyət daşımağım mümkün deyildir. M.Ə.Rəsulzadə eyni zamanda xəbərdarlıq edirdi ki, Şuranın yeni tərkibi təsdiq olunarasa, onun rəhbərlik etdiyi təşkilat da Qafqaz Konfederasiya Şurasına münasibətini nəzərdən keçirəcəkdir.[192]

1938-ci ilin dekabr ayının 17-də Qafqaz Konfederasiya Şurası Münxen sazişini müzakirə edib, onu beynəlxalq sülhü xilas edən, mədəniyyətin dağıdıcı qüvvələr üzərində qələbəsini təmin edən, Avropa xalqlarının barışıq məqamı və Sovet Rusiyasının məğlubiyyətini özündə əks etdirən sənəd kimi qiymətləndirdi. Münxen sazişi ilə bağlı qətnaməsində Şura belə hesab edirdi ki, bu sənədin imzalanması Avropada mübahisəli məsələlərin sayını azaldır və bolşevizm əleyhinə olan qüvvələrin sıralarını daha da möhkəmləndirir.

[191] Bax: Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения «Прометей». Сборник документов. Сост., пред., пер., прим. Г.Г.Мамулиа. М.,2012, с.187-189

[192] M.Ə.Rəsulzadənin Qafqaz Knfedrasiya Şurasının Rəyasət Heyətinə məktubu. Varşava 10.05.1939.// Archives d'Ali Mardan-bey Toptchibachi, carton n° 9. CERCEC, EHESS. Paris

Moskvanın nəzarətində olan xalqların azadlığına yol açır.[193] Lakin az sonra baş verən hadisələr Qafqaz Konfederasiya Şurasını Münxen sazişi haqqında fikrini dəyişməyə vadar etdi. 1939-cu ilin yayında artıq Şura öz iclaslarında yaxınlaşmaqda olan Avropa müharibəsini müzakirə edir və bu şəraitdə Qafqaz mühacirlərinin hansı mövqedə dayanacağı barədə fikir mübadiləsi aparırdı. Hətta, Qafqaz Konfederasiya Şurasının Rəyasət Heyəti belə hesab edirdi ki, buğun-sabah Rusiyanın Qərb ölkələri ilə bir düşərgədə olması istisnalıq təşkil etmir və bu şəraitdə Avropa ölkələrinin, ümumilikdə, Prometey hərəkatına və xüsusilə də, Qafqaz Konfederasiyasına münasibəti bəzi suallar doğururdu.

1939-cu ilin avqust ayının 23-də Almaniya ilə Sovet İttifaqı arasında hücum etməmək haqqında müqavilənin bağlanması Qafqaz mühacirlərinin siyasi fəaliyyətindən yan keçmədi. Bu müqavilədən sonra Almaniya hökuməti öz ərazisində Sovet İttifaqına qarşı mübarizə aparan Qafqaz mühacirlərinin fəaliyyətini qadağan etdi. Onların nəşr orqanları dayandırıldı. Bu müqavilədən sonra Avropada hadisələr çox sürətlə inkişaf etdi və Almaniyanın 1939-cu ilin sentyabr ayının 1-də Prometey hərəkatının əsas dayağı hesab edilən Polşaya hücumu ilə II Dünya müharibəsi başladı. Məhz, bu həlledici məqamda Azərbaycan nümayəndələrinin də daxil olduğu "Revyü de Prometey" jurnalının naşirləri Qafqazdan, Türküstandan və Ukraynadan olan bütün mühacirləri Sovet-Almaniya koalisiyasına qarşı müqavimət göstərməyə çağırırdı. Jurnalın sonuncu nömrəsində qeyd edilirdi ki, taun və xolera xəstəlikləri arasında seçim etmək lazım deyil, sadəcə kiçik Finlandiyanın qəhrəmanlıq mübarizəsindən nəticə çıxarmaq lazımdır.[194]

1939-cu ilin sentyabr ayında Polşanın işğal olunması ilə dünya yeni bir mərhələyə daxil oldu. Yalnız Azərbaycan və Qafqaz mühacirətinin deyil, bütövlükdə dünya xalqlarının həyatında yeni bir mərhələ başladı. Zəngin neft ölkəsi olan Azərbaycan II Dünya müharibəsinin başlanması ilə yenidən böyük güclərin, vuruşan ölkələrin və hərbi-siyasi blokların diqqət mərkəzinə çevrildi.

[193] Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения «Прометей». Сборник документов. Сост., пред., пер., прим. Г.Г.Мамулиа. М.,2012, с.195

[194] Bax: Р.Абуталыбов. Годы и встречи в Париже. Москва, 2006,с.66-68

NƏTİCƏ

Azərbaycan Respublikasının diplomatiya tarixinin 1920-1939-cu illəri əhatə edən ikinci cildi geniş mənbə və ədəbiyyatın təhlili əsasında hazırlanmış, bir sıra əhəmiyyətli ümumiləşdirmələr aparılmış və elmi nəticələr əldə edilmişdir. Bu tarixi çərçivədə araşdırılan Sovet Azərbaycanının xarici siyasəti müəyyən mərhələlərdən keçmişdir. 1920-ci ilin aprel ayının 28-də bolşevik Rusiyasının işğalından sonra Azərbaycanın beynəlxalq vəziyyəti və xarici siyasətində köklü dəyişikliklər baş vermiş, 1920-ci ilin yanvar ayında Versal Ali Şurası tərəfindən de-fakto olaraq, tanınmış bir dövlət Sovet Rusiyasının işğalından sonra beynəlxalq aləmdən təcrid olunmağa başlamışdı. Bu dəyişikliklər az sonra respublikanın müstəqilliyinin mühüm atributu olan xarici siyasət funksiyasının itirməsi ilə nəticələnmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsi ölkənin həyatında yeni tabeçilik dövrünün başlanması ilə nəticələndi. Qırmızı Ordunun süngüsü ilə qurulan Sovet hakimiyyəti Cümhuriyyət hökumətinin gərgin mübarizəsi nəticəsində müstəqil dövlətin ictimai-siyasi həyatının bütün sahələrində əldə edilmiş uğurlardan, milli dövlətçilik ənənələrinin dirçəldilməsi istiqamətində atılmış addımlardan imtina etdi. Xalq Cümhuriyyəti bolşeviklərin gətirdiyi "süngü diktaturası" ilə əvəz olundu. Ölkənin hüdudlarında qurulmuş işğal rejimi müsəlman kommunistlərinin istinad nöqtəsi olan "Müstəqil Sovet Azərbaycanı" şüarının deklarativ xarakter daşıdığını, onun heç bir siyasi, hüquqi və praktiki əhəmiyyətə malik olmadığını ortaya qoydu. 1920-ci ilin aprel ayında Cənubi Qafqazda bolşevik işğalının ilk hədəfinə çevrilən Azərbaycan siyasi, iqtisadi, mədəni, mənəvi və milli asılılığın bütün ağırlığını öz həyatında yaşamalı oldu. İki il ərzində Şərq əxlaqı ilə Qərb dəyərlərini birləşdirməyə çalışan gənc bir ölkə inteqrasiya olunmağa cəhd göstərdiyi azad dünyadan təcrid olunmağa başladı.

Azərbaycanın işğalında və ölkənin silah gücünə sovetləşdirilməsində fəal rol oynayan kommunist düşərgəsinin sosialist ideyaları zəminində müstəqillik arzuları özünü doğrultmadı. Az sonra onlar dövlət idarəçiliyinin

mühüm sahələrindən sıxışdırılıb çıxarıldılar. Bu düşərgənin başçısı kimi, N.Nərimanovun "Azərbaycanı yadlar idarə edir" ifadəsi bunun aydın təzahürü idi. Ölkənin siyasi, milli-mənəvi həyatına nəzarət etmək, hüququ, iqtisadi zənginliklərini idarə etmək hüququ tezliklə Moskvadan göndərilən emissarların ixtiyarına verildi. Onlar hər şeyi, hətta, Azərbaycanı idarə etmək iddiasında olan yerli bolşevikləri də idarə edirdilər. 1920-ci ilin aprel işğalından sonra yaranmış siyasi şərait açıq şəkildə təsdiq etdi ki, millətin iradəsinə söykənməyən hakimiyyət milli idealları qoruya bilməz.

1920-ci ilin aprel işğalından sonra Azərbaycanın sovetləşdirilməsinin terror və cəza üsulları ilə həyata keçirilməsi ölkənin həyatında yeni formalaşan milli kadrların bütövlükdə idarəçilikdən uzaqlaşdırılması, onların kütləvi şəkildə məhv edilməsi ilə nəticələndi. Xalq Cümhuriyyəti illərində Azərbaycanın idarəçiliyində mühüm rol oynamış siyasi partiyalar, onların rəhbər kadrları, geniş sosial bazası bolşevik terrorunun ilk hədəfinə çevrildi. Bu terror və cəza siyasətindən ən böyük ziyan çəkən sahələrdən biri respublikanın xarici siyasət institutu, diplomatik korpusu oldu. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin buraxılması, milli hökumətin xaricdəki nümayəndələrinin qanundankənar elan edilməsi, gənc Azərbaycan diplomatiyasına ağır zərbə vurdu. 1918-1920-ci illərdə Azərbaycan hökumətinə və müxtəlif hökumət kabinetlərində respublika Xarici İşlər Nazirliyinə rəhbərlik etmiş Fətəli xan Xoyski Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirildi. Xarici İşlər Nazirliyinin digər yüksək vəzifəli şəxslərinin taleyi də təxminən belə oldu, diplomatik korpusun əməkdaşları isə uzunmüddətli həbs və sürgünlərə məruz qaldı. Xalq Cümhuriyyətinin devrilməsindən sonra onun xaricdəki diplomatları Azərbaycan siyasi mühacirətinin birinci nəslini təşkil etməyə başladı. Azərbaycan Respublikasının yeni formalaşdırılan diplomatik korpusunun birinci nəsli sözün tam mənasında məhv edildi.

Azərbaycanda Sovet hökumətinin mərkəzi siması sayılan və sovetləşmənin ilk illərində respublika xarici siyasətini yönəldən N.Nərimanov çox keçmədi ki, bolşevik intriqalarının əsas hədəfinə çevrildi. Sovet Rusiyasının əvvəlcə Millətlər Komissarlığı, sonra isə Xarici İşlər Komissarlığında Şərq siyasətinə məsul olan Nərimanov Moskvada topladığı siyasi və diplomatik təcrübəni Azərbaycanda tətbiq edə bilmədi. Mərkəzin Qafqazda başlıca canişini sayılan Q.Orconikidze nəinki, qeyri-müsəlman kommunistlərini, eyni zamanda, müsəlman kommunistlərini də Nərimanova əleyhinə birləşdirə bildi. Nəticə etibarı ilə doktor Nərimanov Şərqin qapısında mayaka

çevirmək istədiyi Sovet Azərbaycanında tək qaldı. Bu siyasi tənhalıq onun Azərbaycandan uzaqlaşdırılmasından sonrakı dövrdə də davam etdi. 1923-cü ilin yayında ÜİK(b)P Mərkəzi Nəzarət Komissiyasında ona qarşı irəli sürülmüş çoxsaylı ittihamlar doktor Nərimanovun bolşevik cəmiyyətində yalnız siyasi baxımdan deyil, eyni zamanda, mənəvi və əxlaqi baxımdan tənhalığının aydın ifadəsi idi. Rəsmən Sovet dövlətinin başçılarından biri hesab edilsə də, uğrunda mübarizə apardığı idealların onu və ölkəsini xoşbəxt etmədiyini anlayan Nərimanov məhz, bu tənhalığın nəticəsi kimi, Bakıya can atır, öz istəyini gerçəkləşdirmək üçün müxtəlif vasitələrdən istifadə edir, hətta, siyasi qüruruna sığışmayan gedişlərə belə, yol verirdi. Sovet dövlətinin başçısı kimi, Nərimanovun Rusiya paytaxtında keçən həyatının son illəri ilə tanışlıq belə bir fikir söyləməyə əsas verir ki, bir vaxtlar Sovet Rusiyasından kənar Azərbaycanın xoşbəxtliyini görməyən doktor Nərimanov Kremldə özünün kommunizm barədə fikirlərinin peşmançılığını, səhvlərinin faciəsini, şəxsi həyatının və siyasi amallarının uğursuz məqamlarını yaşayırdı. Belə ağır siyasi basqılar, ideoloji sıxıntılar və mənəvi tənhalıq şəraitində Moskva, sözün tam mənasında doktor Nərimanovun sonunu yaxınlaşdırdı. Onun 1925-ci ildə vaxtsız vəfatı, N.Nərimanovun 1920-1925-ci illərdə Azərbaycan hökumətinin başçısı, Cənubi Qafqaz federasiyası və nəhayət, Sovet dövlətinin rəhbərlərindən biri kimi, keçdiyi siyasi həyat yolunun acınacaqlı yekunu idi.

Sovetləşmə Azərbaycanın torpaq itkiləri ilə başlandı. Aprel işğalının, hələ, ilk günlərində respublikanın əraziləri Cənubi Qafqazda Sovet siyasətinin başlıca vasitəsinə çevrildi. Birinci olaraq, Sovet Rusiyasının ağuşuna atılan Azərbaycan, yalnız müstəqilliyini deyil, ərazilərini də itirməyə başladı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə mübahisəsiz olaraq, respublikaya məxsus olan torpaqlar, sahibsiz ərazilər kimi, qonşu dövlətlərə "hədiyyə" edilir, mübahisə obyektinə çevrilir və sözün tam mənasında, hərraca qoyulurdu. Sovet Rusiyasının Cənubi Qafqazda menşevik Gürcüstanı və daşnak Ermənistanı ilə "dostluq" siyasəti bütövlükdə Sovet Azərbaycanın torpaqlarının peşkəş edilməsi üzərində qurulmuşdu. 1920-ci ilin may ayının 7-də Moskvada imzalanmış Rusiya-Gürcüstan, avqust ayının 10-da İrəvanda imzalanmış Rusiya-Ermənistan müqavilələri bunun aydın diplomatik təzahürü idi. Sovet Azərbaycanının iştirakı olmadan qonşu dövlətlərlə aparılan diplomatik danışıqlarda respublika torpaqlarının taleyi həll edilirdi. Aprel işğalından sonra formalaşan bolşevik hakimiyyətində Azərbaycan

sovet diplomatiyası elə etimadsız bir vəziyyətə salınmışdı ki, Ermənistanla aparılan danışıqlarda republikanı erməni, Gürcüstanla aparılan danışıqlarda isə gürcü kommunistləri təmsil edirdilər. Sovet hakimiyyətinin ilk illərində Azərbaycan bu etimadsız diplomatiyanın ağrı-acısını yaşamalı oldu.

Sovetləşmənin ilk ayları Azərbaycan SSR-ə münasibətdə Sovet Rusiyasının diplomatiyasında "zaqatalaçılıq" adlı yeni bir ifadənin meydana çıxması ilə yadda qaldı. Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş belə diplomatik gedişlər Sovet hakimiyyətinin ilk illərində tez-tez təkrarlanmağa başladı. Paytaxtda olan ermənilərin işi kimi, təqdim edilən "zaqatalaçılıq" bolşevik işğalına münasibətdə neytral mövqe nümayiş etdirmiş Gürcüstanı Azərbaycanın torpaqları hesabına mükafatlandırmaq siyasətini özündə ehtiva edirdi. Bu siyasət az sonra Qarabağın dağlıq hissəsi, Zəngəzur, Naxçıvan və Şərur-Dərələyəzə dair Ermənistanın iddiaları fonunda da təkrar olunmağa başladı. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın ciddi torpaq itkilərinə məruz qalması ilk növbədə, Moskvada yeridilən siyasətin, Cənubi Qafqaza münasibətdə Azərbaycanın gözdən salınması siyasətinin məntiqi yekunu idi. Sovet Rusiyası Xarici İşlər Komissarlığı rəhbərliyinin Azərbaycana qarşı törətdiyi çoxtərəfli intriqalar, Şərq siyasətinə münasibətdə Nərimanov-Çiçerin qarşıdurması, Qafqazın idarə olunmasında Stalin-Orconikidze ixtilaflarının əvəzini Azərbaycan ödəməli oldu. Tarixin bütün zamanlarında vahid coğrafi məkan kimi, tanınan Qarabağın dağlıq hissəsinin aranından ayrılması, onun Ermənistana birləşdirilməsi istiqamətində göstərilən cəhdlər, bu mümkün olmadıqda, Azərbaycanın mərkəzində daimi münaqişə ocağı kimi, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması Moskvanın Qafqaz Bürosu vasitəsi ilə Azərbaycana münasibətdə yeritdiyi siyasətin ən ağrılı yekunu idi.

Ötən əsrin 20-ci illərində Azərbaycan diplomatiya tarixinin, Sovet Rusiyasının Qafqaz siyasətinin və Cənubi Qafqazda cərəyan edən mürəkkəb və ziddiyyətli milli münasibətlərin araşdırılması Qarabağın dağlıq hissəsinin taleyinə münasibətdə azdırılmış tarixin, saxtalaşdırılmış hadisələrin həqiqət məqamını tapmağa imkan verdi. Araşdırmalar nəticəsində aydın oldu ki, uzun müddət beynəlxalq aləmə təlqin edilən Qarabağın, guya, erməni torpağı olması, Cənubi Qafqazın milli respublikaları dövründə bu regionun, guya, Ermənistana məxsus olması, sovetləşmənin ilk illərində Qarabağın, guya, Stalin tərəfindən Ermənistandan alınıb, Azərbaycana verilməsi kimi, saxta iddiaların tarixi həqiqətlə heç bir əlaqəsi yoxdur. Bu araşdırma-

nın ötən əsrin 20-ci illərinə aid olan fəsillərinin hazırlanmasında ilk dəfə istifadə edilən sənəd və materialların təhlili, belə iddiaların siyasi şəraitdən yararlanmaq cəhdi ilə bağlılığını, onların əsassızlığını təsdiq edir. Qarabağın yaxın keçmişinə münasibətdə tarixi hadisələrin bu cür kobudcasına təhrif edilməsi, son illərdə Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsinə bəraət qazandırmaq zərurətindən irəli gəlir.

Sovet Azərbaycanının xarici siyasətinin araşdırması göstərir ki, Sovet hakimiyyətinin birinci iki ilində respublika hökumətinin tərkibində Xarici İşlər Komissarlığı fəaliyyət göstərmiş, lakin bu fəaliyyət bir sıra məqamlarda formal xarakter daşımış, onun fəaliyyəti bir qayda olaraq, Moskvanın nəzarətinə keçmiş, ölkənin xarici əlaqələri Sovet Rusiyasının xarici işlər komissarı G.Çiçerinin təlimat və göstərişləri ilə idarə olunmuşdur. Tədricən xarici əlaqələrin məhdudlaşdırılmasına yönəldilmiş asılı idarəçilik forması, 1922-ci ildə Azərbaycanda və digər sovet respublikalarında beynəlxalq münasibətlərin subyekti olmaq hüququnu itirməsi onların Xarici İşlər Komissarlıqlarının ləğvi ilə nəticələndi. Ötən əsrin 20-ci illərində Sovet Rusiyası tərəfindən həyata keçirilən "direktiv diplomatiyası", 1922-ci ildə SSRİ-nin yaradılması gedişində Azərbaycan və digər sovet respublikalarının xarici siyasət hüququnun Moskva tərəfindən mənimsənilməsi ilə başa çatmışdı.

Sovet Azərbaycanının xarici siyasət və diplomatiya tarixinin araşdırılması nəticəsində ilk dəfə olaraq, SSRİ-nin ittifaq dövləti formasında yaradılmasını zəruri edən belə bir amil müəyyənləşdirildi ki, Sovet İttifaqının əvvəlcə planlaşdırılan muxtariyyət prinsipləri əsasında deyil, müttəfiq respublikaların birliyi kimi, yaradılması 1918-1921-ci illərdə Cənubi Qafqazın milli respublikalarının, onların müstəqillik ideallarının ictimai fikrə təsiri ilə bağlı olmuşdur. Həmin illərdə müstəqillik ideyası Cənubi Qafqaz xalqlarının həyatına elə güclü şəkildə daxil olmuşdu ki, SSRİ yaradılarkən, bu ideyadan geri çəkilmək məqsədəuyğun sayılmadı. Məhz, Cənubi Qafqazda mövcud olmuş müstəqil dövlətlərin təsiri altında Sovet İttifaqının müttəfiq respublikaların bərabər ittifaqı əsasında yaradılmasını, bu qurumun baş memarı sayılan İ.Stalin də etiraf edirdi. Lakin bütün bunlara baxmayaraq, Sovet İttifaqının tərkibində Azərbaycanın və digər sovet respublikalarının müstəqilliyi formal, onların İttifaqın tərkibindən azad şəkildə çıxmaq hüquqları deklarativ xarakter daşıyırdı. Sovet İttifaqının mövcudluğu tarixində heç bir müttəfiq respublika bu "azad" hüququndan istifadə edə bilmədi.

Sovet Azərbaycanının xarici siyasətinin mühüm istiqamətlərindən biri İranla bağlı idi. Bolşeviklər üçün Azərbaycan İrana, xüsusilə, onun Xəzər dənizi sahillərində yerləşən Gilan əyalətinə genişlənmək, kommunist ideyalarını Şərqə yaymaq üçün bir əməliyyat meydanı idi. Birinci Dünya müharibəsindən sonra Qərbdə inqilabların məğlubiyyəti bolşevikləri Şərqə yönəltmişdi. Bolşevik hakimiyyətinin ilk illərində Sovet Rusiyası və onun təsirində olan kommunist düşərgəsi üçün Şərq siyasəti Türkiyə, İran və Əfqanıstanı əhatə edirdi. Azərbaycan bu siyasətin mərkəzində dayanırdı. 1920-ci ilin sentyabrında Bakıda keçirilmiş Şərq Xalqlarının birinci qurultayı bunun aydın təzahürü idi. Lakin qurultay daha çox təbliğatı mülahizələr üzərində qurulduğundan, onun nəticələri praktiki əhəmiyyətə malik deyildi. Bakı qurultayının əsas hədəfi Şərq ölkələrində ictimai fikiri İngiltərə əleyhinə səfərbər etməkdən ibarət idi. Həmin günlərdə Şərqdə Britaniya imperiyasına qarşı mübarizənin əsas cəbhəsi İrandan keçir, bu mübarizədə cəbhəyanı bir ölkə olan Azərbaycan SSR-in adından və imkanlarından geniş istifadə edilirdi.

İran hadisələrinə, xüsusilə, Gilan əyalətindəki bolşevik eksperimentlərinə və 1921-ci ilin fevral ayında imzalanmış Sovet-İran müqaviləsinə münasibətdə N.Nərimanovla G.Çiçerin, Moskva ilə Bakı arasında bəzi fikir ayrılıqları olsa da, bu proseslərdə Azərbaycanın fəallığı onun müstəqil xarici siyasət strategiyası olmayıb, Sovet Rusiyasının İngiltərə əleyhinə mübarizəsində vasitə rolunu yerinə yetirirdi. Rusiya Sovet hökumətinin gəmilərinin Xəzərin cənubunda Azərbaycan bayrağı altında üzməsi, bolşevik hərbi hissələrinin Gilanda Azərbaycan ordusu adı ilə döyüşməsi bu görüntünün əsas təzahürləri idi. Londonda ingilis siyasi dairələri ilə danışıqlar aparan Sovet diplomatiyası Şərqdə Britaniya imperiyasını Azərbaycan və Buxara sovet respublikaları vasitəsi ilə zəiflətməyə, onu Bakının və Daşkəndin əli ilə İrandan və Əfqanıstandan çıxartmağa çalışırdı. Lakin Sovet Rusiyasının İran siyasətində Bakının milli maraqlarının olduğunu da, inkar etmək olmaz. Bu daha çox Cənubi Azərbaycan məsələsi ilə bağlı idi. Sovet Azərbaycanının rəhbərliyi üçün Şeyx Məhəmməd Xiyabani hərəkatı və Təbriz üsyanına yalnız anti-ingilis mahiyətinə görə deyil, həm də milli oyanış məzmununa görə, cəlbedici idi. Milli kommunist düşərgədə sovetlərin Şərqə genişlənmə siyasətinə Cənubi Azərbaycanın Sovet Azərbaycanına birləşmə məqamı kimi, baxanlar var idi.

Sovet Azərbaycanının, bütövlükdə bölşeviklərin xarici siyasətində Türkiyə mühüm yer tuturdu. Birinci dünya müharibəsində məğlub olmuş

Osmanlı imperatorluğu və milli iradənin təmsilçisi olan kamalçı Türkiyəyə münasibətdə Azərbaycan diplomatiyası ötən əsrin 20-ci illərində maraqlı bir yol keçmişdir. Türkiyə ilə Sovet Azərbaycanının münasibətləri aprel işğalından 1920-ci ilin noyabr ayına – Ermənistanın sovetləşdirilməsinə qədərki tarixi mərhələdə, Rusiya paytaxtında rus-türk danışıqları və 1921-ci ilin mart ayının 16-da Moskvada imzalanmış müqavilə, habelə, 1921-ci ilin Qars konfransı və İ.Əbilovun Ankara missiyasi ətrafında araşdırılmışdır. Bu tarixi çərçivədə Azərbaycan rəhbərliyinin ən ciddi uğursuzluğu Sovetlərin erməni məsələsində tərəfli mövqe tutması nəticəsində Zəngəzurun əsas hissəsinin və Dərələyəzin itirilməsi, Ermənistanda Sovet hakimiyyətinin qurulması münasibətilə Naxçıvan, Zəngəzur və Qarabağla bağlı Azərbaycan İnqilab Komitəsinin məlum bəyanatı olmuşdur. Araşdırmalar nəticəsində müəyyən edildi ki, bu bəyanat N.Nərimanov tərəfindən könüllü şəkildə deyil, bilavasitə, Moskvanın təsiri, onun Qafqazdakı nümayəndələrinin təzyiqi ilə elan edilmişdir. Xüsusilə, Orconikidze və Stalin tərəfindən Mərkəzə təklif edilən Zəngəzurun Ermənistana verilməsi ideyası ilk növbədə, türklərin Bakıya yolunu bağlamaq "zərurətindən" irəli gəlirdi. Azərbaycan tarixşünaslığı üçün xüsusi əhəmiyyətə malik olan bu mühüm nəticə ilk dəfə olaraq, bu araşdırmada etibarlı sənədlər əsasında təsdiq edilmişdir.

Sovet Azərbaycanın xarici siyasətində Naxçıvan məsələsi mühüm yer tutur. Məhz, Türkiyənin yardımı ilə Moskva və Qars danışıqlarında, həmin danışıqların nəticəsi kimi, imzalanmış müvafiq müqavilələrdə Naxçıvanın Azərbaycanın himayəsinə verildiyi təsdiq edildi. Eyni zamanda, bu himayədarlığa daimi xarakter vermək üçün Türkiyənin təkidi ilə Moskva müqaviləsində qeyd edildi ki, Azərbaycan Naxçıvan üzərində himayədarlıq hüququnu üçüncü bir dövlətə güzəştə gedə bilməz. Qars konfransında isə, Türkiyə və Sovet Rusiyası ilə yanaşı, Ermənistan Sovet Respublikası da Naxçıvanın Azərbaycanın himayəsinə keçdiyini təsdiq etdi. Naxçıvanın əbədi olaraq, Azərbaycanın tərkibində saxlanılması və buna dövlətlərarası müqavilələrlə təminat verilməsi Azərbaycan xarici siyasətinin mühüm uğuru sayıla bilər.

1922-ci ilin aprel-may aylarında İtaliyanın Genuya şəhərində keçirilmiş dünya iqtisadı konfransına Sovet Azərbaycanının nümayəndəsi kimi, N.Nərimanov qatılmışdı. Aparılmış araşdırmalar nəticəsində müəyyən edildi ki, Genuya konfransının əsas hədəfi Bakı nefti idi və bütün müzakirələr də neft konsessiyaları ətrafında gedirdi. Lakin Azərbaycanın həmin konf-

ransda iştirakı neftə sahiblik hüququnun deyil, onun görüntüsünün aldadıcı təzahürü idi. Sovetləşmənin ilk dövrlərindən başlayaraq, Azərbaycan ölkənin başlıca sərvəti olan neft üzərində sərəncam vermək hüququnu itirmişdi və Genuya konfransındakı müzakirələr bunu aydın şəkildə təsdiq etdi. Konfransda N.Nərimanova çıxış üçün söz vermədilər, amma onun bu sükutu çox mətləblərdən xəbər verirdi. Genuya konfransı heç bir əməli nəticə verməsə də, Sovet diplomatiyası və o cümlədən, Azərbaycan rəhbərliyi ondan daxili siyasətdə təbliğat məqsədləri üçün istifadə edə bildi.

SSRİ-nin yaranması ilə milli respublikalar öz xarici siyasət hüququnu Moskvaya verdi. Bununla da, milli respublikalar, o cümlədən, Sovet Azərbaycanı müstəqilliyin ən mühüm əlaməti kimi, xarici siyasət yeritmək funksiyasını itirdilər. 1922-1939-cu illər arasındakı dövrdə Azərbaycan SSR Sovet İttifaqının xarici iqtisadi və mədəni əlaqələrində iştirakına aid müəyyən faktlar olsa da, bu, Bakı şəhərində xarici ticarət sərgilərinin təşkil edilməsi, SSRİ-nin Şərq ölkələri ilə ticarət-iqtisadi münasibətləri həyata keçirən idarələrinin filiallarının Bakıda açılması bir sıra mədəni tədbirlərin mübadiləsindən uzağa getmədi.

SSRİ-nin yaradılmasından sonrakı dövrdə Azərbaycanın Parisdə yerləşən mühacir hökumətinin və ötən əsrin 20-ci illərinin ortalarında İstanbulda yaradılan Azərbaycan Milli Mərkəzinin fəal xarici siyasət addımları müşahidə edilməyə başladı. Hələ, 1920-ci ilin aprel işğalının ilk günlərində Azərbaycanın Fransa paytaxtında olan nümayəndə heyəti, onun başçısı Ə.M. Topçubaşov Sovet Rusiyasının işğalına qarşı fəal diplomatik mübarizəyə başladı. Onun Fransa, İngiltərə, İtaliya, ABŞ hökumətlərinin başçılarına, Millətlər Cəmiyyətinin rəhbərliyinə göndərdiyi notalar, məktublar, müraciətlər Azərbaycanın istiqlaliyyətini bərpa etmək yolunda əhəmiyyətli diplomatik addımlar idi. Ötən əsrin 20-ci illərinin əvvəllərində elə bir beynəlxalq əhəmiyyətli tədbir olmadı ki, Azərbaycan mühacir hökumətinin nümayəndələri ora baş vurmasın və ölkənin bolşeviklər tərəfindən işğalının doğurduğu siyasi nəticələri beynəlxalq birliyin diqqətinə çatdırmasın. 1920-1923-cü illərdə keçirilmiş San Remo, London, Spa, Kann, Genuya, Haaqa, Lozanna konfrans və müşavirələrindən Azərbaycanın Parisdə yerləşən sülh heyəti bütün vasitələrlə yararlanmağa çalışmış, respublikanın istiqlalının bərpa edilməsi istiqamətində beynəlxalq güclərdən yardım almağa səy göstərmişdilər. Bir sıra hallarda onlar beynəlxalq toplantıların nəticələrinə təsir etməyə müvəffəq olurdular. Bu özünü daha çox Bakı nefti üzərində qu-

rulmuş Genuya konfransının nəticəsiz başa çatmasında nümayiş etdirdi. Avropadakı Azərbaycan siyasi mühacirəti nümayəndələrinin Genuya konfrası və onun ərəfəsində neft məsələsi ilə bağlı bəyanatları, müraciətləri, bir sıra siyasi dairələrlə danışıqları və mətbuat səhifələrindəki yazıları konfransın Sovetlər üçün nəticəsiz başa çatmasına öz təsirini göstərdi.

1922-ci ilin sonlarında M.Ə. Rəsulzadənin Türkiyəyə mühacirət etməsilə Azərbaycan mühacirətinin ikinci siyasi mərkəzi formalaşdı. 1923-cü ildə Müsavat Partiyasının Xarici Bürosunun yaradılması, "Yeni Kafkasiya" jurnalının nəşrə başlaması, 1924-cü ildə Azərbaycan Milli Mərkəzinin yaradılması ilə Sovet İttifaqına qarşı siyasi-diplomatik mübarizənin yeni dalğası başlandı. Azərbaycan mühacirətinin İstanbul mərkəzinin antisovet təbliğatı bolşeviklərin işğal etdikləri milli respublikalarda yeritdiyi ruslaşdırma siyasətinin əsl mahiyyətini ortaya qoydu. Azərbaycan mühacir hökumətinin təmsilçisi kimi Paris mərkəzinin və Azərbaycan Milli Mərkəzinin təmsilçisi kimi İstanbul mərkəzinin fəaliyyətinin əlaqələndirilməsi XX əsrin 20-30-cu illərində antisovet mübarizənin güclənməsi istiqamətində əhəmiyyətli siyasi hadisə oldu.

Ötən əsrin 30-cu illərində Sovet-Türkiyə münasibətlərinin yaxınlaşması fonunda Azərbaycan mühacirət təşkilatları Türkiyəni tərk etmək məcburiyyətində qaldı. 1931-ci ildən Polşada yerləşən Azərbaycan Milli Mərkəzi Varşava və Berlində öz nəşrlərini bərpa edib, fəal antisovet mübarizəni davam etdirə bildi. Azərbaycan mühacirətinin hər iki mərkəzinin səyi ilə 1934-cü ilin iyul ayında Brusseldə Gürcüstan və Şimali Qafqaz Respublikası ilə birlikdə Qafqaz Konfederasiya Paktı imzalandı. Bu Paktın imzalanması Azərbaycan mühacirət diplomatiyasının böyük siyasi qələbəsi idi.

II Dünya müharibəsi ərəfəsində öz imkanlarını səfərbər edən mühacirət qüvvələri gündən-günə gərginləşən beynəlxalq münasibətlər sistemində Azərbaycan istiqlalının bərpa məqamını axtarırdılar. Bu məqsədlə Qərb müttəfiqləri və Polşa hakim dairələri ilə siyasi müzakirələr aparılırdı. Mühacirət dairələrində Almaniya faşizminin Azərbaycana azadlıq və müstəqillik gətirməyəcəyi barədə nəzəri mülahizənin irəli sürülməsi, həmin mülahizənin müəllifinin yetkin siyasi-diplomatik səviyyəsindən xəbər verirdi. Bununla da, Azərbaycan mühacirətinin diplomatik fəaliyyətində uzun illər siyasi oyunlarda istinad noqtəsi olan "məqsədə çatmaq üçün bütün vasitələr məqbuldur" devizindən imtina edildi. Almaniyanın güclü bir dövlətə çevrilməsinə baxmayaraq, 30-cu illərin sonunda mühacirət dip-

lomatiyası Azərbaycan məsələsinin həllini daha çox Qərb müttəfiqlərinin siyasətində görürdü.

1939-cu ilin sentyabr ayının 1-də Almaniyanın Polşaya hücumu ilə II Dünya müharibəsinin başlanması Azərbaycan məsələsini yenidən beynəlxalq müzakirələrin obyektinə çevrdi. Dünya siyasətində neftin əhəmiyyətinin artması 1939-cu ildə Bakını yenidən dövlətlərarası müzakirələrin mərkəzinə gətirmişdi. Faşizmlə əməkdaşlıq yoluna qədəm qoymuş Sovet İttifaqının Hitler Almaniyasını neftlə təmin edəcəyindən ehtiyatlanan ingilis-fransız müttəfiqləri Azərbaycanın neft mədənlərini bombardıman etməyin yollarını axtarırdılar. Bu məqsədlə Yaxın Şərq ölkələrində hərbi hazırlıq tədbirləri görülürdü.

BİBLİOGRAFİYA

I.Arxivlər

- ABŞ Milli Arxivi və Sənədlər İdarəsi (Vaşinqton, ABŞ)
- Azərbaycan Respublikası Dövlət Arxivi (Bakı, Azərbaycan)
- Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivi (Bakı, Azərbaycan)
- Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (Bakı, Azərbaycan)
- Azərbaycan Respublikası Dövlət Kino-Foto Sənədlər Arxivi (Bakı, Azərbaycan)
- Birləşmiş Krallığın Milli Arxivi (London, Böyük Britaniya)
- Corc Vaşinqton Universiteti yanında Milli Təhlükəsizlik Arxivi (Vaşinqton, ABŞ)
- Əli Mərdan bəy Topçibaşinin Arxivi - Rusiya, Qafqaz və Mərkəzi Avropa Tədqiqat Mərkəzi (Paris, Fransa)
- Fransa Xarici İşlər Nazirliyinin Diplomatik Arxivi (Paris, Fransa)
- Gürcüstan Dövlət Tarix Arxivi (Tbilisi, Gürcüstan)
- Gürcüstan Daxili İşlər Nazirliyinin Arxivi (Tbilisi, Gürcüstan)
- Rusiya Federasiyası Xarici Siyasət Arxivi (Moskva, Rusiya Federasiyası)
- Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi (Moskva, Rusiya Federasiyası)
- Rusiya Federasiyası Dövlət Arxivi (Moskva, Rusiya Federasiyası)
- Rusiya Dövlət Ən Yeni Tarix Arxivi (Moskva, Rusiya Federasiyası)
- Rusiya Dövlət Hərbi Tarix Arxivi (Moskva, Rusiya Federasiyası)

II. Nəşr olunmuş sənədlər
Azərbaycan dilində

- Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın Arxiv sənədləri. Elmi redaktoru və ön sözün müəllifi Y.M.Mahmudov, tərtib edəni N.Ə.Maksvell. Bakı, 2008
- Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990
- Fətəli Xan Xoyski. Həyat və fəaliyyəti (sənəd və materiallar). Bakı, 1998

- Qars müqaviləsi, Карсский договор, Qars muahedenamesi, Traite de Qars. Bakı, 2004
- Mirzə Camal Cavanşir Qarabağı. Qarabağ tarixi. Qarabağnamələr. I kitab. Bakı, 1989
- V.İ.Lenin Azərbaycan haqqında. Bakı, 1970

Türk dilində

- Atatürk'ün Söylev ve Demeçleri. II, 4.Baskı, Ankara, 1989
- Atatürk'ün Tamim Telegraf ve Beyannameleri. IV, Ankara, 1991
- Soysal İsmail. Türkiy'enin Siyasal Antlaşmaları. I Cilt (1920-1945). Ankara, 1989
- Türkiye Böyük Millet Meclisinin Gizli Celese Zabıtları. Devre: I. C. II. Ankara, 1985
- Şimşir Bilal. Atatürk ve Yabançı Devlet Başkanları. Ankara, 1993

Rus dilində

- Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. Составитель Н.А.Максвелл. Баку, 2011
- Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Томь II. Издан под редакцией председателя комиссии А.Д.Берже. Тифлис, 1868
- Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Томь III. Издан под редакцией председателя комиссии А.Д.Берже. Тифлис, 1869
- Акты Кавказской Археографической Комиссии. Архив Главного Управления Наместника Кавказа. Томь VII. Издан под редакцией председателя комиссии А.Д.Берже. Тифлис, 1878
- А.М.Топчибаши и М.Э.Расулзаде: Переписка. 1923-1926 гг. Сост., предисл. и прим. С.М.Исхаков. Москва, 2012
- Ахмедов А. Национальное движение партии и общественные деятели Азербайджана в 1918-1925 годах глазами очевидца. Баку, 2006
- Великая Октябрьская социалистическая революция и победа Советской власти в Армении. Ереван, 1957
- Гаагская конференция июнь-июль 1922 г. Полный стенографический отчёт. Москва, 1922

- Гражданское Управление Закавказьем от присоединения Грузии до наместничества Великого Князя Михаила Николаевича. Исторический очерк. Составитель по поручению Военно-Исторического отдела В.Н.Иваненко. Тифлис, 1901
- Договоры России с Востоком, политические и торговые. Собирал и издал Т.Юзефович. СПб., 1869
- Документы внешней политики СССР. Т. II. М.: Госполитиздат, 1958
- Документы внешней политики СССР. Т. III. М.: Госполитиздат, 1959
- Документы внешней политики СССР. Т. IV, М.: Госполитиздат, 1960
- Документы внешней политика СССР. Т. V, М.: Госполитиздат, 1962
- Из истории азербайджанской эмиграции. Сборник документов, произведений и писем. М., 2011
- Кавказский календар на 1903 г. Тифлис, 1902
- Кавказ и Российская империя: проекты, идеи, иллюзии и реальность. Начало XIX - начало XX вв. СПб, 2005
- Кавказская Конфедерация в официальных декларациях, тайной переписке и секретных документах движения «Прометей».
- К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. Документы и материалы. Баку, 1989
- Ключников Ю.В., Сабанин А. Международная политика новейшего времени в договорах, нотах и декларациях. Часть 2, М., 1926
- Интернациональная помощь XI армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы. 1920-1921 г. Баку, 1989
- Куба. Апрель-май 1918 г. Мусульманские погромы в документах. Составитель: С.Рустамова-Тогиди. Баку, 2010
- Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Составитель: С.Рустамова-Тогиди. Баку, 2009
- Материалы Генуэзской конференции. (Подготовка. Отчёты заседаний, работы комиссии, дипломатическая переписка и др.). Москва, 1922
- Мирза Джамал Джеваншир Карабаги. История Гарабага. Баку, 1959
- Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовым отношениях. Тифлис, 1836

- Описание Карабахской провинции, составленное в 1823 году, по распоряжению главноуправляющего в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым 2-м. Тифлис, 1866
- Полное собрание законов Российской Империи. Т.III , СПб., 1830
- Первый съезд народов Востока. Стенографической отчет. Баку, 1-7 сентября 1920 г. Петроград, 1920
- Первый Закавказский съезд Советов. Тифлис, 1923
- Персидский фронт мировой революции. Документы о советском вторжении в Гилян (1920-1921). Москва, 2009
- Политбюро ЦК РКП(б) – ВКП(б) повестки дня заседаний. Т. I. 1919-1929. М., 2000
- Рапорт генерал-майора Болховитинова о деятельности Армянских вооруженных отрядов в Турции и Закавказье в Первую Мировую войну. Баку, 2011
- Республика Армения в 1918—1920гг. (Политическая история). Сборник документов и материалов. Ереван: Гитутюн, 2000
- Сборник документов. Сост., пред., пер., прим. Г.Г.Мамулия. М.,2012
- Советско-иранские отношения в договорах, конвенциях и соглашениях. МИД СССР. М., 1946
- Советско-турецкие отношения. Сб. документов. 1917-1926 гг. М., 1947

Qərbi Avropa dillərində

- Armenia. Political and Ethnic Boundaries. 1878-1948. Anita L.P. Burdett (ed). Cambridge Archive Editions, 1998
- Caucasian Boundaries. Documents and Maps.1802-1946. Edited by Anita L.P.Burdett. Richmond, 1996
- The Boundary Between Turkey and the USSR. CIA/RR M-17. Secret. January 1952. // National Archives and Records Administration USA, CIA-RDP 79
- Communist takeover and occupation of Georgia. Special Report No.6 of the select Committee on Communist Aggression. House of Representatives Eighty-third Congress, second session. Under authority of H.Res. 346 and H.Res 438. United States Government Printing office. Washington: 1955.

- Conditions in the Near East: Report of the American military mission to Armenian. By the U.S. Senate. Senate Document 266, 66-th Congress, 2-nd Session, Washington, 1920
- Documents on British Foreign Policy, 1919-1939. First series, volume XV, London, 1967
- Documents on British Foreign Policy 1919-1939. First Series. Vol I. London, 1947 Documents on British Foreign Policy 1919-1939. First Series. Vol. II, 1948
- General Records of the American Comission to Negotiate Peace 1918-1931. The J. Harbord Military Mission to Armenia. The National Archives. Archives and Records Service. General Service Administration. Washington, 1970
- House Documents. Vol. I, part 3. 66-th Congress. 3-d Session. December 6, 1920- march 4, 1921. US Government Printing Office Washington, 1936
- Papers Relating to the Foreign Relations of the United States. 1922. (In Two Volumes). Volume II. United States Government Printing Office, Washington, 1938
- Soviet Treaty Series, vol.1, 1917-1928, Washington, DC., 1950

III. Ədəbiyyat
Azərbaycan dilində

- Ali Azeri. Azadıstan devleti ve Şeyh Mühammed Hiyabani, 1918-1920. Ankara, 1994
- Alpoud Əziz. Həyatımın hekayələri. Bakı, 2011
- Aslanlı Araz. Qarabağ problemi: tarixi, mahiyyəti, həlli prosesi. Bakı, 2009
- Azərbaycan tarixi. Yeddi cilddə. Altıncı cild. Bakı, 2001
- Əhmədov T. Nəriman Nərimanov: həyatı, mühiti, ədəbi yaradıcılığı. Bakı, 2006
- Əhmədova F. Nəriman Nərimanov – ideal və gerçəklik. Bakı, 1998
- Əliyev Ə.P. Sovet hakimiyyəti illərində Azərbaycanda neft sənayesi. Bakı, 1957
- Əliyev İ.H. Azərbaycan nefti dünya siyasətində. 3 cilddə, II cild. Bakı, 1997
- Haşımova A. XX əsrin birinci yarısında Azərbaycan mühacirəti. Bakı, 1992
- Həsənli C. Azərbaycan Respublikasının diplomatiya tarixi. I cild. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı, 2009

- Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, 2005
- Həsənov H. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı, 2005
- Hüseynov Rafael. Yurdun adındakı can. Bakı, 2010
- İbrahimli F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı, 1996
- İbrahimli X. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, 1996
- Qafarov V. Türkiyə - Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı, 2011
- Qasımlı M., Hüseynova E. Azərbaycanın xarici işlər nazirləri. Bakı, 2003
- Qasımov M. Xarici dövlətlər və Azərbaycan. Aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər. Bakı, 1998
- Qasımov M. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il – dekabr 1922-ci il). Bakı, 1998
- Köçərli Tofiq. Qarabağ: yalan və həqiqət. Bakı, 1998
- Mehdiyev M. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994
- Məmmədzadə M.B. Azərbaycan milli hərəkatı. Bakı, 1992
- Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996
- Musayev İ. Azərbaycanın xarici siyasəti. İkinci hissə. 1920-1991. Bakı, 2010
- Nərimanov N. Uçqarlarda inqilabımızın tarixinə dair Mərkəzi Komitəyə, İ.Stalinə məktub. Surəti L.Trotskiyə, K.Radekə. Bakı, 1992
- Nərimanov N. Məktublar və Qarabağ məsələsinə dair sənədlər. Bakı, 2002
- Rəsulzadə M.Ə. Azərbaycan cümhuriyyəti. Bakı, 1990
- Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı, 1991
- Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti. Bakı, 1994
- Rusiyanın Van və Ərzurumdakı baş konsulu Mayevskinin xatirələri. Bakı, 1994
- Rüstəmova – Tohidi S. Kominternin Şərq siyasəti və İran. 1919-1943. Bakı, 2002
- Səlimov Ş. Azərbaycan nefti beynəlxalq münasibətlərdə (1920-1922-ci illər). Bakı, 2005
- Sofiyev M. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936). Bakı, 2000

- Svyatoçovski T. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Xəzər Universitəsi, 2000
- Tağıyeva Ş., Rəhimli Ə., Bayramzadə S. Güney Azərbaycan. Bakı, 2000
- Ünüvar V. Naxçıvan: tələtüm və burulğanlar (1920-1921). Naxçıvan, 2006
- Vəkilov C.M. Azərbaycan respublikası və İran: 40-cı illər (mədəni əlaqələr). Bakı, 1991
- Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991
- Yaqublu N. Müsavat Partiyasının tarixi. Bakı, 1997
- Yaqublu N. Azərbaycan-Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu. Bakı, 2007

Türk dilində

- Aralov Semyon. Bir Soviet diplomatının Türkiye Hatıraları. İstanbul, 1967
- Arslan Ali. I. Dünya Savaşı Sonunda Nahçıvan'da Yapılan Milli Mücadilə ve Bugünkü Nahçıvanın Statüsünün Oluşumu.// Atatürk Araştırma Merkezi Dergisi, Sayı 41, Cilt: XIV, Temmuz 1998
- Aydemir Şevket Süreyya. Enver Paşa. C.3. İstanbul, 1978
- Aydemir Şevket Süreyya. Suyu arayan adam. 19. Basım, Remzi Kitabevi, İstanbul, 2006
- Baykara Hüseyn. Azerbaycan İstiklal Mücadelesi Tarihi. İstanbul, 1975
- Betül Aslan. Türkiye-Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, 2004
- Candan Azer. Babadan Oğula Güney Kafkasiya. Türkiye-Güney Kafkasiya ilişkileri. İstanbul, Truva yayınları, 2011
- Cebesoy Ali Fuad. Moskova Hatiraları. İstanbul, 1955
- Dr. Rıza Nur'un Moskova/Sakarya Hatıraları. İstanbul, 1991
- Erdağ (Akgül) N. Milli mücadile döneminde Kafkas Cümhuriyyetleri ile ilişkiler (1917-1921). Ankara, 1994
- Halil Paşa. Bitmeyen savaş. İstanbul, 1997
- Halil Paşa. İttihad ve Tarakkiden Cumhuriyete. Bitmeyen Savaş. Kütulamare kahramanı Halil Paşanın Anıları. Ankara, 1991
- Hüseyin Adıgüzel. Atatürk-Nerimanov ve Kurtuluş Savaşımız. İstanbul, İleri Yayınları, 2006
- İbrahim E.Atnur. Osmanlı Yönetiminden Sovyet Yönetimine Kadar Nahçivan (1918-1921). Ankara, 2001

- İmanov Vüqar. Ali Merdan Topçibaşı. Lider bir aydın ve Bağımsız Azerbaycan Cumhuriyeti'nin Temsili. İstanbul, 2003
- Kamuran Gürün. Türkiye-Sovyet İlişkileri (1920-1953). Ankara, 1991
- Karabekir Kazım. İstiklal Harbimiz. Çilt I, İstanbul, 2006; Karabekir. İstiklal Harbimiz. Cilt II, İstanbul, 2006
- Karabekir. İstiklal Harbimiz. İstanbul, 1988
- Karaca A. Azərbaycan'ın Yakın Tarihinə Kısa Bir Bakış. Ankara, 1982
- Kurat Akdes Nimet. Türkiye ve Rusiya. Ankara, 1990
- Mehmet Perinçek. Atatürk'ün Sovyetler'le Görüşmüleri (Sovyet Arşiv Belgeleriyle). İstanbul, 2005
- Mazıcı Nurşen. ABD'nin Guney Kafkasya Politikası Olarak Ermenistan Sorunu 1919-1921. İstambul. 2005
- Mühlen Patrik fon Zur. Camali Haç ile Kızıl Yıldız Arasında. Ankara, 1984
- Nurcan Toksoy. Revan'da son günler. Türk yönetiminden ermeni yönetimine. Orion Yayınevi, Ankara, 2007
- Öztürk Mustafa. Atatürk dönem'inde Türkiye'nin Kafkasiya politikası. Ankara, 2005
- Saray Mehmet. Azerbaycan türklerinin tarihi. İstanbul, 1993
- Selahi Sonyel. Türk Kurtuluş Savaşı ve Dış Politika. II, TTKB, Ankara, 1991
- Serpil Sürmeli. Türk-gürcü ilişkileri (1918-1921). Ankara, 2001
- Selami Kılıç. Türk-Sovyet ilişkilerinin Doğuşu. İstanbul, 1998
- Shissler A.Holly. İki imparatorluk arasında: Ahmet Ağaoğlu ve yeni Türkiye. İstanbul Bilgi Universiteti yayınları, 2005
- Stefanos Yerasimos. Türk-Sovyet ilişkileri Ekim Devriminden "Milli mücadele"ye. Birinci Baskı, İstanbul, 1979
- Stefanos Yerasimos. Kurtuluş Savaşı'nda Türk-Sovet ilişkileri 1917-1923. İstanbul, 2000
- Şimşir Bilal. Azerbaycan. Azerbaycan'ın Yeniden Doğuş Sürecinde Türkiye-Azerbaycan ilişkileri. Bilgi Yayınevi, Ankara, 2011
- Şimşir Bilal. Bizim Diplomatlar. İstanbul, 1996
- Şimşir Sebahettin. Mehmet Emin Resulzade'nin Türkiye'deki Hayatı,Faaliyetleri ve Çalışmaları. Ankara, 1995
- Taylan Sorgun. Halil Paşa. İttihad ve Tarakki'den Cumhuriyet'e Bitmeyen Savaş. 6. Baskı. Destek Yayınevi, İstanbul, 2010
- Türkiye Cümhuriyeti Tarihi. Cilt I, Ankara, 2004

- Ünivar V. İstiklal harbinde Bolşeviklerle sekkiz ay. 1920-1921. İstanbul, 1948
- Yavuz Aslan. Birinci Doğu Halkları Kurultayı (1-7 Eylül 1920 - Bakü). İstanbul, Kaynak yayınları, 2007
- Yılmaz İskender. Gümrü antlaşması. Ankara, 2001
- Yusif Kemal Tengirşenk. Vatan Hizmetinde. İstanbul, 1967

Rus dilində

- Абасов Ф. Гарабагское ханство. Баку, 2007
- Абуталыбов Р. Мамед Амин Расулзаде и Кавказская Конфедерация. М., 2011
- Абуталыбов Р. Годы и встречи в Париже. Москва, 2006
- Авалов З. Независимость Грузии в международной политике. Париж, 1924
- Алиев А.П. История борьбы против капиталистических нефтяных монополий и выхода советской нефти на мировой рынок (1920-1937). Автореф. дисс. д.и.н. Баку, 1960
- Алиев С.М. История Ирана. XX век. Москва, 2004
- Аралов С.И. «Воспоминания советского дипломата 1922-1923» 1960.
- Армения. Путевые очерки и этюды Х.Ф.Б.Линча. Том 1. Русския провинции. Типография М.Мартиросянца, Тифлис, 1910
- Баберовски Йорг. Враг есть везде. Сталинизм на Кавказе. Москва, 2010
- Багиров Ю.А. Из истории советско-турецких отношений в 1920-1922. Баку, 1965
- Балаев А. Мамед Амин Расулзаде (1884-1955). М., 2009
- Берзин Р.И. Мировая борьба за нефть. М., 1922
- Борьян Б.А. Армения международная дипломатия и СССР. Часть II. М.-Л., 1929
- Гафаров В. Русско-турецкое сближение и независимость Азербайджана (1919-1921 гг.). // Кавказ и глобализация, том 4, выпуск 1-2, 2010
- Гасанлы Дж. Русская революция и Азербайджан. Трудный путь к независимости, 1917-1920. Москва, 2011
- Генис В. Красная Персия. Большевики в Гиляне. 1920-1921. Москва, 2000
- Глинка С.Н. Описание переселения армян Аддербиджанских в пределы России. М., 1831

- Годзишевский Э.А. Русская нефть на мировом рынке. М., 1924
- Гофман К. Нефтяная политика и англо-саксонский империализм. Москва, 1930
- Грибоедов А.С. Сочинения в двух томах. Т.2.М., 1971
- Гулиев Дж.Б. К истории образования Второй республики Азербайджана. Баку, 1997
- Джаббаров Ф. Бакинская нефть в политике Советской России (1917-1922 гг.). Баку, 2009
- Джелал-Эд-Дин Асельдерович Коркмасов. Выдающийся государственный и общественный деятель России и Дагестана. Материалы научно-практической конференции, посвященной 130-летию со дня рождения. Москва, 2009
- Завриев Д.С. К новейшей истории северо-восточных вилайетов Турции. Тбилиси, 1947
- Жордания Н. Моя жизнь. Stanford, 1968
- Жордания Н. Наши разногласия. Париж, 1928
- Иоффе А. Генуэзская конференция. Москва, 1922
- Каспийский транзит. В двух томах, т.2. Москва, 1996
- Киреев Н.Г. История Турции. XX век. Москва, 2007
- Краснов Б., Дейнес В. Неизвестный Троцкий. Красный Бонапарт. М., 2000
- Маевский В.Ф. Армяно-татарская смута на Кавказе как один из фазисов армянского вопроса. Тифлис, 1915
- Максим Максимовеч Литвинов: революционер, дипломат, человек. М.: Политиздат,1989
- Мир Якуб. Международное положение и национальная проблема в СССР. Париж, 1934
- Мустафа Кемаль. Путь новой Турции. III том, М.,1934
- Мустафа-заде Р. Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг. М., 2006
- Мустафаева С. Советская Россия и формирование границ между государствами Кавказа (на примере Азербайджана и Армении). //Кавказ и Глобализация, Том 4, Выпуск 1-2, 2010
- Нифталиев И. Азербайджанская ССР в экспансионистских планах армян (20-е годы XX века). Баку, 2010

- Нариманов Н. Избранные произведения. Том 2. Баку, 1989
- Нариманов Н. К истории нашей революции в окраинах (Письмо И.В.Сталину). Баку, 1990
- От Майендорфа до Астаны: принципиальные аспекты Армяно-Азербайджанского Нагорно-Карабахского конфликта. Под ред. Г.М.Алексеева. М., 2009
- Павлович М. Мировая борба за нефть. М., 1923
- Персиц М.А. Застенчивая интервенция. О советском вторжении в Иран и Бухару в 1920-1921 гг. Москва, 1999
- Петров-Уральцев В. Нефть царица мира. М.-Л., 1925
- Потто В.А. Кавказская война. Персидская война 1826-1828 гг. Том 3, Ставрополь, 1993
- Расул-заде М.Э. Национальное движение в Азербайджане.// Вопросы истории, 2002, №2
- Расул-заде М.Э. О пантуранизме. В связи с кавказской проблемой. С предисловием Н. Жордания. Париж, 1930
- Расулзаде М.Э. Сборник произведений и писем. Сост., предисл. и прим. С.М.Исхаков. Москва, 2010
- Ратенау В. Генуя и Канны. Москва, 1923
- Российское зарубежье во Франции 1919-2000. Том третий. Москва, 2010
- Российско-турецкие отношения: история, современное состояние и перспективы. Москва, 2003
- Сафарова А. Идея Кавказской Конфедерации в эмигрантский период политической деятельности А.М.Топчибашева.// Известия Национальной Академии Наук Азербайджана: Серия истории, философии и права. 2001, № 3
- Сивков А. Мировая борьба за нефть. Л., 1926
- Соцков Л. Неизвестный сепаратизм: На службе СД и Абвера. Из секретных досье разведки. Москва, 2003
- Султанов Ч.А. Нефть. Баку, 2000
- Султанов Ч. Политические и экономические этюды по Южному Кавказу (хроника с 1850 по 2010 гг.). Баку, 2010
- Тетради по истории рабочего и революционного движения. Москва, 2006
- Труды Общества изучения истории отечественных спецслужб. Том III, Москва, 2007

- Чавчавадзе И. Армянские ученые и вопиющие камни. Тифлис, 1902
- Чайкин В. К истории Российской революции: Казнь 26 Бакинских комиссаров. Москва, 1922
- Чубарьян А.О. XX век. Взгляд историка. Москва, 2009
- Шавров Н.И. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СП.,1911
- Шпотов Б.М. Использование опыта США в реконструкции советской нефтяной промышленности в 1920-30-е гг.// Российский журнал менеджмента, Том 4, 2006, № 1
- Энциклопедический словарь. Изд. Брокгауз и Эфрон, т.XII, СПБ, 1894

Qərbi Avropa dillərində

- Allen W., Muratof P. Caucasian Battlefields: A History of the Wars and Turco - Caucasian Border (1828-1921). Cambridge, 1953
- Alstadt A. The Azerbaijani Turks: Power and Identity under Russian Rule. Stanford, 1992
- Bammate Haydar. Le Caucase et la revolution Russe. Paris, 1929
- Bennigsen A., Wimbush E. Moslem National Communism in the Soviet Union: A Revolutionary Strategy for the Colonial World. Chicago, London, 1979
- Child Richard. A Diplomat Looks at Europe. New York, 1925
- Cornwall J. H. M. The Russo-Turkish Boundary and the Territory of Nakhchivan // The Geographical Journal, Vol. 61, No. 6, (Jun., 1923)
- Çağlayan Kaya Tuncer. British Policy Towards Transcaucasia, 1917-1921. Istanbul, 2004
- Dastakian Nikita. Il venait de la Ville Noire. Souvenirs d'un Armenien du Caucase. L'inventaire/Cres, 1998
- Dekmejian Richard. «Soviet-Turkish Relations and Polities in the Armenian SSR.// Soviet Studies, 19, No. 4, April 1968
- Eastern Anatolia after World War I. XI. Türk Tarih Kongresi, Cilt V, Ankara, 1994
- Evans I. United States Policy and the Partition of Turrey, 1917-1924. Baltimore, 1965
- Fatemi N.S. Diplomatic History of Russia. 1917-1923; N.Y.; 1952
- Fisher L. The war for Baku. "Oil Imperialism". Ch.1. London, 1976

- Fourniau Vincent. Deux Langues, triois pays, Pour Quelle Societe plurielle// Journal of Azerbaijani Stadies, Vol.1, Nub.2, 1998
- Hasanli J. Karabakh: Looking into the past in search of the truth.// Caucasus and Globalization, 2011, Vol. 4, №3-4
- Hasanli J. How the Caucasus Bureau of the C.C. R.C.P. (b) discussed the Karabakh issue in 1920-1923 // Caucasus and Globalization, 2011, Vol. 5, №1-2
- Hasanli J. Nagorno-Karabakh: old delusions and new interpretations.// Caucasus and Globalization, 2011, Vol. 5, №3-4;
- Harbord James. American mission to Armenia.// International Conciliation, (New York), no.151, 1920
- Heath W. Lowry. The Story behinde Ambassador Morgenthau's Story. Istanbul, 1990
- Hovannisian R. The Republic of Armenia. Berkley-Los-Angelos-London, 1971
- Hovannisian R. The Republic of Armenia, Vol. IV: Between Crescent and Sickle: Partition and Sovietization Berkeley, Los Angeles, London: University of Cali-fornia Press, 1996
- Kazemzadeh F. The Struggle for Transcaucasus (1917-1921). New-York, 1951
- Kennan George. Russia and the West under Lenin and Stalin. Boston – Toronto, 1961
- Leluw Ch. Azerbaijan: A Quest for Identity. New-York, 1998
- Lenczowski G. Russia and the West in Iran. 1918-1948. N.Y. 1952
- Lenkowsky S. Pan-Turkism and Islam in Russia. Cambridge, 1960
- Luke H. Cities and men. Oxford, 1953
- Mamoulia G. Les Combats independantistes des Caucasiens entre URSS et puissances occidentals. Le cas de la Georgie (1921-1945). L'Harmattan, 2009
- McCarthy Justin. Muslims and Minorities. New York, 1983
- McCarthy Justin. The American Image of Turks.//American Philanthropy in the Near East, 1820-1960. Athens, Ohio, 1970
- McCarthy Justin. The Anatolian Armenians, 1912-1822.// Armenians in the Ottoman Empire and Modern Turkey (1912-1926). Istambul, 1984
- Mir - Yacoub. Le probleme du Caucase. Paris, 1933

- Mandelstam A.N. La Societe des Naions et les puissances devant le probleme armenien. Paris, 1926
- Monroe E. Britain's Moment in the Middle East. 1914-1956. L., 1963
- Pipes R. The Formation of the Soviet Union: Communism and Nationalism, 1917-1923. Cambridge, 1964
- Rasul-zade M.E. Azerbajdzan w walce o niepodleglose. Warsaw, 1938
- Rowlinson A. Adventures in the New East, 1918-1922. London-New-York, 1923
- Seton-Watson H. The New Imperialism. London, 1961
- Shissler A.Holly. Between Two Empires: Ahmet Ağaoğlu and the New Turkey. I.B.Tauris Co Ltd, London, 2003
- Sonyel Selahi. The Great War and the Tragedy of Anatolia. Turkish Historical Society Printing House, Ankara, 2000
- Spector I. The Soviet Union and the Moslem World. 1917-1958. Wash. 1958
- Swietochowski T. Russian Azerbaijan, 1905-1920: The Shaping of National Identity in Moslem Community. Cambridge, 1985
- Swietochowski T. Russia and Azerbaijan: A Borderland in Transition. New York, 1995
- Swietochowski T. and Collins B. Historical Dictionary of Azerbaijan. Lanham, 1999
- Takashi Kuroda. A Glance into the Relation between Iran and Soviet Union in the Last period of the Jangali Movement: Presentation of the related Russian Documents.// Cultures and Historiography in Central Rurasia: Nations, Ethnicities and Societies. Sendai, 2003
- The Caucasian Republics. By V.Dumbadze. Washington, 1925
- Transcaucasia: Nationalism and Social Change: Essays in the History of Armenia, Azerbaijan and Georgia. Ed. By R.Suny, Ann Arbor, 1983
- Ullman R. Anglo-Soviet Relations 1917-1921. London, 1968
- Zenkovsky S. Pan-Turkism and Islam in Russia. Cambridge, 1960.

İÇİNDƏKİLƏR

Giriş 5

I FƏSİL
Aprel işğalından sonra Azərbaycanın daxili və beynəlxalq vəziyyəti 22
§1. Aprel işğalından sonra Azərbaycanda siyasi vəziyyət və antisovet üsyanlar. ... 22
§2. Sovet Rusiyasının Cənubi Qafqazda regional siyasəti və Azərbaycan 43
§3. Aprel işğalından sonra Bakıda həbs edilmiş xarici diplomatlarla bağlı beynəlxalq qalmaqal 67

II FƏSİL
Sovet Rusiyasının Şərq siyasəti və Azərbaycan 77
§1. Bolşeviklərin Gilan epopeyası və Azərbaycan 77
§2. Sovet Rusiyasının İran siyasətində Azərbaycanın əməliyyat meydanına çevrilməsi 93
§3. İran inqilabına münasibətdə Bakı ilə Moskva arasında fikir ayrılıqları və Sovet İran müqaviləsinin imzalanması 106
§4. Bolşeviklərin İran təcrübəsinin iflası və Şərq siyasətinə münasibətdə Bakının ümidlərinin boşa çıxması 119

III FƏSİL
Azərbaycan diplomatiyası və Qarabağ: Kürəkçay müqaviləsindən bolşevik işğalına doğru 128
§1. Çar Rusiyasının Qarabağ xanlığını ilhaq etməsi 128
§2. Regionda demoqrafik dəyişikliklər və etnik ziddiyyətlərin kəskinləşməsi 139
§3. Azərbaycanın sovetləşməsi və Qarabağ məsələsinin diplomatik müzakirələrə daxil olması 154

IV FƏSİL
Sovet Azərbaycanının siyasətində Qarabağ düyünü: Qafqaz Bürosu və muxtariyyət ideyası 182
§1. Ermənistanın sovetləşdirilməsi: Mərkəzin Qarabağ və Zəngəzurla bağlı məxfi planları 182
§2. RK(b)P MK Qafqaz Bürosunun Qarabağın dağlıq hissəsini Ermənistana vermək cəhdləri və bunun qarşısının alınması 202
§3. Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması 217

V FƏSİL
Azərbaycanın işğalından sonra Cənubi Qafqazda rus-türk münasibətləri 233
§1. Azərbaycanın sovetləşməsi və regionda rus-türk münasibətləri 233
§2. Naxçıvan uğrunda hərbi-diplomatik mübarizənin başlanması 249
§3. Türkiyə-Ermənistan müharibəsinin başlaması və Azərbaycan 268
§4. Gümrü danışıqları və Türkiyənin Azərbaycana yolunun bağlanması 299

VI FƏSİL
Moskvada rus-türk konfransı və Azərbaycan diplomatiyası 320
§1. Azərbaycan diplomatiyası Moskva konfransına hazırlıq mərhələsində 320
§2. Moskva konfransının başlanması və rus-türk müzakirələrində Naxçıvan məsələsi 339
§3. Moskva müqaviləsinin imzalanması və Cənubi Qafqazda Azərbaycanın mövqeyinin güclənməsi 367

VII FƏSİL
Qars konfransı və Ankarada Azərbaycan səfirliyinin açılması 392
§1. Qars konfransına hazırlıq dövründə Azərbaycanın diplomatik fəallığının artması 392
§2. Qars müqaviləsi və Azərbaycanın himayəsində Naxçıvanın statusu 414
§3. Ankarada Azərbaycan səfirliyinin fəaliyyətə başlaması 444

VIII FƏSİL
Cənubi Qafqaz Federasiyasından SSRİ-yə doğru: Genuya Konfransı və Azərbaycan 470
§1. Cənubi Qafqaz İttifaqının yaradılması və Azərbaycan 470
§2. Genuya konfransına hazırlıq və Azərbaycan 488
§3. Genuya konfransı və Azərbaycan: neft uğrunda mübarizənin başlanması 504
§4. Haaqa konfransı və Bakı nefti uğrunda mübarizənin növbəti mərhələsi 537
§5. SSRİ-nin yaranması və xarici siyasət funksiyasının ittifaq dövlətinə verilməsi 543

IX FƏSİL
Azərbaycan mühacirətinin siyasi-diplomatik fəaliyyəti (1920-1939-cu illər) 555
§1. Aprel işğalından sonra Azərbaycan mühacirətinin respublikanın istiqlaliyyətini bərpa etmək uğrunda diplomatik mübarizəsi 555
§2. Azərbaycan mühacirətinin Türkiyədə təşkilatlanması. İstanbul mərkəzi ilə Paris mərkəzinin siyasi-diplomatik fəaliyyəti 592
§3. Qafqaz Konfederasiyası Paktı və II Dünya müharibəsi ərəfəsində Azərbaycan mühacirlərinin siyasi-diplomatik addımları 613

Nəticə 630

Bibliografiya 640

Cəmil Həsənli

SOVET DÖVRÜNDƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

(1920-1939)

Texniki redaktor: Aynur Əsgərli
Dizayner: Rafael Qasımov

Çapa imzalanmışdır: 23.06.2012
Kağız formatı: 60x90 1/16
Həcmi: 41 ç.v; Sifariş:74; Sayı: 2000

«ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Şərifzadə küçəsi, 202
Tel.: 433 00 43, (050) 593 27 77; (055) 870 55 09
Web: www.adiloglu.az;
E-mail: adiloglu2000@gmail.com